MEHMAN SÜLEYMANOV



# NADİR ŞAH

Elmi redaktor –Pərvin DARABADİ
Tarix elmləri doktoru, professor

Süleymanov Mehman. NADİR ŞAH.

Kitab Asiyanın sonuncu böyük fatehi sayılan Nadir şahın həyat və hərbi fəaliyyətnə həsr edilmişdir. Müəllif tərəfindən Nadir şahın uşaqlıq illəri, onun sərkərdə kimi formalaşdığı mürəkkəb hərbi-siyasi şərait, onu hakimiyyətə aparan döyüş yolu, böyük bir imperiyanın yaradılması üçün tarixə sığmayan fatehliyi və nəhayət faciəli həyatı geniş şəkildə araşdırılmışdır.

**ATAM SİRAC VƏ ƏMİM ƏLYƏDDİN SÜLEYMANOVLARIN ƏZİZ XATİRƏSİNƏ**

# GİRİŞ

Azərbaycanın da orta əsrlər tarixində özünəməxsus yeri olan Nadir şah Əfşarın həyatının və fəaliyyətinin araşdırılması uzun müddətdir ki, dünya tarixçilərinin diqqət mərkəzindədir. Bu da təsadüfi deyil. Çünki Nadir şah dünya hərb tarixinin yetişdirdiyi nadir istedadlı sərkərdələrdən və fatehlərdən biridir.Haqlı olaraq onu Asiyanın sonuncu böyük fatehi adlandırırlar.Hərbi texnikanın və silahların kifayət qədər inkişaf etmədiyi bir vaxtda şərqin fatehinə çevrilə bilməsi Nadir şaha olan diqqət və marağı xeyli aktuallaşdırmışdır.

Hər şeydən əvvəl Nadir şahın həyat yolu çox böyük maraq doğurmaqdadır. Məlumdur ki, Nadir şah Səfəvi dövlətinin ucqarlarında, öz yurdundan sürgün edilmiş bir əfşar türkünün ailəsində doğulmuşdu. Nadir şah saray zənginliklərindən xəbəri olmayan, gündəlik zəhməti ilə dolanışığını təmin edən sadə bir ailədə göz açsa da, malik olduğu fiziki keyfiyyətləri və döyüşgənlik istedadı ilə uzaq əyalət kəndindən böyük imperiyanın şahlığına qədər zəngin bir yol keçmişdi. Başqalarına qismət olmayan bu yolun necə qət edilməsi özlüyündə Nadir şahın şəxsiyyətinə olan marağı həmişə tədqiqatçıların diqqət mərkəzində saxlamışdır.

Nadir şah dünya tarixinə ilk növbədə fateh kimi daxil olmuşdur. O, şərqin tək-tək sərkərdələrinə qismət olan hərbi uğurlar əldə edə bilmişdi. Bu istiqamətdə Nadir şahın öz fəaliyyətini necə tənzimləməsi və onun səmərəliliyinə nail olması son dərəcə əhəmiyyətli bir məsələdir. Çünki ilk növbədə təşkilatçılıq işlərinin ən yüksək səviyyədə qurulması, ölkənin imkanlarının hərbi yürüşlərin aparılmasına səfərbər edilməsi zamanı ən əlverişli yolların tapılmasına nail olunması Nadir şahın hərbi uğurlarına yol aça bilərdi.Nadir şahın həyatının geniş öyrənilməsi onun bu sərkərdəlik keyfiyyətlərinin, başqalarından fərqli olan hərbi xüsusiyyətlərinin üzə çıxarılmasına kömək edə bilər.

Nadir şahın daim yeniləşən, dəyişən və bununla bərabər həmişə döyüşgənliyini saxlayan hərbi qüvvələr təşkil edə bilməsi üçün atdığı addımlar metodoloji baxımdan ondan sonrakı dövrlərdə də aktual olaraq qalmaqdadır. Bu məsələnin humanitar aspektlərinin araşdırılması, mənəvi-psixoloji məqamların qoşunların təchizatı məsələləri ilə bağlılığının üzə çıxarılması, hər bir döyüşçünün daxili potensialının bütünlüklə reallaşdırılması incəliklərinin tədqiqi bir tərəfdən Nadir şahın sərkərdəlik istedadının xarakterik cəhətlərini anlamağa, bir tərəfdən də Nadir şah mirasının bu günümüz üçün faydalılığını dəqiqləşdirməyə imkan verə bilər.

Nadir şahın bütünlükdə şəxsiyyəti həmişə maraq doğuran mövzulardan biri olmuşdur. Xüsusilə, onun sərkərdəlik fəaliyyəti ilə şahlığı necə uzlaşdırması, bu sahələrin hansında daha çox uğurlara nail olması, Nadir şahın ailəsinə olan münasibəti, onun cəmiyyətə, qadına, dinə olan münasibəti, bu insanın xarakterinin sərtliyi və s. məsələlər müxtəlif fikirlərin və münasibətlərin dövriyyəyə gəlməsinə səbəb olmuşdur. Nadir şah haqqında olan hər bir tədqiqat bu məsələlərin daha geniş aydınlaşdırılmasına və onun portretinin tamamlanmasına yeni cizgilər əlavə edə bilər.

Nadir şahın həyat yolunun öyrənilməsi Azərbaycanın və Azərbaycan xalqının tarixinin müvafiq mərhələsinin daha ətraflı öyrənilməsi baxımından da əhəmiyyətlidir. Çünki Nadir şahın dövründə Azərbaycan ərazisində son dərəcə ciddi və dinamik hadisələr baş verirdi. Hər dəfə tədqiqata yeni faktların cəlb edilməsi bu məsələni daha əhatəli təsəvvür etməyə kömək edir.

Nadir şah Azərbaycan türk soyu olan əfşar soyunun yetirməsi idi. Nadir şahın formalaşmasında türk məişətinin və ənənələrinin təsiri də az deyildi. Bu baxımdan Nadir şahın həyatının və mühitinin öyrənilməsi Azərbaycan etnoslarının tarixinin, onların Yaxın Şərqin tarixində oynadığı rolun öyrənilməsi baxımından da əhəmiyyətlidir.

Ümumiyyətlə, Nadir şah o şəxsiyyətlərdəndir ki, onun həyatının hər bir anının öyrənilməsi maraqla qarşılanır. Bu istiqamətdə artıq bir sıra işlər də görülmüşdür. Hələ XVIII əsrin ortalarından etibarən bir çox şərq və qərb mənbələrində Nadir şah haqqında qiymətli məlumatlar öz əksini tapmışdır. Həmin məlumatların əks olunduğu mənbələrin hər biri Nadir şah tarixinin öyrənilməsi üçün böyük əhəmiyyət kəsb edir. Xüsusilə, Mirzə Mehdi Astrabadinin "Tarix-e Cahanqoşa-ye Naderi" və Məhəmməd Kazım Mərvinin "Aləm Ara-ye Naderi" əsərləri Nadir şah tarixinin öyrənilməsi üçün fundamental mənbələrdir. Nadir şah haqqında yazılan mənbələrin və tarixi ədəbiyyatın tarix-

şünaslıq baxımından müfəssəl araşdırmasını aparmadan onların bir sıra xarakterik xüsusiyyətlərini qeyd etmək mümkündür.

Əvvəla, Nadir şahın dövrünə və ya onun ölümündən sonrakı ilk illərə aid olan mənbələrin Nadir şahın, onun yaxınlarının nəzarəti və Nadir şahın nüfuzunun təsiri altında yazıldığını nəzərə almaq lazımdır. Elə adları çəkilən mənbələr də sanballı mənbələr olmaqla yanaşı, onlarda daha çox Nadir şahın qəhrəmanlıq tarixinin qələmə alındığını görmək elə də çətin deyil. Ona görə də tarixi gerçəkliyin tam mənzərəsinin yaradılması baxımından müxtəlif mənbələrin qarşılıqlı tutuşdurulmasına və öyrənilməsinə ehtiyac vardır.

Nadir şah dövründən uzaqlaşdıqca meydana gələn mənbələrdə reallıqlarla uzlaşmayan faktların və hadisələrin təsviri ilə də rastlaşmaq mümkündür. Bu da yəqin ki, Nadir şahın şəxsiyyətinə olan maraqdan doğmuşdur. Çünki bu böyük sərkərdə və fatehin əməlləri dildən-dilə keçərək xalqlar arasında dolaşmış və sonradan xalqın təxəyyülü ilə zənginləşərək yazılı mənbələrdə də özünə yer tapmışdır. Ona görə də hətta mənbələrə istinadən söylənilən bir sıra faktlar əfsanəvi məzmun kəsb etmişdir.

Nadir şah haqqında mövcud olan tədqiqatlar arasında qərb və sovet müəlliflərinə aid olan araşdırmalar öz fundamentallığı, akademikliyi və əhatəliliyi etibarilə fərqlənirlər. Lakin bu araşdırmalar üçün də ümumi olan bir çatışmazlığı diqqətdən qaçırmaq olmaz. Bu da ondan ibarətdir ki, qərb və sovet müəlliflərinin hamısı üçün Nadir şah yad bir xalqın, yad bir ölkənin yad bir nümayəndəsidir. Bəzi əsərlərdə Nadir şahın dahiliyi etiraf edilsə belə, ona qarşı birtərəfli və qeyri-səmimi bir münasibət özünü göstərməkdədir. Həmin əsərlərdə Nadir şahın qazandığı cahanşümul qələbələrdən, onun dünya hərb tarixinə gətirdiyi yeniliklərdən fərqli olaraq rastlaşdığı və düçar olduğu çətinliklərin qabarıqlaşdırılmasına bir meyl vardır. Bu da sözsüz ki, onun şəxsiyyəti haqqında qeyri-kamil təsəvvürün formalaşmasına yol açır.

Azərbaycan tarixşünaslığında da Nadir şahın tarixinin öyrənilməsi baxımından müəyyən cəhdlər göstərilmişdir. O cümlədən də müasir dövrdə bu istiqamətdə bəzi araşdırmalar işıq üzü görmüşdür. Bunlar təqdirəlayiq hal olsa belə, sözsüz ki, Nadir şah tarixinin öyrənilməsi baxımından hələ kifayət deyildir. Təqdim olunan hazırkı əsəri bu istiqamətdə növbəti bir cəhd kimi qiymətləndirmək olar. Bu əsərin hazırlanmasında qərb, sovet və Azərbaycan mənbələri və tarixi ədəbiyyatı ilə yanaşı, fars dilli tarixi ədəbiyyatdan və ilkin mənbələrdən geniş istifadə edilmişdir.

Heç şübhəsiz ki, Nadir şahın həyatı, fəaliyyəti və xüsusilə dünya hərb tarixinə gətirdiyi yeni məzmun bir kitaba sığacaq mövzu deyildir və gələcəkdə də bu istiqamətdə aparılan araşdırmalar Nadir şah tarixşünaslığına yeni  töhfə olacaqdır.

# I FƏSİL
# NADİR ŞAHIN UŞAQLIQ VƏ GƏNCLİK HƏYATI

## 1. Nadirin doğulduğu mühit.

Asiyanın son sərkərdəsi kimi dünya tarixində özünə ad çıxarmış Nadir şahın doğum günü ilə bağlı tarixi ədəbiyyatda müxtəlif məlumatlarla rastlaşmaq mümkündür. Bu daha çox istər Nadir zamanında, istərsə də ondan sonra yazılmış mənbələrdə fikir yekdilliyinin olmaması ilə bağlıdır (1).Bəzi müəlliflər Nadirin doğum tarixini 1688-ci ilin oktyabrından (2), bəziləri həmin ilin oktyabr ayının 22-dən (3), bir başqaları isə 1688-ci ilin noyabr ayının 22-dən götürürlər (4). A.Bakıxanov isə Nadirin 1689-cu ildə doğulduğunu qeyd edir (5). Mənbələrdə Nadirin hicri qəməri tarixi ilə 1100-cü il məhərrəm ayının sonunda doğulması bildirilir.

Nadir Xorasan vilayətinin şimalında yerləşən Dərgəz məntəqəsinin Dəstgird kəndində dünyaya göz açmışdı. Atası İmamqulu ona öz atası Nadirqulunun adını qoymuşdu. Yəni, Nadir öz babasının adını daşıyırdı.

Nadirqulunun adının ikinci hissəsi olan "qulu" kəlməsi türk sözü olmaqla bir sıra sözlərin sonuna artırılaraq həmin adların dini məzmununu daha da gücləndirirdi. Nadirin atasının adı olan "İmamqulu" – İmamın qulu mənasını verirdi. Nadirin oğlunun adı olan "Rzaqulu" – İmam Rzanın qulu mənasını özündə əks etdirirdi. Nadirqulu isə çox güman ki, Allahın nadir qulu, nadir bəndəsi mənasında nəzərdə tutulurdu. Mövcud olan bəzi məlumatlardan isə belə məlum olur ki, bu ad Nadirə onun fiziki keyfiyyətlərinə görə verilmişdi. Deyilənə görə, Nadir anadan olanda kifayət qədər sağlam, çevik və daim hərəkətdə olan bir uşaq kimi dünyaya gəlmişdi. Ona görə də valideynləri onu nadir tapılan, bənzərsiz bir uşaq, yəni Nadirqulu adlandırmışdılar.

Nadirqulu Azərbaycan türklərinin Əfşar boyunun Qırxlı oymağından idi. Əfşar boyunun Azərbaycan türklərinə aidliyi bu günkü tarixi ədəbiyyatda şübhə doğurmasa da bu məsələ Nadir haqqında yazılmış mənbələrin və tarixi araşdırma müəlliflərinin diqqət mərkəzində dayanan aktual məsələlərdən biri olmuşdur. Bəzi müəlliflərin Əfşar boyunun Azərbaycan arealından qoparılaraq Xorasan vilayətinin şima-

lında peyda olması, Nadirin etnik mənsubiyyətini istədiyi kimi yozmağa çalışması, tarix mənbələrdə obyektiv faktlara istinad etməyən səthi bilgilərə əsaslanması  qeyri-elmi nəticələrin ortaya çıxmasına zəmin yaratmışdır.

Mövcud ədəbiyyatda əfşarların İranın qərbində məskunlaşmış türkariya irqinə mənsubluğu haqqında fikirlər vardır (6). Bu fikirlərin müəlliflərinin iddiasına görə əfşarlar əvvəlcə Azərbaycan ərazisində yaşamış, sonra isə bütün İrana yayılmışdılar. Həmin müəlliflərin yazılarında  Xəzər dənizinin qərbində, Qafqaz və Azərbaycanda, İranın indiki ərazisinin şimal-qərbində məskunlaşmış türklərin əcdadlarının hind-Avropa irqindən törəməsi haqqında fikirlərə də təsadüf etmək mümkündür (7).

Tarixi araşdırmalardan birində Əfşar boyunun Şahsevən boyundan törəməsi və Kerman vilayətində yerləşməsi qeyd olunur (8). Məlumdur ki,  Şahsevən boyu da türk boyudur və əfşarların bu boydan yaranması haqqında ciddi faktlar ortaya qoyulmur. Əfşarların Kerman ətrafında yaşamasına gəlincə isə tarixi ədəbiyyatda  bu faktın Səfəvi dövrü ilə bağlılığı və əfşarların Kerman ətrafına da Şah İsmayıl tərəfindən köçürülməsi təsdiqlənir (9). O da bildirilir ki, Kerman ətrafında hazırda da əfşarlar yaşamaqda davam edirlər. Ancaq onların çoxu fars əhalisi ilə assimliyasiya olunmuş və çox az bir hissəsi hazırda ana dilində danışa bilir.

Nadir şah haqqında iri həcmli tədqiqat əsərinin müəllifi olan Əbuturab Sərdadvər öz kitabında Əfşar boyunun ilkin olaraq Qafqazda və Azərbaycanda məskunlaşdıqlarını təsdiq edir və sonra da bu boyun sırf İran boyu olduğunu iddia edir (10). Müəllif əlavə edir ki, bu boyun yalnız dili Azərbaycan dilidir. Qalan bütün xüsusiyyətləri ilə isə bu boyun üzvləri  İranla bağlıdır.

Başqa bir İran tədqiqatçısı Əlirza Əfşar Cəm də Əfşar boyunu tamamilə İranla bağlamağa çalışaraq onun türklərə ümumiyyətlə heç bir aidliyi olmadığını irəli sürür. Onun iddiasına görə əfşarlar qədim İranın qədim tayfalarından olmaqla part irqinə mənsubdurlar. Müəllif əlavə edir ki, yalnız monqol hücumları başlayarkən onlar Türküstandan hərəkət edib Qərbi Azərbaycana köç etmişlər (11).

Maraqlıdır ki, adı çəkilən müəllif  əsərini Nadir şahın dilindən söyləmişdir. Bununla da o, Nadir şahı bir növ öz dilindən türk boyuna mənsub olmadığını etiraf etməyə məcbur etmişdir. Guya ki, Nadir şahın münşisinin ( Nadir şahın salnaməçisi Mirzə Mehdi xan Astrabadi nəzərdə tutulur – M.S.) apardığı tədqiqatlara əsasən, müəyyən edilmişdir ki, əfşarların əcdadlarının dili fars  dili olmuşdur. Onun

fikrincə, sonralar əfşarlar müxtəlif məntəqələrə mühacirət etməli olduqlarından yerli əhalinin dili onların dili ilə qarışmış və buna görə də onlar yeni dilləri – fars, Azərbaycan, kürd, Xorasan və başqa dilləri mənimsəmək zəruriyyətində qalmışdılar. Bu fikirlərinin nəticəsi kimi müəllif sonda bir daha xatırladır ki, əfşarların ana dili dəri dillərinə mənsub olan fars-pəhləvi dilidir (12).

Qeyd etmək lazımdır ki, Nadir şah haqqında tədqiqatlar aparmış iranlı və xarici müəlliflərin əsərlərində bu fikir öz təsdiqini tapmamışdır. Bununla belə, Əlirza Əfşar Azərbaycanda, Xorasanda, Şirazda və başqa yerlərdə yaşayan əfşarların eyni qandan olduğunu, eyni kökdən inkişaf etdiyini, bu boya mənsub olan insanların cəsurluğunu, igidliyini, qorxmazlığını vurğulayır, Xorasanın bir çox sərkərdələrinin, adlı-sanlı adamlarının bu boydan çıxdığını, əfşarların təcavüzkarlara qarşı amansız olduğunu, öz döyüşgənliyi ilə monqolları da diz çökdürdüyünü qeyd edir. Müəllif əfşarlara aid olan xarakterik bir xüsusiyyəti də oxucuların diqqətinə çatdırır. Bu da əfşarların tez qızışması, hirslənməsi və sonradan da çox tez peşimançılıq çəkməsi ilə bağlıdır. Onun sözlərinə görə, bu cəhət əfşarların zəif nöqtələrindən biridir.

Tədqiqatçılardan əfşar boyunun hələ qədim vaxtlardan Xorasan vilayəti ilə bağlılığını irəli sürənlər vardır (13). Amma bu tədqiqatçılar əfşarların əcdadlarının fars dilli olmasını iddia etmirlər. Həmin tədqiqatçılar əfşar boyunu Xorasanın şimalında yerləşmiş böyük İran boyu adlandırmaqla bu boya mənsub olanların mübarizliyini, döyüşgənliyini vəsf edir və onların monqol hücumlarının başlaması ilə öz yurdlarından köç etməsini və Azərbaycanda yerləşmələrini qeyd edirlər.

Tarixi ədəbiyyatda əfşar boyunun türkmən tayfalarından olmasını iddia edənlər də vardır. Heç şübhəsiz ki, bu fikir Nadir şahın şəxsi salnaməçisi olan Mirzə Mehdi xan Astrabadinin "Tarix-e Cahanqoşa-ye Naderi" əsərində əfşarları türkmən tayfaları ilə bağlaması fikrindən irəli gəlir. Mirzə Mehdi Astrabadi yazır ki, əfşar boyu türkmən tayfalarındandır. Bu boyun qədim məskəni Türküstan olmuşdur. Monqollar Türküstanı işğal edəndə əfşarlar da oradan köç edib Azərbaycanı özlərinə məskən seçmişdilər (14).

Nadir şahın şəxsi salnaməçisi olmuş, onun haqqında mötəbər və mükəmməl əsər yazmış M.M.Astrabadinin bu qeydləri onun əsərinə müraciət etmiş müəlliflərin çoxu tərəfindən etibarlı fikir kimi qəbul edilmişdir. Ona görə müəlliflərin çoxu Nadir şahın mənsub olduğu boyun türkmən tayfalarından olması fikrini təkrar etmişlər. A.Bakıxanov da əfşarların türkmən boyu olmasının və onların monqol hücum-

larının başlamasından sonra Türküstandan Azərbaycana üz tutmalarını qeyd etmişdir (15).

L.Lokkart da bu fikri təsdiq edir. Onun yazdıqlarına görə, əfşarlar Mərkəzi Asiyadan monqol hücumları nəticəsində sıxışdırılaraq Azərbaycana köçmüş və sonra da buradan İranın bütün ərazisinə səpələnmişdir. Lokkartın istinad etdiyi fikrə görə, fşarların Mərkəzi Asiyadan Azərbaycana doğru hərəkət etməsi XIII əsrdə baş vermişdir (16).

Bu mövqe qəbul edilərsə, onda irəli sürülən fikir türk boylarının, o cümlədən də əfşarların şimal-qərbi Asiyada daha qədim tarixə malik olması fikri ilə üst-üstə düşmür.

Həmin fikirlər mövcud olan tarixi ədəbiyyatda bu və ya digər formada təkrar olunur. Həmin fikirlərin məzmunu bundan ibarətdir ki, əfşar boyu türkmən boyudur, bu boy XII-XIII əsrlərdə Mərkəzi Asiyadan hərəkət edərək Azərbaycanda və Şərqi Anadoluda məskunlaşıb və XVI əsrdən etibarən İranın müxtəlif ərazilərinə səpələnib və ya köçürülüblər (17).

Amma bununla yanaşı bir sıra müəlliflər əfşar boyunun sırf türk boyu olması, bu boyun türk-Azərbaycan dilində danışması, Səfəvi dövlətini təşkil edən türk tayfalarından biri olması və daha qədim dövrlərdən məhz Azərbaycan arealında formalaşması fikrini qəbul edirlər (18).

Səid Nəfisi apardığı tədqiqatlarda əfşar boyunun türkmən tayfaları ilə əlaqələndirilməsini və onların Türküstanda yaşaması fikrini qəbul etmir. O bütünlükdə bəzi türk tayfalarının türk-monqol əsilli olması, onların həm türklərlə, həm də monqollarla əlaqələndirilməsi barəsində deyilənlərlə barışmır. Bir sıra tədqiqatçılar kimi o da türklərin monqollarla əlaqələndirilməməsinə tərəfdar çıxır. Səid Nəfisi türk tayfalarının İrana gəlməsinin monqol tayfalarının hücumlarının başlaması vaxtına təsadüf etməsini də qəbul etmir və bildirir ki, türk tayfaları indiki İran ərazisində monqollardan 9 yüz il əvvəl meydana çıxmışlar. Müəllif bildirir ki, miladi tarixi ilə V əsrin əvvəlində indiki İran ərazisi iki istiqamətdən iki irqin axını ilə qarşılaşdı. Bu axın həm şimali-şərqdən, həm də şimali-qərbdən baş verdi. Şimal-qərbdən gələn tayfaları iranlılar xəzərlər adlandırırdılar və onlar da türk tayfaları idilər. S.Nəfisinin fikrincə, o zamanlar türklər Xəzərin üç tərəfində yaşayırdılar və müxtəlif tayfalara bölünmüşdülər: xərləx, qəz, xərxiz (qırğız), başqırd, qazax, qaraqalpaq, səlcuq, türkmən, kalmık və s. türk tayfaları şimal-şərqdə, qarapapaq, qoymaq, becənək, salur, bayandur, əfşar, beqdeli, bayat, xəzər və s. tayfalar isə şimal-qərbdə yaşayırdılar (20).

S.Nəfisi onu da yazır ki, Çingiz xanın əfsanəvi döyüş şücaətlərindən sonra çoxları, o cümlədən də türk tayfaları soyköklərini monqollarla bağlamağa çalışırdılar. Hətta Teymurləng də özbək türkü olmasına baxmayaraq daha çox nüfuz qazanmaq üçün nəslini monqollarla bağlamaq istəyirdi. Müəllifin qənaəti belədir ki, miladın 5-ci əsrindən əfşarlar Cənubi Qafqazda məskunlaşmışdılar. VIII əsrdə isə onlar Cənubi Qafqazdan mühacirət edərək Şama tərəf yollanmışdılar. Onların bu miqrasiyasının monqolların hücumu ilə heç bir əlaqəsi yoxdur. Əfşarlar qərb türkləri üçün xas olan türk dilində danışırdılar və onların dili şərq türklərinin dilindən xeyli fərqlənirdi. S.Nəfisi qeyd edir ki, türk tayfalarından özbəklər və türkmənlər türklərlə monqolların arasında yerləşirlər və ola bilsin ki, bu iki tayfanın qarışığı kimi formalaşmışlar. Amma digər türk tayfalarının monqollarla heç bir əlaqəsi yoxdur. Türk tayfalarının dilinə gəlincə isə o əlavə edir ki, şərq türkləri olan özbəklər və türklər bir-birinə yaxındırlar. Bu yaxınlıq iki böyük dəstəyə bölünmüş qərb türkləri arasında da mövcuddur. Həmin dəstələrdən biri Qafqaz və İran türkləridir. Ikincisi isə osmanlı türkləridir. Yəni, Azərbaycan türkcəsi ilə osmanlı türkcəsi arasında belə bir yaxınlıq mövcuddur. Bununla, müəllif bir daha belə bir qənaətə gəlir ki, əfşarlar qərb türklərindəndir və onlar özbək və türkmənlərdən fərqlənirlər. Tədqiqatçı Nadir şahın mənsub olduğu oymağın "Qırxlı" adındakı "lı" şəkilçisini də qərb türklərinə aid olan şəkilçi kimi xarakterizə edir. O qeyd edir ki, şərq türklərində belə bir şəkilçi yayılmayıbdır. Amma qərb türklərinə aid olan türklərin soyadlarının sonunda "lı" şəkilçisi ilə rastlaşmaq mümkündür (21).

Kəsrəvi də əfşarları qədim türk boylarından sayır. Onun fikrincə, əfşarlar səlcuqlar dövründə İrana gəlmiş və lazımi şəkildə məskunlaşmış və ölkə həyatında öz mövqelərini tutmuşdular. Müəllifin qeyd etdiyi fakta əsasən, VI əsrin əvvəlində (hicri) əfşarlar artıq Xuzistana da yayılmışdı və Şəmlə adlı əfşar səlcuqlar dövründə 20 il Xuzistanda hakimlik etmişdi. Kəsrəvi əfşarların mübarizliyinə işarə edərək bildirir ki, onlar məskunlaşdıqları məntəqənin hakiminə çevrilirdilər. Onların məhz bu cəhətləri səfəvilərin diqqətini cəlb etmiş və Səfəvi dövlətini quran türk tayfalarından birinə çevrilmişdilər (22).

Fəzlullah Rəşidəddin isə yazırdı ki, əfşarlar çöllərə səpələnmiş türk tayfalarından biridir. Onun dediyinə görə, boyun yaradıcısı olan Əfşar bir türk başçısı və sərkərdəsi idi. O, əfsanəvi babası olan Oğuzun ordusunun sol cinahında vuruşurdu və qəhrəmanlığı ilə türklər arasında ad çıxarmışdı (23).

Əfşarlar boyunun ulu əcdadı olan Əfşar haqqında tarixi ədəbiyyatda maraqlı fikirlər mövcuddur. Bəzi tədqiqatçılar əfşarların ulu əcdadlarının tarixinin xeyli qədim olduğunu qeyd edir və onların Nuh peyğəmbərin, hətta İshaq əleyhüssəlamın nəsli ilə bağlı olduğunu söyləyirlər. Bir fikrə görə, türklər öz başlanğıcını İshaq əleyhüssəlamın oğlu Eysin üçüncü oğlu Bəqali xandan götürürlər. Başqa bir fikir isə əfşarların və o cümlədən də türklərin başlanğıcı Nuh peyğəmbərin övladlarından götürülməlidir. Guya Nuhun tufanından sonra onun üç oğlunun hər biri müxtəlif istiqamətə yollanaraq oranın abadlaşdırılması ilə məşğul olmuşdur. Nuh peyğəmbərin birinci oğlu olan Sam bu günkü İran ərazisində və onun ətrafında, ikinci oğlu Ham Hindistan ərazisində və nəhayət, üçüncü oğluYafət isə Türküstan istiqamətində abadlaşma işlərini boyunlarına götürmüşdülər. Onun oğlu Türk adlandırılmış və Oğuz xan da Türkün nəslindəndir. Oğuz xanın Türkün 6-cı oğlu olması güman edilir. Əfşar isə Oğuz xanın Yulduz xandan olan nəvəsi sayılır (24).

Deyilənə görə, Əfşarın nəsli artıb böyümüş, geniş əraziləri bürümüş və bu nəsil özü də sonradan qollara, oymaqlara bölünmüşdü. Hazırda bu boyun – Qırxlı, Papalı, Cəlayir, Kosa Əhmədli, Gündüzlü, İnanlı, Ərəşli, Əmirli, Çapışlı, Babaxanlı, Qarabaşlı, Baçavənli, Vətənli, Zənqanlı və s. oymaqları və qolları məlumdur. Boyun adı isə müxtəlif vaxtlarda müxtəlif cür səslənmişdir. Mövcud olan məlumatlara görə, "əfşar" sözü əslində "uçar" sözündəndir və sürətlə uçan mənasını verir. Sonradan bu söz "ovşar", "oşər" və "üçpər" kimi də səslənmişdir. Nadir şahın anadan olduğu vaxt əfşar türk boyunun qolları və oymaqları Azərbaycan, Xorasan, Fars, Xuzistan və s. ərazilərdə məskunlaşmışdı. Həmin vaxtlarda əfşarlar yayıldığı ərazilərdə müxtəlif etniklərin təsirlərinə məruz qalmasına baxmayaraq, Azərbaycan türkcəsində danışmaqla yanaşı milli-etnik xüsusiyyətlərini də qoruyub saxlaya bilmişdilər. Bunu tədqiqatçılar da təsdiq edirlər. Ə.Sərdadvərin qənaətinə görə, əfşarlar İran tarixinə və mədəniyyətinə maraq göstərsələr də, xüsusi milli etnik ənənələrin və yaşayış tərzinin möhkəmliyi onların özünəməxsusluğunu qorumağa imkan vermişdi (25).

Yuxarıda qeyd edildiyi kimi, əfşarlar döyüşgənliyi və mübarizliyi ilə seçilirdilər və onların bu keyfiyyətləri ətrafdakıların da nəzərindən qaçmırdı. Məhz bu keyfiyyətlərinin nəzərə alındığı üçün idi ki, Səfəvi xanədanı əfşarları da öz ətrafına cəlb edə bilmişdi. Səfəvilər Ərdəbildə mübarizəyə başlayanda əfşarlar da onlara qoşulmuş və bu dövlətin əsasını təşkil edən yeddi türk boyundan birinə çevrilmişdilər. Həmin

boylara əfşarlardan başqa Şamlı, Qacar, Baharlı, Zülqədər, Təkəli və Ustaclı boyları da daxil idi. Səfəvilər sülaləsinin əsasını qoyan Şah İsmayıl dövlətin sərhədlərinin qorunmasında, dövlətə qarşı istiqamətlənmiş xarici təcavüzün qarşısının alınmasında əfşar boyunun imkanlarından daha səmərəli faydalanmağa çalışırdı. Əfşar döyüş-çüləri Şah İsmayılın ordusunun tərkibində aparılan müharibələrdə fəallıqla iştirak edirdilər və onların arasından çoxlu sayda sərkərdələr də yetişmişdi. Əfşar qoşunları adətən ən təhlükəli mövqelərə göndə-rilirdi ki, orada düşmənlərə layiqincə müqavimət göstərilsin. Şah İsmayıl dövründə slavyanların cənuba doğru irəliləmələri qərb türklə-rinin sıxışdırılması ilə müşayiət olunurdu. Bu isə şərq-qərb yollarına müəyyən təhlükə yaradırdı. Şah İsmayıl bu təhlükənin aradan qaldırıl-ması üçün şərq-qərb yolu boyunca əfşarları məskunlaşdırmağı qərara aldı. Ancaq erkən dünyadan köçməsi ona bu planı reallaşdırmağa imkan vermədi (26).

Müəlliflərin və tədqiqatçıların bir hissəsi əfşarların öz doğma vətənlərindən Xorasana köçürülməsini də Şah İsmayılın adı ilə bağla-yırlar. Səfəvilər hakimiyyəti illərində ölkənin şimal-şərq sərhədləri özbəklərin və Türküstan dəstələrinin aramsız hücumlarına məruz qalırdı. Bu da yerli əhalinin talanması, qırılması və yaşayış məntəqə-lərinin viran edilməsi ilə müşayiət olunurdu. Həmin dağıdıcı hücum-ların qarşısının alınması üçün Səfəvi hökmdarları əfşar sərkərdələrinin rəhbərliyi altında Xorasan vilayətinə qoşun dəstələri göndərdilər. Xorasana ilk göndərilən dəstələr arasında Əhməd Soltan Əfşarın və Şahrux bəy Əfşarın rəhbərliyi altında olan dəstələrin göstərdiyi şücaət tarixi ədəbiyyatda da özünə yer tapmışdır. Əfşarları sərhəd xətti bo-yunca yerləşdirməklə Şah İsmayıl sərhəd xətti boyunca canlı müqa-vimət divarı yaratmağı qərara aldı. Amma Şah İsmayıl bu planını da bütünlüklə həyata keçirməyə imkan tapmadı.

Nadir şahın salnaməçisi M.M.Astrabadi də əfşarların Xorasan vilayətinə köçürülməsinin Şah İsmayılın vaxtında başladığını xəbər verir (27).

Əfşar tayfalarının bu bölgə ilə bağlılığının hələ Şah İsmayıldan əvvəl də olması haqqında məlumatlar mövcuddur. Nadir şah haqqında böyük tədqiqatın müəllifi olan xorasanlı Məhəmməd Hüseyn Qodusi yazır ki, hələ səlcuqlar dövründə əfşarlar öz igidlikləri ilə ətrafa səs salmışdılar. Onların bu keyfiyyəti hətta özbəklərin, türkmənlərin və tatarların canında bir vahimə yaratmışdı. Onlar öz uşaqlarını çox zaman "əfşar gəldi" deyə qorxutmağa çalışırmışlar. Monqol yürüşləri dövründə Çingiz xanın böyük oğlu Xarəzmin və Ətəkin hakimi təyin

edilmişdi. Onun hakimiyyəti Xorasanda da dağıntılara və talanlara yol açmışdı. Müəllifin yazdıqlarına görə, məhz əfşarların igidliyi nəticəsində monqolları Xorasandan qərbə doğru sıxışdırmaq və orada yerli hökumət qurmaq mümkün olmuşdu (28).

Özbək və türkmən dəstələrinin Xorasanın şimalına hücumlarının qarşısının etibarlı şəkildə alınması məsələsi Səfəvilər dövründə uzun müddət aktual olaraq qalmışdı. Şah İsmayıldan sonra taxta çıxan Şah Təhmasib də bu məsələnin həlli üzərində düşünməli olmuşdu. Ancaq şahlığı dövründə o bu məsələnin həllinə nail ola bilmədi. Şah Təhmasibdən sonra II Şah İsmayıl və Şah Sultan Məhəmməd Xudabəndə də dövlətin şimal-şərq sərhədinin özbək və türkmən yürüşlərindən qorunması zərurəti ilə üzbəüz qalmışdı. Bununla belə, onların hakimiyyəti dövründə də şimal-şərq sərhədlərinin qorunması məsələsi öz həllini tapmadı. Nəhayət, Şah Abbas dövründə şimal-şərq sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində daha səmərəli addımlar atıldı.

Məlumdur ki, hakimiyyətə gələndən sonra Şah Abbas fars elementlərinin mövqeyini daha da gücləndirdi. Bununla belə, Şah Abbas əfşarların döyüşgənliyini və mübarizliyini layiqincə qiymətləndirdi və onların bu bacarığından bəhrələnməyə çalışdı. Dövlətin şimal-şərq sərhədlərinin möhkəmləndirilməsi işində də Şah Abbas daha çox əfşarlara bel bağlamağı üstün saydı. Onun hakimiyyəti dövründə özbək Abdulla xanın və Əbdül Mömün xanın Məşhədə və Nişapura viran edici yürüşlərinin qarşısının alınması üçün Şah Abbas tərəfindən həmin bölgəyə Mustafa xan Kəngərlinin rəhbərliyi altında əfşar və kürd tayfaları göndərildi. Nəticədə, özbəklər əzilərək bölgədən qovuldular. Bundan sonra Şah Abbas sərhəddə yerləşən Qoçan, Bocnurd, Dərgəz, Kelat və Sərəxsin qorunmasını əfşarlara həvalə etdi. Bununla əlaqədar Şah Abbas Səfəvi dövlətinin şimal-qərb rayonlarından 15 min əfşarı Xorasan vilayətinə köçürdü və orada yerləşdirdi (29).

Kelat-Dərgəz bölgəsinə köçürülən əfşarlar burada yeni bir mühit formalaşdırmağa başladılar. Əfşarlar bu bölgədə məskunlaşdılar, öz həyatlarını qurdular və eyni zamanda sərhəd xəttində canlı sipər rolunu öz üzərinə götürdülər. Şah Abbas köçürməsindən sonra əfşarlar bölgənin idarəçiliyini öz üzərinə götürməklə bir başa mərkəzi hakimiyyətə tabe idilər. Ancaq vaxt ötdükcə, mərkəzi hakimiyyət zəiflədikcə və mərkəzi hakimiyyətdə təmsil olunanlar əfşarlardan daha çox ehtiyatlandıqları üçün Xorasan əfşarlarının idarəçiliyi də Məşhəd bəylərbəyliyinin tabeliyinə verildi. Heç şübhəsiz ki, mərkəzi hakimiyyətin möhkəm olduğu vaxtlarda əfşarlara daha ciddi himayənin göstə-

rilməsi, eləcə də mərkəzi hakimiyyətin zəifləməsi bölgədə formalaşan mühitə də öz təsirini göstərirdi. Canlı sərhəd mühafizəsi rolunu oynamaqla əfşarlar kifayət qədər mürəkkəb olan bölgədə yerləşmişdilər. Mütəmadi olaraq davam edən özbək və türkmən yürüşlərinin qarşısının alınması və bununla da bölgədə daha dinc və qurucu mühitin yaradılmasını şərtləndirə bilərdi. Ancaq mərkəzi hakimiyyətdən dəstək duyulmadığı dövrlərdə buna nail olmaq elə də asan olmurdu.

Nadir şahın doğulub böyüdüyü Əbivərd-Dərgəz bölgəsinin əfşarları da ora Şah Abbasın vaxtında köçürülmüşdü. Şah Abbasın ölümündən sonra hərc-mərcliyin genişlənməsi Xorasan vilayətində özünü göstərdi. Dərgəz ətrafında məskunlaşmış olan türk tayfaları mövcud vəziyyətə münasibətdə iki dəstəyə bölündülər. Birinci dəstəyə Əhmədli, Papalı, Əmirli və digər Qacar oymaqları daxil idilər. Onlar bildirirdilər ki, bir halda ki, mərkəzi hakimiyyət zəifləyib və bölgənin mühafizəsinə səmərəli kömək göstərə bilmir, onda Xivə xanlığı ilə daha yaxın əlaqələr qurmaq lazımdır. İkinci dəstədə isə əfşar oymaqları birləşirdilər. Onlar heç bir halda özbək və türkmənlərlə yaxınlaşmağı qəbul etmirdilər və Qacar oymaqlarının mövqeyinə müxalifətdə dayanırdılar. Bu mövqe müxtəlifliyi həmin iki dəstə arasında münasibətlərin mürəkkəbləşməsinə, bəzi hallarda isə daha da kəskinləşməsinə gətirib çıxardı. Ziddiyyətlərin davam etməsi əfşarların iqtisadi durumunun aşağı düşməsinə də təsir edirdi. Əsas məşğuliyyət sahələrindən olan qoyunçuluq böhran vəziyyətinə düşdü. Azuqə ehtiyacı əfşarları məcbur etdi ki, kənd təsərrüfatına da müraciət edilsin. Eyni zamanda həmin vaxtlarda toxuculuq və tikmə işləri genişləndi. Xüsusilə, dəridən geyim əşyalarının tikilməsi işi rövnəq tapdı. Əhali toxuduğu əşyaları Məşhəd və Nişapur bazarlarına çıxarır və ailəsi üçün çörək pulu qazanırdılar (30). Bu, Nadirqulunun doğulduğu məntəqənin iqtisadi mühitini formalaşdıran xarakterik cəhətlər idi.

Mərkəzi hakimiyyətin zəifləməsi, daim xarici yürüş təhlükəsinin mövcudluğu, iqtisadi pərakəndəlik, türk etnosunun çoxluğu və eyni zamanda fars və kürd etnosunun varlığı, özbək, türkmən və əfqan etnosunun yaxınlığı və onlarla müxtəlif səviyyəli əlaqələr Nadirin doğulduğu mühitin ab-havasına özünəməxsus məzmun verirdi. Məşhəd kimi bir dini mərkəzin yaxınlığı da heç şübhəsiz bölgənin dini-mənəvi atmosferasının məzmununda öz əksini tapırdı.

Nadirqulu türk məişəti mühitində formalaşırdı. Azərbaycan türkcəsi onun ana dili idi. Nadir şah bu dildə təmiz danışırdı, hətta sonralar hərbi yürüşləri zamanı sərkərdələri ilə Azərbaycan türkcəsində ünsiyyətdə olması, Nadir şaha Azərbaycan türkcəsində nəzm əsərlərinin

həsr edilməsi haqqında mənbələrdə çoxlu sayda faktlar vardır. Nadir şah hakimiyyətə gələndən sonra bölgədəki türk mühitinin möhkəmləndirilməsi üçün tədbirlər görüldü və göstəriş verildi ki, iki min əfşar Urmiyədən Əbivərdə köçürülsün (31).

Nadir şah haqqında mötəbər mənbələrdən biri olan Məhəmməd Kazım Mərvinin "Aləm-Ara-ye Naderi" əsərində isə daha böyük rəqəmlər göstərilmişdir. Mənbədə təsbit olunmuş məlumata görə, Nadir şahın əmri ilə Urmiyədən 4500 əfşar ailəsi Xorasan vilayətinə köçürülərək Əbivərd və Dərgəzdə yerləşdirildi. Nadir şah eyni zamanda bölgədəki kürdlərin və qacarların da sayını artırdı. Qarabağ və Gəncədə yaşayan qacarların bir hissəsini də Astrabada köçürdü və bununla da dövlətin şimal-şərqində türk tayfalarının təsir əhatəsi xeyli genişləndi (32).

Nadir şahın əcdadlarını təşkil edən və Qərbi Azərbaycandan köçürülən əfşarların məskunlaşdığı Dərgəz və onun ətrafı kifayət qədər əlverişli bir ərazidə qərarlaşmışdı. Dərgəz ətrafında geniş və məhsuldar sahələr var idi. Bu bölgə şimaldan Türkmənistanla, cənubdan Məşhəd və Qoçan şəhərləri ilə, şərqdən Sərəxs, qərbdən də yenə Türküstan və Bocnurd şəhəri ilə əhatə olunurdu. Dərgəzin ətrafında yerləşən Kelat, Lütfabad, Çapuşlu, Bocnurd və digər məntəqələrdə də çoxlu əfşar və digər türk tayfalar məskunlaşmışdılar. Dərgəzin ətrafındakı Dərgəz çölü məhsuldarlığı ilə seçilirdi və burada böyürtkən, zereşk və qarağat kolları yayılmışdı. Dərgəz həm də bu kolların məhsulları ilə məşhur idi. Qoçan dağlarının şimalından qaynaq alan Dəüngər çayı Dərgəzdən və onun yaxınlığındakı məntəqələrdən keçirdi. Bölgədə bir sıra digər çaylar da vardır və onlar hamısı birlikdə bölgənin iqliminin və yaşayış mühitinin əsas elementləri idi (33).

Nadir şahın mənsub olduğu Qırxlı oymağı qış aylarında Dərgəzdə, Allahü-Əkbər dağlarının şimalında, yayda isə Kəbkan məntəqəsi ətrafında həyat sürürdü.Bu bölgədə əfşarların məskunlaşdığı məntəqələrdən biri də Kelatdır. Həmin məntəqə təbii-coğrafi şəraiti, əlverişli müdafiə imkanları ilə Nadir şahın da diqqətini cəlb edirdi. Məntəqə yumurta formasında olub hər tərəfdən sərt dağlarla əhatə olunmuşdu. Bu dağ sıraları hündür və sərt mühafizə divarlarını xatır-ladırdı və ona görə də az saylı qoşun dəstələri ilə bu məntəqəni etibar-lı şəkildə və uzun müddət qorumaq mümkün idi. Sonralar Nadir bu məntəqəni möhkəmləndirərək öz xəzinəsini də orada yerləşdirməyi planlaşdırmışdı. Nadir bu məntəqənin abadlaşdırılması ilə də məşğul olurdu və ona görə də hazırda bu məntəqə daha çox "Kelati Nadiri" adı ilə məşhurdur. Məntəqənin şimalında Ətək səhrası, şərqində

Sərəxs, cənubunda Məşhəd və qərbində isə Dərgəz yerləşir. “Kelat” sözü özü də türk sözüdür və sığınacaq, anbar, yurd mənasını verir. Kelat məntəqəsi Hezar Məscid dağı ilə əhatə olunmuşdur. Bu dağ çılpaq dağdır. Məntəqəyə dağ sıralarının arasından iki giriş yolu vardır. Həmin yollar da o qədər dardır ki, orada dayanan az saylı mühafizəçilər böyük saylı qoşunların qarşısını kəsə bilərdi. Hər şeydən əvvəl yerli imkanlar ərzaq qıtlığını da aradan qaldırmağa zəmin yaradırdı. Bir sözlə Kelat, Nadirin uşaqlığının və gəncliyinin keçdiyi məntəqələrdən biri idi və bu məntəqənin təbii-müdafiə imkanlarını da həmişə müşahidə edirdi.

Qeyd etmək lazımdır ki, İranın hazırkı şimal-şərq sərhədi XIX əsrin sonlarına yaxın formalaşmağa başlamışdı. 1879-cu ildə Axalda Rusiya ilə İran arasında imzalanmış sülh müqaviləsi ilə indiki sərhəd xətti müəyyən edilmişdir. Ancaq çar hərbçiləri Nadir şahın uşaqlığının və gəncliyinin keçdiyi Kelatın təbii-coğrafi şəraitinin əlverişliliyini görərək oranı da Rusiya sərhədləri daxilinə qatmağa cəhd göstərmişdilər. Bunun əvəzində çar Rusiyası indiki Azərbaycan Respublikasının Muğan çöllərinin böyük bir hissəsinin İrana verilməsini təklif etmişdi. Bu məsələ hətta İngiltərə parlamentində də müzakirəyə səbəb olmuş və İngiltərə Kelatın çar Rusiyası tərkibinə verilməsinə qarşı çıxmışdı (34).

Əfşarların məskunlaşdığı ərazidə becərilən üzüm və yemiş ətrafda ad çıxarmışdı. Deyilənə görə, Nadir şah bütün ömrü boyu yaxşı atın və yaxşı yemişin vurğunu olmuşdu. Ola bilsin ki, onda yemişə olan həvəs də məhz əfşarların məskunlaşdığı ərazilərdə yetişdirilən yemişlərin dadı ilə bağlı olmuşdu.

Söylənilənlər Nadirqulu üçün yerli mühitin formalaşmasının əsas elementləri idi. Eyni zamanda Nadir zəmanəsinin övladı kimi İran mühitinin çərçivəsində boy atırdı. Dövrün ictimai-siyasi ab-havası, kəskinlikləri və ziddiyyətləri , bütün cəmiyyətin yaşamalı olduqları da Nadirin formalaşmasına, həyatda öz mövqeyini necə tapmasına təsir göstərirdi.

## 2. Nadir şahın uşaqlıq və gənclik illəri

Nadirin valideynləri çox sadə həyat sürür və gündəlik işləri ilə öz ailəsini dolandırırdılar. Onlar mənsub olduqları boyun digər üzv-

lərindən hər hansı bir xüsusi keyfiyyəti ilə fərqlənmirdilər. Nadirin dünyaya gəlişi də əslində, bir ailənin sevincindən başqa bir şey deyildi. Sadə bir ailədə doğulmuş adi bir uşağın gələcəkdə böyük bir dövlətin hökmdarı olacağını kimsə güman etmirdi. Ona görə Nadir şahın uşaqlığı tarixçilərin də diqqətini sözsüz ki, cəlb etmirdi. Bunun nəticəsidir ki, tarixi mənbələrdə Nadir şahın uşaqlığı haqqında çox az məlumatlara rast gəlmək olar. Sözsüz ki, bu məlumatlar da sonralar ya elə Nadir şahın özünün danışıqlarından, ya da onu tanıyanların xatirələrindən toplanmışdı. Nadir şahın uşaqlıq və gənclik illəri ilə bağlı toplanıb mənbələrə salınmış faktların və hadisələrin bir çoxu rəvayət xarakteri daşıyır. Mövcud olan mənbələrin tutuşdurulması və ya bir çox söylənilənlərə adi məntiqi yanaşma da bunu sübut edir. Belə rəvayətlərə istər şərq, istərsə də qərb mənbələrində rast gəlmək mümkündür. Ancaq burada bir məqama diqqət yetirilməlidir ki, şərq mənbələrində rəvayət xarakterli məlumatlarda Nadir şaha qarşı rəğbət və daha isti münasibət, qərb mənbələrində isə bunun əksi hiss olunur.

Heç şübhəsiz ki, belə məlumatlara istinad edilməsi Nadir şahın uşaqlıq və gənclik illərinin, onun bir cəngavər kimi ən mühüm dövrünün real mənzərəsini yaratmağa tam imkan vermir. Bununla belə, yeri gəldikcə həmin məlumatların da tədqiqata cəlb edilməsi Nadir şahın uşaqlığı və cavanlığı haqqında formalaşan təfəkkürün başa düşülməsi baxımından maraqlıdır.

"Tarix-e Cəhanqoşa-ye Naderi" və "Aləm Ara-ye Naderi" əsərlərində də Nadir şahın uşaqlıq və gənclik illəri haqqında çox kəsad məlumat vardır. Qərb mənbələri də bu baxımdan zənginliyi ilə fərqlənmir.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şah 1688-ci ilin payızında dünyaya gəlmişdi. Onun anadan olması köçəri həyat tərzi yaşayan ailəsinin Allahü-Əkbər dağının yaylaqlarından geri qayıtması vaxtına təsadüf edir. Əbivərdin qışlaq düzənliyinə üz tutan ailə Məhəmmədabad adlı məntəqədə çadır qurub gecələməli olur. Burada da Nadirqulu dünyaya göz açır (35).

"Aləm Ara-ye Naderi"-nin müəllifi yazır ki, Nadir kifayət qədər sağlam və cüssəli doğulmuşdu. Ona iki dayə tutulmuşdu və onların iksinin südü ilə bəslənirdi. Bir yaşına çatanda üç yaşlı kimi görünürdü. On yaşına çatanda o, at çapır, şir və pələng ovuna gedirdi. Uşaqlarla və həmyaşıdları ilə oynadığı oyunlarda özünü padşah adlandırır, uşaqlar arasında isə saray vəzifələrini bölüşdürürdü. Nadir uşaqlar arasında dava aparmağın planını qurur və sonra da onun həyata keçirilməsini təşkil edirdi. Uşaqlardan kimsə oyunu udanda Nadir öz

papağını və ya hər hansı bir əşyasını mükafat kimi ona bağışlayırdı. Dəfələrlə əynindəkiləri uşaqlara payladığından evə çılpaq qayıtmışdı. Valideynlərinin danlağından sonra evdən çıxar, ailənin mal-qarasının saxlandığı yerlərdə vaxt keçirərdi. O vaxt Nadir ailənin yeganə övladı idi. Ona görə atası onu geri qaytarar və həyat yoldaşına da tapşırardı ki, Nadirin istəklərinə əməl etsin (36).

Şahidlərin təsvirindən aydın olur ki, Nadir doğrudan da cüssəli və sağlam bədənli olmuşdu. Belə sağlam, fiziki keyfiyyətlər onda uşaqlıqdan var idi və ona məxsus olan döyüşgənliyin və mübarizliyin formalaşmasında da uşaqlıq illərindən meyl göstərdiyi fiziki hərəkətlərin, at çapmağın və ov vərdişlərinin öz rolu var idi.

Nadir şahın müasiri olmuş və onun hakimiyyəti dövründə İrana səfər etmiş holland taciri Con Hanvey yazırdı ki, Nadir çoban kimi böyüyürdü. 13 yaşında atasını itirəndən sonra ailənin dolandırılmasının müəyyən çətinlikləri Nadirin üzərinə düşdü. O, çöllərdə odun doğrayıb yük heyvanları vasitəsilə bazara daşıyır və orada satırdı (37). Persi Sayks da Nadirin uşaqlıq vaxtı qoyunçuluqla məşğul olmasını, yük heyvanları vasitəsilə odun daşıyaraq bazarda satmasını təsdiq edir (38). Bir sıra digər müəlliflərin əsərlərində də buna oxşar fikirlərlə rastlaşmaq mümkündür. Bu onu göstərir ki, Nadir hələ uşaqlıq yaşlarından zəhmətə qatılmış və zəhmət içində böyümüşdü. Maldarlıqla məşğul olmaq isə Nadirdən çeviklik, cəldlik, at çapmaq bacarığı tələb edirdi. Odunun hazırlanıb bazara daşınması da heç şübhəsiz ki, Nadirin fiziki keyfiyyətlərinin formalaşmasına öz təsirini göstərirdi. Ovçuluğa meyl göstərməsi isə ona ilkin döyüş vərdişlərini aşılayırdı. Nadirin hələ gənc yaşlarında yaxşı süvari olması da tarixdən məlumdur. Şübhə yoxdur ki, bu keyfiyyətə də Nadir hələ uşaqlıq və yeniyetmə illərində yiyələnməyə başlamışdı.

"Aləm Ara-ye Naderi" əsərinə görə isə Nadirin atası elə də kasıb deyildi. Onun yüzlərlə qoyunu, onlarla atı var idi. Bununla belə, bu əsərdə də Nadirin yeniyetmə və gənclik illərində mahir süvari və ovçu olmasından danışılır ki, bunlar da onun döyüşçü kimi yetişməsinin zəmini idi. Əsərdə rəvayətə bənzər belə bir məqam vurğulanır ki, Nadirin gününün çoxu at çapmaqla, ov ovlamaqla və güllə atmaqla keçirdi. Yay günlərinin birində Nadir çöl eşşəyi ovuna çıxır. İsti havada rastlaşdığı çöl eşşəyini o qədər qovur ki, atının bağrı çatlayır və ölür. Onda Nadir, atının yəhərini və yüyənini belinə alıb geri üz tutur. Yolda ikən rastlaşdığı bir adam ona "Nadir-i dövran" (zəmanənin Nadiri) deyə müraciət edir və onu Allahı unutmaqda qınayır. Bu şəxs Nadirə bir cam su verir və öz öyüd-nəsihətlərini də onun diqqətinə

çatdırır. Ona təkid edir ki, Allahını yadından çıxarmasın, yoxsa ruzigar onu yaddan çıxarar. Sonra əlavə edir ki, həmişə mərd ol, namusu qoru, alimlərə, mühəndislərə, yazıçılara hörmət elə, onlara ehtiramla yanaş, onları nüfuzdan salma, padşahlara və böyüklərə qarşı lütf göstər, yollandığın vilayətlərdə insanlara ziyan gətirmə, dostun qədrini bil, məğrur və laqeyd olma, varlıların da, yoxsulların da dadına çat, məzlumların haqqını zalımlarda qoyma, mərdümazar olma və s. Bu öyüd-nəsihətlər kitabda müfəssəl şəkildə təsvir edilmişdir Nadir cavabında deyilənləri qəbul etdiyini söyləyir. Bundan sonda həmin şəxs yox olur. Nadir yoluna xeyli davam edir və bir müddətdən sonra uzaqdan hansısa evlərin qaraldığını görüb sevinir. Dincəlmək üçün qapısını döydüyü evdə onu bir qarı qarşılayır. Qarı da ona "sahibqəran-i dövran" deyə müraciət edir. Nadir bildirəndə ki, o, qərib uşaqdır, ona belə müraciət etməyə ehtiyac yoxdur, qarı bildirir ki, elə indicə yuxuda Həzrət İlyası görüb. O da deyib ki, zəmanənin Nadirinin istiqbalına gedirəm və bir azdan o sənin də qapını açacaqdır (39).

Əldən düşmüş və yorulmuş Nadir qarıdan çörək və su xahiş edir. Qarı isə olan-qalan bir keçisini kəsib Nadirə yemək hazırlayır. Sonra qarı onu ovdan geri qayıdan oğlunun atına mindirib yola salır. Nadir də hərəkət etməmişdən qabaq söz verir ki, ömür macal versə qarının borcundan çıxacaqdır.

"Aləm Ara-ye Naderi" müəllifinin yazdığına görə, Nadir yaşadığı yerə çatanda 10-12 türkmən atlısının evlərə hücum etməsinin, evləri qarət etməsinin və çoxlu mal-dövlət toplamasının şahidi oldu. Bununla kifayətlənməyən türkmənlər hətta Nadiri də əsir götürmək istəyirlər. Nadir türkmən atlıları ilə döyüşə girir və elə ilk cəhddə onlardan 4-nü öldürür, ikisini oxla vurub atdan yerə salır, qalanları isə qaçıb canlarını qurtarırlar. Nadir əsirləri azad edib onların talan etdiyi mal-dövləti geri qaytarır. Mənbədə o da göstərilir ki, guya Nadir türkmənlərdən geri aldığı mal-qaradan 500-ə qədər qoyun və 10-12 baş at ayırıb ona hörmət etmiş qarıya bağışlayır (40).

Məhəmməd Kazım Mərvi yazır ki, atası İmamqulu gənc Nadirin bir müddət yoxa çıxmasından xeyli narahatçılıq keçirir və hətta belə güman edir ki, oğlu türkmənlər tərəfindən əsir götürülüb. Türkmənlərin onların yaşadığı məntəqəyə yürüş etməsi xəbərini eşitməsi Nadirin əsir düşməsi gümanını daha da artırır. Nadirin türkmənləri əsir götürməsi xəbərini eşidəndə isə İmamqulu gözlərinə inanmır və çox sevinir.

Nadirin çöldə, biyabanda rast gəldiyi insanlar və bu insanlardan eşitdikləri "Aləm Ara-ye Naderi" müəllifinin təxəyyülü olsa belə,

Nadirin erkən yaşlarında türkmən və özbək atlıları ilə döyüşə girməsini istisna etmək olmaz. Vaxtaşırı öz yaxınlarının, yerlilərinin viranedici yürüşlərə məruz qalmasına Nadir də sözsüz ki, biganə deyildi və yeri düşdükcə onlardan müdafiə olunmağa çalışırdı. Türkmən və özbək yürüşlərindən müdafiə olunmaq Nadirin bir döyüşçü kimi əməli təcrübəsini xeyli artırırdı.

Nadirin döyüşgənliyi və çevikliyi yerlilərinin gözləri qarşısında baş verirdi. Bu barədə ətrafa söhbətlər də yayılırdı. Türkmən və özbək talanlarından cana gəlmiş Əbivərd hakimi Babaəli bəy Nadiri yanına xidmətə dəvət edir. Nadir bununla razılaşır. Xidmətə qəbul olunan kimi ona tüfəngçiağası vəzifəsi tapşırılır. Bu həm də ondan xəbər verir ki, Nadir Əbivərd hakiminin yanında xidmətə qəbul olunanda artıq tüfəngdən istifadə etmək vərdişlərinə də yiyələnmişdi.

Babaəli bəyin yanında xidmətə başlamaq Nadirin döyüşçü həyatının yeni bir səhifəsi idi. Qeyd etmək lazımdır ki, bəzi müəlliflər Nadirin Babaəli bəy tərəfindən xidmətə dəvət edildiyini bildirirlərsə (41), digərləri Nadirin cavanlığında özünə həyat qurmaq, daha ciddi işlərlə məşğul olmaq istəyi ilə, bəziləri isə hətta Nadirin yol kəsmək, karvan vurmaq işlərindən uzaqlaşmaq istəyi ilə Babaəlinin yanında xidmətə yollandığını bildirirlər (42).

Nadirin cavanlığında yol kəsməsini və karvan soymasını qabardanlar daha çox qərb mənbələri və tarixçiləridir. Nadir haqqında yazılmış şərq mənbələrində və ciddi tarixi araşdırmalarda bu məsələ öz təsdiqini tapmır. Bütünlükdə, qərb mənbələrində Nadirin cavanlıq dövrü, onun Babaəli bəyin yanında xidmətə başlaması haqqında qarışıq fikirlər vardır. "Aləm Ara-ye Naderi" əsərində olan məlumata görə, Babaəli bəy Nadirlə bərabər onun atası İmamquluya da yanında iş təklif etmişdi (43). Yəni, Nadir, Babaəlinin yanında xidmətə başlayanda atası hələ sağ idi. Amma bəzi qərb mənbələrinə və tarixi araşdırmalara görə bu zaman Nadirin nəinki atası, hətta anası da vəfat etmişdi. Holland taciri C.Hanvey Nadir şah haqqında yazdığı kitabında qeyd edir ki, Nadir, Babaəlinin yanında xidmətə girməmişdən əvvəl, 1704-cü ildə bölgəyə hücum çəkən özbəklərin təcavüzünə məruz qalmış, anası və qardaşı İbrahimlə birlikdə özbəklər tərəfindən əsir götürülmüşdü. Bildirilir ki, Nadir bu zaman artıq atasını itirmişdi. Nadir qardaşı və anası ilə birlikdə 4 il özbək əsirliyində qalır. Bu müddət ərzində Nadirin anası qürbətdə vəfat edir və yalnız bundan sonra Nadir qardaşı ilə birlikdə əsirlikdən qaçır (44). Nadirin Babaəli yanında xidmətə başlaması da bundan sonrakı dövrə təsadüf edir. Buradan belə çıxır ki, Nadir Babaəlinin yanında xidmətə başlayanda

ən azı 20 yaşında idi. Başqa sözlə, Nadir artıq yetişmiş bir döyüşçü olmalı idi.

Əlirza Əfşar Cəmin yazdığına görə, Nadir 18 yaşında olanda özbək əsirliyindən qaçmışdı (45). Əbuturab Sərdadvər isə bu hadisənin Nadirin 21 yaşında olanda baş verməsini iddia edir (46). Ə.Sərdadvər hər hansı bir mənbəyə istinad etmədən Nadirin əsirlikdən qaçması ilə bağlı rəvayətə bənzər bir hadisəni təsvir edir. Onun sözlərinə görə, Nadir qardaşı ilə əsirlikdən qaçarkən Xorasana tərəf deyil, başqa istiqamətə üz tutdu. Çünki o əmin idi ki, özbəklər onları məhz Xorasan istiqamətində axtarmağa çalışacaqlar. Bir gündən sonra isə onlar geri dönüb Xorasana doğru üz tutdular.

Ehtimal edilir ki, Nadirin qardaşı və anası ilə birlikdə əsir düşməsi məsələsi Con Hanvey tərəfindən dövrüyyəyə gətirilmişdir. Şərq mənbələrində, o cümlədən də "Tarix-e Cahanqoşa-ye Naderi" və "Aləm Ara-ye Naderi" və digər mənbələrdə də bu barədə hər hansı bir məlumata rast gəlmək mümkün deyildir. C.Hanveyin bu məlumatı bir sıra qərb və şərq tarixçiləri tərəfindən də təkrarlanmışdır. Bu faktın doğruluğu ilə razılaşmayan tədqiqatçılar da vardır. Məsələn, tarixçilər arasında Nadirin anasının uzun müddət sağ olmasını, hətta onun Nadirin şahlığı dövrünü görməsini iddia edənlər də vardır (47). (Nadir şah nəslinin davamçılarından sayılan Qulam Rza Əfşar Nadiri də söhbətlərində Nadirin anasının əsirlikdə olmasının şübhəli olduğunu, onun sonralar vəfat etməsi və Məşhəddə dəfn edilməsi barəsində məlumatların mövcudluğunu bildirirdi-M.S.).

"Aləm Ara-ye Naderi" əsərində Nadirin yəmutlara əsir düşməsi barədə məlumat vardır. Amma həmin mənbəyə görə, bu hadisə Nadirin Babaəlinin yanında xidmətə başlamasından bir xeyli sonra baş vermişdi. Babaəlinin xidmətində olarkən Nadir əmisi Baburun xəstəlikdən vəfat etməsi xəbərini eşidir. O, dəfnə yollanır. Bir neçə günlük yasdan sonra Nadir Qaluşi kəndindən geriyə üz tutur. Gündüz yol yoldaşları ilə birlikdə bir bulağın başında istirahətə dayanırlar və orada Nadiri yuxu aparır. Bu vaxt yürüşə çıxmış 70 nəfərlik bir dəstə onları yaxalayır və hələ yuxuda ikən Nadirin qollarını bağlayırlar. Nadirin yanındakılardan biri oradan qaça bilir və baş verənləri Babaəliyə çatdırır. O da vaxt itirmədən 500 nəfərlik bir dəstə ilə Nadiri azad etməyə yola düşür. Amma Nadiri əsir götürənlərə yetişə bilməyib geri qayıdır. Yəmut atlıları Dəryaqapı adlı bir məntəqədə gecələməyə qalarkən hamı yatandan sonra Nadir ayaqlarını və qollarını açıb qaçmağa nail olur. Nadir eyni zamanda yəmut süvariləri ilə döyüşə girir, onların bir çoxunu məhv edir Nadirin geri qayıtması xəbəri

Babaəlinin böyük sevincinə səbəb olur və bu hadisəni böyük şadyanalıqla qeyd edir. Mənbədə olan məlumata görə, bu hadisədən sonra Babaəli Nadirin dul qalmış anası ilə nikah kəsdirir və Nadirin anasından Babaəlinin Fətəli və Lütfəli adlı iki oğlu olur (48).

Bu söylənilənlər də Nadirin anasının əsirlikdə vəfat etmədiyini və uzun müddət yaşadığını göstərir. Nadir Babaəlinin xidmətində olarkən azsaylı qüvvələrlə dəfələrlə özbək və türkmən yürüşlərinin qarşısını almış və bu zaman igidlik göstərməklə bərabər öz yerlilərini də talan və qırğınlardan xilas etmişdi. Məhz bu keyfiyyətlərinə görə, Babaəli qısa müddətdən sonra onu eşikağası vəzifəsinə təyin etdi.

Nadir Babaəlinin xidmətində olduğu vaxt özbək və türkmən tayfaları dəfələrlə Əbivərdə yürüş etdilər. Babaəli qoşunların komandanlığını Nadirə tapşırdığından həmin talançı yürüşlərin qarşısının alınmasında ona böyük ümidlər bağlayırdı. Nadir də hər dəfə belə yürüşlərin qarşısını məharətlə alırdı, tabeliyində olan döyüşçüləri bu mübarizəyə bacarıqla səfərbər edir, talançıları geri qayıtmağa məcbur edirdi.

Babaəlinin xidmətində olduğu vaxt Nadir onun üçün xüsusi bir əhəmiyyət kəsb edən məsələnin həllinə nail olmuşdu. Bu da silahlı dəstənin hərbi təchizatının Babaəlinin maddi imkanları hesabına ödənməsi məsələsi idi. Eyni zamanda Babaəli Əbivərd cavanlarının Nadirin rəhbərliyi altında olan silahlı dəstədə birləşməsinə və düşmənlərə qarşı onlarla birgə mübarizə aparmasına himayəçilik göstərirdi (49).

Türkmən və özbək yürüşlərinin qarşısını almaq əslində Xorasanda məskunlaşmış bütün əfşarları narahat edən məsələ idi. Səfəvilər dövlətinin süquta yaxınlaşdığı və hətta dövlətin paytaxtının qorunması üçün lazımi qədər qüvvə çatmadığı halda, Xorasanın mühafizəsi elə yerli əhalinin öz üzərinə düşməli idi. Nadir də bu işlərdə iştirak edirdi və mühafizə tapşırıqlarının icrasına cəlb edilməsi onun döyüşçü keyfiyyətlərinin reallaşdırılmasına meydan açırdı.

"Aləm Ara-ye Naderi" əsərində yəmutların 8 minlik dəstəsinin Əbivərdə və Dərgəzə hücumu və bu hücumun qarşısının alınması haqqında məlumat vardır. Amma Nadirin bu döyüşdə Babaəlinin dəstəsinə rəhbərlik etməsi haqqında məlumat yoxdur. Babaəlinin qoşun dəstəsinin rəhbəri kimi çox güman ki, bu döyüşün ağırlığını da o öz üzərinə götürmüşdü. Yəmutların 8 minlik dəstəsi məğlub ediləndən sonra Babaəli bu xəbəri məktub vasitəsilə Şah Sultan Hüseynə də xəbər vermək qərarına gəldi. Məktubun şaha çatdırılması isə Nadirə tapşırıldı (50).

Gətirdiyi məktubla İsfahana yetişən Nadir ünsiyyət və danışıq tərzi ilə saray əyanlarının qəlbinə yol tapır. Onun gəlişi və davranışı şaha da çatdırılır. Saray tərəfindən Nadirə yüz tümən mükafat verilir və gətirdiyi məktuba da cavab yazılır (51).

"Aləm Ara-ye Naderi"nin müəllifi Nadirin İsfahanda rastlaşdığı bir məqamla bağlı rəvayət xarakteri bir məsələyə toxunmuşdur. Müəllifə görə, Nadir bir gün İsfahanın küçələrini gəzməyə çıxır və bir meydanın kənarında bir rəmmalla rastlaşır. Nadir ona yaxınlaşıb taleyi ilə bağlı rəml atmasını xahiş edir. Rəmmal razı olur, amma rəmlini bir neçə dəfə təkrar edir. Nəhayətdə onun qarşısında baş əyib padşah olacağını söyləyir. Nadir isə bu xəbəri təəccüblə qarşılayır və ondan aralanır. Əsərdə o da qeyd olunur ki, Nadir İsfahanı əfqanlardan geri aldıqdan sonra həmin rəmmalı tapmaq istəyir. Bildirirlər ki, rəmmal ölüb. Amma onun bir qızı qalıb. Nadir ona min tümən pul verir və İsfahan ətrafındakı kəndlərdən birini ona bağışlayır (52).

"Aləm Ara-ye Naderi"yə görə, Nadirə İsfahan sarayında hədiyyə verilməsi və aldığı cavabı vaxtında Babaəliyə çatdırması bu şəxsin Nadirə olan nəvazişinin artmasına səbəb oldu. İngilis taciri Con Hanvey və fransız həkimi Bazenə görə isə İsfahan səfərindən sonra Babaəli ilə Nadir arasında ziddiyyət yarandı. Bu müəlliflər hətta Babaəlinin Nadir tərəfindən öldürüldüyünü də yazırlar. C.Hanvey onu da əlavə edir ki, Nadir Babaəlinin qızını istəyirmiş və atasının razılığını ala bilmədiyi üçün Nadirlə Babaəli arasında ixtilaf yaranıbmış (53). Amma elə qərb tarixçilərindən olan L.Lokkart bu faktların doğruluğunu qəbul etmir (54). Çünki, Babaəli ilə Nadir arasında yaxşı münasibətlər qurulmuşdu. "Aləm Ara-ye Naderi"də deyildiyi kimi, Babaəli Nadirin dul qalmış anasına evləndiyi kimi, qızını da Nadirə ərə vermişdi (55).

Persi Sayks "İran tarixi" əsərində Nadirlə Babaəli arasında yaxşı münasibətlər olması haqqında bir fakt da açıqlayır. Onun sözlərinə görə, Məlik Mahmud Sistani Xorasanı tutandan sonra (bu barədə aşağıda danışılacaq-M.S.) onun məmurlarından birinin yolu Babaəlinin evinə düşür. Bu zaman Babaəli evdə yox imiş. Həmin məmur onun ailəsi ilə pis rəftar edir. Nadir bundan xəbər tutan kimi Babaəlinin ailəsinin himayəsinə qalxır və həmin məmuru öldürür. Babaəli geri qayıtdıqdan sonra baş verən hadisəyə görə təəssüf edir. Nadir özü də anlayır ki, vilayətin yeni hakiminin məmurunu öldürmək ciddi fəsadlar törədə bilər və ona görə o, Babaəlliyə təklif edir ki, şəxsən Məşhədə yollansın və vilayət hakiminə bildirsin ki, Nadir öz ağasına sədaqət göstərərək məmuru öldürmüşdür. Babaəli belə də edir və

müəllifin yazdığına görə, vilayət hakimi nəinki Babaəlinin üzrxahlığını qəbul edir, həttа ona sədaqət nümayiş etdirən Nadirə xələt də göndərir(56).

"Aləm Ara-ye Naderi" kitabında guya Nadirin Əmir Teymurun xəzinəsini tapması haqqında da bir rəvayət vardır. Mənbədə bildirilir ki, Babaəli bəy əslində özünün bütün işlərini Nadirə tapşırmışdı. Günlərin birində Nadir Babaəli bəydən Kelata getmək haqqında tapşırıq alır. Nadir oraya yola düşür və gecə ikən dağ ətəyində, bir yerdə işıq parıldadığının şahidi olur. Həmin istiqamətə irəliləyəndə qarşıdakı mağarada çoxlu miqdarda qiymətli daşların və əşyaların toplandığını görür. Divar yazılarından aydın olur ki, bu xəzinə 36 il padşahlıq etmiş Əmir Teymura məxsusdur. Nadir Əbivərdə geri qayıdanda bu xəbəri heç kimə açmır. Yalnız əfqanlar İsfahanı tutandan, ölkədə hərc-mərclik geniş miqyas alandan sonra Nadir əmir Teymurun xəzinəsindən bəhrələnmək qərarına gəlir (57).

Tarixi ədəbiyyatda Babaəli bəyin ölümündən sonra (1723-cü ildə) onun vəzifəsinin və sərvətinin Nadirə qaldığı, Nadirin isə bəzi tayfa daxili ənənələrə görə bu sərvətin sahibi ola bilmədiyi barədə məlumatlar vardır (58).

"Aləm Ara-ye Naderi" əsərində isə bir qədər fərqli məlumatla rastlaşmaq mümkündür. Bu məlumata görə, əvvəla Babaəli bəy Herat istiqamətində əfqanlarla döyüşdə həlak oldu. Həmin dövrdə Heratda Əbdali əfqan tayfasının qiyam qaldırması və Heratı tutaraq mərkəzi hökumətdən ayrılması məlumdur. Babaəli bəy də bu döyüşlərdə iştirak edə bilərdi. Onun ölümündən sonra Əbivərdin hakimliyini yerli əhali onun təmiz və ağıllı bir adam kimi tanıdığı qardaşı Qurbanəli bəyə həvalə etdi. Əslində isə, bütün işlər yenə Nadirin boynuna düşmüşdü. Qurbanəli bəy də nə iş görərdisə həmişə onunla məsləhətləşərdi. Çünki Qurbanəli bəy də Nadiri bacarıqlı və cəsur bir insan kimi tanıyırdı və onun bu keyfiyyətlərindən faydalanırdı.

Qurbanəli bəyin Əbivərdə hakimliyi vaxtında Nəsa və Dərun yaşayış məntəqələrinin əhalisi onun yanına gələrək Təkə türkmən tayfasının onlara rahatlıq verməməsindən şikayət etdi. Adamların söylədiyinə görə, türkmən tayfası artıq bir neçə il idi ki, onların qonşuluğunda yurd salmışdı. Son illərin hərc-mərclik dövründə onlar da yerli əhalinin üzərinə hücum çəkib çoxlu sakin əsir götürmüş və onların var-yoxunu talan etmişdilər. Əhali dəfələrlə Nəsa böyüklərinə müraciət etsələr də bir faydası olmamışdı. Belə olanda Nəsa camaatı əfşar tayfasının böyüklərindən kömək dilədilər. Bu tayfanın əyanları necə kömək göstərmək barədə toplantı təşkil etdilər, məsləhətləşdilər.

Amma bir qərar qəbul edə bilmədilər. Belə olanda Qurbanəli bəy Nadirin yanına getməyi məsləhət gördü. Şikayətə gələnlər Nadirdən təkidlə xahiş etdilər ki, onlara kömək göstərsin. Nadir ağır vəziyyətə düşmüş insanlara kömək etmək qərarına gəldi və əfşarlar arasından 500 nəfərlik bir dəstə topladı. Onları silahlandıraraq Təkə türkmənlərinə dərs verməyə yollandı. Öz ata yurdu olan Dərgəz və Çapuşa daxil olanda ilkin olaraq atasının qəbri üzərinə yollandı və onun ruhuna dua oxudu. Bundan sonra Nəsaya doğru yolunu davam etdirdi. Təkə türkmənlərinin yurd saldığı əraziyə 4 fərsəng qalmış Nadir qarşıya kəşfiyyatçılar göndərdi ki, türkmənlər haqqında məlumat gətirsin. Kəşfiyyata göndərilənlər türkmənlərin sayı və işləri barədə müşahidə apararaq lazımi məlumatları Nadirə çatdırdılar. Əldə edilmiş məlumatdan aydın oldu ki, türkmənlər 500 ailədən ibarətdirlər və səhrada qurduqları çadırlarda məskunlaşıblar. Bu məlumatı alandan sonra Nadir türkmənlərin üzərinə qəfil hücum təşkil etdi, oradakıları qırıb-çatdı, sağ qalanları isə əsir götürdü (59).

Nadirin bu hücumundan xəbər tutan Təkə türkmənləri 1000 nəfər toplayıb qisas almaq üçün yola düşdülər. Nadir onların hücumunun qarşısını almaq üçün tədbir işlətdi, tabeliyində olan dəstəni yenidən qruplaşdırdı və müvafiq plan hazırladı. 150 nəfəri Kəlbəli xanın tabeliyinə verdi, özü isə 350 nəfərlik bir dəstə ilə türkmənlərin hücum marşrutunun üstünü kəsdirdi və onların gözünü açmağa imkan vermədi. Bir saat çəkən döyüşdə türkmənlərin bir hissəsi qırıldı, bir hissəsi isə Nadir tərəfindən əsir götürüldü. Növbəti uğurlu qələbə ilə Nadir Dərgəzə döndü. Nadir türkmənlərin Nəsadan götürdüyü əsirləri azad etdi və bir neçə türkmən əsirini də onlara verdi ki, Nəsadan başqa yerlərdə olan əsirləri onlarla dəyişdirsinlər.

Ceyms Frezer öz kitabında bu hadisəyə oxşar olan başqa bir hadisəni də təsvir edib. Onun təsvir etdiyi hadisə türkmənlərin Xorasan vilayətinə hücumu və bu hücumun qarşısının alınmasında Nadirin göstərdiyi şücaət barədir. Müəllifə görə, təsvir olunan hücum zamanı Nadir Xorasan valisinin yanında idi. Valinin yanında keçirilən məsləhətləşmə zamanı Nadir türkmənlərə qarşı döyüşə girməyi qərara aldı. Əvvəla, bu faktın doğruluğu şübhəlidir. Nadir yalnız Məlik Məhəmməd Xorasan hakimi olanda onun yanında qısa müddətli xidmətdə olub. Ancaq Nadir onunla belə bir iş birliyi yaratmamışdı. Çox güman ki, bu söhbət elə "Aləm Ara-ye Naderi"də təsvir edildiyi kimi Əbivərddə, Qurbanəli bəyin yanında baş verənlərdən gedir. C.Frezerə görə, vali türkmən hücumunun qarşısının alınmasının zəruriliyindən danışdı. Amma onun ətrafındakılar bu döyüşə qatılmağın mənasız

olduğunu əsaslandırmağa çalışdılar. Nadir bu toplantıda olsa da danışmadı. Yalnız ona söz veriləndə dedi ki, bu hücum təhlükəli hücumdur, düşmən yaxındadır. Ona görə söhbət vaxtı deyil, qoşun toplayıb döyüşə girmək lazımdır. Nadir mövcud olan qüvvəni döyüşə cəlb etməklə bərabər, yeni qüvvələrin toplanmasının zəruriliyini də bildirdi. Bundan sonra Nadir mövcud olan dəstənin rəhbəri təyin edildi. O, türkmənlərin toplandığı yerə gəlib onları müşahidə etdi və sonra da hücum taktikasını müəyyənləşdirdi (60).

Nadirin türkmənlər üzərindəki qələbəsi onun nüfuzunu həm Qurbanəli bəyin yanında, həm də yerli camaat arasında xeyli artırdı. Bundan sonra Əbivərdin idarə edilməsində Qurbanəli bəy Nadirə daha çox etibar etməyə başladı. Bir müddət sonra Qurbanəli bəy ciddi xəstəliyə tutuldu. Onun bu xəstəliyi uzun sürmədi və tezliklə dünyasını dəyişdi.

Qurbanəli bəydən sonra Əbivərd hakiminin kimin olması məsələsi ortaya çıxdı. Baxmayaraq ki, əyalətin bütün işlərini Nadir aparırdı, onun Babaəli və Qurbanəli bəyə qan qohumluğunun olmaması yerli əyanları sual qarşısında qoydu. “Aləm Ara-ye Naderi”yə görə, bu sualın cavabının tapılması üçün yerli əyanlar məktubla Şah Sultan Hüseynə müraciət etdilər. Bundan sonra Səfəvi sarayı tərəfindən Həsənəli bəy adlı birisi Əbivərdə hakim göndərildi. Həsənəli bəy isə Əbivərdə gələndən sonra burada hakimlik etməyin çətin olduğunu görüb Mazandarana yollandı (61).

Burada qeyd olunur ki, yerli əyanlar məktubla Sultan Hüseynə müraciət etdilər. Bu doğru ola bilməz. Çünki hətta Babaəli bəy vəfat edəndə İsfahan artıq əfqanlar tərəfindən tutulmuşdu və Səfəvi xanədanının hakimiyyətinə son qoyulmuşdu. Əfqan Mahmuda isə belə bir müraciət göndərilə bilməzdi. Çox güman ki, yerli əyanlar Xorasan hakiminə müraciət etmişdilər. Xorasan hakimi isə həmin vaxt Məlik Mahmud Sistani idi.

Mənbələr və tarixi ədəbiyyat Nadirin Məşhədə gedib Məlik Mahmuda qoşulmasından da xəbər verirlər (62). “Tarix-e Cəhanqoşa-ye Naderi” də Nadirin Məlik Mahmudla olan görüşündə ona sədaqətli olacağını izhar etdiyi bildirilir (63). “Aləm Ara-ye Naderi”də buna oxşar hadisə başqa cür təsvir olunur. Bu əsərdəki məlumatdan belə məlum olur ki, Həsənəli bəy Əbivərd hakimliyindən imtina edəndən sonra bu vəzifəni tutmaq üçün yerli əyanlar arasında ciddi müzakirə başlandı. Ola bilsin ki, Nadir də Əbivərd hakimi olmaq istəyini kənara qoymamışdı. Çünki Məhəmməd Kazım Mərvi yazır ki, Nadir onlarla bacarmadı. Belə olanda əyalətin bir neçə sərkərdəsi Məşhədə Məlik

Mahmudun yanına yollandılar ki, Əbivərdə hakim təyin edilsin və bununla da əyanlar arasındakı didişmələrə son qoyulsun. Nadir həmin sərkərdələrlə Məşhədə getmədi. Məlik Mahmud Məşhədə gələnləri yaxşı qarşıladı. Onlardan Aşur xan, İmamqulu bəy, Qılıncəli bəy Nadirdən Məlik Mahmuda şikayət etdilər və bildirdilər ki, Əbivərddə bütün narahatçılığın günahkarı məhz Nadirdir. Bütün fəsadlar ondan törəyir və özü də Xorasan hakiminə tabe olmaq istəmir. Bəylər təklif etdilər ki, Əbivərddə sakitlik üçün vilayət əyanlarından bir nəfər ora hakim təyin edilsin. Bu hakim vəzifəsinin icrasına başlayandan sonra Nadir tutulub Məşhədə göndərilsin (64).

Məlik Mahmud yanında xidmətdə olan qorçubaşı Məhəmməd Əmin bəyi Əbivərd hakimi təyin etdi. Şücaəti və döyüşgənliyi haqqında çox eşitdiyi Nadirə isə xələt göndərdi. Eyni zamanda onu Əbivərdin eşikağası vəzifəsinə təyin etdi. Yəni, əslində Nadir öz əvvəlki nüfuzunu saxlamış oldu və Əbivərdin hakimlərindən biri kimi qaldı. Bu vəzifədə olmaq Əbivərd miqyasında görülməli olan işlərin təşkilatçılığının onun üzərinə düşməsini tələb edirdi. Məlik Mahmud ona xəbər göndərdi ki, sənin sədaqətin və işgüzarlığın bizə aydın olsa onda daha yüksək qiymətini alacaqsan. Bununla bərabər, Məlik Mahmud onun yanına gəlmiş Əbivərd əyanlarına bildirdi ki, Nadir xatircəm olandan sonra onu tutub qətlə yetirəcəkdir. Bununla, Məlik Mahmud Nadirdən narazı olan əyanları bir qədər sakitləşdirdi.

Nadir Əbivərdə hakim təyin edildiyini eşidəndə ətrafındakılarla bərabər onu qarşılamağa çıxdı. Yeni hakim olan Məhəmməd Əmin xan Nadirin ona belə ehtiram göstərməsindən razı qaldı və onlar birlikdə Əbivərdə daxil oldular. Yeni hakim Nadirə xələt təqdim etdi, Nadir isə ona öz sədaqətini nümayiş etdirdi (65).

Nadirdən Xorasan hakiminin yanına şikayətə getmiş İmamqulu bəy və Qılıncəli bəy ona qarşı düşmən münasibətdə qalmaqda davam edirdilər. Görünür, Nadirin yanında istədiklərinə nail ola bilməyən bu iki bəy onun paxıllığını çəkirmiş və Nadiri gözdən salmaq üçün Əbivərd hakiminə də öz sözlərini çatdırırmışlar. Çünki məhz eşitdiyi dedi-qodulardan sonra Məhəmməd Əmin bəy bir dəfə Nadiri cəzalandırdı. Nadiri yerə uzadaraq onu yaxşıca kötəklədilər. Nadir də cəzalandırılmasından xeyli qəzəbləndi və bir neçə gündən sonra doğma kəndi olan Dərgəzə qayıtdı. O bir müddət həmin kənddə yaşamalı oldu (66).

Məhəmməd Əmin bəy sonradan hərəkətindən peşman oldu. Bu peşmançılığın nəticəsi kimi Nadirə bir dəst xələt və bir baş at hədiyyə göndərdi və ondan xahiş etdi ki, geri qayıtsın. Nadir bu xahişdən sonra yenidən Əbivərdə gəldi. Məhəmməd Əmin bəy onu yaxşı qarşıladı və

sonralar gördüyü bütün işlər barəsində onunla məsləhətləşməyə başladı. Bu vəziyyət İmamqulu bəyi və Qılınc bəyi yenə narahat etməyə başladı. Onlar Nadirdən ehtiyatlandıqları üçün paxıllıq və dedi-qoduları davam etdirirdilər. Nadiri Əbivərddən uzaqlaşdırmaq üçün onlar bir daha Xorasan hakiminin yanında oldular və Məlik Mahmuda yenidən Nadirdən şikayət etdilər. Məlik Mahmud da yenidən onlara söz verdi ki, Nadiri yanına çağırıb cəzalandıracaqdır.

"Aləm Ara-ye Naderi"də Nadirin Əbivərddə olduğu vaxt iştirak etdiyi daha iki döyüşü haqqında məlumat vardır. Bu döyüşlər məhəlli xarakterli olsa da Nadirin taktiki təfəkkürünün, döyüşün təşkili və idarə edilməsi məharətinin formalaşması və inkişafı baxımından əhəmiyyət kəsb edir. İlk döyüşün harada baş verdiyini dəqiqləşdirmək çətindir. Amma sözsüz ki, bu döyüş Əbivərd ətrafında yerləşən qalalardan birində baş vermişdi. Mənbədən aydın olur ki, bu döyüş ərazidə başladı. Bir qədər sonra qarşı tərəfin rəhbəri Aşur xan Nadirin məharəti qarşısında aciz qalıb qalaya sığınmaqla canını xilas edə bildi. O güman edirdi ki, qala daxilində salamat qala biləcəkdir. Nadir isə qala divarları ətrafına su buraxmaqla hücumunu davam etdirdi. Bir azdan qala daxilindəki evlər və tikililər su içində qaldılar. Qala divarları isə suya davam gətirməyib dağıldı. Belə olanda Aşur xan çarəsiz qalıb müqaviməti dayandırdı və barışıq üçün Nadirin yanına adam göndərdi. Nadir bu barışığı qəbul edib döyüşü dayandırdı və Əbivərdə döndü. Aşur xan barışıqdan sonra qiymətli hədiyyələrlə onun yanına gəldi və gələcəkdə onunla əməkdaşlıq edəcəyinə söz verdi (67).

İkinci döyüş isə Əbivərd yaxınlığındakı Bağvaci adlanan qala ətrafındakı döyüş idi. Bu qalanın sahibi Allahverdi bəy Babalı adlı birisi idi. Görünür, Allahverdi bəy özünü çox sərbəst aparır və Əbivərd hakiminin hakimliyini tanımaq istəmirdi. Nadir ona məktub göndərdi və bildirdi ki, ətrafın bütün ağsaqqalları və sərkərdələri təşrif gətirərək Əbivərd hakiminə öz ehtiramlarını bildiriblər. Nadir ondan da tələb edirdi ki, Əbivərd hakiminə qarşı olmadığını bildirsin. Əks təqdirdə silahla qarşılaşa bilər. Allahverdi bəy Nadirdən gətirilən məktubu cırdı və ona xəbər göndərdi ki, əlindən gələni etsin (68).

Nadir Allahverdi bəyə qarşı döyüşə yollandı. Bu döyüş qaladan kənarda baş verdi və bütün günü davam etdi. Görünür, Allahverdi bəyin dəstəsi də kifayət qədər güclü imiş və ona görə də gün ərzində Nadirə müqavimət göstərə bilibmiş. Hava qaralana yaxın döyüş dayandırıldı. Allahverdi bəy dəstəsi ilə qalaya geri çəkildi və oradan Nadirə və dəstəsinin üzvlərinə yemək göndərdi. Bu, Nadiri mütəəssir etdi. Səhəri gün Nadir onun yanına barışıq üçün adam göndərdi və ona

xəbər çatdırdı ki, dəvətini qəbul edib görüşünə gəlsə onu öz qardaşı kimi qarşılayacaq. Allahverdi bəy bu təklifi və dəvəti qəbul etdi və ətrafındakılarla birlikdə Nadirin yanına yollandı. Qonaqlıqdan sonra Allahverdi bəyə Nadirin çadırının qonşuluğundakı çadırda yer verildi. Amma Allahverdi bəy istirahət üçün öz çadırına gedəndən sonra Allahverdi bəyin yaxınları ondan Nadirə şikayət etdilər, ona haqlı-haqsız məlumatlar çatdırdılar. Qala adamları da Allahverdi bəydən şikayət etdilər. Nadir bu deyilənlərə inandı və öz adamlarına Allahverdi bəyi öldürməyi tapşırdı. Məhəmməd Kazım Mərvi yazır ki, Allahverdi bəy öldürüləndən sonra onun qalası və var-dövləti Nadirin əlinə keçdi. Bu var-dövləti Nadir Əbivərdə apardı. Nadirin bu döyüşdəki şücaəti isə ətraf məntəqələrə yayıldı və çoxları könüllü şəkildə onun yanında xidmət etməyə hazır olduqlarını bildirdilər (69).

Hər kiçik döyüş, hər kiçik qələbə Nadirin istedadını nümayiş etdirməklə bərabər, həm də ona olan inamı artırırdı. Ona görə də günü-gündən onun dəstəsinə qoşulanların sayı da artırdı. Bu insanlar arasında sonralar Nadirin ən bacarıqlı və inanılmış sərkərdələri olan Təhmasibqulu xan Cəlayir, Məhəmməd bəy və Tərxan bəy də var idi. Nadir ətrafına toplaşan dəstəsi ilə ilk növbədə bu və ya digər yaşayış məntəqələrinə hücum edən qüvvələrin qarşısını alır, yaşayış məntəqələrini viran olmaqdan qoruyurdu. Ətraf yaşayış məntəqələrinin əhalisi talançı basqınlara məruz qalan kimi kömək üçün Nadirin yanına gəlirdilər. Nadir də dəstəsi ilə talançı yürüşlərin qarşısını almaqla, basqın edənlərin var-yoxunu da əllərindən alır və onlardan ələ keçirdiyi vəsait hesabına dəstəsinin təchizatını yaxşılaşdırırdı. Nadirin məhəlli döyüşləri onun dünyagörüşünün formalaşmasına da öz təsirini göstərirdi. Aramsız özbək və türkmən yürüşlərinin və bu yürüşlərin bölgəyə gətirdiyi bəlaların şahidi kimi Nadir yad qüvvələrin təcavüzünü qəbul etmirdi. Nadirin Məlik Mahmuda münasibəti də bu mövqe üzərində qurulmuşdu. Səfəvi dövləti daxilindəki hərc-mərclikdən istifadə edərək Xorasanı ələ keçirən Məlik Mahmud bir çox yerli xanların və əyanların qətiyyətsizliyindən məharətlə istifadə edirdi. Həmin xanlar öz vəzifələrini saxlamaq üçün çoxlu hədiyyələrlə onun yanına gəlirdilər ki, bu hədiyyələr də xalqın var-yoxu hesabına toplanırdı.

Məlik Mahmud Xorasan vilayəti kimi böyük bir vilayəti nəzarət altında saxlamaq üçün Nadir kimi istedadlı adamların imkanlarından istifadə etməyə çalışırdı. Buna görə də Nadir haqqında söylənilən iftiralara elə də diqqət yetirmirdi. Elə bununla bağlı idi ki, o, Nadiri öz dəstəsinə dəvət etdi. Nadir də öz dəstəsi ilə onun dəvətini qəbul etdi.

Ancaq onların ittifaqı uzun sürmədi. Bir tərəfdən İmamqulu xanla Qılınc xan kimilərinin iftiralarının səngiməməsi, Nadirin günü-gündən güclənməsi, qoşun daxilindəki nüfuzunun artması Məlik Mahmudu qorxuya salırdısa, digər tərəfdən də Məlik Mahmudun özünün yarıtmaz hakimiyyəti Nadirin ona qarşı barışmazlığını gücləndirirdi. "Tarix-e cahanqoşa-ye Naderi"də göstərilir ki, Nadir Məlik Mahmudun xidmətinə girsə də məqsədi onu öldürmək idi (70). Bəzi mənbələr isə göstərirlər ki, artıq Məlik Mahmud da Nadiri aradan götürmək qərarına gəlmişdi (71). Tarixi ədəbiyyatda olan məlumata əsasən belə bir qənaətə gəlmək mümkündür ki, qarşılarına qoyduqları niyyətə çatmaq üçün ilk əməli addım atan Nadir oldu. Öz planını həyata keçirmək üçün Nadir həmişə ona iftiralar yağdıran İmamqulu xan və Qılınc xanla da münasibətlərini yaxşılaşdıra bilmişdi. Qərara alınmışdı ki, ənənəvi idman yarışında Nadir, Məlik Mahmudun atının cilovunu ələ keçirsin və onu saxlasın. Bu, əfşar və cəlayir döyüşçüləri üçün bir işarə olmalı idi ki, Məlik Mahmudun və onun adamlarının üstünə atılsınlar və onları qırsınlar. Amma nədənsə bu plan baş tutmadı. Məlik Mahmud bu sui-qəsddən xəbər tutmasa da, Nadir, İmamqulu xanla Qılınc xanın ona xəbər çatdıracağından ehtiyat edirdi. Ona görə də Nadir onları aradan götürmək qərarına gəldi. Nadir bu iki nəfəri Məşhəd yaxınlığındakı Yamxana adlı yerə ova dəvət etdi. Ov zamanı onların hər birini ayrı-ayrılıqda yaxalayıb qətlə yetirdi (72). Bundan sonra Nadir Əbivərdə qayıtdı (73).

Bu dövr Nadirin həyatının mühüm dövrlərindən və öyrənilməsi baxımından kifayət qədər qarışıq qalan səhifələrindən biridir. Tədqiqatçıların bir çoxu onu bu dövrdə yol kəsməklə, talançılıqla məşğul olmaqda günahlandırırlar L.Lokkart ötəri də olsa bu məsələyə toxunmuşdur. Amma onu da əlavə edir ki, Mirzə Mehdixan, Nadirin yol kəsməklə məşğul olması haqqında heç nə deməmişdir (74). Məhəmməd Kazım Mərvinin əsərində də bu barədə hər hansı bir məlumata rast gəlinmir. Lokkart bu məlumatı Bazenə və Əbdülkərim Kəşmiriyə istinadən vermişdir. Məhz bu məlumatlar da müxtəlif müəlliflər tərəfindən təkrar olunmuşdur.

İstər Əbivərddə olanda, istərsə də Məşhəddə olanda Nadirin ətrafına kifayət qədər böyük dəstə toplanmışdı. Yuxarıda deyildiyi kimi, bəzi dəstə rəhbərləri öz dəstəsi ilə Nadirin dəstəsinə qatılırdılar. Nadirin rəhbərlik istedadı onun şəxsi döyüş keyfiyyətləri ilə birləşərək ona qoşulanlar üçün nümunəyə çevrilirdi. Qaldısa Nadirin yol kəsməklə məşğul olması məsələsinə, onun haqqında yazılmış iki böyük və mötəbər mənbədə bu haqda bir məlumatın olmaması həmin faktların

doğruluğunu da müəyyən şübhə altına qoyur. Qeyd edildiyi kimi, Nadir bölgəyə talançı yürüşlər keçirənlərin qarşısını almaqla onların talan etdiyi mal-dövlətin ələ keçirilməsindən imtina etmirdi. Hərbi gücü artdıqca Nadir ətrafında yaşayan xanların Məlik Mahmuda tabe olmasını istəmirdi. Bu tələblə razı olmayanlara qarşı Nadir yürüşlər keçirir və onları əzməklə bərabər, var-dövlətlərini əllərindən alır, adamlarını əsir edirdi. Nadirin iddialı bir şəxs olduğunu da inkar etmək olmaz. Yaşadığı ərazidə söz-nüfuz sahibi olan Nadir öz döyüşgənliyi və ətrafına toplanmış hərbi qüvvənin köməyi ilə bu nüfuzun əhatə dairəsini də genişləndirməyə çalışırdı. Bu istiqamətdə yerli xanları əzməklə ələ keçirdiyi var-dövləti də ətrafındakı qoşunların təchizinə istiqamətləndirirdi. Buna görə qoşun üzvləri də iddialı xanların əzilməsinə maraq göstərirdi. Tarixdən də məlumdur ki, Nadir döyüşçülərinin lazımı şəkildə təmin edilməsinə ciddi qayğı göstərirdi. Onun bəzi yürüşləri və yerli xanlara qarşı siyasəti bəzilərinə yol kəsmək kimi görünə bilərdi. Çox güman ki, tarixi ədəbiyyatda onun yol kəsməsi haqqında fikirlər məhz buradan qaynaq ala bilərdi.

Məşhəddən geri qayıtdıqdan sonra Nadirin Əbivərddə və Kelatda möhkəmlənməsi təbii idi. Kelat öz təbii-coğrafi xüsusiyyətləri etibarilə müdafiə olunmaq üçün münasib bir ərazi idi. Yaranmış vəziyyət də Nadirdən belə bir etibarlı yerə sığınmasını tələb edirdi. Çünki Məlik Mahmudun Nadirin məhvi üçün ciddi tədbirlərə əl atacağı aydın idi. Digər tərəfdən də ətraf xanlar Nadirə qarşı hər an cəza tədbirlərinə əl ata bilərdilər. Kelatda isə Nadir az qüvvə ilə daha yaxşı müdafiə oluna bilərdi.

Amma Nadirin Kelata dönməsi və orada möhkəmlənməsi barədə tarixi ədəbiyyatda rəvayət xarakterli məlumatlar da özünə yer tapmışdır. Şərq mənbələri tərəfindən təsdiqlənməyən bu rəvayətlər Nadirin nüfuzuna kölgə salmaq cəhdindən başqa bir şey deyildir. Həmin rəvayətlər Ceyms Hanvey tərəfindən dövriyyəyə gətirilmiş və bir sıra digər tarixçilər tərəfindən də təkrarlanmışdır. Həmin rəvayət bundan ibarətdir ki, guya Nadir Kelat hakimi olan əmisini öldürəndən sonra ora yiyələnə bilmişdi (75).

Əvvəla, Nadirin atasının kasıb bir insan olduğu halda, əmisinin kifayət qədər imkanlı olması və Kelatda hakimlik etməsi C.Hanveyin özü tərəfindən də şübhə ilə qarşılanır. Lakin o bunu da əsaslandırmağa çalışır ki, inqilablar dövründə qardaşlardan birinin varlı olması, o birinin isə kasıb olması təbii işdir. Con Hanveyə görə Nadir Məşhəddən çıxdıqdan sonra əmisinin yanına gəldi, başına gələnlər və padşahdan narazılıqları haqqında ona şikayət etdi. Əmisi onun planlarından xəbər

tutanda aralarında narazılıq yarandı və Nadir oradan uzaqlaşmaq məcburiyyətində qaldı. Dinc yolla məqsədinə nail ola bilməyəcəyini görəndə Nadir güclə əmisini üstələyib Kelata sahib çıxmaq istədi. Guya bundan sonra Nadir ətrafına qüvvələr topladı, dağlara çəkilib yol kəsməklə məşğul oldu. Bir neçə karvanı taladıqdan sonra Nadir 700-800 nəfərlik bir dəstəni saxlamaq imkanı əldə etdi. C.Hanvey yazır ki, Şah Sultan Hüseynin varisi sayılan Təhmasib Mirzə şimalda baş girləyərkən onun sərkərdələrindən biri – Sədrəddin bəy törətdiyi bir əməlin cəzasından qorxaraq tabeliyində olan 1500 nəfərlik dəstə ilə Nadirə qoşuldu. Bu da Nadirin dəstəsinin 2-3 min nəfərə çatmasına imkan verdi. Qüvvələrinin artmasını eşidəndə əmisi Nadirdən qorxmağa başladı. Məlumdur ki, Nadirin iki əmisi olmuşdu. Onun Babur adlı əmisi xəstəlikdən vəfat etmişdi. Onda deməli, Kelat hakimi onun Bektaş adlı əmisi olmalı idi. Əmisi nigarançılığını aradan qaldırmaq üçün Nadirə məktub göndərdi, ona yol kəsməkdən əl çəkməyi və Təhmasib Mirzənin xidmətinə girməyi tövsiyə etdi. Yəni. bununla o, guya gələcəyi üçün də gərəkli bir iş görmüş olardı. Nadir də yazılana görə bu təklifi qəbul etdi və əmisindən xahiş etdi ki, əfv olunması üçün padşaha müraciət etsin. Əmisi buna razı oldu və Təhmasib Mirzədən xahiş etdi ki, Nadiri bağışlasın. Təhmasib Mirzə də baxmayaraq ki, Nadiri bağışlanmaz günahkarlardan biri hesab edirmiş, köməyinə ehtiyac duyduğu üçün onu bağışladı. Əfv fərmanı imzaladı və Kelata göndərdi.

C.Hanvey daha sonra yazır ki, əmisi əfv fərmanını əldə etdikdən sonra onu qardaşı oğluna göndərdi. Nadir də əfv fərmanını alıb Səfiəddin bəylə birlikdə Kelata yola düşdü. Həmin səfərdə onu 100 atlı müşayiət edirdi. Əmisi fikirləşdi ki, Nadirə etdiyi bu yaxşılıqdan sonra onların arasındakı narazılıqlar aradan qalxmış olar. Buna görə Nadiri yaxşı qarşıladı. Guya Nadir isə əvvəlki incikliyi yaddan çıxarmayıbmış. Onun əvvəlcə verdiyi göstərişə əsasən Kelatda olduğu ikinci gün arxasınca daha 500 atlı gəldi. Bundan sonra Nadir əmisini otağında qətlə yetirdi və ətrafındakı qüvvə ilə Kelatı tutdu.

Bir daha qeyd edilməlidir ki, rəvayətin həqiqətə uyğun olmasına elə C.Hanveyin yazdıqları şübhə doğurur. O bildirir ki, Nadirin əmisinin yanına birinci gəlişi ilə sonrakı gəlişi arasında beş il vaxt var idi. Özü də müəllif onu da əlavə edir ki, həmin vaxt şah Təhmasib hələ şimalda baş girləyirdi. Əgər Təhmasib hələ şimalda idisə, onda deməli Məşhəd hakimi hələ Məlik Mahmud olmalı idi. Amma məlumdur ki, 1726-cı ilin sonunda Məlik Mahmud Məşhəddən qovulmuşdu. Onun Məşhəddəki hakimliyi cəmi üç il sürmüşdü. Nadir

Məşhəddən, Məlik Mahmuddan ayrıldığı vaxtdan 2-3 il sonra artıq Təhmasiblə birləşmiş və Məlik Mahmudu da Məşhəddən qovmuşdu. Ona görə Məşhədi tərk etməsindən 5 il sonra əmisinin köməyi ilə əfv olunması həqiqətə uyğun deyildir. Digər tərəfdən C. Hanveyin özü yazır ki, Təhmasib şimalda fərari həyat sürürdü, hətta əfqanların nəzarəti altında olmayan vilayətlərdə belə asayişi yarada bilmirdi və əslində o, Mazandaranda itib-batmışdı (76). Buradan da belə bir sual doğur ki, Xorasan hakimi Məlik Mahmud olduğu halda əmisi Nadirin bağışlanması ilə bağlı nə üçün vilayətin real hakimi olan Məlik Mahmuda deyil, vilayət üzərində ən primitiv nəzarəti olmayan və Mazandaranda itib-batan Təhmasibə müraciət etdi.

N.Larudiyə görə isə əmisi Nadiri qətlə yetirmək istəyirdi və bunun üçün yollar arayırdı. Əmisi Nadiri qonaq çağırıb öldürmək istəyəndə Nadir bundan xəbər tutub onun özünü öldürdü (77).

Başqa bir tarixi ədəbiyyatda isə vurğulanır ki, Nadir düşmənlərinin sərkərdəsi olan əmisini öldürdü, Kelata sahib çıxdı, bundan sonra Təhmasib Mirzəyə itaət etməkdən boyun qaçırdı və özü müstəqil fəaliyyət göstərməyə başladı (78). Yuxarıda söylənilənlər nəzərə alınarsa bu məlumatın şərhinə daha bir ehtiyac qalmır.

Nadirin Məlik Mahmudun tərəfdarlarından iki nəfəri öldürərək Məşhəddən uzaqlaşması Məlik Mahmudu çox qəzəbləndirdi və onun qətli üçün tədbirlər tökməyə başladı. Bununla bağlı Məlik Mahmud Qoçanda məskunlaşmış Çeşmgəzək kürdlərinə xəbər göndərdi və onları əməkdaşlığa dəvət etdi. Görünür, Məlik Mahmud ilk növbədə yerli qüvvələrdən istifadə etməklə Nadirə dərs vermək istəyirmiş. Amma Nadirin dəstəsində kürdlər və ola bilsin ki, Qoçan kürdləri də var idi. Bu insanlar Nadirin gücünə, döyüşgənliyinə və onunla ziddiyyətə girməyin mənasızlığına yaxşı bələd idilər. Ona görə də Qoçan kürdləri Məlik Mahmudla əməkdaşlıq etməyəcəklərini bildirdilər. Onda Məlik Mahmud Nadirlə əlbir olan Çeşmgəzək kürdlərini də cəzalandırmaq qərarına gəldi və ona itaət etməyən bu insanları itaət altına gətirmək üçün 6 minlik bir dəstə ilə Qoçana doğru irəlilədi. Kürdlər Məlik Mahmudun hücumunun qarşısını ala bilməyəcəkləri üçün onun yanına adam göndərdilər, bağışlanmalarını xahiş etdilər. Məlik Mahmud bu xahişi qəbul etmədi və hətta onun yanına gəlmiş elçini cəzalandırmağı əmr etdi. Çarəsiz qalan kürdlər Qoçandan qaçıb ətraf məntəqələrə pənah apardılar. Amma bunu bütün sakinlər edə bilmədilər. Ona görə də Məlik Mahmud Qoçana girəndə əlinə keçənlərin hamısını qılıncdan keçirdi (79).

Məlik Mahmud bununla kifayətlənmədi və Qoçanın 12 kilometrliyində kürd boylarının Zidanlu qolunun yaşadığı məntəqəni mühasirəyə aldı. Məlik Mahmudun Qoçana qoşun çəkməsi xəbərini eşidəndə Nadir də ona dərs vermək qərarına gəldi və yürüşə əmr verdi. Onun ilk addımı Məlik Mahmudu top atəşlərinin gücündən məhrum etmək oldu. Tarixi ədəbiyyatda olan məlumata görə, Nadir Qoçanda olanda ona məxsus olan toplar hələ bu məntəqəyə çatmamışdı. Nadir Məlik Mahmudun Məşhədlə Qoçan arasında olan topçular dəstəsinə hücum etdi və çətinlik çəkmədən onları ələ keçirdi. Deyilənə görə, Nadir, Məlik Mahmudun topçuları arasında bir fransız mütəxəssislə rastlaşdı. Bu mütəxəssis Məlik Mahmud topçularının təlimatçısı idi. Nadir ona əməkdaşlıq təklifi etdi. Amma fransız təlimatçı bununla razılaşmadı. Nadir ələ keçirdiyi topları Kəbkan məntəqəsinə göndərdi (80).

Toplar ələ keçirildikdən sonra Nadir, Məlik Mahmudun Zidanlu kürdlərinin məskunlaşdığı qala ətrafındakı əsas qüvvələrinə hücum etdi. Bu hücumun təfərrüatları barədə geniş məlumat yoxdur. Amma çox güman ki, 6 minlik bir qoşun dəstəsinə üstün gəlmək üçün Nadir hücum planını ətraflı götür-qoy etdi, düşmənin zəif cəhətlərini müəyyənləşdirdi, hücumun sürətlə həyata keçirilməsi və səmərəliliyi üçün lazımi tədbirlər həyata keçirdi. Bundan başqa qala əhalisi də Nadirə kömək göstərdi. Bu isə əslində Məlik Mahmudun qoşununu iki qüvvə arasında qoydu. Nadir bu imkandan bacarıqla istifadə etdi. Nəticədə, Məlik Mahmudun əsas qüvvələrinə güclü zərbə vuruldu. Mövcud olan məlumata görə, həmin günün gecəsi qala daxilindəki əhali Məlik Mahmudun qoşununa hücum etdi və ona xeyli xəsarət yetirdi. Məlik Mahmudun toplardan məhrum olması onun Nadir qarşısındakı müqavimətini xeyli zəiflətdi. Məlik Mahmud niyyətinə nail ola bilmədi və uğursuzluğa düçar olaraq geri çəkildi.

Lokkart da bu döyüş barədə qısaca olaraq məlumat vermişdir. Onun fikrincə, toplara malik olmadığı üçün Nadir, Məlik Mahmudun təqibini davam etdirmədi və Məşhədi mühasirə etməkdən vaz keçdi. Müəllif onu da əlavə edir ki, Nadir geri qayıdaraq Əbivərdlə Dərgəz ətrafında yerləşən və ona rəğbət bəsləməyən qalaları ələ keçirməklə məşğul oldu (81).

Tarixi ədəbiyyatda bu qalalardan bəziləri haqqında məlumatlar mövcuddur. Onlardan biri Əbivərdə məsafə etibarilə yaxın olan Yengi qalası idi. Nadir istər bu qalanın, istərsə də digər qalaların hakimlərinin və sakinlərinin Məlik Mahmuda qarşı mübarizədə ittifaqda olmasını istəyirdi. Buna razı olmayanları isə o öz qılıncının gücü

ilə düşmənləri ilə əməkdaşlıqdan çəkindirməyə məcbur edirdi. Bu qalalar ətrafındakı müxtəlif döyüşlərdə müxtəlif vəziyyətlə üzləşməsi isə onun döyüş təcrübəsini zənginləşdirirdi.

Yengi qalasının ələ keçirilməsi üçün Nadir yeni bir taktika işlətmək qərarına gəldi. Qalanın divarlarını asanlıqla dəf etməyin mümkün olmayacağını gördükdə, Nadir onun ətrafında istehkamlar yaratmağı qərara aldı. Eyni zamanda yaxınlıqda axan çayın suyu da divarların dibinə istiqamətləndirildi. Nəticədə qala divarlarının bəzi yerlərində dağıntı yarandı. Lakin bunun elə bir səmərəsi olmadı. Onda Nadir ümumi hücuma əmr verdi və bir neçə günlük mühasirədən sonra Yengi qalası ələ keçirildi (82).

Bağudadə qalasının alınması zamanı da Nadir istehkam tədbirlərinə əl atmalı oldu. Tədqiqatçıların fikrincə, Nadir bu qalanı almaqla Əfşar boyunun Gündüzlü qoluna mənsub olanları öz tərəfinə çəkmək istəyirdi. Qolun rəhbəri olan Barat bəy Gündüzlünün Nadirə olan anlaşılmaz münasibəti nəticəsində, Nadir gündüzlülərin himayəsindən məhrum olmuşdu. Amma Barat bəy də müdafiə üçün lazımi tədbirlər görmüşdü. Ona görə də qalanın ələ keçirilməsi üçün Nadir xeyli vaxt itirməli oldu. Nadir bu qalanın divarları ətrafında istehkamlar yaratdı, qala divarlarının özülünü oyub ora barıt qoymaqla divarların müəyyən hissəsini dağıtdı. Lakin göstərilən cəhdlər bir nəticə vermədi və qalanın mühasirəsi uzandı. Belə olanda Nadir burada da yaxından axan çayın suyunu qala divarlarının dibinə istiqamətləndirdi. Bu tədbirin nəticəsində su qala daxilinə nüfuz etdi və qala daxilindəkilər yaranmış çətin vəziyyətdə Nadirə təslim olmağı qərara aldılar (83).

Nadir Bağudadə qalasını mühasirə etdiyi vaxt Zağçənd adlı qalanın rəhbəri də kimsəyə tabe olmaq istəmədiyi və müstəqil qalmaq istəyi barədə xəbərlər yayırdı. Bu xəbər Nadirə də çatdı və o, yaxın silahdaşlarından olan Təhmasibqulu xan Cəlayirin rəhbərliyi altında Zağçəndə bir dəstə göndərdi. Qalanın rəhbəri Qara xan, Təhmasibqulu xan Cəlayirin rəhbərliyi altında silahlı dəstənin yaxınlaşmasını eşidəndə Mərv özbəklərindən kömək istədi. Özbəklər də bu köməyi göstərdilər. Onların silahlı dəstəsinin yetişməsi Təhmasibqulu xan Cəlayirin vəziyyətini pisləşdirdi. O, Nadirin yanına adam göndərib ondan əlavə kömək istədi. Nadir bu barədə xəbər alan kimi özü dəstəsi ilə birlikdə Zağçəndə yollandı və əvvəlcə özbəklərlə döyüşə girişdi. Bu dəstələr arasında döyüş qızışanda Qara xan qaladan çıxıb dəstəsi ilə özbəklərə dəstək verdi. Nadir əslində iki dəstənin zərbəsi altına düşdü. Belə bir vəziyyətdə onun nümayiş etdirdiyi əzmkarlıq və döyüşgənlik

ətrafındakıları da güclü düşmənlə mübarizəyə səfərbər etdi. Seçdiyi düzgün taktika ilə bir neçə saat sürən döyüş Nadirin qələbəsi ilə başa çatdı. Özbəklər çoxlu itki verərək geri qaçmağa məcbur oldular. Onların nümayəndələri Nadirlə əlaqə yaradıb əsir düşmüş özbəklərin geri qaytarılmasını xahiş etdilər. Nadir bu xahişi yerə salmadı və özbək əsirlərini geri qaytardı. Onların geri çəkilməsindən sonra isə Zağçənd qalasını almaq elə də uzun sürmədi. Nadir oranın sakinlərinin çoxunu Əbivərd çöllərinə köçürdü ki, qalada bir daha ona qarşı güclü müxalifət yaranmasın (84).

"Aləm Ara-ye Naderi" əsərində Nadirlə Məlik Mahmud arasında baş vermiş döyüşlər haqqında da məlumatlar vardır. Mənbəyə görə bu döyüşlərdən biri Məlik Mahmudun özünü hakim elan etməsi ərəfəsində baş vermişdi. Məlik Mahmudun özünü qədim padşahlar nəslindən elan etməsi, öz adına sikkə vurması və xütbə oxutdurmağa hazırlaşması və bundan sonra Əbivərd və Dərgəzə gedərək ona tabe olmaq istəməyənlərə dərs verməyə hazırlaşması barədə xəbərlər Nadiri qabaqlayıcı addımlar atmağa sövq etdi. Onun göstərişinə əsasən 1200 nəfərlik bir dəstə təşkil edildi və bu dəstə Nadirin rəhbərliyi altında Məşhədə doğru üz tutdu. Siyahab çayı hövzəsinə çatanda Nadir dəstəni iki yerə böldü. 400 nəfərlik birinci dəstəni Nadir şəhərə istiqamətləndirdi. 800 nəfərlik ikinci dəstə isə Məşhədin yarım fərsəngliyində mövqe tutdu. Məlik Mahmud, Nadirin qoşun çəkməsi xəbərini eşidəndə beş min nəfərlik dəstənin döyüş mövqeyinə çıxarılmasına əmr verdi. Nadirin döyüş məharəti haqqında çox eşidən Məlik Mahmud mütləq say üstünlüyünü yaratmaqla ona öldürücü zərbə vurmaq niyyətində idi. Amma onun say üstünlüyünə malik olması Nadiri heç də qorxutmadı və çox böyük sürətlə Məlik Mahmudun qoşununun cinahlarından birinə zərbə vurub öz mövqeyinə çəkildi. Məlik Mahmud daha çevik hərəkət üçün 1200 nəfərlik bir dəstə yaratdı və onu Nadirlə döyüşə atdı. Bu zərbə qüvvəsinin qarşısını almaq üçün Nadir də dəstəsini iki yerə böldü. Hər iki qrup hücuma keçib Məlik Mahmud qüvvələrinin cinahlarını tutdu. Az qala mühasirə vəziyyətinə düşən Məlik Mahmudun qüvvəsinə güclü zərbə vuruldu və döyüş təşəbbüsü Nadirin əlinə keçdi. Belə olanda Məlik Mahmudun qüvvələri qaçmaqla canlarını qurtarmağa çalışdılar. Məhəmməd Kazım Mərvi xəbər verir ki, Nadirə dərs vermək istəyən Məlik Mahmudun dəstəsi elə bir vəziyyətə düşdü ki, döyüş meydanı bu dəstənin üzvlərinin meyitləri, onların kəsilib yerə düşmüş qolları və başları ilə örtülmüşdü. Sağ qalanlar isə tülkü sürüsü kimi qaçıb dağılışdılar. Məlik Mahmud da canını qaçmaqla qurtara bildi. Qalib gələn

Nadir dəstəsi isə Xacə Rəbi yaxınlığında gecələyib səhər Əbivərdə qayıtdı (85).

"Aləm Ara-ye Naderi" əsərində apardığı məhəlli döyüşlər zamanı Nadirin geniş humanistlik nümayiş etdirməsi də təsvir olunur. Yuxarıda qeyd olunduğu kimi, bu döyüşlərdən birində Nadir onunla əməkdaşlıqdan üz döndərmiş Aşur xana güclü zərbə vurduqdan sonra onu bağışlamış və hətta bəzi yürüşlərə rəhbərlik etməyi də ona tapşırmışdı. Amma Aşur xan yenidən itaətsizlik yolu tutaraq Nadirdən üz döndərdi və ona qarşı mövqe tutdu. Hətta Çeşmgəzək elinin rəhbərlərindən olan Cəfər bəy Şadlını da öz tərəfinə çəkib birlikdə fəaliyyətə başladılar. Nadir isə ona qarşı sədaqətsizlik nümayiş etdirənlərə çox sərt münasibət göstərərdi və vəziyyətin düzəldilməsi üçün təcili tədbirlər görməyə çalışardı. Ona görə də Nadir xüsusi bir qoşun dəstəsi hazırlayıb Aşur xan Papalının sığındığı qalaya göndərdi. Bir dəfə Nadirin nəyə qadir olduğunu görən Aşur xan bu dəfə də onun qüvvələri qarşısında duruş gətirə bilmədi və qalaya sığınmalı oldu. Aşur xanın müttəfiqi olan Cəfər bəy isə əməlindən peşman oldu və Nadirə xəbər göndərdi ki, əgər günahını bağışlasa müqaviməti dayandırıb qaladan çıxar və öz yurduna qayıdar. Nadir onun üzrxahlığını qəbul etdi və ona öz yurduna qayıtmaq üçün şans verdi. Təkləndikdən sonra Aşur xan da müqaviməti çox davam etdirmədi və yenidən Nadirə itaət edəcəyini bildirdi. Qalanın mühasirəsində iştirak edən qardaşı İbrahimin xahişi ilə Nadir bu dəfə də Aşur xanın günahlarından keçdi və onu azad buraxdı. Aşur xan yenidən Nadirin dəstəsinə qəbul olundu və Əbivərdə yola salındı (86).

Aşur xanın sığındığı qalanı mühasirə etdiyi vaxt Nadirə xəbər çatdırdılar ki, Əli elinin tərəkəmə camaatı da ona qarşı itaətsizlik yolunu seçibdir. Görünür, Aşur xanın qalasının ələ keçirilməsinin bir neçə gün sürə biləcəyini anladığından Nadir oradakı qüvvələri qardaşı İbrahimin rəhbərliyi altına verib özü başqa bir dəstə ilə Əli eli camaatının yaşadığı məntəqəyə üz tutdu. Nadir elə bir sürətlə bu məntəqənin üzərini aldı ki, yerli camaatın özünü toparlamağa belə imkanı olmadı. Nadirin dəstəsi "Aləm Ara-ye Naderi" əsərinin müəllifinin yazdığına görə, itaətsizlik yolu tutmuş camaatın 1000-2000 nəfərini qətlə yetirdi, 2-3 min nəfəri əsir götürdü və onların çoxlu mal-qarası əfşar döyüş-çülərinin əlinə keçdi. Əfşarlar bu camaatın yaşadığı qalaya daxil olan-da sakinlərin ah-fəqan səsləri ilə qarşılaşdılar və onlar öz nümayən-dələrini Nadirin yanına göndərib bağışlanmalarını xahiş etdilər. Nadir də bu xahişi qəbul etdi. Ora yeni hakim təyin edildi.

Camaatı itaətsizliyə təhrik edən bir neçə adam isə oradan uzaqlaşdırıldı və Əbivər-də göndərildi (87).

Nadir xan, Aşur xana qarşı döyüşdə olarkən Xarəzm hakimi Şirqazi xanın nümayəndələri onun yanına gəldilər. Ona xəbər çatdırıldı ki, Xarəzm tacirləri Məşhəddən ticarət edib geri qayıdanda Çehçehe adlı məntəqədə onlardan bac tələb ediblər və həmin bac verilməyəndə ticarət karvanı talan edilib. Elçilər həmin malların geri qaytarılmasını Nadirdən xahiş etdilər. Döyüşdə olduğu üçün Nadir onları Əbivərdə göndərdi və bir neçə gün orada gözləmələrini xahiş etdi. Sonradan Nadir nəinki Xarəzm tacirlərinin alınmış mallarını geri qaytardı, eyni zamanda özü də onlara bahalı hədiyyələr verdi. Bu faktın özü Nadiri yol kəsməklə, karvan vurmaqla məşğul olduğunu iddia edən bəzi tarixçilərin və tədqiqatçıların qənaətlərinin götür-qoy edilməsi, habelə Nadirin şəxsiyyətinin dəyərləndirilməsi üçün əsas ola bilər.

Nadirin yanına eyni zamanda Mərv vilayətinin qızılbaş əhalisinin nümayəndələri gəldilər. Onlar da Nadirdən kömək istədilər. Mərv qızılbaşları vilayətdə yaşayan tatarların onları incitməsindən şikayət etdilər. Qızılbaşların sözünə görə, tatarlar Məlik Mahmud tərəfindən müdafiə olunurdu. Mehdi bəy adlı birisinin vilayət nayibi təyin edilməsindən sonra qızılbaşların vəziyyəti xeyli ağırlaşmışdı. Vilayətdə hərc-mərclik, qanunsuzluq, soyğunçuluq halları baş alıb gedirdi. Bu çətinliklərlə qarşılaşan insanların çıxış yolu üçün bir ümid yeri də yox idi. Tatarlar arasında bir sıra əyanlar və xanılar da özlərini qızılbaşların dost kimi elan etsələr də, əslində onlara heç bir yardımı çatmırdı. Qızılbaşların rəhbərlərindən olan Polad bəy mövcud olan çətinliklərə son qoymaq və əhalinin güzəranını yüngülləşdirmək üçün tatar və qızılbaş sərkərdələrini qonaq çağırıb onları barışdırmağa cəhd göstərdi. Amma qonaqlıq zamanı tatarlar daha bir xəyanətə yol verdilər, silaha əl atıb qızılbaş sərkərdələrindən və əyanlarından 22 nəfəri qətlə yetirdilər (88).

Bu hadisədən sonra tatarlar Mərv qalasını tərk edib Türkmən qalasında məskunlaşdılar. Qızılbaşların yaşadığı Mərv qalası onlar tərəfindən aramsız hücumlara məruz qalırdı. Bununla Mərv qızılbaşlarının vəziyyəti xeyli çətinləşdi. Şəhərdə yayılmış yoluxucu xəstəliklər isə onların çətinliklərini daha da artırdı. Tatarlardan başqa yəmut və türkmən tayfaları da mütəmadi olaraq Mərvə soyğunçu hücumlar edirdilər. Belə olanda Mərv qızılbaşları çıxış yolu axtarmağa başladılar. Onlar əvvəlcə Xorasan kürdlərindən kömək almaq niyyətinə düşdülər. Bir neçə nümayəndə isə kömək almaq üçün Ətəkə göndərildi. Məhz orada qızılbaş nümayəndələrinə məsləhət bilindi ki, Nadi-

rin yanına yollansınlar və ondan kömək istəsinlər. Onlar belə də etdilər. Qızılbaş nümayəndələri Əbivərddə Nadir tərəfindən mehribanlıqla qarşılandı və bir neçə gün orada qonaq qaldılar. Qızılbaş nümayəndələri Nadirdən xahiş etdilər ki, onları hətta suyu da onların üzünə bağlamış olan tatarların zülmündən xilas etsin.

Nadir isə hələ də Əbivərd ətrafındakı məntəqələrin öz itaəti altına gətirilməsi ilə məşğul olduğu üçün qızılbaşlara kürdlərin ağsaqqalı olan Şahverdi xana müraciət etməyi məsləhət bildi. Nadir əmin idi ki, kürdlər bu müraciətə müsbət cavab verəcəklər. Onlar Mərvə silahlı dəstə göndərəcəyi halda Nadir də özünün dəstələrindən birini onlara qoşa bilərdi. Nadirin qızılbaşlara birbaşa kömək göstərmək imkanının olmaması cavabı qızılbaşları razı salmasa da onun məsləhətinə qulaq asdılar və Şahverdi xanın görüşünə yollandılar. Şahverdi xan da Mərv qızılbaşlarına birbaşa köməkdən imtina etdi və nümayəndələrə məsləhət gördü ki, bu köməyi Xorasan hakimi Məlik Mahmuddan istəsinlər. Onun fikrincə, Məlik Mahmud Xorasan vilayətinin hakimliyinə iddia edirsə xorasanlıların qayğısını da çəkməli və vilayət əhalisinin çətinliklərinin həllinə çalışmalı idi. Bununla belə, Şahverdi xan onu da əlavə etdi ki, özü də mümkün köməyi göstərməyə çalışacaqdır (89).

Sözsüz ki, bu cavab da qızılbaş nümayəndələrini razı salmadı. Bununla belə, onlar Məlik Mahmuda da müraciət etməkdən imtina etmədilər və bu məqsədlə Məşhədə yollandılar. Həmin günlərdə Mərv tatarlarının böyüklərindən sayılan Əsgər bəy adlı birisi də Məşhədə yollanıb Məlik Mahmudla görüşdü və ona çoxlu qiymətli hədiyyələr bağışladı. Ona görə də qızılbaşlar Məlik Mahmuddan ümidində olduğu cavabı ala bilmədilər. Onda qızılbaşlar yenidən yeganə çıxış yolunu Nadirə müraciət etməkdə gördülər. Yenidən onun yanına yollanmağa hazırlaşanda Nadirin elçisi özü onların yanına gəldi və bildirdi ki, ən yaxın zamanlarda Nadir onlara kömək göstərəcəkdir. Bu xəbərə baxmayaraq, qızılbaş nümayəndələri Nadirin yanına getmək fikrindən dönmədilər. Onlar Nadirlə görüşdülər və əmin oldular ki, yaxın vaxtlarda kömək ala biləcəklər. “Aləm Ara-ye Naderi”nin verdiyi məlumata görə, bu görüşdən iki ay sonra Nadir dəstəsi ilə Mərvə doğru hərəkətə başladı. Həmin məlumatdan görünür ki, tatarlar Nadirin dəstəsinə ciddi əhəmiyyət vermir və onları çarıxlı əfşarlar adlandırır-dılar. Şübhə etmirdilər ki, 500 nəfərlik dəstələri ilə Nadirin 5 minlik dəstəsini məhv edəcəklər.

Nadir əvvəlcə iki gün Polad xan Qacarın qonağı oldu və iki günlük istirahətdən sonra dəstəsi ilə Türkmənqalaya doğru hərəkətə başladı. Bənd-e Canəli çayı və Həsənqala yaxınlığına çatanda tatarların 10 min

nəfərlik piyada qoşunla onu gözlədiklərinin şahidi oldu. Tərəflər arasında başlanan qızğın döyüşdə əfşarlar dərhal üstünlüyü ələ ala bildilər. Tatarlar göstərdikləri bütün cəhdə və malik olduqları say üstünlüyünə baxmayaraq Nadirin və onun cəngavərlərinin təzyiqinə duruş gətirə bilmədilər və geri çəkilmək məcburiyyətində qaldılar. Əfşarlar döyüşün elə ilk günündə Türkmənqalanı ələ keçirdilər, qalanın var-yoxuna sahib çıxdılar, orada yaşayan tatarları əsir etdilər. Amma sonra arvad və uşaqları azad etdilər. Məntəqədə asayişin sabit qalması naminə Nadir tatar əyanlarının bir çoxunu Əbivərdə köçürdü, Polad bəyi isə Mərv hakimi elan etdi. Sonra da Mərv cavanlarından min nəfərə qədəri öz dəstəsinə qatıb geri qayıtdı (90).

Mərvə öz adamını təyin edəndən sonra Əbivərddən Xəbuşana qədər olan ərazi Nadirin nəzarəti altına düşdü. Bu ərazidə nəzarəti təmin edəndən sonra Nadir kürdlər yaşayan ərazini də öz nəzarəti altına gətirməyi və təsir sahəsini genişləndirməyi qərarlaşdırdı. Bunun üçün yenidən dəstəsinə toplanmaq əmri verdi və kürdlərin üzərinə hücuma keçdi. Kürd ağsaqqallarından olan Şahverdi xan Nadirin qoşun çəkməsi xəbərini eşidəndə ətrafdakı kürd bəylərinə xəbər göndərdi ki, öz dəstələri ilə Xəbuşan qalasına toplaşsınlar. Şahverdi xan onu da bildirdi ki, Nadirin dəstəsi çox böyükdür və əfşarlardan başqa həmin dəstənin tərkibində Sərəxsdən, Mərvdən, Şahicandan olan və habelə kürdlərdən toplanan dəstələr var. Bu xəbərdən sonra kürdlər Nadirə müqavimət göstərmək və ona itaəti qəbul etməmək üçün Xəbuşan qalasına 30 minlik dəstə topladılar. Nadirin tabeliyində olan dəstənin isə 10-12 min nəfər miqdarında olduğu göstərilir. Kürd bəyləri əvvəlcə Nadirə xəbər göndərib ondan qoşunla Xəbuşana gəlməsinin səbəbini soruşdular. Nadir isə açıqca bildirdi ki, kürdlər yaşayan əraziləri də öz nəzarəti altında görmək istəyir. Kürdlər isə bu tələblə razılaşmadıqlarından tərəflər arasında qanlı və gərgin bir döyüş baş verdi. Nadirin həm sərkərdə, həm də döyüşçü bacarığı bu dəfə də özünü göstərdi. Onun döyüşü məharətlə idarə etmək bacarığı son nəticədə qələbəyə zəmin yaratdı.

Kürd Şahverdi bəy döyüşün başlanğıcında üç minlik dəstəsi ilə sol cinahdan Nadirin dəstəsinin sağ cinahına hücum etdi. Nadirin bu cinahdakı qüvvələrinə Təhmasib xan Cəlayir rəhbərlik edirdi. Onun bütün cəhdlərinə baxmayaraq kürdlərin güclü təzyiqlərinin qarşısını saxlamaq mümkün olmadı və Cəlayir döyüşçüləri geri çəkilməyə məcbur oldular. Döyüş meydanında baş verənləri diqqət altında saxlayan Nadir həmin cinahda vəziyyətin mürəkkəbləşdiyini görüb üç yüz nəfərlik seçmə dəstəsi ilə özünü ora yetirdi. Nadirin qulaq batırıcı

nərə ilə döyüşə atılması ilə orada cərəyan edən hadisələrə bir dəyişiklik gətirildi. Nadir burada özünün cavanlıq dövrünün ən yaxşı döyüşlərindən birini keçirdi. Nadir ani bir vaxt ərzində düşmən qüvvələri arasına vəlvələ saldı, qılıncı və təbərzini ilə çoxlarını həyatdan məhrum etdi. Fiziki gücü, əzmkarlığı, silah işlətmək bacarığı birləşərək düşməni göz açmağa imkan vermədi. "Aləm Ara-ye Naderi"nin müəllifi bu döyüşü təsvir etməklə onu da əlavə edir ki, əgər Əfrasiyab və İsfəndiyar bu səhnəni izləsəydilər Nadirin şücaətini sırğa edib qulaqlarından asardılar (91).

Təhmasib xan Cəlayir Nadirin bu şücaətini görüb daha da ruhlandı və ətrafındakıları da ilhamlandıraraq dəstəsi ilə kürd dəstələri üzərinə hücumu gücləndirdilər. İlk cəhddəki uğursuzluğun xəcalətinin əvəzini çıxmaq istəyi onlara əlavə güc verdi və kürd silahlıları onların əzmkarlığının qarşısını saxlaya bilmədilər. Kürdlər Nadirin dəstəsindən ağır zərbə aldılar və geri çəkilib Xəbuşan qalasına sığındılar. Amma anladılar ki, mühasirə olunmuş qalada uzun müddət davam gətirə bilməyəcəklər. Ona görə də kürd bəyləri Nadirdən xahiş etdilər ki, qoşununu Əbivərdə çəksin. Bundan sonra kürd bəyləri onun yanına gəlib şərtlərini öyrənsinlər. Nadir bu xahişlə razılaşdı və qoşununu geri çəkdi. Bununla da kürdlər yaşayan ərazilər də Nadirin nəzarəti altına düşdü.

"Aləm Ara-ye Naderi" əsərində Nadirin başqa bir neçə uğuru haqqında da məlumatlar vardır. Məsələn, Bəğayiri və Gəraylı camaatı da Nadirlə döyüşə girdilər, amma nəticədə ona itaət etməyə razı olduqlarını bildirdilər. Sərəxs istiqamətində yerləşən bir sıra məntəqələri də Nadir öz nəzarəti altına saldı və həmin məntəqələrdən böyük miqdarda qənimət gətirdi.

Nadirin sonrakı həyatı Təhmasib şahla olan ittifaqı ilə bağlıdır. Böyük Səfəvilər xanədanının son şahlarından olan II Təhmasiblə birləşənə qədər Nadir kifayət qədər zəngin döyüş yolu keçdi. Şah Təhmasibi onunla birləşməyə sövq edən də məhz Nadirin zəngin döyüş təcrübəsinə və şücaətə malik olması idi.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Şəbani Rza. Müxtəsər tarix-e İran dər doureha-ye Əfşariyyə və Zendiyye. Tehran, 1378, s.29
2. Müqtədir Qulam Hüseyn. Hərbha-ye bozorg-e Nader şah. Tehran, 1383,s.14
3. Tahirzadə Ədalət. Nadir şah. www.tehsil.20m.com/maqala/maq5-1/htm; www.geocities.com/book433/nadershah.htm ;
4. Pənahi Məhəmməd Əhməd. Nader şah. Tehran, 1382, s.7; Локкарт Л. Надир шах. Баку, 2004, с.25
5. Бакиханов А. Гюлистани Ирам. Б., 1991, с.137
6. Nader Şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.202-203
7. Yenə orada, s.201
8. http//www.destinationiran.com/carpet_makinq.htm
9. http//cgi.ebay.com/original-Afshar-tribal-rug-persian-66-X49-woqaitemz741560252qqcmdzviemitem
10. Sərdadvər Əbuturab. Tarix-e nezami və siyasi-ye douran-e Nader şah Əfşar. I cild, Tehran, 1378, s.466-467
11. Əlirza Əfşar Cem. Şir-i ba şəmşir. Tehran, 1383, s.24
12. Yenə orada, s.31
13. Larudi Nurulla. Nader şah pesər-e şəmşir. Tehran, 1383, s.30; Nəcmi Naser. Nader şah.Oqab-e Kelat. Tehran, 1382, s.21
14. Astrabadi Mirzə Mehdi xan. Tarix-e cəhanqoşa-ye Nader-i. Tehran, 1368, s.36
15. Бакиханов А., с.137
16. Локкарт Л., с.23
17. www.ozturkler.com/dataengilish/0003/00030222.htm www.rugreview.com/112b.htm; www/blinkbits.com/en_wikifeeds/oghuz_turks;
18. Tehranı Məhəmməd Şəfi. Tarix-e Nader şah. Nadername. Tehran, 1349, s.261
19. Yenə orada
20. Nəfisi Səid. Tarix-e ectimai və siyasi-ye İran dər doure-ye moaser.C.I, Tehran, 1376, s.13-14

21. Nəfisi ... s.14-15;  Şəbani Rza. Tarix-e təhəvvolat-e siyasi və ectimai-ye İran dər doureha-ye Əfşariyye və Zendiyye. Tehran, 1378, s.6
22. Şəbani Rza. Müxtəsər tarix-e İran ... x.27;
23. Şəbani Rza. Tarix-e ectimai-ye İran dər ərse-ye Əfşariyye. Tehran, 1373, c.42
24. Ədibüşşüəra Mirzə Rəsid. Tarix-e Əfşar. Tehran, 1346, s.9; Qodusi Məhəmməd Hüseyn. Nadername. Xorasan, 1339, s.25-26
25. Qodusi ... s.22;  Sərdadvər Ə. ... s.468
26. Şəbani R. Müxtəsər tarix-e İran .... s.27
27. Tarix-e Cəhanqoşa-ye Naderi ... s.36
28. Qodusi ... s.18
29. Yenə orada, s.20
30. Yenə orada, s.22-23
31. Ədibüşşüəra M. ... s.83
32. Mərvi, Məhəmməd Kazım. Aləm Ara-ye Naderi. C.I, Tehran, 1358, s.4-5
33. Qodusi ... s.15-16
34. Yenə orada, s.34
35. Persi Sayks. Tarix-e İran. C.II, Tehran, 1381, s.352
36. Aləm Ara-ye Naderi, c.I, s.7
37. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1381, s.7-8
38. Persi Sayks, ... s.356
39. Aləm Ara-ye Naderi, c.I, ... s.8-9
40. Yenə orada, s.9-10
41. Yenə orada, s.11;  Pənahi... s.20
42. Şəbani R. Müxtəsər tarix-e İran ... s.34; Nəcmi Naser, ... s.22; Hanvey C., ..s.9
43. Aləm Ara-ye Naderi, c.ı, ... s.10-11
44. Hanvey C., ... s.9
45. Əlirza Əfşar Cem. ... s.33
46. Sərdadvər Ə., ...s.476
47. Şəbani R. Müxtəsər tarix-e İran ... s.33
48. Aləm Ara-ye Naderi, c.I, ... s.13-14
49. Naser Nəcmi, ... s.22-23
50. Aləm Ara-ye Naderi, c.I, ... s.11
51. Aləm Ara-ye Naderi, c.I, ... s.11; Hanvey C. ,...s.9
52. Aləm Ara-ye Naderi, c.I, ... s.12
53. Hanvey C., ...s.9; Nəcmi N., ... s.23

54.Локкарт Л., … с.243
55.Aləm Ara-ye Naderi, c.I, ... s.14
56. Sayks P., ...s.357
57. Aləm Ara-ye Naderi, c.I, ... s.16-17
58. Pənahi M., ...s.31; Локкарт Л., … с.243
59. Aləm Ara-ye Naderi, c.I, ... s.35
60.Frezer Ceymz. Tarix-e Hader şah Əfşar və moxtəsəri əz tarix-e səlatin-e moqol dər hend. Tehran, 1363, s.54-55
61. Aləm Ara-ye Naderi, c.I, ... s.36
62. Müvərixdövlə Sepəhr. Rövzətüssəfa. Bax: İran dər zəman-e Nader şah. Tehran, 1362, s.144; Müqtədir ...s.15; Pənahi ... s.32
63. Tarix-e cəhanqoşa-ye Naderi ... s.44
64. Aləm Ara-ye Naderi, c.I, ... s.41-42
65. Yenə orada, s.42
66.Yenə orada
67. Yenə orada, s.43
68. Yenə orada
69.Yenə orada, s.44
70.Tarix-e cəhanqoşa-ye Naderi ... s.44
71.Kəşmiri Əbdükərim. Bəya-ne vaqe. Lahor, 1970, s.8
72. Локкарт Л., … с.244; Qodusi ... s.66; Larudi ... s.34
73.Qodusi ...s.66
74. Локкарт Л., … с.244
75.Hanvey C. Hocum-e əfqan və zəval-e doulət-e Səfəvi. Tehran, 1362, s.290-295; Yenə onun. Zendegi-ye Nader şah ... s.15-20
76. Hanvey C. Hocum-e əfqan ... s.292
77. Larudi ... s.32
78.Nəcmi N. ...s.30
79.Qodusi ... s.67
80.Sərdadvər ... s.489
81. Локкарт Л., … с.29
82. Larudi ... s.36
83.Sərdadvər ... s.490
84.Qodusi .. s.69-70
85.Aləm Ara-ye Naderi , c.I, .. s.45-46
86.Yenə orada, s.53-54
87.Yenə orada, s.54
88.Yenə orada, s.53-55
89.Yenə orada, s.57-58

90.Yenə orada, s.59-60
91.Yenə orada, s.61

# II FƏSİL

# NADİR ŞAHIN GƏNCLİYİ DÖVRÜNDƏ SƏFƏVİLƏR DÖVLƏTİNİN VƏZİYYƏTİ

## 1. Səfəvilər dövlətinin daxili vəziyyəti

Nadir şahın gəncliyinin təsadüf etdiyi XVIII əsrin əvvəllərində böyük Səfəvilər dövləti dərin böhran içərisində idi. Əslində, bu böhran xeyli əvvəl başlamış və Nadir Əfşarın gəncliyi dövründə onun süqutu dönməz xarakter almışdı. Dövlətin gücünün artırılması üçün ciddi siyasi islahatlar aparan və hakimiyyətin möhkəmləndirilməsi üçün saray əhatəsinin etnik tərkibinin dəyişdirilməsinə də əl atan Şah Abbasdan sonra dövrün və zamanın tələblərinə uyğun islahatların aparılmaması, saray daxilində adi və gündəlik əyləncələrin bir çox hallarda dövlət işlərini üstələməsi, ənənəvi idarəçilik üsulundan əl çəkilməməsi bu süquta zəmin yaratmışdı. Ulu əcdadlarından miras qalmış Səfəvi dövlətinin varlığının qorunması üçün ciddi addımlar atmayan Şah Səfinin, II Şah Abbasın, Şah Süleymanın erkən yaşlarında dünyalarını dəyişmələri də Səfəvi dövlətinin özülünə zərbə endirdi. Tarixçilər bu şahların dünyasını erkən dəyişməsində yüngül həyat keçirmələrini, eyş-işrətə qurşanmalarını da istisna etmirdilər. Şah Sultan Hüseynin və onun atası Şah Süleymanın hakimiyyəti illərində isə Səfəvilər xanədanının yalnız közərtisi qalmışdı.

Şah Süleymanın dövründə özünü qabarıq şəkildə nümayiş etdirən yarıtmaz idarəçilik üsulu Şah Sultan Hüseynin zamanında öz davamını heç də itirmədi. Bu, əslində məhv olmaqda olan bir saray mühitinin yararsızlığının nişanəsi idi. Hətta səhhətinin qorunması üçün həkim məsləhətlərini də qulaq ardına vuran və saray əyanlarının əlində əsirə çevrilən Şah Süleymanın şahlığı da formal bir xarakter almışdı. 47 yaşında səhhətinin ciddi problemləri ilə qarşılaşan Şah Süleyman onu bürüyən mühitdə elə bir qətiyyətsiz şəxsə çevrilmişdi ki, ölüm ərəfəsində olarkən varisinin kim olmasına da qərar verə bilmirdi. Belə bir qərarın qəbul edilməsini də o, saray əyanlarına həvalə etdi. Saray əyanları isə belə bir qərarın qəbul edilməsində dövlətçilik maraqlarını deyil, şəxsi mənafelərini üstün tutdular.

Mövcud olan məlumatlara görə, vəfatı ərəfəsində Şah Süleyman saray əyanlarını başına toplayıb taxt-taca varis seçilməsi ilə bağlı onlara öz vəsiyyətini çatdırdı. Bu vəsiyyət ondan ibarət idi ki, əgər saray əyanları dövlətçiliyi möhkəmləndirmək istəyirlərsə oğlu Abbas Mirzəni şah etsinlər. Yox, əgər eyş-işrəti, istirahəti, məmləkətin başlı-başına buraxılmasını istəyirlərsə onda Sultan Hüseyni şah seçsinlər (1).

Şah Süleymanın bu övladlarının hər ikisi hərəmxana tərbiyəsi görmüş, xacələr və xidmətçilər əhatəsində böyümüşdülər. Bununla belə, Abbas Mirzə daha ciddi xarakterə malik idi, fiziki məşğələlərə, hərbi xarakterli oyun və məşğuliyyətlərə böyük meyl göstərirdi. Bu da onun xarakterinin formalaşmasına müəyyən təsir göstərirdi. Sultan Hüseyn isə sarayın iç və kübar həyatının tərbiyəsini almaqla yumşaq xasiyyətli, kifayət qədər mülayim və dövlət idarəçiliyi üçün zəruri olan qətiyyətdən uzaq bir şəxs kimi formalaşmışdı. Tədqiqatçıların və müşahidəçilərin fikrincə, Sultan Hüseynə nisbətən Abbas Mirzədə şahlıq keyfiyyətləri daha çox idi (2).

Saray əyanları da bunu bilirdilər. Abbas Mirzənin taxta çıxması ilə öz mövqelərini itirə biləcəklərindən qorxduqları üçün onlar Sultan Hüseynin şahlığına tərəfdar çıxdılar və öz məqsədlərinə də nail oldular. 1694-cü ildə taxta çıxanda Şah Sultan Hüseynin 26 yaşı var idi. Taxta çıxan kimi onun adına sikkə vuruldu, məscidlərdə xütbə oxundu, vilayətlərə fərmanlar göndərildi ki, yerlərdə ona dualar edilsin (3).

Tarixi ədəbiyyatda olan məlumata görə, Şah Sultan Hüseynin taxta çıxması 1694-cü il avqustun 6-da Səadətabad qəsri yaxınlığındakı Aynaxanada baş verdi. Şahidlərin söylədiklərinə görə, Şah Sultan Hüseynin tacqoyma mərasimi İsfahanda böyük təntənə ilə keçirildi, Şah meydanı, bazarlar və meydanlar səhərə kimi çil-çıraqlarla işıqlandırıldı, küçələrə fil, şir, pələng və digər vəhşi heyvanlar çıxarıldı. Əhali yeni şahın hakimiyyətini böyük ümidlərlə qarşıladılar (4).

Deyilənə görə, Şah Sultan Hüseynin tacqoyma mərasimində sufilər ona yaxınlaşmalı və şahın belinə qılınc bağlamalı idilər. Şah buna icazə vermədi. Bu işi atası tərəfindən həmin vaxtlarda şeyxülislam vəzifəsinə təyin edilmiş və dövrün tanınmış müctəhidi olan Məhəmməd Bağır Məclisiyə tapşırdı. Sonra da şah ondan nə istəyi olmasını soruşdu. Məhəmməd Bağır ondan xahiş etdi ki, şərab içilməsini, təriqətlər arasındakı çəkişmələri, həmçinin göyərçin oyununu (quşbazlığı) qadağan etsin. Şah ona söz verdi və dərhal bu barədə fərman imzaladı. Şərab içilməsini qadağan edən fərmanda meyxanaların dağıdılması, mey kuzələrinin, şah sarayının anbarlarında saxlanılan 6 min Şiraz və

gürcü şərab qablarının sındırılması haqqında tələb var idi. Bu fərmanın icrası ilə bağlı səhəri gün şəhərdə iki nəfər şərab içən saxlanaraq Şah meydanında ciddi cəzalandırıldılar (5).

Söylənilənlər Şah Sultan Hüseynin xarakterinin bəzi mülayim cizgilərini təsəvvür etməyə imkan verir. Müşahidəçilərin və şahidlərin yazılarında Şah Sultan Hüseynin xarakterinin digər cizgiləri ilə də rastlaşmaq mümkündür. Məsələn, Şah Sultan Hüseynin sakit olması, çalışqan olması, pəhrizkar və dindar olması, namaz qılmağa meylliyi, mülayim əxlaqlı və sülhpərvər olması, dindarlığına görə onun "Molla Hüseyn" adlandırılması haqqında məlumatlar mövcuddur (6).

Şah Sultan Hüseynin müasiri olan keşiş Tadeuş Krosenski onun haqqında belə yazırdı: "O vaxta qədər İranda səltənət sahibi olan ən insani, ən mehriban və eyni zamanda ən süst şah idi. Onun qara bəxtli olmasının göstəricisi o idi ki, həddən artıq yaxşılıq və mehribanlıq padşah üçün lazım olan huş və fəziləti zəifliyə çevirir. Bu isə onun sevilməsindən daha çox təhqir olunmasına səbəb olur " (7).

Göründüyü kimi, Şah Sultan Hüseyn əxlaqa yad əməllərə zidd olsa da mülayimliyi, quruculuq işlərinə meylliliyi ilə fərqlənsə də daha çox xacələr tərəfindən formalaşdırılan bir mühitin yetirməsi idi. Sərt tələbləri ilə şərtlənən dövlət idarəçiliyinin təcrübəsinə və qətiyyətinə malik olmadığı üçün isə onun mülayimliyi şəxsi faciəsi ilə bərabər dövlət böhranının dərinləşməsinə, Səfəvilər dövlətinin süqutuna yol açdı. Müşahidəçilərin qənaətincə, Şah Sultan Hüseynin mülayimliyindən, günahkarları cəzasına çatdırmamasından daha çox elə günahkarlar özləri faydalanırdılar. Onlar öz əməllərini davam etdirirdilər, doğru insanlar isə öz ümidlərində yanıldıqlarının şahidi olurdular (8).

Bu qətiyyətsizliyin nəticəsi idi ki, Şah Sultan Hüseyn taxta oturarkən verdiyi vədlərinin də həyata keçirilməsinə nail ola bilmədi. Eyş-işrətə və yüngül həyata öyrəşmiş olan saray əyanları ilk növbədə şahın şərab içilməsini yasaq edən fərmanının ləğvinə nail oldular. Şah Sultan Hüseyn verdiyi fərmanın icrasında onun ətrafındakılardan xeyli gücsüz olduğunu nümayiş etdirdi və bu gücsüzlüyün aradan qaldırılması istiqamətində də lazımı addım atmadı. Harınlamış saray əyanları isə məqsədlərinə çatmaq, əvvəlki yüngül əyləncə ənənələrini bərpa etmək üçün planlar qurmağa başladılar. Bunun üçün onlar şahın hörmətini saxladığı əmisi arvadı Məryəm bəyimdən istifadə etdilər. Saray əyanları Məryəm bəyimin də şəraba meylli olduğunu bilirdilər. Onların qurduğu plana əsasən, Məryəm bəyim özünü xəstəliyə vurdu və xəbər yayıldı ki, onun xəstəliyinin əlacını həkimlər azacıq şərab içməkdə görürlər. Şah Sultan Hüseyn çox sevdiyi Məryəm bəyimin

xatirinə şərab tapılmasını və onun saraya gətirilməsinə icazə verdi. Bu xəbəri eşidən kimi saray əyanları şərab axtarmağa başladılar. Çünki şah fərmanından sonra ölkədə olan şərab ehtiyatları məhv edilmişdi. Uzun axtarışdan sonra saray əyanları İsfahanda olan Polşa səfirindən şərab tapa bildilər. Sarayda Məryəm bəyim şərabı içməkdən imtina etdi və dedi ki, şah qarşısında belə hörmətsizlik edə bilməz. Onu da bildirdi ki, əgər ilkin olaraq şah özü şərabı dadmasa bu addımı ata bilməz. Şah şərab içməyin haram olduğunu əsas gətirəndə Məryəm bəyim söylədi ki, səndən qabaqkı şahlar da şərab içirdilər. Onlar öz yorğunluqlarını şərabla çıxırdılar və dövlət işlərini yaxşı aparmaq üçün də şərab içirdilər. O, Şah Sultan Hüseynə müraciət edib soruşdu ki, şərab içmədiyin halda dövlət işlərinin yorğunluğunu necə aradan qaldıra bilirsən? Bundan sonra Şah, Məryəm bəyimin xahişi qarşısında uzun müddət müqavimət göstərə bilmədi. Ona uzadılan şərab piyaləsini başına çəkdi və bununla da şəraba bağlandı (9).

Saray əyanlarının istədiyi də elə bu idi. Şərab içilməsinə rəvac verməklə Şah Sultan Hüseyn onun ətrafını bürümüş olan mühit qarşısında növbəti güzəştə getdi. Özü də yenidən şəraba qurşanan Şah vaxtının bir hissəsini meyxanada, bir hissəsini də hərəmxanada keçirirdi. Hətta fərman da vermişdi ki, yeni-yeni xanımlar tapılsın və onun hərəmxanasına gətirilsin. Portuqaliyanın İsfahandakı səfiri öz xatirələrində yazırdı ki, Şah ova gedərkən hərəmxanası da onu müşayiət edirdi. Onun hərəmxanasında 500-dən artıq xanım var idi. Şahın və hərəmxanasının şəhər küçələri ilə hərəkəti zamanı kimsənin onlara baxmağa haqqı yox idi (10).

Şahın hərəmxanasında bu qədər qadının olub-olmadığını təsdiqləmək çətin olsa da hər halda hərəmxanaya bağlılıq Şah Sultan Hüseynin güclü meyllərindən biri idi. Və bu bağlılıq onun dövlət işlərinə həsr etməli olduğu vaxt hesabına həyata keçirilirdi.

Bununla, Şah Sultan Hüseyn Səfəvi sarayında qeyri-ciddi davranışın saray normasına çevrilməsini təsdiq edir və eyni zamanda saray əyanlarının da həyat tərzinin yüngül davranış üzərində qurulmasına, bu həyat tərzinin nəzarətdən çıxmasına zəmin yaradırdı. Odur ki, sarayda sağlam düşüncə deyil, xurafat, təvəkkül, mövhumat və intriqa ab-havası mövcud idi. Bu da saray təfəkkürünün kütləşməsinə, sarayla xalq arasında uçurumun genişlənməsinə, həlli aktuallıq tələb edən məsələlərə qarşı biganəliyin və laqeydliyin güclənməsinə yol açırdı.

Şah Sultan Hüseynin hədsiz dindarlığı, olacağa etiqadı, ən adi təşəbbüskarlığa belə laqeyd münasibəti dövlət idarəçiliyinin ümumi

məzmununu müəyyənləşdirirdi. Fəallıq göstərməyi xoşlamayan bir insan kimi onun nəzərində həyatda baş verənlər qəzavü-qədərin nəticəsi idi və bu qəzavü-qədərin gedişinə müdaxilə edilməsi mənasız idi. Tarixi ədəbiyyatda şahın bu keyfiyyəti ilə bağlı nümunələrə çox rast gəlmək olar. Bu faktlara tənqidi yanaşılmalı olsa belə, Səfəvilər dövlətinin böhranının günü-gündən dərinləşməsi söylənilənlərin heç də həqiqətdən uzaq olmadığını nümayiş etdirir. Şahidlərin şəhadətinə görə, 1706-cı il yanvarın 12-də şah öz əyanları ilə birlikdə şam yeməyinə toplaşıbmış. Bu zaman qəsrin hündür sütunlarından birini od tutur. Kimsə onun söndürülməsinə cəhd etmədiyi üçün qısa vaxtdan sonra yanğın daha geniş ərazini əhatə edir. Şah Sultan Hüseyn heç kimə icazə vermir ki, yanğının söndürülməsinə çalışsın. Onun fikrincə, əgər yaradanın iradəsi bütün sarayın yanmasına istiqamətlənibsə, buna qarşı çıxmağın mənası yox idi (11).

Tədqiqatçılar bu faktları Şah Sultan Hüseynin qətiyyətsizliyinin, malik olduğu yumşaqlığının dövlət idarəçiliyinin tələbləri ilə uzlaşmamasının nümayişi kimi önə çəkirlər. Onun hətta quşların ölümündən təsirlənməsi və çarəsiz bir hala düşməsi haqqında da məlumatlar mövcuddur. Bu barədə T.Krosenskiyə istinadən L.Lokkart məlumat verir. Onun sözlərinə görə, Şah Sultan Hüseyn adəti üzrə hovuzda üzən ördəklərə tərəf bir neçə ox atıb onları uçmağa məcbur edir və sonra da bu mənzərəni seyr edirdi. Bir dəfə də belə bir iş görəndə bir neçə quşu yaralayır. Şah bundan xeyli mütəəssir olur və Azərbaycan türkcəsində "qanlı oldum" deyib əməlindən təəssüfləndiyini bildirir (12).

Quşlarla bağlı yuxarıda söylənilən hadisənin təsvirinin ardınca Lokkart, Şah Sultan Hüseynin idarəçilik qabiliyyətinin başqa bir zəif cəhətinə də toxunur. O da təsdiq edir ki, Şah Sultan Hüseyn dövlət idarəçiliyi işlərinə elə də meylli deyildi və bu iş əslində saray əyanlarının əlində idi. İrəli sürülən hər təklifə qarşı Şah Sultan Hüseyn "yaxşıdır" deyə Azərbaycan türkcəsində cavab verərmiş. Ona görə Şah Sultan Hüseynə "yaxşıdır" ləqəbi də veriblərmiş (13).

Şah Sultan Hüseynin Azərbaycan türkcəsini yaxşı bilməsi və məişət ünsiyyətini daha çox bu dil üzərində qurması haqqında digər əsərlərdə də xeyli məlumatlar mövcuddur. Bu adət bütünlükdə Səfəvi xanədanının mühüm xarakterik xüsusiyyətlərindən biri idi. Amma dövlətçilik sahəsindəki təcrübəsizlik və laqeydlik Səfəvi hakimiyyətinin süqutunu yaxınlaşdırırdı.

Səfəvilər dövlətinin süqutunu şərtləndirən amillərdən biri heç şübhəsiz ki, dövlətin siyasətinin düzgün qurulmaması, bu siyasəti forma-

laşdırıb həyata keçirə biləcək müvafiq dövlət aparatının olmaması idi. Şahın ətrafını bürümüş olan dövlət qulluqçularının, saray əyanları təbəqəsinin təsadüfi adamlardan ibarət olması bu işi daha da çətinləşdirirdi. Şah tərəfindən rəhbərlik edilən bu aparat dövlətin istiqrarını nəinki təmin etmədi, iqtisadiyyatın inkişafına zəmin yaratmadı, heç ölkənin vahid mərkəzdən sabit şəkildə idarə olunmasını belə təmin edə bilmədi. Hətta dövlətin mövcudluğu üçün yaranmış təhlükə belə lazımi səviyyədə qiymətləndirilə bilmədi. Bu da hərc-mərcliyə, dövlətdə parçalanmaların başlanmasına, qiyamların vüsət tapmasına yol açdı.

Şah sarayında baş nazir və ya etmadüddövlə vəzifəsi var idi. Qısa müddət ərzində bu vəzifəyə bir neçə şəxs təyin edildi. Onların arasında Şahqulu xanın, Məhəmməd Şamlının, Mirzə Tahir Qəzvininin, Fətəli xan Dağıstanının, Məhəmmədqulu xanın adlarını çəkmək olar (14). Amma bu şəxslər ya bacarıqsızlığı ilə harınlamış olan saray əyanları dəstəsini tamamlayırdılar, ya da dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində göstərdikləri cəhdlərə görə saray əyanlarının intriqalarının qurbanı olurdular. Şah tərəfindən lazımi dəstək ala bilmədikləri üçün isə etimaddüdövlə vəzifəsinə təyin edilənlər sarayın formal bir əlavəsinə çevrilirdilər.

Şah Sultan Hüseyn sarayında aparıcı mövqelərdən birini mollabaşı tuturdu. Nüfuzu etibarilə mollabaşı etimaddüdövlə səviyyəsinə bərabər tutulurdu. Mollabaşı Səfəvilər hakimiyyətinin dini əsaslarının möhkəmləndirilməsinə çalışmalı idi və onun böyük səlahiyyətləri var idi. O, dövlət işlərinə müdaxilə etməkdən də çəkinmirdi. Mollabaşının şah üzərində də kifayət qədər təsiri var idi və mövqeyi etibarilə şahın qəbul etdiyi qərarlara da müdaxilə edə bilirdi. Mollabaşı ölkədəki dini işlərə rəhbərliyi altında olan şeyxülislam və sədrülməmalik vasitəsilə nəzarət etməyə çalışırdı. Bu şəxslər dinin yayılması və gücləndirilməsi adı altında bəzən ifrat vasitələrə əl atır, xüsusilə sərhəd bölgədə məskunlaşmış sünnilərə çətinliklər yaradırdılar. Sünnilərə qarşı olan etimadsızlıq və təzyiqlər isə son nəticədə onların mərkəzi dövlətə qarşı narazılıqlarının artması ilə müşayiət olunurdu.

Mollabaşı Molla Məhəmmədin ölümündən sonra onun yerini nəvəsi Molla Məhəmməd Həsən tutdu. Mövcud olan məlumata görə, saray mühitində tərbiyələnmiş bu şəxs lazımi dini savada malik deyildi. O ətrafına topladığı adamlarla daha çox sərvət qazanmaq haqqında düşünür və özünə aid olan-olmayan işlərə müdaxilə edirdi (15).

Şah Sultan Hüseyn sarayında söz sahibi olan şəxslər arasında həkimbaşı ilə münəccimin də öz yeri var idi. Onların şahın işlərinə müdaxilə etmək, şahı bu və ya digər əməllərdən çəkindirmək ixtiyarları var idi. Əzəldən süstlüyü və qeyri-çevikliyi ilə tanınan Şah Hüseynin ən adi məişət təşəbbüsləri belə bu iki şəxs tərəfindən mütləq götür-qoy edilir, şahın əl atdığı işin xeyirli olub-olmayacağı barədə əvvəldən fikir söylənilirdi. Dövlətin idarəçiliyi ilə əlaqədar qərarların qəbul edilməsində də münəccimbaşı fəal rol oynayır, atdığı rəmllərlə şahın qəbul etmək istədiyi qərarlar haqqında ulduzların münasibətini müəyyənləşdirir, bundan sonra qərar qəbul edilməsi üçün şaha ya razılıq verilir, ya da o bu qərardan çəkindirilirdi. Şah bu insanların fikrinə müti idi. Ona görə də ölkədəki siyasətin formalaşdırılması və icrası münəccimlərin və digərlərinin münasibətindən və mövqeyindən birbaşa asılı idi.

Sipəhsalar və ya qoşunların baş komandanının da saray əyanlarının sırasında və dövlət aparatında öz yeri var idi. Şah İsmayıldan və Şah Abbasdan irs qalmış böyük Səfəvilər dövlətinin hərbi təhlükəsizliyinin təmin edilməsi sipəhsaların üzərinə düşürdü. Böyük sayda qoşunların formalaşdırılması, müharibələrin idarə edilməsi müvafiq təcrübəni tələb etsə də, çox zaman bu vəzifəyə saraya sədaqəti və ya şah sarayına loyallığı ilə seçilən şəxslər təyin edilirdilər. Hətta belələrinin də fəaliyyəti əksər vaxtlarda şahın təvəkkülçü mövqeyi, münəccimin gələcəyə proqnozları ilə istiqamətləndirilirdi.

Yuxarıda adları çəkilən şəxslər və müstəqil komandanlar hesab olunan qorçubaşı (süvari komandanı), qullarağası (qulamların ağası), tüfəngçibaşı və topçubaşı saray şurasını təşkil edirdilər. Müəyyən hallarda şah onların toplantısını çağırır və onların məsləhətlərinə qulaq asırdı. Saray intriqaları içində böyüyən, xalq və ölkə taleyindən çox-çox uzaq düşən insanların müzakirəsinə çıxarılan məsələlər çox vaxt da elə bu insanların şəxsi maraq dairəsindən, ya da cari işlərdən uzaq düşmürdü.

Tarixçilər və tədqiqatçılar Səfəvi xanədanının süquta uğramasında saray xacələrinin də xüsusi "rola" malik olduqlarını təsdiq edirlər. Xacələr təbəqəsinə aid olan insanlar şahın şəxsi həyatına bağlılıqlarından məharətlə istifadə edərək onu öz təsir dairəsində saxlamağa çalışırdılar. Şah Abbas hakimiyyəti dövrünə qədər saray xacələri əsasən qeyri-müsəlmanlardan toplanır, müsəlmanlaşdırılır və xacə vəziyyətinə salınırdılar. Ailə qayğılarından uzaq olmaları və yad torpaqlardan olması etibarilə xacələr şah xəzinəsinin, sərvətlərinin qorunmasına da məsuliyyət daşıyırdılar. Onların da bu vəzifəni

layiqincə icra etməkdən başqa seçimləri yox idi. Bir sözlə, Şah Abbas hakimiyyətinin sonuna qədər xacələr daha çox şahların yataq taxtlarının qoruqçuları kimi tanınırdılar. Ancaq kəsb etdikləri məqam baxımından Şah Sultan Hüseyn dövründə xacəsaraylar şahın yataq taxtının qoruqçusundan, şahın taxt-tacının qoruqçusuna çevrilmişdilər (16).

Xacəsarayların vaxtilə əhali arasında at minmək ixtiyarı yox idi. Onlar cəmiyyətin ən alt təbəqəsinin nümayəndələri kimi yalnız qatır və uzunqulaq üzərində hərəkət edə bilərdilər. Bununla onlar saray əyanlarından seçilir və ətrafdakıların da gülüş obyektinə çevrilirdilər. Şah Sultan Hüseyn vaxtında xacəsaraylar saray mühitində özlərinin ən yüksək məqamına çatdılar. Həmin dövrdə onlar artıq camaatın qınaq və məsxərə obyekti olan insanlar deyildilər. Onlar şah siyasətinə ciddi təsir edə bilən, camaat arasına bahalı və daş-qaşlı libaslarla çıxan nüfuzlu əyanlara çevrilmişdilər. Xacəsaraylar öz təsir imkanlarından istifadə edərək şah fərmanı ilə xoruz döyüşdürülməsinin qadağan edilməsinə də nail olmuşdular. Deyilənə görə, xoruz döyüşü xacəsarayların şəstinə toxunur və onların öz kişisizliyini qabarıq şəkildə hiss etmələrinə səbəb olurmuş (17).

Şah Sultan Hüseynin uzun müddət xəstə yatan atası Şah Süleyman onun şəxsinə göstərilən xidməti dövlətə göstərilən xidmət kimi qiymətləndirirdi. Yataq taxtının xidmətçiləri kimi xacələrin ona etdikləri qulluğun əvəzində Şah Süleyman onların hər sözünə əməl edərdi. Bununla xacəsaraylar elə bir mövqe əldə etdilər ki, ən böyük işlər məhz onların vasitəsilə həyata keçirilirdi, ən böyük vəzifələr onların məsləhəti və xahişi ilə müəyyənləşdirilirdi. Ona görə ən nüfuzlu şəxslər belə öz məqsədlərinə çatmaq yolunda şaha vasitəçilik üçün xacələrə müraciət edirdilər. Ən nüfuzlu adamlar haqqında bu və ya digər məlumatlar da şaha çox vaxt xacələr tərəfindən çatdırılırdı. Xacələrin bu məlumatlarının şaha necə çatdırılmasından isə çox vaxt həmin şəxsin taleyi həll olunurdu.

Belə bir ab-hava Şah Sultan Hüseyn sarayında da qalmaqda idi. Əfqanların İsfahana yürüşü ərəfəsində sarayın bir çox nüfuzlu vəzifəlilərinin öz vəzifələrindən uzaqlaşdırılmasında və ya yeni vəzifələrə təyin edilməsində xacələrin böyük rolu var idi. Bu da sözsüz ki, saray daxilindəki hərc-mərcliyi artırır, dövlətin imkanlarının ehtimal edilən təhlükələrə qarşı səfərbər edilməsinə mane olurdu.

Xacəsaraylar saray daxilində hərc-mərclik yaratmaqla, sarayın idarəçilik imkanlarını kütləşdirməklə bərabər, öz aralarında da intriqa və çəkişmələrə rəvac vermişdilər. Şah Sultan Hüseyn dövründə ağ

dərili xacələrlə qara dərili xacələr öz aralarında didişirdilər. Onların parçalanması, öz təsir dairələrinin genişləndirilməsi uğrunda mübarizə aparmaları və bu mübarizəyə saray əyanlarını cəlb etməyə çalışmaları bütünlükdə, saray daxilindəki mühiti daha da mürəkkəbləşdirir, böhranda olan sarayın süqutunu daha da yaxınlaşdırırdı (18).

Belə bir xəstə mühitin əsiri olan Şah Sultan sarayının bütün sahələr üzrə izlədiyi siyasət də natamam və yarımçıq, yarıtmaz və səbatsız idi. Bu özünü iqtisadi sahədə də göstərirdi. Ölkənin abadlaşdırılması qeydinə qalmayan saray siyasəti təsərrüfat sahəsində tənəzzülə uğramışdı. Münasib iqtisadi şəraitdən, bölgələrarası əlaqələrin gücləndirilməsindən, suvarma sistemlərinin genişləndirilməsindən və yerli əyanların ən adi yardımlarından məhrum olan təsərrüfat adamlarının zəhməti də səmərəsiz qalır və ölkənin tələbatını ödəməyə kifayət etmirdi. Xüsusilə, kənd təsərrüfatında kiçik və orta təsərrüfat vahidlərinin böhrana düşməsi və süquta uğraması (19) ölkənin iqtisadi həyatına ciddi zərbə vururdu. İqtisadiyyatın böhranı isə şəhərlərdəki ticarətin vəziyyətinin pisləşməsinə yol açırdı.

Saray daxilindəki hərc-mərcliyin əyalətlərə sirayət etməsi təsərrüfatçılıq sahəsində ciddi işlərin aparılmasını çətinləşdirirdi. İqtisadiyyatın dirçəldilməsi üçün məqsədyönlü siyasətin olmadığı kimi, bu sahədə təşəbbüs göstərməyə çalışanların qanunsuzluq və özbaşınalıqlarla üzləşməsi göstərilən cəhdlərin də nəticəsini heçə endirirdi.

İqtisadi durğunluq, kəndlilərin yoxsullaşması dövlətin gəlirlərinin də aşağı düşməsinə səbəb olurdu. Bununla belə, dövlət aparatının xərcləri azalmırdı. Əksinə, pul-əmtəə münasibətlərinin genişlənməsi bu xərcləri daha da artırırdı. Mövcud olan böhran eyni zamanda ölkənin xarici ticarət dövriyyəsini aşağı salırdı (20).

Getdikcə daha da şişən, bürokratlaşan və harınlaşan saray aparatının artan xərclərinin ödənməsini mövcud iqtisadi durum təmin edə bilmirdi. Həmin xərclərin zorla toplanması isə təsərrüfat adamlarına əlavə dözülməz çətinliklər yaradırdı. Saray əyanları xərclərin ödənməsinin ən asan yolunu vergilərin artırılmasında görürdülər. İqtisadi durğunluq elə bir səviyyəyə çatmışdı ki, hətta təsərrüfat adamlarının vergilərinin artırılması da xərcləri ödəməyə bəs etmirdi. Buna görə təsərrüfat adamları ilə bərabər, varlı və yuxarı təbəqə də artırılmış vergilərə cəlb edildi və onlara qarşı təzyiqlər artdı. Bununla, dövlətin mühüm dayaqlarından biri olan imkanlı və orta təbəqə də yoxsullaşma ilə üzləşdilər.

Artan xərclərin ödənməsi üçün əhalidən alınan vergilərin artırılmasına çalışan saray əyanları 1699-cu ildə 15 yaşından yuxarı olan-

ların siyahıya alınması üçün şah fərmanının verilməsinə nail oldular. Bu fərmana əsasən əhalinin mülkiyyəti və var-dövləti siyahıya alınırdı. Ölkə miqyasında aparılan siyahıya alma prosesi üç il davam etdi. Onun nəticəsi heç şübhəsiz ki, siyahıya alınanların xeyrinə deyildi. Bu siyahıya almadan sonra əmlaka və mülkiyyətə qoyulan vergi xeyli artırıldı. Mövcud olan faktlara görə, 3 il ərzində kəndlilərə və sənətkarlara tətbiq edilən vergilərin həcmi üç dəfə artırıldı. Bir çoxlarına artırılmış vergilər əfsanə kimi görünürdü. Onların ödənməsindən isə boyun qaçırmaq mümkün deyildi. Ona görə də vergilərin ödənməsinə gücü çatmayanlar öz yurd-yuvalarını tərk edib qaçırdılar (21).

XVIII əsrin ilk illərində Şirvanda olmuş missionerlərdən biri yazırdı ki, kəndlilər tamamilə var-yoxdan çıxıblar və hətta yaşadıqları yerlərdən qaçıb-getmək imkanlarını arayırlar. Əgər onların etibarlı sığınacaqları olsaydı çoxdan bu hərəkətə əl atardılar (22).

Bununla belə, artan vergilərdən yaxalarını qurtarmaq üçün doğma yerlərini tərk edib qaçanlar da az deyildi. Belə halların qarşısının alınması üçün də saray əyanları xüsusi şah fərmanının verilməsinə nail oldular. Həmin fərmanda bildirilirdi ki, gizlənən şəxsi kim tapsa və şaha bu barədə xəbər versə bu gizlənən şəxsin başı şaha, əmlakı isə xəbər verən şəxsə çatacaqdır (23).

Rusiya çarı I Pyotrun səfiri kimi İrana göndərilən A.P.Volınski iqtisadi tənəzzülün və böhranın nəticəsi kimi Səfəvilər dövlətində, o cümlədən də Azərbaycanda yaranmış vəziyyəti belə təsvir edirdi: "Səfəvilər dövlətinin taxıl anbarı hesab edilən Azərbaycanda tarlalar yeddi il ərzində əkilməmişdi və ölkədə aclıq hökm sürürdü. Dövlətin ağır xərclərini vergilər hesabına ödəyəcəyinə ümid edən şah hökuməti bu işi qaydaya salmaq məqsədilə əhalini yenidən siyahıya aldı (1699-1702). Həmin müddətdə əhalinin təkcə özü deyil, əmlakı da siyahıya alındı. Ötən üç ilin vergilərini yeni qayda ilə toplanması qərara alındı, bu da müəyyən edilmiş miqdardan üç dəfə artıq idi. Mövcud vergilərə üç yeni vergi əlavə edildi: "abi-kuran" kanalın tikintisində iştirak edə bilməyənlərdən alınırdı. "Şahzadə ixracatı" şahzadələrin xərclərini ödəmək üçün alınırdı. Başqa dinlərə mənsub olanlardan isə "iki dinar" can vergisi tutulurdu. Bəylərbəyilər şahın fərmanından istifadə edərək xalqı qarət etməkdə daha da azğınlaşır və toplanan vergilərin bir hissəsini özləri mənimsəyirdilər (24).

İqtisadiyyatın böhran içərisində olması, dövlətin ciddi maliyyə çətinlikləri ilə qarşılaşması ölkənin qoşunlarını da mürəkkəb vəziyyətə salmışdı. Qoşunların formalaşdırılmasına, onun müvafiq döyüş

hazırlığı səviyyəsində saxlanılmasına laqeydlik son nəticədə Səfəvilər dövlətinin süqutunu şərtləndirən amillərdən birinə çevrildi. Tədqiqatçıların qənaətinə görə, Şah Sultan Hüseyn hakimiyyətə gələndə qoşunlar artıq böyük böhran içərisində idi. Ölkədə hərbi qüvvələrə qarşı bir etimadsızlıq var idi və qoşunlar ölkənin təhlükəsizliyinin zamini kimi öz vəzifəsini həyata keçirə bilmirdi (25).

Ölkə qoşunları da əslində, xacələrin və münəccimlərin söz sahibi olduğu saray mühitinin əsirinə çevrilmişdi. Lazımi diqqətdən, qayğı və təminatdan uzaq olduğu üçün qoşunlar dövlət əleyhinə istiqamətləndirilmiş daxili iğtişaşların qarşısını almaqda çətinlik çəkirdi. Saray daxili intriqa və çəkişmələr isə idarəçilik qabiliyyəti olan şəxslərin qoşunların rəhbərliyinə gətirilməsinə imkan vermirdi. Saray əyanları hərbi qüvvələrin rəhbərliyində olan insanların da onların iradəsinin təmsilçisinə çevrilməsini istəyirdilər. Məhz buna görə də tədqiqatçıların fikrincə, Şah Sultan Hüseyn o dövrün ən bacarıqlı baş sərkərdəsi (sipəhsaları) olan Əlimərdan xanı saray əyanlarının təkidi ilə vəzifəsindən azad etdi və onun yerinə Əlimərdan xanın təcrübəsiz və bacarıqsız qardaşını təyin etdi. Saray əyanları bu məqsədinə nail olmaq üçün qardaşı-qardaşa qarşı qoymaqdan belə çəkinmədilər(26).

Qoşunların zəif olması isə mərkəzlə siyasi və iqtisadi bağlılığı nominal olan vilayətlərdə separatizmi və mərkəzdən qaçma meyllərini daha da gücləndirdi. Hakimiyyətin güc üzərində dayaqlandığı tarixi şəraitdə qoşunların taleyini laqeydliyə və düşünülməmiş çəkişmələrə qurban vermək, əslində dövlətin məhvinə rəvac verilməsi kimi qiymətləndirilməlidir. Şah Sultan Hüseynin hakimiyyətə gəlməsinin ilk illərinin nisbi sakitliyi də çox güman ki, saray əhlində qoşunların gərəksizliyi ilə bağlı kökündən yanlış olan təsəvvürlər formalaşdırmışdı. Güclü qoşunların mövcudluğu və ondan düzgün istifadə istənilən halda bütün daxili problemlərinə baxmayaraq Səfəvilər dövlətinin ömrünü müəyyən müddətə uzada bilərdi.

İqtisadiyyatın tənəzzülü, qoşunların zəifliyi ölkədə kriminal mühitin güclənməsinə də təkan verirdi. Şah Sultan Hüseyn dövründə ölkənin iqtisadi arteriyasını təşkil edən və əyalətləri mərkəzlə bağlayan karvan yolları qorxu və təhlükə altında idi. İstər daxili, istərsə də xarici tacirlər üçün bu yollarla hərəkət etmək və mal daşımaq son dərəcə risqli idi. Mənbələrdə göstərilir ki, hətta II Şah Abbasın dövründə ölkənin iqtisadi həyatındakı rolu nəzərə alınaraq karvan yollarının təhlükəsizliyi təmin olunmuşdu. Bu təhlükəsizliyin davamlı olması və tacirlərin rahatlığı üçün karvan müşayiətçiləri adlı şəxslər də mövcud idi (27). Amma Şah Sultan Hüseyn dövründə bu insanlar da

onlara tapşırılan vəzifənin mahiyyətini yaddan çıxarmışdılar. Onlar ticarət karvanlarını müşayiət və mühafizə etməli olduqları halda özləri soyğunçuluq və talançılıqla məşğul idilər.

Elə bir vəziyyət yaranmışdı ki, ölkədə yol kəsmək adi bir hala çevrilmişdi. Karvanlar yaşayış məntəqələrinin yaxınlığında gecələyə bilmirdilər. Karvançılar bilirdilər ki, bu çox təhlükəlidir, gecələr yerli sakinlər onların üzərinə hücum çəkə bilərlər. Buna görə də onlar gecələri yaşayış məntəqələrindən uzaq olan çöllərdə keçirirdilər. Bir çox hallarda heç bu da onların köməyinə çatmırdı. Saray tərəfindən təhlükəsizlik tədbirlərinin həyata keçirilmədiyini görən karvançılar yol kəsənlərlə sövdələşməyə girir, karvanların vurulmaması xatirinə onlara müəyyən vəsaitlər ödəməyə razı olurdular (28).

İqtisadi böhranın dərinləşməsi və daxili hərc-mərclik eyni zamanda rüşvətxorluğun çiçəklənməsinə yol açırdı. Bu bəla hörümçək toru kimi bütün dövlət sistemini bürüyərək onu iflic vəziyyətə salmışdı. Yuxarıda qeyd olunduğu kimi, mühüm vəzifələrə təyinat zamanı xacələrin və saray əyanlarının təsir imkanı çox böyük idi. Onlar da bu imkanlarından istifadə edib vəzifələrə təyinat zamanı rüşvət alırdılar. Bu zaman sözsüz ki, vəzifələrə təyinatda təcrübə, qabiliyyət deyil, məhz kimin çox rüşvət verməsi əsas götürülürdü. Şah Sultan Hüseynin dövrünün müasirlərindən olan Yesai Həsən Cəlalian yazırdı ki, şah və onun vəzirləri vəzifəli şəxsləri tez-tez dəyişirdilər. Bir il ərzində eyni şəhərə bir neçə hakim təyin edilirdi. Onların hər biri də əldə etdiyi vəzifə üçün xeyli rüşvət verir və sonra da yerlərdə xalqı soyub-talamaqla məşğul olurdular (29).

Şahidlərin fikrincə, rüşvətxorluq mühitinin təşviq edilməsi bir tərəfdən insanlar arasında savada, təcrübəyə olan marağı öldürür və sağlam rəqabət imkanlarını aradan qaldırırdı. Çoxları anlayırdılar ki, məharətə malik olmağın, öz müsbət keyfiyyətlərinə görə başqasından fərqlənməyin heç bir əhəmiyyəti yoxdur. Çünki kimin çox pulu var idisə, dövlət vəzifələrinə də onlar yiyələnirdilər.

Digər tərəfdən rüşvət verib vəzifəyə keçən adam vəzifəsinin əhatə etdiyi dairədə qanunsuzluq mühitini formalaşdırırdı. Belələri vəzifədə uzun müddət qalmaq üçün hansı yolla olursa-olsun öz maliyyə ehtiyatını artırmağa da çalışırdı (30).

Şah Sultan Hüseyn dövründə rüşvətxorluq az qala dövlət siyasəti səviyyəsinə qaldırılmışdı və bu sahədə münasib şəraitin yaradılması üçün hətta bəzi fərmanların qəbul edilməsinə də əl atılırdı. Bu məqsədlə saray əyanları şaha təlqin edirdilər ki, qanunsuzluq edənlərə cəza verilməsi barədə Şah Abbasın qaydalarına dəyişiklik edilsin.

Təklif olunurdu ki, birisini törətdiyi əmələ görə edam etməkdənsə, həmin adamın əmlakı müsadirə edilsin, birisinə tətbiq edilən fiziki cəzalar maliyyə cəzaları ilə əvəz edilsin (31). Həmin qaydaların qüvvəyə minməsi saray əyanlarının varlanması üçün yeni bir mənbəyə çevrilə bilərdi.

Yalnız rüşvət almaq haqqında düşünən saray əyanlarının özbaşınalıqları o dərəcəyə çatmışdı ki, dövlətin asayişini qorumalı olduqları halda, oğurluğu və quldurluğu təşviq edirdilər. Pis əməllərinə görə həbs olunan insanlar vəzifə sahibləri tərəfindən məcbur edilirdilər ki, cərimə ödəsinlər. Cərimə ödəməyə imkanı olmayan məhbuslar həbsdən azad edilirdilər ki, oğurluq və quldurluq yolu ilə tələb olunan maliyyə vəsaitini tapıb cərimələrini ödəsinlər. Şahidlərin də yazdıqlarından aydın olur ki, qanunsuz əməllərin həyata keçirilməsi üçün insanların çoxunda qorxu-ürkü yox idi. Onlar yaxşıca anlayırdılar ki, vəzifə sahiblərinə rüşvət verməklə öz canlarını qurtaracaqlar (32).

Şahın özünün davam etdirdiyi bir sıra mərasimlər də rüşvətxorluğun, son nəticədə isə qanunsuzluğun çiçəklənməsinə yol açırdı. Müasirlərinin yazdığına görə, Şah Sultan Hüseynə qədər səfəvi hökmdarları hər Novruz bayramında vilayət hakimlərinə xələt bağışlayırdılar. Vilayət hakimləri də əvəzində şaha layiqli bayram hədiyyələri göndərməyə çalışırdılar. Deyilənə görə, Şah Sultan Hüseynin vaxtında ayda bir dəfə vilayət hakimlərinə xələt göndərilirdi. Bunun əvəzini vilayət hakimləri də çıxmalı olduqlarından lazımi maliyyə xərclərini rüşvətxorluğun genişləndirilməsi, qanunsuz vergi toplanması hesabına ödəyirdilər (33).

Şah Sultan Hüseyn dövrünün müasirlərinin fikrincə, dövlətin parçalanmasına, iqtisadiyyatın böhranının dərinləşməsinə səbəb olan ciddi amillərdən biri də pul-maliyyə siyasətinin mərkəzin əlindən çıxması idi. Əvvəllər, pul yalnız mərkəzi hakimiyyət tərəfindən kəsilirdisə, Şah Sultan Hüseyn dövründə vilayət hakimləri yerlərdə pul kəsilməsinə nail oldular. Bu hal bir tərəfdən mərkəzdən asılılığı zəiflədirdi, bir tərəfdən iqtisadi əlaqələrin qurulmasına ciddi zərbə vururdu, bir tərəfdən də vilayət daxili qanunsuz pul dövriyyəsini gücləndirirdi. Vilayət daxilində kəsilən pul sözsüz ki, əsasən həmin vilayət daxilində tədavül vasitəsi idi. Digər vilayətlərdə isə həmin pul yaxşı halda yarı dəyərinə qəbul edilirdi. Pulu kəsdirən vilayət hakimi vəzifəsindən dəyişdiriləndə həmin pul da qiymətdən düşürdü (34).

Siyasi və iqtisadi sahədə dərinləşən aşınmalar fikir və düşüncənin, yaradıcılıq sahələrinin aşınması ilə də müşayiət olunurdu. Tədqiqatçıların qənaətinə görə, Şah Sultan Hüseyn dövründə mədəni mühit də

ciddi böhran içində idi. Ədəbiyyat, incəsənət, arxitektura sahəsində bir boşluq mövcud idi. Şah sarayında təvəkkülə olan etiqad, savadsız münəccimlərin artan təsiri cəmiyyət miqyasında astranomiyanın, tibb elminin və digər elm sahələrinin inkişafını buxovlayırdı. Azadfikirlilik və qabaqcıl ictimai fikir üçün münasib şərait aradan qaldırılırdı (35).

Bütün bu söylənilənlər və eləcə də digər amillər Səfəvilər dövlətini elə bir böhrana saldı ki, onun süqutu və ölkənin parçalanması qarşısıalınmaz bir prosesə çevrildi. İki əsrdən çox sürən səfəvilər hakimiyyətinin son nümayəndələrindən olan Şah Sultan Hüseyn bu hakimiyyəti qorumaq üçün boynuna düşən məsuliyyəti qiymətləndirə bilmədi. Səriştəsizliyi, təcrübəsizliyi və bir tərəfdən də laqeydliyi ona hətta yaxınlaşmaqda olan təhlükəni müəyyənləşdirməyə belə imkan vermədi. Ötən hər gün isə ölkədə baş verəcək partlayışı yaxınlaşdırdı, separatizm meyllərini daha da gücləndirdi.

Şah Sultan Hüseynin taxta çıxmasından sonrakı ilk illər sakit keçsə də, bu sakitlik əslində, nisbi sakitlik idi. Çox keçmədi ki, ölkə daxilini fırtınalar bürüdü, mərkəzi hakimiyyətə qarşı olan qiyamlar Səfəvilər hakimiyyətini lərzəyə saldı.

Dövlətə qarşı ilk ciddi hərəkat 1699-cu ildə Kermanda baş verdi. Həmin il Mir Xosrov xanın rəhbərliyi altında olan beluc tayfaları qarət və soyğunçuluq məqsədilə Kermana yürüş etdilər. Belucların bəzi dəstələri hətta Yəzdə qədər irəlilədilər və Bəndər-Abbası təhdid etməyə başladılar. Saray tərəfindən görülən tədbirlər bu yürüşlərin qarşısını ala bilmədi. Şahın əmrinə əsasən gürcü şahzadəsi, sonralar Qurgin xan və ya III Şahnəvaz adlandırılan XI Georgi bu qarətkar yürüşlərin qarşısını almağa nail oldu (36).

Qurgin xan hələ Şah Sultan Süleyman dövründə Kartli padşahı və Gürcüstan valisi idi. Bu şəxs öz müstəqilliyinə nail olmaq, Gürcüstanı və Kartlini Səfəvilər tərkibindən qoparmaq üçün dövlətə qarşı qiyam qaldırmışdı. Şah Süleyman bu qiyamı yatıraraq Qurgin xanı hakimlikdən azad etdi. Doğrudur, Şah Süleyman 1691-ci ildə onu yenidən Kartli hakimi təyin etdi. Lakin o, Şah Sultan Hüseynin taxta çıxması ərəfəsində daxili çəkişmələrin qurbanı olub vəzifəsini yenidən itirdi. Şah Sultan Hüseynin ona yazığı gəldi, saraya çağırıb ona vəzifə verdi. Amma Qurgin xanın arzusu yenidən Kartliyə qayıtmaq və orada hakimiyyəti yenidən ələ keçirmək idi. Ona görə də onun Kermanda qarət və soyğunçuluğa başlamış beluclara qarşı göndərilməsindən Qurgin xan elə də razı deyildi. Şah məclisi bu qərarın qəbul edilməsinə təkid edəndə Qurgin xan daha etiraz etmədi. O, Kerman hakimi təyin edildi və həmin vəzifəyə təyin edilən kimi də beluc tayfaları

ilə döyüşə hazırlaşmağa başladı. 1699-cu ilin noyabrında Qurgin xan qardaşı Leonun rəhbərliyi altında gürcülərdən təşkil edilmiş qoşun dəstəsini beluclara qarşı göndərdi. Leonun dəstəsi ilə beluclar arasında baş verən ilk döyüş gürcü dəstəsinin qələbəsi ilə başa çatdı. Amma tarixi məlumatlar onu deməyə əsas verir ki, beluclar dərhal geri çəkilmədilər və onlar şah qoşunlarına qarşı müqaviməti davam etdirdilər. 1770-cü ilin mayında Qurgin xan özü də rəhbərlik etdiyi dəstə ilə belucları əzmək üçün qardaşına qoşuldu. Buna görə növbəti döyüşdə beluclar daha ciddi itkilərə məruz qalıb geri çəkilməli oldular. Bununla belə, onların qiyam təhlükəsi qalmaqda davam edirdi. Ona görə şah Qurgini Kerman hakimi vəzifəsində saxladı. Qardaşı Leonu isə saraya çağırıb İsfahanın divanbəyi vəzifəsinə təyin etdi (37).

1704-cü ildə beluclar yenidən fəallaşdılar və onlar Qəndəhara hücum etdilər. Bu hücumun qarşısının alınması da Qurgin xana tapşırıldı. O, Qəndəhar hakimi təyin edildi. Qurgin xan belucların növbəti yürüşlərinin də qarşısını aldı və bu işdə kifayət qədər fəallıq göstərdi. Bu xidmətin əvəzində Qurgin xan Qəndəhar hakimi vəzifəsində saxlanıldı (38).

Belucların talancı yürüşlərinin qarşısının alınması dövlət daxilindəki gərginliyi heç də azaltmadı. Bir neçə ildən sonra qiyamlar bütün ölkəni əhatə etdi. 1707-ci ildə Car-Balakəndə qiyam baş verdi. Bu qiyamın yatırılması üçün saray tərəfindən Kaxetiya hakimi İmamqulu xanın rəhbərliyi altında qoşun dəstəsi göndərildi. Şah qoşunları bu qiyamı yatıra bildi. Amma 1711-ci ildə bu məntəqədə dövlət əleyhinə olan qiyam yenidən alovlandı. 1709-cu ildə Təbrizdə yeni üsyan baş verdi. Həmin ildə Şirvanda da güclü bir üsyan baş verdi. Sonrakı illərdə isə bu üsyanların coğrafiyası xeyli genişləndi və onların yatırılması şah sarayını çətinliklər qarşısında qoydu.

Ölkə daxilində baş verən qiyamların ən təhlükəlisi isə əfqan gilzayi tayfalarının mərkəzi hakimiyyətə qarşı başladığı üsyan idi. Bu qiyamın vaxtında yatırılmaması Səfəvi şahlarının taxtdan salınması ilə nəticələndi.

## 2. Gilzayi əfqan tayfalarının Səfəvi hakimiyyətinə qarşı qiyamı

Gilzayi tayfası Əfqanıstanda yarımoturaq halında yaşayan tayfalardan biri idi. Bu tayfa əsasən Qəndəhar ətrafında məskunlaşmışdı. Bəzi tarixi ədəbiyyatda gilzayilərin türk tayfası olması, “Xəlic” və ya “Xəlc” tayfasından yaranması iddia edilir. Güman edilir ki, bu tayfa

sonradan Əfqanıstana dağılaraq tədricən yerli dili götürməyə başladı (39).

Gilzayilər kifayət qədər döyüşgən tayfa üzvləri idilər. Bu döyüşgənliyinə görə onlar əfqanların digər güclü tayfalarından olan əbdali tayfasını Qəndəhar ətrafından sıxışdıraraq Herata tərəf çəkilməyə məcbur etmişdilər. Həmin tayfanın sıxışdırılmasından sonra Qəndəhar və onun ətrafı bütünlüklə gilzayilərin yaşayış məskəninə çevrildi.

Qəndəharın Səfəvi dövləti tərkibinə salınması I Şah Abbasın dövrünə təsadüf edir. Doğrudur, bundan qabaq da buna cəhdlər göstərilmişdi. Lakin Şah Abbasın hakimiyyəti dövründə bu məsələ öz qəti həllini tapdı. I Şah Abbasın vəfatından sonra Qədəhar özbəklərin işğalı altına düşdü. Amma az sonra Hindistan hakimi özbəkləri Qəndəhardan sıxışdırdı. Bununla belə, onun da Qəndəhar üzərindəki nəzarəti uzun çəkmədi. II Şah Abbasın dövründə Qəndəhar yenidən Səfəvi dövlətinin tərkibinə qatıldı. Hindistan hakimləri rastlaşdıqları uğursuzluqdan sonra yenə Qəndəharı ələ keçirmək niyyətindən əl çəkməmişdilər. Hətta bir dəfə Övrəngzibin rəhbərliyi altında olan hind qoşunları Qəndəhar üzərinə hücuma keçdi. Hind qoşunları bu dəfə uğursuzluğa düçar oldu və Şah Sultan Hüseynin hakimiyyəti dövrünə qədər Qəndəhar Səfəvilər hakimiyyətinin tərkibində qaldı (40).

Bununla belə, hind hakimləri yenidən Qəndəharı geri qaytarmaq arzularından əl çəkməmişdilər. Çox güman ki, onlar zəifləmiş Şah Sultan Hüseyn hakimiyyəti dövründə buna nail ola biləcəklərini güman edirdilər. Şah sarayına çatan məlumata görə Qəndəhar əhalisi arasında da hind təbəəliyinə meyl edənlər var idi. Buna səbəb də Şah Sultan Hüseyn tərəfindən 1698-ci ildə Qəndəhara hakim təyin edilmiş Abdulla xanın böyük özbaşınalıqlara yol verməsi, sərvətlənmək xatirinə əhalini soyub talaması olmuşdu. Abdulla xanın özbaşınalıqlarından dəfələrlə saraya da şikayətlər daxil olmuşdu. Amma saray əyanları bu şikayətlərin şahın qulağına çatmasına imkan vermirdilər. Məhz həmin illərdə hind sarayı Qəndəhar əhalisi ilə əlaqəyə girməyə cəhd göstərdi. Qəndəharın müəyyən təbəqələrinə elə gəlirdi ki, hind təbəəliyini qəbul etmək Abdulla xanın zorakılıqlarından nicat tapmaq üçün çıxış yoludur. Hind hakimləri Qəndəharı silah gücünə almağa cəsarət edə bilmədikləri üçün Şah Sultan Hüseyn sarayına elçi göndərdilər və Qəndəharı ondan istədilər. Şah sözsüz ki, Qəndəharı Hindistana verməkdən imtina etdi. Bununla belə, Hindistanın Qəndəhara olan marağı, Qəndəhar əhalisi arasında isə Hindistana qarşı formalaşan meyl Şah Sultan Hüseyndə bir narahatçılıq yaratdı (41).

1703-cü ildə beluclar Qəndəhara hücum etdilər. Bu yürüş zamanı yerli əhali talan və təcavüzə məruz qaldı. Qəndəhar hakiminin göndərdiyi qoşun dəstəsi bu hücumun qarşısını ala bilmədi. Bu xəbər İsfahan sarayındakı narahatlıqları daha da gücləndirdi. Əhali arasında yaranan narazılıqlar eyni zamanda Hindistan təbəəliyinə meylliyi artıra bilərdi. Ona görə şah, beluclarla ilk döyüşdə özünü yaxşı göstərmiş Qurgin xanı Qəndəhar hakimi təyin edib ona belucları zərərsizləşdirməyi tapşırdı. 1704-cü ildə Qurgin xan Qəndəhara yola düşdü, rəhbərlik etdiyi qoşun dəstəsi ilə o, yenidən beluclara güclü zərbə vurub onları Qəndəhardan geri qovdu (42).

Şah Sultan Hüseyn hakimiyyətinin zəiflədiyi bir vaxtda Səfəvilər dövlətinin uzaq əyaləti sayılan və mərkəzə bağlılığı daha çox silah üzərində qurulan Qəndəharda da mərkəzdən qaçma meylləri gücləndi. Xüsusən, şah sarayının təyin etdiyi hakimlərin bir sıra özbaşınalıqları bu meyli daha da sürətləndirdi. Qurgin xanın qoşununun belucları Qəndəhardan qovması, onun Qəndəhar hakimi kimi fəaliyyətə başlaması da gilzayi tayfasının Səfəvi dövlətindən qopmaq meyllərinin qarşısını almadı. Tayfanın nüfuzlu şəxslərindən olan Mir Veys adlı birisi bu hərəkata rəhbərlik edirdi. Bəzi tarixi ədəbiyyatda Mir Veys gilzayi tayfasının rəhbəri, bəzi tarixi ədəbiyyatda isə Hətəki xanədanının rəhbəri kimi göstərilir. Amma hər halda dəqiq məlum olan o idi ki, Mir Veys qiyama başlayanda Qəndəhar şəhərinin kələntəri idi (43).

Şəhər kələntəri olmaqdan əlavə Mir Veys uzun müddət Hindistanla ticarət aparmış və nəticədə çoxlu sərvət əldə etmişdi (44). Bu da onun tayfası daxilindəki mövqeyini daha da gücləndirdi. Malik olduğu imkanlarından məharətlə istifadə edərək Mir Veys gilzayi tayfasının liderliyi səviyyəsinə qalxa bilmişdi. Eyni zamanda tayfa üzvlərinə qarşı olan yaxşı münasibəti də onun nüfuzunu xeyli artırmışdı. Mərkəzi hakimiyyətə qarşı narazılıq güclənəndə də tayfa üzvləri məhz onun ətrafında səfərbər olmağa başladılar.

Qəndəhar hakimi kimi vəzifəsinin icrasına başlayan Qurgin xan məntəqədə sərt nizam yaratmaq istəyirdi. Ola bilsin ki, sərt tədbirlərin həyata keçirilməsi gilzayilərin Hindistana meylliliyi haqqında məlumatların ona da çatmasından irəli gəlirdi. O, Qəndəhar əhalisi ilə məğlub üsyançılar kimi rəftar edirdi və yerli əhaliyə qarşı işgəncələrdən belə çəkinmirdi. Onun silahlı dəstələri kənd-kənd gəzir, əhalinin var-yoxunu əlindən alır, insanların namusuna təcavüz edirdilər (45).

İstər Qurgin xan, istərsə də onun qoşununun əsasını təşkil edən gürcülər bu vilayətə yad olduqları kimi, əhaliyə münasibətdə də özlə-

rini yad kimi aparırdılar. Belucların qovulmasından sonra əhali Səfəvi təbəəliyində qalmağa razı olsa da yeni hakimin dövründə başlanan qanunsuzluqlar yenidən yerli əhalinin narahatçılığına səbəb oldu. Vəziyyət o yerə çatdı ki, yerli əhali Qurgin xanın əməllərindən şikayət etmək üçün İsfahandakı şah sarayına nümayəndə heyəti göndərdi. Doğrudur, bu nümayəndə heyətinin İsfahana gəlməsi gözlənilən nəticəni vermədi. Əvəzində, ondan şikayət etmələrindən xəbər tutan Qurgin xan qərara aldı ki, Qəndəhar əyanlarına ciddi zərbə vursun və ona qarşı davam edən narazılıqların kökünü kəssin. Qurgin xan gilzayilərin lideri olan Mir Veysi həbs etdirib İsfahana sürgün etdirdi. Şah sarayına çatdırıldı ki, Qəndəharda əmin-amanlığın qorunması və bu vilayətin Səfəvilər hakimiyyətindən qopmasının qarşısının alınması üçün Mir Veys xanın uzaqlaşdırılması və onun İsfahanda saxlanılması daha yaxşıdır. Şah sarayında da bu qənaətlə razılaşdılar və Mir Veysi saraya qəbul etdilər. Bu məsələyə toxunan tarixçilərin bir çoxu belə bir fikirdədir ki, Qurgin xan Mir Veysə qarşı belə yumşaqlıq göstərməsi, onu ciddi cəzalandırmayaraq salamat buraxması son nəhayətdə 200 illik Səfəvi dövlətinin süquta uğraması ilə nəticələndi.

İstər mənbələr, istərsə də tarixçilər Mir Veysi kifayət qədər zəkalı və bacarıqlı bir şəxs kimi xarakterizə edirlər. O, İsfahana sürgün ediləndə şah sarayı kifayət qədər ağır günlər yaşayırdı. Saray daxilindəki hərc-mərclik və rüşvətxorluq öz yüksək səviyyəsinə çatmışdı. Mir Veys bu vəziyyətdən məharətlə istifadə etdi. O hər şeydən əvvəl özünü şaha müti bir təbəə kimi göstərərək saray daxilində baş verənlərlə yaxından tanış oldu, kiminlə hansı dildə danışmağın mümkünlüyünü öyrəndi. Kimlərin Qurgin xandan xoşu gəlmədiyini aydınlaşdırdı və onların diqqətini Qurginə qarşı çevirə bildi. Eyni zamanda Mir Veys, sarayın rüşvətxorluğa qurşanmış əyanlarına çoxlu qiymətli hədiyyə bağışladı, onlarla xoş münasibət yaratdı. Bütün bu hərəkətləri və davranışı ilə Mir Veys şah sarayının əsirindən, sarayın etibarlı adamına çevrildi. Ağlı, pulu və bacarığı ilə hətta şahın qəbuluna sərbəst girib-çıxmaq imkanı qazandı (46).

Mir Veysin şah sarayındakı hərəkətləri, davranışı, qərarları onun qarşısına qoyduğu əsas məqsədə çatğma xidmət edirdi - necə olursa-olsun Qəndəhara qayıtmaq, orada qiyam qaldırıb hakimiyyəti ələ keçirmək. Amma Mir Veys onu da anlayırdı ki, bu məqsədinə çatmaq elə də asan olmayacaqdır və bunun üçün yalnız Qəndəhara qayıdıb yerli əhalini səfərbər etməklə kifayətlənmək olmaz. O istəyirdi ki, əfqanların səfəvi dövlətinə qarşı hərəkatına dini rəng versin və bununla, onların geniş səfərbərliyinə nail olunsun.

Ona görə də Mir Veys, Şah Sultan Hüseyndən icazə alıb Məkkə ziyarətinə yola düşdü (47). Tarixçilər və tədqiqatçılar Mir Veysin Məkkə ziyarətinə getməsini onun səfəvi hakimiyyətinə qarşı uzaqgörən siyasətinin əsas həlqəsi kimi dəyərləndirirlər. Məhz bu ziyarət onun səfəvi əleyhinə fəaliyyətinə ilham verdi, bu fəaliyyətin forma və məzmununa bir aydınlıq gətirdi. Həmin səfəri vasitəsilə Mir Veys onun bütün göstərişlərinin əfqanlar tərəfindən kor-koranə qəbul edilməsi üçün bir dini-hüquqi baza əldə etdi.

Məkkə ziyarətinə getmək niyyəti haqqında müraciət edəndə Mir Veys şahın hər hansı bir narazılığı ilə qarşılaşmadı. Çünki bu, bir tərəfdən hər bir müsəlman üçün zəruri olan dini ziyarət kimi qəbul edilirdi. Həm də onun bu niyyəti hər hansı bir şübhə doğurmurdu. Onun səfər marşrutu da Qəndəhardan uzaq idi və bu vilayətin ab-havasına elə bir təsir göstərə bilməyəcəkdi.

Mir Veys qarşısına belə bir plan qoymuşdu ki, sünni-şiə ixtilafından istifadə edərək Məkkədəki sünni üləmalardan şiə səfəvilərə qarşı mübarizənin doğruluğu barədə fitva alsın.

Bu məqsədə nail olmaq üçün Mir Veys Məkkə ziyarətinə də hazırlıqlı yollandı. Özü ilə çoxlu qiymətli hədiyyələr götürdü və onları Məkkə və Mədinə sünni üləmaları arasında bölüşdürdü. Nəticədə bir çox din xadimlərinin diqqətini özünə cəlb edə bildi. Məkkədə olarkən Mədinədəki üləmaların yanına nümayəndələr göndərdi və onların fitvasını almağa çalışdı. Mir Veys nümayəndələri sünni üləmalardan sual etdilər ki, əgər müsəlmanlar şiələrin hakimiyyəti altındadırlarsa və öz ayinlərini icra etmək üçün onların təzyiqləri ilə qarşılaşırlarsa onlara qarşı qılınc qaldırmaq olarmı? Mir Veys nümayəndələri onu da soruşdular ki, əgər müsəlmanlar şiə şaha sədaqət andı içiblərsə, bu sədaqəti məcburiyyət qarşısında göstərirlərsə və şah da boynuna düşən öhdəlikləri yerinə yetirmirsə, belə şaha qarşı üsyan qaldırmaq olar, ya yox? (48)

Mədinənin sünni üləmalarının Mir Veysə cavabını çox gözləmək lazım gəlmədi. Tədqiqatçıların fikrincə, bu, elə bir vaxt baş verdi ki, Səfəvi dövləti ilə Osmanlı xilafəti arasında kifayət qədər gərgin münasibətlər formalaşmışdı. Həmin gərgin münasibətlərin varlığına sünni-şiə qarşıdurması da öz təsirini göstərirdi. Mədinə üləmaları şiə məzhəbinin nüfuzuna təsir göstərilməsini də əsas tutaraq Mir Veysə fitva verdilər ki, o, şiə hakimiyyətinə qarşı dinin himayəsi altında öz mübarizəsini apara bilər. Tarixçilərin fikrincə, belə bir fitva elə bir şəxsə verilmişdi ki, həmi şəxs Şah Sultan Hüseynin bütün vəzir və əyanlarından ağıllı idi (49). Ona görə də Mir Veys öz məharətini və

sünni üləmalarının ona verdiyi fitvanın əməli imkanlarını birləşdirərək çoxlarının gözləmədiyi halda Qəndəharı ələ keçirə bildi.

Mir Veys fitva qərarını əlinə alandan sonra yenidən İsfahana qayıtdı. Bu, 1708-ci ilin yayında oldu. O, istəyirdi ki, artıq Qəndəhara qayıtsın, Səfəvi dövlətinə qarşı fitvanın məzmununu açıqlasın və qarşısına qoyduğu planın icrasına başlasın. Amma yenə də şah sarayını şübhələndirmək istəmir və münasib vaxtın yetişəcəyini gözləyirdi. Elə bu zamanlarda onun əlinə yaxşı bir bəhanə düşdü. Bu, I Pyotrun səfiri kimi erməni İsrail Orinin Şamaxıya gəlməsi ətrafında yaranmış söz-söhbətlər oldu.

İsrail Orinin rəhbərliyi altında böyük bir səfirlik heyətinin gəlməsi Şamaxıda təəccüblə qarşılanmışdı. Şamaxı xanı dərhal bu barədə Səfəvi sarayına məlumat verdi və bildirdi ki, Moskvanın nümayəndəsi Roma papasının və Almaniya imperatorunun məktubları ilə birlikdə çox böyük nümayəndə heyəti ilə Şamaxıya gəlmişdir və oradan İsfahana yollanır. Şamaxı xanı saraya onu da çatdırdı ki, yayılan məlumatlara görə Moskvanın nümayəndəsi əslən Qarabağlıdır və onun rus çarının nümayəndəsi kimi bölgəyə gəlməsi heç də onun xeyirxah niyyətlərindən xəbər vermir (50).

İsrail Orinin rəhbərliyi altında Rusiyanın səfirlik heyətinin İsfahana gəlməsi niyyəti şah sarayının da nigarançılığına səbəb oldu. Xüsusilə, onun Səfəvi dövlətinin tərkibinə daxil olmuş ərazidə doğulması, özünü qədim erməni çarlarının nəslinin nümayəndəsi elan etməsi, Rusiyadan başqa Roma papasının və Almaniyanın himayəsinə arxalanması nigarançılığı daha da artırdı. Saraya o xəbər də çatdırılmışdı ki, Rusiya Qafqaza iddialar irəli sürür və İsrail Orinin səfirliyinin vasitəsilə bu iddiasını həyata keçirmək istəyir (51).

Əslində isə, İsrail Ori fırıldaqçı bir insan idi. Müasirləri də qeyd edirlər ki, İsrail Orinin qədim erməni çarları ilə heç bir əlaqəsi yox idi. Onun İrana gəlməsindən əsas məqsədi İranla ticarətdə xarici dövlətlərin səfirlərinin malik olduğu güzəştlərdən istifadə edərək özünə sərvət toplamaq idi (52). Eyni zamanda, İsrail Ori Səfəvilər dövlətinə daxil olan ərazilərdə separatçılıq fəaliyyətini aparmaq planlarına da malik idi.

Narahatçılıq keçirməsinə baxmayaraq Şah Sultan Hüseyn sarayı İsrail Orinin İsfahana gəlməsinə icazə verdi. Mir Veys də bu vəziyyətdən istifadə edib Qurgin xana qarşı təbliğatını genişləndirdi. Ehtiyatla da olsa o, saray əyanlarının yanında bildirdi ki, Rusiya çarı Gürcüstanı və ermənilər yaşayan əraziləri Səfəvilər dövlətindən qoparıb Rusiyaya birləşdirmək istəyir. Rusiya ilə ermənilərin çoxluq təşkil

etdiyi ərazilər arasında yerləşən gürcülərdən də istifadə edilə bilməsi ehtimalı Mir Veys tərəfindən xüsusilə vurğulanırdı. Rusiyanın Səfəvi dövləti ilə olan münasibətlərindən narahatlıq yaşayan saray xadimlərinin diqqətinə o da çatdırıldı ki, Qurgin xan da bu məsələdə Rusiyanın tərəfindədir. Çünki Qurgin xan hələ Gürcüstanda olarkən separatçılığa başlamış və hətta İsfahanda olarkən belə Gürcüstana qayıtmaq arzusundan əl çəkməmişdi. Mir Veysin söylədiklərinə görə, Qurgin xan Qəndəhar hakimi olduğu vaxtlarda da Gürcüstana qayıtmaq, oranı Səfəvlər dövlətindən qoparmaq və hakimiyyətini orada bərqərar etmək arzusu ilə yaşayırdı. Qurgin xanın yaxın qohumlarından birinin Rusiya sarayında xidmət etməsi də Qurgin xana qarşı etimadsızlıq toxumunun səpilməsi üçün Mir Veysin əlində tutarlı bir bəhanə oldu. Mir Veys saray əyanlarını inandırmaq istəyirdi ki, Qurgin xan öz qohumu vasitəsilə Rusiya sarayı ilə əlaqə saxlayır və öz fəaliyyətini Rusiya hakim dairələri ilə tənzimləyir. Qurgin xanın ətrafında toplanmış qoşun dəstəsinin əsasən gürcülərdən təşkil edilməsi də deyilənlərə sübut kimi irəli sürülürdü.

Mir Veys bu təbliğatı o qədər ehtiyatla və səriştəli apardı ki, saray əyanları da Qurgin xandan ehtiyatlanmağa başladılar və onun fəaliyyətini müəyyən nəzarət altına almaq qənaətinə gəldilər. Onlar bu qərara gəldilər ki, kimi isə Qəndəhara göndərsinlər ki, onun vasitəsilə Qurgin xanın fəaliyyətini nəzarət altında saxlasınlar. Bu zaman seçim təbii olaraq Mir Veysin üzərinə düşdü. O özü də elə buna çalışırdı və ona edilən təklifi məmnuniyyətlə qəbul etdi. Saray əyanları güman edirdilər ki, əgər Qurgin xan dövlətə qarşı qiyam qaldırmaq niyyətinə düşsə, ona müxalif olan Mir Veys onun qiyamının qarşısını ala bilər. Bu məqsədlə Mir Veys Qəndəhara yola salındı. Tarixi ədəbiyyatın bəzisində Mir Veysin yenidən Qəndəhara qayıtmasının 1708-ci ildə, bəzisində isə 1709-cu ildə baş verdiyi bildirilir (53).

Qurgin xan Mir Veysin geri qayıtmasından əlbətdə ki, xoşlanmadı. Mir Veys buna baxmayaraq çalışırdı ki, Qurgin xanla münasibətləri yaxşılaşdırsın, aralarında olan etimadsızlıq aradan qalxsın. Ona görə də Mir Veys çox ehtiyatla fəaliyyət göstərdi. Özünün Qurgin xana qarşı loyal münasibətdə olmasını göstərməklə bərabər, gizlində əfqanlar arasında iş apardı, Qurgin xanın devrilməsi üçün zəmin hazırladı. O, əfqanlar arasında apardığı təbliğatında bildirdi ki, Səfəvi övladları artıq öz qüvvəsini itirməkdədir, Qurgin xanın haqqı yoxdur ki, Qəndəharda istədiyini etsin, camaatın namusuna əl uzatsın. Mir Veysə görə, İsfahanda da artıq hərc-mərclik baş alıb gedirdi və başına

toplaşanların diqqətinə çatdırmaq istəyirdi ki, Qəndəharda yaşayan 100 min ailə bir nəfərin öhdəsindən gəlməyi bacarmalıdır (54).

Mir Veys eyni zamanda İslam üləmalarından Səfəvi dövlətinə və onun Qəndəhardakı nümayəndəsinə qarşı mübarizə aparmaq haqqındakı fitvasını əfqanlara, əfqanların nüfuzlu adamlarına nümayiş etdirdi, dini hökmün tələbləri ilə onları öz ətrafında daha sıx birləşdirməyə nail oldu. Fitvanın mövcudluğu əfqanlarda Qurgin xana qarşı mübarizə meylini daha da gücləndirdi.

Elə bu arada Qurgin xan Mir Veysin qızına elçi göndərdi. Tarixi ədəbiyyatda və mənbələrdə Qurgin xanın Mir Veysin qızını almaq istəyi ilə bağlı iki fikir mövcuddur. Birinci fikrə görə, Mir Veys artıq İsfahanın nümayəndəsi kimi Qəndəhara gəldiyi üçün Qurgin ona qarşı ciddi cəzalar tətbiq edə bilmirdi. O öz hirsini əfqanlardan çıxmaq, əfqanlara daha təhqiredici zərbə vurmaq üçün Mir Veysin qızına elçi göndərmişdi (55).

Amma hadisələrin müasiri olan Con Hanveyə görə, Qurgin xan əfqanlara qarşı əvvəlki kəskin mövqeyindən daşınıb onlara loyal münasibətdə olduğunu göstərməyə çalışırdı. Mir Veysin qızını istəməkdə məqsədi də əfqanlara yaxınlığını göstərmək, düşmənçilik hisslərinin qan qohumluğuna çevrildiyini nümayiş etdirmək idi. Müsəlmanlığı qəbul etmiş xristian əsilli, özü də Qəndəharda özünə hörmət qazana bilməyən bir şəxsin nüfuzlu əfqan əyanlarından birinin qızına elçi düşməsini əfqanlar öz şənlərinə təhqir kimi qəbul etdilər. Onlar Mir Veysdən Qurgin xana qarşı qiyam qaldırmağı tələb etdilər. Mir Veys isə bu təklifə kifayət qədər soyuqqanlı yanaşdı və onun qızına elçi göndərilməsi məsələsindən də kifayət qədər məharətlə istifadə etdi. O bir tərəfdən sevindi ki, əfqanlar qiyam qaldırmağa artıq hazırdırlar. Digər tərəfdən onu da yaxşı başa düşürdü ki, tələsgənlik məqsədə çatmağa mane ola bilər. Ona görə də o başqa bir vasitəyə əl atdı. Öz qızı yerinə başqa bir xanımı Qurgin xanın hərəminə göndərdi. Mir Veys Qurgin xanın ətrafındakılardan bir çoxunu, hətta onun xidmətçisini də hədiyyələrlə özünə yaxınlaşdıra bilmişdi. Ona görə əmin idi ki, onun planları faş olmayacaqdır və Qurgin xan bundan xəbər tutmayacaq (56).

Hərəminə göndərilən xanımım Mir Veysin qızı olduğunu güman edən Qurgin xanın əfqanlara qarşı münasibətində müəyyən yumşalma hiss olunmağa başladı. Mir Veys də bundan məharətlə istifadə etdi. Qarşılıqlı münasibətlərin yumşalması Qurgin xana qarşı hazırlanan qəsdi daha da yaxınlaşdırdı. Həmin qəsdin həyata keçirilməsi üçün isə Qurgin xanın yaxın əyanları ilə birlikdə şəhər ətrafına qonaq çağı-

lrılması qərara alındı. Qonaqlıq elə bir tarixə təyin edildi ki, həmin vaxt Qurgin xanın gürcülərdən ibarət qoşun dəstəsi hansısa bir məntəqəyə getməli və bir neçə gün orada ləngiməli idi. Qurgin xan heç nədən şübhələnmədən Mir Veysin dəvətini qəbul etdi və təyin olunmuş gün şəhər ətrafındakı bağlardan birində qurulmuş çadıra gəldi.

Con Hanveyə görə, bir müddət sonra içdiyi şərab və bir də isti hava Qurgin xanı heydən saldı və o öz çadırında yuxulamalı oldu. Onunla birgə qonaqlığa gəlmiş əyanlar isə digər bir çadırda yuxuya getdilər. Bundan istifadə edən Mir Veys yanındakı 50 nəfərlik silahlı dəstə ilə həm Qurgin xanı, həm də onun əyanlarını qətlə yetirdilər (57).

Bu məlumat bəzi tarixi ədəbiyyatda da təkrar olunur. Həmin məlumatlara görə, Qurgin xanı öldürdükdə sonra Mir Veys onun paltarını geyindi. Digər əfqanlar isə Qurgin xanla gəlmiş əyanların paltarlarını geyindilər. Qala mühafizəçilərinin onları yaxşı tanımaması üçün hava qaralanda şəhərə daxil oldular. Qalanın mühafizəsində olan silahlılar elə güman etdilər ki, gələnlər Qurgin xan və onun əyanlarıdır və müqavimətsiz onları qalaya buraxdılar. Mir Veysin şəhərdə yerləşdirdiyi silahlı adamlar, onu müdafiə edənlər, habelə ətrafındakı silahlılar qalanın mühafizəçiləri üzərinə hücum etdilər və qısa müddət ərzində qalanı ələ keçirdilər. Qurgin xanın 600 nəfərlik silahlı dəstəsi üç gün sonra Qəndəhara qayıdanda əvvəlcə qaladan atılan top və tüfəng atəşləri ilə üzbəüz gəldilər. Sonra da Mir Veysin 5 minlik dəstəsi onların üzərinə hücuma keçdi. Böyük qoşun dəstəsinin qarşısında duruş gətirə bilməyən gürcü süvariləri Xorasana qaçdılar və oradan Qəndəharda baş verənlər haqqında İsfahan sarayına xəbər çatdırdılar (58).

"Aləm Ara-ye Naderi"də Qurgin xanın Mir Veys tərəfindən şəhər kənarındakı bağa dəvət olunması və orada qətlə yetirilməsi haqqında məlumat yoxdur. Bildirilir ki, Mir Veysin tərəfdarları Qurgin xanı öldürmək üçün hazırlıq görürlər, 3 min nəfərlik qoşun dəstəsi hazırlayırlar və Qurgin xanın sarayına daxil olub onu öldürdülər. Bundan sonra təbillər və nağaralar çalındı və şəhərdə hakimliyin Mir Veys xanın əlinə keçdiyi elan olundu. Mir Veys Qəndəhar xəzinəsini ələ keçirdi və xəzinədən şəhər əhalisinə hədiyyələr paylaydı (59).

Qeyd etmək lazımdır ki, L.Lokkartın istinad edilən əsərində də Qurgin xanın qonaqlıq zamanı qətlə yetirilməsi haqqında məlumat yoxdur.

Hər halda Mir Veys Qəndəharı ələ keçirən kimi ilk növbədə əfqanları öz ətrafında birləşdirdi, onları Səfəvi dövlətindən ayrı yaşamağın

mümkünlüyünə inandırdı və bu məqsədlə sünni üləmalarından aldığı fitvadan da məharətlə istfadə etdi. Çox az vaxtdan sonra şah sarayına da xəbər göndərdi ki, Qəndəhar artıq Səfəvi dövlətinin tərkibində deyil.

Qəndəharı Səfəvi dövlətinin tərkibindən çıxarıb müstəqilliyinə nail olmaq üçün Mir Veys nə qədər fəal iş aparırdısa, şah sarayı Qəndəharı yenidən geri qaytarmaq üçün o qədər süst və səbatsız fəaliyyət göstərirdi. Əslində, saray daxilində bir çaşqınlıq hökm sürürdü və aydın deyildi ki, belə bir vəziyyətdə saray hansı vasitəyə əl atsın. Doğrudur, Qəndəhara qoşun göndərmək haqqında qərar qəbul edildi. Amma tezliklə həmin qərardan imtina edildi. Qərara alındı ki, qiyamçıların yanına elçi göndərilsin və onlar yenidən itaətə dəvət olunsun.

Əvvəlcə, Məhəmməd Tağı xan Qəndəhara göndərildi. Mir Veys İsfahandan gəlmiş Səfəvi elçisi ilə heç bir danışıq aparmadı və onu həbs etdirib zindana atdırdı. Şah sarayı yenə də qətiyyətli bir qərar qəbul etmədi. Qəndəhara daha bir elçi göndərildi. Bu dəfə həmin vəzifə Mir Veyslə Məkkə ziyarətində olmuş Herat hakimi Məhəmməd xana həvalə olundu. Amma bu dəfə də uğursuzluq təkrar olundu. Mir Veys yalnız tanışlıq xatirinə Məhəmməd xanı həbs etmədi. Con Hanveyə görə, Mir Veys ona bildirdi ki, sən o padşahın qulamısan ki, tezliklə hakimiyyətdən getməli olacaqdır (60).

Yalnız bundan sonra şah sarayı silaha əl atmağı lazım bildi. Xorasan hakiminə tapşırıldı ki, Qəndəhar üzərinə hücum etsin və bu vilayəti yenidən Səfəvi nəzarəti altına gətirsin. Gözlənilənin əksinə olaraq, Xorasan hakiminin də Qəndəhar üzərinə qoşun çəkməsi bir nəticə vermədi. Mir Veys öhdəsində olan toplardan və qoşun dəstəsindən bacarıqla istifadə etdi və Səfəvi qoşun dəstəsinə qalaya yaxınlaşmağa imkan vermədi. Mir Veysin Xorasan qoşunları üzərində qələbə qazanması əfqanlar arasında onun mövqeyini və nüfuzunu daha da möhkəmlətdi. Bir tərəfdən də şah sarayının xeyli süstlüyü Mir Veysin möhkəmlənməsi üçün təbii bir imkan yaratdı. Şah elçilərinin Qəndəhara gəlməsi, Xorasan hakiminin Qəndəhara yürüşü üçün təxminən 2 ilə yaxın bir vaxt əldən getdi.

Nəhayət, Şah Sultan Hüseyn, Qurgin xanın qardaşı oğlu, İsfahan darğası Keyxosrov xanın rəhbərliyi altında Qəndəhara qoşun göndərməyi qərara aldı. Bir tərəfdən Keyxosrov xan beluclara qarşı döyüşlərdə öz məharətini nümayiş etdirmiş və şah yanında nüfuz qazanmışdı. Bir tərəfdən də Keyxosrov əmisinin qisasını almaq üçün bacarığını əsirgəməzdi. Ona görə Qəndəhar üzərinə göndəriləcək qoşunlara rəhbərlik üçün Keyxosrovun namizədliyi daha məqsədəuyğun sayıl-

dı. L.Lokkart tarixi mənbələrə istinad edərək Keyxosrov xanın qoşununda 12 min qızılbaşın və bir miqdar da gürcü döyüşçülərinin olduğunu göstərir (61). Bəzi tarixi ədəbiyyatda isə bu qoşunun 30 mindən ibarət olduğu bildirilir (62).

Belə bir mürəkkəb vaxtda da saray əyanları şahın əmrinin icrasına yardım göstərməkdənsə mənasız çəkişmələrə rəvac verdilər. Bu insanları Səfəvilər dövlətinin süqutdan qurtarmaq yox, öz şəxsi mövqeləri, rüşvət və çəkişmələrlə əldə etdikləri var-dövlətləri düşündürürdü. Onlar Keyxosrov xanın Qəndəhara göndəriləcək qoşunlara sərkərdə təyin edilməsini son dərəcə narahatlıqla qarşıladılar. Saray əyanları beluclara qarşı döyüşdə Keyxosrov xanın göstərdiyi şücaətdən xəbərdar idilər. Ona görə də onlar Keyxosrovun Qəndəharda da qələbə çalacağından və bundan sonra da onun nüfuzunun artacağından qorxurdular. Keyxosrov saray əyanları tərəfindən rəqib kimi qəbul edilirdi. Buna görə onlar hər vasitə ilə çalışırdılar ki, Keyxosrovun tabeliyinə verilmiş qoşunun hazırlığına mane olsunlar. Əvvəlcə, şah fərmanına əsasən xəzinədən qoşun hazırlığı üçün ayrılan maliyyə vəsaitinin qoşuna çatmasına imkan vermədilər. Həmin vəsait xeyli vaxt keçəndən sonra və özü də nəzərdə tutulandan xeyli az miqdarda qoşuna çatdı. Bundan əlavə, qoşun daxilində dəstə rəhbərlərinin Keyxosrova itaət etməməsi üçün təbliğat işləri aparıldı. Qızılbaş döyüşçülərinə təlqin edilirdi ki, Keyxosrov yaddır və başqa dindən dönmədir. Ölkə daxilində güclü sərkərdələr olduğu halda Keyxosrovun sərkərdə təyin edilməsi milli hisslərə yaddır. Nəhayət, Keyxosrovun mübaşiri vəzifəsinə elə bir şəxs təyin olundu ki, həmin şəxs Səfəvi qoşunlarında baş verənlərdən Mir Veysi xəbərdar edirdi (63).

Bütün bunlara baxmayaraq, Keyxosrov nəhayət ki, rəhbərlik etdiyi qoşunla 1709-cu ildə Qəndəhara doğru hərəkətə başladı. Onun Qəndəhara doğru hərəkəti Səfəvi qoşunlarının hansı hazırlıq səviyyəsində olması və bu qoşunun şah sarayı tərəfindən necə istiqamətləndirilməsi barədə təsəvvür əldə etməyə imkan verir. Keyxosrov öz marşrutunu Heratdan saldı. Burada ona gilzayilərlə düşmən münasibətdə olan Əbdali əfqan tayfasının başçısı Abdulla xan Səduzayinin rəhbərliyi altında olan bir dəstə qoşuldu. Birləşmiş qoşun dəstəsi 1710-cu ilin sonlarına yaxın Qəndəhardan 225 mil şimalda yerləşən Fərəhə çatdı. Keyxosrov xanın qoşun dəstəsi bir də 1711-ci ilin yayında Qəndəhara yetişdi və bu dəstə ilə Mir Veysin dəstəsi arasında döyüş baş verdi. Mir Veys öz qoşununu iki dəstəyə böldü. Bir dəstə əbdali qoşunu üzərinə, bir dəstə isə qızılbaş qoşunu üzərinə yeridi. Mir Veys taktiki baxımdan daha zəif hesab etdiyi əbdali qoşununu məhv edib sonra

bütün qüvvəsini Səfəvi qoşunu üzərində cəmləşdirmək istədi. Amma o öz niyyətinə nail olmadı. Mir Veys əbdali qoşunlarına güclü zərbə endirsə də, Səfəvi qoşunları qarşısında geri çəkilməli oldu. Mir Veysin Qəndəhar qalasına çəkilməkdən başqa çarəsi qalmadı. Onda Keyxosrov Qəndəharı mühasirəyə aldı. Bu mühasirə iki ay davam etdi. Həmin müddət ərzində qəti hücumla Qəndəharı ələ keçirmək imkanı olsa da Keyxosrov belə bir iradə nümayiş etdirə bilmədi. Ona görə də sonda özü ağır nəticələrlə üzləşməli oldu (64).

Doğrudur, Qəndəhar qalası daxilindəkilər də ağır vəziyyətə düşərək təslim olmağa hazır olduqlarını bildirmişdilər. Onlar bəyan etdilər ki, əfqanlar haqqında ümumi əfv qərarı qəbul edilsə bu addımı atmağa hazırdırlar. Keyxosrov bu şərti qəbul etmədi və bununla əslində, yeni bir səhvə yol verdi. O tələb etdi ki, əfqanlar gərək qeydi-şərtsiz təslim olsunlar. Keyxosrov güman edirdi ki, əmisinin qisasını əfqanlardan ala biləcəkdir. Belə olanda əfqanlar yenidən səfərbər oldular, onların başqa bir çıxış yolu qalmadığı üçün son nəfəsədək döyüşmək qərarına gəldilər. Mir Veys qala daxilindəki müqaviməti gücləndirməklə bütün gücünü yenidən topladı. Ətraf yaşayış məntəqələrindəki ərzaq ehtiyatlarını məhv etməklə əfqanlar Səfəvi qoşunlarını aclıq təhlükəsi ilə üzbəüz qoydu. Səfəvi qoşunları doğrudan da çətinliklərlə üzləşdilər, döyüşçülər əldən düşdülər. Yaranmış vəziyyəti daha düzgün qiymətləndirən Mir Veys bütün qüvvəsini toplayıb Səfəvi qoşunları üzərinə hücuma keçdi. Keyxosrov bu hücumun qarşısını almağa çalışsa da bütün cəhdləri uğursuz oldu. O nəinki öz qoşununu itirdi, hətta özü də bu hücumun qurbanı oldu (65).

Beləliklə, Səfəvi dövləti hərbi uğursuzluqla qarşılaşdı. Vaxtilə bütün Asiyaya meydan oxuyan bir dövlətin varislərinin gücü çatmadı ki, bir qalanın öhdəsindən gəlsinlər. Saray əyanlarının məkrli oyunları hərbi yürüşün siyasi məqsədinə bir çaşqınlıq gətirdiyi kimi, qoşunların ümumi rəhbərliyinə də itaətsizlik və inamsızlıq toxumu səpdi. Saray əslində, öz niyyətinə nail oldu, şəxsi maraqlar dövlətin ərazi bütövlüyünün təmin edilməsindən üstün tutuldu, ehtimali təhlükə hesab edilən Keyxosrov kimi bir sərkərdə aradan götürüldü. Şaha çatdırılan yanlış məlumatlarla mövcud təhlükənin aradan qaldırılması üçün qətiyyətli addım atılmasına imkan verilmədi.

Bir müddət sonra İsfahan sarayı Qəndəhara yeni bir qoşun dəstəsi göndərməyi qərara aldı. L.Lokkart mənbələrə əsaslanaraq iddia edir ki, yeni qoşun dəstəsinin sərkərdəliyinə qorçubaşı Məhəmməd Zaman xan təyin edildi. Onun yazdıqlarından belə məlum olur ki, Məhəmməd Zaman xan qoşunun hazırlaşdırılmasında və Qəndəhara doğru hərəkə-

tə başlamasında elə bir fəallıq və təşəbbüskarlıq göstərmədi. Xeyli müddətdən sonra onun qoşun dəstəsi Herata çatdı və malik olduğu xəstəlikdən əziyyət çəkən Məhəmməd Zaman xan burada dünyasını dəyişdi. Bundan sonra İsfahan sarayı əfqan qiyamının yatırılması üçün hər hansı bir tədbirə əl atmadı və Mir Veys ömrünün sonuna kimi dinc həyat sürməli oldu (66).

Con Hanvey və bəzi tarixi ədəbiyyat müəllifləri isə Qəndəhara göndərilən ikinci qoşuna Qəndəharın sabiq hakimi adlandırılan Məhəmməd Rüstəm xanın rəhbərlik etməsini, onun Mir Veyslə döyüşə girdiyini, ancaq məğlub olduğunu və öldürüldüyünü yazırlar (67).

Bundan sonra şah sarayı Qəndəhara qarşı qətiyyətli tədbirlərin həyata keçirilməsinə imkan vermədi. Əksinə, şaha təslimçilik əhval-ruhiyyəsi aşılandı. Şah Sultan Hüseyn tərəfindən gilzayi əfqanlarına sülh təklif edildi. Mir Veys Səfəvi sarayı ilə aşağıdakı şərtlərlə sülh bağlamağa razı oldu: 1. Qəndəharın gilzayi əfqanlarının vergi verməkdən bir dəfəlik azad edilməsi; 2. Qəndəhar hakimliyinin bir dəfəlik olaraq Mir Veys nəslinə verilməsi; 3. Səfəvi qoşunlarının Qəndəhardan geri çağırılması (68).

Səfəvi sarayı bu təklifi qəbul etmədi və onun ətrafında heç müzakirə də aparmadı. Əslində, Mir Veys öz istədiyinə nail olmuşdu. Çünki Səfəvi sarayı tərəfindən ona qarşı hər hansı bir ciddi addıma da əl atılmırdı. Mir Veys 8 ilə qədər Qəndəharda hakimlik etdi və 1715-ci ildə öz əcəli ilə dünyasını dəyişdi. Bəzi tarixi ədəbiyyatda Mir Veysin 1717-ci ildə dünyasını dəyişdiyi göstərilir (69).

Mir Veys dünyasını dəyişəndə onun iki oğlu qalmışdı. Lakin idarəçilik işlərində onların ciddi təcrübəsi yox idi. Ona görə əfqanlar tərəfindən Mir Veysin qardaşı Mir Abdulla Qəndəharın yeni hakimi seçildi. Mir Abdulla Səfəvi sarayı ilə dinc şəraitdə yaşamağa üstünlük verirdi. Buna görə də o, sarayla əlaqə yaratmağa, əvvəlki münasibətləri bərpa etməyə çalışırdı. Bununla bağlı, hətta İsfahan sarayına gizli şəkildə öz nümayəndələrini göndərməyi də planlaşdırırdı. Bəzi tarixi ədəbiyyatda Mir Veysin irəli sürdüyü şərtlərin Mir Abdulla tərəfindən də irəli sürüldüyü bildirilir (70). Hər halda məlumdur ki, Mir Abdulla Səfəvi sarayı ilə normal münasibətlər qurulmasının tərəfdarı idi. Onun bu mövqeyi əfqanlar tərəfindən təslimçilik kimi qiymətləndirilirdi. Buna görə də onlar Mir Veysin 18 yaşlı oğlu Mir Mahmudu əmisinə qarşı təhrik etdilər. Mir Mahmud ətrafına topladığı bir dəstə əfqanla Mir Abdullanı qətlə yetirdi və Qəndəhar hakimliyini ələ keçirdi.

Qəndəhar hakimliyini ələ keçirən Mir Mahmud Səfəvi sarayına qarşı daha sərt mövqe nümayiş etdirdi. Səfəvi sarayı isə Qəndəharda

baş verən hərc-mərclikdən istifadə edə bilmədi. Əksinə, Mir Mahmud şah sarayının süstlüyündən öz məqsədi üçün istifadə etdi və özünü kifayət qədər möhkəmləndrdi. Səfəvilər sarayının zəifləməsindən və qətiyyətsizliyindən yalnız gilzayi əfqanları deyil, əbdali əfqanları da istifadə etməyə cəhd göstərdilər. Əbdalilər Heratda hakimiyyəti öz əllərinə aldıqlarını və Səfəvi dövlətindən ayrıldıqlarını elan etdilər. Bu hadisəni də Səfəvi sarayı çox soyuqqanlıqla qarşıladı. Amma əbdalilərin Herat hakimliyini ələ  keçirmələrini Mahmud çox narahatlıqla qarşıladı. O yaxşı anlayırdı ki, əbdalilər güclənsə gilzayi əfqanları öz mövqelərini əldən verə bilərlər. Buna görə də Mahmud əbdalilərə qarşı qoşun çəkməyi qərara aldı. Onun əfqan hezarələri ilə ittifaq bağlaması isə gücünü daha da artırdı və bundan sonra Herata hücum qərarını qətiləşdirdi (71).

Mahmud bu döyüşdə qalib gəldi. Onun əbdali əfqanlarına üstün gəlməsi Səfəvi sarayı tərəfindən sevinclə qarşılandı. Çünki saraya qarşı qiyam qaldırmış əbdalilər sarayın əziyyəti olmadan əzildilər. Bu xəbər şah sarayını o qədər sevindirdi ki, əyanların təkidi ilə şah, Mahmuda "Hüseynqulu xan" (yəni Şah Sultan Hüseynin qulu) adı verməklə ona bir qılınc da göndərdi (72). Saray əyanları belə bir təsəvvür yaratmağa çalışırdılar ki, guya Mahmud Səfəvi dövlətinin xidmətinə qayıdıb. Amma hadisələrin gedişi tezliklə göstərdi ki, bu heç də belə deyil və zəifləmiş Səfəvi sarayı ilə müqayisədə özünü güclü hesab edən Mahmud böyük planlar qurmağa başladı. Az müddətdən sonra Mahmud Səfəvilər dövlətinin tərkibində olan digər vilayət və şəhərlərin üzərinə hücum çəkdi.

Qeyd etmək lazımdır ki, XVIII əsrin ikinci onilliyinin sonu Səfəvilər dövlətinə qarşı qiyamların coğrafiyası kifayət qədər genişləndi. Kürd dəstələri Həmədan və İsfahan ətrafındakı məntəqələr üzərinə hücuma keçdilər və bu məntəqələri talan etdilər. Şirvan və Dağıstanda ləzgilər dövlət əleyhinə qiyama başladılar, Osmanlı Türkiyəsi isə Rusiya ilə birlikdə Səfəvi dövlətinə qarşı yeni planlara əl atdılar (73).

Mahmud da belə bir ağır vaxtda Səfəvi dövlətinə qarşı yürüş etmək niyyətinə düşdü. Bu zaman onun Səfəvi dövlətinin mürəkkəb şəraitə düşdüyünü nəzərə alıb-almamasını söyləmək çətindir. Amma sözsüz ki, Mahmud, şah sarayında baş verənlərdən, şah sarayında ona qarşı hər hansı bir tədbirə əl atılmayacağından yaxşı xəbərdar idi. Şah sarayında hökm sürən hərc-mərclik, bir də əbdali əfqanları üzərində qələbədən sonra ətrafına çoxlu sayda qoşun toplaya bilməsi Mahmudu daha geniş əraziləri işğal etməyə ruhlandırdı. "Aləm Ara-ye Naderi"yə

görə, Mahmud qısa müddət ərzində ətrafına 30 minlik qoşun toplaya bildi (74).

Burada diqqət çəkən başlıca məsələlərdən biri şah sarayının ölkə daxilində baş verənlərə qarşı cinayətkar biganəliyi idi. Səfəvi sarayı öz fəaliyyətsizliyi ilə öz məhvini, Səfəvilər dövlətinin süqutunu yaxınlaşdırırdı. Saray əslində, şahı da ətraf mühitdən təcrid etmişdi. Şah Sultan Hüseyn yalnız öz ətrafının deyil, həm də öz kəsərsizliyinin və sadəlövhlüyünün əsirinə çevrilmişdi. O, saray əyanlarının fitnələrinin qarşısında geri çəkildikcə mənsub olduğu xanədanın faciəli məhvini yaxınlaşdırdı, dövləti ciddi sarsıntılarla üzbəüz qoydu.

Qəribədir ki, süqutu göz qabağında olanda belə, saray öz məkrlərindən əl çəkmədi. Bu baxımdan dövrün müasirləri olan T.Krosinskinin və Jan Otterin toxunduqları bir məsələ xarakterikdir. Bu da kifayət qədər sərkərdəlik təcrübəsinə malik, şücaəti ilə ad çıxarmış və dövlət işlərindən təqaüdə çıxmış Səfiqulu xanın şah tərəfindən Səfəvi ordusunun sərkərdəsi təyin edilməsi niyyəti ilə bağlıdır. Saray əyanları arasında Səfiqulu xan mərd və mübariz bir insan kimi tanınırdı. Səfiqulu xan Səfəvi dövlətinin düşmənləri ilə mübarizə aparmağı bacaracaq bir şəxs idi. Amma o yaxşı anlayırdı ki, saray əyanları ilə bu mübarizəni aparmaq mümkün deyil. Ona görə də bu vəzifədən imtina etdi Belə olanda onun oğlu qoşun sərkərdəsi təyin edildi. Təcrübəsiz gənc bir insanın qoşun sərkərdəsi təyin edilməsi isə son nəhayətdə həm onun özünün, həm də atası Səfiqulu xanın ölümü ilə nəticələndi (74).

Mahmudun Sistan və Kermana doğru hərəkətə başlaması 1719-cu ilə təsadüf edir. “Aləm Ara-ye Naderi”də Mahmudun Kermana ikinci hücumu barədə məlumat vardır. Onun ilk hücumu haqqında isə qərb mənbələrində və tarixi ədəbiyyatda müəyyən məlumatlar mövcuddur. L.Lokkart yazır ki, Mahmud 9 ay Kermanı mühasirədə saxladı. Səfiqulu xan və onun oğlu da burada baş verən döyüşlərdə həlak oldular. Uzun müddətli mühasirəyə baxmayaraq Mahmud Kermanı ələ keçirə bilmədi. Bu zaman etmadüddövlə Fətəli xan Dağıstaninin qardaşı oğlu Lütfəli xan Farsdakı Səfəvi qoşununun sərkərdəsi idi və o, Omana yürüş etməyə hazırlaşırdı. Amma əfqanların hücumu davam etdiyindən ona Səfəvi qoşununun sərkərdəsi kimi Kermana yollanmaq əmri verildi. Lütfəli xan bu vəzifənin öhdəsindən bacarıqla gəldi və əfqanları Kermandan geri çəkilməyə məcbur etdi. Əfqanlar Kerman ətrafında məğlubiyyətə uğrayıb ağır zərbə aldılar (75).

Bu döyüşdən sonra Mahmud anladı ki, Səfəvi qoşunlarında Lütfəli xan kimi sərkərdələr də vardır və ona görə də onun işğalçılıq niyyət-

ləri həyata keçməyə də bilər. Amma Mahmud, şah sarayında baş verən hərc-mərcliklərdən də xəbərdar idi və ona gələcək işğalçılıq yürüşləri üçün də məhz saray əyanlarının daxili məkrləri yol açdı.

Lütfəli xanın əfqanlar üzərində qələbəsi saray əyanlarını sevindirməkdənsə şok vəziyyətinə saldı. Onlar Lütfəli xanın artan nüfuzunu dərin bir təşvişlə qarşıladılar, onu özlərinə təhlükə və rəqib kimi qəbul etdilər. Elə bunun üçün də onun aradan götürülməsi üçün yollar aramağa başladılar. Lakin onlar anlayırdılar ki, Lütfəli xanın əmisi Fətəli xan etimaddüdövlə nə qədər ki, öz vəzifəsindədir, Lütfəli xanı aradan götürmək asan olmayacaqdır. Ona görə saray əyanları əvvəlcə Fətəli xanın aradan götürülməsi üçün yollar aramağa başladılar. Çox tezliklə belə bir yol tapıldı. Əslən Dağıstandan olan sünni Fətəli xan ləzgilərlə və sünni kürdlərlə şaha süi-qəsd hazırlamaqda günahlandırıldı və gözləri çıxarılaraq zindana atıldı. Ondan sonra Lütfəli xan da vəzifəsindən azad edildi (76).

Lütfəli xandan aldığı zərbə Mahmudu çox ciddi təşvişə saldı. Hətta Səfəvi qoşunlarının Qəndəhara tərəf hərəkət edəcəyi ehtimalı onun yuxusuna haram qatdı. Lakin eşidəndə ki, Lütfəli xan vəzifəsindən azad edilib, onda rahat nəfəs aldı. Çox güman ki, Lütfəli xan vəzifəsindən azad edilməsəydi Mahmudun Səfəvi paytaxtına doğru irəliləməsi də mümkün olmazdı.

1721-ci ilin sonlarında Mahmud qoşunları ilə yenidən qərbə doğru istiqamət götürdü. İlk hücumdan ötən iki illik vaxt ərzində Mahmud da öz qoşunlarını möhkəmləndirməyə çalışmışdı. "Aləm Ara-ye Naderi"də onun 30 minlik qoşun topladığı bildirilir (77).

Qərb mənbələrinə görə, Mahmudun ətrafındakı qoşunların böyük bir hissəsi könüllü şəkildə ona qoşulmuşdu. Onun Səfəvi torpaqlarına hücum xəbərini eşidəndə əbdali əfqanları, Kabul əhalisi və beluclar Mahmudu müdafiə etdilər və ona qoşuldular. Mahmuda qoşulan ən böyük dəstəyə Əmənulla xan adlı birisi rəhbərlik edirdi. Sonradan Əmənulla xan Mahmudun ən yaxşı sərkərdələrindən birinə çevrildi. Con Hanveyə görə, Mahmudun qoşununun sayı 25 min nəfərə çatdı. Onun qoşununun tərkibində bir neçə fil və dəvə də var idi (78).

Mahmud əvvəlcə Sistan ərazisinə daxil oldu. Döyüşə başlamazdan əvvəl Sistan hakimi Məlik Mahmuda məktub göndərdi, onu birgə fəaliyyətə dəvət etdi. Məlik Mahmud da cavabında bildirdi ki, Mahmud öz yoluna davam etsin. Əgər onun ətraf şəhərləri və məntəqələri tutmağa qüdrəti çatarsa, onda çoxlu hədiyyələrlə yanına gəlib ona qoşular. Mahmud da bununla razılaşdı və Kermana doğru hərəkətini davam etdirdi (79).

Mahmud Kerman hakiminə də əvvəlcə məktubla müraciət etdi, onu öz qoşunlarını mənasız yerə qırdırmamağa, qarət və talanlara yol verməməyə və təslim olmağa çağırdı. Kerman hakimi Mahmudun təklifini qətiyyətlə rədd etdi. Kerman hakimi bildirdi ki, nə qədər ki, müqəddəs xanədan İsfahanda əzəmət sahibidir, ona sadiq olanlar öz həyatlarını onun yolunda əsirgəməyəcəklər. Kerman hakimi onu da bildirdi ki, əgər Mahmudun döyüşə başlamaq bacarığı varsa başlasın, amma yerli döyüşçülərin şücaətini və dilavərliyini də nəzərindən qaçırmasın (80).

Mənbələrin verdiyi məlumata görə, tərəflər arasındakı döyüş şəhər ətrafında və qala divarları üzərində xüsusilə şiddətli oldu. Kerman hakiminin cavabından hirslənən Mahmud səhəri gün qoşunlara hücum əmri verdi. Əfqanlar Kerman qalasını mühasirəyə aldılar. Səfəvi qoşunu qala daxilində kifayət qədər etibarlı müdafiə olunurdu. Amma Kerman hakimi bununla da kifayətlənməyi lazım bilmirdi. O ətrafında olan bir dəstə ilə mühasirə zamanı qaladan çıxıb əfqanların üzərinə hücum etdi. Kerman hakimi ilə əfqanlar arasında qızğın döyüş başladı. Əfqanlar isə qalanın mühasirəsinə xüsusi diqqət yetirirdilər. Xüsusilə, qalanın şimal hissəsindən əfqanların təzyiqi xeyli gücləndi. Hətta əfqan döyüşçüləri qala divarları üzərinə də qalxa bildilər. Bu vaxt qala müdafiəçiləri bayırda döyüşən Kerman hakiminə xəbər göndərdilər ki, köməyə gəlsin. Kerman hakimi bu xəbər eşidən kimi qalaya çəkilməli oldu (81).

Qərb mənbələrinə görə, Kermanın qaladan bayırda qalan hissəsinin tutulması üçün əfqanlar elə də çox zəhmət çəkmədilər. Çünki Kermanda yaşayan və Səfəvi hakimiyyətindən narazı olan zərdüştülər əfqanlara yardım etdilər. Bu da Kermanın tutulmasını asanlaşdırdı (82).

Bununla belə, Mahmud Kerman qalasını tutmağa nail olmadı. Kerman hakiminin və Səfəvi döyüşçülərinin ciddi müqaviməti nəticəsində əfqanlar qala divarları üzərində qazandıqları mövqeləri də itirməli oldular. C.Hanvey və L.Lokkart bildirirlər ki, qalanın mühasirəsi uzananda Kerman hakimi Mahmuda pul verməklə ona mühasirəni dayandırmağı təklif etdi. Mahmud da vaxt itkisinə, habelə canlı itkilərə məruz qalmamaq və tezliklə İsfahanı tutmaq üçün bu təklifi qəbul etdi (83).

Qərb müəlliflərindən Otter də qeyd edir ki, Mahmud mühasirənin uzanması ilə qoşunların zəifləməsinə yol verməmək üçün Kermandan aralandı və İsfahana üz tutdu (84). "Aləm Ara-ye Naderi"də olan məlumatdan isə belə başa düşmək olar ki, mühasirənin elə ilk günü Mahmudun əyanlarından olan Molla Zəfəran ona Kerman ətrafında

dayanmamağı məsləhət gördü. Fikrini də onunla əsaslandırdı ki, mühasirə uzun çəkərsə ətraf vilayətlərdən toplanıb gələn Səfəvi qoşunları əfqanları məhv edəcəkdir. O təklif etdi ki, əfqan qoşunları birbaşa İsfahana yollansın və ətraf vilayətlərdən gələn köməyin İsfahana daxil olmasına imkan verməsin. Onun fikrincə, İsfahan ətrafında aparılan uğurlu döyüşlə Kermanın da taleyini həll etmək olar. M.Kazım Mərviyə görə, Mahmudun bu təkliflə razılaşdığını görəndən sonra Molla Zəfəran Kerman hakiminə məktub göndərib onu təslim olmağa, Mahmudun nəvazişlərindən bəhrələnməyə çağırdı. Kerman hakimi Rüstəm Məhəmməd Səidli Mahmuda cavab verməzdən əvvəl bir neçə dəfə şah sarayına müraciət etdi və İsfahandan kömək istədi. Saray əyanları şaha çatdırdılar ki, Mahmudun hücumundan narahat olmağa əsas yoxdur. Onların fikrincə, Mahmudun cürəti çatmazdı ki, Şah Sultan Hüseynlə döyüşə girsin. Belə bir cavab alandan sonra Kerman hakimi bir daha şah sarayından kömək istədi və vəziyyətin mürəkkəbliyini şah sarayına xatırlatdı. Yalnız bundan sonra şah sarayı Heydərəli xan adlı birisinin rəhbərliyi altında Kermana kömək göndərməyi qərara aldı. Amma Heydərəli xan bu tapşırığı yerinə yetirməkdən imtina etdi Bununla belə, Kerman hakimi Mahmuda xəbər göndərdi ki, qalanı təslim etmək fikrində deyil. O bildirdi ki, əgər Mahmud İsfahanı tutarsa, onda müqaviməti dayandırar və qalanı təhvil verər. Yaranmış şəraitdə bu təklif Mahmud üçün qəbul edilən idi. Ona görə Kerman ətrafında dayanmağı artıq bilib İsfahana doğru istiqamət götürdü (85).

Mahmud Kerman ətrafındakı uğursuzluğun əvəzini Yəzddə çıxmaq istədi və bu şəhəri tutmağa çalışdı. Əfqan qoşunlarının Yəzd ətrafına 1722-ci ilin fevralında çatdığı güman olunur (86). Yəzd əhalisi əfqanların yaxınlaşmasını eşidən kimi qala daxilinə çəkilib müdafiəyə hazırlaşdılar. Əfqan qoşunları göstərdikləri bütün cəhdlərə baxmayaraq bir nəticəyə nail ola bilmədilər. Mahmud və onun sərkərdələri bir daha öz bacarıqsızlıqlarını nümayiş etdirdilər. Əfqanlar tuta bilmədikləri Yəzdi arxada qoyub İsfahana doğru hərəkətlərini davam etdirdilər.

Dövrün müasirləri, Səfəvi dövləti ərazisində missionerlik etmiş qərb ruhaniləri də belə bir bacarığa malik olan Mahmudun və onun qoşunlarının sonradan İsfahanı tutmasına öz təəccüblərini gizlətmirdilər. Qərb mənbələri onu da bildirirlər ki, həmin vaxta qədər əfqanlar inkişafdan son dərəcə geri qalmışdılar, hətta ömürləri boyu sabun belə görməmişdilər. Əfqan döyüşçüləri İsfahanda əllərinə keçən sabunu şəkər bilib yeyirmişlər (87). Onlar ciddi hərbi rəqib olmalarını belə

nümayiş etdirə bilməmişdilər. Buna baxmayaraq, əfqanlar son nəticədə istəklərinə nail olub İsfahanın sahibinə çevrildilər.

Əslində, qeyd edildiyi kimi əfqan qoşunları fərqli bir döyüş hazırlığına və keyfiyyətlərinə malik deyildilər. Həqiqətdə, onlar hərc-mərclik girdabında çırpınan, Səfəvilər dövlətinin müqəddəratına dönüklük göstərən şah sarayı tərəfindən nəzarətsiz buraxılmış ərazilərə sahib çıxmağa çalışırdılar. Mahmudun Yəzdi adlayıb İsfahana yaxınlaşması sarayda bir təşviş yaratdı. Amma bu təşviş ciddi bir müqavimətə çevrilmədi. Saray tərəfindən Azərbaycan, Xorasan, İraq (ölkənin cənub qərb bölgəsi) və Fars bəylərbəyliklərinə və vilayətlərə qoşun toplayıb İsfahana göndərmələri tapşırıldı. Lakin bu tapşırıq da yerinə yetirilmədi. Yerlərdə əfqanlarla bağlı bir xof yaranmışdı. Yalnız bəxtiyari tayfasından təşkil olunan qoşun dəstəsi İsfahana gəlib paytaxtın müdafiəsinə qatıldı (88).

Con Hanveyin yazdığına görə, əfqan qoşunları İsfahanın dörd mənzilliyində olanda sədr-əzəm və ya etümaddüdövlə olan Məhəmmədqulu xanın elçiləri Mahmudun yanına gəldilər və ona təklif etdilər ki, 15 min tümən hədiyyə alıb geri qayıtsın. Amma bu təklif Mahmud tərəfindən qəbul olunmadı və verilən təklifi dövlətin gücsüzlüyü kimi dəyərləndirərək Səfəvi qoşunları ilə döyüşə qərar verdi (89).

Lokkartın fikrincə isə əfqan qoşunları İsfahanın cənubunda, 64 kilometrlik bir məsafədə olanda şahın qasidi Mahmudun yanına gəldi və Mahmuda irəliləməyini dayandıracağı təqdirdə 600 kisə gümüş təklif etdi (90). Mahmud isə bu təklifi qəbul etmədi.

Mahmudun qalib gələcəyi təqdirdə Səfəvilər dövlətinin mövcudluğuna son qoyula bilərdi. Bu qədər yaxınlaşmış olan təhlükə də şah sarayını və elə şahın özünü də təsirli və qətiyyətli addımlar atmağa sövq edə bilmədi. Mühüm qərarın qəbul edilməsi üçün yekdillik nüma-yiş etdirə bilməyən şah sarayı tərəfindən Mahmuda qarşı hazırlanan əməliyyata da çaşqınlıq gətirildi və ən adi hərbi vərdişlər səviyyəsində idarə olunmayan Səfəvi qoşunları özündən iki dəfə az olan əfqan qoşunları qarşısında aciz qaldı.

Tərəflər arasında baş verə biləcək döyüş ərəfəsində şah sarayında hərc-mərclik və fikir müxtəlifliyi yenidən vüsət aldı. Etimadüddövlə Məhəmmədqulu xan Səfəvi qoşunlarının əfqanlar üzərinə hücum etməsinə tərəfdar deyildi. Etimadüddövlə tabeliyində olan 30 minlik qoşunla İsfahanın möhkəm müdafiəsini yaratmağı üstün tuturdu. Onun qənaəti belə idi ki, müdafiədə dayanmaq və əlverişli döyüş mövqeləri tutmaq Səfəvi qoşunlarının müqavimət gücünü artırmaqla vaxt udmağa və bununla da vilayətlərdə toplanan qoşunların İsfahana gəlib çat-

masına imkan yaradar. Saray əyanları isə bunun əleyhinə idi. Xüsusən böyük qoşun dəstəsi ilə İsfahana gəlməyə söz verən Ərəbistan (Xuzistan) valisi Seyid Abdulla əfqanlar üzərinə hücuma keçməyi təkid edir və şaha da bu fikri təlqin edirdi. Şah da bu fikirlə razılaşdı və ərəblərdən təşkil olunmuş qoşun dəstəsi İsfahana yetişdikdən sonra Seyid Abdullanı da Məhəmmədqulu xanla birlikdə Səfəvi qoşunlarının baş komandanı təyin etdi. Bununla da əsasını daha çox təcrübəsiz kontingentin təşkil etdiyi Səfəvi qoşunlarının rəhbərliyində həlledici döyüş ərəfəsində ikihakimiyyətlilik yaradıldı.

Tarixi ədəbiyyatda, mənbələrdə, xatirələrdə və xüsusilə L.Lokkartın tədqiqatında (91) Günəbad yaxınlığında Səfəvi qoşunları ilə Mahmud qoşunları arasında baş vermiş döyüş haqqında geniş məlumat mövcuddur. İstər tarixçilərin, istərsə də mənbələrin bu döyüşə geniş yer ayırmasının əsas səbəblərindən biri Səfəvi dövlətinin Mahmud qarşısında çarəsiz qalmasının səbəblərini araşdırmaq idi.

Günəbad döyüşü 1722-ci il mart ayının əvvəllərində baş verdi. Səfəvi qoşunu kifayət qədər böyük saya malik idi. Mənbə və tarixi ədəbiyyatda Səfəvi qoşunlarının 50 min və ya ona yaxın sayda olduğu göstərilir. “Aləm Ara-ye Naderi” də şah qoşunlarının 60 min nəfər olduğu bildirilir. Əfqan qoşunları isə 20 min sayında idi. Amma bu rəqəmlər bir qədər şübhəli görünür. Xüsusilə, itki verə-verə gəlmiş və heç bir hərbi təcrübəsi olmayan Mahmudun özündən üç dəfə artıq olan qoşunla döyüşə girməsi heç də inandırıcı görünmür.

Döyüşün mart ayının 7-də başlanması nəzərdə tutulmuşdu. Amma şah sarayının münəccimlərinin mülahizələri şahı bundan çəkindirdi. Kiçik bir toqquşma istisna olunarsa, əsas döyüş martın 8-də başladı. Tədqiqatçıların yazdıqlarına görə, Səfəvi qoşunları bu döyüşə rəngarəng və uyğun hərbi geyimdə, əfqanlar isə nimdaş və köhnə geyimlərdə gəlmişdilər.

Con Hanveyə görə Səfəvi qoşunlarının mərkəzi hissəsində süvarilər və onların sərkərdəsi dayanırdı. Onun ixtiyarında 4 min süvari və o qədər də piyada olduğu bildirilir. Topçubaşının rəhbərliyi altında 24 ədəd top və 2 min nəfər topçu da mərkəzdə mövqe tutmuşdu. Sağ cinah gürcü qullarağası Rüstəm xanın sərkərdəliyi altında olan süvarilərə tapşırılmışdı. Sol cinah isə C.Hanveyə görə etimaddüdövlə ilə Ərəbistan valisi tərəfindən idarə olunurdu. Luristan valisi Əlimərdan xanın da öz süvariləri ilə onlara qoşulduğu bildirilir (92).

L.Lokkarta görə isə Səfəvi qoşunlarının döyüş qabağı düzülüşü tamam başqa şəkildə idi. Onun fikrincə, Ərəbistan valisi öz süvariləri ilə sağ cinahda, qullarağası Rüstəm xan mərkəzdə, etimaddüdövlə

Məhəmmədqulu xan isə sol cinahda mövqe tutmuşdu. Qeyd olunur ki, Səfəvi qoşunları əfqan qoşunlarının cinahına tərəf mövqe tutmuşdular və planlaşdırılıbmış ki, döyüş başlayanda düşmənin cinahına hücum edə bilsinlər. Mahmudun qoşunlarının sağ cinahına Əmənulla xan, sol cinahına Nəsrulla xan sərkərdəlik edirdi. Qoşunların mərkəzi hissəsi isə Mahmudun özünün nəzarəti altında idi (93).

C.Hanveyə görə qarşı-qarşıya gələn qoşunlar döyüşü müxtəlif əhval-ruhiyyə ilə başladılar. Şah qoşunları bər-bəzəyi, yaraşıqlı yəhərləri, bəzədilmiş atları, silahların zənginliyi ilə fərqlənsələr də, onlarda fəaliyyət birliyi və yüksək döyüş əhval-ruhiyyəsi yox idi. Komandanlıqdakı ikihakimiyyətlilik, döyüşün aparılması ilə bağlı onların baxışlarının müxtəlifliyi döyüşçülərə də öz təsirini göstərirdi. Mahmud isə görünür ki, çoxsaylı qoşun qarşısında duruş gətirməyin mürəkkəbliyini anlayırdı və ona görə də döyüşçülərinə aşılamağa çalışırdı ki, geriyə yol yoxdur. Qələbə əldə edilməsə onların hamısı məhv olacaqlar (94).

Bununla belə, Səfəvi qoşunları üçün döyüş uğurla başladı. Bir-birindən fərqli olan tarixi məlumatları ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, Səfəvi qoşun dəstəsinin ilk çevir manevrlərindən sonra əfqan qoşununun sol cinahına güclü zərbə endirildi. Həmin zərbə elə güclü idi ki, cəbhənin mərkəzində fil üzərində döyüşə girən Mahmud qaçmaq üçün dəvələrin hazırlanmasına da əmr verdi. Elə bu anlarda Səfəvi qoşunlarındakı ikihakimiyyətlilik öz mənfi nəticəsini göstərdi. Ərəbistan valisi də süvari dəstəsi ilə sürətlə manevr edib əfqanların sol cinahını adlamışdı. Amma nəzərdə tutulduğunun əksinə olaraq ərəb süvariləri əfqanların sol cinahının arxasından zərbə endirməkdənsə əfqanların düşərgəsinə tərəf istiqamət götürdü. Yəni, əfqanların sol cinahında əldə edilmiş təşəbbüsün genişləndirilməsi üçün nə ərəb sərkərdəsi, nə də etimaddüdövlə tərəfindən yardım göstərildi. Bu da əfqanların özünə gəlməsinə imkan verdi. Xüsusən, əfqanların sağ cinahında olan Əmənulla xanın döyüşü səmərəli qura bilməsi təşəbbüsün əfqanlar tərəfinə keçməsi ilə nəticələndi. Əmənulla xan dəstəsini döyüş xəttindən geri çəkib zənburəklər yüklənmiş dəvələri önə çıxardı. Onların atəşləri Səfəvi qoşunlarını çaş-baş saldı. Sol cinahda olan Səfəvi dəstəsi geri çəkilməyə məcbur oldu. Əmənlla xan onları təqib edərək Səfəvi qoşununun malik olduğu topları ələ keçirdi və səfəviləri top himayəsindən məhrum etdi. Əfqanların sol cinahında olan Nəsrulla isə ilk uğursuzluqdan sonra cəbhənin mərkəzində aldığı kömək sayəsində səfəvilərin irəliyə hərəkət edən cinahını qabağa buraxmaqla onların cinahını və arxaya hərəkət yolunu

kəsdi. Bununla da demək olar ki, döyüşün taleyi həll olundu. Səfəvi qoşunları böyük sürətlə geriyə çəkilməklə Səfəvi dövlətinin süqutdan qurtulması üçün mövcud olan azacıq ümidi də əldən verdilər. "Aləm Ara-ye Naderi" bildirir ki, bu döyüşdə səfəvilərdən 10-12 min nəfər şəhid oldu (95).

Persi Sayks yazır ki, Mahmud böyük imperiyanın paytaxtına yaxınlaşa bilsə də o, əslində, fateh deyildi. Döyüşdə əldə edilmiş uğur da onun bacarığı sayəsində əldə edilməmişdi. Hətta döyüşdən sonra Mahmud nə edəcəyini bilmirdi. O, qoşunu ilə birlikdə geri çəkildi. Hətta Səfəvi qoşunlarından ələ keçirilmiş toplar da əfqan düşərgəsinə gətirilmədi. Səfəvi döyüşçüləri sonra itirdikləri topları asanlıqla öz düşərgələrinə apardılar (96).

Gülnabad döyüşündən sonra hər iki tərəfdə bir çaşqınlıq mövcud idi. Səfəvi tərəfində bu çaşqınlıq biabırçı məğlubiyyətdən sonra özünü göstərdi. Əfqan qoşunlarında isə görünür belə bir qələbə gözlənilmirdi. Ona görə Mahmud bir müddət çaş-baş qaldı. Ancaq əmin olanda ki, doğrudan da o, qələbə çalıb və Səfəvi qoşunu daha qətiyyətli addım atmaq niyyətində deyil, onda daha da irəliləmək qərarına gəldi. Mahmud, Səfəvi şahı tərəfindən tikdirilmiş Fərəhabad qalasını, ətraf məntəqələri, Zarəndərud üzərində olan strateji əhəmiyyətli körpünü ələ keçirdi və İsfahanı mühasirə etdi. Bu mühasirə az qala bir ilə qədər uzandı. Səfəvi şahı qəribə biganəliyin və laqeydliyin qurbanı olmasının bir addımlığında qalanda da onun ətrafını bürümüş olan əyanlar məkrli intriqalardan əl çəkmir və pozuculuq fəaliyyətini davam etdirirdilər. "Aləm Ara-ye Naderu"də bununla bağlı maraqlı bir fakt vardır. Mahmud İsfahanı mühasirəyə almaqla ətrafdan sarayın köməyinə gələ biləcək yolları bütünlüklə kəsdi. Belə bir vəziyyətdə Astrabad hakimi Fətəli xan (Ağa Məhəmməd şah Qacarın babası-M.S.) 2-3 min nəfərlik bir dəstə ilə gecə vaxtı mühasirə həlqəsini adlayıb İsfahana daxil ola bildi. Şah Sultan Hüseyn bu köməyin gəlməsindən çox sevindi və Fətəli xanı sarayda qəbul etdi. Şahın nəvazişi, əhalinin sevinci ilə qarşılaşan Fətəli xan da düşmənin İsfahandan uzaqlaşdırılması üçün bacarığını əsirgəməyəcəyini vəd etdi. Səhəri gün Fətəli xan qaladan çıxıb əfqanlar üzərinə hücum etdi. Məhəmməd Kazım Mərvinin yazdığına görə, Fətəli xan Qacar öz dəstəsi ilə birlikdə bütün gün əfqanlarla döyüşdü, onlardan min nəfərini məhv etdi və əldə etdiyi uğurla İsfahana qayıtdı. Fətəli xanın uğurlu döyüşü bir tərəfdən qacar süvarilərinin şücaətini, bir tərəfdən də əlverişli vəziyyətdə olmasına baxmayaraq Mahmudun fərsizliyini və bacarıqsızlığını nümayiş etdirdi. Şəhər əhalisi bu uğuru böyük sevinclə qarşıladı və ümid edilirdi

ki, İsfahan sarayı Fətəli xana yardım göstərəcək və bununla da əfqanlara ciddi dərs veriləcəkdir. Amma şəhər sakinləri bunun əksinin şahidi oldular. Fətəli xanın əldə etdiyi uğur saray əyanlarında paxıllıq və həsəd hisslərini coşdurdu. Fətəli xan saray əhli üçün İsfahanı azad edə biləcək bir insandan daha çox sarayda kiminsə yerini tuta biləcək qorxulu bir şəxsə çevrildi. Ona görə də əyanlar tərəfindən Fətəli xan haqqında şaha yanlış məlumatlar çatdırıldı. Şayiələrə görə Fətəli xan döyüşə gedəndə çox inamlı gedir, özünü gələcək şah kimi hiss edir və o, Mahmudu qovduqdan sonra silahını saray qoşunlarına qarşı çevirəcəkdir. Şah əmr etdi ki, imkan yaranan kimi Fətəli xan həbs edilsin və zindana atılsın. Sarayda xidmət edən qacarlardan biri bu xəbəri Fətəli xana çatdırdı. Həyatının təhlükədə olduğunu görən Fətəli xan sağ qalmış 1500 döyüşçüsünü götürüb İsfahandan uzaqlaşdı (97).

Bundan sonra İsfahanın yenidən ağır günləri başladı. Fətəli xanın İsfahandan uzaqlaşmasını eşidən kimi Mahmud şəhərin mühasirəsini daha da kəskinləşdirdi. Mühasirənin güclənməsi və İsfahanın ətraf aləmlə bütün əlaqələrinin kəsilməsi nəticəsində şəhərdə qıtlıq artdı və yaşayış xeyli çətinləşdi. “Aləm Ara-ye Naderi” də təsdiq edir ki, əhali adam əti yeməkdən belə çəkinmirdi. Bir dəfə şəhərin 30-40 min əhalisi toplanıb saray divarlarını daş-kəsək atəşinə tutdular. Adamlar şahdan tələb edirdilər ki, ya çətinlikdən çıxış yolu tapsın, ya da qapıları açıb Mahmudun gəlməsinə yol versin. Belə bir hadisə bir neçə dəfə təkrarlandı. İnsanlar onu da tələb edirdilər ki, şahzadələrdən biri taxta oturdulsun. Ola bilsin ki, onun bacarığı əfqanların geri çəkilməsinə yol aça bilər (98).

Şah və eləcə də şah sarayı bununla razı deyildi. Amma İsfahan üzərinə olan hücumlar kəskinləşdikdən sonra saray məcbur oldu ki, şahzadə Abbas Mirzə camaat qarşısına çıxarılsın. Abbas Mirzə öz şücaəti ilə digər şahzadələrə nisbətən əhali arasında daha geniş nüfuz qazanmışdı. O, xalqı əmin etdi ki, İsfahanı mühasirəyə almış əfqanlarla da bacarmaq mümkündür. Ancaq buna elə bu gündən hazırlaşmaq lazımdır. Abbas Mirzə vəd etdi ki, əfqanlar şəhər ətrafından qovulan kimi hələ Şah İsmayıl dövründən xəzinəyə toplanan sərvət əhaliyə paylanacaqdır. Onun belə cəsarətli çıxışı şəhər əhalisində bir ümid yaratsa da, saray əyanlarını dərd-qəm içinə atdı. Abbas Mirzənin şahlıq taxtına çıxacağı təqdirdə qara günlərinin başlayacağını hiss edən əyanlar yenə də fitnələrə əl atdılar və şahı qorxutdular ki, Abbas Mirzə onun yerini tuta bilər. Şah Sultan Hüseyn isə oğluna deyil, saray əyanlarına etibar etdi. O əmr etdi ki, Abbas Mirzənin gözlərinə mil çəksinlər və onu dünya işığına məhrum qoysunlar (99).

Şah Sultan Hüseynin bu əmri yerinə yetirildi və bununla o, eyni zamanda öz taleyinin də üstündən xətt çəkdi. Abbas Mirzənin kor edilməsini eşidən şəhər əhli qəzəblənib yenidən saray qarşısına toplandı və saraydan əfqanlara qarşı qəti tədbirlərin həyata keçirilməsi tələb olundu. Bu dəfə onların qarşısına şahzadə Bəhram Mirzə çıxarıldı. Məhəmməd Kazım Mərvinin yazdığına görə, Bəhram Mirzə ağıllı və tədbirli idi, Nuşirəvan kimi ədalətli idi. Bəhram Mirzə bir neçə gün saraydan çıxıb insanlara qatıldı, şəhərdəki vəziyyətlə yaxından tanış oldu. O, Ərəbistan valisini sərkərdə təyin etdi və bildirdi ki, onun döyüşçüləri tərəfindən gətirilən hər əfqan başına 50 tümən mükafat verəcəkdir. Ərəbistan valisinin rəhbərliyi altında olan döyüşçülər bundan ruhlandılar və xeyli fəallaşdılar. Təkcə birinci gün 300 nəfər əfqan döyüşçüsü və sərkərdəsi əsir edilərək Bəhram Mirzənin düşərgəsinə gətirildi. Bəhram Mirzə də verdiyi vədə əməl etdi, xəzinənin qapısını açıb vəd etdiyi mükafatları döyüşçülərə payladı Yenə Şah Sultan Hüseynə doğru olmayan xəbərlər və şayiələr çatdırıldı və saray əyanlarının sözlərinə daha çox inanan şah bu dəfə Bəhram Mirzəni həbs etdirdi və onun əfqanlara qarşı mübarizəsinin davam etdirilməsinə imkan verilmədi. Əhali bu xəbərdən o dərəcədə qəzəbləndi ki, əsir gətirilmiş əfqan sərkərdələrini azad edib Mahmudun yanına göndərdilər (100).

"Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, etimadüddövlə Məhəmmədqulu xan kənardan yardım gəlməyəcəyi halda Səfəvilər dövlətinin süqut edəcəyini anlayırdı. Ona görə də o, şaha təklif etdi ki, şahzadə Təhmasib Mirzə Azərbaycana, şahzadə Səfi Mirzə isə Kermanşaha göndərilsin və onlar orada qoşun toplayıb İsfahana qayıtsınlar. Şah bu təkliflə razılaşdı və şahzadələr gecə ikən adları çəkilən vilayətlərə göndərildilər (101).

Həqiqətdə isə məlumdur ki, yalnız Təhmasib Mirzə vəliəhd seçiləndən sonra gecə ikən saraydan çıxarılıb Azərbaycana göndərildi. Səfi Mirzə isə İsfahanda qalmalı oldu. Mövcud olan məlumata görə, Təhmasib Mirzə 300 nəfər atlı ilə Tuğçu qapısından İsfahanı tərk etdi. Əfqanlar onu saxlamağa çalışsalar da buna nail ola bilmədilər. Təhmasib Mirzə Qəzvinə doğru istiqamət götürdü. Onun mühasirədən çıxması şəhər əhalisində bir ümid yaratdı. Mahmud isə bundan xeyli qəzəbləndi. Çünki şahzadənin mühasirədən qaçması ilə Səfəvilər taxtını ələ keçirmək ümidi də puça çıxa bilərdi. Ona görə Mahmud, Təhmasib Mirzənin adladığı mövqeni qoruyan əmisi oğlu Əşrəfi cəzalandırmaq və hətta onu qətl etmək əmri verdi. Mahmud Əşrəfdən həmişə ehtiyat edirdi. Çünki onun atasını qətlə yetirmişdi və qorxurdu

ki, Əşrəf fürsət düşən kimi ondan qisas alsın. Əşrəf isə günahkar olmadığını və həmin vaxt onun döyüşçülərinin başqa istiqamətə göndərildiyini əsas tutaraq canını ölümdən qurtardı (102).

Qeyd etmək lazımdır ki, Təhmasib Mirzə şahzadələr arasında bəlkə də ən bacarıqsızı idi. Saray əyanları şah elan ediləcəyi təqdirdə belə ondan elə bir təhlükə gözləmirdilər və ona görə də onun vəliəhd seçilməsinə razı olmuşdular. Tədbirliliyi ilə seçilməyən Təhmasib Mirzə doğrudan da Qəzvində qoşun toplaya bilmədi ki, İsfahanın köməyinə çatsın. Buna görə də İsfahanın vəziyyəti daha da ağırlaşdı.

İsfahanın mühasirəsi haqqında tarixi ədəbiyyatda kifayət qədər məlumat vardır. Mühasirənin davam etdiyi vaxt ərzində şəhər ətrafında bir sıra toqquşmalar və kiçik döyüşlər baş verdi. Hətta qaladan da əfqanlar üzərinə hücumlar oldu. Bütün çətinliklərə baxmayaraq son anlara qədər İsfahanın xilas edilməsi, Səfəvi dövlətinin süqutdan qurtarılması şansı qalmışdı. Amma şah sarayının məkrli oyunları, əfqanlara müqavimət göstərmək istəyənləri də intriqaların qurbanına çevirmələri bütün ümidləri alt-üst etdi.

İsfahanın mühasirəsi dövründə Sistan hakimi Məlik Mahmud öz qoşunu ilə Şah Sultan Hüseynə kömək göstərməyə cəhd etdi. O, 10 min nəfərlik qoşunu ilə İsfahana doğru istiqamət götürüb Gülnabad yaxınlığında düşərgə saldı. Onun bu hərəkəti Qəndəhar hakimi Mahmudun heç də xoşuna gəlmədi. Çünki onun iki cəbhədə vuruşmaq imkanı yox idi. Mahmud sərkərdəsi Nəsrullanı çoxlu hədiyyə ilə Məlik Mahmudun yanına göndərdi. Nəsrulla vasitəsilə Məlik Mahmuda çatdırıldı ki, İsfahana kömək göstərməkdən əl çəkərsə Səfəvilər dövlətinin istənilən vilayəti ona bağışlanacaq və onun müstəqilliyi tanınacaq. Məlik Mahmud Sistani verilən hədiyyələrlə və irəli sürülən şərtlə razılaşdı. O özü üçün Xorasan vilayətini seçdi və qoşununu çəkib Xorasan vilayətini tutmağa yollandı (103).

Gülnabad döyüşündən sonra Şah Sultan Hüseyn də Mahmudun yanına elçi göndərib ona sülh əvəzində çoxlu hədiyyələr vəd etdi. Şah eyni zamanda Qəndəharın istiqlalını tanımağa və hezarələr yaşayan əraziləri də ona verməyə razı oldu. Mahmud bu şərtlərlə razı olmadı və öz tələblərini irəli sürdü. O, 50 min tümən pul, Qəndəhardan başqa Kerman və Xorasan vilayətlərini, habelə şahın qızlarından birinin ona verilməsini tələb etdi. Həmin tələblər şah üçün çox təhqiredici göründü və ona gör də onları qəbul etmədi. İsfahanın vəziyyəti mürəkkəbləşəndən sonra isə şah öz elçisini yenidən Mahmudun yanına göndərdi və qızını da ona verməyə hazır olduğunu bildirdi. Bu dəfə isə

Mahmud həmin şərtlərlə razılaşmadı və zəifləmiş olan şəhəri tutmağı üstün saydı (104).

1722-ci il oktyabr ayının əvvəllərində nəhayət ki, Şah Sultan Hüseyn təslim olmağı qərara aldı. Şəhərdə ərzaq ehtiyatlarının qurtarması, insanların aclıqdan kütləvi surətdə qırılması, əhalinin dözülməz halı və bir də hər hansı köməyin gələcəyinə ümidin olmaması şaha bu qərarı qəbul etməyə məcbur etdi.

Xristian missionerlərinin yazdığına görə, Şah Sultan Hüseyn təslim olmazdan əvvəl qara libas geyinib şəhərə çıxdı, adamlar arasında oldu, küçələri gəzdi. Taxtını və səltənətini qoruyub saxlaya bilməyən Şah Sultan Hüseyn şəhər əhalisindən üzr istədi, onun bağışlanmasını xahiş etdi. Aclıqdan və susuzluqdan sonsuz əziyyətlər görmüş şəhər əhli bu mənzərəni görüb riqqətə gəldi. Böyük xanədanın son nümayəndələrindən olan Şah Sultan Hüseynin çarəsizliyi, onun qara gəlmiş bəxti şəhər sakinlərinin ürəyini yumşaltdı. Şahidlərin yazdığına görə, adamların çoxu bu səhnəni görüb ağladılar. Xüsusən, Səfəvilər nümayəndəsinin Mahmud qarşısında baş əyməyə məcbur olması adamları xeyli təsirləndirdi(105).

İsfahanda olan qərb tacirləri isə vəziyyətlə bağlı öz məktublarında bildirirdilər ki, sülh müqaviləsi üzərində uzun müddət iş aparıldı. Əfqanlar bilirdilər ki, İsfahanın taleyi artıq həll olunub. Ona görə müqavilənin müzakirəsində elə bir fəallıq da göstərmirdilər. Mahmud tələb edirdi ki, Şah Sultan Hüseyn onun düşərgəsinə gəlsin və orada həyatını və tacını Mahmuda təslim etsin. Bu tələb təhqiredici olsa da saray onu qəbul etmək məcburiyyətində qaldı. Oktyabr ayının 23-də şəhər qalasının darvazası açıldı və Şah Sultan Hüseyn heç bir zinət əşyası olmadan, fağır bir insan kimi at belində Mahmudun düşərgəsinə üz tutdu. Həmin ağır səfər zamanı onu bir neçə saray əyanı da müşayiət edirdi. Qərb tarixçilərinin yazdığına görə, şah darvazadan çıxmamış əmr etdi ki, şəhərdə sağ qalmış üç dəvəni də kəsib ətini aclıqdan əziyyət çəkən şəhər əhalisinə paylasınlar. Qərbdən olan şahidlər onu da nəql edirlər ki, qalanı tərk etməzdən əvvəl gözlərindən yaş axan şah namaz da qıldı (106).

Keşiş Krosinski yazırdı ki, şəhər əhli şahın taleyinin belə bir sonluğunu gözləsələr də, onun Mahmudun ayağına getməyə məcbur olması səhnəsini seyr etməyə dözümləri çatmırdı. Ətrafda ağır və ölü bir sükut var idi. Ürəkləri sıxılan adamların nisgil yuvalanmış baxışlarında təəccüb, rəhm, ümidsizlik və çarəsizlik oxunurdu (107). Onların nəzərində qalanı tərk edib gedən tək Şah Sultan Hüseyn

deyildi. Onunla bərabər dövlətin istiqlaliyyəti də addım-addım İsfahandan uzaqlaşırdı.

Bəzi mənbələrə görə, Mahmud, Şah Sultan Hüseyni yaxşı qarşıladı və öz sərkərdələri ilə birlikdə onun pişvazına çıxdı, gözləri yaşlı şəkildə onunla görüşdü (108).

Con Hanveyə görə isə Mahmud həm Səfəvi şahına və həm də onun əyanlarına öz hirsini və hikkəsini nümayiş etdirdi və Şah Sultan Hüseyni son dərəcə alçaldıcı şəkildə qəbul etdi. Belə ki, Şah Sultan Hüseyn Mahmudun düşərgəsinə çatanda xeyli dayanıb gözləməli oldu. Şah, Mahmudun otağına daxil olanda o ayağa qalxmadı. Yalnız şah otağın ortasına çatandan sonra Mahmud ayağa qalxdı və s. (109).

Şahidlərin ifadəsinə istinad edən Lokkarta görə, Şah Sultan Hüseyn Mahmudla görüşəndə ona belə müraciət etdi: "Övlad, xudavəndin iradəsinə əsasən belə olub ki, artıq səltənətdə qalmayım və sənin padşahlığın üçün verilmiş fərmanın icrasının vaxtı çatmışdır. Öz ölkəmi kamali-meyl ilə sənə verirəm və ümidvaram ki, səadət ilə hakimlik edəcəksən". Bu sözləri deyəndən sonra papağından şahlıq ciqqəsini çıxarıb Mahmuda ötürülməsi üçün Əmənulla xana verdi. Mahmudun bundan razı qalmadığını görəndə isə Şah Sultan Hüseyn öz əli ilə ciqqəni Mahmuda təhvil verdi (110).

Bununla da Səfəvilər dövləti süqut etdi və onun ərazilərinin böyük bir hissəsi əfqanların işğalı altına düşdü. Şah Hüseynin şah ciqqəsini alandan sonra Mahmud İsfahana daxil oldu, oranı hakimiyyəti altında olan ərazilərin paytaxtına çevirdi, adına sikkələr vurdurdu və xütbə oxutdurdu. Bir müddət çalışdı ki, yaxşı işlər görüb özü haqqında yaxşı təəssürat yaratsın. İsfahanda aclığın aradan qaldırılması üçün şəhərə azuqə gətizdirdi, Səfəvi məmurlarını işdən azad etmədi, amma onların yanına öz adamlarını təyin etdi ki, nəzarət altında saxlanılsınlar. Şah Sultan Hüseynə xəyanət edənlər cəzalandırıldılar. Müəyyən məsələlərdə Mahmud hətta Şah Sultan Hüseynlə də məsləhətləşirdi. Amma Şah Sultan Hüseyn və onun ailəsi sarayın bir hissəsində ev dustağı edildi. Mahmud, Şah Sultan Hüseynin bir qızına da evləndi. Buna baxmayaraq, Mahmud şah ailəsini sərbəst buraxmadı və onların hərəkətlərini tam məhdudlaşdırdı.

İlk dövrlərdə Mahmudun özünü göstərən mülayimliyi uzun sürmədi. Hakimiyyət hərisi olan Mahmud ona qarşı mövcud ola biləcək təhlükələrin aradan qaldırılması üçün bir dəfə Səfəvi əyanlarının böyük bir hissəsini qonaqlıq adı ilə saraya toplayıb qətlə yetirdi. Başqa bir dəfə isə ona sədaqətli qalacağını vəd edən Səfəvi qoşun dəstəsinin sərkərdə və döyüşçülərinin böyük bir hissəsini məhv etdi.

Təhmasib Mirzənin Qəzvində özünü şah elan etməsini eşidib ora qoşun göndərdi. Qum, Kaşan, Kerman və Şiraz da Mahmudun əlinə keçdi. Yəzdi isə tuta bilmədi və burada məğlubiyyətə uğrayıb geri qayıtdı. Bundan sonra Mahmudun qəddarlığı daha da artdı. Xüsusən, eşidəndə ki, Şah Sultan Hüseynin oğlu Səfi Mirzə saraydan qaçıb və Bəxtiyari dağlarında özünə sığınacaq tapıb Mahmud son dərəcə qəzəbləndi. 1725-ci ilin fevralında Mahmud, Şah Sultan Hüseynin bütün ailəsinin qətlinə fərman verdi. Məhəmməd Kazım Mərvi yazır ki, taxtın Səfəvi təmsilçiləri tərəfindən ələ keçirilməsinin qarşısını almaq üçün Mahmud, Səfəvi şahzadələrinin hamısını öldürtdürdü. Ancaq sonra özü də zülmkarlığının cəzasına çatdı (111).

Yalnız iki kiçik yaşlı şahzadə Şah Sultan Hüseynin qucağına sığınaraq canlarını xilas edə bildilər. Bu hadisədən sonra Mahmudun səhhəti xeyli korlandı. Onun səhhəti o qədər ağırlaşdı ki, hətta erməni keşişlərində də bir ümid axtardı. Eşitdiyi şayiəyə inanaraq Mahmud saraya erməni keşişləri çağırtdırdı ki, bəlkə onların oxuduğu dualar ona kömək olsun. Doğrudan da erməni keşişləri saraya gələndən sonra Mahmudun səhhətində müəyyən müsbət dəyişiklik baş verdi. Amma bu çox uzun çəkmədi. Erməni keşişlərinin dualarına bel bağlayan Mahmudun bədənində çürümə getdi, dişi ilə xəstə bədən əzalarını didib-dağıtmağa başladı. Səhhəti ona hakimlik etmək imkanı verməyəndə əyanlar Mahmudun əmisi oğlu Əşrəfi taxta çıxardılar. O da atasının qisasını ondan aldı və 1725-ci il aprelin 22-də Mahmudun boynunu vurdurtdu (112).

Əşrəf də ilk vaxtlar Şah Sultan Hüseynlə mülayim münasibətlər qurmağa çalışdı. Əslində isə şahlıq taxtı ona da qəddarlıqdan başqa bir şey gətirmədi. Hakimiyyətini qorumaq üçün kütləvi insan qırğınlarına rəvac vermək onun üçün də adi bir hala çevrildi. Əşrəf, Şah Sultan Hüseynin uşaqlarının cənazələrini dəfn üçün Quma göndərdi. Ölülər üçün namaz oxunacaq məscidə xalçalar bağışladı, şaha verilən təqaüdün miqdarını artırdı. Eyni zamanda da Mahmuda sədaqətli olmuş bütün əyanları qırdırdı.

Bundan sonra Əşrəf onun hakimiyyəti üçün təhlükə ola biləcək Təhmasib Mirzəni aradan götürmək fikrinə düşdü. Hələ Mahmudun dövründə onlar arasında müəyyən bir əlaqə yaranmışdı. Əşrəf Mahmudu qonaq çağırdı və o əmin idi ki, aralarında olan həmin münasibətə görə Təhmasib Mirzə onun səmimiyyətinə inanıb dəvəti qəbul edəcəkdir. Təhmasib Mirzə doğrudan da dəvəti qəbul etdi və İsfahana yola düşdü. Yalnız son anda onun ətrafındakılar Təhmasib Mirzəyə qəsd qurulmasını onun diqqətinə çatdırdılar. Yolda onun pusqusuna

dayanmış əfqan dəstəsi ilə Təhmasibin mühafizə dəstəsi arasında döyüş də baş verdi. Amma Təhmasib Mirzə canını salamat qurtara bildi (113).

Təhmasib Mirzə əvvəlcə Tehrana, oradan da Mazandarana qaçdı. 1726-cı ildə o, Sari yaxınlığında Fətəli xan Qacarla birləşdi və onlar birlikdə Səfəvi dövlətinin bərpası uğrunda mübarizəyə başladılar.

Əşrəf taxta çıxanda İsfahan və Qəndəhardan başqa Fars, Kerman və Xorasanın bir hissəsi onun nəzarəti altında idi. O da istəyirdi ki, hakimiyyəti altında olan əraziləri genişləndirsin. Ancaq bu elə də asan deyildi. Çünki onun kimi Təhmasib Mirzə də nəzarəti altında olan əraziləri genişləndirmək istəyirdi.

Həm Əşrəfin, həm də Təhmasib Mirzənin göz dikdiyi Xorasanda Məlik Mahmud Sistani hakim idi. O da ölkə ərazilərinə iddia edirdi. Ölkə ərazisinin bir hissəsi isə Rusiya ilə Osmanlı dövləti arasında bölüşdürülmüşdü. Bununla bağlı həmin dövlətlər arasında 1724-cü il iyunun 24-də müqavilə də imzalanmışdı. Həmin müqaviləyə əsasən Təbriz, Həmədan və Kermanşah xəttindən qərbə olan torpaqlar Osmanlı dövlətini ixtiyarına keçirdi. Osmanlı dövlətinin Səfəvi dövlətinin sərhədini aşması Əşrəfin planları ilə heç də düz gəlmirdi. Amma Osmanlıların hərəkətini dayandırmağa da gücü çatmırdı. Ona görə Əşrəf Osmanlı dövləti ilə daha mülayim münasibətlər qurmağa və bu yolla müəyyən niyyətlərinə nail olmağa çalışırdı (bu barədə aşağıda danışılacaqdır).

Osmanlı dövləti ilə münasibətləri az-çox aydınlaşdırandan sonra Əşrəf, Təhmasib Mirzəyə qarşı qoşun topladı. Mövcud olan məlumatlara görə, 1728-ci ildə İranın şimalında Əşrəfin qoşunları ilə Təhmasib Mirzənin qoşunları arasında döyüş baş verdi. Bu döyüşdə əfqanlar üstünlük qazandılar və Təhmasib Mirzənin qoşun dəstəsi geri çəkilmək məcburiyyətində qaldı. Əşrəf, çətin dağ şəraitində geri çəkilən Təhmasib Mirzənin qoşununu təqib etməyi lazım bilmədi. Çünki ilk qarşılaşmanın nəticələrinə görə Əşrəf, Təhmasib Mirzənin elə də güclü olmadığı qənaətinə gəldi. Ancaq elə həmin vaxtlardan Təhmasib Mirzə ilə Nadirqulunun əməkdaşlığı başladı və səfəvi qüvvələri ilə əfqanların növbəti qarşıdurması Nadirqulunun sərkərdəliyi altında baş verdi. Sözsüz ki, Əşrəf Nadirqulunun şəxsində onu hansı təhlükə gözlədiyini hiss etmirdi. Lakin Əşrəf də Nadir üçün adi bir düşmən deyildi. Məhz onların qarşıdurması əfqan-səfəvi münasibətlərini müəyyənləşdirdi.

1729-cu ilin yayında İsfahana belə bir xəbər yayıldı ki, Mahmudun Qəndəharda hakim olan qardaşı Hüseyn Soltan Əşrəfin hakimiyyətini

qəbul etməyib ona qarşı qiyam qaldırıb. Bundan sonra aydın oldu ki, Əşrəflə qarşıdurmadan sonra qoşun toplayan Təhmasib Mirzə Səfəvi taxtını geri qaytarmaq üçün İsfahana qoşun çəkmək istəyir. Əşrəf, Təhmasib Mirzənin niyyətlərini daha təhlükəli bildi və Xorasana qoşun çəkdi.

### 3. Səfəvi-Rusiya münasibətləri

Səfəvi dövlətinin böhran keçirdiyi dövr onun potensial rəqibi olan Rusiyanın gücləndiyi vaxta təsadüf edirdi. I Pyotrun Rusiya taxt-tacına sahib olması ilə ölkə daxilində baş verən sosial-iqtisadi, siyasi, mədəni və digər dəyişikliklər dövlətin gücünü kifayət qədər artırdı. Bu dəyişikliklər iqtisadi sahədə də inkişaf üçün əlverişli zəmin yaratdı. Amma Rusiya daxilində istehsal və xammal qıtlığı ölkənin hakim dairələrindən yeni yolların və imkanların axtarılıb tapılmasını tələb edirdi. İnkişafda olan Rusiya sənayesinin xammalla təmin edilməsi zəruriliyi İ Pyotrun diqqətini Azərbaycana və Səfəvi dövlətinin Xəzəryanı əraziləri üzərinə cəmlədi (114).

Cənubi Qafqazın Səfəvi dövlətinin tərkibinə qatılmasından sonra Səfəvi dövləti ilə Rusiya həmsərhəd dövlətlərə çevrilmişdilər. Coğrafi baxımdan yaxınlıq və geniş xammal ehtiyatları Azərbaycanın və Xəzəryanı ərazilərin Rusiya üçün əhəmiyyətini daha da artırırdı. Rusiyanın böyük maraq göstərdiyi ipək istehsalının mərkəzləşdiyi Şamaxının, Gəncənin, habelə Rəştin ticarət yollarının üzərində yerləşməsi, bu məntəqələrin Xəzər dənizinə yaxınlığı Xəzər-Volqa ticarət yolunun fəallaşmasına imkan verə bilərdi ki, bu da Rusiyaya böyük gəlirlər vəd edirdi.

Bölgənin strateji mövqeyi Rusiyanın maraq göstərdiyi iqtisadi maraqları tamamlayırdı. Xəzər dənizinin sahilində yerləşən Dərbənd, Niyazabad, Bakı və Lənkəranın möhkəmləndirilmiş limanlara malik olması Xəzərdə daşınan malların nəzarət altına alınmasına və eyni zamanda həmin limanlar vasitəsilə Azərbaycanın və İranın istehsalı olan pambığın, ipəyin asanlıqla Rusiyaya daşınmasına zəmin yaradırdı. Ona görə hələ XVII əsrin sonlarında Rusiya Xəzər dənizinə də xüsusi maraq göstərir və bu dənizi Rusiyanın daxili dənizinə çevirmək üçün işğalçılıq planları qururdu (115).

Xəzər dənizinə olan marağın nəticəsi idi ki, hələ 1699-cu ildə İ Pyotr Volqa donanmasının yaradılması barədə göstəriş verdi (116). Amma baş verən gözlənilməz hadisələr XVIII əsrin ilk illərində İ Pyotra Xəzərə donanma çıxarmağa imkan vermədi. Bununla belə, İ

Pyotrun Xəzər dənizinə və Xəzər boyu ərazilərə marağı heç də azalmadı. O, hər vasitə ilə Xəzərin qərb sahilinə doğru irəliləmək imkanlarını arayırdı. Səfəvi dövlətinin daxilində gedən proseslər isə onun planlarının həyata keçməsini həm asanlaşdırdı, həm də Rusiyaya yaxşı bəhanə verdi.

1713-cü ildə Səfəvi şahı Sultan Hüseyn öz elçisini çoxlu hədiyyələrlə Peterburqa göndərdi və Rusiya ilə dostluq və ticarət əlaqələri haqqında traktat bağlamaq təklifini çar sarayına çatdırdı (117). Səfəvi şahı güman edirdi ki, şimal qonşusunun köməyini əldə etməklə ölkəni bürümüş olan qiyamların qarşısını ala biləcək. Rusiyanın isə Səfəvi dövləti və onun tərkibinə daxil olan Azərbaycanla bağlı öz planları var idi. Ona görə də Rusiya cənub siyasətini Şah Sultan Hüseynin təklifi əsasında deyil, öz təcavüzkarlıq niyyətləri üzərində qururdu.

Şah Sultan Hüseynin əməkdaşlıq təklifinə İ Pyotr təcavüzkarlığı ilə cavab verdi. Xəzər ətrafı ərazilərin işğal edilməsi üçün Rusiya çarı əməli fəaliyyətə başladı. Amma təcavüzkarlıq planlarının istənilən səviyyədə həyata keçirilməsinə nail olmaq üçün İ Pyotr əvvəlcə Xəzər yanı ərazilərin kəşfiyyatının aparılmasını, hərbi əməliyyatlara başlamaq üçün zəruri olan məlumatların toplanmasını zəruri saydı. Həmin vəzifəni həyata keçirmək üçün gənc diplomat Artyom Petroviç Volınski Səfəvi sarayına göndəriləcək səfirliyin rəhbəri təyin edildi və bununla bağlı 1715-ci il noyabrın 30-da çar fərmanı imzalandı (118).

İ Pyotr cənub siyasətinin həyata keçirilməsində A.Volınskinin missiyasına xüsusi əhəmiyyət verirdi və ona görə bu missiya üçün hazırlanmış təlimatı da şəxsən özü ciddi şəkildə nəzərdən keçirdi. Rusiya çarı bu təlimata bir sıra düzəlişlər etdi və Volınskinin diqqətini də zəruri olan məsələlərə cəlb etdi. Rusiya sarayı Volınskidən tələb edirdi ki, Səfəvi dövlətinə Xəzər dənizi ilə yola düşsün və quru yolla geri qayıtsın. Bu zaman o, həm dəniz yolunun, həm də quru yolunun kəşfiyyatını aparmalı idi. A.Volınskiyə tapşırılmışdı ki, hərəkəti zamanı keçdiyi marşrutu diqqətlə nəzərdən keçirsin, Xəzər dənizinin sahilindəki limanlar, şəhərlər və ya digər yaşayış məntəqələri, Xəzər dənizinə tökülən çaylar, onların gəmiçilik üçün mümkünlüyü, Xəzər dənizi ilə Hindistan arasında su yolunun olması barədə məlumatlar toplasın. Xəzərin cənub sahili haqqında da A.Volınski tərəfindən məlumatlar əldə edilməli idi.

Bütünlükdə, I Pyotr tərəfindən imzalanmış təlimatla A.Volınskiyə həvalə olunmuş vəzifələri üç qrupa bölmək olar. Birinci qrup vəzifələr sırf kəşfiyyat xarakterli idi və Rusiyanın Xəzər sahili əraziləri işğal etməsi üçün onların əhəmiyyəti böyük idi. İkincisi, iqtisadi xarakterli

vəzifələr idi. A.Volınski Rusiyanın iqtisadi maraqlarını təmin etmək üçün Səfəvi dövlətinin ipək ticarətini Rusiyaya tərəf istiqamətləndirməyə çalışmalı idi. Üçüncüsü isə A.Volınski Azərbaycanda və Səfəvi dövlətinin digər ərazilərində yaşayan ermənilərlə əlaqə yaradıb onlardan Rusiyanın mənafeyi naminə istifadə edilməsi imkanını aramalı idi. Ermənilərin öyrənilməsi istiqamətində A.Volınski ermənilərin sayının nə qədər olması, haralarda yaşaması, onların Rusiyaya münasibəti barədə məlumatlar toplamalı idi.

A.Volınski uzun-uzadı hazırlıqdan sonra 1716-cı ildə İsfahana doğru istiqamət götürdü. İki ilə qədər o, Səfəvi dövləti ərazisində qaldı və Rusiya sarayı tərəfindən ona verilmiş vəzifələri icra etməyə çalışdı. 1718-ci ildə isə öz missiyasını başa vurub geri qayıtdı. A.Volınski səfəri ilə bağlı çara təqdim etdiyi raportunda bildirirdi ki, səfərdə olduğu yerlərin əhalisini siyasətlə Rusiyaya meylləndirmək mümkün deyildir. Buna yalnız silah gücünə nail olmaq mümkündür (119).

Yəni, artıq Rusiya sarayında da belə bir qənaət formalaşdı ki, Azərbaycanda və Səfəvi dövləti tərkibində olan digər Xəzər yanı ərazilərdə Rusiya maraqlarını təmin etmək üçün ən səmərəli yol məhz silahlı müdaxilədir. Bölgədə gedən proseslər, xüsusən Osmanlı dövlətinin Azərbaycana olan marağı Rusiyanı Səfəvi dövləti ilə münasibətlərin müəyyənləşməsində hərbi yola əl atmasına sövq edirdi.

A.Volınski Rusiya çarına ünvanladığı raportunda yazırdı: "Təsəvvür edirəm, İran səltənəti tənəzzül üzrədir və əgər iradəli və güclü padşah tapılmasa, bu günkü dövlət nəinki xarici düşmənlərdən qorunmağa qadir olmayacaq, hətta daxili iğtişaşların əzilməsi üçün də aciz və gücsüz olacaqdır. Baxmayaraq ki, biz indi Avropada İsveçlə müharibə aparırıq, amma İranın pərişan vəziyyətinə görə güman edirəm ki, bu vüsətsiz ölkəyə yol tapmaq üçün indiki kimi münasib zaman tapılmayacaqdır. Çünki hətta bir korpusdan çox olmayan məhdud qüvvə ilə geniş əraziləri tutmaq olar. Bu fürsətdən istifadə etmək lazımdır. Əks təqdirdə, mümkündür ki, layiqli padşahın iş başına gəlməsi ilə bu ölkənin vəziyyəti dəyişsin və bizim işlərimiz yenə çətinliyə düşsün" (120).

Rusiya çarı da əslində bu deyilənlərlə razılaşırdı. İsveçlə cəlb olunduğu müharibə Rusiyanın əl-qolunu müəyyən qədər bağlasa da, onun cənubla bağlı siyasətində bir fəallaşma başladı. Yaranmış vəziyyətdə Rusiya diplomatik imkanlardan maksimum istifadə etməyə çalışırdı. 1721-ci ildə Ənzəlidə Rusiya konsulu kimi fəaliyyətə başlamış S.Avramova tapşırıq verildi ki, formal hakimiyyətə malik olan Təhmasibi Xəzər yanı əraziləri Rusiyaya güzəştə getməyə məcbur

etsin. Bunun əvəzində Rusiya tərəfindən Səfəvi dövlətinə əfqan qiyamının yatırılmasında və Osmanlı dövlətindən müdafiə olunmasında kömək təklif olunurdu. 1721-ci il oktyabrın 31-də Rusiya çarı öz nümayəndələrini S.Abramovun yanına göndərdi və həmin nümayəndələr vasitəsilə S.Abramova aşağıdakı tapşırıq verildi:

1-Yeni və ya köhnə şahla görüşmək;

2-Şaha əsaslandırmaq ki, ruslar Şamaxıya Səfəvi dövləti ilə müharibə aparmaq üçün deyil, orada baş qaldıran və Rusiyanı incidən qiyamçıları susdurmaq üçün gəlir.

3-Xəzər yanı vilayətlərin Rusiyaya güzəştə getməsinə nail olmaq. Bunu Rusiya çarı Səfəvi şahına hakimiyyətinin möhkəmləndirilməsinə göstəriləcək köməyin əvəzində istəyirdi.

4-Razılaşdırmaq ki, lazım bilindiyi halda Səfəvi şahı Rusiyaya öz səfirini göndərə bilər (121).

S.Abramov bu tapşırığı alandan sonra yalnız Şah Sultan Hüseynin oğlu Təhmasib Mirzə ilə görüşə bildi. Amma həmin görüş zamani Rusiya sarayı tərəfindən verilmiş tapşırıqların icrasına nail ola bilmədi.

Rusiya öz diplomatik cəhdlərindən Osmanlı dövlətinin Rusiyanın cənub siyasətində göstərə biləcəyi müqavimətin neytrallaşdırılmasında da istifadə etməyə çalışırdı. Rusiyanın Xəzər yanı ərazilərə doğru irəliləmək cəhdi aydın olanda İstanbuldakı rezident İ.Neplyuyev vasitəsi ilə sultan sarayını inandırmaq istəyirdi ki, onun maraq dairəsi elə də geniş deyil. Osmanlı dövləti bütün Qafqazı Səfəvi dövlətindən qoparmaq niyyətində idi. Rusiya yalnız Xəzər boyu ərazilərlə kifayətlənirdi. Rusiya sarayı Neplyuyev vasitəsi ilə Osmanlı sarayını əmin etmək istəyirdi ki, Türkiyə ilə sərhəd olan ərazilərə yaxınlaşmayacaqdır. Rusiya sarayı Şamaxıda baş verən hadisələrə istinad edərək osmanlı dövlətini əmin etmək istəyirdi ki, Şamaxıdan qərbə adlamayacaqdır (122).

Osmanlı dövlətini özünün cənub siyasətində şübhələndirməmək üçün 1720-ci ildə Osamnlı dövləti ilə Rusiya arasında İstanbul müqaviləsi imzalandı. Bu müqavilədə tərəflər arasında sülhün qorunacağı öz əksini tapdı. Ancaq Rusiyanın cənub siyasəti və bununla bağlı konkret fəaliyyətə başlamaması iki dövlət arasındakı sülhün uzun müddət davam edə bilməyəcəyindən xəbər verirdi. Azərbaycana və Xəzər yanı ərazilərə hərbi yürüşlərin təşkili üçün Nijni Novqorodda , Kazan və Həştərxanda gəmilərin hazırlanmasına, ərzaq və yemin toplanmasına başlandı. 1721-ci il avqustun 30-da Niştadt sülhünün imzalanması ilə

Şimal müharibəsinə son qoyuldu (123). Bununla da Xəzər boyu ərazilərə yürüşlərin təşkili üçün daha əlverişli şərait yaradıldı.

Şimal müharibəsinin sona çatması ilə Rusiyanın Xəzər boyu sahillərə yürüşü üçün hərbi hazırlıq həlledici mərhələsinə qədəm qoydu. Həmin yürüşə başlamaq üçün Rusiyanın qarşısında ciddi vəzifələr dayanırdı. Bu vəzifələrin elə bir səviyyədə həllinə cəhd göstərilirdi ki, onların nəticələri çar sarayının istəklərinə cavab versin. İmzalanmış ikitərəfli müqaviləyə baxmayaraq Osmanlı dövlətinin də Qafqaza yürüş etmək niyyəti Rusiyanı daha fəal hazırlıq kampaniyası aparmağa sövq edirdi.

Rusiya şimalda cəmləşmiş hərbi qüvvələrini şimala atmalı idi. Əvvəla, məsafə çox böyük idi, sonra da cənubda qoşunların ərzaqla, sursatla təminatı üçün təchizat mərkəzləri yaratmaqla hərbi qurğular tikməli idi.

1721-22-ci ilin qışında Xəzər boyu ərazilərə yürüşlərin keçirilməsi üçün xüsusi korpus təşkil edildi. Həmin korpusun tərkibində bütün qoşun növləri təmsil olunmuşdular. Korpusa daxil olan piyada qüvvələri 4 alay və 20 tabordan ibarət idi. Şimal cəbhəsindən qayıdan Həştərxan və İnqermanland alayları bütünlüklə cənuba atıldı. Qalan alayların və 20 taborun isə şəxsi heyətinin yarısı şimal cəbhəsində vuruşanlar hesabına komplektləşdirildi. Bütünlükdə, piyadalar 21093 nəfərdən ibarət idi. Atlı qüvvələri Ukrayna və Don kazaklarından ibarət 8 draqun alayı təşkil edirdi. Onların da tərkibi 25 min nəfərə çatırdı.Korpusun tərkibinə artilleriya da daxil edilmişdi. Artilleriyanın əsasını isə alay topları və 196 ədəd səhra topu təşkil edirdi. Yürüşün başlanacağı vaxta bu sadalanan qüvvələrə 4 min kalmık və bir neçə min kabarda birləşməli idi. Güman edilirdi ki, yürüşdə 46 min nizami qüvvə və kazak, 10 minə qədər isə kalmık və dağlı atlıları iştirak edəcəklər. Piyadalar Volqa boyu şəhərlərdə, Moskvada, Yaroslavlda və digər şəhərlərdə yerləşmişdilər ki, zərurət yaranan anda onları cəbhə xəttinə atmaq mümkün olsun. Atlı qüvvələri isə Kurskda, Kiyevdə və Donda toplaşmışdılar (124).

Yürüşə hazırlıq kampaniyası dövründə Xəzər dənizində üzmə qabiliyyətinə malik xüsusi gəmilərin hazırlanmasına böyük diqqət yetirilirdi. Həmin gəmilər Moskva çayda və Volqadakı tərsanələrdə hazırlanırdı. Əzmkarlıqla aparılan işlər nəticəsində 1722-ci ilin fevral-may ayında 47 yelkənli və 400-dən artıq avarlı gəmi istifadəyə verildi. Volqa boyu ərazilərdə yürüşə hazırlıqla bağlı 2874 bomba, 29820 qranat, 12579 pud barıt və s. hazırlandı (125). Hazırlıq tədbirləri yalnız bunlarla tamamlanmırdı.

1722-ci ilin ortalarında Rusiya Xəzər boyu ərazilərə yürüşün başlanması üçün artıq lazımı hazırlığa malik idi. Amma hərbi yürüşə başlamazdan əvvəl I Pyotr Ənzəlidəki rus konsulu S.Abramov vasitəsilə Səfəvi hökuməti nümayəndələrinə çatdırdı ki, əgər Xəzər boyu bir sıra ərazilər Rusiyaya güzəştə gedilərsə, onda Rusiya da Səfəvi dövlətinə hərbi kömək göstərə bilər. Görünür, Səfəvi xanədanı bu təklif ətrafında müzakirə aparılmasını mümkün saydı və ona görə də öz səfirini Peterburqa göndərdi. Çar sarayı Səfəvi səfirindən o vilayətlərin Rusiyaya güzəştə gedilməsini istədi ki, orada artıq Rusiya hərbi qüvvələri mövcud idi. Həmin vilayətlər Şamaxı, Mazandaran və Astrabad idi. Həmin vilayətlərin istənilməsini çar sarayı belə izah edirdi ki, orada olan rus qüvvələrini saxlamaq üçün həmin vilayətlərin gəlirindən istifadə edilməlidir (126).

Rusiya çarı Ənzəlidəki konsul S.Abramova onu da yazırdı ki, əgər Səfəvi dövləti adı çəkilən əraziləri güzəştə getməsə, onda onları silah gücünə olsa belə almaq lazımdır. Bu addımın atılmasının zəruriliyini Rusiya çarı osmanlıların həmin ərazilərə gəlməsinin qarşısının alınması istəyi ilə bağlayırdı (127).

Rusiya sarayı bu məsələ ilə bağlı müzakirələrin bitməsini və razılaşmanın imzalanmasını gözləmədən hərbi yürüşə başladı. Yürüşə başlamazdan əvvəl I Pyotr Xəzər boyu ərazilərə planlaşdırdığı təcavüzkarlığa haqq qazandırmaq üçün "Manifest" yazdırdı. Həmin "Manifest" Azərbaycan dilində hazırlandı və Azərbaycan dilində çap olunan ilk rəsmi sənəd hesab olunur. Bu sənəddə Rusiya qoşunlarının hərbi yürüşünün əsas səbəbi və mahiyyəti ört-basdır edilir və qeyd olunurdu ki, qarşıya qoyulan məqsəd Rusiya qoşunlarının bu yürüşündə Şirvan üsyanı zamanı Şamaxıda qətl və qarətlə üzləşmiş rus tacirlərinin intiqamını almaqdır (128).

"Manifest"ə görə, Xəzər boyu ərazilərə hərbi yürüşə başlanmasının bir səbəbi də Şah Sultan Hüseynə kömək göstərilməsi idi. Guya şahın qeyri-itaətkar təbəələri olan Hacı Davud və Surxay xan ətrafına çoxlu qiyamçılar toplayaraq Rusiyanın dostu olan şaha qarşı iğtişaşlara başlamışlar. Bu qiyamçılar hücumla Şamaxını almağa çalışaraq çoxlu adamların məhvinə səbəb olmuşlar. "Manifest"də o da göstərilirdi ki, bu üsyan zamanı rus tacirləri də ziyan görmüş, döyülmüş və 4 milyon rubla yaxın malları qarət olunmuşdu. Rusiya sarayı da bu qanunsuzluğun qiyamın qarşısını almaq, günahkarları layiqli cəzasına çatdırmaq üçün qalib ordusunu bölgəyə göndərmək məcburiyyətində qalmışdı. "Manifest"də yerli əhaliyə də zəmanət verilirdi ki, onların təhlükəsizliyi tam şəkildə təmin olunacaqdır. Bununla bağlı, bütün qoşun

komandirlərinə əmr olunurdu ki, əhali ilə yaxşı rəftar edilsin, oğurluq hallarına yol verilməsin. Əks təqdirdə onlar ciddi cəzalara məruz qalmalı idilər (129).

Nəhayət, Xəzər boyu ərazilərə hərbi yürüşün başlanması üçün I Pyotr 1722-ci ilin may ayında qvardiyası ilə Moskvadan yola düşdü və iyun ayının ortalarında Həştərxana çatdı. Həştərxanda ikən I Pyotr, Kartli çarı VI Vaxtanqın yanına öz nümayəndələrini göndərdi. Bu zaman Kartli də Səfəvi dövlətinin tərkib hissəsi sayılırdı. Dini təəssübkeşlik Kartli çarı ilə Rusiya çarını bir-birinə yaxınlaşdırırdı. I Pyotr Kartli çarına çatdırdı ki, Dərbəndə və oradan da cənuba doğru yürüşə başlayır və xahiş etdi ki, qoşunu ilə ona qoşulsun.

I Pyotr Həştərxandan cənuba doğru hərəkətə başlayanda Kartli çarı Vaxtanqa bir də məktub göndərdi və ona öz qoşunları ilə Şirvana doğru hərəkətə başlamağın zəruriliyini çatdırdı. Belə nəzərdə tutulmuşdu ki, Dərbənd şəhəri ələ keçiriləndən sonra I Pyotr Şamaxıya doğru hərəkət edəcək və orada gürcü-erməni qoşunları ilə birləşərək Azərbaycan ərazilərinin işğalını başa çatdıracaqdır. Ona görə Vaxtanq öz qoşunları ilə hərəkətə başlayanda Qarabağda toplaşmış erməni silahlı dəstələri də ona qoşulmalı və bu qoşunlar rus ordusuna tərəf hərəkət etməli idilər.Rus ordusu Xəzər boyu vilayətlərə hücuma başlayanda Dərbənd, Bakı və Şamaxının işğalında erməni-gürcü qoşunları da iştirak etməli idi. Azərbaycan xanlarının qüvvələri bu hücumun qarşısını almağa bəs etmirdi. Səfəvi dövlətinin isə heç İsfahanı qorumağa gücü çatmırdı və ona görə Azərbaycan ərazisində Rusiya qoşunları ilə döyüş aparmağa ehtiyat qüvvəsi yox idi. Yəni, əslində Azərbaycan ərazisində Rusiya qoşunlarına qarşı dura biləcək ciddi qüvvə yox idi (130).

Rusların Qafqaza yürüş xəbərini alan kimi ermənilər Qafanda və Qarabağda qiyam qaldırdılar və onlar Gəncə bəylərbəyliyinə itaətsizliyini bildirdilər. Ermənilər güman edirdilər ki, rus qoşunları Azərbaycanın bütün ərazisini işğal etmək niyyətindədir. Ona görə onlar da silahlı dəstələr təşkil edib Gəncə ətrafına göndərdilər. Ermənilər Şamaxını ələ keçirəcək rus qoşunları ilə birləşməyi, sonra da rus qoşunları ilə birlikdə Gəncəni və Qarabağı işğal altına almağı arzulayırdılar. Bu planın həyata keçirilməsi üçün ermənilərin nəzarəti altında 40 minlik silahlı dəstənin olduğu iddia edilirdi (131).

Bu rəqəmin düzgünlüyü bir qədər şübhə doğurur. Bununla belə, aydın idi ki, I Pyotr Azərbaycan ərazilərinin işğalında, bütünlükdə, Səfəvi dövlətinə qarşı formalaşdırdığı siyasətinin həyata keçirilməsində Kartli çarı Vaxtanqdan və bölgədə yaşayan ermənilərdən istifadə

etmək istəyir. Azərbaycan və Səfəvi dövlətinin sərvətlərindən varlandıqca "vətən" axtarışını gücləndirən ermənilərin separatçılıq keyfiyyətlərindən məharətlə istifadə edən I Pyotr öz işğalçılıq siyasətində onlara geniş yer verirdi. Məzhəb birliyi, öz sahiblərinə və qonşularına üzü dönüklüyü erməniləri I Pyotrun əlində bir vasitəyə çevirdi. Bu xüsusiyyətlərindən istifadə etməklə Rusiya çarı ermənilərə Azərbaycanı və Səfəvi dövləti tərkibində olan Xəzər boyu əraziləri işğal etməkdə yardımçı vasitə kimi baxırdı. Yəni, Səfəvi şahlarının və sarayının həmişə loyallıqla yanaşdığı ermənilər, əslində Səfəvi dövlətinin parçalanması üçün rusların vasitəsinə çevrilmişdilər. Səfəvi sarayı tərəfindən isə bu məsələyə elə də diqqət yetirilmirdi.

Rusiya çarı hələ 1716-cı ildə erməni Manas Tiqranyansı Qandzasar və Eçmiədzin monastrlarına göndərdi və onun vasitəsilə həm kəşfiyyat məlumatlarının toplanmasına, həm də ermənilərin dövlətə qarşı qiyam qaldırmalarına cəhd göstərdi. Eçmiədzin katalokosu vəd etdi ki, Səfəvi dövlətinə qarşı yürüşə başlanacağı təqdirdə ermənilər tərəfindən Rusiya hərbi qüvvələrinə kəşfiyyat məlumatları və yem təqdim olunacaqdır. Katalikos Rusiya sarayına onu da çatdırdı ki, hücuma başlamazdan əvvəl ona xəbər göndərilsin ki, ermənilər daha yaxşı hazırlıq işləri apara bilsinlər. Rusların Xəzər boyu vilayətlərə hücum xəbərini alanda ermənilər Rusiya qoşunlarına kömək üçün 60 min pud taxıl və 10 min baş öküz topladılar (132).

1719-cu ildə arxiyepiskop Minas Tiqranyans Rusiya sarayına müraciət göndərdi, sədaqətli erməni xristianlarının müsəlmanların zülmündən azad olunmasında kömək göstərilməsini xahiş etdi. Cənuba yürüşü ərəfəsində gürcü çarı Vaxtanq da rus çarına müraciət edib xristianlığın xilas edilməsi naminə gürcülərə kömək göstərilməsini xahiş etdi. Vaxtanq yazırdı ki, ədalətsiz fars zülmündən qurtarmağa çox çalışır və Səfəvi dövləti zəiflədiyi üçün öz gücü ilə ondan qopa da bilər. Amma Rusiyanın yardımı bu niyyətin uğurla həyata keçirilməsinə zəmanət ola bilər. Bu xahişlər, əslində, I Pyotrun istəkləri ilə üst-üstə düşürdü və ona görə də o, həm erməniləri, həm də gürcüləri arxayın etdi ki, mütləq onların köməyinə çatacaqdır. Guya bununla o, xristianları Məhəmməd dininin təzyiqlərindən və müsəlman dininin zülmündən xilas etmək məqsədini güdürdü (133).

Öz niyyətlərini həyata keçirmək üçün I Pyotr Şərqi Qafqazda Rusiyanın nəzarəti altında olan gürcü-erməni çarlığı yaratmaq istəyirdi. Bu çarlıq əslində, Azərbaycan ərazisini əhatə etməli idi. Nəzərdə tutulmuşdu ki, həmin çarlığın ərazisindən bütün "farslar" qovulsun (134) və yeni yaradılmış çarlıq üzərində Rusiyanın hərbi və siyasi nəzarəti

gücləndirilsin. "Farslar" deyəndə heç şübhəsiz ki, azərbaycanlılar nəzərdə tutulurdu. Çünki, Cənubi Qafqazda farslar deyil, Azərbaycan türkləri yaşayırdılar. Səfəvi sarayı tərəfindən Azərbaycan vilayətlərinə təyin edilən xanlar və onların qoşunları da azərbaycanlılardan ibarət idi.

Səfəvi dövlətinə qarşı siyasətin həyata keçirilməsində gürcülərdən və ermənilərdən daha səmərəli istifadə edilməsi üçün onların arasında təbliğat işləri aparılırdı. 1720-ci ildə rus çarı Həştərxan qubernatoru təyin edilmiş Volınskiyə yeni bir tapşırıq verdi ki, gürcülərə qayğı göstərsin, gürcü çarlarını öz tərəfinə çəkməyə çalışsın ki, lazım olan vaxtda onlar Rusiyaya sədaqət nümayiş etdirsinlər. Bundan sonra Volınski həmin istiqamətdə təbliğat işlərinin genişləndirməsinə diqqəti gücləndirdi. Görünür, elə bu cür təbliğatların nəticəsi idi ki, 1721-ci ildə Vaxtanq rəsmən Rusiya hakimiyyətini tanıdığını bildirdi. Vaxtanq rus çarına yazdığı məktubunda Rusiya qoşunları rəhbərləri ilə əlaqələr yaratdığını və gələcək fəaliyyət üçün planların tənzimləndiyini bildirdi (135). Rusiya qoşunları Xəzər boyu vilayətlərə hücum başlayanda Vaxtanq və ermənilər artıq rus çarının göstərişlərini yerinə yetirirdi. 1722-ci ilin iyulunda I Pyotr, Vaxtanqa xəbər göndərdi ki, öz qoşunları ilə ləzgilərin üzərinə hücum etməkdə Rusiyaya kömək etsin. Bavtanq bu təklifi göstəriş kimi qəbul etdi və Rusiya qoşunları ilə birləşməyə hazır olduğunu təsdiqlədi. Bir müddət sonra isə rus çarı Vaxtanqdan tələb etdi ki, Səfəvi şahına xəbər göndərsin, ondan xristianlar yaşayan ərazilərin, habelə Xəzər yanı vilayətlərin Rusiyaya güzəştə gedilməsini tələb etsin. Vaxtanq da bu təkliflə razılaşıb Səfəvi şahının yanına öz elçisini göndərdi (136).

Bir sözlə, Xəzər boyu vilayətlərə yürüşü ərəfəsində rus çarı ümidverici vədlərlə gürcüləri və erməniləri öz tərəfinə çəkməklə Səfəvi dövlətinin şimal sərhədi boyu separatçılığı gücləndirdi və bununla Səfəvi dövlətinin bu bölgədəki hakimiyyətinin daha da zəifləməsinə zəmin yaratdı.

Amma Vaxtanq həqiqətdə Səfəvi dövlətinin hakimiyyəti altında idi və açıq-açığına Rusya tərəfinə keçməsinin Səfəvi sarayının qəzəbinə tuş gələcəyini də bilirdi. Qiyam qaldırdığı halda gələcəkdə Rusiya qoşunları tərəfindən onun müdafiə olunacağına da zəmanət yox idi. Vaxtanq öz qoşunları ilə Xəzər boyu vilayətlərə doğru hansı ad altında hərəkət edəcəyini fikirləşəndə əlinə yaxşı bəhanə düşdü. Belə ki, onun Rusiya ilə sövdələşməsindən hələ də xəbəri olmayan Səfəvi sarayı onu Azərbaycandakı Səfəvi qoşunlarının sərkərdəsi təyin etdi və qiyam qaldırmış ləzgiləri sakitləşdirmək haqqında ona tapşırıq verildi (137).

Bu da Vaxtanqa imkan yaratdı ki, öz qoşunları ilə Gəncəyə qədər irəliləsin və orada erməni dəstələri ilə birləşsin.

Erməni və gürcülərlə Səfəvi dövlətinə qarşı ittifaq yaratmağa nail olan rus çarı müsəlman əhalisinin də başlanan yürüşə loyal qalması üçün yollar arayırdı. Əgər erməni və gürcülərlə münasibətdə rus sarayı məqsədinin xristianları müsəlmanların zülmündən xilas edilməsinin olduğunu bildirirdisə, müsəlman əhaliyə münasibətdə fərqli bir mövqe nümayiş etdirirdi. Rusiya sarayı müsəlmanlara münasibətdə Səfəvi şahı ilə dost olduğunu, Azərbaycan ərazisinə müvəqqəti gəldiyini, Şirvanda baş verən qiyamlar yatırıldıqdan sonra həmin ərazilərin yenidən Səfəvi hakimiyyətinə qaytarılacağını bildirdi. Qeyd etmək lazımdır ki, bu təbliğat Azərbaycan əhalisinin müəyyən hissəsi tərəfindən qəbul edildi. Xüsusilə, sünni ləzgilərin, əksəriyyəti şiə olan Şirvana yürüşlərindən cana gələn yerli əhalidə məzhəb təəssübkeşliyi daha güclü idi. Bu əhali sünnilərin məhrumiyyətlərinə dözməkdənsə özünü Səfəvi şahının dostu hesab edən rus çarının hakimiyyəti altına düşməyi daha yaxşı bilirdilər (138).

Bölgədə formalaşan tarixi şəraitdən məharətlə istifadə edən rus çarının qoşunları 1722-ci il avqustun 22-də Dərbəndə daxil oldu. Bu qədim şəhər rus qoşunlarının nəzarəti altına düşdü. Rusiya çarı burada qoşunlarının yenidən qruplaşdırılmasını, təchizat və təminat məsələlərini həll etdikdən sonra Bakıya doğru yürüşü davam etdirmək fikrində idi. Lakin Xəzər dənizində təchizat gəmilərinin qəzaya uğraması və Bakıya doğru yürüş zamanı müəyyən müqavimətlə rastlaşmaq ehtimalı rus çarını öz fikrindən dönməyə sövq etdi. Sentyabrın əvvəllərində Pyotr geriyə, Moskvaya yola düşdü və sentyabrın sonlarında Azərbaycan üzərinə yürüşün təxirə salındığı barədə Vaxtanqa xəbər göndərdi (139).

1722-ci ilin oktyabrında Həştərxanda Rəşt hakimindən məktub alındı. Rəşt hakimi vəziyyətin mürəkkəbləşməsi, əfqanların Rəştə qoşun göndərmə istəməsi haqqında məlumat verib Rusiyadan kömək istəyirdi (140). Bu müraciət Xəzərin cənub sahilinin işğalına başlanması üçün yaxşı bəhanə oldu. Baxmayaraq ki, I Pyotr Bakıya yürüşü təxirə salmışdı, amma ələ düşmüş imkandan istifadə edərək Gilana qoşun çıxarmağı vacib bildi. Qısa müddət ərzində onun fərmanına əsasən 14 gəmi səfər üçün hazırlandı, 2 tabor döyüşə hazır vəziyyətə gətirildi və həmin taborlara artilleriya verildi. Gəmilərə rəhbərlik etmək kapitan-poruçik Semyonova, piyadalara rəhbərlik etmək isə polkovnik Şipova tapşırıldı. I Pyotrun tapşırığı belə idi ki, polkovnik

Şipov Rəşti tutmalı, orada möhkəmlənməli və Rəştə aparan yollar üzərində müdafiə istehkamları yaratmalı idi.

Rəşti tutmaq üçün hazırlanmış dəstə 1722-ci il noyabrın 4-də Həştərxandan yola düşdü. Bu yürüşə I Pyotr böyük əhəmiyyət verdiyindən özü də gəmilərin yola salınmasında iştirak etdi. Xəzər sahili boyunca həyata keçirilən səfər xeyli uzun çəkdi. Çünki bu səfər zamanı rus hərbçiləri eyni zamanda Xəzər sahili ərazilərin kəşfiyyatını aparırdılar. Bir də dekabr ayında rus gəmiləri Ənzəliyə çatdılar və Pirbazar çayının mənsəbində lövbər saldılar. Şipov öz zabitlərindən birini dərhal Rəştə göndərdi ki, onların gəlməsi barədə Gilan hakiminə xəbər versin. Şipovun komandanlığı altında olan piyadalar qayıqlarla çayda üzüyuxarı üzüb Pirbazar kəndinə gəldilər, oradan isə quru yolla Rəştə üz tutdular. Şipovun dəstəsi hər hansı bir müqavimətə rast gəlmədən Rəşti tutdu (141).

Rəştdə olarkən Şipova xəbər verildi ki, onun yanına Səfəvi şahının elçisi İsmayıl bəy gəlibdir. İsmayıl bəyə səlahiyyət verilmişdi ki, saray adından Rusiya ilə danışıqlar aparsın və müqavilə imzalasın. İsmayıl bəy Şah Sultan Hüseyn tərəfindən Rusiya ilə danışıqlar aparıb hərbi yardım göndərilməsi üçün müqavilə bağlanması haqqında səlahiyyət almışdı. Ancaq Rəştə çatana qədər İsmayıl bəy İsfahanın süqutu və Şah Sultan Hüseynin taxtdan salınması barədə məlumat aldı.Əfqanlarla mübarizədə Rusiya yardımının faydalı ola biləcəyinə inanan İsmayıl bəy səfərinə davam etməzdən əvvəl səlahiyyətinin Təhmasib Mirzə tərəfindən təsdiqlənməsini vacib saydı. Təhmasib Mirzə bu təşəbbüsü müdafiə etdi və Rusiyadan kömək almaq xatirinə onun səfərinin davam etdirilməsinə razılıq verdi. Bununla belə, İsmayıl bəyi dərhal Rusiyaya göndərmək mümkün olmadı. Qış mövsümündə Volqa çayının donması və gəmiçiliyin təxirə salınması buna mane oldu. Amma elə bu vaxtlarda Təhmasib Mirzə Rusiya qoşunlarının Xəzər boyu vilayətlərə hücum etməsi və Dərbəndi tutması barədə xəbər aldı. Rusiya dövlətinin bu təcavüzündən xəbər tutan Təhmasib Mirzə elçisinin daha Rusiyaya getməsinə ehtiyac görmədi. O öz qasidini göndərdi ki, Ənzəlidə yola düşəcəyi günü gözləyən İsmayıl bəyi geri qaytarsın. Lakin rus konsulu S.Abramov şahın qasidini ləngitdi və İsmayıl bəy Rusiyaya yola düşənə qədər onunla görüşməyə imkan vermədi (142).

Mövcud olan məlumatlara görə, Gilan hakimi də Rusiya qoşunlarının razılaşdırılmadan Rəştə çıxmasından razı deyildi. Ona görə Gilan hakimi Şipovdan tələb etdi ki, qoşununu geri çəksin. Aydın idi ki, polkovnik Şipov bu tələbi qəbul etmədi və qüvvələrini döyüş

hazırlığı vəziyyətinə gətirdi.Gilan hakiminin qoşunu da döyüşə hazırlandı. Amma Gilan hakiminin qoşunu kifayət qədər zəif idi. Bu qoşun daxilində döyüş intizamı olmamaqla bərabər, odlu silah da mövcud deyildi. Rus piyadalarının odlu silahdan məharətlə istifadə etmək bacarığı Gilan qoşunlarının bütün niyyətlərini alt-üst etdi (143).

Bununla belə, polkovnik Şipov yaxşı anlayırdı ki, sərəncamında olan qüvvə ilə yerli qüvvələrə müqavimət göstərmək elə də asan deyil. Ona görə Rusiya məqamlarına xəbər verildi ki, Rəştdəki qüvvələr gücləndirilsin. Rusiya qoşunları komandanı Matyuşkin 1723-cü ilin yazında Bakını tutmağa hazırlaşırdı. Amma Şipovun vəziyyətinin ağır olduğu üçün Rusiya sarayı Bakı yürüşünü təxirə salmağı qərara alıb general Matyuşkinə tapşırıq verdi ki, polkovnik Şipovun dəstəsini möhkəmləndirsin. I Pyotr ona ünvanladığı məktubunda xəbərdar edirdi ki, əfqanlar artıq Gilana yaxınlaşmaq üzrədir və ona görə də polkovnik Şipovun dəstəsinin möhkəmləndirilməsi Rəşt kimi strateji bir mövqenin qorunmasını şərtləndirə bilərdi. Bununla əlaqədar, 1723-cü il aprelin 20-də dəniz yolu ilə Həştərxandan Gilana general Levaşovun komandanlığı altında 24 ədəd topa malik olan 2 minlik bir dəstə göndərildi. Həmin qüvvələr Rəştə çatandan sonra Rusiya qoşun dəstəsinə ümumi rəhbərliyi general Levaşov öz üzərinə götürdü (144). Eyni zamanda rus qüvvələrindən təşkil edilmiş Gilan korpusuna gürcü və erməni silahlı dəstəsi də qoşularaq Rusiya qoşunları ilə birlikdə Səfəvi dövlətinə qarşı mövqe tutdular (145).

Rəştdə olan rus dəstəsi möhkəmləndirilsə də Rusiya sarayı yaxşı anlayırdı ki, Xəzərin qərb sahilində, xüsusilə, Bakıda möhkəmlənmədən Gilanı da qoruyub saxlamaq mümkün olmayacaqdır. Rusiyanın əsas qüvvələri Dərbənddə cəmləşmişdi və məsafənin uzunluğu üzündən oradakı qüvvələr zərurət yarananda qısa müddətdə Gilana kömək göstərmək imkanına malik deyildi. Bu baxımdan Bakının da tutulması Rusiya üçün hərbi-strateji əhəmiyyət kəsb edirdi. Xüsusən, Rusiya sarayı Osmanlı qoşunlarının Gürcüstana çıxarılması xəbərini eşidəndə təcili surətdə Bakıya yürüş üçün hazırlıq əmri verdi. Çünki əks təqdirdə Osmanlı qoşunları Bakını da tuta bilərdi. Bakının isə Osmanlı qoşunu tərəfindən tutulması Gilan korpusunu ağır vəziyyətə salmaqla bərabər, Rusiyanın Xəzər boyu vilayətlərə sahib olmaq niyyətinin də üzərindən xətt çəkə bilərdi. Rus çarı I Pyotr Həştərxandakı rus gəmilərinin komandanı general Matyuşkinə tapşırıq verdi ki, təcili şəkildə Bakıya doğru hərəkətə başlasın. 1723-cü ilin iyun ayında rus eskadrası Həştərxandan Bakıya doğru hərəkətə başladı və iyulun 17-də Bakıya çatdı (146).

A.Bakıxanov isə rus eskadrasının iyul ayının 6-da Bakı buxtasına çatdığını bildirir. Onun sözlərinə görə, 9 gəmidə Bakıya gələn rus qüvvələri 4 alaydan ibarət idi (147).

Rus qüvvələrinin komandanı görünür Bakı xanının müqavimət göstərmədən təslim olacağını güman edirmiş Çünki bir tərəfdən rusların mövqeyinin bölgədə möhkəmlənməsi, bir tərəfdən də sünni türk ordusunun yaxınlaşmasının təhlükəsi Bakı xanını belə bir qərar qəbul etməyə sövq edə bilərdi. Bakı xanına eyni zamanda Təhmasib Mirzənin səfiri kimi Peterburqa üz tutan İsmayıl bəy tərəfindən imzalanmış məktub da göndərildi. İsmayıl bəyin məktubunda bildirilirdi ki, yaxın zamanlarda Rusiya ilə Səfəvi dövləti arasında müqavilə imzalanması və həmin müqaviləyə əsasən bir sıra ərazilərlə bərabər, Bakının da Rusiyaya güzəştə gediləcəyi gözlənilir və ona görə də Bakı xanı müqavimət göstərməməyə çağırılırdı. Amma Bakı xanı bu təklifi qəbul etmədi və rus nümayəndələrini şəhərə buraxmadı. Eyni zamanda rusların nəzərinə çatdırıldı ki, indiyə qədər kənar kömək olmadan hətta baş vermiş qiyamları da yatırıblar. Bundan sonra da hər hansı bir kənar qüvvəyə ehtiyac duyulmadığı xatırladıldı. Şəhər əhalisi adından o da bildirildi ki, Rusiya təbəəliyinə onların ehtiyacı yoxdur. Bundan sonra ruslar şəhəri tutmaq üçün silaha əl atdılar. Onların güclü artilleriyası şəhərə və şəhər müdafiəçilərinə müəyyən xəsarət yetirdilər. Şəhərə hücum 7 gün davam etdi. Yerli qarnizonun bütün cəhdlərinə baxmayaraq rus qoşunlarının hücumunun qarşısını saxlamaq mümkün olmadı və iyul ayının 28-də Bakı işğal edildi (148).

Bakını tutmaqla ruslar Xəzərin qərb sahilində öz mövqelərini xeyli möhkəmləndirdilər. Bir müddətdən sonra Salyanın da təslim olması ilə Rusiya Xəzərin qərb və cənub sahilini nəzarət altına aldı. I Pyotr Bakının işğal edilməsindən xeyli şad oldu və bununla bağlı həm Bakıda, həm də Peterburqda yaylım atəşləri atıldı.

Mövcud olan məlumatlara görə, I Pyotr Bakı neftinə böyük maraq göstərirdi. Şəhər alınandan sonra rus qarnizonu təhlükəsizlik baxımından buradakı iki daimi karvansarada yerləşdirildi. Rus hərbçilərinin aylıq məvaciblərinin ödənməsi üçün onlara bir miqdar neft verildi. Toplanıb qalan neft isə satılaraq Rusiyanın xəzinəsinə göndərildi (149)

Bakı şəhəri tutulandan sonra rus qoşunları düşərgəsində olan Səfəvi səfiri İsmayıl bəy Peterburqa yola salındı. Avqust ayının 21-də səlahiyyətləri artıq Təhmasib Mirzə tərəfindən geri çağırılmış İsmayıl bəy Peterburqa çatdı və burada çox böyük əhval-ruhiyyə ilə qarşılandı.

Hətta I Pyotr da bildiyi halda ki, İsmayıl bəyin səlahiyyətləri Təhmasib Mirzə tərəfindən geri alınıb, onu qəbul etdi. Çünki Rusiya hakimiyyəti İsmayıl bəyin vasitəsilə ona münasib olan müqaviləyə qol çəkdirib Səfəvi sarayını fakt qarşısında qoymaq istəyirdi. Rusiya tərəfindən İsmayıl bəylə danışıqların aparılmasına Osterman rəhbərlik edirdi. Ostermanla İsmayıl bəy arasındakı danışıqlar Rusiyanın diqtəsi altında keçdi və 1723-cü ilin sentyabr ayının 23-də Rusiya ilə Səfəvi dövləti arasında İsmayıl bəyin şəxsində müqəddimə və beş maddədən ibarət olan müqavilə imzalandı. Müqavilənin birinci maddəsinə əsasən Rusiya çarı Səfəvi şahına söz verirdi ki, ona kömək etsin, onun düşmənlərini ölkədən qovsun və bunun üçün Rusiya qoşun dəstələrini Səfəvi dövləti ərazisinə göndərsin.

İkinci maddəyə əsasən, Səfəvi şahı Rusiyanın göstərdiyi köməyin əvəzində öhdəsinə götürürdü ki, Dərbəndi, Bakını və onların ətrafını, həmçinin Gilanı, Mazandaran və Astrabad vilayətlərini bir dəfəlik Rusiyaya bağışlasın.Üçüncü maddədə nəzərdə tutulmuşdu ki, Səfəvi ərazisindəki rus qoşunlarının atla və digər təchizatla təmin edilməsi çətin olduğu üçün Səfəvi dövləti yerlərdə rus hərbçiləri üçün atların alınmasına şərait yaradacaqdır. Dördüncü maddədə göstərilirdi ki, iki ölkə arasında daimi dostluq əlaqələri bərpa olunur və hər iki ölkənin əhalisi qarşılıqlı surətdə səfər etmək, istədikləri vaxt digər ölkədə yaşamaq hüququ qazanırdılar. Müqavilənin imzalandığı vaxtdan sonra iki ölkə arasında ticarət işlərinə sərbəstlik verilirdi. Nəhayət, beşinci maddəyə əsasən, müqaviləni imzalayan ölkələrdən birinin dostu və ya düşməni o biri ölkənin də dostu və ya düşməni hesab olunmalı idi (150).

Təhmasib Mirzənin razılığı olmadan Rusiya sarayına gəlmiş İsmayıl bəyin ağır şərtlərlə imzaladığı müqavilə Səfəvi dövlətinə yardım göstərilməsindən daha çox, Rusiyanın Xəzər boyu istilalarının qanuniləşdirilməsinə xidmət edirdi. Ona görə aydın idi ki, Rusiyanın sevincinə baxmayaraq, Təhmasib Mirzənin həmin müqaviləni tanıyacağı şübhə doğururdu. İsmayıl bəy geri qayıdandan sonra həqiqətən də Təhmasib Mirzə bu müqaviləni qəbul etmədi və İsmayıl bəyi bu müqaviləni imzaladığı üçün xain adlandırdı. Ona görə İsmayıl bəy canını şah qəzəbindən qurtarmaq üçün Həştərxana qayıtdı və ömrünün sonuna kimi orada yaşadı (151).

Amma Rusiya sarayı hər vasitə ilə bu müqavilənin qüvvəyə minməsinə çalışırdı. Bunun üçün müqavilənin imzalanmasından bir neçə ay sonra Rusiya sarayı şahzadə Boris Meşerskini Təhmasib Mirzə ilə görüşə göndərdi ki, həmin müqavilənin Səfəvi şahzadəsi tə-

rəfindən imzalanmasına nail olunsun. Təhmasib Mirzə müqaviləni qəbul etmək niyyətində olmadığı üçün B.Meşerskinin missiyası da bir nəticə vermədi. Bu o demək idi ki, Səfəvi şahı bir sıra vilayətlərin, o cümlədən də Gilanın Rusiya tərəfindən işğalına razı deyildi. Rusiya isə işğalçılığına qanuni don geyindirə bilməsə də, geri çəkilmək niyyətində də deyildi. Bu məqsədlə Rusiya sarayı general Levaşovu Gilan hakimi təyin etdi və bununla Gilanın işğalının möhkəmləndirilməsinə yeni bir cəhd göstərildi (152).

Əslində isə, Rusiya Gilanda elə də möhkəmlənməmişdi. Bölgənin Rusiyadan uzaqlığı, Cənubi Qafqazda Osmanlı Rusiya çəkişmələrinin davam etməsi Gilana böyük sayda qüvvə çıxarılmasına və onların təmin olunmasına imkan vermirdi. 1724-cü ildə Gilanda 6 piyada taboru, 500 nəfər draqun, habelə Don kazaklarının, gürcü və ermənilərin bir neçə bölüyü var idi. Həmin qüvvələrlə də Gilanı etibarlı şəkildə nəzarət altında saxlamaq mümkün deyildi. Təhmasib qoşunlarının hücum etmək təhlükəsi isə həmişə qalmaqda idi. Buradakı rus qüvvələrinin möhkəmləndirilməsi üçün general Matyuşkin az qüvvə ilə Gilana göndərildi. Astaradan keçərkən Matyuşkinin qüvvəsi Astara hakiminin qüvvələrinin müqaviməti ilə rastlaşdı. Lakin bu müqavimət çox da uzun sürmədi və Matyuşkin Rəştə doğru hərəkətini davam etdirdi.1724-cü ilin sonlarında general Matyuşkin öhdəsində olan qüvvə ilə Rəştə yetişdi. Bura gələndən sonra o, Təhmasib Mirzə ilə əlaqə yaratmağa, Rusiya mövqelərinin onun tərəfindən qəbul edilməsinə cəhd göstərdi və Təhmasib Mirzənin yanına öz nümayəndəsini göndərdi. Bununla belə, onun cəhdləri də bir nəticə vermədi.

1724-cü ilin yayında Osmanlı dövləti ilə bağlanmış müqavilə Rusiyanın Xəzər boyu vilayətlərdə işğal etdiyi əraziləri Rusiyanın mülkiyyəti kimi tanıdı. Bununla, Rusiya Osmanlı dövlətinin Xəzər dənizinə çıxışını da məhdudlaşdırdı.

1724-cü ilin yayında Rusiyanın qoşun dəstələri Rəşt ətrafında bir sıra məntəqələri, sahil boyu əraziləri işğal etdi, Ənzəli körfəzində nəzarət gücləndirildi. Bundan sonra nəzərdə tutulmuşdu ki, Mazandaran və Astrabad da işğal edilsin. Təhmasib Mirzənin hərbi baxımdan güclü olmaması Rusiyanın mövcud çətinliklərinə baxmayaraq bu niyyətləri həyata keçirmək imkanı var idi. Lakin I Pyotrun dünyasını dəyişməsi səbəbindən Astrabadın və Mazandaranın işğalı dayandırıldı. Amma Rusiya qoşunları Rəştdə möhkəmləndirilmiş müdafiə sistemləri yaratdılar. Bura Rəşt daş karvansarası, yeni qala, Yekaterinapol qalası, Ənzəli körfəzi sahilindəki istehkam qurğuları daxil idi. Bu

müdafiə qurğuları Rusiyaya imkan verirdi ki, az qüvvə ilə Gilanı daha yaxşı müdafiə edə bilsin (153).

Rusiya Gilanda möhkəmlənmək üçün yalnız müdafiə qurğuları yaratmırdı. Bu bölgədə möhkəmlənmək üçün Rusiya sarayının əl atdığı vasitələrdən biri də onun siyasətinin alətinə çevrilmiş ermənilərin Gilanda yerləşdirilməsi niyyəti idi. Rus çarı xristianların himayəçisi adı altında erməniləri hər vasitə ilə Gilanda məskunlaşmağa təşviq edirdi. Hətta ermənilərə söz verilmişdi ki, əgər onların Gilanda məskunlaşması kütləvi xarakter alarsa onda həmin vilayətlərin yerli əhalisi başqa yerə köçməyə məcbur ediləcəkdir (154).

Rusiya sarayı əyalətlərdə etnik dayaq kimi güman etdiyi erməniləri Xəzərin cənub sahili boyunca olduğu kimi, qərb sahilində də yerləşdirməyi planlaşdırırdı. Ermənilərə bildirilmişdi ki, Rusiya ilə Türkiyə arasında bağlanmış müqaviləyə görə Rusiyanın açıq şəkildə ermənilərə yardım etmək imkanı yoxdur. Ona görə onlara təklif olundu ki, Rusiyanın nəzarəti altında olan ərazilərə, Bakıya, Dərbəndə, o cümlədən də Gilana köçsünlər. 1724-cü ilin sonlarında general Matyuşkin ermənilərin Xəzəryanı vilayətlərə köçürülməsinin təmin edilməsi ilə bağlı çar fərmanını aldı. Fərmanın əsas məqsədi rus siyasətinin əlində alətə çevrilmiş erməniləri bu ərazilərə cəlb etmək idi. Bununla bağlı, çar fərmanında göstərilirdi ki, ermənilər Bakı, Dərbənd, Gilan və Mazandarana köçən kimi onlara yardım göstərilsin, məskunlaşmaq üçün münasib yerlər ayrılsın və yerli əhali onlara qeyri-səmimi münasibət göstərsə öz yurdlarından köçürülsün (155).

I Pyotrun ölümündən keçən sonrakı bir neçə il ərzində Rusiyada bir neçə çar dəyişdi. I Pyotrdan sonra Səfəvi dövləti ilə münasibətlərdə elə bir fəallıq göstərilmədi. Amma Xəzər boyu ərazilərin işğalından da əl çəkilmədi. Mövcud olan vəziyyət Rusiyanı qane edirdi. Səfəvi dövlətinin isə imkanı yox idi ki, itirilmiş əraziləri geri qaytarsın. Bir tərəfdən də ölkə daxilində qərb vilayətləri istisna olmaqla, bir növ ikihakimiyyətlilik yaranmışdı. Xəzərin cənub sahili boyu ərazilərə həm Təhmasib Mirzə, həm də əfqanlar iddia edirdilər. Rusiya bu şəxslərin hər ikisi ilə əlaqə saxlamağa, onların arasında manevr etməyə çalışırdı. Rusiya üçün onlardan hansının ölkənin şahı olmasının yəqin ki, elə də fərqi yox idi. Rusiyanın məqsədi vaxtilə Səfəvi dövlətinə daxil olan Azərbaycanın bir hissəsini, o cümlədən Gilan vilayətini əldə saxlamaq idi. İran daxilində hərc-mərcliyin davam etdiyi bir dövrdə Rusiya üçün belə bir niyyətə nail olmaq daha asan idi.

## 4. Səfəvi-Osmanlı münasibətləri

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin böhranını dərinləşdirən və onun ərazilərinin parçalanmasını sürətləndirən amillərdən biri də Səfəvi və Osmanlı münasibətləri idi. Əslində, bölgədə formalaşmış olan beynəlxalq münasibətlər Osmanlı dövlətindən müəyyən qarşılayıcı tədbirlərin həyata keçirilməsini tələb edirdi ki, bu da zəifləməkdə olan Səfəvi dövlətinin vəziyyətini daha da mürəkkəbləşdirirdi. Doğrudur, Osmanlı dövləti də tarixinin çiçəklənən dövrünü yaşamırdı. Bununla belə, malik olduğu imkanlar ona da Qafqazda və ölkənin şərqində, Səfəvi sərhədləri boyunca daha fəal siyasət yeritməyə imkan verirdi. Xüsusən, Rusiyanın cənub istiqamətində təcavüzkarlıq planlarını reallaşdırmağa başlaması və Rusiya-Osmanlı maraqlarının toqquşması Səfəvi dövlətinin ərazilərinin itirilməsi hesabına baş verirdi.

XVII əsrin sonu və XVIII əsrin əvvəllərində həm Osmanlı dövləti, həm də Rusiya dövləti daha çox Avropa məkanında öz maraqlarının aydınlaşdırılması ilə məşğul idilər. XVII əsrin 40-cı illərindən başlayaraq XVIII əsrin əvvəllərinə qədər Osmanlı dövləti ilə Səfəvi dövləti arasında normal qonşuluq münasibətləri bərqərar idi. Amma elə XVIII əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqaza, Xəzər boyu vilayətlərə çıxmaq istəyi Osmanlı dövlətinə bəlli oldu. Osmanlı sarayı yaxşı anlayırdı ki, Səfəvi xanədanının zəiflədiyi bir vaxtda Rusiyanın cənuba yürüşünün qarşısının alınması üçün bu dövlətin gücü çatmayacaqdır. Belə olanda, Rusiyanın Cənubi Qafqazı və Xəzər boyu əraziləri işğal etməsi, Osmanlı dövlətinin sərhədinə çıxması Osmanı dövlətinin mənafelərinə cavab vermirdi.

Rusiya mənbələrinə görə, hələ XVIII əsrin 2-ci onilliyinin əvvəllərində Osmanlı dövləti Şimali Qafqazı nəzarət altına almaq istiqamətində siyasət formalaşdırırdı. Belə bir siyasətin həyata keçirilməsi ilə Osmanlı dövləti yeni əraziləri ələ keçirib sünni məzhəbinə aid olan dağlı xalqlarını öz nəzarəti altına gətirə və gələcəkdə Rusiyaya qarşı hərbi planların həyata keçirilməsinə əlverişli mövqelər əldə edə bilərdi. Osmanlı dövlətinin bu niyyətindən doğan nigarançılıq knyaz Bekoviç-Çerkasskinin 1714-cü ildə rus çarının adına göndərdiyi raportunda öz əksini tapmışdı. Knyaz rus çarına yazırdı ki, osmanlıların Şimali Qafqaza çıxmasına yol vermək olmaz. Çünki osmanlıların, nizami qoşunlardan daha yaxşı vuruşan dağlı xalqları ilə birləşməsi osmanlıların qüvvəsini xeyli artıracaqdır. Ondan sonra Qara Dənizdən başlayaraq

Səfəvi dövlətinə qədər olan bütün rabitə yolları Rusiyanın sərhədi yaxınlığından keçəcəkdir (156).

Rusiya çarı I Pyotr bu qənaətlə tam razı idi və ona görə də dərhal senata tapşırıq verdi ki, Şimali Qafqazın dağlı xalqlarını nəzarət altında saxlamaq və Rusiyaya tərəf çəkmək üçün lazım olan bütün tədbirlər həyata keçirilsin (157).

Yuxarıda qeyd edildiyi kimi, bu zaman Rusiyanın cənubda fəal siyasət yeritmək imkanı yox idi. Şimalda aparılan müharibə Rusiyanın hərbi potensialını özünə cəlb etmişdi. Ona görə Rusiya özünün cənubdakı maraqlarını hələlik diplomatik yolla qorumağa çalışırdı. Osmanlı dövləti də 1718-ci ildə Rassarovits (Avstriya ilə) müqaviləsini imzalayana kimi şərq istiqamətində güclü hərbi qüvvə çıxarmaq imkanı yox idi. L.Lokkartın qənaətinə görə, əgər Rusiya cənub istiqamətində işğalçılıq siyasətinə başlamasaydı, ola bilsin ki, Osmanlı dövləti Səfəvi dövlətinin sərhədini aşmazdı. 1718-ci ildə sədr-əzəm seçilən Damad İbrahim qonşuları ilə sülh şəraitində yaşamağa üstünlük verirdi. Məhz bunun nəticəsi idi ki, 1720-ci ildə İstanbulda Osmanlı dövləti ilə Rusiya arasında "əbədi sülh" haqqında İstanbul müqaviləsi imzalandı (158).

Amma bu müqavilə elə də əbədi olmadı. Cənuba doğru ərazilərini genişləndirməyə çalışan Rusiyanın əlinə ilk imkan düşən kimi "əbədi sülh" haqqında müqavilənin şərtləri yaddan çıxdı.

Elə 1720-ci ildə Osmanlı sarayı Dürrə əfəndinin rəhbərliyi altında İsfahana səfirlik heyəti göndərdi. Dürrə əfəndi Səfəvi dövlətinin daxili vəziyyətini öyrənməklə bərabər, Səfəvi dövlətində istehsal olunan ipəyin daşınmasında yenidən Osmanlı marşrutuna üstünlük verilməsinə nail olmağa çalışmalı idi. Çünki Rusiya dövləti müxtəlif vasitələrlə, tacirləri, xüsusilə erməni tacirləri Rusiya marşrutlarına cəlb etməyə çalışırdı.Bir tərəfdən dini təəssübkeşlik, digər tərəfdən də Rusiya sarayının verdiyi müxtəlif güzəştlər tacirləri Rusiya marşrutlarına üstünlük verməyə sövq edirdi.

Dürrə əfəndi bir müddət hakimiyyətinin son illərini yaşayan Səfəvi sarayının qonağı olduqdan sonra geri qayıtdı. Osmanlı sarayına verdiyi məlumatında Dürrə əfəndi Səfəvi sarayının ağır günlər yaşadığını, onun süqutunun çox da uzaq olmadığını bildirdi (159).

1721-ci ildə isə Şah Sultan Hüseynin səfiri olan Murtuzqulu xan İstanbula yollandı. Səfəvi dövlətinin səfiri kimi, Murtuzqulu xan İstanbulda xeyli səmimiyyət və qonaqpərvərliklə qarşılandı. Onun İstanbula səfəri əfqan qiyamının gücləndiyi və Səfəvi sülaləsinin süqutunun daha da yaxınlaşdığı bir dövrə təsadüf edir. Əfqan qiyamçıları

İsfahana yaxınlaşmaqda idilər. Belə bir şəraitdə Osmanlı sarayı çətin seçim qarşısında qaldı. Səfəvi sarayı Osmanlı dövlətinin himayəsini əldə etmək üçün Osmanlı təbəələrinin Səfəvi dövləti ərazisində ticarətlə məşğul olmasına imkan verdi. Səfəvi dövləti narahatlıq keçirirdi ki, Osmanlı sarayı qiyam qaldırmış sünni əfqanlara yardım göstərməyi öz üzərinə götürə bilər. Məzhəb eyniliyi əfqanların müraciət edəcəyi təqdirdə Osmanlı sarayını belə bir köməyi göstərmək məcburiyyəti qarşısında qoya bilərdi. Amma Osmanlı sarayı da yaxşı anlayırdı ki, həmin köməyin göstəriləcəyi təqdirdə Səfəvi dövləti ilə və Rusiya ilə münasibətlər kəskinləşə bilər. Bununla belə, mənbələrdə olan məlumatlara görə, İstanbul əhalisinin Səfəvi elçisinə qarşı qəzəbi də göz qabağında idi. Çünki sünnilərin incidilməsinə yol verən Səfəvi dövlətinin elçisi İstanbul əhalisinin rəğbətini qazana bilmədi. Bütünlükdə isə, Səfəvi elçisinin İstanbula gəlib-getməsindən sonra tərəflər üçün maraq kəsb edən bir nəticə əldə edilmədi (160).

Səfəvi səfiri geri qayıdan vaxtlarda Osmanlı sarayına Şirvandakı silahlı hərəkata rəhbərlik edən və burada hakimliyi ələ keçirən Hacı Davudun nümayəndələri təşrif gətirdilər. Şirvan hərəkatına, onun xarakterinə və rəhbərlərinin Rusiya ilə Osmanlı dövlətləri arasındakı manevrlərinə toxunmadan qeyd etmək lazımdır ki, bu hərəkat ilk növbədə Səfəvi dövlətinin bütövlüyünə qarşı çevrilmişdi. Həmin hərəkat heç şübhəsiz ki, həm Rusiya tərəfindən, həm də Osmanlı sarayı tərəfindən diqqətlə izlənilirdi və hər iki dövlət də bu hərəkatdan özünə məxsus şəkildə və öz mənafeyi üçün istifadə etməyə çalışırdı.

Bu qarşılıqlı rəqabətdə Rusiyanın daha təcavüzkar mövqe tutduğunu görməmək mümkün deyil. Baxmayaraq ki, gürcülər və ermənilər separatçılıq hərəkatını xeyli gücləndirmiş, Rusiya sarayı ilə iş birliyi qurmuş, hərbi əməliyyatlara başlamaq üçün kəşfiyyat fəaliyyətini genişləndirmişdilər, Osmanlı sarayı Hacı Davudun nümayəndələrinə Şirvanın Osmanlı dövlətinin himayəsi altına alınması barədəki təklifinə müsbət cavab vermədi.Osmanlı sarayı Şirvanın himayə altına alınmasını Rusiya ilə müharibə təhlükə kimi qəbul edir və bu məsələyə çox ehtiyatla yanaşırdı.

1724-cü ilin sonuna kimi və hətta 1722-ci ildə Şirvan hərəkatının rəhbərləri öz xahişlərinə müsbət cavab ala bilmədilər. Həmin illər ərzində bölgədəki hərbi-siyasi vəziyyət isə xeyli kəskinləşdi. Bir tərəfdən Səfəvi xanədanı süqut etdi və Mahmud Gilzayi İsfahanı tutdu. Bir tərəfdən də Rusiya Dərbəndə qoşun çıxardı. Osmanlı sarayının belə bir zamanda müşahidəçi mövqeyində qalması çox çəkə bilməzdi. Rusiyanın Dərbənddən sonra Şirvana qoşun çəkməsi, 1721-ci ildə burada

bir çox rus tacirlərinin talan edilməsində günahkar sayılanların cəzalandırılması bəhanəsinin irəli sürülməsi, Gürcüstan hakiminin Rusiya ilə əlbir olması və gürcü qoşunlarının Rusiya qoşunları ilə birləşməsi üçün Gəncəyə qədər hərəkət etməsi Osmanlı sarayını hərəkətə gəlməyə sövq etdi. Əks təqdirdə, Cənubi Qafqaz bütünlükdə Rusiyanın əlinə keçə bilərdi.

1722-ci ilin sonlarına doğru Osmanlı dövlətinin Cənubi Qafqaza qoşun çıxarmaq niyyəti xeyli gücləndi.Yalnız I Pyotrun Dərbənddən Həştərxana, oradan da Moskvaya qayıtması Osmanlı sarayını bir qədər sakitləşdirdi və bölgədəki gərginlik nisbətən səngidi. Bununla belə, 1722-ci ilin sonlarında Şirvan, Osmanlı sultanının himayəsi altına alındı və Hacı Davud Krım xanı səviyyəsində səlahiyyətlərə malik oldu (161).

Amma I Pyotrun Moskvaya qayıtması, qoşunların da bir hissəsini özü ilə aparması heç də Rusiyanın Xəzərə və Xəzərboyu vilayətlərə sahib olmaq niyyətlərindən əl çəkməsi demək deyildi.

Şirvanın Osmanlı himayəsinə alınmasından sonra sultan sarayı Rusiyaya öz səfirini göndərdi. Mövcud olan məlumatlara görə, 1723-cü il fevralın 13-də Osmanlı səfiri I Pyotr tərəfindən qəbul olundu və sultanın məktubu ona təqdim olundu. Həmin məktubda sultan bildirirdi ki, Şirvan artıq Osmanlı himayəsinə qəbul olunub, rusların işğal etdikləri ərazilərdə yaşayan ləzgilər sünni olmaqla Osmanlı vətəndaşlarıdır və osmanlı dövləti razı ola bilməz ki, sünnilər xristianların hakimiyyəti altında qalsınlar. Sultan tələb edirdi ki, Rusiya sülhün tərəfdarıdırsa onda gərək qoşunlarını Dağıstandan çıxarsın, orada ucaltdığı qalaları uçursun və niyyətlərindən əl çəksin. Rusiya sarayı tərəfindən sultanın tələblərinə cavab verilmədi. Yalnız mart ayının əvvəllərində Rusiyanın cavabı Osmanlı sarayına bəlli oldu. Rusiyanın cavabında Osmanlı dövləti ilə sülhün davam etməsinin vacibliyinə toxunulur və eyni zamanda Səfəvi dövlətinin Rusiya ilə Osmanlı arasında bölüşdürülməsi təklif olunurdu (162).

İlk vaxtlar Osmanlı dövləti buna razı olmadı. Osmanlı sarayının rəsmiləri bildirdilər ki, Şirvan artıq Osmanlı himayəsinə götürülüb. İsfahanı isə sünni əfqanlar tutublar. Yəni, əslində, məsələ həll olunub. Keçmiş Səfəvi ərazisi Osmanlı dövləti tərəfindən himayə olunmalıdır. Onun parçalanması Osmanlı dövlətinin istəyinə uyğun deyildir. Əksinə, Osmanlı dövləti məcburdur ki, sünniləri müdafiə etsin. Buna görə də Osmanlı dövləti Rusiyanın təklifi ilə razılaşmadı. Ancaq onlar arasında məsləhətləşmə və müzakirələr də davam etdi. Osmanlı dövləti öz mövqeyində israrlı ola bilmədi. Çünki İsfahan əfqanlar tərəfin-

dən işğal edilsə də Səfəvi dövləti ərazisində təkhakimiyyətlilik təmin edilmədi. Yəni, Mahmudun hakimiyyəti heç də bütün ölkəyə yayılmadı və o, ölkəni təmsil edə bilmirdi. Mahmud İsfahanda taxta oturduğu halda, II Təhmasib də özünü ölkənin şimalında şah elan etmişdi. Osmanlı sarayına yaxşı məlum idi ki, Rusiya Təhmasiblə əlaqələr qurmağa, işğal etdiyi ərazilərin Şah Təhmasib tərəfindən rəsmiləşdirilməsinə çalışırdı. Bunun baş verəcəyi təqdirdə Rusiya Şah Təhmasibin müdafiəsinə qalxmaqla Osmanlı dövlətinin niyyətlərinin həyata keçməsinə mane olardı. Osmanlı dövləti isə məsələnin belə dəyişməsini istəmirdi.

Məlumdur ki, bu dövrdə Şah Təhmasibin xarici müdaxilələrin qarşısını almaq üçün yetərli qüvvəsi yox idi. Onun gözləri qarşısında təmsil etdiyi dövlət Osmanlı, Rusiya və əfqan qiyamçıları arasında parçalanırdı. Şah Təhmasibin isə bu prosesləri izləməkdən başqa çarəsi yox idi. Heç şübhəsiz ki, Təhmasib Səfəvi dövlətinin əvvəlki sərhədlərinin bərpa olunacağına heç də ümid bəsləmirdi.

Səfəvi ərazilərinin bölüşdürülməsi üstündə Rusiya ilə Osmanlı dövləti arasında müzakirələr fasilələrlə 1723-cü il boyu davam etdi. Müzakirələr ağır keçir və müəyyən vaxtlarda Osmanlı qoşunlarının Cənubi Qafqazdakı fəallığı ilə müşayiət olunurdu. Osmanlı qoşunlarının yürüşü Gəncəyə qədər davam etdi. Osmanlı dövləti müzakirə stolu arxasında əldə edə bilmədiyini silah gücünə əldə etmək istəyirdi. Rusiya qoşunlarının Xəzərin qərbində və cənubundakı əraziləri işğal etməsi də Osmanlı dövlətini hərbi fəallığa sövq edirdi. 1723-cü ildə Şah Təhmasib özünün Rzaqulu Mirzə adlı elçisini İstanbul sarayına göndərdi və sultandan yardım istədi. Amma İstanbul sarayı bu xahişi cavabsız qoydu (163). Əvəzində Rusiya ilə müzakirələri davam etdirdi.

1723-cü ilin sonlarından Səfəvi dövlətinin ərazisinin bölüşdürülməsi üzrə Osmanlı Rusiya müzakirələri son mərhələyə daxil oldu. Uzun sürən müzakirələrdən sonra nəhayət 1724-cü il iyunun 27-də İstanbul Səfəvi dövlətinin ərazilərinin bölüşdürülməsi üzrə Osmanlı dövləti ilə Rusiya arasında müqavilə imzalandı (164).

Müqavilə müqəddimə, 6 maddə və bir neçə qeyddən ibarət idi (165). Birinci maddədə təsbit olundu ki, Rusiya ilə Osmanlı dövləti arasında sərhəd xətti Dağıstanın sərhəd xəttinin Xəzər dənizindən 24 fərsəng aralı olan nöqtəsindən başlayır və dənizə qədər həmin fasilədə Dərbənddən keçir, sonra sərhədin 7 fərsəngliyində Şamaxıdan keçir və oradan düz xətlə Kür və Araz çaylarının qovşağına qədər uzanır. Eyni zamanda o da bildirilirdi ki, tərəflərin təyin etdiyi nümayəndələr

Fransanın vasitəçiliyi ilə sərhəd xəttini dəqiqləşdirəcəkdir. Tərəflər razılaşırdılar ki, sərhəd xətti boyunca tikilə biləcək istehkam qurğuları barədə qarşı tərəf məlumatlandırılacaqdır. Həm də istehkam qurğuları sərhəd xəttindən 3 fərsəng aralıda qurulmalı idi.

İkinci maddəyə əsasən, Şamaxı və İrəvanın mərkəzində istehkamlar tikilməməli və həmin şəhərlərdə qarnizonlar saxlanılmamalı idi. Əgər həmin şəhərlərdə etiraz çıxışları baş versəydi və sultan həmin çıxışların yatırılması üçün qoşun göndərmək məcburiyyətində qalardısa, Osmanlı qoşunu Kür çayını adlayana kimi Rusiya hökumətini məlumatlandırmalı idi. Asayiş bərpa edildikdən sonra isə Osmanlı qoşunu geri çağırılmalı idi.

Üçüncü maddəyə görə, İran və Osmanlı arasındakı sərhəd xətti Kür və Araz çaylarının qovşağından başlamalı, Ərdəbilin üç milliyindən keçməklə düz xətt üzrə Həmədan və Kermanşaha qədər uzanmalı idi.

Dördüncü maddədə bildirilirdi ki, çar Rusiyası Təhmasib Mirzə ilə bağladığı müqaviləyə əsasən Təhmasib Mirzəni 3-cü maddədə göstərilən ərazilərin Osmanlı dövlətinə verilməsinə məcbur edəcəkdir. Şah Təhmasib irəli sürülən şərtlə razılaşmayacağı halda Osmanlı dövləti ilə Rusiya birlikdə onlara aid edilən ərazilərin ələ keçirilməsini təmin etməli idilər. Bundan sonra İranın qalan ərazisini idarə etmək qabiliyyəti olan bir şəxs tapılmalı idi.

Beşinci maddəyə görə, II Təhmasib müqavilənin 3-cü maddəsində Osmanlı dövlətinə verilməsi nəzərdə tutulan əraziləri sultanın hakimiyyəti altına verəndən sonra Osmanlı dövləti onu Səfəvi şahı kimi qəbul edəcək və ona lazım olan köməyi əsirgəməyəcəkdir. Şah Təhmasib İsfahanı tutmuş əfqanlara qarşı mübarizəyə başlayacağı təqdirdə Rusiya və Osmanlı dövləti öz qoşunları ilə ona yardım göstərməli və onun yenidən Səfəvi taxtına gətirilməsini təmin etməli idilər.

Altıncı maddədə qeyd olunurdu ki, Təhmasib irəli sürülən şərtlərlə razılaşmasa Osmanlı və Rusiya dövlətləri onlara aid olan əraziləri tutduqdan sonra İran daxilində də asayişi bərpa edəcəkdir. Ölkə taxtına o adam gətirilməli idi ki, həmin şəxs dövləti müstəqil şəkildə idarə etmək qabiliyyətinə malik olsun. Tərəflər onu da öhdələrinə götürürdülər ki, onlar Mahmudla sülh müqaviləsi imzalamayacaq və onunla əlaqələr qurmayacaqlar. Nəhayət, hər iki dövlət müqavilənin şərtlərinə ciddi əməl edəcəklərini, daimi sülhə nail olmağa çalışacaqlarını öhdələrinə götürürdülər.

Bu müqavilənin imzalanması ilə Rusiya ilə Osmanlı dövləti arasında başlanan nifaqa bir müddət son qoyuldu. Həmin nifaq Səfəvi dövlətinin şimal ərazisini təşkil edən Azərbaycanın və bütünlükdə

Cənubi Qafqazın habelə Səfəvi dövlətinin şimal-qərb ərazilərinin bölüşdürülməsi əsasında baş verdi. Səfəvi xanədanının varisi kimi Təhmasib ata-babalarının yaratdığı böyük dövlətin başqaları tərəfindən bölüşdürülməsini görsə də, bu mənzərəni müşahidə etməkdən başqa çarəsi yox idi.

Rusiya ilə müqavilə imzalayandan sonra Osmanlı dövləti onun üçün nəzərdə tutulan ərazilərin işğalına başladı. Müqavilənin imzalandığı günlərdə Bağdad hakimi Əhməd paşanın komandanlığı atında Osmanlı ordusu Həmədana göndərildi. Həmədanın ətrafındakı qala divarları və istehkam qurğuları bu şəhərin müdafiə qabiliyyətini xeyli artırırdı. Ona görə də Osmanlı qoşunları Həmədan ətrafında güclü müqavimətlə rastlaşdılar. Qalanın tutulması üçün müxtəlif vasitələrə əl atılsa da uzun müddət bu cəhdlər bir nəticə vermədi. Qalanın mühasirəyə alınmasından ay yarım sonra onu ələ keçirmək mümkün oldu (166).

İki ölkə arasında müqavilənin imzalanmasından az sonra Osmanlı qoşunlarının böyük bir dəstəsi Təbrizə doğru istiqamət götürdü. 1724-cü ildə başlayan bu yürüş və Təbriz şəhəri uğrunda aparılan döyüşlər 1725-ci ilin sonlarına qədər uzandı.

Təbrizə doğru yürüş zamanı Osmanlı qoşunları marşrutu üzərində olan yaşayış məntəqələrini ələ keçirsə də Təbrizin mühasirəsi uzun müddət sürdü. Amma təbrizlilər hər hansı bir tərəfdən kömək ala bilmədikləri üçün uzun sürən müqavimətdən sonra nəhayət ki, məğlub oldular. Təbrizin ardınca Osmanlı ordusu Ərdəbili, Gəncəni və digər məntəqələri də nəzarət altına alıb Səfəvi dövlətinin şimal-qərb ərazilərinə sahib çıxdı. Azərbaycanın qərb və cənub-qərb hissəsi də Osmanlı dövləti tərəfindən işğal olundu. Adları çəkilən şəhərlərdən başqa Naxçıvan, Ordubad, Marağa, Səlmas, Xoy, Mərənd və s. məntəqələr də Osmanlı tərkibinə qatıldı.

Xəzərin cənub vilayətlərinə pənah aparmış II Təhmasib Təbrizin və ətrafının tutulmasını eşidəndən sonra Osmanlı sərkərdəsi Abdulla paşaya məktub yazdı. Səfəvi xanədanının varisi Səfəvi ərazisində vəziyyətin daha da mürəkkəbləşdirilməsində osmanlıları qınayır və bildirirdi ki, onlar əfqanların hücumundan istifadə edib öz niyyətlərini həyata keçiriblər. II Təhmasib məktubunda bildirirdi ki, ruslara da məktubla müraciət edib, onlardan bir az kömək də alıb. Amma qeyri-müsəlmanlarla əlaqələri davam etdirmək istəmir. II Təhmasib bildirirdi ki, osmanlılar müharibəni dayandırsalar, əfqanlara qarşı mübarizə aparmaqda ona yardım etsələr müəyyən ərazi güzəştlərinə baxıla bilər.Lakin osmanlılar bu təklifə çox ehtiyatla yanaşdılar. Çünki Osman-

lı sarayı həm Təhmasiblə, həm də Mahmudun əvəzinə taxta çıxmış Əşrəflə münasibətlərin bir dəfəlik korlanmasını istəmirdi.Osmanlı sarayı müsbət cavab verilmədiyi halda Təhmasibin Rusiyaya yaxınlaşacağından da ehtiyat edirdi. Ona görə Osmanlı sarayı Rusiya tərəfini xəbərdar etməklə II Təhmasibin yanına öz səfirini göndərdi. Amma bu səfirin apardığı müzakirələrin bir nəticəsi olmadı (167).

Təhmasiblə bərabər, Əşrəf də Osmanlı dövləti ilə əlaqə yaratmağa çalışırdı.Çünki Əşrəf yaxşı anlayırdı ki, bölgənin güclü dövləti və qərbdən ölkənin həmsərhəd olduğu Osmanlı dövləti ilə anlaşma əldə edə bilməsə şahlığının ömrü də uzun olmayacaqdır. Ona görə Mahmudu əvəzləyəndən az sonra Əşrəf öz nümayəndə heyətinin Osmanlı sarayına göndərdi. Əbdüləziz adlı birisinin rəhbərlik etdiyi nümayəndə heyəti 1725-ci ilin iyun aynda İsfahandan yola düşsə də təxminən yarım ildən sonra 1726-cı ilin yanvarında Osmanlı sarayına yetişdi. Əşrəfin səfirlik heyəti özü ilə üç məktub gətirdi. 1-ci məktub Əşrəfin özü tərəfindən Osmanlı sultanının adına yazılmışdı. 2-ci məktubu etmadüddövlə Osmanlı sədr-əzəminə yazmışdı. 3-cü məktub isə 19 nəfər əfqan üləması adından Türkiyə müftisinə göndərilmişdi (168).

Rusiya ilə bağlanmış müqaviləyə əsasən, Osmanlı sarayı Əşrəfin nümayəndəsini səfir statusunda qəbul edə bilməzdi. Ona görə Osmanlı sarayı Rusiyanın və Fransanın İstanbuldakı səfirlərinə Əşrəfin nümayəndəsini Ərşəfin məktublarını gətirən şəxs kimi qəbul etdiyini bildirdi.

Ümumi bir razılıq əldə edildikdən və bir müddət Əşrəfin nümayəndələrinə qarşı göstərilən süründürməçilikdən sonra Osmanlı sədr-əzəmi Əşrəfin nümayəndəsini qəbul etdi. Etimadüddövlənin imzaladığı məktub sədr-əzəmə təqdim edildi. Məktub oxunandan sonra məlum oldu ki, Əşrəf nəzarəti altında olan ərazilərdən imtina etmək və Osmanlıya qarşı ərazi güzəştlərinə getmək fikrində deyil. Əksinə, Osmanlı dövlətindən tələb olunurdu ki, işğal etdiyi keçmiş səfəvi ərazilərini azad etsin. Əfqan üləmalarının yazdığı məktub da oxşar məzmunda idi. Nəhayət, sonda səsləndirilən Əşrəfin məktubunda da Osmanlı sarayına qarşı iradlar öz yerini tapmışdı. Əşrəfin iradlarından biri bu idi ki, Osmanlı dövləti şiə iranlılara qarşı mübarizə aparılmasında əfqanlara kömək göstərmir. Əşrəfə görə onu İranda fateh kimi qəbul edirdilər və bir fateh kimi onun haqqı var ki, Osmanlı dövlətinin və Rusiyanın əlinə keçirdiyi əraziləri geri qaytarsın (169).

Əşrəf sadəcə olaraq müəyyən iddialar irəli sürməklə kifayətlənmirdi. Bağdad hakimi Əhməd paşanın sultan sarayına göndərdiyi məktubundan bilinirdi ki, Əşrəf əməli fəaliyyətə başlayıb. Xüsusi ilə

də Əşrəf məzhəb müştərəkliyindən geniş istifadə etməyə çalışırdı. Bu məqsədlə öz nümayəndələrini Osmanlı qoşunları arasına yollayıb Osmanlı döyüşçüləri arasında təbliğat aparırdı ki, nə üçün sünni Osmanlı sünni əfqanlara qarşı mübarizə aparır. Əşrəfin təbliğatçıları Osmanlı döyüşçülərini inandırmaq istəyirdilər ki, eyni məzhəb üzvləri bir-birini müdafiə etməlidirlər. Belə bir təbliğat Osmanlı döyüşçülərinə az-çox təsir edir və onlarda əfqanlara qarşı rəğbət əhval-ruhiyyəsini gücləndirirdi (170).

Osmanlı sarayı və əyanları Əşrəfin iddialarını heç də xoşluqla qarşılamadılar və hələ onun nümayəndələri geri qayıtmamış Əşrəfə qarşı müharibə elan olundu. Həmin müharibənin elan olunması 1726-cı ilin birinci rübünə təsadüf etsə də, müharibə bir də payızda başladı. Osmanlı sərkərdəsi Əhməd paşa öz qoşunu ilə Həmədandan Əşrəfə qarşı yola düşdü. Van hakimi Xanık paşa, Həmədan hakimi Əbdülrəhman paşa, Mosul hakimi Qara Mustafa paşa və başqaları da onu müşayiət edirdilər. Əşrəfin ixtiyarında bir neçə zənburək var idi. İxtiyarındakı qoşunun sayı isə 17 min nəfərə çatırdı.

Əhməd paşa hücumu başlamazdan əvvəl Əşrəfə hədələyici məktub göndərdi və ona bildirdi ki, hücuma keçməkdə məqsədi ləyaqətsiz əfqanları padşahlıqdan uzaqlaşdırmaq və şahlığı onun həqiqi sahibinə qaytarmaqdır. Bu hədə dolu məktub Əşrəfi hiddətləndirdi və Əhməd paşanın hikkəli məktubuna hikkəli də cavab vermək üçün öz adamlarını göndərdi ki, şahlığın həqiqi sahibi sayılan Şah Sultan Hüseynin boynunu vursunlar. Bu əmr dərhal yerinə yetirildi. Şah Sultan Hüseynin başı bədənindən ayrıldı və Əşrəf onu Əhməd paşaya göndərdi. Əşrəf onu da çatdırdı ki, Əhməd paşanın cavabı süngü ilə veriləcəkdir (171).

Əşrəf eşidəndə ki, Osmanlı qoşunu onun üzərinə gəlir, qarşılayıcı tədbirlərin həyata keçirilməsinə başladı. Əmr etdi ki, Osmanlı qoşununun marşrutu üzərində olan yaşayış məntəqələri dağıdılıb məhv edilsin. Eyni zamanda özü də ətrafına toplaya bildiyi qoşunlarla Osmanlı qoşununu qarşılamağa yola düşdü. Osmanlı qoşunu rəhbərliyinin laqeydliyi və qətiyyətsizliyi nəticəsində təxminən 2 minlik dəstə əsas qoşundan ayrı düşdü. Əşrəf bundan xəbər tutdu və həmin dəstənin yolunu kəsib onu mühasirəyə aldı. Osmanlı dəstəsi tamamilə məhv edildi (172). Əhməd paşa bundan ciddi narahatçılıq keçirdi. Dərhal qoşunların dayanmasına və səngərlənməsinə göstəriş verdi.

Osmanlı qoşunlarının ilk uğursuzluğu Osmanlı döyüşçülərində ruh düşgünlüyü, əfqanlarda isə əksinə ruh yüksəkliyi yaratdı. Bununla belə, Əşrəf yaxşı anlayırdı ki, Osmanlı qoşununa qarşı sona qədər mü-

qavimət göstərmək üçün lazımi qüvvəyə malik deyildir. Ona görə də Osmanlı qoşunları daxilində yenidən təxribat xarakterli təbliğat aparılmasına başladı. Onun adamları Osmanlı döyüşçülərinə bildirirdilər ki, apardıqları müharibə dinə ziddir, sünnilərin sünnilərə qarşı döyüşməsi düzgün deyil. Əşrəf tərəfindən Osmanlı qoşunlarında olan kürd rəhbərlərin pulla alınmasına da cəhd göstərildi. Eyni zamana bir neçə tanınmış dini xadim Osmanlı qoşunlarına göndərildi. Həmin din xadimləri də aparılan mübarizənin məzhəb baxımından düzgün olmadığını əsaslandırmağa çalışırdılar. Onların fikrincə, həmməzhəblərin qanının tökülməsinin günahı osmanlıların üzərinə düşəcəkdir. Aparılan təbliğatın dini əsaslar üzərində qurulması Əhməd paşanın təşvişinə səbəb oldu. Çünki bu təbliğat doğrudan da Osmanlı qoşununa təsir etməyə başladı. Əşrəfin göndərdiyi mollalar onu da bildirdilər ki, şiələrin hakimiyyətinə son qoymuş bir şəxs sizinlə vuruşmaq istəmir və Osmanlı dövlətinin belə bir şəxsi yıxmaq üçün xristianlarla əlbir olması düzgün deyildir. Əhməd paşa onların dediklərinin əksini əsaslandırmağa çalışsa da, əfqan mollalarının Osmanlı döyüşçüləri ilə birlikdə namaz qılması əfqanlara olan rəğbəti daha da artırdı. C.Hanveyin yazdığına görə, əfqan mollalarının təbliğatı kifayət qədər təsirli oldu və onlar gedəndən sonra 5 minə qədər döyüşçü Osmanlı qoşunlarından ayrıldı. Əfqan təbliğatının genişlənməsinə yol verməmək üçün Əhməd paşa tezliklə hücuma keçməyi qərara aldı (173).

Osmanlı qoşununun sayı 60 min nəfər idi. Qoşunların ixtiyarında 70 ədəd top var idi. Əfqanlar isə Osmanlı ordusunun yarısı qədər idi. Onların topları olmasa da ixtiyarlarında 40-a yaxın zənburək var idi. Tarixi ədəbiyyatda olan məlumatlara görə, Əşrəf döyüşdə kifayət qədər düşünülmüş taktikadan istifadə etdi. Osmanlı qoşunlarının manevrləri götür-qoy edildi. L.Lokkartın yazdığına görə, əfqan təbliğatçılarının apardığı işlər hər halda öz nəticəsini verdi və Osmanlı qoşunları daxilində bir parçalanma baş verdi. Osmanlı qoşunlarına hücum əmri veriləndən sonra kürdlərdən ibarət 20 minlik qoşun dəstəsi əfqanlar tərəfinə keçdi. Əhməd paşa kürdlər qaçan cinahı möhkəmləndirib hücumu davam etdirməyə çalışsa da bir nəticə alınmadı. Həmin cinah geriyə çəkilmək məcburiyyətində qaldı. Osmanlı qoşunları bir neçə dəfə təşəbbüsü ələ almağa cəhd göstərsələr də lazımi nəticə əldə edilmədi. Əvəzində Osmanlı ordusunun itkiləri 10 mini aşdı. Həmin günün gecəsi isə Osmanlı ordusunda qalan digər kürdlər əfqanlara qarşı vuruşmağın mənasızlığını, geri çəkilməyin zəruri olduğunu vurğuladılar. Onların bu təbliğatı Osmanlı döyüşçülərinə bir vahimə gətirdi və qoşun tamamilə iflic vəziyyətinə düşdü. Əhməd paşa artıq

döyüşün əldən verildiyini görüb əvvəlcə Həmədana, oradan da Kermanşaha qaçdı (174).

Əhməd paşanın rəhbərliyi altında olan qoşunun məğlubiyyətə düçar olması Osmanlı sultanını xeyli qəzəbləndirdi. Vəziyyətin Osmanlı xeyrinə dəyişdirilməsi üçün dövlət xəzinəsindən yeni vəsaitlər ayrıldı ki, əlavə qoşun toplanmasına başlansın. C.Hanveyin məlumatına əsasən, görülən işlər nəticəsində 60-70 min civarında olan qoşun toplandı. Qoşunların tərkibində çoxlu sayda qeyri-müsəlmanlar var idi. Bu da Əşrəfin dini təbliğatının qarşısının alınması zərurəti ilə bağlı idi. Müvafiq hazırlıq işləri başa çatdırıldıqdan sonra Osmanlı qoşunları 1727-ci ilin sentyabrında Həmədan yaxınlığında toplandı. Qoşuna yenidən Əhməd paşa rəhbərlik edirdi. Osmanlı qoşunu nəzərdə tutulan məntəqədə toplandıqdan sonra Əhməd paşa əfqanlara xəbərdarlıq göndərdi. O tələb etdi ki, əfqanlar Osmanlı tərəfinin şərtləri ilə razı olsunlar. Əks təqdirdə, bu şərtlər onlara qılıncla qəbul etdiriləcəkdir (175).

Yenidən döyüşə girməyə ürək etməyən Əşrəf Osmanlı düşərgəsinə xəbər göndərdi ki, Osmanl qoşunlarından əldə edilmiş qəniməti geri qaytarmağa hazırdır. Bunun sübutu kimi əvvəlcə Osmanlı əsirləri geri qaytarıldı(176). Əsirlərin geri qaytarılması Osmanlı sarayında rəğbətlə qarşılandı. Bu da tərəflər arasında sülhün bağlanmasına yaxşı zəmin yaratdı.

1727-ci il oktyabrın əvvəlində Osmanlı qoşunlarının Həmədandakı düşərgəsində tərəflər arasında razılaşma imzalandı. Razılaşmanın birinci maddəsinə görə, əfqanlar tərəfindən Osmanlı sultanı əmirülmömünün və xəlifələrin canişini kimi tanınırdı. İkinci maddəyə əsasən, razılaşma imzalandıqdan sonra Əşrəfin nəzarəti altında olan ərazilərdə bütün xütbələr Osmanlı sultanının adına oxunmalı idi. Üçüncü maddə Osmanlı qoşunlarının Səfəvi sərhədləri çərçivəsində ələ keçirdiyi əraziləri Osmanlı mülkiyyəti kimi təsbit edirdi. Dördüncü maddəyə əsasən, müharibə zamanı Osmanlı nəzarətindən geri alınmış Xuzistan əyaləti yenidən Osmanlı mülkiyyətinə qatılmalı idi. Növbəti maddədə göstərilirdi ki, Zəncan, Sultaniyyə, Əhər, Tehran və onların ətrafı əfqanlara verilir. Əfqan tərəfi altıncı maddəyə əsasən, öz üzərinə götürürdü ki, Osmanlı qoşunlarından ələ keçirilmiş topları, silahları və bayraqları geri qaytarsın. Bütün bunların əvəzində Osmanlı sarayı da Əşrəfi İranın qanuni padşahı kimi tanımalı idi. Səkkizinci maddə ilə İran daxilində oxunan namazlarda sultanın adından sonra Əşrəfin adı çəkilə bilərdi. Eyni zamanda Əşrəfin adına sikkə vurulmasına icazə verilirdi. Nəhayət, doqquzuncu maddəyə görə, tərəflər razılığa gəlir-

dilər ki, Əşrəf hər il Məkkəyə gedən karvana hacılar əmiri təyin etsin. Həmin karvan adəti üzrə Bağdad yolu ilə Məkkəyə doğru hərəkət etməli idi. Amma bu şəhərin hakiminin artıq haqqı yox idi ki, hacılar karvanına öz nümayəndəsini əmir təyin etsin (177).

Yaranmış vəziyyətdən istifadə edən əfqanlar Səfəvi dövlətinin parçalanması üçün daha bir addım atdılar. Osmanlı dövləti ilə münasibətlərin qaydaya salınması və eləcə də Osmanlı təhlükəsinin aradan qaldırılması Əşrəfə imkan verdi ki, diqqətini Rusiyaya və II Təhmasibə tərəf istiqamətləndirsin. Onun Rusiya qoşunlarına qarşı çıxmaq cəhdi gözlənilən nəticəni vermədi. Amma Təhmasibin ətrafında olan qüvvələrə zərbə vura bilərdi. 1728-ci ildə Əşrəfin qoşunları ilə II Təhmasibin qoşunları üz-üzə gəldi. Təhmasib məğlub olub Mazandarana qaçdı. Mazandaranın təbii şəraitinin mürəkkəbliyi üzündən Əşrəf onu təqib etməkdən çəkindi (178).

Aldığı növbəti ağır zərbə heç şübhəsiz ki, Təhmasibi daha ağır və çarəsiz vəziyyətə saldı. Onun Osmanlı dövləti ilə əməkdaşlıq yaratmaq ümidi olsa da Osmanlı ilə Əşrəf arasında formalaşan münasibətlər bunun üzərindən xətt çəkdi. Rusiya ilə etibarlı münasibət yaradılacağına Təhmasib inanmır və əslində bunu heç istəmirdi də. Neçə yerə parçalanmış Səfəvi dövlətinin və hakimiyyətinin bərpası artıq qeyri-mümkün göründüyü bir vaxtda Təhmasibin Nadirlə əməkdaşlığı başladı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1.Mərvi, Məhəmməd Kazım. Aləm Ara-ye Naderi. C.I, Tehraan 1358, s.18
2. Du Serso. Soqut-e Şah Soltan Hoseyn. Tehran, 1363, s.31-32
3.Aləm Ara-ye Naderi, c.I,.. s.18
4.Lokkart L. Enqeraz-e selsele-ye Səfəvi. Tehran, 1344, s.41-42
5. Yenə orada, s.43
6. Flor Vilyam. Bər oftadan-e Səfəviyan, bər amədən-e Mahmud əfqan. Tehran 1365, s.13-14
7.Təbatəbayi, Seyid Cavad. Soqut-e Esfəhan be rəvayət-e Krosinski. Tehran, 1381 s.19
8. Yenə orada, s.21
9.Lokkart L. Enqerz-e selsele-ye ... .44-45
10. Semnani Pənahi. Nader şah. Baztab-e həmmase və facee-ye melli. Tehran,1375, s.21
11.Lokkart L. Enqeraz-e ...c.47
12.Yenə orada, s.46
13. Yenə orada, s.47
14. Sərdadvər Əbuturab. Tarix-e nezami və seyasi-ye douran-e Nader şah Əfşar. C.I, Tehran, 1378, s.149
15. Yenə orada, s.154-155
16. Təbatəbayi, ... c.22
17. Yenə orada, s.23
18. Yenə orada, s.24
19. Arunova M.R., Əşrəfyan K.Z. Doulət-e Nader şah Əfşar. Tehran, 1352, s.50
20. Tarix-e İran. Tehran, 1353, s. 571, 574
21. Azərbaycan tarixi. C.III. Bakı, 1999, s.347; Tarix-e İran.Tehran, 1353, s.571
22.Алиев Ф.М. Аитииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1964, с.16
23. Azərbaycan tarixi. C.III, Bakı, 1999, s.347
24. Azərbaycan tarixi. Bakı, 1994, s.500
25. Lokkart L. Nader şah. Tehran, 1331, s.10
26.Təbatəbayi ... c.24-25
27. Lokkart L. Enqeraz-e ... s.50
28. Du Serse ... s.63-64

29. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отнощения в первой трети XVIII в. Баку, 1993, с.19
30. Təbatəbayi ... c.24
31. Yenə orada, s.25
32.Yenə orada, s.26
33. Yenə orada, s.27
34. Yenə orada, s.27
35. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией . Баку, 1969, с.6
36. Локкарт Л. Надер шах. Баку, 2004, с.4; Yenə onun: Enqeraz-e ... s.50-51
37. Lokkart L. Enqeraz-e ... s.51-52
38. Локкарт Л. Надер шах. Баку, 2004, с.4; Yenə onun: Enqeraz-e ... s.53
39. Semnani P. Nader şah. Baztab-e ... s.52
40. Həqiqət Əbdülrəfi . Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1380, s.244-245
41. Lokkart L. Enqeraz-e ... s.96
42. Yenə orada, s.97
43. Pənahi Ə. Nader şah. Tehran, 1382, s.16
44. Lokkart L. Enqeraz-e ... s.97
45. Həqiqət Ə. ... s.245; Malkom Ser Con. Tarix-e İran. Tehran, 1383, s.343
46. Hanvey C. Hocum-e əfqan və zəval-e doulət-e Esfəhan. Tehran, 1367, s.19-20
47. Krosinski T. Ebrətnamə. Təbriz, 1363, s.23
48. Hanvey C. Hocum-e əfqan ... s.22
49. Təbatəbayi .. s.32-33
50. Езов Г.А. Сношения Петра Великого с армянским народом. СпБ, 1882, с. XLIII
51. Lokkart L.  Enqeraz-e ... s.99; Hanvey C. Hocum-e əfqan ... s.22
52. Hanvey C. Hocum-e əfqan ... s.27
54. Həqiqət Ə. ... s.246; Təbatəbayi ... s.33
55. Aləm Ara-ye Naderi. C.I, ... s.19; Semnani P ....s.56
56. Həqiqət Ə ... s.246; Malkom Ser Con... s.345
57. Hanvey C. Hocum-e əfqan ... s.31-33
57. Yenə orada, s.35
58. Malkom Ser Con, ... s.347; Həqiqət Ə., ... s.247; Semnani ... s.57
59. Aləm Ara-ye Naderi, c.I, ... s.19
60. Hanvey C. Hocum-e əfqan ... s.42

61. Lokkart L. Enqeraz-e ... s.101
62. Larudi N. Nader pesər-e Şəmşir. Tehran,1383, s.11
63. Təbatəbayi ... s.35
64. Lokkart L. Enqeraz-e ... s.102-103
65. Həqiqət Ə., ... s.248
66. Lokkart L. Enqeraz-e ... s.105
67. Hanvey C. Hocum-e ... s.46; Malkom Ser Con... s.348; Larudi ... s.11; Həqiqət Ə., ... s.248
68. Larudi ...s.11
69. Təbatəbayi ... s.37
70. Hanvey C. Hocum-e ... s.50; Semnani ... s.58; Həqiqət Ə., ... s.249
71. Otter Jan. Səfərname-ye əsr-e Nader. Tehran, 1366, s.103
72. Larudi ... s.13
73. Lokkart L. Enqeraz-e ... s.127
74. Aləm Ara-ye Naderi, c.I ... s.24
75. Otter J., ... s.104; Təbatəbayi ... s.41
76. Semnani ... s.60
77. Aləm Ara-ye Naderi, c.I, ... s.24
78. Hanvey C. Hocum-e ... s.94
79. Aləm Ara-ye Naderi, c.ı, ... s.24
80. Yenə orada, s.25
81. Yenə orada, s.25
82. Hanvey C. Hocum-e ... s.95
83. Yenə orada, s.95-96; Lokkart L. Enqeraz-e ... s.151
84. Otter J. ... s.109
85. Aləm Ara-ye Naderi, c.I, ... s.26
86. Lokkart L. Enqeraz-e ... s.152
87. Təbatəbayi ... s.45
88. Aləm Ara-ye Naderi, c.I, ... s.27
89. Hanvey C. Hocum-e ... s.97
90. Lokkart L. Enqeraze ... s.152
91. Hanvey C. Hocum-e ... s.100-105; Həqiqət Ə. ... s.253-254; Semnani ... s.61; Sayks P., ... s.393-394; Lokkart L. Enqeraz-e ... s.155-165
92. Hanvey C. Hocum-e ... s.99
93. Lokkart L. Enqeraz-e ... s.160
94. Hanvey C. Hocum-e ... s.101
95. Aləm Ara-ye Naderi, c.I, ... s.27
96. Sayks Persi, ... s.395

97. Aləm Ara-ye Naderi, c.I,... s.27-28
98. Yenə orada, s.29
99. Yenə orada, s.29
100. Yenə orada, s.30
101. Yenə orada,
102. Hanvey c. Hocum-e ... s.136
103. Yenə orada, s.142-143
104. Yenə orada, s.124, 141
105. Həqiqət Ə. ... s.257; Təbatəbayi ... s.61
106. Lokkart L. Enqeraz-e ... s.195-196
107. Təbatəbayi ... s.61
108. Mirzə Məhəmməd Haşem Asef. Rüstəm-ət-təvarix. Tehran, 1379, s.139
109. Hanvey C. Hocum-e ... s.147-148
110. Lokkart L. Enqeraz-e ... s.199-200
111. Aləm Ara-ye Naderi, c.I, ... s.31
112. Локкарт Л. Надир шах … с.19
113. Həmleye əfqanan və entexab-e Təhmasib Mirzə be velayətəhdi. Bax: Hədis-e Nader şah. Tehran, 1376, s.131
114. Мамедова Г. Русские консулы об Азербайджане. 20-60-е годы XVIII в. Баку, 1989, с.11.12
115. Алиев Ф. Азербайджанско-русские отношения. Баку, 1985, с.44
116. Yenə orada, s.45
117. Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. Т.1, СпБ, 1869, с.4
118. Алиев Ф.М. Азербайджано-русские … с.49
119. Кононов Г.К. Армяне в России. С.627-628. См: Братская помощь пострадавшим в Турции армянам. Ч.11, 1897, с.627-639; Галоян Г.А. Россия и народы Закавказья. Ь., 1976, с.67
120. Müqtədir,Qulamhüseyn. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.10
121. Мамедова Г., … с.33-34
122. Yenə orada, s.33
123. Сотавов Н.Н. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях XVIII в. М., 1991, с.57
124. Бескровный Л.Г. Русская армия и флот в XVIII в. М., 1958, с.240
125. Yenə orada

126.Лысцов В.П. Персидский поход Петра I. 1722-1723. М., 1951, с.174
127. Алиев Ф.М. Антииранские выступления … с.39
128. Azərbaycan tarixi. C.III, Bakı, 1999, s.359
129. Алиев Ф.М. Антииранские выступления … с.41-43
130. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993, с.43
131. Парсамян В.А. Участия польских армян в восстании Давид бека. Ереван, 1962, с.31; Лысцов В.П. … с.208
132. Лысцов В.П., … с.209-210
133. Yenə orada, c.215
134. Yenə orada, c.218
135. Yenə orada, c.220
136. Yenə orada,
137. Мустафазаде Т.Т., … с.43
138. Yenə orada, c.46
139. Yenə orada, c.43
140. Nader şah və bazmandeqanəş. Tehran, 1368, s.128
141. Nader şan və bazmandeqanəş ... c.79; Лысцов В.П., … с.128
142. Nader şah və bazmandeqanəş ... c.79-80; Мустафазаде Т.Т., … с.51
143. Nader şah və bazmandeqanəş ... c.80;
144. Лысцов В.П., … с.129; Nader şah və bazmandeqanəş ... s.80
145. Бескровный Л.Г., с 242
146. Бескровный Л.Г., с.243
147. Бакиханов А. Гюлистани-Ирам.Баку, 1991. с.131
148. Бакиханов А., …с.131; Мустафазаде Т.Т., … с.71
149. Lokkart L. Enqerqaz-e ... s.288
150. Nader şah və bazmandeqanəş ... s.81; Lokkart L. Enqeraz-e ... s.289
151. Nader şah və bazmandeqanəş ... s.81; Lokkart L. Enqeraz-e ... s.289-290
152. Lokkart L. Enqeraz-e ... c.20
153. Лысцов В.П., с.148-149, 161
154. Lokkart L. Enqeraz-e ... c.291
155. Мустафазаде Т.Т., … с.143
156. Лысцов В.П., с.109
157. Yenə orada,
158. Сотавов Н.А. … с.57
159. Мустафазаде Т.Т., … с.30

160. Lokkart L. Enqeraz-e ... c.251-252
161. Мустафазаде Т.Т., … с.59
162. Lokkart L. Enqeraz-e ... s.259
163. Nader şah və bazmandeqanəş ... s.89
164. Мустафазаде Т.Т., … с.83
165. Hanvey C. Hocum-e ... s.213-214
166. Мустафазаде Т.Т., … с.86
167. Nader şah və bazmandeqanəş ... s.89
168. Lokkart L. Enqerqaz-e .. s.329
169. Yenə orada, s.329-331
170. Nader şah və bazmabdeqanəş ... s.20
171. Hədis-e Nader şahi. Tehran, 1376, s.132; Lokkart L. Enqeraz-e ... s.332
172. Malkolm. ... s.384
173. Hanvey C. Hocum.e ... s.266-269
174. Lokkart L. Enqeraz-e ... s.338
175. Hanvey C. Hocum-e ... s.278
176. Malkolm, ... s.221
177. Hanvey C. Hocum-e ... s.278-279
178. Nader şah və bazmandeqanəş ... s.24

# III FƏSİL

# HAKİMİYYƏTƏ APARAN YOL

## 1. Nadirin II Təhmasiblə birləşməsi

Yuxarıda qeyd edildiyi kimi, Nadirin Səfəvi bayrağı altında fəaliyyətə başlaması ərəfəsində süquta uğramış Səfəvilər ərazisində mürəkkəb hərbi-siyasi şərait formalaşmışdı. Tarixçilərin qeyd etdiyi kimi, Səfəvi dövlətinin tərkibində olan Cənubi Qafqazın şərq hissəsi Rusiyanın, həm Cənubi Qafqazın qərb hissəsi və həm də bütünlükdə ölkənin qərbi Osmanlı dövlətinin işğalı altında idi. İsfahan və mərkəzi vilayətlər gilzayi əfqanlarının, Herat və ətrafı isə əbdali əfqanlarının nəzarəti altına düşmüşdü. Xorasan vilayəti Məlik Mahmudun, Kelat və Əbivərd Nadirin, Fars körfəzi sahilləri ərəb şeyxlərinin, Mazandaran və Astrabad isə qacarların əlində idi (1).

Baxmayaraq ki, Təhmasib əcdadlarının hakimiyyətini bərpa etməyi çox arzulayırdı, ancaq onun real imkanları çox məhdud idi. Bununla belə, Təhmasib bu və ya digər cəhdləri göstərirdi. Onun əvvəlcə Fətəli xan Qacarla, sonra da Nadir Əfşarla fəaliyyət birliyi yaratması həmin cəhdlərin ifadəsi idi.

Fətəli xan Qacarın İsfahanın mühasirəsi zamanı Şah Sultan Hüseyn sarayına yardım göstərmək niyyəti məlumdur.Sonradan Fətəli xan Qacar Semnan hakimi olanda Təhmasib Mirzə onu yenidən əfqanlara qarşı döyüşə girməyə cəlb etdi. Təhmasib özü Əşrəfin qurduğu tələdən canını qurtarandan sonra Fətəli xana əfqanlarla döyüşmək əmri verdi. Fətəli xan Qacar bu əmri qəbul etdi və əfqanlarla Tehran yaxınlığındakı İbrahimabadda döyüşə girdi və bu döyüşdə məğlub oldu. Həmin məğlubiyyət Fətəli xanla Təhmasib arasındakı münasibətlərin kəskinləşməsinə səbəb oldu. Məğlubiyyətdən sonra Fətəli xan Qacar Mazandarana qaçdı və oradan da Damğana yollandı. Həmin günlərdə Təhmasibin sərkərdələrindən olan Zülfüqar adlı birisi yenidən qoşun toplamağa başladı. Fətəli xan belə bir qoşun dəstəsinin toplanmasını eşidib onun üzərinə hücum çəkdi. Bu dəstə geri çəkilməklə məhv olmaqdan xilas oldu (2).

Təhmasibin qoşun dəstəsi uzaqlaşandan sonra Fətəli xan Qacar Damğanı tamamilə nəzarət altına aldı. Bundan sonra Fətəli xan Qacar qoşunu ilə Mazandarana yola düşdü ki, orada Təhmasibin malik olduğu qüvvələrə zərbə endirsin və Mazandaranı da tamamilə öz nəzarəti altına alsın. 1726-cı ilin mayında Əşrəf adlanan məntəqə yaxınlığında Təhmasib Mirzənin qoşunu ilə Fətəli xanın qoşunu üz-üzə gəldi. Bu dəfə də Fətəli xanın qoşunu üstün oldu. Tarixçilərin qeyd etdiyi kimi, bu uğursuzluqdan sonra Təhmasib Mirzə vəziyyəti öz xeyrinə dəyişmək üçün azacıq da olsa təşəbbüs göstərməyə çalışdı və bu da öz nəticəsini verdi. O, qullarağası Məhəmmədəli xanı və bir neçə sərkərdəsini Astrabadın şimal-şərqində məskunlaşmış türkmən tayfalarından kömək almağa göndərdi. Fətəli xan Qacar bundan xəbər tutanda qorxuya düşdü və ona görə də Təhmasiblə dil tapmağa üstünlük verdi. Sonra o,Təhmasiblə görüşdü və ondan bağışlanmasını xahiş etdi. Təhmasib and içdi ki, Fətəli xan Qacarı və onun ətrafındakıları əfv edir, Fətəli xanı sadiq nökərliyə qəbul edir və onun həyatına toxunmayacaqdır(3).

Fətəli xan Qacar kifayət qədər bacarıqlı və təcrübəli bir şəxs idi. Onunla birləşmək Təhmasibin imkanlarını xeyli artırdı. Öz tayfası daxilində nüfuz sahibi olan Fətəli xan qacarlar, gəraylılar, hacılılar, kətullular arasından qoşun topladı və onların sayını 18 min nəfərə çatdırdı. Təhmasib ona "vəkilüddövlə" ləqəbi verdi. Bu ləqəbə görə Fətəli xan Qacar dövlət vəkili, yəni, dövlətin ikinci şəxsi hesab olunurdu (4). Fətəli xan Qacar eyni zamanda Təhmasib qoşunlarının sipəhsaları (baş komandanı) təyin edildi.

Fətəli xan Qacar tutduğu mövqeyindən və bacarığından istifadə edərək tezliklə Təhmasibi öz təsiri altına aldı. Atası kimi Təhmasib də qətiyyətli bir şəxs deyildi və onun yumşaq xasiyyətə malik olması Fətəli xan Qacarla da olan münasibətlərində özünü göstərirdi. Əslində, Fətəli xan Qacar söz sahibi idi və onun iradəsi Təhmasib tərəfindən qəbul olunurdu. Şahidlər də bildirirdilər ki, Təhmasib Mirzə özünü şah elan etsə də, sanki Fətəli xan Qacarın yanında məhbus idi. Fətəli xan Qacarı Təhmasiblə birləşməyə sövq edən amillər daha çox onun gələcək planları ilə bağlı idi. Fətəli xan yaxşı başa düşürdü ki, yad qüvvələr tərəfindən devrilən Səfəvi xanədanının yerlərdə tərəfdarları çoxdur. Onları asanlıqla Təhmasib ərafında birləşdirib yad qüvvələrə qarşı mübarizəni genişləndirmək və Səfəvilər hakimiyyətinin əvvəlki nüfuzunu bərpa etmək olar. Belə olan təqdirdə Təhmasib sarayının ikinci şəxsi kimi Fətəli xan Qacarın da nüfuzu və imkanları xeyli genişlənə bilərdi (5).

Onu da qeyd etmək lazımdır ki, Fətəli xan Qacarın Təhmasib yanında geniş nüfuza malik olması, iddialı hərəkətləri Təhmasibin ətrafındakıların heç də xoşuna gəlmirdi. Bunu onlar öz mənafelərinə təhlükə kimi qəbul edir və ona görə də Təhmasibin əhatəsi ilə Fətəli xan Qacar arasında gizli bir çəkişmə yetişməkdə idi. Bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, sonralar Nadir də Fətəli xanın aradan götürülməsində həmin gizli çəkişmədən məharətlə istifadə etdi.

Təhmasiblə Fətəli xan arasındakı münasibətlər müəyyən çərçivə daxilində bərpa olunduqdan sonra Təhmasiblə Nadir arasında münasibətlərin əsası qoyuldu.

Təhmasibin Nadirlə əlaqələr yaratması barədə istər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda bir dolaşıqlıq mövcuddur. “Aləm Ara-ye Naderi”yə görə, Təhmasib məcburiyyət qarşısında Azərbaycandan (Cənubi Azərbaycan nəzərdə tutulur-M.S.) Mazandarana çəkiləndən sonra Fətəli xan Qacarla qoşun toplamağa başlayanda Nadirin igidliyi haqqında səs-soraq şimal əyalətlərə də yayılmışdı. Yenicə qoşun toplamağa başlayan Təhmasib öz ətrafında qılınc tutmaqda məharət sahibi olan insanları görməkdə maraqlı idi. Ona görə məirbaşı Həsənəli bəy adlı əyanını Nadirin yanına göndərdi və onu yanında xidmətə dəvət etdi. Fətəli xan Qacarla birləşəndən sonra hərbi baxımdan güclənən Təhmasib ilk növbədə Xorasan vilayətini azad etmək niyyətinə düşdü. Heç şübhəsiz ki, Nadirin Xorasan hakimi Məlik Mahmudla gərgin münasibətdə olması da Təhmasibə məlum idi. Təhmasib bu məqamdan da yararlanmaq istəyirdi. Nadir ona edilən təklifi qəbul etdi və Təhmasibin yanında xidmətə başlamağa razı oldu. Təhmasib ona xəbər göndərdi ki, yaxınlarda Xorasana doğru yürüşə başlayacaq və həmin yürüşə Nadirin də qoşulmasını arzu edir. Nadirin də Həsənəli bəy vasitəsilə göndərdiyi cavab belə oldu ki, Təhmasibin qoşunlarına qoşulmağa, onun əsgəri kimi yolunda canından keçməyə hazırdır. Nadir onun yanına gəlmiş Həsənəli bəyə çoxlu hədiyyələr verib ehtiramla Təhmasibin yanına yola saldı (6). Amma Xorasanın şimal-şərqində bəzi tayfaların qıyam qaldırması Nadirin Təhmasiblə birləşməsini bir müddət ləngitdi.

L.Lokkarta görə, Nadir, Təhmasib tərəfindən göndərilən Həsənəli bəyi yaxşı qarşıladı, onu Əbivərd hakiminin müavini təyin etdi və Təhmasibə də xəbər göndərdi ki, qoşunu ilə Xorasana gəlsin. Amma Təhmasib bunu qəbul etmədi (7).

Başqa bir tarixi ədəbiyyatda isə göstərilir ki, Nadir Təhmasiblə birləşməzdən əvvəl Molla Ələkbər Xorasani vasitəsilə Təhmasibə

məktub göndərib ona xidmət etməyə hazır olduğunu bildirdi. Bununla da, onlar arasında əməkdaşlığın razılığı əldə edildi (8).

Qeyd etmək lazımdır ki, Məlik Mahmud da Xorasanda ikitərəfli təzyiqin gücləndiyini hiss edirdi. Şərq tərəfdə Nadir günü-gündən güclənir, bölgədəki tayfa və oymaqları öz nəzarəti altına alır və Məşhəd üzərinə hücuma hazırlaşırdı. O biri istiqamətdən isə Səfəvi xanədanının varisi olan Təhmasib Məşhədin qərbində, Mazandaran və Astrabad ətrafında qüvvə toplamaqda idi. Təhmasibin gücləndikdən sonra Məşhəd üzərinə hücum təşkil edəcəyi də gizli deyildi. Mirzə Mehdi xan Astrabadiyə görə, Məlik Mahmud onun ətrafında mürəkkəbləşən vəziyyəti öz xeyrinə dəyişmək üçün Təhmasibin üzərinə qoşun çəkməyi qərarlaşdırdı. Bu məqsədlə qoşunu ilə Cəvin və Esfəreyn istiqamətində hərəkətə başladı ki, orada Təhmasibin qoşununa zərbə vurub onun tərəfindən ehtimal edilən təhlükəni aradan qaldırsın. Amma bu hücum baş tutmadı və Məlik Mahmud tezliklə geri döndü.

Təhmasib həmin vaxtlar Şahrud və Bostam ətrafında idi. Məlik Mahmudun hərəkətə başlaması xəbəri alınanda onun da Fətəli xanın rəhbərliyi altında olan qoşunu Esfəreynə doğru yürüşə başladı. Bu yürüş ərəfəsində Təhmasib, Həsənəli bəyi yenidən Nadirin yanına göndərdi və qoşunu ilə ona birləşməsini təklif etdi (9).

Nadir həmin vaxt Mərv qızılbaşlarına qarşı talançı yürüşlər həyata keçirən tatarların çıxışlarını yatırdıqdan sonra yenicə Əbivərdə qayıtmışdı. Bir neçə gündən sonra o, Şah Təhmasibin qoşunlarının kürdlər məskunlaşan ərazilərə yetişdiyini eşitdi. "Aləm Ara-ye Naderi"də Həsənəli bəyin yenidən Nadirin yanına gəlməsi və ona Təhmasibin qoşunlarına qoşulmasını təklif etməsi haqqında məlumat yoxdur. Həmin mənbəyə görə, Nadir əvvəldən də Şah Təhmasiblə birləşmək niyyətində idi və onun Xəbuşan yaxınlığında olmasını eşidəndə dəstəsi ilə onun düşərgəsinə yollandı (10).

Mirzə Mehdi xanın məlumatına görə, Nadir, Şah Təhmasibə qoşulanda onun düşərgəsində baş vermiş bir ixtilafı aradan qaldırmağa nail oldu. Bu da Fətəli xan Qacarla kürd tayfaları arasında baş verən ixtilaf idi. Fətəli xan kürd tayfalarını itaətsizlikdə günahlandırıb onlara qarşı inamsızlıq yaradırdı. Nadir isə kürdlərin Təhmasibə sadiq olacağını əmin etmək üçün Məhəmməd Hüseyn bəyi şahın yanına vasitəçi göndərdi. Şah Təhmasib kürdlərə qarşı inamsızlığına son qoyduğunu bildirdikdən sonra, Nadir ona qoşulan kürdlərlə birlikdə şah düşərgəsinə gəldi və ona itaət etdiyini bildirdi (11).

Mövcud olan məlumatlara görə, Nadir öz dəstəsi ilə 1726-cı il sentyabrın 2-də Şah Təhmasibə qoşuldu. Həmin ayın 29-da isə onların

birləşmiş dəstəsi Xəbuşandan Məşhədə doğru hərəkətə başladı. Nadirin dəstəsi ilə birləşməsi Təhmasibin həm gücünü, həm də qələbəyə ümidini xeyli artırdı. Məşhədə doğru hərəkətə başlayanda Şah Təhmasib Məlik Mahmuda təslim olmaq təklifi göndərdi. Məlik Mahmud bu təklifi qəbul etmədi və qala daxilində müdafiə işlərini gücləndirdi. Öhdəsində olan toplardan geniş istifadə etməyə çalışması Şah Təhmasibin qoşunlarının qalaya yaxınlaşmasını xeyli yubandırdı.

Məşhəd qalasının mühasirəsi iki ay çəkdi. Nadirin qala döyüşlərində artıq müəyyən təcrübəsi var idi. Ona görə də o, hər gün qala divarlarını öyrənir, düşmənin qüvvələrinin yerləşməsini və imkanlarını nəzərdən keçirir, qala müdafiəçilərinin müqavimətinin sındırılması yollarını arayırdı. Toplara malik olmaması qalanın ələ keçirilməsini çətinləşdirsə də Nadir öz inadından geri dönmək fikrində deyildi. Xüsusilə, Fətəli xan Qacarın qətlindən sonra (bu barədə aşağıda danışılacaqdır) Nadir bütün bacarığını ətrafındakılara nümayiş etdirmək istəyirdi. Məlik Mahmud da qala daxilinə çəkilib passiv müdafiədə dayanmamışdı. Qalanı mühasirəyə almış şah qoşunlarına ciddi zərbə vurmaq üçün Məlik Mahmud münasib məqam arayırdı. Fətəli xan Qacarın öldürülməsi xəbərini eşidəndə Məlik Mahmud nəhayət belə bir məqamın yetişdiyini güman etdi. O, qaladan kənarda şah qoşunları üzərinə hücum etməyi qərara aldı. Bu xəbərə Nadir çox şad oldu və ixtiyarında olan qoşunları qruplaşdırıb Məlik Mahmudla döyüşə hazırlıq tədbirləri həyata keçirdi. Nadirin sərkərdəlik istedadı, döyüşü planlaşdırmaq, qoşunları idarə etmək bacarığı burada da özünü nümayiş etdirdi. Baxmayaraq ki, Məlik Mahmudun topları da var idi, Nadirin dəstələrinin çevikliyi, sürəti, manevrləri topların Məlik Mahmuda verdiyi üstünlüyü də aradan qaldırdı. Məşhədin yarım fərsəngliyində baş verən döyüşdə Məlik Mahmud ciddi zərbə aldı və bir sıra təcrübəli qoşun başçılarını əldən verdi. Sonra da geri çəkilməyə məcbur olub yenidən qalaya sığındı (12).

Məlik Mahmudun ətrafındakıları Nadirin şücaətini görəndən sonra onun qarşısında müqavimət göstərməyin heç də asan olmadığını yaxşıca anladılar. Ona görə də bir sıra əyanlar Məlik Mahmuda etimadsızlıq göstərib Nadirlə əlaqələr yaradılmasına çalışdılar. Belələrindən biri də Məlik Mahmudun sərkərdələrindən olan Pir Məhəmməd adlı birisi idi. Pir Məhəmməd öz adamları vasitəsilə Nadirə xəbər göndərdi ki, əgər ona toxunmazsa Mirəli darvazasının mühafizəçilərini gecə ikən zərərsizləşdirər və qapını Nadirin üzünə aça bilər. Nadir bu fürsətdən yararlanmağı qərara aldı. Razılaşdırılmış gündə Nadir 12 minlik qoşun dəstəsini adı çəkilən darvazanın ətrafında yerləşdirdi. Pir

Məhəmməd doğrudan da mühafizəçiləri zərərsizləşdirərək darvazanı Nadirin üzünə açdı və qısa zaman ərzində Məşhəd bütünlüklə ələ keçirildi. Mənbələrdə ola məlumatlara əsasən, Nadir də döyüşçüləri ilə birlikdə əlində qılınc özünü düşmən üzərinə atdı və düşmən silahlılarına göz açmağa imkan vermədi (13).

1726-cı il noyabr ayının 11-də Məşhəddə Məlik Mahmudun hakimiyyətinə son qoyuldu. Məşhəd ələ keçiriləndən sonra Şah Təhmasib də bura gəldi və İmam Rzanın qəbrini ziyarət etdi. Məlik Mahmudun hakimiyyəti altında qalmaq istəməyən yerli əhali onu sevinclə qarşıladı. Nadir kimi Şah Təhmasib də Məşhədin azad edilməsindən çox sevindi. Bu sevinci ona bəxş edən Nadirin  xidmətlərinin layiqincə qiymətləndirilməsi üçün  Şah Təhmasibin əlində böyük imkanlar yox idi.Ona görə də o, Nadiri özünəməxsus şəkildə mükafatlandırdı və ona öz adını verdi. Nadir şahlıq taxt-tacına sahib olana qədər onu "Təhmasibqulu" adlandırdılar (14). Ona görə bir sıra mənbə və tarixi ədəbiyyatda Nadirin "Təhmasibqulu" kimi təqdim olunmasına da rast gəlmək mümkündür. Təhmasibqulu – Təhmasibin qulu mənasını verir. C.Hanvey bu adın Nadirə verilməsini Məşhədin azad edilməsində onun göstərdiyi xidmətlərlə əlaqələndirir. Bəzi tarixçilərə görə isə ilk görüşlərindən sonra Şah Təhmasib onu qorçubaşı vəzifəsinə təyin etdi və ona Təhmasibqulu xan adı verdi. Hər halda C.Hanveyin irəli sürdüyü fikir həqiqətə daha yaxın səslənir.

Məlik Mahmud məğlub olduqdan sonra xahiş etdi ki, ona toxunmasınlar və İmam Rza ziyarətgahının hücrələrindən birində ibadətlə məşğul olmağa imkan versinlər. Nadir onun xahişi ilə razılaşdı. Amma sonradan məlum oldu ki, Məlik Mahmud Nadirə qarşı müəyyən təbliğat işlərinin aparılması ilə məşğul olur. Onda Nadirin əmri ilə Məlik Mahmud qətlə yetirildi.

Məşhədin alınmasına qədər Nadir daha çox məhəlli döyüşlərlə, yaşadığı bölgənin məntəqələrinin və qalalarının ələ keçirilməsi ilə məşğul idi. Məşhədin ələ keçirilməsi əslində, bütün Xorasan vilayətinin nəzarət altına alınması demək idi. Müəyyən mənada Məşhədin alınmasının strateji dəyəri də var idi. Çünki buradan başlanan uğurlu hərbi fəaliyyət Səfəvilər dövlətinin ərazi bütövlüyünün təmin edilməsinə istiqamətlənən ilk addımlardan biri idi. Məşhəd ətrafındakı döyüşlə Nadir öz bacarığını və iddialarını bir daha ortaya qoydu. Onun buradakı uğuru eyni zamanda həm Şah Təhmasibdə, həm də Səfəvilər dövlətinin təəssübünü çəkən insanlarda Səfəvilər dövlətinin qüdrətinin geri qaytarılmasına bir ümid və inam yaratdı.

Amma burada iki məqama diqqət yetirilməsi Nadirin xarakterinin özünəməxsusluğunun, bəzi cizgilərinin açılması baxımından maraqlıdır. Bunlardan biri yuxarıda qeyd edildiyi kimi, Şah Təhmasiblə Fətəli xan Qacarın Xorasanın şimal-şərqində yaşayan kürdlərlə ixtilafına Nadirin münasibətidir. Nadirin Şah Təhmasiblə birləşməsi bu ixtilafın həlli ilə müşayiət olundu. Şah Təhmasibin və eləcə də Fətəli xan Qacarın kürdlərlə olan münasibətinin aradan qaldırılması və şahın kürdlərlə münasibət qurulmasının vacibliyinə inandırılması Nadirin fikir aydınlığının, iradəsinin nümayişi, mövqeyinin reallaşdırılması əzminin ifadəsi idi. Onun bu qətiyyəti, çox sərt fikir və əməl vəhdətinə malik olması heç şübhəsiz ki, daha iddialı olan Şah Təhmasibi və Fətəli xan Qacarı razı sala bilməzdi. Xüsusilə, Şah Təhmasibin Fətəli xanın mövqeyini deyil Nadirin mövqeyini müdafiə etməsi və kürdlərlə ixtilafa son qoyulması Fətəli xanda ona qarşı ciddi düşmənçilik hissləri yaratdı. Nadir bunu hiss etməyə bilməzdi. Amma onun cəngavər xarakteri bu ixtilafda da üstün gəlməyə imkan verdi. Nadir təhlükədən geri çəkilmədi, əksinə əlinə düşən imkandan bəhrələnərək nəyə qadir olduğunu nümayiş etdirməyə çalışdı.

İkinci məqam, Fətəli xan Qacarın qətli məsələsidir. Həmin qətlin məhz Nadirin Şah Təhmasiblə birləşməsindən sonra baş verməsi və özü də Məşhədin mühasirəsi zamanı tez-tələsik həyata keçirilməsi tarixçilərdə, tədqiqatçılarda müəyyən suallar yaratmaqdadır. Diqqəti cəlb edən məsələ Nadirin bu işdə nə qədər maraqlı olub-olmamasıdır. Nadir iddialı, zəhmli, həyatını qılıncına bağlamış və gələcəyini də başqa cür təsəvvür edə bilməyən bir şəxs idi. Fətəli xan da iddialı idi. Fətəli xanın aradan götürülməsi istənilən halda Nadirin hakimiyyətə uzanan yolunun üzərindəki maneələrdən birinin aradan qaldırılması idi. Amma təcrübəsi hələ məhəlli döyüşlərlə məhdudlaşan və ilk böyük döyüşü olan Məşhəd döyüşü hələ qarşıda ikən Nadirin belə xəyallara düşə bilməsi həqiqət kimi görünmür. Bununla belə, Nadir özünə təhlükə saydığı insanlarla haqq-hesab çəkməyi də bacarırdı. Ola bilsin ki, məhz bu keyfiyyətlərinə görə Fətəli xanın qətlinin və ya onun qətl hökmünün həyata keçirilməsinin Nadirin adı ilə bağlanması cəhdləri vardır. Əgər bu belə idisə Nadirin bu məsələyə marağı Fətəli xan Qacarın güclü rəqib olmasından və onun Nadirin cəngavərlik planlarının həyata keçməsinə mane ola bilməsi ehtimalından irəli gələ bilərdi. Digər tərəfdən, Nadirin belə çəkişmələrə düşməsi və həmin sınaqlardan ziyansız çıxması onun bu çətinliklərə artıq hazır olmasından xəbər verir. Şah Təhmasiblə yenicə tanış olmasına baxmayaraq, iki

təhlükəli ixtilafda şahın ona arxa durması Nadirin öz şəxsiyyətinə diqqəti cəlb etdirə bilməsini də göstərir.

Bu məsələ ilə bağlı bir sıra sualların və fikir müxtəlifliyinin ortaya çıxması mənbələrdə yekdil məlumatların olmaması ilə bağlıdır. “Tarix-e Cahanqoşa-ye Naderi”də olan məlumata görə, Şah Təhmasib və Fətəli xan və onların ətrafında olan qoşun Xorasana doğru yola düşmüşdü. Yolun uzunluğu, havaların soyuqluğu qoşunları əldən salanda Fətəli xan Qacar Şah Təhmasibdən Astrabada qayıtmaq, qoşun üçün zəruri olan təchizatı tədarük edib gətirmək üçün icazə istədi. Onun bu xahişi Şah Təhmasib və onun əyanları tərəfindən şübhə ilə qarşılandı. Onda onun aradan götürülməsi məsələsi ortaya çıxdı. Məsələnin mahiyyəti Nadirə çatdırılanda o bununla razılaşmadı. O, Şah Təhmasibə təklif etdi ki, Fətəli xan Qacar hələlik öldürülmək əvəzinə həbs edilsin və əminlik hasil olmaq üçün Kelata göndərilsin. Məşhəd şəhəri ələ keçiriləndən sonra azad edilsin. Şah Təhmasib ilk baxışdan bu təkliflə razılaşdı. Amma öz niyyətindən də əl çəkmədi. Nadirin bu məsələdə narazılığını bildiyi üçün xəlvəti olaraq Fətəli xanın saxlandığı çadıra adamlarını göndərdi və onu qətlə yetirdi. Mirzə Mehdi Astrabadinin fikrincə, Şah Təhmasibin ətrafı arasında Fətəli xanla nifaqda olanlar da var idi və Fətəli xanın qətlini də onlar həyata keçirdilər (15).

“Aləm Ara-ye Naderi” də olan məlumata görə, Şah Təhmasibin Fətəli xan Qacardan narazılığı var idi. Xorasan yürüşü zamanı Şah Təhmasibin ətrafında bu barədə söhbət düşdü. Şah Təhmasib də bildirdi ki, Fətəli xan mənə dağlar çəkib, Astrabadda olarkən onu əfqanlarla döyüşə göndərmək istədim. Amma getmədi və deyilənə qulaq asmadı. Bu vaxt Nadir, Fətəli xanın başını bədənindən ayırıb onun yanına gətirməyə hazır olduğunu bildirir və bir neçə silahlı ilə onun çadırına girir. Fətəli xan onu yaxın adam saydığından qarşısına silahsız çıxır. Nadirin yanındakılar kürd döyüşçüləri idi və onların da Fətəli xan Qacarla öz ixtilafı var idi. Nadirin əmri ilə onlar Fətəli xanın boynunu vurdular. Fətəli xan qətlə yetiriləndən sonra Şah Təhmasib Nadiri qorçubaşı vəzifəsinə təyin etdi (16).

L.Lokkart digər mənbələrə istinadən Fətəli xan Qacarın qətlini onun Şah Təhmasibə xəyanət etməsi və Məlik Mahmudla birləşmək niyyəti ilə balı olduğunu qeyd edir. Yazılanlara görə, Nadir Fətəli xanın qətlində günahkar deyildi. Belə məlum olur ki, Məşhədin mühasirəsi zamanı Fətəli xan Qacar, Məlik Mahmudla əlaqə yaratmaq istəyib və bununla bağlı ona məktub da göndərib. Həmin məktub Nadir tərəfindən ələ keçirilib və Şah Təhmasibə çatdırılıb. O da hirslənərək

Fətəli xanı hüzuruna çağırtdırıb və həbs etdirib. Sonra da qətlə yetirilib (17).

Müxtəlif tarixi ədəbiyyatda Fətəli xan Qacarın Nadir tərəfindən suçlandırılması, Fətəli xanın qətlinin həyata keçirilməsində Nadirin özünün və döyüşçülərinin iştirakı barədə müxtəlif rəvayətlər və məlumatlar vardır. Amma ilk baxışdan həmin rəvayətlərin çoxunun Nadirin şəxsiyyətinin şübhə altına alınmasına xidmət etdiyini görməmək mümkün deyil.

Fətəli xanla olan ixtilaf aradan qalxan kimi, Nadir başqa bir ixtilaf və intriqa ilə üzləşdi. Ümumiyyətlə, Məlik Mahmudla döyüşdən sonra Nadirin həyatında ciddi hadisələr baş verdi. Bir tərəfdən Şah Təhmasibin ətrafını bürümüş əyanların çəkişmələri və intriqaları, bir tərəfdən də ətrafa səpələnmiş tayfaların rəhbərlərinin qiyam və itaətsizlikləri Nadirin yolu üzərində ortaya çıxan son dərəcə təhlükəli maneələr idi. Nadir elə bir axara düşmüşdü ki, ya bu axarda ona qarşı mövqe tutanların qurbanı olmalı, ya ətrafında baş verən oyunlardan qalib çıxmalı, ya da başladığı işləri tərk edib meydandan uzaqlaşmalı idi. Qarşısına çıxmış çətinliklərdən qorxmaq Nadirin xasiyyətinə xas deyildi. Onun fiziki və əqli keyfiyyətləri, hərbi təşkilatçılığı, hadisələrin gedişinə vaxtında və səmərəli nüfuz etmək qabiliyyəti həyatın növbəti sınaqlarını da dəf etməyə imkan verdi.

Nadirin qarşısına çıxan növbəti sınaqlar isə daha çox Təhmasib Mirzənin qətiyyətsizliyi, ətrafındakı əyanların fitnələrinə uyması ilə bağlı idi. Nadirin kifayət qədər nüfuza və gücə malik olmasından qorxuya düşən həmin əyanlar onu aradan götürmək üçün müxtəlif fitnələrə əl atırdılar. Onlar çalışırdılar ki, Şah Təhmasib Nadiri yanından uzaqlaşdırsın və son nəticədə onun məhvinə fərman versin. Həqiqətdə də bu insanlar Şah Təhmasiblə Nadir arasında ciddi nifaq yaranmasına nail oldular. Nadir hələ Məşhədə gəlməzdən qabaq Qoçan kürdlərindən olan Sam bəyin qızına elçi göndərmişdi və Məlik Mahmudla döyüş başa çatandan sonra Nadir Sam bəyin qızına kəbin kəsdirməyi qərara aldı. Əyanlarının təhriki ilə Şah Təhmasib də Sam bəyin qızına elçi göndərdi və Nadirin deyiklisinə iddiaçı çıxdı. Əyanların çox incə düşünülmüş bu fitnəsi Nadirlə Şah Təhmasib arasındakı nifaqı xeyli dərinləşdirdi. Bu məsələ Nadir üçün əslində şərəf məsələsi idi və malik olduğu imkanları ilə o, şərəfinin tapdalanmasının qarşısını almaq istəyirdi. Nadir yeni bir sınaqla qarşılaşsa da nəinki öz şərəfini qorudu, eyni zamanda ona qarşı qiyam qaldırmaq istəyən qüvvələrə də ciddi dərs verdi.

“Tarix-e Cahanqoşa-ye Naderi”nin müəllifi yazır ki, haqqında danışılan xanımla kəbin kəsdirilməsi üçün Nadir öz elçilərini Xəbuşana göndərdi. Amma Şah Təhmasibin həmin xanıma evlənmək niyyəti aydın olduğundan Nadirin elçiləri geri qaytarıldı. Nadir bunu özünə qarşı təhqir kimi qəbul etdi və ona meydan oxuyan kürdlərin dərsini vermək üçün Xəbuşan üzərinə qoşun çəkdi. Onun qoşunu Xəbuşanın üç fərsəngliyində düşərgə saldı və qarşıdakı döyüş üçün hazırlaşmağa başladı. Mənbədə olan məlumatlara görə, Xəbuşan hakimi Məhəmməd Hüseyn xan, Şah Təhmasibin Nadirin deyiklisinə evlənmək istəyi haqqındakı məktubunu gizlicə Nadirə göndərdi və məsələnin nə yerdə olduğunu ona anlatmağa çalışdı. Nadir vəziyyətdən xəbərdar olsa da onunla birlikdə Xəbuşana qarşı planlaşdırılan yürüşdə iştirak edən Şah Təhmasibə heç nə demədi. Əvəzində Şah Təhmasib gecə ikən düşərgəni tərk etdi və Xəbuşana yollandı. Səhəri gün Şah Təhmasibin yox olmasını eşidəndə Nadir çalışdı ki, bu məsələ səs-küyə səbəb olmasın. Əksinə, Şah Təhmasibin əşyalarının geyimlərini toplayıb bir hissəsini Xəbuşana, bir hissəsini də Məşhədə göndərdi (18).

“Tarix-e Cahanqoşa-ye Naderi”dən fərqli olaraq “Aləm-Ara-ye Naderi”də Təhmasib Mirzənin gecə ikən Nadirin düşərgəsini tərk edib Xəbuşana qaçmasının müəyyən səbəbləri də göstərilmişdir. Bütünlükdə, “Aləm Ara-ye Naderi”də Nadirin Xəbuşan üzərinə hücum etməsinin fərqli səbəbləri göstərilmişdir. Amma sonrakı təsvirlərdən aydın olur ki, ailə məsələsi üzrə Şah Təhmasiblə Nadir arasında yaranan nifaq Xəbuşan üzərinə yürüşün əsas səbəbidir.

“Aləm Ara-ye Naderi”yə görə, Məşhəd azad edildikdən sonra Nadir Xorasanın bütün hakimlərinə və sərkərdələrinə xəbər göndərdi ki, bu vilayətin yeni hakimi, Səfəvi sülaləsinin davamçısı olan Şah Təhmasibdir və onlar Məşhədə təşrif gətirərək yeni hakimə sadiqliyini nümayiş etdirməlidirlər. Kürd tayfalarının hakimləri bu göstərişə əməl etməkdən imtina etdilər və bildirdilər ki, vilayət işləri üzrə sahibi-ixtiyar Nadir olduğu üçün yeni hakimiyyətə tabe olmaq istəmirlər. Nadir yaxşı anlayırdı ki, vilayətdə tam əmin-amanlıq yaratmadan, arxada mövcud olan itaətsizlikləri aradan qaldırmadan və ona qarşı hazırlanan fitnələrə son qoymadan öz planlarını uğurla həyata keçirə bilməz. Ona görə də tezliklə Xəbuşan üzərinə yürüş başlandı. Mənbənin verdiyi məlumata görə, bu yürüşdə 10-12 min seçilmiş döyüşçü iştirak edirdi. Burada göstərilir ki, Nadir Xəbuşanın 2 fərsəngliyində düşərgə saldı. Elə bu düşərgədə olarkən kürd hakimlərindən Məhəmməd Hüseyn xan, Cəfərxan bəy, Şahverdi xan və başqaları Şah Təhmasibə məktub göndərdilər və bildirdilər ki, əgər Şah Təhmasib onlara

qoşulsa 30-40 min kürd ailəsi onun xidmətində dayanacaq, Nadiri məhv edəcək, sonra dəniz kimi dalğalanan qoşunlarla İsfahana üz tutub Əşrəfi taxtdan salacaq və Şah Təhmasibi taxta çıxaracaqlar. Bu məktubda yazılanlara inanan Şah Təhmasib gecə ikən iki qulamı ilə birlikdə düşərgəni tərk etdi və Xəbuşan qalasına qaçdı (19).

Səhəri gün Şah Təhmasibin yoxa çıxmasından xəbərdar olanda Nadir öz sərkərdələrinə onun kürdlər tərəfindən oğurlandığını və bunun üçün tezliklə hücuma başlayıb kürdlərə zərbə endirmək niyyətində olduğunu bildirdi. Kürdlər anlayırdılar ki, Nadirlə döyüş qaçılmazdır və ona görə də onlar da döyüşə hazırlaşırdılar. Kürd döyüşçülərinin rəhbəri Cəfərquluxan bəy güman edirdi ki, 3 min nəfərlik bir dəstə ilə Nadirin əl-qolunu bağlayıb Xəbuşan qalasına gətirə biləcəkdir. Döyüş günü Cəfərquluxan bəylə bərabər Məhəmədrza xan Kəpənəkli, Məhəmmədrza bəy Badlı, Şahverdi xan Keyvanlı və digər xanlar və sərkərdələr öz qoşunları ilə Nadirin düşərgəsi qarşısında döyüş mövqeləri tutdular. Onların ciddi döyüş hazırlığı Nadiri heç də çəkindirmədi və tabeçiliyində olan qoşunu elə qruplaşdırdı ki, qarşı tərəf üçün heç bir şans qalmasın. O, min nəfərlik süvari dəstəsini ayırdı, yerdə qalan döyüşçüləri isə piyada mövqeləri tutmağı əmr etdi. Nadir kürdlərin döyüş imkanlarını təhlil edərək onlara ilk zərbənin artilleriya ilə vurulmasını məqsədəuyğun saydı. Ona görə də ilkin olaraq toplara atəş açmaq əmri verildi. Topların atəş hazırlığını zənburəklər davam etdirdilər. Toplar və zənburəklər öz işlərini görəndən sonra tüfəngçilər irəli çıxdılar. Nadir ona da nail oldu ki, kürd qoşunları dairəvi atəş altına düşdülər və çox ciddi tələfatla qarşılaşdılar. Cəfərquluxan bəy Nadirin piyadaları üzərinə hücuma keçməyə cəhd göstərsə də, qarşıdan atılan güllənin qurbanı oldu və onun ölməsi ilə kürdlər arasına da bir vəlvələ düşdü. Nadir ehtiyatda saxladığı süvari dəstəsinə əmr etdi ki, geri çəkilməkdə olan kürdləri təqib etsin və onlara aman verməsin. Həmin süvari dəstəsi də verilən tapşırığı yerinə yetirdi və Nadir süvarilərinin əlindən çox az sayda kürd canını qurtarıb Xəbuşanda sığınacaq tapa bildi (20).

Baxmayaraq ki, əyanlarının təhriki ilə Şah Təhmasib, Gəraylı, Astrabad və Mazandaran hakimlərinə Nadirə tabe olmamaq barədə məktub göndərmişdi, bununla belə Nadir öz öhdəsində olan qüvvələrlə öz niyyətinə nail ola bildi. Döyüşün səhəri günü Qaracurlu kürd dəstəsi Xəbuşana köməyə gəldi. Nadirin dəstəsi bu dəstənin qarşısını Xəbuşana çatmamış kəsdi və ona ciddi tələfat verərək geri qayıtmağa məcbur etdi (21).

“Aləm Ara-ye Naderi”də olan məlumata görə, Nadir Xəbuşan qalasını mühasirədə saxladığı zaman ona xəbər gətirdilər ki, Xəbuşan hakimi Məhəmməd Hüseyn xan əvvəlcə Nadirə deyiklənmiş, sonra da Şah Təhmasib tərəfindən elçi göndərilmiş bacısını Şirvanqaladan Xəbuşana gətirmək istəyir. Bunun üçün Məhəmməd Hüseyn xan Şirvanqalaya 300 nəfərlik dəstə göndərməyi qərara aldı. Bacısını Xəbuşana gətirməkdə məqsədi sözsüz ki, Nadirə deyil, şah Təhmasibə vermək idi. Məhəmməd Hüseyn xan da güman edirdi ki, Nadir onun Şirvanqalaya göndərdiyi dəstəyə toxunmayacaq. Bu xəbərdən son dərəcə hirslənən Nadir döyüşçülərinin 1000 nəfərini seçib Şirvanqalaya yolladı. Nadirin dəstəsi qala yaxınlığında Məhəmməd Hüseyn xanın göndərdiyi dəstəni haqlayıb ona güclü zərbə endirdi. Bununla da həmin dəstənin Şirvanqalaya daxil olmasına imkan verilmədi. Dəstə üzvlərinin əksəriyyəti öldürüldü, bir çoxu isə əsir götürüldü. Ağır zərbə altına düşmüş kürd dəstəsindən qaçıb canlarını qurtaranlar və baş verənləri Xəbuşana çatdıranlar da oldu (22).

Mənbələrə görə, bu hadisələrin baş verdiyi 1721-ci ilin Novruz bayramı ərəfəsində havalar son dərəcə soyuq keçirdi. Şaxtaların şiddətinə hətta heyvanların da davam gətirə bilmədiyi bir şəraitdə döyüşçülərin də fəallığı xeyli aşağı düşdü. Xüsusən, çöl şəraitində düşərgə qurmuş Nadir qoşunları çox böyük çətinliklərlə üzləşməli oldu.

Nadir Şirvanqalaya yollananda onun qoşunlarının böyük hissəsi Xəbuşan yaxınlığındakı düşərgədə qalmışdı. Xəbuşan hakimi Məhəmməd Hüseyn xan Nadirin uzaqda olmasından və onun Xəbuşan yaxınlığındakı qoşunlarının ağır hava şəraitinə görə çevikliyini itirməsindən istifadə edərək hücuma keçmək qərarına gəldi. Məhəmməd Hüseyn xan 16 minlik qoşunla qaladan çıxıb Xəbuşan yaxınlığındakı Nadir qoşunlarını mühasirəyə aldı. Kürdlərin qəfil hücumu Nadirin qoşunlarını doğrudan da çətin vəziyyətə saldı. Nadirin olmaması və döyüşün düzgün təşkil edilməməsi də vəziyyəti ağırlaşdırdı. Çevik hərəkət etmək imkanını itirən süvarilər də piyada olub onları mühasirə edən kürdlərə müqavimət göstərmək yolunu seçdilər. Bununla belə, Nadir qoşunları kürdlərin bütün istiqamətlərdən güclənən hücumunun qarşısını saxlaya bilmədi. Kürd Şahverdi xanın Nadirin zənburəklərini ələ keçirməsi isə onun dəstəsinin müqavimətini tamamilə zəiflətdi. Nadirin dəstəsindən hətta fərarilik edənlər də tapıldı. Yalnız Nadirin özünü yetirə bilməsi onun dəstəsini tamamilə məhv olmaqdan xilas edə bildi (23).

M.Kazım Mərvinin məlumatına görə, Nadirin Xəbuşana qayıtmasına və dəstəsini məhv olmaqdan xilas etməsinə səbəb gecə narahat

yuxu görməsi olmuşdu. O hələ uzaqdan qum təpələrindən birinin üstünə qalxıb döyüş meydanında baş verənləri müşahidə etdi, dörd tərəfdən mühasirədə olan döyüşçülərinin ümidsiz vəziyyətə düşmələrini görüb dəhşətə gəldi və böyük sürətlə düşmən üzərinə hücum çəkdi.

Öz miqyasına görə bu döyüş çox böyük qüvvələri əhatə etməsə də, Nadirin çox böyük sürətlə həyata keçirdiyi döyüşlərdən biri idi. O ilk növbədə döyüş meydanında baş verənləri nəzərdən keçirib vəziyyəti qiymətləndirdi. Qələbənin əldə edilməsi üçün dəstəsini lazım bildiyi şəkildə qruplaşdırdı. İnandığı sərkərdələrin rəhbərliyi altında sağ və sol cinahlardan hücum edəcək qüvvələri müəyyənləşdirdi, onların qarşısına konkret tapşırıqlar qoydu. Özü qarşıda olmaqla kürd qüvvələrinin üzərinə hücum etdi. Şəxsi şücaəti ilə döyüşçülərini döyüşə daha da ruhlandırdı. Döyüş meydanında Şahverdi xanı görüncə ona tərəf şığıdı, qolunun bütün gücü ilə ona zərbə endirdi. Şahverdi xan irəli verdiyi sipəri vasitəsilə canını Nadirin zərbəsindən xilas edə bildi. Nadir sürətlə çapan atının başını geri qaytarıb özünü yenidən Şahverdi xana yetirənə qədər, Şahverdi xanın ətrafında olan kürd döyüşçüləri onu əhatəyə alıb daha təhlükəsiz mövqelərə uzaqlaşdıra bildilər (24).

Nadirin birləşmiş qoşunları kürdlərin hücumunun qarşısını nəinki saxladı, hətta təşəbbüsü ələ alıb onları geri çəkilməyə məcbur etdi. Daha acı aqibətlə rastlaşmamaq üçün kürd dəstələri Xəbuşan qalasına qaçmalı oldular. “Aləm Ara-ye Naderi”də olan məlumata görə, Nadirin təşkil etdiyi sürətli hücum nəticəsində kürd qüvvələri 45 min nəfər itki verdilər. Xəbuşan qalası yenidən mühasirəyə alındı və onun tezliklə ələ keçirilməsi üçün qala divarlarının özülünün qazılmasına, qala divarlarını aşmaq üçün nərdivanların hazırlanmasına göstəriş verildi. Kürd tayfalarının ağsaqqalları vəziyyətin kəskin şəkildə pisləşdiyini və onlar üçün daha ümid yeri qalmadığını görüb barışıq üçün Nadirin yanına nümayəndələr göndərdilər. Ona çatdırdılar ki, baş verən itaətsizliklərə günahkar Cəfərquluxan bəy idi ki, o da artıq əməllərinin cəzasına çatıb. Ona görə də xahiş edilirdi ki, Nadir döyüşü dayandırsın, Məşhədə qayıtsın və onun ardınca da Şah Təhmasibi Məşhədə yola salsınlar. Nadir bu təkliflə razılaşdı və Xəbuşan kürdlərindən 12 min tümən qənimət alıb Məşhədə döndü. Baş vermiş ixtilafa baxmayaraq Nadir, Şah Təhmasibi Məşhəddə çox yüksək şəkildə qarşıladı, onu şah sarayında yerləşdirdi və xidmətində dayanması üçün xüsusi adamlar ayırdı (25).

Xorasan ərazisində itaətsizlik göstərən qüvvələrə ciddi zərbə vurulması, Şah Təhmasibin yenidən Məşhədə qayıtması və onunla işgüzar münasibətlərin bərpa olunması Nadirdə nəhayət ki, Səfəvi dövləti

sərhədlərinə təcavüz etmiş xarici qüvvələrə qarşı mübarizəyə başlamağa şans verəcəyi ümidi yaradırdı. Amma bu ümidlər çox uzun sürmədi və Nadirlə Şah Təhmasib Məşhədə qayıdandan az sonra Xorasanın bir sıra məntəqələrindən yenə də qiyamlar haqqında məlumatlar alındı. Nadirə verdiyi vədlərə xilaf çıxan kürd tayfaları Dərgəzdə Şah Təhmasibin hakimiyyətini tanımadıqlarını bildirdilər. Şəkər bəy adlı birisi də Dərgəz kürdlərinin qiyamına rəhbərlik edirdi. Onların ardınca Nadir tərəfindən bir müddət salamat buraxılmış Məlik Mahmud vasitəsilə təhrik edilən Mərv tatarları da qiyam qaldırdılar. Nadir güman edirdi ki, qiyamları qardaşı İbrahim xanın rəhbərliyi altında göndərdiyi qüvvə ilə yatıra bilər. Doğrudan da, İbrahim xan öz qüvvəsi ilə Dərgəzə çatıb orada itaətsizlik etmiş kürd tayfalarına ağır zərbə vurdu. Amma Yumrulu və Əli eli türkmənlərinin, habelə Məhəmməd Hüseyn xan və Şahverdi xanın rəhbərliyi altında olan kürd dəstələrinin Dərgəzə gəlməsi ilə İbrahim xanın vəziyyəti mürəkkəbləşdi və onun dəstəsi mühasirəyə düşdü. Qardaşının mühasirəyə düşməsi xəbərini eşidəndə Nadir qoşunlarını toplayıb Şah Təhmasiblə birlikdə Qoçandan keçməklə Dərgəzə yola düşdü. Nadir qoşun dəstəsi ilə elə bir sürətlə düşmənin başı üzərini kəsdirdi ki, kürd qiyamçıları gözlərini açmağa, nə baş verdiyini anlamağa macal tapmadılar. Böyük sürətlə vurulan zərbədən canlarını qurtarmağa çalışan kürdlər İbrahim xanı mühasirə etməkdən əl çəkib geri qaçmağa üz tutdular. Nadirin süvariləri onları təqib etdilər və yenə elə bir sürətlə bu tapşırığı yerinə yetirdilər ki, kürdlər nə baş verdiyini anlamamış Nadir süvariləri onların qarşısına keçib yollarını bağladılar. Kürd dəstələrinin sərkərdələrindən biri olan Süleyman bəy Şixvanlı Nadirin döyüşçüləri tərəfindən əsir götürüldü və Nadirin düşərgəsinə aparıldı. Nadirin əmri ilə onun hər iki gözü kor edildi və bununla da kürdlərin növbəti qiyamı yatırıldı (26).

Bundan sonra Nadir qardaşı İbrahim xanı Mərv tatarlarının qiyamını yatırmağa göndərdi. İbrahim xan ona verilən tapşırığı yerinə yetirib Mərv tatarlarını itaət altına gətirən vaxt yenidən Xəbuşan kürdlərinin qiyam qaldırması xəbəri eşidildi. Nadir yenidən Xəbuşana qoşun çəkdi və qalanı mühasirəyə aldı. Nadirin şücaətindən, döyüşgənliyindən dərs çıxarmayan kürdlər qalaya sığınıb Şadlı və Qaracurlu tayfalarından kömək istədilər. Onlar ümid edirdilər ki, bəlkə bu dəfə Nadirə üstün gəlib onun nəzarətindən xilas ola bilərlər. Amma göstərilən cəhdlər heç bir nəticə vermədi. Nadir Xəbuşanın mühasirəsini möhkəmləndirdi və qaladakıların gəliş-gediş yolunu kəsdi. Qaladakılar da nəhayət anladılar ki, Nadirə qarşı qılınc qaldırmaq elə özlərini

çətin vəziyyətə salmaq deməkdir. Ona görə onlar yenidən Nadir qarşısında diz çöküb barışıq istədilər (27).

Nadir üstün gəldiyi düşmənlərini bağışlamağı da bacarırdı. Artıq neçənci dəfə qiyam qaldırmış kürd tayfalarının hakimlərini və sərkərdələrini verdikləri vədlərə inanaraq əfv etdi. O, Məlik Mahmudu da beləcə əfv etmişdi. Amma görəndə ki, Məlik Mahmud vədinə xilaf çıxaraq müxtəlif tayfaları onun əleyhinə qaldırmağa çalışır, onda Nadir yuxarıda deyildiyi kimi, onun qətlinə göstəriş verdi.

Nadirin apardığı məhəlli xarakterli döyüşlərdən biri də Məşhədin 350 km cənubunda yerləşən Qayin şəhərində baş verdi. Qətlə yetirilmiş Məlik Mahmudun yaxınlarından olan Hüseyn Sultan adlı birisi orada Nadir tərəfindən təyin edilmiş yerli hakimi şəhərdən qovub özünü hakim elan etdi və Nadirdən qisas alacağını bildirdi. Nadir əvvəlcə öz qoşun dəstəsini ora göndərdi. Gözlənilən nəticə hasil olmadıqda özü Şah Təhmasiblə birlikdə Qayinə yola düşdü, Sultan Hüseynin qüvvələrini məğlub etdi və orada asayişi bərpa etdi.

## 2.Nadirin əfqanlara qarşı mübarizəsi

“Tarix-e Cahanqoşa-ye Naderi” əsərinin müəllifinin yazdığına görə, Nadir Qayin şəhərini itaət altına aldıqdan sonra Behdadin qalasına və oradan da Sənqal qalasına, əfqanlara qarşı döyüşməyə yollandı. Onun Behdadin qalasına üz tutması və oradakı əfqanların itaət altına gətirilməsi 1727-ci ilin payızının əvvəllərinə təsadüf edir. Nadirin qoşununun Behdadinə doğru marşı çox isti hava şəraitində icra edilsə də, bu qala ilə bağlı qarşıya qoyulan vəzifə elə bir çətinlik olmadan yerinə yetirildi. Behdadindəki əfqanlar anlayırdılar ki, Nadirin qarşısında duruş gətirə bilməyəcəklər. Onlar təslim olmağı qərara aldılar. Hətta bildirdilər ki, Nadir icazə versə əfqanların başçısı Niyazabad qalasına yollanıb oranın əfqanlarının başçısının Niyazabada yollanmasına icazə verdi.Amma Niyazabada gedənlər geri qayıtmadılar. Onda Nadir Behdadin qalasına hücum edib yalan vədlə onu aldadanlara güclü zərbə vurdu (28).

“Tarix-e Cahanqoşa-ye Naderi”yə görə Behdadin qalası və eləcə də ətrafda olan bir sıra qalalar Nadirə itaət etdiyini bildirib Nadir qoşununun ərzaq və yem təminatına da yardım göstərdilər. Amma Sənqan qalasının böyüyü Nadirə itaət göstərməkdən imtina etdi və Nadir qoşununun təminatında da iştirak etmədi.

Mənbələrdə geniş məlumat olmasa da belə güman etmək olar ki, Sənqan kifayət qədər güclü bir qala idi. Yoxsa, qalanın müdafiəçiləri

Nadirə qarşı cəbhə tutmağa cəsarət etməzdilər. Digər tərəfdən qala ətrafında gedən döyüşlərin bir neçə gün uzanması da deyilənin doğruluğuna bir sübutdur.

"Aləm Ara-ye Naderi" əsərində Nadirin Behdadin əfqanlarına qarşı, habelə onun Qayin şəhəri ətrafındakı döyüşdən sonra birbaşa əfqanlara qarşı yürüşə başlaması xatırlanır. Əksinə, belə məlum olur ki, Sənqan qalasının itaətdən çıxmasını Nadir daha sakit şəraitdə qarşılamış və Sənqəna qarşı yürüş başlamaq üçün xüsusi hazırlıq da görmüşdü. Mənbədə yazılandan o da məlum olur ki, Sənqanın əhalisi əfqanlar deyildilər. Sənqan əhalisi və təbəələri arasında olan daxili çəkişmələr son nəhayətdə qalanın və ətrafının əfqanlar tərəfindən işğalı ilə nəticələndi. Əfqanların yeni dəstələrinin Səfəvi sərhədlərini aşması Nadiri xeyli qəzəbləndirdi və onların əzilməsi üçün qoşun toplanmasına əmr verdi. Qısa müddət ərzində 14 minlik bir qoşun toplandı və Nadir həmin qoşunla Sənqana doğru yürüşə başladı. Sənqana doğru yürüşdə Nadir əvvəlcə Feyzabad qalasının müqaviməti ilə qarşılaşdı. Qala döyüşlərinin aparılmasında artıq lazımi təcrübəyə malik olan Nadir qoşuna Feyzabad qalasını mühasirə etmək tapşırığı verdi. Qala müdafiəçiləri atəşə tutulmaqla bərabər, Nadirin əmri ilə çoxlu sayda nərdivanlar da hazırlandı və həmin nərdivanlarla qala divarları üzərinə hücum gücləndirildi. Divar üstünə qalxan əfşar döyüşçüləri bürc və qala müdafiəçiləri ilə yaxın döyüşə girdilər. Çevik və səmərəli döyüşlərdən sonra Nadirin döyüşçüləri ilkin olaraq qalanın iki bürcünü ələ keçirdilər. Bunun ardınca qalanın darvazaları tutuldu və Nadir qoşunları qalaya daxil olub ona sahib oldular (29).

Sənqan qalasının hakimi Feyzabad qalası uğrunda Nadir qoşunlarının şücaətindən xəbər tutub təşvişə düşdü. Onu gözləyən məğlubiyyətdən canını qurtarmaq üçün Heratı ələ keçirmiş əbdali əfqanlarının rəhbərlərindən olan Zülfüqar xanın və Allahyar xanın yanına çapar göndərdi. Onlara çatdırdı ki, Səfəvi nümayəndəsi olan Şah Təhmasib Nadirin köməyi ilə Sənqan üzərinə yürüşə başlamışdır. Sənqan hakimi xahiş edirdi ki, Nadir qoşununa müqavimət göstərmək və qalanın mühafizəsini möhkəmləndirmək üçün ona köməklik göstərsinlər. Əfqan əyanları Sənqan hakiminin xahişini əvəzsiz qoymadılar. Heç şübhəsiz ki, onlar da Nadirin igidlikləri barədə eşitmişdilər və yaxşı anlayırdılar ki, Sənqan tutulandan sonra növbə tezliklə onlara çata bilər. Herat hakimləri Sənqanın müdafiəsi üçün 20 minlik bir qoşun dəstəsi göndərdilər.

Feyzabad qalasını alandan sonra Nadir Sənqan qalası ətrafında düşərgə saldı və qalanı mühasirəyə aldı. Qalanın mühasirəsinin səmərəli

təşkili üçün Nadir qalanın dövrəsini sektorlara böldü və hər sektoru təcrübəli sərkərdələrdən birinə tapşırdı. Onlara eyni zamanda qala üzərinə hücum təşkil etməyi əmr etdi.Tərəflər arasında gedən döyüş və atışmalar qalanın xeyli yaxşı mühafizə olunduğunu göstərirdi. Çünki Nadir qoşununun bütün cəhdləri heç bir uğur gətirmədi. Ona görə qalanın mühasirəsi də uzanmağa başladı (30).

Nadir yaxşı anlayırdı ki, qalanın mühasirəsinin uzanması düşmənin xeyrinə ola bilər. Ona görə də Nadir daha qətiyyətli döyüşə keçməyi qərarlaşdırdı.O, sərkərdələrini yenidən təlimatlandırdı, onlara verilən tapşırıqları dəqiqləşdirdi. Sərkərdələr qala alınana kimi hətta yemək-içməkdən belə əl çəkəcəklərinə söz verdilər və dediklərinin də üstündə durdular. Tezliklə Sənqan qalası Nadir qoşunlarının əlinə keçdi.

Nadir və onun döyüşçüləri Sənqan qalasının əldə keçirilməsini qeyd etdikləri vaxt Heratdan göndərilən əfqan qoşunlarının yaxınlaşması haqqında xəbər alındı. Bu xəbər çoxlarında, o cümlədən Şah Təhmasibdə bir təşviş yaratdı. Çünki neçə illər idi ki, Herat əfqanların hakimiyyəti altına düşmüşdü və Səfəvi xanədanı tərəfindən Heratın qaytarılması üçün göstərilən cəhdlər də uğursuzluğa düçar olmuşdu. Adlı-sanlı Səfəvi sərkərdələrini məğlub edən əfqanların gəlişi vəziyyətin daha da mürəkkəbləşə biləcəyi ehtimalını yaradırdı. Çoxları əfqanların hücumunun kütləvi qan-qada ilə müşayiət olunacağını düşünürdü.

Nadir isə əfqanların gəlməsi xəbərini təmkinlə qarşıladı.Səfəvi ərazilərinə təcavüz etmiş əfqanların qovulması və onların ələ keçirdikləri əraziləri yenidən geri qaytarmaq planları ilə yaşayan Nadir üçün Heratdan göndərilən dəstə ilə döyüşmək onun potensialının yeni bir nümayişi ola bilərdi. Ona görə də Nadir böyük bir həvəslə Heratdan Sənqan qalasının köməyinə göndərilmiş əfqan dəstəsi ilə döyüşə atıldı. Eyni zamanda o öz sərkərdələrini və qoşun başçılarını da bu döyüşə köklədi. Lazımi hazırlıq addımları atdıqdan sonra Nadir əfqan dəstəsini Sənqan qalasından aralıda qarşılamağı qərarlaşdırdı.

Bu döyüş hər iki tərəf üçün maraq kəsb edirdi. Əfqanlar son illər ərzində Səfəvi qoşunları üzərində asanlıqla qələbə qazandıqları üçün bu dəfə də Səfəvi dəstəsinə asanlıqla qələbə çalacağına və onlara ağır zərbə vuracaqlarına əmin idilər. Əfqanlar bir daha sübut etmək istəyirdilər ki, Herat ətrafı artıq onların mülkiyyətidir və Nadir kimiləri bu istiqamətdə hər hansı bir uğur qazana bilməzlər. Nadir üçün isə bu döyüş məhəlli döyüşlərdən kənara çıxmaq baxımından əhəmiyyət kəsb edirdi. Həmin döyüş böyük planlarla yaşamağın doğru olub-olmadığını nümayiş etdirməli idi. Bu planına uyğun gələn bir taktika da Nadir tərəfindən seçildi.

Nadirin seçdiyi fərqli taktika qarşıdakı döyüşün uğuruna yol açdı. O, qoşunları iki yerə böldü. Seçilmiş əfşar və Mərv döyüşçülərindən ibarət 700 nəfərlik bir dəstəni özü ilə götürdü. Digər qoşun hissəsinin rəhbərlərinə qəti olaraq tapşırdı ki, hətta onun dəstəsinin məhvi xəbərini eşitsələr belə Sənqan ətrafındakı mövqelərini tərk etməsinlər və bununla həm oradakı döyüş mövqelərini, həm də Şah Təhmasibi qorusunlar. Bu tapşırığı verəndən sonra Nadir yola düşdü. Çox güman ki, Nadir əvvəldən döyüşün baş verəcəyi məntəqə ilə tanış olmuşdu və əfqanlara daha səmərəli zərbənin vurulması mümkün olan münasib məkanı müəyyənləşdirmişdi. Əfqanların düşərgə saldığı yerə yaxınlaşanda Nadir dəstəsi ilə yaxınlıqdakı hündürlüyün üstünə qalxıb əfqanları müşahidə etdi. Onların təpə üzərində cəmləşməsi və xeyli yaxında olmaları əfqanların nəzərindən qaçmadı və əfqan sərkərdəsinin əmrinə əsasən üç minlik bir dəstə Nadirin dəstəsi üzərinə hücum çəkdi. Qarşı tərəflər arasında ox, qılınc və tüfənglərdən istifadə etməklə gərgin bir döyüşə rəvac verildi (31).

Əfqanların qüvvə üstünlüyünün qarşısını Nadirin dəstəsinin hərbi və fiziki keyfiyyətləri, döyüşün axarını düzgün qiymətləndirmələri, igidlik və şücaətləri ilə almaq mümkün idi. Nadir də bunu yaxşı anlayırdı. O, döyüşün əsaslandırılmış şəkildə təşkil edilməsinə, öz qüvvələrinin yerləşdirilməsinə, zərurət duyulan anda lazımi mövqelərin gücləndirilməsinə diqqət yetirməklə bərabər, əlindəki təbərzinlə döyüşə atıldı və dəstəsini də qələbəyə ruhlandırdı. Şəxsi keyfiyyətləri ilə Nadir bir-neçə döyüşçünün görə bilmədiyi işi görürdü. Döyüşlərin ən qaynar nöqtələrində Nadirin havada cövlan edən təbərzini onun ətrafındakılar üçün ruh mənbəyi idi. Qarşısına çıxan əfqanlar Nadirin təbərzinindən aman tapa bilmədilər. Nadirin şücaətinin rəhbərlik etdiyi dəstəsi tərəfindən tamamlanması əfqanlara heç bir ümid yeri qoymadı. Bu qanlı döyüşdə sağ qalanlar öz düşərgələrinə qaçmaqla canlarını xilas edə bildilər.

Əfqan sərkərdəsi ilk dəstəsinin əzilməsindən sonra Nadirin üzərinə 3 min nəfərlik daha bir dəstə göndərdi. Yeni və daha böyük başqa bir dəstənin döyüşə atılması əfşar və Mərv döyüşçülərinin vəziyyətini sözsüz ki, çətinləşdirdi. İlk döyüşün yorğunluğu, sıraların müəyyən qədər seyrəlməsi Nadirdə bir nigarançılıq yaratdı. Amma həmişəki kimi, Nadir öz döyüşçülərini qaynar döyüşə səfərbər etdi və onların qarşısına belə bir tələb qoydu ki, ya kişi kimi döyüşməli, ya da qadın paltarı geyinməlisiniz (32).

Nadirin dəstəsi özündə elə bir güc və qüvvə topladı ki, ikinci əfqan dəstəsinə də heç bir şans vermədi və say üstünlüyünə baxmayaraq hə-

min dəstəni əfqanların düşərgəsinə qədər qovdu. Mənbələrin verdiyi məlumata görə, gün ərzində baş verən döyüşlərdə Nadir və onun dəstəsi elə misilsiz şücaət göstərdi ki, hətta Şah Təhmasib onların istiqbalına çıxdı və hədsiz sevincini onlarla bölüşdü.

Səhəri gün döyüşlər yenidən qızışdı. Amma ilk günün döyüşü əfqanların daxilində bir təlaş yaratmışdı. Bu daxili təlaş hisslərini onlar öz sərkərdələrinə bildirməkdən də çəkinmədilər. Əfqanların fikrincə, 700 nəfərlik Nadir dəstəsi belə şücaət göstərirdisə, Nadirin bütün dəstəsinin qarşısında dayanmaq heç mümkün olmazdı. Əfqan sərkərdələri isə bu qorxunu aradan qaldırmaq üçün bildirirdilər ki, indi əfqanlar 8 minlik bir dəstə ilə döyüşə qoşulacaq. Bu dəstənin qarşısını Nadir heç bir vəchlə ala bilməz.

Əvvəlki günün uğursuzluğunun təkrar olunmaması üçün əfqan sərkərdələri öz qoşunlarını xüsusi olaraq qruplaşdırdılar. 4 min nəfərlik tüfəngdarlar dəstəsi cəbhənin ön xəttinə yerləşdirildi. Onların vasitəsi ilə Nadirin dəstəsinə atəş zərbəsi vurulmalı idi. Onların arxasında isə nizələrlə silahlanmış süvari dəstəsi mövqe tutdu. Nəzərdə tutulmuşdu ki, süvarilərin çevik manevrləri atəş hazırlığı ilə başlanan hücumu davam etdirsin və gücləndirsin. Nadirin qoşunları geri çəkilməli olsaydı əfqan süvariləri onları təqib etməli idilər. Əfqanların yerdə qalan döyüşçüləri də ardınca döyüşə qatılmalı idilər (33).

Qarşıdakı döyüşə Nadir də ciddi hazırlaşırdı. Həm döyüş meydanını, həm də əfqan qüvvələrinin döyüş qabağı düzülüşünü diqqətlə müşahidə etdikdən sonra Nadir də qoşunları vəziyyətə uyğun qruplaşdırdı.Cəbhənin sağ cinahına Mərv və Sərəxs döyüşçülərini göndərdi ki, onlara Əhməd xan Mərvi rəhbərlik edirdi. Sol cinah Bektaş Əfşara, kürd Şahverdi xana və seçilmiş döyüşçülərin toplandığı bir alaya həvalə edildi. Nadir isə döyüşün əsas ağırlığını öz üzərinə götürəcək mərkəzdə mövqe tutdu. İmamverdi xan Bayatı, Sərdar xanı, Məhəmmədəli xan Əfşarı üç min nəfərlik süvari ilə bir nöqtədə cəmləşdirdi, pusquları, ehtiyatlandığı döyüş nöqtələrini təcrübəli sərkərdələrinə və qoşun başçılarına tapşırdı. Bütün dəstələrin tapşırılan döyüş mövqelərini ələ keçirməsinə şəxsən nəzarət etdi, hər bir dəstə başçısına iradə və təpər aşılamaqla yerinə yetirməli olduqları vəzifələrin təfərrüatlarını anlatdı. Adı çəkilən dəstələrdən başqa Nadir təcrübəli sərkərdələrdən olan İsmayıl xanı və Mir Abutalıb xanı üç min nəfərlik bir dəstə ilə cəbhənin ön xəttinə göndərdi. Əfqanların hücumuna ilk tuş gələn və itkilərlə üzləşən də bu dəstə oldu. İsmayıl xan döyüşçüləri ilə əfqanların ilk hücumlarına sinə gərib onların qarşıya irəliləməsinə yol vermədi. Qısa zaman ərzində geniş vüsət alan döyüşdə Nadirin sağ

cinahı da əfqanların hücum həmləsinə məruz qaldı. Şəxsən döyüşdə iştirak etməklə bərabər döyüş meydanını da daim nəzarət altında saxlayan Nadir sağ cinahın ciddi müqavimətlə rastlaşdığını və zəiflədiyini gördükdə həmişəkeşik dəstəsindən min nəfər döyüşçüyə həmin istiqamətdə irəliləməyi əmr etdi. Həmişəkeşik dəstəsinin döyüşçülərinin cəbhə xəttinə atılması ilə əfqanlardan 500 nəfərin məhv edilməsi çox da uzun çəkmədi. Az sonra isə həmin istiqamətdə təşəbbüs bütünlüklə Nadir qoşunlarının əlinə keçdi və orada döyüşə qoşulan əfqanların geri çəkilməkdən başqa çarəsi qalmadı (34).

Döyüşdə vəziyyətin dəyişə biləcəyindən ehtiyatlanan əfqan qoşunlarının rəhbəri Musa xan özünün 4 minlik süvari dəstəsini də irəli çıxardı və onlara sürətli hücum əmri verdi. Yəni, dəstənin döyüşə qoşulması cəbhənin bir hissəsində yenidən əfqanların üstünlüyünü yaratdı və hətta Nadirin döyüşçüləri onların qarşısından xeyli geri çəkilməli oldular. Həmin vəziyyət Nadirin diqqətindən qaçmadı. O, İsmayıl xanı və Mir Abutalıb xanı sürətlə irəliləyən əfqanların qarşısını kəsməyə göndərdi. Bununla əfqanların qarşısını etibarlı şəkildə kəsiləcəyinə əmin olmayan Nadir bir alayla bərabər, özü də həmin istiqamətdə döyüşə qoşuldu (35).

Bu döyüşdə Nadir daha çox müdafiə taktikasına üstünlük verdi. Çünki sayca üstün olan və kifayət qədər döyüş təcrübəsinə malik olan əfqanlara lazımi itki yetirmədən qalib gəlmək mümkün deyildi. O, döyüşü elə qurdu ki, bütün istiqamətlərdə əvvəlcə əfqanların döyüş üstünlüyü aradan qaldırıldı, onların Nadir qoşunlarının daxilinə doğru irəliləməsi dayandırıldı. Axşama qədər davam edən döyüşdə əfqan qüvvələri açıq-açığına məğlub olub geri çəkilməsələr də heç bir uğur da əldə edə bilmədilər. Əksinə, sayca az olan Nadirin dəstəsinin sərt müqaviməti ilə rastlaşdılar, vaxt ötdükcə isə sıralarının seyrəlməsinin şahidi oldular.

Etiraf etmək lazımdır ki, Nadir də qarşısında dayanan əfqanların gücünü və əzmkarlığını gördü. Anladı ki, növbəti gün döyüşlər daha gərgin xarakter ala bilər.Ona görə də bu ciddi sınaqdan qələbə ilə çıxmağın yollarını aradı. Belə bir vaxtda ona xəbər çatdırdılar ki, əfqanlar Nadir qoşunlarının müqavimətini qıra bilməyəcəyini anlayıb döyüş meydanını tərk ediblər. Onlar Herata doğru üz tutmuşdular. Bu xəbər həm Nadiri, həm onun sərkərdələrini, həm də döyüşçülərini çox sevindirdi. Nadir sərkərdələrini və fərqlənən döyüşçülərini mükafatlandırmaqla bərabər, onlara bəyan etdi ki, Məşhədə qayıdıb qoşun toplanmasını və təchizini başa çatdırandan sonra Herata üz tutacaq və həmin şəhəri də əfqanlardan azad edəcəkdir.

Heratı ələ keçirmiş əbdali əfqanları ilə döyüş Nadirin növbəti ciddi bir döyüşü idi.Amma həmin döyüşə qədər Nadir yenidən bir sıra sınaqlarla üzləşməli oldu.

Sənqan ətrafındakı döyüşdən sonra Nadir Məşhədə qayıdıb bir müddət istirahət etdi. Həmin vaxt ərzində əsas diqqəti qoşunların toplanmasına və təminatına yönəltdi. O, yaxşı görürdü ki, əfqanlar ciddi düşməndir və onlara qalib gəlmək üçün ciddi hazırlıq görülməlidir. Sonuncu döyüş də bunu göstərirdi. Lakin Nadiri düşündürən təkcə səfər hazırlığının aparılması deyildi. O eyni zamanda ətrafındakı əyanlar tərəfindən təhrik edilən Şah Təhmasibin müqavimətini qırmalı idi. Çünki mühüm səfər ərəfəsində şahın mövqeyi tamam başqa idi. O, Herat istiqamətində deyil, İsfahan istiqamətində hərbi yürüşə başlanmasını tələb edirdi. Şah Təhmasib və onun əyanları tezliklə şah sarayına sahib olmaq və saray dəbdəbəsində yaşamaq istəyirdilər. Şah Təhmasibin istəyi ilə isə Nadir razı deyildi və bunun da öz səbəbləri var idi. Daha geniş hərbi təcrübəyə və təfəkkürə malik bir şəxs kimi Nadir şübhə etmirdi ki, qoşunlar İsfahana doğru hərəkətə başlayan kimi Heratı tutmuş əbdali əfqanları Məşhədə hücum edə bilərlər. Bu isə bir tərəfdən Xorasan kimi mühüm əhəmiyyətə malik vilayətin əldən getməsinə, digər tərəfdən isə Nadir qoşunlarının iki əfqan qoşunu arasında qalmasına səbəb ola bilərdi. Xorasan vilayətinin itirilməsi isə Səfəvi dövlətinin dirçəldilməsi üçün ələ keçirilmiş kiçik imkanları da məhv edə bilərdi.

Nəhayət, Nadir Şah Təhmasibi inandıra bildi ki, İsfahan sarayına sahib olmaq üçün birinci İsfahanı deyil, Heratı tutmaq lazımdır. Onda qərara alındı ki, Nadir qoşunlarla Herata istiqamət götürsün. Şah Təhmasib isə Nişapura yollanmalı və orada lazımi sayda qoşun topladıqdan sonra Nadirə kömək üçün Herata gəlməli idi. Bundan sonra Nadir qoşun dəstəsi ilə Herata yollandı. O, Məşhədi tərk edəndən sonra əyanlar yenidən Şah Təhmasibi öz qərarından döndərdilər. Onlar şahı məcbur etdilər ki, Nadirə yardım göstərməkdən imtina etsin. Belə olanda o, Nadirə xəbər göndərdi ki, Nişapura deyil, Səbzəvara getməyi qərara alıb.

Nadirə qarşı fitnə quran qüvvələr bununla da kifayətlənmədilər. Onlar qərara aldılar ki, Nişapurla Səbzəvar arasında məskunlaşan Bəğayiri tayfasına divan tutsunlar. Çünki bu tayfa Nadiri müdafiə edirdi və həmin tayfanın talan edilməsi Nadiri də özündən çıxara bilərdi. Nadir Herata tərəf hərəkət etdiyi zaman doğrudan da Səbzəvar ətrafında toplanmış olan dəstələr Bəğayiri camaatını soyub talamağa başladılar. Bəğayiri camaatı onları təhdid edən təhlükənin xeyli ciddi

olduğunu görüb şah qoşunlarına qarşı müxalifət yaratdılar və müqavimətə əl atdılar. Eyni zamanda baş verənlər barədə Nadirə xəbər göndərdilər. Bu xəbəri alan kimi Nadir qoşunları ilə yenidən Məşhədə döndü. Əbdali əfqanları da bundan istifadə etdilər. Musa xanın rəhbərliyi altında olan əbdali əfqanları Biyarcümənd və Qayinə hücum edib oraları talan etdilər. Əbdali əfqanlarının bu yürüşləri Nadirin gümanlarının doğru olduğunu sübut etdi. O, Şah Təhmasibin yanına adam göndərib əbdali əfqanlarının Heratdan qovulmasına kömək göstərilməsini xahiş etdi. Nadir eyni zamanda Bəğayiri camaatına divan tutulmasını səbəblərini aydınlaşdırmağa çalışdı (36).

Şah Təhmasib Nadirin təkliflərini qəbul etmədi. Yol boyu suyun və yemin olmamasını bəhanə edərək Şah Təhmasib yanındakı qoşunla Nadirlə birləşməkdən imtina etdi. Bu azmış kimi əyanlarının təhriki ilə Şah Təhmasib Xorasan hakimlərinin hamısına fərman göndərdi ki, Nadirin əmrlərinə qulaq asmasınlar.

Şah Təhmasib tam ciddiyəti ilə Nadirə qarşı mövqe tutdu. Nadir əfqanlara qarşı döyüşə başlamazdan əvvəl bu yeni qruplaşmanı zərərsizləşdirməyi qərara aldı. O öz qüvvələri ilə Şah Təhmasibin düşərgə saldığı Köhnə Sənqan qalasına gəldi. Şah Təhmasib qoşunu ilə qalaya sığınıb Nadirə müqavimət göstərdi. Nadir əvvəlcə qalanı top atəşinə tutdu. Qala daxilində yerləşən qoşun dəstəsi qaladan bayırda Nadirin dəstəsi ilə açıq döyüşə girdi. Amma göstərilən bütün cəhdlərə baxmayaraq şah qoşunu Nadirin hücumunun qarşısını ala bilmədi. Şah korpeşiman şəkildə Nadirin düşərgəsinə gəlib onunla birləşməyə məcbur oldu (37).

Amma bununla da əbdali əfqanlarının üzərinə hücum etmək üçün münasib şərait yaranmadı. Şah Təhmasiblə Nadir Məşhədə qayıdandan sonra Təkə, Yumurlu və Sarılı türkmənlərinin qiyam qaldırmaları xəbəri gəldi. Nadir çox güman ki, əbdali əfqanlarına qarşı yürüş hazırladığı üçün həmin qiyamın yatırılmasına özü yox, qardaşı İbrahim xan getdi. Lakin İbrahim xan qiyamçıların öhdəsindən gələ bilmədi və belə olanda Nadir özü həmin məntəqəyə yollanmalı oldu. O, türkmən tayfalarına ağır zərbə endirib geri qayıtdı. Bundan sonra Nadir Astrabad və Mazandarana yollandı. Nadirin qətiyyəti sayəsində bu bölgələrdə də sabitlik təmin edildi. 1729-cu ilin mart ayında Nadir yenidən Məşhədə qayıtdı və yenidən Herat üzərinə hərbi yürüş üçün hazırlığı davam etdirdi.

Nadirin səfər hazırlığına ilk növbədə yeni qoşun toplanması daxil idi. Məşhəddə olarkən bütün Xorasan vilayətindən qoşun toplanmasına əmr verdi. Bir ay ərzində Nadirin ətrafında 20 minlik qoşun top-

landı. Həmin qoşun əsasən əfşar, Bəğayiri boylarından, mərvlilərdən və kürdlərdən təşkil edilmişdi. Qoşunun toplanması ilə bərabər onun təchizi də diqqət mərkəzində idi. Nadir qısa zaman ərzində 50 ədəd qala vuran top tədarük etdi. Onun eyni zamanda 400 dəvəyə yüklənmiş zənburəkləri var idi. Bütün artilleriyaya 4 min topçu xidmət göstərirdi (38).

"Tarix-e Cahanqoşa-ye Naderi"də olan məlumata görə, Nadir qoşunu ilə 1729-cu ilin Novruz bayramından 46 gün sonra əbdali əfqanları ilə döyüşə yola düşdü(39). Nadir qarşıdakı döyüşün son dərəcə ciddi olduğunu reallıqla qiymətləndirirdi. Ona görə də hər bir məsələyə çox diqqətlə yanaşırdı. Məhz bunun üçün idi ki, Kafir qala ətrafında düşərgə salandan sonra Niyazqulu bəy Qacarın rəhbərliyi altında 500 nəfərdən ibarət qarovul dəstəsi yaratdı və qoşunun mühafizəsini bu dəstəyə tapşırdı.

Nadirin hərbi yürüşü xəbərini eşidən kimi əfqanlar da ciddi hazırlığa başladılar.Onlar Nadirin gücünü artıq görmüşdülər və yaxşı anlayırdılar ki, qarşıdakı döyüşdə ya qələbə qazanmalı, ya da məhv olmalı idilər. "Aləm Ara-ye Naderi"də olan məlumata görə, qısa zaman ərzində Fərəh hakimi Zülfüqar xanın, Allahyar xanın, Qəni xanın və başqa əfqan xanlarının və hakimlərinin rəhbərliyi altında 60 minlik qoşun toplandı. Bu qoşun Nadirlə üzləşmək üçün Herat qalasından çıxıb Kafirqalaya doğru üz tutdu (40). Tarixi ədəbiyyatda isə əfqan qoşunlarının sayına daha ehtiyatlı yanaşılır.

"Tarix-e Cahanqoşa-ye Naderi"nin məlumatına əsasən, əfqanlar özlərinin min nəfərlik bir dəstəsini irəli çıxarmışdılar. Güman etmək olar ki, irəli çıxarılmış həmin dəstənin vəzifəsi qoşunların mühafizəsi idi.Bu dəstənin xeyli irəli çıxması barədə məlumat Nadirə də çatmışdı. Əfqan dəstəsinin neytrallaşdırılması və onun Nadirin dəstəsindən uzaqlaşdırılması üçün 3-4 min nəfərlik dəstəyə tapşırıq verildi. Amma dəstə təyin edilən məntəqəyə çatanda əfqanların geri çəkilməsinin şahidi oldu (41).

"Aləm Ara-ye Naderi"də də əfqanların min nəfərlik dəstəsinin irəli göndərilməsi təsdiq olunur və hətta həmin dəstənin Musa bəyin rəhbərliyi altında olması da bildirilir. Amma burada olan məlumata görə, Musa bəyin qarovul dəstəsi Niyazqulu bəyin rəhbərliyi altında olan Nadir qoşununun qarovul dəstəsi ilə rastlaşanda onlar arasında döyüş baş verdi. Niyazqulu bəy əvvəlcə geri çəkilmək məcburiyyətində qalsa da, sonra qətiyyət və iradə göstərərək əfqanları qovmağa nail oldu. Onun bu uğuru Nadir tərəfindən də təqdir olundu (42).

Mənbələrdə olan məlumatların tutuşdurulması Nadirin əfqanlarla müqayisədə say azlığına malik olmasını göstərir. Özündən xeyli üstün olan və təcrübə baxımından da geri qalmayan əfqanlara qalib gəlinməsi isə Nadirin hərbi istedadının daha bir nümunəsi idi.

Əfqanlar Kafirqala ətrafında düşərgə salıb onun divarları yaxınlığında səngərləndilər. Onlar güman edirdilər ki, bir tərəfdən səngərlənmələri, digər tərəfdən də Kafirqalanın divarları onların müqavimətini artıracaqdır. Əfqanlar şübhə etmirdilər ki, döyüşü uğurla başa çatdırıb yeni ərazilər də ələ keçirəcəklər.

Əfqanların münasib mövqe seçmələri Nadirin nəzərindən qaçmadı və həyata keçirdiyi döyüşqabağı manevrlə onları bu üstünlükdən məhrum etdi. O, qoşununu əfqan mövqelərinə doğru deyil, həmin mövqelərdən aralı olan bir sahəyə çıxardı və bununla əfqanları da açıq döyüşə cəlb etməyə çalışdı. Üstün qüvvələri ilə Nadirə qələbə çalmaq ümidində olan əfqanlar Nadirin bu planını qəbul etməli oldular (43) və bununla da uğursuzluqlarının əsasını qoydular.

Çox da uzaq olmayan keçmişdə Səfəvi qoşunlarının elə Kafirqala yaxınlığında əfqanlar tərəfindən məğlubiyyətə uğradılması həm Nadirin, həm də döyüşçülərinin yadından çıxmamışdı. Nadir görürdü ki, əfqanların xofu onun döyüşçülərində bir təşviş yaradıbdır. Bu təşvişi aradan qaldırmaq və qoşunu ağır döyüşə səfərbər etmək üçün Nadir döyüşçüləri arasında söhbət apardı. O, Qurani-Kərimdən müqəddəs surələri döyüşçülərə şərh edərək bildirdi ki, düşmənə arxa çevirib sağ qalmaqdansa, döyüşdə ölmək daha şərəflidir. Əfqanların çox olması onların üstün olması demək deyil. Yalnız igidliklə, şücaətlə döyüşdə üstün gəlmək olar. Nadir, əfşar, qaracurlu və mərv döyüşçülərini təpər və rəşadət göstərməyə, əfqanlar qarşısında yenilməməyə səslədi, onları döyüşdə ad çıxarmağa çağırdı (44).

Nadirin öz qoşun dəstəsini mənəvi-psixoloji baxımdan döyüşə necə hazırlamasının təfərrüatları barədə mənbələrdə məlumat əldə etmək mümkün olmasa da onun bu məsələyə ciddi əhəmiyyət verdiyi məlumdur. Bu istiqamətdə onun etdiklərinin nəticəsi də Nadirin sərkərdəlik keyfiyyətlərinin maraqlı məqamlarındandır.

Qələbənin əldə edilməsi üçün Nadir yalnız qoşununu ruhlandırmaqla kifayətlənmirdi. Qoşun dəstəsinin qruplaşdırılması və yerləşdirilməsi, onun döyüş taktikası Nadirin döyüşçülərin ruhlandırılması ilə bağlı apardığı işləri tamamlayırdı. Əfqanlarla döyüşdə uğur qazanmaq üçün Nadir yeni toplara və tüfənglərə böyük üstünlük verdi və ilk zərbənin də məhz atəşlə vurulmasını qərarlaşdırdı. Atəş zərbəsinin ardınca nizəatanlar döyüşə qoşulmalı idilər. Çevik müdafiənin təşkili və

düşmənə sürətli zərbənin vurulması üçün süvarilərə də aydın tapşırıqlar verildi. Qoşun dəstəsinin sol cinahı Hacıxan bəy Əfşarın rəhbərliyi altında olan süvari dəstəsinə tapşırıldı. Sağ cinahın kimə tapşırıldığını söyləmək çətindir. Amma məlumdur ki, Nadir özü qvardiyası ilə birlikdə sağ cinahın arxasında mövqe tutmuşdu. Çox güman ki, Nadir əfqanların əsas zərbəsinin məhz bu cinaha yönələ biləcəyini hiss edirdi və ona görə qvardiyası ilə həmin cinahı daha da möhkəmləndirdi. Əfqanlara gəlincə isə Kafirqala yaxınlığına çıxmış qoşunlar 4 dəstəyə bölünmüş 12 min nəfərlik süvaridən, 4 min piyadadan və 20 ədəd topdan ibarət idi. Əfqanların 25 min nəfərdən ibarət ikinci qoşun dəstəsi isə Fərəhdən hərəkətə başlayıb Kafirqalaya doğru istiqamət götürmüşdü (45).

Nadirlə əfqanlar arasında Kafirqala yaxınlığındakı döyüş 1729-cu il mayın 28-də baş verdi (46).

İstər "Tarix-e Cahanqoşa-ye Naderi"də, istərsə də "Aləm Ara-ye Naderi"də bu döyüşün ilkin mərhələsinin təsvirində oxşarlıq vardır. Amma döyüşün gedişi haqqında fərqli məlumatlar da mövcuddur. Nadir şah tarixinin tədqiqatçıları daha çox "Tarix-e Cahanqoşa-ye Naderi"yə istinad etmişlər. Həmin mənbəyə əsasən, döyüş əfqanlar tərəfindən başlandı. Onların say üstünlüyünə malik olduğu nəzərə alınsa faktın doğruluğuna elə bir şübhə qalmır. Çox güman ki, Nadir özü də əfqanların ilkin olaraq hücuma keçməsinə imkan verə bilərdi. Bununla Nadir əfqanların hansı taktika işlətməsini qiymətləndirə və öz qoşununu da bu taktikaya uyğun olaraq istiqamətləndirməyə fürsət tapardı. Tarixi ədəbiyyata görə, Nadirin qoşunlarının sağ cinahında başlanan döyüşün ilk anlarında piyadalara güclü zərbə endirildi. Sonradan Nadir süvarilərinin döyüşə atılması ilə vəziyyətin düzəldiyi bildirilir (47). Amma "Tarix-e Cahanqoşa-ye Naderi"də olan məlumatdan başqa nəticə də çıxarmaq mümkündür. Bu mənbədə deyilir ki, əfqanlar əvvəlcə sağ cinaha həmlə etdilər, piyadalar sağ cinahın köməyinə gəldilər və müharibə qızışdı (48).

Buradan belə bir qənaətə gəlmək olar ki, əfqanlar əvvəlcə Nadirin dəstəsinin sağ cinahının süvarilərinə zərbə vurmaq istədilər. Əfqanların bu cinahda uğurlu döyüşə başlamalarını tarixçilər də təsdiq edirlər.Onların ilk həmləsinin kifayət qədər nüfuzedici olması, Nadirin dəstəsinə təsirli zərbə vura bilməsi Nadiri məcbur etdi ki, bu cinahda döyüşə əlavə qüvvələr cəlb etsin. Mənbələrin məlumatına görə, hətta piyadaların hücuma qoşulması da əfqanların qarşısını saxlamağa bəs etmədi. Əfqanlar Nadirin piyadalarına ağır zərbə vurdular və əlbəyaxa döyüşə girişdilər. Bu zərbəyə taqət gətirməyən piyadalar geri çəkil-

mək məcburiyyətində qaldılar. Onların geri çəkilməsi ərafdakı döyüşçülərə də ağır təsir göstərdi.

Döyüşün belə başlanması heç şübhəsiz ki, Nadir üçün gözlənilməz deyildi. Sayca çox olan əfqanların öz üstünlüklərini nümayiş etdirmələri gözlənilən idi. Nadirin məharəti onda idi ki, döyüşün gedişini diqqətlə izləyir, baş verənlərə vaxtında müdaxilə edir və əlavə qüvvələrin döyüşə yeridilməsi ilə bu və ya digər istiqamətdə düşmənə təsirli zərbə vururdu. Mənbələrdə Nadirin dəstəsinin sağ cinahında baş verənlərə daha çox yer ayrılmasından belə güman etmək olar ki, döyüşün taleyi də əsasən həmin cinahda həll edildi. Nadirin də orada döyüşə girməsi və hətta qılçasından nizə yarası alması da bunu deməyə əsas verir.

Sağ cinahda vəziyyət mürəkkəbləşəndə Nadir özü də o istiqamətdə döyüşə girdi, şücaəti və ildırım sürətli fəaliyyəti ilə döyüşçülərini qələbəyə ruhlandırmaqla bərabər, əfqanların əsas qüvvəsinə ciddi zərbə vurdu.Qarşı tərəfin əsas sərkərdələrindən birinin öldürülməsi isə əfqanlar arasında vəlvələ saldı və onlar geriyə üz tutdular (49).

"Aləm Ara-ye Naderi"də bu döyüşün bəzi digər təfərrüatları ilə də rastlaşmaq mümkündür. Həmin mənbədə verilən məlumata görə, Nadirin əmisi Bektaş xan da bu cinahda döyüşürdü. Əfqanların güclü hücumunun qarşısının alınmasında Niyazqulu bəy Qacar və Səlim bəy Mərvi xüsusi igidlik göstərdilər. Nadirin qoşun dəstələrinin düşdüyü mürəkkəb vəziyyətə baxmayaraq sonsuz şücaət nümayiş etdirmələri, əfqanları geri çəkilməyə məcbur etməsi bu mənbədə də öz təsdiqini tapmışdır. Mənbədə o da bildirilir ki, Nadirin əmisi Bektaş xan döyüşün gedişində aldığı ağır yaradan həlak oldu. İstər əmisini, istərsə çoxlu sayda döyüşçüsünü itirsə də, Nadir ağır döyüşdən qalib çıxdı. Onun və rəhbərlik etdiyi qoşunun uğurlu qələbəsi Şah Təhmasib tərəfindən böyük sevinclə qarşılandı və onun tərəfdən döyüşün qəhrəmanlarına bahalı hədiyyələr paylandı (50).

Əfqanlar Kafirqala ətrafındakı düşərgəyə çəkilməklə ilk günün döyüşünü başa vurdular. Tamam başqa ümidlərlə yaşasalar da, Nadirin müqavimətini qıra bilməmələri və digər tərəfdən də ağır itkilərlə rastlaşmaları əfqanların vəziyyətini xeyli ağırlaşdırdı. Kafirqala ətrafında su ehtiyatlarının olmaması əfqanların qüvvələrinin bərpasını daha da çətinləşdirdi. Onda əfqanlar bir qədər geri çəkilməyi qərarlaşdırdılar. Gecə ikən onlar hərəkət edib Heratın yaxınlığında düşərgə saldılar. Səhəri gün tərəflər döyüş aparmaqdan çəkindilər. Görünür, Nadir də qoşuna qüvvələrin bərpası üçün möhlət verməyi üstün tutdu.

Amma Nadir əbdali əfqanlarına qarşı mübarizəni sona qədər başa çatdırmaq əzmində idi (51).

Əfqanlar da döyüşü davam etdirmək əzmində idilər.Bir günlük istirahətdən sonra onlar qüvvələrini həm bərpa etdilər, həm də yenidən qruplaşdırdılar. “Tarix-e Cahanqoşa-ye Naderi”yə görə əfqanlar həm toplardan istifadəyə diqqəti artırdılar, həm də qüvvələrini iki dəstəyə böldülər (52). “Aləm Ara-ye Naderi”yə görə isə əfqanlar öz qüvvələrini dörd dəstədə qruplaşdırdılar. 12 min nəfərlik birinci dəstəyə Allahyar xan, 12 min nəfərlik ikinci dəstəyə Zülfüqar xan, üçüncü dəstəyə Əman bəylə Yaqub xan Səgəzay, 10-12 min nəfərlik piyada dəstəyə isə Musa xan rəhbərlik edirdi. Eyni zamanda Musa xanın tabeliyinə bir ehtiyat dəstə də verilmişdi ki, zərurət yarandığı halda bu və ya digər istiqamətlərdə döyüşə atılsın (53)

Qarşıdakı döyüş hər iki tərəf üçün həlledici əhəmiyyət kəsb edirdi. Hansı taktikanı seçməmişdən əvvəl Nadir düşmənin döyüşqabağı mövqelərini öyrəndi. Bunun üçün tanınmış sərkərdələrindən olan Niyazqulu bəy Qacarı, Səlim bəy Mərvini, Allahqulu bəy Əfşarı, Canəli bəyi və yüz nəfərlik bir dəstəni özü ilə götürüb əfqanlara yaxın olan bir nöqtəyə yollandı, oradan əfqanların qüvvələrini və döyüş mövqelərini müşahidə etdi. Nadir əfqanların döyüşqabağı düzülüşünə əsasən hansı taktikaya əl ata biləcəklərini müəyyənləşdirdi. Nadir belə bir qənaətə gəldi ki, əfqanlar uğur qazanmaq üçün bütün istiqamətlərdən hücuma keçməyi planlaşdırırlar. Onların bu niyyəti Nadirə də qoşununu müvafiq şəkildə qruplaşdırmağa imkan verdi. O, topçuları, zənburəkçiləri və tüfəngdarları dörd dəstəyə böldü və hər dəstəni bir istiqamətdə yerləşdirərək qoşunun dörd tərəfdən atəş müdafiəsini təmin etdi. Əfqanlar hansı istiqamətdən hücum edərdilərsə, həmin istiqamətdən Nadir qoşununun atəş zərbəsi ilə qarşılaşmalı olacaqdılar. O, üç min nəfərlik xüsusi bir dəstə yaradıb qoşunların mərkəzində yerləşdirdi və həmin dəstəyə tapşırıq verdi ki, əfqan süvariləri hansı istiqamətdən tüfəngdarların üstünə hücum edərsə, o istiqamətdən əfqanlara qarşı döyüşə qoşulsun. Bütünlükdə isə, Nadir öz qoşununu beş xətt üzrə eşelonlaşdırdı. Ön sırada toplar, ikinci sırada zənburəklər, üçüncü sırada cəzayirçilər (ağır tüfənglərlə silahlananlar), dördüncü sırada tüfəngdarlar (yüngül tüfənglərlə silahlananlar) və nəhayət beşinci sırada isə piyadalar mövqe tutdular. Mənbələrdə göstərilməsə də çox güman ki, süvarilər də arxa sıralarda mövqe tutmuşdular. Nadirin düşündüyü plana görə nəzərdə tutulmuşdu ki, əfqanlara ilk zərbəni topçular vursun. Əfqanlar böyük sürət nümayiş etdirib topçuların xəttini aşsaydılar onda zənburəklərin zərbəsi altına düşəcəkdilər. Zənbu-

rəkçilərin sırası da yarılsa idi, onda əfqanlar ağır və yüngül tüfənglərin atəşi altına düşməli idi. Əgər əfqanlar onların da sırasını yarıb Nadir qoşunlarının mövqelərinin mərkəzi hissəsinə yol tapsaydılar, onda piyadalar döyüşün ağırlığını öz üzərinə götürməli və əfqanların hücumunun qarşısını almalı idilər (54).

Döyüşqabağı mövqelərdə möhkəmləndikdən sonra Nadir iki gün əvvəlki döyüşlərdə xüsusi fərqlənmiş Niyazqulu bəyə tapşırıq verdi ki, bir dəstə ilə döyüş meydanına atılsın və əfqanları döyüşə girməyə sövq etsin. Niyazqulu bəyin irəli çıxması ilə əfqanlar tərəfindən də İsfəndiyar bəyin rəhbərliyi altında bir dəstə qabağa atıldı və bu dəstələr arasında döyüş başladı. Həmin dəstələr arasında döyüş bir saat davam etdi. Göstərilən vaxt ərzində əfqanların sayı artmağa başladı. Qarşı tərəfin sayının artmasının Niyazqulu bəyin dəstəsi üçün təhlükəli ola biləcəyini görən Nadir bu dəstəni geriyə çağırdı. Niyazqulu bəyin geri çəkilən dəstəsi əfqanlar tərəfindən təqib olundu. Bunun ardınca əfqanların əsas qüvvələri də döyüşə qoşulub Nadir qoşunlarının üzərinə hücuma keçdilər (55).

Ola bilsin ki, Nadir Niyazqulu bəyin dəstəsini geri çəkməklə əfqanları daha irəli gəlməyə sövq etmək və bununla da onları top atəşinin təsiri altına salmaq istəyirdi. Əfqanlar irəliyə atılaraq Nadirin mövqelərinin ilk xəttinə, topların yerləşdiyi mövqelərə çatdılar. İtkilər verməsinə baxmayaraq əfqanlar böyük sürətlə hücumlarını davam etdirərək Nadirin nəinki topçularının, hətta zənburəkçilərinin və cəzayirçilərinin mövqelərini də arxada qoydular. Hər xətdə baş verən gərgin döyüşlər əfqanların müqavimətini qırmağa bəs etmədi. Nadirin bəlkə də gözləmədiyi halda əfqanlar tüfəngdarların da mövqelərini arxada qoyub qoşunların mərkəzinə qədər irəliləyə bildilər. Başlıcası isə əfqanlar bir neçə döyüş xəttini adlayaraq hələ də güclü döyüş aparmaqda davam edirdilər. Malik olduqları say üstünlüyü isə əfqanlara əldə edilən uğurları genişləndirməyə imkan verirdi. Döyüşün gedişində dəyişiklik yaradılmayacağı təqdirdə daha ağır nəticələr qarşıya çıxa bilərdi. Belə bir vəziyyətdə də məhz Nadirin döyüşgənlik məharəti, şəxsi şücaəti, qoşunu arxasınca apara bilməsi və bir də çevikliyi güclü düşmənin hücumunun qarşısını almağa, döyüş meydanında fırtına yaratmağa imkan verdi. Nadir üç minlik süvari dəstəsi ilə döyüş meydanının ən həssas nöqtəsinə atılıb əvvəlcə əfqanların qarşısını aldı, onlara ağır zərbə endirdi. Əfqanların təsəvvür edə bilmədiyi sürət və çeviklik qısa müddət ərzində uğurları daha da genişləndirməyə yol açdı. Nadirin döyüşə qoşulması ilə əfqanların qarşılaşdıqları müqavimət az sonra xeyli gücləndi. Böyük sərkərdənin iradəsi və döyüşgən-

liyi qarşısında diz çökməli olan əfqanların az bir hissəsi döyüşdən salamat çıxıb geri qaçmağa başladı. Nadirin əmri ilə onun sərkərdələri qaçan əfqanları təqib etdilər və onlara daha çox itkilər yetirdilər (56).

"Aləm Ara-ye Naderi"də mövcud olan məlumata görə, son dərəcə gərgin keçən bu döyüşdə Nadirin qüvvələrindən 280 nəfər, əfqanlardan isə 28 min nəfər həlak oldu (57). Heç şübhəsiz ki, bu rəqəmlərə ciddi yanaşılmalıdır. Çünki bu döyüş zamanı hər iki tərəf çoxlu itki vermişdi. Nadirin ən istedadlı sərkərdələrindən olan Niyazqulu bəy də bu döyüşdə qarşı tərəfdən atılan güllənin qurbanı oldu. Bu sərkərdənin həlak olması Nadiri son dərəcə kədərləndirdi. Onun göstərişi ilə Niyazqulu bəyin cənazəsi Məşhədə göndərildi və İmam Rzanın məqbərəsi yanında dəfn edildi. Bu sərkərdənin yaxınları və qohumları isə Nadir tərəfindən maliyyə təminatına götürüldü (58).

Əfqanlar üzərində qazanılan bu qələbə həm Nadir üçün, həm də Şah Təhmasib üçün əhəmiyyətli bir qələbə idi. Həmin qələbə ilə əbdali əfqanlarına güclü zərbə endirildi və onların iradəsi qırıldı. Bu qələbənin əldə edilməsi ilə bağlı bütün Xorasan vilayətinə xəbərlər göndərildi, Nadirin qoşunlarının qələbəsi üç gün bayram edildi. Bu üç gün ərzində həm də Nadirin qoşunlarının sıraları bərpa edildi. Çünki əfqanların əsas qüvvələrinə güclü zərbə vurulsa da, Herat hələ də onların əlində idi və bu şəhər ələ keçirilməyincə döyüşü də bitmiş hesab etmək olmazdı.

Üç günlük istirahətdən sonra Nadir qoşunları ilə Herata doğru istiqamət götürdü və bu şəhəri mühasirəyə aldı. Əfqanlar geri çəkilsələr də hələ də silahı yerə qoymamışdılar. Allahverdi xan qısa müddət ərzində qoşunların sırasını genişləndirə bildi. Bununla belə, əfqanlar yenə də Nadirlə açıq döyüşə girməkdən ehtiyatlanırdılar. Ona görə də Allahverdi xan sülh bağlanması üçün Nadirin yanına adamlar göndərib onun diqqətini yayındırmaq istədi.Tərəflər arasında danışıqlar başlayanda əfqanlar qəflətən Nadirin qoşunlarının sol cinahına həmlə etdilər. Onların bu hücumu elə gözlənilməz baş verdi ki, Nadirin tüfəngdarları da öz silahlarından istifadə etməyə macal tapmadılar Tərəflər bir-birinə qarışaraq əlbəyaxa döyüşə girişdilər. Gözlənilməz hücum Nadir qoşunlarına bir çaşqınlıq gətirsə də, tezliklə vəziyyət sabitləşdirildi və əfqanların üstünlüyünə son qoyuldu. Əks zərbədən sonra isə onlar geri çəkilməli oldular. Səhərdən başlanan bu döyüş günortaya kimi davam etdi (59).

Elə həmin gün də döyüşün baş verdiyi ərazidə güclü tufan qopdu, havaya qalxan toz-torpaq aləmi zülmətə boyadı.Yəni, külək elə bir qüvvə ilə əsirdi ki, tərəflər döyüşü dayandırmalı oldular. Yalnız üç

gündən sonra külək və tufan səngiməyə başladı və bu vaxt Allahyar xanın nümayəndəsi yenidən Nadirin yanına gələrək sülh bağlanmasını təklif etdi. Nadir onu qane edəcək şərtlərlə sülhün bağlanmasına sözsüz ki, razı idi. Amma əvvəlki hadisənin baş verməməsi üçün Nadir tələb etdi ki, əbdali əfqanlarının başçıları onun yanına gəlsinlər və sülh bağlanmasına razılıqlarını bildirsinlər. Həmin tələbdən sonra Allahyar xan və bir neçə digər əbdali xanı Nadirin yanına gəlib sülh bağlamağa və Şah Təhmasib hakimiyyətinə tabe olmağa razılıqlarını bildirdilər.

Bundan sonra da əfqanlar öz vədlərinin üzərində dayanmadılar. Eşidəndə ki, Fərəh hakimi Zülfüqar xan müəyyən qüvvə ilə əbdalilərin köməyinə yetmək üzrədir, Allahyar xan yenə də müqavimət göstərmək fikrinə düşdü və min nəfərlik bir dəstə ilə Şəkiban kəndi yaxınlığında Zülfüqar xana qoşuldu. Nadir bu xəbəri eşidəndə yenidən döyüşə hazırlıq əmri verdi. Zülfüqar xanın dəstəsi əziləndən sonra Allahyar xanın da müqaviməti dayana bilərdi. Nadir qoşunu içərisindən min nəfərlik bir dəstə seçdi və Şəkiban kəndi istiqamətinə yollandı. Düşərgə saldığı yerdə iki gün gözləməli oldu. Zülfüqar xan həmin günlərdə gecə vaxtı ikən Nadirin qüvvələrinin arxasına keçib gizlicə mövqe tutdu. Nadirin məntəqəyə gəlməsindən üç gün sonra əfqanlar özlərini göstərdilər və Nadirə qarşı döyüşə atıldılar. Allahyar xan öz qüvvələri ilə şərqdən hücuma atıldı. Zülfüqar xan da tutduğu əlverişli mövqedən hücuma qoşularaq Allahyar xanın həmləsini dəstəklədi. İki tərəfdən başlanan həmlə Nadiri çətin vəziyyətə salmaq niyyəti güdsə də istedadlı sərkərdənin soyuqqanlığı, vəziyyəti düzgünlüyü ilə qiymətləndirmək bacarığı qarşı tərəfi yenidən diz çökməyə məcbur etdi. O ilk növbədə yenə də topları, zənburəkləri və tüfəngləri işə saldı, düşmənə mümkün olan itkiləri yetirdi. Sonra isə qüvvələrini qruplaşdıraraq həm Allahyar xanın, həm də Zülfüqar xanın dəstəsini ayrı-ayrılıqda dəf etdi. Bir dəstəni Zülfüqar xanın üzərinə göndərdi. Əsas qüvvələr isə Allahyar xanla üzbəüz gəldi. Qüvvələrini iki dəstəyə bölsə də Nadir hər iki istiqamətdə baş verənləri nəzarət altında saxlayırdı. Döyüş bütün gün davam etdi. Göstərdikləri bütün cəhdlərə baxmayaraq istər Allahyar xan, istərsə də Zülfüqar xan öz niyyətlərinə nail ola bilmədilər. Onlar Nadirin iradəsi qarşısında yenidən geri çəkilmək məcburiyyətində qaldılar (60).

Əfqanlar döyüşdən geri çəkilsələr də, hələ də Şah Təhmasib hakimiyyətini qəbul etməmişdilər. Buna son qoymaq üçün Nadir qüvvələrinin bir hissəsi ilə Herat qalasına doğru yürüşə başladı. Geri çəkilən əfqanlar Şəkiban ilə Badsəba məntəqələri arasında yenidən döyüş

mövqeləri tutdular. Nadirin qüvvələri yaxınlaşanda əfqanlar bir də döyüşə atıldılar. Nadir bir daha topları və zənburəkləri işə saldı, əfqanlara böyük itki yetirdi və onlara heç bir ümid yeri qoymadı. Döyüş orada gün ərzində davam etdi və nəhayət ki, əfqanlara son zərbə vuruldu. Səhəri gün əli hər yerdən üzülmüş Allahyar xanın nümayəndələri Nadirin yanına gələrək sülh bağlanmasını xahiş etdilər. Nadir bu dəfə də elçiləri geri göndərdi.Onlara bildirdi ki, əbdali əfqanlarının böyükləri gəlməyincə qoşunlar əlini qılıncdan çəkməyəcək və əbdalilərə qarşı döyüşü davam etdirəcəklər (61).

Bu tələbdən sonra əbdali əfqanlarının başçıları Nadirin yanına gəldilər.Onlar bildirdilər ki, əfqanlar əvvəllər də İranın sadiq təbəələri olmuşdular, hətta gilzayi əfqanlarına qarşı da vuruşmuşdular. İndi də onlar sadiq təbəə olaraq qalmağa söz verirdilər. Şah Təhmasib də, Nadir də əbdalilərin bu xahişləri ilə razılaşdılar. Sabahısı gün əbdali böyüklərindən 20-30 nəfər yenidən çoxlu hədiyyələrlə Nadirin düşərgəsinə gəldi və sülh bağlamağa, Şah Təhmasibə itaəti qəbul etməyə hazır olduqlarını bildirdi. Bu xahişlər qəbul ediləndən sonra Allahyar xan yenidən Herat hakimi təyin edildi və Nadir qoşunu ilə Məşhədə geri döndü (62).

"Aləm Ara-e Naderi"də olan məlumata görə, Nadirin yanına elçi göndərəndə belə əfqan xanları öz niyyətlərindən əl çəkməmişdilər. Onlar Nadirə itaət etmək istəmirdilər və ona görə də gizlicə İsfahana, Əşrəfin yanına öz adamlarını göndərdilər. Əvvəlcə ona məlumat çatdırıldı ki, Şah Təhmasib Nadirlə birlikdə Herat üzərinə qoşun çəkibdir və əfqanlar onların şərtlərini qəbul etmək məcburiyyətində qalıblar. Sonra da onlar Əşrəfdən kömək istədilər və vəd etdilər ki, Əşrəfin köməyi ilə Nadir qoşunlarına üstün gələndən sonra öz qüvvələrini İsfahana yollayacaqlar. Yəni, əslində əbdali əfqanları gilzayi əfqanlarının hakimiyyətini qəbul etməyə hazır olduqlarını bildirirdilər. Əbdalilər onu da əlavə edirdilər ki, əks təqdirdə Nadir qoşunları İsfahana daxil olacaq və onda Əşrəfin günü qara olacaqdır (63).

Şah Təhmasibi öz hakimiyyəti üçün təhlükə hesab edən Əşrəf bu xəbərdən ciddi təşvişə düşdü. Bir vaxtlar məhv etməyə çalışdığı Təhmasibin güclənməsi, Heratı ələ keçirməsi Səfəvilər hakimiyyətinin yenidən bərqərar olmasına, bunun nəticəsi kimi isə Əşrəf hakimiyyətinin məhvinə olan qorxunu artırırdı. Ona görə də Əşrəf vaxtında lazımi işlər görməyi qərara aldı. Dərhal öz əyanlarının toplantısını çağırıb qoşunlara hazırlıq əmri verdi. Bu toplantıda bildirdi ki, nə qədər ki, Şah Təhmasibin gücü iki-üç qat artmayıb və o öz qüvvələri ilə cənuba doğru üz tutmayıb Xorasana hücum etmək, bu vilayəti işğal etməklə

həm Təhmasibə, həm də onun sərkərdəsinə divan tutmaq lazımdır ki, başqalarına da dərs olsun (64).

Əbdali elçilərinin gətirdiyi xəbərdən sonra Əşrəf Nadir qoşunlarına qarşı döyüşə hazırlaşmaq haqqında qərar qəbul etdi. Amma buna öz qoşunlarını Herat istiqamətinə göndərməklə yox, daha böyük planları həyat keçirməklə nail olmaq istəyirdi. Əşrəf qərara gəldi ki, bütün qüvvələrini toplayıb Xorasana hücum etsin, bu vilayəti tutmaqla Əşrəf həm öz hakimiyyətini genişləndirə, həm də Səfəvi xanədanının dirçəldilməsi üçün göstərilən cəhdləri əsaslı şəkildə məhv edə bilərdi. Ona görə də Əşrəf çox sürətli hazırlıq işləri gördü və böyük bir qoşunla Xorasana doğru yürüş başladı. Əşrəfin öz qoşunları ilə Xorasana doğru yürüşə başlaması haqqında xəbəri Nadir Məşhəddə olarkən eşitdi.

## 3.Nadirin gilzayi əfqanlarına qarşı döyüşü

Məşhədə döndükdən sonra Nadir və onun qoşunları istirahət etmək üçün çox az fürsətə malik oldular. Əşrəfin Xorasana doğru yürüşə başlaması Nadiri də məcbur etdi ki, qoşunu yenidən toplasın və çox məsuliyyətli döyüşlərə hazırlıq görsün.

Nadir onsuz da Əşrəflə döyüşə girməyi və onu İsfahandan uzaqlaşdırmağı planlaşdırırdı. Onunla aparılacaq müharibə Nadir və Şah Təhmasib üçün strateji əhəmiyyətə malik idi. Çünki Səfəvi hakimiyyətinin paytaxtı olan İsfahanın geri qaytarılması, Səfəvi hakimiyyətinin bərpa edilməsi Əşrəf üzərindəki qələbədən keçirdi. Amma həmin qələbənin əldə edilməsi ciddi hazırlıq da tələb edirdi. Əbdali əfqanlarına qarşı aparılan ağır döyüşlərdən dərhal sonra daha güclü olan gilzayi əfqanlarına qarşı müharibəyə qatılmaq qarşıya qoyulan planların həyata keçməsini təhlükə altına ala bilərdi.

Qərb mənbələrinin və tədqiqatçılarının qənaətinə görə, Əşrəfin qoşun toplayaraq İsfahandan uzaqlaşması və Xorasana doğru istiqamət götürməsi Nadirin istəklərinə uyğun idi. Bu məlumatlara görə, Şah Təhmasib Nadirin İsfahan üzərinə getməsini istəsə də, Nadir çalışırdı ki, Əşrəfi İsfahandan çıxartsın. Çünki onun İsfahandan uzaqlaşması qoşunun təchizat məsələlərini çətinləşdirməklə bərabər, döyüşçüləri də yoracaqdı.Yorulmuş qoşunu isə əvəz etmək imkanı Əşrəfdə yox idi.O, qoşununa ancaq etimad etdiyi qüvvələri daxil edirdi ki, onlar da artıq toplanmışdı. Əşrəf İsfahandan nə qədər uzaqlaşsaydı onun geri qayıtmaq imkanları da o qədər çətinləşə bilərdi. Qərb mənbələrinə görə, Nadir eyni zamanda Əşrəfin Xorasana gəlməsini, qarşı tərəflər

arasındakı döyüşün Xorasanda baş verməsini və Xorasanın da müharibə meydanına çevrilməsini istəmirdi. Ona görə Nadir qoşununun hazırlığını başa çatdırdıqdan sonra Şah Təhmasiblə birlikdə Semnana doğru istiqamət götürdü və Damğan yaxınlığında düşərgə saldı (65).

Tarixçilərin qənaətinə görə, Nadir qoşunlarının sayı 25-30 min arasında, əfqanların sayı isə 30 min civarında idi (66). "Aləm Ara-ye Naderi"də Əşrəfin topladığı qoşunun sayının 100 min nəfər olduğu göstərilir (67). Bu rəqəmin reallığı şübhə doğurur. Bundan başqa Əşrəfin 50 min, Nadirin isə 20 min nəfərlik qoşuna malik olduğunu göstərən tarixçilər də vardır (68).Bütün rəqəmlər əfqan qoşunlarının Nadir qoşunlarından çox olmasını göstərir.

Bu say üstünlüyünə nail olmaq üçün Əşrəf xeyli səy göstərməli oldu. Çünki Əşrəf artıq Nadir qoşunlarının şücaəti barədə eşitmişdi və bu qoşunlara üstün gəlmək üçün bütün imkanlarını səfərbərliyə almağa çalışırdı. Bunun nəticəsi kimi istər sərhəddə, istər şəhərlərin daxilində onun hakimiyyətini qoruyan bütün qüvvələrə və qarnizonlara xəbər göndərdi ki, İsfahana gəlsinlər və Nadirə qarşı döyüşlərə qoşulsunlar. C.Hanveyə görə, Əşrəf eyni zamanda Tehranın, Qumun, Kaşanın və Qəzvinin silah gəzdirmək gücü olan əhalisinə öz evlərini tərk etməyi və yaşayış yerlərindən uzaqlaşmağı əmr etdi. Əks təqdirdə onlar qətl oluna bilərdilər. Bununla, Əşrəf çalışırdı ki, Nadirlə müharibə apardığı vaxtlarda adları çəkilən şəhərlərin əhalisi əfqanlara qarşı qiyam qaldıra bilməsinlər. Əşrəf eyni zamanda İsfahan əhalisinə də belə bir əmr göndərdi. Əslində, Əşrəfin İsfahan daxilində apardığı qətl və qırğınlar nəticəsində şəhər əhalisi xeyli azalmışdı və şəhər əhalisinin qiyam qaldırmaq gücü yox idi. Əşrəf Nadirə qarşı hərbi yürüşə başlayanda İsfahanda 200 nəfər gözətçi qalmışdı. Bu qədər az sayda olan gözətçi İsfahanda Əşrəfə qarşı baş verə biləcək hərəkatların qarşısını almağa qadir idi (69).

Gözlənildiyi kimi, Əşrəf Semnan istiqamətində hərəkətə başladı. Semnan hakimi Əşrəfin hərbi yürüşə başlamaq xəbərini eşidən kimi dərhal Şah Təhmasibə və Nadirə xəbər göndərdi ki, ona yardım edilsin. Əks təqdirdə, Semnanın Əşrəf qoşunlarına müqavimət göstərmək imkanı yox idi. Semnan hakimi onu da bildirdi ki, bu vilayətin tutulması Xorasan vilayətinin də müdafiəsini çətinləşdirə bilər (70).

Nadir bu qənaətlə razılaşdı və Semnan hakiminin yanına öz nümayəndələrini göndərdi. Nadir Semnan hakiminə və əhalisinə kömək göstəriləcəyini vəd etdi və eyni zamanda onları da Əşrəfə qarşı daha yaxşı müqavimət göstərməyə çağırdı (71).

Mövcud olan məlumata görə, Əşrəf qoşunları ilə 1729-cu il sentyabrın əvvəllərində İsfahanı tərk etdi və həmin ayın axırlarında Damğan yaxınlığına çatdı. Nadirlə Şah Təhmasibin öz qoşunları ilə Məşhədi tərk etməsi isə 1729-cu il sentyabr ayının ortalarına təsadüf edir. Başqa bir məlumata görə isə Məşhəddən yola düşməzdən əvvəl Nadirlə Şah Təhmasib razılığa gəldilər ki, əfqanlar qovulduqdan sonra Xorasan, Kerman və Mazandaran vilayətlərinin hakimliyi Nadirə həvalə olunacaqdır (72).

Nadirin qoşunları Nişapur və Səbzəvar yolu ilə Damğana doğru hərəkət etdi. Əşrəf ilkin olaraq Semnanı tutmaq və sonra Nadirin qüvvələri ilə döyüşə girmək istəyirdi. Bu məqsədlə Əşrəf əvvəlcə Semnan yaxınlığında olan Seyid Əli qalasını tutdu və sonra Semnanın özünü mühasirəyə aldı. Semnan mühasirədə olduğu vaxt Əşrəfin casusları Nadir qoşunlarının Bestam çəməninə çatdığını xəbər verdilər. "Aləm Ara-ye Naderi"yə görə, Nadirin qoşunları Bestam çəmənliyindən hərəkət edib Şahrud məntəqəsi yaxınlığına düşərgə saldı. Bundan sonra Nadir öz sərkərdələrindən olan Məhəmməd bəy Mamuyeni 500 nəfərlik qarovul dəstəsi ilə əfqanların toplaşdığı istiqamətə göndərdi. Məhəmməd bəyə tapşırıq verildi ki, ətrafın kəşfiyyatını aparmaqla bərabər, əfqan döyüşçülərindən də bir neçəsinin əsir alınmasına cəhd göstərilsin. Nadir qoşunlarının yaxınlıqda olduğunu eşidən Əşrəf də qarovul dəstəsi yaradıb Nadirin qoşunları istiqamətinə göndərdi. Bu iki qarovul dəstəsi bir-birinə rast gəldilər və onlar arasında döyüş baş verdi. Məhəmməd bəyin dəstəsi bu döyüşdə üstün olmaqla bərabər, bir neçə əfqan döyüşçüsünün də əsir götürülməsinə nail oldu. Həmin əsirlərdən lazımi məlumat toplandıqdan sonra Nadir düşərgəsinin yerini dəyişməyi, Dehmolla kəndi yaxınlığında mövqe tutmağı qərara aldı (73).

"Tarix-e Cahanqoşa-ye Naderi"nin müəllifi isə yazır ki, döyüş başlamazdan əvvəl Əşrəf Nadirin toplarını ələ keçirmək niyyətinə düşdü və bu niyyətini həyata keçirmək üçün sərkərdəsi Seydal xana müvafiq tapşırıq verdi. Seydal xan da həmin tapşırığın yerinə yetirilməsi üçün Bestamdam özünə bələdçi götürdü və onların vasitəsi ilə Nadirin qoşunlarının yerləşdiyi məkanı nəzərdən keçirdi. Qoşunların hamısı şəhər divarları daxilinə yerləşmədiyi üçün toplar divar xaricində qalmışdı.Amma Seydal xan Nadirin toplarını ələ keçirməyə nail olmadı. Səhəri gün Nadirin qoşunları irəliyə doğru hərəkətə başlayanda Seydal xan da oradan uzaqlaşdı və Mehmandust yaxınlığında Əşrəfin əsas qüvvələri ilə birləşdi (74).

İki qoşun dəstəsi Mehmandust çayı yaxınlığında üzbəüz gəldi. Böyük gərginlik və həyəcan içində hər iki tərəf qarşıdakı döyüşü gözləyirdi. "Aləm Ara-ye Naderi"yə görə, Mehmandust döyüşü ərəfəsində Şah Təhmasiblə Nadir arasında daha bir razılaşma əldə edildi. Şah Təhmasib Nadirə bildirdi ki, əgər qarşıdakı döyüşdə əfqanlara üstün gəlsə, onun əcdadlarının qisasını Əşrəfdən alsa, onda taxt-tacın varisi Nadir olacaq və bacısı Gövhərşad bəyimin nikahı ona kəsiləcəkdir. Nadir isə söz verdi ki, rəhbərlik etdiyi qoşunun gücü ilə əfqanlara layiqli dərs verəcək və Şah Təhmasib ən yaxın vaxtlarda əcdadlarının sarayında taxta oturacaqdır (75).

Hanveyə görə, Nadirin qoşunlarını müşahidə etdikdən sonra Əşrəf ciddi təşviş və narahatçılıq keçirdi. Nadir qoşunlarının yerləşməsi, təchizatı Əşrəfdə vahimə yaratdı və o anladı ki, bu qoşunlarla döyüşmək onun üçün heç də asan olmayacaqdır. Əşrəf elə bir həyəcanla üzbəüz qaldı ki, bunu onun ətrafındakılar da hiss etdilər. Əşrəfin sərkərdələri onu xəbərdar etdilər ki, Nadir qoşunları qarşısında əfqanların vahiməyə düşməsi xəbəri yayılsa, onda ətraf kəndlərin əhalisi onlara azuqə verməkdən imtina edəcəkdir. Bu isə əfqanları daha ağır vəziyyətə sala bilər.Bu xəbərdarlıq Əşrəfi məcbur etdi ki, təşvişini gizlətsin və hücuma keçsin (76).

Hər iki tərəfin həyəcanla gözlədiyi Mehmandust döyüşü 1729-cu il sentyabrın 29-da baş verdi. Hər iki tərəf də bütün gücünü və məharətini qələbənin əldə edilməsinə yönəltdi. Amma döyüşün nəticəsi yenə də Nadirin sərkərdəlik potensialının əzəmətinin nümayişinə çevrildi.

Nadir həm düşmənin gücünü və həm də döyüşün əhəmiyyətini nəzərə alaraq  ehtiyatlı taktika seçdi.Onun planı belə idi ki, əvvəlcə müdafiədə dayansın, qarşı tərəfi hücuma cəlb etsin, onu əldən salsın, itkilər yetirsin, güclü-zəif tərəflərini müəyyənləşdirsin, sonra isə əks-hücumlara rəvac versin. O, qoşunun qruplaşmasını da məhz bu ümumi plana uyğun olaraq apardı.

Nadir qoşununu dörd dəstəyə böldü, onların vəzifələrini dəqiqləşdirdi və müvafiq mövqelərdə yerləşdirdi. Özü şəxsən bir dəstə çərxçinin müşayiəti ilə əfqan döyüşçülərinin döyüşqabağı düzülüşünü müşahidə etdi. Əşrəf qoşunlarının düzülüşünü müşahidə edəndən sonra toplarını və zənburəklərini qoşunların dövrəsi boyu yerləşdirdi. Nadir əfqan qoşunlarının sağ cinahında yerləşən təpəciyin əhəmiyyətli mövqeyə malik olduğunu müşahidə etdi və bir neçə topla bərabər həmin təpəyə yollandı (77).

Bütünlükdə, Nadir qoşunların birgə və yekdil fəaliyyətinə nail olmağa çalışdı və buna görə də bütün dəstələrə tapşırdı ki, müvafiq əmr olmadan tutduqları mövqelərdən hərəkət etməsinlər və icazəsiz döyüşə başlamasınlar (78).

Yalnız sərt döyüş intizamı və əlaqələndirilmiş fəaliyyətlə güclü düşmənə qalib gəlmək olardı və Nadir də bu məsələlərə ciddi diqqət yetirdi. Əşrəf də sözsüz ki, döyüşün qələbə ilə başa çatması üçün lazım bildiyi hazırlıq işlərini apardı, qoşunu qruplaşdırdı və döyüşqabağı mövqelər tutdu. Qoşunların sol cinahındakı qüvvələr Seydal xanın rəhbərliyi altına verildi. Məhəmməd Əmin xanın rəhbərliyi altında olan digər bir dəstə isə sağ cinahda döyüşə qoşulmaq əmri aldı. Bu dəstələr Əşrəfin planına görə, döyüşə qoşulandan sonra hər biri öz istiqamətində Nadir qoşunları üzərinə şığımalı və qarşı tərəfə güclü zərbə endirməli idi. Əşrəf güman edirdi ki, bu cinahların güclü hücumu, artilleriyanın gücü və seçdiyi taktika ona döyüşü uğurla başa çatdırmağa imkan verəcəkdir. Sayca çox da böyük olmayan üçüncü dəstəni isə Əşrəf ehtiyatda saxladı. Onun planına əsasən əsas qüvvələrin apardığı döyüş Nadir qüvvələrinin iradəsini qırmalı və onları geri çəkilməyə məcbur etməli idi. Bu məqamda Şahu bəyin rəhbərliyi altında olan üçüncü dəstə yeni qüvvə kimi Nadirin qüvvələrinin təqibini davam etdirməli, yorulmuş Nadir dəstələrinə əlavə itkilər yetirməli idi. Hətta belə ümid edilirdi ki, Şah Təhmasiblə əfşar sərkərdəsi olan Nadir həbs edilərək Əşrəfin hüzuruna gətiriləcək, onlardan qisas alınacaq və ardınca da Xorasan vilayəti Əşrəf tərəfindən işğal ediləcəkdir (79).

Xəyallarını reallaşdırmaq üçün Əşrəf bəzi hiylələrə də al atdı. O, üzbəüz döyüşdə qəti qələbə qazanmağın elə də asan olmayacağını anladığı üçün Nadir qoşunlarının arxasından və cinahlarından qəfil zərbə endirməyi qərara aldı. Hanveyə görə. Əşrəf bu məqsədlə iki yeni dəstə təşkil etdi və onları Nadir qoşunlarının cinahına və arxasına göndərdi. Özü isə əsas qüvvələrlə cəbhə xəttinin mərkəzində Nadir qoşunları ilə döyüşə girməyi qərarlaşdırdı (80).

"Aləm Ara-ye Naderi" müəllifi də Əşrəfin sərkərdələrindən olan Seydal xanın Nadir qoşunlarının arxasından zərbə vurmaq cəhdini təsdiq edir. Döyüş şəraitini dəqiqliklə qiymətləndirən Nadir əfqan qoşunları rəhbərliyinin əvvəlcədən belə bir niyyətə düşəcəyini təxmin edirdi.Ona görə də qoşunları dairəvi artilleriya mühasirəsinə aldı. Bundan əlavə, Nadir qoşun sərkərdələri olan Mirabutalıb xana və Məhəmmədəli xan Əfşara arxadan baş verə biləcək hücumların qarşısını almağı tapşırdı. Bir sözlə, Nadir arxadan və cinahdan əfqanların qəfil

hücumlarının qarşısını almağa hazır idi. Seydal xan dəstəsi ilə Nadirin döyüş mövqelərinin arxasına zərbə endirmək istəyəndə Mirabutalıb xanla Məhəmmədəli xan onun yaxınlaşmasına imkan verdilər. Zənburəklərin və tüfəngdarların atəşləri nəticəsində onlara ciddi itkilər yetirildi. Əfqanlar niyyətlərinə nail olmadan geri qaçmaq məcburiyyətində qaldılar. Məhəmmədəli xan süvariləri ilə birlikdə əfqanları təqib etdi və onları öz düşərgələrinə qədər qovdu (81).

Bununla da, Əşrəfin arxadan və cinahdan Nadirə zərbə endirmək niyyəti baş tutmadı. Onda Əşrəf əsas qüvvələri ilə Nadirə başlıca zərbənin mərkəzdən endirilməsinə çalışdı. Nadir bir daha sərkərdələrinə tapşırdı ki, icazəsiz öz yerlərini tərk etməsinlər.Əfqanlar top və zənburək atəşlərinin təsir sahəsinə çatdığı vaxta qədər Nadir qoşunları öz yerlərində gözlədilər. Əfqanlar yaxınlaşanda Nadir topçubaşı Əmir xana göstəriş verdi ki, əfqan qoşunlarının mərkəzi hədəfə götürülsün. Son dərəcə sərrast atəşləri ilə Nadir topçuları elə ilk cəhddən əfqanların arasına vəlvələ saldılar. İlk mərmilər əfqanların mərkəzində partlamaqla onlara böyük sayda itki yetirdi. Bu ilk mərmi partlayışlarından sonra əfqanların bayrağı və bayraqdarı da tikə-tikə edildi. Bayraqlarının ayaq altına düşməsini görəndə əfqanların vahiməsi daha da artdı. Onlar fəaliyyət nizamını itirdilər. Nadir bu vəziyyətdən məharətlə istifadə etdi. Topların ardınca cəzayirçilər və tüfəngdarlar da döyüşə qoşuldular və əfqanların arasındakı çaxnaşmanı daha da genişləndirdilər.

Az sonra onlar özlərini Əşrəfin topxanasına yetirdilər və əfqanları topların müşayiətindən məhrum etdilər (82).

Nadirin sərkərdələrindən olan İsmayıl xan Xəzimə və onun rəhbərliyi altında olan tüfəngdarlarla hətta əfqan topçularının sırasını da vurub keçdilər. Onları müşayiət edən süvarilərin gözlənilməz zərbəsi ilə əfqanlara daha bir zərbə endirildi. Hər tərəfdən aldıqları zərbələrdən çaş-baş qalan Əşrəf döyüşün gərginliyinə tab gətirmədi və Nadir qoşunlarına qalib gəlmək niyyətini həyata keçirə bilmədi. O, Nadirin zərbələrinin qarşısını saxlaya bilməyib geri çəkilmək məcburiyyətində qaldı. Nadirin süvariləri geriyə qaçmaqda olan Əşrəfin və onun ətrafındakıların təqibini davam etdirdilər. Əşrəf bu təqib zamanı ələ keçməsə də, onun döyüşçülərinin çoxu həyatlarını qurtara bilmədi. “Aləm Ara-ye Naderi”nin müəllifinin yazdığına görə, bu qələbədən son dərəcə sevinən Şah Təhmasib zəfərlə geri qayıdan Nadirin alnından öpdü, ona və onun döyüşçülərinə öz minnətdarlığını çatırdı (83).

Nadir və onun sərkərdələri bu mühüm qələbənin əldə edilməsinə görə Şah Təhmasib tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırıl-

dılar. Bundan əlavə, Əşrəfin döyüş meydanında qoyub qaçdığı əmlak toplandı və o da Nadirin sərkərdələri arasında bölüşdürüldü.

Gilzayi əfqanları Səfəvi sarayına elə asanlıqla sahib olmuşdular ki, ölkə daxilində kiminsə onlara ciddi müqavimət göstərə biləcəyinə də inanmırdılar. Xüsusilə, Osmanlı qoşunları üzərindəki qələbə Əşrəfdə kifayət qədər güclü olması görüntüsü yaratmışdı. Onun fikrincə, Mehmandust ətrafında əldə edəcəyi qələbə onun hakimiyyətinin güclü olmasını bir daha nümayiş etdirməli idi. Amma Əşrəf Nadirlə döyüşdə ən adi təşəbbüsə, bir anlıq sevinc gətirəcək uğura belə sahib ola bilmədi. Qoşun üstünlüyünə baxmayaraq Nadirlə ilk qarşılaşmada İsfahan taxt-tacının əsil sahiblərinin ciddi iddiaları qarşısındakı gücsüzlüyünün şahidi oldu. Bununla belə, o və onun ətrafındakı qüvvələr hələ tam məhv edilməmiş və İsfahan da onların işğalından azad edilməmişdi. Ona görə də, Mehmandust döyüşündən sonra üç gün şənlik və istirahət edən Nadir qoşununun qarşısında Əşrəflə mübarizədə atılan uğurlu addımı məntiqi sonluğa çatdırmaq kimi məsuliyyətli bir vəzifə dayanırdı. Şah Təhmasib və Nadir qoşunların müşayiəti ilə əvvəlcə Semnana gəldilər. Semnan hakimi və əhalisi onları böyük sevinclə qarşıladılar. Mehmandust ətrafında qazanılan qələbə ilə əslində, Semnanın Əşrəfin işğalı altına düşməsi təhlükəsi də aradan qalxdı. Əşrəfin Mehmandust ətrafındakı məğlubiyyəti xəbərini eşidən əfqanlar Tehranı da boşaltdılar. Tehranı nəzarət altında saxlamış qüvvələr cənuba doğru çəkilib Əşrəfin qüvvələri ilə birləşdilər.

Mənbələrdə və tarixi ədəbiyyatda bu zaman Şah Təhmasiblə Nadir arasında ixtilafın güclənməsi haqqında məlumatlar vardır. Qeyd etmək lazımdır ki, Nadir və Şah Təhmasib arasında ixtilaf və narazılıq əvvəldən də var idi. Bu iki şəxs iradə və xarakter və izlədikləri niyyətlər baxımından bir-birindən fərqli şəxslər idilər və həmin fərqlilik vaxtaşırı onların bir-birinə olan münasibətlərində də özünü göstərirdi. Nadir ümumi düşmənə qarşı mübarizədə bu fərqlilikləri kənara qoymağa çalışsa da, buna heç də hər zaman nail olunmurdu. Nadirin Şah Təhmasibi oradan Tehrana göndərməsini bəzi tarixçilər böyük qələbəni Nadirin öz adına yazmaq istəməsi, Səfəvi xanədanının varisindən canını qurtarmağa çalışması kimi qiymətləndirsələr də (84), bunu xarici təcavüzə qarşı mübarizənin çox mühüm anında qoşunlarda vahid rəhbərliyin təmin edilməsi, Səfəvi varisinin qoşunlara yayındırıcı təsirinin qarşısının alınması cəhdi kimi də ehtimal etmək olar.

Belə bir narazılığın mövcudluğuna baxmayaraq, həmin dövrdə Nadirin diqqətini daha çox cəlb edən məsələ məhz İsfahanın gilzayi əfqanlarından azad edilməsi məsələsi idi. Bu məsələ gilzayi əfqanla-

rının da diqqət mərkəzində dayanan əsas məsələ idi. Nadirlə ilk döyüşdəki uğursuzluq və geriləmə Əşrəfin iflasının başlanğıcını qoya bilərdi. Bu ehtimalı aradan qaldırmaq və özünü göstərən təhlükənin qarşısını almaq üçün Əşrəf və əyanları Nadirlə yeni bir döyüşə girməyi qərara aldılar. Vəraminə tərəf geri çəkilən Əşrəf belə bir döyüşün Xar adlanan dərədə keçirilməsini məqsədəuyğun saydı. Həmin dərə iki dağın arasında yerləşməklə keçid məhdudiyyətinə malik idi. Böyük sayda qoşunların orada döyüş aparmaq imkanı yox idi. Keçid və yüksəklikləri etibarlı şəkildə saxlamaqla Nadirin qoşununa ciddi zərbə vurmaq mümkün ola bilərdi. Qərar qətiləşəndən sonra onun icrası Tehranın keçmiş əfqan hakimi İslam xana tapşırıldı. İslam xan bu tapşırığı öhdəsində olan 5 minlik bir dəstə ilə yerinə yetirməli idi. O da aldığı tapşırığın icrasına nail olmaq üçün topları və tüfəngdarları təpələrin üzərinə yerləşdirdi, özü isə süvariləri ilə birlikdə pusquda gizləndi (85).

Lakin əfqanların cəhdləri yenə də uğursuzluğa düçar oldu. Əşrəfin təqibini davam etdirən Nadir ətrafa göndərdiyi kəşfiyyatçılar vasitəsilə əfqanların bütün planlarından təfərrüatı ilə xəbərdar oldu. Bu da ona imkan verdi ki, düşündüyü döyüş taktikası ilə növbəti dəfə öz iradəsini əfqanlara qəbul etdirsin. Nadir 5-6 min nəfərlik tüfəngdarlara dəstə-dəstə şərqdən və qərbdən əfqanları əhatə edib onların üzərinə hücum etməyi tapşırdı. Piyadaları və onları müşayiət edən topları və zənburəkləri isə qarşıdan döyüşə atmağı qərarlaşdırdı. Nadir özü də atdan düşüb piyada kimi Xar dərəsinə doğru irəliləməyə başladı. Nadirin tüfəngdarlarının qəfil olaraq təpələrin üzərində mövqe tutmuş əfqanları əhatə etməsi və onlara zərbə endirməsi bütünlükdə əfqan döyüşçülərini çətin vəziyyətə saldı. Müxtəlif istiqamətlərdən endirilən zərbələrin qarşısında müdafiə olunmağa belə gücü çatmayan əfqanların növbəti dəfə geri qaçmaqdan başqa çarələri qalmadı. Özü də bu qaçış elə tələm-tələsik baş verdi ki, toplarını və təchizatlarını da ataraq Əşrəfin düşərgəsinə doğru istiqamət götürdülər. Xar dərəsində baş verən növbəti uğursuzluqlardan sonra hətta Əşrəf də bölgədə qalmağa cəsarət etmədi. Özü ilə gətirmiş olduğu qalavuran topu da Vəramində ataraq İsfahanda özünə sığınacaq tapmağı qərarlaşdırdı. Biabırçı məğlubiyyətin əvəzini isə o, İsfahanın müdafiəsiz əhalisindən çıxdı. Onun əmri ilə növbəti dəfə şəhərdə çoxlu sayda günahsız insanların qətlinə rəvac verildi (86).

Əşrəf artıq yaxşı anlayırdı ki, Nadirin müzəffər yürüşü qarşısında təkcə İsfahan taxt-tacını deyil, eyni zamanda öz həyatını da itirə bilər. Əslində, onun taleyi ortaya qoyulmuşdu və taleyinin xilas edilməsi

üçün son cəhdlərini göstərməyə çalışırdı. Dalbadal iki ağır məğlubiyyətə uğraması özü kimi onun qoşunlarında da gələcək döyüşlərə olan ümidsizlikləri xeyli qabartdı. Əşrəfin məğlubiyyəti və Nadirin qələbəsi xəbəri ətrafa yayıldığı təqdirdə isə bütün yaşayış məntəqələrinin Əşrəfə qarşı səfərbər olunacağı şübhəsiz idi.

İsfahanı əlində saxlamaq üçün Əşrəf daha bir cəhd göstərmək qərarına gəldi. Şəhərə qayıdan kimi Əşrəf qoşunun sıralarının bərpası və artırılması haqqında əmr verdi. Bunun üçün xəzinədən kifayət qədər maliyyə vəsaiti də ayırdı, topların və zənburəklərin sayı artırıldı (87). Eyni zamanda Həmədanda yerləşən Osmanlı hərbi qüvvələri sərkərdələrindən Nadirə qarşı döyüşə kömək istədi. Həmədandakı sərəsgər bir neçə paşanın rəhbərliyi altında bu qoşun dəstəsini Əşrəfin yardımına göndərdi (88).Tarixi ədəbiyyatda Əşrəfin yardımına göndərilən Osmanlı qüvvələrinin 5 min nəfər olduğu göstərilir (89).

Çox güman ki, Osmanlı qüvvələrinin sərkərdələri də Nadirin böyük qələbəsindən xəbər tutmuşdular və onun hərbi yürüşlərinin Səfəvi dövlətinin ərazisinin bir hissəsini tutmuş Osmanlı qoşunları üçün də təsirsiz ötüşməyəcəyi aydın idi. Mehmandust döyüşündən sonra Şah Təhmasib və Nadir Osmanlı dövlətinə nümayəndə heyəti göndərərək bu dövlətin qoşunlarının tutduğu ərazilərin geri qaytarılmasını istədilər.Doğrudur, nümayəndə heyətinin rəhbərinin Təbrizdə vəfatı üzündən həmin tələblər Osmanlı sarayına təqdim edilmədi. Amma ehtimal etmək olar ki, bu tələblər qeyri-rəsmi də olsa Osmanlı sərkərdələrinə çatmışdı.Ona görə də günü-gündən nüfuz dairəsi genişlənən Nadirlə rastlaşmamaq üçün Osmanlı sərkərdələri Əşrəfə yardım göstərməyi daha məqsədəuyğun bildilər.

Əşrəfdən fərqli olaraq Nadir və onun sərkərdələri hərbi həyatlarının yüksəliş dövrünü yaşayırdılar. Bir tərəfdən qoşulduğu mübarizənin haqq işi olması, digər tərəfdən də onun sərkərdəlik istedadı, məharəti, şəxsi döyüşgənliyi mübariz bir iradəni formalaşdıraraq onun ətrafındakılara da sirayət edir, sərkərdələrinin əzəmətindən ruh alan döyüşçülərin mənəvi keyfiyyətləri onların fiziki gücünü daha da artıraraq qarşı tərəf üçün məğlubedilməz bir qüvvəyə çevirirdi. Elə ilk döyüşlər tarixdə öz izi olan Səfəvi hakimiyyətinə son qoymuş gilzayi əfqanlarının rəhbəri Əşrəfin Nadirin sərkərdəliyi qarşısında nə qədər aciz olduğunu nümayiş etdirdi. Nadir isə növbəti qələbəsinə, Əşrəf başda olmaqla bütün əfqanların qovulacağına inanırdı. Bu inamın reallaşdırılması üçün o da Əşrəflə növbəti döyüşə hazırlaşırdı.

Əfqanlara vurulan zərbələrdən sonra Şah Təhmasib Azərbaycan əyalətlərinə, İranın cənub məntəqələrinə fərmanlar göndərərək ölkədə

əsil hüquqi hakimiyyətin bərpa olunduğunu bildirdi və yerli hakimləri bu hakimiyyətə tabe olmağa çağırdı. Nadirin zəfər yürüşlərindən xəbər tutan yerli hakimlər və xanlar həm Şah Təhmasiblə və həm də Nadirlə görüşərək Təhmasib hakimiyyətinə itaətini bildirir, yeni qoşunların toplanmasına və təchizinə də öz köməkliyini göstərirdilər (90). Sözsüz ki, bu da Nadir qoşunlarının sıralarının bərpasına və təchizinə müsbət təsir göstərirdi.

"Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, Əşrəf növbəti döyüşə yollanmazdan əvvəl Nadirdən məktub aldı. Məktubda bildirilirdi ki, son zamanlar Xorasanda itaətsizlik edənlər qılınc gücünə itaət altına gətirilmişdir. İraq, Fars və Azərbaycan əyalətləri və bütün İran qədim dövrlərdən bizim şahımızın əcdadlarının hakimiyyəti altında olmuşdur. Məktubda ona da işarə edilirdi ki, Mahmud başda olmaqla əfqanlar da itaətsizlik yolu tutmuş, onlara aid olmayan torpaqları və o cümlədən də İsfahanı Səfəvi itaətindən çıxarmaqla Səfəvi xanədanına qarşı ədalətsizlik yolu tutmuşlar. Bu ədalətsizliyin və haqsızlığın cəzası kimi Mahmud pis xəstəliyə tutulub dünyasını dəyişdi. Əşrəfə təklif olunurdu ki, Səfəvi hakimiyyətinin dirçəldilməsi haqqında Şah Təhmasibin fərmanını alandan sonra öz yaxınları ilə şah hüzuruna gəlsin və şaha tapındığını, ona itaətə hazır olduğunu bəyan etsin. Nadir sonra Əşrəfi xəbərdar edirdi ki, əgər bu təklif qəbul olunmasa məsələ hərb yolu ilə həll olunacaqdır. Özü də Əşrəf haqlı cəzadan qaça bilməyəcək, onun və rəhbərlik etdiyi tayfanın cəzası ağır olacaqdır (91).

Nadirin məktubu əsir tutulmuş bir neçə əfqan vasitəsilə Əşrəfə göndərildi. Şahidlərin ifadəsinə görə, Əşrəf bu məktubla tanış olandan sonra qəzəbi aşıb-daşdı, məktubu parçalayıb yerə atdı. Nadir bu xəbəri eşidəndə bir daha anladı ki, İsfahanın azad edilməsi üçün yeganə yol hərbi yoldur və ona görə qoşunlara səfər hazırlığı əmri verdi. Eyni zamanda Əşrəf də öz hakimiyyətinin və həyatının azad edilməsi üçün döyüşə hazırlığa başladı və topladığı qoşunlarla İsfahanı tərk edib Nadirin qoşunlarına doğru istiqamət götürdü.

Arzularının həyata keçirilməsinə son şans olan bu döyüşdən qalib çıxmaq üçün Əşrəf qoşunların taktiki fəaliyyətini daha səmərəli qurmağa cəhd göstərdi. Mehmandust döyüşündə ona ağır məğlubiyyət gətirən Nadir taktikasının üstünlüklərindən istifadə edəcəyini gözləyən Əşrəf qoşunlarının vahid orqanizm kimi fəaliyyət göstərməsini təmin etməyə çalışdı. Nadir kimi o da qoşunların cinahlarını topların mühafizəsi altına aldı, ən seçilmiş döyüşçülərini isə cəbhənin mərkəzində yerləşdirərək müdafiə mövqeləri tutdu. Bundan başqa Murçexort ad-

lanan məntəqənin yaxınlığında seçdiyi döyüş meydanında yerləşən hündür dağ müdafiəni daha da gücləndirə bilərdi ki, Əşrəf bu amildən də bəhrələnməyə çalışdı (92).

Bir sözlə, Əşrəf həm topladığı qoşunun say üstünlüyünə, həm Osmanlı ordusundan aldığı həbi yardıma, həm seçdiyi taktikanın keçərliliyinə, həm də mövqe tutduğu ərazinin coğrafi imkanlarına böyük ümid bəsləyirdi. Amma bu amillər eyni zamanda Nadirin də diqqət mərkəzində idi. Döyüş başlamazdan əvvəl Nadir bu amillərin hər birini öyrəndi və Əşrəfin taktiki baxımdan əldə etmək istədiyi üstünlüyün aradan qaldırılması üçün müvafiq tədbirlər gördü.

Beləliklə, göndərdiyi məktuba rədd cavabı alandan sonra Nadir qoşunları ilə İsfahana doğru istiqamət götürdü. Qoşunların hərəkətinin təhlükəsizliyini təmin etmək üçün o, Nəcəfsultan Qaracurlu və Məhəmməd bəy Mərvinin rəhbərliyi altında yüz nəfərlik bir dəstəni irəli göndərdi. Nətənz yaşayış məntəqəsinə çatanda Nadir eşitdi ki, Əşrəf qoşunları ilə Murçexort yaxınlığında mövqe tutubdur. Nadir Nəcəfsoltanın yanına adam göndərdi ki, nəyin bahasına olursa-olsun əfqanlardan əsir götürüb geri qayıtsın. Bununla, Nadir əfqan mövqelərində nələr baş verməsini dəqiqləşdirmək və döyüş taktikasını da buna uyğunlaşdırmaq istəyirdi. Əşrəf də belə bir məqsədlə Yaqub xan Qəlacinin rəhbərliyi altında irəliyə kəşfiyyat dəstəsi göndərdi. O da Nadir qoşunları haqqında məlumatlar əldə etmək istəyirdi. Əfqan dəstəsi gecəni daha təhlükəsiz yerdə keçirmək üçün təpələrin arasında özünə düşərgə seçdi. Elə gecə vaxtı da Nəcəfsoltan bəylə Məhəmməd bəyin dəstəsi həmin yerə gəlib çıxdı və tərəflər arasında döyüş baş verdi. Nadir döyüşçüləri əfqanları qəfil yaxaladığı üçün döyüş təşəbbüsünü ələ aldı və əfqanlara xeyli itki yetirməklə bir çoxunu da əsir götürdü. Həmin əsirlərin verdiyi məlumatlar əsasında Nadir qarşıdakı döyüşün təşkili barədə müvafiq qərarlar qəbul etdi (93).

Nadirin qəbul etdiyi qərarlardan biri əfqan qoşunlarını daha açıq meydana çəkmək idi. Murçexortun arxasında olan dağ yüksəklikləri Nadir qoşunlarının fəaliyyət sərbəstliyinə ciddi mane ola bilərdi. Bu da döyüşün gedişinə təsir edə bilərdi. Qarşıya qoyduğu nəticəyə nail olmaq üçün Nadir hiylə işlətdi. O, qoşuna hərəkət göstərişi verdi və əfqan mövqelərinə doğru deyil, İsfahan istiqamətində irəlilədi. Bununla, Nadir İsfahana doğru hərəkət etməsi görüntüsü yaratdı. Əşrəf bu hiyləyə aldandı və Nadirin qoşunlarının İsfahana doğru hərəkətinin qarşısını kəsmək üçün daha açıq sahəyə çıxmalı oldu (94). Bununla da Əşrəfin üstünlüyündən istifadə etməyə çalışdığı coğrafi şərait amili onun əlindən çıxarıldı.

Nadirin əldə etdiyi məlumatlar Əşrəfin də döyüşə ciddi hazırlaşdığından xəbər verirdi. Ona görə Nadir sərkərdələrini yanına toplayıb onlara müvafiq tapşırıqlar verdi. O, sərkərdələrindən tələb etdi ki, döyüş zamanı intizama əməl etsinlər, fəaliyyətlərini yalnız və yalnız Nadirin göstərişləri əsasında qursunlar və onun tapşırıqlarını olduğu kimi yerinə yetirsinlər. Nadir qarşıdakı döyüşdə qələbə əldə edəcəyi təqdirdə döyüşçülərin qənimət arxasınca qaçmalarını qəti qadağan etdi. Bunu onunla izah etdi ki, əfqanlar onları tələyə salmaq üçün müxtəlif pusqular qura bilərdilər. Bu da böyük itkilərə gətirib çıxarardı (95).

"Aləm Ara-ye Naderi"yə görə, Nadir öz qüvvələrini aşağıdakı kimi qruplaşdırdı: Qoşunlardan 12 min nəfərlik bir süvari dəstəsi təşkil etdi. Qalan qüvvələr isə piyada kimi döyüşə qatıldı.Toplar qoşunların önündə yerləşdirildi. Mənbədə Əşrəfin toplarının qoşunların dövrəsi boyunca yerləşdirilməsi təsdiq olunur. Eyni zamanda həmin topların mühafizəsini təşkil etmək üçün 8 min nəfərlik cəzayirçi və tüfəngdarlar onların ətrafına göndərildi. Bütünlükdə, Əşrəfin 280 ədəd topa malik olduğu bildirilir. Əfqan qoşunlarının sağ cinahı Seydal xana tapşırılmışdı. Onun tabeliyində olan dəstənin sayı 20 minə çatırdı. Qoşunların sol cinahına isə Yaqub xan rəhbərlik edirdi. Onun da qüvvəsi Seydal xanın qüvvəsi qədər idi. Arxa eşelonda isə böyük qüvvə ehtiyatı saxlanmışdı. Bu qüvvə də dörd dəstəyə bölünmüşdü. Cinahların hansında əfqanların zəifliyi özünü göstərsə idi, Əşrəfin əmri ilə həmin ehtiyat hissələr bu və ya digər istiqamətə göndərilməli idilər. Əşrəf özü isə əyanları ilə birlikdə qoşunların mərkəzində mövqe tutub döyüşün gedişini izləməli idi (96).

Con Hanveyin yazdığına görə, Murçexort ətrafındakı döyüş 1729-cu il noyabrın 13-də baş verdi (97). "Aləm Ara-ye Naderi"dəki məlumata görə, bir gün əvvəl hər iki tərəf döyüş meydanında döyüşqabağı mövqeləri tutaraq həmin gecəni orada keçirdi (98).

İstər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda Murçexort döyüşünün son dərəcə gərgin keçdiyi və Nadirin sərkərdəlik istedadının bu döyüşdə bir daha nümayiş olduğu təsvir olunur. Bu, əslində təbii idi. Çünki hər iki tərəf üçün döyüş böyük əhəmiyyətə malik idi və hər iki tərəf də həqiqətdə bütün gücünü və potensialını ortaya qoydu.

Nadir bu döyüşdə topçulara və piyadalara daha geniş meydan verdi. O, hətta tüfəngdarların bir hissəsini topların müdafiəsinə istiqamətləndirəndən sonra qalan hissəsini də piyada kimi döyüşə qatdı (99). Amma bu o demək deyildi ki, Nadir döyüşün qələbə ilə başa çatdırılmasında süvarilərdən az istifadə etdi. Çox güman ki, Nadir piyadaların

vasitəsilə əsas zərbəni vurub əldə edilən uğuru süvarilərin köməyi ilə möhkəmləndirmək istəyirdi.

Gözlənilən gərgin döyüş səhərin erkən çağlarında böyük təbillərin və neylərin səsi ilə başladı. Nadirin döyüş bayrağı havaya qaldırılanda qoşun dəstələri irəli atıldılar. Nadir bu dəfə ilkin olaraq topların zərbə qüvvəsinə yer verdi O, topçuların rəhbərlərindən olan Əmir xana və digərlərinə göstəriş verdi ki, əfqan qoşunlarının mərkəzi hissəsini atəşə tutsun. Bu tapşırıq uğurla yerinə yetirildi və top atəşləri ilə əfqan qoşunlarına ciddi zərbə vuruldu. Sözsüz ki, əfqan qoşun dəstələri də döyüşə qoşuldular və hücuma keçən Nadir qüvvələrinin qarşısını almaq üçün döyüşün gərginliyinə qatıldılar (100).

Mənbələrdən birində döyüşün gərginliyini və Nadir qoşunlarının şücaətini çatdırmaq üçün göstərilir ki, əgər əvvəlki illərdə bir əfqan döyüşçüsü 100 nəfər qızılbaş döyüşçüsünün öhdəsindən gələ bilirdisə, Murçexort döyüşündə bir qızılbaş döyüşçüsü min əfqan döyüşçüsünün öhdəsindən gəlirdi (101). Nadirin piyadaları topların və zənburəklərin atəşinə, tüfənglərin təhlükəsinə baxmayaraq özlərini əfqan qoşunlarının üstünə atdılar. Onların əzmkarlığı, əfqanlara üstün gəlmək istəyi bütün müqavimətə baxmayaraq addım-addım irəli getməyə zəmin yaratdı. Nadir döyüşçülərinin bu əzmkarlığı Əşrəfin çoxlu sayda toplarının ələ keçirilməsi və Əşrəfin topsuz qalması ilə nəticələndi. Bundan sonra hər iki tərəfin piyada dəstələri arasında əlbəyaxa döyüş başladı. Döyüşün bu gərgin anlarında Seydal xan öz dəstəsi ilə Nadir qoşunlarının arxasına keçməyə və başqa bir dəstə isə Nadir qoşunlarının cinahlarını sıxışdırmağa cəhd göstərdi. Amma bu dəstələrin heç biri öz niyyətinə yetişə bilmədi.Nadir qoşunlarının hərbi rəşadəti həmin qüvvələrin kifayət qədər itki verərək geri çəkilməsinə səbəb oldu (102).

Nadirin sərkərdələrindən olan İsmayıl xan Xəzimənin və Mir Abutalıb xanın ağır tüfəngdarları uzaq məsafədən əfqanlara atəş zərbəsi endirəndən sonra əlbəyaxa döyüşə girişdilər. Nadirin əmri əsasında cəzayirçilər də qarşı tərəfi atəşə tutdular. Lakin düşmən qüvvələri yaxınlaşanda minbaşı Əliqulu bəy Şirvanlı 2 min nəfərlik dəstəsi ilə əllərində qılınc özlərini əfqan qoşununa vurdular (103).

Bu əzmkarlıq, Nadirin vaxtında döyüşə müdaxilə etməsi əfqan qoşunlarının iradəsini qırdı. Çoxlu sayda top, Nadirdən əxz etməyə çalışdığı taktika, Osmanlı ordusundan aldığı canlı hərbi yardım Əşrəfin uğurunu təmin edə bilmədi. Döyüşün gedişində o anladı ki, Nadirin qarşısında duruş gətirmək qabiliyyətinə malik deyil. Buna görə düşərgəsini, çadırını, toplarını və təchizatını tərk edib İsfahana qaçdı.

Əşrəfin İsfahana qaçması onun qoşunları arasında bir vəlvələ saldı. Əfqanlardan qaçanlar qaçdı, qaçmayanlar isə Nadir qoşunlarının silahının qurbanına çevrildilər. Osmanlı döyüşçülərinin bir hissəsi də Nadir tərəfindən əsir götürüldü. Nadir onlara qarşı nəvaziş göstərdi və onlar tərksilah ediləndən sonra sağ-salamat geri qayıtmalarına icazə verdi.

Əfqanların hər şeylərini döyüş meydanında atıb qaçmaları Nadirin uğurlu qələbələrindən biri idi. O, böyük məharətlə öz döyüşçülərini növbəti qələbəyə istiqamətləndirə bildi. Həmin qələbənin əldə edilməsində Nadir döyüşçüləri sonsuz iradə və enerji sərf etsələr də onların bir hissəsi döyüş meydanında atılıb qalmış əfqan varidatının cazibəsindən uzaqlaşa bilmədilər. Mənbələrdən aydın olur ki, əfqan döyüşçüləri təkcə silah və təchizatını deyil, əhalidən talan etdikləri var-dövləti, qiymətli əşyaları da döyüş meydanında atıb qaçmışdılar. Döyüş meydanında tökülüb qalmış həmin qiymətli əşyalar Nadir döyüşçülərinin bir hissəsini özünə cəlb etdi. Döyüşdən əvvəl verdiyi qəti tapşırığının əksinə olaraq döyüşçülərin bir hissəsinin intizamsızlıq göstərərək talana qurşanması Nadirin də diqqətindən qaçmadı.

Nadir Murçexortun şimal tərəfindəki qumsal təpənin üstündən bu mənzərəni müşahidə edəndə son dərəcə qəzəbləndi. Onun ətrafında 8 minlik süvari dəstəsi dayanmışdı. Dərhal süvarilərin bir hissəsini qənimət toplanmasına qurşanmış döyüşçülərin meydandan kənarlaşdırılmasına göstəriş verdi. Nadirin əmrini pozanlar qısa zaman ərzində döyüş meydanından kənarlaşdırıldılar və bir yerə cəmləşdirildilər. Nadir sərkərdələrinə əmr etdi ki, talan edilmiş bütün əmlak bir yerə toplansın. Sonra Nadir sərkərdələrini bir yerə toplayıb döyüşçülərinin əmri pozmalarına görə onları sərt tənbih etdi, bəzilərini hətta cəzalandırdı da. Carçılar vasitəsilə bütün qoşuna çatdırıldı ki, əgər on ildən sonra da kiminsə yanında əfqanlara malik əşya tapılarsa o, cəzadan yaxasını qurtara bilməyəcək. Bəzi sərkərdələrin qətlə yetirildiyini, bəzilərin ağır cəzalandırıldığını görəndə döyüşçülər Nadirin xəbərdarlığının ciddi olduğunu gördülər və yanlarında olan qənimət əşyalarının hamısını təhvil verdilər. Ardınca Nadirin əmri ilə bir yerə toplanmış qənimət əşyalarına od vurulub yandırıldı (104).

Nadir eyni zamanda əfqanlarla işin başa çatdırılmasını da unutmadı. O bilirdi ki, bu qaçışdan sonra əfqanların artıq müqavimət imkanları qalmamışdır. Bununla belə, o, Əliqulu bəy Əfşarla birlikdə bir neçə sərkərdəyə əfqan qüvvələrini təqib etmək tapşırığı verdi.

Əşrəf başda olmaqla əfqanlar bir başa İsfahana qaçdılar. Mənbələrdə olan məlumatlara görə, Əşrəfin ağır məğlubiyyətə uğraması xə-

bəri İsfahan əhalisinə də çatdı. Neçə illər ərzində əfqanların zülmünə dözməli olan şəhər əhli bu xəbərdən sonsuz dərəcədə sevinməklə bərabər, əllərinə keçənlərlə silahlanıb şəhərdəki əfqanların üzərinə hücum çəkdilər və onların bir çoxunu qətlə yetirdilər (105).

Əşrəf İsfahanda qalmağın təhlükəli olduğunu anlayıb dərhal şəhəri tərk etmək barədə əmr verdi. Evini, ailəsini, talanla topladığı vardövləti daşımaq üçün yük heyvanlarının tapılmasını əmr etdi. Onun tələbi əsasında malik olduğu əmlakının daşınması üçün üç yüzə yaxın dəvə və çoxlu sayda qatır tapıldı. Hava qaralana kimi Əşrəf əmlakını toplayıb gecəliklə Şiraza doğru üz tutdu. İsfahanı tərk etmək məcburiyyətində qaldığı üçün qəzəbindən alışıb yanan Əşrəf şəhərdən aralandıqdan sonra vəzirini geri göndərdi ki, bütün evlərə od vursun. Şəhər əhli görəndə ki, əfqanlar geri dönüblər və onların gəlişi heç də xeyirliyə deyil, döyüş təbillərini çaldılar və əli silah tutmağı bacaranı əfqanlarla döyüşə səslədilər. Əfqanlar yerli əhalinin səs-küyündən elə güman etdilər ki, Nadirin qoşunları artıq şəhərə daxil olub. Ona görə qorxub geri qaçdılar (106).

İsfahanın qapıları Nadirin üzünə açıldı. O, Səfəvi varislərinin görə bilmədiyi bir işi gördü və bu şəhəri düşmən tapdağından azad etdi. Sonuncu Səfəvi şahını alçaldıcı təhqirlərə məruz qoyan, Səfəvi xanədanının axırına çıxmaq istəyən gilzayi əfqanları indi özləri oxşar taleni yaşadılar. Onların bir neçə il sürən hakimiyyəti Nadirin qüdrəti qarşısında parça-parça oldu. Bununla da, Nadir Səfəvi hakimiyyətini bərpa etməklə fatehlik tarixinin ən yadda qalan səhifələrindən birini yazdı.

Əfqanlar İsfahanı tərk edəndən sonra şəhər əhli, şəhərdə nüfuz sahibi olan insanlar Nadirin pişvazına çıxdılar və böyük təntənə ilə onu İsfahan sarayına müşayiət etdilər.1729-cu il noyabr ayının 16-da Nadir qələbə sevinci ilə çoxdan arzusunda olduğu İsfahana qalib kimi daxil oldu.Nadir İsfahan əhalisi tərəfindən də qalib kimi qarşılandı (107).

“Tarix-e Cahanqoşa-ye Naderi”yə görə, İsfahan əhli üç gün şadyanalıq etdi. Nadirin əmri ilə əfqanların şəhərdə qalmış əmlakı toplandı və həmin əmlakdan Murçexort döyüşündə fərqlənmiş döyüşçülərə və sərkərdələrə pay ayrıldı. Bundan sonra Şah Təhmasibin gətirilməsi üçün Tehrana adamlar göndərildi. Səfəvi xanədanının təmsilçisi olan və səfəvilərlə bağlı ən yaxşı ənənələri camaatın gözündə canlandıran Şah Təhmasibin qarşılanması da çox təntənəli şəkildə keçirildi. Nadir özü də bu təntənənin iştirakçılarından idi.

Mövcud məlumata görə, Şah Təhmasib 1729-cu il noyabrın 29-da İsfahana daxil oldu. Mənbələrdə yazılana görə, böyükdən kiçiyə İsfahan əhli Şah Təhmasibin pişvazına çıxdı. Təxminən şah Çaharbağına qədər olan iki millik yola fərşlər, xalçalar, zərli parçalar döşəndi. Şah Təhmasib uzaqdan görünəndə Nadir atdan düşüb onun qarşısına çıxdı, onunla salamlaşdı, ehtiramını və itaətini ifadə etdi. Şahı qarşılamağa çıxanlar da ona öz ehtiramını və itaətini nümayiş etdirdilər. Birlikdə Hezarcirib bağına gələn Nadir və Şah Təhmasib gecəni orada keçirdilər. Səhəri gün isə onlar yola düşdülər və şah bağı olan Çaharbağa gəldilər. Oradan isə Şah Təhmasib əcdadlarına mənsub olan şah sarayına yollandı (108).

C.Hanveyə görə, Şah Təhmasib İsfahanın 6 milliyinə çatanda Nadir onun pişvazına çıxdı. Şah Təhmasib onu görəndə atdan yerə düşdü. Nadir də atdan yerə düşdü və istədi ki, Şahı piyada olmaqdan çəkindirsin. Amma Şah Təhmasib bildirdi ki, onunla bərabər addımlamaq istəyir. Sonra əlavə etdi ki, məmləkəti azad edən və düşmənləri İsfahandan qovan bir şəxsə daha layiqli ehtiram göstərməyə qadir deyildir. Bir qədərdən sonra Şah Təhmasib yenidən atlandı və Nadir də döyüşçüləri ilə onu müşayiət etdi (109).

C.Hanvey sonra yazır ki, Şah Təhmasib İsfahana daxil olanda şəhər əhli onu çox böyük sevinclə qarşıladı. Şah Təhmasibin qanuni bir şah kimi İsfahana qayıtmasını yerli əhali Əşrəfin və əfqanların zülmünün sonu kimi qarşıladı. Şah Təhmasib 8 il əvvəl malik olduğu və ailə istiliyini itirmiş şah sarayına girəndə atasının və yaxınlarının qarşılaşdığı faciələri xatırlayıb xeyli kədərləndi. Şah sarayının əvvəlki cahcəlalı da yox olmuşdu. Saray çılpaq divarlardan və boş otaqlardan ibarət idi.C.Hanveyə görə taxt-taca sahib olan Şah Təhmasib hələ insani hissələrini itirməmişdi və şah sarayının vəziyyətini, ailəsinin qarşılaşmış olduğu faciəni xatırlayanda ətrafındakıların qarşısında ağlamaqdan da çəkinmədi. Hərəmsaraya daxil olanda yaşlı bir qadın onun boynunu qucaqladı. Şah Təhmasib bundan bir qədər təəccüblənsə də sonra həmin qadının anası olduğunu görüb heyrətə gəldi. Şahın anası əfqanlar İsfahanı tutandan sonra sadə paltar geyib özünü kəniz kimi qələmə vermiş və ən çətin işlərə qatılmaqdan belə çəkinməmişdi. Bu yolla o həm də həyatını qoruya bilmişdi (110).

Şah Təhmasib İsfahana daxil olandan sonra Nadir Xorasana qayıtmaq istədiyini bildirdi. Bu niyyətin nə ilə bağlı olduğunu dəqiq söyləmək çətindir. Tarixçilər bunu onun saray üçün nə qədər lazım olduğunu qabartmaq istəməsi məqsədilə etdiyini yazırlar (111). Belə olub-olmadığını söyləmək çətindir. Amma o da aydındır ki, Nadir

Xorasana qayıtmasını döyüşlərdən yorulması ilə əlaqələndirmirdi. Çünki belə mülahizələr də var ki, Nadir yorulduğu üçün Xorasana çəkilmək istəyirdi.

Şah Təhmasib də yenicə taxt-tacına yiyələndiyi ölkəsinin hələ də ağır hərbi şəraitdə olduğunu görürdü və buna görə də Nadirin onu tərk edib Xorasana qayıtmasını istəmirdi. Çox güman ki, Nadir öz istəyində israrlı olmuşdu. Çünki səhəri gün Şah Təhmasib qoşun sərkərdələrini toplayıb günortadan axşamacan Nadirin Xorasana qayıtmaq xahişinin qəbul edilməsinin mümkünlüyünü müzakirə etmişdi. İstər sərkərdələr, istərsə də Şah Təhmasib Nadirin belə vəziyyətdə Xorasana qayıtmasına razılıq vermədilər. Onda Nadir də bildirdi ki, əgər şah onun istəyi ilə razı deyilsə onun iradəsi əleyhinə çıxmaq istəmir. Sonra o əlavə etdi ki, paytaxtı azad edib şahın ixtiyarına verməyə söz vermişdi və sözünə əməl etdi. Nadir əlavə olaraq vəd etdi ki, bütün düşmənləri sərhədlərdən qovandan sonra Xorasana qayıdar (112).

C.Hanveyə görə, Nadir Şah Təhmasibdən ölkənin maliyyatının toplanması işlərinin ona tapşırılmasını xahiş etdi. Nadir bunu qoşunların maliyyə baxımından yaxşı təchiz edilməsi və ölkənin işğal altında olan ərazilərinin azad edilməsi üçün güclü qoşunlar təşkil edilməsinin vacibliyi ilə əlaqələndirdi. Maliyyə səlahiyyətlərini ələ keçirilməsi Nadirin imkanlarını genişləndirməklə şahın bu məsələyə təsir qüvvəsini azaldırdı. Ona görə şah əvvəlcə bu məsələ üzərində çox düşünməli və məsləhətləşməli oldu və axırda da razılığını vermək məcburiyyətində qaldı (113).

İsfahanın azad edilməsi qışın başlanmasına təsadüf edir və mənbələrdə həmin dövrdə İsfahan ətrafında və bölgədə qışın son dərəcə sərt keçməsi haqqında çoxlu məlumatlar vardır. Nadirin Əşrəflə növbəti və sonuncu döyüşü də havaların belə sərt keçdiyi bir dövrdə baş verdi. Bir tərəfdən Nadir yaxşı anlayırdı ki, Əşrəf aldığı ağır zərbədən sonra geri çəkilsə də hələ qüvvəsini müəyyən qədər qoruyub saxlaya bilib. Ona görə ona son zərbə vurulmalı idi. Əşrəf isə düşünürdü ki, Nadirə qarşı mübarizədə hələ son şans itirilməyib və əfqanları bütünlüklə səfərbər edə bilərsə Nadirə ciddi zərbə də endirə bilər. Buna görə də Əşrəf Şiraza çəkiləndən sonra əfqanlar arasında işi genişləndirdi, Nadirə qalib gəlməyin mümkünlüyünü onlara aşılamağa çalışdı və onları şirnikləndirdi. Fürsətdən istifadə edib hətta Şirazı və ətrafını qarət etdi, əhalini var-yoxdan çıxardı (114).

"Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, Əşrəfin vədlərinə və təbliğatına aldanan on min adam könüllü şəkildə Nadir qoşu-

nuna qarşı çıxmağa razılıq verdi. Bundan başqa əfqanlar hamılıqla Nadirə qarşı son nəfəsədək vuruşmağa and içdilər (115).

Əşrəf yaxşı anlayırdı ki, onun Şiraz ətrafında qarətlə məşğul olması, yerli əhaliyə zülm verməsi və nəhayət qoşun toplamaqda davam etməsi Nadirin qulağına çatacaq və Nadir yenidən Əşrəflə döyüşə əmr verəcəkdir.Ona görə Əşrəf hər gün qarovul dəstələrini Nadirin gələ biləcəyi yolun üzərinə göndərdi ki, onun qoşununun yaxınlaşmasından vaxtında xəbər tutsun (116).

Nadir də bir neçə günlük istirahətdən sonra Şiraza doğru hərəkət etməyi qərara aldı. Baxmayaraq ki, havalar çox soyuq idi və bu hava şəraitinin həm qoşunların hazırlanmasına və təchizinə, həm də döyüşün aparılmasına çətinliklər yaradırdı, bununla belə, 1729-cu il dekabrın 24-də Nadir qoşunları ilə birlikdə İsfahandan Şiraza doğru istiqamət götürdü. O, Əbrqu-Məşhəd-Madər Süleyman marşrutu ilə hərəkət etdi.

Sərt hava şəraiti Nadir üçün bir sınağa çevrildi. Lakin bu çətin şərait onun döyüşgənliyinə heç də əks təsir göstərmədi. Əşrəflə növbəti qarşılaşma göstərdi ki, Nadir ən çətin hava şəraitində belə döyüşü öz istədiyi kimi qurmağı bacarır.

Döyüşü uğurlu sonluğa çatdırmaq üçün Əşrəf Şirazdan 5-6 fərsəng aralı, daha münasib saydığı Zərqan düzündə döyüşqabağı mövqelər tutdu. O, Nadiri də burada qarşılamağı və onun qoşununa ümidində olduğu zərbəni burada vurmağı qərarlaşdırdı. Əvvəldən döyüş mövqeyi tutmaqla Əşrəf güman edirdi ki, Nadirin qoşunları ərazidə yerləşməyə macal tapmadan onun üzərinə hücum edə və qəfil zərbə endirə biləcəkdir. Ona görə də qarovul dəstələri Nadir qoşunlarının yaxınlaşdığını çatdıranda Əşrəf dərhal hücuma hazırlıq əmri verdi.

Əşrəfin bu taktikası Nadirin gözündən qaçmadı. O, döyüşə ilkin olaraq kiçik bir dəstəni buraxdı. Min nəfər çərxçidən ibarət olan bu dəstəyə Əliqulu bəy Şirvanlı, Əmiraslan bəy Qırxlı Əfşar və Məhəmməd bəy Mərvi rəhbərlik edirdilər. Döyüşün ilk sınaqlarını da məhz bu dəstə öz üzərinə götürdü. Həmin dəstə Seydal xanın və Zebərdəst xanın rəhbərliyi altında irəli buraxılmış əfqan dəstəsinə heç bir şans vermədi (117).

Belə olanda, Əşrəf əsas dəstələrini döyüşə atdı. Əvvəlcə əfqanlar əsas zərbəni Nadir qoşunlarının mərkəzinə tərəf istiqamətləndirdi. Üzbəüz döyüşdə onlar Nadirin tüfəngçilərinin aramsız atəşləri qarşısında cəbhə xəttini yara bilməyib geri çəkilməli oldu. Üzbəüz döyüşdə uğur qazana bilməyəcəyini görən Əşrəf Nadir qoşunlarının sağ cinahını hücuma məruz qoydu. Bu cinahda başlanan döyüşü əfqan topları və

zənburəkləri də müşayiət edirdi. Atəş zərbəsinə geniş yer verən Əşrəf cinahda vəziyyəti xeyli mürəkkəbləşdirə bildi. Bunu müşahidə edən Nadir sağ cinahı gücləndirməyi lazım bildi. Döyüşün taleyinin məhz həmin cinahda həll edilə biləcəyi üçün Nadir özü də ora atıldı. Sürətli hücum, qətiyyətli zərbə, böyük döyüş ruhu bir daha Nadirin istedadını və döyüşgənliyini nümayiş etdirdi (118).

Mənbələr də təsdiq edir ki, Zərqan yaxınlığındakı döyüşdə Əşrəf bütün bacarığını ortaya qoydu, döyüşdən qalib çıxmaq üçün böyük inadkarlıq göstərdi. Onun qoşun dəstələri bir-birinin ardınca döyüşə qoşulsalar da Nadirin əfşar, qaracurlu və Mərvdən olan qoşunları qarşısında ümidində olduqları nəticəni göstərə bilmədilər. Döyüşdə artan gərginlik əfqanlar arasında itkilərin çoxalmasına da yol açdı. Buna baxmayaraq onlar duruş gətirib qələbəni əldə etməyə çalışırdılar.

Əfqanlar nə qədər inadkarlıq göstərməyə çalışsalar da, Nadir qoşunları da o qədər əzmkarlıq nümayiş etdirdilər. Döyüşün gərgin vaxtında qarşılarındakını məhv edib düşmənin içərilərinə doğru irəliləyən Nadir təbərzini ilə əfqanların bayraqdarını da, döyüş bayrağını da parça-parça etdi(119). Bütün cəhdlərinin uğursuzluğa düçar olduğunu görən Əşrəf yenidən Nadirin qarşısından qaçmalı oldu və Şiraza doğru üz tutdu. Nadirin dəstələri iki fərsəng məsafədə əfqanları təqib etdilər, onlara itki yetirməklə bərabər xeyli sayda əsir də götürdülər.

Əşrəf və onun yaxınları artıq Şirazda da qalmağın təhlükəli olduğunu gördülər. Ona görə də ailə-uşaqlarını, var-yoxlarını toplayıb şərqə və cənuba doğru üz tutdular. Nadir Əşrəfi törətdiyi bütün əməllərinə görə haqlı cəzasına çatdırmaq niyyətində idi. Onun əmri ilə qoşun dəstələri Əşrəfin təqibini davam etdirdilər.

Fəsa körpüsü yaxınlığında əfqanları yaxalamaq mümkün oldu. Əşrəf körpüdən adlamağa fürsət tapdı. Sonra isə əfqanlar arasında nüfuz sahibi olan və Əşrəfə mürşidlik etmiş olan Pirməhəmməd xana tapşırdı ki, körpü ətrafında Nadirin qüvvələrinin qarşısını kəssin. Həmin vaxt ərzində digər əfqanlar da körpüdən keçməyə fürsət tapsınlar. Əfqanlarla döyüşə girən Nadirin avanqard dəstələri idi. Doğrudur, bu dəstələr Fəsa körpüsü ətrafında Pirməhəmməd xanın dəstəsinə ağır zərbə vurdular, hətta Pirməhəmməd xan qətlə yetirildi. Çoxlu sayda əfqan döyüşçüsü qırıldı və əsir götürüldü. Buna baxmayaraq Şirazdan geri çəkilən əfqanların böyük bir hissəsi də Fəsa körpüsündən keçib uzaqlaşa bildilər. Müəyyən əzmkarlıqla döyüşsələr də Nadir öz sərkərdələrinin bu səhlənkarlığına çox qəzəbləndi və onun əmri ilə bir neçə kürd sərkərdəsinin gözü çıxarıldı, bir neçə əfşar sərkərdəsinin isə qulaqları kəsildi. Dərhal da özü əfqanların təqibinə qoşuldu. Amma əf-

qanlar Nadirin qəzəbindən qorxub çox uzaqlaşa bildilər. Nadir Əşrəfi əlindən buraxdığı üçün çox təəssüfləndi. Ətrafdakı bütün hakimlərə əmr göndərdi ki, yolları və bərələri kəssinlər, əfqanlarla rastlaşsalar onları dustaq etsinlər (120).

Nadirin qəzəbindən xilas olsa da Əşrəfin həyatı çox sürmədi. Onun ölümü barədə mənbələrdə və tarixi ədəbiyyatda bir neçə versiya vardır."Aləm Ara-ye Naderi"yə görə, Əşrəf Bəndər Abbasa gəldi. Ola bilsin ki, o, körfəz ərazilərinə qaçıb özünü Nadirdən etibarlı şəkildə qorumaq istəyirdi. Amma sonra Qəndəhara yola düşdü. O vaxtlar Qəndəhar hakimi Mirveysin oğlu Hüseyn şah idi. Qəndəhar vilayətinə gəlməsi barədə Əşrəf Hüseyn şaha xəbər göndərdi. Hüseyn şah bu xəbərdən heç də sevinmədi. Əksinə, Qəndəhar hakimliyi iddiasında ola biləcəyindən onu zərərsizləşdirməyi qərarlaşdırdı. Digər tərəfdən Hüseyn şah yəqin ki, Nadirin qəzəbindən də qorxdu və onun üçün Əşrəfi yaxına buraxmadı. Bu məqsədlə yaxın bildiyi beluc nümayəndələrinə tapşırdı ki, nəyin bahasına olursa-olsun Əşrəfi tapıb öldürsünlər. Beluclar da onun düşərgə saldığı məntəqəyə gəldilər və elə öz çadırında onu qətlə yetirdilər (121).

Bununla da, Nadirin sərkərdəlik həyatının yeni bir səhifəsi də başa çatdırıldı. Əfqanlarla döyüşləri ərzində Nadirin fəaliyyətində məntiqilik, məqsədyönlülük və bütövlük daha tam məzmun aldı. Özü ilə bərabər onun sərkərdələri də döyüş təcrübəsini kamilləşdirdilər. Əfşar, qacar və digər soyların qoşun dəstələrinin əzmkarlığı ardıcıl xarakter aldı.

Nadir döyüş meydanında qarşı tərəfdən qılıncı yerə qoyanları bağışlamağı, müqavimət göstərənlərə isə öz qüvvəsini nümayiş etdirməyi bacarırdı. Əfqanlarla döyüşdə də qılıncı yerə qoymayan dəstələrə elə bir zərbə vuruldu ki, onların yenidən birləşib bir qüvvə təşkil etməsinə daha gücləri qalmadı. Bu qüvvələrlə döyüşləri başa çatdırandan sonra Nadiri daha çətin və məsuliyyətli döyüşlər gözləyirdi.

### 4. Nadirin Osmanlı qoşunlarına qarşı döyüşləri

Nadiri qarşıda gözləyən məsuliyyətli vəzifələrdən biri də Osmanlı qoşunlarını Səfəvi sərhədlərindən kənarlaşdırmaq idi. Səfəvi dövlətinin böhranlı dövründə onun Cənubi Qafqazda və qərbdə olan əraziləri Osmanlı dövləti tərəfindən ələ keçirilmişdi. Əfqan qüvvələrinə qarşı uğurlu döyüşlər keçirməsi, ətrafında güclü qoşun toplanması, bu qoşunun qanuni dövləti və xalqı təmsil etməsi və onların qayğısı altına düşməsi Nadirdə keçmiş Səfəvi hüdudlarını bərpa etmək arzusunu

xeyli gücləndirdi. Nadirin sərkərdəlik potensialı, iradəsi və əzmkarlığı da bu planın həyata keçirilməsinin reallığından xəbər verirdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə ölkənin bəzi vilayətlərinin hakimlərinin separatçılığı, mərkəzdənqaçma meyllərinin güclənməsi də özünü göstərməkdə idi. Amma konkret tarixi şərait üçün Osmanlı türklərinə qarşı müharibəyə başlamaq daha ciddi əhəmiyyət kəsb edirdi və ona görə də Nadir əsas diqqəti məhz bu cəbhəyə istiqamətləndirdi.

Şiraz şəhəri əfqanların işğalından azad ediləndən sonra Nadir bir müddət orada qaldı və Novruz bayramını da orada qarşıladı. Bir tərəfdən havaların hələ soyuq olması, bir tərəfdən də qoşunların yorğunluğu Nadiri məcbur etdi ki, osmanlılara qarşı müharibəni təxirə salsın. Bu müddət ərzində isə o, qoşunların sıralarının bərpası, təchizat məsələlərinin həll edilməsi ilə məşğul oldu. Əşrəf üzərində əldə edilmiş qələbədən sonra yaranan fürsətdən Nadir istifadə etdi və qoşunlara da istirahət verdi.

"Aləm Ara-ye Naderi"nin məlumatına görə, Nadir Şirazda olarkən Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulur - red.) və Həmədan əhalisinin nümayəndələri onun yanına gəldilər və Osmanlı qoşunlarının nəzarəti altında olmalarından əziyyət çəkdiklərini söylədilər. Nümayəndələr bildirdilər ki, Nadirin zəfərlərindən xəbər tutan yerli əhali həsrətlə onun gəlməsini gözləyirlər. Mənbədə o da göstərilir ki, Nadir bu xəbəri eşidəndən sonra öz sərkərdələrinə, minbaşılarına hərbi yürüşə hazırlıq başlamaq haqqında göstəriş verdi (122).

İsfahan azad edildikdən və Şah Təhmasib taxta çıxdıqdan sonra onun tapşırığı ilə Rzaqulu xan Şamlı adlı birisi Osmanlı sarayına elçi göndərildi. Səfəvi hakimiyyətinin bərpa edilməsi, Osmanlı qoşunlarına üstün gəlmiş Əşrəfin məğlub edilməsi belə bir ümid yaratmışdı ki, Osmanlı sarayı ələ keçirdiyi Səfəvi torpaqlarını bəlkə dinc yolla geri qaytara bilsin. Amma Səfəvi elçisi İstanbula çatanda Osmanlı sarayının Əşrəfin vəziyyətindən xəbəri yox idi. Ona görə də onunla aydın və konkret danışıqlar aparılmadı (123). Mənbələr də Rzaqulu xan Şamlının nümayəndəliyinin konkret cavab ala bilmədiyini təsdiq edirlər (124). Amma bəzi araşdırmaçıların fikrincə, Rzaqulu xan Şamlıya Osmanlı sarayında işğal olunmuş Səfəvi torpaqlarının geri qaytarılmasına razılıq verildi. Amma bir şərtlə ki, Osmanlı sarayına lazımi təzminat verilsin (125).

Sözsüz ki, həm Nadir, həm də Şah Təhmasib belə bir şərtlə razı deyildilər. Osmanlı sarayının cavabı gəlib çatmamış Nadir Həmədana doğru yürüşə başlamağı qərara aldı və bu barədə Şah Təhmasibə də

xəbər göndərdi. 1730-cu ilin martında Nadir Həmədana doğru istiqamət götürdü. Onun qoşunu 25 min nəfərlik süvari və piyadalardan ibarət idi. Bu yürüşdə onu toplar və zənburəklər müşayiət edirdilər. Eyni zamanda o, Tehrandakı qüvvələrə də xəbər göndərdi ki, Qəzvin-Ave yolu ilə Azərbaycanın cənub-qərbinə doğru hərəkət etsinlər. Hüseynqulu xan Zəngənə özünün beş min nəfərlik dəstəsi ilə Gülpayqan yaxınlığında düşərgə saldı. O da Nadirdən tapşırıq aldı ki, Nəhavəndə tərəf irəliləsin (126).

Havalar münasib olan kimi Nadir Behbehan və Şüştərdən keçib Dizfula gəldi və mövcud olan məlumatlara görə, yolu üzərindəki çayların aşmasına görə bir neçə gün hərəkətini təxirə salmalı oldu. Qısa fasilədən sonra Nadir Xürrəmabad yolu ilə Borucərdə çatdı. Burada olarkən Hüseynqulu xan Zəngənəyə tapşırdı ki, Kermanşaha doğru irəliləyib həmin məntəqəni Osmanlı qüvvələrindən təmizləsin. Tapşırığı yerinə yetirdikdən sonra Hüseynqulu xan Zəngənə Kemanşah hakimliyini öz üzərinə götürməli idi (127).

Nadir Osmanlı qüvvələri ilə döyüşə girməzdən əvvəl Həmədandakı sərəsgər Osman paşaya məktub göndərdi. O yazırdı ki, Xorasandan başladığı hərbi yürüşləri ilə cənuba doğru uzun bir yol keçmiş, Əşrəfə güclü zərbə endirmiş, yad qüvvələrin işğalı altında olan İsfahan və bütünlükdə Fars bəylərbəyliyi geri qaytarılmışdır. Bununla da qanuni şah öz taxtına qaytarılmış, dövlət üzünə ağ olanlara lazımi dərs verilmişdir. Osmanlı xanədanı Səfəvilərin vəziyyətinin zəifləməsindən sui-istifadə edərək qoşunlarını Xürrəmabada qədər yeritmiş və Səfəvi ərazilərinin müəyyən hissəsini nəzarət altına almışdır. Məktubda daha sonra bildirilirdi ki, Osmanlı qoşunları həmin ərazilərdə özbaşınalıqlar etmiş, yoxsulların, imkansızların evlərini talan etmiş və zorakı əməllərə yol vermişlər. Nadir sonra da tələb edirdi ki, Osmanlı qoşunları gecikmədən bütün torpaqları tərk etməli və öz vətənlərinə qayıtmalıdırlar. Nadir xəbərdarlıq edirdi ki, osmanlıların "toppuz" adlandırdıqları əmudla Osmanlı qoşunlarının nəfəsini kəsəcəkdir (128).

Osmanlılar arasında Nadir həm də "Toppuz" xan kimi tanınırdı. Bu ad ona təbərzin və əmuddan döyüşdə çox istifadə etdiyi üçün verilmişdi. Xüsusi sifariş əsasında Nadirə hətta qızıldan altı qanadı olan əmud (şişpər) hazırlanmışdı. Deyilənə görə, Nadir döyüşlərdə bu şişpədən də istifadə edər və haqladığı düşmən döyüşçülərini onun vasitəsilə məhv edərdi. Əlinin gücü ilə düşmənə qəzəbi birləşəndə bu şişpər əmudun zərbəsi öldürücü olardı.

Həmədan sərəsgəri Osman paşa Nadirdən aldığı bu məktubdan xeyli qəzəbləndi və Nadir elçilərinə cavab verdi ki, məsələ döyüş

meydanında aydınlaşdırılmalı olacaqdır. Elçilər yola salındıqdan sonra Osman paşa Fərrux paşanın rəhbərliyi altında olan 14 minlik qoşuna baxış keçirdi və ona Nadirə qarşı yürüşə başlamaq əmri verdi. Verilən tapşırığa əsasən Fərrux paşa Nəhavəndə üz tutmalı və orada Nadirin qoşunlarının irəliləməsinin qarşısını saxlamalı idi. Nadirin qoşununun üstün olacağı təqdirdə Fərrux paşa müdafiəyə çəkilib Osmanlı qoşunlarının əlavə yardımını gözləməli idi (129).

Mənbədə olan məlumatlara görə, Fərrux paşa bu tapşırığı narazılıqla qarşıladı və ona inamsızlıq göstərilməsinə etirazını gizlətmədi. Fərrux paşaya görə Nəhavəndə əlavə qoşun göndərilməsinə heç bir ehtiyac olmayacaqdı. Onun fikrincə özü təklikdə Nadirin dərsini verə bilərdi. Mənbədə o da bildirilirdi ki, Nadirin casusları Osman paşanın Nadirə qarşı döyüşə hazırlaşması, Osman paşa ilə Fərrux paşa arasında olan söhbətlər, Fərrux paşanın özündən son dərəcə razı olması haqqında məlumatlar Nadirə çatdırıldı. Onun casuslarından bir neçəsi isə Osmanlı düşərgəsində qaldı ki, orada nə baş verməsindən xəbər tutsunlar və Nadiri xəbərdar etsinlər (130).

"Tarix-e Cahanqoşa-ye Naderi"də Fərrux paşanın adı çəkilmir. Bu mənbəyə görə, Nadirlə Nəhavənd yaxınlığında olan ilk döyüşə Osman paşa rəhbərlik edirdi. Nadirə qarşı laqeydlik göstərən də Osman paşa idi(131).Həmin mənbədə Nəhavənd döyüşünün təfərrüatı verilməmişdir. Tarixi ədəbiyyatda isə bu döyüşlə bağlı fikirlər bir-birindən xeyli fərqlənir (132).

"Aləm Ara-ye Naderi"yə görə, Osman paşa ilə Fərrux paşa arasında olan söhbətdən Nadir çox qəzəbləndi və böyük bir qətiyyətlə osmanlılarla döyüşməyə üz tutdu. Onun düşərgəsi Borucərddə qaldı və adlı-sanlı sərkərdələri olan Təhmasib xan Cəlayiri, Həsən xanı, Hacı Seyfəddin xan Bayatı və başqalarını düşərgənin mühafizəsinə təyin etdi. Osmanlı qoşunları yaxınlaşanda Nadir onu əhatə etməyi tapşırdı. Osmanlı qoşunları qısa zaman ərzində əhatəyə alındı. Cəzayirçilərin və tüfəngdarların atəşi osmanlılara ilk itkiləri yetirdi. Onların ardınca isə süvarilər sürətli hücuma qoşuldular və osmanlılara vurulan itkiləri daha da artırdılar (133).

Mənbədə mövcud olan məlumata görə, osmanlıların laqeydliyi və sayıqlığı itirmələri onların məğlubiyyətinə gətirdi. Sonra bildirilir ki, bu sayıqlığı əldən vermiş Fərrux paşa isə əsir götürüldü. Amma Nadir onu öldürmədi. Bir neçə gündən sonra Osman paşaya yazdığı məktubla onu Həmədana yola saldı.

"Tarix-e Cahanqoşa-ye Naderi"də bildirilir ki, Nəhavənd yaxınlığında Nadirlə döyüşdə uğursuzluğa düçar olan osmanlıların bir neçə

paşası, yeniçəri rəhbərləri Nadir döyüşçüləri tərəfindən əsir götürüldü (134). Bu məlumat Fərrux paşanın əsir götürülməsi haqqındakı məlumatla bir yaxınlıq təşkil edir.

Bütünlükdə, nəticə belə idi ki, Nadirlə ilk qarşılanmalarında osmanlılar son dərəcə ciddi bir rəqiblə üzbəüz gəldiklərini anladılar. Nəhavənd yaxınlığındakı döyüşdə Nadir osmanlılara heç bir şans vermədi və onlara güclü zərbə vurdu.

Bu nəticə ilə sözsüz ki, osmanılar razı deyildilər. Osmanlıların qoşunlarının nəyə qadir olduğunu, onların qarşısında duruş gətirmiş Nadirin əzminin qırılması üçün Osman paşa daha bir döyüşə hazırlıq əmri verdi. Eyni zamanda ətrafdakı Osmanlı qarnizonlarına da əmr göndərdi ki, yaxın günlərdə öz qüvvələri ilə Həmədan ətrafında toplaşsınlar və Nadir üzərinə birgə hücumda iştirak etsinlər. Hücumun uğurla başa çatdırılması üçün Osman paşa çoxlu sayda topun da döyüşə hazırlaşdırılmasını tapşırdı. Çox tezliklə Osman paşaya kömək yetişdi. Teymur paşa və digərlərinin rəhbərliyi altında daha 30 min qoşunun Osman paşaya birləşdiyi göstərilsə də, tarixi ədəbiyyata görə bu rəqəm 20 minə bərabərdir. Hər halda əlavə hərbi kömək alan Osman paşa rəhbərliyi altında olan qoşunlarla Həmədandan çıxıb böyük Məlayir düzünə çıxdı (135).

Nadir də öz gücləndirilmiş qoşunları ilə Məlayir düzünə gəldi və burada döyüşqabağı mövqe tutdu. Osmanlılarla ilk döyüşün uğuru Nadirin qoşunlarında ruh yüksəkliyi yaratsa da, qarşıda onları daha ciddi sınaq gözləyirdi. Bunu Nadir də görürdü. İlk uğursuzluğun təsadüfi olduğunu sübut etmək üçün ətraf qarnizonlar hesabına gücləndirilmiş Osmanlı qoşunu bölgədə güc sahibi olduğunu bir daha nümayiş etdirmək niyyətində idi. Osmanlı paşaları yaxşı anlayırdılar ki, növbəti uğursuzluğa düçar olacaqları təqdirdə Səfəvi ərazilərinin tərk edilməsinin başlanğıcı qoyulacaqdı. Bu isə bölgədə Osmanlı qoşunlarının nüfuzunun kölgə altına alınması demək idi. Nadir üçün isə bu döyüşdə növbəti qələbənin əldə edilməsi itirilmiş ərazilərin geri qaytarılması demək idi. Eyni zamanda bu qələbə Nadirin sərkərdəlik potensialının yeni bir nümayişi ola bilərdi.

Ona görə hər iki tərəf döyüşə ciddi hazırlıq gördü, qoşunların qruplaşdırılmasında daha sınanmış təcrübəyə istinad edildi. Hər iki tərəfin qoşunu üç böyük dəstədə qruplaşdırıldı: Mərkəz, sağ və sol cinahlar. Osman paşa qoşunların cinahlarını təcrübəli sərkərdələrinə tapşırdı: Teymur paşa, Cəlal paşa və Həsənoğlu qoşun dəstələrinin rəhbərləri təyin edildilər. Onun özü isə mərkəzdə qərar tutdu. Toplar da mərkəzdə yerləşdirildi. Bundan başqa, Osman paşa əmr etdi ki, yük

daşıyan bütün dəvələri qoşunların arxasına toplasınlar, onların hamısını kəndir və zəncirlərlə bir-birinə bağlasınlar ki, Osmanlı döyüşçüləri qorxub geri qaçmaq istəsə dəvələrin sırası ilə üzləşib yenidən döyüş meydanına qayıtsınlar. Nadir sağ və sol cinahları Təhmasib xan Cəlayirə, Rzaqulu bəy Çeşmgəzəkə və Hacı Seyfəddin xan Bayata tapşırdı, mərkəzə rəhbərliyi isə öz üzərinə götürdü (136).

Döyüş hər iki tərəfdən çalınan təbillərin səsi, döyüşçülərin nərəsi, heyvanların nəriltisi ilə başladı. Topların atəşi, tüfənglərin zərbəsi, nizədarların sərrast atışları qarşı tərəflər arasındakı döyüşün gərginliyini xeyli artırdı. Hər iki tərəf topların və tüfənglərin atəşlərindən səmərəli istifadə etməyə çalışsa da soyuq silahlarla əlbəyaxa döyüşlər tərəflərin itkilərini daha da artırdı. Bununla belə, uzun müddət tərəflərin heç biri döyüşdə aydın üstünlüyə nail ola bilmədi. Böyük əzmkarlıqla irəli atılan Nadir dəstələri osmanlıların müqaviməti ilə rastlaşır və onların sıx sıralarını yarmağa nail ola bilmirdilər. Əksinə, döyüşün bir məqamında Nadir qoşunlarında bir düşgünlük yarandı, yaralıların "neylim-neylim" qışqırıqları, iradəsi qırılanların isə "qaç-qaç" sədaları Nadirin diqqətindən yayınmadı. Bu əhval-ruhiyyənin güclənməməsi və qələbə əzminin geri qaytarılması üçün Nadir əlindəki əmudu havada fırlatmaqla üç minlik seçmə dəstəsi ilə özünü döyüşün ən qaynar nöqtəsinə atdı. Döyüşə yeni bir gərginlik gətirən Nadir şəxsi nümunəsi ilə təşəbbüsü yenidən ələ aldı, itməkdə olan mübariz döyüş ruhunu geri qaytardı və qoşunları qələbəyə səfərbər edə bildi (137).

Nadir qoşunlarının yenidən səfərbər ola bilməsi Osmanlı qoşunlarının iradəsini qırdı. Osman paşa, Teymur paşa və digər sərkərdələr nə qədər cəhd göstərsələr də irəliləməyin mümkünsüz olduğunu və getdikcə daha ciddi itkilərin verildiyinin şahidi oldular. Döyüşün məğlubiyyətə apardığını görən Osman paşa döyüşdən çıxmağı qərara aldı. Onun ardınca Teymur paşa da döyüş meydanından geri çəkildi. Sərkərdələrin bu qərarı qoşunlar arasında bir vahimə yaratdı. Az sonra Osmanlı qoşunları kütləvi şəkildə döyüş meydanını tərk etmək yolunu tutdu. Amma arxada bir-birinə zəncirlənmiş dəvələr sırasına ilişəndə onları təqib edən Nadir döyüşçüləri tərəfindən daha ağır zərbə aldılar. Bu da osmanlıların itkilərini xeyli artırdı (138). Fürsət tapanlar isə Həmədəna qaçdılar.

Çoxlu sayda Osmanlı döyüşçüsü, o cümlədən bir neçə Osmanlı sərkərdəsi əsir götürüldü. Bundan başqa döyüş meydanında çoxlu qənimət toplandı.

Səhəri gün Nadir Həmədana doğru üz tutdu. Osman paşa qoşunu ilə birlikdə Həmədanı tərk etdiyindən orada hər hansı bir müqavimətə

rast gəlinmədi. Nadir 1730-cu il iyun ayının ortalarında Həmədana daxil oldu. Osmanlı ordusundan orada qalmış olan toplar, döyüş təchizatı və müxtəlif əşyalar Nadirin qənimətinə çevrildi (139).

Nadirin qoşunları ilə Həmədana daxil olması xəbərini eşidən Sənəndəcdəki Osmanlı qarnizonunun rəhbəri də oranı tərk etməyi qərara aldı. Bununla, Sənəndəc də döyüşsüz və müqavimətsiz Osmanlı qüvvələri tərəfindən tərk edildi. Belə olanda, Nadir diqqətini Kermanşaha çevirdi. Yaxınlıqdakı böyük məntəqələr arasında Kermanşah hələ də Osmanlı qüvvələrinin nəzarəti altında qalmaqda idi. Bu şəhərin geri qaytarılması məqsədilə Nadir, Hüseynqulu xan Zəngənəyə müvafiq tapşırıq verdi. Hüseynqulu xan dəstəsi ilə Kermanşaha yollandı, onun dağlıq yollarla irəliləməsi müəyyən təhlükə ilə bağlı idi. Kermanşah hakimi təyin edilmiş Həsən paşa şəhərin iki fəsəngliyində, dağlıq ərazidə əlverişli müdafiə mövqeləri tutaraq Hüseynqulu xanın dəstəsinin qarşısını kəsdi. Hüseynqulu xan rastlaşdığı müqaviməti nəinki qıra bilmədi, hətta ağır zərbə alaraq geri çəkilmək məcburiyyətində qaldı. Xəbər Nadirə çatan kimi Kermanşaha doğru hərəkət etmək əmri verdi. O, qüvvələrinin bir hissəsini öncədən yola saldı, özü isə sonradan onların arxasınca hərəkətə başladı. Həsən paşa eşidəndə ki, Nadir qüvvələri ilə Hüseynqulu xanın köməyinə gəlir, bütün topları, hərbi təchizatı Kermanşahda tərk edib Bağdada çəkildi. Bununla da, ikinci cəhddə Kermanşah da Osmanlı qoşunlarından təmizləndi (140).

Bununla, Səfəvi dövlətinin cənub-qərb sərhədləri bərpa edildi. Qısa müddət ərzində Osmanlı qoşunları bir sıra şəhərləri tərk etmək məcburiyyətində qaldı. Bir-birinin ardınca şəhərlərin və məntəqələrin əldən getməsi Osmanlı sarayının bölgədə olan qüvvələrinin nigarançılığını artırdı. Osmanlı qoşunları rəhbərliyi yaxşı anlayırdı ki, İranın cənub-qərbi nəzarət altına alındıqdan sonra Nadir üzünü Azərbaycana çevirə bilər. Bununla əlaqədar, Bağdad valisi Əhməd paşa Təbriz valisi və sərəsgəri Teymur paşaya məktub göndərdi, onu xəbərdar etdi ki, Nadir qoşunları ilə Təbrizə doğru irəliləyə bilər. Bağdad valisi ondan tələb edirdi ki, Nadirlə gözlənilə biləcək döyüşə hazırlıq görsün. Bu məktubdan sonra doğrudan da Nadirə qarşı döyüşlərə hazırlıq başlandı. Marağa, Ərdəlan, Ərumi və Sulduz ətrafında kifayət qədər böyük sayda Osmanlı qoşunları toplanmışdı. Teymur paşa onların vəziyyətini yoxladı, qoşunların parkını və yüklərini Marağanın Qavdul qəsəbəsində cəmlədi və sonra 12 min nəfərlik süvari dəstəsini ayırıb Ərdəlana gəldi. Həmin dəstə Nadirin hücumunun qarşısını kəsməli idi. Teymur paşa dəstəsinin gücləndirilməsi üçün Ərdəlanda da döyüşçülərin toplanmasını, hərbi təchizatın yaxşılaşdırılmasını davam etdirdi. Bun-

lardan başqa, Teymur paşa öz casuslarını ətrafa yaydı ki, Nadirin Azərbaycana doğru hərəkətə başlamasından vaxtında xəbər tutsun (141).

Nadir özü də Osmanlı qüvvələrinin fəaliyyətini və yerdəyişmələrini nəzarət altında saxlamağa çalışırdı. Ətrafa göndərdiyi casuslar Teymur paşanın döyüşə hazırlaşması xəbərini ona da çatdırdılar. Bəzi məntəqələrdən yerli hakimlərin itaətsizlikləri barədə xəbərlər gəlsə də Nadir bütün diqqətini başlıca olaraq Osmanlılara qarşı başlanan kampaniyanın sona çatdırılmasına istiqamətləndirdi. O, dərhal qüvvələrinə səfərə hazırlıq əmri verdi. "Aləm Ara-ye Naderi"yə görə, Nadir 7 min nəfərlik qoşun dəstəsi ilə osmanlılara qarşı yürüşə başladı. Qoşun dəstəsinin əsas hissəsini Təhmasib xan Cəlayirin rəhbərliyi altına verdi. Qoşunun parkı və yükləri də Təhmasib xanın dəstəsində idi. Özü isə kiçik bir dəstə ilə Miyanduaba doğru istiqamət götürdü (142).

Bəzi tədqiqatçıların yazdığına görə, Nadir Kürdüstandan keçərək Azərbaycana gəldi, bir müddət əfşarlar yaşayan ərazidə dayanacaq tutdu və əcdadlarının yaşadığı məntəqədə olarkən Osmanlı qoşunları haqqında əldə edilmiş məlumatları öyrəndi (143).

Nadir öyrəndi ki, Teymur paşa və Mukri hakimi Əlirza Miyanduab qalasında yerləşməklə o çevrənin əhalisini incidirlər. Onlar eyni zamanda qoşunların təkmilləşdirilməsi ilə məşğul olurlar. Bunu eşidəndən sonra Nadir həmin istiqamətə doğru yolunu davam etdirdi. Teymur paşa Nadir qoşunlarının qəfil hücumundan müdafiə olunmaq üçün xüsusi ehtiyat tədbirləri gördü. O öz ətrafında mühafizə qrupu yaratdı. 2-3 min nəfərdən ibarət olan bu dəstə daima Teymur paşanı müşayiət edirdi. Dəstə üzvləri silah və təchizatını çıxarmadan gecələr də yatmır və Nadirin təhlükəsi reallaşacağı anda Teymur paşanı dövrəyə alıb mühafizəsini təmin etməli idilər. Amma bu xüsusi mühafizə dəstəsi də Teymur paşaya kömək etmədi. Nadirin yaxınlaşması xəbərini eşidəndə Teymur paşa ona qarşı çıxmağa cürət etmədi və ətrafındakılarla birlikdə Marağaya geri çəkildi. Nadir öz dəstəsi ilə Teymur paşanın dəstəsini təqib etməyə başladı və niyyətinə nail oldu. Elə təqib zamanı da Nadir osmanlılara zərbə endirə bildi. Nəticədə, qaçıb Marağaya sığınmaq ümidində olan osmanlılara xeyli itki yetirildi, osmanlılar hətta Marağada da duruş gətirə bilmədilər və oradan da uzaqlaşdılar. Onların tərk edib qaçdığı çoxlu sayda top, silah və digər döyüş təchizatı qənimət kimi Nadirin əlinə keçdi (144).

Teymur paşa növbəti uğursuzluğa düçar olsa da, heç də silahı yerə qoymadı. O hələ də Nadirlə qəti döyüşə girib onun zəfər dolu yürüşlərinin qarşısını almaq istəyirdi. Ya da qoşununu toplayıb geri dönməli

idi. Amma geri dönmək qərarını özbaşına qəbul edə bilməzdi. Ona görə Teymur paşa Marağanın on fərsəngliyində olan Dehxarqanda yenidən öz qüvvələrini cəmləşdirməyə başladı. Teymur paşa orada sərkərdələrinin toplantısını keçirdi, Miyanduab yaxınlığındakı uğursuzluğunun səbəblərini izah etməklə Nadirlə yeni döyüşə hazırlaşmağın zəruriliyini onların diqqətinə çatdırdı. Teymur paşa Təbriz valisinə də məktub göndərdi və ondan da hərbi yardım göndərilməsini xahiş etdi. Eyni zamanda ona da hazır olmağı tövsiyə etdi. Təbriz hakimi Teymur paşanın yardımına beş minlik bir dəstə göndərdi. Bu dəstənin gəlməsi Teymur paşanın qüvvələrini kifayət qədər gücləndirdi və bununla da o özünü Nadirlə yeni döyüşə hazır hesab etdi (145).

Nadir bir neçə gün Marağada qaldı və Təhmasib xan Cəlayirə də əmr göndərdi ki, qoşunların düşərgəsini ora köçürsün. Elə burada istirahətdə olarkən Urmiyada yaşayan əfşarlara məktub göndərdi. Nadir bu məktubunda özünün də əfşarlara mənsubluğunu xatırlamaqla bölgəyə gəlməsi barədə onlara məlumat verdi. Eyni zamanda ümid etdiyini bildirdi ki, Urmiya əfşarları onun görüşünə gəlib yeni hakimiyyətə sədaqətlərini nümayiş etdirəcəklər. Urmiya əfşarlarının başçısı olan Bisütün xan Nadirin məktubunu alsa da, onun məzmunu ilə əfşarları tanış etməkdən ehtiyatlandı. Çünki məntəqə osmanlıların nəzarəti altında idi və əfşarların Nadirlə əlaqəyə girməsi xəbərini osmanlılar eşitsəydilər bunun əfşarlar üçün ağır nəticələri ola bilərdi. Bisütün xan yalnız gizli şəkildə öz əyanlarını və sərkərdələrini Nadir Əfşarın bölgəyə gəlməsindən xəbərdar etdi. Nadir, Teymur paşa ilə növbəti döyüşə yola düşəndə Bisütün xana bir də məktub göndərdi, əfşarların onunla görüşə gəlməməsinin səbəbi ilə maraqlandı. Bisütün xan bu məktubu alandan sonra tayfanın ağsaqqallarını və əyanlarını topladı, nə edilməsi lazım gəldiyini onlarla məsləhətləşdi. Bisütün xan bildirdi ki, əgər Nadirin yanına öz adamlarımızı göndərsək, ona hər hansı yardım etsək və Teymur paşa da Nadirə üstün gəlsə bu əfşarlar üçün pis nəticələnər. Yəni, Teymur paşa əfşarların Nadirlə əməkdaşlığından xəbər tutsa bütün tayfanı qılıncdan keçirər. Belə məsləhət bilindi ki, bir qədər də səbr edilsin və döyüşün nə ilə nəticələnəcəyi məlum olsun. Nadir qalib gələrsə onunla əməkdaşlığa başlamaq olar. Əgər Teymur paşa üstün gəlsə heç olmasa tayfanı sərt münasibətdən xilas etmək olar (146).

Teymur paşanın döyüşə hazırlaşmaq xəbərini alan kimi Nadir də hücuma hazırlıq əmri verdi. Xüsusən, ətraf məntəqələrin əhalisinin də yenidən itaət altına gətirilməsindən sonra növbəti döyüş üçün münasib zəmin yarandı və Nadir də bu imkandan istifadə etdi.

Nadirin Osmanlı qüvvələri ilə növbəti döyüşü, yəni, Təbrizin və ətrafının Osmanlı qüvvələrindən azad edilməsi həm "Aləm Ara-ye Naderi"də, həm də "Tarix-e Cahanqoşa-ye Naderi"də təsvir edilmişdir. Doğrudur, bu təsvirlər mütləq oxşarlıq təşkil etməsələr də, "Aləm Ara-ye Naderi"də bu döyüş daha təfərrüatı ilə verilmişdir. "Tarix-e Cahanqoşa-ye Naderi"də haqqında danışılan döyüş fraqmental xarakter daşıyır. Marağa ətrafında, Urmiyə gölü istiqamətində baş verən döyüş Osmanlı-Səfəvi münasibətlərinin müəyyənləşdirilməsində ciddi əhəmiyyətə malik idi. İlk uğursuzluqlardan sonra qüvvələrini buraya toplayan osmanlılar məğlub olacaqları təqdirdə Azərbaycanı (Cənubi-red) büsbütün itirmək məcburiyyətində qalacaqdılar. Buna görə onların yeni hazırlığı döyüşdə qarşılarına qoyduqları niyyətlərinin ciddiliyindən xəbər verirdi.

"Aləm Ara-ye Naderi"yə görə, Teymur paşanın qüvvələri Nadirlə növbəti döyüşə girmək üçün Qavdul məntəqəsində, Cığatay çayının (Zərinrud) kənarında düşərgə saldı və iki tərəf arasında ilk döyüşlər qarovul dəstələrinin üzləşməsi ilə baş verdi. Qoşunları qəfil hücumdan qorumaq və qarşı tərəf haqqında müəyyən məlumatlar əldə etmək üçün Nadir, Səlim bəyin və Nəcəfsoltan Qaracurlunun rəhbərliyi altında 100 nəfərlik bir dəstə irəli göndərdi. Teymur paşa da belə bir addım atdı və Həsən paşanın rəhbərliyi altında bir yeniçəri dəstəsinə irəli hərəkət etmək tapşırığı verdi. Osmanlıların say üstünlüyünə malik olmasının Nadir qüvvələrinin vəziyyətini çətinləşdirməsi xəbər verilsə də, əslində onun qarovul dəstələri verilən tapşırığı yerinə yetirə bildilər. Bununla, bir tərəfdən qoşunlar qarşı tərəfin hücumundan mühafizə olundular, ikincisi isə hər iki tərəf qarşı tərəfdən əsir götürərək düşərgəyə döndü (147).

Əldə edilən məlumatlardan sonra hər iki tərəf döyüş mövqelərini, döyüş tapşırıqlarını, həm də qüvvələrin qruplaşdırılmasını bir daha dəqiqləşdirdilər. Teymur paşa mövqelərini elə seçdi ki, onun bir cinahını yaxınlıqda axan çay mühafizə etsin. Nadir də qüvvələrinə hərəkət əmri verib döyüşqabağı mövqelərə doğru üz tutdu. Nadir qoşunlarının sağ cinahına Rzaqulu xanla Əliqulu bəy Sərvərli rəhbərlik edirdilər. Sol cinahdakı qüvvələrə rəhbərlik isə Təhmasib xan Cəlayirə, Şahqulu bəy Mərviyə və Hacı Seyfəddin xan Bayata tapşırıldı. Tanınmış və təcrübəli əmirlərdən təşkil olunmuş bir alay sol cinahda dayanmalı idi. Həmin dəstələrin ətrafında isə Mir Abutalıb xanın və İsmayıl xan Xəzimənin cəzayirçiləri və tüfəngdarları mövqe tutmalı idilər. Seçilmiş döyüşçülərdən təşkil edilmiş bir alay da Nadirin ehtiyat qüvvəsi kimi

bir kənarda mövqe tutdu. Döyüşün gedişini müşahidə edəcək Nadir zərurət yarandığı anda bu alayla bu və ya digər istiqamətə yardım göstərməli idi.

Osmanlılar əsas döyüşə top hazırlığı ilə başladılar. Teymur paşanın əmri ilə bütün böyük və kiçik toplar işə salındı və onların vasitəsilə Nadir qoşunlarına ilk zərbənin vurulmasına cəhd göstərdi. Bunun ardınca isə nizələrlə silahlanmış böyük bir süvari dəstəsi döyüşə buraxıldı ki, top hazırlığının ardınca qarşı tərəfə vurulan zərbə daha da gücləndirilsin.

Osmanlı qüvvələri kimi Nadir də döyüşə top hazırlığı ilə başlamağı qərara aldı. Osmanlı süvariləri irəli atılanda Əliqulu bəylə Əmiraslan xan Nadirin yanına gəlib top hazırlığı aparılmadan hücuma qoşulmalarına icazə verdi. Nadir bütün döyüşlərində olduğu kimi bu döyüşün aparılmasında da artilleriyaya xüsusi əhəmiyyət verirdi və ona görə də sərkərdələrin təklifini qəbul etmədi. Hətta onları tənbih etdi ki, döyüş meydanında nələrin baş verdiyinə heç də onlar cavabdeh deyil. Nadir artilleriya hazırlığı vasitəsilə osmanlıların sıralarının seyrələcəyinə əmin idi. Piyada və süvarilərin hücumu bununla daha səmərəli ola bilərdi. Yalnız atəş hazırlığı aparılandan sonra o öz qüvvələrinə düşmən üzərinə hücum əmri verdi. Tərəflər arasında son dərəcə gərgin və qaynar bir döyüşə rəvac verildi. Hər iki tərəfin döyüşçüləri qarşılarına qoyulan vəzifələri yaxşı bilirdilər və ona görə də hər iki tərəfdən son dərəcə böyük bir əzmkarlıq göstərilirdi. Mənbələr Nadir qoşunları ilə bərabər, osmanlıların da döyüşə böyük enerji sərf etdiklərindən, xüsusilə Osmanlı topçularının peşəkarlıqla döyüşdüklərindən xəbər verirlər (148).

Osmanlı qüvvələrinin böyük əzmkarlıqla döyüşdüyünü Nadir də müşahidə edirdi.Nadir onu da hiss edirdi ki, özü döyüşün gedişinə müdaxilə etməsə qələbəni əldən verə bilər. Ona görə əvvəlcə cinahlarda döyüşən dəstələrin rəhbərlərinə xəbər göndərdi ki, tutduqları mövqelərdən geri çəkilməsinlər. Özü isə ehtiyatda saxladığı 4 minlik həmişəkeşik dəstəsi ilə osmanlıların daha güclü olduğu mövqe üzərinə şığıdı. Əlində tutduğu əmudun havada cövlan etməsi ilə neçə-neçə Osmanlı döyüşçüsü yaşadıqları dünyaya vida dedilər. Onun şəxsi gücü və şücaəti, ətrafında olan döyüşçülərin igidliyi üz tutduğu məkanda döyüşün gedişinin Nadir qüvvələri xeyrinə dəyişməsinə yol açdı. Mövcud olan məlumatlara görə, Osmanlı qoşunlarının son dərəcə adlı-sanlı sərkərdələrindən olan Mustafa paşa Çələbi döyüş meydanında çevriliş yaradan Nadirin qarşısını almaq üçün özü onunla üzbəüz gəldi. Amma

Mustafa paşa Çələbi Nadirin qarşısına çıxanda heç gözünü açmağa macal tapmadı və onun toppuzunun qurbanı oldu.

Mustafa paşa Çələbinin ölümü Osmanlı qüvvələri arasında bir çaşqınlıq yaratdı. Onlar istədilər ki, bir qədər geri çəkilib artilleriyanın mövqelərində özlərinə yer etsinlər. Teymur paşa da ehtiyat qüvvələri ilə həmin mövqedə idi.Bu geriləmə osmanlılara yenidən topların atəşindən istifadə etməyə, ehtiyat qüvvələr tərəfindən möhkəmlənməyə imkan verdi. Nadir osmanlıların bu niyyətini anladı və Təhmasib xan Cəlayirə xəbər göndərdi ki, rəhbərliyi altında olan əfşar, cəlayir və Mərv qüvvələri ilə Osmanlı qüvvələrinin Teymur paşa ilə birləşməsinə imkan verməsin.Belə olanda, döyüşün gərginliyi daha da artdı. Döyüş meydanında baş verənləri Teymur paşa da izləyirdi. Onunla birləşmək istəyən qüvvələrin qarşısı Nadir qoşunları tərəfindən kəsiləndə Teymur paşa özü döyüş meydanına hərəkət etdi və oradakı qüvvələrə dəstək verdi (149).

Teymur paşanın irəli atılması vəziyyəti müəyyən qədər mürəkkəbləşmiş Osmanlı qüvvələrini ruhlandırdı və onların müqavimətini daha da gücləndirdi. Bu da Nadir qoşunlarından bütün gücləri ilə səfərbər olmağı tələb edirdi. Nadirin döyüş meydanında göstərdiyi böyük əzmkarlıq onun sərkərdələrini və döyüşçülərinin gücünü və iradəsini qələbəyə səfərbər etdi. Ağır itkilərin verilməsinə və döyüşlərin getdikcə gərginləşməsinə baxmayaraq, Nadir bir daha iradə gücünü nümayiş etdirdi. Teymur paşa tabeliyində olan qüvvələrin əldən düşdüyünü, qarşı tərəfin qələbəyə daha yaxın olduğunu hiss edib özü Nadirlə döyüşə girməyi qərarlaşdırdı. Bununla da iki böyük sərkərdə üzüzə gəldi. Teymur paşa əlindəki iti qılıncla Nadirə zərbə endirdi. Nadir əmudunu irəli verib Teymur paşanın qılınc zərbəsinin qarşısını aldı. Onun qılıncı iki yerə bölündü. Bunun ardınca, Nadir əlindəki əmudla Teymur paşanın başını hədəf aldı. Amma onun çeviklik göstərib başını yana qaçırması ilə Nadirin əmudu Teymur paşanın çiyninə dəydi. Buna görə də Teymur paşa canını sağ qurtardı. Bu dəmdə Osmanlı döyüşçüləri özlərini yetirərək Teymur paşanı təhlükəsiz yerə çəkə bildilər (150).

Bundan sonra döyüşün davam etdirilməsini mənasız bilən osmanlılar geri çəkildilər və məntəqədə dayanmağın təhlükəli olduğundan Təbrizə doğru üz tutdular. Osmanlı paşaları növbəti dəfə Nadirlə döyüşdə uğursuzluğa düçar oldular.

Teymur paşa Nadir qoşunlarının döyüşgənliyindən belə bir qənaətə gəldi ki, bu qüvvələrə üstün gəlmək mümkün deyil. Ona görə də o, heç Təbrizdə də dayanmadı. Amma Təbrizin Osmanlı hakimi topladı-

ğı böyük qüvvə ilə bir də Nadirə qarşı cəbhə tutmaq tərəfdarı idi. Onun fikrincə, Nadirə qarşı döyüşə girmədən geri çəkilməyə mənəvi haqqı yox idi. O bunu sərkərdələrindən də gizlətmirdi. Təbriz hakiminin niyyəti belə idi ki, Nadirlə növbəti döyüşə özü getsin və bəxtini sınasın. Teymur paşa isə Təbrizdə qalmalı və buradakı osmanlıların ailələrinin əmlakının köçürülməsinə rəhbərlik etməli idi. Nadirlə növbəti döyüş yenidən uğursuzluğa düçar olduğu təqdirdə Təbriz hakimi şəhərə qayıdıb vaxt itirmədən ailəsini və əmlakını götürüb Osmanlı sərhədlərinə doğru üz tutmalı idi.

Amma Nadir Təbrizə doğru irəliləmədi. Teymur paşa üzərində qələbəni sevinclə qeyd edən Nadir döyüş başa çatan kimi fərqlənən döyüşçülərini və sərkərdələrini layiqli şəkildə mükafatlandırdı, onların şücaətini qeyd etdi və sonra da Marağaya doğru hərəkət etdi. Çox güman ki, Nadir son dərəcə ağır döyüşün itkilərinin aradan qaldırılması, qoşunların sıralarının bərpa edilməsi üçün istirahətə ehtiyac duyurdu.Yol boyu onu ətraf məntəqələrin sakinləri böyük təntənə ilə qarşıladılar. Yeddi illik fasilədən sonra Marağa və Təbriz ətrafının məntəqələri yenidən Səfəvi hakimiyyəti altına gətirilmələrinin sevincini Nadirə göstərdikləri münasibətlə ifadə etdilər.

Mövcud olan məlumata görə, Teymur paşanın məğlubiyyət xəbərini eşidəndən sonra Urmiya əfşarlarının başçısı Bisütün xan da Nadirin yanına getməyi, onu qələbə münasibətilə təbrik etməyi və ona yardım göstərməyə hazır olduğunu bildirməyi qərara aldı. Məktublarına cavab vermədiyindən Nadirin qəzəbinə tuş gəlməməsi üçün Bisütün xan ətraf xanlarla birləşib o bölgədə Osmanlı hakimi təyin edilmiş Fərrux paşanı əsir götürüb Nadirin yanına aparmağı planlaşdırırdı. Amma Fərrux paşa onları qabaqlayaraq çoxlu hədiyyələrlə Nadirin yanına getmək, onunla görüşdə vətəninə qayıtmaq üçün icazə almaq niyyətində olduğunu bildirdi. Onda Bisütün xan, bir neçə digər xan və Fərrux paşa birlikdə Nadirin yanına gəldilər. Nadir öz tayfasının ona qarşı laqeyd olmasından razı qalmadığını bildirdi, Bisütün xanın günahını bağışladığını bəyan etdi, amma daxilində ona qarşı olan rəğbətsizliyini də qoruyub saxladı. Elə onlar Marağada olarkən Nadir qoşunlarla Təbrizə doğru hərəkətə başlamaq əmri verdi (151).

Nadir istəyirdi ki, Bisütün xanla Fərrux paşa da Təbriz üzərinə hücumda iştirak etsinlər və bu şəhər ələ keçiriləndən sonra onlar oradan Urmiyaya yola salınsınlar. Təbrizə yürüş üçün hazırlıq başlananda Nadir Təbriz hakimi Mustafa paşanın çoxlu sayda qoşunları ilə Dehxarqana gəlməsi barədə xəbər tutdu. Yürüşə hazırlığını başa çatdırdıqdan sonra Nadir də qoşunları ilə həmin istiqamətə hərəkətə başladı. Dağlıq

ərazidən keçən marşrutu boyu qoşunları qəfil Osmanlı hücumları təhlükəsinə məruz qoymamaq üçün Nadir Əliqulu bəyin və Məhəmməd bəy Mərvinin rəhbərliyi altında avanqard dəstə yaratdı və həmin dəstəni irəliyə göndərdi. Bu dəstənin min nəfərlik bir dəstə olduğu bildirilir. Tapşırılan vəzifəni yerinə yetirmək və təhlükə xəbərini daha öncədən müəyyənləşdirmək üçün bu avanqard dəstə əsas qüvvələrdən xeyli qabağa getdi. Mustafa paşanın əmri ilə Osmanlı qüvvələrindən də üç min nəfərlik bir dəstə yaradıldı. Həmin dəstə də Nadirin hərəkət edə biləcəyi marşrut üzrə xeyli irəli hərəkət edərək bir dərədə pusqu qurdu.Nadirin avanqardının önündə piyada qarovullar, onlardan müəyyən məsafədə olmaqla arxada çərxçilər hərəkət edirdilər. Bu qüvvələr pusqu olan yerə çatanda osmanlıların qəfil hücumuna məruz qaldılar. Həmin hücum elə gözlənilməz baş verdi ki, Nadirin avanqardı çaşqınlıq içində qaldı və bunun nəticəsi idi ki, qüvvələr cəmləşdirilmədi və düşməndən müdafiəyə səfərbər edilmədi. Avanqard dəstə iki yerə bölündü. Sol tərəfdə olan dəstə Məhəmməd Mərvinin, sağ tərəfdə olan dəstə isə Nəcəfsoltan bəy Qaracurlunun rəhbərliyi altında əllərini qılınca atdılar, onların üstünə şığıyan osmanlıların qarşısını kəsməyə çalışdılar. Bir tərəfdən qəfil hücuma məruz qalmaları, bir tərəfdən avanqardın iki yerə parçalanması və bir tərəfdən də osmanlıların say üstünlüyü Nadir döyüşçülərini son dərəcə çətin bir vəziyyətə saldı. Osmanlı qarovulu bu qarşılaşmada dərhal təşəbbüsü ələ aldı və Nadirin dəstəsinə tutarlı zərbə endirdi. Nadir döyüşçüləri anladılar ki, bu qaynar qazandan canlarını qurtarmaq üçün yalnız öz qollarının gücünə sığınmalıdırlar. Bu fikirlə də onlar bütün güclərini və bacarıqlarını səfərbər etdilər. Amma yenə də osmanlıların güclü hücumunun qarşısını kəsmək mümkün olmadı və Nadir dəstəsi məhv olmaq təhlükəsi ilə qarşılaşdı (152).

Belə bir vaxtda Nadirin bir neçə döyüşçüsü döyüş meydanını tərk edib özlərini Nadirə yetirə və vəziyyət haqqında ona məlumat verə bildilər. Nadir həm eşitdiyi xəbərdən, həm də xəbər gətirən döyüşçülərin öz yoldaşlarını tərk etməsindən son dərəcə qəzəbləndi. Nadir onların döyüş meydanını tərk etməsini fərarilik kimi qiymətləndirdi və onların boyunlarının vurulmasını əmr etdi. Sonra isə böyük bir dəstə ilə avanqardın pusquya düşdüyü dərəyə doğru hərəkətə başladı. Mənbələrə görə, Nadirin dəstəsi pusqu qurulan yerə çatanda avanqardın döyüşçüləri osmanlıları geri çəkilməyə məcbur edə bilmişdilər. Eyni zamanda ola bilsin ki, osmanlılar da uzaqdan Nadir qüvvələrinin gəlməsini görüb döyüşü davam etdirməkdən daşınmışdılar. Hər halda Osmanlı

dəstəsindən sağ qalanlar geri çəkilib Mustafa paşanın əsas qüvvələri ilə birləşdi.

Bu kiçik döyüşün nəticələrinə görə, Nadir həm Məhəmməd bəyi, həm də Nəcəfsoltan Qaracurlunu təriflədi, onların şücaətini yüksək qiymətləndirdi. Yaralıların daşınmasından və qüvvələrin cəmləşdirilməsindən sonra Nadir Təbrizə doğru hərəkəti davam etdirməyi əmr etdi.

Mustafa paşa onun qarovul dəstəsi ilə Nadirin avanqardı arasında baş verən döyüşün təfərrüatından xəbər tutandan sonra qoşununu daha da gücləndirməyi qətiləşdirdi. Onun mövcud olan qüvvələri Misir və Hələbdən gətirilən əlavə 16 min nəfərlik dəstə hesabına möhkəmləndirildi. Bu dəstələr xüsusi seçmə dəstələr hesab olunurdu və onlara Məmiş paşa rəhbərlik edirdi. Nadirin hərəkətinin qarşısını kəsməyə də bu dəstələr göndərildi. Məmiş paşa öz dəstəsi ilə Dehxarqan məntəqəsinə gəldi və burada döyüşqabağı mövqe tutdu. Nadirin qoşunları da yetişib burada döyüşqabağı mövqelərə paylandılar. Nadir öz qüvvələrini dörd dəstədə qruplaşdırdı və onlara dörd istiqamətdən Osmanlı qoşunları üzərinə hücum etməyi tapşırdı. Osmanlı qüvvələri böyük əzmkarlıqla dörd tərəfdən hücuma keçən Nadir qüvvələrinə müqavimət göstərməyə çalışdılar. Nadir özü də döyüşə qoşuldu və özünü Məmiş paşanın dayandığı mövqeyə yetirdi. Osmanlı qüvvələri daxilinə bir çaxnaşma salmaq üçün Nadir Məmiş paşanı aradan götürməyi planlaşdırırdı. Bunu üçün o, münasib məqam seçib əlindəki əmudla Məmiş paşaya güclü zərbə endirdi. Məmiş paşa bu zərbədən yerindəcə keçindi. Onun ölməsi isə doğrudan da Osmanlı qüvvələri daxilində çaxnaşma saldı.Osmanlı döyüşçüləri geriyə qaçıb Mustafa paşanın mövqelərinə üz tutdular. Mustafa paşa da vəziyyətin yaxşı olmadığını görüb Təbrizə tərəf geri çəkildi. Bununla belə, Nadir qüvvələri Məmiş paşanın geri çəkilən qüvvələrini təqib etməyə başladı. Həmin təqib də Osmanlı qüvvələrinə böyük itki yetirdi və onlar Nadir qüvvələrinə qarşı hər hansı bir ciddi müqavimət göstərmədən qaçmaqlarını davam etdirdilər (153).

Təbriz hakimi Mustafa paşa və Teymur paşa Osmanlı qüvvələrinin Nadirə qarşı döyüşdə növbəti uğursuzluğa düçar olmasından xeyli pərişan oldular və Təbrizi tərk etməyi qərarlaşdırdılar. Onlar əmlaklarını və var-yoxlarını bir yerə yığışdırıb Nadirin qüvvələri yerişməzdən əvvəl Sərxabdağ yolu ilə Naxçıvan və İrəvana doğru istiqamət götürdülər. Onların Təbrizi tərk etməsindən az sonra Nadir qoşunları ilə Təbrizə daxil oldu. Burada da Nadir yerli əhali tərəfindən böyük təntənə ilə qarşılandı. Azərbaycanın mərkəzi olan bu şəhər də neçə illik

fasilədən sonra Nadirin qılıncının gücü hesabına yenidən Səfəvi hakimiyyətinin tərkibinə qatıldı.

Mustafa paşa ilə Teymur paşa geri çəkilmək məcburiyyətində qalsalar da Nadirin qarşısından qaçmağı şəxsiyyətlərinə sığışdırmırdılar. Xüsusilə, eşidəndə ki, Nadir geri çəkilən Osmanlı qüvvələrini təqib etmək əmri verib və Osmanlı qüvvələrinin vəziyyəti getdikcə ağırlaşır, onda Teymur paşa da, Mustafa paşa da hərəkətlərini dayandırdılar və onları müşayiət edən qüvvələrə Nadirə qarşı müqavimət göstərmək əmri verdilər. Amma Osmanlı qüvvələrinin bu cəhdi də bir nəticə vermədi. Nadirin rəhbərliyi altında olan qüvvələrin qarşısını saxlamaq artıq mümkün deyildi.

Beləliklə, Nadirin Osmanlı qüvvələrinə qarşı başladığı döyüşlərin birinci mərhələsi Azərbaycanda yerləşən Osmanlı qüvvələrinin geri çəkilməsi ilə başa çatdı. Nadir 1730-cu il avqustun 12-də Təbrizə daxil oldu (154). O özünün sərkərdəlik tarixinin yeni bir səhifəsini yazdı. Osmanlılara qarşı onun apardığı döyüşlərin hər biri sürəti, çevikliyi, taktiki bənzərsizliyi ilə Nadirin sərkərdəlik potensialının yeni bir nümayişinə çevrildi.

Təbriz tutulandan sonra Nadir, Bisütün xan Əfşarı Təbrizin hakimi təyin etdi və Osmanlı qoşunlarından qalmış olan böyük miqdarda qəniməti də ona verdi. İlkin incikliyə baxmayaraq, Nadirin Bisütün xanı belə məsuliyyətli vəzifəyə təyin etməsini hər halda feodal dağınıqlığı və separatizmi dövründə Nadirin öz soydaşına daha çox etibar etməsi kimi qəbul etmək olar. Nadirin göstərişi ilə əfşar, müqəddəm və türkman soylarından olan 6 min nəfər köçürülüb Təbrizdə yerləşdirildi. Bundan başqa, Fars, İraq və Azərbaycan əyalətlərindən 50 min ailə Xorasan vilayətinə köçürüldü. Köçürülənlərin arasında 22 min əfşar ailəsi var idi ki, onlardan da 2 min nəfəri Nadirin özünün də mənsub olduğu Qırxlı oymağına mənsub idi. Azərbaycandan köçürülən əfşar tayfalarının bir hissəsi bu soyun üzvlərinin əvvəldən çox olduğu Kubkanda, qalanı isə Kelatda yerləşdirildi.

## 5. Əbdali əfqanlarına qarşı yeni döyüşlər

Nadir öz qoşunları ilə İraqda (bu günkü İranın cənub-qərbi nəzərdə tutulur-red.) və Azərbaycanda Osmanlı qüvvələrinə qarşı ağır döyüşlər apararkən vaxtilə ondan ağır zərbə almış əbdali əfqanları Şah Təhmasib hakimiyyətinə itaət etməkdən boyun qaçırdılar. Mərkəzi hakimiyyətə qarşı istiqamətlənmiş bu qiyamın təhrikçiləri əslində gilzayi əfqanları idilər. Nəslinə Nadir tərəfindən vurulmuş ağır zərbələrin qisa-

sını almaq üçün Qəndəhar hakimi Sultan Hüseyn Nadirə və onun qoşunlarına xəyanətin yollarını arayırdı. Nadirin gilzayi əfqanlarını Qəndəhara qədər təqib etməməsi Sultan Hüseynə hələ də Qəndəharda hakimliyi davam etdirməsinə imkan vermişdi. Nadirə qarşı təkcə silah qaldırmağın asan olmadığını yaxşı bilən Sultan Hüseyn əbdali əfqanlarını da bu yola cəlb etmək üçün fitnələr qurmağa başladı. O, əvvəlcə Herat hakimi Allahyar xanla danışıqlara girdi. Nadirin öz qoşunları ilə İsfahandan uzaqlaşıb qərbdə Osmanlı qüvvələri ilə döyüşlərə girməsi Sultan Hüseynin öz fitnəkar planlarının reallaşdırılmasını daha da asanlaşdırdı. Amma onun Allahyar xanla danışıqları heç bir nəticə vermədi. Allahyar xan Nadirə qarşı qiyam yolunu tutmağın səmərəsiz bir addım olduğunu bilirdi və ona görə də Sultan Hüseynin təkliflərini qəbul etmədi. Çox güman ki, Sultan Hüseynin adamları Herat əhalisi arasında da Nadir şaha qarşı təbliğat işləri aparırdılar. Çünki Herat camaatı Allahyar xanın Nadirə sadiq qalmasından razı deyildilər və onların çoxu Allahyar xandan üz döndərmişdi (155).

Nadirdən üz döndərmiş olan bir çox əbdali əyanları Fərəh hakimi olan Zülfüqar xanı Herat hakimliyini öz əlinə almağa çağırdılar. "Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, Allahyar xanla Zülfüqar xanın atası arasında olan ixtilaflar da Zülfüqar xan tərəfdarlarının ona qarşı sərt mövqe tutmasına səbəb oldu (156). Bir tərəfdən Sultan Hüseynin fitnələri, digər tərəfdən də Zülfüqar xan tərəfdarlarının Allahyar xana qarşı sərt mövqeyi birləşərək Allahyar xanın Herat hakimliyindən devrilməsi ilə nəticələndi. Allahyar xan müqavimət göstərməyə çalışsa da bir nəticə hasil olmadı və o, Heratı tərk etmək məcburiyyətində qaldı. Ailəsini və uşaqlarını Maruçaq qalasına gətirib sonra oranın hakimi Mövcudqulu xanla birlikdə Məşhədə, Nadirin Xorasan hakimi təyin etdiyi İbrahim xanın yanına gəldi. İbrahim xan baş verənlər və Allahyar xanın Məşhədə pənah gətirməsi barədə Nadirə xəbər yolladı. Həmin xəbər Nadirə İranın qərbində olanda gəlib çatdı. Nadir bu xəbəri narahatçılıqla qarşılasa da, İranın qərbində başladığı kampaniyanı yarımçıq saxlamadı. İbrahim xana xəbər göndərdi ki, Allahyar xana ehtiram göstərilsin. Nadir bildirdi ki, İraq və Azərbaycanda başladığı döyüşləri sona çatdırandan sonra Xorasana gələcək və Allahyar xanı yenidən Herat hakimliyinə bərpa edəcəkdir (157).

Herat əyanları toplanıb Zülfüqar xanı Herata gətirdilər və onu da bu şəhərin hakimliyinə çatdırdılar. Herat əyanları yalnız Heratı Nadirin nəzarəti altından çıxarmadılar. Onlar bu niyyətə düşdülər ki, Nadirin başı Osmanlı türkləri ilə döyüşlərə qarışdığı vaxtda elə Məşhədə də hücum etsinlər. Həm Allahyar xanı ələ keçirib qətlə yetirsinlər, həm

də Məşhədi tutsunlar. Bununla, bütün Xorasan vilayəti Herat əyanlarının əlinə keçsin. Zülfüqar xan əyanların bu xəyallarına şirnikləndi və Məşhədə hücum edilməsinə razı oldu. Ortaya atılan niyyətin həyata keçirilməsi üçün qoşun toplanmasına başlandı. Mənbələrdə Zülfüqar xanın qoşununun 8-18 min arasında olması haqqında məlumatlar vardır. Tədqiqatçılar isə Zülfüqar xanın rəhbərliyi altında 10 min nəfərlik qoşun toplandığını bildirirlər (158). Çox güman ki, Nadir əbdali əfqanlarının yenidən qiyam qaldıracağını hiss edirdi və ona görə də İsfahan əfqanlardan təmizləndikdən sonra Xorasana bir alay göndərdi ki, qardaşı İbrahim xan Məşhəddə hakimlik etdiyi dövrdə bu alaya arxalansın. Əfqanların qiyam qaldırması xəbərini Həmədanda eşidəndən sonra sərkərdəsi Bağır xanı Astrabada yolladı. Bağır xana tapşırıq verildi ki, həmin məntəqədə üç minə yaxın tüfəngdar toplasın və zərurət yaranan anda bu qüvvə İbrahim xana qoşulsun. İbrahim xana isə göstəriş verildi ki, Məşhəddə ərzaq və azuqə toplasın. Əfqanlar birdən hücum edib Məşhədi mühasirəyə alsa, orada müəyyən müddət üçün ərzaq ehtiyatı olsun. Eyni zamanda, Nadir İbrahim xana ciddi tapşırdı ki, əfqanlar hücum edəcəyi təqdirdə o, yalnız qala daxilində müdafiə mövqelərində dayansın və qaladan bayırda döyüşə qoşulmasın(159).

İbrahim xan özü də müəyyən hazırlıq görməyə çalışdı. O, ətraf məntəqələrin hakimlərinə qoşun toplamağı tapşırdı və bu istiqamətdə bəzi işlər görə bildi.

Zülfüqar xanın Məşhədə hücum etməsi mənbələrdə geniş təsvir edilmişdir.Qısaca onu qeyd etmək lazımdır ki, əvvəla İbrahim Nadirin göstərişinə əməl etmədi və Zülfüqar xanın qoşunu ilə qaladan kənarda döyüşə girdi. Ola bilsin ki, İbrahim xan qüvvələrinin kifayət qədər yetərli olduğuna əmin idi və ona görə də döyüşə girdi. Burada qarşı tərəflər arasında bir neçə döyüş baş verdi. Bütünlükdə, bu döyüşlər İbrahim xanın uğursuzluğu və əfqanların Məşhəd qalasının mühasirəsini daraltması ilə nəticələndi. İbrahim xan Nadirin göstərişini yerinə yetirmədiyindən xeyli peşman oldu. Nadirin oğlu Rzaqulu Mirzənin vasitəsilə Nadirə vəziyyətin təhlükəli olması barədə məktub göndərildi. Qalanın mühasirəsi xüsusilə ağırlaşanda Nadirin yanına yenidən çaparlar göndərildi. Azuqə arxasınca qaladan bayıra çıxan Məşhəd sakinlərini əsir götürən Zülfüqar xan Nadirin yanına çaparlar göndərilməsini eşidəndə qorxuya düşdü. O, Nadirin Məşhədə gələcəyi təqdirdə əfqanların daşını daş üzərində qoymayacağını anladı və qoşunlarını toplayıb Herata tərəf geri çəkildi.

Təbrizi və onun ətrafını Osmanlı qoşunlarından təmizlədikdən və müəyyən müddət istirahətdən sonra Nadir qoşunları ilə Naxçıvan və

İrəvana doğru hərbi yürüş etmək niyyətində idi. Amma əfqanların Məşhədə hücumu barədə İbrahim xanın məlumatını alandan sonra Nadir fikrini dəyişməli oldu. Bununla bağlı, o, sərkərdələrinin də müşavirəsini keçirdi. Azərbaycanda olduğu halda buradan Naxçıvana və İrəvana yürüş etmək Nadir üçün daha asan idi. Amma Xorasan kimi böyük və xüsusi əhəmiyyət kəsb edən bir vilayətin yenidən düşmən işğalı altına düşməsi onun planlarına ağır zərbə ola bilərdi. Nadirin sərkərdələri də əfqanlara qarşı təcili tədbirlərin görülməsi zəruriliyini qeyd etdilər. Onda Nadir məktub yazdırıb çaparlar vasitəsilə Məşhədə göndərdi və İbrahim xana bildirdi ki, ən yaxın vaxtlarda qoşunla Xorasana gələcəkdir.

1730-cu il avqust ayının 16-da Nadir Təbrizdən Məşhədə doğru hərəkətə başladı (160). O, hətta şəxsi əşyalarını da sərkərdələrinə tapşırdı ki, onun sürətli hərəkətinə mane olmasın. Nadir istəyirdi ki, mümkün qədər tez Məşhədə yetişsin. Ondan xahişlər edilsə də, Nadir yol boyu uzunmüddətli istirahətlərə dayanmadı. Qəzvinə çatandan sonra ona xəbər gətirdilər ki, əfqanlar Məşhədin mühasirəsini dayandırıb Herata dönüblər. Bu xəbər Nadiri bir qədər sakitləşdirdi. Hətta həmin xəbər çatandan sonra Təbrizdən olan sərkərdələr Nadirə yenidən Təbrizə dönməyi və qarşıdakı qışı da orada keçirməyi təklif etdilər. Çünki Nadir orada olsaydı, Osmanlı sərkərdələri bir də Təbrizə hücum etməyə cürət etməzdilər. Təbriz sərkərdələri onu da əlavə etdilər ki, Nadirin Təbrizdə olduğu müddətdə 100 min tümən maliyyə vəsaiti toplanıb xəzinəyə köçürüləcəkdir. Bu təkliflə bağlı Nadir yenidən sərkərdələrinin müşavirəsini keçirdi və onlarla məsləhətləşdi. Məşhədin mühasirəsinin dayandırılması Təbriz sərkərdələrinin təklifinin qəbul edilməsini mümkün edirdi. Bununla belə, sərkərdələr Məşhədə doğru hərəkət etməyin zəruriliyini qeyd etdilər. Onlar bildirdilər ki, Məşhədə hücum vaxtı xeyli adam öldürülüb, Nadirə sədaqətli qalmış orduya böyük itki yetirilib. Buna görə Məşhəd qarnizonu hazırda yorğun və çaşqın vəziyyətdədir. Nadir Məşhədə hərəkətini təxirə salarsa həm oradakı qarnizonun, həm də yerli əhalinin ümidsizliyi daha da güclənə bilər. Əksinə, Nadirin gəlməsi ilə onların əhval-ruhiyyəsi daha da dirçələr (161).

Qəzvində olarkən Nadir başqa bir xəbər də aldı ki, Osmanlı dövlətinin baş vəziri sülh danışıqlarının aparılması üçün Məhəmməd ağa adlı elçisini Nadirin yanına göndərib. Nadir elçi göndərilməsinə və Osmanlı sarayının onunla sülh danışıqları aparması niyyətinə çox sevindi. Amma onun nə Qəzvində oturub elçini gözləməyə vaxtı var idi, nə də geri qayıdıb Təbrizdə onunla görüşmək vaxtı. Ona görə göstəriş

verdi ki, Osmanlı elçisi Təbrizə daxil olan kimi onu Xorasana göndərsinlər (162).

Oradan Nadir yenidən Məşhədə doğru hərəkətini davam etdirdi. Mazandaran-Astrabad yolu ilə hərəkət edən Nadir 35 gündən sonra Nişapura çatdı. Nadir Məşhəd ətrafında vəziyyətin mürəkkəbləşməsinə, Məşhəd qarnizonunun qaladan kənara çıxaraq əfqanlarla döyüşə girməsinə görə qardaşı İbrahim xandan çox qəzəbli idi. Ona görə xəbər göndərdi ki, o gələnə kimi, İbrahim xan Məşhədi tərk etsin və Əbivərdə yollansın.

Nadir Məşhədə daxil olan kimi bir başa İmam Rzanın məqbərəsinə yollandı, onu ziyarət etdi. Sonra Çaharbağda yerləşib şəhər əyanlarını hüzuruna çağırdı, əfqanların hücumu, bu hücuma qarşı döyüşçülərin müqaviməti, kimlərin yaxşı döyüşməsi, kimlərin qorxaqlıq göstərməsi barədə ətraflı məlumat aldı, vəziyyətdən agah oldu. Əfqanlara qarşı döyüşdə fərqlənənləri mükafatlandırdı, qorxaqlıq göstərənləri isə cəzalandırdı. Ardınca da qoşunlara bir neçə günlük istirahət verdi ki, Herat yürüşünə yaxşı hazırlıq görsünlər. Elə bu vaxtlarda ona xəbər çatdırıldı ki, Tecən atrafındakı Ərsarı, Tək, Yəmut və başqa tayfalar böyük dəstə təşkil edib Əbivərd və onun ətrafına basqınlar edirlər. Nadir qərara aldı ki, Herat yürüşündən əvvəl həmin tayfalara dərs versin və eyni zamanda doğma yerlərə də baş çəksin. O özü əvvəlcə 100 nəfərlik bir dəstə ilə Dərgəzə gəldi, orada qardaşı İbrahim xanla da görüşdü (163). Səhəri gün isə Nadir bütün dəstəsi ilə Tecənə yollandı və orada talanla məşğul olan tayfaların üstünə hücum çəkdi. Nadir burada da şəxsi nümunəsi ilə ətrafındakıları yerli tayfaların üzərinə ruhlandırdı. Onun daimi silahı olan əmudu havada cövlan etdikcə neçə-neçə qiyamçının həyatına son qoyuldu, talanlarla məşğul olan tayfalara ciddi zərbə endirildi. Bu tayfalar zərərsizləşdiriləndən sonra Nadir bir neçə gün də İbrahim xanla birlikdə Əbivərd və Kelatda qalıb Məşhədə döndü.

Mənbələrdə olan məlumatlardan belə bir qənaətə gəlmək mümkündür ki, Əbivərd və Kelatda olmaqla Nadir nəinki fiziki cəhətdən, hətta mənəvi baxımdan da istirahət etdi, doğma yerləri ziyarət etməkdən daxili bir rahatlıq keçirdi. Ətraf məntəqələrdən çoxlu usta toplatdırıb doğma Kelat qalasının təmirinə sərəncam verdi. Məşhəddə olduğu vaxt isə Nadir oğlu Rzaqulu Mirzə üçün möhtəşəm bir toy etdi, ona Şah Təhmasibin bacısını aldı.

Şəxsi, ailə-məişət işlərini, qoşunların sıralarının təkmilləşdirilməsini başa vurandan sonra Nadir əsas diqqətini başlıca məsələ, əbdali əfqanlarının itaətə gətirilməsi məsələsi üzərində cəmləşdirdi.

Nadirin Məşhədə gəlməsi Heratı ələ keçirmiş Zülfüqar xanı ciddi təşvişə saldı. O bir müddət yuxarıda toxunulan işlərə vaxt sərf etsə də Zülfüqar xan şübhə etmirdi ki, Nadir üzünü Herata sarı da çevirəcəkdir. Buna görə o da müəyyən hazırlıq işləri görməyə çalışırdı. Ona yardım edə biləcək yeganə adam Qəndəhar hakimi, Mahmud Gilzayinin qardaşı Sultan Hüseyn idi və ona görə də ona müraciət etdi. Sultan Hüseyn də Nadirin qəzəbindən və Nadirin bir gün onun da üstünə qoşun çəkəcəyindən qorxurdu. Buna görə də o, böyük bir dəstə silahlandırıb Zülfüqar xanın yardımına göndərdi. Amma nədənsə o eyni zamanda Nadirin özü ilə də əlaqə yaratmaq fikrinə düşdü. Nadirin yanına adam göndərərək ondan Mahmudun əsir götürdüyü oğlunu, xanımını və bir neçə başqa şəxsi azad etməyi xahiş etdi. O isə əvəzində yanında əsirlikdə olan Səfəvi sarayının iki xanımını azad etməyə söz verdi. Nadir onun təklifini qəbul etdi və adları çəkilən əsirlər tərəflər arasında dəyişdirildi. Çox güman ki, Nadir əsirlərin dəyişdirilməsindən əlavə ilıq bir münasibət göstərməklə Sultan Hüseyni Zülfüqar xandan aralamaq istəyirdi. Belə zənn etmək olar ki, Nadirin xoş münasibətindən sonra Sultan Hüseyn Nadirə qarşı qiyam yolunu tutan Zülfüqar xanı müdafiə etməyəcəkdir. O hətta dəstəsi ilə Fərəhdən Qəndəhara yola düşdü. Amma çox keçmədi ki, Sultan Hüseyn Zülfüqar xanla birlikdə Nadirə qarşı cəbhə tutmaq yolunu seçdi və bunun nəticəsi kimi tanınmış sərkərdəsi Seydal xanın rəhbərliyi altında 2-3 minlik bir dəstəni Zülfüqar xanın yanına göndərdi (164).

Mənbələrdə yazılanlardan görünür ki, Nadir Herat üzərinə hücuma çox ciddi hazırlaşırdı. Həmin hücum 1731-ci ilin novruz bayramından sonraya təsadüf edir. Hazırlıq işlərinin aparılması üçün Nadir kifayət qədər vaxta malik idi. Hazırlıq dövrünün nə üçün bu qədər uzanması barədə mənbələrdə məlumata rast gəlmək mümkün deyil. Bunu havalarla da əlaqələndirmək olar, əbdali əfqanlarının ciddi qüvvəyə malik olması ilə də, Nadirin doğma yerlərdə daha çox istirahət etmək istəyi ilə də. Hər halda uzun hazırlıq dövrünü başa vurandan sonra Nadir yürüşə başlamaq əmri verdi. Həmişə olduğu kimi marş zamanı Nadir öz qüvvələrinin mühafizəsini təmin etdi, əsas qüvvələr üçün avanqard və qarovul dəstələri yaratdı. Bütünlükdə isə, qüvvələr üç sütunda qruplaşdırıldı. Həmin sütunlar elə qruplaşdırılmışdı ki, hər biri ayrı-ayrılıqda müstəqil döyüş aparmaq imkanına malik idi. Hər üç sütunun sağ və sol cinahı, nizədarlardan ibarət pusquda dayananları, tüfəngdarları, topları və zənburəkləri olmaqla 6 günlük azuqə ehtiyatı var idi. "Aləm Ara-ye Naderi"yə görə, Nadirin qoşununun sayı 36 min nəfər idi və onların əsasını əfşarlar, mərvilər, qaracurlular, qacarlar, bayat-

lar, bəğayirilər və digər soylar təşkil edirdilər. Göründüyü kimi, Nadir əvvəllər olduğu kimi bu döyüşdə də əsasən türk soylarına arxalanırdı. Məşhəddən yola düşməzdən əvvəl Nadir yenə İmam Rzanın məqbərəsini ziyarət etdi (165).

Nadir qəti qələbənin əldə edilməsi üçün iki istiqamətdən Zülfüqar xana zərbə vurmağı planlaşdırdı. Əsas zərbə Nadirin özünün rəhbərliyi və iştirakı ilə Herat ətrafında vurulmalı idi. Digər zərbə isə Fərəhdə toplanmış əfqan qüvvələrinə vurulmalı idi ki, oradan Zülfüqar xana kömək göstərmək cəhdlərinin qarşısı alınsın. Bu məqsədlə sərkərdəsi Məhəmməd bəy Mərvini bir alay qüvvə ilə Fərəh istiqamətinə göndərdi. Eyni zamanda Yəzd və Kerman hakimi olan İmamverdi xana da məktub göndərdi ki, rəhbərliyi altında olan qüvvələrlə Fərəhə doğru istiqamət götürsün, Məhəmməd bəy Mərvinin dəstəsi ilə birləşsin və birlikdə Fərəh qalasını ələ keçirsinlər (166).

Herata doğru hərəkət zamanı Nadir marşrutu üzərində olan və hələlik onun nəzarəti altında olmayan qalaları və məntəqələri də nəzarət altına götürdü. Herat üzərinə qəti hücumun təşkil edilməsi üçün bu şəhərdən üç fərsəng məsafədə olan bir yerdə qoşunlar düşərgə saldı.Nadir qoşunları üç gün həmin məntəqədə istirahət edib həlledici döyüşlərə hazırlaşdılar. Nadirin qoşunlarının Herat ətrafına çatması haqqında Zülfüqar xana da məlumat verildi. Həmin xəbəri alan kimi Zülfüqar xan Herat ətrafındakı əhalini qala daxilinə köçürdü, qalanın möhkəmləndirilməsi tədbirlərinə əl atdı. Qala möhkəmləndiriləndən sonra Zülfüqar xan Nadirlə qarşılaşmaq üçün qoşunu ilə qalanı tərk etdi. Nadir də öz qoşunu ilə onun qarşısına yollandı. O özünün parkını, yüklərini, təchizatını Xaf adlanan qalada saxladı və topların müşayiəti ilə qoşununu Herat döyüşünə çıxardı. Nadir əvvəlcə Kafirqala ərafında döyüşqabağı mövqe tutmaq və əfqanları da orada qarşılamaq istədi. Buradan axan çay döyüşçülərin içməli suya olan ehtiyacını ödəyə bilərdi.Amma əfqanlar o yerlərə gəlib çıxmadılar. Onda Nadir mövqeləri dəyişdirmək və qoşunlara irəli hərəkət etmək əmri verdi. Nadirin qoşunları Kövsan kəndinə kimi hərəkət etdi. Bura çatanda isə məlum oldu ki, yaxınlıqdakı çayın sahilləri əfqanlar tərəfindən nəzarət altına alınıb. Əfqanlar eyni zamanda cinahlardan birinin qorunması üçün çaya sığınmışdılar. Bu cəhət Nadirin işini çətinləşdirsə də böyük əzmkarlıqla döyüşün hazırlanmasına başladı. Nadir qarşıya qoyulan tapşırığın uğuruna nail olunması üçün bu dəfə də döyüşə ən təcrübəli sərkərdələrini cəlb etdi: Kəlbəli xan, İmamverdi xan Əfşar, Rəhim xan Gəraylı, Məhəmməd Sultan Qaracurlu, Şahqulu bəy Mərvi, Rzaqulu bəy, Pir Məhəmməd Mərvi və başqaları. Zülfüqar xan da uğur

qazanacağına ümidini itirməmişdi və inanırdı ki, əbdali və gilzayi döyüşçüləri onun qələbəsinə kömək edəcəklər. Döyüşün səmərəli aparılması üçün o, topları qoşunların ön hissəsində yerləşdirdi (167).

Döyüş də elə hər iki tərəfin top atəşləri ilə başladı. Onların ardınca piyada və süvarilərin irəli atılması ilə döyüş xeyli qızışdı. Hər iki tərəfdən son dərəcə ciddi iradə və müqavimət göstərildi. Nadirin böyük əzmkarlığına baxmayaraq əfqanların müqavimətini qırıb onlara əsaslı zərbə endirmək mümkün olmadı. Hər iki tərəfin eyni əzmkarlıqla vuruşmasına görə gün ərzində hansı tərəfin daha çox uğur qazandığını müəyyənləşdirmək də çətin oldu. Nadir əfqanların bu döyüşə xüsusi hazırlıq apardığını bilirdi, amma onların belə müqavimət göstərəcəyini heç şübhəsiz ki, gözləmirdi. Mənbələrin yazdığına görə, belə bir məqamda Nadir Allah dərgahına əl qaldırdı, qarşılaşdığı güclü düşmənə qalib gəlmək üçün ondan yardım istədi. Bu dualarından sonra Nadir yeni bir qüvvə və əzmkarlıqla döyüşə atıldı, qoşunları düşmən üzərinə qaldırdı. Nəticədə, Nadir əfqanların müdafiəsini yarıb onları bir mil geri çəkilməyə məcbur etdi (168).

Yenə mənbələrin verdiyi xəbərə görə, həmin günün gecəsi Herat ətrafında güclü tufan qopdu. Tufan elə bir şiddətə malik idi ki, toz dumanından nə bir yanı görmək, nə də bir yana hərəkət etmək mümkün idi.Nadir göstəriş verdi ki, qoşun səngərlərə sığınsın, daldalanmaq üçün top və tüfənglərdən istifadə etsinlər və dayandıqları yerdən uzaqlaşmasınlar. Zülfüqar xan isə istədi ki, bu hava şəraitindən faydalansın və xüsusi bir dəstənin vasitəsilə Nadir qoşunlarına zərbə endirsin. “Tarix-e Cahanqoşa-ye Naderi”yə görə. bu dəstəyə Seydal xan, “Aləm Ara-ye Naderi”yə görə isə, Əmənulla xan rəhbərlik edirdi. Əfqanlar gecə ikən çaydan keçib Nadir qoşunları üzərinə qəfil hücuma atıldılar. Bu qəfil hücum gecə istirahətində olan Nadir qoşunlarını vəlvəlyə saldı. Xüsusilə, qoşunların mühafizə dəstələri qəfil zərbə altına düşdülər. Bu basqın həyata keçiriləndə Nadir özü də yuxuda idi. Əfqanlar hətta onun çadır qurduğu uçuq bürcü də mühasirəyə aldılar. Nadir yanında olan 8 nəfər tüfəngdarla müdafiə mövqeyi tutdu. Eyni zamanda qoşunlara əmr etdi ki, səngərlərdən bayıra çıxan olmasın və yalnız tüfəng atəşləri ilə əfqanlara cavab verilsin. Həmin gün Nəcəfsoltan Qaracurlunun dəstəsi qoşunların mühafizəsinə məsul idi. Bu dəstə əfqanların ilkin zərbəsini öz üzərinə götürdü və göstərilən əzmkarlıqdan sonra əfqanları geri qovmaq mümkün oldu (169).

“Tarix-e Cahanqoşa-ye Naderi”yə görə, səhəri gün döyüş yenidən davam etdirildi. “Aləm Ara-ye Naderi”yə görə, səhəri gün də külək və tufan davam etdi. Hər iki tərəf belə havada döyüşə girməyin mənasız

olduğunu qəbul etdilər. Nadir qoşunları isə çətin hava şəraiti ilə birlikdə həm də su çatışmazlığı ilə qarşılaşdı. Yaxınlıqdakı su mənbəyi əfqanların nəzarəti altında olduğundan Nadir seçim qarşısında qaldı. Su mənbəyinə yaxın bir yerə çəkilsin, yoxsa səngərləndiyi mövqelərdə dayansın. Çünki çətin hava şəraitində qoşunların geri çəkilməsi son dərəcə təhlükəli idi. Tufan zamanı qüvvələrin dağılması onlara yetirilən itkiləri artıra bilərdi. O, sərkərdələri ilə məsləhətləşdikdən sonra yerləşdikləri düşərgədə su quyusu qazmağı əmr etdi və təsadüfən çox da böyük olmayan dərinlikdə şirin su mənbəyi aşkar edildi. Bununla da, Nadir qoşunlarının rastlaşdığı ciddi bir problem həll edildi (170).

O biri gün havalar sabitləşəndə Zülfüqar xan böyük bir ruh yüksəkliyi ilə qoşununa hücum əmr verdi. O güman edirdi ki, həm pis hava şəraitindən, həm də susuzluqdan əldən düşmüş Nadir qoşununa üstün gəlmək heç də çətin olmayacaqdır.Nadirin düşərgəsi istiqamətində Sağ Salman qalasını ələ keçirməsi və oranı istinad bazasına çevirməsi Zülfüqar xanı xüsusilə ruhlandırdı. Amma onun niyyətləri Nadirin işlətdiyi taktika qarşısında ümidsiz bir arzuya çevrildi. Ən çətin şəraitdə, ən səmərəli variantı seçmək və qoşununu da qəbul etdiyi qərarın icrasına səfərbər etmək bacarığı Nadirə bu dəfə də uğur gətirdi.

Qeyd edildiyi kimi, Nadir qoşunları əsasən səngərlərdə yerləşdirilmişdi. Onların önündə toplar və zənburəklər yerləşdirildi. Qaracurlu və Mərv döyüçülərindən ibarət 3 min nəfərlik nizədarlar dəstəsi ehtiyatda saxlanıldı. Mirabutalıb xanın və İsmayıl xan Xəzimənin rəhbərlik etdiyi üç min nəfərlik tüfəngdarlar dəstəsi Nadir tərəfindən hələ gecə ikən əfqanların yolu üzərində pusquya yerləşdirildi. Əfqanlar hücuma atılandan sonra bu dəstə pusqudan çıxaraq onlara arxadan hücum etməli və bununla da əfqanlar mühasirəyə düşməli idilər. Nadirin planında qoşunların əsas hissəsinin qarşısında və ətrafında yerləşdirilmiş artilleriya, cəzayirçilər və tüfəngdarlara böyük ümidlər bağlanılırdı. Döyüşün gedişi də göstərdi ki, Nadir bu ümidində heç də əbəs deyildi və artilleriya ilə tüfəngdarların fəaliyyəti düşünülən planın həyata keçirilməsində xeyli səmərəli oldu.

Zülfüqar xanın dörd dəstəyə bölünmüş qoşunu irəli atıldı. Nadir əsas qüvvələrinə 20 metr qalana kimi əfqanların irəliləməsinə imkan verdi. Onları ilk qarşılayan artilleriya və tüfəngdarlar oldu. Nadirin əmri ilə tüfəngdarlar bir dizini yerə qoyaraq döyüş mövqeyi tutdular və iki istiqamətdən əfqanların üzərinə güllə yağdırdılar. Bir tərəfdən də top atəşləri qarşı tərəfə endirilən zərbəni gücləndirdi. Əfqanlar yenə iradə nümayiş etdirdilər, Nadirin məharətli taktikasından itkilərlə üzləşsələr də irəliyə hərəkət etməkdən çəkinmədilər. Amma pusquda

dayanan qüvvələrin arxadan döyüşə qoşulması əfqanların bütün cəhdlərini nəticəsiz qoydu. Onların geri çəkilməkdən başqa yolu qalmadı. Baxmayaraq ki, geri çəkilmək də onlara asanlıqla başa gəlmirdi. Böyük itkilər verəndən sonra Zülfüqar xan Herata çəkilib oradakı qalaya sığındı (171).

Nadir bu ağır, amma gərəkli qələbənin əldə edilməsində xidməti olanları mükafatlandırdı, onlara qayğı və ehtiram göstərdi. Zülfüqar xanın nəfəs çəkməsinə imkan verməmək üçün Herat qalasına doğru irəlilədi və qalanın bir fərsəngliyində olan Malan körpüsünün yaxınlığında düşərgə saldı. Nadir əvvəlcə qoşunların mühafizəsini təmin etdi və sonra da sərkərdələrə tapşırıq verdi ki, müdafiə mövqelərində möhkəmlənsinlər. Eyni zamanda Məhəmməd xan Qaracurlu və Pəhləvan bəy Mərvinin rəhbərliyi altında 300 nəfərlik bir dəstəni Herat qalası ətrafına kəşfiyyata göndərdi. Bu dəstəyə kəşfiyyat işləri aparmaq, əfqanların niyyətlərini aydınlaşdırmaq tapşırıldı. Mənbələrə görə, bu dəstənin qalaya yaxınlaşmağını əfşarlar müşahidə edə bilmişdilər. Zülfüqar xan ağır zərbə alandan sonra geri çəkilmək məcburiyyətində qalsa da Qəndəhardan ona hərbi qüvvə göndərilməsini eşidəndə bir qədər ruhlandı. Bu əhval-ruhiyyə dəyişikliyini o öz qoşununa da təlqin etməyə, döyüşçülərinin son nəfəsədək vuruşmasına nail olmağa çalışdı.Ona görə də Zülfüqar xan istirahət üçün çox vaxt ayırmadan qoşunlara növbəti döyüşə hazırlaşmaq əmri verdi. Nadirin kəşfiyyat dəstəsilə rastlaşan əfqanların qarovul dəstəsi idi. Həmin dəstələr arasında kiçik bir döyüş oldu və əfqanlardan götürülən əsirlərlə dəstə geri qayıtdı. Bu əsirlərdən alınan məlumatlarla Zülfüqar xanın yaxın döyüşlər üçün niyyətləri müəyyənləşdirildi (172).

Kəşfiyyat dəstəsinin geri qaçmasından sonra Nadir, Kəlbəli xan Əfşarın rəhbərliyi altında 1500 nəfərlik avanqard dəstəni irəli hərəkət etdirdi. Bu dəstə daha böyük sayda əfqan dəstəsinin hücumunun qarşısını almaq üçün göndərilmişdi. Çünki Nadirə artıq bəlli idi ki, Zülfüqar xan da yeni döyüşə hazırlaşır. Ancaq gün ərzində Zülfüqar xan hücuma keçməyə cəsarət etmədi. Onda Nadir düşərgənin mühafizəsinin daha da gücləndirilməsi və gecə hücumlarının qarşısının alınması üçün əlavə tədbirlər gördü. Nəcəfsoltan Qaracurlunun, Səlim bəyin, Pəhləvan bəy Mərvinin rəhbərliyi altında düşərgənin mühafizə dəstəsi ayrıldı. Qala ətrafında patrul xidmətini yerinə yetirməli olan bir dəstə də əfqanlar tərəfindən yaradıldı. Hər iki tərəfdən yaradılan bu dəstə həm patrul-qarovul xidmətini yerinə yetirməli, həm də qarşı tərəfin qəfil hücumlarının qarşısını almalı idi. Gecənin qaranlığında bu iki dəstə təsadüfən üz-üzə gəldi və onların arasında çox da uzun

sürməyən bir döyüş oldu. Nadir gecəliklə mühafizə dəstəsinin mövqelərinə gəlib döyüşçülərə və sərkərdələrə tapşırdı ki, gün çıxana kimi dünyanın bütün qılıncları yağsa da, od–alov püskürsə də kimsə yerindən tərpənməməlidir (173).

Nadirin belə bir tapşırığını alan sərkərdələr səhərə kimi yerlərindən tərpənmədilər. Səhəri isə Nadir qoşunları ilə Zülfüqar xan qoşunları arasında daha bir döyüş alovlandı. "Aləm Ara-ye Naderi"yə görə, bu döyüş üç gün davam etdi. Malan körpüsü ətrafında Nadir üç gün ərzində əfqanların müqavimətini qırmağa cəhd etdi. Bu döyüşlər barədə ətraflı məlumat mövcud olmasa da, Nadirin üç gün ərzində əfqanların sərt müqavimətini qıra bilməməsi həmin döyüşün böyük gərginliklərindən xəbər verir. Artilleriyanın və tüfəngdarların fəaliyyətinə xüsusi diqqət yetirilməsi, Nadir dəstələrinin əfqan qoşunlarının arasına girib ölüm-dirim mübarizəsinə qatlaşması, süvarilərin sürətli hücumu, piyadaların yorulmazlığı Nadir qoşunlarının qələbə əzmini nümayiş etdirsə də, düşmən də güclü olaraq qalmaqda idi. Bu günlər ərzində Nadir istirahət bilmədən əzmkarlıq göstərdi. O hətta döyüş günü başa çatandan sonra da döyüş meydanını gəzir və müşahidələrini aparırdı. Mövcud olan məlumatlara görə, Nadir bir gün öz əsləhəsini çadırda qoyub yenidən müşahidəyə yollananda onun çadırında əfqanların topdan atdığı mərmi partladı. Yalnız çadırdan azacıq aralanması Nadirin həyatını ölümdən xilas etdi (174).

Bununla belə, yenə də Nadir mübarizliyində davam etdi. Əfqanlar son nəfəsədək vuruşmağa cəhd göstərsələr də, Nadir qoşunlarının mübarizliyi qarşısında duruş gətirə bilmədilər. Onların geriləməsi Nadir qoşunlarının sərt təqibi ilə müşayiət olundu. Qarşıdakı Rudab çayını keçmək əsnasında da əfqanlar xeyli itki verdilər. Sağ qalanlar isə Herat qalasına daxil olub orada özlərinə sığınacaq tapdılar.

Həmin günlərdə Fərəhdə toplanmış əfqan qüvvələrinə də güclü zərbə endirildi və oradakı gərgin döyüşlərdən sonra Fərəh də Nadir qüvvələri tərəfindən nəzarət altına alındı. Fərəhin itirilməsi Zülfüqar xana yeni bir zərbə olsa da o, müqavimətdən əl çəkmədi. Qalanın müdafiə imkanlarından bəhrələnməklə Zülfüqar xan müdafiə mövqelərində dayansa da bunun çıxış yolu olmadığını anladı. O, Nadirlə növbəti döyüşlərə girmək niyyətindən hələ əl çəkməmişdi və qoşunu da bu ruhda kökləməyə çalışırdı. Çünki Zülfüqar xan ya qalanın mühasirəsini günü-gündən daraldan Nadirə təslim olmalı idi, ya da döyüşlə Nadiri geri çəkilməyə məcbur etməli idi. Nadir isə sözsüz ki, əbdali əfqanlarına ciddi dərs verməyincə, Heratı yenidən nəzarət altına almayınca geri çəkilmək barədə düşünmürdü. Nadir hər gün qalanın dövrəsini

fırlanır, müşahidələrini aparır və qalanın ələ keçirilməsi yollarını arayırdı. Qalaya aparan bütün gediş-gəliş yolları nəzarət altına götürüldü. Belə vəziyyətdə uzun müddət qalmağın mümkün olmayacağını anlayan Zülfüqar xan bir dəfə qalanın şərq tərəfindən Nadir qoşunları üzərinə hücuma keçməyə cəhd göstərdi. Həmin cəhdin qarşısı elə qətiyyətlə alındı ki, əfqanlar yenidən qalaya çəkilməklə canlarını qurtardılar. Çayı adlayarkən hətta Zülfüqar xan da atdan yıxılıb xəsarət aldı. Bir dəfə isə bir əfqan alayı qaladan çıxıb duz gətirilməsi üçün yola düşsə də, Nadir qüvvələri tərəfindən güclü zərbə alıb geri qayıtdı (175).

Nadir qalada mühasirə olunmuş qüvvələrin xilası üçün heç bir şans vermədi və onların mühasirəni yarmaq cəhdlərinin hamısının qarşısı alındı. Bu yolla Herat qalası 6 ay mühasirədə saxlanıldı. Bu müddət ərzində mühasirədə olan əfqanlardan gizli yollarla qaladan qaçanları da az olmadı. Zülfüqar xanın bundan xəbəri var idi və artıq başa düşürdü ki, qurtuluş imkanları azalmaqdadır. Buna görə o bir də bütün qüvvələrini səfərbər edib şansını sınamaq qərarına gəldi.

"Aləm Ara-ye Naderi"nin məlumatına görə, son döyüşə Zülfüqar xan 20 minlik bir qoşun çıxara bildi. Əmənulla xanın rəhbərliyi altında olan əsas əfqan qüvvələri Heratın mühasirəsində dayanmış Kəlbəli xanın səngərlərinə hücum çəkdilər. Bu vaxt Nadir yaxınlıqdakı tikililərdən ən hündürünün üstünə qalxıb Heratı müşahidə edirdi və əfqanların qaladan çıxıb Kəlbəli xanın səngərlərinə doğru istiqamət götürməsi də onun nəzərlərindən qaçmadı. Əfqanların gözlənilməz hücumunun qarşısını almaq üçün dərhal carçılar vasitəsilə qoşunlara döyüşə hazırlıq əmrini çatdırdı. Nadirin əsas qüvvələri ilə Kəlbəli xanın səngərləri arasında bir çay axırdı. Həmin çayı keçmək çox vaxt aparacağı üçün Nadir yanındakı həmişəkeşik dəstəsi ilə dərhal irəli atıldı. Nadir güman edirdi ki, o biri qüvvələr hücuma hazırlaşana qədər həmişəkeşik dəstəsi əfqanların qəfil hücumunu müəyyən qədər səngidə bilər. Amma Nadirin gözləmədiyi halda həmişəkeşik dəstəsi başqa bir əfqan dəstəsinin pusqusuna düşdü. Buna baxmayaraq, həmişəkeşik dəstəsi sayca üstün olan əfqanların hücumunun qarşısını ala bildi. Onların mətanəti əfqanları məcbur etdi ki, Zülfüqar xandan əlavə kömək istəsinlər. Əfqanlara belə bir kömək göndərildi. Nadir də dəstələrinə çayı adlayıb həmşəkeşik dəstəsinə kömək göstərməyi tapşırdı. Amma Nadirin sərkərdələrindən olan Nəcəfsoltanın çayı adlayarkən ləngliyə yol verməsi həmişəkeşik dəstəsini çətin vəziyyətə saldı. Nadirin bu seçmə dəstəsi əfqan qoşunlarının qarşısını saxlaya bilmədi və itki verərək çaya doğru geri çəkildi. Nadirin kömək üçün

göndərdiyi dəstələrin yetişməsi ilə əfqanlara qarşı müqavimət güclənsə də həmişəkeşik dəstəsi ağır zərbə almalı oldu (176).

O biri tərəfdən Kəlbəli xanın dəstəsi yerləşdiyi səngərlərdə əfqanların mühasirəsinə düşdü. Kəlbəli xanın səngərindən Səlim bəyin və Pəhləvan bəy Mərvinin rəhbərliyi altında olan 500 nəfərlik dəstənin ot-ələf ardınca getməsi sərkərdələrin vəziyyətini daha da ağırlaşdırdı. Kəlbəli xan  əfqanların hücumunun qarşısını almağa cəhd göstərsə də sayca üstün olan əfqanlar tərəfindən əhatəyə alındı. Vəziyyətin belə mürəkkəbləşdiyini görəndə Nadir müşahidə nöqtəsindən enib döyüşə atılmağı qərarlaşdırdı. Yalnız onun müdaxiləsi, qoşunların qüvvəsini bir istiqamətə çevirə bilməsi güclü düşmənin təzyiqlərinə son qoya bilərdi. O, yasavulları vasitəsilə Səlim bəylə Pəhləvan bəyin dəstəsini yanına çağırdı və onlara Kəlbəli xana kömək göstərməyi tapşırdı. Səlim bəylə Pəhləvan bəy Kəlbəli xanın mövqelərinə o vaxt çatdılar ki, orada mühasirəyə düşmüş Nadir döyüşçülərinin artıq son nəfəsləri idi. Belə bir anda əfqanlara arxadan vurulan zərbə Kəlbəli xana nicat verdi.Hətta əfqanlar özləri də çaş-baş qaldılar.Onlar belə güman etdilər ki, arxadan zərbə vuran, Nadirin  özünün rəhbərlik etdiyi dəstədir və Nadirin zəhmi onların canına qorxu saldı. Nəticədə, həmin istiqamətdə əldə edilən üstünlük digər mövqelərdə də təşəbbüsün əldə edilməsinə yol açdı. Səlim bəy öz atlıları ilə əfqanları Heratın qapılarına qədər təqib etdi və qala divarları qarşısında daxildən atılan tüfəng gülləsinə hədəf oldu (177). Onun ölümü Nadiri son dərəcə kədərləndirdi. Çünki onun şəxsində Nadir ən yaxşı sərkərdələrindən birini itirdi.

Nadir bu dəfə də qətiyyətli və sürətli hücumu ilə döyüşün gedişini öz xeyrinə dəyişdi və qələbəni əldə edə bildi. Kifayət qədər gücə və bir sıra mövqe üstünlüklərinə malik olan düşmənin bütün istiqamətlərdə nəfəsi kəsildi. Mənbələrin təbirincə deyilsə, əfqanlar Nadir tərəfindən qəhr və qətl edildi, sağ qalanlar da itaət altına gətirilərək Nadirin qoşunlarına qatıldı (178).

Zülfüqar xan bu ağır zərbədən sonra yenidən Herat qalasına sığındı. Nadirin qarşısında duruş gətirə bilməyəcəyini və müqavimətin davam etdirilməsinin mənasızlığını görüb Allahyar xanın yanına bir neçə nümayəndə göndərdi ki, onun vasitəsilə Nadirlə sülh bağlasın. Allahyar xan da vasitəçilik etməyə razı oldu və Zülfüqar xanın niyyətini Nadirə çatdırdı (179).

Amma Zülfüqar xan ikiüzlü siyasətə əl atdı. O, Nadirin qarşısında taqət gətirə bilmədiyi üçün onunla sülhə getməyə məcbur idi. Əslində isə, o, Nadirə zərbə vurmaq üçün yollar arayırdı. Bu ümidlə o bir də Qəndəhar hakimi Sultan Hüseynin yanına nümayəndə göndərdi və

ondan xahiş etdi ki, millət və məzhəb xatirinə hərbi yardım göstərsin və həmin hərbi yardıma arxalanaraq Nadirin hücumlarından xilas olsun. Sultan Hüseyn bu xahişi eşidəndən sonra sərkərdələrini başına topladı və Herata kömək göndərilməsi məsələsini onlarla məsləhətləşdi. Sultan Hüseyn belə bir köməyin göstərilməsinə tərəfdar idi. Onun fikrincə, Nadir Heratı ələ keçirəndən sonra mütləq Qəndəhara da üz tutacaqdı. Herat ətrafında ilişib qalması isə onu Qəndəhara hücum etməkdən yayındıra bilərdi. Onun sərkərdələri Nadirin Heratı tutacağına inanmırdılar. Bununla belə, məsləhətləşmədən sonra Herat istiqamətinə qüvvə göndərilməsi qərara alındı. Amma Sultan Hüseynin əyanları Nadirlə döyüşə girməyi məqsədəuyğun bilmirdilər. Ona görə Zülfüqar xana xəbər göndərildi ki, Qəndəhardan qoşun dəstəsi yola düşübdür. Qoşun dəstəsinin rəhbərinə isə tapşırıldı ki, son dərəcə asta hərəkət etsin, Herata yetişməyə tələsməsin, imkan yarandıqca yol boyu vaxtaşırı istirahətə dayansın (180).

Zülfüqar xan Qəndəhardan qoşun dəstəsinin yola düşməsi xəbərini alandan sonra Nadirlə danışıqları ləngitməyə başladı. Elə həmin günlərdə Nadir qardaşı İbrahim xanın rəhbərliyi altında Fərəhə bir dəstə göndərdi. İbrahim xana tapşırıldı ki, Fərəhdə vəziyyəti nəzarət altına alsın. Zülfüqar xan isə güman etdi ki, Nadir İbrahim xanın dəstəsini Qəndəhardan göndərilən qüvvənin qarşısını kəsmək üçün Fərəhə göndərmişdir. Ona görə də Zülfüqar xanın ümidləri artdı və Nadirlə danışıqlardan imtina etdi. Nadir bunu eşidəndə son dərəcə qəzəbləndi və Herat qalasının mühasirəsinin yenidən gücləndirilməsi, qalaya aparan bütün yolların etibarlı şəkildə qorunması barədə göstəriş verdi (181).

İbrahim xanın dəstəsinin Fərəhə yollanması ilə Heratın mühasirəsinin zəiflədiyini və Sultan Hüseynin göndərdiyi hərbi qüvvənin yaxınlaşmaqda olduğunu güman edən Zülfüqar xan yenidən Nadirlə döyüşə girməyi qərara aldı. Heratın mirabbaşısı olan Kazım bəy bu döyüşün başlanmasının təşəbbüskarı oldu. O öz dəstəsi ilə qaladan çıxaraq Kəlbəli xanın və Pirməhəmməd xanın mövqelərinə doğru hərəkətə başladı. Görünür, bu hücum qəfil şəkildə başlamışdı. Çünki əfqanlar adları çəkilən sərkərdələrin atları saxlanılan yerə şığıyıb bu atları özləri ilə apara bilmişdilər. Belə olanda tərəflər arasında artilleriya hazırlığından sonra əlbəyaxa döyüş başladı. Əfqanlar döyüşə son dərəcə böyük əzmkarlıqla girişdilər və onların bu əzmkarlığı qarşısında Kəlbəli xan geri çəkilmək məcburiyyətində qaldı. Kəlbəli xanın mövqelərində vəziyyətin ağırlaşması Nadir tərəfindən müşahidə edilən kimi özü bir alayla birlikdə ora yollandı. Əlavə köməyin yetişməsi, xüsusilə Nadirin bayrağının havada cövlan eləməsi və Nadirin özünün yardıma gəl-

məsi Kəlbəli xanın döyüşçülərinə ruh yüksəkliyi verdi və döyüşün gərginliyi yenidən artdı. Nadirin döyüşə atılması əfqanları ciddi təşvişə saldı. Min nəfərlik əfqan tüfəngdarları özlərini Nadir olan mövqelərə yetirərək təşəbbüsün əldə saxlanmasına nail olmağa çalışdılar. Lakin görəndə ki, Nadirin göstərişinə əsasən Pəhləvan bəy Mərvinin rəhbərliyi altında 500 nəfərlik bir dəstə cinahda mövqe tutub, əfqan tüfəngdarları döyüşə girməyə cəsarət etmədilər (182).

Qaladan döyüşün gedişini müşahidə edən Zülfüqar xan bir daha Nadirin qarşısında duruş gətirə bilməyəcəyini yəqin etdi. O, Seydal xanı döyüş meydanına göndərdi ki, qoşunu geri çəksin. Seydal xanla meyarbaşı Kazım bəy döyüş meydanındakı vəziyyəti nəzərdən keçirəndən sonra döyüşü davam etdirməyi qərara aldılar. Mənbələrdə əfqanların çox böyük əzmkarlıqla vuruşduqlarını, təşəbbüsün ələ alınması üçün müxtəlif manevrlər keçirməyə cəhd göstərdiklərini təsvir edirlər. Bununla belə, Nadir qarşısında onların bütün cəhdləri uğursuzluğa düçar oldu.

Növbəti uğursuzluğun daha ağır nəticələrindən canlarını qurtarmaq üçün əfqanlar yenidən Herat qalasına sığındılar. Bu döyüşün təşəbbüskarı olan meyarbaşı Kazım bəy isə əsir götürülərək qətlə yetirildi. Zülfüqar xanın yaxınlarından olan Əmənulla xan onu tərk edib Nadirə qoşuldu. Nadir onun peşmançılığını qəbul etdi və hətta ona ehtiram da göstərdi. Nadir görəndə ki, aclıqdan Herat əhli son dərəcə böyük məşəqqətlər çəkirlər, gündə nə qədər adam aclığın qurbanı olur, onda Allahyar xanı özü qalaya göndərdi ki, Zülfüqar xanla danışsın və təslim olmaq təklifini ona çatdırsın.Böyük məhrumiyyətlərə baxmayaraq Nadirə qarşı əzmkarlıq və inadkarlıqla dayanan əfqanlar mənbələrin yazdığına görə, Allahyar xanı qəzəb və ikrahla qarşıladılar və onun Nadirlə əlbir olmasına öz barışmazlıqlarını nümayiş etdirdilər. Mənbələrə görə, Allahyar xan da daxilən onları başa düşdü, onların Nadirə boyun əyməmək əzmini qəbul etdi. Bununla belə, o, Zülfüqar xanın görüşündə oldu, onun yanındakı əfqan əyanları və sərkərdələri ilə görüşdü, əfqanların fikirlərinə qulaq asdı.

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, bir neçə gündən sonra Allahyar xan çoxlu sayda hədiyyələrlə və bir neçə əfqan əyanının müşayiəti ilə Nadirin düşərgəsinə gəldi və Heratın təslim olduğunu ona bəyan etdi. Nadir razılıq verdi ki, Zülfüqar xana toxunulmasın və o, qardaşı Əhməd xanla birlikdə Fərəhə qayıtsın. Allahyar xan Herat hakimi kimi şəhərə qayıtdı. Sabahı gün Allahyar xana çatdırıldı ki, əbdali və gilzayi əfqanları birlikdə Fərəhdə 40 minlik dəstə təşkil edərək Nadirin üzərinə gəlirlər. Eyni zamanda ona xəbər verdilər ki, Zülfüqar xan

Əsfəraza çatandan sonra oranın əfqanlarını Fərəhə köçürüb və onları da öz qoşunlarına qatıb. Bundan başqa, Zülfüqar xan əyanlarının birini Allahyar xanın yanına göndərib onu hədələdi. Allahyar xan da bu hədələrdən qorxdu və bir də Nadirə üzüdönüklük etdi. O bir daha Nadirə qarşı itaətsizlik yoluna əl atdı və yenidən Zülfüqar xanla əlbir olub Nadirə qarşı mövqe tutdu. Gecə ikən Allahyar xan Nadir qoşunlarının üzərinə hücum çəkdi. Qaladakı qoşunlara rəhbərliyi öz üzərinə götürmüş Allahyar xan həm süvariləri, həm də piyadaları Nadir mövqelərinin üzərinə istiqamətləndirdi. Bu həmlə zamanı Allahyar xan daha çox artilleriya və tüfəng atəşlərinə diqqət yetirdi (183).

Səhər açılan kimi Allahyar xan qoşunu ilə Nadir mövqelərinin üzərinə hücumu davam etdirdi. Amma Nadirin qoşunlarının mövqelərinin ələ keçirilməsi üçün göstərdiyi bütün cəhdlər uğursuzluğa düçar oldu. Əslində, Nadirin dəstələri ilə aparılan döyüşdə heç bir ciddi nəticə əldə edilmədən əfqanlar geri çəkildilər. Allahyar xan bununla da özünə gəlmədi. O bir daha Herat çayı yaxınlığındakı mövqelərdən Nadir qoşunları üzərinə hücum təşkil etdi. Allahyar xan Nadirin iradəsini qırmaq üçün Heratın bütün əhalisini bu hücuma səfərbər etdi. Başlıca diqqət isə artilleriyanın fəaliyyətinə yönəldildi. İxtiyarında olan toplar və zənburəklər Nadir mövqelərini aramsız olaraq atəşə tutdular. Tüfəngdarlar da bütün gücləri ilə bu hücuma qoşuldular. Piyadalar və süvarilər Nadir qüvvələrini sıxışdırmaq istədilər. Nadir daha bir güclü hücumla qarşılaşsa da bir daha təmkinini əldən vermədi, döyüş meydanındakı vəziyyəti düzgün qiymətləndirərək nəinki əfqanların təzyiqlərinin qarşısını aldı, eini zamanda onlara güclü zərbə də vurdu. Döyüşün gedişində Nadir Maruçaq qalasına bir dəstə göndərdi, həmin qalada məskunlaşmış Allahyar xanın ailəsini əsir götürüb düşərgəyə gətirdi (184).

Allahyar xan Nadir qoşunlarının müqavimətinin qırılmasının çətin olduğunu və ailəsinin əsir götürüldüyünü eşidəndə bir də Nadirə sülh təklif etdi. Bununla bağlı, öz nümayəndələrini Nadirin düşərgəsinə göndərdi. Nadir bu dəfə də əfqanların peşimançılığını və təslim olmaq təklifini qəbul etdi, Allahyar xanın ailəsini azad etdi. Amma Allahyar xanın niyyəti Nadiri aldadıb ailəsini ondan almaq idi. Ailəsini geri alan kimi Allahyar xan xanımını qətlə yetirdi və sonra yenidən Nadirlə düşmənçilik yolunu tutdu. Allahyar xan Herat qalasının müdafiə imkanlarından istifadə edərək müqaviməti davam etdirdi. Qala daxilində vəziyyətin mürəkkəbləşdiyini görən və Allahyar xanla öz münasibətləri olan və Herat darvazalarının qorunmasına məsul olan Fufəlzay tayfasının rəhbəri Əman xan Fufəlzay, Nadirə xəbər göndərdi ki, əgər

ona və onun ətrafındakılara toxunulmasa darvazanı açıb Nadir qoşunlarını qalaya buraxa bilər. Nadir bu təkliflə razılaşdı. Amma Allahyar xan bu məsələdən xəbər tutub Əman xanı qətlə yetirdi. Belə olanda qalanın mühasirəsi yenidən gücləndirildi. Qala ətrafında tikilmiş yeni hündür tikililər üzərindəki Herat əhli topların və tüfənglərin atəşinə tutuldu. Allahyar xan və onun ətrafındakılar bu təzyiqə davam gətirmədilər. 10 ay davam edən mühasirədən sonra Herat qalası təslim oldu.Nadir bu dəfə də Allahyar xanın günahından keçdi. Amma onu Herat qalasından uzaqlaşdırdı. O cümlədən Herat əhalisinin böyük bir hissəsini Xorasan ərazisinə köçürdü və bununla da Herat qalası itaət altına gətirildi (185).

"Aləm Ara-ye Naderi"də Nadirlə Allahyar xanın son münasibətləri bir qədər fərqli şəkildə təsvir edilmişdir (186). Bu mənbədə olan məlumatlara görə, Allahyar xan təslim olmaq təklifi ilə Herat qalasına daxil olanda əfqanlar onu Nadirlə əlbir olmaqda çox məzəmmət etdilər və bildirdilər ki, əgər təslim olsaq Nadir bizi qətlə yetirəcək. Allahyar xan da bu fikirlə razılaşdı və yanında olan Nadir əyanları ilə Nadirə xəbər göndərdi ki, özü də ona itaətdən imtina edir. Allahyar xan onu da əlavə etdi ki, ömrü olan qədər Nadirə qarşı mübarizə aparacaqdır.

Bunlardan xəbərdar olan Nadir yenidən ona üzüdönüklük edən Allahyar xana ciddi dərs vermək və qalanı ələ keçirmək üçün səhəri gün Herat üzərinə hücuma keçdi. Allahyar xan da qaladan bayırda Nadirlə döyüşə girmək qərarına gəldi. O, əfqan qüvvələrini qruplaşdırdı, sağ və sol cinahlar təşkil etdi və döyüş meydanına atıldı. Bu vaxt xəbər gətirildi ki, Dilavər xan Taymənənin rəhbərliyi altında 12 min nəfərlik qüvvə Nadirin köməyinə gəlir. Nadir göstəriş verdi ki, 10 min nəfərlik xüsusi bir dəstə təşkil edilsin, qala ətrafındakı əfqan qüvvələrindən xəbərsiz həmin dəstə gələn köməyin yolu üzərinə göndərilsin. Həmin göstəriş yerinə yetirildi və bu dəstələr Heratdan xeyli kənarda üzbəüz gəlib sonra birlikdə Nadirin qoşunlarına qatıldılar. Bu qüvvələrin gəlməsi Nadirin qoşunlarını daha da möhkəmləndirdi. Zülfüqar xanla Allahyar xan əksinə Nadirin möhkəmlənməsindən təəssüf keçirdilər. Buna baxmayaraq onlar döyüşü davam etdirdilər.

Mövcud olan məlumata görə, Nadirin tərəfinə keçmiş Əmənulla xan Allahyar xanın sol cinahına qarşı vuruşmaqla əfqanların müqavimətini qırdı və əfqanları Herat qapılarına qədər qovdu. Bununla belə, qaladakılar müqavimət göstərməkdə davam edirdilər. Qala ilə yaxından tanış olan Əmənulla xan qala darvazalarından birinin ələ keçirilməsi üçün Nadirdən icazə istədi. O belə bir plan irəli sürdü ki, qalada qalmış qohum və yaxınlarının vasitəsilə darvazalardan birin ələ ke-

çirsin və qəfil hücumla Nadir qoşunları qalaya daxil olsunlar. Nadir bu plana razılıq verəndən sonra Əmənulla xan qala divarlarına tərəf yola düşdü. Nadir onun müşayiət edilməsi üçün başqa bir dəstəyə də göstəriş verdi. Əmənulla xan qala daxilindəki yaxınları ilə əlaqə saxlayıb darvazalardan birinin ələ keçirilməsini razılaşdırdı. Allahyar xan bundan xəbər tutdu və onun səyləri ilə həm Əmənulla xan, həm də qala daxilində onunla əlaqədə olanlar ələ keçirilib qətlə yetirildilər.

Həm əfqanlar, həm də Nadir bundan sonra da mübarizəni dayandırmadılar. Əfqanlar qalada artmaqda olan qıtlığı aradan qaldırmaq və mühasirə dairəsini bir qədər zəiflətmək üçün bir sıra cəhdlər göstərdilər, qaladan kənarda açıq döyüşlərə girməkdən çəkinmədilər. Bununla belə, onlar Heratı Nadirin mühasirəsindən çıxara bilmədilər. Əhalinin aclıqdan əzab çəkdiyini görən əfqan əyanları bir daha öz nümayəndələrini Nadirin yanına göndərdilər, Nadirin şəhər əhalisinə divan tutmayacağı və Qurani-kərimə and içəcəyi təqdirdə qalanı təslim etməyə hazır olduqlarını bildirdilər. Nadir bu təklifi də qəbul etdi və əfqan əyanları ilə görüşdü. Razılıq əldə ediləndən sonra Nadirin qüvvələri, sonra isə özü Herata daxil oldu. Yerli əyanlar söz verdilər ki, Zülfüqar xanla Allahyar xanı da tutaraq onun yanına gətirəcəklər. Bundan xəbər tutan Zülfüqar xanla Allahyar xan gizlicə qalanı tərk etdilər. Nadir Herat ətrafındakı döyüşlərdə xüsusi fədakarlıq göstərmiş Mir Məhəmməd xanı Herat hakimi təyin etdi və itaətsizlik meyllərinin aradan qaldırılması məqsədilə Nadir yerli əhalinin böyük bir hissəsini şəhər ətrafına köçürdü.

Bununla da, Heratın itaət altına gətirilməsi başa çatdırıldı. Nadir bir ilə qədər bu işə vaxt sərf etdi. Herat qalasının çox güclü müdafiə imkanlarına malik olması, bir tərəfdən də əfqanların əzmkarlığı qalanın ələ keçirilməsini xeyli uzatdı. Tarixi ədəbiyyatda olan məlumata görə, Herat 1732-ci il fevralın 18-də təslim oldu (187). Bütün çətinliklərə baxmayaraq, Nadir növbəti qələbəsini əldə etdi və əbdali əfqanlarının müqavimət potensialına ağır zərbə vuruldu.

### 6. Nadir-Şah Təhmasib münasibətlərinin kəskinləşməsi. Şah Təhmasibin taxtdan salınması

Şah Təhmasibin taxt-taca yiyələnməsindən sonra onunla Nadir arasında ixtilaf və narazılıq aradan qalxmadı. Əksinə, bir tərəfdən Nadirin uğurlu hərbi yürüşləri, digər tərəfdən də ətrafındakı əyanların fitnələri Şah Təhmasibin Nadirə qarşı olan narazılıqlarını artırdı. Əslində, Şah Təhmasib özü Nadirin təsirindən və nəzarətindən azad

olmaq yolları arayırdı. O şübhə etmirdi ki, uzun müddət Nadirin hərbi uğurlarına sığınmaqla hakimiyyətin etibarlı şəkildə əlində toplanmasına əmin ola bilməz. Ona elə gəlirdi ki, artıq dövlətin düşmənlərinə qarşı Nadir olmadan belə mübarizə apara bilər və müstəqil şəkildə həyata keçirdiyi hərbi yürüşlə şahlığının nüfuzunu xeyli genişləndirə bilər.

Təbriz və Urmiya Osmanlı qoşunlarından təmizləndikdən sonra Cənubi Qafqazın qərb hissəsi Osmanlı qüvvələrinin, şərq hissəsi isə Rusiya qüvvələrinin nəzarəti altında qalmaqda idi. Nadir Təbrizdən Xorasana istiqamət götürəndə Şah Təhmasib də özünün hərbi qabiliyyətini nümayiş etdirməyin vaxtı çatdığını güman etdi. Əyanları tərəfindən də qızışdırılan Şah Təhmasib Cənubi Qafqazın qərbini Osmanlı qüvvələrindən təmizləmək niyyətini bəyan edib 18 min nəfərlik qoşunla Təbrizə doğru hərəkətə başladı. Bu tarix 1731-ci ilin yanvarına təsadüf edir (188).

“Aləm Ara-ye Naderi”nin məlumatına görə, Şah Təhmasibin Nadirlə bağlı niyyətləri xeyli sərt idi. Həmin məlumatdan belə bir qənaətə gəlmək olar ki, Şah Təhmasib dövləti artıq Nadirsiz idarə etmək istəyirdi. O güman edirdi ki, əfqanlarla ağır döyüşdən Nadir salamat qayıtmayacaqdır. Hətta salamat qayıtsaydı belə, Şah Təhmasib ətrafındakı qoşun dəstəsi ilə onu məhv etmək fikrində idi (189).

Beləliklə, yuxarıda qeyd edildiyi kimi, 1731-ci ilin əvvəllərində Şah Təhmasib qoşunu ilə Həmədana, oradan da Təbrizə gəldi. Bu şəhərə çatana kimi Şah Təhmasib Təbrizə Nadir tərəfindən hakim təyin edilmiş Bisütün xanı vəzifəsindən azad etdi və onun yerinə öz adamlarından birini təyin etdi (190). Qeyd etmək lazımdır ki, Bisütün xanın vəzifəsindən azad edilməsi haqqında məlumat “Aləm Ara-ye Naderi”də öz təsdiqini tapmır. Bununla belə, Şah Təhmasibi daha çox maraqlandıran tezliklə Osmanlı qüvvələri ilə rastlaşmaq, İrəvanı, Naxçıvanı azad etmək və bununla da öz sərkərdəliyinin təsdiqlənməsinə nail olmaq idi. Ona görə də Şah Təhmasib Təbrizdə çox da dayanmadan Arazın şimalına, İrəvan qalasına üz tutdu.

Şah Təhmasibin qoşunla irəliləməsi xəbərini alandan sonra Ordubad və Naxçıvandakı Osmanlı qarnizonu döyüşə girmədən İrəvana çəkildi. İrəvandakı Osmanlı qüvvələrinə yenicə sərəsgər təyin edilmiş Əli paşa Həkimoğlu və Teymur paşa rəhbərlik edirdilər. “Tarix-e Cahanqoşa-ye Naderi”yə görə. Şah Təhmasib Osmanlı qüvvələri ilə əvvəlcə İrəvan qalasından kənarda döyüşə girdi və ilk döyüş Şah Təhmasibin uğuru ilə başa çatdı. Hətta Osmanlı toplarının da Şah Təhmasib qoşunlarının əlinə keçdiyi bildirilir. Belə olanda Osmanlı

qoşunu İrəvan qalasına çəkildi. Nadir şah haqqında iki əsas mənbə olan "Tarix-e Cahanqoşa-ye Naderi" və "Aləm Ara-ye Naderi"də Şah Təhmasibin Osmanlı qoşunları ilə döyüşü fərqli şəkildə təsvir edilmişdir. Hər halda həqiqət budur ki, İrəvan qalasını bir müddət mühasirədə saxlasa da Şah Təhmasib Osmanlı qüvvələrindən zərbə aldı və İrəvan qalasını fəth etməyin mümkün olmayacağı ona aydın oldu. Osmanlı qüvvələri heç də o səviyyədə deyildilər ki, Şah Təhmasib malik olduğu kəsad hərbi təcrübə ilə onlara üstün gəlsin. Digər tərəfdən Şah Təhmasib kimi zəif rəqiblə qarşılaşması sanki Osmanlı sarayını da Səfəvi dövləti ilə bağlı siyasətində daha fəal olmağa sövq etdi.

18 gün İrəvan qalasını mühasirədə saxlayandan sonra Şah Təhmasib geri çəkilməyə başladı. O, Xoy, Səlmas yolu ilə Təbrizə qayıtdı və burada eşitdi ki, İrəvan hakimi Əli paşa İran Azərbaycanını, Bağdad hakimi isə İran İraqını tutmaq tapşırığı alıbdır. Həmin paşalardan birincisi İrəvandan Təbrizə doğru, ikincisi isə Bağdaddan Kermanşaha doğru hərəkətə başladılar (191).

Bu xəbər Şah Təhmasibi çox təşvişə saldı və Təbrizdə dayanmadan Zəncana doğru hərəkətini davam etdirdi. Bağdad hakimi Əhməd paşa isə elə bir çətinlik çəkmədən Qəsri-Şirini və Kermanşahı işğal edib Həmədana doğru irəlilədi. Həmədan yaxınlığında Əhməd paşa ilə Şah Təhmasib qoşunları arasında döyüş baş verdi. Şah Təhmasibin qüvvələri Osmanlı qüvvələri qarşısında müqavimət göstərə bilməyib geri çəkildilər. Şah Təhmasib özü isə qarşıya qoyduğu niyyətlərə nəinki nail olmadı, hətta Nadir tərəfindən qazanılmış əraziləri də itirərək geri döndü. Əhməd paşanın qoşunu az zaman içində Əbhərə çatdı, İrəvan sərəsgəri Əli paşanın rəhbərliyi altında olan Osmanlı qüvvələri Marağa və Təbrizi yenidən nəzarət altına aldılar (192). Bununla da ölkənin qərbində Nadirin azad etdiyi ərazilər yenidən Osmanlı işğalı altına düşdü və Şah Təhmasibin hakimiyyəti heç də əlverişli olmayan yeni bir tarixi şəraitlə qarşılaşdı.

Böyük iddialarla döyüş meydanına atılan, hərbi istedadında Nadirdən heç də geri qalmadığını təsdiq etməyə çalışan Şah Təhmasib Həmədan ətrafındakı məğlubiyyətindən sonra İsfahana dönmədi. O qorxdu ki, İsfahana qayıtsa Əhməd paşa onun ardınca gələr və İsfahanı da tutar. Ona görə Şah Təhmasib Quma gəldi. Amma bir müddətdən sonra ona xəbər çatdırdılar ki, Əhməd paşa qoşunu ilə Bağdada qayıdıb (193). Bu xəbər şah Təhmasibi bir qədər sakitləşdirdi. Çünki Əhməd paşa onu təqib edəcəyi halda hətta İsfahanı da ələ keçirə bilərdi. Çox güman ki, məhz Nadirlə qarşılaşmaq təhlükəsi onu İsfahana doğru irəliləməkdən çəkindirdi.

Osmanlı qoşunları tərəfindən məğlub edilməsi Şah Təhmasib üçün üz qaralığına, onun əyanları və sərkərdələri üçün isə ciddi bir nigarançılığa səbəb oldu.Əyanlar və sərkərdələr əmin idilər ki, Nadir bu məğlubiyyətlə razılaşmayacaq və Osmanlı qüvvələri qarşısında fərsizlik nümayiş etdirən sərkərdələri ciddi cəzalandıracaqdır. Nadirin qəzəbindən xilas olmaq üçün onlar Şah Təhmasibi inandırdılar ki, Nadirə məktub göndərsin, Osmanlı qoşunları ilə aparılan döyüşlərin nəticələri ona çatdırılsın. Əgər Nadir başqa yolla döyüşlərin nəticələrindən xəbər tutsa qoşunu ilə birlikdə Azərbaycana doğru hərəkət edər və onda onun şah sarayına qarşı hansı əməllərə əl atacağını müəyyənləşdirmək olmaz. Şah Təhmasib bununla razılaşdı və Nadirə məktub göndərdi. Ancaq məktub göndəriləndən sonra Əhməd paşanın Bağdada geri çəkildiyi məlum oldu. Belə olanda, şah da, əyanları da Nadirə məktub göndərilməsindən peşman oldular (194).

Şah Təhmasib İsfahana qayıdandan sonra onun yanına Əhməd paşanın nümayəndələri gəldilər və sülh şərtlərini İsfahan sarayına təklif etdilər. Osmanlı tərəfi Arazdan cənubda olan ərazilərin Şah Təhmasibin hakimiyyəti altına verilməsini, Arazdan şimalda olan ərazilərin və Kermanşah ətrafı ərazilərin bir hissəsinin Osmanlı tabeliyinə verilməsini təklif etdi. Şah Təhmasibin bu təkliflərə seçim imkanı yox idi. Ona görə öz nümayəndəsini Bağdada göndərdi və 1732-ci il yanvarın 10-da Şah Təhmasiblə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı (195).

Şah Təhmasib 1732-ci ilin yanvarında Səfəvi dövlətinə daxil olan ərazilərin taleyi ilə bağlı daha bir addım atdı. Həmin ayın 21-də onun nümayəndəsi Rusiyanın nümayəndələri ilə Rəşt müqaviləsini imzaladı. Bu müqaviləyə əsasən, Rusiya Sefidrud çayı boyunca tutduğu əraziləri müqavilənin imzalanmasından bir ay sonra, Gilan, Astara ətrafındakı əraziləri müqavilənin təsdiqindən beş ay sonra İrana qaytarmalı idi. Kür çayından şimalda Rusiyanın nəzarəti altında olan ərazilər isə osmanlıların işğal etdikləri ərazilərin geri qaytarılacağı təqdirdə qaytarılmalı idi (196).

Nadir özünün Herat kampaniyası zamanı Osmanlı dövləti ilə bağlanan ağır sülh şərtləri haqqında xəbər tutdu və elə Heratda olarkən Osmanlı sarayının Məşhəddə olan Məhəmməd ağa adlı nümayəndəsini yanına çağırdı. Ona imzalanmış sülh şərtləri ilə razı olmadığını, vaxtilə Səfəvi dövləti sərhədləri daxilində olan və hazırda Osmanlı nəzarəti altına düşmüş bütün ərazilərin qeydi-şərtsiz geri qaytarılmasını tələb etdi. Nadir bəyan etdi ki, Osmanlı sarayı ya bu əraziləri geri qaytarmalı, ya da müharibəyə hazır olmalıdır. Bu tələblər həm Os-

manlı sarayına, həm də Bağdad hakimi Əhməd paşaya çatdırıldı (197). Nadir bir nümayəndə də İsfahana göndərdi və Osmanlı ilə imzalanan müqaviləyə olan narazılığını Şah Təhmasibə çatdırdı.

Nadir eyni zamanda vilayət hakimlərinə fərman göndərdi. Həmin fərman Herat yürüşünün başa çatmasından sonra imzalanmışdı. Burada Nadir Herata hücumu, Herat ətrafında baş verənlər, Heratın ələ keçirilməsindən sonra onun qiyamçı əhalisinin Xorasana və Xarəzmə köçürülməsi, əbdali və gilzayi əfqanlarının qiyamının yatırılması haqqında, habelə bu işlərin görülməsi üçün çəkilən zəhmət haqqında məlumat verdi. Herat qiyamının yatırılması kimi ağır bir işlə məşğul olduğu vaxtda Osmanlı dövləti ilə yarıtmaz müqavilənin imzalandığına işarə edən Nadir, Arazdan şimalda olan ərazilərin Osmanlı nəzarəti altında qalmasını dözülməz sayırdı. O eyni zamanda bildirirdi ki, əsirlərin dəyişdirilməsi kimi mühüm bir məsələnin müqavilədə təsbit edilməməsi də bu sənədin yararsızlığından xəbər verir. Böyük zəhmətlər və itkilər bahasına alınmış Təbrizin geri qaytarılmasını, düşmənin istəyinə boyun əyilməsini Nadir barışmazlıqla qəbul edirdi. Osmanlı dövləti ilə imzalanan müqavilənin şərtləri dözülməz olduğu üçün Nadir onu rədd etdi və müqaviləyə razılıq imzasını atmadığını da öz fərmanında bildirdi (198).

Nadirin Osmanlı dövləti ilə imzalanan müqaviləni qəbul etməməsi, eyni zamanda onun Şah Təhmasibin iradəsini qəbul etməməsi demək idi. Onun bu müqaviləyə qarşı barışmaz mövqeyi istər Şah Təhmasibi, istərsə də onun ətrafını dərin təşvişə saldı. Bununla da Nadirlə Şah Təhmasib arasındakı ixtilaf və narazılıqlar yenidən qabarıqlaşdı.

Herat yürüşü ilə bağlı osmanlılara qarşı döyüşlərini təxirə salmalı olan Nadir sonradan yenidən həmin döyüşlərə başlamağı qərara aldı. Hələ Məşhəddə ikən artıq bu döyüşlərə hazırlıq tədbirlərinə başlandı. Məşhəddəki işlərini başa vurandan sonra qardaşı İbrahim xanı yenidən Xorasan hakimi təyin etdi və 60 minlik qoşunla Tehrana doğru hərəkətə başladı. Eyni zamanda, Şah Təhmasibə də xəbər göndərdi ki, qoşunu ilə Tehrana gəlsin. Nadirin planı belə idi ki, orada Şah Təhmasibin tabeliyində olan qoşunla birlikdə Osmanlı qüvvələri üzərinə hücum etsin. Amma Şah Təhmasib Nadirin təklifini qəbul etmədi və İsfahanda qalmağı üstün tutdu. Nadir isə Tehrana gələndən sonra bir daha qoşunların möhkəmləndirilməsinə xüsusi diqqət yetirdi. Onun əmri ilə qoşunlara 50 min tümən (110 min funt sterlinq) pul paylandı. Həmin pul həm döyüşçülərin maaşlarının ödənməsi, həm də döyüşçülər üçün zəruri olan əşyaların və təchizatın alınması üçün nəzərdə tutulmuşdu (199).

Nadir heç şübhəsiz ki, tək pul paylanması ilə kifayətlənmədi. Qoşunların toplanması hazırlığı, qoşun rəhbərlərinin yoxlanması və s. işlərin həyata keçirilməsi də Nadirin diqqət mərkəzində idi. İstənilən halda, Nadirin qarşısında çox ciddi məsələlər dayanırdı. Şah Təhmasibin kömək göstərməyəcəyi halda Osmanlı qüvvələrinin ölkə daxilindən çıxarılması səylərin bir neçə dəfə artırılmasını tələb edirdi.

Şah Təhmasibin Nadirlə əməkdaşlığa razılıq verməməsi, əslində onun düşmənçilik mövqeyi tutması demək idi. Mənbələrdə olan məlumata görə, Şah Təhmasib Tehranda Nadirlə birləşməkdən imtina etdikdən sonra Bağdad hakimi Əhməd paşanın yanına adam göndərib onunla əməkdaşlıq edilməsinə cəhd göstərdi. Mənbələrdə o da bildirilir ki, Şah Təhmasibi bu məsələlərdən çəkindirmək və onun dövlətçiliyə zidd fəaliyyətinə son qoymaq üçün Nadir Tehrandan İsfahana yollanmaq qərarına gəldi (200) və 1732-ci il avqustun sonlarında İsfahana çatdı.

Bəzi tarixçilərin və tədqiqatçıların qənaətinə görə, Şah Təhmasibin Tehrana gəlməməsi ilə onunla Nadir arasında olan ixtilafı xeyli dərinləşdirdi və Nadir də əslində elə buna çalışırdı. Güman edilir ki, Nadir bu ixtilafı dərinləşdirməklə taxt-tacın ələ keçirilməsi üçün zəmin hazırlayırdı. Hər halda onu əminliklə demək olar ki, Nadir Tehranda olarkən ölkənin gələcəyi, Şah Təhmasiblə münasibətlərin hansı istiqamətdə davam etdirilməsi haqqında çox düşünməli oldu. Çünki, yaranmış vəziyyət Nadiri yol ayrıcında qoymuşdu. Ya Nadir başladığı işdən əl çəkib ölkənin yad qüvvələr tərəfindən parçalanmasına imkan verməli idi, ya da daha qətiyyətli tədbirlərə əl atmalı idi. Ölkənin şahı da ətrafındakı qüvvələrlə birlikdə dağıdıcı mövqedə dayanmaqla Nadirin vəziyyətini bir qədər də ağırlaşdırırdı. Şahın ona qarşı əks mövqe tutduğu bir şəraitdə Nadir Səfəvi sərhədlərinin bütünlüklə bərpasına nail ola bilməzdi. Şah Təhmasib qarşısında geri çəkilməsi isə saray əyanlarının təhriki ilə gec-tez onun məhvinə gətirib çıxara bilərdi. Saray əyanları da onun aradan götürülməsi üçün yaranan fürsəti əldən verməzdilər.

Belə bir vəziyyətdə Nadir düzgün çıxış yolunu tapmalı idi. Həmin vaxtlarda Nadirin çıxış yolu kimi Şah Təhmasibi aradan götürərək taxt-taca yiyələnmək niyyətinə düşdüyünü də bir mənalı şəkildə söyləmək çətindir. Əgər istəsəydi Nadir dərhal bunu edə bilərdi. Ya da Xorasanda Şah Təhmasiblə birləşməzdən əvvəl Nadir əvvəlcə bu vilayəti ələ keçirib, sonra da hakimiyyətini genişləndirə bilərdi. Amma Nadir yaxşı görürdü ki, xalq arasında hakimiyyət ənənəçiliyinə meyl və rəğbət güclüdür. Buna görə də, o, Səfəvilərin qanuni varisi olan

Təhmasiblə birləşdi və qanuni hakimiyyətin bərpası üçün döyüş meydanlarına atıldı. Ola bilsin ki, Şah Təhmasib kifayət qədər qətiyyətli keyfiyyətlərə malik olsaydı Nadir heç sonradan da taxt-tac iddiasında olmazdı. Lakin Şah Təhmasibin qətiyyətsizliyi, səbatsızlığı və saray fitnələri qarşısında acizliyi ölkəni yenidən böhran qarşısında qoydu. Saray daxilində yaşanan böhranı aradan qaldırmaq və bütün qüvvələri osmanlılara qarşı mübarizəyə səfərbər edə bilmək üçün Nadir əvvəlcə İsfahana yollanmağı qərara aldı.

"Aləm Ara-ye Naderi"də Şah Təhmasibin əyanlarının da Nadirə qarşı sərt cəbhə tutması haqqında geniş məlumatlar vardır. Bu mənbə Nadirin Tehrandan xüsusi təmtəraqla İsfahana yola düşməsi belə təsvir olunur: qızıl və gümüş təchizatı olan 12 min nəfər cəzayirçi, 6400 nəfər yasovul, qızıl və daş-qaşlarla bəzədilmiş xəncər daşıyan 400 nəfər dəvəçi, 480 nəfər çavuş və nəqəbçi İsfahana doğru hərəkət edirdi. Nadirin dəstəsində 444 baş Şam və Rum atları bir-birinin ardınca düzülmüşdü. Dəstə üzvlərinin əllərində üzərində əjdaha şəkli olan 400 ədəd Nadir bayrağı və 58 ədəd üzərində şir şəkli olan bayraq dalğalanırdı (201).

Nadir, İsfahan yaxınlığındakı Hezarciribdə düşərgə saldı. "Aləm Ara-ye Naderi"yə görə, Nadirin böyük dəstə ilə İsfahana yaxınlaşması Şah Təhmasib qorxuya saldı və sarayı tərk edib İsfahanın 12 fərsəngliyində olan Sərçeşmə kəndinə getdi. Şah Təhmasib ehtiyat edirdi ki, yaranmış şəraitdə Nadir silaha əl atıb onu hakimiyyətdən düşürə bilər. Sərçeşmə kəndində isə o özünə daha arxayın idi və hətta Nadirin ona qarşı çıxacağı halda oradan ya cənuba, ya da şimala qaçmaq fürsəti əldə edə bilərdi. Amma Nadirdən gələn xəbərlər onu geri qayıtmağa sövq etdi. Nadir öz nümayəndələri vasitəsilə ona xəbər göndərdi ki, İsfahana gəlməkdə məqsədi şaha xidmətini davam etdirmək, Osmanlı və rus qüvvələrini ölkədən qovaraq onların işğalı altında olan əraziləri də şahın itaəti altına gətirmək, döyüş meydanlarında hünər göstərib özünə hörmət qazanmaqdır. Şah ətrafındakılarla məsləhətləşdikdən sonra Nadirin pis niyyətdə olmadığını qəbul etdi və İsfahana qayıtdı (202).

Səhəri gün Nadir yaxın əyanları ilə birlikdə şah sarayına yollandı və Şah Təhmasiblə görüşdü. Mənbələr bu görüş zamanı Şah Təhmasiblə Nadir arasında mövcud olan incikliyin aradan qalxdığını bildirirlər. Nadir İsfahana gəlişinin məqsədinin xoş niyyətli olduğunu bir daha Şah Təhmasibin nəzərinə çatdırdı. Bildirdi ki, bütün gücü ilə Osmanlı qoşunlarına qarşı mübarizəsini davam etdirəcək və ona nail olacaq ki, osmanlılar bir daha Səfəvi sərhədlərini keçməyə cəsarət et-

məsin. Nadir, Şah Təhmasibin diqqətinə çatdırdı ki, Səfəvi sərhədlərinin bütünlüklə bərpasına nail olacaq və bununla onun da üzü ağ olacaqdır. “Tarix-e Cahanqoşa-ye Naderi”də bildirilir ki, həmin gecə Nadirlə Şah Təhmasib peyman bağladılar, sədaqət badəsi içdilər, ürəklərindəki fikirlərdən təmizləndilər, bədgümanlığı bir tərəfə atdılar, keçmişdə baş verənlərə göz yumdular (203).

“Aləm Ara-ye Naderi”yə görə, ilk görüşlərindən sonra Nadirlə Şah Təhmasib arasındakı inciklik aradan qalxdı və barışandan sonra ayrıldılar. Bir də səhəri gün Nadirin dəvəti ilə Şah Təhmasib Hezarciribə gəldi və orada Nadirin təşkil etdiyi ziyafətdə iştirak etdi.“Tarix-e Cahanqoşa-ye Naderi”yə görə isə, İsfahandakı ilk görüşdə Nadirlə Şah Təhmasib arasındakı ümumi münasibətdə bir anlaşma yarandı. Bu iki şəxs arasında barışıq yaranandan sonra Nadir Osmanlı qoşunlarına qarşı müharibəyə başlamaq məsələsini Şah Təhmasibin diqqətinə çatdırdı. Lakin onun bütün cəhdlərinə baxmayaraq, Şah Təhmasib osmanlılara qarşı qoşun çıxarmağa razılıq vermədi. Yəni, əslində özünün imzalamış olduğu təslimçi müqavilə üzərində dayandı. Belə olanda, səhəri gün Nadir sərkərdələrin və qoşun başçılarının müşavirəsini çağırdı və Şah Təhmasibin təslimçilik mövqeyi barədə onlara məlumat verdi. Eyni zamanda onlardan çıxış yolunun tapılması üçün məsləhətlər verilməsini xahiş etdi. Nadirin fikrincə düşmən qarşısından geri çəkilməsi daha böyük itkilərə yol aça bilərdi. Digər tərəfdən ölkə şahının qəbul edilməz mövqeyi ümumi mübarizənin uğurunu daha da çətinləşdirərdi (204).

Nadirin sərkərdələri və qoşun başçıları da Şah Təhmasibin təslimçilik mövqeyini pislədilər. Onlar Nadirə bildirdilər ki, bu dövlət sənin qollarının gücü bahasına mövcuddur, məmləkət səndən rövnəq alır və ona görə də indiki halda ölkənin idarə edilməsini öz üzərinə götürməlisən. Nadir, Şah Təhmasibin hakimiyyətdən salınması fikri ilə razılaşsa da, özü taxta çıxmaq fikri ilə razılaşmadı. Onun qənaətinə görə Şah Təhmasib taxtdan salınmalı olacağı təqdirdə onun yeganə yeddi aylıq oğlu olan Abbas Mirzəni şah elan etmək olardı. Bu qərarın üstündə dayanıldı. Yeddi aylıq Abbas Mirzə şah elan edildi və şahlıqdan kənarlaşdırılan Təhmasib Mirzə isə hərəmxanası və yaxınları ilə birlikdə Məşhədə sürgün olundu (205).

L.Lokkart, Məhəmməd Hüseynin «Zebdətit təvarix” əsərinə istinadən Şah Təhmasib üçün şərab və əyləncə məclisi düzəldiyindən xəbər verir. Bu məlumatdan belə aydın olur ki, Nadir, Şah Təhmasibin şərəfinə ziyafəti öz niyyətlərinə nail olmaq üçün təşkil edibmiş və ona əvvəldən düşündüyü plan üzrə hazırlıq görübmüş. Nadir bu məclisdə

Şah Təhmasibə və onun əyanlarına şərab və musiqi təşkil etdi. Üç gün-üç gecə ərzində şah və onun əyanları özlərinə tam sərbəstlik verdilər və vəzifələrinə uyğun olmayan səviyyədə şərabxorluq və sərxoşluq etdilər. Onlar elə bir vəziyyətə çatdılar ki, hərəkətlərinə nəzarəti itirdilər. İran İraqının, Xorasanın qoşun başçıları, sərkərdələri, Nadirin qoşun sərkərdələri Şah Təhmasibin və əyanlarının sərxoş vəziyyətinin şahidi oldular. Yazılana görə, hətta İsfahan əhalisinin nümayəndələri də məclis yerinə dəvət olundular ki, Şah Təhmasibin vəziyyətini görsünlər. Yəni, Nadir bununla istədi ki, istər hərbçilər, istərsə də İsfahan əhalisi Şah Təhmasibin özünü idarə edə bilməməsinin şahidi olsunlar. Şah Təhmasibin yaraşmaz vəziyyətini görənlər isə doğrudan da onun taxtdan salınmasına və kiçik yaşlı oğlunun onun yerinə şah elan olunmasına tərəfdar çıxdılar (206).

Mənbələrin birində isə Şah Təhmasibin Nadirin təşkil etdiyi məclisə tək gəldiyi bildirilir. Şah kifayət qədər yeyib-içəndən sonra Nadir ondan gecəni qalmağı xahiş edir. Şah razı olur və elə gecə ikən Nadir oradakı sərkərdələrini ətrafına toplayıb şahın zəif olmasından, ölkənin daha yaxşı idarə edilməsi üçün taxtdan salınmasından söhbət açır. Sərkərdələr bununla razılaşırlar və Şah Təhmasibə bu məsələni anladıb onu hakimiyyətdən əl çəkməyə məcbur edirlər. Sonra da onun yerinə kiçik yaşlı oğlu Abbas Mirzəni şah elan edirlər. Mənbədə o da bildirilir ki, Abbas Mirzə şah elan edilsə də, hakimiyyət Nadirin əlində idi (207).

"Aləm Ara-ye Naderi"də Şah Təhmasibin Hezarciribin Çaharbağına dəvət olunması bir qədər başqa şəkildə təsvir edilib. Bu mənbədə yazılanlara görə, Şah Təhmasib Nadirlə İsfahandakı görüşün sabahı günü Hezarciribə Nadirin yanına yollanır. Çaharbağda Şah Təhmasib üçün şahanə bir məclis təşkil olunur. Axşama yaxın Şah Təhmasib İsfahana dönmək istəyəndə Nadir ondan gecəni qalmağı xahiş edir. Ona bildirir ki, məclisə Xorasan musiqiçilərini dəvət edib, yaxşı şərab və gözəl xanımlar gətirib. Şah Təhmasib şəraba və musiqiyə meylli olduğu üçün gecəni qalmağı qərara alır və içdiyi şərab onu sərxoş edir. Şah Təhmasibin sərxoş olmasından sonra Nadir ətrafdakı, habelə keşikxanadakı əyanları və əşrəfləri toplayıb Şah Təhmasibi sərxoş vəziyyətdə onlara göstərir. Sərkərdələr və hakimlər də Şah Təhmasibdən razı olmadıqlarını, onun tədbirsiz və fəaliyyətsiz şah olduğunu bildirirlər. Onların sözünə görə, əgər Nadir Təhmasibin şahlığını müdafiə etməsəydi, sərkərdələr və əyanlar Təhmasibin şahlığına razı olmazdılar. Sərkərdələr Nadirin hakimiyyətə gətirilməsinə tərəfdar olduğunu da onun nəzərinə çatdırdılar (208).

Nadir də cavabında bildirir ki, əgər, siz ordu sərkərdələri belə bir şəxsin şahlığa layiq olmadığını təsdiq edirsinizsə, şahlıq tacını ondan alın və kimi layiq bilirsinizsə ona da təqdim edin. Bu sözləri eşidəndən sonra Həsənəli xan Məirbaşı, Məhəmməd xan Beluc, Əmir Əbülqasim Kaşi, Məhəmməd xan Qulam və başqaları şahın yanına gedirlər və ona çatdırırlar ki, xalq sənin şahlığını istəmir və hakimiyyəti təhvil verməyi tələb edir. Şah Təhmasib sərkərdələrə öz etirazını bildirsə də onun cəhdləri bir nəticə vermir. Şahlıqdan xoşluqla əl çəkmək istəmədikdə Həsənəli xan bildirir ki, Nadirin iradəsinə əsasən gərək şah Məşhədə gedib orada ibadətlə məşğul olsun. Həmin vaxt ərzində isə Nadir ölkə düşmənlərinə qarşı müharibə başlayacaq, Osmanlı qoşunlarını ölkədən qovacaq və bundan sonra Təhmasibi yenidən şahlığa gətirəcəkdir. Şah Təhmasib başqa bir çıxış yolunun olmadığına görə şahlıq ciqqəsini qoşun sərkərdələrinə verir ki, Nadirə çatdırsınlar. Nadir şahlıq ciqqəsni götürür, lakin onu qəbul etməyə razı olmur. Şahlıq taxtına oturmasının fitnələr və narazılıqlar doğura biləcəyini hiss etdiyi üçün təklif edir ki, Şah Təhmasibin kiçik yaşlı oğlu padşah elan olunsun. Ordu sərkərdələri onun bu təklifinə razı olurlar (209).

Abbas Mirzənin şah elan edilməsi üçün İsfahanda xüsusi bir mərasim təşkil edildi. "Aləm Ara-ye Naderi"nin məlumatına görə, həmin mərasim Təhmasib Mirzə Xorasana yola salınandan 8 gün sonra təşkil edildi. Nadir, onun qoşun sərkərdələri, əyanlar həmin mərasimdə iştirak edirdilər. Nəzərdə tutulan vaxt yetişdikdə Nadirin göstərişinə əsasən xacələr Abbas Mirzəni yatdığı beşikdə bayıra çıxardılar. Nadir, Azərbaycan və İraq sərkərdələri ilə birlikdə beşiyi qaldırdılar və xüsusi hazırlanmış taxt üzərinə qoydular. Bu hadisə musiqiçilərin ifa etdikləri təntənəli musiqi ilə müşayiət olunurdu. Bəzi müəlliflərin yazdığına görə, Abbas Mirzənin şah elan edilməsi 1732-ci il sentyabr ayının 7-də baş verdi. Sonra da yeni şahın adına xütbələr oxundu, sikkələr vuruldu. Sikkələrdə yeni şah, III Şah Abbas kimi təqdim olundu (210).

Qeyd etmək lazımdır ki, şah elan olunduğu zaman III Şah Abbasın neçə aylıq olması barədə müxtəlif versiyalar mövcuddur. Həmin vaxt onun 2 aylıq, 4 aylıq və hətta 8 aylıq olması barədə fikirlər söylənilir (211).

Mənbələrdə tacqoyma mərasimi zamanı III Şah Abbasın ağlaması və onun ağlamağının Nadir tərəfindən özünəməxsus şəkildə yozulması barədə maraqlı faktlar mövcuddur. "Aləm Ara-ye Naderi"də bu hadisə belə təsvir olunur: yeni şah birdən-birə beşiyin içində ağlamağa başlayır. Nadir ətrafındakılardan soruşur ki, nə üçün bizim şahzadəmiz

ağlamağa başladı? Əyanlar söyləyirlər ki, şahlıq taxtına layiq olan böyük sərkərdə (yəni Nadir) bunu daha yaxşı bilir. Onda Nadir cavab verir ki, şahzadə əfqanlara və Osmanlı qoşunlarına dərs verilməsini istəyir. Ağlamağı ilə də bunu çatdırmağa çalışır. Nadir mərasim iştirakçıları qarşısında şahzadənin bu istəyinə əməl edəcəyinə, Osmanlı qoşunlarını, Qəndəhar hakimi Sultan Hüseyni, Hindistan padşahı Məhəmməd şahı, Turan padşahı Əbülfəz xanı itaət altına gətirəcəyinə, dövlətə qarşı qiyam yolunu tutanları islah edəcəyinə və sadalanan ərazilərdə yeni şahzadənin adına sikkə vurulacağına və xütbə oxunmasına nail olunacağına söz verir (212).

Avropa səyahətçisi Jan Otterin yazdığına görə, yeni şah beşiyinin içində 3-4 dəfə qışqırıq çəkib ağladı. Nadir ilk dəfə bu ağlamağın nə ilə bağlı olduğunu soruşanda, ətrafdakılar deyirlər ki, yəqin şah süd istəyir. Nadir cavab verir ki, Allah mənə uşaq dilini başa düşmək fəhmi verib. Yeni şah bizdən türk qoşunlarının tutduğu əraziləri geri qaytarmağı istəyir. Nadir nəvazişlə əlini uşağın başına çəkir və bildirir ki, mənim şahzadəm, sənin haqqını tezliklə Osmanlı sultanından alacağam. Şahzadə ikinci dəfə ağlayanda Nadir onun rusların əlində olan ərazilərin geri qaytarılmasını, üçüncü dəfə ağlayanda Qəndəharın geri qaytarılmasını, dördüncü dəfə ağlayanda iranlıların Məkkədə xüsusi yerə malik olmasını istədiyini bildirdi. Hər dəfə də Nadir cavab verir ki, şahzadənin istəklərini yerinə yetirəcəyəm (213).

Müşahidəçilərin fikrincə, şahzadənin ağlamasına verdiyi şərhlərlə Nadir, əslində gələcək fatehlik planlarını açıqlayırdı. Həmin planlara isə Nadir ömrünün sonuna qədər nail ola bildi. Amma gözlənildiyi kimi, Abbas Mirzənin şah elan edilməsi əslində formal xarakter daşıyırdı. Real hakimiyyət isə ordu sərkərdələri tərəfindən müdafiə olunan Nadirin əlində idi. III Şah Abbas ömrünü sürmək üçün Qəzvinə göndərildi. Nadir isə nayibüssəltənə (yəni, səltənət nayibi) elan edildi.

Bununla, Nadir ölkənin hakiminə çevrildi. Amma onun məqsədi yalnız saraya və böyük səlahiyyətlərə yiyələnmək deyildi. Şübhəsiz ki, bunu da istisna etmək olmaz. Hakimiyyətə yiyələnmək onun sərkərdəlik və fatehlik planlarının həyata keçirilməsi üçün zəruri olan imkanları yaratdı. Nadir real siyasi hakimiyyətə yiyələnməklə siyasi qərarlar qəbul etmək, ölkənin iqtisadi, hərbi və canlı gücünün hərbi planların həyata keçirilməsinə istiqamətləndirmək ixtiyarına sahib oldu və ona görə də qarşısında dayanan başlıca məsələnin, Osmanlı qoşunlarının ölkə sərhədindən kənara qovulması məsələsinin həllinə başladı.

Ölkədə hakimiyyət dəyişikliyi olandan sonra Nadir Osmanlı dövlətinə, Rusiya və Hindistana elçilər göndərdi və ölkə daxilində baş verənlər haqqında həmin dövlətlərin rəhbərlərinə məlumat çatdırdı. Hindistana göndərdiyi nümayəndə heyətinə Fars bəylərbəyi və qullarağası Məhəmmdəli xan rəhbərlik edirdi (214). Məhəmmədəli xan eyni zamanda hind sarayından gilzayi əfqanlarının Hindistan ərazisinə buraxılmamasını xahiş etməli idi. Osmanlı sarayında səfəvi şahının dəyişdirilməsi xəbəri sevinclə qarşılanmasa da, Rusiyada bu xəbəri gətirən nümayəndə heyət ehtiramla qarşılandı. Rusiya dövləti iradəcə daha zəif olan Şah Təhmasibin devrilməsinə əslində elə də çox sevinmədi. Rusiya sarayına nikbin ümid bağışlayan o idi ki, Nadir öz qoşunları ilə Osmanlı dövlətinin bölgədəki fəallığının qarşısını alacaq və Rusiyanın ənənəvi rəqiblərindən biri olan Osmanlı dövlətinin mövqeləri zəifləyəcəkdir (215).

Osmanlı qoşunlarına qarşı döyüşlərə başlamazdan əvvəl Nadir ölkədaxili idarəçilik məsələlərinin tənzimlənməsi ilə də məşğul oldu. O heç şübhəsiz ki, saray daxilində istəyinə uyğun dəyişiklik apardı, vilayətlərin hakimlərini etibarlı şəxslər arasından seçdi. Eyni zamanda, vilayətlərə qasidlər göndərdi, vilayət əyanlarını və əhalisini şah sarayında baş verən dəyişiklikdən agah etdi. Oğlu Pzaqulu Mirzəni Xorasan hakimi, digər oğlu Nəsrulla Mirzəni Herat hakimi, qardaşı İbrahim xanı isə Azərbaycan bəylərbəyi təyin etdi. Kerman hakimliyinə də Nadir öz yaxınlarından birini təyin etdi (216).

### 6. Osmanlı qüvvələrinə qarşı döyüşlərin yeni mərhələsi

Ölkə daxilində idarəçilik işlərinin tənzimlənməsi ilə bağlı bir sıra tədbirlər həyata keçiriləndən sonra Nadir, Şah Təhmasibin Osmanlı qüvvələri ilə imzaladığı müqaviləni ləğv etdi. Bununla bağlı, bəyanat imzaladı və Osmanlı tərəfinə də xəbərdarlıq göndərdi. Bağdaddakı Osmanlı hakimi Əhməd paşaya göndərdiyi elamiyyəsində bildirirdi ki, son döyüşlər zamanı Osmanlı qüvvələrinin əsir götürdüyü səfəvi döyüşçülərinin geri qaytarılmasını istəyirik. Nadir əlavə edirdi ki, həmvətənlərimizin qanları qurumamış osmanlılardan intiqamımızı almalıyıq. O, Osmanlı hakimini xəbərdar edirdi ki, yaxınlarda döyüşlər başlayacaqdır. Bununla, o istəmirdi ki, onu qəfil hücuma başlamaqda ittihamlandırsınlar. Nadir sonda bildirirdi ki, Bağdad havasını udmaq və Bağdad divarları kölgəsində istirahət etmək üçün tezliklə qoşunlarla Bağdada doğru hərəkətə başlayacaqdır (217).

Bağdad hakimi Nadirin bu sözlərindən həm qəzəbləndi və həm də bu barədə Osmanlı sultanına xəbər göndərdi. Sultana da aydın oldu ki, Nadirlə döyüş qaçılmazdır. Sultanın əmri ilə yeniçərilərlə dolu olan bir neçə gəmi Trabzona göndərildi. Oradan isə bu qüvvələr Gürcüstana göndərilməli idi. Eyni zamanda, Bağdada da əlavə qüvvələr göndərilməsinə göstəriş verildi. Nadirin Bağdada hücumu bu şəhərin uzunmüddətli mühasirəsinə yol aça bilərdi. Ona görə də sultan Bağdad qarnizonunu möhkəmləndirmək istəyirdi (218).

C.Hanveyn fikrincə, Nadir yeni yürüş üçün əlavə canlı qüvvəni əsasən ölkənin şərq vilayətlərindən topladı. Məlumdur ki, bu vilayətlərdə çoxlu azərbaycanlı və kürd yaşayırdı. C.Hanveyin yazdığına görə, bir miqdar ərəb döyüşçülərini də qoşun sıralarına daxil etdi və bununla da qoşunların sayı 80 minə çatdı (219).

C.Hanveyin göstərdiyi rəqəmin doğruluğunu təsdiq etmək çətin olsa da, hər halda Nadir Osmanlı qüvvələrinə qarşı ciddi hərbi qüvvəyə malik olmalı idi və bunun üçün də lazım olan tədbirləri həyata keçirdi.

Beləliklə, Osmanlı qoşunlarına qarşı lazım olan hazırlığı başa çatdırsa da, bəxtiyari tayfasının mərkəzi hakimiyyətə qarşı qiyam qaldırması Nadiri öncə Kermanşah istiqamətinə hərəkət etmək məcburiyyətində qoydu. Bəxtiyarilərin qiyamı Nadirin yenicə təyin etdiyi hakimin öldürülməsi ilə başladı. Həmin qiyamı yatırmaq Nadirdən xüsusi bir gərginlik tələb etməsə də, hər halda müəyyən vaxt itkisi zəruri idi. "Aləm Ara-e Naderi"yə görə, Nadir hərbi yürüşə başlamazdan əvvəl sərkərdələri, minbaşıları, tayfa başçılarını toplayıb onlarla müşavirə keçirdi. Nadir onların nəzərinə çatdırdı ki, Osmanlı qoşunları Azərbaycan və İraqı ələ keçiriblər, əfqanlar isə uzun müddət İsfahanı, Heratı və Qəndəharı nəzarət atında saxlayıblar. Nadir bəyan etdi ki, Allahın şəfqəti ilə bu qüvvələri tutduqları ərazilərdən uzaqlaşdırmaq, əldən getmiş abrımızı geri qaytarmaq mümkün oldu. Nadir onu da söylədi ki, Allah dərgahına ümid bağlayaraq mübarizə meydanına qədəm qoyduq, düşmənlərə güclü zərbə vurduq, yolunu azanların qulağına itaət sırğası asdıq, çalışdıq ki, yaradanın kərəmini qazanaq və adımız dünyada qalsın. Nadirin dediyinə görə, döyüş meydanına qədəm qoyan şəxs gərək canından, malından və ailəsindən keçməyi bacarsın, özünə cəfa versin, qəddar zəmanəyə qarşı mübarizəyə girişsin, ya vardövlətə yiyələnsin, ya da qəbrə girsin və orada ilan və qurbağalara yem olsun (220).

Nəhayət, Nadir sərkərdələrinə müraciətində bildirdi ki, Allahın fəziləti ilə yürüş edərək dövlətə müxalif olanları qovacaq və onların halını pərişan edəcəkdir. O əlavə edirdi ki, əgər sizin hansınız vətəninizə

dönmək, istirahət etmək istəyirsinizsə bunu bildirin. Bunun üçün sizə pul da veriləcək ki, arzularınıza çatasınız və eyni zamanda bizim uğurlarımız üçün dualar edəsiniz. Kimsə sıralarımıza qoşulmaq və bizimlə birgə xidmət etmək istəyirsə onu var-dövlətlə, yüksək vəzifələrlə təmin edəcəyəm (221).

Çox güman ki, bu müraciətini səsləndirməklə Nadir əyanlarını, sərkərdələrini və qoşun başçılarını psixoloji baxımdan qarşıdakı ağır hərbi yürüşlərə səfərbər etməklə, onların Nadirin planlarına münasibətini də öyrənmək istəyirdi. Məşvərətdə iştirak edən əyanlar, sərkərdələr, qoşun başçıları bir səslə Nadirlə birgə olmağa, canlarında can qaldıqca Nadirin xidmətində qalmağa hazırdırlar. Onlar xüsusi vurğulayırdılar ki, mallarını, canlarını din və dövlət yolunda fəda etməkdən çəkinməyəcəklər. Sərkərdələrinin bu sözlərindən razı qalan Nadir göstəriş verdi ki, Səfəvi xanədanının İsfahandakı xəzinəsinə toplanan var-dövlətin qapıları açılsın, qoşunlara yetərincə pul buraxılsın, döyüşçülər hərbi təchizatla mükəmməl təmin edilsin və onlar pul korluğu çəkməsinlər (222).

Beləliklə, bütün hazırlıq işlərini başa vurandan sonra, Nadir 1732-ci ilin oktyabrında qoşunu ilə İsfahandan hərəkətə başladı (223). “Atəşgah” adlanan məntəqədə dayanacaq etdi və orada qüvvələrini iki yerə böldü.Təhmasib xan Cəlayirin, Rzaqulu xan Kürdün və Hacı Seyfəddin xan Bayatın və bir neçə digər xanın olduğu dəstəni Nadir Kermanşaha göndərdi. Özü isə digər dəstə ilə birlikdə bəxtiyarilərin qiyamını yatırmağa yollandı. Bəxtiyarilərin bir hissəsi Nadirin gəlişini eşidib ona qarşı müqavimət göstərməyin mənasız olduğunu anladı. Nadirin ora təyin etdiyi hakimin öldürülməsində əli olanların bir çoxu günahlarını etiraf etdiyinə görə bağışlandı. Ardınca Bənavər qalasını mühasirəyə aldı. Orada da bəxtiyarilərin bir qismi qalaya sığınıb müqaviməti davam etdirmək niyyətinə düşdülər. Bir neçə top atəşindən sonra qalada müdafiə olunanlar arasında vəlvələ yarandı və onlar da təslim oldular. Amma bəxtiyarilərin Çaharləng və Həftləng camaatları Nadirə qarşı müqavimət göstərməkdən əl çəkmədi. Nadirin qətiyyətli tədbirləri az zaman içində bəxtiyarilər arasında baş qaldırmış iğtişaşları yatırmağa imkan verdi. Onların arasından silah tutmağı bacaranların böyük bir dəstəsi Nadirin qoşunlarına qatıldı, sərkərdələrin və əyanların çoxu isə İsfahana köçürüldü (224).

Nadir bəxtiyarilərin qiyamını yatırdıqdan sonra Luristana doğru üz tutdu. Məqsəd orada dövlətə itaətdən üz döndərənlərə də ciddi dərs vermək idi. Luristanın hakimləri və yerli əyanları Nadir qoşunlarının gəlməsi xəbərini eşidəndə dərhal onun yanına elçilər göndərdilər,

Nadirə xidmət etməyə hazır olduqlarını bildirdilər. Bu məsələnin də silah işlədilmədən həll edilməsi Nadir üçün arzuedilən bir hal idi. Çünki Osmanlı qoşunları ilə gözlənilən döyüşlər ərəfəsində itkilərə məruz qalmaq, qoşunu yormaq heç də onun istəyinə uyğun deyildi. Əksinə, Luristan hakimi və əyanlarının elçilərini qəbul edəndən sonra Nadir istirahətə dayanmağa və qoşunların təchizatını təkmilləşdirməyə göstəriş verdi. Qoşun rəhbərlərinə xüsusi olaraq tapşırdı ki, döyüşçülərini, silahla, sursatla, geyimlə, ərzaqla təminatına məsuliyyət daşıyırlar. Luristanda itaətsizliyin aradan qaldırılmasına gəlincə isə Nadir burada da öz məqsədinə çatdı və lurlar arasında etibarsız sayılan insanların bir dəstəsi İsfahana köçürüldü.

Luristanda da asayiş təmin edildikdən sonra Nadir Kermanşaha doğru istiqamət götürdü. Həmin məntəqədə Nadir yerli əhali və əyanlar tərəfindən təntənə ilə qarşılandı. Hətta yerli əyanlar və xanlar Nadirin qoşununun iaşə ilə təminatını Kermanşahda qaldığı müddətdə öz üzərinə götürdülər.

Kermanşahda olarkən Nadirə xəbər çatdırdılar ki, Bağdad hakimi Əhməd paşanın təqdimatı ilə Osmanlı sultanı tərəfindən Həmədan hakimi təyin edilmiş Əhməd paşa Baclan ( həm Bağdad hakimi, həm də Həmədan hakimi eyni ada malik idilər-M.S.) Zərab yaxınlığında böyük qoşun toplayıbdır. Onun qoşununun sayının 20 min olduğu bildirilir. Əhməd paşaya görə, o, Zəhabda tutduğu mövqe ilə Nadirin qoşununun yolunu kəsə bilərdi. Çox güman ki, Əhməd paşa Baclan Bağdad hakimi Əhməd paşadan Nadirin qoşununun qarşısını kəsmək və əlverişli mövqelərdə döyüşə girməklə ona itki yetirmək tapşırığı almışdı. Kermanşah yaxınlığında, dağlıq ərazidə yerləşən Zəhab məhz belə əlverişli mövqe kimi seçilmişdi. Nadir qoşunu ilə ora yaxınlaşanda dağlardan keçən yolların Osmanlı qüvvələri tərəfindən etibarlı şəkildə müdafiə olunduğunun şahidi oldu. Yol üzərindəki hündür və qarlı dağları aşmaq isə elə də asan deyildi. Amma Zəhabdakı Osmanlı qüvvələrinin müqavimətinin qırılması üçün məhz bu hündür və qarlı dağların keçilməsindən başqa bir çıxış yolu da yox idi (225).

Nadir qarşısındakı hündürlükləri və yüksəklikləri müşahidə edəndə özü də heyrətə gəldi. Mənbələrdə olan məlumatlara görə, bu yüksəkliklərin üstündən uçmağa heç quşlar da ürək etməzdilər. Qışın ağır hava şəraiti dağları aşmağın fiziki əziyyətini hədsiz dərəcədə artırsa da, Nadir bu əziyyətə qatlaşmağı qərara aldı. Qoşuna dağları aşmaq, Osmanlı qoşunlarının gözləmədiyi bir istiqamətdən onları dövrələyib Zəhab qalasının arxasına çıxmaq əmri verdi. Seçilən marşruta tanışlıq olmadığı üçün dağların üzərindən aşmaq böyük çətinliklərlə bağlı idi.

Bu çətinliklərə baxmayaraq Nadir hətta çıraqların köməyi ilə gecə də hərəkətini dayandırmadı və səhərə yaxın Zəhab qalası yaxınlığına çatdı. Mövcud olan böyük çətinliklərə baxmayaraq, Nadir ağır dağ yollarını qət etdi və hərbi məharətinin yeni bir keyfiyyətini də nümayiş etdirdi. Mənbələrin birində Nadir tərəfindən 35 fərsəng uzunluğunda olan bu yolun bir gün ərzində, başqa birində üç gün ərzində getdiyi göstərilir. Hər halda Nadir elə bir seçim etmişdi ki, onun mümkünlüyünə Əhməd paşa Baclan inanmırdı, Nadirin hücumunu tamam başqa istiqamətdən gözləyirdi ki, həmin istiqamət də Osmanlı qüvvələri tərəfindən kəsilmişdi. Ona görə də Zəhabda müharibə təhlükəsi də yox idi və Əhməd paşa Baclan hərəkətlərinə sərbəstlik verərək gecəni rahat yatdı. Nəticədə, Osmanlı qoşunu Zəhabda qəfil şəkildə Nadirin sürətli hücumuna məruz qaldı. Osmanlı qoşunları çoxlu itki verdi və xeyli adam da əsir düşdü (226).

Hücumdan qabaq Nadir dəstəsini dörd qrupa böldü. Qulamlar və həmişəkeşiklər qrupu Nadirin yanında idi. Digər üç qrup isə Nadirin ən təcrübəli sərkərdələrinin rəhbərliyi altında döyüşə girməli idi. Səhərin açılması ilə bütün qüvvələr Zəhab qalası üzərinə şığıdılar. Qəfil yaxalanmış olan osmanlılar arasında bir qarışıqlıq yarandı. Ona görə də, Zəhabdakı Osmanlı qüvvələri ciddi müqavimət göstərə bilmədilər. Əhməd paşa Baclan isə atını minib qaçmağa səy göstərdi. Lakin o da istəyinə çatmadı və Nadir döyüşçüləri tərəfindən əsir götürüldü (227).

Nadirin 5 gün Zəhabda qaldığı bildirilir. Bu müddət ərzində həm arxada qalan dəstələr gəlib ona yetişdilər, həm də həmin günlər ərzində ərzaq ehtiyatı artırıldı. Zəhabdan və ətraf məntəqələrdən ərzaq ehtiyatı toplandı. Zəhab qalası da möhkəmləndirildi. Nadir eyni zamanda Təbriz hakiminin nayibi Lütfəli bəy Kosaəhmədliyə xəbər göndərdi ki, Azərbaycan qoşunları ilə hərəkətə gəlsin və Nadirin yanına gəlsin. Lütfəli bəy Azərbaycan qoşunlarından başqa Ərdəlan və Həmədandakı qoşunları da özü ilə bərabər Nadirin yanına gətirməli idi (228).

Nadiri qarşıda son dərəcə ağır döyüşlər gözləyirdi. Zəhabda aparılan hazırlıqlar da Osmanlı qüvvələrinə qarşı planlaşdırılan döyüşlərin uğurla başa çatdırılması istəyindən irəli gəlirdi. Xüsusilə, Bağdad qalasının istehkam-müdafiə imkanlarının yüksək olması Nadirdən də böyük səylər tələb edirdi. Osmanlı qoşunlarının yerləşdiyi Bağdad qalasının divarları həm çox hündür, həm də qalın idi. Bu divarlar kərpicdən tikilmişdi və çoxlu sayda bürclərə malik idi. Qala divarlarının dövrəsi boyunca dərin xəndəklər qazılmış və onların içi su ilə doldurulmuşdu. C.Hanveyin verdiyi məlumata görə, 200 ədəd top qalanın

mühafizəsinə xidmət edirdi. Qala qarnizonunun isə 10 min nəfər olduğu bildirilirdi. Bundan başqa şəhərdə 12 min nəfərlik qeyri-hərbi ehtiyat qüvvəsi var idi və zərurət yarananda onları da qarnizonun tərkibinə daxil etmək mümkün idi. Şəhər Dəclə çayının hər iki tərəfində yerləşirdi. Çay bol sulu və çox sürətli axan bir çay idi. Onun bir tərəfindən o biri tərəfinə keçmək qayıqsız mümkün deyildi. Dəclə çayı da şəhərin müdafiə imkanlarını artırırdı. Çay kənarında mövcud olan təsərrüfatçılıq isə şəhərdə zəruri ərzaq ehtiyatlarının yaradılmasına imkan verirdi (229).

Bağdad qalasının belə imkanlara malik olmasını nəzərə aldığı üçün Nadir bir başa bu qalaya hücum etməyi lazım bilmədi. O yaxşı anlayırdı ki, Osmanlı qüvvələri qala daxilində müdafiəni yaxşı qurduqları halda şəhəri almaq çətin olacaqdır. O istəyirdi ki, Bağdad hakimi Əhməd paşanı qoşunları ilə birlikdə qaladan kənara sövq etsin və açıq sahədə onunla döyüşə girsin. Ona görə də əvvəlcə Kərkükə doğru hərəkət etdi. Kərkükə hərəkəti zamanı Diyalə çayını keçərkən Nadir müəyyən çətinliklərlə qarşılaşdı. İti axan çay keçid üçün çətinliklər yaratdı və hətta bir sıra heyvanları su özü ilə apardı. Buna görə də Nadir çaydan keçməyi dayandırdı və keçid üçün daha təhlükəsiz yer axtarmağa başladı. Nəhayət belə bir münasib yer tapıldı və qoşunlar həmin yerdən çayı keçə bildilər.

Diyalə çayını adlayandan sonra Nadir qoşunu üç dəstəyə böldü. Onlardan birinə özü rəhbərlik edirdi. Dəstələrə müxtəlif istiqamətlərdən hərəkət əmri verildi. Bu dəstələr hərəkət etdikləri istiqamətlərdə həm kəşfiyyat işləri aparmalı, həm də ərzaq ehtiyatı toplamalı idilər. Nadir özü isə Kərkük istiqamətinə hərəkət etdi. Kərkük ətrafında Təbriz hakiminin nayibi Lütfəli bəyin rəhbərliyi altında olan 6 minlik Azərbaycan qoşunu və 2 minlik Ərdəlan qoşunu da Nadirə birləşdi. Nadir 7 minlik bir qoşun dəstəsini Kərkükün mühasirəsinə istiqamətləndirdi. Nadir özü isə bir qədər də cənuba doğru hərəkət etdi. Amma yol çox dar olduğu üçün təhlükəsizlik məqsədi ilə qərara aldı ki, qüvvələri iki dəstəyə bölsün. Nadirin rəhbərliyi altında olan qüvvələr Daneşkörpü yolu ilə, Lütfəli bəyin rəhbərliyi altında olan qüvvələr isə Daşkörpü yolu ilə hərəkətlərini davam etdirdilər. Bir müddətdən sonra Nadirə məlumat çatdırıldı ki, qarşıda Osmanlı qüvvələrinin olması müşahidə edilmişdir. 12 min nəfərlik bir Osmanlı dəstəsi Bağdad hakimi Əhməd paşa tərəfindən Nadirin hərəkət ehtimalı olan istiqamətdə mühafizə-qarovul xidməti həyata keçirirdi (230).

"Aləm Ara-ye Naderi"də Nadirin əvvəlcə Kərkük istiqamətinə qoşun çəkməsi başqa səbəblə əlaqələndirilir. Bildirilir ki, Kərkükdə kifa-

yət qədər güclü Osmanlı qarnizonu yerləşmişdi. Nadirin qənaəti belə idi ki, Bağdada hərəkət etdiyi zaman Kərkükdə yerləşən Osmanlı qarnizonu arxadan onun yolunu kəsə bilər və ya arxadan gözlənilməz zərbə endirə bilər. Bu isə Nadirin qoşunu üçün arzuolunmaz idi. Ona görə Nadir əvvəlcə Kərkükü ələ keçirməyi qərarlaşdırdı. Bu mənbədə Kərkük yaxınlığında Nadirin Osmanlı dəstəsi ilə qarşılanması təsdiq olunur. Nadirin əmrinə əsasən, Osmanlı dəstəsi ilə döyüşə ilkin olaraq onun qoşununun tərkibində olan əfqan dəstəsi göndərildi. Bu dəstə sürətli və güclü zərbə ilə osmanlıları pərən-pərən etdi. Kərkükdəki Osmanlı dəstəsinin rəhbəri Sultan Murad dəstəsinin ağır vəziyyətini görüb Kərkük qalasına çəkilmək məcburiyyətində qaldı (231).

Bu döyüşdən sonra Nadir Kərkük qalasının ətrafında dayanmadı və Behruz qalasına doğru hərəkət etdi. Qaranlıq gecədə hərəkətin çətinliyini nəzərə alaraq Nadir Nikcə adlanan məntəqədə düşərgə saldı. Burada qoşuna istirahət verməklə bərabər, Nadir ətraf məntəqələrin, o cümlədən də Bağdadın kəşfiyyatının aparılmasını tapşırdı. Düşərgənin qorunması üçün isə xüsusi qarovul dəstəsi təşkil etdi. Nadirin qoşunlarının yaxınlaşması xəbərini eşidəndən sonra Əhməd paşa da Məhəmməd paşanın rəhbərliyi altında Nikcə istiqamətinə 2 min nəfərlik kəşfiyyat dəstəsi göndərdi. Birinci gün hər iki dəstə bir-biri ilə rastlaşmadan öz işləri ilə məşğul oldular. İkinci gün isə onlar üzbəüz gəldilər. Nadirin üç minlik dəstəsi osmanlılara heç bir şans vermədi və hətta onların rəhbəri Məhəmməd paşa əsir götürüldü (232).

"Aləm Ara-ye Naderi" də Bağdad ətrafında Nadirin və Əhməd paşanın qarovul-kəşfiyyat dəstələrinin qarşılaşması təsdiq olunur. Amma bu mənbədə həm dəstələrin hər ikisinin sayı çox göstərilir, həm də Osmanlı dəstəsinə Dərviş paşa adlı birisinin rəhbərlik etdiyi bildirilir. Bu mənbənin yazdığına görə, Nadir tərəfindən göndərilən dəstə iki qrupa bölündü və həmin qruplar iki istiqamətdən Osmanlı qüvvələrini mühasirəyə aldılar. Nadir qüvvələrinin çevik taktikası və onların şücaəti osmanlıları geri çəkilməyə məcbur etdi. Təqib zamanı isə Dərviş paşa qətlə yetirildi (233).

Bu qarşılaşmadan sonra Nadir bir qədər də irəliyə hərəkət edib Bağdada daha yaxın və daha əlverişli məkanda düşərgə salmağı qərarlaşdırdı. Həmin düşərgə Bağdadın iki fərsəngliyində olan İmam Kazımin məqbərəsinin yaxınlığındakı təpə üzərində salındı. Nadir əvvəlcə Babaxan Çapuşinin rəhbərliyi altında olan avanqard dəstəni düşərgə üçün seçdiyi məntəqəyə göndərdi. Nadir qoşunlarının yeni düşərgəyə yerləşdirilməsi üç gün davam etdi. Qoşun bütünlüklə düşərgəyə toplanandan sonra Nadir yaxınlıqda olan İmam Əbu Hənifənin məqbərəsini

də mühafizə altına götürdü. Qeyd etmək lazımdır ki, Nadirin düşərgəsi həm də Dəclə çayının kənarında yerləşirdi (234).

Nadirin burada gördüyü işlərdən biri də o oldu ki, Xorasana, İran İraqına, Farsa, Xürrəmabada və Təbrizə fərmanlar göndərdi ki, həmin məntəqələrdən çoxlu sayda at, silah, libas və s. toplanıb Həmədana gətirilsin. Nadir ehtiyat edirdi ki, Bağdadın mühasirəsi uzun sürə bilər. Belə olanda qoşunların təchizatında yaranmış çatışmazlıqlar Həmədanda yaradılmış anbardan ödənilməli idi. Həmin anbarlara üç illik qoşun ehtiyatının toplanması əmr edilmişdi. Nadirin əmrinə əsasən, top ustaları da Həmədana toplanmalı, orada 200 ədəd top və onlar üçün zəruri olan top bombaları tökməli idilər. Mənbələrin verdiyi məlumata görə, Bağdad ətrafına toplanan Nadir qoşununun sayı 120 minə çatırdı. Amma bu sayın hamısı döyüşən qüvvə deyildi. Bu saya təchizat heyəti, ordubazar, mehtərlər, qulluqçular və digərləri daxil idilər (235).

Yeni seçdiyi mövqedə düşərgə salandan bir neçə gün sonra Nadirə məlum oldu ki, çayın o biri üzündə Qara Mustafa paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının ətrafı və konkret olaraq Nadir qoşunlarının yerdəyişmələri müşahidə altında saxlansın. Qara Mustafa paşanın toplarla qüvvətləndirilmiş dəstəsinin çay kənarında yerləşdirilməsi həm də Nadir qoşunlarının çayı adlamaq cəhdlərinin qarşısını ala bilərdi

Nadir bu xəbəri alandan sonra əmr etdi ki, ustaları, səriştəli şəxsləri bir yerə toplasınlar və onlar çay üzərindən körpü salınmasına başlasınlar. Həmin körpülər vasitəsilə Nadir Köhnə Bağdad ərazisində mövqe tutmuş Osmanlı qüvvələrinə zərbə endirməyi planlaşdırırdı. Bağdada yürüşdə iştirak edən avstriyalı alman mühəndisi Dəclə çayı üzərindən keçidin qurulmasında yaxından iştirak etdi. Keçidlərin qurulması üçün xurma və palma ağaclarından istifadə etmək lazım gəldi. Nadir bu işə 12 min döyüşçünü cəlb etdi. Onlar yaxınlıqdakı ərazilərdən xurma və palma ağaclarını müəyyən edilmiş uzunluqda kəsib Bağdadın on fərsəngliyində olan Nəhrvan məntəqəsinə topladılar. Ağac tirləri içərisinə hava doldurulmuş dəri kisələrə bağladılar. Həmin kisələr ağacları suyun üzərində saxlamalı idilər. Sonra isə ağaclar qalın kəndirlə bir-birinə bərkidildi. “Aləm Ara-ye Naderi”də bildirilir ki, Nadir topçubaşı Yarbəy xana min ədəd qayıq hazırlanmasını tapşırmışdı. Çox güman ki, burada söhbət sal hazırlanmasından gedir. Sal və müvəqqəti körpülər hazır olandan sonra Nadir üzməyi bacaran 40 nəfər döyüşçü seçdi. Bu döyüşçülər çayın o biri sahilinə üzməli, orada yerə mıx çalıb bərkitməli, sonra da salların və körpü-

lərin kəndirlərini həmin mıxlara bağlamalı idilər. Osmanlı qüvvələri görünür Nadir qüvvələrinin fəaliyyətini nəzarət altında saxlayırdılar. Çünkü Nadirin dalğıcları o biri sahilə keçən kimi Osmanlı qüvvələri ilə rastlaşıb geri qayıtmalı oldular (236).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Nadir sərkərdəlik tarixində ilk dəfə tətbiq etdiyi müvəqqəti keçidlər vasitəsilə ilk gün 2500 nəfər, sonrakı gün daha 1500 nəfər o biri sahilə adlada bildi. Amma ikinci gün körpü ağırlığa tab gətirməyib qırıldı (237). Bundan sonra qoşunun qalan hissəsinin çay üzərindən necə keçirildiyi məlum deyil. "Aləm Ara-ye Naderi"yə görə, müvəqqəti keçidlər ümidləri doğrultmadıqda Nadirin əmri ilə yaxınlıqdakı ərəb kəndlərinin sakinləri onun yanına gətirildi və Nadir onlardan çayı necə keçməyin yollarını soruşdu. Sakinlər də bildirdilər ki, Nadirin düşərgəsindən 3-4 mil yuxarıda çayı adlamaq üçün münasib yer mövcuddur və qoşunlar orada çayı asanlıqla keçə bilərlər. Nadir bu məsləhəti qəbul etdi və ola bilsin ki, qarşı tərəfi duyuq salmamaq üçün gecə yarı sərkərdəsi Babaxanın rəhbərliyi altında 10 minlik qoşun dəstəsini yerli ərəblərin nişan verdiyi məkana göndərdi. Qoşunların çayı adlaması Nadir üçün Bağdad yürüşünün məsuliyyətli məqamlarından biri idi. Ona görə özü də həmin yerə yaxınlaşmağı qərara aldı. Amma hərəkətə başlamazdan əvvəl əfşar tayfasından olan İmamverdi xan Qırxlını yanına çağırdı, papağındakı ciqqəsini onun papağına sancdı və sonra da onu özünün taxtında oturtdu ki, heç kim Nadirin düşərgəni tərk etməsindən xəbər tutmasın. Yerli ərəblərin söylədiyi məkanda onlar asanlıqla Dəclə çayını adladılar və Bağdada doğru hərəkətə başladılar (238). Çox güman ki, qoşunun qalan hissəsi də sonradan bu yolla çayı adlaya bilmişdi.

Nə qədər ki, Nadirin qoşunları çayın o biri üzündə idi, Bağdad valisi Əhməd paşa da özünü o qədər rahat hiss edirdi. Amma Nadirin müşahidəsini də aparırdı. Nadir çayı adlayan günün səhəri dəstəsi ilə Osmanlı qoşunlarının qarovullarının qarşısına çıxması onlarda bir çaşqınlıq yaratdı. Elə Əhməd paşa da bir çaşqınlıq içərisinə düşdü. Mənbələrin birində həmin gün Nadirin qoşunu ilə Osmanlı qoşunları arasında döyüş baş verdiyi bildirilir. Başqa mənbədə isə döyüşün bir gün sonra baş verməsindən danışılır. Eyni zamanda bir mənbədə Osmanlı qoşununun 30 min nəfər, digərində üç min nəfər olduğu bildirilir (239). Rəqəmlərin hər ikisi şübhəli görünə bilər. Birinci rəqəm çoxdursa, ikinci rəqəm azdır. Nadir qoşunlarının qarşısına yəqin ki, 3 minlik Osmanlı dəstəsi çıxarıla bilməzdi.

Hər halda bu döyüş Nadir üçün ciddi bir sınağa çevrildi. Əvvəla, döyüşün baş verdiyi ərazi süvarilərin hərəkəti üçün münasib deyildi. Yumşaq torpaqda çoxlu deşiklərin və oyuqların olması süvarilərin çevikliyini məhdudlaşdırdı. Digər tərəfdən Osmanlı tüfəngdarlarının pusqular yaratması Nadir döyüşçülərini çıxılmaz vəziyyətə saldı.

Əvvəlcə Qaracurlu dəstəsi döyüşə atıldı. Pusquda dayanan tüfəngdarların aramsız atəşləri dəstənin müqavimətini qırdı. Sonra Kukəlan türkmənləri döyüşə qatıldılar. Osmanlı qüvvələrinin çox uğurlu mövqe seçmiş tüfəngdarları türkmənlərin və eləcə də digər dəstələrin hücumlarının qarşısını alıb onları çətin vəziyyətə saldılar. Yalnız əfqanlardan təşkil edilmiş dəstə osmanlıların bütün həmlələrini mərdliklə dəf etsə də, bütünlükdə Nadir qoşunları geri çəkilmək məcburiyyətində qaldı. Geri çəkilən Nadir qoşunlarının arxası Dəclə çayına dirəndi. Belə bir vaxtda Nadir anladı ki, ani və qətiyyətli tədbirlər həyata keçirməsə ağır məğlubiyyətə düçar ola bilər.

"Aləm Ara-ye Naderi"yə görə, Nadir nərə çəkib döyüşçülərinə müraciət etdi. Həqiqətdə isə çox güman ki, əfqan dəstəsinin rəhbərini yanına çağırıb ona müraciət etdi. Nadir görürdü ki, digər dəstələr çaşqınlıq içərisinə düşdüyü halda, əfqanlar təpər və dözümünü itirmədən igidliklə vuruşurlar və onların cinahında təşəbbüsü genişləndirməklə döyüşün ümumi gedişinə təsir göstərmək olar. Nadir söylədi ki, ey əfqan dilavərləri, bu gün kişilik günüdür, təpər günüdür, əgər siz döyüşdə özünüzü göstərməsəniz nə qızılbaşlar, nə də əfqanlar bu döyüşdə canlarını qurtara biləcəklər. Əgər bu döyüşdə qəhrəmanlıq göstərsəniz sizin hamınızı dostlarınızın arasında başı uca, həyatınızı isə xoşbəxt edəcəyəm (240).

Bu müraciətdən sonra əfqan sərkərdələrindən olan Qəni xan min nəfərlik dəstəsi ilə atlarda piyada olub osmanlılarla döyüşə girdi. Nadir eyni zamanda digər dəstələrin də fəallaşmasına nail oldu. Xüsusən, topçular sərrast atəşlərlə Osmanlı qoşunları arasında itkilərin sayını artırdılar. Min nəfərlik əlavə qüvvənin yetişməsi isə Nadirin zərbə qüvvəsini daha da artırdı və o özü də döyüşlərə qatıldı. Osmanlılar tərəfindən atılan bir güllə Nadirin atını yaraladı. Belə olanda yaxınlıqdakı döyüşçülərdən biri öz atını Nadirə verdi. Nadir isə böyük sürətlə özünü əfqanlar vuruşan mövqelərə yetirdi və şücaəti ilə əfqanların uğurlarını daha da genişləndirdi. Əlindəki əmudun havada cövlan etməsi qarşı tərəfin qüvvələrinə qorxu, öz döyüşçülərinə isə ruh və ilham gətirdi. Bütün bunların nəticəsi idi ki, Nadir döyüşün gedişində ciddi dəyişiklik yaratdı və osmanlıların döyüş meydanından çəkilməsinə nail oldu (241).

Osmanlı qoşunlarının bütün cəhdlərinə baxmayaraq Nadirin qüvvələrinin iradəsi qırılmadı. Osmanlı qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar. Nadir, Osmanlı qoşunlarını təqib edərək Köhnə Bağdadı ələ keçirdi. Oranın qarnizonu Nadirə müqavimət göstərmək istəsə də sonra bu müqavimətdən əl çəkib Bağdad qalasına qaçmalı oldu.

Bununla Nadir Bağdad ətrafında Osmanlı qüvvələrinə qarşı döyüşdə ağır və lazımlı qələbəsini əldə etdi. O, Bağdad qalasına daha da yaxınlaşıb onu mühasirəyə aldı. Çətinliklə başa gəlmiş bu döyüşün sonunda Nadir fərqlənən döyüşçüləri, xüsusilə əfqan dəstəsinin sərkərdələrini lazımınca mükafatlandırdı, özünü göstərə bilməyənlər isə onun tənbihinə və qəzəbinə tuş gəldilər.

Bu döyüş Bağdadın mühasirəyə alınmasını tamamladı. Mövcud olan məlumatlara görə, Nadir Bağdad ətrafında qurulmuş müdafiə səngərlərini ələ keçirib Osmanlı qüvvələrini tamamilə Bağdad qalasına sıxışdırdı. Nadirin qüvvələri qala ətrafında su ilə doldurulmuş xəndək boyunca mövqe tutdular və qalanın ətraf aləmlə əlaqələrini tamamilə kəsdilər. Verilən məlumatlara görə, Nadir Dəclə çayının hər iki sahilində, Bağdad qalası boyunca istehkam sistemi yaratdı. Bu istehkam sisteminə 2700 bürc daxil idi. Hər bürc də bir-birindən tüfəng atəşi məsafəsində idi (242).

Beləliklə, 1733-cü ilin əvvəllərində, qışın sonunda Bağdad Nadir tərəfdən tam mühasirəyə alındı və bu mühasirə bir neçə ay davam etdi. 1733-cü ilin Novruz bayramını da Nadir Bağdad qalası ətrafında keçirdi. Onun ümidi qala daxilində ərzaq qıtlığı yaratmaqla qalanın ələ keçirilməsinə nail olmaq idi. Əslində, Nadir buna nail oldu. Uzun sürən mühasirə Bağdadda ərzaq qıtlığı yaratdı. Aclıqdan canlarını qurtarmaq üçün gecələr şəhər sakinləri özlərini qala divarları üzərindən atıb Nadirin düşərgəsinə qoşulurdular.

Bağdad mühasirədə olduğu vaxt Nadir qoşunlarının bir hissəsini ətraf məntəqələrə göndərərək həm oradakı Osmanlı qüvvələrinə zərbə endirirdi, həm də ərzaq ehtiyatı toplayırdı. Mənbələrdə Bağdadın mühasirəsinin davam etdiyi aylarda Nadir qoşunlarının Şama yürüşü, Süleyman Bəbə və Davud Soltan qalalarının ələ keçirilməsi haqqında məlumatlar vardır (243).

Bağdadın mühasirəsi 1733-cü ilin ortalarına qədər uzandı. Bu müddət ərzində şəhərdə olan bütün ərzaq ehtiyatları məsrəf edildi. Həmin ilin iyul ayında Əhməd paşa qalanın təslim edilməsi ilə bağlı Nadirin yanına nümayəndə heyəti göndərdi. Nümayəndə heyəti Nadirlə danışıqlar apardı və Bağdadın bir ay ərzində təhvil veriləcəyini bəyan etdi (244).

Güman olunur ki, Əhməd paşa bununla vaxt qazanmağa və ona yardım üçün əlavə qüvvə göndəriləcəyinə ümid edirdi. Sözsüz ki, Osmanlı sarayı da mühasirənin davam etdiyi dövrdə Bağdadın çətin vəziyyətə düşməsindən xəbər tutdu və Bağdada yardım üçün sədr-əzəm olmuş Topal Osman paşanın rəhbərliyi altında böyük qoşun dəstəsi göndərdi. Mənbələrdə Topal Osman paşanın rəhbərliyi altında olan qoşunun 100 min və 300 min olması haqqında məlumatlar mövcuddur. Tarixçilər 100 minlik qoşunun Bağdada göndərilməsi fikrinə daha çox istinad edirlər. Mənbələrdə o da bildirilir ki, Topal Osman paşanın rəhbərliyi altında böyük qoşun dəstəsinin hərəkətə başlaması xəbərini Əhməd paşaya çatdırmaq üçün çaparlar göndərildi. Amma bu çaparlar Nadir tərəfindən ələ keçirildi və o göndərilən məktubun məzmunu ilə tanış olduqdan sonra üzərinə böyük qoşun dəstəsinin gəlməsindən xəbər tutdu (245).

Çaparların apardığı məktubla tanış olandan sonra Nadir onları azad etdi. Həmin məktubdan aydın olurdu ki, Osmanlı sarayı Nadirin yenidən fəallaşmasından, Bağdadın mühasirəyə alınmasından çox narahatdır və bununla bağlı vaxtilə sədr-əzəm olmuş, Osmanlı sarayının istedadlı sərkərdələrindən biri kimi ad çıxarmış Topal Osman paşanın Nadirə qarşı göndərilməsinə böyük ümidlər bəsləyir. Bu məktubda da Nadir "Toppuz xan" adlandırılırdı. Osmanı sarayı ümid edirdi ki, səfəvilərin sərhədləri daxilində olan bütün ərzaqlar Topal Osman paşa tərəfindən ələ keçiriləcək, Nadir həbs olunaraq İstanbula göndəriləcək və bununla da şərqdə yaranmış narahatçılığa son qoyulacaqdır (246).

C.Hanveyə görə, Topal Osman paşanın qoşunu ilə gəlməsi xəbərini eşidəndə Nadir Mosulun Osmanlı hakiminə məktub göndərdi və həmin məktubda Topal Osman paşanın gəlməsinə münasibətini belə bildirdi: "Xəbər çatmışdır ki, türk sərkərdələrindən biri ahəstə yol gəlməkdədir (buradan anlayıram ki, o, igid adam deyil). Uzun müddətdir ki, yoldadır və mənim qələbələrimə mane olmaq istəyir. Ona xəbər çatdırıram ki, sürətlə gəlməsini istəyirəm və mən onun yolunu daha gödək etmək üçün qoşunumun bir hissəsi ilə onun qarşısına yollanıram. Bu kifayətdir ki, onu tələsməyə peşiman edim. Mən onun həqir qoşununu nəinki əsir edəcəyəm, hətta özünü də südəmər uşaq kimi tutacağam" (247).

C.Hanveyin əsərində Topal Osman paşanın da Nadirə göndərdiyi məktubundan danışılır. Topal Osman paşa həmin məktubda böyük gücə malik olduğuna və Nadirə güclü zərbə endirəcəyinə işarə edirdi. Amma Nadirin məktubundakı bir sıra məqamlar diqqəti daha çox cəlb edir. Bu məqamlardan biri Nadirin öz qoşunlarının bir hissəsini Topal

Osman paşaya qarşı göndərmək istəməsidir. C.Hanvey Nadirin bütün qoşununun deyil, yalnız bir hissəsinin osmanlılara qarşı göndərilməsini onun öz düşmənini layiqincə qiymətləndirməməsi, qürurlu hərəkət etməsi kimi izah edir. Əslində, belə bir qərar Nadir tərəfindən müdrikcəsinə qəbul edilmiş bir qərar idi. Nadir Bağdadın mühasirəsini buraxıb bütün qoşunu Topal Osman paşaya qarşı göndərsəydi, arxadan Bağdaddakı Osmanlı qarnizonunun ağır zərbəsinə məruz qala bilərdi. Digər tərəfdən Nadir, Topal Osman paşanın qoşunu ilə tez qarşılaşmaq üçün ona doğru hərəkət edəcəyini bildirir, yəni Topal Osman paşanın Bağdad ətrafında deyil, Bağdaddan aralı bir məkanda qarşılamağı qərara alır. Bununla, Nadir yenə də iki qüvvə arasında qalmaqdan və daha ağır zərbə almaq ehtimalından özünü sığortaladı.

Tarixdən artıq məlumdur ki, Topal Osman paşanın qüvvəsi Nadirin döyüşə girən qüvvəsindən ən azı iki dəfə çox idi və Nadir bu əməliyyatda uğursuzluğa düçar oldu.

Tarixi ədəbiyyatda "Tarix-e Cahanqoşa-ye Naderi"yə istinadən Nadirin Bağdadın mühasirəsində 62 minlik bir dəstə saxladığı və 50 minlik bir qoşun dəstəsi ilə Topal Osman paşaya qarşı döyüşə yollandığı bildirilir. O da bildirilir ki, Bağdad ətrafındakı qoşunların yerdəyişməsini Nadir çox ehtiyatlı və gizli şəkildə apardı ki, qaladakı Osmanlı qarnizonu bundan xəbər tutmasın. Bu yerdəyişmə əsasən gecə vaxtı aparılırdı. Qoşun dəstə-dəstə Bağdad ətrafını tərk edib müəyyən edilmiş məntəqəyə yollanandan sonra sonuncu gün Nadir özü də ora yollandı (248). Mənbələrdə Topal Osman paşanın qoşunu ilə döyüşə girmək ərəfəsində Nadirin qoşununun gücləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi haqqında məlumat yoxdur. Nəzərə alınsa ki, Topal Osman paşanın hərəkətə başlamasından Kərkük ətrafına çatmasına qədər bir neçə ay keçmişdi və Nadirin məktubundan güman etmək olar ki, onun da bundan xəbəri var idi, belə bir hazırlığın görülməsi ola bilsin ki, əməliyyatın gedişinə də təsir göstərə bilərdi.

Amma Nadir kəşfiyyat vasitəsilə Osmanlı qüvvələrinin yerdəyişməsini nəzarət altında saxlayırdı. O əvvəlcə az sayda döyüşçüsünü yerli ərəblərin bələdçiliyi ilə Osmanlı qüvvələri istiqamətinə göndərdi ki, onların sayı, harada olması barəsində məlumat əldə etsin. Bu kəşfiyyat qurupu iki gündən sonra Nadirin yanına qayıtdı və qrup üzvləri Mosul yaxınlığında Osmanlı qüvvələri ilə rastlaşdıqlarını bildirdilər. Onların söylədiyinə görə, 10-15 mil uzunluğunda hər tərəfi Osmanlı qoşunları bürümüşdü və həmin qüvvələr Bağdada tərəf irəliləməkdə idi. Mənbələrə görə, Nadir bu qrupun ardınca 12 minlik bir dəstəni irəli atdı. Dəstənin əsasını əfşar, Mərv və Qaracurlu döyüşçüləri təşkil

edirdilər. Dəstəyə İmamverdi xan Əfşar, Şahqulu bəy Qacar, Məhəmməd xan Qaracurlu və başqaları rəhbərlik edirdilər. Bu dəstə Məsib dərəsi adlanan bir yerdə Osmanlı qüvvələri ilə qarşılaşdı. Nadirin bu dəstəni irəli göndərməkdə məqsədi kəşfiyyat xarakterli döyüş aparmaq idi. Osmanlı qoşunlarının avanqard dəstəsi ilə Nadir dəstəsi arasında çox da uzun çəkməyən toqquşma baş verdi və bir neçə Osmanlı döyüşçüsü əsir götürüldü (249).

Əsirlər bildirdilər ki, Osmanlı qoşunlarının sayı-hesabı bilinmir və onun qarşısını kəsmək elə də asan olmayacaqdır. Səhəri gün Osmanlı qüvvələri daha da yaxınlaşanda Nadirin avanqardı geri çəkilmək məcburiyyətində qaldı. Mənbələrdə mövcud olan məlumatlara görə, Nadirin avanqard dəstəsi Osmanlı qoşunlarının daha böyük avanqard dəstəsi ilə bir də döyüşə girdi. Amma dəstə geri çəkilib döyüş meydanında olan vəziyyəti Nadirə çatdırdı (250).

Nadir anladı ki, mürəkkəb bir vəziyyətlə qarşılaşıbdır. O, sayca üstün, keyfiyyətcə isə güclü olan bir qoşunla döyüşə girməli idi. Bir neçə gün ərzində kəşfiyyatın apardığı müşahidələrlə də o, Osmanlı qoşunlarının sayını müəyyənləşdirə bilmədi. Düzlərə səpələnmiş olan Osmanlı qoşunlarının ucu-bucağı görünmürdü. Çoxluğuna görə Nadirin sayını dəqiq müəyyənləşdirə bilmədiyi Osmanlı qoşunlarının sayı yuxarıda xatırlanmışdı. 100 minlik Osmanlı qoşununun tərkibinə gəldikdə isə mənbələrə görə onun 70 mininin yeniçəri və piyada qüvvələri, 30 minini süvari və topçular təşkil edirdilər. Mənbələrdən o da aydın olur ki, döyüş meydanının seçilməsi təşəbbüsünü Osman paşa öz əlində saxladı. Onun Kərkük yaxınlığında seçdiyi məkan qumsal və çoxlu təpəliklərə malik bir ərazi idi. Həmin ərazi daha çox piyadaların fəaliyyəti üçün münasib idi. Süvarilərin yerdəyişməsi bu ərazidə çətinliklərlə qarşılaşa bilərdi ki, Topal Osman paşa da elə bunu istəyirdi. Onun döyüşqabağı düzülüşü haqqında mənbə və tarixi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Bu fikirlərdə ümumiləşdirici və oxşar cəhət ondan ibarət idi ki, Topal Osman paşa qoşunları aypara şəklində düzmüşdü. Nadir şah tarixinin tədqiqatçılarından olan Əbuturab Sərdadvərin əsərində göstərilən döyüş planına görə belə güman etmək olar ki, Osmanlı qüvvələrinin aypara düzülüşünün iti kənarları qarşıya deyil, arxaya meyllənmişdi. Yəni, ayparanın qabarıq hissəsi irəli çıxarılmışdı (251).

Ə.Sərdadvərin yazdığına görə, 4 kilometr eni olan cəbhədə yerləşən Osmanlı qoşunları 7 sütuna bölünmüşdü. C.Hanvey isə Osmanlı qoşunlarının beş dəstəyə bölündüyünü yazırdı. Mövcud olan məlumatlara görə, Osmanlı qoşunlarının hər sütununa 20 ədəd top verilmişdi

və onların mühafizəsi yeniçərilərə tapşırılmışdı. C.Hanveyə görə, Osmanlı qoşunlarının sağ cinahı yeniçərilərə, sol cinahı isə kürdlərdən və digər döyüşçülərdən ibarət dəstəyə tapşırılmışdı. Topal Osman paşa da düzülüşün mərkəzi hissəsindəki dəstənin rəhbərliyini öz üzərinə götürməklə həmin dəstənin arasında mövqe tutmuşdu (252).

Avropa mənbələrinə istinad edən Q.Müqtədir isə göstərir ki, Topal Osman paşa topları, rumeli piyadalarını və yeniçərləri döyüş düzülüşünün mərkəzində yerləşdirdi və mərkəzin rəhbərliyini öz üzərinə götürdü.Döyüş düzülüşünün cinahları süvarilərin himayəsi altına alındı və bir süvari alayı avanqard kimi Dəclə çayı boyunca irəli çıxarıldı (253).

C.Hanvey isə Osmanlı qoşunlarında Məhəmməd paşanın rəhbərliyi altında aryerqard dəstənin təşkil edilməsindən də xəbər verirdi (254).

Qoşunların döyüş düzülüşü haqqındakı bu fikir müxtəlifliyi daha çox Nadir şah haqqında yazılmış əsas mənbələrin bu məsələyə diqqət yetirməməsindən irəli gəlir. "Aləm Ara-ye Naderi" yalnız onu xatırladır ki, Osmanlı qoşunları 70 sırada hücuma keçdilər (255). Çox güman ki, bununla mənbədə hansısa bir dəstəyə işarə olunur. Çünki 100 minlik Osmanlı qoşununun 70 sırada düzülməsi elə də inandırıcı görünmür.

Nadir qoşunlarının döyüş düzülüşü haqqında da yekdil fikir mövcud deyildir. C.Hanveyə görə, Nadir döyüş meydanına gələndən sonra qüvvələrinin ciddi şəkildə qruplaşdırılması üçün kifayət qədər vaxta malik olmadı. Bununla belə, mövcud olan fürsətdən istifadə edib öz qoşunlarını 10 sütuna böldü (256).

Avropalı tarixçi Şarl Pikletə istinadən Q.Müqtədir yazır ki, Nadirin qoşununda 10 min nəfər cəzayirçi və 30 min süvari var idi. Cəzayirçilər əsasən qaracurlu tayfasından, süvarilər isə əfşarlardan, türkmənlərdən və əfqanlardan ibarət idi. Topların və zənburəklərin sayı barədə məlumat verilməsə də onların da mövcudluğu və dəvələr üzərində daşınması haqqında məlumatlar vardır. Bunlardan başqa, Nadirin qoşununda ərəblərdən ibarət bir dəstə də var idi (257).

"Tarix-e Cahanqoşa-ye Naderi"də isə yalnız çərxçilərin Nadir qoşunlarının önündə yerləşdirildiyi xatırlanır (258). Orada Nadir qoşunlarının tərkibi ilə bağlı müfəssəl məlumat olmasa da "Aləm Ara-ye Naderi"də daha geniş məlumat vardır. Burada bildirilir ki, Nadir qoşunları 50 min nəfər idi. Onlardan 30 mini cövşən geyinmişdi. Qalan 20 min nəfəri isə cəzayirçi idi. Yəni, belə güman etmək olar ki, piyada və süvarilərin əksəriyyəti soyuq silahlardan qorunmaq üçün əyinlərinə mühafizə təchizatı geyinmişdilər. Mənbənin məlumatına

görə, qoşuna rəhbərlik İmamverdi xan Əfşara, Məhəmməd xan Beluca və başqalarına tapşırılmışdı. Eyni zamanda o da bildirilir ki, döyüşdən əvvəlki günün gecəsi Nadir öz qoşunlarını dəstələrə böldü və hər bir dəstəyə də təcrübəli bir sərkərdəni rəhbər təyin etdi. Bundan əlavə, Nadir 15 min nəfərdən ibarət ehtiyat dəstəsi yaratdı və bu dəstəyə əsasən cəzayirçilər daxil edildilər. Qoşunların önünə qacar, bayat və bəğayiri döyüşçüləri, arxa eşelona isə bəxtiyari və Herat döyüşçüləri yerləşdirildi. Cəbhənin sol cinahı Həsənəli xan və Rəcəbəli xanın rəhbərliyi altında olan İraq və Farsdan toplanmış qoşun dəstəsinə, sağ cinah isə əfqan dəstəsinə həvalə edildi. Cəbhənin mərkəzi hissəsində lur, fars, Sistan döyüşçüləri mövqe tutmuşdular. Ən qabaqda isə döyüşgənliyi ilə fərqlənən əfşarlar, qacarlar, Mərv və qaracurlu döyüşçüləri düşmən üzərinə hücuma başlamalı idilər. Qoşunun qruplaşdırılmasını başa çatdırandan sonra Nadir sərkərdələrini toplayıb qəti şəkildə tapşırdı ki, onun göstərişi olmadan kimsə atını yerindən tərpətməsin və Osmanlı qoşunu tərəfə nizə belə atmasın (259).

Mənbələrdə və tarixi ədəbiyyatda Kərkük ətrafında Nadir və Topal Osman paşa qoşunlarının apardığı döyüş əməliyyatı barədə də vahid fikir yoxdur və mövcud olan məlumatlar əsasında isə əməliyyatın bütöv mənzərəsini yaratmaq çətindir. Hər halda ümumi qənaət belədir ki, əməliyyat Nadir qoşunları üçün uğurlu şəkildə başladı. Yenə Şarl Pikletə istinadən Q.Müqtədir yazır ki, əməliyyat başlanan gün Nadirin qoşunu Osmanlı qüvvələrinin avanqard dəstəsi ilə rastlaşdı. Bu qruplaşmada Nadir döyüşçüləri düşmən üzərinə şığıyaraq osmanlıları geri çəkilməyə məcbur etdilər. Ş.Piklet ona da işarə edir ki, Nadir geri çəkilən Osmanlı qüvvələrini təqib etməyə aludəçilik göstərdi. Əgər, Nadir osmanlıları izləməkdənsə geri çəkilib daha münasib ərazi seçməyə çalışsaydı əməliyyatın sonrakı gedişində uğursuzluğa düçar olmazdı (260).

C.Hanveyə görə, Nadirin ilkin qarşılaşdığı qüvvə Osmanlı qoşununun süvari dəstəsi idi. Həmin süvari dəstəsi Nadir qoşununun təzyiqinə davam gətirməyib geri çəkilmək məcburiyyətində qaldı (261).

"Aləm Ara-ye Naderi"yə görə, Nadirin qarşılaşdığı dəstə Məmiş paşanın rəhbərliyi altında olan 50-60 min nəfərlik Osmanlı dəstəsi idi. Bu dəstə ayrıca hərəkət edirdi və əməliyyat meydanında Topal Osman paşanın ümumi qoşununa birləşməli idi. Bu mənbədə yazılandan belə güman etmək olar ki, Məmiş paşa öz hərəkətini ümumi rəhbərliklə lazımınca tənzimləməmişdi və gözləmədiyi halda Nadirlə qarşılaşmalı oldu. Kifayət qədər böyük qoşun dəstəsi olduğundan ola bilsin ki, Nadir bu dəstəni Osmanlı qoşunlarının əsas qüvvəsi kimi qəbul etmiş,

əməliyyatın sonrasını nəzərə almadan bütün gücünü də məhz bu dəstənin məhvinə istiqamətləndirmişdi. Ona görə Nadirin qoşunu bütün gücü ilə osmanlıların üzərinə hücum çəkdi və Məmiş paşanın dəstəsinə güclü zərbə endirdi. Bu mənbəyə görə də Nadir döyüşçüləri təqibə aludəçilik göstərdilər. Əslində, onlar güman edirdilər ki, əməliyyatın sonuna artıq az qalmışdır və tezliklə Topal Osman paşa da ələ keçiriləcəkdir (262).

"Tarix-e Cahanqoşa-ye Naderi"də də əməliyyatın başlanğıc mərhələsi ilə bağlı bəzi səhnələrin təsviri verilmişdir. Çox güman ki, bu səhnələr də məhz Məmiş paşanın dəstəsi ilə olan qarşıdurmaya aiddir. Bu mənbəyə görə, ilkin olaraq Nadirin çərxçiləri döyüşə qoşuldular və özlərini Osmanlı qoşunlarının mərkəzinə vurdular. Topların və tüfənglərin aramsız atəşləri döyüşü daha da qızışdırdı. Cəbhənin mərkəzi hissəsində döyüşən Nadir tüfəngçilərə üç tərəfdən Osmanlı mövqelərinə qarşı hərəkət etmək əmri verdi. Özü isə əfqan tüfəngçilərinin müşayiəti ilə Osmanlı artilleriyasının mövqelərinə doğru hərəkət etdi. Mənbədə döyüşün çox gərgin getdiyi və Nadir qüvvələrinin uğurla irəliləməsi haqqında məlumatlar vardır. Bu uğurun nəticəsi kimi Nadir özünü hətta Osmanlı artilleriyasının mərkəzinə yetirdi və Osmanlı toplarının bir neçəsini ələ keçirdi (263).

Döyüş gün ərzində davam etdi. Nadirin qoşun dəstələri müəyyənləşdirilmiş istiqamətlərdə Osmanlı qoşunu ilə yaxın döyüşə girişdi. Osmanlı qoşunları rəhbərliyi tərəfindən əməliyyat meydanında baş verənləri qiymətləndirərkən vəziyyətə uyğun tədbirləri həyata keçirməsi Nadir qoşununun malik olduğu üstünlüyü əlindən aldı. Xüsusilə, Osmanlı artilleriyasının aramsız və səmərəli fəaliyyəti Nadir qoşunlarını irəliyə istiqamətlənmiş əsas zərbə qüvvəsinin sürətini və kəsərini xeyli zəiflətdi. Ardınca Osmanlı qüvvələri dəstə-dəstə döyüşə atıldı. Yuxarıda qeyd edildiyi kimi, mənbələrin məlumatına görə, 70 sıra düzülmüş Osmanlı qüvvələri dəniz kimi dalğalanıb Nadir qoşunlarının qarşısına çıxdı. Bununla da hər iki tərəfin əsas qüvvələri əməliyyat meydanına atılmış oldu. Mənbələrdə o da bildirilir ki, Osmanlı artilleriyasının və tüfəngdarlarının aramsız atəşləri az qala Nuhun tufanını xatırladırdı. Top və tüfəng atəşlərinin müşayiəti ilə Osmanlı sərkərdəsi Mustafa paşa Çələbinin rəhbərliyi altında Şam süvarilərindən, ərəb nizədarlarından və başqa səfpozanlardan ibarət böyük qoşun dəstəsi Nadir qoşunlarının sol cinahına zərbə endirdi. Nəticədə, bu cinahda döyüşən İraq və Fars döyüşçüləri Osmanlı qüvvələrinin ağır zərbəsi altında geri çəkilmək məcburiyyətində qaldılar (264).

Sol cinahda vəziyyətin mürəkkəbləşməsinin və döyüşçülərin geri çəkilməsinin qarşısını almaq üçün Nadir həmin istiqaməti lur və bayat döyüşçülərindən ibarət olan dəstə ilə möhkəmləndirməyi qərara aldı. Amma bu niyyətinə nail olmamış sağ cinahda da vəziyyətin mürəkkəbləşdiyinin şahidi oldu. Əməliyyatın gedişində kəskin dəyişiklik yaratmağa cəhd göstərən Topal Osman paşa Həsən paşa Şaminin rəhbərliyi altında başqa bir dəstəni Nadir qoşunlarının sağ cinahına istiqamətləndirdi. Bununla Nadirin hər iki cinahı Osmanlı qoşunlarının güclü atəş zərbəsi altına düşdü. Bir tərəfdən yayın istiliyi, bir tərəfdən su mənbələrinin uzaqda olması və bir tərəfdən də əməliyyat meydanında göyə sovrulan toz-torpaq Nadir qoşunlarının döyüşgənliyinə əks təsir göstərdi. Belə bir vəziyyətdə döyüşün davam etdirilməsinin ağır nəticələrə gətirə biləcəyini anlayan Nadir carçılara əmr etdi ki, Sərdar xanın və Məhəmmədəli xanın rəhbərliyi altında olan qaracurlu dəstəsini Şahqulu bəy Mərvinin rəhbərliyi altında olan dəstəni və Mehdi xan Əfşarın rəhbərliyi altında olan dəstəni vəziyyətin mürəkkəbləşdiyi mövqelərə tələsməyə çağırsınlar (265).

Adları çəkilən sərkərdələr Nadirin tapşırığını alan kimi dərhal döyüş meydanına atıldılar. Ancaq qərar tutduqları mövqelərdən döyüş meydanına yetişənə kimi havanın sonsuz istiliyi və susuzluq artıq dəstələrə öz təsirini göstərdi. Bununla belə, həmin dəstələrin yetişməsi Nadirin özündə də, qoşunlarda da müəyyən bir ruh dəyişikliyi yaratdı. Hətta Nadir özü də döyüşlərə atıldı. Onun da döyüşə girməsi güclü düşmən qarşısında, ağır və yorucu hava şəraitində olan döyüşçülərə bir əhval-ruhiyyə gətirdi. Nadirin döyüşə hansı əzmkarlıqla girməsini onun atının iki dəfə yaralanması da göstərir. Hər iki halda Nadirə istiqamətlənmiş zərbə Nadirin atına dəydi və hər iki halda da Nadir yeni ata minib döyüşü davam etdirdi (266).

Nadir özü döyüşməklə bərabər, bütün qoşunun, o cümlədən meydana yenicə atılan dəstələrin fəaliyyətini nəzarət altında saxlayırdı. Nadir də müşahidə edirdi ki, qoşunlar susuzluq yanğısını cilovlamaqda çətinlik çəkirlər. Döyüşçülər kütləvi şəkildə Dəclə çayına üz tutanda onların geriyə qayıdan yolunun Osmanlı artilleriyası tərəfindən atəşə tutulması itkiləri daha da artırdı. Qaracurlu və Mərv dəstələrinin getdikcə daha ağır vəziyyətə düşməsini görüncə Qəni xan Əfşarın rəhbərliyi altında əbdali əfqanları dəstəsini onların köməyinə göndərdi. Əfqanlar özlərinə məxsus cəngavərliklə döyüşə atılsalar da bir saatlıq gərginlik və susuzluq onların da taqətini əlindən aldı. Bir tərəfdən də Osmanlı qoşunlarının müqaviməti onları geri çəkilmək seçimi qarşısında qoydu.

C.Hanveyin yazdığına görə, Nadir 3 minlik ərəb dəstəsini az saylı iranlı döyüşçülərlə birlikdə Mosul yolunun mühafizəsinə göndərdi ki, Mosuldan Osmanlı qüvvələrinə gələ biləcək yardımın qarşısını alsın. Mosulun osmanlı hakimi Topal Osman paşaya yardım göndərilməzdən əvvəl ərəb döyüşçüləri ilə danışığa girib pulla onları ələ ala bildi. Bundan sonra Mosulda toplanmış qüvvə də döyüş meydanına girib Nadirə qarşı mövqe tutdu. Bu da Nadir qoşunlarının mövqelərinin zəifləməsinə yol açdı (267).

Nadirin döyüşə əlavə qüvvələr daxil etməklə bu və ya digər istiqamətdə qüvvə üstünlüyü yaratmağa çalışması, şəxsi nümunəsi ilə döyüşçülərini ruhlandırmağa cəhd göstərməsi ilkin mərhələdə əldə etdiyi üstünlüyü qorumağa kifayət etmədi. İsti hava şəraiti və susuzluq Nadirin gözü qarşısında onun qoşunlarını iflic vəziyyətinə saldı. Bir tərəfdən də qüvvə üstünlüyünə malik olan Osmanlı qoşunlarının möhkəm iradəsi Nadir qoşunlarının bütün fədakarlığını nəticəsiz qoydu. Verilən böyük itkilər Nadiri geri çəkilmək seçimi ilə razılaşmağa məcbur etdi.

Amma mənbələrdə olan bir məlumata görə, Nadir qoşunlara geri çəkilmək əmri versə də bütünlükdə döyüşdən çıxmaq niyyətində deyildi. Onun planı belə idi ki, əfşar, Mərv, qaracurlu, əfqan və s. dəstələr döyüşə-döyüşə arxaya çəkilsinlər, səngərlərə sığınsınlar, havanın qaralması ilə qoşunlar su ilə təmin edilsin, yorğunluqlarını və susuzluqlarını aradan qaldırsınlar və sonra döyüşü yenidən davam etsinlər. Qoşun dəstələri Nadirin tapşırığına əsasən geri çəkilməyə başladılar. Amma onların geriləməsi Osmanlı sərkərdələri tərəfindən müşahidə olundu və Osmanlı sərkərdələri yaranmış yeni bir münasib məqamdan da bəhrələnərək Nadir qoşunlarına daha bir zərbə endirmək həvəsinə düşdülər. Osmanlı sərkərdələri əllərinə düşən fürsəti fövtə vermədilər və Nadirin əfqan döyüşçüləri dəstəsi üzərinə yürüş etdilər. Əfqan dəstəsində vəziyyətin mürəkkəbləşməsi başqa istiqamətlərdə də özünü büruzə verdi. Qoşunlarda yaranmış çaşqınlıq Osmanlı qüvvələrini zərbə gücünü daha da artırdı və nəticədə Nadir qoşunları pərakəndə vəziyyətə düşüb geri qaçmağa başladılar. Bu pərakəndəlik elə bir miqyas aldı ki, Nadir qoşunları idarə olunmaz bir vəziyyətə çatdı. İtkilərin sayı xeyli artdı. Nadir özü də döyüşdən çıxıb Behruz istiqamətinə üz tutdu (268).

Nadir qoşunlarının bu əməliyyat zamanı verdiyi itkilər haqqında müxtəlif məlumatlar vardır. Tarixi ədəbiyyatda Bağdad ətrafında düçar olduğu uğursuzluqda Nadirin itkilərinin 20-30 min olması haqqında rəqəmlər göstərilib (269). "Aləm Ara-ye Naderi"də isə bildirilir

ki, Nadirin topları və zənburəkləri Osmanlı qoşununun əlinə keçməklə 20 min cəzayirçini, 10-15 min döyüşçünü itirdi (270). Bir sözlə Nadirin qoşunlarının uğursuzluğu həm də böyük döyüş itkiləri ilə müşayiət olundu.

Amma qarşı tərəf də böyük itkilərə məruz qaldı. Osmanlı qoşunlarının verdiyi itkilərin miqyası Nadir qüvvələrinin şücaətlə döyüşməsinin nişanəsi idi. Tarixçilərin verdiyi məlumatlara görə, Topal Osman paşa Osmanlı sarayına döyüşdə əldə etdiyi nəticələr barəsində, həm də qarşılaşdığı çətinliklər barəsində məlumat verdi. Onun qənaətinə görə, bu itkilər o dərəcədə böyük idi ki, Nadirin növbəti hücumunun qarşısını almağa gücü çatmazdı. Ona görə Topal Osman paşa Osmanlı sarayından yeni qüvvələrin göndərilməsini istədi (271).

Bəzi tarixçilər Nadirin Kərkük ətrafındakı döyüş əməliyyatından sonra Bağdad hakimi Əhməd paşanın qoşunlarının Bağdadı mühasirəyə almış Nadir qoşunları üzərinə hücum çəkdiyini və qalanı mühasirə etmiş qüvvələrə zərbə endirdiyini bildirirlər. L.Lokkart, Əhməd paşanın Bağdadı mühasirə etmiş 12 min nəfərlik Nadir qoşunlarına ağır zərbə vurduğunu qeyd edir. C.Hanvey isə Bağdad ətrafında dayanmış Nadir qüvvələrinin qala qarnizonuna qarşı mərdliklə vuruşduğunu, amma geri çəkilmək məcburiyyətində qaldığını yazır. “Tarix-e Cahanqoşa-ye Naderi”də də bu fakta toxunulur, amma bu məsələyə elə bir dramatiklik verilmir (272).

Bəzi tarixi ədəbiyyatda isə Nadirin döyüş meydanından geri çəkilməsindən sonra Bağdad ətrafında dayanan qoşun dəstəsini də qalanın mühasirəsindən əl çəkərək ona qoşulmaq tapşırığını verdiyini bildirirlər. “Aləm Ara-ye Naderi”də də bu fakt öz əksini tapmışdır. Mənbənin verdiyi məlumata görə, baş verən uğursuzluqdan sonra Nadir, Fərhad bəy adlı sərkərdəsini Bağdad ətrafındakı səngərlərə göndərdi ki, oradakı qüvvələri Kermanşaha tərəf geri çəksin (273).

Nadir özü isə Behruz çayının sahilində dayandı. İlkin yorğunluğunu aldıqdan, özünün və qoşunların susuzluğunu aradan qaldırdıqdan sonra daha təhlükəsiz yerə çəkilməyi qərara aldı. Həmin yerdən iki mil aralansa da, yenə də Behruz çayının kənarında düşərgə saldı. Döyüş meydanını tərk edən qoşunlar dəstə-dəstə gəlib həmin yerdə Nadir düşərgəsinə birləşdilər.

Burada Nadir qoşunlara istirahət verməklə bərabər bütün dəstələri bir yerə toplamağı və əvvəlki nizamı bərpa etməyi tapşırdı. Amma dəstələr arasında vahiməyə düşən, Nadirin iradəsinin qırıldığını güman edən, Nadirin tələblərini yerinə yetirmədən qaçıb dağılanlar da oldu. Nadir Kərkük ətrafında uğursuzluğa düçar olsa da osmanlılarla

savaşın hələ bitmədiyinə əmin idi və ona görə də döyüşdən sağ-salamat dönənlərin yenidən vahid rəhbərlik altında birləşdirilməsini, onların gücünün səfərbərliyə alınmasını nəzərdən qaçırmırdı. Lakin eşidəndə ki, kürd Tərxanın rəhbərliyi altında olan dəstələrdən biri baş verən uğursuzluqdan sonra onun düşərgəsini tərk edib fərarilik edib, çox hirsləndi, ona sədaqət nümayiş etdirən əfşar, qacar, Mərv, qaracurlu, əfqan dəstələrini fərarilərin ardınca göndərdi. Nadir fikirləşmədən fərarilərin rəhbərini qətl etdirdi. Osmanlı qoşunları qarşısındakı uğursuzluqdan sonra döyüşçülər arasında inamsızlığa rəvac verən bir çox minbaşıların burunları və qulaqları kəsildi, qoşun daxilində hərbi intizamın qorunması üçün sərt tədbirlər həyata keçirildi. "Aləm Araye Naderi"də yazılanlara görə, Nadir fərarilərə üz tutub onlara sərt müraciət etdi, onları fərarilik kimi bir şərəfsizlikdə günahlandırdı (274).

Bu müraciət eyni zamanda Nadirin özünün də düçar olduğu uğursuzluğa münasibətinin ifadəsi idi. Döyüşdə məğlub olmağı öz şəxsiyyətinə sığışdırmayan Nadir ağır vəziyyətə düşsə belə iradəsini itirmədi, güclü düşməndən qorxmadı, məğlubiyyət xəbəri ilə geri dönməyi özünə ar bildi. O öz döyüşçülərini və sərkərdələrini də bu əzmkarlıq üzərində köklədi, onları ən yaxın zamanda yenidən osmanlılar üzərinə yürüş etməyə və qələbəni geri qaytarmağa səfərbər etdi.

Beləliklə, Nadir fatehlik tarixinin ən böyük uğursuzluğuna düçar oldu. Yuxarıda qeyd edildiyi kimi, bəziləri bu uğursuzluğun səbəbini Nadirin özünü qürurlu aparmasında, qarşı tərəfin gücünü lazımınca qiymətləndirməməsində görürdülər. Mənbələr hava şəraitinin risqliliyini, küləyin və tufanın toz-duman qaldırmasının, su mənbəyinin uzaqda olmasının da Nadir qoşunlarının fəaliyyətinə təsir göstərdiyini qeyd edirlər. Sözsüz ki, bunları nəzərə almamaq olmaz. Sadalanan səbəblər içərisində Osmanlı qoşunlarının daha müasir və uzaq vuran artilleriyaya malik olması, Nadir tərəfindən münasib döyüş mövqeyinin seçilməməsi, Nadirin Bağdad ətrafındakı möhkəmləndirilmiş mövqeləri tərk edərək irəliyə çıxmasına ehtiyac olmaması kimi məqamlar da eşidilir. İstənilən halda bunlar hamısı Nadirin döyüşə lazımi şəkildə hazırlaşmamasının, onun qarşı tərəfin imkanlarını reallıqla qiymətləndirməməsinin nəticəsidir. Bunun Nadirin öz potensialına yersiz arxayınlaşmasının, ya da Osmanlı sərkərdələrinin öz fəaliyyətlərini daha məharətlə qurmasının nəticəsi olduğunu söyləmək çətindir.Nadirin sərkərdəlik istedadına xas olan intuisiyanın özünü göstərməməsi də bir təəccüb doğurur. Döyüşün əvvəlində qazanılan nisbi uğur da çox güman ki, qoşunlarda qələbənin asanlıqla əldə edi-

ləcəyinə olan arxayınçılığı artırdı. Özündən ikiqat qüvvə üstünlüyünə malik olan Osmanlı qoşunlarına Nadir öz qoşunlarının çevik qruplaşmasını və sürətli manevrlərini təşkil etməklə. səbatlı müdafiə üzərində səmərəli hücumları qurmaqla, döyüşün taleyinin həll edildiyi mövqelərdə zərbə və qüvvə üstünlüyünə nail olmaqla, qoşun növləri və dəstələri arasında qarşılıqlı əlaqəni düzgün tənzim etməklə üstün gələ bilərdi. Amma bu döyüşdən Nadirə qalan qələbə yox, ağır uğursuzluğun təhlilindən çıxarılan nəticələr oldu.

Uğursuzluq Nadiri ruhdan salmadı. Əksinə, rastlaşdığı uğursuzluğa olan soyuqqanlı münasibəti iradəsini və əzmkarlığını, daxili təpərini daha da gücləndirdi.

Nadir elə uğursuzluğa düçar olduğu gündən osmanlılarla yeni döyüşə hazırlaşmağa başladı. Bu hazırlıq işləri son dərəcə geniş miqyas aldı və onların düzgün tənzimlənməsi üçün Kermanşaha yollandı. O bütün ölkəni də bu hazırlıq işlərinə, qoşunların bərpasına, onların yenidən təchizinə səfərbər edilməsinə nail oldu.

Nadir əvvəlcə qoşunların ağır döyüşlərdən sonrakı vəziyyətini araşdırdı. Bu qoşun qarşıdakı məsuliyyətli döyüşdən qalib çıxmaq üçün say baxımından yetərincə olmadığı kimi, onun təchizatı da acınacaqlı idi. Nadirin ixtiyarında olan maliyyə vəsaiti və təchizat ehtiyatı da mövcud ehtiyacın aradan qaldırılması üçün yetərli deyildi. Belə olanda, Nadir Kermanşahda təşkilatçılıq işlərini genişləndirdi və özünün inandığı yaxınlarını, sərkərdələrini Xorasana, İraqa, Farsa və Azərbaycana göndərdi, onlara konkret tapşırıqlar verdi ki, yerli hakimlərlə birlikdə silah, sursat, çadır, təchizat, yük heyvanları və s. toplasınlar, yerli xəzinələrdə olan vəsaitləri cəmləşdirib Kermanşaha yollasınlar. Bu məsuliyyətli tapşırıqların yerinə yetirilməsinin təşkili üçün bəzi məntəqələrin hakimləri dəyişdirildi. Məsələn, Kəhkələviyyə, Həvizə, Borucərd, Şüştər və Dizfulun hakimliyi Məhəmməd xan Beluca tapşırıldı. Məhəmməd xan Beluca göstəriş verildi ki, adları çəkilən məntəqələrdən 20 minlik bir dəstə təşkil etsin və sonra həmin dəstə ilə Nadirin qoşununa qatılsın. Məhəmməd xan Beluc həmin dəstənin zəruri təchizi qayğısına da qalmalı idi. Belə bir göstəriş əslində bütün vilayət hakimlərinə verilmişdi. Öz qoşunlarının möhkəmləndirilməsi üçün Nadir İsfahana hakim təyin edilmiş Təhmasib xan Cəlayiri də dəstəsi ilə birlikdə geri çağırdı. İxtiyarında 6 minlik bir dəstə olan Təhmasib xan bölgədə sabitliyin təmin edilməsi üçün ora göndərilsə də malik olduğu sərkərdəlik təcrübəsi ilə qarşıdakı döyüşdə daha faydalı xidmət göstərə bilərdi (275).

Mənbələrdə bildirilir ki, Xorasanda toplanmış və müəyyən hazırlıq görmüş cavan döyüşçülər də Nadirin qoşununa qatıldılar. Nadirin təşkilatçılığı sayəsində çox da böyük olmayan bir müddətdə vilayətlərdən xeyli sayda qoşun toplandı. Bununla bərabər, Nadir bir çox sərkərdələrinə imkan verdi ki, qoşunu ilə öz məntəqələrinə qayıtsın və həm döyüşçülərinə istirahət versinlər, həm də onların təchizatının təkmilləşdirilməsini təmin etsinlər (276).

Qoşunların tələb olunan səviyyədə təchiz olunması üçün kifayət qədər böyük maliyyə vəsaitlərinə ehtiyac var idi. Nadir eyni zamanda bu vəsaitlərin tapılmasını da diqqət mərkəzində saxlayırdı. Bu məsələ ilə əlaqədar Nadir hətta əvvəldən planlaşdırılmış bəzi tədbirlər üçün nəzərdə tutulan vəsaitləri ixtisara saldı. Məsələn, onun göstərişinə əsasən əfşarların, lurların, Ərdəbil kürdlərinin Xorasana köçürülməsi üçün 100 min tümən vəsait ayrıldı. Yeni şəraitdə Nadir bu köçürməni təxirə saldı və maliyyə vəsaitini qoşunların təchizinə istiqamətləndirdi. Bundan əlavə, Nadir xəzinədən daha 100 min tümən ayırıb qoşunların təchizinə xərclədi (277).

Qoşunların təchizi üçün Nadir kompleks tədbirlər həyata keçirdi. Yuxarıda qeyd edildiyi kimi, Nadirin tapşırığına əsasən qoşunların təchizi sahəsində yerli hakimlərin üzərinə də bəzi öhdəliklər qoyuldu. Ölkənin qərbində aparılan döyüşlər zamanı ələ keçirilmiş olan qənimətlər də qoşunların ixtiyarına verildi. Toplanmış maliyyə vəsaiti hesabına qoşunlara gərək olan hər iş həyata keçirildi – çadır, qılınc, sipər və digər təchizat əşyaları yerlərdə toplanaraq Nadirin düşərgəsinə göndərildi. Bu istiqamətdə Nadir döyüşçülərinin maraqlarının vaxtında ödənməsinə və döyüşlərlə bağlı onların şəxsi ziyana düşməməsinə xüsusi fikir verirdi. Həmədanda ikən Nadir qoşunların bütün səviyyəli sərkərdə və rəhbərlərinin – minbaşılarının, yüzbaşılarının, onbaşılarının toplantısını keçirdi və onlara tapşırdı ki, osmanlılara qarşı döyüşlər zamanı kimin atı, yük heyvanları, silah və təchizatı, libası və s. əşyaları tələf olubsa onların siyahısını tutub Nadirin dəftərxanasına versinlər və həmin siyahı əsasında döyüşçülərə dəymiş ziyanın əvəzi ödənilsin. Bu tələb eyni zamanda bütün döyüşçülərə aid idi. Nadir tərəfindən döyüşlər zamanı qoşun üzvlərinə dəymiş olan ziyanlar artıqlaması ilə ödəndi, 10 tümənlik atını itirmiş döyüşçüyə 20 tümənlik at alınıb verildi. Və ya dəymiş ziyanın əvəzini nəğd pulla tələb edən döyüşçülərə artıqlaması ilə maliyyə vəsaiti ayrıldı. Hətta bir çox hallarda döyüşçülərin iddia etdikləri məbləğin doğru olub-olmaması belə araşdırılmadı və döyüşçülərin istədikləri məbləğ dərhal ödənildi (278).

Mənbələr də göstərirlər ki, qoşunların təchizinə maliyyə vəsaitinin ayrılmasına Nadir son dərəcə böyük səxavət göstərdi. Hətta bütün qoşunlara dəymiş ziyanların ödənildiyi güman ediləndə belə, Nadirin tapşırığı ilə yenidən araşdırma aparıldı və aydınlaşdırıldı ki, Şüştər və Həvizədən olan ərəb döyüşçülərinə dəymiş 10 min tümənlik ziyan ödənilməyib. Nadirə o da çatdırıldı ki, artıq xəzinədə maliyyə vəsaiti qalmamışdır. Ərəb döyüşçülərinə dəymiş ziyanların ödənilməsi və bunun üçün maliyyə vəsaitinin çatışmaması Nadirin əhvalını xeyli korladı. Elə bu vaxt Təhmasib xan Cəlayirin yanından gələn nümayəndələr Nadirə xəbər verdilər ki, Təhmasib xan nəzərdə tutulandan 30 min artıq maliyyə vəsaiti toplayıb və Nadirin sərəncamına yola salıb. Nadir bu xəbərdən son dərəcə sevindi və döyüşçülərə olan borcların qaytarılmasına göstəriş verdi (279).

Ağır uğursuzluqdan sonra qoşunların bərpası və təkmilləşdirilməsi dövründə Nadirin sərkərdəlik istedadının yeni bir cəhəti özünü göstərdi. O, iradəsinin dönməzliyini qoruyub saxlayaraq son döyüşdə fədakarlıqlar göstərsə də uğursuzluqla üzbəüz olmuş döyüşçülərini məzəmmət etmədi, onlara inamsızlıq göstərmədi, şücaətlərini və fədakarlıqlarını şübhə altına almadı, qarşıya çıxmış olan uğursuzluğun ağır nəticələrini döyüşçüləri ilə birgə paylaşdı. Nadir Kərkük uğursuzluğundan sonra döyüşçülərinin mübariz əhval-ruhiyyəsini özünə qaytardı, onlarda öz qüvvəsinə inamı gücləndirdi, mübarizlik və əzmkarlıqlarını təşviq etdi, ağır döyüşçü həyatı üçün onlara öz minnətdarlığını çatdırdı, onlarda Osmanlı qoşunlarına qarşı qalib əhval-ruhiyyəsini yaratdı. Birgə düşərgə həyatı yaşadığı qoşunlarını Nadir addım-addım mənəvi böhrandan çıxardı, özü ilə qoşunlar arasındakı səmimiliyi və inamı gücləndirdi. Bütün bu əməlləri Nadirə qoşun daxilində olan ehtiramı və inamı artırdı. Hətta verilən məlumatlara görə, Nadirə artan inam nəticəsində vilayətlərdən çoxlu sayda könüllülər gəlib Nadir qoşunlarına qoşuldular (280).

Döyüşdən fərarilik edib qaçanlara qarşı isə Nadir çox sərt münasibət göstərdi. Şücaət göstərənlərin zəhmətini layiqincə qiymətləndirməyə çalışdığı kimi, döyüş meydanında qorxaqlıq göstərib qaçanları da Nadir layiqincə cəzalandırdı.

Həm mənbələr, həm də tarixi ədəbiyyat Nadirin böyük əzmkarlığı sayəsində qoşunların bərpası üçün aparılan böyük işlərin cəmi iki ay çəkdiyini və iki aydan sonra Nadirin yeni döyüşə hazır olduğunu bildirirlər. Həmin təşkilati işlər 1733-cü ilin avqust və sentyabr aylarında həyata keçirildi (281). Amma sözsüz ki, bu məsuliyyətli kampaniyanın aparılmasında Nadirin sərkərdələrinin zəhməti də layiqincə

qiymətləndirilməlidir. Onların fədakarlığı, Nadirin tapşırıqlarının icrası üçün bütünlüklə səfərbər olmaları görülən işlərin keyfiyyətini və səmərəsini də artırdı.

Nadirin Kərkük ətrafında uğursuzluğa düçar olması bir çoxlarında onun dövranının artıq başa çatdığı ehtimalın yaratdı və onların separatçılığa meylini daha da artırdı. Nadirin başının qoşunların bərpasına çox ciddi şəkildə qarışması isə itaətdən çıxmaq niyyətində olanlar üzərindəki nəzarəti müəyyən qədər zəiflətdi. Belə bir vaxtda Bəxtiyari tayfası qiyam qaldırdı, Marağa hakimi dövlətə tabe olmaqdan imtina etdi, Gilan-Mazandaran ətrafında, Qəndəharda, İsfahanda dövlətə qarşı çıxmaq ehtimalı gücləndi. Lakin bu separatizm və itaətsizlik halları kütləvi hal və geniş miqyas almadı və Nadirin həyata keçirdiyi tədbirlər nəticəsində onların qarşısı alındı. Bu təbirlər içərisində yerli hakimlərin dəyişdirilməsi, xüsusilə İsfahan hakimliyinə Təhmasib xan Cəlayirin təyin edilməsi daxil idi. Nadir sınanmış sərkərdəsi Təhmasib xana tapşırdı ki, əlavə qüvvələr toplayıb ölkənin mərkəzində sabitliyi təmin etsin.

Bağdadın mühasirəsinə başlarkən Nadir Təhmasib Mirzənin yenidən İsfahana gətirilməsi və onun hakimiyyətinin bərpası haqqında da göstəriş verdi. Bunun üçün hətta xüsusi nümayəndə heyəti Məşhədə göndərildi. Həmin nümayəndə heyəti Təhmasib Mirzə ilə geri dönəndə Kərkük uğursuzluğu baş verdi və bu uğursuzluqdan sonra Nadir Təhmasib Mirzənin hakimiyyətə qaytarılması fikrindən daşındı. Onun göstərişinə əsasən həm Təhmasib Mirzə, həm də onun şah elan edilmiş oğlu III Şah Abbas Mazandarana göndərildi (282).

Nadirin Təhmasib Mirzəni yenidən hakimiyyətə qaytarmaq istəyi çox güman ki, ölkə daxilində ənənəvi Səfəvi hakimiyyətinə meylin hələ də qalmasından irəli gəlirdi. Amma fikrindən daşınması Kərkük uğursuzluğundan sonra Təhmasibin hakimiyyətə gətiriləcəyi təqdirdə Təhmasib meylli qüvvələrin separatizminin ölkədə yarada biləcək ikihakimiyyətliliyin qarşısının alınması qətiyyətindən irəli gəirdi.

Nadir təxminən iki aylıq müddət ərzində qoşunlarını mənəvi-psixoloji baxımdan da osmanlılarla yeni döyüşə hazırladı və 1733-cü il oktyabrın 2-də Kermanşaha doğru hərəkətə başladı (283). Məqsəd Topal Osman paşa ilə yenidən döyüşə girmək və əvvəlki uğursuzluğun Nadir tərəfindən qəbul edilən olmamasını sübut etmək idi. "Aləm Ara-ye Naderi"nin məlumatından belə qənaətə gəlmək olar ki, Nadir Həmədanda topladığı və təchiz etdiyi bütün qoşunu özü ilə aparmadı, yalnız 36 min nəfərlik bir dəstə ilə Kermanşaha gəldi. Burada o, qoşun sərkərdələrinin, əmirlərinin və tayfa başçılarının toplantısını keçirdi,

Osmanlı qoşunları üzərinə hücumla bağlı tapşırıq və vəzifələri konkretləşdirdi. Toplantı iştirakçılarına müraciətində Nadir bildirdi ki, Topal Osman paşa bizim su mənbələrinə olan çıxışımızı bağlayaraq qoşunlarımızı sındırmağa nail oldu. Bu məğlubiyyətin xəcaləti siz sərkərdələrin boynunda qalmaqdadır. Əgər bu gün də siz laqeydlik göstərirsinizsə Topal Osman paşa qoşunu ilə İran torpağına qədəm qoyub sizin nəfəsinizi kəsəcəkdir. Qəlbinizi ələ alın, mən qılıncımın zərbəsi ilə nə Topala aman verəcəyəm, nə də onun əyanlarına. Onlara göstərəcəklərimi qiyamət gününə kimi yaddan çıxarmayacaqlar (284).

Toplantı iştirakçıları Nadirin söylədiklərini müdafiə etdilər və Osmanlı qoşunları ilə daha döyüşgən əhval-ruhiyyədə mübarizəyə qatılmağa hazır olduqlarını təsdiqlədilər. Kermanda olduğu vaxt Nadirə xəbər çatdırıldı ki, Topal Osman paşanın qoşunlarından bir dəstəsi Polad paşanın ( mənbələrdə Pulad, Fulad və Pulək paşa kimi göstərilib – M.S.) rəhbərliyi altında Kərkük ətrafına gəlib orada azuqə və təchizat toplamağa məşğuldur. Ehtimal edildiyinə görə, Topal Osman paşa da qalan qoşunu ilə Kərkük qalasından çıxıb həmin məntəqəyə gəlməli idi (285).

Osmanlı qoşun dəstəsinin Kərkükdən aralanması xəbəri Nadirin yeni hücuma başlamaq qərarını daha da sürətləndirdi. “Tarix-e Cahanqoşa-ye Naderi”də Polad paşanın Kərkük qalasından aralanmasının səbəbi bir qədər fərqli verilmişdir. Əvvəla, “Aləm Ara-ye Naderi”də Polad paşanın dəstəsinin sayı 40 min nəfər göstərildiyi halda, burada 20 min nəfər göstərilibdir. Sonra bildirilir ki, Polad paşanın dəstəsi Zəhabdan 8 fərsəng aralı, Diyalə çayının kənarında mövqe tutmuşdu. Dəstəyə tapşırıq verilibmiş ki, Nadir öz qoşunları ilə Kermanşahdan Təbrizə doğru istiqamət götürsə onun yolunu kəssin və Təbriz tərəfə getməsinə imkan verməsi (286).

Qeyd etmək lazımdır ki, Nadir Həmədanda qoşunların bərpası ilə məşğul olanda Teymur paşanın rəhbərliyi altında olan Osmanlı qoşun dəstəsi Təbrizi ələ keçirməli idi. Çox güman ki, Topal Osman paşa Nadirin ilkin olaraq Təbrizə zərbə endirəcəyindən ehtiyatlanırdı. Polad paşanın dəstəsinin Diyalə çayı kənarına çıxarılması eyni zamanda Kərkük qalasının Nadirin qəfil hücumuna məruz qalmasının qarşısını ala bilərdi.

Bu xəbəri eşidəndən sonra Nadir özü Osmanlı dəstəsi ilə savaşa girmək qərarına gəldi. Çətin dağ yolları ilə daha asan irəliləmək və Osmanlı dəstəsi ilə daha tez rastlaşmaq üçün Nadir qoşunların yükünü və parkını Kermanşahda saxladı və bir dəstə ilə yola düşdü. “Aləm Ara-ye Naderi”nin məlumatına görə, Nadiri müşayiət edən dəstə 2

min döyüşçüdən ibarət idi. Səkkiz mənzillik yolu Nadir iki günə qət etdi. Dağ keçidlərinin darlığı dəstənin irəliləməsini çətinləşdirməsəydi, Nadir osmanlıların düşərgəsinə daha tez yetişə bilərdi. Təhlükəli dağ yollarında Osmanlı qüvvələrinin qəfil hücumuna məruz qalmamaq üçün Nadir, Babaxan Çapuşinin və Xanəli xan Kukəlanın rəhbərliyi altında hərəkət marşrutu boyu irəliyə 1500 nəfərlik mühafizə dəstəsi göndərdi. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Nadirin dəstəsi ilə Polad paşanın dəstəsi arasında elə bir qarşıdurma olmadı. Bu mənbəyə görə, belə bir qənaətə gəlmək olar ki, Polad paşa Nadirin hücumunu gözləmirmiş və onun qəfil hücumunun vahiməsindən Polad paşa tələsik geri çəkilməli olmuş və tələsgənliyindən düşərgəsini, park və təchizatını da tərk etməli olmuşdu (287).

"Aləm Ara-ye Naderi"yə görə isə Polad paşa Nadir qılıncının zərbəsini hiss etdikdən sonra geri çəkilmək məcburiyyətində qaldı. Mənbənin yazdığına görə, Polad paşa da düşərgəsini qəfil hücum təhlükəsindən qorumaq üçün qarovul dəstələri yerləşdirmişdi. Bu qarovul dəstələri ilə Nadirin irəli göndərdiyi qarovul dəstəsi arasında bir saatlıq döyüş baş verdi. Osmanlılar Nadir döyüşçüləri qarşısında duruş gətirə bilməyib düşərgəyə geri çəkildilər. Qarovul dəstələri arasında toqquşma baş verərkən Polad paşa Nadir qoşunlarının yaxında olduğu qənaətinə gəlib hücum haqqında əmr verdi. Eyni zamanda Nadir də qarovul dəstələri arasında toqquşmadan xəbər tutub özü 3 minlik dəstə ilə döyüşçülərinin köməyinə gəldi. Onun havada dalğalanan bayrağı döyüşçülərinin əzmkarlığına ruh versə də, Polad paşanı döyüşdən çıxıb geri çəkilməyə məcbur etdi. "Aləm Ara-ye Naderi" də təsdiq edir ki, Polad paşa tələsik olaraq geri çəkilməli olduğundan onun bütün müharibə təchizatı Nadirin əlinə keçdi. Həmin təchizat və əmlak Nadir tərəfindən döyüşçülər arasında bölüşdürüldü. Nadir elə həmin yerdə düşərgə saldı və Kermanşahda qalmış parkın və təchizatın da ora gətirilməsinə əmr verdi (288).

Kermanşahda qalan qüvvələr və park yetişəndən sonra Nadir qoşunlara daha beş gün istirahət verdi. Bu günlər ərzində Osmanlı qoşunları da fəallaşmağa başladılar. Topal Osman paşa anlayırdı ki, Nadir qoşunları ilə birlikdə yaxınlaşmaqdadır və bu yaxınlaşma gec-tez onların qarşılaşması ilə nəticələnəcəkdir. Sözsüz ki, Topal Osman paşa təşəbbüsü əlində saxlamağa çalışırdı və bunun üçün də yollar arayırdı.

Yenə "Aləm Ara-ye Naderi"nin məlumatına görə, Topal Osman paşa Həmədana doğru irəliləmək və Nadirə arxadan zərbə endirmək niyyətinə düşübmüş. Bu məlumatı alandan sonra Nadir qoşunları ilə

Kərkükə doğru hərəkətə başladı və Süleyman Bəbə ilə Sürtaş məntəqələri arasındakı məkana yetişdi (289). Amma Nadir orada da dayanmadı. O, səhəri günü Kərkükə doğru bir qədər də irəlilədi və Kərkükün 2-3 fərsəngliyində olan Leylan məntəqəsinə yetişdi.

Osman paşa Nadirin qoşunlarının daha da yaxınlaşdığını eşidəndən sonra həm qoşunların döyüş hazırlığı vəziyyətinə gətirilməsinə, həm də Kərkük qalasının möhkəmləndirilməsinə göstəriş verdi. O, Nadirlə döyüşün qaladan kənarda, açıq sahədə keçirilməsinə üstünlük verdi. Mənbələrə görə, onun tərəfindən Nadir üzərinə göndərilən qoşun dəstəsi 20 min nəfər idi. Topal Osman paşa görünür Nadirin qələbə əzmində olmasını hiss etmişdi. Ona görə o, Kərkük qalasının mühafizəsinə xüsusi fikir verirdi və qala ətrafına əlavə mühafizə qüvvələri yerləşdirdi.

Topal Osman paşa döyüşün gedişini qaladan müşahidə edirdi. Nadir də döyüş meydanı ətrafında yerləşən hündürlüklərdən birinin üstündən döyüşü müşahidə edirdi. Bu müşahidələri əsasında o, döyüşü də idarə etməyə çalışırdı. Nadirin dəstələrinin, xüsusən Xorasandan olan dəstənin fəallığı nəticəsində Osmanlı qüvvələri Kərkük qalasına doğru geri çəkilmək məcburiyyətində qaldı. Geri çəkilən Osmanlı qüvvələrinin təchizatının və əmlakının böyük bir hissəsi Nadir döyüşçülərinin əlinə keçdi. Mövcud olan məlumata görə, Osmanlı qüvvələri bir neçə gün qalaya sığınıb Nadirlə döyüşə girməkdən çəkindilər. Nadir qoşunları isə Kərkük ətrafında ərzaq qıtlığı ilə rastlaşdılar. Bu qıtlığı aradan qaldırmaq üçün Nadir qoşunları kürdlərin əlində olan Surtaş qalasına hücum edib oranı ələ keçirdilər və qalada olan ərzaq ehtiyatına sahib çıxdılar (290).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Osmanlı qoşunlarının qalaya sığınmasına və döyüşdən çəkinməsinə dözməyən Nadir ələ keçirdiyi Osmanlı əsirləri vasitəsilə Topal Osman paşaya məktub göndərdi və onun rəhbərliyi altında olan qüvvələri açıq döyüşə çağırdı. Nadirin məktubunda deyilirdi ki, sizinlə qarşılaşmaq üçün uzun bir yol keçib gəlmişik. Əgər sizdə mərdlik əlaməti varsa Osmanlı çörəyinin, duzunun və ocağının haqqını qaytarın və döyüşə gəlin (291).

Topal Osman paşa Kərkük qalası daxilində sığındığı vaxt ətraf Osmanlı hakimlərinə xəbər göndərib onlardan əlavə hərbi yardımlar istədi. Verilən məlumata görə, Topal Osman paşaya hərbi yardımlar yetişdi. Amma bu, Nadiri heç də təşvişə salmadı. Əksinə, o, Osmanlı qüvvələri ilə döyüş fürsəti aradı.

"Aləm Ara-ye Naderi"yə görə, Nadir Osmanlı qüvvələrinin döyüşə girməkdən çəkindiyini görüb yenidən Kermanşaha doğru üz tutdu.

Topal Osman paşa onun aralanmaq niyyətini biləndə qoşun dəstələrinə Nadiri təqib etmək əmri verdi. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə isə Surtaş qalasını ələ keçirəndən sonra Nadir Qaratəpəyə çəkildi. Qoşunların Qaratəpəyə çəkilməsini kürdlər Nadir qoşunları arasında hansısa hadisələrin baş verməsi və qoşunların zəifləməsi kimi qəbul etdilər və dərhal da bu barədə Topal Osman paşaya xəbər verdilər. Nadirin geri çəkilməsini Topal Osman paşa da Nadir qoşunlarının zəifləməsi kimi dəyərləndirdi və dərhal Nadir qoşunlarının təqibə başlanmasına əmr verdi (292). Bu o demək idi ki, Osmanlı qoşunları Kərkük qalasından bayıra çıxmalı idilər. Nadirə də əslində elə bu lazım idi.

1733-cü il noyabr ayının əvvəllərində Nadirin ətrafa səpələnmiş olan kəşfiyyatçıları məlumat gətirdilər ki, Osmanlı qüvvələrinin tanınmış sərkərdələrindən olan Məhəmməd paşa 12 min nəfərlik avanqard dəstə ilə Nadir qoşunlarının yerləşdiyi mövqelərə doğru hərəkətə başlayıb. Mənbələrdə Teymur paşanın da Məmiş paşanın dəstəsində olması bildirilir. Nəzərdə tutulubmuş ki, Məmiş paşa münasib döyüş meydanı tutub orada möhkəmlənsin, onun ardınca isə Topal Osman paşanın rəhbərliyi altında əsas Osmanlı qüvvələri hərəkətə başlasın. Nadir öz qoşunları ilə Qaratəpə adlanan məntəqədən bir qədər aralı və döyüş keçirilməsi üçün daha münasib bildiyi Dərbənd Ağtəpəsində düşərgə saldı. Bu məntəqənin müdafiə imkanları Məmiş paşanın diqqətini xüsusilə cəlb etmişdi. Dərbənd Ağtəpəsi iki hündür dağ yüksəkliyinin arasında yerləşmişdi. Osmanlıların gümanına görə, həmin yüksəklikləri əhatə edib onları mühasirəyə almaq asan olmazdı. O məntəqəyə giriş isə çox dar bir keçiddən ibarət idi. Bu keçidə də mühafizə dəstəsi yerləşdirilmişdi ki, Nadirin qəfil hücumlarının qarşısını almaq mümkün olsun. Belə vəziyyətdə Məmiş paşa Topal Osman paşanın əsas qüvvələrinin gəlməsini gözləməli idi (293).

Nadir vəziyyətdən xəbərdar olan kimi qoşun sərkərdələrini, tayfa başçılarını yanına topladı, görülməli olan işlər barəsində onlara tapşırıqlar verdi.

Nadir bütün qoşunla Məmiş paşanın yerləşdiyi mövqeyə hücum etməyin mümkünsüzlüyünü qoşun sərkərdələrinə anlatdı və sonra 6 minlik bir dəstə təşkil etdi. Qoşununun qalan hissəsi isə öz mövqelərində dayanıb hadisələrin sonrakı inkişafını gözləməli idilər. Nadir Qaratəpədə tərk etdiyi qoşunun təhlükəsizliyinə də nigarançılıq keçirirdi. Ona görə Hacı Seyfəddin xan, Həsən xan Bayat, İmamverdi xan Əfşar və digər nüfuzlu sərkərdələrini orada saxladı və özü təşkil etdiyi dəstə ilə Dərbənd Ağtəpəsinə doğru hərəkətə başladı. Həmin məntəqə-

yə aparan keçidə çatanda Nadir anladı ki, oradan adlamaq çətindir. Onda Nadir yenidən hündür dağ yüksəkliklərini dəf etməklə Məmiş paşanın dəstəsinə arxadan zərbə vurmağı qərara aldı. Bu yüksəkliklərdən hərəkət etmək son dərəcə çətinliklərlə başa gəldi. Ona görə osmanlılar da inana bilmirdilər ki, Nadir həmin yüksəklikləri adlayıb onlara zərbə vura bilər. Amma Nadir bu ağır işin öhdəsindən gəldi. Özü də Nadir bu ağır hərəkəti gecə vaxtı həyata keçirdi. İlk dəfə idi ki, Nadir gecə vaxtı hündür dağlarda dövrələmə manevri keçirdi və nəzərdə tutulan məntəqəyə yetişəndən sonra Nadir öz sərkərdələrinə Osmanlı döyüşçülərinin geriyə çəkilə biləcəyi bütün yolları kəsməyi tapşırdı. Düşərgənin yaxınlığındakı hakim yüksəkliklərdə isə cəzayirçiləri yerləşdirdi. Səhərin açılmasına qədər onlar da döyüş vəziyyətinə gəlməli idilər (294).

Nadir əfqanlardan ibarət dəstəni isə osmanlıların dayandığı keçidin arxa yolunu bağlamağa göndərdi. Səhər açılan kimi osmanlılar özlərini mühasirədə gördülər. Nadirin tapşırığına əsasən iki istiqamətdən Osmanlı qüvvələri üzərinə hücum başlandı. Mənbələrin verdiyi məlumata görə, Nadir döyüşçüləri Bağdad yaxınlığında məruz qaldıqları uğursuzluğun əvəzini çıxmaq üçün bütün güclərini düşmənə qarşı mübarizəyə səfərbər etdilər. Nadirin əmrinə əsasən nəxi və lur tüfəngçiləri təmas xəttinə daha yaxın nöqtələrdə mövqe tutub osmanlıları mütəmadi atəşə tutdular.Tüfəng atəşlərinin səmərəliliyinin əldə edilməsi, qarşı tərəfin itkilərini daha da artırdı. Digər dəstələrin əzmkarlığı da Osmanlı dəstəsinin uğura olan şansını əldən almaq üzrə idi. Kürd döyüşçüləri isə mübarizliyi ilə osmanlıların müdafiə xəttini yararaq onların səngərlərinə daxil ola bildilər. Kürdlərin ardınca nəxi, lur və qacar döyüşçüləri də osmanlıların müdafiə xəttini yara bildilər.

Nadir döyüşün gedişindən razı olsa da qələbəyə əmin olan döyüşçülərinin ehtiyatı əldən verməsini istəmirdi. Meydanda cövlan edən qoşun dəstəsinin mübarizəsini tənzimləyən Nadir, Şahqulu xan Mərvinin rəhbərliyi altında olan Mərv dəstəsinə tapşırdı ki, ələ keçirdikləri mövqelərdə yaxşıca möhkəmlənsinlər. Xüsusən, döyüşçülərin əhval-ruhiyyəsində arxayınçılığa yol verilməsini Nadir heç bir vəchlə istəmirdi. Nadir digər dəstələri də döyüşün ahənginə uyğun nizamlaya və istiqamətləndirə bildi. Bununla, Məmiş paşanın dəstəsinə güclü zərbə vuruldu və osmanlılar üzərində təhlükə daha da artdı. “Aləm Ara-ye Naderi”dəki məlumata görə, bu zaman Həsən ağa İstanbulinin rəhbərliyi altında olan bir Osmanlı dəstəsinin döyüşə qoşulması Məmiş paşanın vəziyyətini kifayət qədər yüngülləşdirdi. Mənbəyə görə, 7 min nəfərdən ibarət olan bu dəstə də döyüş meydanında idi və ola

bilsin ki, döyüşün qaynar məkanında deyildi. Ona görə dəstə öz qüvvəsini qoruyub saxlaya bildi. Mənbədən o da aydın olur ki, Həsən ağa İstanbulinin dəstəsi döyüşün qaynar məkanında olan qaracurlu və əfqan dəstəsini həmlə altına aldı. İkitərəfli zərbə altında qalan əfqan döyüşçüləri bu təzyiqə davam gətirə bilmədilər və onlar Nadir tərəfdən öz mövqelərini qorumaq tapşırığı almış Mərv döyüşçülərinin mövqelərinə tərəf geri çəkildilər. Bu iki dəstə birləşərək bir qədər fəallaşan Osmanlı dəstəsinə əks zərbə vurdu və həmin zərbə osmanlıların vəziyyətini yenidən ağırlaşdırdı (295).

Yeganə çıxış yolunu döyüşməkdə görən osmanlılar əzmkarlıqları ilə vəziyyət və mövqe dəyişikliyi yarada bilsələr də bununla istəklərinə nail ola bilmədilər. Məmiş paşanın dəstəsi son dərəcə ağır bir durumla qarşılaşdı.

Yenə də mənbələrin məlumatına əsasən, ehtimal etmək olar ki, Nadir həmin gün Topal Osman paşanın öz dəstəsi ilə Məmiş paşaya birləşəcəyini güman etmirmiş. Çünki onun dəstəsinin Məmiş paşanın dəstəsi ilə birləşməsi Osmanlı qüvvələrinin zərbə gücünü xeyli artıra bilərdi. "Aləm Ara-ye Naderi"yə görə, Topal Osman paşanın əsirliyində olan bir irəvanlı qaçıb özünü Nadirin qoşunlarına yetirdi və Nadirə xəbər çatdırdı ki, döyüş meydanından iki fərsəng aralıda görünən toz-duman Topal Osman paşanın gəlməsindən xəbər verir. Nadir anladı ki, Topal Osman paşanın qoşununun Məmiş paşa ilə birləşməsi osmanlıların qüvvəsini artırmaqla bərabər, Nadir qoşunları arasında müəyyən vahimə yarada bilər. Ona görə Nadir Osmanlı qüvvələrinin sayının artacağını qoşundan gizli saxlamağı qərarlaşdırdı. Qaracurlu və əfqan dəstələrini döyüşdən ayırdı, onların rəhbərlərinə bildirdi ki, uzaqdan görünən toz-duman yaşadıqları məntəqələrdən baş götürüb qaçan yezdi kürdlərini toz-dumanıdır. Nadir tapşırıq verdi ki, qaçmaqda olan kürdlərin qarşısını saxlasınlar (296).

Çoxsaylı Osmanlı qoşununun yalnız yurd-yuvalarını tərk edib qaçan insanlara oxşadılması və Nadirin öz dəstələrini aldadıcı tapşırıqların icrasına göndərməsi bir qədər real görünməsə də, Osmanlı qüvvələrini döyüş meydanına yetişməmiş qarşılamaq və Nadir tərəfindən az qüvvə ilə sayca daha üstün olan qüvvəyə qarşı döyüşü yenidən qurmaq istəyi təbii görünə bilər.

Bu şəraitdə Nadir bütün diqqətini Məmiş paşanın dəstəsinin məhv edilməsi üzərində cəmlədi. Məmiş paşanın dəstəsinin məhv edilməsi ən azı onu iki Osmanlı dəstəsi arasında qalmaqdan xilas edə bilərdi. Əfqan və qaracurlu dəstəsinin Topal Osman paşa istiqamətinə göndərilməsi doğru olduğu halda bu dəstələr də əsas Osmanlı qüvvələrinin

irəliləməsini müəyyən qədər ləngidə bilərdi ki, bu da Nadirin planlarının həyata keçirilməsi üçün çox əhəmiyyətli idi. Nadirin öz sərkərdələrini yenidən döyüşə səfərbər etməsi və özünün də döyüşün fəal iştirakçılarından birinə çevrilməsi Məmiş paşanın dəstəsini doğrudan da məhv olmaq təhlükəsi qarşısına qoydu. Nadirin artan üstünlüyü Osmanlı döyüşçülərinin geri çəkilməsi və bu geriləmənin də sonradan kütləvi qaçışa çevrilməsi ilə nəticələndi. Nadir döyüşə ara vermədən böyük sürət və əzmkarlıqla geri qaçmaqda olan Məmiş paşa dəstəsini təqib etməyə başladı. Özü də bu təqib tarixi ədəbiyyatda daha çox "Surtaş" döyüşü adlanan döyüşün əsas elementinə çevrildi. Bu, Nadirin incə və dəqiqliklə düşünülmüş taktikası idi. Özlərini ölümün əlindən qurtarmağa çalışan Osmanlı döyüşçülərində yaradılmış vahimə və qorxu hissləri bir müddət sonra onların birləşdikləri Topal Osman paşanın dəstəsinə də sirayət etdi. Yaranan qarışıqlıq, bütün nizamın itirilməsi, qorxu vahiməsi bütünlükdə Osmanlı qoşunlarını idarə olunmaz hala saldı. Bununla əsas Osmanlı qüvvələri döyüş meydanında nələrin baş verməsini başa düşmədən geriyə üz çevirdilər.

C.Hanvey Osmanlı qoşunları arasına ciddi vəlvələ düşdüyünü, onların idarə olunmaz hala gəldiyini təsdiq edir. Baxmayaraq ki, iki qoşun dəstəsinin qarşılaşması onun əsərində bir qədər başqa səpkidə verilmişdir. Müəllifə görə, Topal Osman paşa qoşunlar arasına düşmüş nizamsızlığı aradan qaldırmağa, Nadirə qarşı müqaviməti bərpa etməyə bir neçə dəfə cəhd göstərdi. Hətta yeniçəri dəstələrindən birinə şəxsən rəhbərlik edib döyüşə girdi. Elə döyüşdə də iki güllə atəşindən dünyasını dəyişdi (297).

Amma Nadirlə bağlı əsas mənbələrdə Topal Osman paşanın güllə ilə öldürülməsi öz təsdiqini tapmır. Əslində, 70 yaşlı Topal Osman paşanın bütün sərkərdəlik təcrübəsinə baxmayaraq yeniçərlərlə bərabər əlbəyaxa döyüşə girməsi də həqiqətə oxşamır.

Həm "Aləm Ara-ye Naderi", həm də "Tarix-e Cahanqoşa-ye Naderi" Topal Osman paşanın Allahyar bəy Gəraylı tərəfindən öldürüldüyünü və başının kəsildiyini xəbər verir. "Aləm Ara-ye Naderi"də bu hadisə bir qədər geniş təsvir edilmişdir. Bu mənbəyə görə, Topal Osman paşa qoşunları arasına düşmüş çaşqınlığı, vəlvələni aradan qaldırmaq üçün cəhd göstərdi. Əsas qoşun dəstələrinin hərəkəti zamanı Topal Osman paşa xüsusi mühafizə dəstəsinin müşayiəti ilə rahat taxt üzərində olduğu bildirilir. Qoşun idarə olunmaz vəziyyətə düşəndə mühafizə dəstəsi onu ata oturdub aradan çıxarmağa çalışdı. Topal Osman paşanın bahalı libası və xüsusi mühafizə olunması Allahyar bəyin diqqətini cəlb edir və döyüş əsnasında özünü ona yetirə bilir. Əvvəlcə

nizə zərbəsi endirsə də məqsədinə nail olmur. Amma qılıncı hədəfə dəyir və fürsətdən istifadə edib zərbə almış Topal Osman paşanın başını bədənindən ayırıb özü ilə aparır. Başqalarının başının kəsilib yanına gətirilməsini xoşlamayan Nadir eşidəndə ki, gətirilən kəllə seçilmiş şəxslərdən birinin kəlləsidir, onda onunla maraqlanır. Kəllə Osmanlı əsirlərinə göstərilir və onun Topal Osman paşaya mənsubluğu aydınlaşır.Nadir bir düşməni kimi ad-san çıxarmış Topal Osman paşanın zərərsizləşdirilməsini təqdiredici qarşıladı. Amma bunun tam dəqiqliyinə əmin olmaq üçün Osmanlı sərkərdəsinin cəsədinin də tapılıb gətirilməsinə göstəriş verdi. Topal Osman paşanın cəsədinin gətirilməsindən sonra aydın oldu ki, öldürülən doğrudan da odur (298).

Hər şey aydınlaşandan sonra Nadir, Allahyar bəy Gəraylını yaxşıca mükafatlandırdı.Ona 100 Təbrizi tüməni verdi, yaşadığı Gəraylıdakı tarlanı syurqal kimi ona bağışladı, bundan başqa digər çoxlu hədiyyələr verdi və onu xidmətdən azad etdi ki, vətəninə qayıdıb ömrünün sonuna kimi verilən vəsait hesabına azad və sərbəst yaşasın. Amma Allahyar bəy Nadirin qoşunlarında xidməti davam etdirməyi üstün tutdu (299).

Topal Osman paşanın öldürülməsi Nadir üçün xüsusi əhəmiyyət kəsb edirdi. Hər şeydən əvvəl onun ölümü Osmanlı qoşunları ilə növbəti qarşılaşmanın qələbə ilə başa çatması, Bağdad ətrafındakı uğursuzluğun əvəzinin çıxılması, Nadirin öz gücünə olan inamının geri qaytarılması demək idi. Sərkərdələrinin öldürülməsi xəbərini eşidən osmanlılar arasında vahimə və çaşqınlıq daha da artdı və onlar hər şeylərini ataraq birdəfəlik qaçmağa üz tutdular. Topal Osman paşaya məxsus olan toplar, qoşun təchizatı və digər əmlak Nadirin əlinə keçdi.Bununla da Osmanlı qoşunlarına ağır zərbə vuruldu və Səfəvi sərhədləri çərçivəsində nəzarət altına alınmış ərazilərin Osmanlı qoşunlarından təmizlənməsi üçün bir zəmin yarandı. Nəhayət, Nadir sərkərdəlik tarixinin yeni bir yadda qalan səhifəsini yazdı.

Düşməni olmasına baxmayaraq, Nadir Topal Osman paşanın şəxsiyyətinə böyük ehtiram göstərdi. Osmanlı tarixində böyük sərkərdə kimi tanınan, hətta 70 yaşında belə çox böyük qoşuna rəhbərlik etmək məsuliyyətini öz üzərinə götürən Topal Osman paşanın cənazəsinə Topal Osman paşanın adına layiq hörmət nümayiş etdirdi. Onun cəsədini şümşad tabuta qoydurdu, tabutun ətrafını gümüşlə bəzətdi və əsir düşmüş osmanlıların müşayiəti ilə onu sultan sarayına göndərdi (300).

Osmanlı qoşunu ilə döyüş başa çatandan sonra Nadir yenə götür-qoy etdi, döyüşün gedişini araşdırdı, fərqlənənləri mükafatlandırdı, ələ keçən qəniməti döyüşçüləri arasında bölüşdürdü. Elə orada qoşununu

iki dəstəyə böldü. Luristan bəylərbəyi Babaxan Çapuşlunun rəhbərliyi altında bir dəstəni Dəclə çayını adlayıb Hilləni, Nəcəfi və Kərbəlanı tutmağa göndərdi. “Aləm Ara-ye Naderi”yə görə, Babaxanın dəstəsində 8 min döyüşçü var idi. Babaxan adları çəkilən məntəqələri tuta bilmədiyi halda Dəclə çayına geri çəkilib Nadirin qoşununun yaxınlaşmasını gözləməli idi. Nadir özü ilə yerdə qalan qoşunla Təbrizə doğru üz tutdu. Savucbulağa çatanda Nadir eşitdi ki, Osmanlı paşası Teymur paşa Nadirin qoşunla yaxınlaşmasından, habelə Osmanlı qoşunlarının Surtaşda rastlaşdığı məğlubiyyətdən xəbər tutub Təbrizi tərk edib. Bundan sonra Təbriz nayibi Lütfəli bəy yenidən şəhərə qayıdaraq orada hakimiyyəti ələ alıb. Nadir isə geri qayıtdı və Xormatı məntəqəsində düşərgə saldı (301).

“Aləm Ara-ye Naderi”də Nadirin qoşunu ilə Təbrizə doğru irəliləmək istəyindən xəbər yoxdur. Həm də bu mənbədə bildirilir ki, Nadir, Topal Osman paşa ilə qarşılaşdığı döyüş meydanını tərk edəndən sonra birbaşa Xormatıya gəldi və buradan Babaxanı Hilləyə doğru yola saldı. Adları çəkilən məntəqələri tutmaq Babaxan üçün elə bir çətinlik yaratmadı. Əslində həmin məntəqələrin əhalisi könüllü surətdə Nadirə tabe olmağı qərarlaşdırdılar.

Nadir Osmanlı qoşunları ilə döyüşləri yenicə başa vurmuşdu ki, Farsa qoşun toplamaq üçün göndərdiyi Məhəmməd xan Belucun ona qarşı qiyam qaldırması xəbərini eşitdi. Nadir bu şəxsi istedadlı bir sərkərdə kimi tanıyırdı və ona görə onun rəhbərlik etdiyi qiyam kifayət qədər təhlükəli ola bilərdi. Təhlükə ehtimalına baxmayaraq Nadir özü bu qiyamın yatırılmasına getmədi. Çünki onun üçün həll olunmalı bir sıra digər məsələlər də var idi. O cümlədən, hələ Bağdad nəzarət altına alınmamışdı. Ona görə Nadir İsfahan hakimi Təhmasib xan Cəlayirə göstəriş verdi ki, tabeçiliyində olan qoşun dəstəsi ilə Şiraza doğru irəliləsin və Məhəmməd xan Belucun qiyamını yatırsın. Köhkələviyə istiqamətindən İsmayıl xan da dəstəsi ilə hərəkət edərək Təhmasib xanla birləşməli və qiyamın yatırılmasında iştirak etməli idi. “Aləm Ara-ye Naderi”yə görə, Məhəmməd xan Belucun qiyamı çox geniş miqyas aldı. Xuzistanda Şüştər və Həvizə vilayətləri də Mənəmməd xanın qiyamına qoşuldu. Cənub limanlarına qədər olan məntəqələr də qiyam dairəsinə daxil idi. Məhəmməd xan Beluc ətrafına 30 minlik qoşun dəstəsi toplaya bilmişdi və hətta onun İsfahana hücum edəcəyi ehtimalı da var idi. Bu mənbəyə görə, Nadir Köhkələviyə qoşunundan başqa İraq, Luristan qoşunlarının da Təhmasib xan Cəlayirin rəhbərliyi altına gətirilməsinə əmr verdi (302).

Nadir özü isə yenidən Bağdadın mühasirəsinə yollandı. Babaxan Çapuşinin dəstəsinin bir hissəsi də Nadirin qoşunlarına qatıldı. Bağdad qalası bir daha Nadir qoşunları tərəfindən mühasirəyə alındı. Qalaya aparan bütün yollar bağlandı. Bağdad hakimi Əhməd paşa yaxşı anlayırdı ki, Nadir hərbi baxımdan artıq kifayət qədər güclənib və ona Osmanlı dövlətindən hərbi yardım gəlməyəcək. Ona görə də o, müəyyən çıxış yolları axtarmağa başladı. Cəmi üç gündən sonra Əhməd paşa öz elçilərini Nadirin yanına göndərdi və ona sülh təklif etdi. Bu təklif Nadir tərəfindən razılıqla qarşılandı. Çünki Məhəmməd xan Belucun qiyamının əhatə dairəsi genişləndiyi bir vaxtda Nadir uzun müddət Bağdad ətrafında ilişib qalmaq istəmirdi. Ona görə Nadir dərhal danışıqlara getdi.

Tarixi ədəbiyyatda olan məlumata görə, Nadirlə Əhməd paşa arasında sülh müqaviləsi ilə bağlı danışıqlar 1733-cü il dekabr ayının ortalarında aparıldı və həmin ayın 19-da  sülh razılaşması əldə edildi. Bağdad qalası hələlik osmanlıların əlində qalmaqla, razılaşmada Nadirin əsas tələbi öz əksini tapdı. Birincisi, Osmanlı sarayı son 10 il ərzində ələ keçirdiyi torpaqları geri qaytarmalı və 1639-cu ildə Osmanlı sarayı ilə Səfəvi sarayı arasında imzalanmış müqavilədə göstərilən sərhəd xətti bərpa edilməli idi. İkincisi, döyüşlərin gedişində əsir götürülmüş döyüşçülər  və ələ keçirilmiş artilleriya  geri qaytarılmalı idi. Nəhayət üçüncüsü, Osmanlı nəzarəti altında olan ərazilərdəki müqəddəs yerlərə ziyarətə gedən iranlılara müəyyən güzəştlər təqdim edilməli idi (303).

Əhməd paşa söz verdi ki, razılaşma İstanbula göndəriləcək və iki ay ərzində Osmanlı sarayı tərəfindən imzalanacaqdır. O eyni zamanda Qafqazdakı Osmanlı paşalarına məktub göndərdi, onlara Nadirlə əldə edilmiş razılaşma haqqında məlumat verdi və onlardan tələb etdi ki, Gəncə, Şirvan, İrəvan və Tiflis Osmanlı qoşunları tərəfindən tərk edilsin. Həmin vilayətlər Nadirin nəzarəti altına düşməli idi (304).

"Aləm Ara-ye Naderi"yə görə, Nadirin Əhməd paşadan tələb etdiyi əsirlər arasında vaxtilə onun qoşununda topçubaşı olmuş Mehdi xan da var idi. Nadirin Bağdad ətrafındakı uğursuzluğu zamanı Mehdi xan onu tərk edib Osmanlılara sığındı.Fərarilik göstərən döyüşçülərinə qarşı amansız olan Nadir bundan  çox qəzəbləndi. Amma Əhməd paşa Nadirə çoxlu hədiyyələr göndərməklə  bərabər, Mehdi xanın günahından keçməsini də xahiş etdi. Nadir bu xahişi qəbul etdi və Mehdi xana toxunmadı (305).

Nadir Bağdad ətrafını tərk etməzdən əvvəl Osmanlı sarayının sədrəzəmi Əbdül Kərim əfəndiyə məktub göndərdi. O çox güman ki, əldə

edilmiş razılaşmanın sədr-əzəm tərəfindən tezliklə imzalanmasına nail olmaq istəyirdi. Məktubda Nadir türk olduğunu və Osmanlı türkləri ilə eyni kökə malik olmasını da xatırladır və məhz buna görə də sülhə razı olduğunu bildirirdi. Amma istər Osmanlı sarayı, istərsə də elə Əhməd paşa özü də əldə olunmuş razılaşmanın imzalanmasına tərəfdar deyildi. Yaranmış vəziyyətdə Bağdadın mühasirədən xilas edilməsi naminə Əhməd paşa razılaşma söhbətini ortaya atdı və niyyətinə də nail oldu. Osmanlı sarayı Əhməd paşanı vəzifəsindən azad etdi. Onun Gəncə, Şirvan, İrəvan və Tiflis paşalarına göndərmiş olduğu əmr də ləğv edildi. Yəni, həmin şəhərlərin boşaldılması haqqında verilən əmrin qüvvədən düşdüyü bəyan edildi. Bununla belə, Bağdad ətrafında əldə edilmiş razılaşmanın imza edilməyəcəyi barədə Nadirə konkret xəbər verilmədi. Onun diqqətini Osmanlı qüvvələri ilə döyüşlərdən çəkindirmək üçün bildirilirdi ki, Osmanlı sarayı razılaşma üzərində işləyir (306).

Ola bilsin ki, Nadir də bunu hiss edirdi. Lakin Məhəmməd xan Belucun Farsda qaldırdığı qiyamın miqyasının genişlənməsi Nadirin osmanlılarla bağlı bütün tələblərinin həyata keçirilməsi ilə məşğul olmağa imkan vermədi. Həmin qiyam baş qaldırmasaydı Nadir yəqin ki, Bağdadın mühasirəsindən əl çəkməzdi və bu qalanı ələ keçirərdi. Məhz Farsda qaldırılan qiyam onu məcbur etdi ki, Bağdad ətrafını tərk etsin. Əhməd paşa ilə əldə edilmiş razılaşma isə onun əldə etdiyi son uğurları qoruyub saxlaya bilərdi.

## 8. Fars qiyamının yatırılması

Məhəmməd xan Belucun Nadirə qarşı qiyam qaldırması xəbəri Məmiş və Topal Osman paşalara qarşı döyüşlərin gedişində əldə edildi. Yuxarıda qeyd edildiyi kimi, Məhəmməd xan Beluc Farsa qoşun toplamağa göndərilmişdi. Bu tapşırığın icrası əsnasında Məhəmməd xan Beluc Şiraz hakimi ilə birləşib Nadirə qarşı itaətsizlik göstərdi və onlar Təhmasib Mirzənin yenidən hakimiyyətə qaytarılması tərəfdarı olduğunu bildirdi (307).

Məhəmməd xan Beluc Nadirin Osmanlı qoşunları ilə döyüşlərdə şəhid olması şayiəsini yaymaqla nəzarət altına aldığı ərazilərin miqyasını xeyli genişləndirə bildi. Şirazdan Fars körfəzinə və Xuzistana qədər olan ərazilər qiyam zonasına daxil edildi (308).

“Aləm Ara-ye Naderi”nin məlumatına görə, Məhəmməd xan Belucun qiyam qaldırmasını və ətrafına 30 minlik qoşun toplaması xəbərini eşidəndə Nadir, Əhməd xan Mərvini Şiraz hakimi təyin etdi. Əh-

məd xan Mərvi tabeliyində olan 10-12 min nəfərlik qoşun dəstəsi ilə Şiraza yollanmalı, Məhəmməd xan Belucun qiyamını yatırmaqla bərabər, orada asayişi də bərpa etməli idi. Əhməd xan da bu vəzifə ilə Şiraza yola düşdü. Şiraz yaxınlığında Əhməd xan Mərvinin qoşun dəstəsi ilə Məhəmməd xan Belucun qoşun dəstəsi arasında döyüş baş verdi.Göstərilən bütün cəhdlərə baxmayaraq Məhəmməd xanın qoşun dəstəsini məhv etmək mümkün olmadı. Əksinə, Əhməd xan Mərvi özünün dəstəsi ilə birlikdə geri çəkilmək məcburiyyətində qaldı (309).

Məhəmməd xan Belucun qiyamının yatırılması üçün qətiyyətli tədbirlər görülməyəcəyi təqdirdə onun İsfahan üzərinə hücum etmək ehtimalı da reallaşa bilərdi. Ona görə Əhməd paşa ilə razılaşma əldə ediləndən sonra Nadir vaxt itirmədən diqqətini Məhəmməd xan Belucun qaldırdığı qiyamın yatırılması üzərində cəmlədi.

Nadir bütün artilleriyasını İsfahana göndərdi və özü isə qoşun dəstəsi ilə Şüştərə yollandı. Bu şəhərin hakimi də Nadirə itaətsizlik göstərib Məhəmməd xan Belucla əlbir olmuşdu. Şüştərin hakimi Məhəmməd xan üçün həm qoşun, həm də azuqə və təchizat toplayırdı. Nadir itaət yolundan çıxmış olan həm Şüştər, həm də yaxınlıqdakı Həvizə qalalarını yenidən itaət altına gətirdi və oradakı asayişi bərpa etdi. Babaxan Çapuşinin rəhbərliyi altında bir qoşun dəstəsini həmin məsələlərin nəzarətdə saxlanılması üçün oraya təyin etdi. Sonra Nadir Şiraza daha tez yetişmək üçün qoşun parkını və təchizatını da Mehriz adlanan məntəqədə qoyub hərəkətə başladı. Behbehan adlanan məntəqədə eşitdi ki, Təhmasibqulu xan Cəlayir qoşun dəstəsi ilə İsfahandan Kuhkələviyə bəylərbəyi İsmayıl xan Həzimə ilə hakim olduğu yerdən qoşunu ilə Məhəmməd xan Beluca qarşı hərəkət ediblər. Onların qoşun dəstəsi birləşərək qiyamçılara qarşı birgə vuruşmalı idilər. Bu qoşun dəstələrinin birləşməsi və Şiraza doğru irəliləməsi xəbərini eşidəndə Məhəmməd xan Beluc da döyüş hazırlığına əmr verdi. Bu məlumatı alandan sonra Nadir Behbehanda ləngimədən hərəkətinə davam etdi (310).

Məhəmməd xan Beluc Şülestan adlanan məntəqəyə gəlib orada düşərgə saldı. Nadir də sərkərdələrinin dəstələri ilə birləşib həmin məntəqəyə doğru hərəkət etdi. Təhmasib xanın və İsmayıl xanın dəstələri ilə birləşdikdən sonra Nadirin qüvvələri kifayət qədər gücləndi. Bütünlükdə isə Nadir, Məhəmməd xan Belucun qüvvəsinə elə də ciddi bir qüvvə kimi baxmırdı. Baxmayaraq ki, Məhəmməd xan Nadirin qoşununda bacarıqlı bir sərkərdə kimi ad çıxarmışdı, o, Şulestan Dərbəndində müdafiə mövqeləri tutdu, qoşunları səngərlərə yerləşdirdi, hətta ətrafa qarovul dəstələri göndərdi ki, müdafiə mövqelərinin mühafizəsi

təmin edilsin. Amma onun həyata keçirdiyi tədbirlər onu məğlubiyyətdən xilas edə bilmədi.

Şulestan Dərbəndində Nadir qoşunları ilə Məhəmməd xan Belucun arasında həlledici döyüş baş verdi. Nadir əvvəlcə avanqard dəstəsini Məhəmməd xanın qoşun dəstəsinin qarşısına çıxardı. Məhəmməd xan bu dəstəni Nadirin əsas qüvvəsi hesab edib onu mühasirəyə almağa cəhd göstərdi. Dəstələrindən birinə əmr etdi ki, Nadir dəstəsinin geri çəkilməsi yolunu bağlasın, tüfəngçiləri isə ətrafdakı hakim yüksəkliklərə yerləşdirdi (311).

Tarixi ədəbiyyatda Nadir tərəfindən öncə avanqard dəstə göndərilməsinin mahiyyətinə varılmır və buna adi bir hal kimi baxılır. Şübhə etmək olmaz ki, bu fakt Nadirin incə düşünülmüş taktiki bir gedişi idi. Bununla, Nadir Məhəmməd xanda əminlik yaratdı ki, avanqard dəstə onun əsas qüvvəsidir. Ona görə Məhəmməd xan bütün gücünü bu dəstənin məhvinə sərf etdi, döyüş taktikasını da bu dəstənin fəaliyyəti üzərində qurdu.

"Tarix-e Cahanqoşa-ye Naderi" əsərində olan məlumatdan aydın olur ki, avanqard dəstə gecə Məhəmməd xanın mühasirəsində qaldı. Səhər açılan kimi Nadir əsas qüvvələrlə döyüş meydanına doğru irəliləmək əmri verdi. Çox güman ki, Nadir Məhəmməd xanın taktikasından da xəbər tutmuşdu. Məhəmməd xanın niyyətlərinin həyata keçməsinə yol verməmək üçün Nadir tüfəngçilərinin və cəzayirçilərinin bir hissəsinə şərqdən, bir hissəsinə qərbdən yüksəklikləri aşaraq Məhəmməd xanın dəstəsi üzərinə hücum etməyi tapşırdı. Eyni zamanda qüvvələrini iki yerə bölüb iki istiqamətdə Məhəmməd xanın əsas qüvvələri üzərinə hücuma başladı. Bu dəstələr birləşəcəyi halda Məhəmməd xanın dəstəsi onların arasında qalmalı oldu. Belə bir taktiki planla Nadir hücuma işarə verdi. Baxmayaraq ki, Məhəmməd xanın da yüksəkliklərdə yerləşdirdiyi tüfəngçilərinin atəşi müəyyən təhlükə törədirdi, bununla belə Nadirin dəstəsinin hücumunun qarşısını saxlamaq mümkün olmadı.

"Tarix-e Cahanqoşa-ye Naderi"də o da təsvir olunur ki, döyüşün gedişinin onun xeyrinə olmadığını görən Məhəmməd xan bir yüksəkliyə çıxıb qarşı tərəfin vuruşmasını müşahidə etdi. Döyüş meydanında Nadir və onun zümrüdə tutulmuş ciqqəsini görəndə Məhəmməd xan uduzacağına mütləq əminlik hasil etdi və yalnız qaçmaq haqqında düşündü. Başqa çarəsi olmadığı üçün Məhəmməd xan belə də etdi (312).

Məhəmməd xanın qaçması onun dəstəsinin də müqavimətinin dayandırılması ilə nəticələndi. Ölənlərdən başqa onun dəstəsindən üç

min tüfəngçi Nadirin əlinə keçdi. Nadir bununla da kifayətlənmədi. O, Təhmasib xan Cəlayirə tapşırıq verdi ki, Məhəmməd xanı təqib edib tutsun və onun haqlı cəzasına çatdırılmasına nail olsun. Məhəmməd xan əvvəlcə Şiraza qaçdı, ailəsini, var-dövlətini toplayıb Lura doğru istiqamət götürdü. Orada da gizlənməyin mümkün olmayacağını anlayanda Kermana tərəf hərəkət etdi. Məhəmməd xan təqib edilən vaxt Nadir də öz qoşunu ilə Şiraza daxil oldu. Burada o, Məhəmməd xanın Kermana qaçması xəbərini eşitdi. Nadir, Təhmasibqulu xan Cəlayiri rəhbərlik etdiyi qoşun dəstəsi ilə birlikdə yanına çağırdı və ona bir daha tapşırdı ki, həm Məhəmməd xan Belucu ələ keçirsin, həm də Məhəmməd xan Beluca köməklik göstərmiş ərəb şeyxlərini cəzalandırsın. Məhəmməd xan Beluc körfəz yaxınlığında Şeyx Əhməd Mədəni adlanan ərəb  şeyxinin qalasına sığınmışdı. Təhmasib xan Cəlayir bu qalanı və onun sahibini ələ keçirə bilsə də Məhəmməd xan yenə də qaçmağa fürsət tapdı. Bu dəfə o, Fars körfəzinin Qeys adasında gizləndi. Nadir bu dəfə də ondan əl çəkmədi. Dəryabəyi Lətif xana tapşırdı ki, ingilis və holland ticarət şirkətləri ilə danışsın, onlardan bir neçə gəmi alsın və həmin gəmilərlə Qeys adasını mühasirə etsin. Xarici ticarət şirkətləri Lətif xana gəmi satmaqdan imtina etsələr də bir neçə gəmini ona icarəyə verməyə razı oldular. Lətif xan gəmilərlə Qeys adasını mühasirəyə alıb Məhəmməd xanı ələ keçirdi. Bu şəxs İsfahana gətirildi və Nadirin əmri ilə kor edilərək zindana atıldı (313).

Qeyd etmək lazımdır ki, Məhəmməd xan Belucun Qeys adasında həbs edilməsi zərurəti Nadirdə hərbi-dəniz qüvvələrinin yaradılmasına olan marağı daha da artırdı.

### 9.Nadirin Qafqaz yürüşləri

Məhəmməd xan Belucun təhriki ilə Fars vilayətində başlayan və kifayət qədər böyük əraziyə yayılan qiyamın yatırılması Nadir üçün böyük əhəmiyyətə malik idi. Bu üsyanın yatırılmasından sonra Nadir yenidən diqqətini şimal və qərb əraziləri üzərində cəmləşdirə bildi. Həmin məsələ əslində onun Osmanlı qüvvələrinə qarşı başladığı kampaniyanın tərkib hissəsi idi. Qərbdə və vaxtilə Səfəvi sərhədləri daxilində olan Qafqazda isə Nadir yalnız Osmanlı qüvvələri ilə deyil, həm də Rusiya qüvvələri ilə rastlaşmalı idi. Çünki Xəzərboyu ərazilər, o cümlədən Dərbənd və Bakı kimi  böyük şəhərlər hələ də Rusiyanın nəzarəti altında qalmaqda idi.

Nadir qətiyyətlə həmin əraziləri geri qaytarmaq istəyirdi. İki böyük dövlətə qarşı vuruşmaq isə  kifayət qədər geniş hazırlığı tələb edirdi.

O, 1734-cü ilin novruzunu Şirazda qarşıladı və bir müddət sonra İsfahana yollandı. Bu şəhərdə olduğu vaxt dövlət işlərini sahmana salmaqla bərabər, Nadir öz qoşunlarının yenidən qurulmasına və təkmilləşdirilməsinə də diqqət yetirdi.

Nadirin İsfahanda olduğu vaxt həm Osmanlı sarayının, həm də Rusiya sarayının elçilərinin onun görüşünə gəlməsi və onlarla danışıqlar aparılması Qafqaza planlaşdırılan hazırlığı daha da sürətləndirdi. Çünki Osmanlı elçiləri ilə aparılan danışıqlar Nadirin ümidində olduğu nəticələri vermədi. Belə olanda Nadir daha qətiyyətli tədbirlərə əl atmağı vacib saydı.

Öncə, Nadir Osmanlı sarayının elçisi Qazi Əbdülkərim əfəndi ilə görüşdü. Qazi Əbdülkərim əfəndi Topal Osman paşanın qoşunlarının tərkibində Nadirə qarşı döyüşlərdə iştirak etmiş və Nadir qoşunları tərəfindən əsir götürülmüşdü. Topal Osman paşa öldürüləndə Nadir Əbdülkərim əfəndini əsirlikdən azad edib Osman paşanın cənazəsinin müşayiətinə qoşmuşdu. Yəni, Qazi Əbdülkərim əfəndi Nadirə və onun fəaliyyətinə əyani bələd idi. Qazi Əbdülkərim əfəndi Osmanlı sarayının sədr-əzəmindən Nadirə məktub gətirmişdi. Məktubda sülh danışıqlarının davam etdirilməsi təklif olunurdu. Sədr-əzəm xəbər verirdi ki, müharibə və sülh ilə bağlı danışıqların aparılması Diyarbəkrdə mənzil-qərargahı olan Abdulla paşa Körpüoğluna həvalə edilmişdir. Nadirə təklif olunurdu ki, o da öz nümayəndələrini Diyarbəkrə göndərsin və orada danışıqlar başlansın (314).

Əslində Osmanlı sarayının məqsədi danışıqları uzatmaq və vaxt qazanmaq idi. Bunu Nadir də yaxşı anlayırdı ki, Osmanlı sarayı Cənubi Qafqazdakı əraziləri boşaltmaq niyyətində deyil. Danışıqların uzadılması isə Nadirlə döyüşlərdə ağır zərbə almış qoşunların bərpa edilməsi, onların təkmilləşdirilməsi üçün lazım idi. Sonradan əldə edilmiş məlumatlar da bu gümanların doğruluğunu təsdiq etdi. Osmanlı üləmaları sədr-əzəmlə məsləhətləşdikdən sonra Qafqazda Rusiyanın nəzarəti altında olan ərazilərin qaytarılmayacağı vaxta qədər Osmanlı nəzarəti altında olan ərazilərin də qaytarılmaması qərara alındı (315).

Bununla belə, Nadir sülh danışıqlarının aparılması üçün Qazi Əbdülkərim əfəndi ilə birlikdə öz nümayəndəsini Abdulla paşanın yanına göndərdi. O, nümayəndəsi vasitəsilə Abdulla paşaya xəbər göndərdi ki, Araz çayının şimalında olan əraziləri geri qaytarmaq istəyir. Əks təqdirdə, qonaq qəbul etməyə hazır olsun. Yəni, Nadir qoşunu ilə osmanlıların arzu edilməz qonağı olmalı olacaqdır. Nadir vurğulayırdı

ki, ərazilər geri qaytarılmasa onda biz özümüz bu məsələni həll edəcəyik (316).

Osmanlı elçisinin ardınca İsfahana Rusiya sarayının elçisi knyaz Sergey Dimitriyeviç Qolitsının nümayəndə heyəti gəldi. Rusiyanı Osmanlı-İran münasibətlərinin hansı xarakter alacağı çox maraqlandırırdı. Osmanlı dövləti ilə Nadir arasında yaxın münasibətlərin formalaşması Rusiyanın maraqlarına cavab vermirdi. S.Qolitsın İsfahana gəlməklə həm Osmanlı-Nadir münasibətlərini, həm Nadirin fəallaşmasından sonra ölkə daxilindəki vəziyyəti, həm də Nadirlə Rusiya arasındakı münasibətlərin perspektivini aydınlaşdırmaq istəyirdi. 1732-ci ildə imzalanmış Rəşt müqaviləsinə əsasən geri qaytarılmalı olan Bakının və Dərbəndin hələ də geri qaytarılmaması Nadirlə Rusiya arasındakı münasibətlərə bir həssaslıq gətirirdi. Sözsüz ki, Rusiya tərəfinə bu barədə işarə edilmişdi. Rusiya isə elə Rəşt müqaviləsinin şərtlərini əsas tutaraq İrəvan, Tiflis, Gəncə, Şirvan vilayətləri Osmanlı qoşunlarından azad edildikdən sonra Bakı və Dərbəndin də Nadirin nəzarəti altına veriləcəyini bildirirdi. Bununla, Rusiya Nadiri Osmanlı sarayına qarşı müharibə başlamağa sövq edirdi. Əslində bu, Rusiyanın Qafqazda izlədiyi siyasətin məzmununu təşkil edirdi. Rusiya hər vasitə ilə çalışırdı ki, Osmanlı dövlətini Cənubi Qafqazdan sıxışdırsın. Nadirlə yaradılan yeni münasibətlər bu məqsədə çatmaq üçün yararlı ola bilərdi (317).

Çox güman ki, Nadir Osmanlı nümayəndəsi ilə Diyarbəkrdə aparılan danışıqların ümidində olduğu nəticəni verəcəyini gözləmirdi. Ona görə də İsfahanda olduğu vaxtda qoşunların təkmilləşdirilməsi ilə bərabər, dövlət işlərini də nizama saldıqdan sonra Azərbaycana və Qafqaza doğru yürüşə başlamaq haqqında əmr verdi. O da mümkündür ki, knyaz Qolitsının öz dövləti adından Osmanlı dövlətinə qarşı müharibəyə başlayacağı təqdirdə kömək göstərmək vədləri verməsi və ya Bakı ilə Dərbəndin təhvil verilməsinin Osmanlı qüvvələrinin Cənubi Qafqazdan qovulması ilə bağlanması Nadiri sülh danışıqlarının nəticəsini gözləmədən yürüşə başlamağa sövq etdi. Nadir Rusiya dövlətinin yardım təklifini qəbul etməsə də knyaz Qolitsınə onu Qafqaz yürüşündə müşayiət etməyə icazə verdi. Osmanlı dövləti ilə aparılan sülh danışıqlarına gəlincə isə Nadir bunu Osmanlı sarayı tərəfindən daha çox vaxt udulmasına hesablandığını bilirdi və hadisələrin sonrakı gedişi də bunu göstərdi ki, Nadir yürüşə başlamaqda heç də səhv etməmişdi. Çünki İsfahandan hərəkətə başlayıb Həmədan-Sənəndac-Sayinqala-Marağa marşrutu ilə Ərdəbilə çatandan sonra Nadirə Abdulla paşanın məktubu çatdırıldı. Məktubda bildirilirdi ki, Arazdan şi-

malda olan vilayətlərin boşaldılması iki ildən sonra mümkündür. İki ildən sonra Osmanlı sarayına gələcək elçi ilə bu barədə danışıqlar aparıla bilərdi (318).

Belə bir cavab sözsüz ki, Nadiri qane etmirdi. Ona görə də Qafqazdan Osmanlı qüvvələrinə qarşı silahlı yürüşün davam etdirilməsi qərarında qaldı. O, ilkin olaraq Osmanlı himayəsində olan Şirvan xanına zərbə vurmağı və Şirvan vilayətini nəzarət altına almağı məqsədəuyğun bildi. Tarixçilərin fikrincə, ilk hədəfin Şamaxı seçilməsi təsadüfi deyildi. Əvvəla, Nadir Şamaxını Rusiya ilə müqayisədə daha tez ələ keçirə bilərdi. Çünki xəbər alınmışdı ki, Rusiya Şamaxını keçmiş gürcü çarı Vaxtanqın əli ilə Osmanlı himayəsindən çıxarmaq istəyir. İkincisi, Şamaxı bir növ Osmanlı ilə Rusiya nəzarəti altında olan ərazilərin arasında idi. Şamaxının ələ keçirilməsi Rusiyanı da məcbur edə bilərdi ki, Nadirin qoşunlarının yaxınlıqda olmasını hiss edib Bakını və Dərbəndi tərk etsin. Üçüncüsü, Nadir yekəxanalıq nümayiş etdirən Şamaxı xanı Surxay xanı cəzalandırmaq istəyirdi ki, ətraf xanlar da bundan dərs alsın.Və nəhayət, Şamaxının ələ keçirilməsi Nadirin iddiasında olduğu ərazilərin geri qaytarılmasının başlanğıcını qoya bilərdi (319).

Osmanlı himayəsində olan Surxay xan Nadirə qarşı açıq qıcıqlandırıcı münasibət bəsləyirdi. 1733-cü ildə Bağdad hakimi ilə əldə edilən razılaşmaya əsasən Qafqazdakı vilayətlər, o cümlədən Şirvan vilayəti Osmanlı himayəsindən çıxmalı idi. Nadir Ərdəbilə çatandan sonra Astara xanı Musa xana tapşırdı ki, Əhməd paşa ilə əldə edilmiş razılaşmanı Surxay xana göndərsin və Surxay xan anlasın ki, o, Nadirin nəzarəti altına qayıtmalıdır. Surxay xan Musa xanın elçisini çox qəzəbli şəkildə qarşıladı və onu qətlə yetirdi. Sonra isə Musa xana xəbər göndərdi ki, mən Şirvanı ləzgi aslanlarının qılıncı gücünə əldə etmişəm. Əhməd paşanın və digərlərinin heç birinin haqqı yoxdur ki, Şirvanı məndən tələb etsin (320).

Surxay xanın bu qıcıqlandırıcı hərəkətindən sonra Nadir Şamaxıya doğru yürüşə əmr verdi. Mövcud olan məlumata görə, 1734-cü il avqust ayının 10-da Nadir qoşunları ilə Kür çayının sahilinə yetişdi. "Tarix-e Cahanqoşa-ye Naderi"dəki məlumatlar əsasında fikir yürüdən tarixçilərə görə, Nadirin qoşunu ilə Kür sahilinə yetişməsini eşidəndə Surxay Şamaxını tərk edib dağlara üz tutdu. Avqustun 17-də Nadir qoşunu ilə Şamaxıya daxil oldu və Ərdəbil xanı Məhəmmədqulu xan Səidlini Şirvan xanı təyin etdi (321).

"Aləm Ara-ye Naderi"də isə Surxay xan tərəfindən Nadirə qarşı müəyyən müqavimət göstərildiyi bildirilir. B, həqiqətə yaxın görünür.

Çünki qıcıqlandırıcı və ötkəm cavabı ilə Nadirə az qala meydan oxuyan Surxay xanın Nadirin adını eşidən kimi Şamaxını tərk edib dağlara qaçması elə də inandırıcı səslənmir.

Adı çəkilən mənbəyə görə, Nadir Muğan çölündə düşərgə salanda Şirvan istiqamətinə kəşfiyyat dəstəsi göndərdi. Bu dəstə qoşunların hərəkəti istiqamətində nələr baş verməsi haqqında məlumat toplayıb Nadirə çatdırmalı idi. Dəstədən alınmış ilkin məlumata görə, Nadir hələ Ərdəbildən hərəkətə başlayanda Surxay xan ona qarşı müqavimət göstərmək qərarına gəlmiş və qoşunlarından bir avanqard dəstə təşkil edərək Nadirə qarşı göndərmişdi. Nadir bu xəbəri alanda Xanəli xanın və Əmiraslan xanın rəhbərliyi altında 3 minlik bir dəstəni həmin dəstəyə qarşı göndərdi. Həmin dəstələr üzbəüz gələndə Xanəli xanın dəstəsindən qarovul qrupu irəli çıxarıldı və ləzgi döyüşçüləri ilə ilkin döyüşə girən də elə həmin qrup oldu. Mənbədən aydın olur ki, ləzgilər heç qarovul qrupunun müqavimətini qıra bilməyib geri çəkildi. Belə olanda Xanəli xan onları təqib etməyə başladı. Amma Xanəli xan hiss edəndə ki, bütünlükdə Surxay xanın qüvvəsi sayca onun dəstəsindən çoxdur, onda yardım ayrılması üçün Nadirin yanına adam göndərdi. Nadir döyüş meydanından üç mil aralı idi və Xanəli xanın xahişini alınca dərhal onun yardımına tələsdi. Bununla belə, Xanəli xan öz dəstəsini səfərbər edərək ləzgi dəstəsinin öhdəsindən gəldi. Surxay xanın qüvvələri geriyə doğru çəkildilər. Onlar heç Şamaxıda da dayanmadılar. Çünki bu dəstənin üzvlərinin əksəriyyətini təşkil edən ləzgilər Şamaxı əhalisinə çox zülmlər vermişdilər və onlar yerli əhalinin qəzəbindən qorxduqları üçün dağlara tərəf qaçmağı qərara aldılar(322). Mənbədə konkret olaraq göstərilməsə də Surxay xanın da Şamaxıdan qaçdığı güman edilir.

Nadir qoşunları ilə Şamaxıya doğru hərəkətini davam etdirdi və bir müddətdən sonra Şamaxıya daxil oldu. Burada olduğu vaxt ona xəbər çatdırıldı ki, Surxay xan qoşunu ilə Nadirə qarşı döyüşə hazırlaşır. Surxay xan doğrudan da Dağıstanda topladığı yeni qoşun dəstələri ilə Nadirə qarşı döyüşə girmək istəyirdi. Şamaxıda olduğu qısa müddət ərzində yerli idarəçiliyi tənzimləməklə məşğul olan Nadir Surxayı elə Dağıstanda qarşılamağı qərara aldı. Ona görə də Şamaxıda olduğu müddətdə Nadir Dağıstan yürüşünə də hazırlıq gördü. O, Təhmasib xan Cəlayiri və Əhməd xan Mərvini təcili olaraq Şamaxıya çağırtdırdı. Eyni zamanda Şəkinin, Qəbələnin, Dərbəndin əyanlarına və tayfa başçılarına məktub göndərib onları öz yanına çağırdı. Bir müddətdən sonra Farsdan çağırtdırdığı sərkərdələr Nadirin xidmətinə yetişdilər.

Mövcud olan məlumata görə, Nadir 1734-cü il sentyabr ayının ortalarına kimi Şamaxıda qaldı.

Mənbələrdəki məlumata görə, Şamaxı əhli Surxay xandan və onun ləzgilərdən təşkil edilmiş qoşunlarından narazı idi. Ona görə Surxay xan şimala tərəf qaçmaq məcburiyyətində qaldı (323). Amma tarixdən o da məlumdur ki, Nadir də Şamaxı əhalisinə qarşı qəzəb nümayiş etdirdi. Yerli əhali Nadirin qoşunlarının da gəlməsinə narazılığını bildirdiyi üçün Nadir şəhərin dağıdılmasına, onun əhalisinin isə Ağsuya köçürülməsinə göstəriş verdi (324).

Surxay xana qarşı Nadirin fəaliyyəti barədə "Tarix-e Cahanqoşa-ye Naderi"də yazılanlarla "Aləm Ara-ye Naderi"də yazılanlar arasında bir qarışıqlıq vardır. Mövcud tarixi ədəbiyyat isə əsasən "Tarix-e Cahanqoşa-ye Naderi"yə istinad etmişdir. Bu mənbədə göstərilir ki, Nadir Qumıxa hərəkət etdi və onun yola düşməsindən bir neçə gün sonra Təhmasibqulu xan Cəlayir Qəbələ yaxınlığında Surxay xanın qoşunları ilə ilk döyüşə girdi. "Aləm Ara-ye Naderi"də isə Nadirin Dağıstana getməsi Surxay xanın təqib edilməsi ilə əlaqələndirilir. Bu mənbəyə görə, Nadir Şamaxıda olarkən Surxay xanın Qumıx və Qaytaq məntəqələrinə yetişib ətrafına qoşun toplamağa başlaması haqqında məlumat aldı. Bu məlumatı eşidəndən sonra Nadir, Təhmasibqulu xanla Əhməd xanı Şamaxıda buraxıb özü Qumıxa doğru hərəkət etdi."Tarix-e Cahanqoşa-ye Naderi"yə görə isə Nadir oğlu Nəsrulla Mirzəni Şamaxıda tərk etdi və 12 minlik qoşunla 1734-cü il sentyabrın 15-də Şamaxıdan hərəkətə başladı (325).

Dağıstan ərazisinə adladıqdan sonra Nadirə məlumat çatdırıldı ki, Surxay xan Qumıxda dayanmayıb və yenidən Şirvana doğru istiqamət götürüb. Amma onun sərkərdəsi Karat xan 12 minlik qoşun dəstəsi ilə Nadirin qarşısını kəsmək niyyətindədir. Öz niyyətinə nail olmaq üçün Karat xan çay kənarında mövqe tutmaqla müdafiə imkanlarını yaxşılaşdırmağa çalışırdı. Bundan başqa Karat xanın 3 min süvarisi və 9 min piyadası meşədə gizlənmək imkanından da bəhrələnə bilirdi. Bu müqaviməti aradan qaldırmaq üçün Nadir, əfşar, qacar və digər dəstələrlə birlikdə özü də çayı adladı. Nadir qüvvələrinin sürətli hücumu qarşısında ləzgi süvariləri aciz qaldılar və yaxınlıqdakı meşəyə tərəf geri çəkildilər. Meşədə müdafiə mövqeləri seçmələri ləzgiləri nəinki xilas etdi, eyni zamanda onların zərbə qüvvəsini gücləndirdi. Nadir döyüşçüləri bir neçə dəfə meşəyə girməyə cəhd göstərsələr də müəyyən itkilərə məruz qalıb geri çəkildilər. Belə olanda Nadir o tayda qalmış cəzayirçilərdən 3 min nəfərini yanına gətizdirərək döyüşə qatdı. Məhz onların sərrast atəşləri ləzgiləri öz mövqelərindən qaçmağa

məcbur etdi.Amma Nadir qaçan ləzgiləri təqib etmədi. Çünki meşə daxilində onların təqib edilməsi təhlükəli idi (326).

Əsir götürülmüş ləzgi döyüşçülərinin dindirilməsi zamanı məlum oldu ki, Surxay xan 30 minlik qoşun dəstəsi ilə Qumıxı tərk edib. Surxay xan Qumıxı tərk etməzdən əvvəl oğlu Murtuzəlini Krım xanının yanına göndərib ki, oradan kömək gətirsin. Qeyd etmək lazımdır ki, “Tarix-e Cahanqoşa-ye Naderi”də Surxayın qoşunlarının 20 min nəfər olduğu bildirilir. Bu mənbəyə görə, Surxay xan Car və Taladan, Gəncə valisi Əli paşadan, Tiflis valisi İshaq paşadan da yardım istədi. Surxay xanın 20 minlik qoşununun 8 minini Gəncə valisi Əli paşanın və Krım xanı Fəti Gəray xanın göndərdiyi dəstələr təşkil edirdilər (327).

Surxay xanın Qumıxda olmaması xəbərini eşidən Nadir ora hücum etməyi qərara aldı.Qumıx qalasında qalmış olan kiçik qoşun dəstəsi müqavimət göstərməyə çalışsa da, Nadirin cəzayirçilərinin sərrast atəşləri qarşısında duruş gətirə bilmədilər və qaçıb dağılışdılar. Bununla da Qumıx qalası ələ keçirildi və Nadir orada düşərgə saldı. Surxay xanın bütün dövləti və əmlakı Nadirin əlinə keçdi. Mənbələrin məlumatına görə, Nadir 20 gün orada qaldı və həmin müddət ərzində onun qoşunları ətraf məntəqələri talan etdilər. Sonra da Nadir Şirvana üz tutmuş Surxay xanın izi ilə hərəkət etmək əmri verdi (328).

Surxay xan əlverişli məkanlarda mövqe tutub Nadirə bir daha müqavimət göstərmək istəyirdi. Amma Qumıx qalasının alınması xəbərini eşidəndən sonra bu işin öhdəsindən gələ bilməyəcəyini anladı. O, Nadirə olan qəzəbini hərəkət marşrutu üzərində olan məntəqələrin əhalisi üzərinə tökdü və xüsusilə, Şəki ətrafındakı əhalini var-yoxdan çıxardı. “Aləm Ara-ye Naderi”yə görə, Surxay xanın Şəki ətrafında talançılıqla məşğul olması xəbərini eşidəndə Şamaxıda olan Təhmasibqulu xan Cəlayir öz dəstəsi ilə ona qarşı hərəkət etdi. Bu barədə məlumat alanda Surxay xan da onunla döyüşə girmək qərarına gəldi. Elə həmin mənbəyə görə, Qəbələ yaxınlığında Surxay xanla Təhmasib xan Cəlayirin dəstəsi üzbəüz gəldilər (329).

“Tarix-e Cahanqoşa-ye Naderi”də Təhmasibqulu xanla Surxay xanın dəstələrinin üzləşdiyi məntəqə “Dərəbatan”, tarixi ədəbiyyatda isə “Dəvəbatan” göstərilmişdir (330).

Mənbələrdə Qəbələ ətrafındakı döyüşün gedişi ilə bağlı fərqli məlumatlar mövcuddur. Tərəflərin dəyişən üstünlüyü ilə və çox gərgin şəraitdə keçən bu döyüş sonda Təhmasibqulu xanın qələbəsi ilə başa çatdı. Surxay xan bu dəfə də qaçmaqla canını ölümdən qurtara bildi və Avarıstana yollandı. Qış aylarında Avarıstanda hərəkət etməyin çox

çətin olduğunu bilən Nadir Axtı ətrafında itaətsizlik yolu tutmuş olan ləzgi dəstələrini də cəzalandırdıqdan sonra Qutqaşen-Qəbələ marşrutu ilə geriyə qayıtdı.

Nadirin qarşısına qoyduğu növbəti vəzifə Gəncə qalasını tutmaq və oradakı Osmanlı qarnizonunu zərərsizləşdirmək idi. Osmanlı himayəsi altında olan Surxay xanı Şamaxıdan qovduqdan sonra Nadir 1734-cü il oktyabrın 22-də Qəbələni tərk etdi. Ərəş istiqamətində Kür çayı üzərində qurulmuş körpüdən keçib Gəncəyə doğru hərəkətini davam etdirdi və noyabrın 3-də Gəncə yaxınlığındakı Kəlisa kəndində düşərgə saldı (331).

Nadir Dağıstana etdiyi ağır yürüşdən sonra istirahətə dayanmadan birbaşa Gəncəyə, Osmanlı qoşunları ilə döyüşə üz tutdu. Çox güman ki, Nadiri müşayiət edən Rusiya nümayəndəsi Qolitsın da bu baxımdan Nadirə təsir göstərməyə çalışırdı. Nadir Şamaxını tutandan sonra Rusiya sarayına da öz nümayəndəsini göndərib Bakı və Dərbəndin azad olunmasını tələb etdi (332). Rusiya sarayı adları çəkilən məntəqələri artıq azad etməyə hazır idi. Amma bunun əvəzində Rusiya Nadiri Osmanlı dövləti ilə müharibəyə təhrik etmək istəyirdi.

Azərbaycanın böyük və qədim mədəniyyət mərkəzlərindən biri olan Gəncəni tutmaqla Nadir Osmanlı qüvvələrinin Qafqazdakı mövqelərinə ağır zərbə vurmuş olardı. Amma Gəncənin mühasirəsi Nadir üçün növbəti bir sınağa çevrildi. Çünki bu şəhərin müdafiə qurğuları Gəncə qalası daxilindəki Osmanlı qarnizonuna etibarlı şəkildə qorunmağa imkan verirdi.

Gəncə qalası özünün müdafiə-istehkam imkanları ilə bölgədə ad çıxarmışdı. Bu qala iki divarla və üç xəndəklə əhatə olunmuşdu. Qala daxilində Osmanlı qüvvələrindən başqa Krım xanlığından göndərilmiş tatar dəstəsi də var idi. Nadirin yaxınlaşması xəbəri eşidiləndə Gəncə şəhəri boşaldıldı və hamı qala daxilinə daşındı. Eyni zamanda qala daxilində uzun sürən mühasirəyə davam gətirmək üçün hərbi hazırlığa başlandı (333).

Nadir əvvəlcə qalanın dinc yolla boşaldılmasına nail olmağa çalışdı. Osmanlı sərhədlərindən çox uzaqda olan azsaylı qarnizonun Nadir qoşunlarından ehtiyat edərək şəhəri təhvil verəcəyi ehtimalı ilə Nadir qala rəhbərlərinə məktub göndərdi. Məktubda bildirilirdi ki, Səfəvi dövründə ölkə daxilində hərc-mərcliyin artmasından istifadə edən Osmanlı dövləti 300 il ərzində Səfəvi dövlətinə məxsus olmuş Gəncəni də ələ keçirmişdir. Osmanlı qarnizonuna təklif olunurdu ki, qala təslim edilsin və Osmanlı döyüşçüləri sağ və salamat öz yurdlarına qayıtsınlar. Lakin alınan cavab məktubu Nadirin dinc yolla Gəncəni

ələ keçirmək ümidinə son qoydu. Qaladan alınan məktubda Osmanlı qarnizonunun rəhbərləri bildirirdilər ki, onlar Gəncəyə Osmanlı sultanının əmri ilə gəlmişlər. Gəncə qalasının birdən-birə Nadirə təhvil verilməsi Osmanlı sarayı tərəfindən sədaqətsizlik kimi qiymətləndirilə və buna görə qarnizonun rəhbərliyi ciddi cəzalandırıla bilər. Qarnizon rəhbərliyi onu da əlavə edirdi ki, Nadirin təklifi Osmanlı sarayına çatdırıla bilər. Sarayın razı olduğu təqdirdə Gəncə qalası təhvil verilər. Əks təqdirdə isə bu, mümkün deyil (334).

Belə bir cavab Nadiri razı salmadı və Gəncə qalasının ələ keçirilməsinin yalnız silah gücünə mümkün olacağına əmin oldu. Bir neçə gün ərzində hər iki tərəf qarşıdakı döyüşə hazırlığı gücləndirdilər. Nadir özü qalanın müdafiə imkanlarını müşahidə etdi, görülməli olacaq istehkam işlərini planlaşdırdı, qala ətrafı əraziləri qüvvələr arasında bölüşdürdü, qalaya doğru irəliləmək üçün onlara konkret tapşırıqlar verdi. Osmanlı qarnizonu da müdafiəyə hazırlığı genişləndirdi: ərzaq və hərbi ehtiyatlar təkmilləşdirildi, qala divarlarının uçuq-sökük yerləri təmir edildi. Mövcud olan məlumatlara görə, həmin vaxt qala daxilində 14 minlik Osmanlı qüvvələri var idi. Qarnizon rəhbərliyi qala daxilində yaşayan gəncəliləri müxtəlif bəhanələrlə qaladan uzaqlaşdırdılar. Bununla da Gəncə qalası əslində hərbi istehkama çevrildi (335).

Nadir bir neçə gün ərzində Bayat Bazarı adlanan məntəqədə vaxt keçirdi. O ümid edirdi ki, Osmanlı sarayı məsələnin ciddiliyini nəzərə alaraq Cənubi Qafqazın boşaldılması ilə bağlı sülh anlaşmasını qəbul edəcəkdir. Bu ümidlər də özünü doğrultmayanda Nadir öz düşərgəsini şəhərə daha da yaxınlaşdırdı və Gəncə çayı sahilində özünə məkan seçdi. Onun ilk göstərişlərindən biri bu oldu ki, Gəncə qalasının divarı boyunca səngərlər qazılsın. Həmin iş üç gün-üç gecə davam etdirildi. Səngərlərin qazılması başa çatandan sonra Nadir şəxsən həmin səngərləri nəzərdən keçirdi və qala divarlarını bir daha müşahidə etdi. Qala divarları üzərində kimsə görünməyəndə Nadir döyüşçüləri qala müdafiəçilərini haraylamağa başladılar. Qala daxilində elə bir sakitlik yaradılmışdı ki, sanki orada kimsə yox idi. Onda Nadir göstəriş verdi ki, ağaclardan müşahidə qülləsi tikilsin və həmin qüllədən qala daxilinin müşahidəsi aparılsın. Belə də edildi. Hazırlanmış müşahidə qülləsi məscid yaxınlığında olan meydana gətirildi. Bir nəfər qüllə üzərinə çıxarıldı ki, qala daxilində nə baş verdiyini görsün. Həmin şəxs qüllə üzərinə qalxan kimi qalanın şah bürcündən atılan top mərmisinin hədəfinə çevrildi. Bu top atəşi ilə müşahidə qülləsi də məhv edildi (336).

Belə olanda, Nadirin göstərişinə əsasən dörd tərəfdən qala üzərinə hücum başladı. Əslində, bu hücum güclü qala divarlarını dəf etmək üçün çıxış yolu tapa bilməyən Nadirin nümayiş etdirdiyi hövsələsizliyin nəticəsi idi. Bu hücum bir daha göstərdi ki, Gəncə qalasının ələ keçirilməsi elə də asan deyildir. Nadirin qoşunları isə həmin hücumda çoxlu itki verməli oldu və qala divarları üzərindən açılan atəşlər Nadir döyüşçülərinə yaxınlaşmağa imkan vermədilər.

Osmanlı qarnizonunun qala divarlarının müdafiə imkanlarından məharətlə istifadə etdiyini görən Nadir bir neçə günlüyə döyüşü dayandırdı və döyüşçülərinə də tapşırdı ki, qala divarlarının necə ələ keçirilməsinin mümkünlüyü barədə öz təkliflərini bildirsinlər. Amma bir neçə günlük fasilə də Nadirə səmərəli çıxış yolunu tapmağa kömək etmədi. Nadirin tapşırığı əsasında topşubaşı Əli xan qala divarlarını top atəşinə tutdu. Bir-birinin ardınca partlayan top mərmiləri qala daxilində dağıntılar və itkilər yaratsa da ciddi bir nəticə vermədi. Öz növbəsində qala qarnizonu da top və tüfəng atəşləri ilə Nadirin qoşunlarını atəşə tutdu. Bununla Nadir döyüşçülərinin qala divarlarına yaxınlaşmasına imkan verilmədi. Qala divarlarının uçulmuş yerləri isə gecəliklə təmir edilir və əvvəlkindən də yaxşı hala gətirilirdi (337).

Tərəflər arasında top atışması bir neçə gün davam etdi. Qarşılıqlı itkilər artsa da qalanın ələ keçirilməsi ümidi heç də artmadı. Əksinə, belə döyüşlər yersiz itkilərin çoxalmasına yol açdı. Eyni zamanda döyüşçülər arasında mənəvi-psixoloji düşgünlüyə zəmin yaratdı. Qalaya yol tapmaq üçün Nadirin narahat günlər keçirdiyi vaxtlarda onun əyanlarından olan Hüseynəli xanın təklifi ilə 100 min kisə toplandı və onlar torpaqla doldurularaq qala divarları yanına qalaqlandı. Bununla qala divarları üzərinə qalxıb hücumun davam etdiriləcəyinin mümkün olacağı güman edilirdi. Nadirin əmrinə əsasən nəzərdə tutulan kisələr Qarabağdan, Şirvandan və Azərbaycanın digər məntəqələrindən toplanıb torpaqla dolduruldu. İlk baxışdan bu təklif səmərəli bir təklif kimi görünsə də Osmanlı qarnizonunun sonsuz fəallığı onun həyata keçməsinə imkan vermədi. 3-4 min Osmanlı tüfəngçisi qaladan bayıra çıxıb divar yanında kisələrin qalaqlanmasına imkan vermədilər. Həmin kisələrin qalaqlanmasına göstərilən cəhd bir ay davam etdi. Osmanlı qarnizonu qalaya yaxınlaşmaq istəyən Nadir qüvvələrinə güclü müqavimət göstərdi və qala divarlarının ələ keçirilməsinə imkan vermədi (338).

Nadirin cəzayirçiləri qala xaricindəki məscidin hündür minarələri üzərinə qalxıb atəş məsafəsində olan qalanın daxilindəki döyüşçüləri atəşə tutdular. Osmanlılar bundan xəbər tutan kimi topları minarələrə

tərəf tuşladılar və həmin minarələri yerlə-yeksan etdilər. Bundan sonra Nadir döyüşçüləri mancanaqlara əl atdılar və onların köməyi ilə qala daxilinə oxlu bombalar atıldı (339).

Nadir mühasirənin gedişindən böyük narahatçılıq keçirirdi. Niyyətinə tezliklə yetişmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Torpaq kisələrin qalaqlanması ilə qala divarlarını aşmaq ideyasından bir nəticə hasil olmayanda yenidən ağac müşahidə qülləsinin tikintisinə başlandı. Onun əmrinə əsasən 10 nəfər həmin qüllənin başına qalxıb qala daxilindəki döyüşçüləri atəşə tutdular. Osmanlılar Nadirin bu cəhdinin də qarşısını aldılar. Qala daxilindən atılan top atəşi ağac qülləsini xarab etdi. Tüfəngçilər də yerə səpələndilər. Nadir heç bir istəyini həyata keçirə bilmədi. Həm topçular və eləcə də qaladakı tüfəngdarlar o dərəcədə sərrast və ayıq idilər ki, səngərlərdən və hətta bir-birinin üzərinə qalaqlanmış torpaq kisələrin arxasından baş qaldıran hər kəs həyatı ilə vidalaşmalı olurdu. Elə bir vəziyyət yarandı ki, Nadir döyüşçüləri başlarını qaldırıb heç azuqə arxasınca gedə bilmirdilər. Bu vəziyyət Nadiri məcbur etdi ki, kisələr qalaqlanmış mövqelərdən səngərlərə qədər təhlükəsiz hərəkət etmək üçün xəndəklər qazdırsın. Həmin xəndəklər daxilində hərəkət etməklə qaladakıların atəşlərindən qorunmaq mümkün idi. Bu əlaqə xəndəkləri Nadir döyüşçüləri üçün o qədər gərəkli idi ki, onları hətta "həyat küçəsi" adlandırırdılar (340).

Gəncə qalasının ələ keçirilməsi üçün Nadirin əl atdığı vasitələrdən biri də qala divarlarının özülü altına tunelin qazılması oldu. Bununla bağlı yerqazanlar gətirildi və onlara müəyyən məsafədən qala divarları altına tunel qazılması tapşırıldı. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Nadirin tapşırığına əsasən qala divarları altına 7 yeraltı yol, "Aləm Ara-ye Naderi"yə görə isə 4 yol açıldı. Planlaşdırılırdı ki, yeraltı yollar vasitəsilə qala divarları və bürcləri altına barıt qoyulsun və onun partladılması ilə qala divarları dağıdılsın. Bu yolla partlayış törətmək qala divarlarına ziyan yetirməklə bərabər qala müdafiəçilərinə də itki yetirə bilərdi. Lakin qala müdafiəçiləri Nadirin bu taktikasına oxşar hərəkətlərlə cavab verdilər. Qala xaricindən qazılan yolların müqabilində qala daxilindən də tunel qazıldı və tərəflərin qarşılaşdığı nöqtədə atışma baş verdi. Nadirin döyüşçüləri tərəfindən açılmış tunellərdə partladılma işlərinə 3500 batman barıt işlədildi və ümumilikdə qarşı tərəfdən 700 nəfər bu istehkam davasının qurbanı oldu. Giriş darvazasının ətrafındakı bürclərin altına atılan lağımların partladılması nəticəsində bürclərdən birinin yarısı uçub dağıldı və xeyli miqdarda Osmanlı döyüşçüsü məhv oldu. Nadirin əmri ilə 3 min nə-

fərlik həmişəkeşik dəstəsi divarların uçulmuş hissəsindən qala daxilinə girməyə cəhd göstərdilər. Bu vaxt qala müdafiəçiləri torpaq kisələrin qalaqlandığı yerdə atdıqları lağımda partlayış törətdilər və bu partlayışla Nadir döyüşçülərinin qalaya girmək cəhdinin qarşısını aldılar. Bununla, Nadirin həmişəkeşik dəstəsi də çox irəliləyə bilməyib geri qayıtmağa məcbur oldu (341).

Beləliklə, lağım döyüşü də gözlənilən nəticəni vermədi. Buna kifayət qədər vaxt sərf olunsa da qarşı tərəfin müqaviməti qalanı qoruyub saxlamağa imkan verdi. Qarşılıqlı atışma uzun müddət davam etsə də tərəflərin mövqeyində ciddi bir dəyişiklik baş vermədi. Bu isə Nadiri qane etmirdi. Mühasirənin uzanması Nadirin özünün də əhval-ruhiyyəsində bir gərginlik yaratdı.

Qarşıya qoyulan vəzifəyə nail olmaq üçün əl atılan vasitələrdən biri də Gəncə çayının suyunun qala divarlarının özülünə axıdılması oldu. Nadirə təklif verildi ki, şəhərdən axan çayın məcrası dəyişdirilsin və çay qalanın cənub-qərb divarları dibinə axıdılsın. Güman edilirdi ki, çayın bütün suyunun qala divarları dibinə axıdılması həmin divarların tezliklə çökməsinə gətirib çıxaracaqdır.

Nadir bu təkliflə də razılaşdı və tapşırıq verdi ki, qala divarları yaxınlığında torpaq tökmə işləri aparılsın. Qala divarları ətrafında qala divarlar hündürlüyünə yaxın bənd yaradıldı. Sonra isə Gəncə çayı öz məcrasından çıxarılıb qala divarları ilə torpaq bənd arasında qalmış əraziyə buraxıldı. Çayın suyunun divar dibinə toplanması tezliklə divarların çökməsinə gətirib çıxardı. Amma qala daxilindəkilər dərhal qala divarlarının bərpasına başladılar. Sərəsgər Abdulla paşanın Gəncəyə hərbi yardım göndərmək fikrində olması və həmin yardımın tezliklə yetişəcəyi ümidi qala müdafiəçilərini daha çox canfəşanlıq etməyə sövq etdi. Qala divarlarının bir hissəsinin uçmasına baxmayaraq Nadir döyüşçüləri yenə də qalaya daxil ola bilmədilər. Qala müdafiəçiləri daha yaxşı müdafiə olunmaq üçün xüsusi ağac tirlər düzəltdilər. Bu tirlərin bir ucuna nizələr birləşdirdilər, bir ucuna isə kəndir bağlayıb suyun üzərinə buraxdılar. Kəndir vasitəsilə tir elə idarə olunurdu ki, onun iti ucu torpaq bəndi oymaqla suyun axıb getməsi üçün oyuqlar yaratdı. Nadirin gözləmədiyi halda oyuqlardan su axması və qala dibinə toplanmış böyük su kütləsinin Nadir düşərgəsini basması ilə nəticələndi. Nadirin düşərgəsi, çadırlar, sığınacaqlar və ordubazar tamamilə suyun içində qaldı. Təchizat baxımından Nadirin qoşunlarına böyük ziyan yetirildi. Mənbələrdə olan məlumatlara görə, hətta Nadir döyüşçüləri arasında itkilər baş verdi .

Nadirin növbəti cəhdi də uğursuzluğa düçar oldu. Çayın məcrasının dəyişdirilməsi ilə qalanın ələ keçirilməsinin mümkün olmaması Nadiri qəzəbləndirsə də o, qala müdafiəçilərinin şücaətinə heyran qaldı. Nadir, Osmanlı qarnizonunun fədakarlığı haqqında bildirirdi ki, dövlətə bağlılıq, iradə və əzmkarlıq bundan artıq ola bilməz. Onun fikrincə, Osmanlı padşahı 6 aylıq məsafədə yerləşən İstanbulda otursa da, həmin padşahın döyüşçüləri və havadarları burada böyük canfəşanlıq göstərirlər. Nadir əlavə edirdi ki, döyüşçü səmimiyyətinin və xidmətinin ən yüksək nümayişi məhz belə olar (342).

Nadir Gəncənin mühasirəsinin elə ilk günlərində həlak olmuş topçubaşı Əli xanın yerinə Yarbəy Soltan adlı birisini təyin edib ona 20 və 30 batmanlıq mərmilərlə qala divarlarını yenidən atəşə tutmağı tapşırdı. Nadirin bu əmri də yerinə yetirildi. Bu atəşlərlə bir neçə qala bürcü dağıdıldı, bəzi yerlərdə divarlar uçuldu. Lakin Nadir yenə də niyyətinə nail ola bilmədi. Bu cəhdi də bir nəticə verməyəndə Nadir qoşun başçılarını və sərkərdələrini topladı, qalanın mühasirəsinin artıq 8 aya qədər uzanmasında onları günahlandırdı. Toplantıda iştirak edən sərkərdə və qoşun başçılarından Babaxan Çapuşi, İmamverdi xan Xəzimə, Həsən xan, Hacı Seyfəddin xan Bayat və digər minbaşılar və yüzbaşılar Nadirdən onlara bir də fürsət verilməsini istədilər. Nadir bu təkliflə də razılaşdı və qala üzərinə kütləvi hücumun təşkil edilməsinə etiraz etmədi. Bütün qoşun başçıları tabeçiliyində olan qüvvələri ümumi hücuma səfərbər etdilər. Qalanın dövrəsi qoşun sərkərdələri arasında bölündü. Hər kəs öz sahəsində istehkam işləri apardı, müşahidə qüllələri yaradılaraq onların üstündə tüfəngdarlar yerləşdirildi. Topçular qalanı yenidən top atəşinə tutdular, lağımçılar yeni-yeni lağımlar atmağa başladılar. Çoxlu sayda nərdivanlar və kəməndlər hazırlandı və onların vasitəsilə qala divarları üzərinə qalxmağa cəhd göstərildi. Nadir qoşunlarının yeni hücumunun qarşısını almaq üçün qala müdafiəçiləri yuxarıdan top mərmiləri, qablarda yandırılmış neft və bombalar atdılar. Qırxlı döyüşçüləri və Xorasan topçuları lağımlardan keçməklə qala bürclərindən birinə daxil oldular.

Mənbələrin məlumatına görə, Nadir qoşunlarının bu son hücumu 10 gün davam etdi. Qala müdafiəçiləri yeni itkilərlə və dağıntılarla rastlaşsalar da yenə də qalanı təslim etmədilər. Döyüşlərin 10-cu günü isə qala müdafiəçiləri xüsusi əzmkarlıq göstərdilər. Nadir bunun səbəbi ilə maraqlananda ona məlumat verildi ki, Osmanlı sərkərdəsi Abdulla paşa çox böyük qoşun dəstəsi ilə Qafqaza doğru yürüşə başlayıb və hazırda Qars qalasındadır. Abdulla paşadan tezliklə kömək

gələcəyi ümidi Gəncə qalasındakıların da sonsuz sevincinə səbəb olub və bu sevinc Osmanlı təbillərinin döyülməsi ilə ifadə olundu (343).

Gəncə qalasının mühasirəsini davam etdirməklə bərabər, Nadir, Bakı və Dərbəndin geri qaytarılması üçün də çalışırdı. Bu istiqamətdə Rusiya ilə aparılan danışıqlar ümidverici idi. Əslində, konkret tarixi şəraitdə Rusiya da Bakı və Dərbəndin Nadirin nəzarəti altına qaytarılması zərurətini qəbul edirdi. Bir tərəfdən Nadirin kifayət qədər güclənməsi, bir tərəfdən Bakı və Dərbəndin geriyə qaytarılması ilə Nadirin Osmanlı dövlətinə qarşı köklənməsi, bir tərəfdən də Qafqazdakı qüvvələrin Osmanlı dövləti ilə müharibə aparmaq üçün Krıma göndərilməsi Rusiyanı Nadirlə barışıq yolu tutmağa sövq edirdi. Ona görə də 1734-cü il oktyabr ayının sonlarında Bakıdakı rus generalı Levaşov şəhəri təhvil vermək üçün göstəriş aldı (344).

Həmin il dekabr ayının sonunda isə Nadirin düşərgəsində olan knyaz Qolitsın Rusiya sarayının Bakı və Dərbəndi Nadirə təhvil vermək barəsindəki qəti qərarını açıqladı. Nadir bu xəbəri sevinclə qarşıladı. Rusiya sarayı adları çəkilən şəhərlərin geri qaytarılmasını müəyyən şərtlər çərçivəsində həyata keçirmək istəyirdi. Bu şərt Bakı və Dərbəndin geri alınmasından sonra başqa bir ölkəyə, xüsusilə də Osmanlı dövlətinə verilməməsi öhdəliyi idi. Rusiya hər vasitə ilə Osmanlı dövlətinin Xəzər dənizinə çıxmasının qarşısını almağa çalışırdı və ona görə də şərtinin qəbul olunması üçün Nadirdən yazılı öhdəlik tələb olunurdu (345).

Rusiya sarayı Gəncə qalasının mühasirəsinin də tezliklə başa çatdırılmasını istəyirdi.Gəncənin alınması və Osmanlı qüvvələrinin buradan qərbə doğru sıxışdırılması Rusiyanın maraqlarına cavab verirdi. Rusiya sarayı əmin idi ki, Gəncənin ardınca İrəvan, Naxçıvan və Tiflis də Osmanlı qüvvələrindən təmizlənəcəkdir. Ona görə Rusiya Gəncə ətrafında Nadirə mümkün yardım da göstərməyə çalışırdı. Bunun nəticəsi kimi, 1735-ci ilin noyabrında Bakıda olan general Levaşov tərəfindən Nadirin düşərgəsinə bir istehkamçı zabit, yerli paltar geymiş 4 nəfər topçu və bir neçə ağır top göndərildi (346). Rus istehkamçısı və topçuları lağım döyüşlərində və qalanın atəşə tutulmasında fəallıq göstərsələr də bütünlükdə qalanın ələ keçirilməsi Nadirə qismət olmadı.

Osmanlı sərkərdəsi Abdulla paşanın öz qoşunları ilə Cənubi Qafqazdakı Osmanlı qüvvələrinə yardım göstərməsi məqsədilə hərəkətə başlaması xəbəri 1735-ci ilin əvvəllərində alındı. Bu xəbər Rusiya sarayını ciddi təşvişə saldı. Rusiya sarayının nümayəndəsi knyaz Qolitsın da yaxşı anlayırdı ki, Abdulla paşa qoşunu ilə Gəncəyə gəl-

səydi, Gəncə qalasının alınması Nadir üçün qeyri-mümkün olacaqdı. Nəticədə, Osmanlı sarayı Cənubi Qafqazdakı mövqelərini yenidən möhkəmlədə bilərdi. Ona görə Rusiya sarayı əvvəlki iddialarından əl çəkib 1732-ci ilin Rəşt müqaviləsinin tələblərinin əksinə olaraq Osmanlı qüvvələri Cənubi Qafqazdan çıxarılmazdan əvvəl Bakı ilə Dərbəndi təhvil verməyə razı olduğunu bəyan etdi. Bununla bağlı 1735-ci il martın 10 (22)- da Nadirin Gəncə yaxınlığındakı düşərgəsində Nadirlə Rusiya səfiri knyaz Qolitsın arasında Gəncə müqaviləsi imzalandı. Həmin müqavilənin şərtlərinə əsasən Rusiya 1722-ci ildən sonra Xəzərboyu vilayətlərdə ələ keçirdiyi əraziləri geri qaytarmalı idi. Konkret olaraq Bakı və Dərbəndə gəlincə isə, Rusiya müqavilənin imzalanmasından 2 həftə sonra Bakını, 2 ay sonra Dərbəndi təhvil verməli idi. Nadir də öz üzərinə öhdəlik götürdü ki, Bakı və Dərbəndi üçüncü bir dövlətə güzəştə getməyəcəkdir. Nadir eyni zamanda Rusiya dövləti ilə xoş münasibətlərdə olmağı, Rusiyadan xəbərsiz Osmanlı dövləti ilə danışıqlara getməyəcəyini öhdəsinə götürdü (347).

İmzalanmış müqaviləyə əsasən, Sultan çayı Nadirin nəzarəti altında olan ərazilərlə Rusiya arasında sərhəd xəttinə çevrildi. Rusiya öz vədinə əməl etdi və müqavilə ilə nəzərdə tutulan vaxtda Bakı şəhəri təhvil verildi. Bakının və Dərbəndin təhvil verilməsi Rusiya üçün məcburi xarakter daşıyırdı. Həmin məntəqələri təhvil verməklə Rusiya eyni zamanda Nadirdən Osmanlı dövlətinin Cənubi Qafqazda möhkəmlənməsinə imkan verməyəcəyi barədə də zəmanət aldı

İmzalanmış müqavilənin icrasına başlanandan sonra Nadir Bakıya, Dərbəndə və Salyana yeni hakimlər təyin etdi. Cənubi Qafqazın şərqində daha yaxşı möhkəmlənmək üçün Nadir Şamaxı şəhərinin yerini də dəyişdirdi. Köhnə Şamaxıdan 4 fərsəng aralı, indiki Şamaxının yerində yeni şəhər salındı və əhali ora köçürüldü. Nadirə görə yeni Şamaxının salındığı ərazi hərbi baxımdan da əlverişli mövqedə yerləşirdi (348).

1735-ci ilin Novruz bayramını Nadir Gəncə ətrafında keçirdi. Gəncə qalasını ala bilməsə də Rusiya ilə müqavilə imzalanması və bununla da Bakı və Dərbəndin geri qaytarılması onun əhval-ruhiyyəsinə müəyyən toxtaqlıq gətirdi. Amma onun qarşısında dayanan başlıca məsələ Osmanlı dövlətinin əsas qüvvələri ilə döyüşə girmək idi. Sərəsgər Abdulla paşanın rəhbərliyi altında böyük bir qüvvənin Cənubi Qafqaza doğru hərəkətə başlaması xəbəri 1735-ci ilin yanvarında alınsa da onun yaxınlaşması haqqında məlumat daxil olmamışdı. Bir neçə ay idi ki, Abdulla Paşa Qars qalasında düşərgə salmışdı. Abdulla paşanın hansı niyyətlə Qarsda ləngiməsi məlum olmasa da Nadir onunla döyü-

şü mütləq sayırdı. Çünki Abdulla paşa üzərindəki qələbə Nadirə Cənubi Qafqazda möhkəmlənməyə imkan verməklə bərabər, Osmanlı dövləti ilə münasibətlərin müəyyənləşdirilməsinə də təkan verərdi.

C.Hanveyin yazdıqlarına görə, Abdulla paşa Nadirə qarşı döyüşə girməyə ehtiyat edirdi. Osmanlı sarayı tərəfindən Abdulla paşanın çox saylı qoşununun mükəmməl təchizi üçün hərtərəfli yardım göstərilirdi. Osmanlı sarayından da Abdulla paşaya tapşırılmışdı ki, hazır olandan sonra Nadirlə döyüşə girsin. Əslində, Osmanlı sarayı da Nadirlə döyüşə girməyə ehtiyatla yanaşırdı. Nadirin artan nüfuzu, sərkərdəlik istedadı və Topal Osman paşanın məğlubiyyətə uğratması Osmanlı sarayının da nigarançılığını artırmışdı. Ona görə Abdulla paşa Qarsa gəlsə də orada da hazırlığını davam etdirirdi. Qarsda olduğu vaxt Osmanlı sarayından əlavə, hətta Qahirədən də Abdulla paşaya kömək gəldi (349).

Abdulla paşanın döyüşə girməməsi isə Gəncə qalasının mühasirəsini uzadırdı. Bu mühasirənin uzanması nə Nadiri, nə də ki, Gəncədəki Osmanlı qarnizonunu qane edirdi. Bəlkə elə buna görə Gəncə qalasının Osmanlı qarnizonunun rəhbərləri öz nümayəndələrini Nadirin yanına göndərdilər və ona öz təkliflərini çatdırdılar. Osmanlı sərkərdələri bildirdilər ki, Nadirin Azərbaycanda, Bağdad ətrafında və Topal Osman paşa üzərindəki qələbələri haqqında eşidiblər. Nadirə təklif olundu ki, fatehlik iddiasında olan bir şəxs kimi Qarsa və İrəvana yollansın, Abdulla paşa ilə döyüşə girsin. Həmin döyüşdə Abdulla paşa qalib gəlsə bütün İranı ələ keçirə bilər. Nadir qalib gəldiyi təqdirdə isə Gəncədəki Osmanlı qarnizonu müqavimətsiz qalanı təhvil verib İstanbula qayıdacaqdır (350).

Belə bir təklifin olub-olmamasından asılı olmayaraq Abdulla paşa ilə döyüş həlledici əhəmiyyətə malik idi və ona görə də Nadir Gəncə qalasının mühasirəsini dayandırmağı lazım bildi. Abdulla paşa üzərində qələbə əldə edildiyi halda tək Gəncədə deyil, Cənubi Qafqazdakı digər Osmanlı qarnizonlarının da geri çəkilməkdən başqa çarəsi qalmayacaqdı. Amma Abdulla paşanın Qars qalasını tərk etməməsi Nadir üçün anlaşılmaz olaraq qalırdı. Osmanlı qoşunlarının oradan çıxmayacağı təqdirdə yenidən qala mühasirəsinə əl atılması isə Nadir üçün arzuolunmaz idi.

Abdulla paşanı döyüşə sövq etmək və qaladan çıxarmaq üçün Nadir bir süvari alayını Qarsa tərəf göndərdi. Həmin alay qala ətrafındakı yaşayış məntəqələrini qarət etməli və bununla da Abdulla paşanın diqqətini özünə cəlb etməli idi. Amma Nadirin bu qərarı bir nəticə vermədi (351).

C.Hanvey isə bunun əksini yazır. O da təsdiq edir ki, Nadir Abdulla paşanı açıq döyüşə cəlb etmək üçün əvvəlcə bir dəstə göndərdi. Onun fikrincə bu dəstə 15 min nəfərdən ibarət idi. C.Hanveyə görə, Abdulla paşa Nadirin bu dəstəsinin kəşfiyyat məqsədilə göndərildiyini anladı və ona görə də özünün ən yaxşı süvari dəstələrindən birini Nadirin dəstəsinə qarşı göndərdi. Sonra isə özü bütün qoşunu ilə Nadirə qarşı hərəkət etdi (352).

1735-ci il may ayının əvvəllərində Nadir qoşunu ilə Gəncədən Qarsa doğru hərəkətə başladı. Gəncə qalasının mühasirəsinin davam etdirilməsi üçün bir dəstəni orada saxladı. Həmin dəstəyə sərdar Babaxan rəhbərlik edirdi. Bu dəstənin 12 min nəfərdən ibarət olduğu bildirilir. Babaxan yalnız mühasirəni davam etdirməli idi. Nadirin tapşırığına əsasən, Babaxan Osmanlı qarnizonu ilə döyüşə girməli deyildi. Nadir bir dəstəni də Ağdaşa göndərdi. Bu dəstə Şirvan vilayətini Car və Tala ləzgilərinin qəfil hücumlarından qorumalı idi. Bir dəstə isə Naxçıvan ətrafına göndərildi. “Tarix-e Cahamqoşa-ye Naderi”yə görə, Nadir əsas qüvvələri ilə birbaşa Qarsa doğru hərəkət etdi və may ayının 24-də Qarsın bir fərsəngliyində düşərgə saldı. “Aləm Ara-ye Naderi”yə görə isə Nadir əvvəlcə İrəvan yaxınlığında düşərgə saldı. Onun İrəvan yaxınlığında düşərgə salması İrəvanın Osmanlı hakimi Həsən paşanın narahatlığını xeyli artırdı.Amma Nadir İrəvana hücum etmədi. Bir neçə gün İrəvan ətrafında qaldıqdan sonra Nadir qoşunu ilə Qarsa tərəf yola düşdü (353).

Abdulla paşanın və eləcə də Nadirin qarşı-qarşıya gələn qoşununun sayı barədə müxtəlif rəqəmlər mövcuddur. “Aləm Ara-ye Naderi”də Osmanlı qoşunlarının sayı 300 min nəfər, “Tarix-e Cahanqoşa-ye Naderi”də 120 min nəfər, tarixi ədəbiyyatda isə 80 min nəfər göstərilir. Nadirin qoşunlarının sayının 40 min və 55 min olması haqqında məlumatlar verilir (354). İstənilən halda Osmanlı qoşunlarının Nadir qoşunlarından ən azı iki dəfə çox olması göz qabağındadır.

Qars qalası ətrafında tərəflərin qoşun dəstələri arasında kiçik toqquşmaların olduğu göstərilir. Hər iki tərəf üçün bu döyüşlər kəşfiyyat xarakteri daşısa da Nadir burada başqa bir niyyətini də ortaya qoymaq istəyirdi.Bu da Abdulla paşanı açıq meydanda həlledici döyüşə cəlb etmək idi. Nadir Qars ətrafında buna nail ola bilmədi. Abdulla paşa isə Qars ətrafı toqquşmalarda dəstələrinin uğursuzluğuna baxmayaraq qaladan çıxmaq niyyətində deyildi. Nadir hətta məktub göndərib Abdulla paşanı açıq döyüşə çağırdı. Bu çağırış da bir nəticə vermədi. Onda Nadir qərara gəldi ki, İrəvan qalasını mühasirəyə alsın. Çünki bu qala da bölgənin böyük və güclü qalalarından biri idi. Nadir

güman edirdi ki, Abdulla paşa İrəvan qalasına və ya mühasirədə olan Gəncə və Tiflis qalalarından birinə kömək etməyə çalışacaqdır. Buna görə də Nadir Qars ətrafındakı düşərgəsini yığışdırdı və İrəvana doğru istiqamət götürdü. 3 gündən sonra Nadir İrəvanın bir fərsəngliyinə yetişib orada düşərgə saldı. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Abdulla paşa Nadirin Qars ətrafından geri çəkilməsini onu zəifliyi və bəzi çətinliklərlə qarşılaşması kimi qəbul etdi və onu təqib etməyi qərara aldı.Yenə bu mənbə müəllifinin rəsmi sənədlərə istinadən verdiyi məlumata görə, Abdulla paşanın qoşunu 70 min süvaridən və 50 min piyada yeniçəridən ibarət idi (355).

"Aləm Ara-ye Naderi"də Nadirin Qarsdan çəkilməsinin səbəbi bir qədər fərqli şəkildə izah olunur. Bu mənbədə Nadirin geri çəkilməsi Qars ətrafında azuqə qıtlığı ilə əlaqələndirilsə də, heç şübhəsiz ki, Nadir üçün başlıca məqsəd məhz Abdulla paşanı açıq meydan döyüşünə çəkmək idi. Burada da Nadirin geri çəkilməsi Osmanlı düşərgəsində onun zəifliyi, Osmanlı qüvvələri qarşısında duruş gətirə bilməməsi ilə əlaqələndirildi. Abdulla paşanın sərkərdələrindən olan və Nadir Qars ətrafında olarkən onun dəstələri ilə kəşfiyyat xarakterli toqquşmalarda iştirak edən Teymur paşa öz dəstəsi ilə Nadirin qüvvələrini təqib etməyə başladı.Bəzi Osmanlı sərkərdələri onun əsas qüvvələrdən ayrı düşərək Nadiri təqib etməsini təhlükəli saysalar da Teymur paşa dediyindən dönmədi. Onun qarşısını Nadir qüvvələrinin aryerqardını təşkil edən Xanəli xan Kukəlanın rəhbərliyi altında olan Gəraylı dəstəsi və Əliqulu xan Əfşarın rəhbərliyi altında olan Əbivərd dəstəsi saxladı. Nadirin qüvvələrini arxadan mühafizə etmək üçün təyin edilmiş bu dəstələr Teymur paşanın yaxınlaşdığını görəndə heç Nadiri xəbərdar etmədən ona cavab verməyi qərarlaşdırdılar. Xanəli xan və Əliqulu xan Teymur paşanın yolu üzərində pusqu qurub onu bu pusquya sövq edə bildilər. Gözlənilməz vəziyyətə düşüb ağır zərbə alan Teymur paşa canını Qarsa tərəf qaçmaqla qurtardı. Abdulla paşa Teymur paşanın dəstəsinin uğursuzluğundan sonra Qars qalasını tərk edib Nadirin arxasınca getməyə hazırlıq əmri verdi (356).

Mövcud olan məlumatlara görə, Nadir Göyçə gölü ətrafında düşərgə saldı. Abdulla paşanın İrəvana tərəf hərəkəti barədə də elə orada ona məlumat çatdırıldı. Nadir dərhal Abdulla paşaya qarşı hərəkət göstərişi verdi.İrəvan yaxınlığındakı Zəngi çayının ətrafında olan Nadir, Abdulla paşanın qoşununun da ora yetişdiyini eşitdi. Abdulla paşa Teymur paşanın dəstəsini avanqard dəstə kimi irəli göndərdi. Zəngi çayı yaxınlığına ilkin olaraq Teymur paşanın dəstəsi yetişdi. Bu vaxt Nadir qoşunları ilə Qaratəpə adlanan yüksəkliyin ətrafında möv-

qe tutmuşdu. 1735-ci il iyun ayının 18-də İrəvan ətrafına yetişən tərəflər bir-birindən iki fərsəng məsafədə mövqe tutdular (357).

Gün ərzində hər iki tərəf bir-birini öyrənmək istiqamətində müəyyən işlər gördü. Osmanlı qüvvələri Nadirin qoşunlarından bir neçə nəfər əsir götürərək öz düşərgəsinə qayıtdı. Burada onların dindirilməsi zamanı belə bir qənaət hasil edildi ki, Nadirin qüvvələri 14 min nəfərdən çox deyildir. Bu xəbər Abdulla paşaya çatdırılanda o, Nadir üzərində çox asanlıqla qələbə çalacağına əmin oldu. Hətta onda bütün qüvvələrin döyüşə cəlb edilməsinə ehtiyac olmaması barədə bir fikir də yarandı. Osmanlı sərkərdəsi güman edirdi ki, aldığı ilk zərbədən sonra Nadir geri qaçmaq məcburiyyətində qalacaqdır. Onun geriyə yolu isə ancaq Zəngi çayından keçə bilərdi. Ona görə Abdulla paşa göstəriş verdi ki, toplar vasitəsilə Zəngi çayı üzərindəki keçid bağlanılsın və Nadirin qüvvələri tam mühasirəyə alınaraq məhv edilsin. Abdulla paşa döyüş taktikasını qurduğu zaman Nadir qoşunlarının bir cinahını təşkil edən Zəngi çayının sahili boyu ilə irəli qüvvə göndərməyi də planlaşdırdı. Belə bir manevrdən sonra  Abdulla paşa hətta Nadirin əsir götürülə biləcəyini də istisna etmirdi. Mənbələrdə olan məlumata görə, Nadirin az saylı qüvvə ilə möcüzə yaratmaq istedadına malik olduğunu və onun üzərində asan qələbənin əldə ediləcəyinin aldadıcı olduğunu Abdulla paşaya xatırladanda o bunu istehza ilə qarşıladı və deyiləni ciddi qəbul etmədi. Bu azmış kimi Nadirin düşərgəsi istiqamətinə qarovul dəstəsi göndərdi və özü isə Zəngi çayı sahilində istirahət üçün çadır qurdurdu (358).

Real qüvvələr nisbətində say üstünlüyünə malik olması Abdulla paşanı xeyli arxayınlaşdırdı.Standart və ənənəvi döyüş taktikasının tətbiq ediləcəyi təqdirdə Abdulla paşa sözsüz ki, öz uğuruna əmin ola bilərdi. Amma onun məsələyə ilkin münasibəti onu göstərirdi ki, qarşısındakı qüvvələrin imkanlarını və təcrübəsini lazımınca qiymətləndirməmişdi. Bu arxayınçılıq da ona həyatı bahasına başa gəldi.

Nadir isə öz döyüş mövqelərinə yetişdiyi gün qarşı tərəfin kəşfiyyatını apardı. Nadir də müşahidə etdi ki, Abdulla paşanın qoşunları mütləq say üstünlüyünə malikdir. Təchizat sarıdan da Osmanlı qüvvələrinin hər hansı bir çətinliyi yox idi. Həmin say üstünlüyünü Nadir yalnız özünün döyüş taktikası hesabına neytrallaşdıra bilərdi.

Qeyd etmək lazımdır ki, qarşı tərəflərin İrəvan ətrafındakı qarşılaşması haqqında mənbələrdə xeyli az məlumat vardır. Bir tərəfdən həmin kəsad məlumatlar əsasında hər iki tərəfdən birlikdə 100 mindən artıq qüvvənin iştirak etdiyi əməliyyatın real mənzərəsini yaratmaq

çətindir. Digər tərəfdən isə mövcud olan məlumatlara əsasən yalnız aşağıdakıları demək mümkündür.

Osmanlı qüvvələri İrəvanın qərb tərəfində düşərgə salmışdı. Nadir isə öz qüvvələrini yaxınlıqda axan çayın kənarında mövcud olan yüksəkliklərdə yerləşdirdi. Nadir eyni zamanda döyüş meydanının coğrafi imkanlarından məharətlə istifadə etdi. O hətta gecə vaxtı da düşündüyü plana uyğun olaraq qüvvələrin qruplaşdırılması və yerləşdirilməsi ilə məşğul oldu. Osmanlı qüvvələrinin Nadir qoşunlarına tərəf hücumu istiqamətində mövcud olan keçidlərə, dərələrə, yaxınlıqdakı meşə sahələrinə özünün dəstələrini təyin etdi. Bu dəstələrin vasitəsilə Nadir pusqular qurdu, Osmanlı qüvvələrinin cinahlarından zərbə vurmaq üçün zəmin yaratdı. Nadir əməliyyatın ümumi planını belə qurdu ki, üzbəüz döyüşün başlanmasından sonra qüvvələrini müəyyən məsafəyə qədər geri çəksin və onu təqib etməyə aludə olmuş Osmanlı qoşunlarına cinahlardan öldürücü zərbə vursun (359).

Açıq meydanda döyüşün aparılması üçün Nadir öz qüvvələrini lazımınca qruplaşdırdı.Qoşunların sağ cinahını o, Əmiraslan xan Qırxlıya tapşırdı. Bu cinahda əfşar, Mərv və qacar döyüşçüləri vuruşmalı idi. Qoşunların sol cinahına isə Məhəmməd xan Əzadinli rəhbərlik etməli idi. Nadirin tapşırığına əsasən, Xanəli xan Kukəlan və Məhəmməd bəy Qırxlı tabeliyində olan min nəfərlik dəstə ilə döyüş meydanına atılaraq aranı qızışdırmalı idilər. Əməliyyatdan qabaq Nadir öz sərkərdələrini, qoşun başçılarını, minbaşıları, yüzbaşıları toplayıb onlara müraciət etdi, onları ağır döyüşlərə köklədi və bildirdi ki, sizdən kimsə qorxaqlıq nümayiş etdirərsə bu qədər qoşunun qarşısından sağ və salamat qurtarmaq mümkün olmayacaqdır. Bütün sərkərdələr və qoşun rəhbərləri onun sözlərini təsdiq etdilər və döyüşlərə hazır olduqlarını söylədilər (360).

Osmanlı qüvvələrinin necə qruplaşdırıldığını söyləmək çətindir. Amma Abdulla paşa artilleriyadan səmərəli istifadə etmək istəyirdi. Bu məqsədlə o, topları iki dəstəyə böldü və həmin toplar yerləşdikləri müxtəlif istiqamətlərdən Osmanlı qüvvələrinin hücumunu müşayiət etməli idi. Nadir də öz artilleriyasının səmərəli fəaliyyətinə böyük ümidlər bəsləyirdi və mövcud olan məlumatlara görə, döyüşün əvvəlində Yarbəy xanın rəhbərliyi altında olan Nadir topları Osmanlı qüvvələrinə təsirli zərbə endirdi. Döyüş gününün səhəri açılan kimi Nadirin 6 min nəfərlik cəzayirçi dəstəsi irəli çıxarıldı, bu dəstənin ardınca qumsal yüksəkliklərdə mövqe tutmuş olan sərkərdələr tabeçiliklərində olan qoşun dəstəsi ilə döyüş meydanına doğru irəlilədilər. Nadirin özünün də döyüşə atılması onun sərkərdələrini və döyüşçü-

lərini xeyli ruhlandırdı və bunun nəticəsi kimi əməliyyatın ilkin mərhələsində Nadir qüvvələri müəyyən uğur əldə etdilər, irəliyə çıxmış Osmanlı qüvvələrinə zərbə endirildi və qarovul dəstəsi geri çəkilməyə məcbur edildi (361).

Ardınca Teymur paşanın, Əkbər paşanın və digər tanınmış Osmanlı sərkərdələrinin də olduğu qarşı eşelon əməliyyat meydanına çıxarıldı. Bununla əməliyyatın ahəngi daha gərgin xarakter aldı. Nadirin qoşun dəstələri bütünlüklə bu əməliyyata səfərbər oldu, onların göstərdiyi şücaət və mərdanəlik sayca üstün olan Osmanlı qüvvələrinə xeyli itki yetirdi. Osmanlı qüvvələri itki verdikcə onların yerini yeni-yeni dəstələr tutdu və onların artan müqavimətinin qarşısında Nadir geri çəkilməyə başladı.Osmanlılar üstünlüyü ələ keçirdiklərinə şübhə etmədən Nadirin qoşunlarını təqib etdilər. Nadir əvvəlcədən müəyyənləşdirilmiş mövqelərə qədər geri çəkildi. Məqamı yetişəndə onun əmrinə əsasən ağaclar arasında gizlənmiş artilleriya atəşə başladı, Osmanlı qoşunlarının cinahları müxtəlif istiqamətlərdən Nadirin pusquda gizlənmiş dəstələrinin qəfil hücumuna məruz qaldı. Osmanlı qüvvələri gözləmədikləri halda Nadirin qurduğu tələyə düşdülər və son dərəcə ağır zərbə aldılar. Cinahlardan və arxadan Osmanlı qüvvələri Nadir dəstələrinin gücü ilə qarşılaşdılar. Nadirin özü cəzairçilər dəstəsi ilə Osmanlı sərəsgərinin, yüksəkliklərin birinin üzərində yerləşdirdiyi topların üzərinə hücum çəkdi, bir dəstəni isə sol tərəfdə yerləşdirilmiş artilleriya mövqeləri üzərinə göndərdi. Nadir yüksəklikdə qurulmuş Osmanlı toplarının hamısını ələ keçirdi və bununla öz qüvvələrinə qarşı tərəfdən yaradılmış artilleriya təhlükəsini qismən neytrallaşdırdı (362).

Mənbələr və tarixi ədəbiyyat bildirir ki, bu əməliyyat cəmi beş saat davam etdi. Bu müddətin özü də çoxsaylı Osmanlı qoşunlarına qarşı Nadirin planlaşdırdığı əməliyyat taktikasının hansı böyük bir sürətlə və uğurla həyata keçirildiyini nümayiş etdirir.Tələyə salınmış Osmanlı qüvvələrinə vurulan ağır zərbə onlarda qorxu, təlaş və çaşqınlıq yaratdı və bu çaşqınlıq içərisində də böyük sürətlə geri çəkilməyə üz tutdular.Abdulla paşa geri qaçan qoşunların qarşısını kəsib onları yenidən döyüşə salmağa cəhd göstərsə də niyyətinə nail olmadı. Yaxınlaşmaqda olan Nadir dəstələrinin zərbəsinə tuş gəlməmək üçün Abdulla paşa və onun mühafizə dəstəsi də geri çəkilmək məcburiyyətində qaldı. Amma istər Abdulla paşa, istərsə də onun mühafizəçiləri Nadir döyüşçülərinin qılıncından canlarını qurtara bilmədilər. “Tarix-e Cahanqoşa-ye Naderi”yə görə, qaracurlu tayfasından olan Rüstəm adlı döyüşçü Abdulla paşanı əsir etməyə cəhd göstərdi. Abdulla paşa canını

qurtarmağa çalışanda atdan yerə yıxıldı, başı daşa çırpıldı və yarımcan vəziyyətdə olarkən Rüstəm onun başını kəsib Nadirin yanına gətirdi. "Aləm Ara-ye Naderi"də isə Abdulla paşanın qaracurlu Ağabəy tərəfindən öldürüldüyü təsvir olunur. Abdulla paşanın xüsusi mühafizə dəstəsi arasında olması və bahalı geyimi Ağabəyin diqqətini cəlb edir və onu ələ keçirib başını kəsməyə müvəffəq olur. Abdulla paşanın başını Nadirin yanına gətirəndə Osmanlı əsirləri vasitəsilə onun kimə məxsusluğu müəyyənləşdi.Nadir, Abdulla paşanın cənazəsini də böyük ehtiramla Qarsa yola saldı (363).

Əməliyyatın gedişində çoxlu sayda Osmanlı sərkərdəsi, qoşun başçısı və rəhbərləri öldürüldülər. Onların arasında Diyarbəkir valisi və Osmanlı sultanının kürəkəni Soltan Mustafa paşa da var idi. Nadir onun da cənazəsini böyük ehtiramla İrəvan qalasına göndərdi. Bundan başqa Osmanlı qoşunlarının bütün artilleriyası, təchizatı, parkı və əmlakı da Nadir qoşunlarının əlinə keçdi.

Beləliklə, 1735-ci il iyunun 19-da İrəvan ətrafında keçirilən döyüş əməliyyatı Nadirin yeni bir tarixi qələbəsi ilə başa çatdı. Osmanlı qüvvələrinə ağır zərbə endirildi və bu qələbə ilə əslində Nadir Cənubi Qafqazın nəzarət altına alınmasını təmin etdi. Döyüş əməliyyatından sonra Nadir böyük qələbənin əldə edilməsi üçün qoşunların və sərkərdələrin fəaliyyətini araşdırdı, qələbənin əldə edilməsində şücaət göstərən böyük sərkərdələrini və döyüşçülərini çox böyük səxavətlə mükafatlandırdı. "Aləm Ara-ye Naderi"də İrəvan ətrafında böyük qələbənin əldə edilməsində xüsusi şücaəti və xidməti olmuş Nadir sərkərdələrinin adları da sadalanmışdır: İmamverdi xan, Əliqulu xan Əfşar, Məhəmməd Həsən xan Əfşar, Qəni xan Əfqan, Şəhidqulu bəy Kürd, Nəcəfsoltan Qaracurlu, İsmayıl xan Xəzimə, Mömün xan Mərvi, Bayraməli xan, İmamverdi xan Bayat, Lütfəli xan, Kəlbəli xan Əfşar, Fətəli xan Əfşar, Kəlbəli xan, Uğurlu xan, Həsənəli xan Qarabağı, Fətəli xan, Behbud xan Müğani, Abbasəli bəy Şahsevən, Həsənəli bəy Müqəddəm, Əlinağı xan Məkri, Murtuzqulu xan Dünbəli, Həsənəli bəy Təbrizi, Əlinağı xan Bərgüşadi, Kazım xan Qaradaği, Qasım xan Əfşar, Pəri xan Əfşar, Əlimərdan xan Əfşar, Məhəmmdrza xan Naxçıvani, Əli Saleh Bəxtiyari, Əlimərdan bəy Farsi, Mehrab xan Qəzvini (364).

İrəvan ətrafındakı döyüş əməliyyatı başa çatdıqdan sonra Nadir diqqətini yenə Cənubi Qafqazdakı böyük şəhər-qalaların – Gəncə, Tiflis və İrəvanın Osmanlı qüvvələri tərəfindən boşaldılması üzərinə cəmlədi. Həmin şəhərlərə Osmanlı əsirlərini yolladı və onlara tapşırdı ki, Abdulla paşa ilə aparılan döyüş əməliyyatının nəticələrini qalalar-

dakı qarnizonun rəhbərlərinə çatdırsınlar (365). Eyni zamanda Nadir adları çəkilən şəhərlərin hakimlərinin qarşısında təslim olmaq, hakimi olduqları şəhərləri təhvil vermək tələbi qoydu. Mənbələrin məlumatına görə, şəhərlərin hakimləri Nadirə müraciət göndərdilər və şəhərlərin təhvil verilməsi ilə bağlı onun bir qədər səbr etməsini xahiş etdilər. Şəhər hakimləri bildirdilər ki, onların icazəsiz şəhəri təhvil verməyə haqları çatmır. Yaranmış olan tarixi şərait isə Osmanlı sarayının diqqətinə çatdırılmışdır. Onlar bir daha xahiş etdilər ki, bu şəhərlərin mühasirəsi aylarla davam etdiyi halda, Osmanlı sarayından cavab alınması üçün bir neçə gün də möhlət verilsin (366).

Nadir bu müraciəti rəğbətlə qarşılamadı və ona qarşı da çıxmadı. İrəvan ətrafından Qarsa doğru irəliləməyi və Qars qalasını mühasirə etməyi daha məqsədəuyğun bildi. Osmanlı qoşunlarının aldığı ağır zərbədən sonra tezliklə özünə gələ bilməyəcəyi halda Qars ətrafında güclü müqavimətlə qarşılaşacağına da inanmırdı. Qars qalasını ələ keçirməklə və ya Osmanlı qüvvələrinə qarşı özünün gücünün daha bir nümayişi ilə Nadir Osmanlı sarayına qarşı təzyiq göstərmiş olardı və ən azı Cənubi Qafqazdakı şəhərlərin boşaldılmasını sürətləndirmiş olardı. Ona görə də Nadir qoşunları ilə Qarsa doğru hərəkətə başladı. Mənbələrin məlumatına görə, Qars qalasının mühasirəsi bir ay çəkdi (367).

Bu müddət ərzində Qars hakimi Nadirlə əlaqələr yaratmağa, onu Qarsın mühasirəsindən çəkindirməyə çalışdı. Amma Nadir bu mühasirəni Osmanlı sarayının Gəncə, İrəvan və Tiflis qalalarını təhvil verməyə razı olandan sonra dayandırdı. Nadir bu təkliflə razılaşdı. Xüsusilə, eşidəndə ki, Dağıstanda yenə hərəkatlar genişlənməkdədir, Qarsın mühasirəsinə son qoyub Qafqaza qayıtmağı lazım bildi. Osmanlı sarayı ilə əldə edilən razılaşmanın nəticəsi kimi də 1735-ci il iyulun 9-da Gəncə, avqustun 12-də Tiflis və oktyabrın 3-də isə İrəvan Osmanlı qüvvələri tərəfindən tərk edildi (368).

Bununla, Nadirin Osmanlı qüvvələri ilə apardığı müharibənin yeni bir mərhələsinə son qoyuldu. Bu mərhələni uğurla başa vuran Nadir Cənubi Qafqazı yenidən nəzarət altına aldı. Osmanlı qüvvələri ilə aparılan döyüşlərin nəticələri Nadirin Tiflisdə Osmanlı nümayəndələri ilə imzaladığı anlaşmada təsbit olundu. Həmin anlaşmaya əsasən İranın qərb sərhədləri Gürcüstandan keçməklə Qara dəniz sahili, Ağrı dağı, Kürdüstan dağları və Zaqros xətti üzrə keçməklə Fars körfəzinə çıxırdı.Tiflis anlaşmasına əsasən Nadir də öz qoşunlarını Bağdad ətrafından geri çəkdi (369).

Nadir öz sərkərdəlik istedadı ilə Şərqin böyük imperiyasından olan Osmanlı dövlətinin qoşunlarını geri çəkilməyə məcbur etdi, iradəsi və əzmkarlığı ilə fatehlik tarixinin daha bir zirvəsini fəth etdi və Cənubi Qafqazın mütləq hakiminə çevrildi. Nadir xeyli müddətdən sonra Səfəvi dövlətinin sərhədlərini bərpa etdi, dövlətin Şah İsmayıl Səfəvi dövründə malik olduğu nüfuzu və qüdrətini özünə qaytardı və onu bölgənin söz sahibinə çevirdi.

Osmanlı qüvvələri üzərindəki uğurunu təmin etdikdən sonra Nadir bir daha yolunu Dağıstandan saldı. Məqsəd də bir daha burada özünü göstərməkdə olan iğtişaşlara son qoymaq idi. Həmin iğtişaşların baş qaldırmasında dolayısı yolla Osmanlı dövlətinin də əli var idi. Nadirlə qarşıdurmada Cənubi Qafqazdan geri çəkilməli olan Osmanlı sarayı Krım tatarlarının vasitəsilə Dağıstanda öz nüfuzunu geri qaytarmaq istəyirdi. Krım tatarlarından da kömək alan Car və Tala camaatı, Surxay bəy və digərləri Nadirə qarşı itaətsizliyə rəvac verən təhrikedici çıxışlar hazırlayırdılar. Onu da qeyd etmək lazımdır ki, Nadirin Dağıstana növbəti yürüşü 1735-ci ilin son aylarına və 1736-cı ilin əvvəlinə təsadüf edir. Çox qalın qar örtüyü ilə örtülmüş dağları aşmaq, böyük bir qoşun dəstəsini və onun təchizatını nəql etmək Nadirdən bir daha öz məharətini nümayiş etdirməyi tələb edirdi. Nadir dağ yollarını və aşırımlarını elə bir ustalıqla qət etdi ki, iğtişaşlar hazırlayan yerli qüvvələrə heç bir şans qalmadı. Baxmayaraq ki, həmin yerli qüvvələr öyrəşdikləri təbii şəraitin xüsusiyyətlərindən Nadirə qarşı mübarizənin təşkilində məharətlə istifadə edə bilərdilər.

Nadirin qoşunları Altıağac yolu ilə Car və Talaya doğru istiqamət götürdü. Nadir qoşunlarının yaxınlaşması xəbərini eşidən kimi Car və Talada itaətsizlik nümayiş etdirən qüvvələr qaçıb dağılışdılar. Belə olanda Nadir tüfəngdarlar dəstəsini müxtəlif istiqamətlərdən yüksəkliklərə göndərdi ki, qaçan qüvvələri məhv etsin. Nadirin dəstələri bu tapşırığı qismən yerinə yetirdilər, itaətsizlik göstərən qüvvələrin bir hissəsini ələ keçirdilər. Amma bu qüvvələrin rəhbəri olan Surxay, Usmi Əhməd xan və Eldar qaçıb canlarını qurtara bildilər. 1735-ci il noyabr ayının 21-də Nadirin qoşunu Dərbəndin şimalında düşərgə saldı. Burada Nadirə xəbər çatdırıldı ki, Surxay Qumıxda yenidən dəstə toplayır və məqsədi də Nadirə qarşı cəbhə tutmaqdır. Nadir öz qoşunu ilə dərhal həmin məntəqəyə yollandı. Surxay doğrudan da Nadirə müqavimət göstərilməsi üçün hazırlaşmışdı. Bu məqsədlə dağ keçidlərinə və yüksəkliklərə öz qüvvələrini yerləşdirmişdi. Lakin onun hazırlığı yenə də Nadir qoşunlarının qarşısını kəsməyə kifayət etmədi. Nadir cəzayirçilərini hücuma qoş-maqla və yüksəklikləri ələ keçir-

məklə Surxayın dəstəsinə ağır zərbə vurdu. Surxayın yenə qaçmaqdan başqa çarəsi qalmadı. Ona kömək göstərməyə gələn ləzgi Eldarın dəstəsi də tar-mar edildi. Surxay Avarıstana qaçmaqla canını Nadirin qəzəbindən qurtara bildi (370).

Bununla da, Nadir Dağıstanda itaətsizlik nümayiş etdirən əsas qüvvələri məhv etdi. O, Dağıstanın və Şirvanın dövlət işlərinin tənzimlənməsinə müəyyən qədər vaxt sərf etdikdən sonra Muğan düzünə üz tutdu.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1.Semnani Təbahi. Nader şah. Baztab-e həmmase və facee-ye melli. Tehran, 1375, s.72
2. Tehrani Məhəmməd Şəfa. Tarix-e Nader şah. Tehran, 1349, s.289; Lokkart L. Enqeraz-e selsele-ye Səfəvi. Tehran, 1344, s.327
3. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1383, s.22;. Tehrani M.Ş. ... s.288
4. Tehranı M. Ş. ... s.288
5. Lokkart L. Enqeraz-e ... s.393-394
6. Mərvi, Məhəmməd Kazım. Aləm Ara-ye Naderi. C.I, Tehran 1358, s.54
7. Lokkart L. Enqeraz-e ... s.356
8. Şəmim Ələsgər. Əz Nader ta kudəta-ye Rza xan Mirpənc. Tehran, 1368, s.22
9. Astrabadi, Mirzə Mehdi xan. Tarix-e Cahanqoşa-ye Naderi. Tehran 1368, s.74-75
10. Aləm Ara-ye Naderi, c.I, s.66
11. Tarix-e Cahanqoşa-ye Naderi ... s.76-77
12. Yenə orada, s.81
13. Yenə orada, s.82-83
14. Hanvey C. Zendegi-ye ... s.29
15. Tarix-e Cahanqoşaye Naderi ... s.81
16. Aləm Ara-ye Naderi, c.I, ... s.66
17. Lokkart L. Enqeraz-e ... s.358-359
18. Tarix-e Cahanqoşa-ye Naderi ... s.85-86
19. Aləm Ara-ye Naderi, c.I, ... s.73-74
20. Yenə orada, s.74
21. Tarix-e Cahanqoşa-ye Naderi ... s.86-87
22. Aləm Ara-ye Naderi, c.I, ... s.75
23. Yenə orada, s.76
24. Yenə orada, s.76-77
25. Yenə orada, s.77-78
26. Tarix-e Cahanqoşa-ye Naderi ... s.92-93
27. Yenə orada, s.94
28. Yenə orada s.99
29. Aləm Ara-ye Naderi, c.I, ... s.82
30. Yenə orada
31. Yenə orada, s.84

32. Yenə orada
33. Yenə orada, s.85
34. Yenə orada, s.86
35. Yenə orada
36. Tarix-e Cahanqoşa-ye Naderi ... s.106.107
37. Larudi N. Nader pesər-e şəmşir. Tehran, 1383, s.57
38. Aləm Ara-ye Naderi, c.I, ... s.93
39. Tarix-e Cahanqoşa-ye Naderi, ...s 121
40. Aləm Ara-ye Naderi, c.I, ... s.93
41. Tarix-e Cahanqoşa-ye Naderi ... s.121
42. Aləm Ara-ye Naderi, c.I, ... s.93
43. Tarix-e Cahanqoşa-ye Naderi ... s.122
44. Aləm Ara-ye Naderi, c.I, ... s.94
45. Tarix-e Cahanqoşa-ye Naderi ... s.122; Sərdadvər Əbuturab. Tarix-e nezami və siyasi-ye douran-e Nader Şah Əfşar. Tehran, 1378, s.542-543
46. Sərdadvər Ə. ... s.543
47. Larudi N. ... s.40; Qodusi M. Nadername. Məşhəd, 1339, s.94
48. Tarix-e Cahanqoşa-ye Naderi .. s.122
49. Yenə orada, s.123
50. Aləm Ara-ye Naderi, c.I, ... s.95-96
51. Tarix-e Cahanqoşa-ye Naderi ... s.123
52. Yenə orada
53. Aləm Ara-ye Naderi, c.I, ... s.96
54. Yenə orada, s.97
55. Yenə orada, s.97-98
56. Yenə orada, s.98-99
57. Yenə orada, s.99
58. Yenə orada
59. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 125
60. Qodusi ... s.96
61. Tarix-e Cahanqoşa-ye Naderi ... s.126
62. Yenə orada, s.126
63. Aləm Ara-ye Naderi, c.I, ... s. 100-11
64. Yenə orada, s.101
65. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1383, s.38-39
66. Hanvey C. Zendegi-ye ... s.38; Melkom Ser Con. İran dər zaman-e Nader şah ... s.222; Sayks P. Tarix-e İran. C.II, Tehran, 1381, s.344
67. Aləm Ara-ye Naderi, c.I, ... s. 101

68. Pənahi M.Ə. Nader şah. Tehran, 1382, s.39
69. Hanvey C. Zendegi-ye ... s.37
70. Aləm Ara-ye Naderi, c.I, ... s. 101
71. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 130
72. Hanvey C. Zendegi-ye ... s.37; Локкарт Л. Надир шах .Баку, 2002, с.44
73. Aləm Ara-ye Naderi, c.I, ... s. 109
74. Tarix-e Cahanqoşa-ye Naderi ... s.130-131
75. Aləm Ara-ye Naderi, c.I, ... s. 110
76. Hanvey C. Zendegi-ye ... s.39
77. Aləm Ara-ye Naderi, c.I, ... s. 110
78. Tarix-e Cahanqoşa-ye Naderi ... s.131
79. Aləm Ara-ye Naderi, c.I, ... s. 110
80. Hanvey C. ... s.40
81. Aləm Ara-ye Naderi, c.I, ... s.110-111
82. Yenə orada, s.111
83. Yenə orada, s.111
84. Локкарт Л. Надир шах , … с. 46
85. Tarix-e Cahanqoşa-ye Naderi ... s.135
86. Yenə orada, s.135-137
87. Aləm Ara-ye Naderi, c.I, ... s.113-114
88. Tarix-e Cahanqoşa-ye Naderi ... s.138
89. Larudi N. Zendegi-ye Nader şah, pesər-e şəmşir. Tehran, 1383, s.72
90. Aləm Ara-ye Naderi, c.I, ... s.43
91. Yenə orada, s.114
92. Tarix-e Cahanqoşa-ye Naderi ... s.139
93. Aləm Ara-ye Naderi, c.I, ... s.115
94. Tarix-e Cahanqoşa-ye Naderi ... s.139
95. Aləm Ara-ye Naderi, c.I, ... s.115
96. Yenə orada, s.116
97. Hanvey C. Zendegi-ye ... s.42
98. Aləm Ara-ye Naderi, c.I, ... s.117
99. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 140
100. Aləm Ara-ye Naderi, c.I, ... s.117
101. Tehrani M.Ş. Tarix-e Nader şah. Tehran, 1349, s.26
102. Tarix-e Cahanqoşa-ye Naderi ... s.140-141
103. Aləm Ara-ye Naderi, c.I, ... s.118
104. Hədis-e Naderi. Tehran, Daneşqah Melli-ye İran, s.160-161
105. Tehrani M.Ş., ...s.26

106. Hanvey C. Zendegi-ye ... s.44
107. Локкарт Л. Надир шах , … с.48
108. Aləm Ara-ye Naderi, c.I, ... s.118
109. Hanvey C. Zendegi-ye ... s.46
110. Yenə orada, s.47
111. Локкарт Л. Надир шах , … с.48
112. Tarix-e Cahanqoşa-ye Naderi ... s.145
113. Hanvey C. Zendegi-ye ... s.48-49
114. Yenə orada, s.51
115. Aləm Ara-ye Naderi, c.I, ... s.121
116. Yenə orada
117. Yenə orada, s.121-122
118. Tarix-e Cahanqoşa-ye Naderi ... s.148
119. Aləm Ara-ye Naderi, c.I, ... s.122
120. Tarix-e Cahanqoşa-ye Naderi ... s.150-151
121. Aləm Ara-ye Naderi, c.I, ... s.123
122. Yenə orada, s.125
123. Nader şah və bazmandeqanəş. Tehran, 1368, s.90
124. Tarix-e Cahanqoşa-ye Naderi ... s.158; Hanvey C. Zendegi-ye ... s.54
125. Moqtəder Qulamhüseyn. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.29
126. Larudi N., Nader pesər-e ... s.79; Локкарт Л. Надир шах , … с.59
127. Moqtəder Q.H., ... s.30
128. Aləm Ara-ye Naderi, c.I, ... s.126-127
129. Yenə orada, s.127
130. Yenə orada, s.127
131. Tarix-e Cahanqoşa-ye Naderi ... s.158
132. Sərdadvər Ə. Tarix-e nizami... s.638-650; Pənahi M.Ə. Nader şah. Tehran, 1382, s.4; Moqtəder Q., ... s.650; Pənahi S. Nader şah. Baztab-e həmmase və facee-ye melli. Tehran, 1375, s.111-112
133. Aləm Ara-ye Naderi, c.I, ... s.129
134. Tarix-e Cahanqoşa-ye Naderi ... s.159
135. Aləm Ara-ye Naderi, c.I, ... s.129; Tarix-e Cahanqoşa-ye Naderi ... s.160; Larudi ., ... s.80
136 Aləm Ara-ye Naderi, c.I, ... s.130-131; Tarix-e Cahanqoşa-ye Naderi ... s.160
137. Aləm Ara-ye Naderi, c.I, ... s.132

138. Yenə orada
139. Tarix-e Cahanqoşa-ye Naderi ... s.162; Локкарт Л. Надир шах , … c.59
140. Tarix-e Cahanqoşa-ye Naderi ... s.163
141. Aləm Ara-ye Naderi, c.I, ... s. 133-134
142. Yenə orada, s.134
143. Moqtəder Q.. ... s.31
144. Aləm Ara-ye Naderi, c.I, ... s.134-135; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 169
145. Aləm Ara-ye Naderi, c.I, ... s.136; Tarix-e Cahanqoşa-ye Naderi ... s.170
146. Aləm Ara-ye Naderi, c.I, ... s.136
147. Yenə orada, s.137
148. Yenə orada, s.138
149. Yenə orada, s.139
150. Yenə orada
151. Yenə orada, s.141
152. Yenə orada, s.143
153. Yenə orada, s.147-148
154. Локкарт Л. Надир шах , … c.60
155.Tarix-e Cahanqoşa-ye Naderi ... s.176-177; Müqtədir Q., ... s.33
156. Aləm Ara-ye Naderi, c.I, ... s.151
157. Aləm Ara-ye Naderi, c.I, ... s.152; Tarix-e Cahanqoşa-ye Naderi ... s.177; Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.286
158. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 177; Aləm Ara-ye Naderi, c.I, ... s. 152
159. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 177
160. Локкарт Л. Надир шах , … c.63
161. Aləm Ara-ye Naderi, c.I, ... s.160
162. Tarix-e Cahanqoşa-ye Naderi ... s.182
163. Aləm Ara-ye Naderi, c.I, ... s.161
164. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 191-192; Локкарт Л. Надир шах , … c..63
165. Aləm Ara-ye Naderi, c.I, ... s.169; Tarix-e Cahanqoşa-ye Naderi ... s.194
166. Aləm Ara-ye Naderi, c.I, ... s. 169
167. Aləm Ara-ye Naderi, c.I, ... s.170-171
168. Aləm Ara-ye Naderi, c.I, ... s.171-172; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 195

169. Aləm Ara-ye Naderi, c.I, ... s.172-173; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 195
170. Aləm Ara-ye Naderi, c.I, ... s.173; Tarix-e Cahanqoşa-ye Naderi ... s.196
171. Aləm Ara-ye Naderi, c.I, ... s.173; Tarix-e Cahanqoşa-ye Naderi ... s.197
172. Aləm Ara-ye Naderi, c.I, ... s. 176; Tarix-e Cahanqoşa-ye Naderi ... s.198
173. Aləm Ara-ye Naderi, c.I, ... s.177
174. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 199
175. Yenə orada, s.206
176. Aləm Ara-ye Naderi, c.I, ... s.186
177. Yenə orada, s.187
178. Həzin Şeyx Məhəmməd Əli. Səfərnamə, s.127. Bax: Nader şah. Tehran, 1369, s.81-193
179. Tarix-e Cahanqoşa-ye Naderi ... s.208
180. Aləm Ara-ye Naderi, c.I, ... s. 188
181. Tarix-e Cahanqoşa-ye Naderi ... s.209
182. Aləm Ara-ye Naderi, c.I, ... s. 189
183. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 211-212
184. Yenə orada, s.213-214
185. Tarix-e Cahanqoşa-ye Naderi ... s.220-221; Локкарт Л. Надир шах , … c.65
186. Aləm Ara-ye Naderi, c.I, ... s. 192-198
187. Minorski V. Tarixçe-ye Nader şah, s.62. Bax: Nader şah. Tehran, 1339, s.51-97
188. Nader şah. Tehran, 1339, s.62; Локкарт Л. Надир шах , … c.67; Larudi N, ... s.85
189. Aləm Ara-ye Naderi, c.I, ... s. 209
190. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 226; Локкарт Л. Надир шах , … c.67
191. Tarix-e Cahanqoşa-ye Naderi ... s.227; Larudi N., ... s.85
192. Larudi N., ... s.85
193. Aləm Ara-ye Naderi, c.I, ... s. 212
194. Yenə orada, s223
195. Локкарт Л. Надир шах , … c.69; Pənahi Semnani. Nader şah. Baztab-e həmmase ... s.116
196. Мутафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993, с.184
197. Tarix-e Cahanqoşa-ye Naderi ... s.232

198. Yenə orada, .233-235
199. Tarix-e Cahanqoşa-ye Naderi ... s.244; Локкарт Л. Надир шах , … c.74; Larudi N. ... s.86
200. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 244
201. Aləm Ara-ye Naderi, c.I, ... s.229
202. Yenə orada, s.230
203. Aləm Ara-ye Naderi, c.I, ... s. 231; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 247
204. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 247
205. Yenə orada, s.248
206. Локкарт Л. Надир шах , … c.75
207. Həzin , ... s.128
208. Aləm Ara-ye Naderi, c.I, ... s. 232
209. Yenə orada, s.232-233
210. Aləm Ara-ye Naderi, c.I, ... s.234; Локкарт Л. Надир шах , … c.76
211. Pənahi Semnani. Nader şah. Baztab-e həmmase ... s.120
212. Aləm Ara-ye Naderi, c.I, ... s. 234
213. Pənahi Semnani. Nader şah. Baztab-e həmmase... s.120-121
214. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 248
215. Hanvey C. Zendegi-ye ... s.97
216. Yen orada, s.95
217. Yenə orada, s.96
218. Yenə orada, s.96
219. Yenə orada, s.97
220. Aləm Ara-ye Naderi, c.I, ... s.236
221. Yenə orada
222. Yenə orada
223. Локкарт Л. Надир шах , … c.79
224. Aləm Ara-ye Naderi, c.I, ... s.244-245
225. Aləm Ara-ye Naderi, c.I, ... s. 252; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 251; Moqtəder Q., ... s.37
226. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 253; Moqtəder Q., ... s.38
227. Aləm Ara-ye Naderi, c.I, ... s. 253-254
228. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 253
229. Hanvey C. Zendegi-ye ... s.102
230. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 254; Локкарт Л. Надир шах , … c.80-81; Nader şah. Tehran, 1339, s.123
231. Aləm Ara-ye Naderi, c.I, ... s. 257
232. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 255-256

233. Aləm Ara-ye Naderi, c.I, ... s. 258-259
234. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 257; Aləm Ara-ye Naderi, c.I, ... s. 259
235. Aləm Ara-ye Naderi, c.I, ... s. 257-258
236. Aləm Ara-ye Naderi, c.I, ... s. 260; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 258; Moqtəder Q., ... s.39
237. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 258
238. Aləm Ara-ye Naderi, c.I, ... s.260
239. Aləm Ara-ye Naderi, c.I, ... s. 261; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 259
240. Aləm Ara-ye Naderi, c.I, ... s. 262
241. Aləm Ara-ye Naderi, c.I, ... s. 262-263; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 261
242. Larudi N, ...s.89; Moqtəder Q., .. 39; Локкарт Л. Надир шах , … с.82
243. Aləm Ara-ye Naderi, c.I, ... s. 277
244. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 264
245. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 264; Aləm Ara-ye Naderi, c.I, ... s. 286
246. Aləm Ara-ye Naderi, c.I, ... s. 286-287
247. Hanvey C. Zendegi-ye ... s.104-105
248. Tarix-e Cahanqoşa-ye Naderi ... s.264; Larudi N., ... s.89; Moqtəder Q. ... s.41; Локкарт Л. Надир шах , … с.85
249. Aləm Ara-ye Naderi, c.I, ... s. 287
250. Yenə orada, s.288
251. Hanvey C. Zendegi-ye ... s.109; Sərdadvər Ə. ... s.789; Moqtəder Q., ... s. 43
252. Sərdadvər Ə., ... s. 289; Hanvey C. Zendegi-ye ... s.109
253. Moqtəder Q., ... s.42
254. Hanvey C. Zendegi-ye ... s.109
255. Aləm Ara-ye Naderi, c.I, ... s. 289
256. Hanvey C. Zendegi-ye ... s.109
257. Moqtəder Q. ... s.42
258. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 265
259. Aləm Ara-ye Naderi, c.I, ... s. 288-289
260 Moqtəder Q., ... s.43
261. Hanvey C. Zendegi-ye ... s.110
262. Aləm Ara-ye Naderi, c.I, ... s. 290
263. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 265

264. Aləm Ara-ye Naderi, c.I, ... s.291-292; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 260
265. Aləm Ara-ye Naderi, c.I, ... s. 292
266. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 267
267. Hanvey C. Zendegi-ye ... s.110
268. Aləm Ara-ye Naderi, c.I, ... s. 293
269. Lokkart L. Nadir şah. Tehran, 2537, s.100; Larudi N., ... s.91
270. Aləm Ara-ye Naderi, c.I, ... s. 293
271. Moqtəder Q., ... s.44
272. Tarix-e Cahanqoşa-ye Naderi ... s.268; Hanvey C. Zendegi-ye ... s.111
273. Aləm Ara-ye Naderi, c.I, ... s.293; Cəmşidi M.H. Məbani və tarix-e əndişe-ye nezami dər İran. Tehran, 1380, s.424; Moqtəder Q., ... s.44
274. Aləm Ara-ye Naderi, c.I, ... s. 294
275. Aləm Ara-ye Naderi, c.I, ... s. 295-296; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 269
276. Локкарт Л. Надир шах , … с.87
277. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 270
278. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 270; Aləm Ara-ye Naderi, c.I, ... s. 297
279. Aləm Ara-ye Naderi, c.I, ... s. 297-298
280. Malkom Ser Con, İran dər zaman-e Nader şah, ... s.236
281. Локкарт Л. Надир шах , … с.88; Pənahi Semnani. Nader şah. Baztab-e ... s.325
282. Tarix-e Cahanqoşa-ye Naderi ... s.272
283. Lokkart L. Nadir şax, ..88
284. Aləm Ara-ye Naderi, c.I, ... s. 300
285. Yenə orada
286. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 274
287. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 275; Aləm Ara-ye Naderi, c.I, ... s. 300-301
288. Aləm Ara-ye Naderi, c.I, ... s. 301-302
289. Yenə orada, s. 302
290. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 279
291. Yenə orada
292. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 281; Aləm Ara-ye Naderi, c.I, ... s. 325
293. Aləm Ara-ye Naderi, c.I, ... s. 326; Tarix-e Cahanqoşa-ye Naderi ... s.283

294. Aləm Ara-ye Naderi, c.I, ... s. 327;  Tarix-e Cahanqoşa-ye Naderi ... s. 283
295. Aləm Ara-ye Naderi, c.I, ... s. 328-329
296. yenə orada, s.329
297. Hanvey C. Zendegi-ye ... s.123
298. Aləm Ara-ye Naderi, c.I, ... s. 331; Melkom S.C., ... s. 237; Naser Nəcmi. Nader şah oqab Kelat. Tehran, 1380, s.72
299. Aləm Ara-ye Naderi, c.I, ... s. 332
300. Aləm Ara-ye Naderi, c.I, ... s. 332; Tarix-e Cahanqoşa-ye Naderi ... s.284
301. Tarix-e Cahanqoşa-ye Naderi ... s.285
302. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 285; Aləm Ara-ye Naderi, c.I, ... s. 336
303. Локкарт Л. Надир шах , … с.92;  Moqtəder Q., ... s.37
304. Локкарт Л. Надир шах , … с. 92; Moqtəder Q., ... s.37
305. Aləm Ara-ye Naderi, c.I, ... s. 336-337
306. Локкарт Л. Надир шах , … с.93
307. Hanvey C. Zendegi-ye ... s.138
308  Pənahi Semnani, ... s.126
309. Aləm Ara-ye Naderi, c.I, ... s. 339
310. Tarix-e Cahanqoşa-ye Naderi ... s.290
311. Yenə orada, s.291
312. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 291; Moqtəder Q., ... s.47-48
313. Tarix-e Cahanqoşa-ye Naderi ... s.292; Moqtəder Q., ... s.48
314. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 296; Pənahi Semnani, ... s.132-133;
315.Tarix-e Cahanqoşa-ye Naderi ... s. 296; Локкарт Л. Надир шах , … с.99
316. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 297
317. Локкарт Л. Надир шах , … с.100-101, Moqtəder Q., ... s.49-50
318. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 302; Локкарт Л. Надир шах , … с.101
319. Локкарт Л. Надир шах , … с.102
320. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 303; Бакиханов А. Гюлистани Ирам Баку, 1991, с.99
321. Бакиханов А., … с.138; Tarix-e Cahanqoşa-ye Naderi ... s.303; Локкарт Л. Надир шах , … с.102
322. Aləm Ara-ye Naderi, c.I, ... s. 369-370
323. Yenə orada, s.370
324. Azərbaycan tarixi. Bakı, 1994, s.512

325. Aləm Ara-ye Naderi, c.I, ... s. 370; Tarix-e Cahanqoşa-ye Naderi ... s.304; Локкарт Л. Надир шах , … с.103
326. Aləm Ara-ye Naderi, c.I, ... s. 372
327. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 304-305; Azərbaycan tarixi. Bakı, 1994, s.512
328. Aləm Ara-ye Naderi, c.I, ... s. 373
329. Yenə orada, s.374
330. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 304; Бакиханов А., ... с.138; Moqtəder Q., ... s.51
331. Локкарт Л. Надир шах , … с.104; Azərbaycan tarixi. Bakı, 1994, s.181
332. Мутафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993, с. 195
333. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 311; Moqtəder Q.. ... s.52
334. Aləm Ara-ye Naderi, c.I, ... s. 380-381
335. Aləm Ara-ye Naderi, c.I, ... s. 381; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 311
336. Aləm Ara-ye Naderi, c.I, ... s. 382
337. Yenə orada, s.383
338. Yenə orada
339. Aləm Ara-ye Naderi, c.I, ... s. 383; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 312
340. Aləm Ara-ye Naderi, c.I, ... s. 384
341. Aləm Ara-ye Naderi, c.I, ... s. 386; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 315; Бакиханов А., ... с.140
342. Aləm Ara-ye Naderi, c.I, ... s. 386
343. Yenə orada, s.388
344. Мутафазаде Т.Т., ... с.195
345. Локкарт Л. Надир шах , … с.105
346. Nader şah. Axərin keşvərqoşa-ye ... s.337
347 Мутафазаде Т.Т., ... с.196
348. Бакиханов А., ... с.141
349. Hanvey C., ... s.149
350. Aləm Ara-ye Naderi, c.I, ... s. 389
351. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 325
352. Hanvey C. Zendegi-ye ... s.149
353. Aləm Ara-ye Naderi, c.I, ... s. 389-390; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 356
354. Aləm Ara-ye Naderi, c.I, ... s. 390 Tarix-e Cahanqoşa-ye Naderi ... s. 326; Hanvey C. Zendegi-ye ... s.149

355. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 328
356. Aləm Ara-ye Naderi, c.I, ... s. 392
357. Aləm Ara-ye Naderi, c.I, ... s. 394; Локкарт Л. Надир шах , … с. 108
358. Aləm Ara-ye Naderi, c.I, ... s. 396
359. Moqtəder Q. ... s.54
360. Aləm Ara-ye Naderi, c.I, ... s. 394-395
361. Aləm Ara-ye Naderi, c.I,... s.396-398; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 330
362. Aləm Ara-ye Naderi, c.I, ... s. 398; Tarix -e Cahanqoşa-ye Naderi ... s. 330; Moqtəder Q., ... s.56
363. Aləm Ara-ye Naderi, c.I, ... s. 401; Tarix -e Cahanqoşa-ye Naderi ... s.331
364. Aləm Ara-ye Naderi, c.I, ... s. 397
365. Tarix -e Cahanqoşa-ye Naderi ... s. 332
366. Aləm Ara-ye Naderi, c.I, ... s. 403
367. Aləm Ara-ye Naderi, c.I, ... s. 405
368. Локкарт Л. Надир шах , … с.108-109
369. Larudi N., ... s.104
370. Larudi N., ... s.105-106; Локкарт Л. Надир шах , … с.116; Бакиханов А., ... с.143-144

# IV FƏSİL

## HƏRBİ VƏ SİYASİ HAKİMİYYƏTİN İTTİFAQI

### 1. Muğan qurultayı və Nadirin şah elan olunması

Dağıstan yürüşünü uğurla başa çatdırdıqdan və Cənubi Qafqazı tamamilə nəzarət altına aldıqdan sonra Nadir bütün diqqəti hakimiyyət məsələləri üzərində cəmləşdirdi. O, nayibüssəltənə (səltənət nayibi) adlandırılsa da əslində real hakimiyyət onun əlində idi. Qəndəhar istisna olmaqla Səfəvi dövlətinin keçmiş sərhədlərinin bərpası da onun xidmətlərinin nəticəsi idi. Həqiqətdə dövlətə rəhbərlik etsə də, Nadir qanuni dövlət rəhbəri deyildi və Dağıstan yürüşündən sonra o özünü qanuni dövlət rəhbəri elan etmək fikrinə düşdü. Bunun üçün böyük bir qurultay çağırtdırdı və məsələni də ölkə nümayəndələrinin müzakirəsinə verdi.

Yuxarıda qeyd edildiyi kimi, ölkə daxilində ənənəvi və irsi Səfəvi hakimiyyətinə meyl kifayət qədər güclü idi. Hətta Muğan qurultayının gedişində də bu meyl özünü aydın göstərdi. Görünür, məhz elə bunun üçün idi ki, Nadir uzun müddət şahlıq taxtını ələ keçirməyi gözləməli oldu. Osmanlı qüvvələrinə qarşı müharibənin uğurla başa çatdırılması, dövlətin keçmiş ərazilərinin bərpası, ətrafında nüfuzlu hərbi elitanın yaradılması Nadirin şahlıq taxtına olan iddiasını gücləndirməklə bərabər, bu iddianın həyata keçirilməsinə də real zəmin yaratdı.

Bəzi müəlliflərin gümanına görə, bədəncə zəif olan III Şah Abbasın elə kiçik yaşlarında dünyasını dəyişməsi (1) Nadirə öz iddiasını reallaşdırmağa təkan verdi. Ə.Sərdadvər hətta bu xəbərin Nadirin Dərbənddən Ağsuya qayıdarkən eşitdiyini və bir müddət həmin xəbəri gizli saxlamağı tapşırdığını bildirdi.Bu müəllif hətta Muğan qurultayının çağırılması qərarının məhz III Şah Abbasın ölüm xəbərinin alınmasından sonra verildiyini əsaslandırmağa çalışmışdır. Amma Nadir haqqında əsas mənbələr olan “Tarix-e Cahanqoşa-ye Naderi” və “Aləm Ara-ye Naderi”-də bu məlumat öz təsdiqini tapmır. Əksinə, hər iki mənbənin mətnindən Muğan qurultayının keçirildiyi əsnada III Şah Abbasın salamat olmasından xəbər verilir.

Heç şübhəsiz ki, konkret tarixi şəraitdə şahlıq taxt-tacı məsələsinin yenidən ortaya çıxarılması yalnız III Şah Abbasın sağ olub-olmaması ilə bağlı deyildi. Bu məsələnin gündəliyə çıxarılmasına obyektiv və subyektiv baxışlardan yanaşmaq mümkündür. Sərhədləri bərpa olunan və nüfuzu geri qaytarılan ölkədə mərkəzləşdirilmiş möhkəm hakimiyyətin bərqərar edilməsi üçün ikihakimiyyətliliyə son qoyulmalı idi. Real hakimiyyət Nadirin əlində olsa da, ölkədə III Şah Abbas və onun ətrafından ibarət başqa bir qüvvə mərkəzi də mövcud idi və həmin qüvvə mərkəzi ölkə əhalisinin böyük bir hissəsi tərəfindən qanuni hakimiyyətin mərkəzi kimi qəbul edilirdi.

Digər tərəfdən isə Nadir səfəvilər dövlətinə məxsus olan böyük ərazilərin demək olar ki, hər metrini öz qılıncının gücünə geri qaytarmışdı, ölkə və dövlət onun sərkərdəlik şücaətinin nəticəsində yenidən mövcudluq qazanmışdı. Bu isə sözsüz ki, Nadirdə öz gücünə qazandığı ərazilərdə mütləq hakimlik meylini daha da gücləndirirdi. Ona görə Nadir formal hakimiyyətinin qanuniləşdirilməsi üçün münasib anı əldən verməzdi.Dağıstan yürüşünün başa çatması isə həmin anı yetişdirdi.Nadir onu da yaxşı bilirdi ki, şahlığın ona təhvil verilməsinin əleyhdarları da mövcuddur. Lakin əldə edilən hər bir hərbi uğur bu əleyhdarların mövqeyini zəiflədirdi və qeyd edildiyi kimi, Qafqazın geri qaytarılması Osmanlı və Rusiya kimi qüdrətli dövlətlərin geri çəkilməyə məcbur edilməsi Nadirin nüfuzunu xeyli gücləndirdi.

C.Hanveyə görə, ölkə şahları Novruz bayramı ərəfəsində vilayət hakimlərini hüzuruna çağıraraq yerlərdə vəziyyətlə maraqlanır və onlara lazımi tapşırıqlar verirdilər. Nadir də yaxınlaşmaqda olan Novruz bayramı ərəfəsində belə bir tədbirin keçirilməsini və orada şahlıq taxtının taleyinin müzakirəyə çıxarılmasını münasib bildi (2). Bunun belə olub-olmadığını söyləmək çətindir.Amma məlum olan odur ki, Nadir hələ Dağıstan yürüşünü başa çatdırmamış bütün vilayətlərin hakimlərinə, əyanlarına, şəhər hakimlərinə, qazilərə, üləmalara, qoşun başçılarına, adlı-sanlı adamlara fərman göndərərək onları 1736-cı ilin yanvarına Muğan düzünə çağırdı (3).

Bu fərman göndərildikdən sonra Nadir, Secən qalasından hərəkət etdi və bir gün sonra Ağsuya çatdı. Orada da çox ləngiməyib Muğan düzünə yola düşdü.Onun qərarına əsasən, Muğan toplantısı indiki Azərbaycan Respublikası ərazisində, Kür və Araz çaylarının qovşağının qərbində, Cavad körpüsü deyilən yerdə keçirilməli idi (4). Nadirin keçirdiyi bu toplantı mənbələrdə "qurultay" kimi dəyərləndirilmişdir. Çox güman ki, Nadir vaxtilə türk tayfaları arasında rəvac tapmış qurultaylara aktual məsələnin kollektiv müzakirəsinin daha yaxşı for-

ması kimi baxmışdı. Amma nəyə görə belə mühüm bir tədbirin Muğan düzündə keçirildiyini söyləmək çətindir.“Tarix-e Cahanqoşa-ye Naderi”yə görə, Muğan düzünün qurultayın keçirilməsi yeri kimi seçilməsinə səbəb bu məntəqənin otlu-ələfli olması, su mənbələrinə yaxınlığı və ərazicə genişliyi olmuşdu (5).

Qurultayın keçiriləcəyi ərazinin seçilməsində məhz bu səbəblərin Nadir tərəfindən əsas götürüldüyünü bir mənalı şəkildə söyləmək çətindir.Maraqlıdır ki, şahlıq taxt-tacı məsələsinin həll edildiyi mühüm bir tədbir Məşhəddə, İsfahanda deyil, məhz Azərbaycan ərazisində keçirilmişdir. Ola bilsin ki, Nadir qurultayı Azərbaycan ərazisində keçirməklə Cənubi Qafqazın bir dəfəlik geri qaytarılmasını və ya özünün Azərbaycan türklərinə məxsusluğunu nümayiş etdirmək istəyirmiş. Təşkilatçılıq işinin daha asanlıqla aparılması, su mənbələrindən əlavə, ərzaq mənbələrinə yaxınlığı və  klimatın münasib olması baxımından digər əlverişli məkanlar da seçilə bilərdi. Bununla belə, hər halda Nadirin şahlıq taxtına yiyələnməsi və əfşarlar dövlətinin əsasını qoyması məhz Muğanda baş verdi.

Muğan qurultayının keçirilməsi üçün Kür və Araz çayları qovşağında çox böyük təşkilatçılıq işləri aparıldı. Bu qurultaya çoxlu sayda adam dəvət edildi.Ona görə Nadirin tapşırığı əsasında həmin məntəqədə 12 min çadır  quruldu. Qamışdan və çubuqlardan qurulmuş bu çadırlar qonaqlar, əyanlar və qoşun dəstələri üçün nəzərdə tutulmuşdu. Bunlardan əlavə, çadırlarda məscid, hamamlar, bazarlar və istirahət evləri də yaradılmışdı. Nadirin özü və hərəmxanası üçün isə xüsusi bir çadır qurulmuşdu (6).

Nadirin çadırı onun sifarişi əsasında Qəzvində hazırlanmışdı. Həmin çadırın 12 dirəyi var idi. Müşahidəçilərin fikrincə bu 12 dirək 12 imamın simvolu idi. Çadırın daxilində isə 7 ədəd kiçik dirək vasitəsilə daxili qübbə yaradılmışdı.Deyilənə görə daxili 7 ədəd kiçik dirək də Nadir üçün simvol mənasını verirdi. Çadır daxildən çoxlu sayda qiymətli daşlarla bəzədilmişdi.Çadır bir neçə sektora bölünmüşdü. Onlardan biri görüşlərin keçirilməsi, biri divanxana, biri yataq otağı, digərləri xanımlar üçün və s. nəzərdə tutulmuşdu. Şahidlərin ifadəsinə görə, çadırın uzunluğu 50, eni isə 15 zərr idi. Çadırın hər bir tirinin başına orta ölçülü qarpız böyüklüyündə gümüş kubok bərkidilmişdi. Qəbul otağında Nadirin oturması üçün üç taxt qoyulmuşdu. Onlar pərdələr vasitəsilə bir-birindən ayrılırdı. Əslində, bu çadır səyyar saray rolunu oynayırdı. Nadirin tapşırığı əsasında bu çadırı istənilən yerə aparmaq və onun daxili interyerinə lazımi dəyişiklik etmək mümkün idi (7).

Nadir 1736-cı il yanvarın 12-də Muğan düzünə gəlib çatdı. Onun ardınca isə dəvət etdiyi əyanlar, hakimlər, qoşun rəhbərləri və s. şəxslər Muğan düzünə axışmağa başladılar. Bu şəxslər arasında Nadirin qardaşı İbrahim xan, sərkərdəsi Təhmasib xan Cəlayir, Herat valisi Pir Məhəmməd xan, Mərv valisi Əbdülbaqi xan, mollabaşı və digərləri var idi. Nadirlə sülh danışıqları aparmalı olan Mosul hakimi Gəncəli paşa da Muğan düzünə gəldi. O həm qurultayda iştirak etməli, həm də sülh danışıqlarını davam etdirməli idi (8).

Nadirin qurultaya dəvət etdiyi adamların Muğan düzünə yetişməsi xeyli vaxt apardı. Bu müddət ərzində Nadir dövlət işlərini də yaddan çıxarmadı. O, hər gün divan çağırır, dövləti işlərlə bağlı qaldırılan məsələləri dinləyir, şikayətləri araşdırır və qərarlar qəbul edirdi.Divan işləri gündə ən azı 4 saat davam edirdi. Günün qalan hissəsinin müəyyən vaxtını Nadir yaxın əyanları ilə ünsiyyətdə və məclisdə keçirirdi (9).

Bütün dəvət olunanların toplanacağı vaxta qədər Nadir əyanlara ovla məşğul olmağa icazə verdi.Ovun uğurlu aparılması üçün o əmr etdi ki, Qarabağdan, Araz düzündən və ətraf məntəqələrdən ov heyvanları Muğan düzünə tərəf qovulsunlar. Bununla bağlı, yerli hakimlərə və əyanlara da göstərişlər verildi. Bildirildi ki, ov heyvanlarının Muğan düzünə tərəf qovulmasına laqeydlik göstərən adamlar ciddi cəzalandırılacaqlar. Bunun nəticəsi idi ki, Muğan qurultayının çağırılması ərəfəsində Muğan düzündə və ətraf bölgələrdə məskunlaşmış çoxlu sayda ceyran və ahu ovlandı (10).

“Aləm Ara-ye Naderi”yə görə, Nadir əyanları və hakimləri Muğan düzünə çağırsa da məqsədinin nə olduğunu heç kimə bəyan etməmişdi. Heç Nadirin özü üçün də aydın deyildi ki, şahlıq taxt-tacına yiyələnməsi üçün hansı vasitədən istifadə etmək lazımdır. Yəni, mənbənin məlumatından belə bir qənaətə gəlmək mümkündür ki, Nadir çoxlu sayda əyanları və hakimləri Muğan düzünə dəvət etsə də, özünün şah elan edilməsi barədə qəti qərara gələ bilməmişdi. Mənbədə bildirilir ki, bir gün Nadir Muğan düzündə qurduğu çadırında ona çox yaxın olan bir neçə əyanla gizli olaraq səltənətin gələcək taleyi barədə fikir mübadiləsi etdi. Nadir onlara apardığı döyüşləri, ölkədə mövcud olan iğtişaşları, fitnə-fəsadları aradan qaldırdığını, hazırda güclü bir padşaha ehtiyac olduğunu və özünün bu vəzifəyə daha yaxşı namizəd olduğunu xatırlatdı. Bununla bərabər, Nadir sərkərdələrin, tayfa başçılarının və əhalinin əksəriyyətinin şahlıq taxt-tacına Nadirin deyil, Səfəvi xanədanının nümayəndələrinin gətirilməsinə üstünlük verəcəyinə təşviş və nigarançılığını da gizlətmədi. Nadirə görə, bu halda onun

neçə illik zəhməti və xidmətləri qiymətləndirilməmmiş qala bilərdi (11).

Nadirin ətrafında olanlar onun iradəsinə qarşı kimsənin çıxa bilməyəcəyini bildirdilər. Nadirin isə cavabı belə oldu ki, sizin fikriniz bütün ölkənin fikri deyildir. Onun gümanınca, ölkədəki hakimlər, tayfa başçıları, qoşun rəhbərləri və əyanlar Nadirin və onu ətrafındakıların istəyini qəbul etməyərək Təhmasib Mirzəni və ya onun oğlu Abbas Mirzənin yenidən şah elan edə bilərdilər. Nigarançılığa və şübhələrə son qoymaq üçün Nadirin ən yaxın əyanlarından sayılan meyarbaşı Həsənəli xan təklif etdi ki, hazırkı real hakimiyyətə qanuni don geyindirilməsi üçün bütün vilayətlərə fərman göndərilsin, bütün hakimlər, əyanlar və tayfa başçıları Muğan düzünə çağırılsın və onlardan şahlıq taxt-tacının razılığı alınsın. Belə bir razılığın əldə edilməsi həm ölkə əyanlarını qane edər, həm də xalqın rəğbətinə səbəb olar .

"Aləm Ara-ye Naderi"yə görə, Nadirin razılıqla qarşıladığı bu təklif səslənəndən sonra Xorasandan Nadirin qardaşı İbrahim xanın və Təhmasibqulu xan Cəlayirin, Farsdan Məhəmmədəli xan və Tağı xanın, İsfahandan Əbülhəsən xanın, Həmədandan, Mazandarandan, Gilandan yerli hakimlərin çağırılması haqqında fərmanlar göndərildi (12).

Yerlərə çaparlar yola salınandan sonra Nadir vilayətlərdən 100 min dəst xələt yığılıb Muğan düşərgəsinə gətirilməsinə, 12 min ədəd zərlə və qiymətli daşlarla bəzədilmiş kəmərbəndlərin hazırlanmasına, böyük miqdarda bahalı parçaların toplanılıb gətirilməsinə göstəriş verdi.

"Aləm Ara-ye Naderi"yə görə, bu hazırlıq işlərinin aparılmasına bir aya yaxın vaxt sərf edildi. Göstərilən rəqəmlərin doğruluğu şübhə yaratsa da, Nadir həm taxta çıxması, həm Ramazan bayramının yaxınlaşması ilə bağlı çoxlu sayda hədiyyə paylamaqla iştirakçıların rəğbətini yəqin ki, daha çox qazanmaq istəyirdi. Adı çəkilən mənbədə Nadirin öz qardaşı İbrahim xanı çox böyük ehtiramla qarşıladığı, onu ən yaxşı çadırlardan birində yerləşdirdiyi, oğulları Rzaqulu Mirzə ilə Nəsrulla Mirzənin böyük əmilərinin əllərini öpmək şərəfinə nail olduqları bildirilir (13).

Muğan qurultayında Nadirin qardaşından, adları çəkilən iki oğlundan başqa kiçik oğlu İmamqulu da iştirak edirdi. Nadir bu qurultayın keçirilməsinə, qurultayda müzakirəyə çıxarılmalı olan məsələyə son dərəcə tarixi bir dəyər verirdi və ona görə ən yaxın adamlarını da öz ətrafına toplamışdı.

Nadir qurultayın təhlükəsizliyinin təmin edilməsinə də xüsusi diqqət yetirirdi. Nadirin yerləşdiyi və əhatəsində olduğu çadırlar 600 nə-

fər qapıçı və xüsusi mühafizəçilər tərəfindən qorunurdu. Bütünlükdə isə düşərgə nəsəğçılər dəstəsi tərəfindən mühafizə olunurdu. Düşərgənin ətrafına qoşun dəstələrinin çadırları yerləşdirilmişdi ki, onlar da öz növbəsində bir mühafizə kəməri təşkil edirdilər. Şahidlərin ifadəsinə görə, Nadirin xüsusi qarovul dəstəsindən 30 nəfər hər gün bir dəfə hündür səslə Nadirin qarşısında azan oxuyub namaz qılırdılar. Bundan sonra cəzayirçi qarovul dəstəsi Nadirin çadırından aralıda qamışdan çəkilmiş çəpərin içəri tərəfində iki və ya üç sırada dayanırdılar. Bu qarovul dəstəsinin sayı üç min nəfər idi. Cəzayirçilər uzun tüfənglərlə silahlanmışdılar. Mühafizə xətti üzrə sıraya düzüləndə onlar tüfəngin qundağını yerə dayayır və lülənin ucu havaya doğru istiqamətlənirdi. Bəzi vaxtlarda cəzayirçilər bu tüfənglərə əsa kimi dayaqlana bilirdilər. Nadirin mühafizəsində dayanan cəzayirçilərin bir hissəsinin barıt qabı gümüşdən, bir hissəsininki isə qızıldan idi. Cəzayirçilərin başında keçə papaq var idi. Bu cəzayirçi dəstəsi xarici görünüşü etibarilə adamda bir vahimə yaradırdı (14).

Tüfəngdarların arasında "çəndəvul" və "nəsəğçi" adlandırılan döyüşçülər də var idi. Çəndəvullar papaqlarına xoruz quyruğundan bir lələk, nəsəğçilərin rəisi isə xoruz quyruğundan üç lələk sancmışdılar. Əsgərlərin bir dəstəsi əllərində qızıl suyuna salınmış mis çomaq, digərləri isə uzunluğu bir metrdən çox olan təbərzin tutmuşdular. Çəndəvul və nəsəğçilərin hər birinin 300 nəfər olduğu bildirilir.

Nadirin əmri əsasında bir qoşun dəstəsi də yolların, keçidlərin və dərələrin mühafizəsinə təyin edilmişdi. Bu dəstə gecə vaxtı Nadirin qoşun dəstələrinin hərəkətini tənzimləyir, mühafizə işlərini öz üzərlərinə götürürdülər.

Nadirin düşərgəsində 6 min nəfərlik keşikçi dəstəsi var idi. Keşikçilər başlarına ağ dəstmalı elə sarıyırdılar ki, saçları görünməsin. Bu dəstə adi tüfənglərlə silahlanmışdı və onun üzvləri növbə ilə Nadirin çadırı ətrafında keşik çəkirdi. Gün ərzində keşikçi dəstəsindən 2 min nəfəri Nadirin keşiyində dayanırdı. Sonrakı gün isə bu qrup eyni saylı başqa bir qrupla əvəzlənirdi. Bu dəstələrin üzvləri adətən Nadirin müşahidə dairəsində olurdular.Nadir gün ərzində kimdən acıqlanıb onun cəzalandırılmasına əmr verərdisə, həmin əmr çəndəvul və nəsəğçilər tərəfindən həyata keçirilirdi.Cəzalandırılmalı olan şəxs dərhal tutulub yerə uzadılır, 5-6 nəfər isə onu kötəkləyirdi. Nadir dayanmaq əmri verməyincə kötəkləmə davam etdirilirdi (15).

"Aləm Ara-ye Naderi"yə görə, Nadir öz niyyətini bütün dəvət olunanlara açmazdan əvvəl qardaşı İbrahim xanın çadırında onunla məsləhətləşdi. Ona bildirdi ki, çox əziyyətlərə və məhrumiyyətlərə qatlaş-

malı olub və indi də istəyir ki, adına sikkə kəsdirsin və xütbə oxutsun. Bunlar o demək idi ki, Nadir şah olmaq istəyir. İbrahim xan Nadirin bu arzusuna öz narazılığını bildirdi. O, qardaşının nəzərinə çatdırdı ki, xeyli vaxt ərzində bu ölkənin şahlığı Şeyx Səfinin nəslinin əlində olmuşdur. Əhali də bu xanədanın şahlığını qəbul etmişdir. İki günlük dünya üçün bu nəslin övladlarının qəsdinə durmaq gələcəkdə bizim övladlarımızın da kimlərinsə qəsdinə düşməsinə yol aça bilər. Onsuz da ölkənin hakimliyi sənin iradənlə həyata keçirilir, böyük əraziləri qılıncınla fəth etmişsən və nə qədər hakimlər sənin qarşında diz çöküblər. İbrahim xan sözünün sonunda Nadirə bildirdi ki, dünyada özünə ad çıxarmışsan, indi də Təhmasib Mirzəni taxta çıxarsan özün də taxt-tac xilaskarı kimi yenidən məşhurlaşarsan (16).

Nadir qardaşının bu fikirləri ilə razılaşmadı və bir daha inandırmağa çalışdı ki, bu dünyada hakimiyyət heç də irsi verilmir. Bununla bağlı o, Şərq tarixindən çoxlu nümunələr gətirdi, hakimiyyətdə olan sülalələrin birinin digəri tərəfindən dəyişildiyini söylədi. O bildirdi ki, hətta islam peyğəmbərinin vəfatından sonra xilafət də əbədilik onun yaxınlarının və davamçılarının əlində qalmadı, başqa bir sülalənin əlinə keçdi.Nadirin sözlərinə görə, Səfəvi xanədanı da tarixin müəyyən dövründə hakimiyyəti başqa bir sülalənin əlindən aldı. İki yüz ildən artıq hakimiyyətdə olmasına baxmayaraq əfqanlar tərəfindən bu sülalənin də hakimiyyətinə son qoyuldu. İndiki halda hakimiyyəti ələ almasına Nadir təbii bir hal kimi baxırdı.

İbrahim xan görəndə ki, Nadiri artıq niyyətindən döndərmək mümkün deyil. onda öz xahişini onun diqqətinə çatdırdı. O, Təhmasib Mirzəyə toxunulmamasını və onun azadlığa buraxılmasını xahiş etdi. "Aləm Ara-ye Naderi"yə görə, Nadir İbrahim xana vəd verdi ki, Hindistanı və ətraf məmləkətləri ələ keçirəndən sonra hakimiyyəti Təhmasib Mirzənin ixtiyarına verəcək və onu yenidən şahlığa gətirəcəkdir (17).

1736-cı il fevralın ortalarında Ramazan bayramı yetişəndə Nadirin əzəmətli çadırının qərbində xüsusi bir köşk quruldu. Səhər açılandan yarım saat sonra Nadir çadırından çıxıb üzü şimala dayandı. Qardaşı, oğulları və qardaşı oğlu onun ətrafında öz yerlərini tutdular. Qurultaya gəlmiş olan digər xanlar da öz mövqe və nüfuzlarına uyğun olaraq müvafiq yerlərini tutdular.3 min cəzayirçi dairə şəklində özlərinin uzun tüfəngləri ilə, keşikçilər isə adi tüfəngləri ilə onlar üçün ayrılmış yerlərdə sıralandılar. Nəsəğçılərin qarşısında çavuşlar, arxasında isə çəndəvullar düzüldülər.Nadirin əmri ilə meydana bir neçə dəvə gətirildi. Həmin dəvələr Nadirin və toplananların qarşısında bir-biri ilə sava-

şa girdilər. Sonra pəhləvanlar onları meydanda əvəz etdilər. Bu nümayiş döyüşləri başa çatandan sonra toplananlara göstəriş verildi ki, öz məqamlarına uyğun olaraq bir daha Nadirin qarşısından keçsinlər və ona öz təzimini göstərsinlər (18).

Səhəri gün, yəni 1736-cı il fevralın 14-də Nadir və Muğan düzünə toplaşanlar Ramazan bayramını qeyd etdilər. Bununla bağlı, Nadir öz çadırında böyük bir qəbul düzəltdi. Qəbulda həm yerli nümayəndələr, həm Rusiya ilə Osmanlı dövlətinin nümayəndələri, həm də digər qonaqlar iştirak edirdilər. Şahidlərin ifadələrinə görə, bu mərasimin təhlükəsizliyini təmin etmək üçün 3 minlik cəzayirçi dəstəsi güllə məsafəsində Nadirin çadırı ətrafına düzülüb tüfənglərini çiyinlərinə almışdılar. Nadirin qəbul salonuna min nəfərə yaxın adam dəvət olunmuşdu. Kimlərin Nadirin qəbuluna dəvət ediləcəyi əvvəlcədən müəyyənləşdirilmişdi. Əvvəlcə Osmanlı səfiri Gəncəli paşa, onun ardınca Rusiya səfiri çadıra dəvət edilib yuxarı başda yerləşdirildi. Sonra siyahı üzrə dəvət olunanlar çadıra buraxıldı. Çadır daxilində hər bir dəvət olunan üçün xüsusi yer müəyyənləşdirilmişdi.Çadıra daxil olanlar təzim edib sakitcə öz yerlərini tuturdular. Çadırın yuxarı başında qurulmuş taxtlardan birində isə Nadir öz yerini tutdu. Nadirin sağ tərəfində Osmanlı səfiri, ondan aşağıda isə 7-8 xan öz yerini tutdu. Tiflis valisi, müsəlmanlığı qəbul etmiş Əli Mirzə də bu xanların arasına idi. Dəvət olunanlar arasında Əli Mirzə yeganə şəxs idi ki, Nadir kimi o da papağına ciqqə sancmışdı. Nadirin sol tərəfində isə qardaşı İbrahim xan, ondan sonra oğlu Rzaqulu Mirzə, sonra Nadirin qardaşı oğlu Əliqulu xan, sonra yenə oğlu Murtuzqulu (Nəsrulla Mirzə) öz yerlərini tutdular. Onlardan sona isə Rusiya səfiri və digər xanlar əyləşdilər. Çadırın hər kənarı boyunca iki uzun süfrə salınmışdı. Süfrələrin üzərinə qızıldan düzəldilmiş şərbət qabları qoyulmuşdu. Şərbət qablarının yanlarında üç ədəd böyük qızıl sinilər düzülmüşdü. Uzunluğu 1,5 metr olan sinilərin üzərində 7 ədəd bəzədilmiş camlar var idi. Nadirin əmri ilə fərraşlar dəvət olunanların xidmətində dayanmışdılar. Qonaqlara ilkin olaraq gülab paylandı. Məclis əhli sonra qızıl camlarda paylanan şərbətin də dadına baxdılar. Ardınca çadıra musiqiçilər dəvət olundular. 22 nəfərdən ibarət olan bu dəstə həm oxuyur, həm də oynayırdılar. Bir saata qədər çəkən musiqi məclisindən sonra qonaqlar öz çadırlarına dağılışdılar (19).

Belə bir təntənəli qəbulu düzəltməklə Nadir bir daha əzəmətini iştirakçılara nümayiş etdirdi və onlarda müvafiq ovqat yaratmağa çalışdı.

Səhəri gün qurultaya gələnlər Nadirin çadırından bir qədər aralı olan bir meydana dəvət olundular. Nadir tərəfindən təyin edilmiş 7

nəfər şəxs – Mirzə Məhəmməd, Mirzə Zəki, Təhmasibqulu xan Cəlayir, Həsənəli bəy müirbaşı, Əbdülqədir Mirzə Kaşani, Əliəkbər Mirzə Kaşani və Nadirin xəzinədarı meydana toplaşanlara Nadirin sözlərini çatdırmağa başladılar. Əvvəlcə carçılar və nəsəğçilərin vasitəsilə meydana toplaşanlar aid olduqları vilayətlər üzrə bölündülər və Nadir tərəfdən vəkil edilmiş şəxslər bu qruplarla ayrıca söhbətlər apardılar. Bu yolla Nadirin müraciəti qurultaya toplaşanlara çatdırıldı. Mənbələrdə və tarixi ədəbiyyatda Nadirin qurultay iştirakçılarının diqqətinə çatdırmaq istədiyi fikirlərin müxtəlif variantları mövcuddur. Bu variantlar arasında elə bir fərqlilik olmasa da, bəziləri bir-birindən ifadə və üslub baxımından müxtəlifdirlər.

Nadir tərəfindən vəkil olunmuş şəxslər qurultay iştirakçılarına çatdırdılar ki, Nadir Xorasana yollanıb Kelatda yaşamaq, qoşun başçılığından, hərbi yürüşlərdən əl çəkib ibadətlə məşğul olmaq fikrindədir. Nadir bildirirdi ki, indi padşah Təhmasib Mirzədir. Onun şahlığına tərəfdar olanlar Təhmasib Mirzəyə xəbər çatdırsınlar və onun qərarına uyğun hərəkət edilsin. Nadir onu da təklif edirdi ki, Təhmasib Mirzənin şahlığına tərəfdar olmayanlar Səfəvi xanədanının bir nümayəndəsini şahlığa gətirə bilərlər (20).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə isə Nadir qurultay iştirakçılarına göndərdiyi peyğamda qeyd edirdi ki, çalışıb bir neçə il ərzində vilayətləri əfqanların cəngindən xilas etdik, rusları və osmanlıları qovduq. O bildirirdi ki, həm Şah Təhmasib və həm də III Şah Abbas sağdırlar. Onlardan biri və ya başqa birisi səltənət hakimliyinə gətirilsin (21).

C.Hanveyə görə, Nadir özü toplantı iştirakçıları ilə danışdı və bildirdi ki, qurultayı çağırmaqda məqsədi fikirlərini qonaqlara çatdırmaqdır.Nadir Allahın köməyinə arxalanıb sabiq Səfəvi sərhədlərini bərpa etdiyini, əfqanlarla mübarizənin uğurla başa çatdırıldığını, osmanlılarla apardığı sülh danışıqlarının başa çatmaq üzrə olduğunu, Rusiya ilə sülh müqaviləsi bağlandığını və 14 il onların nəzarəti altında olan əraziləri geri qaytardığını bildirdi. Nadir onu da qeyd etdi ki,Qəndəhar istisna olmaqla digər ərazilər yenə dövlətin nəzarəti altındadır.Onun fikrincə, səltənət işlərinə yardım göstərilməsi və ölkənin əzəmətinin qorunması üçün yeni bir qoşun komandanına ehtiyac var idi. Nadir özünün bu işlərdən kənarlaşmaq, ömrünün qalan hissəsini istirahətdə keçirmək istədiyini söyləməklə yeni padşahın seçilməsi zərurətini də qurultay iştirakçılarının diqqətinə çatdırdı.C.Hanvey əsərində III Şah Abbasın ölmüş olduğunu qeyd edir. Ona görə də Nadirin müraciətində bir kimsənin və ya elə Təhmasib Mirzənin yenidən şah-

lıq taxtına gətirilməsi mümkünlüyünə toxunulurdu. Bu məsələlərə münasibət bildirilməsi və cavab verilməsi üçün üç gün vaxt ayrıldığı qeyd olunur (22).

Mənbələrdə də qurultay iştirakçılarına fikirləşmək üçün 3-4 gün möhlət verildiyi qeyd olunur. Bu 3-4 günlük möhlət heç şübhəsiz ki, ictimai fikrin öyrənilməsi və ona uyğun fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşdu. Həmin müddət ərzində sözsüz ki, nümayəndələr arasında fikir mübadiləsi aparıldı. Vəziyyəti reallıqla qiymətləndirənlər isə ortaya başqa təkliflərin atılmasının mənasız olduğunu anladılar.Çünki Nadirin qəzəbinə tuş gəlmək qorxusu onları fikir sərbəstliyindən çəkindirdi. Əslində, qurultaya toplananların böyük əksəriyyəti Nadir tərəfdən irəli çəkilmiş vilayət hakimləri, qoşun başçıları və sərkərdələri idilər. Eyni zamanda ölkədə real hakimiyyət hərbi elitanın əlində idi və bu elita da Nadir tərəfindən yetişdirilmişdi. Ona görə də özlüyündə Nadir tarixi hadisə olan bu qurultayın çağırılması, mahiyyət etibarilə formal razılığın əldə edilməsinə, ümumxalq qınağından yaxa qurtarılmasına hesablanmışdı. Ona görə verilən cavabların necə olacağını əvvəlcədən də müəyyən etmək olardı.Bunun nəticəsi kimi, qurultaya çağırılmış nümayəndələrin mütləq əksəriyyəti ölkənin şahlığına məhz Nadirin layiq olduğu fikrini irəli sürdülər.3-4 gün ərzində bu fikirlər təkrar-təkrar səsləndi və Nadirin şahlığa namizədliyi müdafiə olundu.

Bəzi tarixi ədəbiyyatın məlumatına görə, müzakirələrin aparıldığı günlər ərzində Nadirin də qurultay nümayəndələri ilə görüşləri oldu. Nadirin dövlət işlərindən uzaqlaşmaq haqqında söylədiyi bəyanatlar bu görüşlərdə müzakirə obyektinə çevrildi. Belə görüşlərin birində nümayəndələr Nadirin dövlət işlərindən uzaqlaşması fikri ilə razılaşmadıqlarını bildirdilər. Nadir deyəndə ki, ölkənin şahı şah nəslindən olmalıdır, onun qarşısındakılar yenə bu iddia ilə razılaşmadılar. Toplantı iştirakçıları bildirdilər ki, şahlıq Allahın əlindədir, kimə istəsə ona da verər, kimə də istəməzə verməz. Verilən məlumata görə, məsələnin müzakirəyə çıxarılmasını ciddi qəbul edənlər arasında Nadirin dəritikən İmamqulunun oğlu olduğunı və bunun üçün şahlığa yaramadığını iddia edənlər də tapıldı. Belələrinə Mirzə Rəhim Şeyxülislam İsfahani cavab verdi. Onun sözlərinə görə, Qurandakı ayələrin biri padşahlığın insanlara Allah tərəfindən verildiyini təsbit edir. Məliklərin, sultanların, peyğəmbərlərin və xəlifələrin çoxunun sənət və zəhmət adamları olduğuna işarə edən şeyxülislam fikrini əsaslandırmaq üçün Qurani-Kərimin Ənbiya surəsinin 80-ci ayəsinə istinad etdi. Amma onun yanındakıların heç də hamısı bu fikirləri dəstəkləmədilər.

Deyilənə görə, Nadir divar arxasından bu danışıqları eşidirmiş. Nadirin şahlığını dəstəkləyənlər mükafatlandırılır, ona əks çıxanlar isə qətlə yetirilir (23).

Müzakirələrin getdiyi günlərdə Nadirin görüşdüyü xanlar, əyanlar və tayfa başçıları səxavətlə Nadiri tərifləyir və bildirirdilər ki, bizim səndən başqa qibləmiz və kəbəmiz yoxdur, səndən başqa heç kəsin arxasınca getmərik, sənin yolunda mübarizə etmişik, mal və dövlətimizi sənin yolunda qurban vermişik (24).

"Aləm Ara-ye Naderi"yə görə, Nadirin şahlığa namizədliyi Muğan düzündə 4 gün 4 gecə müzakirə edildi. Bu günlər ərzində toplantı iştirakçılarına xüsusi xidmət göstərildi, meyli olanlara yetərincə şərab verildi və sonra da onların öz aralarındakı danışıqlarına göz qoyuldu. Mövcud olan məlumatlara görə, Mollabaşı Mirzə Əbülhəsən öz çadırında söyləyibmiş ki, Səfəvi sülaləsinə qəsd edənin bu dünyada axırı olmayacaqdır. Casuslar tərəfindən onun bu sözləri Nadirə çatdırılandan sonra onu asmaqla edam etdilər (25). Mənbələrdə göstərilir ki, onu Nadirin gözləri qarşısında asdılar. Deyilənin doğru olduğu təqdirdə çox güman ki, bununla digərlərinə də dərs verilməsi istənilirdi.

C.Hanveyin kitabında da mollabaşının Nadirin şahlığına qarşı çıxmasına görə edam edildiyi bildirilir. Ancaq həmin hadisə bu əsərdə bir qədər fərqli şəkildə təsvir olunur. C.Hanveyə görə, bu hadisə şah olmağa razılıq vermək üçün Nadir 3-cü şərtini, yəni şiəlik və sünnilik arasındakı ziddiyyəti aradan qaldırmaq təklifini irəli sürəndən sonra baş vermişdi. Həmin şərti açıqlayandan sonra mollabaşı öz narazılığını bildirir. Nadirin hüzuruna gətiriləndə mollabaşı deyir ki, Allaha necə itaət etmək yolunu insanlara və padşahlar göstərməyiblər. Bizim qanunlarımız Allah tərəfindən peyğəmbərə nazil olmuşdur ki, biz də ona riayət etməliyik. Məzhəb məsələlərində şübhəli görünün iddialar qəbul edilə bilməz. Onlar mömünlərin etirazı ilə qarşılaşa bilər. Mollabaşının bu sözlərinin camaatı etiraza təhrik edə biləcəyindən ona qarşı ciddi cəza həyata keçirilməsi qərarlaşdırıldı. Mollabaşı öz fikirlərini üləmalara qəbul etdirsəydi, onda Nadirin niyyəti baş tutmaya bilərdi. Ona görə digərlərinə dərs vermək üçün mollabaşı qətlə yetirildi. C.Hanveyə görə, mollabaşı güllələnməklə qətlə yetirildi (26).

Mövcud olan məlumatlara görə, Ziyadoğlu nəslindən olan Gəncə xanı, Otuz iki, Kəbirli və Cavanşir tayfalarının başçıları da Nadirin şah seçilməsini dəstəkləmədilər. Ona görə Nadir sonradan Gəncə xanını, adları çəkilən tayfaların başçılarını ailələri ilə birlikdə Xorasana sürgün etdi. Gəncə xanlarının daha ciddi cəzalandırılması məqsədilə

bu xanlığa daxil olan Borçalı və Qazax mahalları xanlıqdan qoparılıb Kartli hakiminin tabeliyinə verildi (27).

"Aləm Ara-ye Naderi"də Nadirin Baba xan Çapuşi ilə olan söhbəti də verilmişdir. Belə ki, Nadirin şahlığı məsələsinin müzakirəsi getdiyi günlərdə Nadir, Baba xan Çapuşini yanına çağırır və artıq qoşun başçılığından əl çəkərək ömrünün qalan hissəsini ibadətə həsr etmək niyyətində olduğunu bildirir. Baba xan isə Nadirin şahlıq niyyətində olduğunu bildiyi üçün ona bəyan etdi ki, mənsub olduğu əfşarlar soyunun 80 minlik ailəsi Nadirdən başqa kimsənin ölkə şahı seçilməsinə icazə verməz. O da təkrar etdi ki, bizim padşahımız da, qibləmiz də sənsən (28).

Məsləhətləşmələr aparılandan, qurultay iştirakçıları arasında fikir formalaşdırılandan sonra Nadir yenə Təhmasibqulu xan Cəlayiri Həsən xanın və Əhməd xanın nümayəndələri ilə görüşməyə göndərdi. Adları çəkilən xanlar əyanlara, xanlara, tayfa başçılarına çatdırmalı idilər ki, Nadirin şah olmasını xahiş edirsinizsə onun sərt hakimiyyətini qəbul etməli olacaqsınız. Çünki Nadir heç kimin günahlarını bağışlamayacaq, cinayətə yol verənləri dərhal qətlə yetirəcəkdir. Mənbədəki məlumatlara görə, toplantı iştirakçıları bu şərtləri qəbul etdilər və əslində onların başqa bir seçimi də yox idi. Bu bəyanatdan sonra toplantı iştirakçıları yenə də Nadirin şah seçilməsinə razılığın bildirdilər.

Belə olanda Nadir bir daha öz əyanları ilə görüşdü və onların nəzərinə aşağıdakıları çatdırdı. Nadir qeyd etdi ki, islam peyğəmbərindən sonra 4 xəlifə xilafətə başçılıq etmişdir. Hindistan, Rum və Türkistan xilafətin idarəsi altına düşmüşdü. İranda da əvvəlcə xilafət dövrünün məzhəbinə riayət olunurdu. Şah İsmayıl Səfəvi hakimiyyətə gəldikdən sonra əvvəlki məzhəbin yerinə şiə məzhəbi rəvac tapdı. Bu məzhəbin rəvac tapması ilə İran torpağında qanlar axıdıldı, fitnə-fəsadlar genişləndi. Həmin məzhəb qaldıqca fitnə-fəsad da yox olmayacaqdır. Nadir tələb etdi ki, əgər ölkə əhalisi onun şahlığına tərəfdardırsa, onda gərək şiə məzhəbi tərk edilsin və sünni məzhəbi qəbul edilsin. Ölkə əhalisi İmam Cəfər məzhəbi ilə tanışdırlar və bu məzhəb qəbul edilməlidir. Yəni, Nadir ölkə daxilində İmam Cəfər məzhəbinin yayılmasını və insanların da bu məzhəbi qəbul etməsini qurultay iştirakçılarından tələb edirdi (29).

Bundan sonra Nadir özünün vəkil etdiyi şəxsləri Təhmasib xan Cəlayirin rəhbərliyi altında yenidən toplantı iştirakçılarının arasına göndərdi. Onlar toplantı iştirakçılarına çatdırdılar ki, əgər siz Nadirin istirahətə yollanmasına əks çıxmaqla onun şah olmasını istəyirsinizsə,

Nadir də sizin istəyinizi üç şərt əsasında qəbul etməyə hazırdır. Birinci şərt belə idi ki, heç kim Şah Təhmasibi və onun övladlarını taxt-tac varisləri kimi qəbul etməsin. Səfəvi xanədanından kimsə meydana çıxsa, həmin şəxs zindana atılsın. Toplantı iştirakçıları yazılı şəkildə öz üzərlərinə öhdəlik götürməli idilər ki, bu şərti pozacaqları halda edam oluna bilərlər. Onda edam olunacaq şəxslərin əmlakı da müsadirə edilməli idi.

İkinci şərt ondan ibarət idi ki, şiə məzhəbinin əvəzinə sünni məzhəbinin qəbul edilməsi təklif olunurdu. Bundan sonra xəlifə Ömər və Osmana lənətlər oxunması dayandırılmalı idi. Çünki bu məsələ Osmanlı ilə Səfəvilər arasında müharibələrə və qan tökülməsinə səbəb olmuşdu. Baxmayaraq ki, Qurani-Kərimdə bu barədə heç nə yazılmamış və islam peyğəmbəri də ona işarə etməmişdir.Nadirin fikrincə məzhəb bölgüsünü cahil insanlar ortaya atmışdı və bununla da müsəlmanlar arasında qan axıdılmasına zəmin yaradılmışdı. Nadirə görə bundan sonra daha Osmanlı dövləti ilə müharibə aparılmamalı idi. Çünki hər iki ölkənin təbəələri eyni Qurana və peyğəmbərə inanırdılar. Nadir onu da əlavə edirdi ki, əgər namaz qılınan zaman sünnilər əllərini sinələri üzərində çarpazlayırlarsa və şiələr isə əksinə aşağı sallayırsa bu, düşmənçiliyə səbəb olmamalıdır. Sünni əhali Kəbəyə ziyarətə getmək istəyirsə onlara mane olunmamalıdır.Onlarla Həcc zəvvarları və qardaş kimi rəftar edilməlidir. Nadirə görə, şiələr də onlara qoşulub Kəbədə 4 rüknə əsasən qəbul edilmiş 4 mehrabın birində namaz qılmalı idilər.

Üçüncü şərt isə ondan ibarət idi ki, Nadirdən sonra ölkə taxt-tacına onun övladlarından biri və ya Nadir xanədanının nümayəndələrindən biri sahib çıxa bilərdi. Toplantı iştirakçıları Nadirin şahlığını istədikləri halda bu şərtləri qəbul etməli və bu şərtlərə sadiq qalacaqlarına and içməli idilər. Təhmasib xan Cəlayir bu şərtləri səsləndirəndə toplantı iştirakçıları yenə də öz razılıqlarını bildirdilər və bir daha Nadirin şah seçilməsini istədilər (30).

Toplantı iştirakçılarının razılıq qərarı bir daha Nadirin diqqətinə çatdırıldı.Bununla, Muğan qurultayı yekdil şəkildə Nadirin şah olmasına razılıq bildirdi. 1736-cı il fevral ayının 17-də Nadir toplantı iştirakçıları ilə görüşdü, sonra Nadir tərəfindən təşkil edilmiş ziyafətə bir sıra xanlar, vilayət hakimləri, tayfa başçıları dəvət edildilər. Baxmayaraq ki, toplantı iştirakçılarının Nadirin şah olmasına ümumi razılığı əldə edilmişdi, ziyafət zamanı Nadir yenə başqasının şah seçilməsi barədə fikir söylədi. Onun fikrincə, şahlığa elə bir adam seçilməli idi ki, onu seçənlərə və məmləkətə layiq olmalı idi. O bir daha təkrar etdi

ki, sərbəst olmaq, Xorasana qayıtmaq, öz qalasında bir guşəyə çəkilib ibadətlə məşğul olmaq niyyətindədir.Çünki dediyinə görə, onun qoşunlara rəhbərlik etməyə artıq gücü qalmamışdı. Verilən məlumata görə, xanlar və bəylər bir daha israr etdikdən sonra Nadir məmləkəti və milləti ilə birgə olmağa razılıq verdi. Bundan sonra Nadir bir də həmin məsələyə qayıtdı və bildirdi ki, sərkərdəliyi dövründə çox insanları incidib, çoxlarının qanını tökməyə, əmlakını müsadirə etməyə məcbur olub. Ondan narazı qalanlar çoxdur və həmin şəxslər Nadirin şahlığına razı olmazlar. Belə olanda ziyafət iştirakçıları Nadirin vəziyyətini başa düşdüklərini, ölkənin yadellilərdən azad edilməsi üçün müharibələr aparıldığı bir vaxtda Nadirin söylədiyi halların məcburi və təbii olduğunu anlatdılar (31).

Bununla, Nadir görünür, intizarında olduğu bütün cavabları toplantı iştirakçılarından aldı və toplantı iştirakçıları tərəfindən hakimiyyətin Səfəvi nümayəndəsinə deyil, ona verilməsi haqqında yekdil fikrin ifadəsinə nail oldu. Amma həqiqətdə Nadir bununla da kifayətlənmədi.Toplantı iştirakçıları arasında aparılan işlərin nəticəsi kimi bütün formal və şifahi razılıqlar əldə edildikdən sonra Nadir deyilənlərin hamısının yazılı şəkildə ifadə olunması və toplantı iştirakçıları tərəfindən imzalanması tələbini irəli sürdü. Mənbələrdə Muğan qurultayının nümayəndələri tərəfindən imzalanmış bu sənəd "Məhzərnamə" (iştirak sənədi) və ya "Vəsiqənamə" kimi xatırlanır. Nadir qurultay iştirakçılarına bu barədəki tələbini belə çatdırdı: Əgər onlar mənim şahlığımı istəyirlərsə "Məzhərnamə" hazırlayıb imza etsinlər. Bundan sonra Nadir qurultay iştirakçılarının tələbini qəbul etməyə hazır olduğunu bildirdi (32).

Toplantı iştirakçıları bu tələbə də razı oldular. Belə olanda divan mirzələrinə və münşilərinə göstəriş verildi ki, Muğan qurultayının iştirakçılarının yeni şah seçilməsi ilə bağlı yazılı razılığını bildirən Vəsiqənamənin mətnini hazırlasınlar. Qısa zaman ərzində həmin Vəsiqənamənin mətni hazırlandı və qurultay iştirakçılarının imzalanmasına və möhürləməsinə verildi. Qurultayda iştirak edən xanlar, soltanlar, tayfa başçıları, əyanlar, kələntərlər, mirzələr, müstövfilər, din xadimləri bu Vəsiqənaməni imzalayıb şəxsi möhürlərini vurdular. Əvvəlcə Vəsiqənaməni Xorasan, Herat, Məşhəd və Mazandaran nümayəndələri imzalayıb möhürlədilər. Sonra növbə Azərbaycan və digər əyalətlərinə nümayəndələrinə çatdı. Mövcud olan məlumata görə, Vəsiqənamənin imzalanması və möhürlənməsi üç gün davam etdi (33).

Muğan qurultayının iştirakçıları tərəfindən imzalanmış Vəsiqənaməni Nadirin münşisi və "Tarix-e Cahanqoşa-ye Naderi" əsərinin mü-

əllifi Mirzə Məhəmməd xan Astrabadi tərəfindən yazıldığı ehtimal olunur və onun əsli müəyyən hissələri istisna olmaqla hazırda Məşhəddə saxlanmaqdadır. Vəsiqənamənin əvvəlində mətn daha çox zədələnmişdir. Vəsiqənamədə ölkə daxilində iğtişaşların, özbaşınalıqların və parçalanmanın geniş vüsət tapdığına işarə olunur. O cümlədən, ləzgilərin Şirvanı tutması, əfqanların İraqı, Farsı, İsfahanı, Məlik Mahmudun isə Xorasanı tutması, Osmanlı qüvvələrinin də Azərbaycanı, Kermanşahı, Həmədanı və nəhayət Rusiyanın bəzi əraziləri (mətnin zədələnməsi üzündən oxunmur) tutması xatırlanır. Bütün bunların nəticəsində ölkə ərazisində mürəkkəb şəraiti bərqərar olduğu və həmin şəraitdən yalnız Xorasanda, əfşarlar arasına günəş kimi şəfəq saçan Nadirin şücaəti ilə çıxmaq mümkün olduğu vurğulanır. Vəsiqənamədə qeyd olunur ki, Allah tərəfindən təsdiqlənən qüvvələri ilə Nadir əvvəlcə Xorasanı işğaldan azad etdi, sonra İsfahana doğru irəlilədi, əfqanların işğalı altında olan əraziləri və rusların işğalı altında olan Gilanı azad etdi. Bununla da, Nadir ölkəni parçalamaq istəyənləri, ona qarşı çıxanları və düşmənlərini susdurdu. Nəticədə ölkədə bütün işlər nizama düşdü. Bundan sonra bütün ölkə əhalisini – alimi, cahili, böyüyü, kiçiyi, taciki, türkü Muğan düzünə toplayıb onlardan Kelat və Əbivərdə dönməsinə izn istədi və bəyan etdi ki, səfəvilər sülaləsindən və ya başqa təbəələrdən bir kimsə ölkənin şahlığına gətirilsin. Vəsiqənamədə sonra yazılmışdı ki, ölkə əhli Səfəvi dövründə çox çətinliklərlə qarşılaşdığı, torpaqlarının düşmən əlinə keçməsinin şahidi olduğu, ölkənin parçalandığını gördüyü üçün Nadirin ətəyindən yapışıb onu guşəneşin olmaq fikrindən döndərməyə nail oldular. Nadir də mərhəmət göstərərək kənara çəkilmək fikrindən daşındı. Əhali Nadiri ölkənin şahı seçdi. Mətnin qüsurlu olan sonrakı sətirlərində Cəfəri təriqəti xatırlanır və toplantı iştirakçılarının öz imzaları ilə əhdlərinə sadiq qalmaları fikri anlaşılır (34).

Vəsiqənamənin mətninin altında möhürlə təsdiqlənmiş 42 imza vardır. Bu möhürlər kiçik ölçüdə olub kvadrat, oval və uzadılmış formadadır. Vəsiqənamədə möhürlə təsdiqlənmiş imzalardan aşağıdakıları oxumaq mümkündür: Qulu xan Qırxlı Əfşar, Lüfəli bəy Kosaəhmədli Əfşar, Baba xan Çapuşi, Araz Soltan Qarabaşlı, Şeyx Abdulla Dərgəzi, Mirzə Kələntər Dərun, İbrahim bəy Ustaclı, Astrabad bəylərbəyi Məhəmmədqulu xan Qacar, Məhəmmədəli bəy Şambayatı, İbrahim bəy İrəvani, səhra miraxurbaşısı Canməhəmməd xan Qacar, Mürşidəli bəy Vəkil Gəraylı, Məhəmməd Rza Zəngənə (35).

Vəsiqənamə imzalanandan sonra münəccimlər toplaşıb Nadirin taxta çıxması vaxtını müəyyənləşdirdilər. Onların qərarına görə,

Nadirin şahlıq taxtına çıxması üçün ən münasib vaxt hicri-qəmər tarixi ilə 24 şəvval 1148-ci il (8 mart 1736-cı il) idi. Nadir bu məsləhətlə razılaşdı və münəccimlərin müəyyənləşdirdiyi tarixdə onun tac qoyma mərasimi keçirildi. Həmin mərasim göstərilən tarixdə, səhər saat 7.20-də başladı.Mərasim Nadirin çadırının qəbul salonunda aparıldı. Muğan düzünü tərk etməmiş adlı-sanlı xanlar, əyanlar və hakimlər mərasimdə iştirak etdilər. Nadirin başına qoyulan qızıl tac qiymətli daşqaşlarla bəzədilmişdi.Tacın Nadirin başına qoyulması anında mərasim iştirakçıları dua edirdilər. Qızıl Tac Mirzə Zəki tərəfindən Nadirin başına qoyuldu. Taca şahlıq ciqqəsi də bərkidilmişdi. Əvvəlki şahların ciqqəsi papağın sol tərəfində olurdusa, Nadirin ciqqəsi sağ tərəfdə idi. Müşahidəçilər buna da xüsusi məna verdilər. Güman edilir ki, Nadir bununla şahlıq ciqqəsi üçün mübarizə apardığını və apardığı mübarizə ilə ciqqənin yerini dəyişmək ixtiyarını əldə etdiyini bildirmək istəyirdi.Tacqoyma mərasimi zamanı Qəzvin mollabaşısı Mirzə Əsgər xütbə oxudu.Quranın Fatihə surəsi oxunanda mərasim iştirakçıları səcdə edib başlarını yerə toxundurdular. Bu surənin oxunmasından sonra iştirakçılar məqamlarına görə öz yerlərini tutdular. Fərraşlar iştirakçılara şərbət və şirini payladılar. Şərbət qabı qızıldan düzəldilmiş mizin üzərin qoyulmuşdu. Bu miz Hələb ustalarının işi olmaqla 1,5 metr uzunluğa malik idi.Mizin üstündə digər qiymətli qablar var idi. Mərasimin sonunda isə iştirakçılar yeni şahın qarşısında təzim edib çadırdan çıxdılar (36).

Mərasim iştirakçıları dağılandan sonra Nadir şah ən yaxın adamları üçün kiçik ziyafət məclisi qurdu. Bu məclisdə onun qardaşı İbrahim xan, qardaşı oğlu Əliqulu bəy, Nadirin ortancıl oğlu Murtuzqulu Mirzə (Nəsrulla Mirzə), Mirzə Zəki, Təhmasib xan Cəlayir, müirbaşı və bir neçə digər şəxslər iştirak edirdilər. Məclisə gətirilmiş musiqiçilər və rəqqaslar yarım saat çalıb-oynadılar. Bundan sonra Nadir tacı götürüb həmişə işlətdiyi papağını başına qoydu (37).

Tacqoyma mərasiminin keçirildiyi gün hakimlər, soltanlar, sərkərdələr, tayfa başçıları, ağsaqqallar, kəndxudalar, minbaşılar, yüzbaşılar, əllibaşılar, onbaşılar, yasavullar və xidmətçilər qiymətli xələtlərə layiq görüldülər. Mənbələrə görə, həmin gün dövlət xəzinəsinin qapıları da açıldı, uzaq vilayətlərdən gələnlərə hədiyyələr paylandı. Nadirin taxta çıxması ilə bağlı sikkə vuruldu. Sikkənin üzərində belə bir beyt yazılmışdı:

Sekkə bər zər kərd nam-e səltənət-e Nader cəhan
Şah-e din, Naderquli, İskəndər sahebqəran (38).
( Sikkə üzərində zərləndi cahan Nadirinin səltənəti

Nadirqulu dinin şahı, dünyanın İsgəndəri)

"Aləm Ara-ye Naderi"də ikinci misra belədir:

Nader-e İran zəmin və xosrov-e gitistan (39).

( İran torpağının Nadiri və dünyanın xosrovu)

Tacqoyma mərasimindən sonra "Vəkilüddövlə", "Nayibüssəltənə", "Vəlinemət" ləqəbləri Nadirin üzərindən götürüldü və o, bütün ölkədə "Nadir şah" kimi tanındı.Tac qoyma mərasimindən sonra şənliklər daha üç gün davam etdi. Mövcud olan məlumata görə, Nadir taxtdan saldığı Abbas Mirzəni Xorasana, atası Təhmasib Mirzənin yanına göndərdi və sonradan Təhmasib Mirzə ailəsi ilə öldürüləndə o da qətlə yetirildi (40).

Tacqoyma mərasimi ərəfəsində Nadir Osmanlı dövləti ilə sülh müzakirələrinin aparılmasını da davam etdirdi. Bu müqaviləyə Nadir böyük əhəmiyyət verirdi. Onun bağlanması ilə Nadir bir tərəfdən ölkənin qərbində və Cənubi Qafqazda əldə etdiklərini rəsmiləşdirməyə çalışırdı, digər tərəfdən də Osmanlı sarayı ilə daha yaxın münasibətlər qurmaq istəyirdi. Muğan qurultayının iştirakçıları qarşısında sünni məzhəbinə qarşı münasibətin dəyişdirilməsi tələbinin irəli sürülməsi də Osmanlı dövləti və bütünlükdə müsəlman aləmi ilə münasibətlərin daha isti qurulmasına imkan verə bilərdi. Müşahidəçilərin və tarixçilərin bir çoxunun o qədər də real görünməyən fikirlərinə əsasən, sünni məsələsini gündəmə gətirməklə Nadirin gələcəkdə İstanbula hücum etmək, bütünlükdə isə islam xəlifəliyinə sahib çıxmaq istəyirdi. Şiə məzhəbinin təmsilçisi olmaqla isə ehtimal edilir ki, islam xilafətinə sahib çıxmaq asan olmazdı. Digər bir sıra müşahidəçilərin fikrincə isə Nadir Hindistana hücum ərəfəsində Osmanlı dövləti tərəfindən mövcud ola biləcək təhdidləri aradan qaldırmaq istəyirdi. Osmanlı dövləti ilə daha isti münasibət Nadirin əldə etdiyi əraziləri qoruyub saxlamağa imkan verərdi. Ona görə də müqavilə bağladığı Rusiyanı qıcıqlandırsa belə, Nadir Osmanlı dövləti ilə yaxınlaşmaya və onunla müqavilə bağlanmasına meylli idi.

Nadir Osmanlı dövləti ilə müqavilə bağlanmasını Muğan qurultayının nümayəndələri ilə də müzakirəyə çıxardı. Onun təkidi ilə qərara alındı ki, müqəddəs məkanların xadimi və Osmanlı dövlətinin sultanının yanına elçi göndərilsin. İki dövlət arasındakı ixtilafların həlli məqsədilə beş şərtdən ibarət müqavilə müzakirəyə çıxarılsın. Osmanlı səfiri Gəncəli paşanın müşayiəti ilə Nadirin İstanbula yola düşən yeni səfiri Əbdülbaqi xan Osmanlı sarayına aşağıdakı beş şərti çatdırmalı idi:

1.İranlılar özlərinin əvvəlki şiə məzhəbindən əl çəkirlər və sünniliyin yeni qolu olan İmam Cəfər qolunu seçirlər;
2.Kəbədə islamın dörd məzhəbinin mehrabı olduğu üçün təklif olunurdu ki, İmam Cəfər məzhəbi üçün də beşinci mehrab yaradılsın və Cəfəri davamçıları da Məscidi Haramda namaz qıla bilsinlər;
3.Hər il Məkkəyə yollanan İran zəvvarları üçün Həcc karvanlarının əmiri təyin edilsin və iranlı zəvvar karvanlarının əmirinin səlahiyyəti Misir və Şam karvanları əmirlərinin səlahiyyətinə bərabər tutulsun;
4.Hər iki tərəfdə saxlanılan əsirlər azad edilsinlər, həmin əsirlərin satılmasına və alınmasına imkan verilməsin;
5.Hər iki dövlətin digər dövlətin paytaxtında nümayəndə heyəti (vəkilliyi) təsis edilsin (41).

Qurultay iştirakçılarının bildirdiyinə görə, Osmanlı sarayının elçisi ilə Nadirin yeni səfiri olan Əbdülbaqi xan 1736-cı il mart ayının 6-da İstanbula doğru hərəkətə başladılar. Əbdülbaqi xan təklif edilən müqavilə layihəsinin müzakirəsi ilə bərabər, Osmanlı sultanına Nadirin taxta çıxması xəbərini də çatdırmalı idi. Əbdülbaqi xan müqavilə imzalamağa səlahiyyətli olduğunu da Osmanlı sarayına bəyan etməli idi. Onu bir neçə nəfərdən ibarət nümayəndə heyəti müşayiət edirdi. Bu nümayəndə heyətinə Mirzə Əbülqasim Kaşani, yeni baş molla olan Əli Əkbər də daxil idi. Nümayəndə heyəti sultana Nadir şahın məktubunu çatdırandan sonra Cəfəri məzhəbinin mahiyyəti haqqında da ona məlumat verdi. Nümayəndə heyətində din xadiminin olması da Cəfəri məzhəbi ilə əlaqədar yarana biləcək suallara cavab verilməsi ilə bağlı idi (42).

Muğan düzündə olduğu vaxtlarda Nadir şah bir müddət dövləti işlərin tənzimlənməsi ilə məşğul oldu. Dövlət idarəçiliyinin etibarlı qurulması üçün Nadir şah yuxarı eşelonlarda bir sıra dəyişiklik etdi. Əvvəlki şahların dövründə mövcud olan sədr-əzəm və ya etimadüddövlə (baş vəzir) vəzifəsinə, habelə eşikağası, qullarağası və qorçubaşı vəzifələrinə təyinatı dayandırdı. Görünür, bununla Nadir şah mərkəzi hakimiyyəti daha da möhkəmləndirmək istəyirdi. Eyni zamanda o, Muğanda olarkən bir sıra mühüm təyinatlar da apardı. Qardaşı İbrahim xanı Azərbaycan sipəhsaları vəzifəsinə təyin etdi. Nadir şahın fikrincə, Azərbaycan bir tərədən Osmanlı dövləti ilə təmas xəttində yerləşirdi, bir tərəfdən də Rusiyanın təhdidləri altında idi. Belə ciddi qonşularla həmsərhəd olan Azərbaycanın idarə edilməsini özünə daha etibarlı saydığı İbrahim xana tapşırdı. Bütün Azərbaycan, Cənubi Qafqaz, habelə Dağıstan əraziləri İbrahim xanın tabeliyinə verildi. Həmin ərazilərə daxil olan məntəqələrin hakimləri də İbrahim xana tabe

olmalı idi. Mərv qullarağası Məhəmməd Mömün bəy İbrahim xanın müavini təyin edildi. Məhəmməd Mömün bəy yaşlı və təcrübəli bir şəxs idi və Nadir inanırdı ki, onun təcrübəsi İbrahim xanın işlərini daha da yüngülləşdirə bilər. Nadir böyük oğlu Rzaqulu Mirzəni Xorasan hakimi təyin etdi. Herat hakimi vəzifəsinə Nadir tərəfdən Pir Məhəmməd xan Çapuşlu, Şiraz hakimi vəzifəsinə Mirzə Məhəmməd Tağı, Şirvan hakimi vəzifəsinə zənburəkçi yüzbaşısı Mehdi bəy Xorasani təyin edildilər. Yeni vəzifə alanlar içərisində Səfi xan Bəğayiri də var idi. Nadir şah onu Gürcüstan hakimi təyin etdi (43).

1736-cı il aprel ayının ortalarında Nadir şah Muğan düzünü tərk etdi və Qəzvinə doğru istiqamət götürdü.

## 2. Qəndəharın ələ keçirilməsi

Nadir özünü şah elan etsə də keçmiş Səfəvi hüdudlarına hələ tamamilə sahib ola bilməmişdi. Şahlığa çatması isə onu heç də bütün Səfəvi hüdudlarına sahib olmaq və hətta fatehlik müharibələri aparmaq fikrindən çəkindirməmişdi. Əksinə, ölkənin mütləq hakiminə çevrilməsi dövlətin bütün potensialının hərbi planlarının daha yaxşı həyata keçirilməsinə daha mükəmməl şəkildə səfərbər etmək imkanı qazandırdı. Muğan düzündə çox ciddi bir məsələnin həlli ilə məşğul olduğu vaxtda da Nadir Qəndəhara yürüş etmək planını götür-qoy edir, bu yürüşün təfərrüatını sərkərdələri ilə məsləhətləşirdi. Nəhayət, Muğan düzündəki mərasimlər və qonaqlıqlar başa çatandan sonra Nadir Qəzvinə üz tutdu. Arxada qoyduğu təntənəli və dəbdəbəli mərasimlərdən sonra onun diqqət mərkəzində olan başlıca məsələ Qəndəharın ələ keçirilməsi və Hindistana yürüşün hazırlanması idi.

Qəzvində olduğu vaxt bir neçə məsələ Nadir şahın diqqətini cəlb etdi.Bunlardan biri Rusiya ilə Osmanlı dövləti arasında yeni münasibətlərin formalaşması idi. Qeyd etmək lazımdır ki, Nadir şahın Osmanlı dövləti ilə anlaşma imzalaması və onun Osmanlı dövlətinə yaxınlaşmaq meyli Rusiya tərəfindən rəğbətlə qarşılanmırdı. Rusiya Nadir şahı öz müttəfiqi görmək istəyirdi və güman edirdi ki, Osmanlı dövlətinə qarşı müharibə başlansa Nadir şah da Osmanlı dövlətinə qarşı müharibəyə girəcəkdir. Amma Rusiya ümidində olduğu münasibəti Nadir şah tərəfindən görmədi. 1736-cı il mayın 28-də Rusiya Azov ətrafında Türkiyəyə müharibə elan etdi. Belə bir vaxtda Nadir şah Osmanlı dövlətinə qarşı müharibə elan etmədi. Əksinə, ola bilsin ki, bu iki dövlətin müharibəyə girməsi Nadir şahın ölkənin şimal və şimal-qərb sərhədləri ilə bağlı olan nigarançılıqlarını aradan qaldırdı.

Belə bir vəziyyətdə  Osmanlı dövləti Nadir şaha qarşı müharibə başlamazdı. Bu isə Nadir şaha Qəndəhara, oradan isə Hindistana planlaşdırdığı yürüşləri rahatlıqla başa çatdırmağa imkan verərdi.

Nadir şahın Qəzvində olarkən diqqətini çəkən məsələlərdən biri də Bəhreynin geri qaytarılması məsələsi idi. Səfəvilər dövründə Bəhreyn də bu dövlətin hüdudları daxilində idi. Amma Şah Sultan Hüseynin zəifliyi onun şahlığı dövründə Şeyx Cabbar tərəfindən Bəhreynin Səfəvi hüdudlarından qoparılmasına imkan verdi. Nadir şah, Məhəmməd Tağı xanı Fars bəylərbəyi təyin edəndən sonra Bəhreynin yenidən geri qaytarılmasını ona tapşırdı. Bu zaman Bəhreyn hakimi Şeyx Cabbar Məkkəyə ziyarətə yollanmışdı.Onun səfərdə olması Bəhreynə qarşı uğurlu əməliyyat keçirilməsinə zəmin yaratdı. Bəhreynin ələ keçirilməsi əməliyyatına rəhbərlik bir başa dəryabəyi Lətif  xana həvalə edildi. Mart və aprel ayları ərzində keçirildiyi güman edilən əməliyyat zamanı Bəhreyn qarnizonu müqavimət göstərsə də Lətif xanın təşkil etdiyi hücumun qarşısını saxlamaq mümkün olmadı.Lətif xan Bəhreyn qalasının açarlarını Fars bəylərbəyi Məhəmməd Tağı xana, o isə Qəzvində olan Nadir şaha göndərdi. Nadir şahın əmri ilə Bəhreyn də Fars bəylərbəyliyinin tərkibinə daxil edildi (44).

Nadir şahın diqqətini cəlb edən və təşvişinə səbəb olan digər məsələ isə Əlimuradın rəhbərliyi altında bəxtiyari tayfasının dövlətə qarşı qiyam qaldırması idi. Nadirin bütün Səfəvi hüdudlarını bərpa etməyə, hətta fatehlik yürüşləri fikrinə düşdüyü bir vaxtda Əlimuradın itaətsizlik etməsi, dövlətə tabeçilikdən çıxması şübhəsiz ki, Nadir şahı razı sala bilməzdi. Xüsusilə, Qəndəhara doğru səfərə hazırlaşdığı bir vaxtda belə bir hadisəni diqqətdən kənarda qoya bilməzdi.

Mənbələrdə Əlimurad kifayət qədər cavan və istedadlı bir hərbçi kimi təsvir olunur. O, könüllü şəkildə Nadirə qoşulub onun hərbi yürüşlərində iştirak edirdi. Mövcud olan məlumata görə, Nadir onu onbaşı vəzifəsinə və onunla oxşar səviyyədə olan digərlərini isə daha yüksək vəzifələrə təyin etmişdi. Əlimurad bundan qəzəblənmiş və həmin vaxtdan da onun qəlbində Nadirə qarşı ədavət toxumu cücərməyə başlamışdı. Osmanlı sərkərdəsi Abdulla paşanın Azərbaycana və İrəvan istiqamətinə hərəkəti zamanı Əlimurad özünü onun xəzinəsinə yetirb  xeyli vəsait ələ keçirə bildi. Əlimuradın icazəsiz olaraq belə bir iş görməsi onunla yüzbaşı arasında ixtilaflara səbəb oldu. Həmin ixtilaf Əlimuradın Nadir qoşunlarından uzaqlaşmasına bir təkan oldu və o belə də etdi. Amma Nadir qoşunlarını tərk etməzdən əvvəl o öz döyüşçü yoldaşları arasında təbliğat aparıb onları da ona qoşulmağa çağırdı. Əlimurad vəd edirdi ki, bəxtiyari dağlarına qayıdan kimi 20

minlik bir qoşun toplayacaq, İsfahana hücum edib oranı tutacaq. Onun bu təbliğatı müəyyən adamlar tərəfindən ciddi qarşılandı və mənbələrə görə o, Nadirin qoşununu 300-400 nəfərlik bir dəstə ilə tərk etdi (45).

Əlimurad öz yurduna yetişəndən sonra mənsub olduğu Çaharləng camaatını, habelə Həftləng camaatını və lurları öz ətrafına toplaya bildi.Nadirin Qafqaz yürüşü zamanı yaratdığı dəstə ilə Əlimurad ətraf məntəqələri soyub talan etməyə başladı. Nadir, Babaxan Çapuşinin rəhbərliyi altında ona qarşı bir dəstə göndərdi. Babaxan Çapuşi Əlimuradın dəstəsinə ağır zərbə vurdu. Qiyamçıların sərkərdəsi qaçmaqla canını ölümdən qurtara bildi. Güman edilirdi ki, bununla bəxtiyarilərin qiyamına son qoyulacaq. Amma belə olmadı. Münasib fürsət əldə edən kimi Əlimurad yenidən dəstə toplayıb Nadirə qarşı qiyam qaldırdı.Qafqaz yürüşünü hələ başa çatdırmamış Nadir bu dəfə onun üstünə əfşar sərkərdələri olan Soltanəli bəy və Nəcəfqulu bəyin rəhbərliyi altında başqa bir dəstə göndərdi. Şüştər hakimi ilə Kəhkeləviyə hakiminin müavini (nayibi) də Əlimurada qarşı vuruşmaq əmri aldı. Əlimurad bu dəfə müqavimət göstərməyə daha yaxşı hazırlaşdığından Nadirin göndərdiyi qüvvələr verilən tapşırığı yerinə yetirə bilmədilər. Əl çatmaz dağların yüksəkliyində mövqe tutması və sığnaq qurması Əlimuradın müdafiə imkanını xeyli artırdı və o, Nadirin qüvvələrini geri çəkilməyə məcbur etdi (46).

Görünür bu kiçik uğuru Əlimuradı artıq şah elan olunmuş Nadir şaha qarşı qiyamı davam etdirməyə ruhlandırdı. Əvvəla, Əlimurad dəstəsinin sayını 20 min nəfərə çatdırdı. Ətrafına böyük silahlı dəstə toplayanda Əlimurad hətta padşah olmaq xülyasına düşdü. Çaharləng və Həftləng camaatını, habelə özünə müttəfiq etdiyi lurların ağsaqqallarını bir gün başına toplayıb onlarla məsləhətləşdi. Əlimurad bildirdi ki, əgər özünü padşah elan etsə, adına sikkə vurdurub xütbə oxutsa, İraqın, Farsın, Həmədanın Səfəvi meylli sərkərdələri də ona qoşularlar və onlarla birlikdə Nadir şah dövlətini məhv etdikdən sonra Xorasana üz tutar və orada Təhmasib Mirzəni yenidən şah elan edər. Əlimuradın arzuları bununla bitmirdi.Onun xəyalları belə idi ki, Təhmasib Mirzə şahlığa bərpa olunandan sonra İraq və Xorasana hakimlik etməsi bəsidir. Əlimurad özü isə Həmədan, Fars və Kerman vilayətlərinin hakimi olmaq istəyirdi. “Aləm Ara-ye Naderi”də lur və bəxtiyarilərin sadəlövhlük göstərərək Əlimurada inanması və onun ətrafına toplanması istehza ilə xatırlanır. Qəribədir ki, yerli ağsaqqallar da Əlimuradın dedikləri ilə razılaşdılar və Əlimuradın adına sikkə vuruldu. Sonra Əlimurad ətrafına yığılmış adamlardan bəzilərini saray eşikağası, bəzisini etimadüddövlə (baş vəzir), bəzisini qorçibaşı, bəzisini qul-

larağası adlandırıb özünün şah olması görüntüsünü yaratdı. Adamlarına əmr etdi ki, Həmədan yaxınlığındakı otlaqlarda otlayan Nadir şah ilxısını qovub gətirsinlər.Bununla kifayətlənməyən Əlimurad vergi kimi Fars əhalisindən toplanıb Nadirə aparılan 10 min tüməni silahlı dəstə ilə ələ keçirdi. Eşitdiyi bu xəbərlər Nadir şahın qəzəbini partlatdı və o da Əlimurada qarşı təcili tədbirlər həyata keçirməyi qərara aldı (47).

"Tarix-e Cahanqoşa-ye Naderi"də Əlimuradın ətrafına toplanan dəstənin 4-5 mindən artıq olmadığı bildirilir. Orada qeyd olunur ki, Əlimurad dəstəsi ilə yenə də bəxtiyari dağlarının yüksəkliklərində möhkəmlənməyə çalışırdı (48).

Nadir şahın bundan da xəbəri var idi və əvvəlki döyüşlərin təcrübəsini nəzərə alaraq Əlimuradın qaçmaq yollarını tutmağa çalışdı.Hələ Qəzvində olarkən göstəriş verdi ki, İsfahanda olan Xəncan xan İraq döyüşçüləri ilə, Həmədam hakimi olan Həsənəli xan isə öz döyüşçüləri ilə bölgənin yollarını kəssinlər və Əlimuradın oradan uzaqlaşmasına imkan verməsinlər. Özü isə Xunsara yola düşdü.

Bölgəyə çatandan sonra Nadir şah Əlimuradın zərərsizləşdirilməsinə özü rəhbərlik etdi. O, dağlıq şəraitdə yaxşı döyüşməyi bacaran cəzayirçi dəstəsini Şüştər yolundan, Qorqan düzü istiqamətindən, bir neçə dəstəni isə Marudəşt istiqamətindən Kehkələviyə döyüşçülərini və başqa dəstələri İsfahan yolundan Əlimuradın mövqe tutduğu məntəqələrə doğru hərəkət etməyi tapşırdı. Yəni, həqiqətdə Əlimuradın mövqeləri mühasirəyə alındı. Nadir şah bütün dəstələrə ciddi şəkildə tapşırdı ki, hərəkət etdiyi istiqamətdə hər qarış ərazi nəzarətdən keçirilsin, hər qaya, hər daş dibi yaxşı axtarılsın, harada qiyamçı gizlənmiş olsa tapılıb üzə çıxarılsın. Qoşunun yüklərini, təchizatını, parkını oğlu Nəsrulla Mirzənin nəzarəti altında düşərgədə saxlayıb özü də dağlara, Əlimuradın izlənməsinə üz tutdu. Əlimuradın dəstələri bəxtiyari dağlarının ətəklərində mövqe tutmuşdu. Nadir şah əfqan və kürd dəstələrini bu qiyamçıların üzərinə göndərdi. Əlimuradın dəstələri müqavimət göstərməyə çalışsalar da Nadir şahın qüvvələrinin qarşısını saxlaya bilmədilər. Nadir şah hərəkət istiqamətində olan çayın üzərindəki körpünün vaxtında tutulmasına və qoşunların rahatlıqla çayı adlamasına xüsusi əhəmiyyət verirdi. Ona görə də ayrıca bir dəstəni körpünün ələ keçirilməsinə və mühafizəsinə vəzifələndirdi. Nadir şahın dəstəsi həmin körpüyə yaxınlaşanda Əlimuradın dəstəsi ilə qarşılaşmalı oldu. Nadir şah döyüşçüləri son nəhayətdə qiyamçılara üstün gəlsələr də, onlar geri çəkilərkən körpünü də dağıtmağa müvəffəq oldular. Na-

dir şahın əmri ilə bir də səhəri gün körpünü bərpa etmək mümkün oldu (49).

Əslində, bu kiçik döyüşlərlə Əlimurad çox ciddi təhlükə ilə üzləşdiyini anladı. Bölgənin bütün giriş-çıxış yollarının da Nadir şah tərəfindən bağlandığını biləndə Əlimuradın yeganə ümidi hündür dağlarda gizlənməyə qaldı. Özü gizli bir yol axtarmaqla bərabər, ətrafındakılara da dağlara səpələnməyi tapşırdı. Nadir şahın qüvvələri də dağ yüksəkliklərinin axtarışını davam etdirdilər. Əlimuradın döyüşçülərinin xeyli hissəsi tapılıb məhv edildi. Onun dağlarda gizlənən 3 min tərəfdarı ailəsi ilə tutulub əsir götürüldü. Əlimuradın özü isə təqibdən qaçaraq Luristan ərazisinə birləşən dağ yüksəkliklərinə pənah apardı. "Aləm Ara-ye Naderi"yə görə, Əlimurad dağ yüksəkliklərinin birində dərin mağara ilə rastlaşdı və uzun müddət bu mağarada gizləndi. Bu mənbəyə görə, Nadir şah onun axtarışından əl çəkmədi və həmin axtarışlar 40 gün davam etdi. Əlimuradın adamlarından birinin mağaradan çıxıb su ardınca getməsi onun yerinin açıqlanmasına və ələ keçməsinə səbəb oldu. Bununla da, Əlimurad ələ keçdi. Nadir şahın əmri ilə ona meydan oxumaq istəyən Əlimurada çox ağır cəza verildi. Onun əlləri və ayaqları kəsildi, sonra isə gözləri çıxarıldı (50).

Bəxtiyari qiyamı yatırıldıqdan sonra Nadir şah İsfahana yollandı və 1736-cı il oktyabr ayının 15-də o, şah kimi ilk dəfə İsfahanda çox böyük təntənə ilə qarşılandı.Musiqi sədaları bir neçə gün şəhərdən kəsilmədi. Nadir şah da öz növbəsində böyük səxavətlilik göstərdi, şəhər əhlinə, ağsaqqallara, musiqiçilərə, müxtəlif vilayətlərdən gəlmiş nümayəndə heyətlərinə hədiyyələr və ənamlar verdi. Nadir şah Hezarcirib bağındakı sarayı özünün iqamətgahı etdi və İsfahanda olduğu qısa müddət ərzində həm dövlət işlərinin tənzimlənməsi ilə, həm də qoşunların təkmilləşdirilməsi ilə məşğul oldu.

Nadirin bir şah kimi dövlətinin paytaxtındakı sakit həyatı çox uzun sürmədi.Həyatı at belində keçən Nadir üçün Qəndəharı yenidən dövlət sərhədləri daxilinə gətirmək sakit şahlıq həyatından daha vacib idi. Qəndəhar şəhəri və vilayəti gilzayi əfqanlarının, vaxtı ilə İsfahanı ələ keçirmiş Mahmud Gilzayinin qardaşı oğlu Hüseyn Gilzayinin ( mənbə və tarixi ədəbiyatda Hüseyn Sultan, Hüseyn xan, Hüseyn şah, Hüseyn Qəndəhari və bəzi hallarda Sultan Hüseyn kimi xatırlanır- M.S.) nəzarəti altında idi. Hüseyn Gilzayi müstəqil bir şah kimi adına sikkə vurdurmuş və xütbə oxutmuşdu. Fürsət tapan kimi Hüseyn Gilzayi ətraf vilayətlərə basqınlar etməkdən çəkinmirdi. Nadir şah üçün Qəndəhar keçmiş Səfəvi hüdudlarında olmuş bir vilayət idi və öz şahlığı dövründə də onun geri qaytarılmasını vacib sayırdı. Ona görə Nadir şah

yürüşə hazırlıq əmri verdi ki, Hüseyn Gilzayinin Qəndaharda qurduğu taxt onun tabutunun taxtasına çevrilsin (51).

Nadir şahın qoşun başçıları və sərkərdələri Qəndəhara yürüş hazırlığını böyük rəğbətlə qarşıladılar və qələbənin əldə edilməsi üçün bacarıqlarını sərf etməyə çalışacaqlarına əmin etdilər. Bu əminlik Nadir şah tərəfindən çağırılan əmirlərin, əyanların, ordu başçılarının, el ağsaqqallarının toplantısında bəyan edildi.Həmin toplantı iştirakçıları göstərdikləri dəstəyə görə Nadir şah tərəfindən bahalı hədiyyələrlə mükafatlandırıldılar. Qoşunların döyüşçülərinə Nadir şahın göstərişinə əsasən 12 tümən məvacib və bir qədər də mükafat, qoşun sərkərdələrinə və minbaşılarına isə 500-1000 tümən arası məvacib və 150 tümən miqdarında isə mükafat verildi. Nadir şah əmr etdi ki, qoşunlar üç illik ehtiyat tədarükünü görsünlər. Qoşunların təchizatının böyük hissəsini öz üzərinə götürən ordubazarın işinin təkmilləşməsi üçün 2000 nəfər vəzifələndirildi ki, onların da hər birinin 1000 tümən maliyyə ehtiyatı var idi. Bu insanlar ordu üçün zəruri olan təchizatı almaqla səfər ərzində döyüşçülərin ehtiyacını ödəməli idilər (52).

Qoşunların gücləndirilməsi üçün Nadir şah çoxlu sayda gürcü və bəxtiyariləri də qoşun dəstələrinə cəlb etdi (53).

Nadir şahın İsfahanda Qəndəhar yürüşünə hazırlıq apardığı vaxt Osmanlı sarayında onun elçisi Əbdülbaqi xanla Osmanlı rəhbərliyi arasında sülh anlaşması üzərində danışıqlar aparılırdı. Nadir şahın anlaşmanın imzalanması üçün irəli sürdüyü təkliflər Osmanlı sarayında birmənalı qarşılanmadı. Xüsusən, onun Cəfəri məzhəbi ilə bağlı qaldırdığı təkliflər Osmanlı üləmalarının ciddi müzakirəsinə səbəb oldu. Uzun müzakirələrdən sonra qərara alındı ki, Nadir şahın irəli sürdüyü beş təklifdən 2-si, yəni, Cəfəri məzhəbi və Cəfəri məzhəbi üçün Kəbədə 5-cü mehrabın açılması ilə bağlı maddələr hələlik anlaşmadan çıxarılsın və onların müzakirəsi gələcəkdə davam etdirilsin. Qalan üç maddə isə Osmanlı sarayının etirazını doğurmadı və həmin üç təklif əsasında anlaşma imzalanması təklif olundu. Əbdülbaqi xan bu təkliflə razılaşdı və onun Nadir şahla da razılaşdırılmasına ehtiyac olduğunu bildirdi. İmzalanmağa qəbul olunan üç təklif əslində Nadir şahın təklifləri idi və onun istəklərini əks etdirirdi. Bu təkliflər əsasında qəbul edilən anlaşmaya görə, Osmanlı dövləti ilə Əfşarlar dövləti arasındakı sərhəd xətti 1632-ci ildə bu dövlətlər arasında imzalanmış müqavilədə təsbit edilmiş sərhəd xətti əsasında müəyyənləşdirildi (54).

Ölkənin qərb sərhəd xətti ilə bağlı Osmanlı dövləti ilə anlaşmanın əldə edilməsi Nadir şaha hər hansı bir narahatçılıq olmadan öz yürüşünü həyata keçirməsinə yaxşı bir əminlik təmin etdi. Qəndəhar

yürüşü ərəfəsində Nadirin narahatçılığına səbəb olan bir məsələ mövcud idi.Bu da Belucistanda başlayan iğtişaşlar və mərkəzi dövlətə qarşı yeni bir itaətsizlik idi. Lakin görünür Belucistanda və Məkranda baş verən qiyam Nadir şah üçün xüsusi bir təhlükə təşkil etmirdi. Çünki Nadir həmin qiyamın yatırılmasına özü getmədi və ora Herat bəylərbəyi Pir Məhəmməd xanın rəhbərliyi altında silahlı dəstə göndərdi. Nadir şah ona tapşırdı ki, Belucistanda baş verən qiyamı yatırmaqla beluc sərdarları Mirməhəmməd xanla İlyas xanın qüvvələrini də özünə cəlb etsin və onların Qəndəhara, Hüseynə yardım göstərmələrinə imkan verməsin (55).

Nadir şah eyni zamanda Bəlx hakiminin də itaət altına gətirilməsi üçün ora qoşun dəstəsi göndərdi. Muğan qurultayı keçirilən zaman Xorasan vilayətinə aid olan Bəlx hakimi Əbülhəsən xan Nadirin dəvətini qəbul edib qurultaya gəlməmişdi. Nadir tərəfindən bu əməl itaətsizlik, mərkəzi dövlətə tabe olmamaq kimi qiymətləndirildi və Qəndəhar yürüşü başlamazdan əvvəl Bəlxə də qoşun dəstəsi göndərilməsi haqqında əmr verdi.

Nadir şah qərara aldı ki, Əbərqu - Kerman – Bəm – Sistan marşrutu üzrə Qəndəhara doğru hərəkət etsin. Bu marşrut səhralardan, susuz və ərzaq qıtlığı olan ərazilərdən keçdiyi üçün Nadir şah qoşun təchizatını və ehtiyaclarını bir neçə gün əvvəldən yola saldı. Marşrut üzrə bir neçə yerdə düşərgə qurulmalı və ehtiyatlar toplanmalı idi ki, qoşunların rastlaşdıqları çətinlikləri daha asan aradan qaldırsınlar. Beləliklə, bütün bu hazırlıq işləri başa çatdıqdan sonra Nadir şah, Hatəm bəy Xorasanini İsfahan hakimi təyin edib 80 min nəfərlik qoşunla 1736-cı il noyabr ayının 21-də Qəndəhara doğru hərəkətə başladı (56).

Həmin ilin dekabr ayının sonlarında Nadir şah qoşunu ilə Kermana çatdı və bir neçə gün istirahət üçün orada dayandı. Kermanda olduğu zaman Nadir şah Sistana, Fətəli xan Kəyaninin yanına çaparlar göndərdi və ondan tələb etdi ki, Zabulistanda toplanmış qoşun dəstəsi ilə onun köməyinə gəlsin. Fətəli xan bu qoşun dəstəsi ilə Qəndəhar yaxınlığında Nadir şahın qoşunlarına qatılmalı idi. Nadir şah eyni zamanda Nimruzdan da qoşun dəstəsi çağırdı. Bu qoşun dəstələrinin çağırılmasının Qəndəhardakı əfqan qarnizonuna qarşı nəzərdə tutulduğunu və Nadir şahın Hindistan yürüşünə hazırlıqla bağlı olduğunu söyləmək çətindir. Kermanda bir neçə günlük istirahətdən sonra Nadir şah Bəm yolu ilə Sistana hərəkəti davam etdirdi və Sistan-Qəndəhar sərhədini adlamaqla 1737-ci il fevral ayının ortalarında əfqan qüvvələri tərəfindən qorunan Kermik qalasına yetişdi. Burada Nadir şaha

qarşı müqavimət göstərmək cəhdi oldu. Amma onun artilleriyadan səmərəli şəkildə istifadə etməsi qala qarnizonunu təslim olmağa məcbur etdi (57).

Kermik qalasındakı müqavimət gilzayi əfqanları tərəfindən planlaşdırılan müqavimətin başlanğıcı idi. Hüseyn Nadir şahın Qəndəhara doğru irəliləməsinin qarşısını almaq üçün bütün imkanlarından istifadə etməyə çalışırdı. Hətta Qəndəhara aparan yol ətrafındakı ərzaq ehtiyatları Qəndəhara daşındı, yerdə qalanlara isə od vurulub məhv edildi.Nadir şah əfqanlarla ilk qarşılaşmasında artıq ərzaq qıtlığının yarada biləcəyi çətinlikləri görməyə başladı. Soyuq havanın mövcudluğu da ərzaq ehtiyatlarının əldə edilməsini çətinləşdirirdi. Ona gör də vaxtında lazım olan addımları atmağı qərarlaşdırdı. Qəndəharın 30 milliyində olan Ərqəndab çayının sahilinə çatıb düşərgə salandan sonra Nadir şah hezarələr yaşayan məntəqələrə silahlı dəstə göndərdi ki, azuqə toplanması ilə məşğul olsun. Nadir şah eyni zamanda Sistandan da azuqə toplanılıb gətirilməsinə göstəriş verdi. Bu göstərişlərin yerinə yetirilməsi Nadir şah qoşunlarının azuqə ehtiyatını yaxşılaşdırdı (58).

Nadir şah Ərqəndab çayı sahilində bir neçə günlük düşərgə saldı. Həmin müddət ərzində qoşunları gilzayi əfqanlarının qəfil hücumlarından qorunmaq üçün qruplaşdırdı. Düşərgənin sağ tərəfində Hacı xan Kürdün sərkərdəliyi altında olan 12 min nəfərlik Çeşmgəzək, Bəğayiri, Gəraylı və Qərayi döyüşçülərindən ibarət dəstə yerləşdirildi. 12 min nəfərik başqa bir dəstə də Xanəli xan Kükəlan, Qasım xan Qacar və Əliqulu bəy Əfşarın rəhbərliyi altında sol tərəfdə yerləşdirildi. Düşərgənin arxa istiqamətində Qəni xan Əfqan və Musa xan Dünbəli tərəfindən rəhbərlik edilən əbdali əfqanları dəstəsi mənzil salmışdı. Düşərgənin mərkəzində isə Nadir şah və qoşunların qalan hissəsi mənzil tutdu. Bu dəstələr mərkəzi dəstədən müəyyən məsafədə yerləşməklə müstəqil şəkildə səngərlənmişdilər (59).

Nadir şahın qoşunu ilə Ərqəndab çayı sahilində düşərgə salması xəbəri Sultan Hüseyn Gilzayiyə çatanda o, qabaqlayıcı addım atmağı qərara aldı. Sultan Hüseynin sərkərdələri ona bildirdilər ki, qəfil gecə hücumu ilə Nadir şahı təlaş və təşviş içində yaxalamaq, Nadir şahın qüvvələri arasına çaxnaşma salmaq, səhərin açılması ilə Qəndəhar qarnizonunun əsas qüvvələrinin hücumu ilə Nadir şaha ağır zərbə vurmaq mümkündür. Əfqanların gümanına görə, gecə başlanan qəfil hücumun səhər davam etdirilməsi ilə Nadir şah qoşunlarının sıralarını pozmaq, Nadir şah qoşunlarını bütünlüklə məhv etmək mümkün olardı. Nadir şahın qoşunlarını məğlub etmək barədə söylənənlər Hüseyn Gilzayi

tərəfindən maraqla qarşılandı və verilən təkliflə razılaşdı. Onun əmri ilə iki dəstə təşkil edildi. Hər biri 8 min nəfərdən ibarət olan bu dəstələrdən birinə Seydal xan, o birinə isə Yunis xan rəhbərlik edirdi. Həmin dəstələrə gecə ikən Nadir şahın dəstələrinə hücum etmək əmri verildi. Hər iki dəstə gecə ikən Ərqəndab çayını keçib Nadir şahın düşərgəsi istiqamətinə yollandı. Bu iki dəstə biri digərindən bir mil məsafədə hərəkət edirdi. Əvvəlcə, Nadir şahın düşərgəsi güman edilən yerdə tapılmadı. Qarşıda hərəkət edən Yunis xanın dəstəsi gecə qaranlığında Nadir şahın düşərgəsini xeyli axtarmalı oldu. Nəhayət, Yunis xan Nadir şahın düşərgəsini tapdı və Hüseyn Gilzayinin təriflərini eşitmək üçün Nadir şahın düşərgəsinə ilkin olaraq özü hücum etməyi qərarlaşdırdı (60).

Yuxarıda qeyd edildiyi kimi, Nadir şahın düşərgəsinin arxa hissəsində Nadir şah qoşunlarının tərkibinə daxil olan əbdali əfqanlarının qoşun dəstəsi mənzil salmışdı. Yunis xanın hücum etdiyi gecə düşərgə ətrafında qarovul-patrul xidmətinin icrası da əbdali əfqanlarına tapşırılmışdı. Yunis xan dəstəsinin yaxınlaşmasını da qarovul çəkən əfqanlar müşahidə etdilər. Onlar əfqan dilində yaxınlaşanların kim olduğunu soruşdular. Əfqan dilində səs eşitməsi Yunis xanın döyüşçülərini çaşdırdı. Onlar güman etdilər ki, qarşıdakılar Seydal xanın döyüşçüləridir. Əbdali əfqanları onları xeyli yaxına buraxdılar və sonra da onlara qəfil zərbə endirdilər. Səs-küyə ətraf səngərlərdəki döyüşçülər və sərkərdələr də döyüşə qoşuldular. Tüfənglərin atəşləri qarşı tərəfə ağır zərbə endirdi. Gilzayi əfqanlarının qəfil hücum xəbəri Nadir şaha da çatdı.O bütün səngərlərə xəbər göndərdi ki, kimsə öz mövqeyini tərk etməsin və səngərlərdə müdafiə olunsunlar.

Qarşı tərəflər arasında döyüşün başlaması xəbəri Seydal xana da çatdı. O da Yunis xana kömək göstərmək və Nadir şahın qoşununa daha bir zərbə endirmək ümidi ilə irəli atıldı.Seydal xanın qoşunu məğlub olub geri qaçan Yunis xanın dəstəsini Nadir şahın qoşunu hesab edib onu təqibə başladı. Onsuz da itkilərə məruz qalmış Yunis xanın dəstəsi daha bir itkini də Seydal xanın dəstəsindən aldı (61).

Səhəri gün düşərgə ətrafında vəziyyət sakitləşdi. Seydal xanla Yunis xan gecə hücumunun nəticələrini Hüseynə ərz etdilər.Hüseyn açıq döyüşlərdə Nadir şahın qoşununa üstün gələ bilməyəcəyi üçün qala daxilində müdafiə işlərini genişləndirdi. Nadir şah isə əksinə, gecə döyüşləri zamanı baş verənlərin nəticələrindən razı qaldı. Bu nəticələri araşdırıb həm Qəni xana, həm də Musa xana öz təşəkkürünü bildirdi, əsir götürülmüş əfqanlardan alınmış silahları adları çəkilən xanların döyüşçülərinə bağışladı. İlk səngərlərdə qərar tutmuş döyüş-

çülərin hər birinə 10 tümən mükafat verdi. Bir çox döyüşçüləri isə Nadir şah yüksək adlarla və titullarla təltif etdi (62).

Nadir şah bir neçə gün gecə döyüşlərinin baş verdiyi düşərgədə qaldı.O, qoşunlara istirahət verməklə bərabər, azuqə ehtiyatlarının toplanmasına da diqqət yetirdi. Uzun müddətli və ağır yürüş kifayət qədər azuqə ehtiyatının toplanmasını tələb edirdi. Ərqəndab çayının sahilində mənzil saldığı günlərdə xüsusi dəstələr ətraf məntəqələrdə azuqə axtarışı və toplanması ilə məşğul oldu. Sonra Nadir şah Qəndəhara daha da yaxınlaşmaq üçün Ərqəndab çayını adlamağı əmr etdi. Nadir şah öncə təcrübəli sərkərdələrindən olan Əmiraslan xanın rəhbərliyi altında 12 min nəfərlik bir avanqard dəstəni Qəndəhara doğru istiqamətləndirdi. Bu dəstə Qəndəhar yaxınlığında Sultan Hüseynin qarovul dəstəsi ilə rastlaşdı. Amma bu qarovul dəstəsi elə də böyük deyildi və ona görə də Əmiraslan xanın bir zərbəsindən pərakəndə hala düşüb geri qaçdı. Sonra isə Əmiraslan xan Nadir şaha məlumat çatdırdı ki, tapşırılmış mövqeləri tutmuşdur və artıq həmin mövqelərin təhlükəsizliyi təmin edildiyi üçün qoşunlar ora gələ bilərlər. Nadir şah da qoşunlarının hissə-hissə həmin mövqelərə doğru irəliləməsinə tapşırıq verdi. Mövcud olan məlumatlara görə, bu mövqe Qəndəharın şərqində yerləşirdi və orada düşərgə salmaq daha münasib bilindi (63).

"Aləm Ara-ye Naderi"də Nadir şahın qoşunları ilə Ərqəndab çayı sahilindən Qəndəhar qalasına doğru hərəkət etməsi xüsusi təfərrüatla təsvir olunmuşdur. Burada olan məlumatlara əsasən, belə bir qənaətə gəlmək mümkündür ki, Nadir şah hərəkət etməzdən əvvəl qoşun sərkərdələri olan Hacı xanın, Əliqulu bəy Əfşarın, Qasım xan Qacarın, Mustafa xan Bidelinin, Luristan valisi Əlimərdan xanın, Lütfəli xanın, Fətəli xanın, Kəlbəli xanın və Babaəli bəyin dəstələri hərəkət edib Qəndəhar ətrafında dayandılar. Nadir şah qoşunlarının Qəndəhar ətrafında cəmləşməsi Hüseyn tərəfindən müşahidə olunurdu. Qoşun sərkərdələrinin ardınca daha təmtəraqlı şəkildə hərəkətə başlayan Nəsrulla Mirzənin dəstəsinin gəlməsini müşahidə edən Hüseyn onun Nadir şah olduğunu güman etdi. Amma Nəsrulla Mirzəni tanıyanlar ona bildirdilər ki, bu, şahın oğludur.

Nadir şah özü isə daha təmtəraqlı şəkildə Qəndəhara doğru hərəkət etdi. Qarşıda 16 min nəfərlik cəzayirçi dəstəsi irəliləyirdi. Bu dəstənin üzvləri qızıl və gümüş kəmər bağlamış və silahlandıqları silahlar da qızıl və gümüşdən düzəldilmişdi. Cəzayirçilər keçə papaqlar qoymuş, dəri qəbalar geymiş, atlarının yəhəri üstünə pələng dərisi salmış, boyunlarından isə zəncir asmış, minik heyvanlarını gümüş əşyalarla bəzəmişdilər. Cəzayirçilər çiyinlərinə aldığı tüfənglərinin qundağına

şahmat fiqurunu xatırladan kiçik oyuncaqlar asıb "yerihayeri" sədaları altında addımlayırdılar. Cəzayirçilər özləri ilə 1700 baş müxtəlif əşyalarla bəzədilmiş Şam atlarını da aparırdılar. Nadir şahın qarşısınca 400 nəfər dəvəçi hərəkət edirdi. Bu dəvəçilər kəmərlərinin həm sağına, həm də soluna qiymətli daşlarla bəzədilmiş xəncərlər asmışdılar. Onların ardınca əyinlərində zərbafta ilə bəzədilmiş, kənarları boyu samur dərisi tikilmiş 1200 nəfərlik çavuş dəstəsi addımlayırdı. Mahnı oxuyaraq irəliləyən çavuşların əlində qızıl və gümüş əmudlar var idi. Nadirin önündə hərəkət edənlər arasında papağının pəri qızıldan olan 3 min nəfərlik nəsəğçi, hərəkətin nizamına məsul olan 1400 nəfər yasavul və əllərində qızıl və gümüş çomaq olan 1000 nəfərlik yasavul dəstəsi də var idi.Onlarla birlikdə zənburəklər yüklənmiş 1700 dəvə də aramla Qəndəhara doğru irəliləyirdi. Nadir şahın sağ cinahında 16 min nəfərlik Azərbaycan döyüşçüləri dəstəsi, döyüş bayraqlarının arxasınca isə 24 min nəfərlik Şərqi Xorasan dəstəsi hərəkət edirdi.Mənbələrin məlumatına görə, bu dəstələrin döyüşçüləri dəmir və poladdan düzəldilmiş mükəmməl müdafiə təchizatına malik idilər (64).

Qəndəhar ətrafında düşərgə salınması Novruz bayramı günlərinə təsadüf etdiyindən Nadir şahın göstərişi ilə məclislər quruldu və bayram qeyd edildi. Nadir şah Qəndəharın şərqində yerləşən bu düşərgədə uzun müddət dayanmadı. Bir neçə gündən sonra o, qoşunu ilə hərəkət edib Qəndəhardan iki mil məsafədə olan Sorxeye Şir məntəqəsində mənzil saldı. "Aləm Ara-ye Naderi" Nadir şahın öz düşərgəsinin yerini dəyişməsini yeni məkanda yaşıllığın, su mənbələrinin çox olması ilə əlaqələndirir. Görünür, Nadir şah Qəndəhar ətrafında mühasirənin uzun sürəcəyinə əmin idi.Çünki Qəndəhar qalası çox möhkəm bir qala idi və öz müdafiə imkanlarına görə bu qala yaxın ətrafda olan qalalar arasında fərqlənirdi. Qəndəhar qalasını şimal-qərbdən Qeytul sıra dağları mühafizə edirdi. Digər tərəfdən qala divarları çox qalın və möhkəm idi. Bəzi yerlərdə qala divarlarının qalınlığı 30 funta çatırdı. Qala divarları üzərində yerləşdirilmiş toplar isə onun müdafiə imkanlarını bir qədər də artırırdı (65).

Mənbələrdə Nadir şahın Qəndəhar ətrafında mövqe dəyişikliyi etməzdən əvvəl qarşı tərəflərin iki dəstəsi arasında toqquşma baş verdiyi bildirilir. "Tarix-e Cahanqoşa-ye Naderi"də bu toqquşma zamanı Nadir şah qoşunlarından olan dəstəyə Fətəli xanın rəhbərlik etdiyi, "Aləm Ara-ye Naderi" də isə bu dəstəyə Əmiraslan xanın rəhbərlik etdiyi bildirilir."Tarix-e Cahanqoşa-ye Naderi"də o da bildirilir ki, Qəndəhar qalasından qaçan əsirlərdən biri Hüseynin göndərdiyi dəs-

tənin Fətəli xanın dəstəsini təqib etməsini Nadir şahın düşərgəsinə çatdırdı.Bu xəbəri eşidəndən sonra Nadir şah həm Fətəli xana kömək göndərdi, həm də xəbəri gətirmiş əsiri mükafatlandırdı. Hər iki mənbədə qaladan çıxan dəstəyə Seydal xanın rəhbərlik etdiyi bildirilir. Hüseyn Gilzayi ələ düşmüş münasib imkandan istifadə etməklə Nadir şahın qoşununa zərbə endirməyə çalışsa da bu ona müvəffəq olmadı. Seydal xan yenə itki verərək geri çəkilmək məcburiyyətində qaldı (66).

Nadir şah Qəndəhar ətrafında sadəcə  düşərgə salmadı. Bu düşərgəni şəhərciyə çevirdi. Onun əmri ilə burada evlər tikildi, bazar salındı, məscidin və hamamların əsası qoyuldu, su anbarları yaradıldı, hətta qəhvəxana və kanalizasiya xətləri quruldu. Nadir şah qoşun sərkərdələrinə tapşırdı ki, hər biri özünə ev tikdirsin. Eyni zamanda qala ətrafında  gücləndirilmiş istehkam işləri aparıldı. Bütün qala divarları boyu səngərlər qazıldı, möhkəm divarlar çəkildi, müəyyən məsafədə bürclər tikildi. Qəndəhar qalasının Qeytul  dağlarına sığınan hissəsində istehkam işlərinin aparılması mümkün olmadığı üçün həmin sahə boş buraxıldı. Nəzarət altında saxlanılan həmin hissə həm qala qoşunlarının, həm də şəhər əhalisinin qaladan çıxıb qaçması üçün nəzərdə tutulmuşdu.Yəni, qala elə bir şəkildə mühasirəyə alınmışdı ki, əslində oraya girmək və oradan çıxmaq mümkün deyildi və qalanın təchizat yolları tamamilə kəsilmişdi.Nadir şah məhz bu yolla qalanı ələ keçirmək istəyirdi. Artilleriyanın oradakı şəraitdə elə də əsaslı bir səmərəyə malik olmadığı üçün Nadir şah elə Qəndəhar ətrafında 2 ədəd uzaqvuran topun tökülməsi haqqında əmr verdi. Nadir şahın ustaları çətin şəraitdə və çox qısa müddət ərzində qala divarlarını daha yaxşı vura biləcək iki ədəd yeni top tökdülər. Bu topların mərmilərinin çəkisi təxminən 42 man ( təxminən 300 funt) idi (67).

Beləliklə, Qəndəhar qalasının tam mühasirəsi təşkil edildi. Artilleriyadan istifadə edilməklə qalanın Molla Əli və Qeytul istiqamətlərindəki Qırx pilləkən bürcləri ələ keçirildi.Həmin bürclərin ələ keçirilməsi xeyli vaxt apardı Bu bürclər ələ keçiriləndən sonra Nadir şah orada bir neçə top yerləşdirməyi əmr etdi. Burada yerləşdirilən toplar gün ərzində  digər qala bürclərini vurub dağıtmaqla məşğul idi. Səhər açılanda isə Nadir şah döyüşçüləri həmin bürclərin qala müdafiəçiləri tərəfindən yenidən bərpa edilməsinin şahidi oldular. Eyni zamanda qala müdafiəçiləri gündüzlər kənara çıxaraq Nadir şah qoşunlarının mövqelərinə hücum edir və sonra yenə geri qayıdırdılar (68).

Nadir şah Qəndəhar qalasının mühasirəsinin uzandığını görüb onun üçün mühüm olan bir sıra işləri həyata keçirdi. Bu istiqamətdə Qən-

dəhar yaxınlığında yerləşmiş olan böyük və kiçik qalalar ələ keçirildi, həmin qalalarla Qəndəhar arasında əlaqə yaradılması təhlükəsi aradan qaldırıldı. Kəlbəli xanın rəhbərliyi altında olan dəstə Zəmindavur qalasını, İmamverdi xan isə öz dəstəsi ilə Gilzayi Kelatı qalasını iki aylıq mühasirədən sonra ələ keçirdilər. Elə həmin vaxtlarda Belucistanda Əmir Məhəbbət xanla İlyas xanın yenidən fəallaşması barəsində xəbərlər gəldi.Orada baş qaldıran iğtişaşların yatırılması üçün isə Məhəmmədəli bəy Qırxlının rəhbərliyi altında süvari dəstəsi Qəndəhar ətrafından Belucistana göndərildi. Bir tərəfdən də Bəlxin nəzarət altına gətirilməsi üçün qoşun dəstəsi ilə ora göndərdiyi oğlu Rzaqulu Mirzənin bəzi icazəsiz hərəkətlərə yol verməsi Nadir şahın narahatçılığına səbəb oldu. Onun əmrinə əsasən, Rzaqulu Mirzə Bəlxi ələ keçirib orada dayanmalı idi. Rzaqulu Mirzə isə görünür, Bəlxin ələ keçirilməsindən ilhamlanıb yürüşünü Buxara istiqamətində davam etdirdi. Nadir şah xəbər göndərdi ki, Rzaqulu Mirzə Buxara istiqamətində döyüşlər aparmaqdan çəkinib dərhal Bəlxə qayıtsın (69).

Qəndəharın mühasirəsi isə uzanmaqda davam edirdi. Bu mühasirə 11 ay çəkdi. Mühasirənin uzun sürməsinin bir səbəbi sözsüz ki, Qəndəhar qalasının güclü olması ilə bağlı idi.Müşahidəçilərin fikrincə, Qəndəhar qalasının mühasirəsinin uzun sürməsinin aşağıdakı səbəbləri də var idi:

Əvvəla, Nadir şah Qəndəhardan sonra Hindistana yürüş etməyi planlaşdırırdı. Qəndəhar ətrafında uzun müddət dayanmaqla Nadir şah Hindistan, Hindistana aparan yollar və yollar üzərində məskən salmış əhalinin döyüş potensialı və onların əhval-ruhiyyəsi haqqında lazımi kəşfiyyat materialları topladı. Bundan başqa, Nadir şah onun təqibindən qaçan əfqanların Hindistan ərazisinə buraxılmasına yol verməmək xahişi ilə Dehliyə bir neçə nümayəndə heyəti göndərdi. Bu nümayəndə heyətini üzvləri Nadir şahın sözlərini Hindistan padşahı Məhəmməd şahın diqqətinə çatdırmaqla bərabər, Məhəmməd şah sarayındakı ab-hava, dövlət əyanları arasındakı münasibət, hind sərkərdələri haqqında az-çox kəşfiyyat məlumatları toplayıb Nadir şaha çatdırdılar.

İkincisi, Nadir şah bilirdi ki, onun Hindistana yürüşü uzun çəkəcəkdir. Bu vaxt ərzində ölkə daxilində nələrin baş verə biləcəyi onun üçün əhəmiyyətsiz deyildi. Paytaxtdan uzaqda, Qəndəhar ətrafında bir il qalmaqla o, ölkə daxilində də nələr baş verdiyini müşahidə etdi. İtaətsizlik göstərənlərin və qiyam iddiasında olanların çoxu öz cəzalarına çatsa da onların hamısı aradan götürülməmişdi. Nadir şah Qəndəhar ətrafında olarkən qaçıb gizlənənlər, fürsət gözləyənlər fəallaş-

mağa başladılar.Nadir şah da belələrini müəyyənləşdirib cəzalarına çatdırdı.

Üçüncüsü, İsfahandan Qəndəhara doğru hərəkətə başlananda Belucistan və Məkranda, habelə Bəlxdə asayiş və qanunçuluq tam bərpa edilməmişdi. Yuxarıda qeyd edildiyi kimi, bu məsələlərin də həll edilməsi üçün həm Belucistana, həm də Bəlxə qüvvə göndərildi. Qəndəhar ətrafında dayandığı vaxt Nadir şah həmin istiqamətlərə göndərilmiş qüvvələrin fəaliyyətini izləmək və lazım gələndə öz göstərişlərini vermək imkanı əldə etdi. Doğrudan da, qeyd olunduğu kimi Rzaqulu Mirzənin fəaliyyətinə müdaxilə etmək ehtiyacı yarandı və Nadir şah da bunu etdi. Qəndəharın mühasirəsi başa çatana kimi Belucistan və Bəlx məsələləri də həll edildi və Nadir şah bu iki məntəqədən də xatircəm oldu.

Dörüncüsü, sayı 100 min nəfərdən çox olan qoşunun Qəndəhardan ağır və mürəkkəb dağ yolları ilə Hindistana göndərilməsi ciddi hazırlıq işlərini tələb edirdi Həm hərəkət marşrutunun kəşfiyyatı və həm də kifayət qədər ərzaq ehtiyatlarının toplanmasına müəyyən vaxt lazım idi.Qəndəhar ətrafında dayandığı vaxt Nadir şah azuqə ehtiyatı ilə bərabər, atların və yük heyvanlarının toplanması ilə də məşğul oldu.

Beşincisi, Qəndəharın fəthi üçün vəzifələndirdiyi qoşun dəstələri Nadir şahın seçmə və təcrübəli qoşun dəstələri idi. Hindistan yürüşündə ona belə təcrübəli qoşun dəstələri çox gərəkli idi. Ona görə Nadir şah istəmirdi ki, tez-tələsik Qəndəhar qalası üzərinə hücum etsin, təcrübəli qoşun dəstələri arasında itkilər çoxalsın. O yersiz itkiyə yol vermədən, düşməni əldən salmaqla Qəndəhar qalasını fəth etmək istəyirdi. Bu isə müəyyən vaxt tələb edirdi.

Nəhayət, altıncısı, Nadir şah Hindistana doğru hərəkət marşrutunun seçilməsini çox götür-qoy etməli oldu. O, Hindistana aparan bir neçə yolun kəşfiyyatını apardı, təhlükəsizlik və keçid imkanlarını araşdırdı. Onun üçün təklif olunan Qazıxan dərəsindən keçən yol Hindistana ən yaxın yol idi. Lakin bu yolun buraxıcılıq imkanı aşağı idi və çoxsaylı qoşunla oradan keçmək mümkün deyildi. Bundan başqa, həmin marşrut üzərindəki yüksəkliklərdən uçqun təhlükəsi Nadir şahı ehtiyatlı olmağa vadar edirdi. Başqa bir marşrut Sənd çayı üzərindən keçən marşrut idi. Bu çayın eni təklif olunan marşrut üzərində 1500 metrə çatırdı. Bu enliyində olan çayın üzərindən körpü salmaq qeyri-mümkün idi. Digər marşrut isə Qəzni-Kabul yolu idi. Çoxsaylı qoşunları, topları hərəkət etdirmək, yükləri daşımaq üçün Qəzni-Kabul yolu daha münasib yol idi. Uzun araşdırmadan sonra Nadir də məhz bu marşrut üzərində dayandı. Qəzni-Kabul marşrutunun bir əhəmiyyəti də onda

idi ki, nəzərdə tutulduğu kimi, Rzaqulu Mirzə öz qoşunu ilə Bəlxdən hərəkət edib Kabulda Nadir şahla birləşə bilərdi (70).

Söylənilən bu gümanların doğru olub-olmaması haqqında fikir söyləmədən qeyd etmək lazımdır ki, adları çəkilən məntəqədə asayiş və Nadir şahın hakimiyyəti tam bərpa olunandan sonra Qəndəhar qalası üzərinə də uğurlu hücum təşkil edildi. Həmin hücumun dəqiq tarixi haqqında tarixi ədəbiyyatda müxtəlif fikirlər söylənilir. Amma hər halda Qəndəhar qalası üzərinə son hücumun təşkili və Qəndəharın ələ keçirilməsinin 1737-ci ilin mart ayına təsadüf etdiyi şübhəsizdir.

Sonuncu hücumun təşkili ərəfəsində Nadir şah sərkərdələrin toplantısını keçirdi. Bu toplantıda Əmiraslan xan, İmamverdi xan, Nadir şahın ana tərəfdən qardaşları, Xancan xan, Mustafa xan, Məhəmmədəli xan Əfşar, Mollaqulu xan Carçıbaşı, Çəndəvulbaşı Cəlil bəy, Nəsəğçibaşı Əlirza bəy Qəzvini, Xanəli xan Kukəlan, Qəni xan Əbdali və Musa xan Əbdali, Qasım xan və Məhəmmədhüseyn xan Qacar, Fətəli xan Sistani, İsmayıl xan, Cəmşid Sultan hezarə və digər minbaşılar, beşyüzbaşılar iştirak edirdilər. Nadir şah onların qarşısına nəyin bahasına olursa-olsun Qəndəharın ələ keçirilməsi tapşırığını qoydu. Nadir şah onlara bildirdi ki, Qəndəhar qalasının mühasirə edilməsindən artıq bir ilə yaxın vaxt keçir. Bu müddət ərzində qalanın ələ keçirilməsi üçün ciddi cəhd göstərilsə də və səylər günü-gündən artıb çoxalsa da qarşıya qoyulan məqsədə nail olunmamışdır.Nadir şah bildirdi ki, Qəndəharın ələ keçirilməsi üçün atıq qəti qərara gəlmişdir. Onun sözlərinə görə, mübariz döyüşçülərdən bir qrupu könüllü şəkildə qala üzərində hücumda iştirak edərək təhlükənin ağırlığını öz üzərinə götürməlidirlər və bu döyüşçülər qalanı ələ keçirməlidirlər. Bu tapşırığı icra edəcək dəstənin döyüşçülərindən kimsə döyüş zamanı geriyə addım atarsa nəsəğçilər tərəfindən qətlə yetiriləcəkdir və onlar aləmdə biabır olacaqlar (71).

Bununla, sərkərdələrə tapşırıq verildi ki, qala üzərinə hücumun ilkin ağırlığını öz üzərinə götürməyə hazır olan könüllülər seçilsinlər. Sərkərdələr və qoşun başçıları həmin tapşırığı döyüşçülərə çatdırdılar. Çox tez bir zamanda könüllülər dəstəsi təşkil olundu. Sayı min nəfər olan hər qoşun dəstəsindən 10 - 30 nəfər arası könüllü seçildi və onlar toplanıb Nadir şahın hüzuruna gətirildi. Nadir şah onlarla görüşüb söhbət etdi, qarşıda dayanan vəzifənin mürəkkəbliyini və ağırlığını onlara xatırlatdı. Nadir şah onlara dedi: "Bu qalanın ələ keçirilməsinə hazır olan hər biriniz hüzura gəlməklə bilməlisiniz ki, qalanı ələ keçirdiyiniz təqdirdə sizin hər birinizə 50 tümənin qarşılığı olan 1000 nadiri veriləcək, qalada ələ keçirdiyiniz qənimət və əmlak sizə bağış-

lanacaqdır. Amma əgər döyüşdən üz çevirsəniz Allaha and olsun ki, vəzifələndirdiyim nəsəğçilər sizin başınızı bədəninizdən ayıracaq, cəsədlərinizi itlərə və canavarlara yem etdirəcəyəm" (72).

Nadir şah sonra onları mürəxxəs etdi ki, öz çadırlarına qayıdıb həm fikirləşsinlər, həm də hazırlaşsınlar.Könüllü şəkildə hücuma qoşulmaq istəyənlərin bəziləri verilən tapşırıqların ağırlığını görüb peşman olsalar da, əksəriyyəti Nadir şahın tapşırığını yerinə yetirməyə hazır olduqların bir daha bəyan etdilər. Nadir şah onlarla bir daha görüşdü, onların hamılıqla ağır döyüş tapşırığının icrasına hazır olmalarını sevinclə qarşıladı, hər birinə ayrılıqda ehtiramını və qayğısını bildirdi və hamısına gecə vaxtı düşərgə kənarında tapşırığın icrasına yollanmaq üçün toplanmağı əmr etdi. Nadir şahın göstərişi ilə hazırlanmış olan 100 ədəd nərdivan, 200 nəfər bel və külüng çalan da könüllülər dəstəsinin  ixtiyarına verildi.

Gecə hücumuna hazır olan bəxtiyarilər arasında müstövfilik edən Molla Adına adlı birisi də var idi. Molla Adına mirzəliklə, siyahıların tərtib edilməsi kimi işlərlə məşğul olurdu. Onun da könüllü şəkildə ağır döyüş tapşırıqlarının icrasına yollanmaq istəyi Nadir şaha təəccüblü göründü. Onu yanına çağırıb bildirdi ki, cəng və müharibə mirzəliklə məşğul olan sənin kimi adamların işi deyil və ona fikrindən daşınmağı təklif etdi. Amma görəndə ki, Molla Adına fikrində qətidir və o da döyüşlərdə iştirak etmək istəyir, onda onun da gecə döyüşünə getməsinə etiraz etmədi (73).

Gecə ikən Nadir şah özü könüllü dəstə ilə Qeytül dağı ətəklərinə yollandı.Qəndəhar qalasının bir tərəfinin sığındığı bu məkanda dağın hündürlüyündən, qaya parçalarından istifadə etməklə pusqu yaratmaq, müəyyən miqdarda döyüşçünü gizlətmək mümkün idi. Gecə ikən Nadir şah könüllüləri qruplara bölüb pusqularda yerləşdirdi və onlara tapşırdı ki, yerlərindən tərpənməsinlər, mövqelərini aşkarlatmasınlar və xüsusi işarə olmadan qalaya doğru hərəkət etməsinlər. Səhər açılınca qala daxilindəki əfqanlar adətləri üzrə bürclərdən və qala üzərindən toplardan və badliclərdən atəş açmağa başladılar. Pusquda yerləşdirilmiş olan könüllülər eşitdikləri bu nizamsız atəşlərin səsindən belə güman etdilər ki, qala üzərinə ümumi hücum başlayıb və onlar da bu hücumda iştirak etməlidirlər.Ona görə də pusqudan çıxıb onlar da qala divarlarına doğru irəliləməyə, malik olduqları tüfənglərdən atəş açmağa başladılar. Qala divarlarına yaxınlaşanda isə yuxarıdan atılan atəşlər onların bir neçəsinin həyatına son qoydu. Nadir şah atışma səslərini eşidib qala ətrafında nə baş verdiyini müşahidə etdi. Dərhal bir neçə qulam vasitəsilə könüllülərə xəbər göndərdi ki, döyüşü dayan-

dırıb öz mövqelərinə geri çəkilsinlər. Könüllülər belə də etdilər. Onlar öz mövqelərinə qayıdıb bir neçə gün Nadir şahın növbəti əmrini gözlədilər (74).

Könüllülərin özbaşına irəli atılmaları Nadir şahı heç də razı salmadı. Amma bu hadisənin anlaşılmazlıq üzündən baş verdiyi üçün onları cəzalandırmağı da lazım bilmədi. Bir neçə gündən sonra Nadir şah ön xətdə döyüşü özü təşkil etməyi qərarlaşdırdı.Nadir şah bunu elə etmək istəyirdi ki, düşərgədə olmamasından qala daxilində xəbər tutmasınlar. Həmin məqsədlə oğlu Nəsrulla Mirzəni öz yerində əyləşdirdi, ona divanxana işlərini adi qaydası ilə davam etdirməyi tapşırdı. İmamverdi xan Qırxlıya da tapşırdı ki, onun çadırında oturub müstövfilərin, qoşun mirzələrinin gündəlik işlərini izləsin.Yəni, Nadir şahın çadırı ətrafında elə bir işgüzar durum yaradılsın ki, kənardan baxanlar şahın öz yerində olduğuna inansınlar.

Bu dəfə Nadir şah qala üzərinə ümumi hücum təşkil etdi və bu hücumun təşkilinə qüvvələrin əsas hissəsi cəlb edildi. Hücuma cəlb edilən qüvvələri Nadir şah dörd dəstədə qruplaşdırdı və gecə ikən o, dəstələrin hər birini qalanın bir tərəfinə göndərdi. Dəstələrə də tapşırıq verildi ki, gecə ikən qala ətrafında özlərinə münasib mövqe tutsunlar və Qırx pilləkən bürcünün yaxınlığında yerləşdirilmiş qala vuran topun atəş səsini eşidəndən sonra dayanmadan nərdivanlarla qala divarları üzərinə hücum başlansın. Eyni zamanda Nadir şah həm döyüşçüləri, həm də sərkərdələri xəbərdar etdi ki, hücum işarəsindən sonra kimsə qorxaqlıq nümayiş etdirərsə ən sərt cəzalara layiq görüləcəkdir, şücaət və qəhrəmanlıq göstərənlərə isə çox böyük mükafatların veriləcəyi vəd edildi (75).

"Aləm Ara-ye Naderi"də qeyd olunur ki, Nadir şah gecə ikən Qəndəhar qalasının ətrafına 80 min nəfərlik qoşun yerləşdirdi və onların döyüş tapşırıqlarını dəqiqləşdirdi. Bir qalanın ətrafına bu qədər sayda qoşunun yerləşdirilməsi mübahisəli görünsə də qətiyyətli hücumun təşkili üçün Nadir şah gecə ikən şəxsən böyük təşkilatçılıq işi apardı. O, Qeytul dağı ətəklərində pusquda yerləşdirilmiş 3 min nəfərlik könüllülər dəstəsini də yaddan çıxarmadı.Onlara tapşırıldı ki, müvafiq işarə veriləndən sonra Qırx pilləkən bürcünün qarşısında olan məşhur Dədə bürcünü ələ keçirməyə çalışsınlar. Müvafiq işarə isə gün çıxandan sonra verilməli idi. Nadir şah bütün dəstələrə xəbər göndərdi ki, havaların işıqlanması ilə iki gürcü qulamı Qırx pilləkən bürcünün üstünə qalxaraq tüfənglərdən atəş açdıqdan sonra bütün dəstələr öz pusqularından çıxıb nərdivanlarla qala divarları üzərinə hücuma başlasınlar. Nadir şahın göstərişi əsasında 4 min nəfərlik bir dəstə isə kü-

lünglə Qırx pilləkən bürcünün ətrafında gizli mövqelərdə yerləşməli idilər.Hücum edən döyüşçülər Dədə bürcünün üzərinə qalxdıqdan sonra əllərində bel və külüng olanlar da qala divarlarının özülünü qazmaqla məşğul olmalı idilər.

Nadir şah bütün qüvvələri yerləşdirəndən sonra da rahatlaşmadı. Bir neçə qulamı ilə birlikdə qala ətrafındakı mövqeləri bir də dolandı, bir sıra sərkərdələrlə və minbaşılarla yenidən görüşdü, qələbə üçün hər şeyin hazır olmasını bir daha nəzərdən keçirdi. Nəhayət, Qırx pilləkən bürcünə qayıdıb dualarını yerinə yetirdi və sabahın açılmasını gözlədi.

Münasib vaxtın yetişməsi ilə Nadir şah iki qulama Qırx pilləkən bürcünün üstünə qalxıb tüfənglərdən atəş açmağı tapşırdı. Atəş səslərinin eşidilməsi ilə pusqularda və səngərlərdə yerləşmiş döyüşçülər əllərində nərdivanlar və kəməndlər qala divarları üzərinə yürüşə başladılar. Mənbələrin verdiyi məlumata görə, nərdivanı qala divarlarına dayaqlayan ilk şəxs bəxtiyari tayfasından olan Molla Adına oldu. Molla Adınanın ardınca əfşar, qacar, çeşmgəzək və Mərv döyüşçüləri də bir anın içində nərdivanları qala divarlarına dayayıb yuxarı şığıdılar. Qalanın müdafiəçiləri Nadir şah döyüşçülərinin hücumunun qarşısını almaq üçün bütün imkanlarından istifadə etdilər. Top və tüfəng atəşlərini, yanar neftin, külün və tikanlı kürələrin aşağı atılması müşayiət edirdi. Amma Nadir şah qoşunlarının hücumu elə sürətlə və əzmkarlıqla baş verdi ki, qala müdafiəçilərinin ciddi-cəhdləri bu hücumun qarşısını ala bilmədi. Yuxarıdan atılan atəşlərdən zərbə alan Nadir döyüşçülərini dərhal digərləri əvəz edirdi. Bununla da addım-addım qala divarları Sultan Hüseynin qüvvələrinin nəzarəti altından çıxarıldı.Hücumun gedişini izləyən Nadir şah öz döyüşçülərinin nümayiş etdirdiyi şücaətə qürur hissi keçirməklə, topçubaşı Yarbəyə göstəriş verdi ki, Qəndəhar ətrafında tökdürdüyü iki ədəd topdan Qeytul bürcünə atəş açsın. Bu atəşin açılması ilə Nadir şahın bütün qoşunu Qəndəhar qalası üzərinə hücuma keçdi. Qala divarları üzərindən aşağı yuvarlanan daşlar, qaya parçaları Nadir şahın çox döyüşçüsünü həyatla vidalaşmağa məcbur etdi. Lakin müzəffər hücumun qarşısını saxlamaq daha mümkün olmadı (76).

Molla Adınanı Dədə bürcünün üstündə görəndə qala mühafizləri əl bombasını ona tərəf atdılar. Molla Adına vaxt itirmədən həmin bombanı qapıb mühafizəçilərin olduğu tikilinin üstünə atdı və onun partlaması ilə 20 nəfər mühafizəçi məhv edildi. Molla Adına bürcün yuxarısında dayanmış bir neçə əfqan döyüşçüsünü isə qılıncının gücünə zərərsizləşdirdi. Onun ardınca digər könüllülər də Dədə bürcünün üstünə qalxdılar və digər bürclərdən axışıb gələn əfqan döyüşçüləri ilə

Molla Adına və onun həmkarları arasında əlbəyaxa döyüş qızışdı. Hücumun başlaması ilə Nadir şah istehkam işlərinin başlanmasına da göstəriş verdi. Dədə bürcündə döyüş qızışan anlarda Nadir şahın istehkamçıları qala divarları ətrafında torpaq tökmə işlərini başa çatdırdılar və qoşun dəstələri torpaq hündürlüyün üzərindən qala divarları üzərinə hücuma keçdilər. Bu isə qala divarları üzərində əfqanlara qarşı başlamış döyüşü daha da qızışdırdı. Belə olanda  Hüseyn Gilzayi bütün qüvvələrini döyüşə atdı. O özü də sərkərdələri ilə birbaşa qalanın qorunmasına qatıldı. Nadir şah da  döyüş meydanında baş verənləri izləyirdi və hücumun uğurla başa çatdırılması üçün müvafiq göstərişlər verirdi.Son dərəcə gərgin keçən döyüş nəhayətdə Nadir şahın iradəsinin qələbəsi ilə başa çatdı. Qəndəhar qalasının müdafiəçilərinin müqaviməti qırıldı və qala Nadir döyüşçüləri tərəfindən ələ keçirildi.

Hüseyn şah da Nadir şahın iradəsi qarşısında diz çökməli oldu. "Tarix-e Cahanqoşa-ye Naderi" onun əvvəlcə qaladan çıxıb qaçdığını, sonradan isə Nadir şahın yanına elçilərini göndərərək bağışlanmasını xahiş etdiyini yazır. "Aləm Ara-ye Naderi" yə görə isə  Hüseyn Gilzayi qaladan qaçmaq niyyətində olsa da ətrafdakıların təkidi ilə bu planından əl çəkdi və bacısını Nadir şahın yanına göndərməklə bağışlanmasını xahiş etdi. Nadir şah da onun bağışlanmasına razı oldu. Onun göstərişi ilə Hüseyn Gilzayi Mazandarana  göndərildi. Qəni xan isə Nadir şahın  əmri ilə Qəndəharın yeni hakimi təyin edildi. Musa xan da Qəndəhar hakiminin eşikağası vəzifəsinə irəli çəkildi (77). Qeyd etmək lazımdır ki, həm Qəni xan, həm də Musa xan əbdali əfqanlarından idi. Onların sədaqətli xidmətlərini Nadir şah yüksək qiymətləndirirdi və ona görə də Qəndəhar kimi strateji əhəmiyyətli bir məntəqəni bu şəxslərə etibar etdi.

Nadir şah özlüyündə söz vermişdi ki, qala daxilindəki müsəlman əhalidən kimsəni əsir götürməyəcəkdir və belə də etdi. Sərkərdələrinə və qoşun başçılarına tapşırdı ki, əsir götürülmüş adamlar hamısı azad edilsin. Amma gələcəkdə yeni qiyamların baş verməməsi üçün qərara aldı ki, gilzayi əfqanları əbdali əfqanlarının yaşadığı məntəqələrə köçürülsün. Əbdali əfqanları isə Qəndəhara və onun ətrafına gətirilsin. Nadir şah burada yaşayış məskəni kimi Qəndəhar ətrafında tikdirdiyi və Nadirabad adlandırdığı məntəqəyə daha çox əhəmiyyət verirdi. Ona görə köçürülən əhalinin orada məskunlaşması da istisna deyil. Eyni zamanda Nadir şah Qəndəharda məskunlaşmış Gilzayi əfqanlarının cavanları arasından özünə çoxlu sayda döyüşçü seçdi (78).

Qəndəharın ələ keçirilməsini Nadir şah çox böyük sevinclə qarşıladı. Baxmayaraq ki, bu qalanın ələ keçirilməsi qətiyyətinin və əzmkar-

lığının nümayişi idi, bununla belə o, döyüşün nəticələrini ətraflı təhlil etdi. Hücumun qələbə ilə başa çatdırılmasına iradə nümayiş etdirmiş döyüşçülərin və sərkərdələrin hər birini böyük səxavətlə mükafatlandırdı.

Ən böyük mükafatı isə sözsüz ki, Nadir şah özü qazandı. Səfəvi dövlətinin çoxdan parçalanmış olan ərazilərinin son hissəsi də geri qaytarıldı, ölkənin son illər ərzində malik olduğu ərazi bütövlüyü təmin edildi.Nadir şah böyük bir dövlətin hakiminə çevrildi və onun sərkərdəlik tarixinin dəyərli bir mərhələsi sona çatdı. Eyni zamanda da həmin tarixin daha maraqlı bir mərhələsinin, Nadir şahın fatehlik tarixinin başlanğıcı qoyuldu.

### 3. Nadir şahın Hindistan yürüşü

Nadir şah iki ay özünün tikdirdiyi Nadirabad şəhərində qaldı. Bu iki aylıq fürsətdən o, həm qoşunların istirahəti, həm də onların təkmilləşdirilməsi üçün istifadə etdi. Həmin vaxt ərzində Osmanlı sarayının elçiləri də Nadir şahın görüşündə oldular.Yuxarıda qeyd edildiyi kimi, Nadir şah tərəfindən sülh anlaşması üçün təqdim edilmiş təkliflərin bəziləri Osmanlı sarayında həssaslıqla qarşılandı və həmin təkliflərə aydınlıq gətirmək üçün Mosul valisi Mustafa paşa bir neçə digər nümayəndə ilə Nadir şah elçisi Əbdülbaqi xanla Bağdad yolundan İsfahana üz tutdular.İsfahandan isə nümayəndə heyəti Kerman yolu ilə Nadirabada doğru hərəkət etdi. Mənbələrə görə, 1738-ci ilin Novruz bayramından 50 gün sonra Osmanlı nümayəndə heyəti Nadir şahın görüşünə yetişdilər. Mustafa paşa Osmanlı sarayının qiymətli hədiyyələrini təqdim etməklə bərabər, yazılı və şifahi mülahizələrini də Nadir şaha təqdim etdi. Osmanlı sultanı məktubunda Cəfəri məzhəbinin tanınması və onunla bağlı Kəbədə 5-cü mehrabın açılmasının, yəni artıq formalaşmış olan 4 röknə dəyişiklik edilməsinin fayda verməyəcəyindən təəssüfləndiyini bildirirdi.İranlı zəvvar karvanları ilə bağlı Osmanlı sultanı xahiş edirdi ki, Məkkəyə doğru hərəkət zamanı Şam marşrutunun əvəzinə Nəcəf marşrutu seçilsin.Bildirilirdi ki, Şam marşrutu hərəkət üçün müəyyən çətinliklər yarada bilər. Nəcəf marşrutunun rahatlığının və əmin-amanlığının təmininə isə Osmanlı sultanı təminat verirdi (79).

Nadir şah iranlı zəvvarların Nəcəf yolu ilə Məkkəyə göndərilməsinə razı oldu. Bir şərtlə ki, Bağdad iranlı zəvvarlar karvanlarının mühafizəsinə və ehtiyaclarının ödənməsinə öz köməyini əsirgəməsin. Cəfəri məzhəbinin tanınması və Kəbədə 5-ci mehrabın açılması Nadir

şah üçün əhəmiyyət kəsb edən məsələlərdən biri idi. Ona görə bu məsələlərin Osmanlı sarayı tərəfindən qəbul edilməsinə bir də cəhd göstərdi və Luristan bəylərbəyi Əlimərdan xanı öz elçisi kimi Osmanlı nümayəndə heyəti ilə birlikdə yenidən Osmanlı sarayına göndərdi. Osmanlı sarayına olan xoş münasibətini nümayiş etdirmək üçün Nadir şah Osmanlı elçilərinə isti qonaqpərvərlik göstərdi, nümayəndə heyətinin üzvlərinə bahalı hədiyyələr bağışladı və onları ehtiramla yola saldı (80).

Bununla da Nadir şah diqqətini bütünlüklə Hindistan yürüşünün üzərində cəmlədi.Mənbələrdə Nadir şahın Hindistana yürüşünün səbəbi bu ölkənin ərazisində sığınacaq tapan qiyamçı əfqanlara qarşı Hindistan sarayının qətiyyətli mövqe tutmaması ilə əlaqələndirilir. Bu məsələ özlüyündə Nadir şahı da düşündürən bir məsələ idi. İstər şimaldakı əbdali əfqanları, istərsə cənubda gilzayi əfqanları mütəmadi olaraq qiyamçı yürüşlər edib mərkəzi dövlətin möhkəmlənməsinə zərbə vurdular. Hakimiyyətinin möhkəmləndirilməsi üçün ciddi narahatçılıq mənbəyi olan əfqan qiyamçılarının əsas qüvvələrinin bir dəfəlik susdurulması Nadir şahın arzularından biri idi. Amma əfqanlar Nadir şahın qoşunlarının təqibindən qaçıb Hindistan ərazisində sığınacaq tapa bilirdilər.

Qəndəhar yürüşünün əvvəlində əfqanların bir dəstəsi dağlara qaçanda Nadir şah onları təqib etmək əmri verdi. Həmin dəstə Hindistan sərhədini adlamaqla canını təhlükədən xilas edə bildi. Nadir şahın sərkərdələri Hindistan dövlətinə olan xoş münasibəti saxlamaq üçün iki ölkənin sərhədini pozmayıb geri qayıtdılar (81). Nadir şahı narahat edən o idi ki, əfqanlar Hindistan sərhədini adlayandan sonra öz əməllərindən əl çəkməyəcəkdilər. Müəyyən müddətdən sonra onların yenidən geri qayıdaraq ölkə daxilində narahatlıqlar yaratmayacağına heç kim zəmanət verə bilməzdi.

Nadir şah hələ Muğan qurultayı günlərində Əlimərdan xanı əfqanlarla bağlı məsələyə aydınlıq gətirmək üçün Hindistana göndərdi. Əlimərdan xan Şamlı Nadirin şahlıq taxtına çıxması xəbərini Hindistan padşahına çatdırmaqla bərabər, ondan əfqanların bu ölkənin daxilində sığınacaq tapmasına yol verməməsini də xahiş etməli idi. Həmin xahiş Nadir şahın hind padşahına ünvanladığı məktubunda da öz əksini tapmışdı (82).

Nadir şah Hindistan padşahı Məhəmməd şah Gurganinin nəzərinə çatdırdı ki, Qəndəharın gilzayi əfqanlarından təmizlənməsi üçün lazımi tədbirlər həyata keçirəcəkdir. Bu zaman əfqanlar Kabula və oradan da Hindistana geri çəkiləcəklər. Nadir şah buna yol verməmək üçün

sərhədlərin bağlanmasını xahiş edirdi.Məhəmməd şah Gurgani ilk baxışdan bu təklifi qəbul etdi və sərhədin bağlanması üçün həmin məntəqəyə bir alay göndərəcəyini Nadir şaha ünvanladığı cavab məktubunda da bildirdi. Həqiqətdə isə Məhəmməd şah sərhədin bağlanması üçün heç bir səmərəli tədbir həyata keçirmədi (83).

Belə olanda Nadir şah qullarağası Məhəmməd xanı yeni elçi kimi Hindistan sarayına göndərdi. O, Nadir şahın xahişlərini bir də Məhəmməd şahın diqqətinə çatdırdı. Amma bu dəfə də Hindistan sarayı tərəfindən əfqan qaçqınlarının qarşısının kəsilməsi üçün hər hansı bir tədbir görülmədi. Baxmayaraq ki, Hindistan şahı bu dəfə də sərhədin bağlanmasına söz verdi.

Qəndəhar yürüşü başlayanda isə əfqanların Hindistana qaçması daha da artdı. Yuxarıda qeyd edildiyi kimi, Nadir şahın qoşun dəstələrindən biri qaçan əfqan qiyamçılarını Hindistan sərhədinə qədər təqib etməli olmuşdu. Nəhayət, bu məsələnin həll edilməsinə nail olunması üçün Nadir şah, Məhəmməd xan Türkməni səfir kimi Send yolundan Hindistana göndərdi. Ona tapşırıldı ki, Hindistanda çox yubanmasın, Məhəmməd şahın cavabını alıb geri qayıtsın. Məhəmməd şah səfirin gətirdiyi xəbərlə tanış olsa da onun vaxtında geri qayıtmasına imkan vermədi və onu az qala bir ilə qədər ləngitdi.Qəndəharın fəthi başa çatandan sonra Nadir şah daha üç nəfəri Send yolu ilə Hindistana göndərdi. Bu üç nəfərə tapşırıldı ki, onlar Məhəmməd xan Türkməni tapsınlar və onu geri çağırsınlar ki, Məhəmməd şahın cavabını Nadir şaha yetirsin (84),

Lakin Nadir şah artıq onların geri qayıtmasını gözləmədən 1738-ci ilin mayında Hindistana doğru yürüşə başladı.

Tarixi ədəbiyyatda Nadir şahın Məhəmməd şaha göndərdiyi bir məktuba da rast gəlmək mümkündür. Bu məktubda Nadir şahın adından Hindistana göndərilmiş elçilərdən birinin öldürüldüyü bildirilir. Əvvəla qeyd edilməlidir ki, bəzi müəlliflərə görə, bu məktub Nadir şah tərəfindən Hindistana doğru hərəkətə başlamazdan əvvəl yazılmışdır(85).Tarixçi Pənahi Semnani isə haqqında danışılan məktubun məzmununun Nadir şahla Məhəmməd şah arasında olan söhbətin olduğunu bildirir ki, bu söhbət Hindistana yürüş uğurla nəticələnəndən sonra baş vermişdi (86). İstər “Tarix-e Cahanqoşa-ye Naderi”də və istərsə də “Aləm Ara-ye Naderi”də Nadir şahın Hindistana göndərdiyi elçilərdən hər hansı birisinin orada qətlə yetirilməsi barədə məlumat yoxdur.Yuxarıda da israr edildiyi kimi, yalnız sonuncu elçinin Hindistanda saxlanılması mənbələrdə öz yerini almışdır. Nadir şah elçisinin öldürülməsi məsələsi dövriyyəyə çox güman ki, C.Hanvey tərəfindən

gətirilmiş və bir çox müəlliflər də onun fikirlərini olduğu kimi təkrar etmişlər. Bir qədər irəli gedərək qeyd etmək lazımdır ki, böyük qələbədən sonra Nadir şahla Məhəmməd şahın görüşü zamanı Nadir şahın ona müraciəti C.Hanveyin əsərində aşağıdakı kimi verilmişdir: “Belə ola bilərmi ki, Siz bu dərəcədə dövlət işlərindən qafilsiniz və məni məcbur edirsiniz ki, Sizin ayağınıza gəlim? Mən Sizin sarayınıza iki səfir göndərdim.Onların biri beynəlmiləl qanunların əksinə olaraq, aramızdakı dostluq münasibətlərinin əksinə olaraq Pişavərdə qətlə yetirildi. Sizin vəzirləriniz də mənim məktublarıma qaneedici cavab göndərmədilər ” (87).

Başqa sözlə, C.Hanvey də elçilərin Məhəmməd şaha apardığı məktublara cavab verilməməsini, elçilərdən birinin öldürülməsini Nadir şahın Hindistana hücuma təhrik edən səbəblər kimi təsvir edir.

Həm C.Hanvey, həm də Jan Otter Hindistan sarayının nüfuzlu əyanlarının Nadir şahla məktublaşmasına və onların xəyanət göstərərək Nadir şahı Hindistana hücuma təhrik etməsinə toxunurlar. Bu iddiaya görə Məhəmməd şah sarayında xüsusi nüfuza malik olan Dekən hakimi Nizamülmülklə Ud hakimi Səadət xan saray xəyanətinin başında dayanırdılar. J.Otterin qeydlərinə görə, Nadir şah onlara cavab məktubu yazdı və Hindistana hərbi yürüşün çətinliklərini vurğuladı. Həmin çətinliklərin aşağıdakılardan ibarət olduğu bildirilir: Hindistana aparan dağ yolları və keçidləri bu ölkənin təbəələri olan əfqanların əlindədir. Əgər bu keçidləri keçmək mümkün olarsa, onda qarşıda Kabul hakimi Nadir xanın və Lahor sərkərdəsi Zəkəriyyə xanın müqaviməti ilə qarşılaşmaq lazım gəlir. Ən başlıcası isə Hindistanın çox böyük qoşunu var. Bu qoşunların yeniləşdirilməsi və təkmilləşdirilməsi imkanları da çoxdur. J.Otterə görə, Nadir şah öz qoşununun təchizat məsələsinin çətinliyini, xüsusilə Hindistan ərazisində bunun müşgülə çevriləcəyini də Hindistana hücum edilməsinin qeyri-mümkünlüyünün dəlili kimi göstərmişdi (88). Bu qeydlərdən belə güman etmək olar ki, Nadir şah Hindistana yürüş etmək məsələsində tərəddüd  keçirirmiş. Doğrudan da, Nadir şahı bu yürüşdə çox ciddi təbii maneələr və bu maneələrin imkanlarından istifadə etməyə hazır olan güclü düşmən gözləyirdi.Öz qoşunlarının təchizat məsələsi də Nadir şah üçün son dərəcə çətin vəzifə idi. 100 minlik qoşunu dar dağ keçidlərindən keçirmək və dağlıq ərazidə onları azuqə ilə təmin etmək son dərəcə böyük canfəşanlıq və əzmkarlıq tələb edirdi. Nadir şahın böyüklüyü və istedadı da onda idi ki, reallıqdan uzaq olan hərbi məsələlərin həllinə uğurla nail olurdu.

Tarixçilər arasında Nadir şahın Hindistana hərbi yürüş etməsinin əsas səbəbini Moqol imperiyasının zəifləməsində görənlər də vardır (89). Amma bu söylənilənləri böyük bir fatehin ən böyük hərbi yürüşü üçün əsas ola biləcəyini ciddi qəbul etmək olmaz. L.Lokkartın əfqan qaçqınlarının qarşısını saxlamaq üçün Nadir şahın tələblərini bir bəhanə olması qənaətini qəbul etmək olar (90). Amma ölkənin yoxsullaşdığı, xəzinənin boşaldığı bir vaxtda gələcək hərbi yürüşlər üçün mənbə axtarılıb tapılmasının Nadir şahın Hindistana yürüşünün əsas səbəbi olması haqqındakı Lokkartın qənaəti ilə də tam şəkildə razılaşmaq olmaz. Sözsüz ki, Hindistanın var-dövləti Nadir şahı cəlb edirdi və ölkənin maliyyə imkanlarının zəiflədiyi bir vaxtda həmin mənbələrdən istifadə etməklə gələcək hərbi yürüşləri də hazırlamaq olardı. Amma bu heç də o demək deyil ki, ölkə daxilində kifayət qədər maliyyə imkanı olsaydı, Nadir şah Hindistana hücum etməyəcəkdi. Əslində, məsələyə daha geniş şəkildə yanaşılmalıdır. Hindistan hesabına xəzinənin doldurulması arzusu kənara qoyulmadan qeyd edilməlidir ki, bu ölkəyə hərbi yürüşün başlıca səbəblərindən biri heç şübhəsiz ki, Nadir şahın fatehlik istedadının reallaşdırılması arzusu idi.Əmir Teymur kimi sərkərdənin fatehlik tarixini özünə nümunə qəbul edən Nadir şah həyatını və dövləti fəaliyyətini fatehlik siyasəti üzərində qurmuşdu və dünya tarixində də daha çox fateh kimi yadda qalmışdır.Hindistana hücum onun fatehlik qabiliyyətinin və potensialının yeni bir təsdiqi idi.Belə əzəmətli yürüşlərlə Nadir şah özünü reallaşdırırdı, nümunə götürdüyü əzəmətli fatehlərdən geri qalmadığını sübut edirdi.

Hindistana hərbi yürüş Nadir şahın uzun vaxtlardan bəri ürəyində bəslədiyi niyyətin həyata keçirilməsi idi. Bu barədə qəti qərara gələndən sonra Nadir şah Qəndəhar ətrafında sərkərdələrin, qoşun və tayfa başçılarının toplantısını çağırdı. Qarşıdakı son dərəcə ağır və uzun çəkəcək hərbi yürüşə başlamazdan qabaq Nadir şah toplantı iştirakçıları ilə məsləhətləşdi. Nadir şah onlara Hindistana hücum etmək qərarını açıqladı. Bu qərarını əfqan qaçqınları barəsində göndərdiyi məktublara Hindistan padşahının cavab verməməsi ilə əlaqələndirdi. Nadir şah vurğuladı ki, Hindistan padşahı tək əfqan qiyamçılarına deyil, Osmanlı, beluc, hezarə, taymanı qiyamçılarına da öz ərazisində yer verir. Toplantı iştirakçılarına İsgəndər Zülqərneyn və Əmir Teymurun da Hindistana hərbi yürüş etmələri xatırladıldı. O da bildirildi ki, Nadir şahın da belə bir qüdrəti var və Nadir şah da uğurlu yürüşü ilə Hindistanda sığınacaq tapan bütün asiləri, qiyamçıları və bütpərəstləri itaətə gətirə bilər. Toplantıda elan edildi ki, bütün qoşun və qoşun başçıları, sərkərdələr, tayfa başçıları evlərinə qayıtmaqda azaddırlar və onlar

istədikləri halda Hindistana yürüşün uğurla başa çatdırılması üçün dua edə bilərlər. Nadir şah anladırdı ki, Qəndəhar döyüşündən sonra qoşunların buna haqqı var və döyüşçülər Hindistana yürüşdə iştirak barədə qərar qəbul etməkdə azaddırlar. Bununla belə, Nadir şah arzu edənləri Hindistan yürüşündə iştirak etməyə dəvət etdi. O bəyan etdi ki, ona qoşulacaq, xidməti davam etdirəcək döyüşçüləri bol hədiyyələr və baş ucalığı gözləyir (91).

Nadir şahın bu bəyanatından sonra "Aləm Ara-ye Naderi"yə görə, bütün qoşun onunla hərbi yürüşün ağırlığını bölüşməyə hazır olduğunu bildirdi. Bundan sonra Nadir şah Hindistan yürüşünə son hazırlıq işləri barədə əmr verdi. Onun göstərişinə əsasən hərbi yürüşdə iştirak edəcək qoşun üzvlərinə iki illik maaş əvvəlcədən ödənildi. Bütün hazırlıq işləri başa çatandan sonra yuxarıda işarə olunan tarixdə Nadir şah Hindistana doğru üz tutdu.

Avropa mənbələri bildirirlər ki, Nadir şah Hindistana doğru hərəkətə başlayanda Hindistan sarayında Nadir şahla əlaqə qurmuş Nizamülmülk və Səadət xan Kabul qalasının, Kabul vilayətinin və Lahorun hakimlərinə məktub yazdılar, onlara Nadir şaha qarşı müqavimət göstərməyin əhəmiyyətsiz olduğunu izah etdilər.Müəlliflər bu məktubun təsirli olduğunu bildirsələr də (92) Nadir şahın Hindistana doğru hərəkəti boyu rastlaşdıqları çətinliklər bütünlükdə həmin məktubun yazılması faktının doğruluğunu şübhə altına alır.

C.Quzanlının əsərində Hindistana yürüşün Nadir şahın rəhbərlik etdiyi qoşunun tərkibi göstərilmişdir. Müəllif tərəfindən hansı mənbəyə istinad edilməsi göstərilməyən bu məlumat bəzi araşdırmalarda da təkrar edilmişdir. Həmin məlumatların doğruluğu qəbul edilərsə Nadir şahın qoşununun tərkibi aşağıdakı kimi idi:

1. Tüfənglə silahlanmış piyada döyüşçülər – 60000 nəfər
2. Nizə və qılıncla silahlanmış süvarilər – 31000 nəfər
3. Şah qvardiyasının atlıları – 5000 nəfər
4. Artilleriya – 5000 nəfər
5. Yük-nəqliyyat xdməti – 2000 nəfər

Göründüyü kimi, piyada qüvvələri 60 min civarında ehtimal olunur. 60 min piyada hər biri 1000 nəfərdən ibarət olan 60 alayda birləşməli idi. Alaylar döyüşçülərin mənsub olduqları şəhərlərin və məntəqələrin adları ilə adlandırılırdılar.

31 min nəfərlik süvari dəstəsi isə aşağıdakı tərkibdə formalaşdırılmışdı:

1. Avanqard və kəşfiyyat işlərinə məsul olan Hacıxan bəyin rəhbərliyi altında olan 4 min nəfərlik süvari dəstəsi;

2. Cahanqulu xan Əfşarın rəhbərliyi altında olan 1000 nəfərlik süvari dəstəsi;

3. Hüseynqulu xanın rəhbərliyi altında olan 6000 nəfərlik süvari dəstəsi;

4. Elbəyi Əfşarın rəhbərliyi altında 2000 nəfərlik süvari dəstəsi;

5. Səfi xanın rəhbərliyi altında 5000 nəfərlik əfşar süvarisi;

6. Sərdar Əfşarın rəhbərliyi altında 6 min nəfərlik özbək, gürcü, türkmən və qızılbaş süvariləri. Süvarilərin qalan hissəsinin kimlər olması göstərilməmişdir.

Şah qvardiyası ən yaxşı döyüşçülərdən təşkil olunurdu. Bu qvardiyaya min nəfər şamxalçı, min nəfər çavuş, min nəfər nəqibçi, min nəfər cilovdar daxil idi.Şah qvardiyasının müstəqim rəhbəri sərdar Qasım xan idi.Amma döyüş vaxtı şərait tələb edəndə Nadir şah özü birbaşa onlara göstəriş verirdi. Qvardiya süvariləri "qələbə şahənşahındır" ifadəsini qışqırmaqla döyüşə daxil olurdular. Bundan başqa Hindistana doğru icra edilən marş zamanı Rzaqulu Mirzənin 12 minlik piyada və süvari dəstəsi də Nadir şahın qoşununa qatıldı.

Topçuların, nəqliyyat və xidmət heyətinin sayı 8 min nəfər idi. Nadir şah özü ilə Hindistan yürüşünə 100 ədəd ağır və orta toplar aparırdı. Həmin toplar əsasən bürünc və misdən tökülmüşdü. Kabul şəhəri tutulan zaman ələ keçirilmiş 40 ədəd top da sonradan qoşun artilleriyasına əlavə edildi. Qoşunların yükünü, təchizatını daşımaq üçün 1200 at və 1500 dəvə nəqliyyat xidmətinə verilmişdi. Əlavə olaraq ordubazar da qoşuna qoşulmuşdu.Tibb xidmətinin göstərilməsi üçün isə bir xidmət dəstəsi təşkil edilmişdi. Bu dəstə malik olduğu avadanlıq və dərmanlarla yaralılara mümkün köməyi göstərməli idi (93).

Hindistana doğru hərəkətə başlamazdan əvvəl Nadir şah qoşunlara ümumi baxış keçirdi, bu yürüşün çətinliyi barədə danışdı, qarşıda dayanan vəzifələrin uğurlu icrası üçün bütün qüvvələrin səfərbər olmasını istədi. O, qoşunlara etdiyi müraciətində dedi: "Hündür dağ keçidlərindən, hündür dağ silsilələrindən və enli çaylardan keçmək çox çətindir.Gərək Hindistan sultanının qoşunları ilə döyüşək, belə mühüm bir müharibədə bəxtimizi sınayaq. Fəth və uğur bizim və millətin başını uca edəcəkdir. Qoşunların məğlubiyyəti isə milləti və dövləti zillətə salacaqdır. Bu böyük müharibədə və uzun səfərdə yalnız biz yox, bəlkə bütün millət Hindistanın sərvətindən bəhrələnəcəkdir. Yola düşək ki, Allah bizimlədir" (94).

Nadir şahın qoşunları üç sütunda hərəkətə başladılar. Dağlıq şəraitdə bütün qoşunların mərkəzləşdirilmiş şəkildə iaşə təminatının çətin-

liyi irəlicədən göründüyü üçün hər sütun ayrılıqda təmin edilmişdi. Kənardan sütunlara ərzaq gətirilməsinə daha ehtiyac qalmamışdı.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şah Hindistana doğru şimal-şərq marşrutunu seçmişdi. Bu marşrutla Nadir şah qoşunları Qəndəhardan şimala, Kabula yetişməli, sonra isə oradan yenidən cənub istiqamətində - Cəlalabad – Pişavər – Lahor yolu ilə hərəkətlərini davam etdirməli idi. Bu marşrutun keçid imkanları Nadir şahın diqqətini cəlb etmişdi. Ona görə də Nadir şah yolun xeyli uzanmasına razı oldu. İstənilən halda 100 minlik qoşunu, onun artilleriyasını, yükünü, təchizatını son dərəcə ağır və mürəkkəb dağ yolları ilə minlərlə kilometr hərəkət etdirmək, həmin marşı uğurla başa çatdırmaq Nadir şahın sərkərdəlik tarixinin parlaq səhifələrindən biridir.

Nəhayət ki, yuxarıda göstərilən tarixdə Nadir şah qoşunları ilə Nadirabaddan Qəznəyə doğru hərəkətə başladı. Güman etmək olar ki, Nadir şahın Qəndəhar ətrafında ləngiməsinin bir səbəbi də havaların istiləşməsini gözləməsi idi. Əks təqdirdə dağ yolları ilə hərəkət etmək daha çətin ola bilərdi.

Qoşunların ilk dayanacağı Qəzninin 6 fərsəngliyində yerləşən Qarabağ məntəqəsi oldu. Burada qoşunlara istirahət verildi və eyni zamanda ətraf məntəqələrin itaət altına gətirilməsi üçün tədbirlər həyata keçirildi. Amma Nadir şaha xəbər gətirildi ki, Bamiyan və Qurbənd istiqamətindəki əfqanlar Nadir şahı tanımaq istəmirlər. Onda Nadir şah oğlu Nəsrulla Mirzənin rəhbərliyi altında həmin istiqamətə böyük bir qoşun dəstəsi göndərdi. "Aləm Ara-ye Naderi"də bildirilir ki,Ləğman ətrafındakı tayfalar və hezarələr də Nadir şaha tabe olmaqdan imtina etdilər.Nadir şah əvvəlcə Mömün bəy Mərvinin rəhbərliyi altında 1500 nəfərlik dəstəniLəğman ətrafına göndərdi. Sonra da Nəsrulla Mirzəni böyük bir dəstə ilə tabe olmaq istəməyən tayfaları itaət altına gətirməyə göndərdi.Nəsrulla Mirzəyə tapşırıldı ki, həmin vəzifəni yerinə yetirəndən sonra Kabula doğru hərəkətini davam etdirsin və orada Nadir şahla birləşsin (95).

Nadir şahın böyük saylı qoşunu ilə Qarabağa yetişməsi Qəzni hakimini qorxuya saldı. O, Nadir şah qoşunlarının qarşısında aciz qalacağından Kabula qaçdı. Bununla Qəzni əslində Nadir şaha hər hansı bir müqavimət göstərmədi. Mənbələrdə də bildirilir ki, Qəzninin hakimləri, əyanları Nadir şahın hüzuruna gedib ona itaətini bəyan etdilər. Amma Qəzninin ətrafında yaşayan bir sıra tayfalar Nadir şaha itaət etməkdən boyun qaçırdılar. Onda Nadir şahın əmri ilə həmin tayfalar yaşayan məntəqələrə qüvvələr göndərildi (96).

Nadir şah haqqında olan mənbələrdə Qəzninin heç bir müqavimət olmadan itaət altına gətirildiyi vurğulansa da bəzi tarixçilər şəhər ətrafında əfqanların bəzi dəstələrinin Nadir qoşunlarına qarşı müqavimət göstərməsini bildirirlər. Heç bir mənbəyə istinad edilmədən verilən bu məlumata görə, müqavimət göstərən əfqan süvarilərinin sayı 600 nəfərə çatırdı. Lakin onların bütün cəhdləri əbəs oldu. Əfqan süvariləri qaçıb dağıldılar, əfqan tüfəngdarları isə əhali arasında gizləndi. O da qeyd olunur ki, əfqan süvariləri tərksilah edildilər və onların tüfəngləri, habelə beş ədəd topları qənimət götürüldü (97).

1738-ci il iyun ayının 11-də Nadir şah qoşunları ilə Kabula doğru hərəkətə başladı. Dərhal da elçilər vasitəsilə Nadir şah Kabul hakiminə məktub göndərdi. Həmin məktubu ilə Nadir şah Kabul hakimini narahat olmamağa  çağırır və çox güman ki, müqavimət göstərməkdən çəkindirməyə çalışırdı. Məktubda deyilirdi: "Məhəmməd şahın dövləti bizi maraqlandırmır. Amma o yerlərdə də əfqanlar, habelə qiyamçıların bir hissəsi qərar tutduğundan bizim vəzifəmiz həmin adamları məhv etməkdir. Özünüzə görə narahat olmayın, amma qonaqpərvər olun " (98).

Bununla belə, Kabul hakimi şəhəri müqavimətsiz təhvil vermədi. Kabul şəhəri Hindistan sultanının tabeliyində idi və oranın hakimi sultan tərəfindən təyin edilirdi. Heç şübhəsiz buna görə də Kabul qarnizonu müqavimətə əl atdı.Mövcud olan məlumata görə, Kabul və Pişavər hakimi Nasir xan Nadir şah qoşunlarının yaxınlaşması xəbərini eşidib Dehlidən hərbi yardım istədi. Nasir xan xüsusilə maliyyə vəsaiti göndərilməsini xahiş etdi. Bu vəsaitlə o, Kabul qarnizonunun məvacibini ödəmək istəyirdi.Dehlidən müsbət xəbər almayanda Nasir xan qorxuya düşdü və Kabula əlavə hərbi qüvvə göndərmək adı ilə Pişavərə yollandı. Kabulun müdafiəsi isə Kabul qalasının komendanti Şirzəy xana tapşırıldı (99).

Kabula yetişməyə üç mənzil qalmış Nadir şahın əmri ilə Xanəli xan Kukəlan və Qasım bəy Qacar bir alay qüvvə ilə ön dəstə kimi irəli göndərildi. Bu dəstənin tutub gətirdiyi yerli əhali nümayəndələri Nadir şah tərəfindən dindirildi və həmin  şəxslərin məlumatına görə, Kabulda 10-12 min nəfərlik hind dəstəsi qalanın mühafizəsini öz üzərinə götürmüşdü.Bundan başqa Zəhaki Marduş qalasında əlavə 12 min nəfərlik bir qüvvə mövcud idi. Kabul qalasının komendantı görünür Nadir şahla mübarizədə əsas məsələnin Kabul ətrafında həll olunacağını bildiyi üçün Zəhaki Marduş qalasındakı qüvvəni də öz yanına çağırmışdı.Lakin Nadir şah qoşunlarının yaxınlaşması ərəfəsində onun oğlu Nəsrulla Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi Zəhaki Marduş

qalasını ələ keçirmiş və oradakı qüvvə zərərsizləşdirilmişdi.Kabul qalasının komendantı bu xəbərdən xeyli mütəəssir olaraq qalanın müdafiəsinin təkbaşına təşkili üçün tədbirlər görmək məcburiyyətində qalmışdı (100).

Lakin yerli əhali bütünlüklə Kabul qarnizonunu müdafiə etmirdi. Nadir şahın qoşunları ilə yaxınlaşması xəbərini eşidəndən sonra yerli əhalinin nümayəndələri və əyanlar Nadir şahın düşərgəsinə gələrək itaətə hazır olduqlarını bildirdilər.Nadir şah bu insanları ehtiramla qarşıladı və onları hədiyyələrlə yola saldı.

Kabul qalasının komendantı irəliləməkdə olan Nadir şah qoşunlarının qarşısının saxlanması üçün qaladan kənarda döyüşə girməyi qərara aldı. Yalnız bu yolla Nadir şahın qoşunlarına müqavimət göstərmək olardı. Bir də çox güman ki, Şirzəy xan dağlıq ərazinin imkanlarından istifadə etməklə Nadir şaha qarşı kəşfiyyat döyüşü keçirmək və qarşı tərəfin potensialını müəyyənləşdirmək istəyirdi. Nadir şah isə bütün qoşunu ilə Kabula doğru hərəkətə başlamazdan əvvəl yenə Xanəli xanın və Qasım bəy Qacarın rəhbərliyi altında 6 min nəfərlik dəstəni irəli göndərdi. Şirzəy xanın qala bayırında ilkin rastlaşdığı hərbi qüvvə də məhz bu dəstənin bölmələri oldu. Şirzəy xan hətta güman etdi ki, onun qarşılaşdığı qüvvə Nadir şahın əsas qüvvələridir. Bu, onda belə bir ümid yaratdı ki, tezliklə Nadir şaha qalib gələcək və onu əsir edib hind sarayına göndərəcəkdir. Bununla bağlı hətta qoşun dəstəsinə də əmr verdi ki, Nadir şahın diri tutulmasına cəhd göstərilsin (101).

Şirzəy xanın bu arzularının əsassız olması tezliklə aydın oldu. Onun öndə gedən bölmələri Qasım xan Qacarın dəstəsindən ağır zərbə alıb geri qaçmağa üz tutdu.Hər iki tərəfdən əsas qüvvələrin döyüşə girməsi isə meydanı xeyli gərginləşdirdi. Kabul qarnizonu göstərdiyi bütün cəhdlərə baxmayaraq Nadir şah qüvvələrinin qarşısında duruş gətirə bilmədi və tezliklə qalaya doğru geri çəkildi (102).

Qeyd etmək lazımdır ki, "Aləm Ara-ye Naderi"də Kabul qalasının komendantının kim olması haqqında dolaşıqlıq vardır."Tarix-e Cahanqoşa-ye Naderi"də qala komendantı kimi Şirzəy təqdim olunur. "Aləm Ara-ye Naderi"də isə həm Şahnəvaz xanın, həm də Şahzədəc xanın adları çəkilir. Tarixçilərin gümanınca Şahnəvaz xan Kabul vilayətinin, Şahzədəc xan isə ehtimal olunur ki, (o elə Şirzəy xandır) Kabul qalasının hakimi idi (103).

Kabul qalasının komendantı elə ilk döyüşdən sonra anladı ki, Nadir şahla açıq meydanda mübarizə aparmaq onun üçün heç də mümkün olan iş deyil. Ona görə də qalaya çəkilib müdafiəyə hazırlaşdı, qala di-

varları üzərində çoxlu sayda tüfəngdar, zənburək, səfpozan və toplar yerləşdirdi, mühasirə üçün ehtiyatlar yaratdı. Kabul qalası üç tərəfdən dağlarla əhatə olunmuşdu, cənub-qərbdən isə Kabul çayı keçirdi. Çay olan tərəfdən Kabula yaxınlaşmaq daha münasib idi. Şəhərin cənub-şərqində dağ yüksəkliklərinə qədər uzanan qala divarları tikilmiş və bürclərlə möhkəmləndirilmişdi. Qala divarları qərbdə tikilmiş "Oqabin" bürcünə qədər uzanırdı. Oqabin bürcü Kabul üçün strateji əhəmiyyət kəsb edirdi. Bu bürcün ələ keçirilməsi ilə əslində qalanı ciddi təzyiq altına almaq mümkün idi. Nadir şah da Kabulu mühasirəyə alarkən məhz bu məqamdan səmərəli istifadə etməyə çalışdı (104).

Kabul qarnizonu ilə Xanəli xanın və Qasım xanın rəhbərliyi altında olan dəstənin döyüşünün uğurlu nəticəsi haqqında məlumat alan kimi Nadir şah bütün qoşuna irəli hərəkət etmək əmri verdi. Kabul qalasının yaxınlığındakı yüksəkliklərdən birinin üzərində Nadir şah öz çadırını qurdurdu və qala ətrafının kəşfiyyatının aparılması haqqında göstəriş verdi.Ona Oqabeyn bürcünün tutulmasının gərəkliliyi haqqında, habelə Kabula aparan yollar barədə məlumat çatdırıldı. Kabulun ətraf aləmdən təcrid edilməsi, kənardan gələ biləcək hərbi yardımların qarşısının alınması üçün Kabul-Pişavər yolunun üzərində bir süvari dəstəsi yerləşdirildi.Qalan qüvvələr isə qalanın mühasirəsinə istiqamətləndirildi (105).

Bu dövr üçün Kabul qalası etibarlı şəkildə mühafizə olunan və yüksək müdafiə imkanlarına malik olan qala kimi tanınırdı. Ona görə qala əhli də Nadir şaha qarşı müqavimət göstərməyin bir nəticə verməməsi tələbi qoyuldu. Qala komendantı bunu yaxşı anlayırdı. Amma Hindistan sarayının qınağına tuş gəlməmək üçün və qorxaqlıqda ittiham edilməmək üçün Nadir şaha qarşı müqavimət göstərilməsi qərarına gəldi.O, qala divarlarının, xüsusilə Oqabeyn bürcünün möhkəmləndirilməsinə göstəriş verdi, ora təcrübəli tüfəngdarlar yerləşdirildi.Həmin tüfəngdarlar Oqabeyn bürcünə yaxınlaşanları atəşə tutub geri qaytarmalı, ya da onları məvh etməli idilər (106).

Oqabeyn- qartallar mənasını verir və həmin bürcün qartal uçuşu hündürlüyündə yerləşməsinə bir işarə idi. Bu bürcün yuxarısından bütün qalanı müşahidə etmək və hədəfə almaq mümkün idi. Ona görə də qala komendantı qalanın müdafiəsinin təşkili baxımından bu bürcə böyük əhəmiyyət verirdi.Nadir şah da bu bürcə, hücumun gedişinə həlledici təsir göstərə biləcək bir hakim yüksəklik kimi baxırdı.Ona görə ilkin döyüşlər də məhz bu bürc ətrafında cərəyan edirdi. Avropa mənbələrində mövcud olan məlumatlara görə, Şirzəy xan Pişavər ha-

kimi Nadir xana və Lahor hakimi Zəkəriyyə xana məktub göndərərək onlardan hərbi yardım istədi.Lakin xahişinə müsbət cavab almadı. C.Hanvey və J.Otter öz əsərlərində onu da əlavə edirlər ki, əgər Şirzəy xan hərbi yardım ala bilsəydi, Nadir şahı Kabulun mühasirəsindən geri çəkilməyə məcbur edə bilərdi(107). Bu, yalnız avropalı müəlliflərin gümanı idi.Nadir şah üstün qüvvələrdən çəkinsəydi, onda heç Hindistan yürüşünə başlamazdı.

Nadir şah tüfəngdarlara Oqabeyn və onun ətrafındakı bürcləri ələ keçirməyi tapşırdı.Tüfəngdarların həmləsi top atəşləri vasitəsilə müşayiət olundu. Buna görə də bürclərin müdafiəçilərinin müqaviməti səmərəli alınmadı və çox sürmədi. Oqabeyn və onun ətrafındakı bürclər ələ keçirilən kimi, dərhal Nadir şaha xəbər verildi. Həmin xəbəri alan kimi Nadir şah topçubaşı Yarbəy xana göstəriş verdi ki, bir neçə qala topunu dağın başına qaldırsın və oradan qalanın daxili atəşə tutulsun. Hündür dağa qalxmağın bütün çətinliklərinə baxmayaraq ağır toplar deyilən yüksəkliyə qaldırıldılar.Bu, topçulara imkan verdi ki, qala daxilini mütəmadi olaraq atəşə tutsunlar. Piyada və süvari dəstələri isə qalanı mühasirəyə aldı. Nadir şah eyni zamanda kiçik dəstələrin qala divarları üzərinə həmlələrini təşkil etdi.Bəxtiyari, ləzgi və türkmən alaylarının könüllüləri bu hündür bürclərin ələ keçirilməsinə xüsusi canfəşanlıq göstərdilər.Onların açdığı atəşlər və əl bombaları bürc mühafizəçilərini geri çəkilməyə məcbur etdi və bürclər Nadir şah döyüşçülərinin əlinə keçdi (108).

Mühasirə günlərində qala qarnizonunun canfəşanlıqla Nadir şah qoşunlarına müqavimət göstərməsini də kənara qoymaq olmaz.İstər müdafiəçilərin ayrılıqda mübarizəsi,istər qala topçularının sərrast atəşləri hər halda mühasirənin müəyyən müddət uzanmasına yol açdı. Bununla belə, bu mühasirə uzun çəkmədi, Kabul qalası Nadir şah qoşunu tərəfindən tamamilə nəzarət altına alındı. Bu hadisə 1738-ci ilin iyulunda baş verdi. Kabulun tutulması ilə qala xəzinəsi və qalada olan 40 ədəd top ələ keçirildi. "Aləm Ara-ye Naderi"yə görə, qala hakimləri bağışlanmaları üçün Nadir şahın hüzuruna gəldilər və Nadir şah da onları bağışladı (109).

Bir müddət Kabulda qaldıqdan sonra Nadir şah şimala, Çarikara doğru hərəkət etdi. Çünki bir tərəfdən Çarikar ərazisi ərzaq və yem ehtiyatı ilə daha bol idi və bu sahədə ortaya çıxan çətinlikləri aradan qaldırmaq olardı.Digər tərəfdən nəzərdə tutulmuşdu ki, Kabulun şimalımdakı məntəqələr də itaət altına gətirilsin. Həmin məntəqələrin əfqanları da ilk vaxtlar müqavimətə əl atdılar və çoxları da dağlarda özlərinə sığınacaq tapdılar.Nadirin saysız-hesabsız qoşunlarına qarşı

mövqe tutmağın mənasızlığını anlayan bu insanlar tezliklə Nadir şahın yanına öz nümayəndələrini göndərdilər və Nadir şaha itaət etməyə hazır olduqlarını bildirdilər (110).

Nadir şah bir müddət Kabul ətrafında qalmalı oldu. Bu müddət ərzində Nadir şah qoşunlara istirahət verməklə bərabər, həm də ehtiyatların təkmilləşdirilməsi ilə məşğul oldu. Eyni zamanda Nadir şah oğlu Rzaqulu Mirzənin öz qoşunu ilə Bəlxdən gəlməsini gözlədi. Amma Rzaqulunun gəlməsi ləngiyəndə Nadir şah Cəlalabada doğru hərəkətə başladı.

Kabul ətrafında olarkən Nadir şah Hindistan şahı Məhəmməd şaha yeni bir məktub yazdı. Həmin məktubda Nadir şah bildirirdi ki, Kabulu tutmaqda yeganə məqsədi Dekən qiyamçılarının oradakı ağalığına son qoymaq, onları azğın hərəkətlərinə görə cəzalandırmaq idi. Nadir şah onu da bildirirdi ki, bu azğınlar Hindistana tərəf qaçacaqları təqdirdə onları təqib edib cəhənnəmə göndərmək əzmindədir. Bundan sonra isə Nadir şah məktubunda bir daha Məhəmməd şaha olan dost münasibətini və ehtiramını ifadə edirdi (111).

Nadir şahın məktubu bir yasavul və iki nəfər Kabul sakini vasitəsilə yola salındı.Elçiləri 10 nəfərlik süvari qrupu müşayiət edirdi.Nümayəndə heyəti Cəlalabada çatanda yerli hakm onların hərəkətini dayandırdı və Hindistana getmələrinə imkan vermədi. Nadir şahın məktubunun məzmunundan xoşlanmayan hakim elçini öldürməyə göstəriş verdi və Kabul nümayəndələrini isə Pişavərə göndərdi. Nümayəndə heyətini müşayiət edən süvarilər Cəlalabad hakiminə itaət göstərməkdən imtina etdilər. Belə olanda Cəlalabadda sığınacaq tapmış əfqan qaçqınları süvariləri də qətlə yetirdilər (112).

Elçilərin öldürülməsi xəbərindən Nadir şah xeyli qəzəbləndi və bundan sonra Kabul ətrafında dayanmağa son qoyaraq Cəlalabada doğru hərəkətə başladı.Cəlalabad hakimi ilə bərabər, Cəlalabadın ətrafında yaşayan bir çox tayfalar da Nadir şaha itaətdən boyun qaçırdılar. Bu tayfaların bəzilərinin həm böyük qoşun dəstəsinə malik olması, həm də Nadir şahın qoşununa marş zamanı təhlükə yarada bilməsi onların da zərərzisləşdirilməsini zəruri edirdi. “Aləm Ara-ye Naderi”də Katuk tayfasına qarşı Aslan xan Qırxlının rəhbərliyi altında 6 min cəzayirçinin və 6 min də tüfəngdarın göndərilməsi geniş təsvir olunmuşdur. Katuk tayfası silahlılarının mağaralarda və qalalarda mövqe tutmaları onların mühafizəsini asanlaşdırsa da Aslan xan Qırxlı onların müqavimətini qırmağa nail oldu. Mənbədə Aslan xanın və onun dəstəsində olan minbaşı Zaman bəyin, minbaşı İsmayıl bəy

Radkaninin Məhəmmədəli bəy Sərvərlinin həlledici döyüşdəki şücaəti əfsanəvi şərq qəhrəmanlarının şücaəti ilə müqayisə edilmişdir (113).

1738-ci il sentyabr ayının əvvəllərində Nadir şah da qoşun dəstəsi ilə Cəlalabad yaxınlığına gəldi. Bu xəbəri eşidən kimi Cəlalabad hakimi şəhəri tərk edib qaçmağa üz tutdu. Belə olanda şəhər əhli Nadir şahın yanına nümayəndələrini göndərdi və ona itaət göstərməyə hazır olduğunu bildirdi.Bununla da Cəlalabad müqavimət göstərmədən təslim oldu. Nadir şahın elçilərinin öldürülməsinin başqa bir səbəbkarı olan Mir Abbas da şəhərdən qaçmaq məcburiyyətində qaldı. Onun qaçması xəbəri alınan kimi arxasınca bir süvari dəstəsi göndərildi. Tarixi ədəbiyyatın bəzisində Mir Abbasın özünün və dəstəsinin məhv edildiyi, bəzisində isə Mir Abbasın özünün qaçıb canını qurtarması bildirilir (114).

Cəlalabad və onun ətrafında itaət göstərmək istəməyən bütün qüvvələr zərərsizləşdirildikdən sonra Nadir şah şəhərin beş fərsəngliində olan Bahah Səfli adlı məntəqədə düşərgə saldı.Övladları Nəsrulla Mirzə ilə Rzaqulu Mirzəni də burada qarşıladı.Əvvəlcə Nəsrulla Mirzə Nadir şahın düşərgəsinə yetişdi. Sonra da Rzaqulu Mirzə Bəlxdən qoşunu ilə atasının görüşünə gəldi. Hərəkətini sürətləndirmək üçün Rzaqulu Mirzə qoşunun yükünü  və təchizatını Kabulda tərk edib yoluna davam etdi. Noyabr ayının 7-də Rzaqulu Mirzə Nadir şahın düşərgəsinə çatdı. Nadir şah onun qoşun dəstəsinə baxış keçirdi. Uzun səfər zamanı Rzaqulu Mirzənin dəstəsindəki atlardan xəstəliyə tutulanların dəyişdirilməsinə göstəriş verdi. Düşərgəyə toplanmış qoşun başçıları və sərkərdələr arasında Nadir şah Rzaqulu Mirzəni ölkənin şahlıq taxtının nayibi etdi və ona şah adından ölkəni idarə etmək, bəylərbəyləri, vilayət hakimlərini təyin və azad etmək səlahiyyəti verdi. Nadir şah oğlu Nəsrulla Mirzənin də məqamını qaldırdı və övladlarının hər ikisinə səlahiyyət verdi ki, başlarına sancılan ciqqəni şahzadəlik vaxtındakı kimi papağının sol tərəfindən sağ tərəfinə keçirsinlər (115).

Ölkə işlərinin nizamlanması üçün Nadir şah Rzaqulu Mirzəni İsfahana yola saldı.Cəlalabad ətrafında olduğu vaxt Hindistan şahının elçiləri Nadir şahın yanına gəldilər və hind torpağına qoşun çəkməkdə məqsədinin nə olması barədə Məhəmməd şahın sualını ona çatdırdılar. Nadir şah elçilərə ehtiram göstərib ehtiramla da yola saldı və onlara bildirdi ki, Məhəmməd şahın sualına cavabı Dehlidə verəcəkdir (116).

Rzaqulu Mirzəni geriyə yola salandan sonra Nadir şah Dehliyə doğru hərəkətini davam etdirdi. Onun marşrutu üzərindəki növbəti bö-

yük yaşayış məntəqəsi Pişavər idi və Nadir şah şübhə etmirdi ki, Pişavər yolu boyunca növbəti müqavimətlərlə qarşılaşmalı olacaqdır.

Həm təhlükəsizlik məsələlərini, həm də dağ yolları ilə hərəkətin mürəkkəbliyini nəzərə alaraq Nadir şah qoşunu bir neçə sütuna böldü. Birinci sütun Hacı xan Əfşarın rəhbərliyi altında olan süvari sütunu idi.Hacı xan Əfşarın süvariləri Cəlalabad-Barikab marşrutu ilə hərəkət edib Barikabı ələ keçirməli idi.Hacı xan Əfşar dəstəsi ilə ən azı bir fərsəng məsafədə irəlidə getməklə kəşfiyyat işini aparmalı və əsas qüvvələrin hərəkət marşrutunun təhlükəsizliyini təmin etməli idi. Amma Hacı xan Əfşara göstəriş verilmişdi ki, böyük saylı hind qoşunu ilə döyüşə girməkdən çəkinsin. Bu sütunun arxasınca yarım fərsəng məsafədə ikinci süvari sütunu hərəkət edirdi.İkinci sütun da həm təhlükəsizliyi təmin etməli və həm də zərurət yaranacağı halda birinci sütunun köməyinə yetişməli idi. Həmin sütunların arxasınca isə piyada qüvvələri hərəkətə başlamalı idi. Nadir şahın qərargahı süvarilərlə piyadalar arasında yerləşdirilmişdi (117).

L.Lokkartın hesablamalarına görə, Nadir şah qoşunu ilə Cəlalabaddan 1738-ci il noyabrın 18-də hərəkətə başladı. Gündə beş fərsəng yol qət edən sütunlar yol boyu ciddi bir hadisə ilə qarşılaşmadan Barikab adlanan məntəqəyə doğru üz tutdular. Bir neçə gündən sonra bütün qoşun hər hansı ciddi bir hadisə ilə rastlaşmadan Barikaba yetişdi və orada çox dayanmadan yoluna davam etdi. Əsas sütunlar yol boyunca, köməkçi sütunlar isə cinahlarda yerləşməklə marşın icrasına başladılar. Nadir şah qoşunu marş icra etdiyi zaman irəliyə doğru kəşfiyyat dəstəsi göndərdi. Bir dəstə mənzil xidmətinin təşkili, qoşunların düşərgəsinin hazırlanması üçün irəli hərəkət etdi. 4 min nəfərdən ibarət olan bu dəstə düşərgə üçün yer seçib onun qurulmasına başlamalı idi. 3-4 günlük yoldan sonra əvvəlcə süvarilər, sabahı gün isə bütün qoşun Dekkə adlanan məntəqəyə çatıb düşərgə saldı (118).

Hələ Dekkəyə çatmazdan əvvəl Nadir şah Xeybər keçidi ətrafında düşmən qüvvələrin cəmləşməsi haqqında məlumat almışdı. Dekkədə düşərgə salandan sonra isə Xeybər keçidi və Xeybərə aparan yolların daha geniş kəşfiyyatının aparılması üçün Nadir şah müvafiq göstəriş verdi.Bu keçid hündür dağ yüksəkliklərindən keçirdi. Onun dar olması qoşunların keçidini məhdudlaşdırmaqla yanaşı yüksəklikdə yerləşdirilmiş silahlı dəstə çoxsaylı qoşunun hərəkəti üçün təhlükə ola bilərdi. Döyüşün yaxşı təşkil ediləcəyi halda Xeybər keçidi Nadir şahın qoşunlarının hərəkətini dayandırmaq üçün çox əlverişli bir yer idi.

Burada döyüşün düşünülmüş şəkildə qurulması Nadir şah üçün də çox ciddi bir sınağa çevrilə bilərdi. Nadir şah qarşısında ilk məğlubiy-

yət acısını yaşamış olan Kabul-Pişavər hakimi Nasir xan da Xeybər keçidinin bu imkanlarından yararlanmaq qərarına gəldi. Nadir şahın kəşfiyyatının gətirdiyi məlumatdan aydın oldu ki, doğrudan da Nasir xan Xeybər keçidində və bu keçidə aparan yol boyunca çoxlu sayda qoşun yerləşdirmişdir.

Nasir xan Nadir şahdan öz qisasını almaq üçün ətraf hakimlərə məktub göndərdi, onları qoşunları ilə birgə köməyə çağırdı. Nadir şahın yetişməsi ərəfəsində o, 20 minlik döyüşgən bir dəstə toplaya bildi və bu dəstəni Xeybər keçidi üzərində yerləşdirdi. Çoxları Nasir xana məsləhət bildi ki, müqavimət göstərmək fikrindən daşınsın. Xüsusən, heç Hindistan şahının da itaət altına gətirə bilmədiyi Katur tayfasının Nadir şah tərəfindən darmadağın edilməsi çoxlarında qorxu və vahimə yaratmışdı. Amma Nasir xan ona verilən məsləhətləri qəbul etmədi və bunun nə ilə bağlı olduğunu ətrafındakılara izah etdi. Bildirdi ki, Hindistan şahının ona göstərdiyi etimad qarşısında Nadir şah qoşunlarından qorxub qaçmağı özünə ar bilir və yaxşı adını qorumaq üçün Nadir şaha müqavimət göstərməkdən çəkinməyəcəkdir. Onun bu əzmkarlığı ətrafındakıların qətiyyətsizliyinə son qoydu və Nasir xan 20 minlik qoşunla Xeybər keçidini bağlamalı oldu (119).

Kəşfiyyatın verdiyi məlumatdan aydın oldu ki, Xeybər keçidindən adlamaq Nadir şah üçün elə də asan olmayacaqdır.Yol Xeybərə yaxınlaşdıqca həm daralır və həm də təhlükəliliyi artırdı.Belə olanda Nadir şah göstəriş verdi ki, ətraf yaşayış məntəqələrində yaşayan adamlardan bir neçəsini tutub onun yanına gətirsinlər. O, yerli adamların dindirilməsi vasitəsilə dağlardan keçən başqa yolların mövcudluğundan xəbər tutmaq istəyirdi.Nadir şahın əmri yerinə yetirildi və onun yanına gətirilən adamların dindirilməsi zamanı doğrudan da məlum oldu ki, Nasir xanın nəzarətindən kənarda olan belə bir yol mövcuddur.Sər Çubə adlanan həmin yol ilə irəliləmək Nadir şaha qismət olardısa, onda Nasir xan qüvvələrinin arxasına keçmək belə mümkün ola bilərdi. Həmin keçid şərq və cənub-şərqdə idi və oradan qoşun dəstəsinin keçməsi üçün ən adi bir şərait yox idi. Ona görə Nasir xan da həmin keçidə görə elə bir narahatçılıq keçirmirdi. Çox dar və daşlı yarğanlardan uzanan bu yoldan adətən hərəkət üçün istifadə edilmirdi. Xüsusilə də havaların soyuduğu vaxtlarda. Yerli əhali bu yoldan havaların əlverişli vaxtlarında  çox nadir hallarda istifadə edirdi. Sər Çubə yolu sonra hündür dağlarla daha da daralırdı və yolun keçilməzliyini daha da artırırdı.Bütün bu çətinliklərinə görə Nasir xan həmin keçidin mühafizəsini heç lazım bilməmişdi.

Buna baxmayaraq Nadir şah bu marşrutla hərəkət etməyi və Nasir xanı qəfil yaxalamağı qərara aldı.

Hərəkətə başlamazdan əvvəl Nadir şah oğlu Nəsrulla Mirzəyə tapşırdı ki, hər gün Xeybər keçidinə doğru irəliləmək niyyətini nümayiş etdirsin, hətta Nasir xanın qoşun dəstələri ilə kiçik toqquşmalara girməkdən belə çəkinməsin. Bununla Nasir xan, Nadir şahın digər keçiddən istifadə etmək planından xəbər tutmasın və bütün diqqəti Xeybər istiqamətində cəmləşdirilsin. Nadir şahdan əlavə göstəriş alana kimi Nəsrulla Mirzə Nasir xanın diqqətini özünə cəlb etməklə məşğul olmalı idi. "Aləm Ara-ye Naderi"yə görə, Nadir şah 14 min nəfərlik süvari dəstəsi ilə bir gün-bir gecə ərzində Sər Çubə keçidini adlaya bildi (120).

Şahidlərin yazdıqlarından aydın olur ki, Nadir şah dəstəsini bir neçə yerə bölüb onların hər birini ayrılıqda hərəkət etdirdi. Nadir şahın Sər Çubə keçidini adlaması zamanı onu gürcü dəstəsi ilə müşayiət edən İrakli bildirirdi ki, səhər hərəkətə başlasalar da yolun çətinliyi üzündən cəmi 4 gəfsəng məsafə qət edə bilmişlər. Bu məsafəni qət edəndən sonra öndə gedən dəstə gecələmək üçün düşərgə saldı. Bir müddətdən sonra Nadir şah da onlara yetişdi və onun əmri əsasında bütün dəstə ay işığında hərəkəti davam etdirdi. Onun sözlərinə görə, cəmi yarım fərsəng uzunluğunda olan Sər Çubə keçidini dəstə beş saat ərzində adlaya bildi (121).

Nasir xan Xeybərdə dayanmaqla Nadir şah qoşunlarının bütünlükdə orada cəm olduğundan xatircəm idi. Ona görə də Nadir şah Sər Çubə keçidini adlayan gecəsi Nasir xan arxayınlıqla istirahət edirdi. Qarovullar xəbər verəndə ki, Nadir şah Xeybər keçidinin arxasından yaxınlaşmaqdadır, Nasir xan gözlərinə inana bilmədi. Dərhal dəstəsinə döyüşə hazır olmaq əmri verdi. Amma Hacıxan bəy Əfşarın dəstəsi o qədər yaxın idi ki, Nasir xan öz dəstəsi ilə müdafiə təşkil etməyə belə imkan tapmadı. Nadir şah qoşununu dörd dəstəyə böldü və özü də onların biri ilə döyüşə girdi. Döyüş təbilləri ehtizaza gətiriləndən sonra Nadir şahın dəstələri Nasir xan dəstəsinin üstünə şığıdılar. Nasir xanın qüvvələri gözlərini açmağa macal tapmayıb yalnız qaçmaq barəsində düşündülər.Nasir xanın ətrafında olan dəstənin qaçıb dağılması Xeybər keçidində mövqe tutmuş hind qüvvələrini çətin vəziyyətə saldı. Bu dəstə uzun müddət Nasir xanın dəstəsinin qaçıb dağılmasından xəbərsiz qaldı. Ona görə də onlar özlərini təhlükəsiz vəziyyətdə hiss edir və hər hansı müdafiə tədbirinə də əl atmırdılar. Amma onlar xəbər tutanda ki, Nadir şah qüvvələri Xeybər keçidinin arxasına keçib, onda keçidin şərqində olan yolu bağladılar. "Aləm Ara-ye Naderi"nın verdiyi

məlumata görə, Nasir xanın məğlubiyyəti xəbərini eşidəndən sonra Xeybər keçidində yerləşdirilmiş 20 min nəfərlik hind qoşunu da qaçıb dağılmaq məcburiyyətində qaldı.Çünki göstərilən bütün cəhdlərə baxmayaraq Nadir şahın gözlənilməz manevri onların da vəziyyətini xeyli mürəkkəbləşdirmişdi. Belə olanda onlar da yalnız canlarını qurtarmaq barədə fikirləşdilər (122).

Bununla da Nadir şahın gecə manevri Xeybər keçidini ciddi bir müqavimətlə rastlaşmadan ələ keçirməyə imkan verdi. Nəticədə Hindistana doğru hərəkət zamanı ciddi sayılan maneələrdən biri də aradan qaldırıldı.

Nasir xan isə Nadir şah döyüşçüləri tərəfindən əsir götürüldü. Nadir şah dəstəsinin qəfil peyda olmasından çaş-baş qalan Nasir xan və onun döyüşçüləri qaçmağa çalışsalar da Nadir şah döyüşçülərinin təqibindən canlarını qurtara bilmədilər.Nadir şah döyüşçülərindən biri nizəsi ilə Nasir xanı vurmaq istəyəndə xanın qulamlarından biri ondan əl saxlamağı xahiş etdi və bildirdi ki, bu şəxs Nasir xandır. Xanın qulamı onu da əlavə etdi ki, Nasir xanı öldürmədən Nadir şahın yanına aparsın.Bunun əvəzində o, Nadir şahdan yaxşı mükafat ala bilər. Nadir şah döyüşçüsü belə də etdi və Nasir xanı Nadir şahın hüzuruna aparıb onun kimliyi barədə məlumat verdi.Nadir şah yanına çağırtdırdığı hind əsirləri vasitəsilə qarşısındakının doğrudan da Nasir xan olduğunu biləndə ona ehtiram göstərdi. O Nasir xana şahlara layiq libas verdi, ona daş-qaşla bəzədilmiş at bağışladı. Nəsəğçilərə əmr etdi ki, Nasir xan qüvvələrinin təqibinin dayandırılmasını sərkərdələrə çatdırsınlar. Nasir xanın sözü bütöv olması, öz şahına sədaqətini itirməməsi və ona həvalə olunan vəzifəni vicdanla yerin yetirməsi Nadir şah tərəfindən rəğbətlə qarşılandı və onun bu keyfiyyətlərini bəyəndiyini bildirdi. Nadir şahın nəzərində Nasir xan öz vəzifə borcunu prinsipiallıqla yerinə yetirən bir şəxs idi və buna görə də ona ehtiram göstərdi. Nadir şah bir gün sonra Nasir xanı azad etdi və ondan xahiş etdi ki, Pişavər əhalisini də sakitləşdirsin. Nadir şah əlavə olaraq onu da vəd etdi ki, Hindistanı tutmaq ona qismət olarsa Nasir xana daha yüksək vəzifələr verəcəkdir (123).

Xeybər keçidi tutulandan sonra Nadir şah oğlu Nəsrulla Mirzənin və onunla birgə olan əsas qüvvələrin də Xeybər keçidini adlaması barədə göstəriş verdi.Əsas qüvvələrin Xeybər keçidini adlamasına üç gün vaxt sərf edildi və sonra bütün qoşunlar birlikdə Pişavərə doğru hərəkəti davam etdirdi. Bu şəhər müqavimət göstərmədən təslim oldu. Nadir təxminən bir aya yaxın Pişavərdə dayanmalı oldu. Həmin müddət ərzində qoşunların təchizatının təkmilləşdirilməsi üçün lazımi təd-

birlər həyata keçirdi və Pişavərdə bir tədarük mərkəzinin yaradılmasına da göstəriş verdi.

Pişavərdə olarkən Nadir şah qardaşı İbrahim xanın öldürülməsi xəbərini aldı.Azərbaycan hakimi təyin edilmiş İbrahim xan Car və Tala ləzgilərinin qaldırdığı iğtişaşları yatırmaq üçün həmin məntəqələrdə apardığı döyüşlərdə həlak olmuşdu. Bu xəbərdən son dərəcə kədərlənən Nadir şah bir müddət hətta Hindistana yürüşün davam etdirilməsi barədə tərəddüd keçirdi. Nadir şah ehtiyat edirdi ki, onun Hindistana yola düşməsi xəbərini eşidəndən sonra ləzgilər və Osmanlı qoşunları hücuma keçsinlər və yeni əraziləri ələ keçirsinlər.Amma sonradan bu yürüşü dayandırmağa bir lüzum da görmədi.Hüsen xan məirbaşı və Əli xan Beqdeli kimi yaxın adamları Nadirə bildirdilər ki, ölkənin idarəsi Rzaqulu Mirzə kimi igid bir şahzadəyə tapşırılmışdır və buna görə ölkədəki vəziyyətlə bağlı narahatlıq keçirməyə dəyməz. Bundan sonra o, Əmiraslan xan Qırxlını (Nadir şahın bibisi oğlu olduğu bildirilir-M.S.) Azərbaycan hakimi təyin edib vəzifələrinin icrasına yola saldı. Nadir şah ona tapşırdı ki, çox qısa zamanda özünü Təbrizə çatdırsın, vilayət hakimlərini yanına toplasın və onların qoşun dəstələrinə baxış keçirsin. Əmiraslan xandan eyni zamanda tələb olunurdu ki, bahar və yay aylarında vaxtının çoxunu Gəncədə, Qarabağda, Göyçə və İrəvanda keçirsin, bu vilayətlərdə vəziyyəti nəzarət altında saxlasın, qışlağa isə Təbrizə qayıtsın. Vilayətlərdə dövlət əleyhinə hər hansı bir hərəkat baş verdiyi halda Əmiraslan xan həmin hərəkatların qətiyyətlə yatırılması üçün səmərəli tədbirlərə əl atmalı idi. Nadir şah, Nasir xanı isə Pişavər hakim vəzifəsində saxladı və 2 min nəfərlik bir qoşun dəstəsi də onun ixtiyarına verildi. Zəruri olan hazırlıq işlərini başa vurandan sonra Nadir şah qoşunların Lahora tərəf hərəkətini davam etdirdi (124).

İrəliyə doğru hərəkəti zamanı Nadir şah Hindistan ərazisindəki bir neçə bol sulu çayları adlamaq məcburiyyəti qarşısında qaldı. Nadir şahın Dehliyə doğru uzanan marşrutu üzərində beş iri çay cənuba doğru axıb Sind çayına tökülürdü ki, onların hər birinin dəf edilməsi böyük bir sınaq idi. Həmin çayların heç birinin üzərində ən adi tələblərə cavab verən bir körpü yox idi ki, onun vasitəsilə çayı adlamaq mümkün olsun. Bu çaylar üzərində elə bir körpü qurmaq lazım gəlirdi ki, həm 100 minlik qoşunu, həm bu qoşunun atlarını və yük heyvanlarını, həm də qoşunların yükünü, təchizatını və artilleriyasını adlatmaq mümkün olsun.Həmin dövrdə bu çayların hər biri Hindistan dövləti üçün keçilməz sədd rolunu oynayırdı və onlar düşmən qüvvələrin Dehliyə doğru hərəkət imkanlarını xeyli məhdudlaşdırırdı. Sind

çayının marşrut üzərindəki eni 1200-1500 metr arasında idi.Yalnız Kabul-Dərə adlanan yerdə bu çayın eni 450 metr idi ki, Nadir şah da məhz burada çay üzərində körpü və keçidlərin yaradılmasını məqsədəuyğun sayırdı (125).

Nadir şah çayın kəşfiyyatını, o cümlədən Kabul-Dərə adlanan sahənin müşahidəsini apararkən məlum oldu ki, çay yatağının ən ensiz yeri hesab olunan həmin sahənin qarşı tərəfində hind qoşunlarının Ətək adlı qalası vardır. Bu qala daşdan tikilmişdi və orada müəyyən miqdar qarnizon da saxlanılırdı. Qalanın və qala qarnizonunun vəzifəsi də Sind çayı üzərində olan həmin ensiz sahədən yad qüvvələrin keçməsinin qarşısını almaq idi. Hindistan sarayı doğrudan da bu qalanı kifayət qədər möhkəmləndirmiş olsaydı. Kabul-Dərə sahəsindən yad qüvvələrin çayı dəf etməsinin qarşısını ala bilərdi.Hindistan sarayının bu diqqətsizliyi Nadir şahın işlərini də bir qədər yüngülləşdirdi. Ətək qalasının qarnizonunun müşahidəsi altında çay üzərində körpü qurulması təhlükəli olduğundan ilk növbədə qala qarnizonunun zərərsizləşdirilməsi qərara alındı. Nadir şah öz nümayəndələrini qala komendantının yanına göndərdi və ona çatdırdı ki, müqavimətsiz təslim olarsa, ona və onun döyüşçülərinə toxunulmayacaqdır. Əks təqdirdə digər şəhərlərin qarnizonu kimi, Ətək qarnizonunu da ağır tale gözləyir.Ətək qalasının komendantı Nadir şahın adını eşidən kimi vahiməyə düşdü və nəinki təslim olmağa, hətta çay üzərindən keçidin qurulması üçün mümkün kömək göstərilməsinə də razılıq verdi (126).

Ətək qalası qarnizonunun məsələsi həll olunandan sonra çay üzərindəki keçidin qurulmasına daha təhlükəsiz şərait yarandı. Nadir şah əmr etdi ki, ətraf yaşayış məntəqələrində yerli əhalinin çayı keçmək üçün istifadə etdiyi qayıqlar və digər vasitələr toplanıb keçidin qurulacağı yerə gətirilsin.Nəzərdə tutulmuşdu ki, bu qayıqlar suyun üstündə yan-yana düzülüb bir-birinə möhkəmləndirilsin, sonra onların üstü örtülsün və qoşunların keçməsi üçün yararlı bir hala salınsın. Qayıqlar çay kənarında toplandıqdan sonra məlum oldu ki, onların su üzərində bir-birinə möhkəmləndirilməsi üçün kifayət qədər kəndir yoxdur. Onda Nadir şah göstəriş verdi ki, qoşunlardakı bütün atların yal və quyruqları qırxılıb kəndir hörülməsinə istifadə edilsin. Belə də edildi və at tükündən çay üzərində körpü qurulması üçün lazım olan kəndir hörüldü. Bununla da çay üzərindən keçid qurmaq mümkün oldu və 4 gün ərzində Nadir şahın bütün qüvvələri çayın o biri sahilinə adladı (127).

Nadir şah Sind çayını keçən kimi vaxt itirmədən Lahora doğru istiqamət götürdü. Qoşunların təhlükəsizliyinin təmin edilməsi üçün cinahlara mühafizə dəstələri təyin etdi, qarşıya isə kəşfiyyat dəstəsi

göndərdi. Sind çayını keçəndən sonra Nadir şah bir neçə gün heç bir təhlükə ilə rastlaşmadan hərəkət etdi. Mövcud olan məlumata görə, yalnız Celam çayı sahilində hind qoşunlarının cəmləşməsi Nadir şah üçün müəyyən maneə yarada bilərdi. Kəşfiyyatın təqdim etdiyi məlumatlardan aydın oldu ki, Lahor hakimi Zəkəriyyə xan qoşunu ilə Celam çayı kənarında mövqe tutub Nadir şahın irəliləməsinin qarşısını saxlamaq niyyətində idi (128).

Celam çayı sahilində Nadir şah qoşunlarının qarşısının kəsilməsi Zəkəriyyə xanla bərabər, həm də Hindistan sarayının diqqətini cəlb edən ciddi bir məsələ idi.Xeybər keçidinin Nadir şah tərəfindən adlanması Hindistan sarayı üçün təhlükənin yaxınlaşmaqda olduğunu aşkarladı.Ona görə də yaxınlaşmaqda olan Nadir şah qoşunlarının qarşısının saxlanması üçün ciddi addımların atılması qərarlaşdırıldı. Hindistan sarayı Zəkəriyyə xana tapşırdı ki, Nadir şaha müqavimət göstərsin. Bu tapşırığın icrası üçün ona kömək göstərilməsi də vəd olundu. “Aləm Ara-ye Naderi”yə görə isə Zəkəriyyə xan öz qoşunu ilə Nadir şahın yolunu kəsməyi qərara aldı və bu işin uğurla yerinə yetirilməsi üçün Hindistan sarayından da kömək istədi. Bu mənbədə bildirilir ki, Hindistan sarayından Zəkəriyyə xanın köməyinə böyük bir qoşun dəstəsi göndərildi (129).

Qeyd etmək lazımdır ki, “Tarix-e Cahanqoşa-ye Naderi”də Lahor ətrafındakı döyüş haqqında geniş məlumat yoxdur.“Aləm Ara-ye Naderi”də bu döyüş barədə təfərrüatlı məlumat verilsə də, bir çox təsvirlərin reallığı şübhə doğurur.Müxtəlif mənbələri əsas götürən tarixi ədəbiyyatda da bu döyüşün mənzərəsi haqqında ziddiyyətli və bir-biri ilə səsləşməyən məlumatlar vardır.

Bununla belə, həm mənbələr, həm də tarixi araşdırmalar Nadir şahın artıq Lahora yaxınlaşmasından Hindistan sarayının ciddi təşvişə düşdüyünü və Nadir şahın irəliləməsinin dayandırılması üçün Zəkəriyyə xana hərbi yardım göndərildiyini təsdiq edirlər. Doğrudur, hərbi yardıma kimin rəhbərlik etməsi haqqında mənbələrdə yekdil fikir yoxdur. Nadir şahın Lahor ətrafındakı ilk ciddi qarşıdurması da məhz Hindistan sarayı tərəfindən göndərilən hərbi qüvvə ilə oldu. “Aləm Ara-ye Naderi”yə görə, Dehlidən hərbi yardım gəlməsi xəbərini eşidən kimi Nadir şah bu qüvvəyə qarşı döyüşə başlamaq əmri verdi. Nadir şah qabaqlayıcı addım ataraq çalışırdı ki, Zəkəriyyə xanın qüvvələri ilə ona köməyə gələn qüvvələrin birləşməsinə imkan verməsin. Çünki bu qüvvələrin hər birinə ayrılıqda zərbə endirmək daha asan idi. Ona görə Nadir şahın əmri ilə Hacı xan Kürdün rəhbərliyi altında 14 min nəfərlik qoşun dəstəsi Dehlidən göndərilən racput döyüşçülərini

qarşılamağa göndərildi. "Aləm Ara-ye Naderi" bu dəstələrin qarşılanmasını geniş təfərrüatı ilə təsvir etmişdir və əslində bu qarşılanma Lahorun taleyini də həll etdi.

Adı çəkilən mənbəyə görə, Hacı xan Kürd açıq üzbəüz qarşılaşmanın üzücü döyüşə çevriləcəyini hiss etdiyi üçün pusqu qurmaq qərarına gəldi. Döyüşün nəzərdə tutulduğu ərazi yaxınlığında yerləşən qaranlıq qayalıqlardan birində dəstənin 13 min nəfərinə pusquda dayanmaq tapşırıldı və özü isə 1000 nəfərlik kiçik dəstə ilə Dehlidən gələn dəstənin qarşısına çıxdı. Qarşılaşma zamanı hind tərəfinin əldə etdiyi üstünlüyün Nadir şah döyüşçülərinin təqibinə çevrilməsi tezliklə onların pusquya düşməsinə gətirib çıxardı. Hind dəstəsi arxadan və cinahlardan əhatəyə alındı və ağır zərbəyə məruz qaldı.Dəstə başçısı qaçıb aradan çıxsa da onun qoşun rəhbərlərinin və döyüşçülərinin bir xeylisi əsir götürüldü. Nadir şah şücaət göstərmiş qoşun başçılarına öz təşəkkürünü bildirdi və onlara qiymətli hədiyyələr verdi. Hind əsirlərini isə azad edib Lahora göndərdi. Onların verdiyi məlumatlar Zəkəriyyə xanı ciddi təşvişə saldı və tabeliyində olan qoşuna Cəlam çayı sahilində mövqe tutmağı əmr etdi. Dehlidən gələn dəstə darmadağın edildikdən sonra Nadir şah Zəkəriyyə xanın dəstəsinə də zərbə vurmağı qərarlaşdırdı.Lakin Cəlam çayının keçid üçün münasib sayılan hissəsinin qarşı tərəfdən Zəkəriyyə xanın qoşununun nəzarəti altında olması onun işini müəyyən qədər çətinləşdirdi. Belə olanda Nadir şah onun qoşununa qoşulmuş Pişavər döyüşçülərindən çaydan keçid üçün digər bir yerin olub-olmamasını soruşdu və məlum oldu ki, çayın yuxarısına doğru 8 fərsənglik bir məsafədə çayı adlamaq üçün daha bir münasib sahə vardır. Nadir şah özü 14 minlik bir qoşun dəstəsi ilə həmin sahəyə tərəf hərəkət etdi. Qoşunların əsas hissəsi isə Nəsrulla Mirzənin rəhbərliyi altında öz yerində qaldı. Nəsrulla Mirzəyə tapşırıq verildi ki, Zəkəriyyə xanın diqqətini özünə cəlb etsin və Nadir şahın manevri onun diqqətini cəlb etməsin (130).

"Aləm Ara-ye Naderi"də daha sonra bildirilir ki, Nadir şah nişan verilən sahəyə gecə vaxtı gəlib çatdı. Şamlarla işıqlandırılan keçiddən adlayan qoşun dəstəsi çayın o biri sahilində yalnız atlara istirahət vermək üçün bir qədər dayanmalı oldu. Elə gecə vaxtı da Lahora doğru hərəkət davam etdirildi və Nadir şah bu şəhərin iki fərsəngliyində dayanacaq etdi. İrəli göndərdiyi kəşfiyyatçılar Zəkəriyyə xanın düşərgəsində sakitlik olduğunu və çoxlarının heç nədən şübhələnmədən yuxuya getdiyini bildirdi. Səhərin açılması ilə Nadir şahın dəstəsi iki istiqamətdən Zəkəriyyə xanın düşərgəsinin üstünə şığıdı. İlkin çaşqınlıqdan sonra özünə gələn hind tüfəngdarları düşərgə boyu mövqelərini

möhkəmlədib özlərini müdafiə etməyə cəhd göstərdilər. Nəticədə, hind düşərgəsinə xeyli yaxınlaşmış Nadir şah döyüşçülərinin bir qrupu qarşı tərəfin atəş zərbəsi altın düşdü və hətta bu qrup müəyyən qədər geri çəkilməli oldu.Nadir şah bu səhnəni görən kimi əmr etdi ki, 3 min nəfərlik cəzayirçi dəstəsi döyüş meydanına atılsın. Nadir şahın göstərişinə əsasən cəzayirçilər hind tüfəngdarlarına zərbə endirməli və sonra da onların hücumu qılınc və nizə ilə silahlanmış süvarilər tərəfindən davam etdirilməli idi. Nadir şah tərəfindən cəzayirçilərin irəli atılması döyüş meydanında vəziyyətin dəyişməsinə imkan verdi. Nadir şahın döyüşçülərinin qorxu bilmədən irəli şığıması hind tüfəngdarlarının mövqelərinə çaşqınlıq gətirdi və bütünlükdə Zəkəriyyə xanın müdafiə xətti yarıldı (131).

"Aləm Ara-ye Naderi"yə görə, hind dəstəsinin müdafiə xəttinin yarılması bu dəstənin vəziyyətini xeyli pisləşdirdi. Zəkəriyyə xan özü isə döyüşün əldən verildiyini anlayıb Lahora qaçdı. Onun qaçması ilə qoşun dəstələri də pərən-pərən oldular. Zəkəriyyə xanın düşərgəsi, əşyaları və çadırları Nadir şahın əlinə keçdi. Döyüş başa çatandan sonra Nadir şah çayın üzərindən keçid düzəltdirdi və bununla qoşunların əsas hissəsi də çayın sol sahilinə adladı (132).

"Aləm Ara-ye Naderi"yə görə, bununla da Lahor uğrunda aparılan döyüş başa çatdı. Zəkəriyyə xan qaçıb Lahora sığındı və sonra da əyanlarının məsləhəti ilə təslim olmağı qərara aldı. Bunun üçün əvvəlcə nümayəndələrini Nadir şahın yanına göndərdi, sonra da özü çoxlu hədiyyələrlə Nadir şahın düşərgəsinə yollandı.

"Tarix-e Cahanqoşa-ye Naderi"də Lahor ətrafındakı döyüşlər barədə belə geniş məlumat yoxdur. Amma müxtəsər şəkildə olsa da "Aləm Ara-ye Naderi"dəki məlumat təkrar olunur. Bu mənbədə Nadir şah qoşunu ilə Dehlidən Zəkəriyyə xanın yardımına göndərilən dəstə ilə döyüş xatırlanır, Zəkəriyyə xanın ağır vəziyyətə düşdüyü qeyd olunur və bildirilir ki, çıxılmaz vəziyyətdə qalan Zəkəriyyə xan vəkili Kifayət xanı Nadir şahın düşərgəsinə göndərib ondan barışıq istədi. Zəkəriyyə xan Nadir şaha hədiyyələr və 100 baş fil göndərdi. Nadir şah onun xahişini qəbul etdi, ona bahalı libaslar, bəzədilmiş atlar bağışladı və onu Lahor hakimliyində saxladı (133).

L.Lokkart isə Celam çayı sahilində döyüşün olmadığını, Dehlidən gələn qüvvə ilə olan döyüşün Ravi (Lavi) çayı sahillərində baş verdiyini bildirir.Bu fikirlərini o, daha çox hind mənbələrinə əsaslanaraq söyləyir. Nadir şah haqqında olan mənbələrdə Ravi çayının adı xatırlanmır. Çox güman ki, söhbət elə Celam çayı ətrafında baş verən döyüşdən gedir. Sadəcə döyüşün harada baş verməsi müəyyən mən-

bələrdə özünün düzgün əksini tapmayıb. Bəzi tarixçilərin də Ravi çayı sahilində baş verən döyüşdən danışması, yəqin ki L.Lokkartın təsiri altında baş vermişdir ki, bu məqama tənqidi yanaşılmalıdır (134).

Ağır səfər yorğunluğundan və iki gərgin döyüşdən sonra Nadir şah bir müddət Lahorda qaldı və qoşunlara istirahət verdi. Lahorda qaldığı vaxt ərzində Nadir şah həm nəzarət altına aldığı ərazilərdə idarəetmə işlərinin tənzimlənməsi, həm qoşunların təchizatının təkmilləşdirilməsi, həm də hind qoşunları haqqında məlumatların toplanması ilə məşğul oldu. Çünki Lahor ətrafındakı döyüşlərdən sonra Məhəmməd şah Nadir şahla müharibənin qaçılmaz olduğunu anladı. O, vilayət hakimlərinə məktub göndərib qoşun toplanmasını tələb etdi (135).

1739-cu il fevralın 6-da Nadir şah qoşunları Lahordan Şahcahanabad istiqamətində hərəkətə başladı. Eyni zamanda irəli kəşfiyyatçılar göndərdi  ki, hind qoşunlarının hazırlığı barədə  məlumat toplansın. "Aləm Ara-ye Naderi"yə görə, Nadir şah Lahordan hərəkətə başlayanda sərhəng Zadxanı kəşfiyyat işlərinə yolladı. Bu mənbədəki məlumata görə, Zadxan və başqa iki dərviş hind yoqları libasını geyinib tərkidünya dərvişlər sifətində Məhəmməd şahın düşərgəsinə getdilər. Hind hərbçiləri qoşunlarında tanınmadıqları üçün onlar arxayınlıqla məlumatların toplanmasına başladılar.Zadxan çalışsa da qoşunların sayını müəyyənləşdirə bilmədi.Çünki Cahanabaddan Kərnala kimi olan ərazilər hind qoşunları tərəfindən tutulmuşdu. Zadxan bir neçə gün düşərgədə qaldıqdan sonra gecə ikən oradan çıxıb geri qayıtdı və Kərnal ətrafında gördüklərini Nadir şaha çatdırdı(136).

"Tarix-e Cahanqoşa-ye Naderi"də hind qoşunlarının sayı 300 min nəfər göstərilir.  Həmin mənbəyə görə, qoşunlarda 2 min baş döyüş fili, 3 min top və digər təchizat da var idi. C.Hanveyə görə isə qoşunların sayı 350 min nəfər idi. Hərəkət düzülüşü zamanı qoşun sıralarının uzunluğu 12 fərsəng, eni isə 3 fərsəng idi (137).

Tarixi araşdırmalarda hind qoşunlarının  sayı haqqındakı rəqəmlərə ehtiyatla yanaşılır. Bəzi əsərlərdə hind qoşunlarının  sayı 200 min, digərində 250 min göstərilir.Hind qoşunlarının malik olduğu topların sayı haqqındakı məlumatlarda da fərqlilik mövcuddur (138).

Nadir şahın qoşunlarının sayı haqqında da  müxtəlif məlumatlar mövcuddur. C.Hanvey Nadir şah qoşunlarının sayının 160 minə çatdığını qeyd edir.Onun yazdığına görə, qoşunların yüzdən biri xidmət personalı idi.Hərəkət zamanı Nadir şah sərkərdələri çoxlu sayda at, dəvə və qatır tapıb qoşun işlərinə cəlb etmişdi. Müəllifin Nadir şah qoşunlarının sayı haqqında göstərdiyi rəqəm həqiqətə uyğun görünmür. Görünür elə ona görə də Nadir şah dövrünün tədqiqatçıları Hindistana

yürüş zamanı qoşunların sayına daha ciddi yanaşırlar.Göstərilən rəqəmlər arasında 80-90 min rəqəmi də vardır (139).

İstənilən halda Nadir şah qoşunlarının sayı hind qoşunlarının sayından az idi. İki dəfədən çox qüvvə üstünlüyünə malik olan hind qoşunlarına qələbə çalmaq Nadir şahın taktiki və əməliyyat fəallığı nəticəsində mümkün ola bilərdi.

Lahordan müəyyən qədər aralandıqdan sonra Nadir şah hind şahı Məhəmməd şaha yeni bir məktub göndərdi. Bu məktub kifayət qədər nəzakət normaları daxilində yazılmışdı və Nadir şah ciddi-cəhdlə Hindistana doğru səfərinin normal qarşılanmasına çalışırdı. Nadir şah bir daha hind sarayına elçilər göndərdiyini və onların vasitəsilə əfqan qiyamçılarının ölkə daxilinə buraxılmaması üçün hind şahından xahiş etdiyini xatırladırdı. Nadir şah hind şahına "qardaşım" deyə müraciət edirdi. Nadir şah qeyd edirdi ki, onun elçilərinə göstərilən münasibət dostluq çərçivəsinə sığmır və ona görə də Hindistana doğru hərəkət etməyi qərara almışdır. Nadir şah onu da əlavə edirdi ki, Cəlalabadı, Pişavəri və Lahoru fəth edəndən sonra hind sarayının nümayəndələrinin gələcəynə və münasibətlərin yenidən dostluq çərçivəsinə salınması üçün onların yeni təkliflər gətirəcəyinə ümid edirmiş. Ümidləri doğrulmayanda isə hərəkətini davam etdirməli olmuşdu (140). Lahordan hərəkətə başlayandan 4 gün sonra Nadir şah qoşunları ilə Sədlic çayı sahilinə çatdı. Bu çayın keçilməsi Hindistan paytaxtına doğru yürüşdə Nadir şah qoşunlarının qarşısına çıxan son böyük təbii maneə idi. Çayda suyun çox olması onun keçilməsini daha da çətinləşdirirdi. Nadir şahın əmri ilə bir neçə dəstə çaydan adlamağa cəhd göstərdi. Amma bu cəhd uğursuz oldu və nəticədə bu dəstələrin təchizatını, yüklərini və azuqəsini su özü ilə apardı. Çay üzərindən hər hansı bir müvəqqəti keçid qurmaq üçün zəruri olan vəsait mövcud deyildi. Ona görə qərara alındı ki, qoşunlar bir neçə günlüyə çay sahilində düşərgə salsın və çayın suyunun aşağı düşməsi baş versin. Dörd gündən sonra çayın suyu bir qədər səngidi, amma bu da çayın asanlıqla dəf edilməsinə imkan vermədi. Bir tərəfdən də şimal istiqamətində hind süvarilərinin həmləsi Nadir şah qoşunu üçün əlavə bir çətinlik yaratdı. Nadir şah süvarilərin rəhbəri Hacıxan bəyə tapşırdı ki, bir süvari dəstəsi ilə hindlilərin həmləsinin qarşısını alsın və onların keçid üçün seçilmiş əraziyə yaxınlaşmasına imkan verməsin. Bununla belə, Sədlic çayının dəf edilməsi bir neçə gün çəkdi. Adı çəkilən çayın sol sahilinə keçdikdən sonra Nadir şah qoşunu Ənbalə məntəqəsinə doğru irəlilədi (141).

Ənbaləyə doğru hərəkətə başlamazdan əvvəl Nadir şah, Hacıxan bəyin rəhbərliyi altında böyük bir dəstəni avanqard kimi irəli göndər-

di. Hacıxan bəyə göstəriş verildi ki, Ənbalə qalasını tutsun və qoşunların əsas hissəsinin yetişməsi üçün orada şərait yaratsın. Hacıxan bəy Kürd aldığı tapşırığın icrası üçün Ənbalə qalasına yetişən kimi onu mühasirəyə aldı. Yerli əhali heç bir müqavimət göstərmədən öz nümayəndələrini bahalı hədiyyələrlə Hacıxan bəyin yanına göndərdi və qalanın təhvil verilməsinə razılıq bəyan edildi. Səhəri gün Nadir şah qoşunu ilə Ənbaləyə yetişdi. Qala müqavimətsiz təslim edildiyi üçün Nadir şah yerli əhaliyə nəvaziş göstərdi və əhalinin gündəlik yaşayışı üçün çətinlik yaradılmayacağı bildirildi (142).

Ənbaləyə yetişəndən bir gün sonra, yəni fevral ayının 19-da Nadir şah Kərnala doğru hərəkətə başladı.Qoşunların yükü, təchizatı və avadanlıqları Ənbalədə saxlanıldı və onların qorunması Fətəli xan Əfşara tapşırıldı. Eyni zamanda irəli kəşfiyyat qrupu göndərildi. Həmin qrup xeyli irəli hərəkət edərək özünü hind qüvvələrinin topxanasına yetirdi. Qısa müddətli döyüşdən sonra bir neçə hind döyüşçüsünü əsir götürmək mümkün oldu. Nadir şah bu əsirləri dindirərək Məhəmməd şahın qoşunları və planları haqqında əlavə məlumatlar əldə etdi. Əsirlərdən alınan məlumat təhlil edildikdən sonra Nadir şah Əzimabad adlanan məntəqəyə doğru hərəkətə başlamaq qərarına gəldi. Bu məntəqə Nadir şahın və hind qoşunlarının əsas qarşılaşmasını baş verəcəyi Kərnaldan 12 mil şimalda idi.Qoşunların hərəkətindən əvvəl Nadir şah Əzimabada qarovul dəstəsi göndərdi.Qarovul dəstəsi Əzimabada çatıb dayanmalı və oranı mühafizə etməli idi. Nadir şah bir dəstəni də iki qrupa bölərək daha irəli, Məhəmməd şahın qoşunlarının toplandığı məntəqənin kəşfiyyatına göndərdi. Bu qrupların biri şərqdən, o biri isə qərbdən irəliləməli idi. Qrupların hər biri öz istiqamətlərində yerləşən çaylar, meşələr, ərazilərin xüsusiyyətləri və s. haqqında məlumatlar toplamalı idilər. Sonradan onlar Əzimabada qayıdıb toplanan məlumatları Nadir şaha təqdim etməli idilər (143).

Bəzi tarixçilər ehtimal edirlər ki, əsr götürülmüş hind topçuları Nadir şaha Əzimabadda böyük bir qarnizon yerləşdiyini bildirmişdilər. Ona görə Nadir şah ilkin olaraq Əzimabada özü girməyi qərara aldı.Qoşunların əsas hissəsi Ənbalədə saxlanıldı və ona rəhbərlik Nəsrulla Mirzəyə tapşırıldı. Eyni zamanda Nadir şah əsas qoşun dəstəsinin təhlükəsizliyinin təmin edilməsi üçün bir neçə göstəriş verdi. Təcrübəli xanların rəhbərliyi altında olan bir neçə dəstəni cinahlarının mühafizəsinə vəzifələndirdi. Özü isə bir süvari alayı ilə Əzimabada (mənbədə saray-e Əzimabad adlandırılır -M.S.) doğru hərəkətə başladı.

Əzimabad qalası daşdan və kərpicdən tikilmiş və kifayət qədər etibarlı müdafiə imkanlarına malik bir qala idi. Həm yerli əhali, həm

də bu qalaya sığınmış Ənbalə hakimi bu müdafiə imkanlarından istifadə etməklə Nadir şah qoşunlarına müəyyən müqavimət göstərdi. Nadir şahın əmri ilə dəstənin bütün topları qalanı atəşə tutdular. Artilleriyanın səmərəli fəaliyyəti tez bir zamanda qala daxilindəkiləri təslim olmağa məcbur etdi (144).

Əzimabad qalası Nadir şah üçün son dayanacaq deyildi. Hind qoşunları ilə əsas qarşılaşmanın baş verməsi üçün həm irəliləmək, həm də münasib ərazi seçmək lazım idi. İstər yerli əhalinin verdiyi məlumatlar, istərsə də kəşfiyyatın gətirdiyi məlumatlar göstərirdi ki, hind qoşunlarının rəhbərliyi özləri üçün əlverişli olan bir ərazidə yerləşiblər və Nadir şahın qoşunları da həmin ərazidə gözlənilirdi. Hind qoşunları iki tərəfdən meşə ilə əhatə olunmuşdu ki, bu da onların müdafiə imkanlarını artırırdı. Onlarla üzbəüz ərazidə, Nadir şah qoşunlarının yerləşməsi və fəaliyyəti üçün düz ərazi yox idi. Belə bir ərazidə əməliyyat keçirmək Nadir şah qoşunlarını ağır vəziyyətə sala bilərdi. Məhəmməd şahın qoşunlarının yerləşdiyi əraziyə aparan yol da meşəlikdən keçirdi. Onda Nadir şahın diqqətini Kərnal-Dehli yolu üzərində yerləşən Banibüt istiqamətindəki eniş və düzən ərazi cəlb etdi. Bu ərazidə çoxsaylı qoşunların qarşılaşması üçün münasib coğrafi şərait var idi.Həmin ərazi Məhəmməd şah qoşunlarının dayandığl ərazinin şərqində yerləşirdi. Fevral ayının 23-də Əzimabaddan hərəkət edən Nadir şah Feyz çayını keçib Məhəmməd şah qoşunlarının iki fərsəngliyində olan açıq ərazidə düşərgə saldı. Bu ərazi Kərnaldan 5,5 mil aralı, onun şərqində və şimal-şərqində yerləşirdi. Burada qərar tutmaqla Nadir şah əslində, strateji bir mövqeyə sahib olmuş olurdu və Məhəmməd şahın onunla məhz həmin açıq sahədə döyüşə girməkdən başqa çarəsi qalmırdı. Çünki Nadir şahın yerləşdiyi ərazidən Banibüt məntəqəsini keçməklə Dehliyə birbaşa yol gedirdi. Məhəmməd şah Nadir şahın seçdiyi ərazidə döyüşə girməsəydi, Nadir şah birbaşa Dehliyə doğru hərəkət edə bilərdi.

Düşərgə yerini müəyyənləşdirən kimi Nadir şah dərhal hind ordusunu müşahidə etməyə yollandı. Bir neçə döyüşçünün müşayiəti ilə hind ordusunun yerləşməsini, təchizatını müşahidə etdi. Bu zaman Nadir şahın düşərgəsi ilə Məhəmməd şahın düşərgəsi arasında cəmi yarım fərsəng məsafə var idi (145).

Bununla da Nadir şah Hindistan yürüşünün həlledici mərhələsinə qədəm qoydu. Uzun səfərdən, ağır sınaqlardan sonra Nadir şah hind ordusu ilə əsas döyüşün aparılacağı ərazidə düşərgə qurdu. Burada o ya qalib gələrək adını dünya fatehləri sırasına yazdıra bilərdi, ya da

sayca bir neçə dəfə üstün olan hind ordusuna məğlub olmaqla özünü və ordusunun taleyini ciddi təhlükə qarşısına qoya bilərdi.

Amma qeyd etmək lazımdır ki, Nadir şahın yürüş etdiyi dövrdə Moqol imperiyası özünün heç də güclü dövrünü yaşamırdı. Hind sarayının səbatsızlığı, saray daxili çəkişmələrin hakimiyyəti zəiflətməsi dövlətin bütün potensialının Nadir şah qoşunları ilə mübarizəyə səfərbər olmasına imkan vermirdi. Elə bunun nəticəsi idi ki, Nadir şahın Qəndəhardan başlanan uzun yürüşü zamanı ona qarşı hind sarayı tərəfindən ciddi addım atılmadı.Nadir şah Qəndəhardan başlayaraq Dehlinin 125 kilometrliyində yerləşən Kərnala kimi keçdiyi yol ərzində çoxlu sayda təbii maneələrlə də rastlaşdı ki, onların imkanlarından daha səmərəli istifadə olunması Nadir şah qoşunlarının irəliləməsini xeyli çətinləşdirə bilərdi. Kabul, Cəlalabad, Pişavər və Lahor qalalarının alınması da hind sarayında ciddi bir fəallıq yaratmadı. Yalnız Cəlam çayı sahilində Nadir şah qoşunlarının irəliləməsinin dayandırılması üçün Dehlidən göndərilmiş hərbi qüvvə ilə toqquşma oldu ki, onun da bir faydası olmadı. Məhəmməd şahın nüfuzlu əyanlarından olan və saray siyasətinin formalaşmasına, Məhəmməd şahın qəbul etdiyi qərarların mahiyyət və məzmununa təsir imkanına malik olan Dekən hakimi Nizamülmülk, Aqrı hakimi “Bürhanülmülk” ləqəbli Səadət xan və Hindistan qoşunlarının baş komandanı, əmirülümərа Xan Dövran arasındakı gizli çəkişmələr də bütün diqqətin bir istiqamətə cəmlənməsinə mane olurdu. Məhz bu əyanların arasında fikir yekdilliyinin olmaması Əzimabad qalasının tutulmasından sonra Məhəmməd şahın Nadir şah qoşunları üzərinə hücum təşkil etmək əmri yerinə yetirilməmiş qaldı. Nizamülmülk, şahın əmrinə qarşı çıxaraq bildirdi ki, qoşunları dayandığı düşərgədən hərəkətə gətirmək fayda verməz. Onun nəzərincə hind qoşunları artıq səngərlənmişdilər, həm də Feyz çayı ilə bərabər yaxınlıqdakı meşələr də qoşunların cinahlarının qorunmasına kömək edirdi. Nizamülmülk təklif edirdi ki, Nadir şah qoşunlarını məhz orada qarşılamaq lazımdır. Səadət xanla Xan Dövran isə qoşunların irəli hərəkət etdirilməsini, Nadir şah qoşunlarının bir qədər irəlidə qarşılanmasını təklif edirdilər. Nadir şah qoşunlarının irəliləməsinin dayandırılması üçün ciddi bir addım atılmasa da Məhəmməd şah Səadət xanla Xan Dövranın təklifini qəbul edib qoşunları bir qədər irəlilətdi və Kərnalın 18 kilometrliyində, Feyz çayının sahilində düşərgə saldı (146).

Hindistan şahı Nadir şah qoşunlarının Dehli istiqamətində irəliləməsini görəndən sonra bir qədər fəallaşdı və ölkənin bütün potensialının Nadir şaha qarşı mübarizəyə səfərbər edilməsinə cəhd göstərdi.

Yuxarıda qeyd edildiyi kimi, o, bütün vilayət hakimlərinə qoşun dəstələri təşkil edib Dehliyə göndərməyi tapşırdı. Vaxtilə Məhəmməd şahın hakimiyyətə gəlməsinə köməyini göstərmiş və ona görə də şah sarayında xüsusi nüfuza malik olan Aqrı hakimi Səadət xan 40 minlik qoşun dəstəsi ilə Məhəmməd şahın qoşununa qatıldı və Nadir şaha qarşı döyüş əməliyyatının fəal iştirakçılarından birinə çevrildi.

Hind qoşunlarının sayı barədə yuxarıda qeyd edilmiş bəzi mənbələr bu sayın daha çox olmasına işarə edirlər. Yəni, son anda o qədər qoşun toplandı ki, Məhəmməd şahın özündə də Nadir şaha qələbə çalacağına bir əminlik yarandı. Dehlinin şimalında geniş ərazidə Məhəmməd şah öz qoşunlarına baxış keçirdi. Məhəmməd şah yaxın əyanları ilə bir yüksəkliyin üstünə qalxıb ucu-bucağı görünməyən qoşunlarını müşahidə edəndə məmnunluğunu gizlədə bilmədi. Xüsusilə, alaylara və dəstələrə bölünmüş qoşunların öz bacarığını əməli şəkildə nümayiş etdirməsi Məhəmməd şahın sevincinə səbəb oldu. "Aləm Ara-ye Naderi"yə görə, Məhəmməd şah qoşunların ətrafını dövrə vurmaq istəsə də buna nail olmadı. Çünki böyük sayda olan qoşunlar son dərəcə geniş bir ərazini əhatə etmişdi. Belə olanda Məhəmməd şah hədsiz arxayınlıqla bunu bəyan etdi: "Əgər qoşunumun hər bir döyüşçüsü bir ovuc torpağı qızılbaş qoşunlarının (Nadir şah qoşunları nəzərdə tutulur-M.S.) üzərinə atsa  həmin qoşun torpaq altında qalacaqdır. Qoy belə də olsun və onların izi qalmasın" (147)

Bu hadisə o vaxt baş verdi ki, Ənbalə hələ Nadir  şah tərəfindən ələ keçirilməmişdi. Məhəmməd şah Ənbalənin ələ keçirilməsini eşidəndə qoşunlarının çoxluğundan yaranan sevinci bir qədər ciddiləşdi. Nadir şah qoşunları ilə qarşıdurmanın çıxılmaz olduğunu anlayanda Məhəmməd şah Dehlidən Banibütə doğru hərəkətə başladı."Aləm Ara-ye Naderi"nin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Məhəmməd şah Nadir şah qoşunlarını Banibütdə qarşılamaq istəyirmiş. Lakin əyanları onu inandırdılar ki, Kərnal ətrafında mövqe tutmaq həm təchizat baxımından, həm də müdafiə baxımından daha münasibdir. Məhəmməd şah da bu məsləhətləri qəbul edib qoşunu Kərnal yaxınlığına gətirdi (148).

Bununla, əvvəlcə Məhəmməd şah, sonra da Nadir şah Kərnal yaxınlığında döyüşqabağı mövqelərini tutmuş oldular. Qarşıda Nadir şahı həyatının ən böyük döyüş əməliyyatı gözləyirdi. Bu döyüş əməliyyatından qalib çıxmaq üçün o, yerli şəraiti, düşmən qüvvələrinin imkanlarını, hətta qarşı tərəfin iradəsinə hakim olan siyasi ab-havanı belə dəqiqliklə öyrəndi. Tədqiqatçıların fikrincə, Kərnal döyüşünü planlaşdırarkən Nadir şah aşağıdakı bir sıra məqamlara nəzər yetirdi:

- Nadir şah bilirdi ki, hind qoşunlarının rəhbərliyi arasında fikir yekdilliyi yoxdur və onlar arasında ixtilaf mənəvi-psixoloji baxımdan qoşunların fəaliyyətinə də təsirsiz ötüşməyəcəkdir. Bu məsələ ilə bağlı döyüşdən qabaq Nadir şah qoşun başçılarını və sərkərdələrini toplayıb hind qoşunlarında mövcud olan mənəvi-psixoloji durumu onlara çatdırdı. Nadir şah öz sərkərdələrinə onu da anlatdı ki, məğlubiyyətə düçar olduğumuz halda geri çəkilməyə yolumuz olmayacaqdır. Çünki hərəkət marşrutu boyu itaət altına gətirilmiş tayfalar və yerli əhali Nadir şah qoşunlarının məğlubiyyətindən xəbər tutandan sonra bu qoşundan qisas almaq imkanını əldən verməyəcəkdir. Nadir şah sərkərdələrini əvvəlki döyüşlərdə göstərdikləri şücaəti və əzmkarlığı təkrar etməyə, düşmənə elə ilk qarşılaşmada ona ağır zərbə vurmağa çağırdı.
- Hind qoşunlarının rəhbərliyi çoxlu sayda döyüş filinin istifadəsinə böyük ümid bağlayırdı. Fillərin döyüşdə istifadə edilməsi və xüsusilə onların qoşunların ön xəttində yerləşdirilməsi Nadir şahın özünün də nigarançılığına səbəb olmuşdu. Çünki elə fillərin görünüşü Nadir şah döyüşçülərinə sarsıdıcı mənəvi-psixoloji təsir göstərə bilərdi. Nadir şah bu məqamın mühümlüyünü də sərkərdələrinin nəzərinə çatdırdı. Amma onu da əlavə etdi ki, düşmənin döyüş fillərinin sıradan çıxarılması üçün müəyyən vasitələrə əl atmaq fikrindədir. O əmr etdi ki, elə gecə ikən nəqliyyat və daşınmalar üçün nəzərdə tutulmuş dəvələrin bir hissəsini ön mövqelərə gətirsinlər, onların belinə mis təndirlər bağlansın və bu təndirlərin içinə qıra batırılmış odun və ağac parçaları yığılsın.Həmin dəvələr döyüş qabağı zənburək dəvələrinin yerləşdiyi istiqamətə gətirilsin və sonrakı addım üçün Nadir şahın xüsusi işarəsi gözlənilməli idi. Nadir şah nəzərdə tutmuşdu ki, bu dəvələrin belinə bağlanmış təndirin içindəki ağaclara od vurulsun və belinin qızmasından vahiməyə düşmüş dəvələr düşmən fillər istiqamətinə qovulsun. Ümid edilirdi ki, bu əməl düşmən fillərinin sırasının pozulmasına yol açacaqdır.
- Nadir şah bu döyüşün taktikasını da əvvəlki döyüşlərdə olduğu kimi daha çox gözlənilməzliyin, sürətin, düşmənin müəyyən edilmiş zəif nöqtəsinə güclü zərbənin endirilməsi üzərində qurmaq istəyirdi. Nadir şah sərkərdələrinə də bəyan etdi ki, bütün istiqamətlər üzrə düşmənə üstün gəlməyə ehtiyac yoxdur. Kifayətdir ki, düşmənin zəif nöqtəsi müəyyənləşdirilsin və ən güclü zərbə də həmin nöqtəyə vurulsun (149).

"Aləm Ara-ye Naderi"də Məhəmməd şah qoşunlarının ön dəstəsi ilə Hacıxan bəyin rəhbərliyi altında olan dəstənin qarşılaşmasına to-

xunulur. Mənbədən aydınlaşdırmaq çətin deyil ki, bu toqquşma hind qoşunları Kərnalda düşərgə saldıqdan və Səadət xanın qoşun dəstəsinin Banibütə çatmasından bir gün əvvəl baş vermişdir. Bu barədə yazılanlar doğrudursa onda Məhəmməd şahın ön dəstəsinin deyil, çox güman ki, söhbət hind düşərgəsinin mühafizə dəstəsinin Hacıxan bəyin süvari dəstəsi ilə qarşılaşmasından gedə bilər. Mənbədə o da bildirilir ki, Hacıxan bəy dəstəsini üç qrupa böldü, özü ortada olmaqla sağ cinahı Qasım bəy Qacara, sol cinahı Məhəmmədəli xana tapşırdı. Hacıxan bəy hind dəstəsinə gözlənilmədən zərbə endirdi, qarşı tərəfin döyüşqabağı düzülüşünün icrasına belə imkan vermədi (150).

Məhəmməd şah Nadir şah qoşunlarının Kərnal yaxınlığında düşərgə salması xəbərini eşidən kimi dərhal döyüşə başlamadı. Çünki bir tərəfdən döyüşün xarakteri barədə qəti qərar qəbul edilməmişdi. Məhəmməd şahın əyanlarından bəziləri hind qoşunlarının müdafiədə dayanmasını və Nadir şah qoşunlarının da müdafiə səngərlərində qarşılanmasını istəyirdilər. Əyanların və sərkərdələrin bir qrupu isə müdafiə səngərlərində dayanmağın hind qoşunları üçün təhlükə ola biləcəyini düşünür və hind qoşunlarının hücuma keçməsini məqsədəuyğun bilirdi. Son nəhayətdə Məhəmməd şah da hücuma keçməyi qərara aldı.Digər tərəfdən Məhəmməd şah Səadət xanın öz qoşunu ilə yetişməsini gözləyirdi. Onun dəstəsinin yetişməsi ilə qoşunların qruplaşdırılması, döyüşqabağı düzülüşün müəyyənləşdirilməsi başa çatdırıla bilərdi. Mövcud olan məlumatlara görə, fevral ayının 23-də Səadət xan rəhbərlik etdiyi qoşun dəstəsi ilə Banibütə gəlib çatdı (151).

Yuxarıda qeyd edildiyi kimi, Səadət xanın dəstəsi kifayət qədər böyük dəstə idi və Məhəmməd şah da onun gəlib çıxmasını gözləyirdi. "Aləm Ara-ye Naderi"yə görə, Səadət xanın böyük bir qoşun dəstəsi ilə Məhəmməd şahın köməyinə tələsməsi xəbərini Nadir şah da almışdı. Qərara alındı ki, Səadət xanın dəstəsinə hələ yolda ikən zərbə endirilsin. Bunun üçün Nadir şah tərəfindən Xanəli xanın və Hacıxan bəy Kürdün rəhbərliyi altında olan dəstəyə xüsusi tapşırıq verildi. Bu mənbədə olan məlumata görə, həmin dəstənin dozor qrupu ilə Səadət xan dəstəsinin ön qruplarından biri arasında toqquşma baş verdi. Səadət xanın əsas qüvvələri döyüşdə iştirak etmədilər və Səadət xan Məhəmməd şahın düşərgəsinə yetişəndən sonra onun dəstəsinə hücum edilməsi və başlıcası isə onun dəstəsinin yüklərinin və parkının Nadir şah dəstələri tərəfindən ələ keçirilməsi haqqında məlumat aldı.

Görünür, Səadət xan dəstəsinin döyüş düzülüşünə və mühafizəsinə lazımi diqqət yetirə bilməmişdi.Çünki dəstənin parkı və nəqliyyat qrupu dəstədən kifayət qədər aralı düşmüşdü. Xanəli xan nəqliyyat qru-

punun arxada qalmasını eşidən kimi onun üstünə hücum çəkdi. Nəqliyyat qrupunda isə əvvəlcə güman edilirdi ki, gələnlər dəstə rəhbərliyi tərəfindən onlara göndərilən köməkdir. Yalnız sonra aydın oldu ki, gələnlər Nadir şah qoşunlarıdır. Xanəli xan, Səadət xanın bütün yüklərini və təchizatını ələ keçirdi (152).

Gecə ikən bu xəbər Səadət xana çatdırıldı. O dərhal yüklərin və təchizatın geri qaytarılması üçün yola düşmək əmri verdi. Mənbələrin və tarixçilərin məlumatına görə, Səadət xanın bu cəhdi uğursuz bir cəhd oldu. Çünki uzun səfərdən sonra onun döyüşçüləri xeyli yorulmuşdular və belə bir vəziyyətdə gecə vaxtı Nadir şahın qoşununa qarşı mövqe tutmaq elə də asan deyildi. Ona görə Səadət xan ətrafına güclü dəstə toplaya bilmədi. Nəticədə, Səadət xanın çarəsiz cəhdi uğur qazanmadı və əsas döyüşün başlaması ərəfəsində hind qüvvələri artıq ilk zərbəni aldılar (153).

Məhəmməd şahın ətrafı, xüsusilə də Nizamülmülk onu döyüşə başlamaqdan çəkindirmək istəyirdi. Bu adamlar rəmmalların söylədikləri əsasında həmin günlərin müharibə aparılmasına münasib olmadığını bəhanə gətirərək vaxtı uzatmağa çalışırdılar (154).Nadir şah qoşunlarının manevrləri hind qoşunlarının fəaliyyətsiz qalmasını mümkünsüz edirdi.

Fevral ayının 24-də Nadir şah qoşunu düşərgədən hərəkət edib Kərnala doğru irəlilədi. Nadir şahın öz qoşununu necə qruplaşdırması haqqında həm mənbələrdə, həm də tarixi araşdırmalarda müxtəlif məlumatlar mövcuddur. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, o öz qoşunlarını üç sütuna böldü. Buradakı qısa məlumatdan aydın olur ki, Nadir şahın 2-ci oğlu Nəsrulla Mirzə bu sütunlardan birinə rəhbərlik edirdi və o, Cəmül gölünün şimalından Kərnala doğru irəliləməli idi. "Aləm Ara-ye Naderi"də Nəsrulla Mirzənin qoşun dəstələrindən birinə rəhbərlik etməsi təsdiq olunur. Amma bu mənbəyə görə, Nadir şah qoşunları sağ və sol cinahlarda, mərkəz dəstədə və aryerqardda (arxa dəstə) qruplaşdırılmışdı. Nadir şah 50-60 nəfər sadiq qulamın əhatəsində döyüş düzülüşünün təşkili ilə şəxsən məşğul olurdu. Mənbənin verdiyi məlumata görə, o öz qoşununu 72 sırada düzdü və qüvvələrin ön xəttində artilleriyanı yerləşdirdi. Mahmud bəy Əfşar, Qasım bəy Qacar və Xanəli xanın rəhbərliyi altında olan avanqard qrup isə kəşfiyyat işləri aparmaqla hind qüvvələri ilə döyüşə başlamalı və onlara ilk zərbəni vurmalı idilər (155).

Nadir şah qoşunların döyüşqabağı düzülüşünün necə aparılması ilə bağlı tarixi ədəbiyyatda mövcud olan fikirləri də qruplaşdırmaq müm-

kündür. Bəzi tədqiqatçılar qeyd edirlər ki, Nadir şah qruplaşmanı aşağıdakı kimi aparmışdı:

Birinci xətdə ağır toplar və süvari dəstələri yerləşdirilmişdi. Zənbürəklər də bu xəttə idi. Nadir şahın döyüş bayrağı bu xəttin mərkəzində dalğalanırdı.

İkinci xətt xüsusi dəvələr dəstəsindən təşkil edilmişdi. Bu dəvələr gecə ikən döyüş mövqeyinə gətirilən ön xətdə olan süvarilərin arxasında yerləşdirilməklə gizlədilmişdi. Dəvələrin belinə təndirlər (böyük qazanlar) bağlanılmış və içərisi də neftə batırılmış odunlarla doldurulmuşdu.Yuxarıda qeyd edildiyi kimi, bu dəvələr hind qoşunlarının önündə yerləşdirilmiş fillərin sırasını yarmaq üçün nəzərdə tutulmuşdu.

Üçüncü xətdə ağır silahlarla silahlanmış piyada qüvvələri mövqe tutmuşdu.Piyadaların hər iki cinahına bəxtiyari və gürcü süvariləri yerləşdirilmişdi. Bu xətdə rəhbərlik Nəsrulla Mirzəyə tapşırılmışdı.

Nəhayət, 4-cü xətt Hacıxan bəyin rəhbərliyi altında şahın süvari qvardiyasından, dağ süvarilərindən və kürd dəstələrindən təşkil olunmuşdu (156).

Bəzi tarixçilər isə Nadir şah qoşunlarının qruplaşdırılmasının aşağıdaki kimi aparıldığını iddia edirlər:

1.Döyüş sırasının qarşısında qarovul dəstələri dayanırdılar. Döyüş başlanana kimi onlar qarşı tərəflə təmasa girməkdən çəkinməli idilər;

2.İlk xətdə ağır silahlarla silahlanmış süvarilər, ağır toplar və onların da qarşısında zənbürəklər yerləşdirilmişdi;

3.İkinci xətdə ağır silahlarla silahlanmış piyadalar mövqe tutmuşdular. Bu dəstə digər dəstələrlə öz fəaliyyətini tənzimləməli və yeri gələndə onlara kömək göstərməli idi;

4.Bütün qoşunların cinahları süvarilər tərəfindən mühafizə olunurdu.Sol cinahda Hacıxan bəyin rəhbərliyi altında olan süvari dəstəsi, sağ cinahda isə Bəxtiyari süvariləri mövqe tutmuşdular. Döyüşün sürətini və hücumun başlanmasını da süvari dəstələri öz üzərinə götürməli idi.

5.Döyüş düzülüşünün 3-cü xəttində yüngül piyadalar dayanmışdılar.Bu piyadaların bir hissəsinə qoşunun yükünü və parkını qorumaq tapşırılmışdı;

6.Hind fillərinin sırasını yarmaq üçün nəzərdə tutulmuş dəvələr dəstəsi birinci xəttin arxasında yerləşmişdi;

7.Baş komandanın keşik süvariləri və qarovullar öndə qərar tutmuşdular və onlar Nadir şahı baş verə biləcək təhlükələrdən qorumalı idilər (157).

Tədqiqatçıların yazdıqlarını ümumiləşdirərək belə bir qənaətə gəlmək mümkündür ki, öz qvardiya süvariləri ilə ön xətdə qərar tutan Nadir şah birinci xəttin rəhbərliyini də öz üzərinə götürmüşdü. Döyüşün bütün ağırlığı da heç şübhəsiz ki, birinci xəttin üzərinə düşməli idi. Bu xəttin döyüşünü gücləndirəcək 2-ci xəttə rəhbərliyi isə Nadir şah oğlu Nəsrullaya tapşırdı.

"Aləm Ara-ye Naderi"də hind qoşunlarının döyüş qabağı düzülüşü belə təsvir olunur: Hind qüvvələri səngərləndikləri mövqedən hərəkət edərək döyüşün nəzərdə tutulduğu əraziyə 1500 ədəd top gətirdilər. 500 ədəd top isə ilkin mövqelərin mühafizəsinə saxlanıldı. Döyüş meydanına 12 min ədəd səfpozan, 12 min ədəd ağır tüfənglər, fillər və od atan qurğular gətirildi. Döyüş düzülüşünün mərkəzində və cinahlarda Xan Dövran, Müzəffər xan, Vasili xan, Səadət xan, Əmirqulu xan, Əli Məhəmməd xan, Etibar xan, Əkilbəy xan, Əliəsəd xan, Şahdad xan, Müzəffər xan, Ata xan və Nəsrulla xanın rəhbərliyi altında olan qoşun dəstələri mövqe tutmuşdular. Məhəmməd şah özü isə filin üstündə qoşunların ön xəttində döyüşü müşahidə etməli idi. Onun ətrafında 20 minlik rac dəstəsi şahın mühafizəsini təmin etməli idi. Qoşunların qarşısına toplar və səfpozanlar yerləşdirildi. Artilleriya öndə bir neçə sırada düzülmüşdü. Qoşunların arxasında baş vəzirin və bir neçə tanınmış əyanın rəhbərliyi altında silahlandırılmış insan kütləsi də mövqe tutub döyüşə qatılmaq vaxtını gözləyirdi. Bu kütlənin yerləşdiyi ərazi bir mil uzunluğunda idi. Kütlənin ətrafına düzülmüş toplar və od atanlar bu dəstənin hücumunu müşayiət etməli idi (158).

Tədqiqatçıar çoxsaylı hind qoşunlarının dörd xətt üzrə yerləşdirildiyini yazırlar:

Birinci xətdə döyüş filləri yerləşdirilmişdi. Mövcud olan məlumatlara görə, onların sayı 2000 idi. Son dərəcə böyük ərazini tutmalı olan bu fillərin xortumlarına iti kəsən qılınclar bağlanmış və bədənlərinə isə zireh geyindirilmişdi.Fillərin hətta xaotik hərəkətləri belə Nadir şah qoşunlarına ağır itki gətirə və ya onların fəaliyyət nizamını poza bilərdi.Ona görə sərdar Nəzərxan tərəfindən rəhbərlik edilən fillər dəstəsinə böyük ümidlər bağlanılırdı.

Hind qoşunlarının əsas dəstəsi ikinci xətdə mövqe tutmuşdu. Bu xəttə qoşunların baş komandanı Xan Dövran tərəfindən rəhbərlik edilirdi.Onun rəhbərliyi altında olan qoşun dəstəsinin 30 min sayında olduğu güman edilir.Dəstənin öz artilleriyası var idi. Xəttin sağ cinahındakı qoşunlara sərdar Müzəffər xan, sərdar Əli Həmid xan, sərdar Mirqulu xan, Şahdad xan, Zaman xan rəhbərlik edirdi. Sol cinahdakı qoşunlara isə Fəxrəddin xan, Əzim xan, Canı xan və Seyd Niyaz xan

rəhbərlik edirdi. Xəttin cinahlarına bir neçə döyüşgən alaylar yerləşdirilmişdi - Böyük Param alayı, Cat alayı, Sind alayı. Həmin alaylar Xan Dövranın rəhbərliyi altında olan qoşunların cinahlarını mühafizə etməklə qoşunlarının hücumunun genişləndirilməsinə də öz paylarını verməli idilər.

Üçüncü xətt isə Səadət xanın rəhbərliyi altında idi. Bu xətdə 40 minlik bir qoşun dəstəsi var idi. Bu xətdə olan qoşun başçılarının çoxu güman edirdi ki, döyüş fillərinin hücuma buraxılması ilə Nadir şah qoşununun taleyi həll olunacaqdır.Fillərin ayaqlarının altından salamat çıxanlar da ikinci xətdəki hind qoşunları tərəfindən məhv ediləcəkdir. Ona görə güman edilirdi ki, 3-cü xəttin üzərinə elə bir ağırlıq düşməyəcəkdir.

Dördüncü xətdə isə ehtiyat qüvvələr birləşdirilmişdi. Tədqiqatçıların fikrincə, Məhəmməd şah da dördüncü xətdə qərar tutmuşdu. O da güman edilirdi ki, dördüncü xəttin döyüşə girməsinə heç ehtiyac olmayacaqdır. Ona görə nəzərdə tutulmuşdu ki,  dördüncü xəttə daha çox mühafizə işləri tapşırılsın.

Hind qoşunlarının əhatə etdiyi ərazi 50 hektarlıq bir ərazi idi (159).

Ceymz Frezer hind qoşunlarının döyüş düzülüşündən danışarkən bildirir ki, Məhəmməd şah qoşunların mərkəzində mövqe tutmuşdu və onun qarşısında da güclü artilleriya dayanmışdı. Müəllif eyni zamanda mərkəzdən sağda, solda və arxada dayanan qoşun dəstələrinə kimlər tərəfindən rəhbərlik edildiyini bildirir. Qeyd etmək lazımdır ki, adları sadalanan sərkərdələr arasında nə Səadət xanın, nə də Xan Dövranın adları vardır (160).

Qarşı-qarşıya gələn qüvvələrin döyüş düzülüşü haqqında mənbə və tədqiqat əsərlərində fikir yekdilliyi olmadığı kimi, Kərnal döyüşünün başlanması və gedişi haqqında da ümumi bir fikirlə rastlaşmaq çətindir. Ona görə Kərnalda baş verən son dərəcə gərgin və iri miqyası döyüş əməliyyatının real mənzərəsinin yaradılması da çox çətindir. Amma döyüş əməliyyatına cəlb edilmiş qüvvələrin, təchizatın və heyvanların miqdarı onun miqyasını və gərginliyini təsəvvür etməyə imkan verə bilər.

"Tarix-e Cahanqoşa-ye Naderi" və eyni zamanda Nadir şah haqqında sanballı tədqiqat əsəri yazmış L.Lokkart  Kərnal döyüşünün başlanğıcının Səadət xanın öz yüklərini və parkını geri almaq üçün Nadir şahın qüvvələri ilə qarşılaşması anından götürüldüyünə işarə edir (161).

Qeyd etmək lazımdır ki, həm digər mənbələr, həm də tədqiqat əsərləri bu mövqeni təkrar etmirlər.Məntiqlə də yanaşıldıqda Kərnal döyü-

şünün bu səhnə ilə başlanması inandırıcı görünmür. Səadət xanın əldən getmiş yüklərin geri qaytarılmasına cəhd göstərməsi, bütünlükdə Kərnal ətrafında baş verənlərin bir səhnəsi ola bilər.Çox güman ki, elə "Tarix-e Cahanqoşa-ye Naderi"də də Səadət xanla bağlı olan bu səhnə ümumi məzmundan qoparılaraq ayrıca diqqətə çatdırılmışdır.

Bir sıra tədqiqatçılar isə döyüş əməliyyatının hind qüvvələrinin artilleriyasının, sonra isə Nadir şah artilleriyasının qarşılıqlı atəşlərlə başlaması və onların atəşlərinin ardınca döyüşün süvarilər tərəfindən davam etdirilməsi fikrində israrlıdırlar (`162). Belə bir başlanğıcın mümkünlüyü qəbul edilə bilər.Amma hind qoşunlarının qarşısında 2000 baş fil yerləşdirilmişsə və onlara çox böyük ümid bağlanırdısa, məntiqən döyüş əməliyyatı da məhz fillərin irəli buraxılması ilə başlana bilərdi. Bu qədər sayda olan fillər bir neçə sırada hind qoşunlarının qarşısında mühafizə xətti yaratmaqla bərabər, həm də qarşı tərəf üçün keçilməz bir xətt idi.

Nadir şah dövrünün müasirlərindən olan rus generalı Kişmişovun yazdıqlarına xüsusi istinad edən tədqiqatçı Müqtədir də döyüş əməliyyatının fillərin irəli çıxarılması ilə başlandığını qeyd edir. Əslində, bu başlanğıc və bu mərhələdə Nadir şahın işlətdiyi taktika Kərnal döyüşünü ən yaddaqalan məqamlarından biri idi. Heç vaxt döyüş filləri ilə qarşılaşmamış Nadir şahın konkret şəraitdə bu heyvanlarla mübarizə aparılması üçün sadə və səmərəli bir vasitənin tapılması da Nadir şahın sərkərdəlik təfəkkürünün yeni bir nümayişi idi.

C.Hanvey də döyüşün məhz fillərin irəli buraxılması ilə başlandığını bildirir. Qeyd edildiyi kimi, döyüş fillərinin yaradacağı vahiməyə böyük ümidlər bağlayan hind qoşunları rəhbərliyi bu nəhəng heyvanları irəli buraxdılar. Onların döyüşə atılması ilə Nadir şah da birinci xəttin arxasında yerləşən dəvələrin belinə bağlanmış təndirin içindəki odunlara od vurmağı əmr etdi.Neftə batırılmış odunları dərhal od götürdü və belləri odlanan dəvələr vahimə içində özlərini irəli atdılar.Onların çaşqın qaçışları fillərdə də bir vahimə və çaşqınlıq yaratdı.İrəliyə doğru hərəkət qeyri-mümkün olanda fillər geri üz tutdular və onların yolu üzərində olan hind döyüşçülərini ayaq altına aldılar. Yaranan hərc-mərclik hind qüvvələrinə ağır tələfat verdi (163).

Nadir şahın incə düşünülmüş bir hərəkəti ilə qoşunlarda qorxu yaratmış fillər dəstəsi nəinki zərərsizləşdirildi, hətta hind qoşunlarının bu qorxunc qüvvələri onların özlərinə qarşı istiqamətləndirildi və fillər öz sahiblərini ayaqları altında tapdaladılar. Digər tərəfdən fillərin pərən-pərən salınması Nadir şah qoşunlarının döyüş əhval-ruhiyyəsini xeyli yuxarı qaldırdı.

“Tarix-e Cahanqoşa-ye Naderi” də Kərnal döyüşü haqqında olan məlumat xeyli kəsaddır.“Aləm Ara-ye Naderi”yə görə, Nadir şah döyüş düzülüşünü başa çatdırandan sonra Mahmud bəy Əfşarın, Qasım bəy Qacarın və Xanəli xan Kukəlanın rəhbərliyi altında olan avanqard dəstə hind qoşunları istiqamətində kəşfiyyat xarakterli reydlərə başladılar. Döyüşə ilk başlayan onlar oldular və bu dəstəyə verilən tapşırıq hind qoşunlarının önə çıxarılmış mühafizə dəstələrini zərərsizləşdirmək və onlara zərbə endirmək idi. Hind qoşunları tərəfindən isə Məhəmməd şahın yaxın qohumlarından olan Müzəffər xanın 7 minlik dəstəsi irəli çıxarıldı. Nadir şah döyüşçüləri elə ilk qarşılaşmada təşəbbüsü ələ aldılar və Müzəffər xanın irəliləmək üçün göstərdiyi bütün cəhdlər uğursuzluğa düçar oldu. Hind sərkərdəsi Müzəffər xan özü isə Xanəli xanın oxunun qurbanı oldu. Öz rəhbərini itirən dəstə geri çəkilməyə başladı. Vəziyyətin mürəkkəbləşdiyini görəndə Məhəmməd şah artilleriyanın işə salınmasına göstəriş verdi. Toplar, od bombası atanlar, tüfənglər, badliclər, zərbzənlər döyüşə qoşulmaqla gərginliyi xüsusi həddə çatdırdılar. Mənbədə verilən təsvirə görə, həm avanqard dəstə, həm də Nadir şahın anabir qardaşı Lütfəli xanın və Hacıxan Kürdün dayandığı sağ cinah sanki güllə və bomba yağışı altına düşdü. Belə olanda avanqard dəstə geri çəkilmək məcburiyyətində qaldı. Amma Nadir şahın qəzəbinə düçar olmamaq üçün dəstənin döyüşçüləri son nəfəsədək vuruşmağa çalışdılar.Geri çəkilməyəcəyi təqdirdə avanqard dəstənin bütünlüklə məhv olacağını görən Nadir şah onlara geriləmək əmri verdi.

Dəstə geri çəkilərək Lütfəli xanın rəhbərliyi altında olan dəstənin arxasında mövqe tutmalı idi. Eyni zamanda Nadir şahın əmri ilə Lütfəli xanın dəstəsi fəal döyüşə qoşuldu. Bu dəstədə olan topların, səfpozanların, zərbzənlərin, badliclərin və tüfənglərin atəşi ilə döyüş meydanında toz-duman aləmi bürüdü. Lütfəli xanın 10-12 min nəfərlik piyada qoşun dəstəsinin fədakarlığı qarşı tərəfi də məcbur etdi ki, daha səmərəli vasitələrə əl atılsın (164).

Hind qoşunlarının 8 min nəfərlik başqa bir dəstəsinə tapşırıq verildi ki, top və tüfəng atəşlərinin müşayiəti ilə Nadir şah qoşunlarının sol cinahına hücum edilsin. Həmin cinahda Nadir şahın başqa bir ögey qardaşı, Lütfəli xanın doğma qardaşı olan Fətəli xan, Məhəmmədrza xan Əfşar, Müzəffərəli xan Bayat, Məhəmmədrza bəy Müqəddəm, Əlimərdan bəy Əfşar və digərləri vuruşurdular. Hind qüvvələrinin irəliləmək cəhdinə qarşı Nadir şah öz minbaşılarını və beşyüzbaşılarını iki istiqamətdən döyüşə qoşdu. Bununla, iki qoşunun böyük qüvvələri qarşı-qarşıya gəldi. “Aləm Ara-ye Naderi”nin təsvirinə görə,

bir-birinin üstünə şığıyan dəstələrin qanlı döyüşə qatıldığı ərazi cəhənnəm meydanını xatırladırdı. Hər iki tərəfdən göstərilən əzmkarlıq çoxlu sayda qarşılıqlı itki ilə müşayiət olunurdu. Döyüş meydanında sıraları seyrələn bir dəstə digəri ilə əvəz olunurdu. Əlbəyaxa döyüşlər şiddətlənəndə dost və düşmən qüvvələri müəyyənləşdirmək də çətinləşdi. "Aləm Ara-ye Naderi"nın təsvirinə görə, hind qoşunları da xeyli inadkarlıqla döyüşürdü. Nəticədə, Nadir şah qoşunlarının ön sıraları geri çəkilmək məcburiyyətində qaldı.Yalnız cəzayirçilərin sərrast atəşləri hind qoşunlarının irəliləməsini dayandırdı. Mənbənin məlumatına görə, döyüş o qədər gərgin gedirdi ki, Nadir şah atdan yerə düşüb üzünü Allaha tutdu və bu ağır döyüşdə qoşunları üçün qələbə arzuladı (165).

Bundan sonra Nadir şah atlanıb özü də döyüşə girdi və ehtiyatda saxladığı bəzi dəstələri də döyüşə atdı. O, 3 min nəfərlik Xorasan cəzayirçilərinə rəhbərlik edən minbaşı İsmayıl bəyə tapşırdı ki, ön xəttə çıxıb hind qüvvələrini atəş altına alsın və heç bir vəchlə geri çəkilməsin. Bu dəstə piyadaların hücumunu gücləndirməklə onların əhval-ruhiyyəsinin möhkəmlənməsinə də təsir göstərməli idi. Eyni zamanda Nadir şah özü irəli atılmaqla qoşunu qətiyyətli hücuma qaldırdı. İlk hücum cəhdi düşmənin sıralarını yarmağa kifayət etməsə də bu niyyətinə ikinci cəhdi ilə nail oldu. Bununla, Nadir şah Xan Dövranın rəhbərlik etdiyi xəttin müqavimətini qırıb Səadət xanın rəhbərliyi altında olan dəstə ilə qarşılaşdı.

Elə ilk zərbələr Səadət xanın rəhbərliyi altında olan dəstənin sıralarını da lərzəyə gətirdi. Nadir şahın əmri ilə qaracurlu, əfşar, qacar, kukəlan, Azərbaycan və İraq süvarilərindən təşkil edilmiş və Nəsrulla Mirzə tərəfindən rəhbərlik edilən dəstə hücuma qoşuldu və Səadət xanın dəstəsinə vurulan zərbə daha da gücləndirildi. Gücləndirilən hücum bütünlükdə hind qoşunları arasında yaranan çaşqınlığı xeyli artırdı. Nadir şah qoşunlarının uğuru elə bir miqyas aldı ki, Məhəmməd şah filin belindən yerə sıçrayıb iti qaçan atlardan birini mindi və döyüş meydanından qaçdı. Amma onun sərkərdələrindən çoxu və o cümlədən də hind qoşunları baş komandanı Xan Dövran öz həyatını xilas edə bilmədi (166)

Səadət xan da Nadir şah döyüşçülərinin əzmkarlığı qarşısında aciz qaldı. O yalnız təsadüf nəticəsində ölümün cəngindən xilas ola bildi. Mənbədə mövcud olan məlumata görə, Səadət xan öz filinin belindən ətrafdakı Nadir şah döyüşçülərini ox atəşinə tutdu. Şahbaz bəy adlı qaracurlu döyüşçülərindən biri əlindəki nizə ilə onu vurub yerə saldı. Ardınca onu öldürmək istədi. Yaxınlıqdakı hind döyüşçülərindən biri

onun Səadət xan olduğunu söylədi. Belə olanda Şahbaz bəy onun əlqolunu bağlayıb Nadir şahın hüzuruna gətirdi. "Aləm Ara-ye Naderi" müəllifinin yazdığına görə, Kərnal döyüşündə dörd, yeddi və səkkiz minlik qoşun dəstələrinə rəhbərlik edən 300-400 hind sərkərdəsi öldürüldü və 300-ə yaxın yüksək vəzifəli qoşun sərkərdəsi və əyanlar isə əsir alındı. Səadət xanla rastlaşanda Nadir şah ona belə dedi: " Biz səndən belə çəkişməni, müharibəni və narahatçılığı gözləməzdik. Sən ki, İran əhlinə mənsubsan (Səadət xan Nişapurda doğulmuşdu-M.S.) və Hindistanda var-dövlət şöhrət və ad-san sahibi olmuşsan. Sən nüfuzlu bir şəxs kimi bizmlə birlikdə gərək imkan verməyəydin ki, iş bu yerə çatsın ". Səadət xanın cavabı belə oldu: " Qırx ildən artıqdır ki, Məhəmməd şahdan sultan titulu, hakimiyyət və böyüklük almışam və Hindistanın sayılan əmirlərindən biri olmuşam. Bu padşaha tabe olmaqdan və itaətdən boyun qaçıran vilayətləri kəsən qılıncımla yenidən itaət altına gətirmişəm. Mən beş günlük fani dünyadan ötrü İran camaatının ocağına şərəfsizlik gətirə bilərdimmi? Əgər başqa bir gün həmin diyardan kimsə bu məmləkətə gəlib Hindistan əhlinin məzəmmətilə qarşılaşsaydı ki, Nişapurlu Səadət xan bu ölkəyə yalnız atı və qamçısı ilə gələndən sonra Hindistanın yeddi vilayətinə sahib oldu, ölkənin komandanına çevrildi, sonra isə iki günlük etibarsız ömür üçün İran padşahı ilə sözləşdi və Məhəmməd şahın neçə illik haqqından üz çevirdi, onda qiyamət gününə kimi məni lənətləyərdilər. Mənim Xorasanlı damarlarım qeyrət və namusdan əskik olmadığı üçün sinəmi sipər elədim, təpər və dözüm göstərdim ki, sonradan İran və Hindistan əhlinin məzəmmətlərinə tuş gəlməyim" (167).

Nadir şah Səadət xanın bu cavabından çox razı qaldı. O əmr etdi ki, Səadət xanı ayrıca bir çadıra aparıb yarasının müalicəsi ilə məşğul olsunlar.Lakin yarası ağır olduğu üçün ən təcrübəli həkimlər belə Səadət xanın həyatını xilas edə bilmədilər və üç gündən sonra o, dünyasını dəyişdi.

Xan Dövranın dünyasını dəyişməsi və Səadət xanın əsir düşməsi ilə Kərnal döyüşü heç də bitmədi. Amma hər halda Məhəmməd şah çox ağır zərbə aldı. Onun dayaqlandığı iki böyük sərkərdənin itirilməsi qoşunlara da ağır təsir göstərdi. Bununla, əslində Məhəmməd şah da çarəsiz vəziyyətdə qaldı və qoşunların idarəsində bir hərc-mərclik və nizamsızlıq yarandı.

Hind qoşunlarının ixtiyarında olan fillər, artilleriya və odlu silahlar Nadir şah qoşunlarının əlinə keçdi. Amma Nadir şah nədənsə geri qaçmaqda olan hind qüvvələrini təqib etməkdən çəkindi. Bu taktikadan Nadir şah özünün əvvəlki döyüşlərində məharətlə istifadə et-

mişdi. Sürətli və qətiyyətli təqib hind qüvvələrinin tamamilə məhvinə gətirib çıxara bilərdi. Bir tərəfdən havanın qaralması, bir tərəfdən qüvvələrin ağır döyüşdən sonra yorulması və bir tərəfdən də hind düşərgəsində onu nə gözlədiyinə əmin olmaması Nadir şahı təqibdən çəkindirdi. Şübhəsiz ki, Nadir şah hind qüvvələri üzərindəki qələbəsinə əmin idi və ona görə də qoşunlara istirahət imkanı verdi.

Axşama yaxın əməliyyat meydanı tamamilə boşaldı. Ətrafda gözə dəyən yalnız döyüş qurbanları idi. Tarixçilər "Tarix-e Cahanqoşa-ye Naderi"yə əsaslanaraq hind qüvvələrindən 30 min nəfərin öldüyünü xəbər verirlər.Amma bu rəqəmin doğruluğunu qəbul etməyənlər də vardır. Bununla bəlkə də razılaşmaq olar. Sözsüz ki, Kərnal döyüşü kimi kütləvi döyüşdə meydana çıxan itkilərin sayı az deyildi. Lakin Nadir şaha qələbə gətirən hind qoşunlarının itkilərinin çoxluğu yox, onun çevik taktikası, sürətli hücum nəticəsində hind qüvvələrinin həssas nöqtələrinə həlledici zərbənin vurulması, hind qoşunlarında vahimə, təlaş, qorxu və çaşqınlığın yaradılması idi. Elə bunun nəticəsi idi ki, döyüş başa çatan günün axşamı çoxlu sayda hind döyüşçüləri Məhəmməd şahın düşərgəsini tərk edib Dehliyə tərəf fərarilik etdilər.

L.Lokkarta görə, hind itkilərinin çox böyük olmamasının səbəblərindən biri də hind qüvvələrinin bütünlüklə döyüşə qoşulmaması idi. Onun yazdıqlarına görə, sərkərdələr arasında mövcud olan ixtilaflar üzündən Nizamülmülk döyüşə qoşulmamışdı və bunun nəticəsində sol cinahda sakitlik pozulmadı (168). Məlumatların qeyri-mükəmməlliyi üzündən Nizamülmülkün bu döyüşdə harada dayandığını və hansı vəzifəni icra edə biləcəyini açıqlamaq çətindir. Bununla belə, Nadir şahın da sərkərdəlik dühası özünü onda göstərdi ki, bir neçə qat say üstünlüyünə malik olan hind qoşunlarının tam fəaliyyətinə imkan vermədi, üstün taktikası ilə üstün hind qüvvələrini diz çökdürdü.

Döyüşün ilk günü başa çatandan sonra Nadir şahın göstərişi ilə Məhəmməd şahın düşərgəsi mühasirəyə alındı.Hind qüvvələrinin Dehli ilə olan əlaqələri kəsildi. Bu tədbirin həyata keçirilməsi hind qüvvələrinin ağır olan vəziyyətini daha da ağırlaşdırdı.Mövcud olan məlumatlara görə, səhəri gün Nadir şah döyüş meydanında ötən günün uğurlarını qeyd etdi və fərqlənənləri mükafatlandırdı. Həmin vaxt Nadir şahın sərkərdələri ondan döyüşü davam etdirmək, hind qoşunlarını tamamilə məhv etmək icazəsi istədilər. Nadir şah isə mühasirənin bir neçə gün davam etdirilməsi ilə hind qüvvələrinin iradəsinin qırılacağına əmin idi (169).

Məhəmməd şahın düşərgəsinin mühasirəsi ilə kifayətlənməyən Nadir şah Xanəli xan Kukəlan, Məhəmmədrza xan Kürd, İbrahim xan

və Qasım bəy Qacarın rəhbərliyi altında olan 10-12 min nəfərlik bir dəstəni Banibütə yolladı. Həmin dəstə orada möhkəmlənməklə Dehliyə aparan yolu kəsməli, Dehlidən göndərilə biləcək bütün köməklərin qarşısını almalı idi. Qəni xan Əbdalinin rəhbərliyi altında olan başqa bir dəstə isə Kəşmir yolu üzərinə göndərilmişdi. Çünki Kəşmirdən də Məhəmməd şaha yardım göndərilməsi barədə xəbər alınmışdı. Doğrudan da, Qəni xan orada olduğu müddətdə Məhəmməd şah düşərgəsinə ərzaq aparan bi neçə min heyvandan ibarət yük karvanının qarşısı alındı. Sonradan Banibütdə də Məhəmməd şaha Dehlidən gələn azuqə karvanının qarşısı saxlanıldı (170).

Hind qoşunları geri çəkiləndən sonra Məhəmməd şah düşərgəsini möhkəmləndirməyi, səngərləri gücləndirməyi, salamat qalmış olan topların da düşərgənin mühasirəsinə cəlb edilməsini tapşırdı. Eyni zamanda ən yaxın adamlarını və əyanlarını ətrafına toplayıb nə etmək barədə məsləhətləşmə apardı.

C.Hanveyə görə, Məhəmməd şah yenidən Nadir şahla döyüşə qatılmaq istəyirdi. Guya o sülh danışıqlarına getməklə var-dövlətinin əldən verilməsi və nüfuzunun ləkələnməsi ilə barışmadığı üçün məğlubiyyətini hələ qəbul etmək istəmirdi. Amma qoşunları idarə edəcək bir adam da qalmamışdı ki, müharibəni davam etdirsin. Ona görə də Məhəmməd şah əyanlarının məsləhəti ilə sülh danışıqlarına başlanmasını qəbul etdi. Həmin təklifi isə ona Nüzamülmülk və digərləri etdilər (171).

Çox güman ki, qələbəyə əmin olan Məhəmməd şah kifayət qədər ərzaq ehtiyatına malik deyildi. Bu cəhət özü də Məhəmməd şahı sülh danışıqlarına getməsinə sövq edə bilərdi. Digər tərəfdən Nadir şah tərəfdən mühasirənin gücləndirilməsi də sülh danışıqlarını aktuallaşdıra bilərdi.Yəni, əslində Məhəmməd şahın təslim olmaqdan başqa çarəsi yox idi. Ona görə də tezliklə sülh danışıqları başlandı.

Məhəmməd şah tərəfindən sülh danışıqlarının aparılması vəzir Nizamülmülkə tapşırıldı. Kərnal döyüşündən üç gün sonra Nizamülmülk və onun müşayiətinə verilmiş Əziməli xan iki qoşunun arasındakı ərazidə bayraq qaldırdılar. Bunun nə demək olduğunu yaxşı başa düşən Nadir şah sərkərdələri onları şah çadırına apardılar (172).

Nizamülmülk, Nadir şah düşərgəsində, eləcə də Nadir şahın özü tərəfindən yaxşı qarşılandı. "Aləm Ara-ye Naderi"yə görə, onların arasında qarşılıqlı düşmənçilik hisslərindən uzaq olan bir söhbət oldu. Nadir şah elçilərə qiymətli hədiyyələr bağışladı və eşidəndə ki, hind düşərgəsində azuqə və meyvə yoxdur, ora çoxlu azuqə və meyvə göndərdi (173).

C.Hanveyə görə, isə Nadir şahla Nizamülmülkün arasında geniş söhbət oldu. Nadir şah bu söhbətində Hindistana yürüşünün səbəbləri-ni açıqladı, ən ağır günlərində ölkəsinin Hindistana yardım göstərdiyi halda, səfəvilərin çətin günlərində Hindistandan belə bir yardım alma-dığını bildirdi. Nadir şah göndərdiyi elçilərə qarşı yaxşı münasibət göstərilmədiyini Nizamümmülkə bir daha xatırlatdı. O isə əvəzində Nadir şaha qarşı başlanan müharibəyə görə üzrxahlıq etdi və Nadir şahın bir sıra şərtlərinin qəbul edilməsinin çox ağır olduğunu bildirdi (174).

Nadir şah Nizamülmülklə sülh anlaşmasının bağlanması üçün irəli sürdüyü şərtləri müzakirə etdi. Bu şərtlərin hamısının qəbul edilməsi Nizamülmülkün səlahiyyətlərindən kənara çıxırdı. Heç Nadir şah da bütün tələblərini yalnız onunla müzakirə etmək niyyətində deyildi. Ona görə Nadir şah Nizamülmülkün qarşısında aşağıdakı şərtləri qoy-du:

1.Hind padşahı sülh anlaşmasını imzalamaq üçün gərək bir gün sonra Nadir şahın düşərgəsinə gəlsin;

2.Sülh anlaşması imzalandıqdan sonra hind ordusu tərksilah olun-sun;

3.Bütün silahlar, silah anbarları, döyüş ləvazimatı və nəqliyyat va-sitələri Nadir şah ordusuna təhvil verilsin;

4.Nadir şah qoşunları uzun səfər yorğunluğuna məruz qaldığı və ərzaq ehtiyatlarının təkmilləşdirilməsinə ehtiyac olduğu üçün qoşunlar Dehliyə daxil olsun və bir neçə günü orada keçirsin;

5.Sülh anlaşması imzalanandan sonra Dehlidə böyük sülh müzaki-rələri başlansın (175).

Nizamülmülk Nadir şahın bütün bu tələblərini Məhəmməd şaha çatdırdı.L.Lokkarta görə, fevral ayının 25-də Nizamülmülk Nadir şa-hın düşərgəsinə gəldi. Səhəri gün isə şahlıq taxtından əl çəkmək məc-buriyyətində qaldığını elan edən Məhəmməd şah Nadir şahın düşərgə-sinə gəldi (176).

Nadir şahın Hindistan müharibəsinin nəticələri haqqında oğlu Rza-qulu Mirzəyə yazdığı məktubunda isə Məhəmməd şahın Nizamül-mülklə ilk görüşdən iki gün sonra onun yanına gəldiyini qeyd edir (177).Nadir şah bu məktubunda eyni zamanda Məhəmməd şahın hör-mət və ehtiramla, türkmən və gurgani sülaləsinin nümayəndəsi kimi adına layiq qonaqpərvərliklə qarşılandığını da xatırladırdı.

Doğrudan da belə idi. Məhəmməd şahın qarşılanması və qonaq saxlanılması xüsusi bir mərasim şəklini aldı. "Aləm Ara-ye Naderi"də Məhəmməd şahın qarşılanması daha təfərrüatı ilə təsvir olunmuşdur.

Mənbənin yazdığına görə, Məhəmməd şahın öz düşərgəsindən hərəkət etməsi xəbərini alan kimi Nadir şah müxtəlif səviyyəli əyanlarını, sərkərdələrini və qoşun başçılarını qruplaşdıraraq Məhəmməd şahın qarşılanmasına göndərdi. Məhəmməd şah müəyyən məsafəyə çatanda Nadir şah tərəfindən göndərilmiş dəstələrdən biri atlardan yerə düşərək ona təzim etməli və ehtiram bildirəndən sonra onun arxasınca hərəkətini davam etdirməli idi. İlk qarşılanma məntəqəsindən bir mil sonra Nadir şahın əmri ilə Məhəmməd şahın pişvazına ən tanınmış əmirlər, vəzirlər, nüfuzlu əyanlar və digərləri çıxmalı idilər. Həmin şəxslər də Məhəmməd şaha təzim etdikdən sonra onun razılığı ilə arxada gələn dəstəyə qoşula və hərəkətlərini davam etdirə bilərdilər. Növbəti mərhələdə isə Məhəmməd şahın qarşısına Nadir şahın oğlu Nəsrulla Mirzə çıxmalı idi.Belə də edildi.Son mərhələdə Nəsrulla Mirzə hind padşahının qarşısına çıxdı. Məhəmməd şahın yaxınlaşmasına az qalmış Nəsrulla Mirzə və onu müşayiət edənlər atdan düşüb təzim etdilər. Nəsrulla Mirzə hətta yaxınlaşıb at belində olan Məhəmməd şahın ayaqlarını öpmək istədi. Məhəmməd şah eşidəndə ki, yaxınlaşan Nəsrulla Mirzədir, özü də atdan düşüb onun alnından öpdü və sonra onun da atlanmasını və yanınca hərəkət etməsini istədi. Nəsrulla Mirzə atlansa da ehtiram əlaməti olaraq Məhəmməd şahın böyründə deyil, arxasınca hərəkətini davam etdirdi. Beləcə, Nadir şahın çadırına çatana kimi Məhəmməd şah xüsusi ehtiramla qarşılanmanın şahidi oldu (178).

Məhəmməd şahın yaxınlaşdığını görəndə Nadir şah çadırından bayıra çıxdı, çadırı qarşısında kölgəlik üçün qurulmuş talvarın altına keçdi və Məhəmməd şahı da orada qarşıladı. "Aləm Ara-ye Naderi"yə görə, bu iki padşah görüşdükləri anda bir-birinin əlini sıxıb qucaqlaşdılar və birlikdə şah çadırına daxil oldular. C.Hanveyin yazdığına görə, Nadir şah Məhəmməd şahı özünün sol tərəfində, zənginliyi ilə göz oxşayan bir taxtın üzərində oturtdu (179).

Nadir şahla Məhəmməd şahın arasında baş vermiş söhbətlər haqqında istər mənbələrdə, istərsə də tədqiqat əsərlərində bir-birindən fərqli olan məlumatlar mövcuddur. Hər halda məlumdur ki, Nadir şahla Məhəmməd şah öz aralarında çətinlik çəkmədən türk dilində söhbət etmişdilər (180).

Nadir şah müraciətində bildirdi ki, bizim əcdadlarımız əfşarlardandır.Əfşarlar isə türkmən boylarından biridir. Ona görə bizim ata və babalarımız da türkmən ailəsinə aiddirlər. Belə olanda bizim iki dövlətimizin Qurqan elləri ilə bağlılığı vardır. Bu yerlərə gəlməkdə məqsədimiz də Siz əlahəzrətlə görüşməkdir (181).

Həm "Aləm Ara-ye Naderi"də, həm də "Tarix-e Cahanqoşa-ye Naderi"də Məhəmməd şahın Nadir şah düşərgəsində ehtiramla qarşılanmasından və yola salınmasından xəbər verirlər.Bu mənbələrdə Nadir şahın adından Məhəmməd şaha qarşı kinli və qəzəbli sözlər deyilməsi qeyd olunmur.Sözsüz ki, Məhəmməd şah Nadir şahın əsiri idi və Nadir şah ona istədiyi münasibəti göstərə bilərdi. Amma Nadir şah qarşısına qoyduğu məqsədinə nail olmuşdu və əvvəllər olduğu kimi ona itaət göstərən sərkərdələrə, hakimlərə göstərdiyi ehtiramı Məhəmməd şaha da göstərirdi. C.Hanvey isə öz əsərində Nadir şahın Məhəmməd şaha qəzəbli bir müraciətini vermişdir ki, həmin müraciət bir sıra tarixçilər tərəfindən də təkrar olunmuşdur.Həmin müraciət aşağıdakı kimidir: "... Sizin məmləkətinizə daxil olanda Siz kimsəni yanıma göndərmədiniz ki, mənim kim olduğumu, nə istədiyimi soruşsun. Hətta Lahor tərəfə irəliləyəndə Sizə öz peyğamımı göndərdim, amma cavabını almadım. Sizin sərdarlarınız qəflət yuxusundan ayılanda böhranın yollarını müzakirə etməkdənsə böyük hay-küylə mənim irəliləməyimin qarşısını almağa toplaşdılar. Sonradan Siz də səngərlərdə gizləndiniz və diqqət yetirmədiniz ki, əgər düşmən sizdən daha güclü olsa, siz orada uzun müddət qala bilməyəcəksiniz. Sonda qıtlıqla üzbəüz olacaqsınız.Əgər düşmən sizdən zəif olsaydı, onda sizin səngərlənməyiniz ar olardı və nəticəsiz qalardı. Ehtiyatsızlıq göstərərək məsələnin həllini qılınca bağladınız. Sizin ağır vəziyyətdə olduğunuzu bilirdim. Amma yenə də sizə sülh təklif etdim. Həqiqəti sizin gözünüzdə o şəkildə təqdim etdilər və sizə o qədər uşaq fikirləri təlqin etdilər ki, bizimlə dostluq münasibətlərinə göz yumdunuz və öz mənafeyinizə biganə qaldınız. İndi görürsünüz ki, müzəffər İran qoşunlarının fəaliyyəti nəticəsində hansı müsibətlərə düçar olmuşsunuz. Siz neçə ildir ki, öz kafir təbəələrinizə xərac verirsiniz. Əslində isə, onlar sizə vergi verməlidirlər. Bu məsələdə sizin zəifliyiniz göz qabağındadır. Hətta imkan da vermişsiniz ki, onlar sizin məmləkətinizə hücum etsinlər. Hindistanın Timur xanədanı İran padşahlarına fövqəladə ziyan vurmadıqları üçün mən də sizin məmləkəti sizdən almıram. Yalnız bu müharibənin məsrəfini sizdən alacağam. Qoşunumla Dehlidə istirahət etdikdən sonra və müəyyən məbləğ pulu əldə edəndən sonra sizi öz səltənətinizə geri qaytaracağam " (182).

L.Lokkart da Məhəmməd şahın Nadir şah tərəfindən ehtiramla qarşılandığını, hətta yemək vaxtı yeməyin zəhərli olmasından ehtiyat etməməsi üçün öz boşqabını onun boşqabı ilə əvəzləməsini yazır. Müəllif mənbələrə istinadən yazır ki, iki monarxın görüşü anlaşılmaz məqamlar olmadan baş verdi, söhbət zamanı bütün etiket və səmimiy-

yət formalarına əməl olundu. Onlar arasındakı səmimi və mehriban ünsiyyət eyni zamanda hind qoşunları arasında sülhün əldə ediləcəyinə inamı da artırdı (183).

Nadir şahla Məhəmməd şah arasında görüşün nə qədər davam etməsi haqqında da müxtəlif fikirlər mövcuddur. Bu görüşün bir saatdan 6 saata qədər davam etməsi haqqında məlumatlar vardır. Hər halda görüş başa çatandan sonra Nadir şah yenə böyük ehtiramla Məhəmməd şahı onun üçün ayrılmış çadıra yola saldı. Nadir şahın oğlu Nəsrulla Mirzə qonağı yenə müşayiət etdi. Nadir şah yalnız Nizamülmülkün geri qayıtmasını istədi. Nizamülmülk hind düşərgəsinə qayıdıb qoşunları sakitləşdirməli və onları hər hansı bir hərəkətdən çəkindirməli idi (184).

Bununla belə, Nadir şah, Məhəmməd şah düşərgəsinin mühasirəsindən əl çəkmədi. Görünür, Məhəmməd  şahın hələ də malik olduğu qüvvə Nadir şahda nigarançılıq yaradırdı. Ola bilsin ki, qoşunların mühasirəsinin davam etdirilməsi ilə Nadir şah qarşı tərəfə təzyiqini saxlamağı lazım bilir və Məhəmməd şaha bildirmək istəyirdi ki, ona göstərilən ehtiramın arxasında hərbin sərtliyi də dayanır.

Hind qoşunları düşərgəsi mühasirədə saxlanarkən Nadirin yanında xüsusi hörmət  qazanmaq istəyən bəzi hind əyanları ona bildirdilər ki, hind döyüşçülərinin çoxlu sayda atları vardır. Həmin atları toplamaq və Nadir şahın qoşunlarının ehtiyacına istifadə etmək olar. Nadir şah cavabında bildirdi ki, hind döyüşçüsünün çörəyi onun atından çıxır. Atsız döyüşçü kimə lazımdır? Atını əldən vermiş döyüşçünün özü ilə bərabəb, ailəsi də çətinliklərlə üzləşə bilər. Onlara aman verilibsə, elə öz  atları ilə də evlərinə qayıtsınlar (185).

Amma hind qoşunlarının silah və sursatına qarşı Nadir şah tamam başqa bir tələb irəli sürdü. Sülh anlaşmasında da bu cəhət öz əksini tapdı. Hind qoşunları bütün artilleriyanı, tüfəngləri və digər texniki təchizatını təhvil verməli idi. Bununla bağlı, Nadir şah topçubaşını və nəsəğçibaşını min nəfərlik dəstənin müşayiəti ilə hind düşərgəsinə göndərdi ki, oradakı bütün silahları toplayıb təhvil alsınlar (186).

Məhəmməd şahın Nadir şah düşərgəsində nə qədər qalması haqqında da müxtəlif fikirlər söylənilir. Hər halda o aydındır ki, Məhəmməd şah orada uzun müddət qalmadı. O, Nadir şah tərəfindən irəli sürülən müharibə anlaşmasını qəbul etdi və yenidən öz düşərgəsinə qayıtdı. Tədqiqatçıların fikrincə, Məhəmməd şah tərəfindən müharibə anlaşmasının qəbul edilməsi hind düşərgəsində heç də bir mənalı qarşılanmadı.Hər hansı mənbəyə istinad edilmədən iddia olunur ki, hind ordusunda müəyyən qarışıqlıqlar da ortaya çıxdı. Bu vəziyyət Nadir şah

qoşunlarının da hind düşərgəsinin mühasirəsinə diqqətinin artırılmasını şərtləndirdi.Hətta Nadir şaha təklif olundu ki, hind düşərgəsinə təzyiqlər daha da gücləndirilsin. Amma Nadir şah bu təkliflə razı olmadı və bildirdi ki, müharibənin yenidən başlanmasına ehtiyac yoxdur. Bildirilir ki, Məhəmməd şah da müharibə anlaşmasına əks çıxan əyanları ilə geniş müzakirələr apardı, xüsusilə Nadir şah qoşunlarının Dehliyə girməsinə yol verilməməsi üzərində təkid edildi. Əyanlar müqavilənin elə düşərgədə imzalanmasını təklif edirdilər. Bu təkliflə Nizamülmülk və bir neçə digər əyan yenidən Nadir şahın yanına göndərildi. Nadir şah isə bu təkliflə razılaşmayıb Məhəmməd şahın bir daha onun yanına gəlməsini tələb etdi (187).

L.Lokkart da Nizamülmülkün Nadir şahın yanına gəldiyini təsdiq edir.Amma onun fikrincə, Nizamülmülkü Nadir şah özü yanına çağırtdırmışdı və Məhəmməd şahın bir daha onun yanına gəlməsini tələb etmişdi. Məhəmməd şah da mart ayının 7-də 2 min nəfərlik bir dəstə ilə Nadir şahın düşərgəsinə yola düşdü (188).

“Aləm Ara-ye Naderi”də olan bir qeydə görə, Məhəmməd şah Nadir şahla ilk görüşdən geri qayıdandan sonra qoşunları buraxdı və öz düşərgəsində bir gecə vaxt keçirib Nadir şahın düşərgəsinə qayıtdı. Bu mənbədə Məhəmməd şahın Nadir şah düşərgəsində yenidən böyük ehtiramla qarşılanması təsvir olunur. Məhəmməd şahın şərəfinə şah çadırında böyük bir ziyafət təşkil edildi, ziyafət başa çatandan sonra Nadir şahla Məhəmməd şah çadırda tək qalıb uzun müddət söhbətlərini davam etdirdilər. Bu minvalla Məhəmməd şah bir neçə gün Nadir şah düşərgəsində qaldı.Ona qulluq və xidmət göstərilməsi Əbülbaqi xan Zənganəyə tapşırıldı. Məhəmməd şah Nadir şah düşərgəsində olarkən hind qoşunlarının bütün texniki təchizatı təhvil alındı və elə həmin günlərdə də hind qoşunlarından alınmış artilleriya etibarlı sərkərdələrin və böyük bir qoşun dəstəsinin müşayiəti ilə Kabula yola salındı. Hind qoşunları üzərində qələbə haqqında Nadir şah məktub yazdırıb çaparlar vasitəsilə oğlu Rzaqulu Mirzəyə göndərdi (189).

Mart ayının 12-də Nadir şah qoşunların və Məhəmməd şahın müşayiəti ilə Dehliyə doğru hərəkətə başladı. Hərəkətə başlamazdan əvvəl Təmasibqulu xan Cəlayir 4 min nəfərlik süvari dəstəsi ilə Nadir şah tərəfindən Dehliyə göndərildi. Təhmasib xan Dehli hakimi Lütfəli xana şah fərmanını çatdırmalı idi. Bu fərmana əsasən Lütfəli xan öz vəzifəsində saxlanılırdı. Bəzi tarixçilər Təhmasibqulu xanın Dehliyə göndərilməsində məqsəd şəhərin Nadir şahın gəlişinə hazırlanması, bəziləri isə Dehli qarnizonunun müqavimətinin qarşısının alınması ilə bağlı olduğunu yazırlar (190).

Qərb müəllifləri Məhəmməd şahın hörmət əlaməti olaraq Nadir şahdan yarım fərsəng arxada hərəkət etdiyini yazırlar. Nadir şahın arxasınca 20 min nəfərlik süvari, sonra ətrafında 40-50 nəfər əyan olan Məhəmməd şah, onun arxasınca yenə 10 min nəfər Nadir şah süvarisi hərəkət edirdi. Kərnal ətrafından hərəkətə başlayandan 2 gün sonra Şöləmah (Şəlimar) bağına yetişdi. Bu bağ Dehli yaxınlığında yerləşirdi. Nadir şahın icazəsi ilə Məhəmməd şah şəhərə yollandı ki, Nadir şahın qarşılanması üçün lazım olan tədbirlər həyata keçirilsin. Bir gün sonra Nadir şah da şəhərə, Məhəmməd şah sarayına doğru hərəkətə başladı. Bu qala həm əzəmətli, həm də böyük bir qala idi. Hündür qala divarları və bürclər onun müdafiə imkanlarını xüsusilə artırırdı. Qalanın iki tərəfindən çay da axırdı. Qalaya aparan yol Nadir şahın şərəfinə xalı və fərşlərlə döşənmiş və küçələr boyu qoşunlar düzülmüşdü. Çoxsaylı fillər qalaya doğru hərəkət edən qüvvələrin qarşısında irəliləyirdilər. Onların hər birinin belində bir neçə nəfər cəzayirçi oturmuşdu. At belində şəhərə daxil olan Nadir şahın şərəfinə toplardan yaylım atəşi açıldı. Nadir şah Məhəmməd şahın sarayına daxil olub Hindistan taxt-tacında oturdu və Məhəmməd şaha da yanında yer verdi (191).

Mənbələrdə olan məlumatlara görə, Nadir şah mart ayının 20-də ağ at belində Dehli şəhərinə daxil oldu. Oğlu Nəsrulla Mirzə onun arxasınca irəliləyirdi. Nəsrulla Mirzənin arxasınca isə qoşun rəhbərləri və sərkərdələri böyük zövqlə bəzədilmiş atların üstündə hərəkət edirdilər. Qoşun sərkərdələri özləri də bahalı paltarlar geyinmişdilər. Sonra isə at belində olan musiqiçilər və şeypurçular dəstəsi və süvari dəstələri bir-birinin ardınca düzülmüşdülər.Süvari qüvvələrinə sərdar Qasım xan rəhbərlik edirdi. Bu qüvvələrə aşağıdakı dəstələr daxil idilər: iki sütundan ibarət süvari şah qvardiyası, Hacıxan bəyin süvari dəstəsi, sərdar Əfşarın süvari dəstəsi, Cavanqulu xanın süvari dəstəsi, nizələrlə silahlanmış süvari dəstəsi. Süvari dəstələrindən sonra isə piyada dəstələri düzülmüşdülər. Süvari və piyada dəstələrinin sağ cinahında bu dəstələrə məxsus olan döyüş bayraqları dalğalanırdı. Bütün bu qüvvələr şəhərin sol darvazasından daxil oldular. Bu darvaza şahın giriş-çıxışı üçün istifadə edilirdi (192).

Novruz bayramı günü məscidlərdə Nadir şahın adına xütbə oxundu və elə həmin gün də hind sarayında Nadir şahın şərəfinə ziyafət təşkil edildi. Həmin ziyafətin 3-4 gün davam etdiyi bildirilir. O da bildirilir ki, ziyafət günlərində Dehlinin asayişi çox sabit idi. Nadir şah döyüşçüləri tam sərbəst şəkildə şəhərdə gəzib dolaşa bilirdilər. Məhəmməd şah və şəhər əhalisi tərəfindən göstərilən təntənəli qəbula görə Nadir

şah qoşun başçılarından və əyanlardan tələb etdi ki, onun fərmanları dəqiqliklə yerinə yetirilsin, şəhər əhalisinə hər hansı bir ziyan yetirilməsin. Bəyan edildi ki, günahsız yerə yerli əhalini incidən döyüşçülər ya ayaqlarının falaqqaya salınması ilə, ya da qulaq və burunlarının kəsilməsi ilə cəzalandırılacaqlar.

Təm-təraqlı qəbulun ardınca Məhəmməd şah xəzinəsinin açarları da Nadir şaha təqdim edildi və Məhəmməd şahın əcdadlarının neçə onilliklərlə topladığı var-dövlət Nadir şahın ixtiyarına keçdi.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şahın qoşunları ilə Dehliyə daxil olması Novruz günlərinə təsadüf edirdi. Çoxsaylı qoşunların ərzaq ehtiyaclarının aradan qaldırılması üçün şəhər daxilində mövcud olan ehtiyatlar hesabına ödənməsi zərurəti yaranırdı.Görünür, toplanan ərzaq ehtiyatları üçün təqdim olunan maliyyə vəsaiti yerli tacirləri qane etmirdi.Ona görə hind əyanları arasında müəyyən narazılıq yaranmağa başlamışdı.

Nadir şahın əmri ilə Təhmasibqulu xan Cəlayir bir neçə nəsəğçini Paxargənc anbarlarına yolladı ki, oradakı taxılın təyin olunan qiymətə alınmasını təmin və təşkil etsin. Bəzi tədqiqatçılar həmin anbarlardan taxılın qoşunların ehtiyacı üçün alınmasının təşkili üçün nəsəğçilərin ora yollandığını qeyd edirlər.İstənilən halda taxıl üçün təyin edilmiş qiymət tacirləri və şəhər əyanlarını qane etmədi.Onda bu narazılıq ümumi iğtişaşların başlanğıcını qoydu.Dehli əyanlarından olan Seyid Niyaz xan və Əliməhəmməd xan narazıların qəzəbini bir istiqamətə yönləndirə bildilər. Onların təbliğatı və qızışdırıcılığı nəticəsində Nadir şah qoşunlarından narazı olanların əhatəsi genişləndi və bu insanların təhriki ilə taxıl anbarlarına göndərilmiş Nadir şah nəsəğçiləri qətlə yetirildilər. Eyni zamanda şəhərdə şayiələr yayıldı ki, Nadir şah da qətlə yetirilib və onun qoşunları başsız qalıbdır. Çox qısa zaman ərzində bu şayiələr şəhəri bürüdü və iğtişaşa qoşulanların sayı xeyli çoxaldı (193).

Bütün şəhər bir-birinə qarışdı. Nadir şah döyüşçüləri harada rast gəlinirdisə dərhal qətlə yetirilirdi. Bununla, əslində bütün qoşunlar təcavüzə və basqınlara məruz qaldılar. Şəhər qaynar qazana çevrildi və idarəolunmaz bir hala düşdü. Seyid Niyaz xan Nadir şahın bir neçə döyüşçüsünü əsir götürüb evinə apardı və sonra da onları diri-diri yandırdı. Mağazalar, ticarət obyektləri, küçələr və meydanlar Nadir şah döyüşçülərinin meyitləri ilə doldu. Öldürülənlərin sayı saatbasaat artdı. Qala divarları üzərində qurulan toplardan açılan atəşlər bütün şəhəri bürümüş iğtişaşların qarşısını ala bilmədi. Əhalinin fanatik təcavüzkarlığı Nadir şah qoşunları üçün ciddi bir təhlükəyə çevrildi.

“Aləm Ara-ye Naderi”nin məlumatına görə, Nadir şah şəhərdə qəfil başlamış iğtişaşlardan bixəbər idi.Onun qətiyyətli qərarı olmadan genişlənməkdə olan iğtişaşların qarşısının alınması da çətinləşirdi. Saray əyanlarından kimsə öz hərəmxanasında istirahətdə olan Nadir şahı narahat etməyə cəsarət etmirdi.Nadir şahın sədaqətli əyanlarından olan Xəlil bəy adlı birisi kimsənin cəsarət etmədiyini görəndə özünü Nadir şahın hərəmxanasına salıb hay-küy qopardı. Bu hay-küyə yuxudan oyanan Nadir şah hərəmxanasından bayıra çıxıb onu oyatmağa cəsarət edənin kim olması ilə maraqlandı. Xəlil bəy özünü irəli verib ona şəhərdə baş verənlər haqqında danışdı. Nadir şah vəziyyətdən xəbərdar olandan sonra Xəlil bəyə toxunmadı, sarayının mühafizəsinin gücləndirilməsi, qala ətrafındakı keşikçilərin sayının artırılması barədə göstəriş verdi. Eyni zamanda Məhəmməd şahın olduğu qəsrin mühasirəyə alınması və qoşunların qala daxilinə toplanmasını əmr etdi. Bütün diqqəti ona yönəltdi ki, qoşunlar gecə vaxtı yaxşı müdafiə oluna bilsinlər və əlavə itkilərə yol verilməsin. Nadir şah qala bürcləri üzərində şamlar yandırmağı tapşırdı. Yalnız ətraf küçələrə yayılan işıqla Nadir şah şəhərdə nələrin baş verdiyinin şahidi oldu (194).

Səhər açılanda Nadir şah əvvəlcə onun döyüşçülərinə qarşı bu kütləvi qırğınların həyata keçirilməsində Məhəmməd şahın əlinin olub-olmaması ilə maraqlandı. Qeyd etmək lazımdır ki, müxtəlif ədəbiyyatda Dehli küçələrində 3 mindən 7 minə qədər Nadir şah döyüşçüsünün öldürüldüyü bildirilir (195). Məhəmməd şahın əyanları Nadir şahın yanına gələrək onu əmin etdilər ki, bu hadisələrin necə baş verməsindən və necə cərəyan etməsindən onların xəbəri yoxdur. Nadir şah bu məlumatı qəbul etdi və Məhəmməd şahın ona qarşı xəyanət yolunu tutmadığına əmin oldu (196). Amma onu da qeyd etmək lazımdır ki, Məhəmməd şah və onun əyanlarının Dehli əhalisinin qızışdırılmasında əli olmasa da, onlar bu iğtişaşların qarşısının alınması üçün də heç nə etmədilər. Bəzi tədqiqatçılar güman edirlər ki, Məhəmməd şahın və onun əyanlarının bu iğtişaşların sakitləşdirilməsinə təsir göstərmək imkanları var idi.

Baş verənlərdən heyrət içinə düşən Nadir şah hadisənin miqyasını öz gözləri ilə görmək üçün qoşun dəstəsinin müşayiəti ilə Dehlinin Çandəni Çuk meydanına tərəf çıxdı. Yol boyu hələ bir gün əvvəl öldürülmüş çoxlu sayda döyüşçüsünün cəsədləri ilə rastlaşdı.Ətraf meydan və küçələrə silahlı dəstələr göndərdi ki, hələ də davam edən iğtişaşların yatırılmasına çalışsınlar. O əmr etdi ki, təcavüzdən əl çəkməyənlər məhv edilsinlər. Nadir şah eyni zamanda tapşırdı ki, şəhərin günahsız əhalisinə xətər yetirilməsin. Nadir şahın döyüşçülərini görən şəhər

əhli sakitləşmək əvəzinə daha da qızışdı. Əllərində olan silahlardan istifadə etməklə onlar öz təcavüzkarlıqlarından əl çəkmədilər. Nadir şah Rövşənüddövlə məscidinə tərəf gedəndə özü də təhlükəyə məruz qaldı. Ətraf evlərin damlarından, pəncərələrindən ona və onu müşayiət edənlərin üstünə daş yağdırıldı. Nadir şaha tuşlanan güllə isə onun yanındakılardan birinə dəydi və onun həyatına son qoydu. Belə olanda Nadir şah iğtişaşların silah gücünə yatırılması və ipə-sapa yatmayanlara qarşı ən sərt tədbirlərin həyata keçirilməsi haqqında göstəriş verdi (197).

Bununla da Dehlidə iğtişaş yaradanlara qarşı qətiyyətli tədbirlərin həyata keçirilməsinə başlandı. Nadir şah bunun üçün çox böyük sayda hərbi qüvvələri Dehli küçələrinə çıxardı, iğtişaşa əl atanlara divan tutuldu.Yalnız bundan sonra iğtişaşçıların fəaliyyətini səngitmək və Nadir şah döyüşçülərinin qırğınına son qoymaq mümkün oldu. Amma Nadir şah döyüşçülərinin qəzəbi yalnız iğtişaşçılara qarşı çevrilmədi. İğtişaşların yatırıldığı ərazidə yaşayan dinc əhali də qırğınlara və itkilərə məruz qaldı.Dehlidə və onun yaxın ətrafında yaşayan əhali Nadir şah döyüşçülərinin qəzəbinə tuş gəldi.“Tarix-e Cahanqoşa-ye Naderi”də Dehli əhalisinə divan tutulmasının səhərdən axşama kimi davam etdiyi və kütləvi qırğınlar zamanı 30 min Dehli əhlinin qırıldığı bildirilir (198).

Bəzi tarixi ədəbiyyatda isə qırğınların səhər saat 8-dən (bəzi tarixçilərə görə isə saat 9-dan) başlayıb günortadan sonra saat 3-ə qədər davam etdiyini yazırlar. Bu müddət ərzində Dehli tamamilə Nadir şah qoşunlarının ixtiyarında oldu. Onların qəzəbinə tuş gəlmiş iğtişaşçılar və əhali arasında baş verən itkilər haqqında da müxtəlif rəqəmlər mövcuddur.Bu rəqəmlər o dərəcədə fərqlidir ki, onların arasında reallığı əks etdirən həqiqətin ortalığa çıxarılması da çətindir. Şərq mənbələrində Dehli qırğınlarının qurbanlarının sayı 8-30 min nəfər arasında göstərilir. Qərb mənbələrində isə bu rəqəm 100 minlə 400 min arasında göstərilir (199).

Əgər Nadir şah qoşununun ilkin itkiləri 3-7 min nəfər arasında göstərilirsə, güman etmək olar ki, onların qisası daha çox itkiyə səbəb ola bilərdi.Dehli itkilərinin böyük olmasına baxmayaraq onun 100 minə çatması real görünmür. Bəzi mənbələrdə də ehtimal edilir ki, qısa müddət ərzində, çox da geniş olmayan ərazilərdə yüz minlərlə insanı tapıb qırmaq elə də asan deyildi.

Mənbələr onu da təsdiq edirlər ki, Dehli əhalisi başdan başa qırğına məruz qalmadı.Günahı olmayan insanlar və hətta bir çox məhəllələr Nadir şah sərkərdələrinin mərhəməti ilə qarşılaşdılar.C.Hanvey bu-

nunla bağlı hind əyanı Sərbülənd xanın yaşadığı məhəlləyə mərhəmət edilməsi haqqında Lütfəli xana müraciət etməsini və Lütfəli xanın da bu xahişi qəbul etməsinə toxunmuşdur (200).

Qırğınların kütləvi xarakter aldığını görəndə Nizamülmülk və Qəməraddin xan Məhəmməd şah tərəfindən Nadir şahın yanına göndərildi.Onlar Dehli əhalisinin Nadir şah qoşunlarına qarşı həyata keçirdiyi qətllərə görə üzr istəyib Dehli əhalisinin bağışlanmasını xahiş etdilər. Nadir şah onların  xahişini qəbul etdi və dərhal qırğınların dayandırılması tələbi ilə qoşun başçılarının yanına çaparlar göndərdi. Yuxarıda qeyd edildiyi kimi, qırğınların dayandırılması günortadan sonra saat 2-3-ə təsadüf edir.

Qırğınların dayandırılması xahişi ilə Məhəmməd şah özünün şəxsən Nadir şaha müraciət etməsi haqqında da məlumatlar mövcuddur. Amma tədqiqatçıların çoxunun fikri belədir ki, onun xahişi Nadir şaha yuxarıda adları çəkilən şəxslər tərəfindən çatdırılmışdı. Bununla da Dehlidə iğtişaşlara son qoyuldu və yenidən sakitlik bərqərar oldu.

Vəziyyət sakitləşən kimi Nadir şah Dehli əhalisini iğtişaşlara təhrik edən Seyid Nəvaz xanı və onunla əlbir olanları tapmağı tapşırdı. Onun göndərdiyi dəstə bu şəxsi və onun həmkarlarını ələ keçirdi və onlar qətlə yetirildilər (201).

Üç-dörd gün ərzində Dehli tamamilə sakitləşdi. Əvvəlki həyat bərpa oldu, insanlar öz gündəlik işlərinə qayıtdılar. Nadir şah isə Hindistanın idarəçilik işləri ilə məşğul oldu. Kəşmir, Əkbərabad və Aqrı vilayətlərinə fərmanlar göndərib həmin vilayətlərin hakimlərinin öz vəzifəsində saxlanıldığını bildirdi. Başqa bir fərmanı ilə bütün vilayət hakimlərindən onun adına sikkə vurulmasını tələb etdi. Bununla da, Hindistanda Nadir şahın adına sikkə vuruldu (202).

Mövcud olan məlumata görə, Dehli qırğınlarından bir neçə gün sonra, 1739-cu il aprel ayının əvvəlində Şəlimar sarayında Nadir şahla Məhəmməd şah arasında müharibə müqaviləsi  imzalandı. Tarixi ədəbiyyatda həmin müqavilənin mətni də öz əksini tapmışdır. Müqavilənin əvvəlində Nadir şahın ləqəbləri sadalanır və sonra bildirilir ki, Nadir şah qoşunları hələ Qəndəharda olarkən Məhəmməd xan Türkməni hind sarayına elçi göndərmişdi. Amma Məhəmməd xan Dehlidə gecikdirildiyi üçün iki dövlət arasında itkilər yarandı və Nadir şah qoşunları Hindistana doğru hərəkətə başladı. İki dövlətin qoşunları arasında müxtəlif yerlərdə, Kərnalda şahanə müharibə baş verdi və Allahın lütfü ilə Nadir şah qoşunları bu müharibədə qalib gəldi. Sonra müqavilədə bildirilir ki, Dehliyə daxil olandan sonra hind sultanlarının nəfis xəzinəsi Nadir şaha hədiyyə edildi. Nadir şah hind şahının xahişi

əsasında xəzinənin bəzi qiymətli daşlarını qəbul etdi və Qurqan süla-ləsinə olan ehtiram üzündən Hindistan tacı yenidən Məhəmməd şaha lütf edildi. Ardınca vurğulanır ki, 150 kurur tümən müharibə xərci kimi Hindistan tərəfindən ödənildi. Eyni zamanda müqavilədə hansı ərazilərin əfşarlar dövlətinin tərkibinə qatılması da dəqiqləşdirildi. Bu ərazilər aşağıdakılar idi:Ətək çayının və Sind çayının Absind və Nala-səng qalalarından qərbdə olan ərazilər, yəni, Pişavər, Kabul əyaləti, Qəzni, Əfqanıstan, hezarələr yaşayan ərazilər və s. Bir sözlə Ətək çayının qərbindən başlayaraq keçmiş Səfəvi sərhədlərinə qədər olan ərazilər İrana verilməli idi. Həmin ərazilərin idarə edilməsi Nadir şah sarayının ixtiyarna verilirdi (203).

Dehlidə olduğu müddətdə Nadir şah oğlu Nəsrulla Mirzəyə Mə-həmməd şahın qızının kəbinini kəsdirdi və toyunu etdi (bu barədə aşağıda danışılacaqdır). Hindistan daxilindəki işləri nizama saldıqdan, çoxlu sayda sərvət ələ keçirdikdən və istirahət üçün zəruri olan vaxt başa çatdıqdan sonra Nadir şah geri qayıtmaq qərarına gəldi. "Tarix-e Cahanqoşa-ye Naderi"nin yazdığına görə, Nadir şah Hindistanda 57 gün qaldı.Hərəkətə başlamazdan əvvəl Nadir şah bir miqdar hind gə-miqayıranlarını və dənizçilərini toplayıb Bəlxə yola saldı. Nadir şah Türküstana yürüşü zamanı Ceyhun çayını adlamaq üçün zəruri olan gəmilərin, qayıqların və keçidlərin hazırlanması üçün bu ustaları top-lamağı tapşırdı (204).Yəni, Nadir şah hələ Hindistanda olduğu vaxt Türküstana hücuma hazırlıq üçün əməli tədbirlərə əl atdı. Nadir şah eyni zamanda çoxlu sayda nəccar, bənna, daşyonan, zərgər və s. ustaları da toplayıb qoşunları ilə göndərdi ki, ölkəsində Dehliyə oxşa-yan bir şəhər tikdirsin. Hindistanda nüfuz sahibi olan bir sıra əyanları isə Nadir şah öz yanında xidmətə cəlb etdi.

Həhayət, Hindistandan hərəkətə başlamaq ərəfəsində Nadir şah Məhəmməd şahı rəsmi olaraq Hindistanın şahı elan etdi. Bununla bağ-lı yenə böyük bir mərasim təşkil olundu. Nadir şah bu mərasimdə də bəyan etdi ki, biz hər ikimiz türkmən nəslindənik, ayrılıq və ixtilaf bi-zim aramızda yoxdur. Ona görə də Hindistan padşahlığının taxt-tacını yenidən Hindistanın Qurqanlar nəslinə əta edirəm (205).

Tac qoyma mərasimi üçün münasib günün seçilməsi münəccimlərə tapşırıldı.Onların münasib saydığı gündə (tarixçilərin fikrincə bu, may ayının 12-si idi) Nadir şahın və Hindistanın bütün sərkərdələri, qoşun və tayfa başçıları saraya dəvət olundular. Nadir şahın tapşırığına əsasən, oğlu Nəsrulla Mirzə bir neçə əyanla Məhəmməd şahın sarayı-na yollandı. Qarşılıqlı hörmət və ehtiramın ifadəsindən sonra Məhəm-məd şah Nəsrulla Mirzə ilə birlikdə Nadir şahın sarayında təşkil olun-

muş ziyafətə təşrif gətirdi. Nadir şah ehtiram əlaməti olaraq Məhəmməd şahın pişvazına çıxdı, onu yanındakı xüsusi bir yerdə əyləşdirdi. Nəsrulla Mirzə, Təhmasib xan Cəlayir, Qəmərəddin xan və digər əyanlar onlar üçün müəyyənləşdirilmiş yerləri tutdular. Nadir şahın əmri ilə hind dövlətinin xanları qiymətli xələtlərə, qiymətli daşlarla bəzədilmiş qılınclara və cins atlara layiq görüldülər (206).

Mərasimdə səslənən həzin musiqi, xanəndələrin zövqlə oxuması, ziyafətin zənginliyi və əzəməti mənbələrdə də öz əksini tapmışdır. Nəhayət sonda Nadir şah Hindistan padşahlığının tacını Məhəmməd şahın başına qoydu və ona şahlıq üzüyü bağışladı. Nadir şah Hindistan taxt-tacına yenidən Məhəmməd şahı təyin etdiyini bəyan etdikdən sonra ayağa qalxdı, Məhəmməd şahı bir daha təbrik etdi və onun hakimiyyətinin möhkəm olması üçün hündür avazla Quranın fatihə surəsini oxudu. Məhəmməd şah da onunla birlikdə ayağa qalxdı.Təzim edib göstərilən ehtirama görə minnətdarlığını bildirdi. "Aləm Araye Naderi"nin yazdığına görə, Şəlimar müqaviləsi kimi tanınan müqavilə də məhz tacqoyma mərasimindən sonra Məhəmməd şah tərəfindən imzalandı və ona göstərilən etibarın əvəzində müqavilədə göstərilən ərazilər Nadir şahın tam idarəsi altına verildi (207).

C.Hanveyin yazdığına görə, tac qoyma mərasimində Nadir şah Məhəmməd şaha daş-qaşla bəzədilmiş bazubənd, əmmamə, cəvahirlə bəzədilmiş kəmərbənd, qəbzəsi mina işləri ilə bəzədilmiş xəncər, qəbzəsi cəvahiratla bəzədilmiş iki qılınc bağışladı. Nadir şah mərasimdə onu da bəyan etdi ki, Hindistan əyanları Məhəmməd şaha itaət etməlidirlər. Əks təqdirdə Nadir şah Qəndəhar yolu ilə qısa zaman ərzində Hindistana gəlib Məhəmməd şaha itaətsizlik göstərənləri cəzalandıra bilərdi (208).

Nadir şah eyni zamanda bəyan etdi ki, bundan sonra məscidlərdə xütbələr Məhəmməd şahın adına oxunsun və onun adına yenidən sikkələr vurulsun.Deyilənə görə, Nadir şah Hindistanın tam nəzarət altında saxlanması üçün Məhəmməd şaha bir sıra məsləhətlər verdi. C.Hanveyə görə, Nadir şahın Məhəmməd şaha olan nəsihətləri və məsləhətləri belə idi - əyanların istifadəsinə verilmiş torpaqlar onların əllərindən alınsın, onlara dövlət xəzinəsindən maaş verilsin. Onların heç birinə imkan verilməsin ki, özlərinə ayrılıqda qüvvə saxlasınlar. Belə olanda böyük ordunun saxlanmasına da ehtiyac duyulmayacaq. Amma buna baxmayaraq 60 min seçmə süvaridən ibarət qoşun saxlanmalıdır.Qoşun üzvlərinin hər birinə ildə 60 rupi xərclənsin. Hər on döyüşçüyə bir on başı, hər on onbaşıya bir yüzbaşı, hər on yüzbaşıya bir minbaşı təyin edilsin.Ölkənin vəziyyəti, zabitlərin və onların ailə-

lərinin vəziyyəti nəzarət altında saxlanılsın, onların məharəti və xəyanətləri haqqında məlumatlar toplansın. Əsgərlərin nəzarətdən və diqqətdən kənarda qalmasına imkan verilməsin. Zərurət yarananda təcrübəli sərkərdələrin rəhbərliyi altında qoşun dəstəsi ezamiyyətə və ya döyüş tapşırığının icrasına göndərilsin.Amma vəzifənin icrası başa çatdırılan kimi qoşun dəstəsi geri çağırılsın. Belə olanda müharibənin nəticələri də geniş miqyas almaz.

Nadir şah daha sonra əlavə etdi: - saray əyanlarının seçilməsinə diqqət yetirilsin. Şan-şöhrət həvəskarları və xudpəsəndlər saraya yaxın buraxılmasın. Əgər onları mən seçməli olsam məndən sonra onlar hind şahına lazımi ehtiram bəsləməyəcəklər. Amma onların hər hansı biri iğtişaş yolunu tutsa cəzalarımdan yaxasını qurtara bilməyəcəkdir (209).

Nadir şah hind sarayının ən nüfuzlu əyanlarından olan Sərbülənd xana və Nizamülmülkə də öz tövsiyələrini çatdırdı.Onlara məsləhət bildi ki, öz padşahlarına sədaqət göstərsinlər. Nadir şah onu da əlavə etdi ki, əks təqdirdə bu əyanlar onun qəzəbindən qurtara bilməzlər.

Öz məsləhətlərini və tövsiyələrini verib qurtarandan sonra Nadir şah Dehlidən hərəkətə başlamaq haqqında fərman verdi.Mövcud olan məlumatlara görə, Nadir şah qoşunu ilə may ayının 16-da Dehlidən yola düşdü.Yola düşmək ərəfəsində onun yerli əhaliyə və qoşunlarına olan fərmanı da açıqlandı.Nadir şah yerli əhalidən tələb edirdi ki, kimsə onun döyüşçülərinə toxunmasın, hər hansı bir döyüşçünü oğurlayıb gizlətməsin. Əks təqdirdə günahkarlar ağır cəzalara məruz qalacaqlar. Qoşunlardan isə tələb etdi ki, yerli əhalini incitməsinlər, qanuni haqqı olmadan döyüşçülər özləri ilə yerli qulamları və kənizləri aparmasınlar (210).

Şahidlərin ifadəsinə görə, Nadir şah atının belində Dehli küçələri ilə Kabul darvazasına doğru üz tutdu.Nadir şahın başında qiymətli daşlarla bəzədilmiş qırmızı papaq var idi. Onun aşağı dövrəsinə ağ Kəşmir şalı dolanmışdı.Nadir şah at belində məğrurcasına irəliyə boylanırdı, sağlam duruşu və möhkəm bədən quruluşu onu xeyli cavan və qürurlu göstərirdi. Saqqalı və bığları qara rəngə boyanmışdı. Şahidlərin ifadəsinə görə, Nadir şah başını dik tutub düz qarşıya baxır və onu salamlayan adamların ayağı altına rupilər atırdı (211).

Bir mənzil yol boyu Məhəmməd şah da onu müşayiət etdi və sonra geri qayıtdı. Nadir şah Şəlimar bağına çatıb orada qısa müddətli istirahət etdi. O, Kərnal düzündən keçməklə Hindistana gəldiyi marşrutla geri qayıdırdı. Mənbələrdə olan məlumatlara görə, havaların son dərəcə isti olması və yüklərin çoxluğu, bir tərəfdən də Hindistan çay-

larının tüğyan etməsi qoşunların hərəkətinə xeyli çətinlik gətirdi. Çay hövzələrində  aramsız yağışların yağması da qoşunların irəliləməsinə öz təsirini göstərirdi. C.Hanveyin yazdıqlarından aydın olur ki, qoşunların ağır-ağır hərəkət etməsindən bəhrələnməyə çalışanlar da tapılırdı. Yerli əhali nümayəndələri tərəfindən qoşunların müəyyən dəstələrindən atlar nəqliyyat heyvanları və s. oğurlandı. Nadir şah bunu eşidən kimi heyvan oğurluğu ilə məşğul olan ətraf yaşayış məntəqələrinin əhalisinə qarşı sərt tədbirlər həyata keçirdi (212).

Çəhnab çayının adlanması zamanı Nadir şah qoşunları yeni bir sınaqla üzbəüz gəldi.Yağan aramsız yağışlar bu çayın tüğyan etməsinə səbəb olmuşdu. O biri sahilə keçmək üçün çay üzərindən böyük çətinliklə müvəqqəti körpü quruldu. Bu körpü vasitəsilə qoşunların yalnız yarısı çayı adlaya bildi. Ağırlığa davam gətirməyən körpünün dağılması ilə qoşunların keçidi dayandırıldı. Mənbələrin verdiyi məlumata görə,  körpünün dağılmasında yerli əhalinin səyləri də az deyildi. Hər vasitə ilə Nadir şahın qalib qoşununa xətər yetirməyə çalışan insanlar çay axarının yuxarısında çoxlu sayda ağacları kəsib çaya atdılar. Çayın tüğyan edən suyunun iti axarına düşən bu ağacların  ağır zərbələri də körpünün dağılmasını sürətləndirdi. Bu da öz növbəsində qoşunların hərəkətini ləngitdi (213).

Bunan sonra Nadir şah əmr etdi ki, ətraf yaşayış məntəqələrindən qayıqlar və kiçik gəmilər toplanıb gətirilsin.“Tarix-e Cahanqoşa-ye Naderi”nin məlumatına görə, Nadir şah 40 gün Çehnab çayının sahilində ləngiməli oldu. Kiçik qayıqlarla böyük sayda olan qoşunun o biri sahilə adladılması xeyli vaxt apardı. Yalnız bütün qoşun adlayandan sonra Nadir şah gəmi ilə o biri sahilə adladı. Mənbələrdə o da bildirilir ki, Çehnab çayı sahilində Nadir şah qoşunlarının rastlaşdığı çətinliyi eşidəndə Lahor hakimi Zəkəriyyə xan köməyə gəldi. Qoşunlar çayı adlayan günə qədər Zəkəriyyə xan onlarla oldu və bununla Nadir şaha sədaqətli qaldığını nümayiş etdirdi. Zəkəriyyə xan eyni zamanda hakimi olduğu şəhərdən toplaya bildiyi maliyyə vəsaitini də Nadir şaha təqdim etdi (214).

Nadir şah Ətək çayı sahilindəki Həsənabad məntəqəsinə çatanda Hindistanda əldə etdiyi qələbə xəbərini Rusiya və Osmanlı saraylarına çatdırmaq üçün elçiliklər göndərməyi qərarlaşdırdı.Bu nümayəndəliklər çox böyük təm-təraqla yola salındı və çox güman ki, Nadir şah bununla Hindistanda əldə etdiyi qələbənin əzəmətini nümayiş etdirmək istəyirdi. Nadir şahın əmri ilə Hacı xan, Osmanlı sarayına göndərilən nümayəndə heyətinin, topşubaşı Sərdar bəy Qırxlı isə Rusiya sarayına göndərilən nümayəndə heyətinin başçısı təyin edildi. Bu nüma-

yəndə heyətlərinin hər biri adları çəkilən dövlətlərin saraylarına çoxlu sayda hədiyyə də apardılar. Nadir şahın göndərdiyi hədiyyələrə 12 min tümənlik cəvahirat və 14 baş fil də daxil idi (215).

Elçilərin yola salınmasından sonra Nadir şah qoşunları Ətək çayını keçməyə başladılar. Bunun üçün çayın üzərində körpü quruldu və qoşunlar alay-alay çayın o biri sahilinə adladılar. Həmin ərazinin dağlıq yerlərində məskunlaşan Yusifzay tayfaları Nadir şah qoşunlarının üzərinə hücuma keçdilər.Dağlıq ərazilərdə sərt həyat sürən Yusifzay əfqanları böyük sərvətlə Hindistan yürüşündən geri qayıdan Nadir şah qoşunlarını çay keçidində haqlayıb onlardan nə isə qoparacaqlarına ümid edirdilər.Yerli şəraitdə daha çevik hərəkət edən Yusifzay əfqanlarının bu niyyətinin həyata keçməsinə Nadir şah imkan vermədi. Çayı adlayan alaylara Yusifzay əfqanları üzərinə hücum əmri verildi. Bu alaylar əfqanların yüksək dağ zirvələrində olan yaşayış məntəqələrinə hücum etmək tapşırığı aldılar və qısa müddət ərzində həmin tapşırıq yerinə yetirildi. "Tarix-e Cahanqoşa-ye Naderi"də açıq yazılmışdır ki, bəd niyyətlərə düşən Yusifzay əfqanları əməllərinin mükafatlarını aldılar. Nadir şah qoşunlarına qarşı bəd niyyətlərə düşənlər o dünyaya göndərildilər. Belə olanda tayfanın başçıları və sərkərdələri Nadir şahdan barışıq istəmək məcburiyyətində qaldılar. Bundan başqa tayfa üzvlərindən təşkil olunmuş bir alay Nadir şah qoşunlarında xidmətə verildi (216).

L.Lokkart Yusifzay əfqanlarının Nadir şahla razılaşmasını, məhz Nadir şahın onlarla barışığa getməsi kimi təqdim edir. Müəllifin fikrincə bu sövdələşməyə girməklə Nadir şah orada ləngiməmək və qış düşüncə Kabula yetişmək istəyirdi. C.Hanvey də əsərində qeyd edir ki, Nadir şah yolda ləngiməmək üçün əfqanlarla sövdələşməyə girdi və onlara böyük miqdarda pul verdi (217). Düşmənlə sövdələşməyə girmək, özü də gücsüzlüyündən və ya çarəsizliyindən belə bir sövdələşməyə girmək Nadir şah kimi əzəmətli bir fatehin xarakterinə yad idi. Ona görə də bu söylənilənlərin düzgünlüyü şübhə doğurur.

Yoluna davam edən Nadir şah bir neçə gün Pişavərdə istirahətə dayandı. Sonra isə Xeybər aşırımı-Cəlalabad-Kabul marşrutu ilə hərəkət edib dekabr ayının 2-də Kabula çatdı. Nadir şah burada da qoşunlara qısa müddətli istirahət verdi.Kabulda dayandığı vaxt ərzində Nadir şah qoşunların sıralarını genişləndirməyə çalışdı. Onun əmri ilə Pişavər və Kabul əfqanları, hezarə və dağlarda yaşayan digər tayfalar arasından 40 min nəfərlik qoşun dəstəsi toplandı. Həmin dəstə qoşun başçılarının rəhbərliyi altında Herata göndərildi və eyni zamanda ora

göndərdiyi sərkərdələrinə tapşırdı ki, Herat şəhəri onun gəlişinə hazırlansın (218).

Nadir şah öz qoşunlarının təkmilləşdirilməsi ilə daim məşğul olurdu.Amma Kabulda olarkən yerli əhali arasından böyük qoşun dəstəsinin toplaması heç şübhəsiz ki, Türküstan yürüşünə hazırlaşması ilə bağlı idi. Nadir şah eyni zamanda sərvətini və xəzinəsini fillərin və artilleriyanın müşayiəti ilə Herata göndərdi (219).

Nadir şah özü isə Kabuldan Sind vilayətinə yollandı ki, bu vilayəti də itaət altına gətirsin. "Aləm Ara-ye Naderi"də bildirilir ki, Nadir şah hələ Hindistanda olarkən Məhəmməd şah, Sind hakimlərinin üzüdönüklüyü haqqında ona məlumat vermiş və onların yola gətirilməsini xahiş etmişdi. Mənbədə o da bildirilir ki, Nadir şah Hindistandan qoşunları ilə birbaşa Sində yollandı (220).

"Tarix-e Cahanqoşa-ye Naderi"də, habelə digər mənbə və tədqiqat əsərlərində isə Nadir şahın Kabuldan Sində tərəf hərəkətə başladığı bildirilir. "Tarix-e Cahanqoşa-ye Naderi"də təsdiq olunur ki, Sind hakimi Xudayar xan Abbasi hətta Hindistanın fəth edilməsindən sonra belə Nadir şaha itaət etməyə meyl göstərmədi. Əksinə, ətrafına topladığı qoşunların sayını artırmaqla özünün müstəqil hakimliyini qoruyub saxlamaq istəyirdi. Onun bu iddialığı heç şübhəsiz ki, Nadir şahı qane etmirdi və Türküstana yürüş etməzdən əvvəl Sind hakimini də itaət altına gətirməyi qərarlaşdırdı. Qış mövsümünün olması Sind yürüşünü mürəkkəbləşdirsə də Nadir şah bu qərarından dönmədi.

Mövcud olan məlumatlara görə, Nadir şah əvvəlcə bu məsələni sülh yolu ilə həll etməyə çalışdı və bu məqsədlə Sind hakimi Xudayar xanı Kabula dəvət etdi. Xudayar xan bununla razılaşıb öz itaətini bildirsəydi daha həmin vilayətə qoşun çəkməyə də ehtiyac qalmazdı. Amma Xudayar xan imtina etdi və Kabula gəlmədi.Çox güman ki, Xudayar xan qış dövründə dağlıq ərazilərə hərəkət etmək çətinliyinə görə, Nadir şahın Sində yürüş edəcəyinə inanmırdı. Lakin onun höcətliyi Nadir şahı məcbur etdi ki, Sində doğru hərəkətə başlasın (221).

Nadir şah Sində doğru iki istiqamətdən hücuma başladı. Bir tərəfdən Fars bəylərbəyi Məhəmməd Tağı xana göstəriş verdi ki, tabeliyində olan Fars, Kerman və ətraf məntəqələrin qoşunları ilə Sind çayının mənsəbindən yuxarıya doğru hərəkətə başlasın. Piyada qüvvələri və artilleriya quru yolu ilə Sində doğru irəliləməli idi. Nadir şah özü isə dekabr ayının 8-də artilleriyası və bir neçə alayı ilə Bənkeş və Direcat yolu ilə Sində doğru irəlilədi. Bəzi tədqiqatçılar Sində doğru hərəkət edən Nadir şah qoşunlarının 50 min nəfər olduğunu göstərirlər (222).

Amma sonradan Məhəmməd Tağı xan Nadir şaha məktub göndərdi ki, göstərilən marşrutla irəliləmək mümkün deyil. Məhəmməd Tağı xan, Gəcməkəran adlı məntəqəyə çatıb oranı itaət altına aldı.Özü piyada qoşunla orada qaldı və donanması isə geriyə, Bəndər Abbasa qayıtdı.

Nadir şahın bu yürüşü təxminən üç ay davam etdi və qarşısına qoyduğu məqsədinə də nail oldu. Bu yürüş coğrafi baxımdan çox ağır təbii şəraitdə həyata keçirildi və onun başa çatdırılması Nadir şahın əzmkarlığının, qarşıya qoyduğu məqsədə çatmaq üçün malik olduğu xarakter bütövlüyünün və hərbi təşkilatçılığının yeni bir nümayişi oldu.

Nadir şah hərəkət marşrutu üzərində məskunlaşan tayfa başçılarından İsmayıl xanı və Qazı xanı da itaət altına gətirdi. Bu xanların hər ikisi əl çatmaz yüksəkliklərdə məskunlaşdıqlarından və mərkəzi hakimiyyətdən uzaq olmalarından istifadə edərək müstəqilliklərini saxlamağa çalışırdılar. İsmayıl xan da əvvəlcə öz qalasına sığınaraq Nadir şaha müqavimət göstərmək istədi. Amma Nadir şahın gücünü və ətraf məntəqələrin onun qarşısında duruş gətirə bilmədiyini görüncə təslim olmağı və itaət etməyi qərara aldı. İsmayıl xan itaət etməklə bərabər, Nadir şah qoşunlarına Ətək çayını keçməyə də kömək etdi. Bu çayı adlamaq üçün müəyyən çətinliklərlə üzləşəcəyini Nadir şah əvvəlcədən hiss etmişdi. Ona görə 6 ədəd gəmini fillərə yükləyib özü ilə gətirdi. Eyni zamanda İsmayıl xan hakimi olduğu məntəqələrdən çoxlu sayda gəmi və qayıq topladı. Bu gəmilər və qayıqlar çayın üzərində bir-birinə bərkidildi və sonra onların üzərindən həm artilleriya, həm də qoşun o biri sahilə keçirildi. Çayı adlayandan sonra Nadir şah qoşunları Qazı xanla rastlaşdı. Amma Qazı xan heç bir müqavimət göstərmədi. Nadir şah bu iki xanı bağışlayıb onları öz vəzifələrində saxladı.O eyni zamanda müqavimət göstərməyən qalalara da toxunmadı(223).

Qazı xan qalası yaxınlığında məskunlaşmış olan tayfalardan bəziləri yenə də Nadir şaha itaət etməkdən boyun qaçırdılar. Onlar çətin dağlıq ərazilərdə və qalın meşələrdə yaşasalar da Nadir şahın qoşunlarının gəlməsini eşidib daha keçilməz yerlərə çəkildilər. Baxmayaraq ki, onlar sayca çox deyildilər və ola bilsin ki, Nadir şah qoşunları üçün ciddi təhlükə törətmirdilər. Bununla belə, onların inadkarlığı və saymazyanalığı Nadir şahın diqqətindən kənarda qalmadı və onların ardınca da qoşun göndərdi. Qoşun əlçatmaz dağ keçidlərinə çatanda əvvəlcə inadkarlıq göstərən həmin insanların yanına elçilər göndərildi, müqavimət göstərməyəcəkləri halda onların bağışlanacağı bildirildi.

İtaətsizlik yoluna qədəm qoymuş tayfaların başçıları və ağsaqqalları bağışlanmaları haqqında şah fərmanını görəndən sonra müqaviməti dayandırmağı və öz yaşayış yerlərinə qayıtmağı qərara aldılar. Onların ifadəsindən sonra aydın oldu ki, Nadir şah qoşunlarının hərəkətindən xəbər tutan kimi Sind hakimi Xudayar xan da ( "Aləm Ara-ye Naderi"də Kiya Nasir adlanır) vilayət paytaxtı olan Xudaabadı tərk edib dağlara üz tutdu. Ailəsini və yaxınlarını özü ilə aparan Xudayar xan Nadir şahın qəzəbinə tuş gəlməyəcəyinə əmin olmaq üçün Ömərkut qalasına sığınmağı qərara aldı.Bu qala Sinddən 40 mənzillik bir məsafədə yerləşirdi. Ora aparan yol üzərində su və ərzaq mənbələri, hətta yaşayış məntəqələri belə yox idi. Xudayar xanın əyanları və yaxınları da bu uzaq səfərə çıxmağın son dərəcə təhlükəli olduğunu bildirirdilər. Lakin Nadir şahın qəzəbi və qorxusu Xudayar xanı məcbur etdi ki, Sinddən qaçıb Ömərkut qalasına sığınsın. Xudayar xan ona əmin idi ki, özü çətin yolun ağırlığına dözsə də, Nadir şah qoşunu ilə belə bir marşrutla irəliləməyə cəsarət etməz (224).

Nadir şah bu xəbəri eşidən kimi qarşıdakı yolun bütün çətinliyinə baxmayaraq hərəkət etməyi qərara aldı. Yolun çətinliyi üzündən o, bütün qoşunu özü ilə aparmağa ehtiyac görmədi. Qoşunun bir hissəsini, o cümlədən bütün yükləri oğlu Nəsrulla Mirzəni nəzarəti altında Larkan adlanan məntəqədə saxladı və bir neçə alayla özü Xudayar xanın təqibinə başladı.Sind çayının və eləcə də qalın meşələrin keçilməsi üçün Nadir şah 7 gün vaxt itirməli oldu və yeddi günün tamamında Şəhdadpur adlanan məntəqəyə yetişdi. Burada qısa müddətli istirahətdən sonra Ömərkuta doğru hərəkət davam etdirildi. Nadir şaha məlum idi ki, Ömərkut yolu boyu yalnız hər 4-5 mənzildən sonra bir su quyusuna rast gəlmək olar ki, həmin quyunun suyu da Nadir şah qoşunlarının ehtiyacını ödəyə bilməz. Ona görə Nadir şah əmr etdi ki, hər bir döyüşçü özü ilə əlavə bir at götürsün və həmin atlara 3-4 tuluq su yüklənsin. Eyni zamanda Nadir şah qarşıdakı yolun sürətlə qət edilməsi üçün lazımi göstərişləri verdi. "Aləm Ara-ye Naderi"yə görə, son dayanacaqdan hərəkət edən Nadir yalnız 9 gündən sonra Ömərkt qalasına çata bildi (225).

"Tarix-e Cahanqoşa-ye Naderi" və bir sıra tədqiqat əsərləri bildirirlər ki, Nadir şah Şəhdadpurdan 1740-cı il fevralın 26-da hərəkət etdi və bir gün sonra Ömərkut qalasına çatdı (226). Hər halda o, məlumdur ki, Ömərkuta yetişmək üçün böyük əziyyətlərə qatlaşmalı oldu və Xudayar xan qəfil şəkildə bu qalada yaxalandı. Mövcud olan məlumata görə, Xudayar xan həmişəki adəti üzrə səhər yuxusundan qalxıb qaladan kənara baxanda Nadir şah qoşunlarının mühasirəsində olduğunu

gördü.Xudayar xan yenə qaladan qaçmağa cəhd göstərsə də bu ona müyəssər olmadı və qılıncını boynundan asıb təslim olmaq üçün Nadir şahın hüzuruna yollandı. Nadir şah onu da, onun tayfasının əhalisini də bağışladı və Xudayar xanın malik olduğu zəngin xəzinəni ələ keçirdi. Nadir şah onun xanlığına toxunmadı və Xudaabada geri qayıtmağı tapşırdı. Özü isə bir müddətdən sonra Larkana, qoşununun bir hissəsi ilə Nəsrulla Mirzənin dayandığı məntəqəyə döndü. Onun Larkana dönüşü artıq 1740-cı ilin Novruz bayramı günlərinə təsadüf edirdi. Nadir şah qoşunu ilə Novruz bayramını məhz burada qeyd etdi (227).

1740-cı il aprel ayının 10-da Nadir şah qoşunları ilə Larkandan Nadirabada doğru hərəkətə başladı. Bundan əvvəl isə Tehranda olan oğlu Rzaqulu Mirzəyə xəbər göndərdi ki, Herata gəlsin və onlar orada görüşsünlər.Yenə çətin dağ yolları ilə irəliləyən Nadir şah may ayının 4-də qoşunları ilə Nadirabada yetişdi.Bəzi tarixçilərin fikrincə 8 gün, bəzilərinin fikrincə isə 10 gün orada qaldı. Nadir şah 2 ildən çox müddətdə Hindistan yürüşündə oldu. Onun fatehlik tarixinin zirvəsi olan həmin yürüşü Nadir şah Qəndəhar yaxınlığında saldırdığı Nadirabaddan başladı və sonra da elə oraya qayıtdı. Nadir şah öz fatehliyinin təntənəsini Heratda nümayiş etdirmək istəyirdi. Buna görə o təkcə oğlu Rzaqulunu deyil, vilayət hakimlərini, Xorasanın kələntərlərini və ağsaqqallarını Herata dəvət etdi.

Nadirabadda olduğu bir neçə gün ərzində Nadir şah Türküstana yürüşün hazırlığı üçün bəzi göstərişlərini verdi. O, Hacı xan Əfşarın bir süvari dəstəsi ilə bərabər Bəlxə yollandı.Nadir şahın ona verdiyi tapşırıq ondan ibarət idi ki, orada çayı adlamaq üçün gərək olan qayıqların və gəmilərin quraşdırılmasına nəzarət etsin, ətraf məntəqələrdən ərzaq ehtiyatı toplayıb Ceyhun çayının kənarında cəmləşdirsin (228).

Digər tərəfdən də Nadir şah qardaşı İbrahim xanın qisasını almaq üçün Nadirabad bəylərbəyi Qəni xan Əbdalinin rəhbərliyi altında əbdali əfqanlarından ibarət qoşun dəstəsini Dağıstana göndərməyi qərara aldı. Nadir şah bu dəstəni özü ilə Türküstana aparmaq niyyətində idi. Lakin sonradan planını dəyişdirdi.Qəni xana belə tapşırıq verdi ki, onun Şirvana səfəri və ləzgilər üzərinə hücumu üçün elə bir vaxt seçilsin ki, Elbrus dağı qarla örtülmüş olsun və ləzgilərin geri qaçmaq yolu bağlansın.Yəni, ləzgilər onun hücumundan geri qaça bilməsinlər. Nadir şah atadan ögey qardaşı Fətəli xan Kosaəhmədliyə tapşırdı ki, bir sıra xanlar və hakimlərlə birlikdə və 15 min Xorasan dəstəsi ilə Qəni xanın Şirvan yürüşünə qoşulsun. O, Azərbaycan və Gürcüstan hakimlərinə və əmirlərinə göstəriş verdi ki, Şirvan yürüşünün təşkilində Qəni xana yardımçı olsunlar (229).

Bir müddət Nadirabadda qaldıqdan və lazımi göstərişlərini verdikdən sonra Nadir şah Herata doğru hərəkətə başladı və iyun ayının 10-da Heratın 6 kilometrliyində olan Kəhdestan çəməninə çatdı. Burada düşərgə salan Nadir şah İraq və Azərbaycandan olan qoşun dəstələrinə vətənlərinə qayıtmaq icazəsi verdi ki, uzun müddətli yürüşdən sonra istirahət etsin. Həmin qoşun dəstələri lazım olan vaxtda yenidən Nadir şahın qoşunlarına qoşulmalı idilər.

Nadir şah Herata qayıtdıqdan sonra Xorasan vilayətinin hakimləri, kəndxudaları, əyanları, böyükləri dəstə-dəstə Nadir şahın yanına axışıb ona həm öz ehtiram və itaətini, həm də qələbə ilə geri qayıtmasına görə öz təbriklərini çatdırdılar. Nadir şah da onun ziyarətinə gələnləri hörmət və ehtiramla qarşılayır və Hindistanda əldə etdiyi sərvətdən onlara hədiyyələr verirdi.Nadir şahın ziyarətinə gələnlər arasında onun atadan ayrı qardaşı olan Kəlbəli xan da var idi. “Aləm Ara-ye Naderi”də Kəlbəli xanın Herata gəlməsi xüsusi olaraq təsvir edilmişdir. Kəlbəli xan və onu müşayiət edən xanlar Herata yetişdikdən üç gün sonra Nadir şahla görüşə bildilər. Mənbədə göstərilir ki, Nadir şah onları türk dilində salamladı və onların hər birinə türkcə belə müraciət etdi: “Bəylər, ağalar, xoş gəldiniz”. Görüşün sonunda Nadir şah Mərv xanlarına və sərkərdələrinə hədiyyə kimi 12 min tümən pul payladı (230).

Tarixdən məlumdur ki, Rzaqulu Mirzə Heratda Nadir şahın görüşünə yetişə bilmədi. Nadir şaha göndərdiyi peyğamında o bunu ölkənin idarəetmə işlərinin çoxluğu ilə əlaqələndirdi. Belə olanda Nadir şah göstəriş verdi ki, oğlu İmamqulu, nəvəsi Şahrux Mirzə və qardaşı İbrahim xanın oğlu Əliqulu xan Rzaqulu Mirzəni gözləmədən Herata, onun görüşünə gəlsinlər (231).

Rzaqulu Mirzənin Nadir şahın görüşünə ləngiməsinin səbəbləri tədqiqatçılar tərəfindən müxtəlif şəkildə yozulur. Hər halda çoxları bu ləngimənin səbəbsiz olmadığını güman edirlər (Bu barədə aşağıda danışılacaqdır). Tədqiqatçılar arasında belə bir fikir də mövcuddur ki, Rzaqulunun bu çağırışa bir qədər soyuqqanlıqla yanaşması həm onun, həm də Nadir şahın sonradan qarşılaşmalı olduğu faciəli taleyin başlanğıcını qoydu.

Rzaqulu Mirzə Herata yetişə bilməsə də, Şahrux Mirzə və Əliqulu xan Heratda Nadir şahla görüşə bildilər. Nadir şah qardaşı İbrahimin faciəli ölümü barəsində onun oğlu Əliqulu xana başsağlığı verdi və vəd etdi ki, Türküstan yürüşünü başa vuran kimi mütləq Dağıstana yürüş edəcək və İbrahim xanın qisasını alacaqdır.Nəvəsi Şahrux Mirzə ilə də Nadir şah çox mehribanlıqla görüşdü və yaşının azlığına baxma-

yaraq onu Herat hakimi elan etdi.Əmir Teymura xüsusi münasibəti olan Nadir şah onun oğlu Şahruxun 300 il əvvəl Herat hakimi olması və orada onun adına sikkə vurulmasından xəbərdar idi. Həmin tarixin xatırlanması kimi Nadir şah nəvəsi Şahrux Mirzənin də adına sikkə vurulmasını əmr etdi (232).

Hindistanda ələ keçirdiyi sərvəti Herata dəvət olunmuş əyanlara nümayiş etdirmək üçün Nadir şah böyük bir çadırın qurulmasına göstəriş verdi. Mənbədə olan məlumata görə, həmin çadır elə böyük və əzəmətli idi ki, onun eni və uzunu adi ölçülərə sığmırdı. Çadırın 14 böyük dirəyi və 440 kiçik dirəyi var idi. Dirəklərin və çadırın bərkidilməsi üçün 14 min mıx işlədilmişdi. Hər bir dirəyin başına daş-qaşla bəzədilmiş qübbə bərkidilmişdi.Çadırın qurulması başa çatmamış güclü tufan başladı və yenə mənbəyə görə, 8 min nəfərin iştirakı ilə qurulmuş həmin çadır yerə çökdü. Səhəri gün çadırın qurulması üzərində iş davam edəndə güclü tufan bir daha təkrar olundu və çadır yenə də yerə çökdü. Buna baxmayaraq, hava sakitləşən kimi çadırın qurulması başa çatdı. Hindistandan gətirilən "Təxti-Tavus" və "Təxt-e barqah-e Naderi", digər taxtlar və bahalı əşyalar çadırda nümayişə qoyuldu. Qiymətli əşyalar əzəmətli çadırın daxilində nümayişə qoyulduqdan sonra böyük ziyafət və şadyanalıq təşkil edildi. Nadir şahın yaxınları, əyanları və sərkərdələri, Herata dəvət olunmuş hakimlər, əmirlər böyük heyranlıqla nümayişə qoyulmuş var-dövləti seyr etdilər. Nadir şah tərəfindən nümayişə böyük bir fil və iki kiçik fil də çıxarıldı. Bu fillərin belinə bahalı parçalar salınmış, ayaqları isə qiymətli əşyalarla bəzədilmişdi. "Aləm Ara-ye Naderi"nin təsvirinə görə, bu fillərin gözü Nadir şaha sataşanda qabaq ayaqlarını əyib bir növ təzim etdilər (233).

Hindistandan gətirilən var-dövlət 4-5 gün nümayiş etdirildi. Həmin günlər ərzində şadyanalıq və ziyafətlər davam etdi. Bütünlükdə, 15 gün Heratda qaldıqdan sonra Nadir şah Türküstana doğru yürüşə başladı.

## 4. Nadir şahın Türküstana yürüşü

Nadir şah Heratda çox dayanıb Rzaqulu Mirzənin nə vaxt çatacağını gözləmədi. O, Heratda o vaxta qədər dayandı ki, həmin müddət qoşunların istirahəti, onların təkmilləşdirilməsi və zəruri təşkilati işlərin aparılması üçün lazım idi. Bu müddət ərzində o həm də Hindistan zəfərini lazımi şəkildə qeyd etdi.Türküstana yola düşməzdən əvvəl Heratda nümayişə qoyduğu və qoymadığı var-dövlətini qorunmaq üçün Kelata göndərdi. Rzaqulu Mirzəyə isə xəbər göndərildi ki, Məş-

həddən sonra Şeyx Cam türbəsi yolu ilə bir başa Badğis yaxınlığındakı Qaratəpəyə gəlsin. Nadir şah da hərəkətə başlayandan 5 gün sonra Qaratəpəyə yetişdi. Burada o, Rzaqulu Mirzə ilə görüşdü. Rzaqulu Mirzə rəhbərlik etdiyi şahzadə qvardiyasını rəsmi-keçidlə Nadir şahın qarşısından keçirdi.Amma bu rəsmi-keçiddən alınan təəssüratın nəticəsi o oldu ki, Rzaqulu Mirzə səltənət nayibliyindən ( hakimiyyət varisliyindən) azad edildi və onun yerinə Nəsrulla Mirzə təyin edildi. Rzaqulu Mirzəyə isə tapşırıldı ki, Nadir şahla birlikdə Türküstan yürüşündə iştirak etsin (234).

Bəzi tarixçilər güman edirlər ki, Qaratəpədəki görüş zamanı Nadir şahla Rzaqulu Mirzə arasındakı anlaşılmazlıq aradan qalxdı. Nadir şah Hindistan yürüşündə yorulmuş, ağır əziyyətlərə düçar olmuş qoşunlarına yeni bir nəfəs gətirmək məqsədilə Rzaqulu Mirzənin qvardiyasını da ona qatdı və Qaratəpədə 3 günlük istirahədən sonra Nadir şah Rzaqulu Mirzənin müşayiəti ilə Balamürqab-Çiçəktu-Xeyrabad-Əndxod marşrutu ilə Bəlxə doğru hərəkətə başladı (235).

Türküstana doğru hərəkətini davam etdirərkən Nadir şah Kabul ətrafında məskunlaşmış əfqan, səgəzay və beluc tayfalarının itaətdən üz döndərdikləri, vaxt ötdükcə onların Nadir şah dövlətinə itaətdən daha da uzaqlaşması haqqında məlumat aldı.Nadir şah Kabul ətrafında ona qarşı yaranmış bu müxalifətin vaxtında qarşısını almaq üçün ora qoşun göndərməyi qərara aldı. Kabulun nəzarət altından çıxması Pişavərə, Lahora və Hindistana aparan yollar üzərindəki tayfaların nəzarət altından çıxması demək idi və Kabulun itirilməsi əslində, Hindistana yürüş zamanı Nadir şahın əldə etdikləri ərazilərin itirilməsi demək idi. Bu ərazilərə nəzarəti itirməklə oralarda toplana biləcək vergilərdən də Nadir şah məhrum ola bilərdi. Məsələnin əhəmiyyəti nəzərə alındığı üçündür ki, Nadir şah Kabul istiqamətinə özünün ən təcrübəli və etibarlı sərkərdələrindən olan Təhmasib xan Cəlayiri və Həsən xan Bayat Nişapurini ezam etməyi qərara aldı. Təhmasib xan Cəlayir Kabul və ətraf vilayətlərin hakimi təyin edildi və həmin məntəqələrdən maliyyə toplanmasına rəhbərlik də ona tapşırıldı. Həsən xan Nişapuri həmin ərazilərin sərdarı, zənburəkçibaşı Mehdi xan isə Kabul və ətraf vilayətlərin topçubaşısı təyin edildi.Adı çəkilən şəxslərin hakimiyyəti Kabuldan Lahor vilayətinə qədər yayılmalı idi. Nadir şah Təhmasib xan Cəlayirin ixtiyarına 12 min nəfərlik bir qoşun dəstəsi də verdi və ona tapşırdı ki, təyinat yerinə çatan kimi Lahor sərhədinə qədər olan ərazilərin idarəçiliyini öz əlinə alsın, vilayətlərdən vergi toplanmasını nizama salıb onu vaxtlı-vaxtında saraya göndərsin.Hər hansı bir silahlı müqavimətlə rastlaşdığı halda Təhmasib xan onu qətiyyətlə aradan

qaldırmalı idi (236). Qeyd etmək lazımdır ki, "Tarix-e Cahanqoşa-ye Naderi"də Təhmasib xanın Buxaranın ələ keçirilməsindən sonra Kabula göndərildiyi bildirilir.

Nadir şahın Türküstana hərbi yürüş başlamasının səbəbləri haqqında da tarixi ədəbiyyatda müxtəlif baxışlar mövcuddur. İrəli sürülən baxışlardan biri belədir ki, Nadir şah fatehlik iddialarının və arzularının həyata keçirilməsi məqsədilə Türküstana hücum etdi. Belə güman edilir ki, Türküstanı, Buxaranı, Daşkəndi və Xocəndi tutduqdan sonra Nadir şah Çinə də hücum etməyi və öz dövlətinin ərazilərini daha da genişləndirməyi planlaşdırırdı. Həmin planın həyata keçəcəyi təqdirdə Nadir şahın əlinə həm böyük maliyyə, həm də insan ehtiyatları keçə bilərdi. Bunların hər ikisi Nadir şahın hərbi potensialını daha da artıra bilərdi.Tarixçilər arasında belə bir güman da vardır ki, Nadir şah monqol-tatar yürüşlərinin əvəzini çıxmaq istəyirdi (237).

Mövcud olan başqa bir fikrə görə, Rusiya dövləti də Əfşarlar dövlətinin şimal-şərq sərhədlərinə doğru irəliləmək, Türküstanı, Buxaranı və ətraf əraziləri ələ keçirmək istəyirdi. Guya Nadir şah da Rusiyanın bu niyyətlərinin qarşısını almaq üçün Türküstana girməyi qətiləşdirdi (238).

Heç şübhəsiz ki, Nadir şahın fatehlik istedadını və iddialarını diqqətdən kənara qoymaq olmaz.Amma bəzi tədqiqatçılar belə hesab edirlər ki, Hindistan yürüşünün yorğunluğunu çıxmadan, iki ildən çox uzaq düşdüyü ölkəsinin daxili problemlərinə lazımi vaxt ayırmadan, hətta çox sevdiyi qardaşı İbrahim xanın qısasını almaq üçün Dağıstana hücum etmədən Türküstana yürüş başlanmasının əsas səbəbi Türküstan xanı İlbars xanın Nadir şaha qarşı saymazyanalığı, dəfələrlə Xorasan vilayətinə basqınlar etməsi, Xorasana növbəti müdaxilələrin qarşısının birdəfəlik alınması istəyi idi. Bütünlükdə, özbək tayfalarının həmişə, hətta Nadir şahın uşaqlığı dövründə talançı basqınlarla Xorasan vilayətinə yürüşlər etdiyi məlumdur. Belə müdaxilələrə Nadirin şahlığı dövründə də son qoyulmamışdı. Hindistanda olarkən Nadir şahdan uzun müddət xəbər gəlməməsi İlbars xanda Xorasanı işğal etmək arzularını daha da gücləndirdi. Məlumdur ki, Nadir şah Hindistana yola düşməzdən əvvəl oğlu Rzaqulu Mirzəni Təhmasib xan Cəlayirlə Bəlxə, özbəklərin hücumlarının qarşısını almağa göndərmişdi. Bu addımı atmaqla Nadir şah Xorasan vilayətini müvəqqəti də olsa özbək yürüşlərindən qorumağa çalışırdı. Ola bilsin ki, elə o vaxtlardan Nadir şah Türküstana yürüş etməyi, Türküstanı nəzarət altına almaqla Xorasan vilayəti üçün də bir təhlükəsizlik zolağı yaratmağı planlaşdırmışdı.

Türküstana doğru hərəkətə başlamazdan əvvəl Nadir şah Qaratəpədə bütün qoşunlarına baxış keçirdi. Bu qoşunların əsasını Hindistan yürüşündən geri qayıdan qüvvələr təşkil edirdi. Ondan əlavə Nadir şahın Herat ətrafına göndərdiyi dəstə və Rzaqulu Mirzənin qvardiyası da bu qoşunlara qatıldı. Qaratəpədə dayandığı üç gün ərzində Nadir şah qoşunların təchizatına və təkmilləşdirilməsinə lazımi diqqət ayırdı. Tədqiqatçıların verdiyi məlumatlara görə, Qaratəpə baxışına 150 minlik bir qoşun çıxarılmışdı (239).

Tarixçilər onu da güman edirlər ki, Hindistan yürüşündə qoşunların təcrübəli dəstələrinin itirilməsi Nadir şahın Türküstan yürüşünün qələbə ilə başa çatdırılmasına ümidini heç də azaltmadı. Qaratəpədən hərəkətə başlayanda Nadir şah qoşunları iki dəstəyə böldü. Sərdar Əliqulu xan Cəlayirin rəhbərliyi altında olan birinci dəstə Qaratəpə-Bəlx marşrutu ilə irəliləməli idi. İkinci dəstəyə isə Rzaqulu Mirzə rəhbərlik edirdi. Bu dəstə Qaratəpə-Mərv-Çarco marşrutu ilə hərəkət etməli idi. Ehtiyat qüvvədən, qərargahdan və qoşun rəhbərliyindən ibarət olan üçüncü dəstə isə birinci dəstənin arxasınca irəliləyirdi (240).

Nadir şah qoşunları Maruçaq-Çiçəktu və Əndxod yolu ilə hərəkəti davam etdirib bir neçə gündən sonra Bəlxdən bir fərsəng aralı yerləşən Quşxanada düşərgə saldı. Yuxarıda qeyd edildiyi kimi, Hindistandan çoxlu sayda dülgər, gəmiqayırma ustası və digər ustalar Bəlxə göndərilmişdi və Nadir şah onlara çayları adlamaq üçün gəmi və qayıqların hazırlanmasını tapşırmışdı.Nadir şah Bəlxə çatanda bu vilayətin hakimi onun hüzuruna gəldi və ustaların gördüyü işlər barəsində ona məlumat verdi. Həmin məlumata görə, Bəlxdə 1100 ədəd gəmi düzəldilmişdi və bu gəmilərin hər birinin 3 tona qədər yük götürmək imkanı var idi. Nadir şahın əmri ilə əvvəlcə azuqə, yemək ehtiyatları və artilleriya və sonra da qalanlar Amuye çayının o biri sahilinə daşındı (241).

Bir neçə gündən sonra Nadir şah qoşunu ilə Kəlif adlı məntəqəyə çatdı. Bu məntəqə çay kənarında yerləşdiyi üçün yük dolu gəmilər ora qədər üzə bildilər.1740-cı il avqust ayının 20-də isə Nadr şah qoşunları Kərki (Kövki) adlanan məntəqəyə daxil oldu.Burada olarkən Nadir şaha məlumat çatdırıldı ki, türkmən və özbək tayfaları Çarcoda toplaşıb ona müqavimət göstərmək istəyirlər. Doğru olduğu halda bu, Nadir şahın Türküstan sərhədini keçəndən sonra qarşılaşdığı ilk hərbi qarşılaşma ola bilərdi. O, qoşunlara Çarcoya doğru irəliləmək əmri verdi. Türkmən və özbək tayfaları Nadir şah qoşunlarının yaxınlaşması xəbərini eşidən kimi qaçıb dağılışdılar. Nadir şah 12 min nəfər cəzayirçini çayın o biri üzünə adlatdı və sonra tapşırıq verdi ki, 4-5

gün ərzində ustalar çay üzərində körpü salsınlar. Göstərilən vaxt ərzində qurulan körpü üzərindən bütün qoşunu çayın o biri üzünə keçirmək mümkün oldu. "Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, Nadir şahın əmri ilə Buxaraya aparan yolun üzərindəki əsas dayanacaq olan Çarco yaxınlığındakı çayın hər iki sahilində qalaların tikilməsinə başlandı (242). Nadir şah burada möhkəm düşərgə yaratmaq, qoşunun yüklərini və xidmətçi dəstələri orada saxlamaq istəyirdi. Çarco yalnız Buxaraya deyil, bütünlükdə Türküstana aparan yolların qovşağında yerləşirdi. Məhz buna görə də Nadir şah oranı özünün dayaq nöqtəsi seçdi.

Amu-Dərya sahilindəki düşərgədən Nadir şah Rzaqulu Mirzənin tabeliyində olan 8 min nəfərlik dəstə ilə Çarcoya doğru irəliləmək əmri verdi. Rzaqulu Mirzə bu şəhəri nəzarət altına alıb Nadir şahın ora gəlməsini gözləməli idi. Nadir şahın başqa bir göstərişi ilə Əliqulu xanın rəhbərliyi altında olan dəstə Amu-Dərya çayından şərqdə olan ərazilərə irəliləməli və qarşısına çıxan bütün yaşayış məntəqələrini nəzarət altına almalı idi. Əliqulu xanın hərəkət etdiyi istiqamətdə Nadir şaha itaəti qəbul edən məntəqələr də var idi, qəbul etməyən məntəqələr də.Əliqulu xan bu dəstələrə qarşı döyüşə girdi və onları qaçıb dağılmağa məcbur etdi. Rzaqulu Mirzə isə heç bir müqavimətə rast gəlmədən demək olar ki, boşaldılmış şəhərə daxil oldu. Çünki Nadir şahın böyük sayda qoşun dəstəsi ilə gəlməsi xəbərini eşidəndən sonra Çarco əhalisinin hamısı Xarəzmə pənah apardılar (243).

Nadir şah qoşunlarının Çarcoya yaxınlaşması və Amu-Dərya çayı sahilində düşərgə salması xəbəri çox tezliklə Buxara hakimi Əbülfəz xanın da qulağına çatdı. Nadir şahın son dərəcə böyük qoşuna malik olması haqqında məlumat onu qorxuya saldı. Əbülfəz xan Buxara vəziri Bi Atalığı və bir neçə digər nüfuzlu əyanı barışıq üçün Nadir şahın yanına göndərdi.Nadir şah onun yanına gələn eçiləri ehtiramla qarşıladı və onlara qiymətli hədiyyələr bağışladı. Elçilər Nadir şaha çatdırdılar ki, Əbülfəz xan ona sədaqət nümayiş etdirməyə hazırdır. Əbülfəz xan təklif edirdi ki, Nadir şah Qaragülə gəlib orada dayansa Əbülfəz xan həm ona qonaqpərvərlik göstərər, həm də onunla ittifaq bağlayar. "Aləm Ara-ye Naderi"yə görə, Nadir şah Buxara hakiminin sülh bağlamaq təklifini məmnunluqla qəbul etdi. Amma Nadir şahın Qaragülə gəlməsi haqqında şərt irəli sürülməsi Nadir şahı heç də qane etmədi. O, elçilərə bildirdi ki, barışığın əldə edilməsi üçün Buxara hakimi özü Nadir şahın düşərgəsinə gəlməlidir. Adı çəkilən mənbəyə görə, Əbülfəz xan bu təklifə razı oldu. O, qərara aldı ki, çoxlu qiy-

mətli hədiyyələrlə bərabər əvvəlcə bir neçə şəxsi Nadir şahın düşərgəsinə göndərsin, sonra isə özü ora yollansın (244).

Bu zaman ona xəbər çatdırıldı ki, Xocənd, Daşkənd, Qovqan, Əndican, Həmənqan, Mərğixan və Kaşğar sərhədlərində yaşayan Ağılı, Yüz, Min, Neyman, Ərmənd, Cığatay, qazax və digər tayfalardan 100 minlik bir qoşun dəstəsi toplanıb və bu qoşun dəstəsi Nadir şaha qarşı vuruşmaq üçün Əbülfəz xanla birləşməyə hazırdır. Mövcud olan məlumata görə, adları çəkilən tayfaların əyanları və böyükləri Rzaqulu Mirzə ilə davada öldürülmüş Adınaqulu xanın və başqalarının qisasını almaq üçün döyüşə hazır olduqlarını bildirmişdilər. Rzaqulu Mirzənin özünün bölgəyə gəlməsi də ələ düşmüş şans kimi qiymətləndirilirdi. Bu xəbəri eşidəndə Əbülfəz xanın əhval-ruhiyyəsi tamam dəyişdi. Bu, böyük qüvvə ilə Nadir şah üzərində qələbə çalmaq ümidini artırırdı. Nadir şah üzərindəki qələbə isə onun bölgədəki nüfuzunun artması demək idi. Ona görə də Əbülfəz xan Nadir şaha verdiyi vədə xilaf çıxdı. Amma onun vəziri Həkim  Atalıq Nadir şaha qarşı döyüşə girməyin heç də tərəfdarı deyildi (245).

Türküstanın bir çox əyanları və qoşun başçıları da Əbülfəz xanın Nadirlə döyüşə girmək qərarını müdafiə etdilər. Onlar Nadir şaha itaət etməyin və ya onunla barışıq bağlamağın mümkünlüyünü təəccüblə qarşıladılar.Bu əyanların fikrinə görə, İran həmişə Türküstan padşahlarının işğalına məruz qalmışdı. Türküstan əyanlarının fikrincə, Nadir şah Hindistan və Osmanlı qoşunlarını üstələsə də, Türküstan sərkərdələrinin nəyə qadir olduğundan xəbərsiz idi. Onlar böyük bir əminliklə bəyan edirdilər ki, elə ilk döyüşdə Nadir şah da, onun qoşunları da bütünlüklə məhv ediləcəkdir. Bütün bu iddialar isə  Əbülfəz xanı xeyli ruhlandırdı.Buna görə o da öz qoşun dəstəsinə hazırlıq əmri verdi və Buxaranı tərk edərək iki fərsəng aralıda olan İslam adlı məntəqədə düşərgə saldı. O, Nadir şahın qoşunlarını da məhz burada qarşılamaq istəyirdi (246).

Əbülfəz xandan hər hansı bir xəbər gəlməyəndə Nadir şah öz kəşfiyyatçılarına nə baş verdiyini aydınlaşdırmağı tapşırdı. Onun kəşfiyyatçıları Qatartut adlanan məntəqədə Əbülfəz xanın qarovulları ilə qarşılaşdılar və onlardan bir neçəsini tutub Nadir şahın yanına gətirdilər. Nadir şah onlardan Ağılı və digər Türküstan tayfalarının qoşunlarının Əbülfəz xanın başına toplaşması və Əbülfəz xanın Nadir şahla döyüşə hazırlaşması barədə məlumat aldı. Bu xəbəri eşidən kimi  Nadir şah minbaşıları, sərkərdələri, tayfa başçılarını, qoşun rəhbərlərini yanına topladı və onlara döyüşə hazırlaşmaq əmri verdi. Səhəri gün Nadir şah Əbülfəz xanın düşərgəsi istiqamətində hərəkətə başladı.

Qoşunların təhlükəsizliyinin təmin edilməsi üçün Hacı xan Kürd və Qasım bəy Əfşarın rəhbərliyi altında 3 minlik bir dəstəyə qarovul vəzifəsi tapşırıldı. Bu qarovul dəstəsi Qatartut məntəqəsi yaxınlığında Əbülfəz xanın qarovul dəstəsi ilə üzbəüz gəldi və onlar arasında döyüş baş verdi. Mənbədə olan məlumatdan belə güman etmək olar ki, qarovul dəstələri arasındakı döyüş xeyli çəkdi və bir də hava qaralana yaxın başa çatdı.Nadir şahın dəstəsi nəhayət ki, öz üstünlüyünü nümayiş etdirdi və qarşı tərəfə güclü zərbə endirildi. Bu döyüş zamanı hər iki tərəfdən əsirlər götürüldü və onların vasitəsilə tərəflərin döyüş hazırlığı barədə müəyyən məlumatlar əldə edildi. Əsirlərdən alınan məlumatlarla kifayətlənməyən Nadir şah şəxsən özbək qüvvələrinin müşahidəsini apardı. Bundan sonra o, qoşunları müvafiq şəkildə qruplaşdırdı. Qoşunların sağ cinahı, sol cinahı, mərkəzi, pusqu qrupları müəyyənləşdirildi, onların hər birinə təcrübəli sərkərdələr təyin edildilər.Topçubaşına göstəriş verildi ki, döyüş qızışandan sonra düşmən mövqeləri atəşə tutulsun və onlara itkilər yetirilsin (247).

Əbülfəz xan da qoşunların qruplaşdırılmasına, əlverişli döyüş taktikasının seçilməsinə diqqət yetirdi.Mənbələrdə yaradılmış dəstələrə kimlərin rəhbərlik etməsi haqqında da məlumatlar vardır. Eyni zamanda mənbələrdə özbək və Türküstan qoşunlarının Nadir şah qoşunlarına qarşı daha bacarıqla döyüşdükləri qeyd olunur. Bu cəhdlərə baxmayaraq Nadir şahın artilleriyası Əbülfəz xanın qoşunlarına ağır itkilər yetirdi. Özbək və türkmən qüvvələrinin ilk dəfə rastlaşdıqları toplar və zənburəklər onlar arasındakı çaşqınlığı daha da artırdı. Xüsusilə, mərkəzdə olan qüvvələr bir-birinə dəydilər. Bununla belə, Əbülfəz xanın dəstələri geri çəkilmədilər. Mərkəzdən irəliləməyin mümkün olmadığını görəndə cinahlardan, topların işləmədiyi istiqamətlərdən hücumu davam etdirdilər. Hər halda qarşı tərəflərin qarşılıqlı səyləri yaxın döyüşün güclənməsinə zəmin yaratdı. Mövcud olan bütün gərginliyə baxmayaraq Nadir şah öz qoşunlarının əsas zərbə qüvvəsini Əbülfəz xanın dayandığı mövqelərə istiqamətləndirə bildi. Bu isə Türküstan qoşunlarının döyüş gücünü parçaladı. Ümumi sıraların parçalandığını görən Ağılı sərkərdəsi döyüş meydanını tərk edib geriyə üz tutdu. Belə olanda Əbülfəz xan da qələbəyə nail ola bilməyəcəyinə əmin oldu və Buxara qalasına sığındı (248).

Özbək və Tüküstan qüvvələri vahimə içində geri çəkilməyə başlayanda onların çoxlu sayda yükləri, təchizatı, atları, dəvələri və s. Nadir şah qoşunlarının əlinə keçdi. Nadir şah əldə etdiyi növbəti qələbəsinə görə dua və ibadətini başa vurandan sonra Buxaranın bir milliyində

yerləşən Şah Çaharbağında qələbəsini qeyd etdi və bu uğurun əldə edilməsində xidməti olanları mükafatlandırdı.

Əbülfəz xan isə düçar olduğu məğlubiyyətdən sonra döyüşə girməyinə peşman oldu. Ona görə Həkim Atalığı yanına çağırıb onu bir daha barışıq təklifi ilə Nadir şahın yanına göndərdi. Əbülfəz xan Nadir şaha çatdırdı ki, onu türkmən tayfaları barışıq niyyətindən azdırdılar və həmin tayfa başçılarının çoxu artıq öz cəzalarına çatıblar. Sağ qalanlar isə qaçıb-dağılıblar. Əbülfəz xan yenidən Nadir şahdan barışıq istədi. Nadir şah bu barışıq təklifini də qəbul etdi və hətta onun yanına gəlmiş elçilər vasitəsilə Əbülfəz xana qiymətli hədiyyələr də göndərdi. Həkim Atalığın gətirdiyi xəbəri eşidəndən sonra Əbülfəz xan da Nadir şaha qiymətli hədiyyələr göndərdi. Mənbələrdə olan məlumata görə, bu hədiyyələr arasında Əmir Teymura məxsus olan qılınc, Çingiz xana məxsus olan dəbilqə və zireh də var idi. Sonra isə Əbülfəz xan özü əyanlarının müşayiəti ilə Nadir şahın düşərgəsinə yollandı. "Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, Türküstan şahını ehtiram əlaməti olaraq Nəsrulla Mirzə və Nadir şahın qardaşı oğlu Əliqulu xan qarşıladılar və onu Nəsrulla Mirzənin çadırının yanında qurulmuş xüsusi çadıra apardılar. (Amma əslində məlumdur ki, Nadir şahı bu səfərində Nəsrulla Mirzə yox, Rzaqulu Mirzə müşayiət edirdi. "Tarix-e Cahanqoşa-ye Naderi" də bunu təsdiq edir.Ola bilsin ki, "Aləm Ara-ye Naderi"nin müəllifi Rzaqulu Mirzəni nəzərdə tuturmuş-M.S.). Axşam isə Əbülfəz xanın şərəfinə ziyafət təşkil edildi. Əbülfəz xan öz tacını və möhürünü Nadir şahın qarşısına qoydu. Nadir şah isə əvəzində bildirdi ki, tac bağışlamaq, şəfqət və mehribanlıq göstərmək bizim adətimizdir.Nadir şah anlatdı ki, onun şahlığını əlindən almaq niyyətində deyil. Səhəri gün Nadir şah Əbülfəz xana xeyli sayda qiymətli hədiyyələr bağışladı. Onların arasında 18 baş qiymətli at, həmin atlar üçün qiymətli daşlarla bəzədilmiş yəhər və digər əşyalar, 60 min tümən dəyərində olan hind və Avropa malları, 100 min təbrizi tüməni dəyərində qiymətli daşlarla bəzədilmiş qılınc, xəncər, habelə cəvahirat və s. var idi (249).

Əbülfəz xanla barışıq əldə ediləndən sonra Nadir şah Buxaraya doğru hərəkət etdi. Buxara əhalisinə xətər yetirilməməsi üçün qoşunların təchizat məsələsini Nadir şah Həkim Atalığa həvalə etdi. Nadir şah Buxarada olduğu vaxt ərzində Həkim Atalıq onun qoşunlarının azuqəsini təmin etməli idi. Qoşun başçılarına isə tapşırıldı ki, ərzaq və iaşə məsələləri ilə bağlı döyüşçülər yerli əhalini narahat etməsinlər. Nadir şah tərəfindən nəsəğçilərə də göstəriş verildi ki, qoşunlar arasındakı intizamı nəzarət altında saxlasınlar. Nəsəğçilər ətraf yaşayış mən-

təqələrini gəzməli və qoşunlardan kimsə rastlarına çıxdığı halda Nadir şahın əmrini pozduğu üçün tutulub qətlə yetirilməli idi (250).

Buxaraya daxil olandan sonra Nadir şahın adına xütbə oxundu və sikkə vuruldu.Səbz şəhərindən başlayaraq Səmərqəndə qədər olan ərazi Nadir şahın tabeliyi altına düşdü.

Nadir şahın Buxaraya gəlişi münasibətilə Əbülfəz xan ən yaxşı süvari dəstələrinin rəsmi-keçidini təşkil etdi. Əsasını özbək və türkmən süvariləri təşkil edən bu dəstələrin nizamı Nadir şahın xoşuna gəldi və bu süvarilərdən 20 minlik bir dəstə təşkil edilib Xorasana göndərilməsini əmr etdi (251).Bu dəstə gələcəkdə Nadir şahın qoşunlarına qatılmalı idi.

Nadir şah Əbülfəz xanı yenidən Türküstan şahı elan etdi. 1740-cı il oktyabr ayının 17-də o öz əli ilə Türküstanın şahlıq tacını ona əta etdi. Bununla bağlı, Türküstanın bütün vilayətlərinə fərman göndərildi, Nadir şaha itaəti qəbul edən yerli hakimlər öz vəzifələrində saxlandı. Əbülfəz xan ona göstərilən bu iltifatın əvəzində sədaqətini itirməyəcəyini vəd etməklə bərabər, qızlarından birini Nadir şaha, birini isə Əliqulu xana  nikah etdirdi (252).

Amma görünür, Əbülfəz xanın Türküstan şahı elan edilməsindən narazı qalanlar da varmış. Çünki bəzi əyanlar Nadir şaha çatdırdılar ki, vaxtilə Çingiz xan, Səlcuqlar və digər padşahlar Türküstanı tutanda oranın hakimini qətlə yetirib yerinə öz adamlarından birini təyin etmişdilər. Bu, Türküstanın etibarlı şəkildə nəzarət altında qalmasını təmin edirdi. Nadir şaha da belə bir adım atılması təklif olunurdu. Nadir şah isə əvəzində bildirdi ki, o dəyanətli olmağa və acgözlükdən uzaq olmağa daha çox üstünlük verir (253).

Nadir şah öz seçimini dəyişmədi və Türküstan hakimliyinin Əbülfəz xana həvalə edilməsi qərarında qəti olduğunu nümayiş etdirdi. Bununla kifayətlənməyən Nadir şah Əbülfəz xanın Türküstan şahı elan edilməsi münasibətilə təmtəraqlı bir ziyafət də təşkil etdi. Nadir şah ziyafət zamanı  Əbülfəz xanı  yanında əyləşdirdi və ona söylədi ki, bütün Türküstanı yenidən onun ixtiyarına verir və onu özünə qardaş hesab edir. Bu qardaşlığa sədaqət kimi Nadir şah söz verdi ki, ona qarşı kimsə qiyam qaldırsa köməyinə hərbi qüvvə göndərəcəkdir. Əbülfəz xan isə əvəzində Nadir şahı əmin etdi ki, sağ olduqca ona və onun övladlarına sədaqətli qalacaqdır. Bu sözlərdən sonra Nadir şah həm Əbülfəz xana, həm də məclisdə iştirak edən əyanlara qiymətli hədiyyələr bağışladı (254).

Əbülfəz xanın şah elan edilməsi ilə bağlı ziyafət verəndən sonra Nadir şah artıq Xarəzmə doğru irəliləmək fikrində idi. Amma ziya-

fətin səhəri günü Həkim Atalıq Nadir şahın hüzuruna gəlib ərz etdi ki, Səmərqənd ətrafında yaşayan Yüz tayfası həmişə Buxaraya talançı basqınlar edir və Türküstan hakiminə tabe olmaq istəmir. Həkim Atalıq xahiş etdi ki, Nadir şah sərkərdələrindən birinin rəhbərliyi altında ora qoşun dəstəsi göndərilsin və məmləkətin asayişinə daim xələl gətirən bu tayfaya dərs verilsin.Nadir şah bu xahişi qəbul etdi və Lütfəli xan Kosaəhmədlinin rəhbərliyi altında 20 minlik bir dəstəni Səmərqənd istiqamətinə yolladı. Nadir şah bu dəstəyə eyni zamanda onu da tapşırdı ki, Əmir Teymurun qəbirüstü daşını da özü ilə gətirsin. Lütfəli xanın dəstəsi kifayət qədər güclü dəstə idi və Nadir şah bu dəstə qarşısında qoyulan vəzifənin yerinə yetiriləcəyinə şübhə etmirdi. Ona görə də qoşunların əsas hissəsi ilə Çarcoya qayıtmağı və oradan Xarəzmə yürüş təşkil etməyi qərarlaşdırdı.

Beləliklə, Türküstanla bağlı bütün işləri nizama saldıqdan sonra Nadir şah Buxaranı tərk edib Çarcoya istiqamət götürdü. Mövcud olan məlumata görə, Nadir şah hələ Buxarada olarkən Əbülfəz xanın təklifi ilə İlbars xana məktub göndərdi və onu da itaətə çağırdı. İlbars xan həmin məktubdan elə qəzəbləndi ki, hətta məktubu gətirən elçini və onu müşayiət edən iki nəfəri qətlə yetirdi (255). İlbars xan bununla da kifayətlənmədi.Nadir şahın qəzəbindən qurtara bilməyəcəyini və onunla döyüşə girməli olacağını anladığı üçün sərdarlarının və sərkərdələrinin toplantısını çağırdı və bu toplantıda döyüşə hazırlıq əmri verildi. O, qaraqalpaq, qazax və digər vilayətlərə məktub göndərib hər tayfa tərəfindən qoşun dəstəsi təşkil edilməsini və onun xidmətinə göndərilməsini tələb etdi.Bu minvalla "Aləm Ara-ye Naderi"nin məlumatına əsasən, 120 minlik bir qoşun dəstəsi toplandı. İlbars xan eyni zamanda ətrafa çoxsaylı casuslar göndərərək Nadir şahın bütün hərəkətləri barədə ona məlumatlar çatdırılmasını tapşırdı (256).

Ilbars xan onu da qərara aldı ki, Məhəmmədəli xan Uşağın rəhbərliyi altında özbək, aral, yəmut və türkmən süvarilərindən ibarət 30 min nəfərlik qoşun dəstəsini Çarcoya göndərsin. Bu dəstə Nadir şahın qoşun dəstəsindən daha tez Çarcoya çatsın, Amu-Dərya üzərindəki keçidi dağıtsın və bununla da Nadir şah qoşunlarının çaydan keçidini çətinləşdirsin. İlbars xan əmin idi ki, Məhəmmədəli xanın rəhbərliyi altındakı qoşun dəstəsi ilə Nadir şahın qoşunlarını pərən-pərən salacaq və onu geri çəkilməyə məcbur edəcəkdir. Həmin qoşun dəstəsi Çarconun 6 millik məsafəsinə yetişəndə Nadir şah vəziyyətin nə yerdə olduğundan xəbər tutdu. Çarco yaxınlığında Amu-Dərya üzərindəki keçidin ələ keçirilməsi Nadir şahın Xarəzmə yürüşünü çətinləşdirəcəyi aydın idi. Ona görə Nadir şah qoşunların yükünü və təchizatını arxada

buraxıb təcrübəli döyüşçülərdən ibarət dəstəsi ilə Çarcoya doğru hərəkəti sürətləndirdi. Arxada qalan yüklər və təchizat onları müşayiət edən dəstə ilə hərəkəti davam etdirib Çarcoda Nadir şaha birləşməli idi. Həmin dəstəyə rəhbərlik Rzaqulu Mirzəyə tapşırıldı.Nadir şahın rəhbərliyi altında olan dəstədə 20 min döyüşçü var idi. Bundan başqa Nadir şah Mərv bəylərbəyi Məhəmmədrza xan Qırxlıya xəbər göndərdi ki, Çarco ətrafında qarovula təyin edilmiş 3 minlik Mərv dəstəsi də ona qoşulsun.Mərv əhalisi türkmən və ya özbək tayfaları ilə daim düşmənçilikdə olduğu üçün Nadir şah Mərv dəstəsindən həmin tayfalara qarşı istifadə edilməsini faydalı sayırdı (257).

Nadir şah, İlbars xanın kifayət qədər güclü və döyüşgən qoşuna malik olmasından da xəbərdar idi. Ona görə də Çarcoya doğru hərəkət zamanı qoşunların cinahlardan, arxadan və qarşıdan mühafizəsini, habelə qoşunların yığcam şəkildə hərəkətini təmin etdi. Nadir şah vaxtında özünü Çarcoya yetirdi, Amu-Dərya çayını adlayıb o biri sahildə düşərgə saldı. Bir gündən sonra arxada qalan qüvvələr də gəlib ona yetişdi. Çarcoya çatandan sonra Nadir şah Rzaqulu Mirzənin geri qayıtmasına razılıq verdi (258).

Çarcoda da lazımi təşkilati işləri başa vurandan sonra Nadir şah qoşunla Dəvəboyunu dərəsi adlanan yerə hərəkət etdi. Yola düşməzdən əvvəl o, qoşunu yenidən qruplaşdırdı və bütün qoşun dörd böyük dəstəyə bölündü.Qarşıda gedən dəstə eyni zamanda mühafizə rolunu oynayırdı. Bu dəstənin arxasınca qoşunların əsas hissəsi irəliləyirdi. Digər iki dəstə isə cinah mühafizə dəstələrini təşkil edirdilər. Bundan başqa 6 min nəfərlik bir dəstə sahil boyunca hərəkət edir və çayda azuqə ehtiyatları aparan gəminin mühafizəsini təmin edirdi. Dəvəboyunu dərəsinə çatanda Nadir şah qoşunlara dayanmaq əmri verdi və onun göstərişi ilə qoşunun yükləri bir yerə toplandı və onun mühafizəsinə xüsusi dəstə təyin edildi. Nadir şahın Dəvəboyunu dərəsinə çatması 1740-cı il oktyabr ayının son günlərinə təsadüf edir (259).

Nadir şah qoşunlarının yaxınlaşdığını eşidəndə İlbars xan ətrafının bir neçə nümayəndəsi ilə münasib bir hündürlükdən həmin qoşunları şəxsən izlədi və elə ilk təəssürat onun əvvəlki əminliyinə bir şübhə gətirdi. Bu zaman Nadir şah qoşunlarının çərxçilər dəstəsi İlbars xanın qarovul dəstəsi ilə üzbəüz gəldi və bu dəstələr arasında toqquşma baş verdi. Bu qarşılaşmada Nadir şah döyüşçüləri nəyə qadir olduqlarını nümayiş etdirdilər və İlbars xanın qarovul dəstəsini üstələdilər. Bu hadisə İlbars xanın gözü qarşısında baş verdi. O, döyüş meydanındakı vəziyyəti dəyişmək üçün 5-6 min nəfərlik başqa bir dəstəyə hərəkət

əmri verdi. Amma bununla İlbars xan döyüş meydanında qüvvə üstünlüyü yarada bilmədi. Çünki Nadir şahın çərxçilərinin fəaliyyəti başqa bir dəstə tərəfindən müdafiə olunurdu. Həmin dəstəyə tapşırıq verildi ki,çərxçilər mürəkkəb vəziyyətə düşdükləri təqdirdə onlara yardım göstərilsin.Bu dəstənin döyüşə qoşulması İlbars xanın qüvvələrini ağır vəziyyətə saldı.Döyüşdən alınan təəssürat o dərəcədə ağır oldu ki, İlbars xan özü geri çəkilmək qərarına gəldi və Xarəzm tərəfə üz tutdu. Onun döyüşə atılmış dəstələri də məhv olmamaq üçün geriyə qaçdı. Nadir şah qoşunları onları təqib etməyə başlasalar da tezliklə Nadir şah tərəfindən təqibi dayandırmaq barədə əmr verildi. Düşərgədə qoşunların fəaliyyəti və döyüşün nəticələri təhlil edildi, döyüşdə fərqlənənlər, xüsusilə də Mərv süvariləri mükafatlandırıldılar (260).

"Tarix-e Cahanqoşa-ye Naderi" və bu mənbəyə əsaslanan tədqiqatçılar Dəvəboynundan sonra İlbars xanın öz qoşunu ilə Hezarəsb qalasına sığındığını və orada uzunmüddətli müdafiə taktikası seçdiyini bildirirlər. "Aləm Ara-ye Naderi"də isə Hezarəsb qalasına sığınmazdan əvvəl İlbars xanın Fetənk qalası yaxınlığında Nadir şah qoşun dəstəsi ilə döyüşə girməsi haqqında məlumat verilir. Bu məlumatın doğruluğunu yəqin ki, qəbul etmək olar. Çünki Dəvəboynunda ciddi bir toqquşma baş verməmişdi. Böyük sayda qoşun dəstəsi ilə Nadir şahın yolunu kəsmək üçün Çarcoya tələsən iddialı İlbars xanın ciddi bir döyüşə girmədən Hezarəsb qalasında gizlənməsi elə də inandırıcı görünmür.

İlbars xanla qarşılaşmanın baş verdiyi Dəvəboynu, Fetənk qalası, Hezarəsb qalası, Xanəgah və s. Amu-Dərya çayının sahillərində yerləşən məntəqələr idi. Ona görə Nadir şah Çarcodan şimal və şimal-şərq istiqamətində çay boyunca irəlilədi və bir sıra yüklərini gəmilərə yığıb onları da çayla hərəkət etdirdi. Dəvəboynundan sonra çay gəmiçilik üçün elə də münasib deyildi. Ona görə Dəvəboynunda gəmilərin hərəkəti dayandırıldı, gəmilərdə daşınan yüklər anbarlara toplandı və 12 min nəfərlik piyada tüfəngdarlar dəstəsi həmin anbarların mühafizəsinə təyin edildi.Qalan qoşun dəstəsini isə Nadir şah Fetənk qalasına doğru hərəkət etdirdi (261).

Fetənk qalası yaxınlığında qarşı tərəflər üzbəüz gəldilər.Döyüş başlamazdan əvvəl hər iki tərəf öz qüvvələrini qruplaşdırdı.Mərkəz, sağ və sol cinahlar, pusqu və ehtiyat qüvvəsi müəyyənləşdirildi, onların hər birinə rəhbərlik təcrübəli sərkərdələrə tapşırıldı. 6 min nəfər olan yəmut döyüşçüləri dəstəsi də İlbars qoşunlarının çərxigərləri kimi döyüşə ilk qatılanlardan oldu. Onlar Nadir şah qoşunlarının hərəkət yollarını kəsib döyüşün qızışmasına səbəb

oldular. Yəmut döyüşçüləri elə bir əzmkarlıq nümayiş etdirdilər ki, hətta cəbhənin iki istiqamətində Nadir şah qoşunlarının müqavimətini qırıb irəliləyə bildilər. Yəmutların irəliləməsinin təhlükəli hal almasına yol verməmək üçün Nadir şah dərhal özü döyüş meydanına atıldı və yəmut qoşunlarına doğru irəlilədi. Həmişə yəmut və Türküstan süvarilərinin talançı yürüşlərinə məruz qalan və yəmutlardan qisas almaq üçün fürsət axtaran əfşar, Mərv və Ətək süvariləri də Nadir şahı müşayiət edirdilər. Bu addımı ilə Nadir şah yəmutların müvəqqəti uğur qazandığı istiqamətdə qüvvə üstünlüyü yaratdı və çox tezliklə həmin qüvvə üstünlüyü hərbi üstünlüyə çevrildi. Irəliyə can atan yəmutlara ciddi zərbə endirildi və onların sıralarına bir vəlvələ salındı. Nadir şahın döyüşə atılması ilə döyüş meydanında gərginlik artdı. Bütünlükdə, Fetənk qalası ətrafında baş verənlərin real mənzərəsini yaratmaq mümkün olmasa da məlumdur ki, Nadir şah döyüşə qatıldığı istiqamətdə əldə etdiyi uğur ümumi nəticəyə də öz təsirini göstərdi. Nadir şahın sərt müqaviməti ilə qarşılaşandan sonra yəmut döyüşçüləri geri çəkilmək məcburiyyətində qaldılar.Onların bu addımı digər dəstələrə də öz təsirini göstərdi və İlbars xan növbəti qarşıdurmada da Nadir şah qoşunlarının şücaəti qarşısında aciz qalaraq geri qaçmalı oldu. Onun qüvvələrinin təqibi zamanı çoxlu öldürülən və əsir düşənlər oldu. Hezarəsb qalasına yetişmələri isə İlbars xan qoşunlarını məhv olmaqdan xilas etdi (262).

Hezarəsb qalası da Amu-Dərya çayının sahilində, Fetənk qalasının 13 mil şimal-qərbində yerləşirdi. Həmin qala bölgənin ən güclü və mühasirəyə dözümlü qalalarından biri idi. Qalanın möhkəm divarları var idi.Divarların ətrafında qazılmış geniş xəndəklər Amu-Dərya çayının suyu ilə doldurulmuşdu. Su haşiyəsi elə geniş idi ki, hətta toplar da qala ətrafında səmərəli atəş məsafəsindən kənarda qalırdı və toplar vasitəsilə qalaya ciddi bir zərbə yetirmək mümkün deyildi. Bundan başqa qala daxilinə çoxlu azuqə və yem ehtiyatı toplanmışdı. Bu ehtiyatlar qala daxilində uzunmüddətli müdafiədə dayanmağa imkan verirdi. Hezarəsb qalası ətrafına yetişəndən sonra Nadir şah şəxsən qalanın və onun ətrafının mühasirəsini apardı və mühasirənin davam etdirilməsi ilə qalanın çox çətinliklə alınacağı qənaətinə gəldi (263).

"Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, qalaya sığınmasından İlbars xan elə də sevinmədi. O, açıq döyüşdən qaçıb qalaya sığınmağı qadınlara məxsus keyfiyyət, qapı arxasında gizlənməyi isə nakişilik sayırdı.Hətta özbək döyüşçü dəstələri ilə danışıb qaladan xaricdə yenidən döyüşə girmək üzərində düşünməyə başladı. Adı çəkilən mənbə Nadir şah qoşunları ilə İlbars qoşunları arasında Hezarəsb qa-

ları yaxınlığında açıq sahədə yeni bir döyüşün baş verməsini də qeyd edir. Verilən məlumata görə, bu döyüşdə də uğursuzluğa düçar olandan sonra İlbars xan, Hezarəsb qalasında müdafiə olunmağı qərarlaşdırdı (264).

"Tarix-e Cahanqoşa-ye Naderi"də isə Hezarəsb qalası ətrafında tərəflər arasında yeni bir döyüşün olması xatırlanmır. Bu mənbəyə görə, Nadir şah Hezarəsb qalasını və onun ətrafının istehkam qurğularını müşahidə etdikdən sonra onun uzun müddət mühasirədə saxlanmasını mənasız saydı. Onun İlbars xanın qoşunlarını açıq sahədə döyüşə cəlb etmək səyləri də bir nəticə vermədi. Belə olanda Nadir şah Xarəzmin mərkəzi olan Xivəyə hücum etməyi qarşısına məqsəd qoydu. Bir tərəfdən Xivənin tutulması ilə Xarəzmin mərkəzi və İlbars xanın taxt-tacı ələ keçirilmiş olurdu. Digər tərəfdən də Nadir şaha xəbər çatdırılmışdı ki, İlbars xanın ailəsi, xəzinəsi Xanəgah qalasında saxlanılır. Bu qala isə Xivəyə aparan yolun üstündə idi. Xanəgaha tərəf hərəkət İlbars xanı Hezarəsb qalasından çıxara və onu açıq döyüşə təhrik edə bilərdi. Həmin məqsədlə Nadir şah qoşunları ilə Xivəyə doğru hərəkətə başladı. Onun niyyətləri barədə məlumat alanda İlbars xan da Hezarəsb qalasını tərk etdi və çayın sahili ilə Xanəgah qalasına tərəf hərəkət etdi (265).

İlbars xan da qarşısına belə bir məqsəd qoydu ki, Xanəgah qalasına Nadir şahdan öncə çatsın və burada müdafiəni təşkil etsin. Qarşı tərəflərin dəstələri müxtəlif istiqamətlərdən hərəkət edirdilər.İlbars xan təxminən Nadir şahla bir vaxtda qalaya yetişdi və qala daxilində mövqe tuta bildi. İlbars xan vəziyyətin mürəkkəbləşdiyini görüb Nadir şahla yeni bir döyüşə girməyi qərara aldı. Bu məqsədlə o, yəmut, təkə və türkmən dəstələrini döyüşə qızışdırdı. İlbars xan onlara çatdırdı ki, əgər Nadir şah Xarəzmi ələ keçirərsə, Çingiz xan kimi hamını qıracaq və ya əsir edəcəkdir. "Aləm Ara-ye Naderi"yə görə, İlbars xanın 8 min nəfərlik dəstəsi Nadir şahla döyüşə atıldı. Döyüş başlananda İlbars xan da qoşunu ilə qaladan çıxdı və döyüş meydanına atıldı.Nadir şah öz döyüş tərtibini əvvəlki döyüşlərdə olduğu kimi qurdu.Cinahlar, onların mühafizəsi və s. elementlər olduğu kimi saxlanıldı və Nadir şahın özü də seçmə alaylarından biri ilə döyüşə qatıldı. "Aləm Ara-ye Naderi"nin məlumatından belə aydın olur ki, Rzaqulu Mirzə bu vaxt hələ Nadir şahın yanında idi və Xanəgah ətrafındakı açıq döyüşdə Nadir şah qoşunlarının sağ cinahı Rzaqulu Mirzəyə, sol cinahı Hacı xan Kürdə, Məhəmmədrza xan Qırxlıya və Məhəmmədəli bəy Qacara tapşırılmışdı.Qasım bəylə Xanəli xan Kukəlan tabeliyində olan qüvvələrlə sağ və sol cinahların ehtiyat qüvvəsini təşkil edirdilər (266).

Lazımi hazırlıq və təşkilatçılıq işləri başa çatandan sonra döyüş təbilləri çalındı, şeypurlar səsləndi. Bu döyüş hər iki tərəf üçün həlledici əhəmiyyət kəsb edirdi və həmin cəhət döyüşün gərginliyində də öz əksini tapdı. İlbars xan bu döyüşü uduzmaqla bütün Xarəzmin itirilməsini və eyni zamanda da öz həyatını təhlükə altına qoyurdu. Nadir şah isə İlbars xanın qoşunlarına güclü zərbə endirməklə Xarəzmin ələ keçirilməsini xeyli yaxınlaşdıra bilərdi.

Təəssüf ki, bu döyüşün təfərrüatı haqqında mənbələrdə geniş məlumat yoxdur. Sadəcə olaraq bu döyüşün gərgin keçməsinə işarə olunur. Son nəhayətdə İlbars xan yenə də Nadir şah qarşısında duruş gətirə bilməyərək geri çəkilməli və Xanəgah qalasına sığınmalı oldu. "Aləm Ara-ye Naderi"də İlbars xanın qoşunlarının tərkibində olan yəmutların xeyli fəallıq gözstərmələrinə toxunulur. Amma onlar da Nadir şah qoşunlarının zərbəsi altında pərən-pərən olub geri çəkildilər.

Bu döyüşlə əslində, Xarəzmin taleyi həll olundu. Doğrudur, İlbars xan hələ təslim olmamışdı və Xanəgah qalasında müdafiə olunurdu. Amma o özü də hiss edirdi ki, artıq çıxış yolu yoxdur. Nadir şahın əmri ilə Xanəgah qalası mühasirəyə alındı və bu qalanın Xivə ilə olan əlaqəsi kəsildi. Qalanın mühasirə dairəsi qoşun dəstələri arasında bölündü və bu dəstələrin vəzifələri dəqiqləşdirildi.

İlbars xan qala daxilində müdafiə olunarkən də Nadir şahın əzmkarlığına üstün gələcəyinə ümidini kəsməmişdi və hələ də müqavimətini davam etdirirdi. Xüsusilə, qala divarları üzərində yerləşdirilmiş tüfəngdarlar qalaya yaxınlaşmaq istəyənləri atəşə tuturdular. Nadir şah da fəal müharibə taktikasını seçdi. O, qala divarlarını top atəşinə tutdurdu və eyni zamanda piyadalara da göstəriş verdi ki, qala üzərinə hücum etsinlər. Üç gün ərzində qala divarlarına ciddi xəsarət yetirmək mümkün oldu. Buna baxmayaraq İlbars xan müqavimətini hələ də davam etdirirdi. Belə olanda Nadir şah lağımçılara qala divarları altından lağım atmağı tapşırdı.Qazılan lağımlar bir neçə yerdə qala divarlarının çökməsi  və Nadir şah qoşunlarının qala daxilinə yolun açılması ilə nəticələndi.1740-cı il noyabr ayının 14-də İlbars xan təslim olmaq məcburiyyətində qaldı (267).

Əvvəlcə, qala əhalisinin istəyi ilə özbək əyanları Nadir şahın düşərgəsinə yollandılar. Onlar həm qala əhalisinə, həm də İlbars xana aman verilməsini Nadir şahdan xahiş etdilər.Nadir şah elçilərin xahişlərini diqqətlə dinləyib İlbars xanla yaranan münasibətləri onlara xatırlatdı. O bildirdi ki, İlbars xanın yanına elçilər göndərildi və ona təslim olmaq təklif olundu.Bölgədə itaət təklifini qəbul edən hakimlərin hamısı bağışlandılar. Yalnız İlbars xan daha çox qiyamçı yəmut

tayfasına arxalanaraq müqaviməti davam etdirdi. Bununla belə, Nadir şah ona işarə etdi ki, İlbars xanın günahından keçməyə hazırdır (268).

Elçilər Nadir şahdan eşitdiklərini İlbars xana çatdırdılar.Səhəri gün İlbars xan əyanların müşayiəti ilə Nadir şahın düşərgəsinə gəldi. Nadir şahın anabir qardaşı olan Fətəli xan Əfşarın çadırının yanında İlbars xan üçün çadır quruldu. Nadir şah İlbars xanla gəlmiş özbək xanlarını, sərkərdələrini və əyanlarını yanına çağıdı, onların hər birinə qiymətli hədiyyələr verdi və sonra da tapşırdı ki, yenidən qalaya qayıdıb yerli əhalini sakitləşdirsinlər, onları Nadir şah qoşunlarından xətər görməyəcəklərinə əmin etsinlər.

Mövcud olan məlumatlara görə, İlbars xan tərəfindən öldürülən Nadir şah elçilərinin qohumları İlbars xanın da əfv olunduğu xəbərini eşidib Nadir şahın hüzuruna gəldilər və törətdiyi cinayətlərə görə Xarəzm hakiminin qətlə yetirilməsini ondan xahiş etdilər. Güman edilir ki, bundan sonra Nadir şah İlbars xanın hərəkətlərini nəzərə alaraq onun və onunla birlikdə daha 20 əyanının öldürülməsinə razı oldu (269).

Nadir şahın göstərişi əsasında Çingiz xanın nəslindən olan Məhəmməd xanın nəvəsi Tahir xan Xarəzmin hakimi təyin olundu. Nadir şahın nəzarətdən kənarda qalmış bəzi döyüşçüləri Nadir şahın qala əhalisini incitməmək vədinə xilaf çıxaraq qala daxilində talançılıqla məşğul oldular. Bununla bağlı qala daxilində yaşanan həyəcan Nadir şahın qulağına çatanda dərhal vəziyyətin araşdırılmasını tapşırdı. Qala daxilində və xaricində asayişin qorunmasına məsul olan çavuşbaşı, bir neçə beşyüzbaşı, 2-3 nəfər minbaşı, 30-40 nəfərədək yüzbaşı tutulub Nadir şahın hüzuruna gətirildi. Nadir şahın əmri ilə onlar sual-cavab edildikdən sonra qətlə yetirildilər(270). Bu adamların qətlə yetirilməsi ilə qala daxilində asayiş bərpa olundu.

Nadir şah Xarəzmə doğru yürüşə başlayanda İlbars xan qazax valisi Əbülxeyir xanı köməyə çağırdı.Əbülxeyir xan bu xahişi eşidən kimi Aral özbəklərindən bir dəstə təşkil edib Xivəyə gəldi.İlbars xanın aqibətini eşidəndən sonra Əbülxeyir xan Nadir şaha müqavimət göstərilməsinin mənasız olduğunu anladı və Nadir şahın yanına danışıqlar aparmaq üçün öz elçisini göndərdi. Mövcud olan məlumatlara görə, Əbülxeyir xanın elçisi Muravin adlı rus istehkamçı-zabiti idi. O, Nadir şah tərəfindən ehtiramla qarşılandı. Muravinin Nadir şaha çatdırdığı məlumatdan aydın oldu ki, Əbülxeyir xan da Nadir şaha itaəti qəbul edir. Amma əvəzində Xivə xanı olmaq istəyir. Nadir şah bu xahişə münasibət bildirmədi. Əbülxeyir xanın özünün onun yanına gəlməsini istədi. Nadir şah onu da bildirdi ki, Əbülxeyir xanla dostcasına dav-

ranacaqdır. Ola bilsin ki, İlbars xanın başına gələnlər Əbülxeyir xanı Nadir şahın yanına gəlməkdən çəkindirdi və o, qazax çöllərinə tərəf qaçdı (271).

Əbülxeyir xan qaçsa da Xivə əhalisi şəhər hakimi Əbdülrəhman bəyin təhriki ilə Nadir şaha qarşı müqavimət göstərməyi qərara aldı. Nadir şah şəhər əhalisinin yanına öz nümayəndələrini göndərib Xivənin təslim edilməsi şərtlərini müzakirə etmək istədi. Amma xivəlilər Nadir şahla danışıqlara getmədilər. Belə olanda Nadir şah Xivəni də mühasirə etdi.

Xivə qalası da bölgənin ən möhkəm qalalarından biri sayılırdı. Üç giriş darvazası olan bu qalanın gildən tikilmiş divarları hündür və qalın idi.Qala divarlarının bürclərinin yaxın olması da müdafiə imkanlarını artırırdı. Qala divarları boyunca enli xəndək qazılmış və onun içi su ilə doldurulmuşdu. Qalanın qarnizonu da güclü sayılırdı.

Nadir şah əvvəlcə Xivə qalasının divarları boyu su doldurulmuş xəndəkləri qurutdu və onun suyunu kənara axıda bildi. Bundan sonra isə həm qala divarları, həm də qalanın daxili güclü atəşə tutuldu və qala üzərinə hücum təşkil edildi. Bunun üçün qala ətrafına 18 ədəd top və 16 ədəd mina atan yerləşdirildi. Bu silahlardan üç gün davamlı şəkildə atılan atəşlər qala əhalisini çıxılmaz vəziyyətə saldı və qala daxilində təslim bayrağı qaldırıldı (272).

Nadir şah Xivədə və Xarəzmin digər məntəqələrində çoxlu sayda xorasanlı əsirlərlə qarşılaşdı.Onların ümumi sayı 12 min nəfərə çatırdı. Nadir şah onların hamısını azad etdi.Geriyə hərəkətə başlamazdan əvvəl Nadir şah yerli əhali arasında özünə qoşun topladı. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Xarəzmin beş məşhur qalasından 4000 nəfər toplandı. Nadir şah bu dəstəyə baxış keçirdi və toplanan döyüşçüləri Xorasana gətirdi. "Aləm Ara-ye Naderi"yə görə, Nadir şahın Xarəzmdə topladığı qoşun dəstəsinin sayı çox idi. Bu mənbənin məlumatına əsasən Nadir şah Aral özbəklərindən və Qaraqalpaq əhalisindən bütünlükdə 12 minlik dəstə təşkil etdi və bu dəstəni Xorasana göndərdi (273).

Nadir şah iki həftə Xivədə qaldı. Bu müddət ərzində o, Xarəzmin idarəçilik məsələlərini tənzimlədi, qoşunlara istirahət verdi, bir sıra təşkilati işlərlə məşğul oldu və 1740-cı il dekabrın 9-da Xivədən Çarcoya doğru hərəkətə başladı. İki həftədən sonra, yəni, dekabrın 23-də Nadir şah qoşunu ilə Çarcoya yetişdi.Orada çox dayanmadan Nadir şah Mərvdən keçməklə öz doğma kəndlərinə qayıtdı. Əbivərd və Dəstgirddə oldu, Kelata baş çəkdi.Burada olarkən Hindistandan gətirdiyi sərvətlərin qorunması üçün münasib yerlər müəyyənləşdirdi. Həm

də göstəriş verdi ki, onun özü üçün orada qara daşdan məqbərə tiksinlər. Bu məqbərənin tikilməsi üçün Marağadan ora qara mərmər daşındı. Kelatın abadlaşdırılması və müdafiəsinin etibarlılığı üçün lazımı tikililər tikdirdi, orada yeni bağlar saldırdı, su ehtiyatlarını artırdı.

Bir müddət doğulduğu yerlərdə keçirdikdən sonra Nadir şah Məşhədə gəldi. Bu şəhərə çatan kimi ilk növbədə İmam Rzanın məqbərəsinin yenidən abadlaşdırılması məqsədilə onun qübbəsini zinətləndirdi,yüksək əyarlı qızıldan hazırlanmış 14 ədəd qəndil (çilçıraq) məqbərəyə bağışlandı. Bundan başqa digər işlər də görüldü. “Aləm Araye Naderi”nin yazdığına görə, Nadir şah bütün gecəni İmam Rza məqbərəsində ibadətlə keçirdi. Səhəri gün isə Nadir şah Çaharbağa yollandı və burada vilayətin idarəçilik və maliyyə işlərini nəzərdən keçirdi. Nadir şah vilayətin maliyyəsinin toplanmasında əyintilərə və sui-qəsdlərə yol verildiyini aşkara çıxardı və bu işdə əli olan bir neçə nəfəri qətlə yetirdi. Bundan sora ölkənin müxtəlif vilayətlərindən ora göndərilən maliyyə vəsaitlərini toplayıb qorunmaq üçün Kelata göndərdi (274).

Məşhəddə olduğu vaxt Nadir şaha Bəlx hakimi Niyaz xandan xəbər gətirildi ki, Daniyal bəy Qənqərat adlı birisi mərkəzi hakimiyyətə tabe olmaq istəmir və qiyam qaldırmışdır. Nadir şah dərhal bir qoşun dəstəsini ora göndərdi. Həmin dəstə Bəlxdə toplandı və qiyam qaldırılan məntəqəyə yolandı. Çox tezliklə bu qiyam da yatırıldı.

## 5. Nadir şahın Dağıstan yürüşü

Mənbələr və tədqiqat əsərləri Nadir şahın 2 ay Məşhəddə qaldığını xəbər verirlər.Həmin müddət ərzində Nadir şah qeyd edildiyi kimi, daxili idarəçilik işləri və qoşunların nizamlanması ilə məşğul oldu. Türküstanın fəthindən sonra onun qarşısında dayanan əsas məsələlərdən biri də Dağıstana yürüş etmək idi. Mənbələrə görə, bu yürüşün planlaşdırılmasında Nadir şahın əsas məqsədi qardaşı İbrahim xanın qisasını almaq idi. Bu məqamı heç şübhəsiz ki, istisna etmək olmaz. Amma Dağıstan yürüşünü yalnız İbrahim xanın qisasının alınması ilə bağlanması da yəqin ki, doğru olmazdı. Nadir şah eyni zamanda Dağıstanı tam nəzarət altına almaq istəyirdi. Dağıstana ilk yürüşündə o bu məqsədinə tamamilə nail ola bilməmişdi.Buranın təbii-coğrafi şəraiti, əhalinin dağınıq və yüksək dağlıq şəraitdə yaşaması, idarəçiliyin çətinliyi, bütün Dağıstanı əhatə edən mərkəzləşdirilmiş hakimiyyətin olmaması Dağıstanın tam nəzarət altına gətirilməsini xeyli mürəkkəb-

ləşdirirdi. Ona görə də ilk yürüşdən sonra Dağıstanın nəzarət altında saxlanması üçün orada etibarlı bir baza yaradıla bilmədi. Nəticədə Nadir öz qoşunları ilə uzaqlaşan kimi Dağıstanı yenə də itaətsizlik dalğası bürüdü.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şah hələ Hindistan səfərində olarkən Dağıstana yürüş etməyi qərara aldı və Türküstan yürüşünə başlamazdan əvvəl Nadirabad hakimi Qəni xanın rəhbərliyi altında Dağıstan istiqamətinə qoşun dəstəsi göndərdi. Türküstandan Məşhədə qayıdan kimi Nadir şah daha bir neçə alayı Qəni xanın köməyinə yolladı. Əsas qüvvələr yetişənə kimi, Qəni xanın dəstəsi Dağıstandakı qüvvələrin əl-qol açmasının qarşısını almalı idi (275).

Tarixçilər və tədqiqatçılar arasında Nadir şahın yenidən Dağıstan yürüşünü həyata keçirməsinə birmənalı yanaşmayanlar da vardır. Dağıstana yürüş azuqə çətinlikləri ilə müşayiət olunurdu. Uzun və dağlıq ərazilər Nadir şahdan daha çox azuqə ehtiyatına malik olmağı tələb edirdi.Eyni zamanda da Dağıstan şəraitində döyüşlərin aparılması xeyli çətin idi. Bu yürüş zamanı Nadir şahın da müəyyən itkilərlə qarşılaşacağı şübhə doğurmurdu. Amma onu da yaddan çıxarmaq olmaz ki, Dağıstanda başlanan itaətsizlik dalğasına ciddi diqqət yetirilməməsi bütün Cənubi Qafqazın əldən getməsi ilə nəticələnə bilərdi. Şübhəsiz ki, Nadir şah da bu məqamı lazımınca qiymətləndirirdi.

Əslində isə, həqiqətən də Dağıstan yürüşünü başlamaqla Nadir şahın qarşısında çox ciddi bir sınaq dayanırdı. Dağıstan şəraitində döyüşə biləcək qoşunun formalaşdırılması, qoşunların təchiz edilməsi , Dağıstan şəraitində daha səmərəli taktikanın seçilməsi və onun həyata keçirilməsi, Dağıstan istiqamətində çətin marşın icra edilməsi, qoşunların ağır döyüşlərə səfərbər edilməsi və s. Görünür elə bununla bağlı idi ki, yürüşə başlamazdan əvvəl Nadir şah Məşhəddə qoşun başçılarının və sərkərdələrinin toplantısını keçirdi və Dağıstana yürüş etmək niyyətini onlara açıqladı. Toplantı iştirakçıları birmənalı şəkildə Nadir şahın qərarını dəstəklədilər. Nadir şah sərkərdələrini və döyüşçülərinin Dağıstana yürüşünü təşviq etmək üçün onların bir illik məvacibini əvvəldən verdi və bunun üçün xəzinədən lazım olan qədər vəsait ayırdı. Bundan sonra Nəsrulla Mirzəni Məşhəddə saxladı, Hindistanın, Türküstanın və Xorasanın idarəçilik səlahiyyətlərini ona həvalə etdi. Rzaqulu Mirzə ilə İmamqulu Mirzəni isə Nadir şah özü ilə Dağıstan yürüşünə apardı. Nəhayət, 1741-ci il mart ayının 14-də Nadir şah qoşunları ilə Məşhəddən Dağıstana doğru istiqamət götürdü (276).

Dağıstan yürüşündə iştirak etmiş həkim Bazen Nadir şah qoşunlarının 150 minə yaxın olduğunu qeyd edir. Onun yazdığına görə, şah

qoşunlarının əsasını hind, tatar, özbək və əfqan dəstələri təşkil edirdilər.Dağıstana doğru hərəkəti zamanı qarşıya çıxan məntəqələrin yerli əhalisi hesabına qoşunların sayı daha da artdı (277).

Nadir şah Qoçan-Qorqan-Mazandaran-Tehran-Qəzvin marşrutu ilə hərəkət etməyi qərar aldı. Bir həftə sonra Nadir şah qoşunları ilə Xəbuşanda Novruz bayramını qeyd etdi və sonra yenidən Dağıstana doğru hərəkətini davam etdirdi. Amma Xəbuşandan sonra Nadir şah bir sıra çətinliklərlə qarşılaşdı. Esfəreyn məntəqəsi yaxınlığında, Gəraylı dərəsinin mənzərəli bir yerində Nadir şah qoşunlara istirahət verdi və dərənin başlanğıcında düşərgə salındı. Gözlənilmədən yağan sel yağışın suyu dərəni tutdu və suyun səviyyəsi xeyli yuxarı qalxdı. "Aləm Ara-ye Naderi"nin yazdığına görə, sel suları elə tufan etdi ki, 6-7 min döyüşçü və 5-6 min baş heyvan bu tufanın qurbanı oldu. Mənbədə hətta çoxlu sayda çadırın da suda qərq olduğu bildirilir. Mənbədə göstərilən rəqəmlər bir qədər real görünməsə də, sözsüz ki, Nadir şah qoşunları bu seldən tələfat gördülər. Həmin vaxt Nadir şahın çadırı dərənin ortasında olan bir yüksəkliyin üstündə idi. Sel suları həmin yüksəkliyə qədər qalxdı və Nadir şahın çadırının ətrafındakı bir sıra çadırlar da suya qərq oldu. Xidmətçilər və əyanlar Nadir şahdan çadırını tərk etməsini xahiş etdilər ki, ona bir sədəmə yetişməsin. Amma Nadir şah onların sözlərini qəbul etmədi. O, çadırını tərk etmədi və çadırında oturub təbiətin gücünü və qüdrətini seyr edərək fikrə daldı.Bir azdan tufan səngidi və Nadir şahın çadırı ilə bağlı olan narahatçılıqlar da aradan qalxdı (278).

Selin səngiməsindən sonra qoşunlar bir neçə gün də həmin məntəqədə qaldılar. Nadir şahın əmri ilə həm seldən tələf olanlar dəfn edildi, həm də sel sularının apardığı xəzinə vəsaitlərinin axtarışı aparıldı. Həmin vəsaitin xeyli hissəsini tapmaq mümkün oldu.

Sonra Nadir şah Azərbaycana doğru hərəkətini davam etdirdi. Qoşunlar bir neçə gün də Astrabadda dayandılar.Qoşunların sonrakı marşrutu Əşrəf-Sari-Əliabaddan keçməli idi. Nadir şah qoşunların daxilində, xüsusi bir mühafizə əhatəsində hərəkət edirdi. Müfahizə dəstəsi tərəfindən onun ətrafında yaranmış əhatə dairəsi "qoruq" adlanırdı. Qoruğun mərkəzində Nadir şah və onun ailəsi öz yoluna davam edirdi.Qoruğun bir millik əhatəsində heç kimin olmasına icazə verilmirdi.Kimsə icazəsiz qoruq ətrafındakı bir millik zonaya daxil olardısa xəbərdarlıq edilmədən qətlə yetirilə bilərdi. Nadir şah 1741-ci il mayın 15-də belə bir əhatədə Gəduk keçidinə doğru irəliləyərkən Savadguh meşə zonasında, Övlad qalası yaxınlığındakı Zirab və Behican məntəqələri arasında ağaclar arasında gizlənmiş bir nəfərin gülləsinə

tuş gəldi.Həmin yerdə gülləni atan şəxslə Nadir şah arasında 20 addımlıq bir fasilə var idi. Güllə Nadir şahın sağ qolunu cızıb sol əlinin arxasına azacıq xətər yetirdi və sonra onun atının boynunu yaraladı. Nadir şah atdan yerə yuvarlandı və güllə atanın diqqətini yayındırmaq üçün bir müddət yerə sərili halda qaldı. Bununla o istəyirdi ki, ona tərəf daha ikinci güllə açılmasın. Doğrudan da, ağaclar arasında gizlənmiş şəxs  daha ikinci gülləni atmadı. Ola bilsin ki, o, Nadir şahı ölmüş bildi.Qoruqçular və mühafizəçilər Nadir şahı dövrəyə alıb qatili tapmağa cəhd göstərsələr də buna nail olmadılar (279).

Qatilin axtarışları sonra da davam etdirildi. Hər halda Nadir şah ona edilən bu sui-qəsddən çox qəzəbləndi və həmin məntəqədən Tehrana dönmək qərarına gəldi. Bu işdə Rzaqulunun da əlinin ola biləcəyinə şübhə etdiyi üçün Nadir şah onu daha özü ilə Dağıstana aparmadı. Rzaqulu Mirzə Tehranda saxlandı və bu şəhərin maliyyə işləri ona tapşırıldı (280).

Tehranda olarkən Nadir şah Rusiya sarayının nümayəndəsi Qaluşkini qəbul etdi. Onun gətirdiyi peyğamda Rusiya sarayı bir daha Nadir şaha dost münasibətdə qaldığını ifadə edirdi(281).Məlumdur ki, Qaluşkin Nadir şahı Dağıstan yürüşündə müşayiət etdi. Bu yürüşün şahidi kimi müşahidələri haqqında Qaluşkin yazılı şəkildə Rusiya sarayına məlumatlar göndərirdi. Həmin məlumatlar bütünlüklə Nadir şaha düşmən olan, onun hərbi zəfərlərindən ehtiyatlanan bir dövlətin nümayəndəsi tərəfindən yazıldığı üçün ifratlıqlara xüsusi yer verilsə də Nadir şahın tarixinin öyrənilməsi üçün müəyyən əhəmiyyət kəsb edir.

Yolda baş verən sui-qəsd hadisəsi Nadir şahı qəzəbləndirməklə bərabər, onun əhval-ruhiyyəsində də bir təşviş yaratdı. Bu təşviş və həyəcanlar həm Dağıstan yürüşünün təşkilinə, tənziminə ciddi mənfi təsir göstərdi, həm də bu təşviş bütünlükdə onun yaşayışının və düşüncələrinin yeni və daha sərt bir axara düşməsinə yol açdı.

Bir neçə gün Tehranda qaldıqdan sonra  Nadir şah Qəzvinə doğru hərəkətini davam etdirdi. Həmin şəhərdə qoşunlara 15 günlük istirahət verildi. Bu müddət ərzində qoşunların təchizi və təkmilləşdirilməsi də diqqət mərkəzində dayandı. “Aləm Ara-ye Naderi” də Nadir şahın Ərdəbildə də olduğu bildirilir. Mənbədəki məlumata görə, Nadir şah orada azərbaycanlılardan təşkil edilmiş qoşun dəstəsinə baxış keçirdi və qoşunlara əlavə azuqə toplanması üçün vilayət hakimlərinə göstəriş verdi (282).

Yuxarıda həkim Bazenə istinadən Dağıstan yürüşünə qatılan  Nadir şah qoşunlarının əsasının əfqanlar, hindlilər və digərlərindən təşkil edildiyi qeyd olunmuşdu. Ərdəbildə azərbaycanlılardan ibarət qoşun

dəstəsinə baxış keçirməsi və həmin dəstənin qoşunlara qatılması Bazenin iddialarına tənqidi yanaşılmasını tələb edir. Nadir şahın qoşunlarında müxtəlif millətlərdən təşkil olunmuş dəstələr mövcud olsa da, onların böyük əksəriyyətini həmişə türk tayfaları təşkil etmişdilər.

Sonra Nadir şah Şirvana doğru hərəkətini davam etdirdi, Bərdədən keçib Qəbələyə doğru irəlilədi. "Aləm Ara-ye Naderi" Nadirin Şirvanda da 10 minlik qoşun dəstəsi topladığını xəbər verir (283).

Yürüşün ilkin mərhələsi Nadir şah üçün ümidverici nəticələrlə başladı. Bir sıra ləzgi tayfaları Nadir şaha itaətini bəyan etdilər. Ləzgi tayfalarının belə mülayimliyi sözsüz ki, bir tərəfdən də Nadir şah tərəfindən Dağıstana göndərilmiş Qəni xanın və Fətəli xanın dəstələrinin oradakı fəaliyyəti ilə bağlı idi. Nadir şaha artıq məlumat çatdırılmışdı ki, Qəni xanın və Fətəli xanın dəstəsi Dağıstanda uğurlu əməliyyatlara başlayıbdır. Həmin dəstə Carda, Tala Cızıxda və Ağzıbirdə olan istehkam mövqelərini ələ keçirmişdi. Xüsusilə, Ağzıbirdə yerli dəstələrə qarşı əzmkar bir mübarizə aparılmışdı. Bu əzmkarlığa görə Qəni xanın dəstəsi Nadir şah tərəfindən 10 min tümənlə mükafatlandırıldı. Nəticədə, Samur çayı ətrafına qədər olan ərazilər yenidən itaət altına gətirildi (284).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Nadir şah Qəbələdən sonra Şahdağı adlamaqla Qumıxa yollandı və bir ay orada qaldı. Qumıxda olarkən Xaspolad xan Şamxal, Surxay xan Qumıx və Əhməd xan Usmi Qaraqaytaq Dağıstan əyanlarının müşayiəti ilə Nadir şahın hüzuruna gəldilər. Nadir şah onları ehtiramla qarşıladı, itaət göstərmələrini qəbul etdi və onlara qiymətli hədiyyələr verdi.

Qaluşkin Rusiya sarayına göndərdiyi məlumatında bildirirdi ki, Qazıqumıxa doğru irəliləyərkən bir neçə kənd Nadir şaha müqavimət göstərmək istədi.Amma həmin kəndlərin müqaviməti çox da uzun sürmədi və yerli əhali Nadir şaha itaət göstərməyə razı oldu (285).

Çox güman ki, elə ilk toqquşmalar da yuxarıda adları çəkilən tayfa başçılarının Nadir şahla sülhə getməsini sürətləndirdi. Nadir şahı bu yürüşdə müşayiət edən həkim Bazen də təsdiq edirdi ki, Nadir şah Dağıstana yaxınlaşanda ləzgilər (mənbələr və müəlliflər Dağıstan xalqlarını əsasən ləzgi kimi təqdim edirlər-M.S.) qorxdular və Nadir şaha itaət etdilər. Həkim Bazen sonradan Nadir şaha qarşı Dağıstanda müqavimətin güclənməsinə də öz münasibətini bildirmişdir. Onun fikrincə, ilkin razılaşma əldə ediləndən sonra Nadir şah ləzgilərin böyük bir hissəsini köçürmək qərarına gəldi. Öz yurdlarından köçürülmək qorxusu ləzgiləri Nadir şaha olan münasibəti dəyişməyə məcbur etdi

və bununla da Dağıstanda Nadir şaha qarşı olan müqaviməti genişləndirdi (286).

Həkim Bazen sonra əlavə edir ki, ləzgilər ümumiyyətlə qarətkarlıqla məşğul olurlar. Onun fikrincə, yüksək dağ aşırımlarını aşmaq ləzgilər üçün adi yolla hərəkət etmək qədər asandır. Eyni zamanda onların güclü olması və silahdan məharətlə istifadə etmələri də həkim Bazenin nəzərindən qaçmamışdı. Nadir şah qoşunlarına qarşı mübarizədə onlar dağlıq şəraitdə pusqulardan bacarıqla bəhrələndilər və onların öz müqavimətlərini təşkil etmələri Nadir şah qoşunlarının vəziyyətini xeyli çətinləşdirdi (287).

Qaluşkin də 1741-ci il avqustun 12-də hazırladığı raportunda əvvəlcə Surxay xanın, sonra da Usmi xanın Nadir şaha itaət etməsini yazır. O qeyd edirdi ki, Nadir şahın 20 min dağıstanlını öz ordusuna cəlb etmək və digərlərini də İrana köçürmək qərarı yerli əhali arasında ona qarşı müqaviməti gücləndirdi. Qaluşkinə görə, müqavimətin yatırılması üçün Nadir şah qoşunları da sərt tədbirlərə əl atdılar. Qoşunlar dəstələrə bölünərək dağlar qoynunda yerləşən məntəqələrdəki müqavimət ocaqlarının yatırılmasına göndərildi. Ləzgi dəstələrinin yerləşdikləri bir çox kəndlər alınsa da, bir çoxlarında sərt müqavimət təşkil olundu (288).

Qaluşkin öz raportlarında Nadir şah qoşunlarının müqavimətlə rastlaşdığı bəzi dağ kəndləri ətrafında gedən döyüşlər haqqında məlumat verir.Rusiya elçisi raportlarında Nadir şah qoşunlarının rastlaşdığı çətinlikləri daha çox qabartdığına görə, müəyyən birtərəfliliyə də yol vermişdir. Bununla belə, aydındır ki, Nadir şah qoşunları doğrudan da həm mürəkkəb təbii, həm də ağır döyüş şəraiti ilə qarşılaşmışdı. Əvvəlki döyüşlərdən fərqli olaraq Nadir şahın özünün də burada təşəbbüskarlığını, ən çətin şəraitdə, kimsənin güman etmədiyi taktiki qərara əl atmasını görmək mümkün deyil. Nadir şah Dağıstanda rastlaşdığı çətinliklərə görə taleyin ondan üz döndərdiyini bəyan etsə də əslində, ağır mənəvi-psixoloji təzyiq də onun iradəsinə və əzmkarlığına əks-təsir göstərirdi.

Üzü payıza doğru Dağıstanda müqavimət daha da gücləndi. Dağ əhalisinin kiçik dəstələrlə və təbii şəraitin imkanlarından bacarıqla istifadə edərək fəaliyyət göstərməsi Nadir şah qoşunlarının böyük dəstələrlə fəaliyyətini mümkünsüz edirdi. İş o yerə gəlib çatdı ki, Nadir şahın düşərgə saldığı Qazıqumıx əhalisi də dəstələr təşkil edib dağlara çəkildi və imkan yaranan kimi Nadir şah qoşunlarına zərbələr endirdilər. Nadir şah Surxay xandan və Usmi Əhməd xandan tələb etdi ki, yerli əhali arasından 1000 nəfərlik bir dəstə təşkil edib onun qoşun-

larına qatsın. Amma həmin xanlar bu tapşırığı yerinə yetirə bilmədilər. Surxay xan cəmi 400 nəfərlik bir dəstə topladı və Nadir şaha xəbər verdi ki, vaxtilə onun və avar Usmi Əhməd xanın nəzarəti altında olan kəndlər itaətsizlik yolunu tutmuşlar və ona görə böyük dəstə toplamaq da çətinləşib (289).

1741-ci il sentyabr ayının 12-də Nadir şah avar dəstələrinin zərərsizləşdirilməsi üçün Qazıqumıxdan Avara doğru hərəkətə başladı. Çox güman ki, Avarda Nadir şaha itaət etmək istəməyən güclü dəstələr toplanmışdılar və onlara ciddi zərbə vurmadan Dağıstanın nəzarət altına alınması mümkün deyildi. Yoxsa Nadir şah havaların pisləşməyə doğru getdiyi bir vaxtda belə qərar qəbul etməzdi. Avarda aparılan döyüşlərin nəticələrinə görə, onu da güman etmək olar ki, bu qərarı qəbul etməzdən əvvəl istiqamət götürdüyü məntəqə, bu məntəqəyə aparan yollar havaların yarada biləcəyi durum haqqında da Nadir şah kifayət qədər məlumat toplamamışdı.

"Tarix-e Cahanqoşa-ye Naderi"də qeyd olunur ki, Dağıstanın əvvəlindən sonuna 12 günlük yoldur. Həmin yol boyu bir parça düzlük sahə, 10-12 nəfərin yanaşı gedə biləcəyi bir yol tapmaq mümkün deyil. Dağ yüksəklikləri hətta yayda da qarla örtülü olur. Başqa sözlə, o yerlərin yayı düzənlik ərazilərin qışı qədər qarlı olurdu.Bununla, mənbə Nadir şahın Avara doğru hərəkəti zamanı hansı çətinliklərlə üzləşdiyini diqqətə çatdırırdı. Nəhayətdə, Nadir şah Avara yetişdi və 15 gün orada döyüşlər apardı. Avarlara qarşı döyüşə girmək tapşırığı alan cəzayirçi dəstəsi yerli şəraitə bələd olmayan bir şəxsin bələdçiliyi ilə qalın qarla örtülmüş yüksəkliklərlə əhatə olunmuş bir əraziyə gəlib çıxaraq çətin vəziyyətə düşdü və böyük itkilər verərək uğursuzluğa düçar oldu (290).

Qaluşkin öz raportlarının birində Heydər xanın rəhbərliyi altında olan tüfəngdarlar dəstəsinin dağ dərələrinin birində ağır vəziyyətlə qarşılaşmasını və bu dəstədən cəmi 500 nəfərin sağ qalmasını göstərir (291). Ola bilsin ki, bu dəstə elə "Tarix-e Cahanqoşa-ye Naderi"d haqqında yazılan dəstədir.

"Tarix-e Cahanqoşa-ye Naderi"də birmənalı şəkildə bildirilir ki, hava və coğrafi şəraitin pisliyi, şiddətli qar və yağış yağması Avardakı dəstələrin zərərsizləşdirilməsinə mane oldu.

Usmi Əhməd xanın verdiyi sözdən dönməsi və yenidən itaətsizlik yolunu tutması da Nadir şah qoşunlarına əlavə itkilər gətirdi. Avara yola düşməzdən əvvəl Nadir şah onu qoşun dəstəsi ilə birlikdə Qaraqaytaq əhalisinin köçürülməsinə göndərdi. Qaraqaytağın sıx meşələrinə çatanda Usmi xanın işarəsi ilə orada gizlənmiş yerli dəstə Usmi

xanı müşayiət edən Nadir şah döyüşçülərini atəşə tutdular. Qaraqaytaq silahlılarının qəfil və gözlənilməz hücumu Nadir şah döyüşçülərini çaş-baş saldı. Onlar özlərini toplayıb təşkilatlanmağa macal tapmamış bu xəyanətin qurbanı oldular. Dəstənin böyük hissəsi qətlə yetirildi, sağ qalanlar isə əsir götürüldülər. Bu barədə eşitdiyi xəbər Nadir şahı xeyli qəzəbləndirdi və qərara aldı ki, Dağıstanda qiyam qaldıran qüvvələri məhv etməyincə Dərbənd və bütünlükdə Dağıstan hüdudundan heç yana getməyəcəkdir. Bundan sonra o, fərman verdi və məsul şəxslər təyin etdi ki, Tiflisdən Xalxala, Ərdəbilə və Təbrizə kimi divan gəlirlərindən taxıl və ərzaq toplayıb yük heyvanları vasitəsilə düşərgəyə gətirilsin (292).

Havanın soyuqlaşması, dağların qarla örtülməsi Nadir şahı məcbur etdi ki, geri dönsün və Dərbənd ətrafında düşərgə salsın. Dərbəndə aparan yol boyu yerləşən kəndlərin əhalisi Nadir şah qoşunlarının yaxınlaşmasını eşidib dağlara çəkildi və bununla da təchizat baxımından çətin vəziyyətdə olan Nadir şah qoşunları daha çətin vəziyyətə düşdülər.Bir tərəfdən də avar silahlılarının təqibi Nadir şahdan xeyli diqqətli olmağı tələb edirdi. Nadir şah tüfəngdarlarının fitilli tüfənglərinin çoxu soyuq hava şəraitində işləmədi. Avarların tüfəngləri isə çaxmaqlı tüfənglər olduğundan hava şəraitindən asılı olmayaraq öz işləkliyini saxladılar.Onlar həm tüfənglərdən, həm də bələd olduqları yerli şəraitdən məharətlə istifadə edərək Nadir şah dəstələrinin üzərinə müxtəlif istiqamətlərdən hücum etdilər.Qaluşkinin sözlərinə görə, Nadir şahın Dağıstana yürüşü başlananda 52 min nəfərlik qoşun dəstəsinə malik idisə, Avara hücumdan sonra onun sağ qalan döyüşçülərinin sayı 27 min nəfər idi (293).

Çox da uzun sürməyən Avar hücumunda dağlıların yürüşlərinin nəticəsi kimi Nadir şahın 25 minlik qoşun itirməsi real görünməsə də hər halda Nadir şahın itkiləri var idi və onların arasında soyuqlara və şaxtalara tab gətirməyənlər də az deyildi.

Oktyabr ayının 16-da Nadir şah qoşunları ilə birlikdə Dərbəndə qayıtdı. Ancaq burada da çox dayanmadı. Qoşun yüklərini və qüvvələrin bir hissəsini orada saxlayan Nadir şah bir dəstə ilə Qaraqaytaqa yollandı. Çox güman ki, Qaraqaytaqda da güclü silahlı dəstə toplanmışdı və onların fəallığı Nadir şahı narahat edirdi."Tarix-e Cahanqoşa-ye Naderi"də Nadir şahın Qaraqaytaq yürüşünün məqsədi açıqlanmamışdır. Bir o məsələ qeyd olunur ki, Dərbənddən Şamxala qədər olan ərazidə hər 2-3 fərsəngdən bir səngər-qalaların qurulmasını əmr etdi. Sonra da həmin səngər-qalalara döyüşçülər təyin etdi ki, ətrafın təhlükəsizliyini qorusunlar.Qaraqaytaq yürüşündən geri qayıdandan

sonra Nadir şah düşərgəsinin yerini dəyişdi və Dərbənddən 3 fərsəng aralı olan Kafir çölü adlanan ərazidə dayandı. Çünki o ərazidə ərzaq və yem ehtiyatları daha çox idi.Nadir şah qoşun başçılarına və sərkərdələrə tapşırıq verdi ki, ağac və qamışdan evlər düzəldib qışı keçirməyə hazırlaşsınlar (294).

1742-ci ilin yazına kimi Nadir şah həmin düşərgədə qaldı. O, Novruz bayramını da burada qarşıladı. Mənbələrdə bir məlumat verilməsə də Kafir çölündə qaldığı vaxt ərzində Nadir şah heç şübhəsiz ki, qoşunların və onların təchizatının təkmilləşdirilməsi ilə məşğul oldu. Çünki onu qarşıda yenidən ağır döyüşlər gözləyirdi.

1742-ci il may ayının sonunda Nadir şah Tabasaranda toplanan silahlı müxalifət dəstələrinin zərərsizləşdirilməsini qərara aldı. Havaların kifayət qədər istiləşməsi, dağlarda qarların əriməsi Tabasarana doğru irəliləməyə imkan verdi. "Aləm Ara-ye Naderi"nin yazdığına görə, Tabasaran əhalisi islaholunmaz dəstələrdə birləşmişdilər və onlarla mübarizə aparmaq elə də asan deyildi. Nadir şah Tabasaranda nizam yaratdıqdan sonra digər məntəqələri də tədricən itaət altına almağı planlaşdırırdı.

Qoşunların əsas hissəsinin hərəkətindən öncə Nadir şah Mirəli xan Xəzimənin, minbaşı İsmayıl bəyin, minbaşı Zamin bəy Məşədinin rəhbərliyi altında Tabasarana tərəf 10 min nəfərlik bir qoşun dəstəsi göndərdi. Bu dəstə Tabasarana aparan dərənin yolunu kəsərək həmin dərə ilə ola biləcək hərəkətlərin qarşısını almalı idi. Mənbədə olan məlumata görə, Tabasaran əhalisi Nadir şahın hücuma başlamasından artıq xəbər tutmuşdu. Bu hücumun qarşısının alınması üçün tabasaranlılar 30 minlik qoşun dəstəsi təşkil edib Tabasarana aparan dərənin başlanğıcında yerləşdirdilər.Tabasaran dəstələri dərəyə Nadir şah dəstələrindən daha tez yetişdilər və ona görə də onlar oradakı hakim yüksəkliklərdə əlverişli mövqelər tutdular. Bir tərəfdən say üstünlüyü və əraziyə yaxşı bələd olmaları, digər tərəfdən də hakim yüksəkliklərdə mövqe tutulması tabasaranlılara imkan verdi ki, Nadir şahın öncə göndərdiyi dəstələrə qarşı ciddi müqavimət göstərsinlər. Nadir şah cəzayirçilərinin bütün səylərinə baxmayaraq tabasaranlıların müqavimətini qırmaq mümkün olmadı. Xeyli sayda itki verən tərəflər havanın qaralması ilə döyüşü dayandırmalı oldular (295).

Tabasaranlılarla baş verən döyüş haqqında dərhal Nadir şaha məlumat çatdırıldı.Nadir şah yanında olan Gürcüstan valisini 10 minlik dəstəsi ilə tabasaranlılarla üzbəüz qalmış dəstənin köməyinə göndərdi. Səhəri gün Nadir şah özü də qoşunla irəliyə göndərdiyi dəstələrin köməyinə yollandı. O biri gün tabasaran istiqamətində döyüş yenidən

başladı.Tabasaran silahlıları qərar tutduqları əlverişli mövqelərdən istifadə edərək hərbi təşəbbüsü əllərində saxlamaqda davam edirdilər. Belə olanda Nadir şah cəbhəsində çıxış yolunun axtarışına başlandı. Qərara alındı ki, İsmayıl bəy 500 nəfərlik bir qrupla yaxınlıqdakı təpəni tutub onun arxasında daldalanmaq üçün bir sığınacaq yaratsınlar. Tabasaranlılar hiss edəndə ki, Nadir şah döyüşçüləri təpənin arxasında daldalanmağa meyl edirlər, onda onların üzərinə qətiyyəti hücuma keçdilər.Nadir şah döyüşçüləri yenidən itkilərlə üzləşdilər və çoxları canını məhz həmin təpənin arxasında daldalanmaqla qurtara bildilər (296).

Tabasaranlılar bununla da kifayətlənməyib Nadir şahın dəstəsini mühasirəyə aldılar. Onların çevik hərəkətləri və sərrast atəşləri Nadir şah döyüşçülərinin itkilərini daha da artırdı. Belə bir vaxtda Gürcüstan hakiminin dəstəsi özünü ora yetirdi.Yeni qüvvələrin gəldiyini görən tabasaranlılar geri çəkildilər. Amma şəraiti qiymətləndirəndən sonra yenidən hücuma atıldılar.Gün ərzində elə tabasaranlılara da əlavə yardım gəldi. Nadir şahın  qüvvələri ilə ciddi döyüş xəbərini alan kimi Dağıstanın müxtəlif məntəqələrindən tabasaranlılara yardım göndərildi. Nəticədə döyüş meydanının əhatəsi çox genişləndi və ətraf yüksəkliklərin hamısı döyüş mövqelərinə çevrildilər. Ona görə o biri gün qızışan döyüşdə Nadir şah dəstələri tabasaranlıların aramsız hücumları qarşısında qaldılar. Nadir şahın döyüşçüləri müdafiəyə çəkilməyin də təhlükəli ola biləcəyini anlayırdılar.Şiddətlənən döyüşdə onların vəziyyəti böhran halı alanda Nadir şahın rəhbərliyi altında olan qoşun dəstəsi ora yetişdi. Onun gəlişi ilə tabasaranlıların sırası pərən-pərən oldu və onlar geri çəkildilər (297).

Nadir şah Tabasarana toplaşan silahlılara üstün gələndən sonra həmin məntəqənin giriş-çıxış yollarını və hakim yüksəkliklərini nəzarət altına götürdü. Bu da ondan irəli gəlirdi ki, Dağıstanda itaət etmək istəməyən qüvvələr hələ tamamilə zərərsizləşdirilməmişdi və istənilən vaxt həmin qüvvələr tərəfindən təhlükə yarana bilərdi.

Nadir şah isə Tabasaranda  əldə etdiyi uğuru daha da genişləndirmək istəyirdi.Tabasaran döyüşündən az sonra ona xəbər verildi ki, yaxınlıqdakı məntəqələrin birində ləzgi silahlı dəstələri toplaşıbdır. “Aləm Ara-ye Naderi”də ləzgilərin  toplaşdığı məntəqə Dibək adlandırılmışdır. Ləzgi silahlılarının sayı çox olduğundan oradakı Nadir şah dəstəsi müqavimət göstərmədən geri çəkildi. Nadir şahın göstərişi ilə Məhəmmədəli xan həmin məntəqəyə kəşfiyyata yollandı və bir neçə yerli silahlını əsir tutub geri qayıtdı. Onların sorğu-sual edilməsi dağıstanlıların birləşdiyi və Nadir şaha qarşı çox böyük qoşun dəstəsi

təşkil edildiyi aşkarlandı."Aləm Ara-ye Naderi"də bu qoşun dəstəsinin 60 min nəfər olduğu bildirilir. Mənbədə olan məlumata görə, Nadir şah eşitdiyi xəbərdən heç də narahat olmadı. Əksinə, dağıstanlıların qoşun dəstəsi ilə döyüşə girmək üçün irəliyə hərəkət etmək əmri verdi. Nadir şah bir də çox ağır döyüşə qatıldı. Dağıstanlılar yenidən say üstünlüyü ilə bərabər hakim yüksəklikləri və dağ keçidlərini nəzarət altına götürmüşdülər. Nadir şah döyüşçülərinin istənilən istiqamətə irəliləmək cəhdi yerli silahlıların atəşləri ilə qarşılaşırdı. Belə olanda, Nadir şah dəstələrinə göstəriş verdi ki, yerli silahlıların möhkəmlənmiş olduğu yüksəklikləri əhatə edib həmin nöqtələri ələ keçirməyə çalışsınlar (298).

Döyüş bütün günü davam etdi. Qürub çağı Nadir şah qətiyyətli hücuma keçməyə cəhd göstərdi və dağıstanlıların cinahlarından birini hədəf seçdi. Orada bir saatlıq gərgin qarşıdurma baş verdi və qarşı tərəfdən atılan tüfəng güllələrindən biri Nadir şahın barmağını yaraladı. Nadir şah buna elə ciddi bir əhəmiyyət vermədi. Əksinə, yüksək iradə və əzmkarlıqla döyüşməkdə davam etdi. Onun bütün gücünü döyüşə səfərbər etməsi döyüşçülərinin də şücaət nümayiş etdirməsinə ilham verdi.Mənbələr təsdiq edirlər ki, dağıstanlılar da kifayət qədər əzmkarlıqla vuruşdular. Yalnız hava qaralandan sonra onlar dağ yüksəkliklərində qurduqları səngərlərə çəkildilər. Səhər açılan kimi Nadir şah dəstələrinə dağıstanlıların mövqelərini əhatə etmək tapşırığı verdi. Nadir şah döyüşçüləri və sərkərdələri verilmiş bu tapşırığın öhdəsindən bacarıqla gəldilər və qısa müddətdən sonra Dağıstan silahlıları özlərini mühasirədə gördülər. Belə olanda onlar müqaviməti dayandırıb mövqelərini tərk etdilər (299).

Bu uğurdan sonra Nadir şah qoşunlara bir neçə günlük istirahət verdi.O istəyirdi ki, bu istirahətin ardınca Qumıxa, Qaraqaytaqa və Tabasarana doğru hərəkət etsin və həmin məntəqələrdə toplanmaqda olan silahlı dəstələri zərərsizləşdirsin. Amma o buna nail olmadı. Çünki dağıstanlılar ətrafdakı dağ keçidlərini və yollarını elə bir hala gətirmişdilər ki, irəliyə hərəkət etmək mümkün deyildi. Onda Nadir şah geri qayıtmağı qərarlaşdırdı və Dağıstan Marağası adlanan çəməndə düşərgə saldı. Nadir şah buradan öz dəstələrinə müxtəlif istiqamətlərə hərəkət etmək tapşırığı verdi. Xorasan cəzayirçilərindən və tüfəngdarlarından ibarət 12 min nəfərlik dəstəni Zaman bəyin və İsmayıl bəyin rəhbərliyi altında, habelə özbək Rəhim bəyin rəhbərliyi altında 10 min nəfərlik dəstəni Tabasarana göndərdi. Bu dəstələr Tabasaranda yenidən cəmləşməyə başlayan silahlı dəstələrə yeni bir zərbə endirməli

idilər.11 min nəfərlik başqa bir dəstə isə Dibək məntəqəsinə göndərildi (300).

Tabasaranda yerli əhali 5-6 min nəfərlik bir dəstə toplamışdılar. Bu dəstə dağlıq ərazilərin üstünlüklərindən bəhrələnməklə Nadir şah dəstəsinin qarşısını kəsməyə cəhd göstərdi. Amma öz niyyətinə nail ola bilmədi. Yerli silahlılar çoxlu sayda itki verəndən sonra geri çəkilməyə məcbur oldular.Nadir şah döyüşçülərin onların təqibinə başlayıb hətta yaşadıqları məntəqəyə də zərbə endirdilər. Yerli əhali arasında da xeyli qırılan və əsir götürülən oldu. Geri çəkilən Tabasaran silahlıları ətrafda yaşayan yerli tayfaların silahlı dəstələri ilə birləşib yenidən Nadir şah dəstələrinin üzərinə hücuma keçdilər. Mənbələrə görə, tabasaranlıların ətrafında 8 minlik bir dəstə toplandı. 10 min nəfərlik bir dəstə isə Avardan onların köməyinə gəldi. Çünki dağıstanlılar yaxşı bilirdilər ki, birləşib müqavimət göstərməsələr onda Nadir şaha itaəti qəbul etməlidirlər.

Dağıstanlılar bu dəfə Nadir şah dəstələrinə pusqu qurmaq taktikasına əl atdılar. Bunun üçün 500 nəfərlik bir dəstəni irəli göndərdilər. Dağıstanlıların əsas qüvvələri isə dar və uzun dərənin ətrafındakı yüksəkliklərdə mövqe tutdular. İrəli çıxarılmış qrup Nadir şah qüvvələrini özünə cəlb edib dərənin içərilərinə doğru çəkməli və pusqunun fəallaşmasına zəmin yaratmalı idi. Dağıstanlılar öz niyyətlərinə nail oldular. Nadir şah qüvvələri pusquya düşəcəklərindən ehtiyatlanmadan dağıstanlılar üzərinə şığıdılar. Bununla da az sonra elə bir pusquya düşdülər ki, oradan çıxmaq elə də asan olmadı. Nadir şah döyüşçülərinin nizamlana bilməməsi və çaşqınlığın artması böyük itkilərə yol açdı. Mənbələrin məlumatına görə, iki saat ərzində 8-9 min Nadir şah döyüşçüsü qətlə yetirildi. Bütün dəstə məhv olmaq təhlükəsi qarşısında qalanda minbaşı Zamin bəy özünü Nadir şaha yetirdi və baş verənlər haqqında ona məlumat çatdırdı. Nadir şah dəstələrinin ağır vəziyyətdə olması ilə bərabər Zamin bəyin də döyüş meydanını tərk etməsi Nadir şahı hövsələdən çıxardı. Onun əmri ilə Zamin xanın və bir neçə başqa sərkərdənin əl-qolunu bağladılar və döyüş meydanını tərk etdiklərinə görə onları dərən bir qayanın dibinə atıb qətlə yetirdilər. Sonra isə ağır vəziyyətdə olan dəstələrə kömək göndərildi (301).

Dibəkə göndərilmiş dəstə orada toplaşan yerli silahlı dəstəyə ağır zərbə endirərək onun döyüşçülərini qaçıb dağılmağa məcbur etdi. Bununla belə, Nadir şah dağlıq ərazidə qoşun dəstəsi saxlanmasını təhlükəli hesab etdi və tezliklə yenidən Dərbəndə toplaşmağa göstəriş verdi. Dərbəndə qayıtdıqdan sonra Nadir şah yerli tayfa başçılarının

yanına elçilər göndərdi, onları silahı yerə qoymağa və itaət göstərməyə çağırdı.

"Tarix-e Cahanqoşa-ye Naderi"də Nadir şah qoşunlarının Usmi Əhməd xanla döyüşləri haqqında da məlumat vardır.Dağıstanın nüfuzlu əyanlarından olan Usmi Əhməd xan Nadir şaha itaətdən üz döndərdikdən sonra nüfuz dairəsində olan silahlıları da Nadir şaha qarşı döyüşlərə cəlb etdi. O, sıx meşələrlə əhatə olunmuş və hündür dağ yüksəkliklərinin birində tikilmiş Qüreyş qalasına sığınmışdı və Nadir şaha qarşı müqaviməti də buradan təşkil edirdi. Nadir şah bir sıra Dağıstan tayfalarının silahlı dəstələrinin müqavimətini qırdıqdan sonra Usmi Əhməd xanın sığındığı qalanın da ələ keçirilməsinə qərar verdi. Bu məqsədlə tapşırıq almış dəstə Qüreyş qalası ətrafında döyüş apardı. Ensiz və dar yolu olan qalanın müdafiəçilərinin göstərdikləri bütün səylər nəticəsiz qaldı və Qüreyş qalası Nadir şah döyüşçülərinin əlinə keçdi. Amma qala ələ keçirilməzdən əvvəl Usmi Əhməd xan gizlicə olaraq qaladan qaça bildi. Bu dəfə o, Avara üz tutdu və orada gizləndi. Qalada məskunlaşmış qaraqaytaqlar Nadir şahdan aman istədilər. Nadir şah onları bağışladı. Amma onun əmri ilə Qüreyş qalası dağıdılıb yerlə-yeksan edildi (302).

Döyüşlərin son dərəcə ağır və ləng getməsinə baxmayaraq Nadir şah, Avar istisna olmaqla Dağıstanın böyük bir hissəsini nəzarət altına ala bildi. O cümlədən, Tabasaran, Qaraqaytaq, Qumıx və digər ərazilər. Nadir şah üçün aydın idi ki, bu ərazilər silah gücünə və böyük itkilər hesabına əldə edilib və nəzarətin zəiflədiyi halda yerli əhali yenidən silahlanıb itaətsizlik yolunu tutacaqlar.Ona görə Nadir şah tayfa başçılarına və yerli əyanlara nəvaziş göstərib onları özünə cəlb etməyə çalışdı. Nadir şah ona itaət yolu tutan əyanları və silahı yerə qoyanları səxavətlə mükafatlandırdı. 1742-ci ilin oktyabrında Samur çayı ətrafında məskunlaşan və Nadir şaha itaətini bəyan edən camaatların başçıları da Nadir şah tərəfindən bahalı hədiyyələrə layiq görüldülər (303).

Dərbənd ətrafına dönəndən sonra müxtəlif istiqamətlərə göndərdiyi elçilərin apardığı peyğama cavab olaraq bir çox tayfa başçıları Nadir şahın hüzuruna gəldilər və ona itaəti qəbul etdiklərini bildirdilər.

Nadir şahın Dağıstanda uzun müddət dayanması və orada bir sıra çətinliklərlə qarşılaşması, dövlət idarəçiliyindən uzaqlaşması böyük bir imperiyanın idarəçiliyinə təsirsiz ötüşmədi. Nadir şahın ciddi nəzarətindən kənarda qalan vilayətlərdə mərkəzi hakimiyyətə qarşı qiyamlar baş qaldırdı. Xarəzmdə, Bəlxdə, Fars körfəzi ətrafında yaşayan ərəblər daxilində baş qaldıran qiyam xəbəri Nadir şah tərəfindən də

narahatçılıqla qarşılandı. Şirvanda da qiyam yetişməkdə idi.Osmanlı dövləti ilə münasibətlərdə yenidən gərginliklər baş qaldırdı. Dağıstanla bağlı qarşıya qoyulan vəzifələr isə hələ tam yerinə yetirilməmişdi. Bir tərəfdən də xəbər alındı ki, Rusiya özünün cənubundakı qoşunlarını gücləndirilməkdədir.Rus tarixçilərinin iddiasına görə, Nadir şah Rusiyanın cənub ərazilərinə hücum etmək, Gizlər ətrafındakı əraziləri ələ keçirmək, sonra isə Kabardin və Kubandan özünə Krıma yol açmaq istəyirmiş. Güman edilir ki, Rusiyanın cənubunda rus qüvvələrinin möhkəmləndirilməsi Nadir şahı bu niyyətindən geri çəkilməyə məcbur etmişdi (304).

Qeyd etmək lazımdır ki, Nadir şahla bağlı olan əsas mənbələrdə bu barədə hər hansı bir məlumata rast gəlinmir. Həmin mənbələrdə olan məlumatlar bundan ibarətdir ki, 1742-ci ilin sonunu və 1743-cü ilin əvvəlini Nadir şah Dərbənd ətrafındakı düşərgədə keçirdi. Amma havaların soyuqluğu, qar yağması Dərbənd ətrafında böyük qoşun dəstəsinin təchizat məsələlərinin həllini xeyli çətinləşdirirdi. Onda Nadir şah qərara aldı ki, bir qədər cənuba çəkilib qışı indiki Azərbaycan Respublikası ərazisində keçirsin. Çünki döyüş zonasından müəyyən məsafədə yerləşən həmin ərazidə həm azuqə, həm də heyvanlar üçün yem tapmaq daha asan idi. Başlıcası isə orada daha sakit şəkildə düşərgə həyatı yaşamaq və qoşunların təkmilləşdirilməsi ilə məşğul olmaq olardı. "Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Nadir şah geriyə hərəkətə başlamazdan əvvəl Məhəmmədəli xan Qırxlını Dərbənddəki qarnizonun rəhbəri təyin etdi.Rus tarixçiləri isə Qəni xan Əbdalinin Dərbənd qarnizonunun rəhbəri təyin edilməsini xəbər verirlər (305).

Nadir şah Şirvana geri çəkildikdən sonra bütün qoşunu toplu halda saxlamadı.Qoşun dəstələri ayrı-ayrılıqda Muğan düzündə, Gəncədə, Qarabağda və Şamaxı ətrafında düşərgə saldılar.Çox güman ki, qoşunların belə dağılması onların təchizatının daha yaxşı təmin edilməsi istəyi ilə bağlı idi. Mənbələrdə təsdiq edilir ki, Dağıstan yürüşü zamanı Nadir şah qoşunları həm ciddi itkilərlə, həm də təminat çətinlikləri ilə üzləşdilər. Şirvanda olduğu zaman Nadir şah qoşunların sıralarının bərpa edilməsinə də ciddi diqqət ayırdı.Bununla bağlı, Nadir şah digər vilayətlərə də fərman göndərdi ki, orada yeni qoşun dəstələri təşkil edib Nadir şahın ixtiyarına yollasınlar 306).

"Tarix-e Cahanqoşa-ye Naderi"də olan məlumata görə, Nadir şah qoşunları Dərbənddən geri hərəkətə başlayanda havalar xeyli korlandı, aramsız yağan yağış və qar qoşunların hərəkətini daha da çətinləşdirdi. Belə hava şəraiti artıq əldən düşmüş olan Nadir şah qoşun-

larına əlavə çətinliklər yaratdı. Bunun nəticəsi idi ki, Dərbənddən Kür çayının sahilinə qədər olan məsafəni Nadir şah qoşunları yalnız 40 günə qət edə bildilər (307).

### 6. Nadir şah və Osmanlı münasibətlərinin davamı

Mənbələrdən və tədqiqat əsərlərindən belə aydın olur ki, Nadir şah və onun qoşunları Şirvanda 20 gün istirahət etdilər. "Aləm Ara-ye Naderi"yə görə, 1743-cü ilin yazının əvvəlində Nadir şah yenidən Dağıstana qayıtdı, orada hələ də mövcudluğunu saxlayan bəzi yerli silahlı dəstələri məhv etdi və Dağıstanı itaət altına gətirdi.Mənbədəki məlumata görə, Dağıstana bu dəfəki dönüşündə Nadir çah daha çox yerli əhalinin Xorasana köçürülməsi ilə məşğul oldu. Amma digər mənbələrdə 1743-cü ilin yazında Nadir şahın Dağıstana deyil Təbrizə dönməsi qeyd olunur. Elə "Aləm Ara-ye Naderi"dəki bəzi faktları tutuşduranda 1743-cü ilin yazında Dağıstanda və Şirvanda Sam Mirzə qiyamı qalxan zaman artıq Nadir şahın Təbrizdə olduğu aydınlaşır (308).

Hər halda bu da onu deməyə əsas verir ki,1743-cü ilin yazında Şirvanda qısa müddətli istirahətdən sonra Nadir şah Dağıstana deyil, Təbrizə qayıtdı."Tarix-e Cahanqoşa-ye Naderi" onu da bildirir ki, 1743-cü ilin novruzunu Nadir şah Muğan düzündə qeyd etdi. Burada istirahətini başa vurandan sonra Nadir şah Təbrizə doğru hərəkətə başladı. O, Təbrizə daxil olmadı və bu şəhərdən 4 fərsəng aralı olan Həştrud-Qaraçəmən yolu ilə hərəkətini davam etdirdi. Təbriz yaxınlığında olarkən Aşur xan Papalını Azərbaycan hakimi təyin etdi və onun ixtiyarına 6 min nəfərlik bir qoşun dəstəsi verdi. Eyni zamanda Şirvan, Qarabağ, Dərbənd, İrəvan hakim və bəylərbəylərinə fərman göndərdi ki, qoşun dəstələri toplayıb Osmanlı dövləti ilə yeni müharibəyə hazırlığa başlasınlar (309).

Osmanlı dövləti ilə yeni müharibə hazırlığını son illər ərzində bu dövlətlə olan münasibətlərdə yaranan gərginlik tələb edirdi. Nadir şah Osmanlı qüvvələri ilə apardığı döyüşlərdə uğur qazanaraq Osmanlı dövlətini müəyyən güzəştlərə getməyə razı salsa da bu tərəflər arasında imzalanan müqavilənin qüvvəyə minməməsi əldə edilən həmin razılıqları da rəsmiləşdirməmişdi. Osmanlı dövləti Nadir şahla aparılan müharibələrdən sonra müəyyən ərazilərin itirilməsi ilə razılaşmaq niyyətində deyildi və həmin ərazilərin geri qaytarılması üçün münasib məqam gözləyirdi. Nadir şahın Hindistan yürüşündə öldürülməsi haqqında xəbər yayılması Osmanlı sarayında itirilmiş torpaqların geri

qaytarılmasına yenidən ümidlər yaratdı. Bu xəbərin doğru olmadığı aydınlaşanda isə Osmanlı sarayı Nadir şahın zəiflədilməsi üçün başqa yollar aramağa başladı. Xüsusilə, Nadir şahın Dağıstana yürüşü başlayanda Osmanlı sarayı yerli tayfalara kömək edəcəyinə söz verdi. Güman edilirdi ki, yerli tayfaların müqavimətinin artırılması Nadir şahı daha tez əldən sala bilər. Amma sonradan bu yardım göstərilmədi. Bununla belə, Nadir şahın Dağıstanda çətinliklərlə qarşılaşması Osmanlı sarayı tərəfindən məmnunluqla qarşılanırdı (310).

Dağıstanda aparılan ağır döyüşlər zamanı yerli tayfalar tərəfindən əsir götürülən bir miqdar Nadir şah döyüşçüsü İstanbul sarayına göndərildi. Çox güman ki, Dağıstan tayfaları bununla Nadir şahla üzbəüz gəlməyə qadir olduqlarını nümayiş etdirməklə, həm də Osmanlı sarayını əməli yardım göstərilməsinə sövq etmək istəyirdilər.Çarəsiz görkəmdə olan Nadir şah döyüşçülərini izləmək Osmanlı sarayında xoş təəssürat yaratdı. Osmanlı əyanları Nadir şah döyüşçülərini Nadir şahın gücdən düşməsi və zəifləməsi kimi qəbul etdilər. Bu xəbər Nadir şaha Təbriz ətrafında olanda çatdı və bu xəbər Nadir şahda ağır təəssürat yaratdı. Digər tərəfdən bu hadisənin baş verməsi Nadir şaha Osmanlı dövlətinə qarşı yenidən silah qaldırmaq üçün bir bəhanə oldu. O bildirirdi ki, Osmanlı ərazisinə qoşunla girməmək barədə söz vermişdir. Amma Osmanlı sarayı əsirlərə qarşı belə münasibəti ilə bu əhdi artıq pozmuşdur (311).

Nadir şah Dağıstan yürüşündə olarkən onun yanına Osmanlı sarayının iki elçiliyi gəldi. Birinci elçilik onun yanında 1742-ci ilin yanvarında oldu. Elçiliyin tərkibinə Münif əfəndi ilə Nəzif Mustafa əfəndi daxil idi. Onları Nadir şahın İstanbula göndərilmiş elçisi Hacı xan Çeşmgəzək müşayiət edirdi. Nümayəndə heyəti qiymətli hədiyyələrlə bərabər, Osmanı sarayının məktubunu da Nadir şaha çatdırdı. Nadir şah yenə də Osmanlı sarayından məzhəb məsələləri ilə bağlı təkliflərinə mənfi cavab aldı. Osmanlı sultanı Cəfəri məzhəbini tanımaqdan imtina etdiyi üçün Nadir şah onun adına yeni bir məktubun hazırlaması haqqında göstəriş verdi. Nadir şah bildirirdi ki, irəli sürülən təkliflər qəbul edilərsə iki dövlət arasında birlik yarana bilər. Nadir şaha görə irəli sürülən təkliflər müsəlmanların vəziyyətinin yaxşılaşmasına xidmət edərdi. Onun fikrincə, Osmanlı sultanı islamiyyətin xəlifəsi kimi bu məsələyə diqqətlə yanaşmalı idi. Nadir şah onu da bildirirdi ki, irəli sürülən şərtlər qəbul edilmədiyi təqdirdə əvvəllər verdiyi vədlərə uyğun olaraq həmin ölkənin sərhədlərinə doğru hərəkət etməli olacaqdır. Nadir şah əminliyini bildirirdi ki Osmanlı əra-

zilərinə daxil olduqdan sonra Osmanlı sarayı onu qonaqpərvərliklə qarşılayacaqdır (312).

Məktubunun sonuncu cümləsində Nadir şahın istehzası aydınca duyulmaqdadır.“Qonaqpərvərlik” ifadəsi ilə Nadir şah əslində Osmanlı sarayına meydan oxuyurdu. Yəni, Nadir şahda artıq Osmanlı sarayı ilə yeni müharibə planları formalaşmaqda idi.Dağıstan yürüşünün uzanması onun bu niyyətinin həyata keçirilməsini xeyli ləngitdi.

Nadir şahın yeni müharibəyə başlamaq ehtimalı Osmanlı sarayının nigarançılığını artırdı. Çünki Nadir şah başlayacağı yeni müharibə ilə Osmanlı dövlətindən yeni əraziləri qopara və Osmanlı dövlətinin nüfuzuna yeni bir zərbə vura bilərdi.

Nadir şahın növbəti məktubunu alan Osmanlı elçiliyi bir müddətdən sonra yenidən İstanbula üz tutdu. Açıq təhdidlərə baxmayaraq Osmanlı sarayı öz mövqeyindən dönmədi və Osmanlı dövlətinin mövqeyini özündə əks etdirən məktubunu növbəti elçilik 1743-cü ilin əvvəlində Nadir şaha çatdırdı. Osmanlı sarayı Cəfəri məzhəbinin təsdiq olunması barədə Nadir şahın təklifinin qəbul olunmadığına görə üzrxahlıq etdi və həmin təklifin əvəzində başqa bir təklifin irəli sürülməsi təklif olundu.Bu dəfəki cavabında da Nadir şah Osmanlı sarayını hədələməyə başladı və Osmanlı dövlətini yeni müharibəyə hazırlaşmağa çağırdı.Cavab məktubunda bildirilirdi ki, Dağıstan yürüşü başa çatan kimi Nadir şah qoşunları Osmanlı sərhədinə doğru hərəkətə başlayacaqdır (313).

Muğan düzündə qısa müddətli istirahəti başa vurandan sonra nəhayət ki, Nadir şah Osmanlı sarayına vəd etdiyi müharibəni başlamaq qərarına gəldi. Təbriz ətrafında olarkən qoşun toplanması üçün vilayət hakimlərinə göndərilən fərman tezliklə yerinə yetirildi. Fərmana əsasən vilayət hakimləri yerlərdə topladıqları qoşun dəstələrini geyimlə, libasla, at və nəqliyyat heyvanlar ilə təchiz etdilər. Yerlərdə toplanan təchizat əşyalarının toplanması üçün Kermanşahda anbar yaradıldı. Vilayətlərdən gətirilən təchizat əşyaları həmin anbara toplandı. Nadir şah eyni zamanda Kermanşahda böyük bir qalanın tikintisinə də əmr verdi (314).

Tezliklə vilayətlərdə toplanan qoşun dəstələri Nadir şahın Sənəndəc yaxınlığındakı düşərgəsinə axışdılar. Nadir şah vilayətlərdən gələn bütün dəstələrə baxış keçirdi. Amma bu baxışdan əvvəl bütün sərdarların, sərkərdələrin, tayfa başçılarının, minbaşıların, yüzbaşıların, əllibaşıların və onbaşıların toplantısını keçirdi, onlara tapşırdı ki, Osmanlı dövləti ilə müharibə aparmaq üçün üç illik ehtiyat tədarük etsinlər. Nadir şah qoşun dəstələrinə baxışı əfşar dəstəsinə baxışdan başladı.

Bütünlükdə, Nadir şah növbə ilə aşağıdakı qoşun dəstələrinə baxış keçirdi: Əbivərd, Dərgəz, Nəsa, Dərun, Quşxana, Çehçəhe, Məşhəd, Mərv, Sərəxs, Zurabad, Dərbənd, Muzdurani, Xəbuşan kürdlərinin, Nişapur bayatlarının, Səbzəvar bəğayirilərinin, Cəfəreyn, Civin dəstələrini nəzərdən keçirdi. Nadir şahın döyüş hazırlığını yoxladığı dəstələr arasında Şamlı, Herat, Hezarə, Cəmşidi, Tayməni, əbdali, gilzayi, ləzgi dəstələri, habelə Fərəhdən, Qəndəhardan, Belucistandan olan dəstələr də var idi. "Aləm Ara-ye Naderi"də bu sadalanan dəstələr Xorasan qüvvələri kimi qruplaşdırılıb və onların ümumi sayının 65 min nəfər olduğu bildirilir. Mənbə müəllifi qoşunların sayının qoşun mirzəsinin sənədlərindən götürüldüyünü qeyd edir.

Sonra Nadir şah İran İraqının tayfalarından və əhalisindən təşkil olunmuş qoşun dəstələrinə baxış keçirdi.Bu qüvvələrin ümumi sayı 45 min nəfər olmaqla İsfahan, Qum, Kaşan, Dərcəzeyn, Fərahan, Yəzd və Kermandan toplanmışdı.Həmin qüvvələrə habelə lur və bəxtiyari dəstələri də daxil idilər. 50 min nəfərlik qoşun dəstəsi isə Fars, Bəndər, Şüştər və Həvizə əhalisindən, Fili, Gərmsari və Lari dəstələrindən təşkil olunmuşdu. Təbriz, Marağa, Urmiyə, Sulduz, Soyuqbulaq, Dünbəli, Bərgüşad, Əhər, Qaradağ, Gəncə, Qarabağ, İrəvan, Tiflis və Gürcüstan, Şirvan, Şamaxı, Naxçıvan və Dağıstandan toplanan, habelə əfşar, müqəddəm, bayat, qacar, ləzgi, türkmən, dünbəli və qarabağ tayfalarından formalaşan qüvvələrdən təşkil edilən dəstənin tərkibi 65 min nəfər idi. Əlişgər, Həmədan və Kermanşahdan 25 min nəfərlik qoşun dəstəsi toplanmışdı. Xarəzx, qazax, qaraqalpaq və qıpçaq çöləndən toplanan 60 minlik qoşun dəstəsi də Nadir şah tərəfindən yoxlanıldı.Qəzni və Kabuldan başlayaraq Dehliyə qədər olan ərazilərdən Nadir şahın çağırışına cavab olaraq 70 min nəfərlik qoşun dəstəsi toplandı. Nadir şah onlara da baxış keçirdi. "Aləm Ara-ye Naderi" qoşun mirzələri olan Mirzə Bədiülzəman və Mirzə Həşimin rəsmi siyahılarına istinad edərək Nadir şahın bütünlükdə 375 min nəfərlik qoşuna baxış keçirdiyini bildirir (315).

İlk baxışdan bu rəqəm şişirdilmiş görünə bilər. Hər halda Osmanlı dövləti ilə növbəti müharibə üçün Nadir şahın hansı miqdarda qoşuna malik olması haqqında digər mənbələrdə ciddi məlumatla rastlaşmaq çətindir. Əgər doğrudan da bu rəqəm rəsmi siyahılardan götürülübsə, onda həmin qüvvələrin hamısının döyüşən qüvvə olduğunu qəbul etmək də doğru olmazdı. Bura heç şübhəsiz ki, xidmətçilər korpusu, ordubazar və qeyri-döyüş kontingenti də daxil idi. Bu kontingentin bəzi hallarda döyüşən qüvvələrdən çox olmasını nəzərə alsaq Osmanlı dövləti ilə müharibəyə toplanan qüvvələrin heyrətedici sayda olma-

dığını qəbul etmək olar.Digər tərəfdən ona da nəzər salmaq lazımdır ki, bu qüvvələrin heç də hamısı Osmanlı qoşunları ilə müharibəyə cəlb edilmədi.

Nadir şah Osmanlı qüvvələrinin nəzarəti altında olan qalaların ələ keçirilməsinin yüngülləşdirilməsi üçün qala toplarını Həmədandan Kermanşaha gətirilməsini tapşırdı. Buradan həmin toplar ehtiyac olan yerlərə göndərilməli idi. Kermanşaha doğru irəliləyərkən Nəsrulla Mirzə, Nadir şahın kiçik oğlu İmamqulu Mirzə və nəvəsi Şahrux (Rzaqulu MİrzƏnin oğlu-red.) Nadir şaha qoşuldular. "Tarix-e Cahanqoşa-ye Naderi"dəki məlumatlardan belə bir qənaətə gəlmək mümkündür ki, Nəsrulla Mirzə, İmamqulu Mirzə və Şahrux Mirzə Osmanlı dövləti ilə müharibəyə yola düşəndə Nadir şahla birlikdə olmuşlar. Həvizə yaxınlığında olarkən Bəsrəyə doğru hərəkətə başlamazdan əvvəl Nadir şah onları Həmədana geri göndərdi (316).

Osmanlı dövləti ilə müharibəyə hazırlığı başa çatdırandan və qoşunlara baxış keçirəndən sonra  Nadir şah qüvvələri ilə Leylana daxil oldu. Bu məntəqə Osmanlı qüvvələrinin nəzarəti altında olan ərazilərin yaxınlığında idi və Osmanlı mövqelərinə doğru hərəkətə də buradan başlamalı idi.Nadir şah burada öz qoşunlarını qruplaşdırdı və sonra da onlara Osmanlı ərazilərinə doğru hərəkət əmri verdi (317).

Nadir şahın öz qoşunları ilə yaxınlaşması xəbəri Osmanlı qoşunları rəhbərlərini, xüsusilə Bağdad hakimi Əhməd paşanı narahat etməyə başladı. Onun üçün aydın idi ki, Nadir şahın qarşısında dayanan vəzifələrdən biri Bağdadın ələ keçirilməsidir. Onun bu niyyətinə mane olmaq üçün Əhməd paşa öz kəndxudası Məhəmməd Ağanı bir neçə cins atla və qiymətli hədiyyələrlə Nadir şahın yanına göndərdi. Onun nəzərinə çatdırıldı ki, Bağdad hakimliyi müddətinin bitməsinə az vaxt qalmışdır və xahiş etdi ki, həmin vaxt ərzində Bağdad üzərinə hücum etməsin. Nadir şah bu xahişi qəbul etdi. O, qoşun dəstələrinə Samirəni, Hiləni, Nəcəfi və digər məntəqələri tutmağı tapşırdı. İki çay arasında yerləşən digər məntəqələrin tutulması üçün də Nadir şah müvafiq tapşırıqlar verdi. O, Qoçexan Şeyxanlı Çeşmgəzəki Bəsrə və ətrafının hakimi təyin etdi və ona tapşırdı ki, Həvizə bəylərbəyi, Şiraz, Fili, Şüştər və Dizful hakimləri ilə birlikdə Bəsrəni ələ keçirsin (318).

"Aləm Ara-ye Naderi" Nadir şahın özünün isə Osmanlı qüvvələrin nəzarəti altında olan Ərol qalası ətrafında döyüşə girməsindən xəbər verir. Bu qala iki dövlət arasındakı sərhəd xəttinə ən yaxın qala idi və onun əhalisi Nadir şaha qarşı müqavimətə qərar verdi. Qalanın müdafiə imkanlarının yaxşı olması isə onları bu addımı atmağa daha da ruhlandırdı. Nadir şah da gördü ki, qala sakinləri daha çox qala

divarlarının möhkəmliyinə arxalanırlar və ona görə topçubaşı Əmir xana tapşırıq verdi ki, gün ərzində qala divarları dağıdılsın. Bununla da qala sakinləri qala divarlarının himayəsindən məhrum ola bilərdilər. Əmir xan dərhal topları və minaatanları qala divarları boyunca düzdürdü, qala daxilinə top mərmilərinin və minaların yağışı başladı. Bu iş elə bir çevikliklə və səmərəli şəkildə aparıldı ki, qısa müddətdən sonra qala əhli fəryad çəkib Nadir şahdan aman istədi. Nadir şah da qala əhlini bağışladı. Amma qala əhlini müqavimət göstərməyə təhrik edənlər tapılıb qətlə yetirildilər. Nadir şah bir neçə gün qala ətrafında qaldı və qaladakı ərzaq ehtiyatlarından qoşunların təchizatının təkmilləşdirilməsi üçün istifadə edildi (319).

Bir müddətdən sonra Nadir şah Kərkükə doğru hərəkətə başlamaq əmri verdi. Kərkükə aparan yol kürdlərin yaşadığı ərazilərdən keçirdi. Bəzi kürd məntəqələrinin əhalisi də Nadir şaha qarşı müqavimət göstərmək fikrinə düşdü və onların silahlı dəstələri Nadir şahın marşrutu üzərinə göndərildi. Mənbələrdə olan məlumatlara görə, onların sayı elə də çox deyildi. Bu dəstələr Nadir şah qoşunlarının avanqard və mühafizə dəstələri ilə üzbəüz gəldilər. Çox da uzun sürməyən döyüşdə yerli dəstələr ağır itkilər verdilər.Yalnız bir neçə nəfər canını xilas edib Kərkük qalasına qaçdı və baş verənləri qala əhlinə çatdırdı.

Nadir şah isə qoşunları ilə 1743-cü il avqustun 5-də Kərkük qalasının iki fərsəngliyində dayanıb döyüşqabağı mövqe tutdu. Bu qala da kifayət qədər böyük müdafiə imkanlarına malik idi. Ona görə də Nadir şah qala üzərinə hücumu arxada hərəkətdə olan topların yetişəcəyi günə qədər təxirə salmalı oldu. Kermanşahda cəmlənmiş olan toplar Zəhab yolu ilə bir həftədən sonra Kərkük ətrafına çatdırıldı. Kərkük qalası üzərinə həlledici hücuma başlamaq ərəfəsində Nadir şah öz qoşunlarına bir də baxış keçirdi. Süvarilər, piyadalar, topçular döyüş geyimlərində və təchizatında Nadir şahın qarşısında düzüldülər. Alayların və dəstələrin döyüşə hazırlıq səviyyəsindən razı qalan Nadir şah bildirdi ki, Osmanlı qüvvələri ilə müharibəni çox qısa müddətdə qələbə ilə başa vurmaq niyyətindədir. Ona görə Kərkük qalasının ələ keçirilməsinə o, 2-3 gün vaxt ayırdı. Qoşun sərkərdələri və başçılar Nadir şahın səsinə səs verdilər və dərhal qala üzərinə hücuma başlamaq üçün ondan icazə istədilər. Nadir şah qala üzərinə piyada yürüşün daha çox itkilərə yol aça biləcəyini gördüyü üçün əvvəlcə artilleriya hazırlığının aparılmasına göstəriş verdi və öz qərarını qoşun başçılarına və sərkərdələrə də bəyan etdi. O, topçubaşına əmr etdi ki, topları və minaatanları qala divarları boyunca atəş mövqelərinə yerləşdirsin və qala bütün istiqamətlərdən atəşə tutulsun. Piyada qüvvələrinə də göstəriş verildi

ki, qala divarları boyunca döyüş mövqelərini tutsunlar və hücuma hazır olsunlar (320).

Birinci gün əsas diqqət artilleriyanın fəaliyyətinə yönəldildi. Topçuların sərrast atəşləri piyadaların səmərəli hücumu üçün zəmin yaratdı.Qeyd etmək lazımdır ki, həmin müddət ərzində qala qarnizonu da müqavimət göstərir və qala divarları üzərindən Nadir şah döyüşçülərinin hücumunu ləngitmək üçün mümkün vasitələrə əl atırdılar. İkinci gün isə piyadaların qala üzərinə hücumu başladı. Həmin günün döyüşləri daha gərgin keçdi. Xüsusilə, qala qarnizonunun müqaviməti, qala divarları üzərindən daş və yanar neft tökülməsi Nadir şah döyüşçülərindən daha böyük əzmkarlıq tələb edirdi. Amma top atəşlərinin qala divarlarında yaratdığı dağıntılar qala daxilindəkilərin işini xeyli çətinləşdirdi. Nadir şah döyüşçüləri yaranmış fürsətdən istifadə edib dərhal qala daxilinə nüfuz etdilər. Bununla da qalanın taleyi həll edildi. Qala əyanları döyüşün davam etdirilməsinin daha ağır nəticələrə gətirə biləcəyindən qorxub Nadir şahdan aman istədilər. Nadir şah qala əyanlarının xahişini qəbul etdi, döyüş dayandırıldı və Kərkük qalası Nadir şahın nəzarəti altına düşdü (321).

Kərkükdə olduğu zaman Nadir şah Ərbil qalasının da nəzarət altına alınması üçün bir dəstə göndərdi. Çox güman ki, bu qalanın qarnizonu müqavimət göstərməyə başladı. Çünki həmin qalanı da topların və minaatanların səmərəli fəaliyyəti ilə ələ keçirmək mümkün oldu (322).

Kərkükdə dayandığı müddətdə Nadir şah irəli sürdüyü sülh təklifləri ilə bağlı Bağdad hakimi Əhməd paşanın İstanbula göndərdiyi Məhəmməd Ağanın müsbət cavab gətirəcəyinə və bununla da döyüşün davam etdirilməsinə ehtiyac olmayacağına ümid edirdi. Amma bu ümidlər doğrulmadı. Osmanlı şeyxülislamı və üləmaları şiələrlə sülh bağlanmasını qəbul etmədilər. Onlar belə bir fitva verdilər ki, məzhəbləri islam dininə müxalif olan şiələrin öldürülməsi və əsir götürülməsi lazımdır. Osmanlı sultanı da bu fitvanı öz fərmanı ilə təsdiq etdi və Nadir şah qoşunlarının hücum təhlükəsi altında olan Mosul qarnizonuna müdafiə olunmaq əmri verildi. Osmanlı sultanı tərəfindən Hələb hakiminə də tapşırıldı ki, öz qüvvəsi ilə Mosulun müdafiəsinə yardım etsin (323).

Bu xəbəri eşidəndə Nadir şah anladı ki, qarşısına qoyduğu məqsədinə ancaq qılınc gücü ilə çata bilər. Ona görə də Nadir şah sentyabrın 3-də qoşunlarına Osmanlı qüvvələrinin ən güclü istinadgahlarından biri olan Mosul qalasına doğru hərəkət etmək əmri verdi. Qoşunların hərəkət marşrutu üzərində olan Altun körpüyə çatanda yerli əhali öz

itaətini bildirdi.Buna görə əhali nümayəndələrinə Nadir şah tərəfindən qiymətli hədiyyələr bağışlandı (324).

Bir neçə günlük hərəkətdən sonra Nadir şah qoşunları ilə Həzrət Yunisin məzarının yerləşdiyi məntəqəyə çatdı. Görünür, Nadir şah hələ də Osmanlı dövləti ilə münasibətlərin dinc yolla araşdırılacağına ümid edirdi. Yəqin elə bunun üçün idi ki, Nadir şah Mosul qalasından bir neçə üləmanı İstanbul sarayından əldə etdiyi xəbərlərin müzakirəsi üçün yanına dəvət etdi. Amma Osmanlı paşaları buna razılıq vermədilər və qalanın müdafiəsini daha da gücləndirdilər (325).

"Aləm Ara-ye Naderi"də Mosul qalasının mühasirəsindən əvvəl Osmanlı qoşun dəstəsi ilə Nadir şah dəstəsi arasında baş verən döyüş haqqında geniş məlumat mövcuddur.Həmin döyüş Nadir şah tərəfindən avanqard kimi irəli göndərilmiş 12 min nəfərlik dəstə ilə, Mosul hakimi Hüseyn paşa tərəfindən Nadir şah qoşunlarının hərəkətini əngəlləmək üçün irəli göndərilmiş 40 min nəfərlik dəstə arasında baş verdi. Nadir şah dəstəsinə onun qardaşı oğlu Əliqulu xan rəhbərlik edirdi. Osmanlı dəstəsinə isə Həsən paşa ilə Teymur paşaların rəhbərlik etdikləri bildirilir. Hüseyn paşa tərəfindən göndərilən dəstə sayca xeyli çox idi və əslində Mosul hakimi bu dəstənin fəaliyyəti ilə Nadir şah qoşunlarının zəiflədilməsi məqsədini qarşıya qoymuşdu. Hüseyn paşa fəal müdafiə taktikasından bəhrələnməyə çalışırdı və Nadir şah qoşunlarına üstün gəlməyin yolunu da çevik döyüş taktikasının tətbiqində görürdü.

Tərəflər Mürğzar dərəsi adlanan məntəqədə üz-üzə gəldilər və onlar arasında qanlı döyüş başladı. Əliqulu xan güman etmirdi ki, belə böyük saylı bir dəstə ilə qarşılaşa bilər. Ona görə də qüvvələr fərqi döyüşün gərginliyini daha da artırdı. Elə döyüşün başlanğıcında Osmanlı dəstəsinin qüvvə üstünlüyü aşkarlandı. Əliqulu xan 3 min nəfərlik dəstəyə tapşırdı ki, bütün qüvvəsindən istifadə edib osmanlıların irəliləməsinə imkan verməsin. Min nəfərlik başqa bir dəstəni də döyüş meydanında saxlayan Əliqulu xan qalan qüvvələrlə yaxınlıqdakı yüksəkliklərdən birinin üstünə qalxıb orada səngərləndi. Müdafiənin gücləndirilməsi üçün daşlardan bir hasar və ya daldalanacaq düzəldildi. Eyni zamanda bir neçə süvari Nadir şahın yanına göndərildi ki, baş verən döyüş haqqında ona məlumat çatdırılsın (326).

Əliqulu xan tabeliyində olan az saylı dəstəsi ilə bütün günü Osmanlı qüvvələrinə müqavimət göstərdi. İtkilər verilməsinə baxmayaraq dəstə dözümlülük və iradə nümayiş etdirdi, Osmanlı dəstəsinin bütün cəhdlərinin qarşısı alındı və təslim olmadı. Səhəri gün qarşı tərəflər arasındakı döyüş əvvəlki gərginliklə davam etdi. Əliqulu xan

hətta bütün dəstəsi ilə səngərləndiyi yüksəklikdən aşağı enib osmanlılarla əlbəyaxa döyüşə girdi.Nisbət etibarilə kiçik olan bu dəstə Osmanlı qüvvələri tərəfindən əhatəyə alındı. Göstərdiyi bütün əzmkarlığa baxmayaraq, Əliqulu xanın dəstəsini məhv olmaqdan yalnız əlavə köməyin gəlməsi xilas edə bildi. Tezliklə belə bir kömək yetişdi. Əliqulu xanın çaparlarının gətirdiyi xəbəri eşidən kimi Nadir şah oğlu Nəsrulla Mirzənin rəhbərliyi altında 12 min nəfərlik Turan dəstəsini Əliqulu xanın yardımına göndərdi. Bu dəstənin yetişməsi döyüş meydanında vəziyyəti xeyli dəyişdi.Həsən paşa ilə Teymur paşa yaxınlaşmaqda olan dəstənin zərbəsinin qarşısını almaq üçün döyüş meydanında yeni mövqelər tutdular.Bütün Osmanlı qüvvələri bir istiqamətə cəmləşdirildi. Bu mövqe dəyişikliyi Nadir şah qüvvələrini də uyğun taktika seçilməsinə sövq etdi. Bu zaman çavuşların "soldan sağa dolanın" fəryadları bütün dəstələrə ötürüldü və Osmanlı qüvvələrinin sağ cinahı əsas zərbə hədəfi seçildi. Qətiyyətli hücuma keçmiş 4 min nəfərlik Nadir şah dəstəsi qısa müddət ərzində Osmanlı qüvvələrinin ilk xəttini yarmağa müvəffəq oldu, ikinci xəttə isə həyəcanlı anlar yaşatdı. Nadir şah qüvvələrinin belə sürətli hücumu və ilk döyüş xətlərinin yarılması Osmanlı qüvvələri içərisində vahimə yaratdı və həmin vahimə az sonra onların geri çəkilməsi ilə nəticələndi (327).

Oğlu Nəsrulla Mirzəni Əliqulu xanın köməyinə yola salandan sonra Nadir şah özü də döyüşün baş verdiyi məntəqəyə doğru istiqamət götürdü. Çox güman ki, Nadir şah oğlunun çoxsaylı Osmanlı qoşunu qarşısında çətin vəziyyətə düşə biləcəyindən ehtiyat edirdi. O, döyüş meydanına yetişəndə artıq hər şey geridə qalmışdı.Yaxınlıqdakı yüksəkliklərin birinin üzərindən geri çəkilən Osmanlı qüvvələrinin sayını müşahidə edəndə Nadir şah gözlərinə inanmadı. Həmin qüvvələrin məhz Nəsrulla Mirzənin qarşısında duruş gətirə bilməyib qaçmasına görə oğlu ilə bağlı daxili bir qürur keçirdi. Nadir şah atdan yerə düşüb göylərə əl qaldırdı.Həm bu qələbənin əldə edilməsinə görə, həm də Nəsrulla Mirzənin döyüş meydanında göstərdiyi şücaətə görə Allaha şükürlər etdi. Dualarını bitirəndən sonra Nadir şah Nəsrulla Mirzədən döyüşün təfərrüatını öyrəndi (328).

Nadir şah qardaşı oğlu Əliqulunun igidliyini və döyüşgənliyini də eyni rəğbətlə təqdir etdi. Döyüş meydanını tərk edib geri çəkilən Osmanlı qüvvələrindən əldə edilmiş bütün qənimət Nəsrulla Mirzənin və Əliqulu xanın dəstəsinin döyüşçülərinə paylandı. Qoşunlar iki gün həmin məntəqədə qaldılar və qısa istirahətlə bərabər Mosul ətrafında əldə edilmiş qələbə də bayram edildi. Sonra Nadir şah qoşunlarla birlikdə Mosula doğru hərəkətini davam etdirdi (329).

Mosul hakimi göndərdiyi dəstənin uğursuzluğu xəbərini eşidəndən sonra əsas diqqətini qalanın möhkəmləndirilməsinə yönəltdi.Qala divarları ətrafında xəndəklər qazıldı, giriş-çıxış qapıları bağlandı, qarnizon döyüş hazırlığı vəziyyətinə gətirildi.Qala bürclərinə toplar və tüfəngdarlar yerləşdirildi.Nadir şah qalaya yaxınlaşandan sonra onun mühasirəyə alınmasına göstəriş verdi. Hündür və möhkəm qala divarlarının artilleriya ilə dağıdılması elə də asan olmadığı üçün mühasirə uzanmağa başladı. Nadir şah əmr etdi ki, qalaya gətirən və aparan yollar tamamilə bağlansın, kiminsə qalaya daxil olmasına və ya qaladan çıxmasına imkan verilməsin (330).

Mövcud olan məlumatlara görə, Nadir şah Mosul qalası ətrafında 160 ədəd top və 230 ədəd minaatan yerləşdirdi və sentyabr ayının 27-dən etibarən qala aramsız atəşlərə tutuldu.Artilleriyanın fəaliyyəti tüfəngdarların atəşi ilə müşayiət olunurdu.Aramsız atəşlərin qala divarlarında yaratdığı dağıntılar qala müdafiəçiləri tərəfindən bərpa olunurdu. Qala divarları altına atılan lağımlar da elə bir nəticə vermədi (331).

Qalanın mühasirəsinin uzanmasını görəndə Nadir şah bir daha onu şəxsən müşahidədən keçirdi və qala divarlarının müdafiə imkanlarını götür-qoy etdi. Topçulara və tüfəngdarlara göstəriş verdi ki, atəş sürəti artırılsın və elə bir vəziyyət yaradılsın ki, qala bürclərində və divarlar üzərində mövqe tutan Osmanlı döyüşçüləri başlarını qaldırmağa imkan tapmasınlar. Lağımçılar da bundan istifadə edərək daha təhlükəsiz şəraitdə öz işlərini görsünlər və qala daxilinə nüfuz etmək üçün yollar açsınlar.Tezliklə bu əmrin yerinə yetirilməsinə başlandı. Əliqulu xanın yerləşdiyi mövqe ilə üzbəüz olan möhkəm bürclərdən birinin özülünün qazılmasına başlandı. Əliqulu xan da göstəriş verdi ki, qarşıdakı bürcdə dağıntılar yaranan kimi sürətli hücumla qala üzərinə hərəkət başlansın. Belə də edildi. Lağımçıların səyləri ilə qala divarlarında dağıntılar yaranan kimi sürətli hücum başlandı. Nadir şah qala divarları ətrafına dövrə vurarkən şimal tərəfdəki divarlarda da dağıntıların yarandığını müşahidə etdi.Bu istiqamətdən də hücumu gücləndirmək olardı. Amma Nadir şah onu da müşahidə etdi ki, qala daxilində yerləşən 30-40 minlik Osmanlı qüvvəsinin qala divarlarına sığınaraq tüfəng və toplardan açdığı atəş ciddi itkilər yarada bilər. Həmin itkilərdən qaçmaq üçün Nadir şah hücumu dayandırmağı əmr etdi. Bu əmrə əsasən irəliyə atılan döyüşçülər geri çəkildilər. "Aləm Ara-ye Naderi"nin məlumatına görə, qala üzərinə təşkil edilən bu yürüşdə 5-6 min nəfər Nadir şah döyüşçüsü həlak olsa da, hücumu dayandırmaq əmri verilməsəydi qala ələ keçirilə bilərdi (332).

Bununla belə, Nadir şah qalanın ələ keçirilməsindən heç də geri çəkilmədi.Onun tapşırığı ilə qala divarları ətrafında üç yüz ədəd mina-atan və üç yüz də mancanaq yerləşdirildi. Bu silahlar vasitəsilə üç gün və üç gecə ərzində 14 min mina və çoxlu sayda daş parçaları qala daxilinə atıldı. Nəticədə qala daxilində çoxlu dağıntılar yarandı (333).

Həm "Tarix-e Cahanqoşa-ye Naderi", həm də "Aləm Ara-ye Naderi" qaladakı Osmanlı paşalarının və qala sakinlərinin baş verən dağıntıların nəticəsi kimi Nadir şahın yanına nümayəndələr göndərdiyini və ondan aman istədiklərini xəbər verirlər (334). Nadir şah tarixinin tədqiqatçılarından olan L.Lokkart isə nədənsə bu məlumatlarla razılaşmadığını yazır və qala rəhbərliyinin deyil, Nadir şahın danışıqlar üçün qala rəhbərliyinə müraciət etdiyini bildirir. Guya Mosul hakimi Hüseyn paşa da əvvəlcə danışıqlardan imtina etmiş, amma sonradan qarşılıqlı danışıqlar aparılmasına razılıq vermişdi. (335).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Mosul hakimi bir neçə üləmanı və hörmətli şəxsləri qiymətli hədiyyələrlə Nadir şahın yanına göndərdi və ondan aman istədi ki, Osmanlı sarayına elçilər göndərib qalanın təslim edilməsi haqqında məsələ qaldırsın. Nadir şah bu təklifi qəbul etdi və Mosul hakimi də Mosul qazısını, müftisini bir neçə əyanın müşayiəti ilə İstanbula yola saldı. Elə həmin vaxtlarda Bağdad hakimi Əhməd paşanın İstanbula göndərdiyi nümayəndəsi xəbər gətirdi ki, Osmanlı sultanı dostluq münasibətlərini pozmuş Nadir şahın sərhədləri keçməsindən narazıdır. Osmanlı sultanı tərəfindən belə bir fikir də irəli sürüldü ki, əgər Nadir şah qoşunları geri çəkərsə və əvvəlki beş təklifi üzərində təkid etməzsə sülh danışıqları bərpa edilə bilər. Əhməd paşaya da belə bir danışıqların aparılması səlahiyyəti verilirdi. Mənbədə o da bildirilir ki, bu xəbəri eşidəndən sonra Nadir şah Kərkükə və oradan da Qaratəpəyə yollandı.Bu səfərdə onun məqsədi müqəddəs yerlərin ziyarət edilməsi idi. Qaratəpədə olarkən şəhər hakimi Süleyman bəy, Bağdad hakimi Əhməd paşanın kəndxudası Məhəmməd ağa və digər bir neçə əyan Əhməd paşanın bahalı hədiyyələri ilə Nadir şahın görüşünə gəldilər. Həmin görüşdən sonra Məhəmməd ağa sülh təklifləri ilə yenidən Osmanlı sarayına yola düşdü. Bundan sonra Nadir şah qoşunları Qaratəpədə saxlayıb öz qvardiyası ilə Kazımeynə yollandı və orada İmam Musa əl Kazımın və İmam Məhəmməd Tağının məqbərələrini ziyarət etdi. Sonra Əhməd paşanın verdiyi gəmidə Dəclə çayını adlayıb Əbu Hənifənin qəbrini ziyarət etdi. Səhəri isə Hilə yolu ilə Nəcəfə yollandı (336).

"Aləm Ara-ye Naderi"yə görə, çıxış yolunun qalmadığını görəndə Mosul hakimi Hüseyn paşa topçubaşını və bir neçə sərkərdəni qiy-

mətli hədiyylərlə Nadir şanın yanına barışığa göndərdi. Hüseyn paşa elçisi vasitəsilə Nadirə müti olduğunu, amma eyni zamanda qalanın təhvil verilməsinin təxirə salınmasını xahiş etdi. Nadir şah onun elçilərini ehtiramla qarşıladı və Mosul qarnizonundan onun üçün hər hansı bir təhlükə olmadığını görüb Hüseyn paşanın xahişini qəbul etdi. Bununla da Nadir şah qoşunları Mosula daxil olmadılar (337).

"Aləm Ara-ye Naderi" Nadir şahın Hüseyn paşanın qızına elçi göndərməsindən və Hüseyn paşanın da Nadir şahın elçilərinə müsbət cavab verməsindən xəbər verir. Əgər L.Lokkartın yazdığı kimi olsaydı və Hüseyn paşanın Nadir şahın döyüşü dayandırmaq təklifinə iddialı yanaşması doğru olsaydı, onda Hüseyn paşa qızını heç Nadir şaha da verməzdi. Hüseyn paşanın öz qızını Nadir şaha verməsi onun Mosul döyüşündə məğlub durumda olmasından xəbər verir. Mənbəyə görə, qızının vasitəsilə Hüseyn paşa Nadir şaha bir sıra xahişlərini də çatdırdı. Hüseyn paşa istəyirdi ki, onun Nadir şahın hüzuruna gəlməməsini hörmətsizlik kimi qəbul etməsin. Hüseyn paşa bildirirdi ki, ömrü boyu Osmanlı sultanına üzüağ xidmət göstərmişdir. İxtiyar yaşında aman istəmək üçün Nadir şahın hüzuruna getməsi ona bütün Osmanlı əhlinin tənə və lənətlərini qazandıra bilər. Hüseyn paşa əmin edirdi ki, Nadir şah onun tərəfdən xatircəm ola bilər. Nadir şah Hüseyn paşanın xahişini qəbul etdi və onu arxayın etdi ki, Mosula girmədən Bağdada doğru hərəkətə başlayacaqdır.Mənbə müəllifi müxtəlif şəxslərdən eşitdiklərinə əsasən onu da əlavə edir ki, qarşılıqlı razılaşma əldə etmələrinə baxmayaraq Hüseyn paşa bir gecə gizli şəkildə Nadir şahın düşərgəsinə gəlib onunla görüşdü, bir sıra məsələləri və gizli mətləbləri onunla bölüşdü. Nadir şah da verdiyi sözə əməl edərək Mosul ətrafında dayanmayıb Bağdada doğru hərəkət əmri verdi (338).

Nadir şah Bağdad ətrafında da çox dayanmadı. Yuxarıda xatırlanan müqəddəs yerləri ziyarət edəndən sonra Nadir şah 1743-cü il noyabr ayının sonunda Nəcəfə gəldi. Burada müqəddəs yerləri ziyarət etməklə bərabər, üləmaların Nəcəf iclasını təşkil etdi. Bu iclasın təşkilində də əsas məqsəd yenə də Osmanlı dövləti ilə qarşılıqlı anlaşmanın tapılmasına cəhd göstərilməsi idi. İclasın əldə etdiyi qərar Nadir şahın məzhəb islahatına toxunurdu (Bu barədə aşağıda danışılacaqdır-red.). Sonra Nadir şah yenə Bağdada qayıtdı.

Bağdad ətrafında Nadir şah bu şəhərin hakimi Əhməd paşa tərəfindən ehtiramla qarşılandı. "Aləm Ara-ye Naderi" Nadir şahla Əhməd paşanın Bağdad ətrafındakı görüşü və onlar arasında aparılan danışıqlar haqqında məlumat vermir. "Tarix-e Cahanqoşa-ye Naderi" isə ötəri olaraq bu görüşə toxunur və sonra da onlar arasında razılaşma əldə

edildiyini bildirir.Həmin razılaşma haqqında mənbədə heç bir məlumat verilmir. Amma Nadir şahın sonrakı qərarından bu razılaşmanın bəzi məqamlarını aydınlaşdırmaq mümkündür. Razılaşma əldə edilən kimi Bəsrənin mühasirəsinə son qoyuldu və Nadir şah qoşunları oradan geri çəkildilər. Bundan sonra qərara alındı ki, Kərkük, Ərbil, Qərnə və digər fəth edilmiş qalalar boşaldılsın və Əhməd paşaya təhvil verilsin (339).

Bu razılaşma 1743-cü il dekabr ayının birinci ongünlüyündə baş verdi və onun əldə edilməsindən sonra Nadir şah Bağdadı tərk edib Həmədana doğru üz tutdu.Nadir şahın nədən belə bir razılaşmaya getməsini və fəth etdiyi qalaları da qarşılığını almadan Osmanlı qüvvələrinə təhvil verib geri çəkildiyini dəqiqliyi ilə söyləmək çətindir. Tədqiqatçılar bunu ölkə daxilində qiyamların kütləvi miqyas alması və Nadir şahın da əsas diqqətinin məhz qiyamların yatırılmasına istiqamətlənməsi ilə izah edirlər. Belə bir fikir ortaya atılmışdır ki, Nadir şah razılaşmanın təsdiqinə çalışmaqla ölkə daxili qiyamların yatırılmasına vaxt udmaq istəyirdi. Həmin qiyamlar yatırılandan sonra isə Nadir şah bütün qüvvəsini səfərbərliyə alaraq yenidən Osmanlı dövləti ilə müharibəyə girə bilərdi (340).

Bu ehtimalı kənara qoymaq düzgün olmazdı. Doğrudan da, ölkə daxilində Nadir şaha qarşı qiyamlar geniş miqyas aldı. Farsda, Astrabadda, Xoyda, Xarəzmdə, Dağıstanda baş qaldıran qiyamlar daha kütləvi qiyamlar idi. Amma Nadir şah qoşunları ilə bir neçə ay Həmədan yaxınlığında dayandı və hətta 1744-cü ilin Novruzunu da orada keçirdi. Ölkənin bir çox məntəqələrində baş qaldıran qiyamların yatırılmasına o öz sərkərdələrini ezam etdi. Onun bir neçə ay Osmanlı sərhədinə yaxın olan Həmədanda qalmasını və qoşunların əsas hissəsini də ətrafında saxlamasını tədqiqatçılar Nadir şahın tezliklə Osmanlı dövləti ilə müharibəyə başlamaq niyyəti ilə əlaqələndirirlər.

Nadir şah Həmədan ətrafında olarkən müəyyən ümidlə Osmanlı sarayının onunla razılaşmaya gələ biləcəyi xəbərini gözləyirdi. Amma Nadir şah belə bir xəbər almadı. O, İrəvan hakiminə fərman göndərdi ki, vilayət hüdudlarından kənara çıxmasınlar, Osmanlı sərhədini aşmasınlar, yanlarında olan Osmanlı əsirlərini azad etsinlər. Nadir şahın tapşırığına əsasən İrəvan hakimi hətta Qars hakimi Əhməd paşa ilə yaxın münasibətlər yaratmağa çalışmalı idi. Lakin İrəvan hakimindən aldığı məktubda Qars paşası cavab verdi ki, sülh danışıqları və razılaşmaları haqqında onda heç bir məlumat yoxdur və Osmanlı dövləti tərəfindən tapşırıq alıb ki, özünü Səfəvi xanədanının varisi olduğunu iddia edən və Osmanlı sarayı tərəfindən müdafiə olunan Səfi Mirzəni

İran taxtına əyləşdirsin. Bu məlumat Nadir şahı çox qəzəbləndirdi və Nadir şahı məcbur etdi ki, qoşunu ilə Qarsa doğru hərəkətə başlasın. Qars paşasına da xəbər göndərildi ki, qonaq qarşılanmasına hazırlaşsın. Çünki tezliklə Nadir şah onun və Səfi Mirzənin qonağı olacaqdır (341).

Qars paşası Əhməd paşa Camaloğlunun iddialı bəyanat verməsi heç də təsadüfi deyildi. Osmanlı sarayı Nadir şah tərəfindən mövcud olan təhdidlərin aradan qaldırılmasında və ona ağır zərbə vurulmasında Əhməd paşa Camaloğluna böyük ümidlər bağlayırdı. Nadir şahın isə təkrar-təkrar sülh təklifləri Osmanlı sarayında mövcud olan nigarançılığı heç də aradan qaldırmırdı. Osmanlı sarayı Nadir şahla sülh bağlamaq əvəzinə, Nadir şah təhlükəsini birdəfəlik aradan qaldırmağa çalışırdı. Mənbələrə görə, bu məqsədlə Osmanlı sarayı Əhməd paşa Camaloğlunun ixtiyarına 70 minlik bir qoşun dəstəsi vermişdi və ona tapşırılmışdı ki, əgər Nadir şah tərəfindən Osmanlı sərhədlərinə yeni bir təhlükə yaranarsa, dərhal Azərbaycana daxil olub qətl və qarətlə məşğul olsun və Nadir şah qoşunlarının məhvinə cəhd göstərilsin (342).

Bir sıra vilayətlərdə qiyamların baş verməsini, xüsusilə Nadir şahın Mosul və Bağdaddan geri çəkilməsini Qars hakimi Nadir şahın zəifliyi və onun artıq hərbi yürüşlərini qələbə ilə başa çatdırmağa qadir olmaması kimi qiymətləndirdi. O da belə güman edirdi ki, ölkə daxilində qarışıqlığın yarandığı bir vaxtda Səfəvi xanədanının nümayəndələrindən birini taxta çıxarmaq mümkündür.Belə olduğu təqdirdə isə Osmanlı dövləti ilə İran arasındakı əvvəlki münasibətlər yenidən bərpa olunar və hətta Azərbaycan da yenidən Osmanlı dövlətinin işğalı altına düşə bilər. Ona görə də Osmanlı sarayının təkidi ilə Əhməd paşa da Səfi Mirzə məsələsinin yenidən aktuallaşmasını müdafiə edirdi.

Səfi Mirzə adı altında taxt-taca iddia edən və Osmanlı sarayı tərəfindən müdafiə olunan şəxs əslində Kermanın Rəfsəncan məntəqəsindən olan Məhəmmədəli adlı birisi idi. Hələ gilzayi əfqanlarının İsfahanda hakimliyi zamanı Məhəmmədəli dərviş libasında şəhərləri gəzirdi.Yuxarıda da qeyd edildiyi kimi, əhali arasında Səfəvi xanədanına bir rəğbət və nisgil qalmaqda idi. Xüsusən, Səfəvi xanədanının üzvlərinin qətlə yetirilməsi camaat arasında böyük nigarançılıqla qarşılandı və xanədan üzvləri səmimiyyətlə xatırlanırdı. Məhəmmədəli Şüştərdə olarkən bəziləri onu gözlərindən Səfi Mirzəyə oxşatdılar. Məhəmmədəli də adamların sözündən tutub özün Səfi Mirzə elan etdi. Söhbət ətrafa yayılanda Şüştər hakimi onu tutdurub tənbih etdirdi, söylədiklərinə ciddi fikir verməsini tələb etdi. Məhəmmədəli də bu tənbihdən

qorxuya düşüb Şüştərdən qaçdı, Bəsrədən keçib Bağdada gəldi. Amma yenə iddialarından əl çəkmədi. Orada da özünü Səfəvi xanədanının şahzadəsi elan etdi. Bu məsələ Osmanlı sarayında maraqla qarşılandı. Səfəvi şahzadəsinin Osmanlı dövlətinə pənah gətirməsi adı altında Məhəmmədəliyə dəstək verildi. Hətta o, rəsmən Səfəvi şahzadəsi kimi qəbul edildi və İstanbul sarayına dəvət olundu. Osmanlı sarayı ona xüsusi mehmandar təyin edib Üsküdarda yer verdi. Nəhayət, 1744- cü ildə Osmanlı sarayı onu Qarslı Əhməd paşaya qoşdu və ona çox tezliklə Səfəvi taxtına oturacağı barədə vəd verildi. Mənbələrin verdiyi məlumata görə, hətta Azərbaycanda da bir para insanlar ona qoşuldular və Səfəvi şahzadəsi kimi onun xidmətində dayanmağa hazır olduqlarını bildirdilər (343).

Səfi Mirzə iddiasında olan Məhəmmədəli də Azərbaycanın, İraqın (İran), İsfahanın sərkərdələrinə və tayfa başçılarına məktublar göndərərək onları yanına çağırdı və onlardan hakimiyyətə olan iddiasının müdafiə olunmasını istədi.Onlara çatdırdı ki, hakimiyyətə haqqı olmayan bir kişicik Xorasandan baş qaldırıb əcdadlarımızdan miras qalmış taxt-tacımızı ələ keçirmişdir və yaxın zamanlarda bu çörəkitirənin dərsi verilməlidir.

Nadir şah hələ Həmədanda olarkən Məhəmmədəli tərəfindən vilayətlərə göndərilən məktubların məzmunundan xəbərdar oldu. O bu məktubların məzmunundan xeyli qəzəbləndi və dərhal Əbhərə doğru hərəkətə başladı. Xarici müşahidəçilərin verdiyi məlumata görə, bu zaman Nadir şahın yanında 30 minlik qoşun dəstəsi var idi. Xidmət personalı və ordubazarla birlikdə bu dəstənin bütünlükdə sayının üç dəfə çox olduğu bildirilir. Ölkə daxilində qiyamlar qalxdığı üçün Nadir şah da qoşunlarını dəstələrə bölərək müxtəlif vilayətlərə göndərmişdi. Məsələn, həmin vaxt Şirvanda 30 minlik bir dəstə var idi, 25 minlik bir dəstə Şirazda idi. İrəvanda, Xorasanda və Hind çayı sahillərində də böyük qoşun dəstələri var idi (344).

Əbhərdə olarkən Nadir şah ölkə taxt-tacına iddia edən Sam Mirzə adlı başqa birisinin də Şirvanda qiyam qaldırmasını və onun Gürcüstan hakimi tərəfindən həbs edilməsini eşitdi. Sam Mirzənin qiyamı da əslində Osmanlı sarayı tərəfindən müdafiə olunurdu və artıq birinci dəfə deyildi ki, qiyam qaldırırdı. Amma Şirvanda və Dağıstanda ümidində olduğu nəticələrə çata bilməyəndə Sam Mirzə Gürcüstana qaçdı. Onun orada da qiyam qaldırmaq cəhdi bir nəticə vermədi. Nadir şahın əmri ilə Gürcüstanda həbs olunan Sam Mirzənin bir gözü çıxarıldı və sonra Qarsa, Əhməd paşanın yanına göndərildi. Nadir şah belə bir xəbər də göndərdi ki, qoy yalançı iddiaçılar bir-biri ilə görüşmək im-

kanı əldə etsinlər. Mənbələrdə olan məlumata görə, Sam Mirzə yolda ikən dünyasını dəyişdi və heç Qarsa yetişmədi (345).

Nadir şah Əbhərdə olarkən oranın maliyyə işləri ilə maraqlandı, vergilərin toplanmasında nöqsanların olduğunu müəyyənləşdirdi və günahkar şəxsləri cəzalandırdı.

Mənbələrin verdiyi məlumata görə, Nadir şahın fərmanları, onun şəxsiyyəti və fəaliyyəti ilə bağlı məlumatlar Osmanlı sarayına çatdırılanda orada bir daha belə bir qənaət ifadə olundu ki, Nadir şah böyük bir şəxsiyyətdir. Qars hakimi Əhməd paşa və ya ortaya atılmış olan Səfi Mirzə hərəkatı Nadir şahın iradəsini qırmağa qadir deyildir. Bununla belə, Osmanlı sarayı Səfi Mirzə oyunundan geri çəkilmədi, Nadir şahın zəiflədilməsi üçün Qars qarnizonu daha da möhkəmləndirildi (346).

Nadir şah öz yolunu Təbrizdən saldı və eyni zamanda oğlu Nəsrulla Mirzəni də yanına çağıraraq onunla birlikdə yolunu davam etdi. Mənbələrdə Nadir şahın Qoridə olmasından da xəbər verilir. Qeyd etmək lazımdır ki, Nadir şahın Səfi Mirzə oyunları ilə bağlı Qarsa doğru irəliləməsi haqqında "Tarix-e Cahanqoşa-ye Naderi"də yazılanlar eyni ilə "Aləm Ara-ye Naderi"də də təkrar olunmuşdur. Ona görə Qarsa yollanmamışdan əvvəl onun Qoridə olması bu mənbələrin hər ikisində təsbit olunub. Amma elə bu mənbələrdə daha sonra göstərilir ki, Nadir şah qoşunu ilə Naxçıvandan keçərək Göyçə yaylağına gəldi və sonra Arpaçayın 6 fərsəngliyində olan bir ərazidə düşərgə saldı (347). Nadir şah qoşunların yüklərini və təchizatını orada qoyub 1744-cü il iyulun 30-da Qarsa yetişdi və onun əmri ilə Qars mühasirəyə alındı. Bir müddətdən sonra arxada buraxılmış olan yüklər və təchizat da Qars ətrafına gətirildi. Qars paşası Əhməd paşa Nadir şahla qala kənarında döyüşə girməyə qərar verdi və qoşunu ilə qaladan kənara çıxdı. Tərəflər arasında gərgin bir döyüş baş verdi. Əhməd paşa Nadir şah qoşunlarından qorxmadığını və hətta onu qaladan kənarda qarşılamağa qadir olduğunu nümayiş etdirməyə çalışsa da ümid etdiyi nəticəyə nail ola bilmədi. Osmanlı qüvvələri Nadir şah qoşunları qarşısında taqət gətirməyib geriyə üz tutdular. Birinci qarşılaşmadan sonra daha bir neçə dəfə Əhməd paşa qala kənarında Nadir şahla döyüşə girdi. Amma hər dəfə uğursuzluğa düçar olub qala daxilinə çəkilməli oldu. Əhməd paşa anladı ki, qüvvə üstünlüyünə malik olsa belə açıq döyüşdə Nadir şahın müqavimətini qıra bilməyəcəkdir. Belə olanda qoşunlar qala daxilində müdafiə mövqelərində yerləşdirildilər.Nadir şah da qala mühasirəsinə girişmək zəruriyyətində qaldığını gördü. Ona görə də qala ətrafında səngərlər qazıldı və artilleriya qala divarları dövrəsincə yerləş-

dirildi. Mənbələrin məlumatına görə, qala divarları arasında məhdudlanmaların və mühasirənin uzun sürməsi Osmanlı döyüşçüləri arasında narazılıq və fərariliyi artırdı (348).

Osmanlı sarayının göstərişi əsasında Qarsa yardıma gəlmiş dağıstanlı Əhməd Cığatay da Nadir şahla döyüşə girməyin mənasız olduğunu anladı və günlərin birində fürsət tapan kimi dəstəsi ilə birlikdə qaladan çıxıb qaçdı. Nadir şah sərkərdələri gecəliklə qaçmağa çalışan dağıstanlıları bir müddət təqib edib geri qayıtdılar. Nəhayət, iddialı Əhməd paşa da Nadir şahla döyüşün aparılmasının ümidində olduğu nəticəni verməyəcəyini görüncə onunla danışığa girməyə məcbur oldu. Əhməd paşa bir neçə nüfuzlu şəxsi Nadir şahın yanına göndərdi və ona xəbər çatdırdı ki, Qars qalasının təslim edilməsi üçün Osmanlı sarayının razılığı çatana qədər hücumlarını təxirə salsın. Nadir şah əvvəlcə bu təklifi qəbul etmədi. Osmanlı nümayəndələri bir neçə dəfə gəlib-gedəndən sonra nəhayət Nadir şah həmin təkliflə razılaşdı. Belə olanda Əhməd paşa öz nümayəndələrini İstanbul sarayına yola saldı ki, vəziyyətlə bağlı ora ətraflı məlumat çatdırsın (349).

Nadir şaha bu qərarı qəbul etməyə sövq edən amillərdən biri də qışın yaxınlaşması və havaların soyumaqda olması idi. Qars ətrafında qoşunların azuqə və yeməklə təchiz edilməsi çox çətin idi. Ona görə də 1744-cü il oktyabrın 9-da Nadir şah Qars qalasının mühasirəsinə son qoyub Axısqa və Ahalkələk istiqamətinə yola düşdü. Nadir şah bir neçə gün azuqə ehtiyatları bol olan bu məntəqədə dayandı və həmin müddət ərzində qoşunların ərzaq ehtiyatını xeyli təkmilləşdirdi. Amma Nadir şah qışı keçirmək üçün Bərdəni daha münasib saydı. Ona görə Gürcüstan ərazisində olarkən qışlaq düşərgəsinin yaradılması üçün Bərdəyə xüsusi bir dəstə göndərdi.Dəstəyə tapşırıldı ki, düşərgənin salınması üçün su ehtiyatları bol olan bir ərazi seçilsin. Qoşunlar gələn vaxta qədər dəstə düşərgə ərazisində bir neçə min müvəqqəti evlər və alaçıqlar ağac və qamışdan düzəldilməli idi. Düşərgədə görüləsi işlər başa çatdıqdan sonra Nadir şah qoşunları ilə Ağcaqala-Qazax-Gəncə-Bərdə marşrutu üzrə qışlaq düşərgəsinə gəldi (350).

"Tarix-e Cahanqoşa-ye Naderi"dən fərqli olaraq "Aləm Ara-ye Naderi"də Qarsdan hərəkət etmək ərəfəsində Nadir şaha Qars hakiminə əlavə köməyin gəlməsi ilə bağlı xəbər çatdırıldığı bildirilir. Mənbəyə görə, Həsən paşa adlı bir Osmanlı sərkərdəsinin rəhbərliyi altında olan həmin dəstə 40 min nəfərdən ibarət idi. Nadir şah bu məlumatı alan kimi oğlu Nəsrulla Mirzənin rəhbərliyi altında 14 min nəfərlik bir dəstəni həmin dəstəni qarşılamağa göndərdi.Nəsrulla Mirzə dərhal bu

tapşırığın icrasına yollandı. Mənbədəki məlumata görə, osmanlıların say üstünlüyü, həm də onların top və zənburəkə malik olması Nəsrulla Mirzənin dəstəsinin əl-qol açmasına imkan vermidi.Belə olanda Nəsrulla Mirzə dəstəsinə döyüşdən çıxmaq əmri verdi. Sonra da öz minbaşılarına və beşyüzbaşılarına tapşırdı ki, dəstəni geri çəksinlər və kənardan dövrə vuraraq Osmanlı qüvvələrinin arxasına keçsinlər. Bu taktika Nəsrulla Mirzənin dəstəsi üçün səmərəli oldu və son nəhayətdə Qarsa köməyə gələn Osmanlı dəstəsi məhv edildi (351).

Məlumdur ki, Nadir şah Bərdə düşərgəsində uzun müddət dayanmadı və 1744-cü ilin sonlarında Dağıstana doğru hərəkət etdi. O, 1745-ci ilin birinci yarısını Dağıstanda baş qaldıran qiyamların yatırılması və bu bölgənin tam itaət altına gətirilməsi ilə məşğul oldu. 1745-ci ilin yayında Nadir şahla Osmanlı qüvvələri arasında yeni bir qarşılaşma baş verdi.

Nadir şahın Qarsın mühasirəsindən əl əkməsi ilə Osmanlı sarayının sülh bağlanmasına meyl edəcəyi ümidi yenə də özünü doğrultmadı. O, Cənubi Qafqazda olduğu vaxt Osmanlı sarayı çox böyük sayda qoşun dəstələri formalaşdırdı. Müşahidəçilərin şəhadətinə görə, 1745-ci ilin əvvəlində Osmanlı sarayı Nadir şahın qarşısına çıxarılan ən böyük ordusunu təşkil etdi. Qoşunların tərkibində serblərdən, bosniyalılardan və rumınlardan təşkil edilmiş dəstələr var idi. Osmanlı sarayı elə bir böyük qoşun dəstəsi formalaşdırmışdı ki, onun vasitəsilə Nadir şaha güclü zərbə vurulacağına şübhə yeri qalmasın (352).

Osmanlı qüvvələri iki qol şəklində qruplaşdırılıb müxtəlif istiqamətlərə göndərildi. Birinci qola Osmanlı dövlətinin keçmiş sədr-əzəmi Yegən Məhəmməd paşa sərkərdəlik edirdi.Onun rəhbərliyi altında olan dəstənin tərkibində 100 min süvari və 40 min yeniçəri var idi. “Tarix-e Cahanqoşa-ye Naderi” isə Məhəmməd paşanın rəhbərlik etdiyi qoşunların 150 min piyadadan və 40 min süvaridən təşkil olunduğunu yazır. Bu dəstə Ərzrum-Qars marşrutu ilə irəliləyirdi. Mənbələrin məlumatına görə,Yegən Məhəmməd paşanın dəstəsində 10-15 min nəfər paşa var idi. Osmanlı qüvvələrinin digər qoluna isə Abdulla paşa və Ərdəlanın keçmiş bəylərbəyi Əhməd xan rəhbərlik edirdilər. Əhməd xan Nadir şah tərəfindən Ərdəlana bəylərbəyi təyin edilmişdi. Amma sonradan o, Nadir şaha itaətsizlik göstərib Osmanlıya qaçmış, Osmanlı dövlətində xidmətə başlamışdı. Nadir şaha qarşı göndərilən dəstələrin birinə də Nadir şahın əleyhdarının rəhbərliyi altına verilmişdi. Bu qol Diyarbəkir-Mosul marşrutu ilə hərəkət edib Nadir şah qüvvələrinə zərbə endirməli idi. C.Hanveyin yazdığına görə, Məhəmməd paşanın dəstəsinin tərkibində iranlılar da var idi. Osmanlılar iran-

lılardan ibarət bir dəstə yaratmağa müvəffəq olaraq onu Yegən Məhəmməd paşanın dəstəsinin tərkibinə qatdılar (353).

C.Hanveyin yazdıqlarından o da aydın olur ki, Osmanlı sarayı Nadir şahla müharibədə qələbəyə zəmanət verəcək sayda və keyfiyyətdə bir qoşun hazırladı. Osmanlı sarayı əmin idi ki, iki istiqamətə güclü qoşun qollarının göndərilməsi ilə Nadir şahın diz çökdürülməsinə nail olacaqdır.

Osmanlı qoşunlarının hücuma keçmək xəbərini Nadir şah narahatlıq keçirmədən qarşıladı. Qələbəsinə əmin olmaqla bərabər, Nadir şah bu növbəti qarşıdurmanı Osmanlı dövləti ilə münasibətlərə nəhayət ki aydınlıq gətirəcək bir qarşıdurma kimi dəyərləndirirdi. Əslində, elə Osmanlı sarayı da belə bir ümidlə döyüşə girirdi. Osmanlı sarayı Nadir şahı məğlub etməklə ya öz məqsədinə çatacaqdı, ya da növbəti uğursuzluğa düçar olmaqla Nadir şahın sülh şərtlərini qəbul edəcəkdi. Amma Osmanlı sarayı öz qüvvələrinin uğuruna daha çox ümid bağlayırdı. Nadir şah osmanlıların hücum xəbərini o qədər sakit qarşıladı ki, hətta Göyçədə kiçik oğlu İmamquluya və qardaşı oğlu Əliqulu xana toy da çaldırdı və bir müddət Nadir şahın başı bu mərasimə qarışdı. Elə oradaca Nadir şah İmamqulunu Xorasan hakimi, Əliqulunu isə İran İraqının hakimi təyin etdi. 1745-ci il avqustun 3-də Nadir şah onları təyinat yerinə yola salıb Qarsa doğru hərəkətə başladı (354).

Nadir şah hələ Cənubi Qafqazda olarkən Osmanlı qüvvələrinin irəliləməsinin əngəllənməsi üçün bəzi tapşırıqlar verdi. Onun göstərişinə əsasən, Məhəmmədrza xan Qırxlının, Məhəmmədəli bəy Qacarın və Lütfəli bəy çərxçibaşının rəhbərliyi altında qoşun dəstəsi Osmanlı qüvvələrinin qarşısına göndərildi. Bu dəstə kəşfiyyat işləri aparmaqla bərabər, Osmanlı qüvvələrinin irəli çıxarılmış dəstələri ilə döyüşə girməli idilər. Bu dəstə Naxçıvandan keçməklə Qarsa doğru irəlilədi və Qarsla İrəvan arasında Yegən Məhəmməd paşanın irəli çıxarılmış 12 min nəfərlik avanqard dəstəsi ilə qarşılaşdı. Mənbələr bu dəstələr arasında qanlı döyüş baş verdiyini və nəhayətdə Nadir şah qüvvələrinin qələbəsi ilə başa çatdığını bildirirlər (355). Çox güman ki, Osmanlı avanqard dəstəsi qoşunların əsas dəstəsindən çox uzaq düşmüşdü və bu dəstə vəziyyətin düzəldilməsi üçün yardıma arxalana bilmədi. Hər halda bu ilkin qarşıdurmada əldə edilmiş uğur Nadir şahın sonrakı uğuru üçün bir başlanğıc oldu.

Nadir şah Bağdaddan Dağıstana doğru hərəkət edəndə Nəsrulla Mirzəni özü ilə aparmamışdı. Nəsrulla Mirzə tabeliyində olan qoşun dəstəsi ilə İran İraqında qalmışdı. Nadir şah Qafqazdan Qarsa doğru hərəkətə başlayanda Nəsrulla Mirzəyə də xəbər göndərdi ki, Osmanlı

qüvvələri ilə döyüşə hazırlaşsın. C.Hanvey Nadir şah qoşunlarının İrəvan yaxınlığında düşərgə saldığı vaxt sayının 50 min olduğunu yazır. Onun məlumatına görə, Nəsrulla Mirzənin rəhbərliyi altında isə 30 min nəfərlik qoşun dəstəsi var idi. C.Hanvey onu da bildirir ki, Nəsrulla Mirzə Nadir şahdan aldığı tapşırığa əsasən onun dəstəsi ilə birləşməli idi. Bu məlumata əsasən, Nəsrulla Mirzənin dəstəsinin avanqard qrupu Nadir şahın düşərgəsinə hərəkət zamanı Osmanlı qüvvələri ilə rastlaşdı.Nəsrulla Mirzənin avanqard qrupu geri çəkilməli oldu. Nəsrulla Mirzənin hücuma məruz qalması xəbərini eşidən kimi Nadir şah dərhal ona yardım göndərdi. Yardıma göndərilən dəstə osmanlıların arxasından zərbə vurmağa cəhd göstərdi. Bir sıra tədqiqatçılar tərəfindən də təkrarlanan bu fakt əslində doğru deyildir. Nəsrulla Mirzə bu dəstə ilə döyüşə girmədi. Nəsrulla Mirzə aldığı tapşırığa əsasən, Diyarbəkir-Mosul marşrutu ilə irəliləyən Osmanlı qüvvələrinin qarşısını almalı idi və bu məsələ "Tarix-e Cahanqoşa-ye Naderi"də də öz təsdiqini tapır (356).

Nadir şah öz qoşunları ilə 1745-ci il avqustun 7-də İrəvanı adlayıb bu şəhərin iki fərsəngliyində olan Muradtəpə adlanan məntəqədə düşərgə saldı.Bura həmin məntəqə idi ki, 1735-ci ildə orada Nadir şah Osmanı sərkərdəsi Abdulla paşa Körpülünü məğlubiyyətə uğratmışdı. Yegən Məhəmməd paşanın düşərgəsi Nadir şahın düşərgəsindən cəmi iki fərsəng aralı idi. Məhəmməd paşa düşərgədə yerləşib lazımi müdafiə tədbirləri gördü. Yəni, düşərgə ətrafında səngərlər qazıldı, mühafizə divarları çəkildi.Nadir şah düşərgə yaxınlığındakı yüksəkliklərdən birinin üzərinə qalxıb Osmanlı qoşunlarını müşahidə etdi və həmin müşahidələri əsasında öz qüvvələrinin qruplaşdırılmasını apardı. Sağ və sol cinahları, mərkəz dəstəni, ön və arxa dəstələri müəyyənləşdirdi, onların hər birinə təcrübəli sərkərdələr təyin etdi. Döyüşdə tüfəngdarların yerini müəyyənləşdirdi (357).

Yegən Məhəmməd paşa da Nadir şahla döyüşdə uğur qazanmaq üçün qüvvələrini lazım bildiyi şəkildə qruplaşdırdı. Cəbhənin mərkəzi hissəsini, cinahları və avanqardı o, yeniçəri qüvvələri ilə möhkəmləndirdi. "Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, Məhəmməd paşa Avropa döyüş taktikasını seçdi. Döyüş düzülüşünün qarşısına artilleriyanı yerləşdirdi.Döyüş mövqelərinin ətrafına isə səngərlər çəkildi, maneələr quruldu və zəncirlər vuruldu (358).

Mənbələrdə və tədqiqat əsərlərində Nadir şahla Məhəmməd paşa arasında əsas döyüşün başlanması tarixi haqqında müxtəlif fikirlər mövcuddur.Bu müxtəliflik istər hicri tarixində, istərsə də miladi tarixində mövcuddur. Hər halda göstərilən tarixlər arasında avqustun 10-u

və 11-i tarixi daha çox təkrarlanır. C.Hanvey döyüşün avqustun 3-də başladığını yazır. L.Lokart isə döyüşün ayın 11-də baş verməsinə üstünlük verir. Mövcud olan məlumatlara görə, Yegən Məhəmməd paşa döyüşü bu tarixdən düz bir həftə əvvəl, yəni avqustun 4-də başlamağı planlaşdırıbmış. Amma ayın 3-də ona məlumat çatdırılıb ki, Osmanlı süvarilərinin və artilleriyasının bir hissəsi Nadir şah qüvvələrinin qəfil hücumuna məruz qalıb və artilleriya həmin qüvvələr tərəfindən ələ keçirilib. Öz süvarilərinə kömək göstərmək və itirilmiş topları geri qaytarmaq istəyi Məhəmməd paşanın başını elə qatdı ki, əsas döyüşün başlanması da təxirə salındı (359).

Beləliklə, lazımi hazırlıq işləri başa çatandan sonra 1745-ci il avqustun 11-də Muradtəpə ətrafında Osmanlı qüvvələri ilə Nadir şah qoşunları arasında gərgin bir döyüş başladı. Tarixi ədəbiyyatda həm də Qars döyüşü kimi məşhur olan bu döyüşün təfərrüatları haqqında da geniş məlumat yoxdur. Amma özlüyündə qoşunların sayı, qüvvələr nisbəti və nəhayət qarşıya qoyulan vəzifələr bu döyüşün gərginliyini şərtləndirirdi.

"Aləm Ara-ye Naderi"də olan məlumata görə, uzun müddət döyüşdə hansı tərəfin hərbi üstünlüyə malik olduğunu müəyyənləşdirmək mümkün deyildi. Nadir şah sərkərdələri həmişəki iradə, şücaət və mərdanəliklə qarşıya qoyulan vəzifənin icrasına çalışırdılar. Osmanlı qoşunlarının qüvvə üstünlüyü onların əzmkarlığına heç də əks-təsir göstərmədi. Əksinə, qüvvələrin düzgün qruplaşdırılması və bölünməsi göstərilən səylərin səmərəliliyini də artırdı. Osmanlı qoşunları da eyni əzmkarlıqla və iradə ilə döyüşə başladılar. Nadir şah qoşunları qarşısında onlar da nəyə qadir olduqlarını nümayiş etdirməyə çalışırdılar. "Aləm Ara-ye Naderi"yə görə, döyüşün bərabər səviyyədə getdiyini görəndə Nadir şah yenə göylərə əl qaldırıb yaradana dua etdi və ondan kömək istədi. Bundan sonra o, at belinə qalxıb özü də döyüşə atıldı. Nadir şah döyüş meydanında əfqan dəstələrinin sağdan və soldan əzmkarlıqla döyüşmələrinin şahidi oldu. Onun döyüşə qatılması bütün dəstələrinə ilham verdi, Osmanlı qüvvələrinə vurulan zərbələrin gücünü daha da artırdı. Nəticədə, Osmanlı qüvvələri artan təzyiqə davam gətirməyərək yavaş-yavaş geri çəkilmək məcburiyyətində qaldı. Bu vaxt Məhəmməd paşa sərkərdələrinə Avropa taktikası tətbiq edilməsini tapşırdı. Kəsad məlumatlardan belə güman etmək olar ki, Avropa taktikası müdafiə və hücum elementlərinin birləşdirilməsindən ibarət idi. Qoşunlar qarşı tərəfə doğru müəyyən qədər irəlilədikdən sonra səngərlənməli, möhkəmlənməli və sonra yenə müəyyən məsafə irəliləməli idilər. Amma qeyd etmək lazımdır ki, Osmanlı qüv-

vələri bu taktikanı bütünlüklə tətbiq edə bilmədilər. Nadir şah qoşunlarının təzyiqindən əlavə yerli şərait də buna imkan vermədi (360).

Nadir şah isə başqa bir taktikaya əl atdı. Onu tapşırığı əsasında qoşun dəstələrindən biri Qarsdan Ərzruma aparan yolu nəzarət altına aldı və nəticədə Osmanlı qüvvələrinin əsas təchizat yolu bağlandı. Bununla eyni zamanda Nadir şah Osmanlı qüvvələrini həm də əhatə etmiş oldu ki, bu da Məhəmməd paşa üçün təbii narahatçılıq yaratdı. Döyüşün elə birinci gününün axşamı Nadir şah 20 min nəfərlik bir dəstəni Osmanlı qüvvələrinin arxasına keçməyi və gecə ikən əsas qüvvələrə qəfil zərbə endirməyi tapşırdı. Bu dəstənin gecə hücumu elə gözlənilməz oldu ki, Osmanlı qüvvələri arasında güclü vahimə və çaş-başlıq yaratdı, döyüşçülərin çoxu əsir düşdü, çoxu da məhv edildi. Çoxları isə müqavimət göstərmədən qaçmaqla canlarını qurtardılar. Dəqiqliklə düşünülmüş gecə hücumunun həyata keçirilməsi nəticəsində Osmanlı qüvvələrinə ağır zərbə vuruldu və səhər açılana kimi Məhəmməd paşa qoşunlarının döyüş mövqeləri mühasirəyə alındı. Nəticədə, Osmanlı qüvvələri həm çoxlu itki ilə qarşılaşdılar, həm də bir çox mühüm mövqeləri əldən verdilər (361).

Yaranmış vəziyyətin düzəldilməsi üçün Yegən Məhəmməd paşa öz sərkərdələrinin müşavirəsini çağırdı, onlarla birlikdə döyüş meydanında baş verənləri müzakirə etdi və belə qərara alındı ki, Osmanlı qüvvələri də gecə ikən Nadir şah qoşunları üzərinə hücum etsinlər. Belə ehtimal olunurdu ki, gecə hücumu ilə Nadir şahın bütün qüvvələri mühasirəyə alınsın və sonra da onların məhvinə başlansın. Məhəmməd paşa bu müşavirədə də Avropa taktikasının tətbiqinin zəruriliyini vurğuladı (362).

Həmin günün axşamı, yəni 1745-ci il avqustun 19-da Kermanşah istiqamətində Osmanlı qüvvələri ilə döyüşə girən Nəsrulla Mirzədən Nadir şaha xoş xəbər gətirildi. Nəsrulla Mirzə göndərdiyi məktubunda Nadir şaha məlumat verdi ki, Mosul ətrafında Abdulla paşanın rəhbərlik etdiyi qoşun dəstəsi məğlubiyyətə uğradılmışdır. Əsir edilmiş Osmanlı döyüşçülərinin bir hissəsi Nadir şahın düşərgəsinə yola salınmış, Nəsrulla Mirzə özü isə Kermanşaha qayıtmışdır. Nəsrulla Mirzə bildirirdi ki, əgər Nadir şahın icazəsi olarsa Osmanlı sərhədini keçər və Osmanlı ərazilərini Nadir şah dövlətinin ərazilərinə qatar (363).

"Aləm Ara-ye Naderi"nin "Tarix-e Cahanqoşa-ye Naderi"dən eynilə əxz etdiyi bu məlumatdan Nadir şahın Nəsrulla Mirzəyə hansı cavab verdiyi anlaşılmır. Heç şübhəsiz ki, Nadir şah, Nəsrulla Mirzənin dəstəsinin Osmanlı ərazilərinin dərinliklərinə doğru irəliləməsinə razı olmadı. Anlaşılan odur ki, Nadir şah oğlunun əldə etdiyi bu qələbəyə

çox sevindi və onun məktubunu Osmanlı əsirləri vasitəsi ilə Yegən Abdulla paşaya göndərdi. Amma məktub yetişənə qədər Məhəmməd Yegən paşa artıq dünyasını dəyişdi. Yuxarıda xatırlanan hər iki mənbə həmin vaxtlarda Məhəmməd paşanın düşərgəsində, Osmanlı qoşunları arasında qiyam və iğtişaşın baş verdiyini qeyd edir. Lakin bu iğtişaşların da nə ilə bağlı olduğunu söyləmək çətindir. "Aləm Ara-ye Naderi"nin yazdıqlarından hətta belə güman etmək olar ki, Osmanlı qoşunları arasında iğtişaşın baş verməsinin Yegən Məhəmməd paşanın ölümünə heç bir aidliyi yoxdur. Bu mənbədə bildirilir ki, Yegən Məhəmməd paşa ağ ciyərin iltihabından əziyyət çəkirdi. Dünyasını dəyişdiyi gün onun xəstəliyi birdən-birə ağırlaşmış və qoşunlardakı həkimlər ona bir yardım edə bilməmişdilər (364).

Avropalı müəlliflər, o cümlədən C.Hanvey, Şarl Piklet və hətta L.Lokkart da Məhəmməd paşanın öldürüldüyünü yazırlar. Ş.Pikletə görə, əsas döyüşün baş verdiyi gün Nadir şah Osmanlı qüvvələrinin zəif nöqtəsini müəyyənləşdirib əsas zərbəni də ora vurmağı qərara aldı. Sonra ehtiyatda saxladığı bütün qüvvələri də döyüşə atdı. Nadir şahın göstərişinə əsasən bütün süvarilər tüfənglərdən atəş açdılar və sonra da düşmənlə əlbəyaxa qılınc döyüşünə girdilər. Bu qəfil hücum nəticəsində Nadir şah Osmanlı qüvvələrinin artilleriyasının əsas hissəsini ələ keçirməyə nail oldu. Osmanlılar döyüşün müxtəlif mərhələsində çoxlu tələfatla üzləşdilər.Həmin tələfatın 20 mindən artıq olduğu bildirilir. Bir o qədər Osmanlı döyüşçüsü də əsir oldu. Nadir şah qoşunlarının təzyiqi qarşısında davam gətirə bilməyən Osmanlı ordusu və onun rəhbəri geri çəkilmək məcburiyyətində qaldı. Osmanlı qoşunlarının düşərgəsi müdafiə baxımından yaxşı möhkəmləndirildiyi, istehkam qurğuları və toplarla müdafiə olunduğu üçün Nadir şah təqibi davam etdirməyi lazımsız bildi. Əvəzində qərara aldı ki, Osmanlı qüvvələrinin arxaya aparan yollarını kəssin. Çünki bu yolların kəsilməsi Osmanlı qüvvələrinin təchizatını çətinləşdirə və onları daha tez təslim olmağa məcbur edə bilərdi. Ş.Pikletə görə, bundan sonra Osmanlı qoşunları öz qüvvələrini bir də səfərbər edib Nadir şah mövqeləri üzərinə hücum çəkdilər. Osmanlı qüvvələrinin geniş yer verdiyi top atəşləri də köməyə çatmadı. Nadir şah qüvvələrinin əks-hücumu osmanlıları geri çəkilməyə məcbur etdi. Təchizatının, silah və sursatının çox hissəsini itirib pərakəndə hala düşən Osmanlı dəstələri Qars yolu ilə geri çəkilməyə başladılar. Avropalı müəllifə görə, Məhəmməd paşa da bu geri çəkilmə zamanı öldürüldü (365).

Qeyd edildiyi kimi, C.Hanvey də Məhəmməd paşanın öldürüldüyünü vurğulayır. Onun əsərində Muradtəpə döyüşünün gedişi ilə bağlı

maraqlı məlumatlar vardır. C.Hanveyə görə, Məhəmməd paşa süvarilərinin böyük bir hissəsini artilleriyanın müşayiəti ilə Nadir şah dəstəsinə qarşı döyüşə atdı. Osmanlı qüvvələrinin bir hissəsi isə ehtiyatda saxlanıldı.Nadir şahın döyüşə atdığı qüvvələrin sayı Osmanlı qüvvələrindən az idi.Tüfəngdarların atəşindən sonra qılınc döyüşü başladı. Bu döyüş səhərdən günortaya kimi davam etdi. Amma hər hansı tərəf üstünlük əldə edə bilmədi. Belə olanda Nadir şah dəstələrin birinin müşayiəti ilə özü də döyüşə atıldı. Yenidən tərəflər arasında gərgin döyüş qızışdı. Osmanlı qüvvələri üstünlük qazanmaq üçün şox çalışdılar. Hava qaralanda ümid etdikləri nəticəyə nail olmadan düşərgəyə geri çəkildilər. C.Hanvey də osmanlıların bu döyüşdə 20 mindən artıq itki verdiyinə işarə edir. Verilən itkilər və Nadir şah qoşunlarının rəşadəti Osmanlı qüvvələrini dəhşətə gətirdi.Səhəri gün onlar möhkəmləndirilmiş düşərgədən çıxmağa ehtiyat etdilər. Bundan xəbər tutanda Nadir şah Osmanlı qüvvələrinin arxa ilə əlaqəsini kəsdi. Onda osmanlılar bir daha yenidən döyüşə girmək məcburiyyətində qaldılar. C.Hanvey daha sonra yazır ki, osmanlıların yenidən irəli atılmaqda məqsədi güclü Nadir şah qoşunları ilə döyüşə girmək yox, geriyə yol açmaq idi.Lakin Nadir şah dəstələri onlara heç bir şans vermədi və osmanlılar yenidən öz düşərgələrinə çəkilmək məcburiyyətində qaldılar. Döyüşün beşinci günü gecə ikən osmanlılar da düşərgəni tərk etdilər və Qarsa doğru qaçmağa başladılar.Nadir şah osmanlıların öz toplarını da atıb qaçmasını eşidəndə onların təqib edilməsinə göstəriş verdi. C.Hanveyə görə, Arpaçayın 5 fərsəngliyində tərəflər arasında növbəti döyüş baş verdi. Burada Məhəmməd paşa da daxil olmaqla çoxlu sayda Osmanlı döyüşçüsü öldürüldü. C.Hanveyə görə, 28 min Osmanlı döyüşçüsü öldürüldü və beş min nəfəri isə əsir götürüldü. Onun şəhadətinə görə, Nadir şah qüvvələrinin itkisi isə 8 min nəfər oldu (366).

Geri qaçmaqda olan Osmanlı qüvvələrinin Nadir şah dəstələri tərəfindən təqib olunmasını "Tarix-e Cahanqoşa-ye Naderi" də təsdiq edir.Bu mənbəyə görə,Yegən Məhəmməd paşanın ölümü Osmanlı qüvvələri arasında çaşqınlıq yaratdı və sərkərdəsini itirmiş qüvvələr pərakəndə halda qaçmağa üz tutdular. Bu vaxt onlar yenidən Nadir şahın qoşunlarının döyüş əzmi ilə üzbəüz qaldılar. Osmanlı qüvvələrinin bütün artilleriyası, düşərgəsi təchizatı və yükləri Nadir şah dəstələrinin əlinə keçdi. Nadir şah döyüşçüləri osmanlıları Arpaçaya qədər təqib etdilər. "Tarix-e Cahanqoşa-ye Naderi" onlardan 12 min nəfərinin öldürüldüyünü, 5 min nəfərinin isə əsir götürüldüyünü xatırladır. Amma bu qeyddən aydın olmur ki, bu itki təqib zamanı baş verdi, yoxsa bütün döyüş ərzində. Nadir şah əsir götürülənlər arasında xəstə və ya-

ralı olanlara aman verdi və onların Qarsa qaytarılmasına razı oldu. Digər əsirlərin isə bir hissəsini Tehrana, bir hissəsini də Təbrizə göndərdi (367).

Bir daha qeyd edilməlidir ki, Nadir şahın Muradtəpədəki son döyüşü haqqında mənbələrdə geniş məlumat yoxdur. Amma bu döyüş Nadir şahın sərkərdəlik həyatının ən mühüm döyüşlərindən olmaqla son əzəmətli qələbəsi idi.Taktiki və əməliyyat baxımından da bu döyüşün əhəmiyyəti böyük idi.Çünki Nadir şah burada da bir daha sərkərdəlik məharətini nümayiş etdirərək özündən ən azı ikiqat üstünlüyə malik olan Osmanlı qüvvələrini məğlubiyyətə uğratdı. Bu qələbənin əzəmətinin bir cəhəti də onda idi ki, oğlu Rzaqulu Mirzənin kor edilməsi ilə onu bürümüş dərin psixoloji sarsıntılardan sonra Nadir şah öz potensialını səfərbərliyə alaraq bir daha nəyə qadir olduğunu nümayiş etdirdi.

Muradtəpə ətrafında pərən-pərən düşən Osmanlı qüvvələri Nadir şah tərəfindən təqib edilsəydi əldə edilmiş uğurlar daha böyük olardı. Amma Nadir şah bunu etmədi, Osmanlı dövləti ilə Səfəvi dövləti arasında vaxtilə mövcud olmuş sərhəd xəttini adlamadı. C.Hanvey və çox güman ki, ona istinad etmiş L.Lokkart bunu Nadir şah qoşunlarının və ölkə əhalisinin əlavə müharibə iztirablarını istəməməsi ilə əlaqələndirirlər (368). Heç şübhəsiz ki, aparılan müharibələrin ölkə daxilindəki yaşayışın ağırlaşmasına bu və ya digər dərəcədə təsiri var idi.Amma dövrün qarşılıqlı münasibətlərinin müəyyənləşdirilməsində, dövlətin hərbi-siyasi qərarlarının qəbul edilməsində bu məqam həlledici amil deyildi və ola da bilməzdi.Digər tərəfdən o da məlumdur ki, fatehlik müharibələrinin aparılması zamanı hərbi xərcləri Nadir şah əsasən fəth etdiyi ərazilər hesabına ödəyirdi. Nadir şah Osmanlı ərazisində müharibəni davam etdirməyə cəhd göstərsəydi, nəinki müharibə xərclərini əldə edərdi, hətta ölkəyə küllü miqdarda qənimət də gətirə bilərdi.

Nadir şahın müharibəni Osmanlı ərazilərinə keçirməməsinin əsas səbəblərindən biri heç şübhəsiz ki, Osmanlı-türk dövlətinin mövcudluğuna hörmətlə yanaşması idi. Yuxarıda qeyd edildiyi kimi, Nadir şah özünün də türk soyuna mənsub olmasını Osmanlı sarayına xatırlatmış və Osmanlı sarayının qarşılıqlı ehtiramına nail olmağa çalışmışdı. Osmanlı dövlətinə ehtiramın və bu dövlətlə xoş münasibətlərin qurulmasına tərəfdar olmasının nəticəsi idi ki, Nadir şah Osmanlı dövlətinə qarşı Səfəvi sərhədlərindən kənara çıxan ərazi iddiası irəli sürmədi. İki dövlət arasında mövcud olan dini-ideoloji uçurumun aradan qaldırılmasına da daha çox Nadir şah təşəbbüs göstərirdi. Şiə məzhəbinə ba-

rışmazlıq nümayiş etdirən Osmanlı ruhaniliyinin sərt mövqeyini yumşaltmaq üçün Nadir şah yollar axtarırdı. Hətta Muradtəpə ətrafındakı böyük qələbəsindən sonra Nadir şahın sərt barışıq şərtləri irəli sürmək imkanı olsa belə, Osmanlı sarayı ilə barışıq yolu tutdu və eyni zamanda sülh razılaşması üçün irəli sürdüyü şərtləri də bir qədər yumşaltdı.

Muradtəpə döyüşü başa çatandan sonra Nadir şah Osmanlı sultanına ehtiram dolu bir məktub yazdı və elçisi vasitəsilə Osmanlı sarayına göndərdi. Nadir şah həmin məktubda bildirirdi ki, Osmanlı ruhanilərinə çatdırılmış olan əvvəlki təkliflər barəsində daha təkid göstərmir. Nadir şah əminliyini bildirirdi ki, məzhəb məsələsi ilə bağlı olan və Osmanlı sarayı tərəfindən qəbul edilməyən həmin təklifin geri götürülməsi iki dövlət arasındakı münasibətləri daha da yaxşılaşdıracaqdır (369).

Əvvəllər irəli sürülən sülh razılaşmasının qəbul olunmamasının əsas səbəbi məhz məzhəb məsələsi ilə bağlı olan təkliflər idi. Osmanlı dövləti ilə xoş münasibətlərin qurulması naminə Nadir şah həmin təklifdən imtina etməyi qərara aldı.

Elçilərini Osmanlı sarayına yola salandan sonra Nadir şah Xorasana yola düşdü. Bu zaman onun yolu Həmədan, Fərahan və İsfahandan keçdi.Nadir şah 1745-ci il dekabrın 28-də İsfahana çatdı və təxminən bir ay orada qaldı. 1746-cı il fevralın 2-də oradan Xorasana doğru hərəkətə başladı. Nadir şah çox asta hərəkət edirdi. Çox güman ki, o, yolu üstündə olan məntəqələrdə xeyli dayanmalı olurdu. Mənbələrdə bildirilir ki, Nadir şah bu dövrdə məntəqələrin hakimlərinin vergi toplaması işlərini çox diqqətlə araşdırırdı və üzə çıxardığı nöqsanlar üçün hakimlərə çox ciddi cəzalar verirdi. Görünür, elə bununla bağlı idi ki, İsfahandan hərəkətə başlamasından ay yarım sonra Nadir şah Məşhədə çatdı (370).

Məşhəddə Novruz bayramını qeyd edəndən sonra Nadir şah doğulduğu yerlərə baş çəkdi, Kelatda, Əbivərddə, Dərgəz və Dəstəgirddə oldu. Sonra yenidən Məşhədə qayıtdı.Orada da çox dayanmayıb İran İraqına getməyi qərara aldı.Savucbulaqda olarkən Nadir şah sülh müqaviləsi ilə bağlı Osmanlı sarayından göndərilmiş Nəzif əfəndi ilə görüşdü.Nadir şah Nəzif əfəndinin rəhbərliyi altında olan nümayəndə heyətini hörmət və ehtiramla qarşıladı. Mənbələr bildirirlər ki, bu zaman Nadir şah Təxti-tavus üzərində oturmuşdu. Bu da qəbulun təmtəraqını daha da artırırdı. Nəzif əfəndi Nadir şah və onu əyanları ilə sülh müqaviləsinin mətni üzərində xeyli müzakirə apardı və nəhayət 1746-cı il sentyabrın 4-də Nadir şah dövləti ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı (371).

Sülh müqaviləsi giriş və üç maddədən ibarət idi. Girişdə göstərilirdi ki, IV Sultan Mahmudun dövründə (1639) dövlətlər arasında imzalanmış sülh müqaviləsinə riayət olunmalı, onun əsasında müəyyənləşdirilmiş sərhədlər dəyişməz qalmalı və onlara dəyişiklik edilməməlidir. Bundan sonra tərəflərin xeyrinə və dövlətlər arasında sülhə zəmin yaradan addımlar atılmalı və tərəflər sülh yolunda anlaşılmazlığa aparan hərəkətlərdən çəkinməli idilər. Girişdə əminlik ifadə olunurdu ki, dostluq, sabitlik və qarşılıqlı ehtiram iki böyük dövlət və xanədan arasında günü-gündən möhkəmlənəcəkdir.

Birinci maddəyə əsasən, Bağdad və Şam marşrutu ilə Məkkəyə yollanan İran və Turan zəvvarları mühafizə olunmalı, onların malları və canları qorunmalı idi.

İkinci maddəyə əsasən, qarşılıqlı hörmət və dostluğun möhkəmləndirilməsi üçün üç ildən bir Osmanlı dövlətindən İrana, İrandan isə Osmanlı dövlətinə nümayəndəliklər göndərilməli idi.

Üçüncü maddəyə görə, hər iki ölkədən olan əsirlər azad edilməli, onların alınıb satılmasına yol verilməməli idi və onların maneəsiz vətənə dönmələrinə şərait yaradılmalı idi.

Müqavilənin sonunda isə aşağıdakı bir neçə məqam öz əksini tapmışdı: a) sərhəd məntəqələrinin hakimləri qarşılıqlı dostluq münasibətlərinə xələl gətirən hər cürə hərəkətlərdən çəkinməlidirlər; b) İran əhalisi hörmətsizlik göstərməkdən əl çəkməlidir (burada şiəliyin qəbul edilməsi ilə birinci üç islam xəlifəsinin tanınmamasına son qoyulması nəzərdə tutulur-red.); c) Məkkəyə, Mədinəyə və digər yerlərə yollanan İran zəvvarlarına Osmanlı dövləti nümayəndələri tərəfindən qayğı göstəriləcəyi və onlardan qanunsuz heç bir haqq tutulmayacağı bildirilirdi. Eyni zamanda təsbit olunurdu ki, bu adamlar özləri ilə ticarət malları aparmadığı təqdirdə Bağdad hakimləri və məmurları onlardan bac almamalıdırlar. Bu adamlar ticarət malları daşıdığı təqdirdə onlar hesaba alınmalı və onlardan bac tutulmalı idi. İran ərazisinə daxil olmuş Osmanlı təbəəsinə də eyni münasibət göstərilməli idi; ç) sonda dövlətlər arasında imzalanan müqavilənin davamlı və uzunmüddətli olacağına ümidlər ifadə olunurdu. Bildirilirdi ki, əgər Osmanlı dövləti bu müqavilənin şərtlərini pozmasa, İran tərəfi belə bir addımı atmayacaqdır (372).

Qeyd etmək lazımdır ki, müqavilənin imzalanması həm Nadir şah tərəfindən, həm də Osmanlı sarayı tərəfindən razılıqla qarşılandı. Bu müqavilənin imzalanması ilə iki dövlət arasındakı ərazi ixtilaflarına və iddialarına son qoyuldu. Nəzif əfəndi geri qayıdarkən Nadir şahın Osmanlı sultanına yazdığı məktubu da müqavilə ilə birlikdə Osmanlı

sarayına gətirdi. Bu məktubda Nadir şahla Osmanlı dövləti arasında müzakirə olunan sülh müqaviləsi üzərində aparılan müzakirələrin müxtəsər tarixi öz əksini tapmışdı. Nadir şah hələ Muğan qurultayından sonra sülh müqaviləsinin imzalanması üçün beş təklif irəli sürdüyünü, onlardan Cəfəri məzhəbi ilə bağlı olan iki təklifin Osmanlı sarayı tərəfindən qəbul edilmədiyini və onun üzərində uzun vaxtdan bəri müzakirələrin və mübahisələrin aparıldığını qeyd edirdi. Nadir şah daha sonra məktubunda Osmanlı dövləti ilə dostluq münasibətlərinin qurulması naminə həmin təkliflərdən imtina etdiyini yazırdı (373).

Müqavilənin imzalanmasından sonra tərəflər arasında səfirliklərin mübadiləsi həyata keçirildi. Osmanlı sarayı tərəfindən Əhməd əfəndi Körpülü az qala sayı 1000 nəfərə çatan nümayəndə heyəti və çoxlu sayda qiymətli hədiyyələrlə İrana daxil oldu. Nadir şah tərəfindən isə Mustafa xan Şamlı və Nadir şahın katibi Mirzə Mehdi xan Astrabadi Osmanlı sarayına səfir təyin edildilər. Nadir şah bu səfirləri çoxlu sayda qiymətli hədiyyələrlə Osmanlı sarayına yola saldı (374).

Osmanlı sarayına təyin olunmuş elçilər yola salınandan sonra Nadir şah Yəzd və Kerman yolu ilə yenidən Xorasana doğru hərəkətə başladı.

## 7. Nadir şah dövrünün iğtişaşları

Yalnız fatehlik müharibələri deyil, ölkə daxilində baş qaldıran iğtişaşların və qiyamların yatırılması da Nadir şahın müəyyən vaxtlarda diqqətini və qüvvələrini özünə cəlb edirdi. Xüsusən, hakimiyyətinin ikinci yarısında bu iğtişaşların kütləviləşməsi və coğrafiyasının genişlənməsi Nadir şah dövrünün xarakterik xüsusiyyətlərindən biridir. Mənbələrdə və tarixi ədəbiyyatda bu iğtişaşların meydana gəlməsi və baş vermə səbəbləri haqqında müxtəlif baxışlar irəli sürülür. Hər halda bu baxışların mahiyyətindən asılı olmayaraq birmənalı şəkildə qəbul edilməlidir ki, iğtişaşların baş verməsi Nadir şah dövlətinin əsaslarını zəiflədirdi. İri miqyaslı iğtişaşların və qiyamların daxili qarşıdurmaya çevrilməsi isə yersiz qırğınlara və insan tələfatına yol açırdı.

Mənbələrdə belə bir məqama toxunulur ki, Rzaqulu Mirzənin kor edilməsindən sonra Nadir şahın uzun-uzadı hərbi yürüşlərdə olması ilə əlaqədar ölkənin paytaxtında idarəçilik işlərinə nəzarətin zəifləməsi yerli hakimlərin daha sərbəstləşməsinə və bununla da müstəqilləşmə iddialarına yol açdı. Doğrudan da gizli deyil ki, hakimiyyətinin mütləq hissəsini Nadir şah hərbi yürüşlərdə keçirirdi. Onun aylarla, illərlə paytaxtdan uzaqda olması, yerlərdəki idarəçilik işlərində hakimlərin

ciddi nəzarətdən kənarda qalması ölkənin idarə olunmasında vahid iradənin ortaya qoyulmasını çətinləşdirirdi. Mərkəzi idarəçilik aparatının isə daha çox şahın iradəsinin əlavəsinə çevrilməsi, yaxşı halda isə maliyyə toplanmasına və hərbi yürüşlərin hazırlanmasına cəlb edilməsi yerli hakimlərin fəaliyyət sərbəstliyini xeyli genişləndirirdi.

Tarixi ədəbiyyatda Nadir şah dövründə baş verən iğtişaşların səbəbinin sinfi mübarizədə (xüsusilə sovet tarixşünaslığında), müharibə xərclərinin əhalinin vəziyyətini çətinləşdirməsində və Nadir şahın sonsuz qəddarlığında axtarılması meylləri vardır. Baş verən iğtişaşların sinfi mübarizə ilə bağlılığı bir qədər tənqidi yanaşma tələb etdiyi halda, Nadir şahın idarəçiliyinin müəyyən illərinin sərt qəddarlıqla müşayiət etdiyini istisna etmək olmaz. Nadir şah dövrünün iğtişaşlarını ümumiləşdirməklə qeyd etmək lazımdır ki, onların arasında olan oxşarıq və yaxınlıq daha çox mərkəzdənqaçma meylləri ilə bağlıdır. Bu meylin yetişməsində və ortaya çıxmasında xarici təsirlər də mövcuddur, yerli hakimlərin fərdi istəkləri də. Bu meylin reallaşdırılmasına bəzi hallarda yerli əhali də təhrik edilirdi, bəzi hallarda isə yalnız yerli hakimlərin tabeliyində olan qoşun dəstələrinin istifadə edilməsi ilə baş verirdi. İstənilən halda dövlətin siyasi sisteminin mükəmməl olmaması, ölkədə iqtisadi inkişafın zəifliyi, vilayətlərin siyasi və iqtisadi baxımdan mərkəzlə bağlılığının yetərli olmaması mərkəzdənqaçma meyllərinin artmasına, yerli hakimlərin müstəqillik istəklərinin güclənməsinə, onların birtərəfli iddialarının genişlənməsinə təkan verirdi. Buna görə iğtişaşların baş verməsini yalnız Nadir şahın qəddarlığında axtarmaq doğru sayıla bilməz. Unutmaq olmaz ki, elə Nadir şahın hərb meydanına atılmasından əvvəl də belə hadisələr tez-tez baş verirdi. Haqqında danışılan səbəblərin fonunda Rzaqulu Mirzənin kor edilməsindən sonra qəddarlaşan Nadir şahın qorxusunun yerli hakimləri asiliyə təhrik etdiyini, Nadir şah tərəfindən təyin edilən yerli hakimlərin ona sədaqətli olmaması hallarının da iğtişaşlara apardığını unutmaq lazım deyildir.

Nadir şahın taxta çıxmasından əvvəl və onun şahlığının birinci yarısında da ölkə ərazisində iğtişaşlara təsadüf edilirdi. Amma bu hadisələr Nadir şahın hakimiyyətinin ikinci yarısında xeyli çoxaldı. Sevimli oğlunu öz əli ilə kor etdirməsinin və səhhətində yaranan problemlərin onun psixoloji durumunda yaratdığı dəyişikliklər ola bilsin ki, bəzi hakimlərin iğtişaşlar üçün hərəkətə başlanmasına bir təkan verdi.Bu iğtişaşların bəzilərinin yatırılmasında Nadir şah şəxsən iştirak etdi, bəzilərinin yatırılmasını isə öz sərkərdələrinə həvalə etdi.

Nadir şahın hakimiyyətinin ikinci yarısına təsadüf edən iğtişaşlar və itaətsizliklər arasında aşağıdakılar kütləviliyi ilə daha çox fərqlənirdilər:
- 1743-cü ilin əvvəlində və sonunda yalançı Sam Mirzənin təhriki ilə Şirvanda baş verən iğtişaşlar;
- 1743-cü ildə ölkədən qaçqın düşənlərin köməyi və Osmanlı dövlətinin dəstəyi ilə baş qaldıran Səfi Mirzə iğtişaşı;
- Fars bəylərbəyi Tağı xanın rəhbərliyi altında 1744-cü ildə Fars vilayətində baş qaldıran iğtişaş;
- 1744-cü ildə Astrabadda Məhəmməd Həsən xanın rəhbərliyi altında qacarların başladığı iğtişaş;
- 1744-cü ildə Xoy və Səlmasda köçəri kürd tayfalarının yaratdığı iğtişaşlar;
- 1744-cü ildə Bəhreyn və Məsqətdə köçəri ərəb qəbilələrinin Şeyx Əhməd Mədəninin rəhbərliyi altında baş verən iğtişaşları;
- 1743-46-cı illərdə Xorasan, Kerman və Luristan vilayətlərində baş verən iğtişaşlar;
- 1747-ci ildə Sistan əhalisinin üsyanı (375).

Nadir şah onun hakimiyyəti əleyhinə istiqamətlənmiş iğtişaşlarla heç cürə barışa bilmirdi və onların yatırılması üçün ən qətiyyətli tədbirlərə əl atmağa çalışırdı. Xüsusilə, onun yaxınlarının, etimad göstərdikləri şəxslərin belə iğtişaşlara və qiyamlara qoşulmasına daha sərt barışmazlıq nümayiş etdirirdi.

Əhalinin müəyyən təbəqələri arasında Səfəvi xanədanının ənənəvi hakimiyyətinin davam etdirilməsinə rəğbətlə yanaşanlar hələ də qalmaqda idi. Ölkənin idarə edilməsində lazımi qətiyyətə malik olmamalarına baxmayaraq Səfəvi xanədanının son nümayəndələrinin həyatlarının faciəli sonluğu onlara qarşı olan təəssübkeşliyi bir qədər də artırdı. Camaat arasında kütləvi etirazlar yaradaraq öz niyyətlərinə nail olmaq istəyən şəxslər və qüvvələr səfəvilər xanədanına olan təəssübkeşlik elementlərindən bəhrələnməyə çalışırdılar. Məhz bunun nəticəsi idi ki, özünü səfəvilər ailəsinin varisi kimi qələmə verib ərafına daha çox dəstə toplamaq istəyənlər bir neçə iğtişaşın təhrikçisi və rəhbəri ola bilmişdilər. Mövcud olan məlumatlara görə, ilkin olaraq Zeynal Mirzə və Aslan Mirzə adlı şəxslər belə addımlar atmağa cəhd göstərdilər.Zeynal Mirzə özünü Şah Sultan Hüseynin böyük oğlu Abbas Mirzənin oğlu kimi qələmə verirdi. O, Xəzər dənizinin cənub sahili boyu ərazilərdə özünə xeyli tərəfdar toplaya bilmişdi. Aslan Mirzə isə özünü Şah Sultan Hüseynin oğlu kimi qələmə verərək Gürcüstan əra-

zisində tərəfdaş toplamağa çalışırdı. Amma bu şəxslərin hər ikisinin başladığı iş inkişaf tapmadı və tezliklə yatırıldı (376).

Səfəvi xanədanının varisliyinə iddia edənlər arasında özlərini Sam Mirzə və Səfi Mirzə kimi qələmə verənlərin təhrikçiliyi ilə başlanan hərəkatlar isə miqyasının daha genişliyi ilə fərqlənə bildilər.

Birinci Sam Mirzə 1743-cü ilin əvvəllərində peyda oldu. Əsli-nəcabəti bilinməyən bu şəxs özünü Şah Sultan Hüseynin nəvəsi kimi qələmə verirdi. Bu şəxs iddia edirdi ki, Şah Sulan Hüseynin ailə üzvləri öldürüləndə o qaçıb Gürcüstanda, sonra da Krımda gizlənmişdi. Guya Səfəvi xanədanına məxsus olan hakimiyyətin geri qaytarılması üçün lazımi şərait yarananda Avara, oradan da Şirvana qayıtdı. Yalançı Sam Mirzə əhali arasında danışırdı ki, əfqanların mühasirəsi dövründə saray əyanlarının köməyi ilə sərkərdə Fətəli xanın bir neçə xidmətçisi ilə birlikdə qaçmağa nail oldu. Təbrizdə gecələmək istədikləri evdə dərvişlər onu tanımış və guya ona məsləhət vermişdilər ki, ölümdən yaxa qurtarmaq üçün gizlənsin və bir də 3 ildən sonra camaat arasına çıxıb taxt-tac uğrunda mübarizəyə başlasın.

Tədqiqatçılar yalançı Sam Mirzənin Osmanlı dövləti tərəfindən göndərildiyini və dəstəkləndiyini qeyd edirlər (377). Görünür elə buna görə də Sam Mirzə qısa müddət ərzində ətrafına xeyli adam toplaya bildi.Məlumdur ki, Səfəvi dövlətinə birləşdiriləndən əvvəl Şirvan müstəqilliyə malik idi. Səfəvi dövlətinin tərkibinə qatıldıqdan sonra da Şirvanın özünəməxsus ictimai-siyasi və iqtisadi mühiti var idi. Sözsüz ki, belə bir mühitin mövcudluğu Şirvanda müstəqilləşmə meylini daha da gücləndirirdi. Nadir şah hakimlərinin isə bir çox hallarda həddən artıq qəddarlığı da həmin meyllərə münbit zəmini artırırdı. Görünür elə buna görə də yalançı Sam Mirzənin təbliğatının yerli əhalinin müəyyən təbəqələrində olan əhval-ruhiyyə ilə üst-üstə düşməsi və Sam Mirzənin ətrafına kifayət qədər tərəfdar topladı.

Bir sıra ləzgi əyanları və sərkərdələri, o cümlədən qazıqumuxlı Surxay xan da yalançı Sam Mirzəyə qoşuldu. Mənbələr həmin dövrdə Nadir şah tərəfindən Şirvan sərdarı təyin edilmiş Məhəmmədəli xan Qırxlının Dərbənd, Şamaxı, Qəbələ, Şəki, Şirvan əhalisinə zülm verməsindən, bir neçə gün ərzində xeyli çox adamı kor etməsindən, təkcə çıxarılmış gözlərin ümumi çəkisinin 14 məndən artıq olmasından xəbər verirlər. Nadir şah əyanının belə qəddarlığı da Sam Mirzə hərəkatının genişlənməsinə rəvac verdi. Ətrafına çoxlu tərəfdar toplanandan sonra Sam Mirzə belə fikirləşdi ki, qızılbaş camaatı padşahpərəst olduğu üçün daha ciddi hərəkətlərə əl ata bilər. O güman edirdi ki, Azərbaycana doğru hərəkət etsə oranı da nəzarət altına alacaq və

oradan da İraqa doğru irəliləyə biləcəkdir. Onun fikrincə, hərəkatı genişlənsə Nadir şahın bir sıra sərkərdələri və əyanları da ona qoşulacaqdı. Ətrafında 20 minlik bir dəstənin toplaşması isə Sam Mirzənin daha böyük xəyallarla yaşamasına ilham verirdi (378).

Qazıqumıxlı Surxay xan və digər ləzgi xanlarının Sam Mirzəyə qoşulmasından sonra onun dəstəsi daha da böyüdü. "Aləm Ara-ye Naderi" Sam Mirzənin müttəfiqi Surxay xanla birlikdə 50 minlik bir qoşun dəstəsinə baxış keçirdiyini yazır. Belə böyük bir dəstəni formalaşdırdıqdan sonra Sam Mirzə Şirvana hərəkət etdi və Şamaxıda düşərgə saldı. Ətraf yaşayış məntəqələrinin hakimləri asanlıqla Şirvanın nəzarət altına alınmasını və böyük dəstəyə malik olmasını onun gələcək uğurlarının başlanğıcı saydılar və öz dəstələri ilə ona qoşuldular. Bunun nəticəsi idi ki, Sam Mirzənin dəstəsinin sayı günbəgün artmaqda davam edirdi (379).

Yalançı Sam Mirzənin Şirvanda başladığı iğtişaşın vüsət tapdığı bir zamanda bölgədə Nadir şaha qarşı ikinci iğtişaş başladı. Bu iğtişaşa isə Nadir şahın Şirvana hakim təyin etdiyi Məhəmmədəli xan Qırxlı rəhbərlik edirdi. Nadir şahla eyni oymaqdan olan və onun etimadına layiq görülən Məhəmməli xan Şirvan əhlinə qarşı həyata keçirdiyi haqsız və saysız zülmlərdən Nadir şahın xəbər tutacağından və buna görə də onu cəzalandıracağından qorxaraq dövlətə qarşı asilik yolu tutdu.Sonra isə yerli hakimlərə və əyanlara məktublar göndərdi ki, onu əhaliyə qarşı qəddarlıq göstərməyə Nadir şah məcbur edirdi. O bəyan edirdi ki, artıq səhvini başa düşüb və bunun nəticəsi kimi Nadir şaha qarşı mübarizəyə başlayıbdır. Məhəmmədəli xan yerli əyanları da onunla birlikdə Nadir şaha qarşı birgə itaətsizliyə dəvət edirdi (380).

Sam Mirzənin dəstəsi Şamaxıda olanda Məhəmmədəli xan Dərbənddə idi. İstər-istəməz bu şəxslərdən hansının Şirvan iğtişaşlarına rəhbərlik etməsi məsələsi ortaya çıxdı. Sam Mirzənin dəstəsi daha böyük olduğundan Məhəmmədəli xanın ona birləşməsi labüdləşdi. Məhəmmədəli xanın dəstəsinin Sam Mirzə hərəkatına birləşməsi bu hərəkatın gücünü daha da artıra bilərdi. Çünki bununla belə bir güman yarana bilərdi ki, Nadir şahın Şirvanda olan qoşun dəstəsi də ona itaətsizlik göstərib iğtişaşçılar tərəfinə keçmişdir.Bu addım digər qoşun dəstələri üçün də nümunəyə çevrilə bilərdi.

Məhəmmədəli xan xəbər göndərib Sam Mirzəyə qoşulacağını vəd etdi.Amma eyni zamanda bu addımı atmağa tələsmədi. Çünki o, yaranmış vəziyyətdə Nadir şahın nə edəcəyini bilmək istəyirdi. O, günahlarının bağışlanması üçün yenidən Nadir şaha itaət etməyə, Sam Mirzənin ələ keçirilməsi üçün Nadir şahın əmrlərinin icrasına yardım

göstərməyə hazır idi. Ona görə Məhəmmədəli xan Sam Mirzəyə göndərdiyi məktubunda yaxın vaxtlarda ona qoşulacağını vəd etməklə onun diqqətini yayındırmağa da çalışırdı (381).

Amma Məhəmmədəli xan Qırxlının tabeliyində olan qoşun dəstəsinin heç də bütün sərkərdələri onun Nadir şaha qarşı asiliyi ilə razı deyildi.Məhəmmədəli xanın güclü nəzarətinə baxmayaraq, onun sərkərdələrindən bəzilər Nadir şahın yanına qaçıb baş verənlər haqqında ona məluma çatdırdılar. Nadir şah bu xəbəri kifayət qədər təmkinlə qarşıladı.Onun nəzərində dövlətə qarşı iğtişaş qaldıranlara aman olmamalı idi. Digər tərəfdən iğtişaşa rəhbərlik edənin Sam Mirzə adına iddia etməsi onu məsələyə daha ehtiyatla yanaşmağa sövq edirdi. Nadir şah qərara aldı ki, oğlu Nəsrulla Mirzənin rəhbərliyi altında Şirvana qoşun dəstəsi göndərsin və bu iğtişaşa son qoysun. Bununla bərabər, Nadir şah onu da bəyan etdi ki, əgər doğrudan da iğtişaşa rəhbərlik edən Şah Sultan Hüseynin ailəsindəndirsə onda ona şəfqət və mərhəmət göstəriləcəkdir. Nadir şah həmin şəxsin xidmətində durmaqdan belə imtina etməyəcəyini bildirirdi. Bununla bağlı, Nadir şah hətta ona məktub da göndərdi (382).

Nadir şah eyni zamanda Məhəmmədəli xan Qırxlıya məktub göndərdi və ondan tələb etdi ki, tabeliyində olan qoşun dəstəsi ilə Şirvana göndərilən Nəsrulla Mirzənin qoşununa qatılsın. Bu məktub Məhəmmədəli xanın huşyarlığını əlindən aldı və onda elə bir inam yaratdı ki, Nadir şahın onun əməllərindən xəbəri yoxdur və şah hələ də ona inanır. Amma əslində, Məhəmmədəli xanın hərəkətləri haqqında həm Nadir şahda, hə də Nəsrulla Mirzədə ətraflı məlumat var idi. Ehtiyatı əldən verməsinin nəticəsi idi ki, Məhəmmədəli xan Qırxlı öz sərkərdələri tərəfindən həbs edilib Nəsrulla Mirzənin düşərgəsinə gətirildi və orada kor edildi. Onun tabeliyində olan qoşun dəstəsi isə yenidən Nadir şaha sədaqət nümayiş etdirdi və Nəsrulla Mirzənin qoşun dəstəsinə qoşuldu.

Nəsrulla Mirzənin 30 minlik qoşun dəstəsi ilə bölgəyə gəldiyini eşidəndə yalançı Sam Mirzə döyüşə hazırlıq əmri verdi.O əvvəlcə Dərbəndə çaparlar göndərib Məhəmmədəli xanı özünə qoşulmağa sövq etmək istədi.Məhəmmədəli xanın başına gələnlərdən xəbər tutandan sonra Sam Mirzə ləzgi Surxay xanla birlikdə yaxınlaşan döyüşün hazırlığına başladı. Sam Mirzə Şamaxın tərk edib şəhərin bir mənzilliyində olan ərazidə düşərgə saldı. Sam Mirzə və Surxay xan döyüş mövqelərini elə tutdular ki, yaxınlıqda axan çayı tamamilə nəzarət altında saxlaya bilsinlər. Qoşunların bir dəstəsinə rəhbərliyi Sam Mir-

zə, bir dəstəsinə də Surxay xan öz üzərinə götürdü. Sam Mirzənin dəstəsini əsasən Şirvan və gürcü döyüşçüləri təşkil edirdilər (383).

Sam Mirzənin qoşun dəstəsinə təsirli zərbə vurulması üçün Nəsrulla Mirzə də müvafiq döyüşqabağı mövqelər tutdu. Qoşunların sağ cinahını o, Mir Ələm xan Xəziməyə və İmamqulu xan Əfşara tapşırdı. Sol cinahdakı qüvvələrə Məhəmmədəli xan Qacar, Məhəmməddust bəy Qırxlı və Zaman bəy Özbək rəhbərlik edirdilər. Nəsrulla Mirzə özü isə qoşunların mərkəzində dayandı. Hər iki tərəf qələbə əzmi ilə döyüşə girdi və qarşıya qoyulan məqsədə çatmaq üçün kifayət qədər iradə və əzmkarlıq nümayiş etdirildi. Sam Mirzə qüvvələri sayca Nəsrulla Mirzənin qoşun dəstəsindən az deyildi. Ona görə onun ətrafına toplanmış olan qüvvələr hətta döyüş təşəbbüsünü ələ almağa da cəhd göstərdilər. Surxay xan döyüşün ən gərgin çağlarında qüvvələrinin bir hissəsinin yorulmuş atlarını yeniləri ilə əvəz etdi. Ehtiyatda dayanan qüvvələri də cəlb etməklə 10 min nəfərlik yeni bir dəstə təşkil etdi və bu dəstənin köməyi ilə Nəsrulla Mirzənin qoşun dəstəsinin sağ cinahına güclü zərbə endirdi. Həmin zərbə elə güclü oldu ki, Nəsrulla Mirzənin sağ cinahı geri çəkilmək məcburiyyətində qaldı. Sağ cinahda yaranmış mürəkkəb vəziyyəti düzəltmək üçün Nəsrulla Mirzənin tapşırığı ilə həmin cinaha ehtiyatda saxlanmış olan Məhəmməd Hüseyn Qacarın dəstəsi, habelə Sərdar bəy Əfqanın rəhbərliyi altında olan iki min nəfərlik dəstə göndərildi. Bu qüvvələrin gəlişi ilə sağ cinah xeyli möhkəmləndi və bütünlükdə döyüşün gedişində bir dönüş yaratmaq mümkün oldu. "Aləm Ara-ye Naderi"nin məlumatına görə, döyüşün gedişində Nəsrulla Mirzəyə yerli əhalidən kömək gəldi. Buna baxmayaraq Sam Mirzə son nəfəsinə qədər döyüşü davam etdirmək istəyirdi. İrəliyə atılmaq üçün göstərdiyi cəhdlərdən birində Sam Mirzə, Nəsrulla Mirzə döyüşçüləri tərəfindən qazılmış quyuya düşdü. Onun əl-qolunu bağlayıb Nəsrulla Mirzənin düşərgəsinə apardılar (384).

Sam Mirzənin əsir götürülməsi döyüşün taleyini də həll etdi. Başçılarını itirmiş olan Surxay xan və digərləri döyüş meydanını tərk edib yenidən dağlara üz tutdular. Sam Mirzə qətlə yetirildi. Nəsrulla Mirzə isə 2-3 gün döyüş meydanında qalıb öz qələbəsini bayram etdi. Qısa müddətli istirahətdən sonra Nəsrulla Mirzə Şamaxıya daxil oldu (385).

Bununla, birinci Sam Mirzə iğtişaşına son qoyuldu. Amma Şirvanda iğtişaşlara və mərkəzi hakimiyyətin apardığı siyasətə qarşı narazılıqlar səngimədi. Yalançı Sam Mirzənin öldürülməsindən sonra Şamaxı əhalisi arasında yerli hakimlərin dözülməz siyasətinə qarşı kütləvi narazılıqlar hərəkatı genişləndi. Bu hərəkatın nəticəsi kimi yerli hakim

və onun ətrafındakı əyanlar Şamaxıdan çıxarıldılar. Şamaxı üsyanı öz miqyası baxımından Nadir şah dövləti üçün elə bir ciddi təhlükə törətmirdi. Amma Şirvan və Dağıstan şəraitində bu üsyanın Nadir şah dövlətinə qarşı kütləvi çıxışlara çevrilməsi təhlükəsi də ola bilərdi. Ona görə Nadir şah Şamaxı üsyanının yatırılması üçün ora 6 min nəfərlik qoşun dəstəsi göndərdi. Həmin dəstə Bərdədə olarkən Şamaxı hərəkatının iştirakçıları 3 min nəfərlik bir dəstəni irəli çıxardı. Tərəflərin dəstələri arasında Bərdə yaxınlığında döyüş baş verdi. Nadir şah dəstəsi sayca və heç şübhəsiz ki, təcrübə baxımından daha üstün idi və ona görə də üsyançıların dəstəsi uğursuzluğa düçar olub geri qayıtdı (386).

Məhz belə bir vaxtda, Şirvanda kütləvi hərəkat və iğtişaşların təşkili üçün münbit bir zəmin olduğu bir şəraitdə Sam Mirzəliyə iddia edən yeni bir şəxs meydana atıldı. Tarixi ədəbiyyatda daha çox ikinci Sam Mirzə kimi tanınan bu şəxs həm aldığı dəstək, həm də apardığı təbliğat nəticəsində ətrafına kifayət qədər tərəfdar və həmfikir toplayıb Nadir şah hakimiyyətinə qarşı qiyam qaldırdı.

İkinci Sam Mirzə birinci Sam Mirzədən sonra Şirvanda baş qaldıran iğtişaşa rəhbərlik etsə də, onun Səfəvi taxt-tacına iddiaları daha əvvəldən başlamışdı. Nadir haqqında mövcud olan iki əsas mənbənin hər ikisində bildirilir ki, İbrahim xanın qətlindən sonra onun yerinə Azərbaycan hakimi təyin edilmiş İbrahim xanın ikinci oğlu Məhəmmədəli xanın dövründə Ərdəbildə özünü Sam Mirzə adlandıran bir nəfər peyda oldu. Səsi ilk dəfə Ərdəbildə eşidilən bu şəxs özünü Şah Sultan Hüseynin oğlu kimi təqdim edib taxt-tac şahzadəliyinə iddialarını irəli sürdü. Məhəmmədəli xan özünü Sam Mirzə elan edən bu şəxsi həbs etdirdi və ola bilsin ki, onun iddialarını elə də ciddi qəbul etmədi və tezliklə onu azadlığa buraxdı. Amma əvvəlcə onun burnunu kəsdirdi ki, ona dərs olsun və bir də sərsəm xəyallara düşməsin. Ona görə ikinci Sam Mirzə həm də “bini boride” (burnu kəsik) kimi tanınır (387).

“Aləm Ara-ye Naderi”nin məlumatından belə güman etmək olar ki, ikinci Sam Mirzənin Ərdəbildə zühur etməsi və burnunun kəsilməsi 1743-cü ilin yazında və ya ortalarına yaxın baş vermişdi.

İkinci Sam Mirzə Nəsrulla Mirzə tərəfindən Şirvanda öldürülmüş birinci Sam Mirzəni özünün qulamlarından birinin oğlu olmasını iddia edirdi.Guya həmin şəxs onun yanından qaçaraq Dağıstana getmiş və orada özünü Sam Mirzə elan etmişdi. Apardığı təbliğatlardan sonra Ərdəbil və Gilandan 2-3 min nəfər adam onun ətrafına toplaşdı. Bunu

eşidəndə Məhəmmədəlli xan ona qarşı bir dəstə göndərdi. Sam Mirzə qorxuya düşüb ətrafındakılarla birlikdə Ərdəbili tərk etdi.

Sam Mirzə ətrafındakılarla birlikdə Dağıstana qaçdı. İstər Dağıstana doğru hərəkət edərkən , istərsə də Dağıstanın özündə Sam Mirzə Səfəvi xanədanına mənsub olmasını israr etməkdə davam edirdi. C.Hanvey şübhə etmir ki, Sam Mirzə Osmanlı dövlətinin dəstəyi və köməyi ilə meydana çıxmışdı.Ölkə ərazisində iğtişaşların çoxaldığı və Nadir şahın dövlətinə qarşı silahlı qiyamların coğrafiyasının genişləndiyi bir vaxtda Osmanlı dövləti Dağıstanda və Şirvanda Nadir şah hakimiyyətinin zəiflədilməsinə cəhd göstərirdi. Osmanlı sarayı güman edirdi ki, Səfəvi xanədanının hər hansı bir üzvünün mövcudluğu ləzgiləri və Şirvan əhlini onun ətrafında toplaya bilər. Belə bir hərəkatın uğur qazanacağı halda isə Osmanlı dövləti Dağıstan və Şirvanı nəzarət altına ala bilərdi. Buna görə də özünü Sam Mirzə kimi təqdim edən şəxs Osmanlı dövlətinin də himayəsini qazandı (388).

Bəzi tarixçilər ikinci Sam Mirzənin Osmanlı dövləti tərəfindən himayə olunmasını qəbul etmirlər. Amma hər halda birinci Sam Mirzənin və Səfi Mirzənin Osmanlı dövləti tərəfindən himayə olunduğu üçün ikinci Sam Mirzənin də himayə olunduğunu istisna etmək olmaz.

Sam Mirzə Dağıstanda da özünə dəstək tapdı. Ona dəstək göstərənlərdən biri Surxay xan Qazıqumuxlının oğlu Məhəmməd idi. Məhəmməd hələ Nadir şahın Dağıstana ilk yürüşü zamanı atasından fərqli olaraq ona itaət göstərmədi və Avara çəkilib Nadir şahın əlindən gizləndi. Sam Mirzənin peyda olması onun istəkləri ilə üst-üstə düşdü. Ona görə Məhəmməd yalançı Sam Mirzəni taxt-tac varisi kimi qəbul etdi və tabeliyində olan dəstəsi ilə ona qoşuldu (389).

Ikinci Sam Mirzənin iğtişaşlara başlaması haqqında ilkin məlumatlar 1745-ci ilin sentyabr ayına təsadüf edir. Bu iğtişaşlar haqqında məlumatların izlənməsi göstərir ki, həmin ilin oktyabr ayında Sam Mirzə iğtişaşının və qiyamının əhatə dairəsi xeyli genişlənmişdi. Əhalinin müxtəlif təbəqələri arasından qiyama qoşulanların sayı da xeyli artmışdı (390).

"Tarix-e Cahanqoşa-ye Naderi"nin yazdığına görə, doğrunu əyridən, xeyri şərdən, faydanı ziyandan ayıra bilməyən insanlar Sam Mirzənin ətrafına toplanıb onun dəstəsini daha da böyütdülər. Sam Mirzənin Dağıstan və Şirvan əhlinə və hakimlərinə yazdığı məktublar isə çoxlarının aldanmasına və səhv yola düşməsinə təkan oldu. Sam Mirzə bildirirdi ki, İranı azad edəcəyini öz yuxusunda görmüşdür və camaatı da öz yuxusuna inanmağa çağırırdı. Onun bu təbliğatına və sərsəm iddialarına insanlar da inanırdı (391).

Özü də qeyd etmək lazımdır ki, Sam Mirzənin təbliğatı və çağırışları əhalinin ən müxtəlif təbəqələri arasında əks-səda tapırdı. Bu bir daha onu nümayiş etdirirdi ki, əhali arasında kütləvi narazılıqlar mövcud idi. Nadir şah isə bu məsələlərə lazımi diqqət yetirmirdi və bu istiqamətdə xüsusi bir siyasət də izlənmirdi.

Sam Mirzənin apardığı təbliğat əsasında Şirvan, Dərbənd və Tabasarandan özünə çoxlu tərəfdar tapdı. Dərbənd əyanları Xurşid bəy və Səfi bəy onun göndərdiyi məktuba cavab olaraq bildirdilər ki, qəddar siyasəti və dözülməz vergiləri ilə əhaliyə zülm verən Dərbənd hakiminin devrilməsi üçün Sam Mirzəyə qoşulmağa hazırdırlar. Adları çəkilən əyanlar ətraflarına 250 nəfərlik bir dəstə cəlb edib Sam Mirzəyə qoşulmağa hazırlaşanda Dərbənd hakimi Məhəmmədəli xan bundan xəbər tutdu. Onun göstərişi ilə Dərbənd əyanları və onların ətrafındakılar həbs edildilər. Xurşid bəylə bərabər, Sam Mirzəni dəstəkləyən daha yüz nəfər qətlə yetirildi, 150 nəfərin isə gözü çıxarıldı (392).

Amma bu sərt cəzalar da Sam Mirzə qiyamının genişlənməsinin qarşısını almadı. Əksinə, Nadir şah hakimlərinin qəddarlığı əhali arasında əks-təsirin güclənməsinə təkan verdi. Qiyam tezliklə Şirvan əhalisini də əhatə etdi və Sam Mirzənin silahlı dəstəsinin sayı 20 min nəfərə çatdı.

Qiyamın əhatə dairəsinin genişləndiyini görəndə Dərbənd hakimi Məhəmmədəli xan Nadir şaha xəbər göndərdi və ondan qiyamın yatırılması üçün əlavə kömək istədi. Nadir şah bu zaman bütün diqqətini Osmanlı dövləti ilə müharibəyə toplamışdı. Çox güman ki, bu səbəbə görə Sam Mirzənin qiyamının yatırılmasında o özü şəxsən iştirak edə bilmədi. Amma bu qiyamın kifayət qədər narahatçılıq doğura biləcəyini də diqqətdən kənarda qoymadı. Nadir şah Şirvan hakimi Heydər xana göstəriş verdi ki, tabeliyində olan qüvvə ilə Dərbəndə doğru irəliləsin və Sam Mirzə qiyamının yatırılmasında Məhəmmədəli xana yardım etsin. Heydər xanın Dərbəndə doğru hərəkəti xəbərini eşidən kimi Dağıstan və Şirvan qiyamçıları birləşərək Şabran yaxınlığında onun yolunu kəsdilər. "Aləm Ara-ye Naderi"də olan məlumata görə, Heydər xan öz çadırında istirahətdə olarkən onu tutub əl-qolunu bağladılar. Bu barədə Sam Mirzəyə və Məhəmmədəli xana xəbər göndərildi və onu razılığı ilə Heydər xan qətlə yetirildi (393).

Heydər xanın öldürülməsi qiyamım vüsətini daha da artırdı. Rus mənbələrinə görə, Heydər xan öldürüləndən sonra Şirvan qiyamçıları Məhəmməd Qazıqumuxlıya xəbər göndərib onu Sam Mirzə ilə birlikdə vilayət hakimliyinin yerləşdiyi Ağsuya dəvət etdilər. Məhəmməd də bu dəvəti qəbul edib Ağsuya gəldi (394). Ağsu qiyamçıların fəal-

iyyət mərkəzinə çevrildi. Bununla bütün Şirvan demək olar ki, qiyamçıların nəzarəti altına düşdü. Bu xəbər tezliklə ətrafa yayıldı və qısa müddətdən sonra Şabranın və Dağıstanın tərəddüd içərisində olan bəzi başçıları və əyanları da Sam Mirzəyə qoşuldular. Dərbəndin mühafizəsinin möhkəmləndirilməsi üçün onun ətrafına vaxtilə Muğandan xeyli əhali köçürülmüşdü. Şirvanın qiyamçıların əlinə keçməsi xəbərini eşidəndə onlar Dərbənd yaxınlığındakı Qəbir qalasını ələ keçirdilər. Qala daxilində olan əfşar döyüşçülərini qətlə yetirib bu qalanı Sam Mirzənin ixtiyarına verdilər. Muğanlılar özləri isə qiyamçıların sıralarına qatıldılar. Dərbənd hakimi Məhəmmədəli xan Qəbir qalasının tutulmasından qorxuya düşdü və təhlükəni özündən uzaqlaşdırmaq üçün yenidən Dərbənd əyanları arasında qətllər apardı. Qətlə yetirilənlər arasında muğandan olan döyüşçülərdən də var idi. Dərbənd hakimi bununla da kifayətlənməyib çoxlu sayda adamın gözlərini çıxardı və sonra da onları toplayıb Muğana göndərdi ki, yerli əhali üçün dərs olsun. Özü isə Dərbənd qalasının möhkəmləndirilməsi üçün tədbirlər görməyə başladı. Nəhayət, Məhəmmədəli xan Qırxlı bölgədə yaranan vəziyyətlə bağlı yenidən Nadir şaha məlumat göndərdi (395).

Nadir şah Şirvanda geniş miqyas almış qiyamın yatırılması üçün dərhal əməli addımlar atdı və kifayət qədər güclü bir qüvvə formalaşdırdı.Bu qüvvəyə Azərbaycan hakimi Aşur xan Papalının rəhbərliyi altında İrəvanda olan qoşun dəstəsi, Gəncə bəylərbəyi Hacı xan Kürdün tabeliyində olan qoşun dəstəsi də daxil idi. Aşur xan və onun dəstəsi Nadir şah tərəfindən İrəvanda yerləşdirilmişdi və bu dəstəyə ətraf bölgədə baş verən hadisələrin aradan qaldırılması tapşırılmışdı. Aşur xanın dəstəsi hərəkət edərək Kür çayı kənarına gəldi və burada Gəncə bəylərbəyinin dəstəsi ilə birləşdi. Bu birləşmiş dəstə bir müddət orada dayanıb Nadir şah tərəfindən göndərilən digər dəstələrin yetişməsini gözlədi. Şirvan qiyamının yatırılması üçün digər dəstələrdən biri də Urmiyə bəylərbəyi Kərim xan Əfşarın rəhbərliyi altında olan dəstə idi. Bundan əlavə, Nadir şahın göstərişi ilə Təbriz, Bərgüşad və Qaradağ döyüşçülərindən ibarət bir dəstə də Şirvana göndərildi.

Nadir şah bununla da kifayətlənmədi. O, anabir qardaşı olan çərxçibaşı Fətəli xanın rəhbərliyi altında 15 min nəfərlik digər bir dəstəni də Şirvan qiyamının yatırılmasına göndərdi. Ikinci Sam Mirzənin rəhbərliyi altında olan qiyamın yatırılmasına ümumi rəhbərlik isə yenidən Nəsrulla Mirzəyə tapşırıldı. Osmanlı qoşunları ilə aparılan müharibəyə başı qarışan Nadir şah Mosuldan Bağdad istiqamətinə hərəkət edərkən Leylan adlanan məntəqədə Nəsrulla Mirzə ilə görüşdü və Sam Mirzə qiyamının yatırılması ilə bağlı ona lazımi tapşırıqlar verdi. Zəruri məs-

ləhət və tövsiyələri alandan sonra Nəsrulla Mirzə Təbrizə gəldi, Sam Mirzə qiyamının yatırılması üçün nəzərdə tutulan qüvvələri özündən əvvəl Kür kənarına, Aşur xanla birləşməyə yola saldı. Qoşun dəstələrinin ardınca özü də Kür kənarına istiqamət götürdü. Aşur xanın, Hacı xanın və Kərim xanın iştirakı ilə Kür çayı üzərində salınan körpüdən bütün qüvvələri adladıb Nəsrulla Mirzə Şamaxıya doğru üz tutdu.

Rus mənbələri Kür çayının adlanması zamanı Nadir şah qüvvələri ilə qiyamçıların qüvvələrinin qarşılaması və bu zaman qiyamçıların uğur qazanması haqqında məlumatlar verirlər. Nadir şah döyüşçülərindən 300-400 nəfərin öldürüldüyü ehtimal edilən bu qarşıdurma sovet tarixşünaslığında özünü Şirvan hakimi elan etmiş Sam Mirzənin ətrafında toplaşan qüvvələrin böyük uğuru kimi qələmə verilib (396). Nadir şah haqqında olan əsas mənbələrdə bu qarşıdurma haqqında hər hansı bir məlumat yoxdur.Çox güman ki, bu qarşıdurma ciddi bir qarşıdurma olmamışdı və ona görə də mənbə müəlliflərinin diqqətini cəlb etməmişdir. Belə bir qarşıdurmanın olmasını isə ehtimal etmək olar. Çünki birinci Sam Mirzə iğtişaşı zamanı da Nəsrulla Mirzənin Şirvana gələn qüvvələrin Muğanda qarşısının kəsilməsinə cəhd göstərilmişdi. Yəni, Şirvan qiyamçıları belə bir təcrübəyə malik idilər. Amma elə verilən itkinin sayına görə, bu qarşıdurmanın qeyri-ciddiliyi təsdiq oluna bilər. Çünki təkcə Fətəli xanın dəstəi 15 min nəfər idi. Digər dəstələrin də bu qədər və ya buna yaxın sayda olduğunu güman etmək olar. Bu qədər sayda qoşun üçün 300-400 nəfərlik döyüş itkisi qiyamçıların qələbəsini təsdiq edəcək elə bir böyük itki deyildi. Bununla belə, bu fakta əsasən qeyd etmək lazımdır ki, Şirvan qiyamının tərəfdarları Nadir şah tərəfindən göndərilən böyük sayda qoşun dəstəsi ilə vuruşmaq əzmində olduqlarını da nümayiş etdirdilər.

Tərəflər arasında əsas döyüşün isə 1743-cü il dekabrın 20-də baş verdiyi bildirilir. Ağsu yaxınlığında baş verən bu döyüşün təfərrüatı haqqında mənbələrdə geniş məlumat yoxdur. Heç şübhəsiz ki, Nadir şah qüvvələri ilə qiyamçılar arasında gərgin bir döyüş baş verdi. Nadir şah qüvvələri say üstünlüyünə və daha yaxşı təcrübəyə malik idilərsə, qiyamçılar yerli şəraitin müdafiə imkanlarından daha yaxşı bəhrələnə bilərdilər.Mənbələrdə yalnız o göstərilir ki, Nadir şah qüvvələrinin yaxınlaşmasını Sam Mirzə və onun həmfikirləri dağ yüksəklikərindən müşahidə edirdilər. Qoşunlar məntəqəyə yetişəndə onlar da döyüşə başlamaq əmri verdilər. “Aləm Ara-ye Naderi”yə görə, Fətəli xanla Aşur xan qiyamçıların geri çəkilmək yollarını bağlaması döyüşün gərginliyini daha da artırdı.Cinahlardan vurulan zərbə qiyamçıların nəfəsini kəsdi. Ləzgi Məhəmməd döyüşün gedişində güllə yarası aldı və

Nadir şah qüvvələrinin üstünlüyünü görəndə ətrafındakı bir dəstə ilə Dağıstana doğru qaçmaq məcburiyyətində qaldı. Sam Mirzə öz döyüş meydanını tərk etməyə məcbur olub Gürcüstana doğru qaçdı. Döyüş başa çatandan sonra Ağsu qalası mühasirəyə alındı. 2-3 min nəfərlik ləzgi dəstəsi bu qalanın mühafizəsində dayanmışdı. Mühafizə olunmasına baxmayaraq onun ələ keçirilməsi elə də uzun çəkmədi. Nəsrulla Mirzənin və qoşun başçılarının əmri ilə istər qiyam iştirakçılarına, istərsə də qiyamı dəstəkləyən məntəqələrin əhalisinə qarşı çox ciddi cəzalar tətbiq edildi, çoxlu sayda adam qılıncdan keçirildi. Şirvana və onun məntəqələrinə yeni hakimlər təyin edildi. Dərbənd hakimi Məhəmmədəli xan isə öz vəzifəsində saxlanıldı (397).

Sam Mirzənin taleyinə gəlincə isə yuxarıda qeyd edildiyi kimi o, Gürcüstan hakimi tərəfindən tutuldu və Nadir şaha bu barədə xəbər göndərdi. Nadir şah isə onun bir gözünün kor edilməsini, özünün də Osmanlı dövləti tərəfindən təhrik edilən və Səfa Mirzə adına iddia edən şəxsin yanına göndərilməsini əmr etdi ki, bu iki yalançı qardaşlar bir-biri ilə görüşmək imkanı əldə etsinlər. Məlum olduğu kimi Sam Mirzə yolda ikən dünyasını dəyişdi.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şah hakimiyyətinin zəiflədilməsi üçün Osmanlı dövləti Səfi Mirzənin taxt-tac iddiası ilə meydana atılmasından da istifadə etməyə çalışırdı. Osmanlı dövləti bu məqsədlə hətta Səfi Mirzənin ixtiyarına qoşun dəstəsi də verdi. Amma Səfi Mirzənin rəhbərliyi altında planlaşdırılan iğtişaş elə də inkişaf tapmadı. Bunun başlıca səbəblərindən biri heç şübhəsiz ki, Səfi Mirzə iğtişaşının Nadir şahın Osmanlı dövləti ilə apardığı müharibə dövrünə təsadüf etməsi idi. Səfi Mirzənin fəaliyyət sahəsi Osmanlı dövləti ilə aparılan müharibə zonasına düşdüyündən bu iğtişaş əl-qol aça bilmədi. Bir tərəfdən Nadir şahın Osmanlı qoşunlarına qarşı uğurlu fəaliyyəti, bir tərəfdən də Nadir şahın Osmanlı dövləti ilə qarşılıqlı münasibətləri aydınlaşdırmağa çalışması və bir tərəfdən də Azərbaycan (Cənubi) ərazisində Səfi Mirzə iğtişaşına qoşulmaq cəhdlərinin qarşısını qətiyyətlə alması Səfi Mirzə hərəkatına genişlənmək imkanı vermədi.

Mənbələrdə bu dövrün diqqət çəkən qiyam və iğtişaşlarından biri kimi Xorəzm iğtişaşının adı çəkilir. Bu vilayətin əyalətdə olması, Nadir şahın ciddi diqqətindən kənarda qalması və orada sabitliyin təminatına zəmanət olan hərbi qüvvələrin yetərincə olmaması Xarəzmdə tayfalar arasında çəkişmələri gücləndirdi. Nadir şah Xarəzmi fəth edəndən sonra qətlə yetirdiyi İlbars xanın oğlu Əbülqazi xanı Xarəzm hakimi təyin etdi. Amma Əbülqazi xan kifayət qədər gənc və təcrübəsiz idi. Digər tərəfdən Əbülqazi xanın Nadir şahın qorxusundan qa-

çıb ətrafa səpələnmiş yəmut və türkmən tayfalarına davamlı müqavimət göstərmək üçün yetərli qüvvələri də yox idi. Əbülqazi xanın sərkərdəsi Artıq İnaq yəmut tayfalarının talançı yürüşlərinin qarşısını almağa çalışsa da, tezliklə bu iki şəxs arasında da ixtilaf yarandı. Ona görə də Əbülqazi xan sərkərdəsi Artıq İnağın qətlinə əmr verdi. Bundan sonra vilayətdə vəziyyət daha da mürəkkəbləşdi. Yəmut tayfalarının talançı yürüşləri vilayətin bir çox məntəqələrini viran qoydu. Onların yürüşlərinin qarşısını almaqda çətinlik çəkən Əbülqazi xan Nadir şahdan kömək istədi. Nadir şah Mosul ətrafında olarkən ona Xarəzmdə baş verənlər haqqında xəbər çatdırıldı. Nadir şah da dərhal Xarəzmə hərbi yardım göndərilməsini təşkil etdi. O, Herat hakiminin nayibi (müavini) Məhəmməd Qasım bəyə, Mərv bəylərbəyi Şahqulu bəyə, Sərəxs hakimi Mövlaqulu xana, Dərgəz kələntəri Mirzə Məhəmməd bəyə və Nəcəf Soltan Qaracurluya xəbər göndərdi ki, 6 minlik bir qoşun dəstəsi təşkil etsinlər və Amu-Dərya çayı kənarında yerləşən Soğyarda toplanıb hərəkət əmri gözləsinlər. Adları çəkilən şəxslər Nadir şahın bu əmrinə əsasən müəyyən edilmiş sayda qoşun toplayıb Mərvə yola düşdülər. Orada 10 ədəd topu da qoşunlara qatıb Çarcoya, sonra da Soğyara yetişdilər. Mövcud olan məlumata görə, Xarəzmdə yəmutların yaratdığı iğtişaşların aradan qaldırılması zamanı Nadir şah qüvvələri müəyyən müqavimətlə üzləşməli oldu. Bu qüvvələrin Soğyara çatmasını eşidən kimi yəmut tayfaları onların üzərinə hücum çəkdilər. Amma ağır zərbə alıb geri qayıtdılar. İlk yürüşlərinin uğursuzluğundan sonra yəmutlar salur türkmənlərindən kömək istədilər. Bu tayfaların birgə qüvvələrinin Nadir şah qoşun dəstələrinin üzərinə növbəti hücumu da uğursuz alındı (398).

Nadir şah Bağdad ətrafından geri çəkilib Qəsri-Şirinə gələndə Xarəzmə göndərdiyi dəstənin fəaliyyəti və bu dəstəyə Xarəzm sərkərdələri tərəfindən lazımi kömək göstərilməməsi barəsində məlumat çatdırıldı.Xarəzmdə vəziyyətin tezliklə sabitləşdirilməsi üçün Nadir şah Məşhəddə olan qardaşı oğlu Əliqulu xanı da ora göndərdi. Nadir şahın göstərişinə əsasən, Əliqulu xan Xorasandakı qoşun dəstəsi ilə Mərvə yollanmalı, orada mövcud olan artilleriyanı da dəstəsinə qatmalı və sonra da Soğyara yollanmalı idi. Əliqulu xan Soğyardakı qoşun dəstəsi ilə birləşərək Xarəzmə doğru yürüşünü davam etdirməli idi. Mövcud olan məlumatlara görə, Əliqulu xan ona verilən tapşırığı uğurla yerinə yetirdi və Xarəzm ətrafında cərəyan edən iğtişaşları aradan qaldırdı (399).

Nadir şahın hakimiyyətinə qarşı qaldırılmış geniş əhatəli qiyamlardan biri də Farsda Tağı xanın rəhbərliyi altında cərəyan edən qiyam

idi. Bu qiyamın alovlanması barədə həm mənbələrdə, həm də tarixi ədəbiyyatda bir sıra baxışlar mövcuddur. Bir çoxları qiyamın baş verməsini əhalinin ağır vergi yüklərinə dözməməsi ilə bağlayırlar. Tagı xanın Fars bəylərbəyi kimi geniş nüfuz qazanmasının, güclü qoşun dəstəsinə malik olmasının, ətrafına tərəfdar toplamasının da Nadir şahı qorxuya saldığı və buna görə də ona divan tutulması barədə planlar qurduğu bildirilir. Guya, Tağı xan da hadisələri qabaqlayaraq özü Nadir şaha qarşı qiyam qaldırdı və Nadir şaha tabe olmaqdan imtina etdi.

Heç şübhəsiz ki, Farsda qiyamın qalxması və bu bölgənin dövlətdən qopmaq ehtimalı Nadir şahı son dərəcə təşvişə saldı. Tağı xanın isə bu qiyama rəhbərlik etməsi onun narahatlığını daha da artırdı. Çünki Tağı xan bacarıqlı sərkərdə və hakim olmaqdan əlavə, həm də Nadir şahın etibar etdiyi şəxslərdən biri idi. Tağı xan dövlətin tanınmış əyanlarından biri olmaqla Nadir şah dövlətinin qurulmasında da rolu olan bir əyan idi. Tağı xanı Fars bəylərbəyi təyin edilməsinin başlıca səbəbi də göstərdiyi xidmətlərlə onun Nadir şahın etimadını qazanması idi.

"Tarix-e Cahanqoşa-ye Naderi"də olan məlumata görə, Dağıstan yürüşü zamanı Dərbənddə olarkən Nadir şah Tağı xanı yenidən Fars hakimi, Kəlbəli xan Kosaəhmədlini isə vilayət sərdarı təyin etdi və onları öz vəzifələrinin icrasına yola saldı. Mənbənin şəhadətinə görə, Tağı xan vilayətin idarəçiliyini yaxşı aparmadı, vəziyyətin mürəkkəbləşməsinə səbəb oldu və Nadir şahın qəzəbinə tuş gəldi (400).

Qeyd etmək lazımdır ki, Nadir şah dövlətinin tarixində kifayət qədər maraq doğuran bu qiyama "Tarix-e Cahanqoşa-ye Naderi"də çox müxtəsər şəkildə toxunulmuşdur.Qiyamın təfərrüatı barədə "Aləm Ara-ye Naderi"də daha geniş məlumatla rastlaşmaq mümkündür. Bu mənbənin yazdığına görə, məhz vergi yükünün ağırlığı vilayətdə qiyamın qalxmasına bir təkan oldu. Burada bildirilir ki, Dağıstan yürüşündən geri qayıtdıqdan sonra Nadir şah Fars vilayətində vergilərin toplanması və mərkəzə köçürülməsi vəziyyətini araşdırdı və burada çoxlu sui-istifadə hallarının yol verilməsini üzə çıxardı. Belə olanda Nadir şah bir neçə maliyyə məmurunu vilayətə göndərdi və onlara tapşırdı ki, məsələni diqqətlə öyrənsinlər və yeri gələrsə cəza verilməsi vasitəsilə vergilərin bütünlüklə toplanmasına nail olsunlar. Nadir şah eyni zamanda Tağı xana da məktub göndərdi və ondan tələb etdi ki, vergilərin bütünlüklə toplanıb Məşhədə çatdırılmasını və oradan da aparıb Kelatdakı xəzinəyə təhvil verilməsini təmin etsin (401).

Maliyyə məmurlarının Fars vilayətində tələb etdiyi yüksək vergilərə gücü çatmayan yerli əhali iğtişaşlara və qiyama qalxdı. Bu vergilər o dərəcədə yüksək idi ki, insanlar ağır cəzalara düçar olmamaq üçün hətta ailə üzvlərini hind və Avropa tacirlərinə satmaq məcburiyyətində qalırdılar. Məmurların artan tələblərinə dözməyən əhali Nadir şahın nümayəndələrindən 20 nəfəri qətlə yetirdi. Bu hadisə bir sıra məntəqələr üçün bir işarə oldu və bir çox yerlərdə əhali maliyyə məmurlarını qətlə yetirdilər."Aləm Ara-ye Naderi"yə görə, Tağı xan genişlənməkdə olan qiyamın qarşısını almağa cəhd göstərdi. Amma 10 minə yaxın qəzəblənmiş əhali Tağı xanın sarayını əhatəyə aldı və ona bildirildi ki, ya bizimlə olmalısan, ya da həyatınla vidalaşmalısan. Tağı xan da qiyamçıların tələbi ilə razılaşıb Nadir şaha qarşı qaldırılan qiyama rəhbərliyi öz üzərinə götürdü (402).

Bu məlumatdan belə güman etmək olar ki, Tağı xan qiyam qaldırmağa və Nadir şaha itaətsizlik göstərməyə elə də meylli deyildi. Onu qiyamçılar bu yolu tutmağa məcbur etdilər. Əslində isə belə deyildi və "Aləm Ara-ye Naderi"nin sonrakı məlumatları da bunu təsdiq edir. Tağı xan əslində özü də Nadir şahdan son dərəcə ehtiyat edirdi. Çox güman ki, o öz əməlləri ilə bunun üçün Nadir şaha əsas vermişdi. Qaldırdığı qiyama görə isə gec-tez Nadir şahla üz-üzə gələcəyinə şübhə etmirdi.Ona görə Tağı xan qiyama qoşulan kimi vilayətdəki qoşun dəstələrini öz ətrafında birləşdirməyə başladı. Tağı xan bəyan edirdi ki, körfəzdə dəniz qüvvələrinin komandanı olan Rüstəm xan onunla əlbir olmasa, vilayəti bütünlüklə Nadir şaha qarşı qiyama səfərbər etmək mümkün olmayacaqdır. Mənbənin verdiyi məlumata görə, Tağı xan 20 min nəfərlik bir dəstə ilə Bəndər Abbas yollandı, Rüstəm xanı və onun qüvvələrini öz tərəfinə çəkməyə çalışdı. Amma Rüstəm xan Nadir şaha xəyanət etmədi. Belə olanda Tağı xan sui-qəsd yolunu tutdu. Bəndər Abbas əhalisi və Rüstəm xanın xidmətində olan Fars sərkərdələri arasında belə bir təbliğat aparıldı ki, Nadir şah xəstələnib, malixülya xəstəliyinə tutulub.Gözünə görünənləri, xoşuna gəlib-gəlməyənləri səbəbsiz və sorğu-sualsız qətlə yetirir.Onun xidmətində olan qoşunun döyüşçüləri canlarının qorxusundan qaçıb dağılıblar. Tağı xan belə təbliğatla bildirmək istəyirdi ki, Rüstəm xanın dəstəsində olan sərkərdələr də Nadir şahın qəzəbindən qurtara bilməyəcəklər və ona görə onlardan tələb edirdi ki, Rüstəm xanı öldürsünlər, Bəndər Abbasda olan qüvvələrlə birlikdə Tağı xanın tərəfinə keçsinlər. Tağı xanın bu təbliğatı öz səmərəsini verdi və tezliklə Rüstəm xan öldürüldü. Bununla, Bəndər Abbas və oradakı hərbi qüvvələr də qiyamçıların nəzarəti altına düşdü (403).

Tağı xan vilayətin sərdarı vəzifəsinə təyin edilmiş Kəlbəli xanı da aradan götürməyə müvəffəq oldu. Kəlbəli xan Fars vilayətinə Nadir şahın etibarlı bir adamı kimi göndərilmişdi. Amma onların heç birinin fəaliyyəti qane edici olmadığı üçün Nadir şah hər ikisini geri çağırmağı qərara aldı. Amma bu şəxslərin hər ikisinin eyni vaxtda geri çağırılmasının çətin olacağı aydınlaşanda Nadir şah onların hər ikisinə ayrı-ayrılıqda məktub yazdı. O, Tağı xandan Kəlbəli xanın başını gətirməsini, Kəlbəli xandan isə Tağı xanın başını gətirməsini tələb etdi. Bir daha qeyd edilməlidir ki, bu şəxslərin hər ikisi Nadir şahın etibar etdiyi şəxslər idi. Amma onların xəyanət yolunu tutmaları Nadir şahı belə bir qərar verməyə məcbur etmişdi. Göndərilən məktubların hər ikisi Tağı xanın əlinə keçdi və o, daha tez tərpənərək Kəlbəli xanı qətlə yetirdi (404).

Kəlbəli xanın öldürülməsi 1743-cü il dekabrın əvvəlinə təsadüf edir. Bütünlükdə, bu üsyan 1743-cü ilin sonu, 1744-cü ilin əvvəlində vüsət tapdı. Qiyamın genişlənməsi və Tağı xanın əməlləri haqqında alınan hər məlumat Nadir şahın təşvişini daha da artırdı. Osmanlı dövləti ilə başlanan müharibə onun başını qarışdırdığından bu qiyamın yatırılmasına qarşı dərhal qətiyyətli tədbirlər həyata keçirə bilmədi.

Tağı xan isə vilayəti öz nəzarəti altına almaqla da kifayətlənmədi. Onun qüvvələri Şiraza tərəf irəliləməyə başladılar. Tağı xan eyni zamanda İraqa da nümayəndələr göndərib bu vilayətin sərkərdələrini də ona qoşulmağa çağırdı.

Tağı xan vilayətdən toplanan bütün maliyyə vəsaitlərini mənimsədi. Omanda və körfəz ətrafında toplanan maliyyə vəsaitləri də onun əlinə keçdi. Vilayətdə Nadir şaha rəğbət göstərənləri isə qılıncdan keçirdi (405).

Genişlənən qiyamın qarşısını almaq üçün Nadir şah Omandakı hərbi qüvvələrin komandanı Məhəmməd Hüseyn xan Qırxlını geri çağırıb Tağı xanın üstünə göndərdi. Ona göstəriş verildi ki, Tağı xan əl-qol açmamış onun üstünə hücum çəksin və qiyamın qarşısı alınsın. “Aləm Ara-ye Naderi”nin məlumatına görə, Məhəmməd Hüseyn xan Qırxlının 7 minlik dəstəsi Tağı xanın dəstəsi ilə Şirazda qarşılaşdı. Onların arasında 2-3 dəfə döyüş baş verdi. Lakin heç bir tərəf üstünlük qazana bilmədi. Belə olanda Tağı xan hiylə işlədib Məhəmməd Hüseyn xanın dəstəsini Şiraz məhəllələrində pusquya salmaq planına əl atdı.Və niyyətinə də nail oldu. Nadir şah əmin oldu ki, Tağı xan qiyamının yatırılması üçün daha böyük qüvvə Farsa göndərilməlidir. Bu məqsədlə o, Allahverdi xan Qırxlının rəhbərliyi altında 30 minlik bir

qoşun dəstəsi təşkil edib İsfahana yola saldı. Həmin qoşun dəstəsi İsfahandan Şiraza doğru üz tutdu (406).

Şahidlərin ifadəsinə görə, qiyamın əhatə etdiyi çox böyük ərazidə özbaşınalıqlar, talanlar çoxaldı (407).Nadir şahın ağır vergilərindən azad olmaq istəyi əhalinin özü üçün daha ağır nəticələrə gətirib çıxarmışdı. Nadir şah isə Allahverdi xanın rəhbərliyi altında Farsa qoşun dəstəsi göndərsə də qiyamın dinc şəkildə yatırılmasına çalışırdı. Nadir şah artıq bir dəfə Tağı xanın xəyanətini bağışlamış və onu öldürməməyə söz vermişdi. Verdiyi sözə hələ də sadiq qalan Nadir şah yenidən xəyanət yolunu tutmuş Tağı xanı bir daha bağışlamağa hazır idi.

Allahverdi xan qoşun dəstəsi ilə Şiraz ətrafına çatandan sonra Fars vilayətinin ağsaqqalları və sərkərdələri vasitəsilə Nadir şahın məktubunu Tağı xana göndərdi. Həmin məktubda bildirilirdi ki, Tağı xan və onun ətrafındakıların göstərdiyi xidmətlər yaxşı məlumdur. Onun səyləri nəticəsində dəyərli işlər görülmüşdür. Nadir şah ona təklif edirdi ki, münaqişə yolunu tərk etsin, vilayətə göndərilən sərdarın hüzuruna gəlsin və yenidən dövlətə xidmət göstərməyə hazır olduğunu bildirsin. Belə olsa onun günahlarından keçiləcəyi bildirilirdi. Nadir şah onu da əlavə edirdi ki, hər gah Tağı xan öz əməlindən daşınmasa və etdiyi günahlardan əlini çəkməsə onda Allahverdi xan vilayətin əhalisini qılıncdan keçirəcək, insan kəllələrindən minarələr düzəldiləcək, qadınlar və uşaqlar isə qazaxlara, kalmıklara və avropalılara satılacaqdır (408).

Tağı xan bağışlanacağını eşitsə də onu da bildi ki, bu dəfə Nadir şahın qəzəbi daha sərt olacaqdır. O bilirdi ki, silahı yerə qoysa belə, nə özü, nə də vilayət əhalisi Nadir şahın qəzəbindən qurtara biləcəkdir. Ona görə ətrafındakı sərkərdələri və tayfa başçılarını da Nadir şaha qarşı müqavimətin davam etdirilməsinə inandıra bildi. Allahverdi xanın elçilərinə də cavab verildi ki, qiyamçılar təslim olmaq niyyətində deyillər. Bu cavabı alandan sonra Allahverdi xan qoşunlarla Şirazın yaxınlığındakı Şah Bağı adlanan yerdə düşərgə saldı. Tağı xan əvvəlcə qaladan kənarda Allahverdi xanla döyüşə girməyi qərara aldı. Onun 10-12 min nəfərlik dəstəsi qaladan çıxıb Nadir şah qüvvələrinin üzərinə hücum etdi. Tərəflər arasında baş verən döyüş bir neçə saat çəkdi. Tağı xan böyük ümidlərlə döyüşə girsə də Allahverdi xanın dəstəsinin müqavimətini qıra bilmədi. Onun dəstəsi böyük itkilər verərək yenidən qala daxilinə qayıtmaq məcburiyyətində qaldı (409).

Allahverdi xanın barışıq təklifinə Tağı xanın cavabı və onun dəstəsi ilə baş verən döyüşün nəticələri haqqında Nadir şaha məktub göndərildi. Eyni zamanda Allahverdi xan Şiraz qalasını mühasirəyə almasını da bildirdi. Allahverdi xan yenə Tağı xana xəbər göndərdi ki, inadın-

dan əl çəksin, qılıncı yerə qoyub bağışlanmasını xahiş etsin və Nadir şahın kərəmi ilə qarşılaşsın.

Tağı xan bu dəfə də təslim olmaq təklifini qəbul etmədi. Əksinə, qalanın divarlarının və bürclərinin daha da möhkəmləndirilməsinə göstəriş verdi. Allahverdi xan da qalanın mühasirəsinin gücləndirilməsini tapşırdı.Qala divarları bütünlüklə nəzarət altına götürüldü və yenidən Tağı xana təslim olmaq təklifi göndərildi. Bu dəfə də rədd cavabı alındı. Qalanın mühasirəsi bir müddət uzanmalı oldu. Mənbələrin verdiyi məlumata görə, mühasirənin uzanması Tağı xanın sərkərdələri arasında narazılığı artırdı.Onlardan hətta Allahverdi xanın yanına adam göndərib birgə xidmətə hazır olduğunu bildirənlər də var idi. Yaranmış vəziyyət qala əhlini də qane etmirdi və onlar arasında da narazılıqlar artırdı. Ona görə sərkərdələr Tağı xana təklif etdilər ki, bütün qüvvələri bir də səfərbər edib Nadir şah qoşunlarının üzərinə yeni hücum təşkil edilsin. Əks təqdirdə isə qala əhli özü qalanı Allahverdi xana təslim edəcəkdir. Tağı xan sərkərdələrinə yenidən döyüşə girməyi vəd etdi. Qala divarları xaricində tərəflər arasında daha bir döyüş baş verdi. Tağı xan yenə də uğur qazana bilmədi (410).

"Aləm Ara-ye Naderi"yə görə, Şiraz qalasının mühasirəsi iki ay uzandı. Mühasirənin bu qədər uzanması Nadir şahı qane etmirdi və o öz narahatlığını Allahverdi xana da çatdırdı. Nadir şah Şirazın fəthini tezləşdirmək üçün hətta əlavə hərbi qüvvə də göndərdi. Amma Şiraz qalasının müdafiə imkanları göstərilən bütün cəhdləri nəticəsiz qoydu.Qalanın mühasirəsi üç aya çatanda Tağı xanın sərkərdələri arasında olan narazılıqlar Şirazın ələ keçirilməsinə imkan verdi. Qala divarlarının müdafiəsində dayanan sərkərdələrdən biri ailəsinə aman veriləcəyi təqdirdə qala qapısını açmağa hazır olduğunu bildirdi. Allahverdi xan yazılı şəkildə həmin sərkərdəyə zəmanət verdi və bununla da qala qapılarının açılmasına imkan yarandı. Nadir şah qüvvələrinin qalaya daxil olmasından xəbər tutan Tağı xan oğlu ilə birlikdə qaladan qaçmağa müvəffəq oldu. Amma qala daxilində müqavimət xeyli davam etdi (411).

Şəhər ələ keçiriləndən sonra orada qətl, qarət və talanlar başladı. Bir neçə gün ərzində şəhərə böyük xəsarət yetirildi.

Tağı xanla əlbir olan sərkərdələrin əksəriyyəti həbs edildi. Tağı xanın arxasınca isə dəstə göndərildi. Tağı xan oğlu ilə birlikdə dağlara, səhralara üz tutsalar da canlarını salamat qurtara bilmədilər. Tanıyanlar onları tutub Allahverdi xana təhvil verdilər. Allahverdi xan isə onları Nadir şahın əmri ilə İsfahana göndərdi. Burada onlar sərt şəkildə cəzalandırıldılar. Nadir şah Tağı xanı bu dəfə də öldürmədi. İsfaha-

na yaxınlaşanda Tağı xanı əvvəlcə uzunqulaq üstünə otuzdurdular, başına isə tülkü quyruğu tikilmiş papaq qoydular. Bu şəkildə Tağı xan məsxərəyə qoyuldu. Onun gözləri qarşısında iki oğlunu qətlə yetirdilər.Tağı xan isə axtalandı və gözlərinin biri kor edildi. C.Hanveyin yazdığına görə, onun xanımı əsgərlərin ixtiyarına verildi. "Aləm Araye Naderi" isə onun uşaqlarının təcavüz edilməsi üçün qoşunların ixtiyarına verildiyini yazır (412).

Nadir şah Fars qiyamının qaldırılmasında iştirak etmiş digər şəxslərlə qarşı isə son dərəcə sərt davrandı. Əvvəla, Bəndər Abbasa xüsusi bir dəstə göndərdi, ona sədaqətli qalmış Rüstəm xanın öldürülməsində əli olanların hamısını qılıncdan keçirdi. Şəhər əhalisi də Rüstəm xanın öldürülməsinə görə Nadir şahın cəzasından canını qurtara bilmədi. Tağı xanın silahdaşları, yaxınları və sərkərdələri də həyatları ilə vidalaşmalı oldular. Qiyamın qaldırılmasında Tağı xanın həmfikirləri olan Xəlifə Qacarın, Hacı Mani Qacarın və Bağır bəyin dərisi diri-diri soyuldu (413).

1744-cü ilin yanvarında Nadir şah Astrabadda da qiyam qalxması haqqında xəbər aldı.Bu qiyam Nadir şahın cavanlığı dövründə Şah Təhmasibin dəstəsinə qoşulduğu zaman qətlinə nail olduğu Fətəli xan Qacarın oğlu Məhəmməd Həsən xan rəhbərlik edirdi. Atası qətlə yetiriləndə Məhəmməd Həsən xan kiçik yaşlarında idi. Sonradan o, yəmut tayfası arasında yaşamış və Qıpçaq çöllərində həyat sürmüşdü. Məhəmməd Həsən xan həmişə Nadir şahı özünə düşmən hesab edirdi və atasının qisasının alınması üçün münasib vaxtı gözləyirdi. Cavanlığı dövründə Qurqana, qacarların məskunlaşdığı ərazilərə də gəlib-gedərdi.Qəlbində gizlətdiyi planlarının həyata keçirilməsi üçün yəmutlar arasında bir dəstə də təşkil etməyə müvəffəq oldu. Məhəmməd Həsən xanın Astrabadda iğtişaş yaratmaq iddiası qacarlar arasında da dəstək tapdı. Səfəvilər dövrünə nisbətən yeni şəraitdə dövlət idarəçiliyində daha az təmsil olunmaları qacarları Nadir şahdan narazı salmışdı və onlar Nadir şaha qarşı müxalifətdə dayanmaqdan belə çəkinmirdilər. Bunun ifadəsi kimi qacar kəndxudalarından olan Məhəmmədəli bəy Əzəddinli və başqa kəndxudalar Məhəmməd Həsən xanla görüşdülər və 4-5 min nəfərlik dəstəni də onun ixtiyarına verdilər. Qacar kəndxudaları Astrabad qalasının qapısının açılmasında da Məhəmməd Həsən xana yardımçı oldular. Nəticədə, Məhəmməd Həsən xan çətinlik çəkmədən Astrabadı ələ keçirdi (414).

Qiyamçı qüvvələr şəhəri ələ keçirib orada talanlara rəvac verdilər. Şəhərdə yerləşən ingilis və rus şirkətləri də talan edildi. Bu şirkətlər çalışırdılar ki, Xəzər dənizindən Astrabaddan kecməklə Məşhədə tica-

rət marşrutu yaratsınlar. Amma qiyamçıların yetirdiyi ziyanlar həmin planın icrasını qeyri-mümkün etdi. Məhəmməd Həsən xan Astrabadı nəzarət altına aldıqdan sonra ikinci Sam Mirzə ilə əlaqə yaratmağa və onun dəstəsinə arxalanmağa çalışdı. Sam Mirzənin taxt-taca olan iddiasını qəbul etməklə Məhəmməd Həsən xan onu Xəzərin cənub sahillərinə gəlməyə də dəvət etdi və vəd etdi ki, Xəzərin cənub əyalətlərinin nəzarət altına alınmasında ona yardım edəcəkdir. Amma məlumdur ki, Sam Mirzənin rəhbərlik etdiyi qiyam uğursuzluğa düçar oldu və onda Məhəmməd Həsən xan öz gücü ilə kifayətlənməli oldu (415).

Astrabadda qiyam qaldırılması haqqında xəbər Nadir şaha Mosul ətrafında olarkən çatdırıldı. Nadir şah bu qiyamın da dərhal yatırılması üçün hərbi dəstə formalaşdırılmasına göstəriş verdi. Ətək sərdarı Behbud xan və Sarı xan Qırxlı Xorasandakı qoşun dəstəsinə rəhbər təyin edilib Astrabad istiqamətinə göndərildi. Həmin vaxt Sarı xan Kermanda xidmətdə idi. Onlar ayrı-ayrılıqda hərəkətə başlayıb Qurqan və Astrabadda birləşməli və sonra birgə fəaliyyətə başlamalı idilər. Behbud xan bölgəyə daha tez yetişdi və Məhəmməd Hüseyn xanın qiyamının gündən-günə genişləndiyini görəndə Sarı xanın yetişməsinə qədər gözləməyə lüzum görmədi.Behbud xanın tabeliyində Əbivərd, Nəsayi, Dəruni, Kukəlan döyüşçülərindən təşkil olunmuş 10 min nəfərlik qoşun dəstəsi var idi. Məhəmməd Həsən xanın yəmutlardan və yerli əhalidən təşkil edilmiş dəstəsinin sayı isə 20 minə çatırdı. Behbud xan qarşı tərəfin say üstünlüyündən çəkinməyərək hücuma keçməyi qərara aldı. Məhəmməd Həsən xan da Sarı xanın dəstəsi gələnə qədər Behbud xanla döyüşə girməyi daha məqsədəuyğun saydı. Nəticədə hər iki tərəf Hacılar adlanan məntəqədə döyüşə girdilər.Qarşı tərəfin qüvvə üstünlüyünə baxmayaraq Behbud xan dəstəsinin əzmkarlığı təşəbbüsün ələ alınmasına və nəhayətdə uğurun təmin edilməsinə yol açdı. Məhəmməd Həsən xan elə bir zərbə aldı ki, Qurqana və oradan da birbaşa Manqışlağa qaçdı (416).

Behbud xan şəhərə daxil olub asayişi təmin etdi. Sarı xan da şəhərə yetişəndən sonra Astrabad daxilində təmizləmə işləri aparıldı, qiyamda əli olanlar cəzalandırıldı. Məhəmməd Həsən xan Qacarın yaxınları və qohumları Nişapura köçürüldü. Məhəmməd Həsən xan yəmutların yanına qaçsa da vaxtaşırı Astrabada talançı yürüşlər edirdi. Bu yürüşlər zamanı Məhəmməd Həsən xanın (Ağa Məhəmməd şah Qacarın atasıdır – M.S.) niyyətinə nail olduğu və olmadığı vaxtlar da olurdu.

Qeyd etmək lazımdır ki, Məhəmməd Həsən xanın qiyamı dövründə Mazandaranda digər kiçik miqyaslı iğtişaşlar da baş vermiş və Nadir şahın vaxtında gördüyü tədbirlər nəticəsində aradan qaldırılmışdı. Na-

dir şahın fikrincə bütün narahatlıqlarına və çətinliklərinə baxmayaraq iğtişaşların yatırılması ilə onların rəhbərləri nə niyyətdə olduqlarını biruzə verirdilər və Nadir şah da onların əməllərini cavabsız qoymurdu.Bu məsələ ilə bağlı "Aləm Ara-ye Naderi"də Nadir şahın fikri Azərbaycan türkcəsində onun dediyi kimi verilmişdir. Nadir deyirdi: "Mənim tanrımın mənə şəfqəti var ki, bədbatin (pis batinli-red.) düşmənləri mənə zahir eləyib sirrini aşkar eylər" (417).

Yuxarıda qeyd edildiyi kimi, 1743-45-ci illərin qiyamı və iğtişaşları Nadir şahın Osmanlı dövləti ilə müharibə apardığı bir vaxta təsadüf edir.Müharibəyə başı qarışması onun qiyamların yatırılmasında şəxsən iştirakını qeyri-mümkün edirdi. Osmanlı dövləti ilə müharibədə fasilə yaranan kimi Nadir şah Şəki üsyanının yatırılmasına yollandı. Baxmayaraq ki, həmin vaxt ölkənin daxilindəki digər qiyamlar hələ yatırılmamışdı.

Nadir şah bütünlükdə Şirvanda və Dağıstanda baş verən hərəkatlara daha həssaslıqla yanaşırdı. Görünür bu da səbəbsiz deyildi. Şirvanda və Dağıstanda yerli hakimlərin möhkəmlənməsi və güclənməsi son nəticədə Qafqazın yenidən itirilməsi ilə nəticələnə bilərdi.

Nadir şahın Şəkiyə yürüşü "Tarix-e Cahanqoşa-ye Naderi"də və "Aləm Ara-ye Naderi"də çox müxtəsər şəkildə xatırlanır. Bu barədə M.K.Mərvi nisbətən daha geniş məlumat vermişdir. Amma bu məlumat da həmin yürüş haqqında geniş təsəvvür əldə etməyə imkan vermir. Bu mənbələrə görə, Nadir şahın Şəkiyə yürüşünü təsadüfi və ya Nadir şah üçün elə bir əhəmiyyət kəsb etməyən yürüş kimi dəyərləndirmək mümkündür. Əslində isə bu bölgədə də Nadir şah hakimiyyətinə qarşı çox ciddi bir üsyan təşkil edilmişdi.

İlk baxışdan Şəkidə də üsyanın qalxmasına səbəb Nadir şahın təyin etdiyi hakimlərin dözülməz idarəçiliyi və vergilərin ağırlığı idi. Hələ 1741-ci ildə Nadir şah Dağıstanda olarkən Şəkinin nümayəndələri şahın qəbuluna gəlib Şəki hakimi Məlik Nəcəfdən ona şikayət etdilər. Şikayətlərə görə, həmin hakim əhalidən təyin olunandan xeyli artıq vergi toplamağa cəhd göstərirdi. Nadir şah Şəki əhalisinin nümayəndələrini kifayət qədər təmkinlə dinləyib şikayətlərinə diqqətlə yanaşdı. Özü təyin etdiyi hakimi azad etməsə də Şəki əhalisinə özlərinin vəkilini seçməsinə icazə verdi. Nadir şahın razılığına əsasən, yerli əhali tərəfindən vəkil seçilən şəxs Şəki hakiminin qanunsuz fəaliyyətinə müəyyən nəzarəti həyata keçirə bilərdi. Şəki əhalisi də camaat arasında hörmət və nüfuza malik olan Hacı Çələbinin vəkil seçilməsini istədi. Hacı Çələbi həm imkanlı bir şəxs idi, həm də dindar bir şəxs kimi tanınırdı. Nadir şah Hacı Çələbinin Şəki mahalının vəkili seçil-

məsi haqında fərman imzaladı və ona müəyyən səlahiyyətlər verdi. Həmin səlahiyyətlərə əsasən, Şəki hakimi Hacı Çələbinin razılığı olmadan əhaliyə hər hansı bir mükəlləfiyyət təyin edə bilməzdi (418).

Az sonra Şəki hakimi Məlik Nəcəflə Hacı Çələbi arasında ixtilaflar yaranmağa başladı. Məlik Nəcəf onun fəaliyyətinə nəzarət edilməsi ilə barışmaq istəmirdi və buna görə də müəyyən bəhanə edib Hacı Çələbini onun işlərinə qarışması, xüsusilə vergilərin toplanmasına mane olması barədə Nadir şaha şikayət etdi. Azərbaycan mənbələrində Nadir şahın Məlik Nəcəflə və Hacı Çələbi ilə yenidən görüşməsi haqqında məlumat vardır. Çox güman ki, bu görüş Nadir şahın Dağıstandakı və ya Şirvandakı düşərgələrindən birində baş vermişdi. Mövcud olan məlumatlardan belə məlum olur ki, Məlik Nəcəf Hacı Çələbiyə ciddi cəza veriləcəyinə əmin idi. O, Nadir şaha bildirdi ki, Hacı Çələbi şah əmrlərinin rəiyyət tərəfindən icra olunmasına imkan vermir. Şahın əmrlərinə kimsə qulaq asmaq istəmir.Nadir şah bu məlumatdan doğrudan da qəzəbləndi və onun təyin etdiyi vergilərin toplanmasına mane olduğu üçün Hacı Çələbini qətl etməyə göstəriş verdi. Amma Hacı Çələbi şaha məlumat verdi ki, onun məqsədi şahın təyin etdiyi vergilərin toplanmasına mane olmaq deyil. Əksinə, buna şərait yaratmaqdır. Şəki hakimi isə əhalidən təyin olunandan daha çox vergi tələb edir. Nəticədə əhali nə şah vergilərini verə bilir, nə də əlavə vergiləri (419).

Nadir şah Hacı Çələbinin söylədiklərinin məntiqini qəbul etdi və ona verilən cəzanı ləğv etdi. Hacı Çələbi əvvəlki vəzifəsində saxlanmaqla səlahiyyətləri bir qədər də genişləndi. Belə bir düşüncə sahibinin nə vaxtsa ona qarşı müxalifətə keçəcəyini ehtimal etsə də, Nadir şah onun ağlını və zəkasını yüksək qiymətləndirib həyatına toxunmadı. Öz əyanlarına isə onun haqqında olan fikirlərini belə çatdırdı: “Mənim hüzurumda heç kəs danışmağa belə cəsarət etmədiyi halda, bu şəkili Çələbi kəndir boğazında özünü itirmədən fikirlərini mənə söyləməyə cəsarət tapdı. Görərsiniz, o bir xəta törədəcəkdir, mən öz zənnimdə heç vaxt yanılmıram” (420).

Nadir şah etimad göstərib Hacı Çələbini azad etdi. Etimadı itirənlərə qarşı isə Nadir şah barışmazlıq nümayiş etdirirdi. Hacı Çələbi sağ qalmasından və öz vəzifəsində saxlanılmasından istifadə edib Məlik Nəcəfi daha çox sıxışdırmağa başladı. Bununla da əslində mahalda iki hakimiyyətlilik yarandı. Nadir şah bir müddətdən sonra Şirvanı tərk etsə də, Məlik Nəcəf mahalın idarəçiliyində mövcud olan çətinlikləri onun xidmətinə çatdırdı.Nadir şah bu dəfə artıq Hacı Çələbiyə sərt münasibətini göstərdi.Nadir şah şübhə etmirdi ki, Məlik Nəcəfin qar-

şısında Hacı Çələbinin nüfuzunun genişlənməsi mahalda itaətsizliyin yaranmasına bir zəmindir.Ona görə ona 100 tümən cərimə kəsib hüzuruna çağırdı.Hacı Çələbi bu cəriməni verməkdən imtina etdi. Nadir şahın kəsdiyi cəriməni ödəməkdən imtina edilməsi Nadir şahın üzünə ağ olunması demək idi. Nadir şah hakimlərin və əyanların itaətsizliyinin və iddialılığının qarşısını çox qətiyyətlə alırdı.Hacı Çələbini hüzuruna çağırmaqda da ona sərt cəza verəcəyi şübhə doğurmurdu. Hacı Çələbi bunu yaxşı başa düşüb Nadir şahın hüzuruna gəlməkdən imtina etməklə bərabər, hətta onun mahala hakim təyin etdiyi Məlik Nəcəfi də qətlə yetirdi. Sonra isə özünü Şəki mahalının hakimi elan etdi (421).

Hacı Çələbinin qiyam qaldırması Nadir şahın Osmanlı dövləti ilə müharibə illərinə və ölkə daxilində iğtişaş və qiyamların genişlənməsi illərinə təsadüf edir. Hacı Çələbi tarixi şəraiti incəliklə dəyərləndirərək Nadir şahın durumunun xeyli həssas olduğu vaxt Şəki hakimini qətlə yetirdi, mahalı isə müstəqil xanlıq elan etdi. Yəni, Hacı Çələbi Nadir şahın təyin etdiyi hakimi qətlə yetirməklə bərabər, Nadir şah dövlətinin ərazi bütövlüyünün parçalanmasına cəhd göstərmək kimi bir cəsarət etdi. Nadir şahın özünün Şəki qiyamının yatırılmasına yollanmasının səbəbini də bu məqamda axtarmaq lazımdır.

Bununla belə, Hacı Çələbi şübhə etmirdi ki, onun qiyamı Nadir şahın diqqətindən kənarda qalmayacaqdır. Fürsət yaranan kimi Nadir şah Şəki əhalisinə öz gücünü və qəzəbini göstərə bilərdi. Ona görə Nadir şahın başı Osmanlı dövləti ilə müharibəyə qarışdığı vaxt müdafiə tədbirlərini gücləndirdi. Əhalini sonradan "Gələsən-Görəsən" adı almış qalaya köçürdü.Orada ərzaq ehtiyatını artırdı, qalanın divarlarının və ətrafının etbarlı müdafiəsi üçün əlavə tədbirlər gördü.

"Gələsən-Görəsən" adlanan qala Şəkinin 8 kilometrliyində sıldırım qayalı dağların yüksəkliyində tikilmişdi. Qalanın ətrafı sıx meşəlik idi. Bu xüsusiyyətlər qalanın müdafiə imkanlarını daha da artırırdı.

Rus mənbələri əsasında Şəki üsyanının tarixini araşdıran sovet və Azərbaycan tarixçilərinin qənaətinə görə, Nadir şah həm 1744-cü ilin sonlarında, həm də 1745ci ilin əvvəlində Şəkidə olmuş və Hacı Çələbi xanın rəhbərliyi altında olan hərəkatı yatırmağa cəhd göstərmişdi. Nadir şahın 1744-cü ilin sonlarında Şəkidə olması "Tarix-e Cahanqoşa-ye Naderi"də və "Aləm Ara-ye Naderi"də öz təsdiqini tapmamışdır. "Aləm Ara-ye Naderi"də göstərilir ki, 1744-cü ilin sonlarında Nadir şah Qars ətrafından Arpaçaya doğru hərəkət etdi, oradan Ahalkələkə gəlib bir neçə günlük düşərgə saldı. Həmin günlər ərzində məntəqədən azuqə ehtiyatları topladı. Qışı isə Nadir şah su və azuqə ehtiyatları

ilə dolu olan Bərdədə keçirməyi qərara aldı. Mənbənin məlumatına görə, Nadir şah Bərdədə çox dayanmadı və Dağıstan tayfalarının itaət altına gətirilməsi üçün bir neçə gündən sonra Dağıstana doğru hərəkətə başladı. Məlumdur ki, qoşunların bütün yükləri Bərdədə saxlanıldı. Cavad yaxınlığında, Kür üzərində qurulmuş körpüdən keçən Nadir şah Dərbəndə üz tutdu. Dərbənddə olarkən Nadir şah qoşunlarını dörd dəstəyə böldü və bu dəstələrin hər birini bir istiqamətə göndərdi. 3-4 gün ərzində qoşun dəstələri göndərildikləri istiqamətdə yerli əhalini itaət altına gətirməklə bərabər, həm də azuqə toplanması ilə məşğul oldular. Mənbə xəbər verir ki, bir çox məntəqələrin hakimləri Nadir şahın yanına gəldilər və ona itaət etməyə hazır olduqlarını bildirdilər. Nadir də əvəzində onların hakimliyini təsdiq edib öz yerlərinə qaytardı. 1745-ci ilin yanvar ayının ortalarında Nadir şah Tabasaran yolu ilə Bərdəyə geri qayıtdı (422).

Göründüyü kimi, "Aləm Ara-ye Naderi" əsərində Nadir şahın 1744-cü ilin sonunda Şəkidə olması nə təsdiq, nə də inkar olunur. Yuxarıdakı tarixi təsvirin ümumi əhval-ruhiyyəsindən belə anlaşılır ki, Nadir şah dəstələrini müxtəlif istiqamətlərə göndərdi, özü isə Dərbəndə qaldı. Yəni, Şəki üsyanının yatırılmasına və oradan da azuqə toplanmasına göndərilən dəstələrdən birinə Nadir şahın sərkərdələrindən biri rəhbərlik edə bilərdi. Tabasaran yolu ilə Bərdəyə Nadir şah Şəkidən də qayıda bilərdi. Məsələ burasındadır ki, Azərbaycan və sovet tarixçilərinin istinad etdiyi bəzi tarixi mənbələrə görə, Nadir şah 1744-cü ilin sonlarında Şəkidə olmasını güman etmək olar.Həmin mənbələrdən birində Nair şah qoşunlarının Şamaxıdan iki günlük məsafədə, Gəncə ilə Araz çayları arasındakı Bərdədə yerləşdiyini xəbər verən müəllif daha sonra yazır: "...fars şahı qoşunları Şəki kəndinə göndərdi ki, .... oranı var-yoxdan çıxarsın. O kəndin əhalisi də fars qoşunlarının gəlməsini görüb meşələrdə, dağ dərələrində gizləndilər və çoxlu fars qoşunu qırdılar" (423).

Başqa bir mənbədə isə göstərilir ki, qoşunların bir dəstəsi Şəki əhalisinin ərzaq ehtiyatlarının toplanmasına göndərildi. Amma şəkililər taxıl vermək əvəzinə güclü müqavimət göstərdilər və imkan vermədilər ki, iranlılar onları qarət etsin. Onları məcbur elədilər ki, əli boş geri qayıtsınlar. Nadir bu vəziyyəti görəndə qərara aldı ki, zor və silah gücünə günahkarları cəzalandırsın (424).

İstinad edilən bu mənbələrin birincisi 1744-cü ilin sonunda Nadir şahın özünün Şəkidə olmadığını və yalnız qoşun dəstəsini ora göndərdiyini güman etməyə əsas verir. İkinci məbədə isə bir qeyri-müəyyənlik vardır. Mənbədə konkret olaraq bildirilmir ki, Nadir şah Şəkiyə

yollandı, yoxsa burada onun 1745-ci ilin fevralında Şəkiyə yollanması nəzərdə tutulur.

Amma Nadir şahla birgə olan rus rezidenti Bratişev öz raportlarında şahın da qoşun dəstəsi ilə 1744-cü il noyabrın sonunda Şəkiyə gəlməsindən xəbər verir. Bratişev Nadir şahın Şəki üsyançıları üzərinə noyabr (1744) hücumundan sonra təhqir olunmuş şəkildə yenidən Bərdəyə qayıtmasını yazır. O eyni zamanda döyüş zamanı Nadir şahın az qala qətlə yetiriləcəyindən xəbər verir. (425). "Aləm Ara-ye Naderi"də Şəkiyə hücum zamanı Nadir şahın qətl təhlükəsini təsvir edir. Amma mənbəyə görə, bu hadisə Şəki üzərinə 1745-ci ilin fevral ayında təşkil edilən hücum zamanı baş vermişdi (426). Bu deyilənlər də 1744-cü il noyabrın sonlarında Şəki üsyanının yatırılmasında Nadir şahın şəxsən iştirakına müəyyən şübhələr yaradır.

Bununla belə, qeyd etmək lazımdır ki, 1744-cü ilin noyabr ayının sonunda Şəkiyə gələn Nadir şah qoşunlarına qarşı təşkil olunan müqavimət kütləvi hal daşımırdı. Rus mənbələri xəbər verirlər ki, qoşunlar Şəkiyə yetişəndə mahalın bir sıra əyanları və nüfuzlu adamları Nadir şaha itaətini bəyan etdilər və onlar Nadir şahın bahalı hədiyyələrinə layiq görüldülər. Amma şəkililərin heç də hamısı Nadir şaha itaət etməyə razı olmadı və ona qarşı müqavimət təşkil olundu. Müqavimətin mərkəzi isə təbii xüsusiyyətləri baxımından etibarlı müdafiə imkanlarına malik olan "Gələsən-Görəsən" qalası oldu. Rus mənbələrinə görə, Nadir şah qoşunları 15 min nəfərdən ibarət idi. Bu qoşun dəstəsi "Gələsən-Görəsən" qalasını mühasirəyə aldı və müqavimətə əl atan şəkililərin itaət altına gətirilməsinə cəhd göstərdi. Nadir şah döyüşçülərinin irəliləmək istəyi yüksəklikdə qərar tutmuş qalanın müdafiəçilərinin atəşləri ilə qarşılandı. Həm qalanın sərt qayalıqlar üzərində yerləşməsi və onun hərtərəfli mühasirəyə alına bilməməsi, digər tərəfdən ətrafın sıx meşəliklərlə örtülməsi şəkililərin daha yaxşı vuruşmasına imkan yaradırdı. Nadir şahın döyüşçüləri də bütün bacarıq və şücaətini ortaya qoydu. Azərbaycan mənbələri təsdiq edirlər ki, tərəflər arasında döyüş həm uzun çəkdi, həm də hər iki tərəf çoxlu sayda itki verdi (427).

Mövcud olan məlumata görə, Nadir şah qoşunlarının heç də hamısı döyüşə cəlb edilmədi.Qalaya aparan yolun ensizliyi və qeyri-münasibliyi üzündən qoşunların əsas hissəsi, artilleriya və yüklər Daşbulaq kəndi yaxınlığında, Kotan düzü deyilən ərazidə qaldı. İrəliyə atılan qüvvələr isə ağır döyüş şəraitinə düşdü. Gecələr şəkililər meşələrə çəkilib ağaclar arxasından Nadir şah döyüşçülərini atəşə tuturdular. Yəni, şəkililər yerli şəraitə bələd olmalarından məharətlə istifadə edir-

dilər. Car-Balakəndən gələn hərbi qüvvə isə şəkililərin gücünü bir qədər də artırdı. Onlar qalanın toxunulmazlığını saxlaya bildilər (428).

"Gələsən-Görəsən" qalası ətrafında döyüş 3 gün davam etdi. 3 gündən sonra Nadir şah qoşunlarının geri çəkilməsi haqqında qərar verildi. Rus mənbələri Nadir şah qoşunlarının çox böyük itkilər verdiyini və həmin itkilərin 500 nəfər olduğunu yazırlar (429). Doğrudur, Nadir şah qoşunları bu qaladan geri çəkildi. Lakin Şəki ətrafındakı Nadir şah qoşunlarının 15 min nəfər olduğunu qəbul etsək, 500 nəfər döyüş itkisi elə də böyük rəqəm deyildi. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan mənbələri hər iki tərəfin ağır itkiləri olduğunu təsdiq edirlərsə, onda Nadir şah itkilərinin də döyüşün gərginliyinə dəlalət etdiyini söyləmək olar.

Nadir şah qoşunlarının sayına və təcrübəsinə baxmayaraq Şəki üsyançıları iradə və dözüm nümayiş etdirdilər, sığındıqları qalanın müdafiə imkanlarından məharətlə bəhrələndilər və Nadir şah qoşunlarının hücumu qarşısında bacarıqla müdafiə olundular.

"Aləm Ara-ye Naderi"yə görə, Nadir şah Dağıstan tayfaları ilə məsələləri yoluna qoyduqdan sonra Dərbəndə gəldi.1745-ci il yanvar ayının 14-də isə Bərdəyə yola düşdü. Lakin Nadir şah burada çox dayanmadı və 20 gündən sonra Kür çayını keçib Ərəşdə düşərgə saldı. Ərəşdə azuqə bolluğu və su mənbələrinin yaxında olması qoşunların qış çətinliklərini aradan qaldıra bilərdi. Mənbədən o da məlum olur ki, Şirvana bu dəfəki yürüşü zamanı oğlu Nəsrulla Mirzə də Nadir şahı müşayiət edirdi.Ərəşə çatandan sonra Nadir şah oğlu Nəsrulla Mirzəni İran İraqına göndərdi ki, həmin vilayətə, habelə Fars və Əlişgərdə hakimlik etsin (430).

"Aləm Ara-ye Naderi"də o da bildirilir ki, Ərəşdən sonra Nadir şah Şəki yaylaqlarına getdi və üç ayı orada keçirdi (431).Adı çəkilən mənbənin Nadir şahın Şəki yürüşü haqqında olan məlumatı bununla bitir. Ola bilsin ki, mənbə müəllifi Nadir şah qoşunlarının növbəti uğursuzluğuna diqqəti cəlb etməyi lazım bilməmişdi. Hər halda qışda (1725-ci ilin fevralında) Nadir şahın Şəki yaylağına getməkdə məqsədi yaylaq istirahəti deyildi. Qışın soyuğu və qarında Şəkidə üç ay istirahətə dayanmaq inandırıcı görünmür.Nadir şahı Şəkiyə aparan bu mahalın itaət altına gəlmək istəməyən əhalisinə dərs vermək idi. Lakin Nadir şah bu istəyinə tam nail ola bilmədi.

Nadir şahın qışın sərt çağında Şəkiyə hücum çəkməsi maraq doğuran bir məsələdir. Ona belə bir vaxtda hücum qərarı qəbul etməsinə səbəb çox ehtimal ki, bir tərəfdən şəkililərin müqaviməti dayandırmamasından narahatçılıq keçirməsi idisə, bir tərəfdən də yəqin ki, Os-

manlı dövləti ilə müharibədə yaranmış fürsətdən bəhrələnmək istəyi idi. Çünki, Nadir şah bilirdi ki, çox yaxın vaxtlarda Osmanlı dövləti ilə müharibə yenidən başlanacaqdır. Belə bir şəraitdə arxada, bütün Dağıstan və Şirvana sirayət edə biləcək üsyan ocağının qalmasını sözsüz ki, Nadir şah istəməzdi.

Çox güman ki, Şəkidə olduğu üç ay ərzində Nadir şah "Gələsən-Görəsən" qalası ətrafında mühasirə işlərinə rəhbərlik edirdi. Həmin üç ay ərzində göstərilən bütün cəhdlər hər hansı bir nəticə vermədi. Rus mənbələrinə görə, qalaya yaxınlaşmağa meşənin sıxlığı mane olduğu üçün Nadir şah irəliyə baltaçılar dəstəsi göndərdi. Bu dəstələr ağacları və kolluqları qıraraq qoşunların irəliləməsinə yol açmalı idi. Qalanın mühasirəsinə başlananda yenə bir sıra əyanlar və nüfuzlu adamlar Nadir şahın yanına gəlib itaətlərini bildirdilər. Nadir şah da onlara qiymətli hədiyyələr verdi və onları Hacı Çələbini də itaətə sövq etməyə çağırdı. Hacı Çələbi isə bu çağırışlara əhəmiyyət vermədi. O, qalada böyük ərzaq ehtiyatı yaratdığından hələ uzun müddət müqavimət göstərməyə gücü çatacağını bilirdi (432).

"Gələsən-Görəsən" qalasının mühasirəsinin davam etdiyi vaxt Nadir şah dəstələri ətraf yaşayış məntəqələrinə yürüşlər etdilər və Şəkiyə od vurdular. Qalanı tutmaq isə müyəssər olmadı. Belə olanda 1745-ci ilin mayında Nadir şah Şəkidən geri çəkilməli oldu. Onun Şəkidən geri çəkilməsi heç şübhəsiz ki, Yegən Məhəmməd paşa ilə döyüşün yaxınlaşması ilə bağlı idi. Nadir şah Xaçından Göyçə yaylağına, oradan da İrəvan ətrafına doğru hərəkət etdi. "Gələsən-Görəsən" qalasının mühasirəsini Nadir şah dayandırmadı. Qala ətrafında dayanan bir dəstə gediş-gəliş yollarını kəsərək üsyançıları ətraf aləmdən məhrum etdi. Yalnız bu yolla qala əhlini itaət altına gətirmək oldu. 1746-cı ilin martında üsyançılar ərzaq çatışmamazlığından müqaviməti dayandırmağı qərara aldılar. Nadir şahın fərmanı ilə Məlik Cəfər adlı birisi mahalın hakimi təyin edildi. Hacı Çələbi isə yenə də mahal vəkili vəzifəsində saxlandı (433).

Qeyd edildiyi kimi, Nadir şah Şəkidən İrəvana, oradan da Muradtəpəyə yollandı və Yegən Məhəmməd paşa ilə döyüşə başladı. Yegən Məhəmməd paşa üzərindəki qələbə Nadir şahın fatehlik tarixinin son qələbəsi və son hərbi uğuru oldu. Bu qələbədən sonra qalan iki ilə yaxın ömrünü Nadir şah daha çox üsyanların və iğtişaşların yatırılmasına, daxili maliyyə işlərinin nizamlanmasına sərf etdi.

Yegən Məhəmməd paşa ilə döyüşü başa vurandan sonra Nadir şah Xorasana yollanmağı qərara aldı. Xorasana doğru hərəkət edərkən o öz yolunu Təbrizdən və Marağadan saldı və bir müddət orada istirahət

etdi.Həmin istirahət müddətində Nadir şah ətraf məntəqələrin hakimlərini yanına çağırdı və onlardan vergilərin toplanması haqqında haqq-hesab istədi. Hesabında azacıq qüsur aşkarladığı hakimləri ən sərt cəzalarla cəzalandırdı, bəzilərini isə qətl etdirdi. 1745-ci ilin sonlarında Nadir şah Azərbaycanı tərk etdi, Həmədan və Fərahan yolu ilə dekabrın 28-də İsfahana çatdı. Yol boyu dayandığı yerlərdə məntəqələrin hakimlərini yanına çağırtdırıb onlardan da maliyyə hesablarını tələb etdi. Yenə də bir çox hakimlər və hətta bəzi məntəqələr Nadir şahın sərt cəzaları ilə rastlaşdılar (434).

1746-cı il fevral ayının 2-də Nadir şah İsfahandan Xorasana doğru hərəkətə başladı. Məşhəddə də Nadir şah başlıca diqqəti maliyyə işlərinin araşdırılmasına istiqamətləndirdi. Qısa müddət ərzində Nadir şah Herat, Tun, Təbəs, Qaynat, Fərəh, Səbzəvar, Gürcüstan, Bəlx, Əndxud,Zurabad, Əbivərd, Kelat, Tərşiz, Xəbuşan, Nişapur, Semnan, Damğan və başqa məntəqələrin hakimlərini də hüzuruna çağırdı və onların maliyyə işlərini yoxladı. Bu məntəqələrin hər birində maliyyə pozğunluqları tapıldı. Nadir şah həmin məntəqələrin hamısına maliyyə məmurları göndərdi ki, çatışmayan vergiləri toplasınlar (435).

Məşhəddə olarkən Nadir şah Xorasan vəziri Mirzə Məhəmmədəli İsfahanini, özünün yaxınlarından olan Baba Kərimi və onlarla birlikdə daha yüz nəfəri maliyyə pozğunluqlarında ittiham edib qətlə yetirdi. Nadir maliyyə məmurlarını da ciddi təftiş etdi. Hesabında 10 tümən çatışmazlıq olan məmur da Nadir şahın cəzasından qurtara bilmədi. Ona görə də mənbələrdə deyildiyi kimi, Nadir şahın təftişindən təmiz çıxan maliyyə məmuru özünü ölümdən nicat tapmış insan hesab edirdi (436).

Nadir şah 1746-cı ilin Novruzunu Məşhəddə keçirdi. Onun göstərişinə əsasən, Novruz çox təntənəli qeyd edildi. "Aləm Ara-ye Naderi"nın müəllifinin sözlərinə görə, belə bir təmtəraqlı və əzəmətli bayram o vaxta qədər görünməmişdi. Nadir şah həmin gün 12 min dəst xələti sərdarlarına, sərkərdələrinə, minbaşılarına, tayfa başçılarına, yasavullara və məmurlara payladı. 12 min bayram hədiyyəsi, 12 min tümən əşrəfi də həmin gün bayram hədiyyəsi kimi paylandı. "Aləm Ara-ye Naderi"nin müəllifi yazır ki, bu hədiyyələrin paylanmasının bir faydası yox idi. Çünki Novruz günü 50-60 min nəfər Nadir şahın nəvazişi və səxavəti ilə qarşılaşdısa, 200-300 min nəfər isə müxtəlif cəzalara layiq görüldülər (437).

Novruz bayramından sonra Nadir şah Kelata yollandı, Əbivərd və Dərgəzdə oldu. Sonra da Xəbuşan və Esfəreyn yolu ilə İraqa yola düş-

dü. Nadir şahın İraqa yollanmaqda məqsədi Osmanlı dövlətinin elçiləri ilə görüşmək və bu dövlətlə sülh müqaviləsi bağlamaq idi (438).

1746-cı ilin ilk aylarında Nadir şah daha iki üsyanın qalxması haqqında məlumat aldı. Bunlardan birincisi 1746-cı ilin elə ilk günlərində Nadir şahın yaxınlarından hesab olunan Məhəmmədəli xan Qırxlının rəhbərliyi altında lurların və bəxtiyarilərin üsyanı idi. Nadir şah Yegən Məhəmməd paşa ilə döyüşü başa çatdırdıqdan sonra etibar etdiyi Məhəmmədəli xan Qırxlını Əlişgər və İraq hakimi təyin etdi və inandı ki, onun rəhbərliyi altında adları çəkilən ərazilərdə Nadir şahın hakimiyyəti bərqərar ediləcəkdir. "Aləm Ara-ye Naderi"yə görə, hakim təyin ediləndən sonra Məhəmmədəli xan Qırxlıda mənəmlik iddiaları genişləndi və belə bir qənaətə gəldi ki, tabeliyində olan qoşun dəstəsinin sərkərdələri onu dəstəkləyərsə Nadir şah hakimiyyətindən üz döndərə bilər və bununla da müstəqil bir hakimə çevrilə bilər. Digər tərəfdən maliyyə yoxlamaları ilə bağlı hakimlərin qətli və cazalandırılmaları Məhəmmədəli xan Qırxlının itaətsizlik yoluna düşməsinə təkan verdi. O şübhə etmirdi ki, Nadir şahın cəzaları ona da gəlib çatacaqdır. Bundan başqa, lurların və bəxtiyarilərin Nadir şah cəzalarından nicat tapmaq üçün ona müraciət etmələri də itaətsizliyin başlanması üçün zəruri ictimai mühit yaratdı. Lurlar və bəxtiyarilər üzərinə qoyulan ağır vergilər çıxış yolu kimi iğtişaşların başlanmasını şərtləndirdi. Belə olanda Məhəmmədəli xan Qırxlı lurlar və bəxtiyarilərlə birləşdi, özü də Nadir şahın siyasəti ilə razı olmadığını bildirdi və söylədikləri ilə Nadir şahı yerli əhalinin gözündən salmağa çalışdı. Məhəmmədəli xan Qırxlı əvvəlcə lur sərkərdələrini yanına çağırıb onları Nadir şah əleyhinə qaldırılan üsyana sadiq olmağa and içdirdi. Sonra isə öz sərkərdələri ilə ayrı-ayrılıqda danışdı və onları da itaətsizliyə təhrik etdi. Məhəmmədəli xanla əlbir olmağa söz verən sərkərdələr arasında da Nadir şahın yaxınları var idi. O cümlədən, İmamverdi xan Əbivərdi və başqaları (439).

Bununla belə, Məhəmmədəli xanın tabeliyində olan sərkərdələrin heç də hamısı bu iğtişaşa qoşulmadı. Onlardan biri olan Mirələm xan Nadir şaha sədaqət nümayiş etdirdi və onun Nadir şaha sədaqəti Məhəmmədəli xanın qəzəbinə tuş gəldi.Bu iki şəxsin tabeliyində olan qoşun dəstəsinin qarşı-qarşıya gəlməsi nəticəsində üsyançılar məğlub oldular, onların rəhbərləri, o cümlədən Məhəmmədəli xan həbs edildi və Nadir şahın əmri ilə gözləri çıxarıldı (440).

Nadir şah Osmanlı dövləti ilə sülh müqaviləsinin imzalanmasına nail olandan sonra yenidən Xorasana qayıtdı. Onun Xorasana gedən yolu İsfahan və Yəzddən keçdi. Nadir şah 1747-ci ilin əvvəllərində

Kermanda da oldu. İstər Kermanda və istərsə də digər məntəqələrdə çoxlu qətllər həyata keçirildi. Nadir şahın olduğu məntəqələrdə sədaqətinə şübhə etdiyi insanların kəllələrindən minarələr quruldu.

1746-cı ilin əvvəllərində baş verən və son nəhayətdə Nadir şah üçün faciəli sonluğa gətirən üsyanlardan biri də Sistan üsyanı idi. Bu üsyan 1746-cı ilin martında başladı və əslində Nadir şahın həyatının sonun kimi davam etdi. Həmin üsyanın başlanmasının əsas səbəblərindən biri kimi Nadir şahın ağır vergilər təyin etməsi göstərilir. "Aləm Ara-ye Naderi"yə görə, Fətəli xan Nadir şahın mərhəməti və şəfqəti nəticəsində Sistan hakimi vəzifəsinə qədər yüksəldi. Lakin onun hakimliyi dövründə vilayətin vergilərinin toplanmasında müəyyən problemlərin ortaya çıxdığı, böyük miqdarda divan vəsaitinin mənimsənildiyi Nadir şahın qulağına çatdırıldı. Nadir şah bununla əlaqədar vilayətə xüsusi maliyyə məmurları göndərdi ki, yaranan borc toplanıb dövlət xəzinəsinə köçürülsün. Vilayətdə böyük borc yarandığı üçün Nadir şah Fətəli xan Sistanini, Mir Kuçek xanı və bir neçə digər əyanı hüzuruna çağırıb vergilərin hesabatını vermələrini istədi. Fətəli xan və digər əyanlar Nadir şahın çağırışının onlar üçün faciə ilə qurtaracağını anladıqlarından onun hüzuruna getmədilər və Nadir şaha müxalifət yolunu tutdular (441).

Fətəli xan dövlət xəzinəsinə göndərməli olduğu yüz min tüməni mərkəzə göndərmədi və onu qoşun dəstəsinin möhkəmləndirilməsinə sərf etdi. Qoşun dəstəsinin sıralarını genişləndirdi, ətraf məntəqələrə talançı yürüşlər etdi. Nadir şaha itaətsizlik göstərən beluclar və digər məntəqələrin üsyançıları da Fətəli xana qoşuldular. Sistan üsyanı başlananda Nadir şah Məşhəddən İraqa doğru hərəkət edirdi. O, dərhal Məhəmmədrza xan Qırxlının tabeliyinə şahsevən, Mərv, əfqan və əbdali döyüşçülərindən təşkil olunmuş 10 min nəfərlik bir qoşun dəstəsi verdi. Məhəmmədrza xan Fərəhə çatıb orada bir neçə gün dayanmalı və sonra Sistan hakimlərinə və tayfa başçılarına məktub göndərərək onları Nadir şahın hüzuruna çağırmalı idi. Sistan hakimləri və əyanları əmrə tabe olmadıqda məsələ Nadir şaha çatdırılmalı və bundan sonra onlara qarşı hansı yol tutulacağı müəyyənləşməli idi (442).

Kelatda olan Məhəmmədrza xan Nadir şahın tapşırığını alandan sonra Mərvdən, Əbivərddən, Heratdan qoşun dəstəsini toplayıb Fərəhə yollandı. Orada ona Nadirabad bəylərbəyinin topladığı 8 minlik qoşun dəstəsi qoşuldu. Nadir şahın göndərdiyi qoşun dəstəsi ilə Fətəli xanın qoşun dəstəsi arasında baş verən döyüşdə üsyançılar məğlubiyyətə düçar oldular. Məhəmmədrza xan üsyanın rəhbəri olan Fətəli

xanı və bir neçə digər əyanı həbs edib Nadir şahın yanına gətirdi. 1746-cı ilin oktyabrında Fətəli xan kor edildi.

Lakin bununla Sistan üsyanına son qoyulmadı. Sistan hakimi həbs edilsə də yerli əhali yenə də mərkəzi hakimiyyətə tabe olmaqdan imtina etdi. Mir Kuçek və Mir Rüstəm adlı ağsaqqalların ətrafında birləşən üsyançılar vilayət paytaxtını tərk edib Xacə dağına çəkildilər və bu dağın yüksəkliklərində yerləşən qalaya sığındılar. Həmin qala etibarlı müdafiə imkanlarına malik idi. Qala bir tərəfdən dağların yüksəkliklərində tikilmişdi, digər tərəfdən də onu su əhatə edirdi. Qala ətrafındakı su zolağı xeyli geniş idi və onu gəmisiz keçmək mümkün deyildi. Sistanlıların Xacə dağındakı qalaya yığışmaları Məhəmmədrza xan tərəfindən Nadir şaha çatdırıldı. Amma nədənsə onların zərərsizləşdirilməsi Məhəmmədrza xana deyil, Nadir şahın qardaşı oğlu Əliqulu xana tapşırıldı (443). Nadir şah fərqinə varmasa da, bu qərar onun həyatının faciəli sonluğuna yol açdı.

Nadir şahın tapşırığını alan kimi Əliqulu xan dərhal Fərəhə yollandı və oradakı qoşun dəstəsinə rəhbərliyi öz üzərinə götürüb Sistana doğru hərəkətini davam etdi. Bölgəyə daxil olanda Əliqulu xan şahid oldu ki, əhali evlərini tərk edib Xacə dağına çəkiliblər. Vilayətdə yalnız tək-tək adamlarla rastlaşmaq mümkün idi ki, onlar da çarəsizlər idi və dağa qaça bilməmişdilər. Onda Əliqulu xan Xacə dağına yollanmağı qərarlaşdırdı. Qalaya tərəf irəliləmək üçün sal və qayıqlar hazırlandı. Amma görünür ki, Əliqulu xan göstərdiyi cəhdlərində bir nəticəyə nail ola bilmədi. Qırx gün ərzində Sistan üsyançıları zərərsizləşdirilməmiş qalırdı. Nadir şah tez-tez çaparlar göndərib vəziyyəti öyrənir və qiyamın yatırılmamasına görə narahatçılıq keçirirdi. Çox güman ki, Nadir şahın belə narahatçılıq keçirməsinə və Sistan üsyanına ciddi diqqət ayrılmasına səbəb yalnız oradakı üsyançıların zərərsizləşdirilməsi məsələsi deyildi. Nadir şah artıq Əliqulu xanın da ona qarşı çıxmasından şübhələnməyə başlamışdı. 40 gün ərzində Əliqulu xanın bir nəticəyə nail olmamasından o belə bir qənaətə gəldi ki, qardaşı oğlu bu üsyanın yatırılmasında maraqlı deyil. Şübhələrinə son qoymaq üçün Nadir şah yenidən Məhəmmədrza xanı mərvlilərdən ibarət qoşun dəstəsi ilə Sistana göndərdi. Məhəmmədrza xan da dərhal yola düşdü. O, Heratda olarkən Nadir şahın son qəddarlıqlarından, ən yaxın adamları arasında belə kütləvi qırğınlar aparmasından qorxuya düşdü. O da Nadir şaha itaətdən boyun qaçırdı və yenidən Mərvə döndü (444).

Məhəmmədrza xanın itaətsizlik yolunu tutması tezliklə Nadir şaha çatdırıldı. Amma həmin vaxtlarda Əliqulu xanın asiliyi onun üçün daha qorxulu idi və ona görə də bütün diqqətini məhz Əliqulu xanın

neytrallaşdırılmasına yönəltdi. Bu problemin həllinə nail olmaq üçün Nadir şah özünün ən sınanmış silahdaşlarından sayılan Təhmasib xan Cəlayiri Sistana göndərməyi qərara aldı. Məlum olduğu kimi, Təhmasib xan Əfqanıstanın və Hindistanın hakimi təyin edilmişdi və Sistan qiyamı cərəyan edən vaxt o, Nadir şahın görüşünə gəlmişdi. Nadir şah da bu fürsətdən yararlanmağı qərarlaşdırıb ona qoşun dəstəsi ilə Sistana yollanmağı tapşırdı. Nadir şah onu da tapşırdı ki, Əliqulu xanla görüşüb söhbət etsin və itaətsizlik yolundan döndərə bilməsə onun boynunu vurdursun (445).

Təhmasib xan Cəlayir Nadir şahın əmri ilə Sistana üz tutdu. Amma onun Sistana gəlişi də burada alovlanan qiyamın yatırılmasına kömək etmədi. Əksinə, Əliqulu xan ətrafında qiyamçı qüvvələrin artması Nadir şah hakimiyyətinə olan təhlükəni daha da artırdı.

## İSTİFRADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1383, s.154; Sərdadvər Ə. Tarix-e nezami və siyasi-ye douran-e Nader şah Əfşar. C.I, Tehran, 1378, s.926
2. Hanvey C. ... s.154
3. Astrabadi M. Tarix-e Cahanqoşa-ye Naderi. Tehran, 1368, s.347; Semnani P. Nader şah baztab-e həmmase və facee-ye melli. Tehran, 1368, s.141
4. Tarix-e Cahanqoşa-ye Naderi ... s.347; Semnani P. ... s.142
5. Tarix-e Cahanqoşa-ye Naderi ... s.347
6. Tarix-e Cahanqoşa-ye Naderi ... s.347; Qodusi M.H. Nadername. Xorasan, 1339, s.291
7. Əlirza Əfşar Cəm. Şiri ba şəmşir. Tehran, 1373, s.94-95
8. Moqtəder Q.H. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.57-58
9. Локкарт Л. Надир шах. Баку, 2004, с. 118
10. Mərvi M.K. Aləm Ara-ye Naderi. C.I, Tehran, 1384, s.441-442
11. Aləm Ara-ye Naderi, c.II, ... s. 447
12. Yenə orada
13. Yenə orada, s.449
14. Qodusi ... s.293
15. Yenə orada, s.293-294
16. Aləm Ara-ye Naderi, c.II, ... s. 449
17. Yenə orada, s.453
18. Qodusi ... s.294
19. Yenə orada, s.296-297
20. Aləm Ara-ye Naderi, c.II, ... s. 453
21. Tarix-e Cahanqoşa-ye Naderi ... s.347
22. Hanvey C. ... s.155
23. Asef, Mirzə Məhəmməd Haşem. Rostəm-üt təvarix. Tehran, 1379, s.180-181
24. Aləm Ara-ye Naderi, c.II, ... s. 455
25. Yenə orada
26. Hanvey C. ... s.158
27. Azərbaycan tarixi. Bakı, 1994, s.514
28. Aləm Ara-ye Naderi, c.II, ... s. 455
29. Qodusi ... s.299
30. Yenə orada, s.299-300

31. Yenə orada, s.301
32. Aləm Ara-ye Naderi, c.II, ... s.456
33. Qodusi ... s.301-302
34. Yenə orada, s.304-306
35. Yenə orada, s.306
36. Aləm Ara-ye Naderi, c.II, ... s. 456; Hanvey C. ... s.158; Локкарт Л., … с.125
37. Qodusi ... s.308
38. Yenə orada
39. Aləm Ara-ye Naderi, c.II, ... s. 457
40. Qodusi .. s. 309; Локкарт Л., … с.125
41. Aləm Ara-ye Naderi, c.II, ... s.
42. Локкарт Л., … с.124
43. Aləm Ara-ye Naderi, c.II, ... s. 458-460; Tarix-e Cahanqoşa-ye Naderi ... s.355,
44. Semnani P. ... s.158; Локкарт Л., … с.132
45. Aləm Ara-ye Naderi, c.II, ... s. 472
46. Tarix-e Cahanqoşa-ye Naderi ... s.364-365
47. Aləm Ara-ye Naderi, c.II, ... s. 472
48. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 365
49. Tarix-e Cahanqoşa-ye Naderi ... s.366; Aləm Ara-ye Naderi, c.II, ... s. 473
50. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 367; Aləm Ara-ye Naderi, c.II, ... s. 475
51. Aləm Ara-ye Naderi, c.II, ... s. 480
52. Yenə orada, s.481
53. Semnani P. ... s.163
54. Moqtəder Q., ... s.63-64
55. Yenə orada, s.65-66
56. Aləm Ara-ye Naderi, c.II, ... s. 481; Moqtəder Q., ... s.65
57. Локкарт Л., … с.178; Larudi N., ... s.113
58. Aləm Ara-ye Naderi, c.II, ... s. 486; Moqtəder Q., ... s.66
59. Aləm Ara-ye Naderi, c.II, ... s. 486
60. Yenə orada, s. 486-487
61. Aləm Ara-ye Naderi, c.II, ... s. 488; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 372
62. Aləm Ara-ye Naderi, c.II, ... s. 488;
63. Aləm Ara-ye Naderi, c.II, ... s. 489; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 373
64. Aləm Ara-ye Naderi, c.II, ... s. 489-490

65. Локкарт Л., … с.140
66. Aləm Ara-ye Naderi, c.II, ... s. 491-483; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 375
67. Aləm Ara-ye Naderi, c.II, ... s.493-494; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 375
68. Aləm Ara-ye Naderi, c.II, ... s. 494-495
69. Moqtəder Q., ... s.66-67
70. Yenə orada, s.68-69
71. Aləm Ara-ye Naderi, c.II, ... s. 543
72. Aləm Ara-ye Naderi, c.II, ... s. 544; Локкарт Л., … с.144
73. Локкарт Л., … с.144
74. Aləm Ara-ye Naderi, c.II, ... s. 545
75. Yenə orada, s.545-546
76. Yenə orada, s.548
77. Aləm Ara-ye Naderi, c.II, ... s.551-552; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 393
78. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 394-395
79. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 397; Локкарт Л., … с. 146; Moqtəder Q., ... s.71
80. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 397; Moqtəder Q., ... s.71
81. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 398
82. Meyməndinejad M. Zendegiye por macəra-ye Nader şah Əfşar. Tehran, 1362, s.553
83. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 398; Larudi N., ... s.120
84. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 399; Larudi N., ... s.121
85. Quzanlı C. Tarix-e nezami-ye İran. Tehran, 1315, s.524; Larudi N., ... s.121
86. Semnani P., ... s.191
87. Hanvey C., ... s.207
88. Hanvey C., ... s.184; Otter J. Səfərname. Əsr-e Nader şah. Tehran, 1366, s.151
89. Локкарт Л., … с. 150
90. Yenə orada, s. 149
91. Aləm Ara-ye Naderi, c.II, ... s. 553-554
92. Otter J., ... s.151; Hanvey C., ... s.184-185
93. Quzanlı C., ... s.526-527; Larudi N., ... s. 123-124
94. Quzanlı C., ... s.529
95. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 400; Aləm Ara-ye Naderi, c.II, ... s. 558; Moqtəder Q., ... s.73

96. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 400; Aləm Ara-ye Naderi, c.II, ... s. 559
97. Quzanlı C., ... s.532; Larudi N., s. 128
98. Локкарт Л., … с.151
99. Локкарт Л., … с.152; Moqtəder Q., ... s.73
100. Aləm Ara-ye Naderi, c.II, ... s.561
101. Yenə orada, s.562
102. Yenə orada
103.Мухаммад Казим. Поход Надир шаха в Индию. М., 1961, с.187
104.Aləm Ara-ye Naderi. C.II, ... s. 563; Moqtəder Q., ... s.74; Quzanlı C., ... s.536
105. Aləm Ara-ye Naderi, c.II, ... s. 563; Quzanlı C., ... s.537
106. Aləm Ara-ye Naderi, c.II, ... s. 564; Quzanlı C., 536
107. Hanvey C.. ... s.186; Otter J.. ... s.153
108. Aləm Ara-ye Naderi, c.II, ... s. 564; Quzanlı C., ... s.538
109. Aləm Ara-ye Naderi, c.II, ... s. 566; Larudi N., ... s.132
110. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 403-404
111. Meyməndinejad ... s.576; Локкарт Л., … с.132
112. Meyməndinejad ... s.568; Larudi N., ... s.133
113. Мухаммад Казим. Поход Надир шаха в Индию. М., 1961, с. 62-63
114. Meyməndinejad ... s.569; Moqtəder Q., ... s.75; Larudi N., ... s.133
115. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 407; Локкарт Л., … с.154
116. Larudi N., ... s.133
117. Quzanlı C., ... s.544-545
118. Yenə orada, s.545
119. Aləm Ara-ye Naderi, c.II, ... s. 637
120. Yenə orada, s.638-639
121. Локкарт Л., … с.155
122. Aləm Ara-ye Naderi, c.II, ... s. 639; Quzanlı C., ... s.548
123. Aləm Ara-ye Naderi, c.II, ... s. 640-641
124. Aləm Ara-ye Naderi, c.II, ... s. 680, 689; Tarix-e Cahanqoşa-ye Naderi ... s.411-412
125. Larudi N., ... s142
126. Larudi N., ... s.142; Moqtəder Q.,... s.78
127. Larudi N., ... s.142; Moqtəder Q., ... s.78-79
128. Quzanlı C., ... s.558-559
129. Aləm Ara-ye Naderi, c.II, ... s. 690; Moqtəder Q., ... s.80

130. Aləm Ara-ye Naderi, c.II, ... s. 691-694
131. Yenə orada, s.694-695
132. Yenə orada, s.696
133. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 412-413
134. Локкарт Л., … c.157; Larudi N., ... s148; Quzanlı C., ... s.563
135. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 414
136. Aləm Ara-ye Naderi, c.II, ... s. 116
137. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 414; Hanvey C., ... 213
138. Quzanlı C., ... s.572; Larudi N., 152
139. Quzanlı C., ... s.572; Hanvey C., ... s.202; Hədis-e Nader şahi. Tehran, 1376, s.178; Tehrani M. Tarix-e Nader şahi. Nadername. Tehran, 1349, s.319
140. Aləm Ara-ye Naderi, c.II, ... s. 700
141. Quzanlı C., ... s.574-575; Larudi N., ... s.153
142. Aləm Ara-ye Naderi, c.II, ... s. 712
143. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 415-416; Локкарт Л., … c.162
144. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 416; Larudi N., ... s.154
145. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 41
146 Moqtəder Q., ... s.81-82
147. Aləm Ara-ye Naderi, c.II, ... s. 709
148. Yenə orada, s.710
149. Moqtəder Q., ... s.83-84
150. Aləm Ara-ye Naderi, c.II, ... s. 716
151. Lоккарт Л., … c.164
152. Aləm Ara-ye Naderi, c.II, ... s. 718
153. Локкарт Л., … c.165
154. Hanvey C., 203; Локкарт Л., … c. 165
155. Tarix-e Cahanqoşa-ye Naderi ... s.417; Aləm Ara-ye Naderi, c.II, ... s.722
156. Meyməndinejad .... s.621; Larudi N., ... s.161
157. Quzanlı C., 581-582; Tehrani M. ... s.319
158. Aləm Ara-ye Naderi, c.II, ... s. 722
159. Larudi N., ... s.160; Moqtəder Q., ... s.85; Tehrani M., ... s.320
160. Frezer C. Tarix-e Nader şah Əfşar və moxtəsəri əz tarix-e səlatin-e Moqol dər hend. Tehran, 1363, s.104
161. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 418; Локкарт Л., … c.167
162. Meyməndinejad ... s.622; Quzanlı C., ... s. 583; Larudi N., ... s.162
163. Hanvey C., ... s.205; Moqtəder Q., ... s.86

164. Aləm Ara-ye Naderi, c.II, ... s. 722-723
165. Yenə orada, s.724
166. Yenə orada, s.726
167. Yenə orada, s. 728-729
168. Локкарт Л., … с.168
169. Moqtəder Q., ... s.87
170. Aləm Ara-ye Naderi, c.II, ... s.730
171. Hanvey C.. ... s.206
172. Hanvey C., ... s.207; Qozide-i əz monşaat-e Mirzə Məhəmməd Mehdi xan Astrabadi, monşiyülməmalek-e Nader şah Əfşar. Tehran, 1383, s.3
173. Aləm Ara-ye Naderi, c.II, ... s. 731
174. Hanvey C., ... s.207
175. Quzanlı c., ... s.588; Larudi N.. ... s.168
176. Локкарт Л., … с.170
177. Qozide-i əz ... s.31
178. Aləm Ara-ye Naderi, c.II, ... s. 732
179. Aləm Ara-ye Naderi, c.II, ... s. 733; Hanvey C., ... s.208
180. Локкарт Л., … с.170
181. Aləm Ara-ye Naderi, c.II, ... s. 733
182. Hanvey C., ... s.208-209; Quzanlı C., ... s.589-590; Larudi N., ... s.170-171; Semnani P., ... s.191
183. Локкарт Л., … с.171
184. Aləm Ara-ye Naderi, c.II, ... s. 733
185. Hanvey C., ... s.210
186. Yenə orada, s.211
187. Quzanlı C., ... s.591; Larudi N., ... s.172
188. Локкарт Л., … с.172
189. Aləm Ara-ye Naderi, c.II, ... s. 736; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 422
190. Локкарт Л., … с.173; Larudi N., ... s.173; Semnani P., ... s.194
191. Aləm Ara-ye Naderi, c.II, ... s. 738; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 423; Локкарт Л., … с.173
192. Larudi N., 174-175
193. Локкарт Л., … с.177; Hanvey C.. 216; Larudi N., ... s.176
194. Aləm Ara-ye Naderi. C.II, ... s. 745
195. Larudi N.. .. s.176
196. Aləm Ara-ye Naderi. c.II, ... s. 746
197. Hanvey C., ... s.216; Semnani P., ... s.208-209
198. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 427

199. Локкарт Л., … с.180
200. Hanvey C., ... s.217
201. Larudi N.. ... s.177
202. Aləm Ara-ye Naderi, c.II, ... s.  747
203. Larudi N.. ... s.178-179
204. Moqtəder Q., ... s.89
205. Semnani P., ... s.212
206. Aləm Ara-ye Naderi, c.II, ... s. 750; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 429
207. Aləm Ara-ye Naderi, c.II, ... s. 751
208. Hanvey C., ... s.234
209. Yenə orada, s.237-238
210. Hanvey C., ... s.239;   Локкарт Л., … с.187
211. Локкарт Л., … с.187
212. Hanvey C., ... s.243
213. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 431; Локкарт Л., … с..189
214. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 431; Локкарт Л., … с.188
215. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 432
216. Yenə orada, s.433-434
217. Локкарт Л., … с.190;  Hanvey C.. 245
218. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 434
219. Yenə orada
220. Aləm Ara-ye Naderi, c.II, ... s. 752
221. Локкарт Л., … с.191
222. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 436-436, 442;  Moqtəder Q., ... s.90;  Larudi N., ...s. 190
223. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 436-437
224. Aləm Ara-ye Naderi, c.II, ... s. 756-757
225. Yenə orada, s.759
226. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 438;  Локкарт Л., … с..194
227. Larudi N.. ... s.191;  Локкарт Л., … с.195
228. Moqtəder Q.. ... s.93
229. Aləm Ara-ye Naderi, c.II, ... s.776
230. Yenə orada, s.777
231. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 445
232. Локкарт Л., … с.481;  Semnani P., ... s.222
233. Aləm Ara-ye Naderi, c.II, ... s. 777, 778, 782
234. Moqtəder Q., ... s.94
235. Yenə orada, s.94
236. Aləm Ara-ye Naderi. c.II, ... s. 787

237. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.479
238. Larudi N., ... s.197
239. Quzanlı C., ... s.610;   Larudi N., ... s.198
240. Quzanlı C., ...s.611
241. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 447
242. Aləm Ara-ye Naderi, c.II, ... s. 788
243. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 448
244. Aləm Ara-ye Naderi, c.II, ... s.788
245. Yenə orada, s.789
246. Yenə orada
247. Yenə orada, s.790
248. Yenə orada, s.792
249. Yenə orada, s.794-795
250 Aləm Ara-ye Naderi, c.II, ... s.796;  Moqtəder Q., ... s.101
251. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 450;  Larudi N., ... s.201
252. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 451
253. Aləm Ara-ye Naderi, c.II, ... s. 797
254. Yenə orada, s.799
255. Nader şah. Axərin keşvərqoşa-ye .... s. 486
256. Aləm Ara-ye Naderi, c.II, ... s. 803
257. Aləm Ara-ye Naderi. c.II, ... s.804; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 453-454
258. Moqtəder Q., ... s.101
259. Nader şah. Axərin keşvərqoşa-ye ... s.487
260. Aləm Ara-ye Naderi, c.II, ... s. 805
261. Yenə orada, s.807
262. Yenə orada, s.808
263. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 455;  Nader şah. Axərin keşvərqoşa-ye ... s.487;  Moqtəder Q., ... s.102

264. Aləm Ara-ye Naderi, c.II, ... s. 809
265. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 455
266. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 456; Aləm Ara-ye Naderi, c.II, ... s. 812
267. Larudi N., .. s.206;  Nader şah. Axərin keşvərqoşa-ye ... s.489
268. Aləm Ara-ye Naderi, c.II, ... s.814; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 457
269. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 457; Aləm Ara-ye Naderi, c.II, ... s. 815; Moqtəder Q., ... s.104
270. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 458; Aləm Ara-ye Naderi, c.II, ... s. 815

271. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 458; Nader şah. Axərin keşvərqoşa-ye ... s.490-491
272. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 458-459; Nader şah. Axərin keşvərqoşa-ye ... s.491
273. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 459
274. Aləm Ara-ye Naderi, c.II, ... s. 826-827
275. Larudi N., ... s.210
276. Aləm Ara-ye Naderi, c.II, ... s. 833
277. Xaterat-e təbib-e məxsus Nader. S. 812. Bax: Əfrasiyabi B. Oqab-e Kelat. Tehran, 1371, s.803-849
278. Aləm Ara-ye Naderi, c.II, ... s. 833-834
279. Aləm Ara-ye Naderi, c.II, ... s. 834; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 469; Moqtəder Q., ... s.111
280. Aləm Ara-ye Naderi, c.II, ... s. 469
281. Локкарт Л., … с.230
282. Aləm Ara-ye Naderi, c.II, ... s. 841
283. Yenə orada
284. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 466-468
285. Arunova M.R, Əşrəfyan K.Z. Doulət-e Nader şah. Tehran, 1352, s.218
286. Xaterat-e təbib-e məxsus-e Nader ... s.813
287. Yenə orada
288. Arunova M.R., Əşrəfyan K.Z. ... s.219-220
289. Yenə orada, s.220-221
290. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 471
291. Arunova M.R., Əşrəfyan K.Z. ... s.222
292. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 472
293. Arunova M.R., Əşrəfyan K.Z. ... s.224
294. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 472
295. Aləm Ara-ye Naderi, c.II, ... s. 844
296. Aləm Ara-ye Naderi, c.II, ... s. 845
297. Yenə orada
298. Yenə orada, s.847
299. Yenə orada, s.847-849
300. Yenə orada, s.849
301. Yenə orada, s.850
302. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 479
303. Arunova M.R., Əşrəfyan K.Z. ... s.221
304. Локкарт Л., … с.250-251
305. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 483; Локкарт Л., … с.251

306. Aləm Ara-ye Naderi, c.II, ... s. 854
307. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 484
308. Aləm Ara-ye Naderi, c.II, ... s. 876
309. Tarix-e Cahanqoşa-ye Naderi ... s.486
310. Сотавов Н.А. Северный Кавказ в русско-Иранских и русско-турецких отношениях в XVIII М., 1991, с.109
311. Aləm Ara-ye Naderi, c.III, ... s. 887
312. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 484
313. Yenə orada, s.483
314. Aləm Ara-ye Naderi, c.III, ... s. 887
315. Yenə orada, s.887-888
316. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 486-487
317. Aləm Ara-ye Naderi, c.III, ... s. 890
318. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 487
319. Aləm Ara-ye Naderi. c.III, ... s. 890
320. Aləm Ara-ye Naderi, c.III, ... s. 891; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 488
321. Aləm Ara-ye Naderi. c.III, ... s. 892; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 488
322. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 489
323. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 490; Moqtəder Q., ... s.120; Локкарт Л., … с.273
324. Aləm Ara-ye Naderi, c.III, ... s. 893
325. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 491
326. Aləm Ara-ye Naderi. c.III, ... s. 908
327. Yenə orada, s.909
328. Yenə orada, s.909-910
329. Yenə orada, s. 910
330. Yenə orada, s.910-911
331. Локкарт Л., … с.274
332. Aləm Ara-ye Naderi. c.III, ... s. 916-917
333. Yenə orada, s.918
334. Aləm Ara-ye Naderi. c.III, ... s. 918; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 491
335. Локкарт Л., … с.276
336. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 492; Локкарт Л., … с.276
337. Aləm Ara-ye Naderi, c.III, ... s. 918
338. Aləm Ara-ye Naderi. c.III, ... s. 919-920
339. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 501
340. Локкарт Л., … с.279; Moqtəder Q., ... s.122

341. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 511
342. Aləm Ara-ye Naderi. c.III, ... s. 1033
343. Yenə orada, s.1034
344. Локкарт Л., … c.295
345. Larudi N. ... s.230; Aləm Ara-ye Naderi, c.III, ... s. 1042
346. Aləm Ara-ye Naderi, c.III, ... s. 1035
347. Aləm Ara-ye Naderi, c.III, ... s. 1043-1044; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 512-513
348. Aləm Ara-ye Naderi, c.III, ... s. 1044; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 514
349. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 514
350. Yenə orada, s.515
351. Aləm Ara-ye Naderi. c.III, ... s. 1045
352. Hanvey C., ... s.300
353. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 518-519; Hanvey C. ... s.301
354. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 519
355. Aləm Ara-ye Naderi, c.III, ... s. 1056; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 520
356. Hanvey C., ... s.302; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 520
357. Aləm Ara-ye Naderi, c.III, ... s.1057
358. Aləm Ara-ye Naderi, c.III, ... s. 1058
359. Moqtəder Q., … s.128
360. Aləm Ara-ye Naderi, c.III, ... s. 1061-1062
361. Yenə orada, s. 1062
362. Yenə orada
363. Yenə orada, s.1071
364. Aləm Ara-ye Naderi, c.III, ... s. 1071; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 521
365. Moqtəder Q.. ... s.127
366. Hanvey C., ... s.303-304
367. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 521
368. Hanvey C., ... s.305; Локкарт Л., … c.299
369. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 522
370. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 524; Локкарт Л., … c.301
371. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 527; Локкарт Л., … c.304
372. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 530-531; Локкарт Л., … c.305; Larudu N., ... s.238
373. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 529
374. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 527
375. Semnani P., ... s284-285

376. Yenə orada, s.285
377. Azərbaycan tarixi. C.III, Bakı 1999, s.381; Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1964, с.166
378. Aləm Ara-ye Naderi, c.III, ... s. 873
379. Yenə orada, s.876
380. Yenə orada, s.873-876
381. Yenə orada, s.876
382. Yenə orada, s.875
383. Yenə orada, s.378
384. Yenə orada, s. 879-880
385. Aləm Ara-ye Naderi, c.III, ... s. 880; Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1964, с.167
386. Мамедова Г. Русские консулу об Азербайджане. 20-60-е годы XVIII века. Баку, 1989, с.45
387. Aləm Ara-ye Naderi. c.III, ... s. 1036; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 502
388. Hanvey C., ... s.289
389. Алиев Ф. … с.168; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 503
390. Arunova M. R., Əşrəfyan K.Z., ... s.238
391. Aləm Ara-ye Naderi, c.III, ... s. 1037; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 503
392. Алиев ., … с.171; Мамедова Г., … с. 45
393. Aləm Ara-ye Naderi. c.III, ... s. 1038; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 503
394. Arunova M.R., Əşrəfyan K.Z., ... s.240
395. Aləm Ara-ye Naderi, c.III, ... s. 1039; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 504
396. Arunova M.R., Əşrəfyan K.Z., ... s. 244; Алиев Ф., … с.175
397. Aləm Ara-ye Naderi, c.III, ... s. 1040;
398. Yenə orada, s. 936
399. Aləm Ara-ye Naderi, c.III, ... s. 936; Semnani P., ... s.288
400. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 507
401. Aləm Ara-ye Naderi, c.III, ... s. 937
402. Yenə orada, s.937-938
403. Yenə orada, s. 942-943
404. Yenə orada, s.941

405. Локкарт Л., … с.288
406. Aləm Ara-ye Naderi, c.III, ... s.944
407. Локкарт Л., … с.288
408. Aləm Ara-ye Naderi, c.III, ... s. 977
409. Yenə orada
410. Yenə orada, s.950
411. Yenə orada, s.954
412. Yenə orada, 958
413. Yenə orada, s.959
414. Aləm Ara-ye Naderi, c.III, ... s. 960; Локкарт Л., … с.291
415. Hanvey C., ... s.294
416. Aləm Ara-ye Naderi, c.III, ... s. 963
417. Yenə orada, s.965
418. Azərbaycan tarixi. Bakı, 1994, s.519; Azərbaycan tarixi. C.III, 1999, s.383; Алиев Ф., … с.197
419. Алиев Ф., … с. 198
420. Yenə orada
421. Azərbaycan tarixi. Bakı, 1999, s.519
422. Aləm Ara-ye Naderi, c.III, ... s. 1046-1047
423. Алиев Ф., … с. 202
424. Arunova M.R., Əşrəfyan K.Z., ... s.248
425. Алиев Ф., … с. 202
426. Aləm Ara-ye Naderi, c.III, ... s. 1047
427. Arunova M.R., Əşrəfyan K.Z., ... s.248; Алиев Ф., … с. 201
428. Azərbaycan tarixi. c.III, Bakı, 1999, s.384
429. Алиев Ф., … с. 202
430. Aləm Ara-ye Naderi, c.III, ... s. 1047
431. Yenə orada
432. Arunova M.R., Əşrəfyan K.Z., ... s.249
433. Алиев Ф., … с. 211
434. Aləm Ara-ye Naderi. c.III, ... s. 1073, 1084
435. Yenə orada, s. 1085
436. Yenə orada, s.1086
437. Yenə orada, s.1088
438. Yenə orada, s.1088-1089
439. Yenə orada, s.1091
440. Yenə orada, s.1092-1093
441. Yenə orada, s.1184
442. Yenə orada
443. Yenə orada, s.1188

444. Yenə orada, s.1189
445. Yenə orada

# V FƏSİL

# NADİR ŞAHIN ÖLDÜRÜLMƏSİ

## 1. Nadir şaha qarşı həyata keçirilmiş qəsdlər

Nadir şah bütün şüurlu həyatını at belində döyüşlərdə və hərbi yürüşlərdə keçirmişdi. Bu müddət ərzində o, ən müxtəlif vəziyyətlərlə üzləşmiş və müxtəlif risqlərlə qarşılaşmışdı. Məlumdur ki, Nadir şah iştirak etdiyi döyüşlərin hərəkətverici qüvvəsi idi, ən həlledici anlarda özünü döyüşün ən gərgin nöqtələrinə ataraq hadisələrin ağırlığını öz üzərinə götürür və qolunun gücü ilə döyüşçülərini də qələbələrə ruhlandırırdı. Nadir şah belə döyüşlərdə həyatını təhlükələrə atmaqdan belə qorxmurdu. Ona görə idi ki, Nadir şah dəfələrlə ölüm təhlükəsi ilə qarşılaşmış və hər dəfə də çevikliyi və bir də bəxt ulduzu onu real təhlükələrdən salamat qurtarmışdı.

Bütünlükdə, Nadir şahın doğulduğu mühit risq və təhlükə ilə dolu olan bir mühit idi. Türkmən və yəmut tayfalarının Əbivərdə, Dərgəzə və Kelata aramsız talançı yürüşləri, insanları qırıb çatmaları, habelə məntəqənin hakimləri arasında gedən toqquşmalar bölgənin əhalisinin həyatına olan təhlükəni daha da artırırdı. Buna görə idi ki, insanların həyatı ən adi təsadüflərdən asılı idi.

Nadir da uşaqlığında ailəsi ilə birlikdə türkmən və yəmut tayfalarının talançı yürüşlərinin və yerli tayfalar arasında baş verən toqquşmaların şahidi olmuşdu. Əgər yazılanlar doğrudursa, Nadir hətta əsir də düşmüşdü.

Yuxarıda gənc Nadirin əmisi ilə münasibətləri haqqında danışılmışdı. Bu münasibətlər haqqında mövcud olan məlumatlar daha çox rəvayət xarakterlidir.Bununla belə, bu münasibətlərdə də Nadirin həyatına mövcud olan təhlükədən də söz açılır. Guya Nadir Kelat hakimi olan əmisini öldürüb Kelata sahib çıxmaq istəyirmiş. Əmisi isə Nadiri məhv etməklə onun tərəfdən olan təhlükəni aradan qaldırmaq istəyirmiş. Amma Nadir hadisələri qabaqlayıb ona qurulan tələdən sağ çıxmış və əmisini öldürərək həyatını xilas edə bilmişdi (1).

Nadirin həyatına qarşı istiqamətlənmiş daha real təhlükə onun Məşhədi işğal etmiş Məlik Mahmud Sistani ilə münasibətləri zamanı üzə çıxdı.Nadir öz dəstəsi ilə Məlik Mahmud Sistaninin xidmətinə girməsini bölgə hakimlərinin və əyanlarının çoxu istəmirdi. Çünki onun vilayət hakiminin yanında nüfuz sahibi olması digər yerli hakimləri üstələməsi demək idi. Ona görə dəfələrlə Nadirdən Məlik Mahmuda şikayət edildi. Məlik Mahmud da bu şikayətləri eşidib onları bir qədər də gözləməyi çağırdı. Nadir, Məlik Mahmudun yanında xidməti tərk etməsəydi heç şübhəsiz ki, ona qarşı qurulan tora düşəcəkdi. Elə Məlik Mahmuda sui-qəsd düzəltmək planının həyata keçməməsi də Nadir üçün potensial təhlükə idi. Məlik Mahmudun bu qəsddən xəbər tutacağı halda Nadirin sağ qalacağı mümkün deyildi. Ona görə Nadir Məşhəddən Əbivərdə geri döndü və dönməzdən əvvəl sui-qəsd xəbərinin Məlik Mahmuda çatmaması üçün onunla bu işdə əlbir olmağa söz verən iki nəfəri ova çağırtdırıb ayrı-ayrılıqda qətlə yetirdi (2).

Məlik Mahmud Sistanidən ayrılıb Əbivərdə qayıtdıqdan sonra Nadir ətraf məntəqələrə nəzarəti öz əlinə almağa başladı. Bölgənin yerli hakimləri Nadirə müqavimət göstərir və onun tələbləri ilə razılaşmaq istəmirdilər.Hətta Nadirin silah gücünə itaət altına gətirdikləri də gizlində ona qarşı sui-qəsd planlarından əl çəkmirdilər. Belələrindən biri Zağçənd hakimi Qaraxan Zağçənd idi. Nisada Səid Sultanın itaət altına gətirilməsindən sonra Nadirlə birlikdə olan Qaraxan Zağçənd özünün etibar etdiyi şəxslərlə sözləşib gizlində Nadiri öldürməyi qərarlaşdırdı. Amma Nadir vaxtında bu sui-qəsddən xəbər tutaraq Qaraxanı və onun həmfikirlərini qətlə yetirdi (3).

Nadir, Məlik Mahmud Sistanini Məşhəddən qovduqdan sonra onun silahdaşlarından olan Hüseyn Sultan bir qədər fəallaşıb Qayen məntəqəsini öz nəzarəti altına aldı. 1727-ci il avqustun 5-də Nadir, Təhmasib Mirzə ilə birlikdə Qayenə doğru hərəkətə başladı və çox keçmədi ki, sistanlıları oradan qovdu.Sonda Nadir Behdadin əfqanlarının zərərsizləşdirilməsinə yollandı. İsti havada dəstənin irəliləməsi və döyüş aparılması çətin olsa da Nadir Behdadini də nəzarət altına aldı və sonra da Senqana doğru hərəkətini davam etdirdi. Bu qalanın alınması uğrunda aparılan döyüş zamanı Nadirin yaxınlığında olan toplardan biri atəşlərin gərginliyinə dözməyib partladı. Topun ətrafında olan bir neçə döyüşçü həyatlarını itirsələr də, Nadir bu təhlükədən təsadüfən sağ çıxdı (4).

1728-c ildə Mazandaran, Rəşt və Lahican istiqamətində at oynadan Məhəmmədəli xan və Zülfüqar xan Məşhədə, Təhmasib Mirzəyə xəbər göndərdilər ki, əgər o, həmin bölgəyə gələrsə onun şahlığını qəbul

edər və bölgənin də onun hakimiyyəti altına gətirilməsinə kömək edərlər. Amma adları çəkilən xanlar gizlində Təhmasib Mirzəyə onu da çatdırdılar ki, onlar Nadirə qarşı sui-qəsd təşkil etmək niyyətindədirlər.Təhmasib Mirzə bu xəbəri məmnunluqla qarşıladı, Nadiri Mazandaran və Astrabada qoşun çıxarmağa sövq etdi , amma ona qarşı baş verə biləcək sui-qəsd haqqında eşitdiyini açıqlamadı.Lakin Nadir özü məsələdən xəbər tutdu. Buna baxmayaraq, Nadir Mazandarana qoşun çəkməyə razı oldu. Mazandaranda Köhnə Müşkan adlı yerdə qoşunlar düşərgə saldılar. Bu vaxt adları çəkilən xanların çaparları Təhmasib Mirzə ilə əlaqə saxlayırdılar. Nadir isə onların gəlib-getməsini və Təhmasib Mirzənin davranışını nəzarət altında saxlayırdı.Təhmasib Mirzənin düşərgədən aralanıb adları çəkilən xanlara qoşulması ilə Nadirin qətlə yetirilməsi baş verməli idi. Bu niyyətin həyata keçirilməsi üçün bir neçə gündən sonra Təhmasib Mirzə düşərgəsini tərk edib Məhəmmədəli xanla Zülfüqar xana birləşməyə cəhd göstərdi. Lakin Nadir bu cəhdin qarşısını aldı, onu geri qaytarıb Məşhədə göndərdi. Zülfüqar xanla Məhəmmədəli xan isə itaət altına gətirildi və Mazandaranla Astrabad da Nadirin himayə etdiyi Təhmasib Mirzə hakimiyyəti altına düşdü (5).

Növbəti təhlükə Nadiri 1729-cu ilin mayında, Kafirqala ətrafında Heratı tutmuş əbdali əfqanlarına qarşı döyüşdə haqladı. Məlumdur ki, həmin döyüş əfqanların üstünlüyü ilə başladı. Belə olanda Nadir bir dəstə süvari ilə gözlənilməz hücuma keçdi və döyüş meydanında vəziyyəti öz xeyrinə dəyişə bildi. Əlbəyaxa döyüş zamanı onun qarşısına çıxmış düşmən süvarilərini Nadir vurub atdan yerə salsa da özü də az qala onlardan birinin zərbəsinin hədəfinə çevriləcəkdi. Ona tuşlanan düşmən nizəsi Nadirin sağ ayağına dəydi və onu ağır yaraladı. Mövcud olan məlumatlara görə, Nadiri yaralayan şəxs Hacı Meşkin adlı birisi idi. O, söz veribmiş ki, ya Nadiri öldürəcək, ya da özü öləcəkdir (6).

Elə həmin ildə əbdali əfqanları ilə Herat ətrafındakı döyüşdə başqa bir təsadüf Nadiri real ölümdən xilas etdi. Gün ərzində davam edən ağır döyüşlər arasında yaranan fürsətdən istifadə edən Nadir çadırına dönüb bir qədər istirahət etmək istədi. Nadir silahını və əlbəsəsini çadırın içinə qoyub yaxınlıqda düzəldilmiş köşkə gəldi. Elə bu an Nadirin yenicə tərk etdiyi çadırı əfqan topçularının hədəfinə çevrildi. Top mərmisi çadırın tavanını parça-parça etdi və çadır yararsız hala düşdü (7).

Buna oxşar olan bir hadisə 1734-cü ilin noyabrında Gəncə qalasının mühasirəsi zamanı da baş verdi. Mühasirəyə rəhbərlik edən Nadi-

rin çadırı qalada yerləşdirilmiş Osmanlı toplarının atəş məsafəsində idi. Nadir çadırının yerinin dəyişdirilməsinə icazə verməyəndə onun qabağına daş hasar çəkildi. Bu hasar çadırın top atəşlərindən qorunması üçün nəzərdə tutulusa da osmanlılar yenə də çadırı atəşə tuta bildilər. Nadir yenə döyüşlərin bir günü həmin çadırını yenicə tərk edən kimi ora Osmanlı toplarının mərmisi düşdü. Top mərmisi çadırın daxilində Nadirin oturduğu taxtın kənarında partladı və əgər Nadir çadırı tərk etməmiş olsaydı onun sağ qalacağı da qeyri-mümkün ola bilərdi. Elə Gəncə ətrafındakı döyüşlərin gedişində Osmanlı toplarının mərmilərinin biri Nadirin çox yaxınlığında partladı. Mərmi o dərəcədə yaxında partladı ki, onun zərbəsindən ölən döyüşçünün qanı Nadirin üstünə çiləndi. Nadirin özünə isə bu dəfə də heç nə olmadı (8).

1735-ci ilin iyul ayının əvvəlində Dəclə çayı kənarında Topal Osman paşa ilə uğursuz döyüşündə Nadir daha bir real təhlükə ilə rastlaşdı. Son dərəcə gərgin keçən əlbəyaxa döyüşlərdə Nadir iki dəfə düşmən hədəfinə çevrildi. Hər iki halda da güllə Nadirin atına dəydi və özü salamat qurtardı. Birinci halda iki Osmanlı tüfəngdarı Nadiri atəşə tutdu. Onların atı Nadirin atını tələf etdi və onun yerə yıxıldığını görən döyüşçülərdən biri öz atını Nadirə verdi. Heç bir xətər dəyməyən Nadir yenə atına minib döyüşü davam etdirdi. İkinci təhlükə isə döyüşün başa çatmasına yaxın baş verdi. Üzücü və son dərəcə ağır nəticələrlə davam edən döyüşün daha bir gərgin vaxtında Nadirə istiqamətlənmiş güllə yenə Nadirin atına dəydi. Atla bərabər Nadir də yerə yıxıldı. Nadirin ayaqlarından biri atın altında qaldığı üçün bir qədər əzildi və ona görə Nadir yıxıldığı yerdən dərhal ayağa qalxa bilmədi. Onun azacıq ləngiməsini çoxları sərkərdənin öldürülməsi kimi qəbul etdilər. Nadir qvardiyasının döyüşçülərindən biri onu qaldırıb ata mindirdi və dərhal da döyüş meydanından çıxardı ki, ona daha başqa bir xətər yetirilməsin (9).

Nadir şahın öldürülməsinə istiqamətlənmiş cəhdlərdən biri də Hindistan yürüşü zamanı baş verdi. Yerli əhali əvvəlcə taxıl ardınca gedən Nadir şah döyüşçülərini qətlə yetirdilər. Sonra da Nadir şahın öldürülməsi haqqında şayiələr yayıldı və iğtişaşlara vüsət verildi. Nadir şah şəhərdə nə baş verdiyini öz gözü ilə görmək üçün şəhər küçələrinə çıxanda ona qarşı tuşlanmış tüfəng atəşinin hədəfinə çevrildi. Nadir bu dəfə də güllədən kənarda qaldı. Amma ona tuşlanan güllə yanındakı dəstə başçısının həyatına son qoydu (10).

Nəhayət, Nadir şahın taleyinin, onun qurduğu dövlətin gələcəyinin müəyyənləşməsinə ağır təsir göstərən və geniş əks-sədaya səbəb olan sui-qəsd hadisəsi 1741-ci il mayın 15-də Nadir şahın Savadkuh meşə-

lərindən keçib Qaduk keçidinə doğru irəliləyərkən baş verdi. Mənbələrə mövcud olan məlumatlara əsasən demək mümkündür ki, Nadir şahın qətli ilə nəticələnən sonuncu qəsd istisna olmaqla Savadkuh meşələrində baş verən sui-qəsd hadisəsi ciddi şəkildə planlaşdırılmış bir qəsd idi. Dağıstana doğru hərəkət zamanı Nadir şahın gözləmədiyi halda ağacların arasından atılan güllə ona azacıq xətər yetirsə də atını yerə sərdi. Bu vaxt onun ayıqlıq nümayiş etdirməsi və atı ilə bərabər özünün də yerə sərili qalması Nadir şahı növbəti atəşin xətərindən qorudu.

Bu qəsd ediləndə Nadir şah şöhrətinin və fatehlik əzəmətinin zirvəsində dayanırdı. Ucu-bucağı görünməyən bir imperiya onun qılıncının itaəti altına düşmüş və bölgənin ən güclü dövlətləri onunla hesablaşmaq məcburiyyətində qalmışdılar. Məhz belə bir zamanda kiminsə onu öldürməyə cürət etməsi Nadir şahı tamamilə özündən çıxardı. Ağaclar arasından atılan atəşdən sonra Rzaqulu Mirzə dərhal özünü onun yanına çatdırdı (11).

Ayağa qalxdıqdan sonra Nadir şah atəş açılan yerə getdi. Amma orada bir kimsədən əsər-əlamət tapmadı. Nadir şah şübhə etmirdi ki, ona atəş açan onun öz qoşunun döyüşçülərindəndir. Çünki kənar adam cəsarət edib bu qədər qoşunun arasına girməz və şahın özünə atəş açmazdı. O, minbaşılara və sərkərdələrə əmr etdi ki, dəstələrini yoxlasınlar və yerində olmayan döyüşçünün siyahısını tutub ona versinlər. Bundan başqa Nadir şah minbaşıları, yüzbaşıları və onbaşıları ayrıca yanına topladı və onları da ciddi şəkildə vəzifələndirdi ki, döyüşçülərini diqqətlə nəzərdən keçirsinlər, onların arasında hündürboylu, qarabənizli, zəif əndamlı və üzündə çiçək xəstəliyinin əlamətləri olan şəxslər olarsa onları Nadir şahın hüzuruna gətirsinlər. Lakin bütün qoşunlarda bu əlamətlərə uyğun gələn bir kimsə tapılmadı. Bu vaxt şahın xidmətində olan Şirin bəy Taymәni və Ağamirzə Taymәni Nadir şaha çatdırdılar ki, göstərilən əlamətlərə uyğun olan bir qulluqçuları var idi. Nikqədəm adlanan həmin qulluqçu bir neçə gündür ki, fərarilik edib qaçmışdır. Nadir şaha o da çatdırıldı ki, Nikqədəm tüfəng atmaqda çox mahir idi və hətta qaranlıq gecələrdə belə ilanı gözündən hədəf almağı bacaran döyüşçüdür.Verilən xəbərlərə görə onun igidlik və şücaətdə də tayı və bərabəri yox idi. Nadir şah bunu eşidən kimi Türküstana, Hindistana və ölkənin bütün vilayətlərinə fərman göndərdi ki, hakimlər, kələntərlər, məmurlar Nikqədəm əlamətində olan şəxsin axtarışına başlasınlar və ona rast gəldikləri təqdirdə həbs edib Nadir şahın hüzuruna göndərsinlər. Nadir şah Herat hakiminə və Herat hakiminin vəkilinə ayrıca məktub göndərdi ki, Nikqədəmin

axtarışı ilə məşğul olsunlar. Görünür, Nikqədəmin əslən Herat vilayətindən olması məlum imiş. Çünki bir müddətdən sonra Herat hakiminin vəkilinə çatdırdılar ki, Nadir şahın qoşunlarında xidmət etmiş Nikqədəm adlı bir şəxs Ələng oymağındadır. Herat hakiminin vəkili Qasım bəy bu xəbəri eşidən kimi 50-60 nəfərlik bir dəstə ilə həmin məntəqəyə yola düşdü. Qasım bəy Nikqədəmi təklikdə çadırda istirahət edən yerdə tapdı. Çadırı mühasirəyə alıb onu həbs etdilər və Herata gətirdilər (12).

Həbsə alındıqdan sonra Nikqədəmdən soruşdular ki, Nadir şaha güllə atması onun düşüüncəsizliyinin nəticəsi idi, yoxsa şücaətinin nişanəsi? Nikqədəm isə qorxmadan cavab verdi ki, Nadir şahın əcəli hələ çatmayıbmış. Ona görə mənim gülləm boşa çıxdı. Yoxsa Nadir şah torpağa gömüləcəkdi, mənsə ölkə sahibi olacaqdım (13).

Nikqədən Heratdan çaparların müşayiəti və mühafizəsi altında Nadir şahın hüzuruna yola salındı. Bir müddətdən sonra onu Şirvanda olan Nadir şahın yanına gətirdilər. Nadir şah əvvəlcə onunla təklikdə söhbət etdi, Allaha and içdi ki, əgər doğrusunu danışarsa Nikqədəmin həyatına toxunmayacaqdır. Əks təqdirdə isə onu qətl gözlədiyini bildirdi. "Aləm Ara-ye Naderi"nin şəhadətinə görə Nikqədəm öldürülməyəcəyinə sevindi və Nadir şaha aşağıdakıları danışdı: "Sənin görən gözünün qurbanı olum, belə bir vəziyyətdə sən məni tapmışsan. Məsələ belədir ki, mən Rzaqulu Mirzənin qulluqçuları ilə dostluq və yoldaşlıq edirdim. Dəfələrlə Rzaqulu Mirzənin hüzurunda olub ənam almışam.Dəfələrlə mənə buyurdu ki, sənə bir iş tapşırsam onu icra edərsənmi? Mən də dedim ki, əgər oğlumun başını istəsən onu hüzuruna gətirərəm. Xatircəm olandan sonra məni xüsusi bir xəlvət yerə çağırdı. Orada Məhəmməd Hüseyn xan Qacar, Rəhim Soltan Mərvi və əfşar sərkərdələrindən daha iki nəfər var idi. Mənə dedi: sən həşəmətli hökmdarı at belində olarkən güllə zərbəsi ilə yerə sərə bilərsənmi? Mən bir saat susub dedim- əgər fürsət yaranarsa əlimdən gələni edərəm" (14).

Nikqədəmin sözlərinə görə, oradaki sərkərdələr də bildirdilər ki, Nadir şah bu yaxınlarda Hindistandan qayıtmalıdır və bir neçə gündən sonra Herata gələcəkdir. Əgər yolda hərəkət zamanı bu iş görülsə daha yaxşı olar. Guya Nadir şahın ölümündən sonra ölkənin idarə edilməsini onlar tamamilə öz əllərinə keçirə biləcəkdilər. Nikqədəm Nadir şaha çatdırdı ki o, Herata qayıdarkən aldığı tapşırığı yerinə yetirmək üçün Fərəhə yollandı, Nadir şahın dəstəsinə qoşuldu və onun qətlə yetirilməsi üçün fürsət arasa da bu ona qismət olmadı. Onda Nikqədəm Heratdan Məşhədə qayıtmalı olur və məsələni Rzaqulu Mirzəyə

və digər sərkərdələrə danışır. Guya Rzaqulu Mirzə də ona bildirib ki, verilən tapşırığın icrası üçün Maruçaq nahiyyəsində daha yaxşı imkan olacaqdır.

Nikqədəmin verdiyi ifadəyə görə, o, bir müddət xəstələnməli oldu və Nadir şah Türküstanı fəth edib Məşhədə qayıdanda onu qətlə yetirmək mümkün olmadı. Guya bundan sonra Rzaqulu Mirzə onu bir də yanına çağırdı, öz vəziyyətindən ona şikayətləndi və əmrinin hələ də icra olunmaması üçün təəssüfləndiyini bildirdi. Nikqədəm də bu dəfə ona söz verir ki, daha fürsəti əldən verməyəcək və Nadir şahın qətli üçün bütün gücünü toplayacaqdır. Bildirdiyinə görə, Nikqədəm Nadir şahın bütün hərəkət yolları üzərində pusquda oturdu və nəhayət Savadkuh meşələrində Nadir şahı hədəf götürə bildi. Nikqədəm bir daha təkrar etdi ki, Nadir şahın əcəli çatmadığı üçün gülləsi boşa çıxdı (15).

Mənbələrdə və tədqiqat əsərlərində Rzaqulu Mirzənin Nadir şaha qarşı sui-qəsdin təşkilində iştirakı birmənalı şəkildə nə təsdiq olunur, nə də inkar. Bu barədə irəli sürülən müxtəlif fikirlər yalnız ehtimal xarakteri daşıyır.Hətta Nikqdəmlə bağlı məsələni daha ətraflı işıqlandıran "Aləm Ara-ye Naderi"nin müəllifi də Rzaqulu Mirzənin bu məsələdəki iştirakı ilə bağlı aydın münasibətini bildirməmişdir.

Nadir şah isə Nikqədəmin söylədiklərinə inandı. Çünki əvvəldən də Rzaqulu Mirzənin bir sıra xoşagəlməz hərəkətləri barədə məlumatlar almışdı. Bir tərəfdən də Nadir şahın ətrafı ona Rzaqulu Mirzənin şahlıq iddiasına düşməsi barədə xəbərlər çatdırırdılar. Ona görə Nikqədəmin ətraflı ifadəsi Nadir şahın şübhələrinin güclənməsinə əsas verdi.

Mənbələrdəki məlumatlardan aydın olmur ki, Nadir şah Nikqədəmin Rzaqulu Mirzə ilə söhbətlərinin şahidi kimi adlarını çəkdiyi xanları da sorğu-suala çəkdi ya yox. Amma Nadir şah Nikqədəmdən eşitdiklərindən sonra əminliklə qərara gəldi ki, Rzaqulu Mirzə ona qarşı təşkil olunan sui-qəsdin iştirakçısıdır. O əvvəlcə Nikqədəmi cəzalandırdı. Öldürməyəcəyinə söz verdiyi üçün onun gözlərini çıxarmaqla kifayətləndi. Sonra da həkimlərə tapşırdı ki, onun kor edilmiş gözlərinin müalicəsi ilə məşğul olsunlar (16). Məlumdur ki, Rzaqulu Mirzə də belə bir cəza ilə qarşılaşmalı oldu.

1745-ci ildə Dağıstana yürüşü dövründə də Nadir şah yenidən ona qarşı planlaşdırılan sui-qəsdin hədəfi oldu. Bu sui-qəsd ona yaxınları tərəfindən deyil, yerli əyanlar tərəfindən planlaşdırılmışdı. 1745-ci ilin yayında Şəkidə Hacı Çələbiyə qarşı döyüşdən geri qayıdanda Nadir şah qərara gəldi ki, Carla Qaytaq arasında, Əyriçay hövzəsində qiyam qaldırmış ləzgi Yaqubu zərərsizləşdirsin. Verilən məlumata görə, Ya-

qubun ətrafında 3 min nəfərlik bir dəstə toplaşmışdı. Nadir şah da 6 minlik bir dəstə ilə Əyriçay hövzəsinə doğru hərəkətə başladı. O, Əyriçay hövzəsində Narlı dərə adlı yerdə düşərgə saldı. Ləzgi Yaqubun harada yerləşməsi barədə məlumatlar dəqiqləşdiriləndən sonra Nadir şah bir neçə gün istirahət etdi (17).

Ləzgi Yaqubun adamları da Nadir şahın qüvvələrini müşahidə altında saxlayırdılar. Bu qüvvələrin Narlı dərədə istirahətə dayanması dərhal ləzgi Yaquba xəbər verildi. Bu xəbəri eşidəndə ləzgi Yaqubun döyüşçülərindən dörd nəfər irəli çıxıb Nadir şahı elə yatdığı yerdəcə məhv etməyə söz verdilər. Onlar dərhal Narlı dərəyə tərəf yola düşdülər və Nadir şah döyüşçülərinin libasını geydiklərindən çətinlik çəkmədən gecə vaxtı düşərgəyə daxil oldular.Mənbənin verdiyi məlumata görə, onlar düşərgəyə daxil olmaq üçün bəzi vaxtlar itlər kimi dizi üstündə süründülər. Bu yolla onlar mühafizəçilərin diqqətindən yayına bildilər. Onlardan ikisi Nadir şahın çadırı yaxınlığında mühafizədə dayandılar, ikisi isə əllərində qılınc Nadir şahın çadırına daxil oldular. Nadir şah çadırında həmişə iki ədəd şam yandırarmış. Təsadüfən həmin gecə bu şamlar da sönübmüş. Güclü külək hətta çadırı da aşırdı. Çadıra daxil olanlar yalnız öz qılınclarını Nadir şaha tərəf ata bildilər. Çünki çadırın aşması onların daha da yaxına gəlməsinə imkan vermədi. Atılan qılınclar boşa çıxdılar. Nadir şah səs-küyə yuxudan oyanıb haray çəkdi. “Aləm Ara-ye Naderi”nin şəhadətinə görə, Nadir şah yuxudan oyanıb Azərbaycan türkcəsində qışqırdı:“Nə xəbərdir?” Bu zaman müdafiəçilər tökülüb gəldilər. Əvvəlcə bayırda mühafizə kimi dayanmış iki nəfər öldürüldü. Sonra çadırın altında qalmış digər iki nəfər də çıxarılıb qətlə yetirildi. Nadir şah eyni zamanda onun mühafizəsində səhlənkarlığa yol vermiş həmişəkeşik dəstəsindən və mühafizəçilərdən 30-40 nəfərin qətlinə fərman verdi (18).

Nadir şah bir daha təsadüf nəticəsində onun üçün qurulmuş sui-qəsddən həyatını qurtara bildi.

## 2. Nadir şahın qətli

Qeyd etmək lazımdır ki, yuxarıda haqqında danışılan sui-qəsd cəhdlərindən Nadir şah adi bir təsadüf nəticəsində nicat tapmışdısa, sonuncu sui-qəsd hadisəsində isə adi bir təsadüf onun həyatı bahasına başa gəldi. Amma əslində, bu qətl Nadir şah dövrünün və mühitinin bir reallığı idi. Onun qurduğu dövlətin mahiyyəti də belə bir faciəli sonluğu istisna etmirdi.

Nadir şahın dövləti güc üzərində qurulmuşdu və dövlətin əsas siyasəti də başlıca olaraq bu gücün miqyasından asılı idi. Konkret tarixi şəraitdə belə bir dövlət uzun müddət ömür sürə bilməzdi və çox tezliklə ölkəni bürüyən iğtişaş və qiyamlar da bunu nümayiş etdirdi. Ölkə daxilindəki narazılıqlar və iğtişaşlar elə bir miqyas aldı ki, qətli ərəfəsində Nadir şah özü də başa düşdü ki, onun həyatına olan təhlükə addım-addım yaxınlaşmaqdadır.

Mənbələr və tədqiqatçılar Nadir şahın qətlinə aparan səbəblər içərisində onun xəstəliyi məsələsi üzərində geniş dayanırlar. Məlumdur ki, Nadir şah fiziki cəhətdən güclü bir şəxs olmuşdur. O, malik olduğu gücü və enerjisi ilə ən ağır döyüşlərin hərəkətverici qüvvəsinə çevrilərdi. Nadir şahın toppuzunun zərbəsinə kimsə dözə bilməzdi. At çapmaqda, qılınc oynatmaqda, toppuz vurmaqda o, ad çıxarmışdı. Tədqiqatçıların da qeyd etdiyi kimi, təxminən 50 yaşlarına kimi Nadir şah səhhətindən şikayət etməmişdi. Amma Nadir şahın sürdüyü həyat tərzi son dərəcə yorucu və ağır bir həyat tərzi idi. Onun qarşılaşdığı fiziki gərginlik sözsüz ki, sağlamlığa təsirsiz ötüşə bilməzdi. Nadir şah hətta taxt-taca yiyələnəndən sonra da həyatını at belində və çadırlarda keçirirdi. Dağlıq ərazilərin soyuq qışında Nadir şah aylarla çadırlarda qalırdı. Bir tərəfdən də düşərgə həyatının mükəmməl olmayan qidalanması onun səhhəti üçün problemlər yarada bilərdi. Minlərlə kilometr məsafə qət etməsi, bu müddət ərzində gözlənilməz sınaqlara sinə gərməsi və bütün bunlardan sonra fatehlik əzəmətini nümayiş etdirməsi vaxt ötdükcə səhhətində öz ifadəsini tapdı.

Mənbələrin verdiyi məlumata görə, Hindistan səfərindən əvvəl Nadir şahda ağır mədə xəstəliyi var idi. Həmin xəstəlik Nadir şahı ciddi narahat edirdi. Səhhətində problemin üzə çıxmasının nəticəsi idi ki, o, Hindistanın tanınmış həkimlərindən olan Ələvi xanı da geri qayıdarkən özü ilə gətirdi. Ələvi xanın müalicəsi onun səhhətini xeyli yaxşılaşdırdı. Amma məlumdur ki, Ələvi xan Nadir şahın yanında uzun müddət qalmadı və Nadir şahın icazəsi ilə Məkkə ziyarətinə yollandı. Digər həkimlərin isə səriştəli məsləhətlər verə bilməməsi Nadir şahın səhhətində yenidən narahatlıqların meydana çıxmasına səbəb oldu (19).

Lazımi müalicə almadığı üçün Nadir şahın səhhətində ağrıların şiddətləndiyi vaxtlar da olurdu. Məsələn, mənbələrin məlumatına görə, Şəki yürüşündən Göyçaya geri qayıdarkən Nadir şahın səhhətində yenidən ciddi ağrılar özünü göstərməyə başladı. Hətta bir neçə mənzil Nadir şahı xərəkdə, uzadılmış vəziyyətdə aparmaq lazım gəldi. Həkimlər işə qarışandan sonra onun vəziyyəti yaxşılaşmağa başladı (20).

Lakin bütünlükdə Nadir şahın səhhətində problemlər qalmaqda idi. Yerli həkimlərin təsirli müalicə yolu tapmamaları istər-istəməz Nadir şahın narahatlıqlarını artırmaqda idi. Nəhayət, Nadir şah səhhətinin müalicəsi üçün avropalı həkimlərin dəvət edilməsini məqsədəuyğun saydı. Bununla bağlı, ingilis ticarət nümayəndəliyinin rəhbəri Pirsondan xahiş edildi ki, Nadir şaha təcrübəli bir Avropa həkimi tapsın. Pirson da o zamanlar İsfahanda olan keşiş Bazeni həkim kimi Nadir şaha təqdim etdi. Bazen keşiş olsa da təbabətlə də maraqlanırdı və o, Nadir şaha təqdim olunan vaxt artıq müəyyən təcrübəyə malik idi. Hətta bir sıra xəstəliklərin müalicəsinə görə əhali arasında ad çıxarmışdı. Keşiş Bazenin müalicəsindən faydalananlar bunu Nadir şaha yazdıqları məktubda da təsdiq etmişdilər (21).

1746-cı ilin sonunda keşiş Bazen şəxsən Nadir şaha təqdim olundu. Nadir şah əvvəlc onu sorğu-suala tutdu və onun verdiyi cavablara diqqət yetirdi. Amma Bazen öz xatirələrində bu sorğu-sualların nədən ibarət olmasını təəssüf ki, xatırlamamışdır. İki gündən sonra Nadir şah onu yenidən yanına çağırdı. Keşiş Bazen yerli həkimlərin yanında Nadir şahın müalicəsinə başladı və onun xəstəliklərinə öz münasibətini bildirdi. Onun gümanınca Nadir şahda bədən boşluqlarına su toplanması xəstəliyi var idi.Tez-tez istifraq etməli olurdu ki, bu da onun normal qidalanmasına mane olurdu. Ağız quruluğu, qara ciyərin ağırlaşması onun xəstəliyinin əlamətləri idi. Görünür, deyilənlər Nadir şahda keşiş Bazenin təcrübəsinə bir əminlik yaratdı və 1746-cı ilin sonunda o, Nadir şahın baş həkimi vəzifəsinə təyin olundu. Keşiş Bazenə Nadir şahın qəsrində yer ayrıldı, ona ayda 50 tümən maaş kəsildi, istifadəsinə bir at və iki qatır verildi. Bundan başqa bir neçə nökər də onun xidmətində dayanmalı idi (22).

Xəstəliyinin nədən ibarət olduğu bildiriləndən sonra Nadir şah bu xəstəliklərdən müalicə təyin edilməsini tələb etdi. Keşiş Bazen onun xəstəliyinin tam sağaldılması üçün iki ay vaxt istədi.Onun verdiyi məlumata görə, həmin vaxt Nadir şahın ciddi xəstəliyə mübtəla olmasından artıq iki il keçmişdi. Bununla belə, Nadir şah öz fiziki gücünü hələ saxlaya bilmişdi.

Nadir şah xəstəliyin əlamətlərinin üzə çıxmasını heç də xoşlamırdı. Xüsusilə, səhhətindəki narahatlıqların ona gündəlik həyatını davam etdirməsinə mane olmasını istəmirdi.Yerli həkimlərə isə elə də bel bağlamırdı. Ona görə keşiş Bazen onun müalicəsi üçün iki ay vaxt istəyəndə Nadir şah bununla razılaşmadı. O, dərmanların hazırlanması üçün keşiş Bazenə 20-25 gün vaxt verə biləcəyini söylədi (23).

Keşiş Bazenin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Nadir şah səhhətindəki problemlərə görə bəlkə də üzdə görünəndən daha artıq əziyyət çəkirmiş. Bu əziyyətlərdən canını qurtarmaq üçün Nadir şah, keşiş Bazenə böyük ümidlər bağlayırdı. Çünki əvvəllər Bazenin çadırına Nadir şahın hərəmxanası yaxınlığında yer verilirdisə, sonradan onun çadırı Nadir şahın çadırının yaxınlığına köçürüldü.

Keşiş Bazen Nadir şahın müalicəsinə başlaması ilə bağlı maraqlı bir hadisəni də öz xatirələrində qeyd etmişdir.

Keşiş Bazen ona verilən bir ay başa çatdıqdan sonra Kermanda olarkən Nadir şahla yenidən görüşdü və hazırladığı dərmanları ona təqdim etdi.Nadir şaha bildirildi ki, səhhətinin düzəldilməsi üçün həmin dərmanlardan istifadə etməklə 24-25 gün müalicə olunmalıdır. Nadir şah bu şərtlə razılaşdı. Dərmanların qəbulu və bir müddət sakit keçən həyat onun səhhətinin yaxşılaşmasına xeyli kömək etdi. Buna görə keşiş Bazenə olan etimad daha da artdı. Amma Nadir şah həkimim tövsiyəsinə tam şəkildə əməl etmədi. Müalicənin davam etdiyi günlərin birində keşiş ona sakitləşdirici dərman verdi və həmin günü tam istirahətdə keçirməyi xahiş etdi. Havaların soyuq olması, güclü qar yağması, qalın qar örtüyü üzərində hətta hərəkət etməyin çətin olduğunu nəzərə alaraq keşiş, Nadir şaha təkid etdi ki, çadırından bayıra çıxmasın. Əks təqdirdə verilən dərman fayda əvəzinə, Nadir şaha ziyan gətirə bilərdi. Nadir şah isə bu tövsiyəni qəbul etmədi və at belinə minib bayıra çıxdı. Havanın soyuqluğu, at sürməyin gərginliyi onun səhhətini daha da pisləşdirdi və onun mədəsindən qan açıldı. Bazenin yazdığına görə, ona paxıllıq edən yerli həkimlər Nadir şahın yanında onun haqqında pis fikir yaratmağa çalışdılar. Nadir şah xəstəliyinin güclənməsinə görə əvvəlcə yerli həkimlərdən izahat istədi, sonra da Bazeni yanına çağırtdırdı.Bazen də bildirdi ki, xəstəliyin yenidən özünü göstərməsi Nadir şahın istirahət etməməsi ilə bağlıdır. Çünki bağırsaqların sakitləşdirilməsi üçün verilmiş son dərmandan sonra istirahətə ehtiyac var idi. Nadir şaha bir daha məsləhət görüldü ki, ona təyin olunan dərmanları içib istirahət etsin. Bundan sonra çox tezliklə həmin dərmanların faydasını hiss edəcəkdir. Bazenin yazdığına görə Nadir şah bu dəfə məsləhəti qəbul etdi və çox tezliklə onun səhhətində yaxşılaşma baş verdi (24).

Keşiş Bazen sonra xatirələrində daha çox Nadir şahın həyatının son aylarında baş vermiş hadisələri təsvir edir və daha Nadir şahın səhhəti haqqında əlavə məlumatlar vermir. Amma Nadir şahın həyatının son günlərinə kimi onu müşayiət etməsindən güman etmək olar ki, onun səhhətində müəyyən problemlər qalmaqda davam edirdi. Tədqiqatçılar

da bunu təsdiq edirlər ki, həyatının sonun qədər Nadir şah mədəsindən və qara ciyərindən əziyyət çəkdi. Ş.Pikletin yazdığına görə ömrünün sonuna yaxın xəstəliyini artıq Nadir şahın sifətində də oxumaq mümkün idi. "... Gözünün ətrafında qırmızı rəngli şiş yaranmışdı. Ola bilsin ki, bu, yuxusuzluğun, nigarançılığın və pərişan əhval-ruhiyyənin nəticəsi idi. Amma insanlar onun gözlərinin alacalanmasını qaniçənliyin əlaməti kimi şərh edirdilər. Vaxt ötdükcə hüzn və kədərin qara pərdəsi onun üzünə qondu və onun görkəminə dəhşətli görüntü verdi, baxışları qarşısında isə duruş gətirmək mümkün deyildi" (25).

Səhhətindəki problemlər, daimi yorğunluq, ölkə ərazisində və ətrafında baş verənlər heç şübhəsiz ki, Nadir şahın əhval-ruhiyyəsinə, davranışına, mənəvi-psixoloji durumuna təsir göstərirdi. Əslində, psixoloji sarsıntıları Nadir şaha daha ağır təsir göstərir və onun davranışına bir nizamsızlıq gətirirdi. Bu baxımdan Rzaqulunun kor edilməsi Nadir şahın özünə son dərəcə ağır bir zərbə oldu. Vaxt ötdükcə Nadir şah əməlinin peşmançılığını daha ciddi şəkildə hiss etməyə başladı, səbrini itirdi, mənəvi rahatlıqdan məhrum oldu, zəkasında çaşqınlıq yarandı, insanlara qarşı olan mərhəməti kütləşdi. Oğlunun gözlərinin çıxarılması eyni zamanda Nadir şahın həyatının faciəli sonluğunun başlanğıcını qoyan bir səhvə çevrildi. Mənbələrin və tədqiqatçıların əksəriyyətinin qənaətinə görə də Rzaqulu Mirzənin kor edilməsi Nadir şahın ruhi sarsıntılarını dərinləşdirdi və onda ifrat qəddarlıq əlamətləri güclənməyə başladı. Mövcud olan məlumatlara görə, həmin ruhi sarsıntılar Nadir şaha öz zəkasını daha aydın şəkildə nəzarət etməyə mane olurdu.

Nadir şahın ruhi sarsıntıları ilə müşahidə olunan qəddarlığı ömrünün son illərində çox geniş miqyas aldı və hətta onun haqqında sanballı mənbələr olan "Tarix-e Cahanqoşa-ye Naderi" və "Aləm Ara-e Naderi" də bu məqamları etiraf etməli olmuşdular. "Tarix-e Cahanqoşa-ye Naderi" yə görə, sevimli oğlunun və taxt-tac vəliəhdinin kor edilməsindən yaranan qəm və kədər Nadir şahın halını dəyişdi. Bundan başqa İran əhlindən gördüyü bəzi əməllər Nadir şahın düşüncəsinə ciddi təsir etdi, onun nifrətini artırdı və bütünlükdə təbii halını pozdu (26).

Təbii halından çıxdığı üçün idi ki, Nadir şahın ağır cəzaları cəmiyyət daxilində də ona qarşı bir dözümsüzlük yaratdı, ölkəni üsyanlar dalğası bürüdü. Nadir şah isə bu üsyanların yatırılması üçün daha təsirli və əsaslandırılmış bir taktika seçə bilmədi.

"Aləm Ara-ye Naderi"nin müəllifi M.K.Mərvi yazır ki, Nadir şahın əhvalının dəyişməsi onda mövcud olan malixülya xəstəliyi ilə əlaqə-

dardır. Müəllifə görə, vilayətlərdə qiyam və üsyanların artması onun böyük planlarının icrasına təsir göstərdiyi kimi, əhval-ruhiyyəsinə, insanlara münasibətinə də ciddi təsir göstərirdi. Müəllifə görə, Nadir şah öz düşmənlərinə həmişə qalib gəlmək iddiası ilə yaşayırdı və buna nail olurdu. Amma vaxt ötdükcə onun düşmənlərinə üstün gəlmək qabiliyyəti və keyfiyyəti sərtləşdi, həmin keyfiyyətlər onda mənəm-mənəmliyə, öz iradəsinin başqalarına qəbul etdirilməsi adətinə çevrildi. Müəllif sonra əlavə edir ki, psixoloji sarsıntı ilə əlaqədar olan bu xəstəliyə tutulan adamda xof, şübhə, hüzn əlamətləri daha da artır, qarşısındakı insanlara qarşı xoflu münasibət daha da qabarıqlaşır, onun psixoloji durumuna əks olan sözləri danışanlara qarşı sərt cəzaların tətbiqi adi hala çevrilir. Dərrakəsini və aydın zəkasını əldən verən belə xəstələrin müalicəsi asanlıqla başa gəlmir. Əksinə, bir çox hallarda qətl və qarət, qan axıdılması və edamlar bəzən belə xəstələrə təskinlik verir. M.K.Mərvi qeyd edir ki, Avropa həkimləri bu xəstəliyin müalicəsi üçün çarə tapa bilərdilər. Amma kimsə cəsarət edib onun belə bir xəstəliyə tutulmasını və həmin xəstəliyə qarşı müalicə olunmasını Nadir şaha təklif edə bilmirdi (27).

Ömrünün son illərində Nadir şahın xarakterinin və davranışının xeyli sərtləşdiyini və onun sərt cəzalarının üsyanlar dalğasının genişlənməsinə təkan verdiyini inkar etmək olmaz. Amma ölkə daxilində üsyan və separatizmin özünü göstərməsi yalnız Nadir şahın hakimiyyətinin son illərinə təsadüf etmir. Nadir şahın ruhi sarsıntılara məruz qalmasından xeyli əvvəl də ona itaətsizlik halları, separatizm meylləri özünü göstərmişdi.Yuxarıda belə halların bəzi obyektiv səbəblərinə toxunulmuşdur. Nadir şaha görə belə halların baş verməsinin səbəbi onun etibar etdiyi adamların vəfasızlığı, üzüdönüklüyü və sədaqətsizliyi idi. Belə hallar çoxaldıqca Nadir şahın ən yaxın adamlarına etimadı azaldı, sonra isə onun bütünlükdə oymaqlara və tayfalara etimadsızlığı artdı. Güclü psixoloji sarsıntıya məruz qalandan sonra isə, xüsusən vəzifə sahiblərinə olan inamsızlığı xof və şübhə ilə əvəzləndi. Ömrünün sonlarına yaxın isə onun ətrafında etibar edə biləcəyi çox az adam var idi.

Sərkərdəlik həyatının ən yaxın və ən sədaqətli silahdaşı olan Təhmasib xan Cəlayirə və qardaşı oğlu Əliqulu xana şübhə və inamsızlıqla yanaşması isə Nadir şahın süqutunu daha da yaxınlaşdırdı. Baxmayaraq ki, onlara şübhə ilə yanaşılması üçün ciddi bir əsas da yox idi. Əliqulu xana yaranan şübhə Sistan qiyamının yatırılmasında Nadir şahı qane edəcək operativlik göstərməməsi ilə bağlı idi. Sistan qiyamının tamamilə aradan qaldırılmasının bir müddət uzanması Nadir şahda

Əliqulu xanın sədaqətinə şübhə yaratdı. Ola bilsin ki, Əliqulu xanın sədaqətinə qarşı Nadir şahda əvvəlcədən şübhə yaranıbmış və silahlı qiyamın yatırılmasında göstərdiyi lənglik Nadir şahın şübhələrini daha da möhkəmlətdi. Bu barədə mənbələrdə məlumat yoxdur.

Nadir şahla Əliqulu xan arasında münasibətlərin kəskinləşməsi 1747-ci ilin əvvəlinə təsadüf edir. Nadir şah 1746-cı ilin sonu və 1747-ci ilin əvvəlində İsfahanda idi və oradan Xorasana yola düşdü. Həm "Aləm Ara-ye Naderi"nin, həm də "Tarix-e Cahanqoşa-ye Naderi"nin şəhadətinə görə, istər İsfahanda, istər yolu üzərində olan Kermanda, istərsə də marşrutu üzərində olan digər məntəqələrdə Nadir şah xeyli adamı edam etdirdi, çoxlarını cəzalandırdı, çoxlarını da sürgün etdirdi. Mənbələrin məlumatına görə, 1747-ci ilin əvvəlindən Nadir şahın psixoloji sarsıntıları daha da şiddətləndi. "Aləm Ara-ye Naderi"də yazılana görə isə Nadir şahın adları çəkilən məntəqələrdə həyata keçirdiyi cəza aksiyaları həm də Sistanda olan Əliqulu xana çatdırılırdı. Mənbə bildirir ki, Əliqulu xana çatdırılan xəbərlərə görə, Nadir şah artıq İran əhlindən üz döndərmişdi, dostla-düşmən arasında fərq qoya bilmirdi, yaxınlarını belə edam etdirmək adi hala çevrilmişdi. Hətta onun ən yaxın adamları sayılan Qasım xan Əfşarın, İmamqulu xanın, Məhəmmədəli xanın və digərlərinin kor edilməsi, onların var-dövlətinin isə zorla əllərindən alınması Əliqulu xanı da fikirləşməyə məcbur edirdi. Belə olanda Əliqulu xan da öz həyatının təhlükə içində olduğuna və var-dövlətinin zorla əlindən alınacağına narahatçılıq keçirməyə başladı(28).

Mənbələrdə göstərilməsə də, çox güman ki, Sistam qiyamının rəhbərləri, Nadir şaha itaətsizlik göstərən yerli əyanlar və qoşun sərkərdələri də bu və ya digər məlumatlarla Əliqulu xana təsir göstərməyə və onu da Nadir şaha qarşı çevirməyə çalışırdılar. Çünki məhz Sistanda Əliqulu xanda Nadir şah taxt-tacına sahib olmaq istəkləri baş qaldırmağa başladı. Sistan qiyamçılarının onu müdafiə etməsi isə Əliqulu xanda arzularının reallaşmasına bir ümid yarada bilərdi. Xüsusilə, Nadir şah Sistan qiyamının yatırılmasında göstərdiyi ləngliyə görə Əliqulu xana 100 əlif ( hər əlif 5 min tümən idi) cərimə kəsməsi (29) Əliqulu xanı birdəfəlik müxalifət yoluna yuvarladı. Çünki Əliqulu xan bilirdi ki, Nadir şahı artıq verdiyi qərarından çəkindirmək mümkün olmayacaqdı. Bundan başqa, həmin cərimənin hətta veriləcəyi təqdirdə Əliqulu xanın daha sərt cəzalardan nicat tapacağı məlum deyildi.

Əliqulu xanla birlikdə Nadir şahın şübhə dairəsinə düşmüş Təhmasib xan Cəlayirin hansı səbəbə belə bir etimadsızlıqla qarşılaşdığını söyləmək çətindir. Bu vaxt ömrünün 75-ci ilini yaşayan Təhmasib xan

Cəlayir Nadir şahın ən etibarlı və sədaqətli sərkərdəsi və silahdaşı sayılırdı. Nadir şahın hələ cavanlığında ona qoşulmaqla Nadir şahın sərkərdəlik və fatehlik tarixinin yazılmasında onun əvəzsiz xidməti var idi. Heç vaxt da Təhmasib xan Cəlayirin fikrində Nadir şaha qarşı şübhə və xəyanət hissləri yaranmamışdı. Nadir bunu bilirdi və ən ciddi məsələlərin həllində onun köməyinə və əzmkarlığına bel bağlayırdı. Sistana da göndərilməsi əslində Nadir şahın Təhmasib xan Cəlayirə olan etimadın nişanəsi idi. Başqa sözlə, Sistan qiyamı məsələsi ilə bağlı Nadir şah öz qardaşı oğlundan daha çox Təhmasib xan Cəlayirə etimad etdi. Hətta yuxarıda qeyd edildiyi kimi, Əliqulu xandan şübhələndiyi vaxt Təhmasib xan Cəlayirə onu öldürmək səlahiyyəti də verdi.

Təhmasib xan Cəlayir Sistana yola düşəndən sonra Nadir şah tərəfindən onun da 50 əlif cərimə edilməsi və hətta Əliqulu xan tərəfindən öldürülməsi haqqında fərman imzaladı.Mənbələrdə belə bir fərmanın nə səbəbə imzalanması haqqında məlumat yoxdur. Bəzi tədqiqatçılar belə güman edirlər ki, Təhmasib xan Cəlayirin Əliqulu xanla birləşməsi xəbərini alandan sonra Nadir şah onun öldürülməsinə fərman verdi. Çünki, bir tərəfdən bu şəxslərin rəhbərliyi altında kifayət qədər böyük qoşun dəstələri var idi və onların birləşməsi Nadir şaha qarşı ciddi bir qüvvəyə çevrilə bilərdi, digər tərəfdən də həm Əliqulu xan və həm də Təhmasib xan Cəlayir nüfuzlu və bacarıqlı sərkərdələr idilər. Birləşəcəkləri təqdirdə onların ətrafında əlavə olaraq xeyli qüvvə toplana bilərdi (30).

Amma mənbələrdə olan məlumatların təhlili göstərir ki, Təhmasib xan Cəlayirin cəzalandırılması haqqında fərman onun Əliqulu xanla birləşməsindən öncə verilmişdi. Əslində isə Təhmasib xan Cəlayirlə Əliqulu xanın birləşməsi də baş verməmişdi.

“Aləm Ara-ye Naderi”də təsvir olunur ki, Təhmasib xan Cəlayir Əliqulu xanla görüşəndə ona nəsihətlər verdi. Nadir şaha qarşı müxalifət yolundan çəkindirməyə çalışdı, tutduğu yolun axırının olmadığını söylədi.Təhmasib xan hər vasitə ilə onu yenidən Nadir şaha sədaqət göstərməyə çağırdı. Əliqulu xan onun tövsiyələrinin heç birini qəbul etmədi. Əksinə, Nadir şahın qəzəbindən qurtarmağın mümkünsüzlüyü üzərində dayandı. Məclisdəkilərin qarşısında o, Təhmasib xan Cəlayirin qətlə yetirilməsi haqqında Nadir şah fərmanını açıb hamıya, o cümlədən Təhmasib xanın özünə göstərdi. Nadir şah tərəfindən belə bir fərmanın verilməsindən heyrət içində qalan Təhmasib xan Cəlayir isə Əliqulu xanın öldürülməsi barəsindəki şah fərmanını məclisdəkilərə göstərdi. Əliqulu xan bir daha bildirdi ki, belə fərmanlar vermiş

Nadir şaha artıq etibar etmək olmaz və Nadir şaha yaxınlaşmaq onlar üçün ölümlə nəticələnə bilər. "Aləm Ara-ye Naderi"yə görə, Təhmasib xan Cəlayir onların hər ikisinin qətli haqqında fərmanı görəndən sonra daxili qərarsızlıq keçirsə də yenə də Nadir şaha sədaqət yolunu tərk etmədi və Əliqulu xan ətrafında toplaşanları yenidən Nadir şaha müxalifət yolundan çəkindirməyə cəhd göstərdi (31).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Təhmasib xan Cəlayirə əlavə olaraq 50 əlif cərimə kəsilməsi haqqındakı şah fərmanı da çatdırıldı. O da bildirildi ki, Nadir şahın maliyyə məmurları Sistana yola düşmüşlər ki, gəlib həm Təhmasib xandan, həm də Əliqulu xandan həmin cərimələri alsınlar. Bu xəbəri eşidəndən sonra Təhmasib xan da öz mövqeyi barəsində ciddi düşünmək məcburiyyətində qaldı və nəhayət müxalifətə keçmək barəsində müvəqqəti də olsa Əliqulu xanın təklifini qəbul etdi. Onlar belə bir fikir razılığına gəldilər ki, Nadir şah indiki vəziyyətdə taxt-tacı ailə üzvlərindən birinə versə yaxşı olar. Bu mənada elə Əliqulu xan özü taxt-taca ən real namizəd sayıldı. Amma görünür, Təhmasib xan Cəlayir vəziyyəti daha soyuq başla araşdırmağa çalışarkən Nadir şaha qarşı müxalifət yolunu tutmağın mənasızlığını anladı və ya ola bilsin ki, ömrü boyu səmimi qəlbdən dəstəklədiyi bir insanın əleyhinə getməyi özünə qəbul etdirə bilmədi və yenidən Əliqulu xan tərəfdarlarını Nadir şaha müxalifətdən əl çəkməyə çağırdı. Əliqulu xan isə artıq özünü Nadir şahın taxt-tacında görürdü və ətrafında toplaşan böyük qüvvə də onu dəstəkləyirdi. Əliqulu xan bu yolda Təhmasib xan Cəlayirin ona mane ola biləcəyini ehtimal edirdi. Ona görə də taxt-tac ümidlərinin qarşısında mane hesab etdiyi Təhmasib xan Cəlayirin aradan götürülməsi üçün yeməyinə zəhər qatılmasını əmr etdi. Bu yolla Nadir dövrünün müdrik və ağsaqqal sərkərdəsi olan Təhmasib xan Cəlayirin həyatın son qoyuldu (32). Əslində, bu qətllə Nadir şah da özünün Rzaqulu Mirzədən sonra ən etibarlı dayaqlarından birini itirdi.

Təhmasib xanın qətli Əliqulu xanın taxt-tac uğrunda daha açıq döyüşə keçməsinə şəraiti genişləndirdi. O, Sistan qiyamçıları ilə, Sistana göndərilmiş Nadir şah dəstəsi ilə danışıqlar apardı və onları da öz tərəfinə çəkə bildi. Sonra ətrafına topladığı qoşunlarla Fərəhə yollandı. Fərəh əhalisi Əliqulu xanı təntənə ilə qarşıladı və onu dəstəkləməyə hazır olduğunu bildirdi. Bu da Əliqulu xanın ətrafındakı qüvvələrin genişlənməsinə imkan verdi. Əliqulu xan bununla da kifayətlənmədi. Daha böyük hərbi qüvvəyə malik olmaq üçün əfqan tayfalarının Nadir şah əleyhinə səfər edilməsi işinə başlandı. Fərəhdə olduğu bir neçə

gün ərzində ətraf yaşayış məntəqələrinin rəhbərləri Əliqulu xana sədaqət nümayiş etdirdilər və həmin məntəqələrdə toplanan dəstələr də Əliqulu xanın qoşunlarına qoşuldular. Daha sonra Əliqulu xan Herata gəldi. Herat da Nadir şaha müxalifət yolunu tutub Əliqulu xanı dəstəklədi. Herat vilayətində yaşayan şahsevən və digər tayfaların dəstələri Əliqulu xanın qoşunlarına qatıldılar. "Aləm Ara-ye Naderi"nin məlumatına görə, Əliqulu xanın Heratda artıq 60 min nəfərlik qoşunu var idi.Bu mənbənin şəhadətinə görə, Əliqulu xan Nadir şaha sədaqət təbliğatından əl çəkməyən Təhmasib xan Cəlayiri də məhz Heratda qətlə yetirdi (33).

Əliqulu xanın qiyamı bölgənin bütün əhalisinə bir işarə oldu və Nadir şaha müxalifətçilik demək olar ki, bütün bölgəni əhatə etdi. Bu qiyamın şiddətləndiyi vaxtlarda Məşhəddə olan Nadir şah Herat, Mərv, Maruçaq, Nəsa, Dərun, Əbivərd, Kelat, Sərəxs, Nişapur, Səbzəvar və digər məntəqələrin maliyyə məmurlarını yanına çağırtdırdı və onların hamısını vergilərin toplanmasında sui-istifadəyə yol verməsi adı ilə qətlə yetirdi."Aləm Ara-ye Naderi"nin yazdığına görə, bu qətllər həmin məntəqələrin çoxunu Nadir şaha müxalifət yoluna sövq etməklə bərabər, Nadir şah qoşunları arasında fərariliyin artmasına da rəvac verdi. Mövcud olan məlumata görə, Xəbuşan kürdləri də kütləvi surətdə Nadir şaha itaətsizlik göstərdilər və onun at ilxılarını aparmaqla Əliqulu xanın dəstələrinə qoşuldular (34).

Bununla, Nadir şah üçün doğma olan Xorasan vilayətinin də demək olar ki, bütünlüklə Nadir şaha qarşı itaətsizliyə dəstək verməsi aydınlaşdı. Nadir şahın qərar tutduğu Məşhəd əslində, hər tərəfdən ona müxalif olan qüvvələrlə əhatə olundu. Nadir şahın şəxsi həkimi keşiş Bazen yazırdı ki, Əliqulu xanın Məşhədə gətirilməsi üçün göstərilən cəhdlər heç bir nəticə vermədi və o, Nadir şaha qarşı qiyamın hərəkətverici qüvvəsinə çevrildi. Artıq iranlılar da bütün ümidlərini Əliqulu xanın qiyamına bağlamışdılar. Əmi və qardaş oğlu arasındakı ixtilaf aşkarlanandan sonra hər tərəfdən iğtişaşlar baş qaldırdı və vəziyyət o yerə çatdı ki, Nadir şahın qasidləri həbs edildilər və heç kəs Nadir şahın əmrlərinə qulaq asmırdı. Kütləvi hal alan qiyam və iğtişaşlarla bağlı gələn xəbərlər isə Nadir şahın cismani ağrılarını daha da artırırdı və artıq heç nə onun bu ağrılarının və narahatçılıqlarının azalmasına kömək etmirdi. Bazenin sözlərinə görə ətrafındakılar da ən kiçik iğtişaş haqqındakı məlumatları şişirdərək Nadir şaha çatdırırdılar və onun bu məlumatlardan ciddi narahatçılıq keçirməsinə çox sevinirdilər (35).

Nadir şah ya Məşhəddə oturub qiyamçıların əhatəsinin daralmasını gözləməli, ya da fəalıq göstərərək real təhlükəyə çevrilən Əliqulu xanın qiyamını yatırmalı idi. Fiziki və ruhi sarsıntılarının güclənməsinə baxmayaraq Nadir şah ikinci yolu tutdu və özü böyütdüyü qardaşı oğlunun dönüklüyünün qarşısını almaq üçün qılınca əl atmağı qərarlaşdırdı.Ölkə daxilində baş verən çoxsaylı qiyamların təhlükəli nəticələrə gətirə biləcəyini görünür Nadir şah hiss etməkdə idi. Ona görə də Nadir şah Məşhədi tərk etməzdən əvvəl övladlarını və nəvəsi Şahrux Mirzəni daha təhlükəsiz yer kimi Kelata göndərdi.

Keşiş Bazen onu da yazır ki, Nadir şah Kermandan Məşhədə son səfərini edərkən Xorasan vilayətinin girişindəki Təbəs məntəqəsində bütün övladlarını hüzuruna çağırdı və onlarla görüşdü. Keşişin sözünə görə, onların sayı 13 nəfər idi. Qarşısında dayanmış övladlarını nəzərdən keçirəndən sonra Nadir şah onlardan yaşca böyük olan üçünü ayırdı və onların hər birinə tac bağışladı. Amma övladlarının heç biri tacı qəbul etmədi və bildirdilər ki, onların hələ buna yaşları çatmayıb. Bazenə görə, Nadir şahın həmin övladları söylədilər ki, bu böyük məmləkətin idarə edilməsi üçün onların təcrübəsi bəs deyil. Sonra isə xahiş etdilər ki, Nadir şah hələ onları öz təbəələri kimi qəbul etsin və onun nəzarəti altında təcrübələrini genişləndirsinlər.Bazenə görə, Nadir şah övladlarına tac bağışlamaqla heç də taxt-tacını onlara vermək istəmirdi. Əksinə, bu yolla o, müəyyənləşdirmək istəyirmiş ki, övladlarından kimsə taxt-taca meyl edən, taxt-tac həvəsində olan var, ya yox. Guya onun övladları da bunu başa düşmüşdülər və ona görə də həyatlarını təhlükə qarşısında qoymamaq üçün təklifdən imtina etdilər (36).

Nadir şah qiyamçılara qarşı ilk zərbəni Xəbuşan kürdlərinə vurmağı qərarlaşdırdı və 1747-ci ilin iyun ayının əvvəllərində 15 min nəfərlik qoşun dəstəsi ilə Xəbuşana tərəf hərəkətə başladı. Nadir şah bu yürüşə böyük topları götürmədi və yalnız zənburəkləri özü ilə apardı. Qoşun dəstəsinin əsasını isə özbəklər, türkmənlər və əfqanlar təşkil edirdilər. 1747-ci il iyun ayının 19-da Nadir şah Xəbuşan yaxınlığındakı Fərəhabad məntəqəsində düşərgə saldı. Əslində, bu düşərgə onun son düşərgəsi oldu. Nadir şah qoşununun yaxınlaşması xəbərini eşidən kimi Xəbuşan kürdlərinin bir hissəsi Xəbuşan qalasına sığındı, bir hissəsi isə Aladağ dağına qaçdılar (37).

Xəbuşan yürüşü ilk baxışdan uğurla başlansa da Nadir şah daxilən ona qarşı istiqamətlənmiş təhlükənin yaxınlaşdığını hiss edirdi. Həm "Aləm Ara-ye Naderi", həm də keşiş Bazen Nadir şahın bu hisslər məngənəsində çırpındığını qeyd edirlər. Keşiş Bazenə görə, Nadir şah

6-cı duyğusu ilə hiss edirdi ki, ona qarşı planlaşdırılan fitnələr kəskinləşməkdədir və əmr etmişdi ki, düşərgəsində daim yəhərli bir at saxlanılsın və zərurət yarananda Kelata qaça bilsin. Nadir şahın mühafizəçiləri onun bu narahatçılığından xəbər tutanda yanına gəldilər, ona sadiq olduqlarını, onu tənha buraxmayacaqlarını bildirdilər. Nadir şah da bundan sonra qoşunları tərk etmək fikrindən daşındı (38).

Tədqiqatçıların bəziləri keşiş Bazenin Nadir şahı belə çarəsiz bir durumda təsvir etməsini, onun Nadir şaha qarşı ədalətsiz mövqedə dayanması ilə əlaqələndirirlər (39).

"Aləm Ara-ye Naderi" isə yazır ki, Nadir şah miraxura göstəriş verdi ki, bir neçə atı tam yəhərli vəziyyətdə saxlasın. Bu mənbənin məlumatına görə. Xəbuşan yaxınlığındakı düşərgədən Nadir şah hərəmxanası və şahzadələrlə birlikdə (baxmayaraq ki, elə bu mənbə Nadir şahın Xəbuşana doğru hərəkətə başlamazdan əvvəl şahzadələri Kelata göndərdiyini bildirir) Kelata dönmək istəyirdi. Nadir şaha sədaqətini itirməmiş məirbaşı Hüseynəli bəy bu məsələdən xəbər tutanda şahın hüzuruna gəldi və ona bildirdi ki, Nadir şaha müxalifət yolunu tutanlar əvvəlcə onun keşikçilərinin qətiyyətli mövqeləri ilə üzləşməli olacaqlar. Hüseynəli bəy Nadir şahı əmin etdi ki, keşikçilər öz şahlarına sədaqətli olaraq qalmaqdadırlar. Məirbaşının sözlərinə görə, heç quş da cəsarət edib Nadir şahın düşərgəsinin üzərindən uça bilməzdi.Nadir şah bu sözləri eşidəndən sonra Kelata dönmək fikrindən əl çəkdi və düşmənləri ilə əvvəlki ruhda mübarizə aparmaq üçün iradəsini yenidən var gücü ilə nümayiş etdirmək istədi. "Aləm Ara-ye Naderi"yə görə, bu hadisə Fəthabada yetişmək ərəfəsində baş verdi. Nadir şah ona müxalifətdə şübhələndiyi bir neçə sərkərdəsini qətlə yetirdikdən sonra irəliyə hərəkətini davam etdirdi və Xəbuşanın 2 fərsəngliyində olan Fəthabadda düşərgə saldı (40).

Əslində isə Nadir şah onun ətrafında cərəyan edən fitnələrin qarşısını almağa gücü çatmadı. Mövcud olan məlumatlara görə belə güman etmək olar ki, Nadir şah ona qarşı planlaşdırılan sui-qəsdin kimlər tərəfindən həyata keçirilə biləcəyini də ehtimal edirdi. Bu baxımdan onun ən çox şübhələndiyi keşikçilər dəstəsinin rəhbəri Məhəmmədqulu xan Əfşar və saray işlərinin icrasına məsul olan Saleh bəy Qırxlı idi. Məhəmmədqulu xan Əfşar hündür boylu, möhkəm cüssəli bir şəxs olmaqla döyüşçülər və keşikçilər arasında böyük nüfuza malik idi. Ona görə Nadir şah ondan daha çox ehtiyat edirdi.

Nadir şahın qətlə yetirilməsi ilə bağlı "Tarix-e Cahanqoşa-ye Naderi"də müxtəsər məlumat vardır və həmin məlumat "Aləm Ara-ye Naderi"də də təkrar olunmuşdur. Keşiş Bazenin xatirələrində və

C.Hanveyin əsərində isə Nadir şahın qətli barədə daha geniş məlumat vardır.Həmin məlumatlardan aydın olur ki, Nadir şahın mənsub olduğu əfşarlara və hətta Qırxli oymağına belə etibarı qalmamışdı. 1747-ci il iyunun 19-da axşam ona qəsd ola biləcəyindən Nadir şah da şübhələnirdi. Mövcud olan təhlükənin aradan qaldırılması üçün Nadir şah daha konkret addımlar atmaq istəyirdi.Həmin axşam keşikçilərin tərkibində olan 4 min nəfərlik əfqan dəstəsinin rəhbəri Əhməd xan Əbdalini və digər əfqan dəstə başçılarını hüzuruna çağırdı. Nadir şahın ətrafında olan əfqan dəstələri ona daha çox sədaqəti ilə fərqlənirdilər və təhlükənin artdığı bir vaxtda onlar Nadir şahın arxalana biləcəyi ümid yeri idi. Bu dəstənin 24-25 yaşlarında olan rəhbəri Əhməd xan Əbdali də göstərdiyi şücaət və sədaqətə görə Nadir şahın dərin etibarını qazanmış şəxslərdən biri idi. Nadir şah bu dəstəyə güvənməklə ətrafında olan şübhəli qüvvələrdən təmizlənmək istəyirdi. Keşiş Bazenə görə, Nadir şah əfqan sərkərdələrinə aşağıdakıları dedi: "Mən keşikçilərimdən razı deyiləm və onlara lazımi etimadım yoxdur. Sizin düzgünlüyünüz, fədakarlığınız, mənə münasibətiniz sübut olunduğu üçün sizə tapşırıram ki, sabah səhər tezdən bütün qızılbaş qoşun başçılarını tutun və qollarını bağlayın. Kimsə sizə müqavimət göstərmək istəsə onu öldürməyə haqqınız vardır. Kimsə bunun sorğu-sualını etməyəcəkdir. Əsas məqsəd mənim mühafizəmin təşkilidir. Mənim mühafizəmi sizə tapşırıram" (41).

Bəzi tədqiqatçılar bildirirlər ki, həyatının son gecəsini Nadir şah uzun müddət yuxuya gedə bilmədi. O dəfələrlə şah çadırının yataq otağına daxil olub bayıra çıxdı, yerində rahatlıq tapa bilmədi. Onun bu qərarsızlığının və təşvişinin nə ilə bağlı olmasını soruşmağa kimsə cəsarət etmədi. Yalnız mülayim xarakteri, Nadir şaha sədaqəti və şah yanında etibarı ilə tanınan məirbaşı Hüseynəli xan ondan bu yuxusuzluğun və narahatlığın səbəbini soruşdu. Nadir şah ona daha yaxın gəlməsini istəyib yuxu gördüyünü söylədi. Eyni zamanda ona yuxusunu danışdı. Nadir şah nəql etdi ki,cavanlıq illərində, hələ Babaəli bəy Kosaəhmədlinin yanında xidmətdə olarkən onun tapşırığı ilə İsfahana yollanmışdı.O zaman bir neçə nəfərlə İsfahana yola düşən Nadir hazırda düşərgə saldıqları Fəthabadda dayanıb kiçik bir çadırın içində gecələməli olur. Nadir şah bildirdi ki, həmin gecə də bir yuxu görmüş və heç kimə danışmamışdı. Yuxuda görmüşdü ki, bir nurani insan onu bir səhrada taxt üstündə oturmuş 12 şəxsin hüzuruna apardı. Həmin 12 şəxsdən məqamca böyük olanı bir qılınc götürüb Nadirin belinə bağladı və əlavə etdi ki, sən bu ölkənin sahibi olacaqsan. Nadir şah söylədi ki, həmin qocanın sözləri doğru çıxdı və mən bu ölkənin sahibi

oldum. Nadir şah sonra əlavə etdi ki, dünən həmin nurani insan bir də yuxuma girdi. Bu nurani insan məni bir də həmin 12 şəxsin hüzuruna apardı. Mənim belimə qılınc bağlayan şəxs məni görəndə üzünü yana çevirdi və göstəriş verdi ki, bu qabiliyyətsizin belindəki qılıncı açın. Nadir şah bildirdi ki, nə qədər çalışsam da qılıncı özümdə saxlaya bilmədim və onu mənim belimdən açıb götürdülər (42).

Nadir şah əlavə etdi ki, bu yuxunu görəndən sonra daha özündə rahatlıq tapa bilmir. Onun fikrincə, bir neçə gün ərzində özünü xətabəladan qoruyub Kelata çatdıra bilsəydi, bütün narahatlıqlara da son qoyulardı. Hüseynəli bəy onu sakitləşdirməyə çalışdı ki, heç kim ona qarşı pis fikrə düşə bilməz. Nadir şah isə cavab verdi ki, minim bildiyimi sən və digərləri bilmirlər (43).

Deyilənə görə, Nadir şah həmin gecəni Cuki adlanan xanımının yanında keçirdi. Uzun müddət yuxusuz qalması onun gücünü əlindən aldı.Paltarını soyunmadan yatağına uzandı və Cukiyə də tapşırdı ki, gözünün acısını alan kimi onu yuxudan oyatsın (44).

Nadir şah ümid edirdi ki, onun əfqan sərkərdələri ilə söhbəti gizli qalacaqdır. C.Hanveyin yazdığına görə, Nadir şahın bir gürcü xidmətçisi həmin söhbəti eşidib Nadir şahın qorçubaşısına çatdırdı (45).

C.Hanvey qəsd zamanı Saleh xanın, keşiş Bazen isə Məmmədqulu xanın fəallıq göstərdiyini yazırlar. Nadir şahın son gecəsinin şahidi olan keşiş Bazen yazır ki, xəbər Məmmədqulu xana çatan kimi qoşun sərkərdələrini və əyanları gözləyən real ölüm təhlükəsi barədə ilkin olaraq Saleh xana xəbər verdi. Bu iki nəfər də qəti hərəkətə keçməyi və Nadir şahı qətlə yetirməyi qərarlaşdırdılar. Birgə hərəkət etmələri barədə bir-birinə söz verib vədlərinə xilaf çıxmayacaqları barədə sənəd də imzaladılar. Sonra bu iki nəfər Nadir şahı qətlə yetirmək barəsindəki planlarını inandıqları digər şəxslərə də açdılar və onları da bu qəsddə iştirak etməyə razı saldılar. Bu yolla 60 nəfər Nadir şaha qarşı qəsddə iştirak etmək barəsində sənədə imza atdı. Onlar hamısı razılığa gəldilər ki, səhər açılmamış Nadir şah qətlə yetirilsin. Əks təqdirdə Nadir şah onları həbs edəcəkdi. Qərara gəlindi ki, gecə yarısından iki saat sonra Nadir şaha qarşı sui-qəsdin icrasına başlansın (46). ”Tarix-e Cahanqoşa-ye Naderi” və “Aləm Ara-ye Naderi”yə görə, Nadir şahın qətli belə baş verdi. Hicri-qəməri tarixi ilə 1160-cı il Cəmadül-Sani ayının 11-i axşamı (bazar gecəsi) Xəbuşan yaxınlığındakı Fəthabadda qurulan düşərgədə Məhəmməd bəy Qacar İrəvani, Musa bəy Əmirli Əfşar, Qoca bəy Kəndirli Əfşar, Saleh xan Qırxlının, keşikçibaşı Məmmədqulu xan Əfşarın və bir sıra digər həmişəkeşiyin dəstəyi ilə gecə yarı Nadir şahın çadırına daxil oldular, Nadir şahı

qətlə yetirdilər və başını kəsib qoşun daxilində uşaq oyuncağına çevirdilər (47).

Keşiş Bazen Nadir şahın qətlini aşağıdakı kimi təsvir edir: Qəsdçilər gecə yarı ikən Nadir şahın yatdığı çadıra yaxınlaşdılar. Onlar bir neçə maneəni dəf etməli oldular. Şah həmin vaxt yatmışdı, səs-küyə ayıldı və dəhşətli bir nərə çəkdi. Gələnlərin kim olduğunu soruşub qılıncının və toppuzunun harada olmasını axtardı. Qəsdçilər Nadir şahın nərəsindən qorxuya düşüb geri çəkildilər. Onlar çadırdan çıxmaq istəyəndə qarşılarını Məmmədqulu xanla Saleh xan kəsdilər və birlikdə yenidən çadırın içinə daxil oldular. Nadir şah hələ geyinməyə macal tapmamış Məmmədqulu xan yaxınlaşıb ona zərbə endirdi. Nadir şah bu zərbədən sonra diz çökdü və bu zaman digərləri də yaxınlaşıb ona bir neçə qılınc zərbəsi endirdilər. Al qana boyanmış olan Nadir şah bir daha ayağa qalxmağa cəhd göstərdi, amma buna gücü çatmadı. Yalnız onu nə üçün öldürmək istədiklərini soruşdu. Bu dəfə Saleh xan irəli çıxdı və qılıncı ilə onun başını bədənindən ayırdı. Sonra da onun başını bir atlıya verib Heratda olan Əliqulu xana göndərdi. Üç həftədən sonra Nadir şahın başı Əliqulu xana çatdırıldı (48).

C.Hanvey Nadir şahın qətlinin təfərrüatını bir qədər fərqli şəkildə təsvir etmişdir. Onun yazdığına görə, Nadir şahın qətli qərarı veriləndən sonra Saleh xan dörd nəfərlə birlikdə gecə yarı şah çadırına tərəf yola düşdü. Nadir şaha vacib xəbər çatdırmaq adı ilə mühafizəçilərin yanından keçə bildi. Şah çadırına daxil olanda Saleh xan qarşısına çıxan xacəsarayı və bir xanımı qətlə yetirdi. Amma o, Nadir şahın hansı çadırda yatdığını bilmirdi. Yanan şamların işığında çadırlardan birində qiymətli daşların parıldadığını gördü və Nadir şahın da həmin çadırda olduğunu yəqinləşdirdi. Çadıra daxil olanda Nadir şahla qarşılaşdı. Nadir şah qılıncını çəkib özünü irəli verdi, Saleh xandan və onun yanındakılardan gəlməsinin səbəbini soruşdu. Saleh xan fürsət tapıb qılıncını çəkdi və onu çiynindən yaraladı. Buna baxmayaraq Nadir şah onun qəsdinə gələnlərdən iki nəfəri yerə sərə bildi. Özünü çadırdan bayıra atmaq istəyəndə ayağı çadırın kəndirinə ilişdi və yerə yıxıldı. Saleh xan da bu fürsətdən bacarıqla istifadə etdi və qılıncının zərbəsi ilə Nadir şahın başını bədənindən ayırdı (49).

Bu mənbələr Nadir şahın Saleh xan tərəfindən qətlə yetirildiyini iddia edirlər. Nadir şah haqqında geniş tədqiqat əsərinin müəllifi olan L.Lokkart isə Nadir şaha son zərbənin Saleh xan tərəfindən deyil, Məhəmməd xan tərəfindən vurulduğunu bildirir. Nadir şah haqqında yazılmış bəzi tədqiqat əsərlərində də L.Lokkartın fikri təkrar olunmuşdur(50). Fərqli mənbələrə istinad edən L.Lokkarta görə, Nadir şa-

hın qəzəbindən və qorxusundan qəsdçilərin çoxu onun çadırına daxil olmağa cəsarət etmədilər. Belə olanda Məhəmməd xan Qacar, Saleh xan və bir də başqa bir nəfər Nadir şahın yatağına daxil oldular. Onlar əvvəlcə çadırın mühafizəsində dayanan keşikçini aradan götürdülər. Bu səs-küyə Nadir şahın xanımı Cuki yuxudan ayıldı və çadırda yad adamların olmasını hiss edib Nadir şahı da yuxudan ayıltdı. Nadir şah dərhal həyatı üçün ciddi təhlükə yarandığını hiss edib əlini qılıncına atdı və Saleh xana zərbə endirmək üçün irəli sıçrayanda ayağı çadırın kəndirinə ilişdi və yerə yıxıldı. Digər mənbələrdə təsvir olunduğu kimi L.Lokkartın yazdığına görə Saleh xan bu dəfəki fürsəti əldən vermədi və qılıncı ilə Nadir şahın qollarından birini kəsə bildi. Müəllif əlavə edir ki, Saleh xan Nadir kimi bir şəxsin qolunu kəsib yanına sala bilməsindən özü də dəhşətə gəldi və nə edəcəyini bilməyib yerində donub qaldı. Bu vaxt Məhəmməd xan Qacar özünü irəli atdı və qılıncı ilə Nadir şahın başını bədənindən ayırdı (51).

Nadir şahı qətlə yetirəndən sonra qiyamçılar onun hərəmsarayına daxil oldular. Oradakı xanımlar qorxudan haray çəkdilər, özlərini silahlıların ayaqları altına atdılar və yalvardılar ki, silahlılar onlara qarşı əxlaqsız hərəkətlərə əl atmasınlar. Silahlılar qadınlara təcavüz etmədilər, lakin onların bütün zinət əşyalarını əllərindən aldılar. Bundan sonra silahlılar Nadir şahın üç vəzirinin yaxınlıqda yerləşən çadırlarına hücum çəkdilər. Keşiş Bazenin şəhadətinə görə silahlılar Nadir şahın vəzirlərindən ikisini qətlə yetirdilər. Üçüncüsünə isə toxunmadılar. Onun gümanınca öldürülməyən vəzirin qiyamçılarla əlaqəsi var idi. Bazen onu da əlavə edir ki, bu gümanında əsassız deyildi. Çünki həmin vəzir Nadir şahdan sonra daha üç padşahın vəziri oldu (52).

Səhərin açılması ilə Nadir şahın qətlə yetirilməsi xəbəri bütün düşərgəyə yayıldı, aləm bir-birinə qarışdı. Başsızlıqdan istifadə edib qətl və qarətə rəvac verənlər çoxaldı.Fürsətdən yararlanmağa çalışanlar qarşısına çıxanları çapıb talamağa başladılar. Nadir şaha sədaqəti itirməyən 4 minlik əfqan dəstəsi xəbəri eşidəndə toplanıb şah çadırına tərəf hərəkət etdi. Nadir şahın mənsub olduğu əfşar soyundan və digər türk soylarından təşkil edilmiş bir dəstə əfqanlara qarşı çıxdı.Bu dəstənin sayı 6 min nəfər idi və ona görə də onların müqavimətini qırmaq əfqanlar üçün elə də asan deyildi. Hadisələrin şahidi olan keşiş Bazen yazır ki, əfqanlar qarşısında olan güclü müqaviməti qıraraq özlərini Nadir şahın çadırına yetirdilər və onun başsız bədənini görəndən sonra mübarizənin davam etdirməyin mənasız olduğunu anladılar. Bundan sonra əfqanlar öz yurdlarına doğru istiqamət götürdülər.

Qiyamçı dəstələr onları təqib etməyə başlasalar da bir nəticə əldə edə bilməyib geri qayıtdılar (53).

## 3. Nadir şah dövlətinin süqutu

Nadir şahın kəsilmiş başı Heratda 40 minlik bir qoşun dəstəsi ilə dayanan qardaşı oğlu Əliqulu xana çatdırıldı. Nadir şahın kəsilmiş başının Əliqulu xanın yanına aparılması onun da bu sui-qəsdə rəhbərlik etdiyini göstərir. Elə sui-qəsdin icraçıları da Nadir şahın öldürülməsindən sonra Əliqulu xanın Məşhədə qayıtmasını gözlədilər.

Əliqulu xan Nadir şahın qətli xəbərini alan kimi dərhal Məşhədə yola düşdü və Nadir şahın öldürülməsindən 16 gün sonra özünü Məşhəddə ölkə şahı elan etdi. Nadir şahın ətrafında olan hərbi qüvvələr də Əliqulu xanı müdafiə etdilər və bu ona imkan verdi ki, taxt-taca iddia edə biləcək Nadir şah övladlarının hamısını qılıncdan keçirsin. Bu məqsədlə o, gürcü Söhrab xanın rəhbərliyi altında bəxtiyarilərdən ibarət bir qoşun dəstəsini Kelata göndərdi. Bu qoşun dəstəsinin Kelata göndərilməsində bir məqsəd də Nadir şahın xəzinəsini ələ keçirib Məşhədə gətirmək idi. Göndərilən qoşun dəstəsi təxminən iki həftə Kelat qalasını mühasirədə saxladı. Mühasirənin 16-cı günü qalanı ələ keçirmək mümkün oldu. Buna da daha çox elə qala müdafiəçilərinin səhlənkarlığı səbəb oldu. Həmin gün su üçün aşağı düşən qala müdafiəçilərindən biri geri qayıdarkən divara dayadığı nərdivanı yığışdırmağı unutdu və bununla da qala daxilinə girmək üçün münasib bir imkan yarandı və Kelat qalası ələ keçirildi (54).

Qala ələ keçiriləndə Nəsrulla Mirzə, İmamqulu və Şahrux Mirzə Mərvə tərəf qaçmağa cəhd göstərdilər. Rzaqulu Mirzə və Nadir şahın kiçik övladları və nəvələri isə Əliqulu xan tərəfindən göndərilmiş dəstənin əlinə keçdi.

Keşiş Bazenin yazdığına görə, Əliqulu xan Kelatın ələ keçirilməsini çox intizarla gözləyirdi. Onun fikrincə, məhz Nadir şah xəzinəsinə sahib çıxmaq onun hakimiyyətini daha da möhkəmlədə bilərdi. Ona görə də Kelatın ələ keçirilməsi xəbərini o, çox sevinclə qarşıladı. Əliqulu xan Söhrab xana xəbər göndərdi ki, Nadir şahın ələ keçirilmiş övladları və hamilə ola biləcək xanımları qətlə yetirilsinlər (55).

Əliqulu xan Nadir şahın Kelatdan qaçmış övladlarının da tutulmasına göstəriş verdi. Onun Kelatda olan qardaşı Kazım Mirzə Nadir şahın övladlarını təqib etməyə yollandı. Amma Kazım Mirzə onlara çata bilmədi. Onda Kazım Mirzə uzun müddət Nəsrulla Mirzənin xidmətində olmuş Məhəmməd xan Çehçeheni Nadir şahın övladlarının təqi-

bini davam etdirməyə göndərdi. Nəsrulla Mirzədən gördüyü nəvazişləri və qayğını bir anda unudan Məhəmməd xan Çehçehe dərhal ona verilmiş yeni tapşırığın icrasına yollandı və qismən həmin tapşırığı yerinə yetirə bildi. O, İmamqulu Mirzə ilə Şahruxu həbs etdi. Təqibdən yaxasını qurtara bilmiş Nəsrulla Mirzəni izləməyi isə Qurbanəli bəy adlı birisinə tapşırdı (56).

İstər mənbələrdən və istərsə də tədqiqat əsərlərindən məlum olmur ki, təhlükədən qaçan şahzadələr onlara sadiq olan döyüşçülər tərəfindən müşayiət olunurdu, ya yox. Ona görə bu şahzadələrlə onları təqib edən qüvvələr arasında döyüşlərin olub-olmamasını söyləmək çətindir. Bəzi tədqiqatçılar Nəsrulla Mirzənin Qurbanəli bəylə döyüşə girdiyini və ondan canını qurtara bildiyini yazırlar (57). Amma bu qarşıdurmanın da əlbəyaxa və ya kütləvi şəkildə baş verdiyini təsəvvür etmək mümkün deyil. Məlum olan odur ki, Nəsrulla Mirzə Mərvin qarovul dəstələri tərəfindən tutuldu və Kelata gətirildi (58).

"Tarix-e Cahanqoşa-ye Naderi"yə görə, Əliqulu xanın əmri ilə Kelatda Rzaqulu Mirzə və Nadir şahın övlad və nəvələrindən daha 16 nəfəri qətlə yetirildi. Qətlə yetirilənlər arasında Nadir şahın kiçik yaşlı övladları və nəvələri var idi. Çox güman ki, bu qətl hadisəsi Nəsrulla Mirzə, İmamqulu Mirzə və Şahruxun ələ keçirilməsindən əvvəl baş vermişdi. Çünki adları çəkilən bu şəxslər həbs ediləndən sonra Məşhədə göndərildilər. Nəsrulla Mirzə ilə İmamqulu Mirzə də Əliqulu xanın əmri ilə orada qətlə yetirildilər. Amma Nadir şahın 14 yaşında olan nəvəsi Şahrux Mirzə öldürülmədi.Onu zindana atdılar. Lakin Əliqulu xan onun da öldürüldüyü barədə xəbərlər yaydırdı (59). Mövcud olan məlumatlara görə, Əliqulu xan, Şahrux Mirzəni qəsdən öldürmədi.Onun anası Şah Sultan Hüseynin qızı idi və Səfəvilər nəslinə qan bağlılığı var idi. Əliqulu xan fikirləşirdi ki, ölkə əhalisi onun şahlığını yox, Səfəvilər taxt-tacının bərpa olunmasını tələb edərsə, onda Şahrux Mirzəni şah elan etdirər və onun yaşının kiçik olmasına görə dövlətin idarə edilməsini öz əlinə alar.

Beləliklə, Əliqulu xan öz əmisi Nadir şahın bütün nəslinin kökünü kəsməyə qərar verdi. "Aləm Ara-ye Naderi"də Əliqulu xanın göstərişi ilə qətlə yetirilən Nadir şah övladlarının siyahısı verilmişdir. Həmin siyahıda aşağıdakıların adları vardır: Böyük şahzadə Rzaqulu Mirzə - 29 yaşında, şahzadə Nəsrulla Mirzə - 23 yaşında, şahzadə İmamqulu Mirzə - 18 yaşında, Çingiz xan – 3 yaşında, şahzadə Məhəmmədulla xan – 7 aylığında. Şahzadə Rzaqulu Mirzənin övladları Fətəli Mirzə - 12 yaşında, Vahidqulu Mirzə - 11 yaşında, Humayun xan - 6 yaşında, Bisütun xan – 3 yaşında, Mahmud xan – 3 yaşında. Nəsrulla Mirzənin

övladları: Ulduz xan – 7 yaşında, Mustafa Soltan – 4 yaşında, Söhrab Sultan – 4 yaşında, Timur xan – 4 yaşında, Murtuzqulu xan – 2 yaşında. Uğurlu xan – 2 yaşında, Əsədulla – 2 aylığında (60).

Yuxarıda qeyd edildiyi kimi, Nadir şahın böyük nəvəsi və Rzaqulu Mirzənin böyük oğlu Şahrux Mirzə bu kütləvi qətldən kənarda qalsa da, rastlaşdığı məhrumiyyətlər onun da faciəli həyatına yol açdı.

Əliqulu xan isə Nadir şahın nəslinin kökünün kəsilməsinə nail olduqdan sonra özünü Məşhəddə şah elan etdi. Nadir şahın həyatının son illərində baş verən qəddarlıqlarla müqayisədə özünü daha ədalətli şah olacağını qabartmaq üçün Əliqulu xan adını da dəyişdirdi və Adil şah adını öz üzərinə götürdü. Ona bəzən Əli şah kimi də müraciət olunurdu. Özünü şah elan edən kimi məscidlərdə onun adına xütbə oxundu və sikkə vuruldu. Bəzi tədqiqatçıların verdiyi məlumata görə. taxta çıxandan sonra Adil şah vilayət hakimlərinə fərman göndərdi. Həmin fərmanda bəyan etdi ki, Nadir şahın qətlə yetirilməsi onun əmri ilə həyata keçirilmişdir. Adil şah bildirirdi ki, Nadir şahın qətlə yetirilməsini bütün millətin xeyri üçün etmişdir. Onun yazdığına görə, bununla bağlı Nadir şahın mühafizəsinin rəhbəri Məhəmmədqulu xanı da bu işə cəlb edə bilmişdi. Sonra əlavə edirdi ki, qoşun sərkərdələrinin və Məhəmmədqulu xanın xahişlərini nəzərə alaraq taxta çıxmağa razı olmuşdur. Guya özünü şah elan etməkdə məqsədi ölkəni dağılmaqdan qorumaq və insanları pis günlərdən qurtarmaq idi. Fərmanın sonunda Adil şah bildirirdi ki, Nadir şahın qəddarlıqlarının yaddan çıxarılması üçün ölkə əhalisini üç il müddətinə vergilərdən azad edir (61).

Adil şah bildirdi ki, Nadir şahın zəngin xəzinəsi vardır və həmin xəzinənin hesabına ölkə xərclərinin uzun müddət ödəmək mümkündür. Ölkə əhalisini üç illik vergilərdən azad etməklə, Adil şah böyük səxavətlilik də göstərdi, Nadir şahın xəzinəsindən xidmətçilərə, Adil şahın yaxınlarına, əyanlara 4-5 dəfə artıq məvacib verməyə başladı. Bu məqsədlə əvvəlcə Nadir şahın Kelatdakı xəzinəsi Məşhədə gətirildi. Xəzinədəki təkcə nağd pul 15 kurur miqdarında idi.Adil şahın əmri ilə Nadir şahın ləl-cəvahiratı və qiymətli daşları üçün Məşhəddə xüsusi bir bina tikildi. Bu binanın təhlükəsizliyini təmin etmək üçün ətrafına dərin xəndəklər çəkildi, dövrəsi boyunca toplar düzüldü (62).

Mənbələrin yazdığına görə, Nadir şahın xəzinəsinin dağıdılması hesabına xam gümüş qaynadılmış şəlğəm, təmiz gövhərlər isə saxsı və daş qiymətinə satılırdı (63).

Amma bu səxavətlilik Adil şahın əsil sifətini ört-basdır edə bilmədi və çox tezliklə o, ciddi problemlərlə üzləşməli oldu. Adil şahın taxtaca çıxmasının şahidi olan keşiş Bazen həmin günləri xatırlayarkən

yazırdı ki, Nadir şahın qətlindən sonra insanlar arasında bir yüngüllük duyulmağa başladı. Adil şahın səxavətliliyi də Məşhəd daxilindəki əhval-ryhiyyəni yaxşılaşdırmışdı. Onun fikrincə, cəmiyyətə yeni bir ab-hava gətirmək üçün Adil şahın əlində yaxşı imkanlar var idi və bu imkanlardan istifadə edəcəyi təqdirdə əhali tərəfindən də dəstəklənə bilərdi.Amma taxt-tacın verdiyi səlahiyyətlər və əlində toplanmış olan hakimiyyət onun da iddialarını artırdı, zəkasını kütləşdirdi, vaxt ötdükcə qəlbində kin-küdurət qabarıqlaşmağa başladı, yersiz qürur onu üstələdi, əməllərində qəddarlıq və zülmkarlıq artdı və çox tezliklə insanların nifrət etdiyi bir şəxsə çevrildi. O yavaş-yavaş dövlət işlərindən uzaqlaşıb eyş-işrətə qurşandı, ölkənin idarə edilməsi işləri isə məmləkət məiri Hüseynəli bəylə gürcü sərkərdəsi Söhrab xana etibar edildi. Qardaşı İbrahim xanı İsfahan hakimi təyin etdi. Nadir şahın vaxtilə İraqdan (İran), Azərbaycandan, Farsdan Xorasana köçürdüyü əhali nizamsız şəkildə geri qayıtmağa başladı (64).

Çox tezliklə Adil şaha qarşı olan narazılıqlar kütləviləşməyə başladı.Nadir şahın xəzinəsi göyə sovrulduqdan sonra Məşhəddə ərzaq qıtlığı özünü göstərdi. Milliyətcə gürcü olan Söhrab xanın qoşunlara rəhbər təyin edilməsi qoşun sərkərdələri və döyüşçülər arasında narazılıqlara səbəb oldu. Vilayət hakimləri arasında müstəqilləşmə meylləri gücləndi.

Ərzaq çətinliklərini aradan qaldırmaq üçün Adil şah Xəbuşan kürdlərinin üzərinə hücum çəkdi. Çünki Xəbuşan kürdləri müəyyən ərzaq ehtiyatlarına malik idilər və həmin ərzaq ehtiyatlarının ələ keçirilməsi Məşhəddə və bütünlükdə Xorasan vilayətində günü-gündən daha çox hiss edilən ərzaq qıtlığını aradan qaldıra bilərdi. Xəbuşan kürdləri ərzaq ehtiyatlarını könüllü şəkildə verməkdən imtina edəndə Adil şah qoşunla onların üzərinə hücum çəkdi. Kürdlər malik olduqları hərbi qüvvələrlə Qoçanda toplaşıb Adil şaha müqavimət göstərməyə çalışdılar. Amma Adil şahın artilleriyası qarşısında onların bütün cəhdləri uğursuzluğa düçar oldu. Kürdlərin anbarlarda saxladıqları taxıl ehtiyatları Məşhədə daşındı (65).

"Tarix-e Cahanqoşa-ye Naderi"də Adil şahın Xəbuşan kürdləri üzərinə qoşun çəkməsi və onlara üstün gəlməsi haqqında məlumat vardır. Amma həmin mənbədə bu yürüşün əsas səbəbinin nədən ibarət olduğu göstərilməmişdir. Adil şah isə Məşhədə taxıl ehtiyatları gətirməklə heç də bütün problemlərin həllinə nail olmadı. Elə Xəbuşan istiqamətində olarkən ona qarşı da sui-qəsd hazırlanması barəsində məlumat aldı.Bu sui-qəsdin əsas təşkilatçılarından biri Nadir şaha qarşı sui-qəsd təşkilatçılarından olan Məmmədqulu xan idi. Adil şah taxta

çıxandan sonra da Məmmədqulu xan şahın mühafizə xidmətinin rəhbəri vəzifəsini icra edirdi. Onun Adil şaha qarşı sui-qəsd təşkil etmək cəhdi keşiş Bazenin xatirələrində də öz əksini tapmışdır. Keşişin gümanınca, Məmmədqulu xanın ürəyindən taxt-tac sahibi olmaq keçirdi. Çox güman ki, Nadir şah kimi böyük sərkərdənin həyatına son qoyan Məmmədqulu xan Adil şahı asanlıqla aradan götürə biləcəyinə inanırdı. Xəbuşandan geri qayıdandan sonra Adil şah onun həbs olunmasına və gözlərinin çıxarılmasına göstəriş verdi. Onun əmri dərhal yerinə yetirildi. Adil şah bununla da kifayətlənmədi. O əmr etdi ki, Məmmədqulu xanı Nadir şahın xanımlarının cənginə versinlər. Nadir şahın xanımlarına və kənizlərinə isə bildirildi ki, onların ağasının qatili Məmmədqulu xandır və onu istədiyiniz kimi cəzalandıra bilərsiniz. Xanımlar və kənizlər Nadir şahın qatilini görüncə onu hərəmxananın kəndarında yerə yıxdılar və əllərinə keçən əşyalarla onu döyəcləməyə başladılar. Sonra isə qayçı və bıçaqla onun bədənini doğradılar. Məmmədqulu xan buradaca həyatı ilə vidalaşmalı oldu (66).

"Tarix-e Cahanqoşa-ye Naderi" Adil şahın Mazandarana qoşun çəkməsi və yeddi ay orada vaxt keçirməsindən xəbər verir. Bunun, Xorasanda olan qıtlıqla əlaqədar olduğu bildirilir (67). Keşiş Bazen də Adil şahın Mazandarana səfər etməsini təsdiqləyir. Amma bu səfərin səbəbini fərqli şəkildə izah edir.

Adil şah taxt-tac sahibi olandan sonra İsfahanı dövlətin paytaxtı kimi görmək istəyirdi. Ona görə qardaşı İbrahimi İsfahanın hakimi kimi ora daha əvvəldən göndərdi ki, şəhərdə vəziyyəti nəzarət altına alsın.1747-ci ilin payızında Adil şah İsfahana yollanmaq niyyətinə düşdü.Lakin Nadir şahdan qalan xəzinənin təhlükəsiz şəkildə İsfahana daşınmasına əmin olmadığı üçün fikrindən daşındı. Eyni zamanda Adil şah bir neçə ay idi ki, qardaşı İbrahimin İsfahanda necə hakimlik etməsindən və onun taxt-taca sədaqətli qalıb-qalmamasından xəbərsiz idi.Ola bilsin ki, bu barədə Adil şahın əlində artıq əsaslar var idi. Çünki doğrudan da İsfahan hakimi təyin ediləndən sonra İbrahimin qardaşı Adil şaha qarşı münasibətlərində dəyişiklik baş verdi və 1747-ci ilin sonlarında artıq ona qarşı müxalif mövqe tutdu. İbrahim xan da taxt-taca yiyələnmək niyyətinə düşdü ki, bu da iki qardaş arasındakı münasibətləri kəskinləşdirdi.

1747-ci ilin sonlarında İbrahim xandan başqa Mazandaran hakimi Məhəmməd Həsən xan Qacar da Adil şaha tabe olmaqdan boyun qaçırdı. Belə olanda Adil şah qərara aldı ki, əvvəlcə Mazandarana qoşun çəksin və oranı itaət altına gətirdikdən sonra qardaşı barədə fikirləşsin. Keşiş Bazenin fikrincə, Adil şah 5 ay Mazandaranda qaldı (68). Bu

vaxt ərzində Adil şah vilayəti öz itaəti altına gətirməyə çalışdı. Adil şahın başı Mazandaran hadisələrinə qarışdığı zaman isə İbrahim xan İsfahanda öz qoşunlarını möhkəmləndirməklə məşğul oldu. Adil şah Mazandaranda olduğu vaxt İbrahim xana məktub göndərdi və onu müxalifət yolundan çəkindirmək istədi. Adil şah yazdı ki, ona əziz olan qardaşının düşmənçilik və müxalifət yolu tutmasına inanmır. Onun fikrincə, iki qardaş arasında yarana biləcək nifaq onların hər ikisinin məhvi ilə nəticələnə bilərdi. Məktubun ardınca isə Adil şah Söhrab xanı İsfahana göndərdi və ona çatdırdı ki, İbrahim xanı tutduğu yoldan döndərmək üçün istənilən addımı atmağa səlahiyyətlidir (69).

İbrahim xan qardaşı Adil şahın qoşunları ilə üzbəüz gələcəyinə şübhə etmirdi. Ona görə qoşunların gücləndirilməsi üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Hələ Nadir şahın sağlığında Allahyar xanın rəhbərliyi altında əfqanlardan təşkil edilmiş qoşun dəstəsi və Ataxanın rəhbərliyi altında olan özbək qoşun dəstəsi Azərbaycanın Şəhrruz məntəqəsinə göndərilmişdilər. Adil şah Mazandaranda olarkən adları çəkilən sərkərdələr qoşun dəstələri ilə birlikdə İsfahana gəldilər, qoşun dəstələrini orada qoyub özləri Mazandarana yollandılar. Adil şaha sədaqətli olduqlarını bəyan etdilər. İbrahim xan bu fürsətdən istifadə edib İsfahanda qalan özbək və əfqan qoşun dəstələrinin sərkərdələri ilə danışıqlar apardı və həmin dəstələrin hər ikisini öz tərəfinə çəkməyə müvəffəq oldu. Bu da onun qüvvələrini xeyli möhkəmləndirdi. Amma İbrahim xan bununla da kifayətlənmədi. O, Azərbaycan hakimi olan Əmiraslan xan Qırxlı ilə də danışıqlara girdi. Əmiraslan xan Nadir şahın yaxın qohumu idi və Azərbaycan hakimliyinə də onun tərəfindən təyin edilmişdi. O, Adil şaha itaət etməyə elə də meylli deyildi. O, İbrahim xanın Adil şaha qarşı birgə mübarizə aparmaq təklifini dərhal qəbul etdi (70).

Kifayət qədər güclənəndən sonra İbrahim xan taxt-tacı ələ keçirmək üçün əməli fəaliyyətə başladı. Əvvəlcə, Adil şah tərəfindən ona nəzarət üçün göndərilmiş olan Söhrab xanı aradan götürdü. İbrahim xan təşkil etdiyi şərab məclisində sərxoş vəziyyətdə olan Söhrab xanın İsfahana gəlişinin məqsədini öyrəndi və sonra onun öldürülməsinə göstəriş verdi (71).

İbrahim xan bundan sonra Kermanşaha qoşun çəkdi. İbrahim xan çətinik çəkmədən Kermanşah hakiminin qoşunlarını məğlub etdi və bu şəhərə nəzarəti ələ keçirdi. Nadir şah dövründə orada anbarlara toplanmış toplar, silahlar barıt və digər hərbi təchizat da ələ keçirildi (72).

Kermanşahı nəzarət altına ala bilməsi İbrahim xanı daha da həvəsləndirdi. O özünü hətta İbrahim şah da adlandırmağa başladı. Mən-

bələrin verdiyi xəbərə görə, İbrahim xan Azərbaycana doğru hərəkət etməyi qərarlaşdırdı. Azərbaycan hakimi ilə müttəfiqlik razılığı olandan sonra onun Azərbaycana doğru hərəkət etməsinin nə ilə bağlı olduğunu söyləmək çətindir. Mənbələrdə bu barədə məlumat yoxdur. Onu Azərbaycana doğru hərəkətə başlamaq niyyəti Adil şahın təşvişini daha da artırdı. İbrahim xanın müxalifətçiliyinin qarşısını almaq üçün onunla döyüşə girməyi qərara aldı və Mazandarandan Azərbaycana doğru hərəkətə başladı. Qardaşının qoşunlarına üstün gəlmək üçün İbrahim xan Azərbaycan hakimi Əmiraslan xanı yenidən köməyə çağırdı.Əmiraslan xan bu çağırışı qəbul etdi və İbrahim xanın qüvvələri ilə birlikdə Adil şaha qarşı döyüş qərarı verildi. İki qardaşın qoşunları Zəncanla Sultaniyyə arasında qarşı-qarşıya gəldilər (73).

Keşiş Bazenin yazdığına görə, tərəflərin qüvvələri təxminən eyni səviyyədə idi. Döyüşün əvvəlində Adil şahın hərbi təşəbbüsü ələ almaq imkanı var idi. O isə bu təşəbbüsü nəinki ələ ala bilmədi, əksinə qoşunları daxilində baş verən nizamsızlıqlar onu məğlubiyyətə daha da yaxınlaşdırdı. Döyüşün başlanmasından bir saat keçməmiş Adil şahın qoşunlarında parçalanma baş verdi. Qoşunların mərkəzinə təyin edilmiş dəstələr Adil şaha tabe olmaqdan imtina etdilər və İbrahim xan tərəfinə keçdilər. Bununla da əslində döyüşün taleyi həll olundu. Qalan qüvvələr isə döyüşə tab gətirməyərək qaçıb – dağılışdılar. Adil şah da yanında olan digər üç qardaşı ilə Tehrana qaçdı. Tehran hakimi Adil şah tərəfindən təyin edilmişdi. Ona görə Adil şah orada qoruna biləcəyini güman edirdi. İbrahim xan onun ardınca bir dəstə göndərdi. Tehran hakimi İbrahim xanın əmrunə tabe oldu və Adil şahla onun yanındakılarını həbs edərək İbrahim xanın adamlarına təhvil verdi. İbrahim xan da 25 yaşında olan böyük qardaşı Adil şahın gözlərinin çıxarılmasını əmr etdi. Bu hadisə 1748-ci ilin iyulunda, yəni Nadir şahın qətlə yetirilməsindən demək olar ki, bir il sonra baş verdi (74). Nadir şahın həyatına qəsd edən bu insanın şahlığı cəmi bir il çəkdi.

Adil şahın kor edilməsi ilə İbrahim xanın taxt-taca yiyələnmək yolu açıldı. Bundan sonra İbrahim xanın ehtiyatlandığı şəxslərdən biri Azərbaycan hakimi Əmiraslan xan idi. Adil şahla döyüş başa çatandan sonra İbrahim xan Həmədana, Əmiraslan xan isə Təbrizə döndü. Əmiraslan xan döyüş başa çatan kimi, İbrahim xanla görüşmədən Təbrizə yola düşdü. Bu da İbrahim xanı bir qədər şübhələndirdi. Nadir şahın qan qohumu və böyük sərkərdələrindən biri olan Əmiraslan xan birgə fəaliyyətlərinin əvvəlində anladı ki, İbrahim xan, Nadir şah kimi bir fatehin taxt-tacına sahib çıxmağa layiq olan bir şəxs deyildir. Ona

görə Təbrizə qayıdan kimi müstəqilləşmək meylini həyata keçirməyə başladı (75).

İbrahim xan onun da üstünə qoşun çəkdi. Bu iki tərəfin qüvvələri Marağada qarşılaşdılar. Əmiraslan xan bu döyüşdə məğlub oldu. O, dostu Kazım xan Qaracadağinin köməyi ilə Qaracadağa pənah apardı. Amma orada dostu Kazım xanın xəyanətinə tuş gəldi. Kazım xan onu tutub İbrahim xana təhvil verdi. İbrahim xan da onu və onun qardaşını Təbrizdə qətlə yetirdi (76).

1748-ci ildə İbrahim xan ölkədə çox böyük gücə malik olan şəxsə çevrildi.Əmiraslan xan məğlubiyyətə uğradıqdan sonra Azərbaycanda, Gürcüstanda, Luristanda, Xuzistanda, Farsda və Fars körfəzində, habelə Kermanda olan Nadir şah qoşunlarının qalıqları, habelə əfqan və özbək tayfaları onun tərəfinə keçdilər. Eyni zamanda adları çəkilən vilayətlər də onun nəzarəti altına düşdülər. Mənbələrin verdiyi məlumata görə, İbrahim xanın tabeliyində olan qoşunların ümumi sayı 120 min nəfərə çatdı .

İbrahim xan ölkədə güc və ixtiyar sahibinə çevrilsə də, görünür insanların çoxunun ona elə də böyük inamının olmadığını hiss edirdi. Ola bilsin ki, əhalinin fikrini yayındırmaq üçün bəyan etdi ki, ölkədə hakimiyyətə haqqı olan şəxs Şahrux Mirzədir. O bildirirdi ki, Şahrux Mirzə İsfahana gəlib taxt-taca yiyələnməlidir. Şahrux Mirzənin taxt-taca olan haqqını bəyan etməklə İbrahim xanın bir məqsədi də onu və Nadir şahın xəzinəsini İsfahana gətirmək, Xorasan vilayəti əhalisinin rəğbətini qazanmaq və sonra da Şahrux Mirzəni qətlə yetirərək hakimiyyətə təklikdə sahib olmaq idi. Bu məsələlərin həllinin sürətləndirilməsi üçün İbrahim xan öz qardaşı Hüseyn bəyi Xorasan hakimi təyin etdi və onu Məşhədə göndərdi. Həm səfəvilər, həm də Nadir şah xanədanının nümayəndəsi olan, xoş xasiyyəti və rəftarı ilə fərqlənən Şahux Mirzənin ölkənin şahı elan ediləcəyi barədə İbrahim xanın bəyanatı doğrudan da müəyyən dairələr tərəfindən rəğbətlə qarşılandı. Amma vəziyyəti daha dəqiqliklə qiymətləndirən əyanlar, tayfa başçıları, nüfuzlu şəxslər anladılar ki, Şahrux Mirzəni İsfahana cəlb etməkdə İbrahim xanın məqsədi onu qətlə yetirməkdir. Ona görə də Şahrux Mirzənin İsfahana getməsinə imkan verilmədi. Vilayət sərkərdələri, əyanları, nüfuzlu şəxsləri və əhalinin nümayəndələri bildirdilər ki, əgər İbrahim xanın söylədikləri doğrudursa, onda Şahrux Mirzənin Məşhəddə şah elan edilməsinə icazə versin. Bundan sonra onlar Şahrux Mirzənin dustaq saxlandığı qalaya yollandılar, onu azad etdilər və taxt-tacı qəbul etməsini xahiş etdilər. Şahrux Mirzə isə taxt-tacı qəbul etmədi. Onda vilayət xanları, əyanları və tayfa başçıları İmam

Rza məqbərəsində toplantı təşkil etdilər və Şahrux Mirzənin hakimiyyətinə sədaqətli olacaqlarına and içdilər. Şahrux Mirzə daha təkid göstərmədi və Nadir şahın qətlindən təxminən il yarım sonra taxt-tacı qəbul etməyə razılıq verdi (77).

Vəziyyətin belə dəyişəcəyini gözləməyən İbrahim xan da Təbrizdə özünü ölkə şahı elan etdi və dərhal da adına sikkə kəsdirdi.Bundan sonra isə Xorasan vilayətinin ələ keçirilməsi və Şahrux Mirzənin hakimiyyətinə son qoyulması üçün tədbirlər görməyə başladı. Hazırlıq işlərini görüb başa çatdırandan sonra Təbrizdən Xorasana doğru hərəkətə başladı. İbrahim xan üç ay Təbrizdə qoşunların səfərbərliyi və təkmilləşdirilməsi ilə məşğul olmuşdu və ona görə də Şahrux Mirzəyə üstün gələcəyinə şübhə etmirdi. Xorasana doğru hərəkəti asanlaşdırmaq üçün qoşunların ağır yüklərini və təchizatını öz əli ilə kor etdiyi Adil şahla birlikdə Quma göndərdi. Semnan yaxınlığındakı Sorxə məntəqəsinə çatanda İbrahim xanın qoşunları arasında parçalanma baş verdi. Heç şübhəsiz ki, ölkə daxilində baş verənlər qoşunlar tərəfindən də izlənilirdi. İbrahim xanın, yoxsa Şahrux Mirzənin daha çox şahlığa layiq olması qoşunları da biganə qoymurdu. Ona görə də İbrahim xanın qoşunlarının böyük bir hissəsi Şahrux Mirzənin qoşunlarına qatılmağa üstünlük verdi. Bir hissə isə İbrahim xana xidmətdən üz çevirib dağılışdı.

İbrahim xan gözləmədiyi halda mürəkkəb vəziyyətə düşdü. Ona sədaqətli qalan qoşunla Xorasana yollanmağın mənasız olduğunu anlayıb Quma qayıtdı. Amma Qum qalasının müdafiəçiləri onu və onun qoşununu qalaya buraxmadılar. Onda İbrahim xan ətrafındakı qoşun dəstəsi ilə Şimala doğru üz tutdu. O, Qəzvinlə Save arasındakı Qalapur qalasına sığınmaq istəsə də, bu da ona qismət olmadı. Qaladakı qoşun dəstəsi onu həbs edib Şahrux Mirzəyə xəbər göndərdi. Şahrux Mirzə də əmr etdi ki, İbrahim xanı da və Adil şahı da Xorasana gətirsinlər. Xorasan yolunda olarkən İbrahim xan əvvəlcə kor edildi, sonra isə öldürüldü. Adil şah isə (Əliqulu xan) Məşhədə çatdırıldı. Lakin o da törətdiyi əməllərin cəzasına çatdı. Mövcud olan məlumatlara görə, Adil şah da Nadir şah hərəmxanasının qadınları tərəfindən didişdirilib məhv edildi (78).

Bununla belə, Şahrux Mirzənin hakimiyyəti uzun sürmədi. Bir müddətdən sonra Şah Sultan Hüseynin bacısının əri, Seyid Məhəmməd adlı birisi Şahrux Mirzənin sünniliklə bağlı olması bəhanəsi ilə ona qarşı təbliğata başladı və ətrafına xeyli adam toplaya bildi. Onun tərəfdarları o qədər çoxaldı ki, hətta Şahrux Mirzənin üzərinə qoşun da çəkdi. Seyid Məhəmməd öz tərəfdarları ilə birlikdə Şahrux Mirzəyə

üstün gəldi. Şahrux Mirzə həbs edilib gözləri çıxardıldı. Seyid Məhəmməd özünü  Süleyman şah adı ilə şah elan etdi. Bununla da əslində, ölkə daxilində yenidən hərc-mərclik yaranmasına rəvac verildi. Çox keçmədi ki, Şahrux Mirzənin sərkərdələrindən olan Yusifəli adlı birisi Süleyman şahın üstünə qoşun çəkdi. Onu öldürdü və Şahrux Mirzə yenidən şah elan edildi. Qısa müddətdən sonra Xorasanda güclənən çəkişmələr nəticəsində Şahrux Mirzə bir daha taxt-tacdan uzaqlaşdırıldı. Əhməd xan Əbdali Dürraninin rəhbərliyi altında olan əfqanlar hücumla Məşhədi tutub Şahrux Mirzəni yenə taxta çıxardılar. Ölkədə qızışan daxili çəkişmələr Şahrux Mirzənin hakimiyyətini yalnız Xorasan vilayəti ilə məhdudlaşdırırdı. Digər vilayətlərin hakimləri isə Şahrux Mirzə hakimiyyətini tanımaq istəmirdilər.1796-cı ildə Xorasan vilayəti də Ağa Məhəmməd xan Qacarın hücumuna məruz qaldı. Ağa Məhəmməd xan Şahrux Mirzəyə işgəncələr verməklə Nadir şahdan qalan xəzinəni onun əlindən aldı və özünü də taxtdan salıb Tehrana göndərdi. Yolda ikən Şahrux Mirzə dünyasını dəyişdi. Ağa Məhəmməd xanın ölümündən sonra  Şahrux Mirzənin oğlu Nadir Mirzə əfqanların köməyi ilə 1800-cü ildə Xorasanda özünü hakim elan etdi. 1805-ci ildə o, Fətəli şah Qacar tərəfindən qətlə yetirildi (79). Bununla, Nadir şahın ölümündən 58 il sonra onun sülaləsinə də son qoyuldu.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Larudi N. Nader şah pesər-e şəmşir. Tehran, 1383, s.33
2. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.244
3. Larudi N., .. s.38;
4. Larudi N., ... s.54; Nader şah. Axərin keşvərqoşa-ye ... s.254
5. Mərvi M.K. Aləm Ara-ye Naderi. C.I, Tehran, 1384, s. 88-91
6. Nader şah. Axərin keşvərqoşa-ye ... s.260; Moqtəder Q. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.21
7. Astrabadi M. Tarix-e Cahanqoşa-ye Naderi. Tehran, 1368, s. 316; Nader şah. Axərin keşvərqoşa-ye ... s.337
8. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.316; Nader şah. Axərin keşvərqoşa-ye ... s.337
9. Aləm Ara-ye Naderi, c.I, ... s.262; Tarix-e Cahanqoşa-ye Naderi, ... s.267; Larudi N., ... s.90
10. Larudi N., ... s.177
11. Aləm Ara-ye Naderi, c.II, ... s.834-35
12. Yenə orada, s.835
13. Yenə orada, s. 836
14. Yenə orada
15. Yenə orada, s.836-837
16. Yenə orada, s.837
17. Yenə orada, c.III, ... s.1048
18. Yenə orada
19. Moqtəder Q., ... s.139-140
20. Aləm Ara-ye Naderi, c.III, ... s.1046
21. Xaterat-e təbib-e məxsus-e Nader. S.820; Bax: Əfrasiyabi B. Oqab-e Kelat. Tehran, 1370, s.803-851
22. Yenə orada s.819-820
23. Yenə orada, s.820-821
24. Yenə orada, s.822, 823
25. Moqtəder Q., ... s.140
26. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.535
27. Aləm Ara-ye Naderi, c.III, ... s.1083
28. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.539; Aləm Ara-ye Naderi. C.III, ... s.1089
29. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.539
30. Moqtəder Q., ... s.143
31. Aləm Ara-ye Naderi, c.III, ... s.1190

32. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.540
33. Aləm Ara-ye Naderi, c.III, ... s.1190
34. Aləm Ara-ye Naderi, c.III, ... s.1194; Moqtəder Q., ... s.145
35. Xaterat-e təbib-e məxsus-e ... s.825
36. Yenə orda, s.824
37. Xaterat-e təbib-e məxsus-e ... s.825; Qodusi M.H. Nadername. Xorasan, 1339, s. 402; Локкарт Л. Надир шах. Баку, 2004, с. 312
38. Xatrat-e təbib-e məxsus-e ... s.826
39. Yenə orada
40. Aləm Ara-ye Naderi, c.III, ... s.1195
41. Xaterat-e təbib-e məxsus-e ... s.826
42. Qodusi ... s.404
43. Yenə orada, s.405
44. Yenə orada
45. Hnavey C. Zendegi-e Nader şah. Tehran, 1383, s.314
46. Xaterat-e təbib-e məxsus-e ... s.826
47. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 541; Aləm Ara-ye Naderi, c.III, ... s.1196
48. Xaterat-e təbib-e məxsus-e ... s.827
49. Hanvey C., ... s.314-315
50. Moqtəder Q., ... s.147; Qodusi ... s.406
51. Lokkart L., ... s.313
52. Xaterat-e təbib-e məxsus-e ... s.832
53. Yenə orada, s.833
54. Şəbani R. Tarix-e ectemai-ye İran dər əsr-e əfşariyye. Tehran, 1373, s.112
55. Xaterat-etəbib-e məxsus-e....s.835
56. Şəbani R., ... s.11
57. Yenə orada
58. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.542
59. Yenə orada, s.543
60. Aləm Ara-ye Naderi, c.III, ... s. 1197-1198
61. Malkolm S. İran dər zəman-e Nader şah.
62. Xaterat-e təbib-e məxsus-e ... s.836
63. Tarix-e Cahanqoşa-ye Naderi, ... s.544
64. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 545; Xaterat-e təbib-e məxsus-e ... s. 836
65. Xaterat-e təbib-e məxsus-e ... s.836
66. Yenə orada

67. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 545
68. Xaterat-e təbib-e məxsus-e ... s.839
69. Yenə orada
70. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 545-546
71. Xaterat-e təbib-e məxsus-e ... s.840
72. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 546; Qodusi ... s.413
73. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 546; Aləm Ara-ye Naderi, c.III, ... s.1198
74. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 546; Qodusi ... s.414; Xaterat-e təbib-e məxsus-e ... s. 843
75. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 547; Xaterat-e təbib-e məxsus-e .... s.844
76. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 547
77. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 548; Qodusi ... s.415
78. Tarix-e Cahanqoşa-ye Naderi, ... s. 549; Qodusi ... s.417
79. Larudi N., ... s.247-248

## VI FƏSİL
## NADİR ŞAHIN QOŞUNLARI

Nadir şahın sərkərdəlik və dövlətçilik fəaliyyətinin yadda qalan uğurlarının əldə edilməsinin başlıca səbəblərindən biri də onun güclü hərbi qüvvələr yaratmasına nail olması idi. Nadir şah özünün bütün hərbi keyfiyyətlərini də məhz bu qüvvələr vasitəsi ilə ifadə edə bilmişdi. İstəklərinə və tələblərinə uyğun gələn qoşunları formalaşdırmaqla Nadir şah həm böyük tarixi qələbələrlə yadda qaldı, həm də yeni bir dövlət qurdu.

Hərbi qüvvələrin formalaşdırılması və onun daim inkişafda olan prosesə çevrilməsi Nadir şahın təşkilatçılıq qabiliyyətinin yeni bir istiqamətinin nümayişi idi. Bu proses Nadir şah dövrünün həm inkişaf, həm də təfəkkür səviyyəsini əks etdirsə də bir sıra xarakterik xüsusiyyətlərə də malikdir.

Hər şeydən əvvəl Nadir şah malik olduğu qoşunu heç bir bazaya malik olmadan formalaşdırdı. Ondan əvvəl ölkəyə rəhbərlik edən Səfəvi şahları ənənəvi olaraq öz sələflərindən taxt-tacla bərabər qoşunları da qəbul edib ona dayaqlanırdılarsa, Nadir şah belə bir irsə və imkana malik deyildi. Adi bir kəndçi balası olan Nadir şah gəncliyində yalnız öz yaxınlarını və tanışlarını ətrafına toplamaqla dəstə yaratdı. Vaxt ötdükcə bu dəstə həm sayca genişləndi, həm də onun fəaliyyəti artdı. Nadir şahın gənclik illərində yaşadığı məntəqədə yaratdığı ilk azsaylı dəstənin talançılara, yad tayfaların soyğunçu yürüşlərinə qarşı uğurları artdıqca, ona qoşulanların sayı çoxaldı, dəstənin tərkibi dəyişdi, fəaliyyətindəki nizamlılıq daha da artdı və nəhayətdə böyük döyüşləri aparmağa qadir olan qüvvəyə çevrildi. Nadir şahın hələ taxt-taca sahib olmazdan əvvəl hərbi uğurlarının artması ilə əlaqədar qoşunların formalaşması prosesi də kütləviləşdi, yeni-yeni vilayətlər, yaşayış məntəqələri və tayfalar bu prosesə cəlb edildi. Nadir şahın qoşunları dövrünün bir sıra səciyyəvi elementlərini özündə əks etdirsə də imkanları etibarilə son dərəcə güclü bir qoşun idi. Əzmkarlığı və təşəbbüskarlığı nəticəsində o, kiçik bir dəstənin bazasında bütün Asiyaya meydan oxuyan bir qoşunun formalaşdırılmasına nail ola bildi.

Nadir şah qoşunlarını fərqli mənəvi-psixoloji dəyərlər üzərində formalaşdırdı. O, qoşunlara yeni ruh verdi, onların daxili simasını

dəyişdirdi. Səfəvi dövlətinin süqutu ərəfəsində ölkənin qoşunları da böhran vəziyyətinə düşmüşdü.Qoşun rəhbərliyi saray aristokratiyasına çevrilməklə bərabər, daxili intriqalardan da uzaq deyildi. Qoşunların idarə edilməsinə biganə mövqe, səbatsız adamlara geniş səlahiyyətlr verilməsi Səfəvi qoşunlarının ən yaxşı ənənələrinin yaddan çıxmasını şərtləndirmişdi. Xalq arasındakı nüfuzunu və eləcə də döyüş keyfiyyətlərini itirən hərbi qüvvələr öz zəifliyi ilə dövlətin ərazi bütövlüyünə qarşı istiqamətlənmiş hücumların artmasına səbəb oldu və nəhayətdə Səfəvi dövləti özü süquta uğradı. Nadir şah isə hələ gənclik illərində başına topladığı dəstə üzvlərində hərbə maraq oyatdı, onların daxili potensialının üzə çıxarılmasına zəmin yaratdı, yaşadığı məntəqənin, vilayətin və nəhayətdə ölkənin düşmənlərinə qarşı birgə əzmkarlıq göstərilməsinə nail oldu. Nadir şah qoşunlarında döyüşçüyə, qoşun başçısına, sərkərdəyə olan münasibət yeni dəyərlər kəsb etdi, xidmətə münasibət dəyişdi, cəmiyyət daxilində hərbi xidmətçinin nüfuzu son dərəcə artdı. Qoşunlar dövlət sistemində öz layiqli yerini tutdu.

Dövrünün yetişdirməsi kimi, Nadir şah heç şübhəsiz ki, qoşunların formalaşdırılması prosesinin səfəvilər dövrünə aid olan bir sıra xarakterik elementlərini saxladı. Görünür, elə buna görə də bəzi tədqiqatçılar Nadir şah qoşunlarının quruluşunun Səfəvi qoşunlarının quruluşundan elə də fərqlənmədiyini iddia edirlər (1). Əslində isə belə deyildi. Hərbi-texniki inkişaf səviyyəsinə, qarşıya qoyulan vəzifələrin xarakterinə uyğun olaraq Nadir şah qoşunların quruluşuna və bütünlükdə, qoşunların formalaşdırılması prosesinə ciddi yeniliklər gətirdi. Səfəvilər dövründə mövcud olmayan hərbi-dəniz qüvvələrinin yaradılması Nadir şahın bu prosesdə əldə etdiyi ciddi irəliləyişlərdən biri sayılmalıdır. O, əslində yeni bir qoşun növü yaratdı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əhəmiyyətli addımlar atdı.

Nadir şah iştirak etdiyi döyüşlərin aparıldığı şəraitə uyğun olaraq yüngül artilleriyanın (zənburəklərin) işlədilməsinə, döyüş istifadəsinə diqqəti artırdı, bu artilleriyanın yeni strukturlarını yaratdı. Bundan başqa, briqada (tip) və ləşgərlərin strukturlarında da bir sıra yeniliklər meydana gəldi.

Nadir şah qoşunlarında dəstələr daimi və müvəqqəti əsasda üzvü şəkildə birləşdirildi. Nadir şah dövləti əsasən hərbi dayaqlar üzərində bərqərar olmuşdu. Ona görə də Nadir şahın ətrafında daimi əsasda yaradılmış qoşun strukturları var idi. Bura cəzayirçi, qorçu, qullar dəstələri, xüsusi qvardiya, həmişəkeşikçilər dəstəsi və s. daxil idi. Amma qoşunların kütləviliyinə nail olmaq, iri miqyaslı əməliyyatları aparmaq üçün qeyri-daimi əsaslar üzərində də qoşun strukturları formalaşdı-

rılırdı. Bura başlıca olaraq vilayətlər, tayfalar üzrə toplanılan qoşun dəstələri daxil idi. Nadir şah daimi və qeyri-daimi qoşun dəstələrinin döyüş fəaliyyətinin uzlaşdırılmasında da kifayət qədər bacarıq nümayiş etdirdi. Ona görə də Nadir şahın hərbi uğurlarını daimi və qeyri-daimi qoşun dəstələrinin birgə və uzlaşdırılmış fəaliyyətinin nəticəsi saymaq olar.

Qoşunlara səfərbərliyin həyata keçirilməsində Nadir şah həm könüllülük, həm də məcburiyyət prinsiplərindən istifadə edirdi. Nadir şahın hərbi fəaliyyətinin uğurları genişləndikcə, qoşunların maddi təminatı stabilləşdikcə könüllü şəkildə ona qoşulmaq istəyənlərin sayı da artdı. Bununla belə, Nadir şah qoşunların sayının artması üçün məcburiyyət vasitələrinə əl atırdı. Ələ keçirdiyi vilayətlərin, ərazilərin hakimləri və əhalisi qarşısında Nadir şah konkret sayda qoşun dəstəsi toplayıb mərkəzi hakimiyyətin ixtiyarına verilməsi tapşırıqlarını da qoyurdu. Yəni, qoşun dəstəsinin toplanması və Nadir şahın ixtiyarına verilməsi bir çox vilayətlər üçün mükəlləfiyyət xarakteri alırdı. Nadir şah qoşunlarında bir sıra əfqan dəstələrinin, ləzgi dəstəsinin, Xarəzm dəstəsinin, Mərv dəstəsinin meydana gəlməsi də məhz həmin mükəlləfiyyətlərin icra edilməsinin nəticəsi idi.

Nadir şah qoşunlarının struktur vahidlərinin formalaşdırılmasında və onların idarə edilməsində onluq sistemindən istifadə edirdi. Bu sistem əslində, Səfəvi qoşunlarından qalmışdı və Nadir şah da onun tətbiqini məqsədəuyğun bilirdi. Həmin sistemə əsasən, qoşunlarda ən kiçik struktur vahidi 10 nəfərdən ibarət olan cuxə idi.Cuxəyə daxil olan şəxslərdən 9-u sıravi döyüşçü, biri isə onbaşı və ya vəkil idi. 10 cuxənin birləşdirilməsindən dəhcuxə adlanan bir vahid təşkil edilirdi. 100 nəfərdən ibarət olan dəhcuxəyə (bəzən dəstə  də adlandırılırdı) yüzbaşı rəhbərlik edirdi. 10 vahid dəhcuxədən isə min nəfərlik bir döyüş strukturu yaradılırdı. Min nəfərlik döyüş strukturu fövc (alay) adlanırdı və ona minbaşı rəhbərlik edirdi(2).

Fövc Nadir şah qoşunlarının əsas  taktiki vahidi idi. Qoşun birləşmələri də əsasən, fövclərin sayı ilə müəyyənləşdirilirdi. Ancaq mənbələrdə əllibaşı, beşyüzbaşı vəzifələrinin mövcudluğu haqqında da məlumatlara rast gəlmək mümkündür. Məsələn, “Aləm Ara-ye Naderi”də bildirilir ki, Nadir şah Hindistandan geri qayıdarkən öz qoşunlarına baxış keçirdi. Həmin baxışda: “... sərkərdələr, tayfa başçıları, ağsaqqallar, minbaşılar, beşyübaşılar, yüzbaşılar, onbaşılar, yasovullar, nəsəğçilər, çəndovullar, rikalar, carçılar, çavuşlar və qədimilər cahan sahibini salamlamağa hazır oldular” (3).

“Aləm Ara-ye Naderi”nin yenə başqa bir yerində beşyüzbaşı ilə birlikdə əllibaşı ifadəsi işlədilmişdir(4).Baxmayaraq ki, bəzi tədqiqatçılar beşyüzbaşı vəzifəsinin Səfəvi qoşunlarına aid olduğunu və Nadir şah dövründə bu vəzifə sahibinin cavabdeh olduğu struktur vahidinin aradan çıxdığını iddia etsələr də (5) göründüyü kimi “Aləm Ara-ye Naderi”də həm beşyüzbaşı, həm də əllibaşı ifadəsinə rast gəlmək mümkündür. Bu vəzifə adları mənbələrdə çox işlənməsə də, görünür Nadir şah qoşunlarında onlar hələ də qalmaqda idi. Ehtimal etmək olar ki, kiçik struktur vahidlərinin, o cümlədən ayrı-ayrı fövclərin istifadəsi zamanı 50 nəfərlik və 500 nəfərlik struktur vahidlərindən istifadə edilməsinə zərurət yaranmışdı.

Mənbələrdə Nadir şahın qoşunlarında struktur vahidi kimi işlədilən “tip” və “ləşgər” terminləri ilə qarşılaşmaq mümkündür (6). Bu struktur vahidlərinin hər biri bir neçə fövcün birləşməsindən təşkil edilirdi. Qeyd etmək lazımdır ki, tip (briqada) struktur vahidi Səfəvi qoşunları ilə müqayisədə Nadir şah qoşunlarına gətirilmiş daha bir yenilik idi. Lakin istər tip, istərsə də ləşgər daim tətbiq olunan strukturlar deyildilər. Əgər hər hansı bir tapşırıq icrası üçün bir neçə fövc göndərmək lazım gəlirdisə, onda bu fövclərin müvəqqəti olaraq ümumi komandanlıq altında birləşdirilməsinə ehtiyac yaranırdı. Belə vaxtlarda bu fövclər tip və ya ləşgər halında qruplaşdırılır və istedadlı sərkərdələrdən biri bu strukturun rəhbəri təyin edilirdi. Başqa sözlə, fövclərdən fərqli olaraq tiplər və ləşgərlər daimi şəkildə mövcud deyildilər. Bu strukturların mütləq formalaşdırılmış bir say tərkibi də yox idi.İstər tip, istərsə də ləşgər 2-6 fövcdən təşkil oluna bilərdi (7).

Mənbələrdəki məlumatlardan belə bir qənaətə gəlmək mümkündür ki, daha böyük struktur vahidi kimi Nadir şahın qoşunlarında dəstə və sepah mövcud olmuşdu. Bunların da say tərkibinin müəyyənləşdirilməsi müəyyən çətinlik təşkil edir. Amma bu struktur vahidlərinin hər ikisini əməliyyat vahidi kimi qəbul etmək olar. “Aləm Ara-ye Naderi”də olan məlumata əsasən,Nadir şah Dağıstana Qəni xanın rəhbərliyi altında 20 min əfqan və beluc döyüşçüsü, 20 min də Azərbaycan döyüşçüsü göndərdi. Qəni xan da bu qüvvələri dörd dəstəyə böldü və hər bir dəstəyə 2 min nəfərlik qarovul təyin etdi (8). Mənbədə başqa yerlərdə də daha böyük struktur vahidi kimi dəstə termininə rast gəlmək olar. Mənbə və tarixi əsərlərdə 100 nəfərdən təşkil edilmiş vahidin də dəstə adlandırılması ilə qarşılaşmaq mümkündür. Lakin dəstə termininin daha çox qüvvəni özündə birləşdirməsi halı mənbələrdə daha çox öz əksini tapmışdır.Bu vahid say baxımından qeyri-müəyyənliyi özündə əks etdirsə də, onun tip və ləşgərdən daha böyük struktur vahidi

kimi qələmə alındığını istisna etmək olmaz. Yuxarıda istinad edilən bölgü də bunu deməyə əsas verir.

Sepah struktur vahidinin də nə qədər qüvvəni özündə birləşdirməsini konkret şəkildə söyləmək çətindir. Mənbələrdən aydın olur ki, sepah müxtəlif mənalarda işlədilmişdir. Məsələn, Nadir şahın Kərkük yaxınlığında Topal Osman paşa ilə qarşılaşmasını təsvir edən "Aləm Ara-ye Naderi"nin müəllifi yazır: "Nadir şah yüksəkliyin arxasından bu iki sepaha nəzər saldı". "İki sepah" deyəndə müəllif qarşı-qarşıya gələn iki ordunu nəzərdə tuturdu. Müəyyən hallarda isə sepah termini qoşunun tərkib hissəsi olan struktur vahidi (korpus) kimi işlədilmişdir. Məsələn, "Aləm Ara-ye Naderi"nin bir yerində qeyd olunur ki, bir tərəfdən əfqan və beluc dəstələri, bir tərəfdən də Gəncə hakimi Həsənəli xanın sərdarlığı altında Azərbaycan sepahı camaatın yolunu kəsdi (9).

Bu istinad da göstərir ki, sepah termini qoşunların tərkib hissəsini təşkil edən struktur vahidi kimi işlədiləndə belə tip, ləşgər və dəstədən daha böyük olan struktur vahidi kimi nəzərdə tutulmuşdur.

Nadir şah qoşunlarının xarakterik xüsusiyyətlərindən biri də qoşun növləri, xüsusilə piyadalar və süvarilər arasında olan zahiri fərqlərin silinmək üzrə olması idi. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, Nadir şah qoşununda döyüşçüdən başlamış xidmətçiyə qədər elə bir şəxs tapmaq mümkün deyil ki, atsız və silahsız olsun (10). Yəni, piyadalarla süvarilər arasında əsas fərqləndirici əlamətlərdən olan süvarilik Nadir şah qoşunlarında artıq aradan qalxmışdı. Əlbətdə ki, ata malik olmaq bu qoşun növlərinin yalnız zahiri fərqləndirici əlaməti deyildi. Süvarilər üçün at, sürətli hərəkət vasitəsi, səmərəli döyüş vasitəsi idi. Nadir şah qoşunlarında da döyüş vasitəsi kimi atdan istifadə edilməsinə xüsusi əhəmiyyət verilirdi. Əslində, başqa cür ola da bilməzdi. Uzun müddətli səfərlər, uzaq olan mənzillər qoşunların bir yerdən başqa yerə daha tez atılması üçün atlardan geniş istifadə olunmasını tələb edirdi.Atlar Nadir şah qoşunlarının ayrılmaz elementi idi. Bununla belə, hərbi qüvvələrin təyinatı, qarşısına qoyulan vəzifələrin xarakteri, silahlanması, döyüş tapşırıqlarının icrası zamanı atlardan istifadə edilməsi səviyyəsinə görə piyada və süvari qoşun növünə ayrılması Nadir şah qoşunlarında da qalmaqda idi.

Nadir şah qoşunlarının daha bir xarakterik xüsusiyyəti onda Azərbaycan-türk elementinin güclülüyü idi. Yuxarıda qeyd edildiyi kimi, Nadir şah Azərbaycan arealından çox uzaqda doğulsa da əfşar soyunun etnik məişət mühiti ona güclü təsir göstərmişdi. Nadir şah Azərbaycan türkcəsini təmiz bilirdi və ünsiyyətini də daha çox bu dildə qurmağa çalışırdı. Tədqiqatçılar da təsdiq edirlər ki, Nadir şahın istər

gündəlik həyatında, istərsə də saray həyatında Azərbaycan türkcəsi çox geniş yayılmışdı. Hətta əyanların Nadir şah dövründə öz fikirlərini Azərbaycan türkcəsində ifadə etmələri kübarlıq əlaməti kimi qəbul olunurdu (11).

Qoşun daxilində də ünsiyyət türkcə qurulurdu. Hətta Nadir şahın fərmanları carçılar, çavuşlar və yasavullar tərəfindən qoşunlara daha çox türk dilində çatdırılırdı (11a). Bu da təbii idi. Çünki Nadir şah, əfşar mühitindən çıxmış bir şəxs idi və türk soyları olan əşfarlardan , qacarlardan, cəlayirlərdən toplanmış dəstələr uzun müddət qoşunların əsasını təşkil etmişdi. Nadir şah qoşunlarında ən mühüm və məsuliyyətli vəzifələr də əsasən əfşarlarla qacarlara tapşırılmışdı. Doğrudur, Nadir şahın qoşunlarında müxtəlif etnik tayfalara mənsub olan qoşun dəstələri olmuşdu və Nadir şahın hərbi uğurlarının əldə edilməsində onların xidmətini unutmaq olmaz. Bununla belə, əfşar və qacar dəstələri uzun müddət qoşunların əsasını təşkil etmişdi.

Nadir şah qoşunlarında işlədilən vəzifə adlarının (bu barədə aşağıda danışılacaqdır), silah və təchizat əşyalarının əksəriyyətinin adları da Azərbaycan türkcəsindədir. Yəni, dövrün hərbi terminologiyası da əsasən Azərbaycan türkcəsi bazasında formalaşmışdı.

### 1. Piyada və süvari qüvvələri

Piyadalar Nadir şah qoşunlarının tərkibində əhəmiyyətli yeri olan qoşun növü idi.Doğrudur, onun formalaşdırılmasının özünəməxsus xüsusiyyətləri var idi. Nadir şahın gəncliyində ətrafına topladığı ilk dəstələr süvari dəstələri idi və onun bir sərkərdə kimi formalaşmasının ilkin mərhələsi də daha çox süvari dəstələri ilə bağlıdır. Tədqiqatçıların qənaətinə görə,hələ Xorasan həyatını yaşayarkən Nadirin əfqanlarla döyüşlərindən sonra piyada dəstələrinin formalaşdırılmasına başlandı(12). Təhmasib Mirzə ilə birləşməsindən sonra Nadir şahın piyada qoşun növünün formalaşdırılmasına, təchiz edilməsinə diqqəti daha da artdı.

Piyadalar Nadir şah qoşunlarının əsas zərbə qüvvələrindən biri hesab edilirdi. Döyüşlər adətən piyadalar vasitəsilə başlanır və onların hücumu süvarilər tərəfindən davam etdirilirdi.

Nadir şah dövrünün şahidi olmuş və Nadir şah qoşunlarını müşahidə etmiş general Kişmişov öz xatirələrində Nadir şahın piyada qoşun növünü üç qoşun qisminə ayırmışdır: 1) ağır silahlarla silahlanmış cəzayirçi piyadalar; 2) yüngül silahlarla silahlanmış piyadalar; 3) digər

piyadalar (13). Öz əsərlərində Nadir şahın qoşunlarına toxunan bir sıra tədqiqatçılar da bu bölgünü təkrar etmişlər.

Heç şübhəsiz ki, Nadir şahın piyada qoşun növünün əsasını tüfənglərlə silahlanmış piyadalar təşkil edirdilər.Konkret tarixi şəraitdə qoşunların istifadəsində həm ağır tüfənglər, həm də yüngül tüfənglər var idi.Ağır tüfənglərlə silahlanan piyadalar cəzayirçilər adlanırdılar. Cəzayirçilərin əsası ilk dəfə Səfəvilər dövründə, II Şah Abbasın dövründə qoyulmuşdu. II Şah Abbas ilk dəfə olaraq 600 nəfərlik bir dəstəni ayırıb onları bütünlüklə tüfənglərlə silahlandırdı və bu dəstəyə cəzayirçi dəstəsi adı verdi. Bu dəstə tüfəngağası başının rəhbərliyi altında fəaliyyət göstərirdi (14).

Nadir şah dövründə də tüfəngçiağası vəzifəsi var idi. Amma bu vəzifə əvvəlki aktuallığını itirmişdi. Çox güman ki, bu, tüfənglə silahlanan piyadaların sayının xeyli artması ilə bağlı idi. Piyadaların əksəriyyəti demək olar ki, tüfənglərlə silahlanırdı və onların aşağıdan yuxarı tabeçiliyə malik olması çox güman ki, tüfəngçiağası vəzifəsinin saxlanılmasına da ehtiyacı aradan qaldırmışdı.

Cəzayirçilər çəkisi 18 kiloqramdan artıq olan tüfənglərlə silahlanmışdılar.Lüləsinin ağzı genişlənən bu tüfənglər adətən hərbçilər tərəfindən qiymətli daş-qaşlarla bəzədilirdi.Tüfənglər döyüşçülər tərəfindən xüsusi üçayaqlı dayaqlar üzərinə qoyularaq atılırdı. Tüfənglərin malik olduğu ağırlıq belə bir dayaqdan istifadə edilməsini zəruriləşdirirdi. Ona görə cəzayirçi tüfənglə bərabər yanında üçayaqlı dayağı da gəzdirməli idi. Lülələrinin uzunluğu döyüşü bu tüfənglərlə başlamağa imkan verirdi. Şahidlərin qənaətinə görə, piyadalar malik olduqları silah baxımından döyüş vaxtı çox böyük fayda verə bilirdilər(15). Çaxmaqla işləyən bu tüfənglər uzun olduğu üçün döyüşçülər ona ayaq üstündə durarkən hətta dayaqlanırdılar da. Cəzayirçilərin özünəməxsus libasları da var idi. Onlar başlarına keçədən hazırlanmış papaq qoyardılar. Buna görə onları çox vaxt keçə papaq da adlandırardılar. Papaqların hər iki yanından məngulə asılar, üzərində isə "Allah" kəlməsi yazılardı. Papaqlar üzərindəki yazı müxtəlif döyüşçülərdə üç rəngdə yazılardı. Şahidlərin ifadəsinə görə.tam döyüş təchizatına malik olan cəzayirçilərin düzülüşü müşahidəçilərdə dhşətli bir hiss yaradardı (16).

Piyadaların bir qismi yüngül silahlarla silahlanardılar. Həmin tüfənglər fitilli tüfənglər olub cəzayirçilərin çaxmaqlı tüfənglərindən çəkisinə görə yüngül, ölçüsünə görə isə qısa idi. Yüngül tüfənglərə malik olan piyadalar ayrıca struktur vahidlərində, alaylarda komplektləşdirilirdilər (17).Tarixi ədəbiyyatda bu piyadaların Qaracurlu piya-

daları adlandırılması halları ilə rastlaşmaq olar. Ola bilsin ki, bu piyadaların tərkibində müəyyən vaxtlar Qaracurlu tayfasına mənsub olan piyadalar çoxluq təşkil etmişdilər və ona görə də Qaracurlu piyadaları kimi də tanınmışdılar. Amma yüngül tüfənglərlə silahlanan piyadaların hamısının Qaracurlu tayfasına aid olduğunu iddia etmək olmaz.

Yüngül fitilli tüfənglər heç şübhəsiz ki, çaxmaqlı tüfənglərə nisbətən daha yaxın döyüşlər üçün nəzərdə tutulmuşdu və ona görə də döyüşqabağı düzülüşdə yüngül tüfənglərlə silahlananların öz yerləri var idi.Nadir şah, bütünlükdə, tüfənglərlə silahlanan piyadaların formalaşdırılmasına xüsusi əhəmiyyət verirdi. Vaxt ötdükcə onların xarici görünüşü daha da mükəmməlləşdi. Sonralar tüfəngdarlar eyni geyim və formalara malik oldular. Bu piyadalar adətən qırmızımtıl şalvarlar və göy rəngli yarım canlıqlar geyir, başlarına qaragül dərisindən papaq qoyurdular. Papaqların qarşısında tüfəngdarların hansı alaya mənsubluğunu göstərən xüsusi nişan bərkidilirdi. Tüfəngdarlar əsas silahlarından başqa kəmərlərindən asılmış xəncərə də malik idilər. Mövcud olan məlumatlara görə,ağır tüfənglərlə silahlanmış struktur vahidlərinin şəxsi heyəti əsasən əyanların, imkanlı adamların ailələrindən toplanırdı (18). Bundan başqa, bütün tüfəngdarların atı var idi və hərbi yürüşlər zamanı atlarla hərəkət edirdilər.

Nadir şah piyadalarının böyük bir hissəsi soyuq silahlarla silahlanırdılar. Bu piyadaların silahları ox və kamandan, nizədən, qılıncdan, zubin və təbərzindən ibarət idi (19). Həmin qüvvələr heç şübhəsiz ki, Nadir şahın piyada qoşun növünün əsasını təşkil edirdilər və sayca daha çox idilər.Adətən artilleriya və tüfənglərlə başlanan döyüşün əlbəyaxa hissəsi süvari qüvvələrlə bərabər məhz soyuq silahlarla silahlanmış döyüşçülər tərəfindən davam etdirilirdi. Döyüşün ağırlığı da çox vaxt elə soyuq silahlarla silahlanmış piyadaların üzərinə düşürdü.

Topçu strukturlarının təşkili qoşunları formalaşdırılmasına Nadir şahın gətirdiyi yeniliklərdən biri idi. Səfəvilər dövründə də toplardan geniş istifadə olunması məlumdur. Xüsusilə, Şah Abbasın dövründə Səfəvi qoşunlarında toplardan istifadə edilməsinə diqqət xeyli artırıldı. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, səfəvilər hakimiyyətinin sonlarına yaxın qoşunlar böhran məngənəsinə düşdüyü kimi, toplardan istifadə edilməsinə də diqqət azaldı (20).

Nadir şahın dövründə topçuluğun və topçu strukturlarının formalaşdırılmasına xüsusi diqqət verilməyə başlandı. Nadir şah döyüşlərin uğurla başa çatdırılmasında

topların taktiki imkanlarını yüksək qiymətləndirdiyi üçün onlardan istifadə xeyli genişləndi. Toplardan geniş istifadə edilməsi qoşunların döyüş taktikasını da təkmilləşdirdi. Məlumdur ki, bir sıra döyüşləri Nadir şah məhz topçu hazırlığı ilə başlayardı və qarşı tərəfin müqavimətinin qırılması üçün onun toplarının ələ keçirilməsinə çalışırdı. Döyüşqabağı düzülüşdə də topların xüsusi yeri var idi. Bundan başqa, ənənəvi qala döyüşlərinin çoxunda toplardan geniş şəkildə istifadə olunardı.

Dövrünün və bölgənin güclü qoşunlarından sayılan Osmanlı qoşunlarında topçuluq daha güclü inkişaf etmişdi. Çox güman ki, bu məqam da Nadir şahı topçuluğu inkişaf etdirməyə sövq edirdi. Topçuluğu inkişaf etdirmək və güclü topçu strukturları yaratmaq üçün Nadir şah avropalı mütəxəssislərin köməyindən də bəhrələnirdi. Həmin mütəxəssislər Nadir şah topçularının hazırlanmasında iştirak edirdilər (21).

Nadir şah qoşunlarında ağır, orta, yüngül və qalavuran topların mövcudluğu məlumdur. Qala topları 100 kiloluq mərmiləri 1000-1500 m məsafəyə atmaq gücünə malik idi və belə toplardan daha çox qalaların mühasirəsi zamanı istifadə olunurdu. Bu topların mərmilərinin dağıdıcı qüvvəsi çox idi. Eyni zamanda döyüşlərdə lüləsinin ağız hissəsindən doldurulan ağır və orta toplar da istifadə olunurdu. Mənbələrdə bu topların topçuları arasında hindlilərin də çox olduğu bildirilir. Hər bir topun topçusundan başqa ona xidmət göstərən heyət də var idi. Ağır toplar xüsusi arabaların üzərində yerləşdirilir və həmin arabalar bir cüt qatır vasitəsilə daşınırdı. Mövcud olan məlumatlara görə qatırlardan biri topun qarısına, digəri isə arxasına bağlanırdı (22).

Orta çapa və uzunluğa malik olan toplar da sözsüz ki, heyvanlar vasitəsilə daşınırdı. Həm ağır, həm də orta toplar böyük zərbə qüvvəsinə malik idilər və ona görə ağır zərbələrin vurulması üçün onlardan da xüsusi istifadə olunurdu. Amma uzun yürüşlərin, xüsusilə dağ şəraitində aparılan yürüşlərin daha sürətlə həyata keçirilməsi zamanı ağır və orta topların daşınması xeyli çətinləşirdi. Ona görə də uzaq mənzilli yürüşlər zamanı və ya düşmən qüvvələrinə qarşı gözlənilməzliyə, böyük sürətə nail olmaq üçün zənburək adlanan kiçik və yüngül toplardan istifadə olunurdu. Zənburəkçilər dəstəsi Nadir şahın topçu qüvvələrinin mühüm tərkib hissəsini təşkil edirdi və bu topların imkanlarından məharətlə istifadə edilməsi onların əhəmiyyətini xeyli artırırdı.

Zənburəklərin silahlanmaya qəbul edilməsi də səfəvilər dövrünə aiddir.Tədqiqatçıların qənaətinə görə, hələ Şah Abbas dövründə bu toplardan istifadə edilməyə başlanmış və onun ilk strukturları yaradıl-

mışdı. Amma səfəvilər qoşunlarında bu topların malik olduğu bütün imkanları reallaşdırmaq mümkün olmamışdı. Nadir şahın qoşunlarının tərkibində isə zənburəklərdən daha geniş və daha səmərəli istifadə olunması onların gərəkliliyini təsdiqlədi (23). Bunun nəticəsi kimi, müstəqil zənburəkçi strukturları formalaşdırıldı. Həmin strukturların təşkili də Nadir şahın öz qoşunlarının formalaşdırılmasına gətirdiyi yeniliklərdən biri idi.

Zənburəklərin lülələrinin çapı Nadir şah qoşunlarında istifadə olunan ağır tüfənglərin çapından azacıq böyük olmaqla, orta topların çapından kiçik idi. Bu toplar lüləsinin əhatəsinə dolandırılmış tuğ və lüləsinin aşağısında olan mil və ox vasitəsilə şamdan adlanan yastığın üzərində bərkidilirdi. Sonra da bu yastıq dəvənin donqarları arasında bərkidilmiş dayaq üzərinə qoyulurdu. Zənburəklər dəvələr vasitəsilə daşınırdı. Onlardan istifadə zamanı dəvələr dizləri üzərinə yatırdılar və dəvələrin üzərindən götürülmədən onlardan atəş açılırdı. Hər dəvə yalnız bir zənburək aparırdı. Bunun üçün xüsusi dəvələr seçilir və həmin dəvələr zənburək daşınması üçün hazırlanırdı. Zənburəkçi dəvənin donqarının arxasında bərkidilmiş palanın üzərində oturaraq adətən sol əli ilə zənburəkin lüləsinin arxasından tutardı. Dəvənin sağ tərəfinə zənburəkin fitili, sol tərəfinə isə barıt və mərmi torbası asılardı. Mərmi torbasına 20-dək mərmi yükləmək olurdu. Atəş açılmasına başlanan zaman zənburəkçi dəvənin qatlanmış ayaqlarından birini açardı ki, atəşin qorxusundan dəvə asanlıqla ayağa qalxa bilməsin. Bundan başqa zənburək lüləsinin yastıq üzərində fırlanması dəvənin yerini dəyişmədən müxtəlif istiqamətlərə atəş açmağa imkan verirdi. Zənburəklərin atəş uzaqlığı çox da böyük deyildi. Bununla belə, atəşlərin yaratdığı gurultu qarşı tərəfdə vahimə yaratmağa kömək edirdi. Zənburəkçilər göy rəngli canlıq, geniş şalvar və uzun boğazı olan çarıq geyinirdilər. Başlarına isə yarıdan yuxarı konus şəklində daralan hündür papaq qoyurdular (24).

Nadir şah qoşunlarında zənburəklərdən başqa badlic və səfpozan kimi kiçik toplardan da istifadə olunurdu. Çox təəssüf ki, bu top növlərinin texniki xüsusiyyətləri haqqında Nadir şah dövrünün mənbələrində lazımi məlumatlar yoxdur.

Zənburəkçilər zənburəkçibaşına tabe olurdular. Nadir şahın qoşunlarında belə bir vəzifə mövcud idi. Bütün topçuluğa və toptökmə işinə isə topçubaşı rəhbərlik edirdi.Topçubaşı istər qoşun rəhbərliyində, istərsə də dövlətin strukturlarında nüfuzlu yerə malik idi. Nadir şah topçubaşı vəzifəsinə həm təcrübəli, həm də etibarlı sərkərdələrini təyin

edirdi.Vilayət hakimlərinin yanında da topçubaşı vəzifəsi var idi. Onlar vilayət hərbi qüvvələrinin topçularına rəhbərlik edirdi.

Nadir şah qoşunlarında olan topların ümumi sayı haqqında dəqiq məlumat yoxdur. Mənbələrdə də belə bir statistika aparılmamışdır. Ona görə də tədqiqatçılar təxmini olaraq belə güman edirlər ki, hind qoşunlarının topları da qənimət kimi ələ keçiriləndən sonra Nadir şah qoşunlarında bütün növlərdən olan topların ümumi sayı 5000-ə yaxın idi (25).

Yuxarıda haqqında danışılan tüfəngdarlar, soyuq silahlarla silahlananlar və topçular Nadir şahın piyadalarının əsasını və əsas zərbə qüvvəsini təşkil edirdilər. Amma bunlardan başqa bir sıra xidmət və köməkçi qüvvələri də var idi ki, təyinatı etibarı ilə onları piyadalara şamil etmək olar. Bu xidmət qüvvələri döyüşlərdə adətən birbaşa iştirak etmirdilər. Onların təyinatı qüvvələrin döyüş hazırlığı və döyüşlərin təşkilində xidməti yardımların göstərilməsi idi.

Belə xidmət qüvvələrindən biri nəsəğçilər idi. Nəsəğçilər ən yaxşı sərkərdələr və döyüşçülər arasından seçilirdi və nəsəğçibaşının rəhbərliyi altında fəaliyyət göstərirdi. Onların vəzifəsi döyüşlər gedən zaman qoşunların nizam və intizamına nəzarət etmək idi. Nəsəğçilər adətən piyada qoşun dəstələrinin arxasında yerləşdirilirdilər və bununla da piyadaların ağır döyüşlərə tab gətirməyərək fərarilik etmək yollarının qarşısı alınırdı. Əslində, döyüşə girən piyada da bilirdi ki, fərarilik etmək fikrinə düşsə onu arxada, cəbhə boyu yerləşdirilmiş nəsəğçilər saxlayacaqlar. Nəsəğçilər tərəfindən saxlanılanları çox sərt cəza gözləyirdi.Ona görə də nəsəğçilər bütün güclərini döyüşün uğurla aparılmasına verirdilər.Nəsəğçilər saxladıqları fərariləri edam etmək səlahiyyətinə də malik idilər (26).

Nəsəğçilərin başqa bir vəzifəsi də düşərgədə yerləşən qoşun dəstələrinin arasında qanunçuluğun və asayişin qorunması, qoşunların şəxsi əmlakının, əşyalarının mühafizəsi, düşərgə daxilində təhlükəsizliyin təmin edilməsi, ordubazarın fəaliyyətinin tənzimlənməsi, döyüşlərin gedişində dünyasını dəyişənlərin dəfninin təşkili idi. Nadir şah qoşunları tərkibində nəsəğçilərin sayının 300 nəfər olduğu bildirilir. Amma bu qüvvələrə tapşırılan vəzifələrin yerinə yetirilməsi üçün 300 nəfərin kifayət etdiyi şübhə doğurur. Elə "Aləm Ara-ye Naderi"nin bir yerində Nadir şahın 3 min nəfərlik nəsəğçi dəstəsindən söz açılır. Bu da nəsəğçi dəstəsinin kifayət qədər böyük sayda olmasından xəbər verir.

Nəsəğçilərin papağının qarşısına üç ciqqə birləşdirilirdi və hər ciqqəyə də bir xoruz ləläyi sancılırdı (27).

Piyadalara aid olan xidmət dəstələrindən biri də qarovul dəstəsi idi. Qarovul dəstələri ayrıca struktur vahidinə və rəhbərliyə malik olan xidmət dəstəsi idi. Bu dəstə qarovulsaların rəhbərliyi altında fəaliyyət göstərirdi. Qarovulun təyinatı qoşunların düşərgə istirahətləri zamanı, bir çox hallarda isə marş yerinə yetirdiyi vaxt mühafizəsinin təmin edilməsi idi. Xüsusən, gecə vaxtlarında düşərgələrin qorunması, kənar və qəfil hücumlardan mühafizə olunması qarovulun vəzifəsi idi. Qarovul mənsubları öz təyinatları ilə bağlı bildirirdilər ki, başqalarının rahat yatıb istirahət etməsi üçün onlar səhərə qədər yuxularına haram qatmalı olurlar (28).

Mənbələrdə olan məlumatlar onu deməyə əsas verir ki, qarovul bir sıra digər vəzifələrin də icrasına cəlb edilirdi. Bunların arasında qalaların və digər tikintilərin, hərbi təyinatlı obyektlərin tikintisi, qalaların mühasirəsi zamanı səngərlənmiş qüvvələrin mühafizəsi qarovul dəstələrinə tapşırılırdı.

Nadir şah tərəfindən qarovul dəstələrinin kəşfiyyata göndərilməsi faktları da mənbələrdə öz əksini tapmışdır. Məsələn, Bəlx üzərinə hücuma hazırlaşarkən bir neçə nəfər qarovul kəşfiyyata göndərilmişdi ki, yerli əhalidən əsir götürsünlər və onların vasitəsilə vəziyyət haqqında geniş məlumat əldə edilsin. Hərbi yürüşlər zamanı ətrafda nələrin baş verməsi haqqında məlumatların toplanması da qarovullara tapşırılardı (29).

Nadir şahın piyada qoşunlarının içində mühəndis-istehkam qüvvələrinin formalaşdırılmasına və onlardan fəal şəkildə istifadə edilməsinə də xüsusi diqqət yetirilirdi. Böyük qələbələrin əldə edilməsində bu xidmətin əhəmiyyətli rolu var idi. Dövrün hərb sənətində qala döyüşləri hələ də öz yerini qoruyub saxlamaqda idi. Bir tərəfdən çoxsaylı qala döyüşlərinin aparılması və bir tərəfdən də uzaq mənzilli yürüşlər zamanı böyük çayların keçilməsi mühəndis istehkam xidmətinin əhəmiyyətini daha da artırırdı.

Tədqiqatçılar Nadir şah qoşunlarında topçularla mühəndis-istehkam xidmətinin şəxsi heyətinin 1 min nəfər olduğunu söyləyirlər (30). Amma bu sayın nə qədərinin mühəndis-istehkam xidmətinə aid olmasını dəqiq söyləmək mümkün deyildir. Mənbələrdə də bu xidmətin şəxsi heyəti, onun struktur vahidinin mövcudluğu barədə xüsusi bir məlumat tapmaq da çətindir.

Mənbələrdə mühəndis-istehkam işləri ilə ayrıca olaraq məşğul olan nəqəbçilərin (lağım atanların) və xəndək qazanların adına da rast gəlmək mümkündür. Bu işlə məşğul olanların xüsusi struktur dəstələrinin mövcudluğu haqqında fikir yürütmək də çətindir. Bir halda ki, bu

xidmət sahəsinin mənsubları ayrıca adla adlanırdılar, onda güman etmək olar ki, nəqəbçi bölmələri ayrıca struktura malik olmuşdur. Çünki həm lağım atmaq, həm də xəndəklər qazmaq, o cümlədən divarlar, sığınacaqlar tikmək həm xüsusi hazırlıq, həm də xüsusi alətlər tələb edirdi.

Mühəndis-istehkam işlərinin bu və ya digər döyüşlər zamanı aparılmasına yuxarıda ayrı-ayrı hallarda toxunulmuşdu. Həmin məlumatlardan və eləcə də mənbələrdə öz əksini tapmış məlumatlardan aydın olur ki, Nadir şah mühəndis-istehkam işlərinin aparılmasına həm xarici mütəxəssisləri, həm də müxtəlif hərbi strukturların şəxsi heyətini cəlb edirdi. Məsələn, Bağdad şəhəri üzərinə ilk hücum zamanı Nadir şah əvvəlcə öz döyüşçülərini Dəclə çayı üzərindən müvəqqəti körpünün qurulması üçün o biri sahilə üzməyi və orada lazımi işləri aparmağı tapşırdı (31).Amma bu yolla çay üzərindən keçid yaratmaq ona qismət olmadı. Sonra Dəclə çayı üzərindən keçidin yaradılmasına həmin vaxt Nadir şah qoşunlarında olan avstriyalı mühəndislər cəlb edildilər. Bu mühəndislərin köməyi ilə Dəclə çayı üzərindən müvəqqəti keçid yaradıldı və lazım olan miqdarda hərbi qüvvələr çayın o biri sahilinə adladıldı (32).

Su maneələrinin dəf edilməsi baxımından Hindistana yürüş zamanı çoxsaylı çaylar üzərindən qısa zaman ərzində körpülər qurulması Nadir şah qoşunlarında mühəndis-istehkam işlərinin yüksək nümunəsi sayıla bilər. Xüsusilə, Sind və Ravi çayları üzərində ən çətin şəraitdə keçidlər yaradılması Nadir şahın hərbi yürüşlər tarixində yadda qalan hadisələrdir. Həmin çayların dəf edilməsi həm də mühəndis-istehkam işləri sahəsində Nadir şahın yaradıcı təşəbbüskarlığının uğurlu nümunələridir. Qarşıya qoyulan məqsədə çatmaq və üzən vasitələrin bir-birinə möhkəm bağlamaq üçün yuxarıda qeyd edildiyi kimi, Nadir şah atların quyruq və yal tüklərini qırxaraq kəndirlər hazırlanmasına göstəriş vermişdi (33).

Mühəndis-istehkam xidmətçilərinin qala döyüşlərinə daha fəal cəlb edilməsi baxımından isə Gəncə qalasının mühasirəsi daha xarakterikdir. Doğrudur, Nadir şah qalanı ələ keçirib qarşısına qoyduğu vəzifəyə nail ola bilmədi. Bununla belə, mühasirə dövründə qala ətrafında xeyli mühəndis-istehkam işləri görüldü.

Nadir şah burada da xarici mütəxəssislərin kömək və məsləhətlərindən istifadə etdi. Cənubi Qafqaza yürüş zamanı Nadiri müşayiət edən rus generalı Qolitsın Bakıda olan rus mühəndis-istehkamçılarını Gəncəyə çağırdı və onlar Nadirin ixtiyarına verildi. Bir sıra mühəndis-istehkam işləri də məhz onların iştirakı və məşvərəti ilə aparıldı (34).

Belə mühəndis-istehkam işlərindən biri torpaq dolu kisələri bir-birinin üstünə qalaqlamaqla qala divarları üstünə yol düzəldilməsi idi. Deyildiyi kimi, bu planın həyata keçirilməsi üçün yüz min kisə torpaq lazım idi. Amma qala müdafiəçilərinin səmərəli müdafiəsi bu planı axıra çatdırmağa imkan vermədi.

Yuxarıda qeyd edildiyi kimi, Gəncə qalasının divarlarının dağıdılması üçün onun ətrafında xəndək qazıldı, divarlar altına lağım atıldı. İstehkamçılar onlara tapşırılan işlərin öhdəsindən gəldilər, Gəncə qalası divarlarının müəyyən hissəsinin dağıdılmasına nail oldular. Bununla belə, yenə də qalanı almaq mümkün olmadı.Mənbələrdən məlumdur ki, Gəncə qalası daxilindəki qüvvələrin güclü top atəşlərindən qorunmaq üçün istehkamçılar yer altında döyüşçülər üçün xüsusi sığınacaqlar qazmışdılar və top atəşləri çoxalanda döyüşçülər həmin sığınacaqlarda qorunurdular.Bundan başqa, istehkamçılar qala ətrafında əyri-dolanbac səngərlər qazmışdılar ki, onlar da döyüşçüləri atəşlərdən qoruyurdu. Nəhayət, Gəncə çayının suyunun Gəncə qalasının divarları dibinə axıdılması kimi böyük mühəndis-istehkam işləri aparıldı. Bununla da kifayətlənməyən Nadir, Gəncə qalasının divarları boyunca müəyyən məsafədə yeni divarların tikilməsinə göstəriş verdi. İstehkamçılar tərəfindən tikilən bu divarlar Gəncə qalasının etibarlı mühasirəsini təmin etməli idi (35).

Nadir şah qoşunlarının aparıcı hissəsini süvari qoşun növü təşkil edirdi. Bu qoşun növünün formalaşdırılmasına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirilirdi. Dövrün hərb sənəti də süvari qoşun növünün formalaşdırılması və fəaliyyəti ilə sıx bağlı idi. Çünki konkret tarixi şəraitdə qarşıya qoyulan hərbi tapşırıqlarının icrasının çevikliyi, sürəti, gözlənilməzliyi süvariliyin inkişafı ilə bağlı idi. Hərb işində sürət, süvarilərin fəaliyyəti ilə əldə edə bilərdi. Nadir şah üçün isə süvariliyin inkişafı və gücləndirilməsi xüsusilə aktual idi. Çünki nəqliyyatın texniki vasitələrinin mövcud inkişaf dövründə uzaq mənzilli və uzun müddətli hərbi vəzifələri yalnız yaxşı formalaşdırılmış süvari qoşunlarla həyata keçirmək olardı.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şahın bütün qoşunları at belinə mindirilmişdi. Piyada qoşun növünün və eləcə də müxtəlif xidmət sahələrinin inkişafında da süvariliklə bağlılığın imkanları aranırdı. Nadir şah özü də süvari döyüşçüsü idi, onun başına toplanan ilk dəstə də süvari dəstəsi idi və bir-birinin ardınca əldə etdiyi hərbi uğurlarında da süvari qoşunlarının rolu əvəzsiz idi.

Nadir şahın süvari qoşunları iki qismə bölünürdülər: ağır süvarilər və yüngül süvarilər. Süvarilər malik olduqları silah və təchizata görə

bu qisimlərə bölünürdülər. Ağır süvarilər qılınc, nizə və karabindən əlavə qalxana da malik idilər. Yüngül süvarilərin isə qalxanı yox idi. Onların silahı əsasən qılınc, nizə və karabin idi. Süvarilər arasında ox və kamanla silahlananlar da var idi və çox güman ki, ox-kamanla silahlanan süvarilər yüngül süvarilər arasında idi.

Döyüş zamanı süvarilər başlarına dəbilqə geyinməklə düşmən zərbələrindən daha yaxşı mühafizə olunurdular. Onlar "çaharayna" (dörd ayna) adlanan zireh geyimdən də istifadə edirdilər. Bu geyimlərin sadə forması bir-birinə bərkidilmiş 4 zireh parçadan ibarət olurdu. Sinəni və kürəyi mühafizə edən parçalar nisbətən daha geniş və hündür olurdu ki, bədənin qurşaqdan boğaza olan hissəsi qorunsun. Bu parçalar qolların altında olan daha ensiz və gödək zireh parçalarla bir-birinə birləşirdi (36).

Ağır süvarilər də nizə ilə silahlananlara və qılıncla silahlananlara bölünürdülər. Topçu və tüfəng hazırlığından sonra döyüş adətən, nizələrlə silahlanan süvarilərin hücumu ilə davam etdirilir və onların ardınca da qılıncla silahlananlar döyüşə qoşulurdular. Malik olduqları silaha görə heç şübhəsiz ki, ox və kamanlarla silahlananlar da döyüşə ilkin qoşulanlar arasında idilər.

Ağır süvarilər arasında əyanlar, bəy və xan təbəqəsinə mənsub olanlar çox idi. Süvari qoşunlarında yuxarıda qeyd olunan struktur vahidləri tətbiq olunurdu. Mənbələrdə daha böyük struktur vahidi kimi yalnız süvari qüvvələrinə aid olan tiplərin və konkret tapşırıqların icrası üçün yaradılmış süvari dəstələrinin formalaşdırıldığına rast gəlmək mümkündür. Onların arasında müxtəlif vaxtlarda kəşfiyyat vəzifələrinin həyata keçirilməsi üçün 6 alaydan təşkil edilmiş Hacıxan bəy Əfşarın rəhbərliyi altında olan tip, üç alaydan təşkil edilmiş və Cavanqulu xanın rəhbərliyi altında olan tip, 6 alaydan təşkil edilmiş və Hüseynəli xanın rəhbərliyi altında olan tip, 5 alaydan ibarət olan və gilzayi əfqanlarından təşkil edilmiş tip və s.(37). Əslində bunların sayını artırmaq da olar. Fövcdən böyük olan struktur vahidləri daimi vahidlər deyildilər və onların formalaşdırılması konkret tapşırıq və zərurətlə bağlı idi. Belə zərurətlə yaranan süvari struktur vahidi müəyyən vaxtlarda əməliyyat vahidi səviyyəsinə qaldırılırdı.

Bəzi tədqiqatçılar Nadir şahın süvari qüvvələrini səltənət süvariləri və Xorasan süvariləri adı altında iki hissəyə bölürlər. Səltənət süvariləri bəzən isə qızılbaş süvariləri adlandırırdılar (38). Qızılbaş süvariləri deyəndə də, Səfəvi dövlətinin əsasını təşkil etmiş Qacar, Varsaq, Rumlu, Şamlı, Zülqədər, Təkalu, Əfşar və Bayat soylarından təşkil edilmiş süvari qüvvələri nəzərdə tutulur. Əslində, bu bölgünü

doğru saymaq olmaz. Əvvəla, bu bölgü etnik mənsubiyyətə və məhəlli mənsubiyyətə görə aparılmış bir bölgüdür. Qoşun növləri isə qüvvələrin icra etməli olduqları vəzifələrin xarakteri, malik olduqları silah və təchizata görə qisimlərə bölünməlidir. Hətta etnik əlamətinə və məhəlli mənsubiyyətinə görə belə yuxarıda qeyd olunan bölgü nöqsanlı bölgüdür. Çünki Nadir şahın süvarilərini yalnız qızılbaş süvariləri və Xorasandan toplanmış süvarilər təşkil etmirdilər. Məlumdur ki, Nadir şah qoşunlarının tərkibində əfqan, ərəb, lur, bəxtiyari, ləzgi, gürcü süvari dəstələri var idi.

Yeri gəlmişgən o da qeyd edilməlidir ki, mənbələrdə bir çox hallarda Nadir şah qoşunları "qızılbaş" qoşunları kimi təqdim edilirlər. Bu ifadə də doğru sayıla bilməz. Baxmayaraq ki, Nadir şah qoşunlarında əfşarlar, qacarlar və digər türk soylarından təşkil edilmiş struktur vahidləri çox idi. Bununla belə, Nadir şah qoşunları onun nəzarəti altında olan bütün ərazilərdən toplanmış qoşun idi. "Qızılbaş" ifadəsinin əfşarlar hakimiyyəti üzərinə gətirilməsi heç tarixi baxımdan da doğru deyildir.

Nadir şahın süvari qoşunlarının sayı və kəmiyyəti barədə tarixi və tədqiqat əsərlərində müxtəlif rəqəmlərlə rastlaşmaq mümkündür. Bu rəqəmlər də mütləq faktlar kimi qəbul edilə bilməz. Baxmayaraq ki, Nadir şah qoşunlarında ləşgərnevislər var idi, amma onlar da daha çox konkret yürüşlərə səfərbər edilən qoşunların siyahısını aparırdılar. Məlumdur ki, Nadir şahın birbaşa rəhbərliyi altında olan süvari qüvvələrindən başqa, əyalətlərdə də süvari qüvvələri var idi. Bundan başqa süvarilərin cəlb edilməsi davamlı olaraq aparılırdı. Hətta döyüş aparılan ərazilərdə qoşun toplanması da aparılırdı. Nadir şah qoşun itkilərinə də məruz qalırdı. Ona görə də Nadir şahın süvari qüvvələrinin tərkibi haqqında sabit rəqəm göstərmək mümkün deyil. Süvari qoşunları haqqında daha real təsəvvürü konkret yürüşlərə cəlb edilmiş süvarilərin sayı ilə əldə etmək olar.

Mövcud olan məlumatlara görə, süvarilərin döyüş hazırlığı mütəmadi olaraq davam etdirilirdi və Nadir şah da bu məsələyə xüsusi fikir verirdi. Amma çox təəssüf ki, bu hazırlığın necə aparılması haqqında mənbələrdə müfəssəl məlumat yoxdur.Bununla belə, məlumdur ki, süvarilər qoşunlara səfərbər ediləndə onlar artıq müəyyən təcrübəyə malik olurdular. Şəxsi həyat zamanı atdan istifadə, ovçuluq, heyvandarlıq artıq çoxlarında süvarilik vərdişləri yaradırdı. Şahidlərin ifadəsinə görə, Nadir şah süvariləri lazım gələrdisə istirahət etmədən 20-25 saat müddətində döyüşə bilərdilər (39). Nadir şahın apardığı döyüşlər də bunu tələb edirdi.

Nadir şah süvariləri başlarına dördkünc qırmızı papaq qoyurdular. Papağın dövrəsinə isə ağ rəngli ipək şal dolanırdı. Bu papaqlarına görə onları bəzən Nadir şah qırmızıbaşları da adlandırırdılar (40).

Nadir şah süvarilərindən xüsusi bir şah qvardiyası da yaradılmışdı. Bu qvardiya mənbələrdə və tədqiqat əsərlərində "səltənət qvardiyası", "keşikçilər" və "həmişəkeşikçilər" kimi də təqdim olunmuşdur. Tədqiqatçıların fikrincə, səfəvilər hakimiyyəti dövründə olduğu kimi Nadir şah da öz mühafizəsinin təmin edilməsi üçün xüsusi qvardiya təşkil etməyi qərara aldı (41). Xüsusi qvardiya doğrudan da Nadir şahın mühafizəsi ilə məşğul olurdu. Amma istər şahın xüsusi qvardiyasının tərkibi, istərsə də bu qvardiyanın fəaliyyəti haqqında mənbələrdə olan məlumatlar göstərir ki, şah qvardiyasının vəzifəsi yalnız şahın mühafizəsinin təmin edilməsi deyildi. Qvardiyanın tərkibində beş alay var idi: Şamxalçılar alayı, çavuşlar alayı, nəqib alayı, xüsusi qarovul alayı və cilovdar alayı (42).

Nəzərə alınsa ki, hər alay min nəfərdən ibarət idi, onda qvardiyanın (keşikçi dəstəsinin) 5 min nəfərdən ibarət olduğunu ehtimal etmək olar. Amma Nadir şah dövrünün şahidlərindən qvardiyanın sayının 6 min nəfər olduğunu iddia edənlər də vardır (43).

Mənbələr və tədqiqatçılar şamxalçıların konkret olaraq hansı vəzifəni yerinə yetirmələri haqqında söz açmırlar. Amma bu şəxslərin tüfənglərlə silahlandırılması haqqında məlumat vardır. Malik olduqları silahlarına görə şamxalçıları Nadir şahın ehtiyat qüvvəsi ehtimal etmək olar. Çavuşların vəzifəsi şah fərmanlarının və əmrlərinin hündür səslə qoşunların şəxsi heyətinə çatdırılması idi. Bu baxımdan onların vəzifəsi carçıların vəzifəsinə oxşarlıq təşkil edirdi. Çavuşlar başlarına yaşıl papaq qoyur və ətrafına nazik qara parça dolayırdılar. Onlar papaqlarına lələk sancırdılar və gümüş çomaqla silahlanırdılar (44).

Çavuşların gur səsə malik olmaları və öz vəzifələrini icra etdikləri vaxt az qala nərə çəkmələri barədə mənbələrdə də məlumat mövcuddur (45).

Tədqiqatçılar nəqib alayının şəxsi heyətinin qeyri-hərbi işlərlə və dəstənin tədarük işləri ilə məşğul olduğunu bildirsələr də (46), mənbələrdə onların da hündür avaza malik olmaları və çavuşlarla oxşar vəzifələri icra etdikləri bildirilir (47).

Xüsusi qarovu alayı  çox güman ki, şahın həyatının mühafizəsini təşkil edirdi. Çünki müxtəlif faktların tutuşdurulması da bunu deməyə əsas verir. Tədqiqatçılar da iddia edirlər ki, xüsusi qarovul səltənət çadırının və şah ailəsinin qorunması ilə məşğul idi (48).

Nadir şah qoşunlarını və şah qvardiyasını şəxsən müşahidə etmiş şahidlərin biri öz xatirələrində göstərir ki, şahın keşikçi dəstəsinin sayı 6 min nəfərdən çoxdur və bu dəstə gecə-gündüz şahın mühafizəsində dayanır.Onun bildirdiyinə görə, 6 min nəfərlik dəstə növlərə bölünmüşdü və hər növdə iki min nəfər var idi. Hər növbə bir gün və bir gecə keşik xidməti çəkir və sonra da iki gün istirahət edirdi (49).

Bu fakt bir qədər şübhəli görünür. Keşikçı qvardiyasının strukturundan da görünür ki, bu dəstənin şəxsi heyətinin heç də hamısının vəzifəsi şahın mühafizəsini təşkil etmək deyildi. Bundan başqa "Aləm Ara-ye Naderi"də belə bir fakt vardır ki, Marağa ətrafındakı döyüşlər zamanı Nadir keşikçilər dəstəsindən 4 min döyüşçünü müharibə meydanına atdı və onların vasitəsilə döyüşün gedişinə təsir göstərməyə çalışdı (50).

Əgər Nadir keşikçi qvardiyasından 4 min nəfəri döyüşə atırdısa, deməli qvardiyanın heç də hamısı onun mühafizəsində dayanmırdı. Bu faktdan belə bir qənaətə gəlmək olar ki, məhz xüsusi qarovul alayı Nadir şahın və onun ailəsinin mühafizəsini təmin edirdi. "Aləm Ara-ye Naderi"dəki başqa bir fakt da bu ehtimalın doğruluğuna əsas verir. Mənbədə göstərilir ki, Nadir özünün Rüstəm və İsfəndiyar ruhlu döyüşçülərindən min nəfər seçdi, onların adını həmişəkeşik qoydu ki, onlar həmişəlik Nadirin sarayında və keşikxanasında olsunlar. Onlar bir an da olsa sahiblərindən aralana bilməzdilər (51). Nadir şah yəqin ki, onları başqa işlərə də ayırmazdı. Xüsusi qarovul alayı da min nəfərdən ibarət idi və şübhə yoxdur ki, keşikçilər qvardiyasının məhz bu alayı şahın və onun ailəsinin davamlı mühafizəsini təmin edirdi.

Şahidlərin söylədiyinə görə, mühafizə postlarının hər birinə 10 nəfər keşikçi təyin olunurdu. Onlar da yarıya bölünüb növbə ilə postda dayananda digər dəstə istirahət edirdi. Nadir şah tez-tez bu postların xidmətini yoxlayırdı. Elə vaxt olurdu ki, gecələr Nadir şah postda dayananların hamısının yatmasının şahidi olurdu. Belə hallarda Nadir şah keşikçiləri həbs və bir çox hallarda isə edam etdirirdi (52).

Deyilənlərin oxşarı olan faktla "Aləm Ara-ye Naderi" əsərində də rastlaşmaq olar. Yuxarıda qeyd edildiyi kimi qiyamların yatırılması üçün Dağıstana yürüş edəndə, Əyriçay kənarında Nadir şaha sui-qəsd cəhdi oldu. Nadir şah keşikçilərin belə səhlənkarlığa yol verməsindən və nəticədə onu öldürmək istəyənlərin hətta şəxsi çadıra belə daxil ola bilmələrindən xeyli hirsləndi. Mənbələrin verdiyi məlumata görə, Nadir şah öz keşikçilərindən və keşik rəhbərlərindən 30-40 nəfəri edam etdirdi (53).

Qeyd etmək lazımdır ki, Nadir şahın qətlinin təşkilində keşikçilərdən bəzilərinin əli var idi. Həmin sui-qəsd cəhdinin təşkilatçılarından biri olan Məhəmməd bəy Qacar mənbələrdə keşikçibaşı (54) və ya bir çox hallarda Nadir şahın mühafizə xidmətinin rəhbəri kimi təqdim olunur. Haqqında konkret məlumat verilməsə də, çox güman ki, Məhəmməd bəy Qacar xüsusi qarovul alayının rəhbərlərindən olmuşdu.

Nəhayət, keşikçilər qvardiyasının sonuncu alayı cilovdarlar alayı idi.Tədqiqatçıların fikrincə, cilovdarlar ox və kamanla silahlanan döyüşçülərdən seçilirdi və onların vəzifəsi çaparlar göndərilməsi, qoşuna rəhbərlik arasında əlaqə yaradılması idi (55). "Aləm Ara-ye Naderi"də cilovdarbaşı haqqında söhbət açılmasından (56) belə güman etmək olar ki, cilovdarlar onun rəhbərliyi altında idilər.

Nadir şahın süvari qoşunlarının bir hissəsini çərxçilər təşkil edirdilər. Onların vəzifəsi haqqında geniş məlumat olmasa da mənbələrdəki kəsad məlumatlardan müəyyən təsəvvür əldə etmək mümkündür. Avropalı tədqiqatçılar çərxçilərin vəzifəsinin qoşunların düşərgə yerlərinin, qoşunların dayanacaq edəcəkləri yerlərin müəyyənləşdirilməsindən, düşmənlərin vəziyyəti haqqında məlumatlar toplanmasından ibarət olmasını bildirirlər. Eyni zamanda, kəşfiyyat işlərinin aparılmasının da onların üzərində olduğu bildirilir (57).

Başqa tədqiqatçılar isə çərxçilərin düşmən qüvvəsi üzərinə sürətli və qəfil hücumlarının həyata keçirilməsi, ilkin zərbə ilə onların arasında vəlvələ və təşviş salınması üçün nəzərdə tutulduğunu bildirirlər (58). "Aləm Ara-ye Naderi"də rast gəlinən faktlar da daha çox elə bu fikri təsdiq edir. Həmin faktlardan aydın olur ki, çərxçi dəstələri ilkin olaraq meydana atılıb döyüşü qızışdırırdılar (59). Başqa bir faktdan isə aydın olur ki, qoşunlar düşmən qüvvələrinə qarşı hərbi yürüş həyata keçirərkən qarşıda qarovullar, onların ardınca isə çərxçilər hərəkət edirdilər(60). Buradan da aydın olur ki, qəfil döyüş vəziyyəti yarandığı halda qarovulun arxasınca çərxçilər döyüşə atılmalı idi. Mənbənin başqa bir yerində isə bildirilir ki, Xanəli xan döyüş meydanına ilkin qədəm qoyub çərxçilik vəzifəsini yerinə yetirdi (61).

Bütün bunlar onu deməyə əsas verir ki, çərxçilər qoşunların ön hücum dəstəsi idi, döyüşlərin ilkin ağırlığı da onların üzərinə düşürdü. "Aləm Ara-ye Naderi"nin yuxarıda göstərilən məlumatlarından o da aydın olur ki, istinad edilən bütün hallarda çərxçilər topçu və tüfəngdarların hazırlığı olmadığı bir şəraitdə ilkin olaraq döyüşə girmişdilər. Başqa sözlə, hərbi yürüşlər həyata keçiriləndə bu və ya digər məntəqələrə göndərilən çevik dəstələrin döyüş aparması zamanı onların isti-

fadəsinə ehtiyac duyulmayanda və ya mümkün olmayanda çərxçilər ilkin olaraq meydana atılırdılar.

Döyüşlərin ilkin hazırlığını və məsuliyyətini öz üzərlərinə götürmələri baxımından güman etmək olar ki, çərxçilər dəstəsinə ən hazırlıqlı və çevik süvarilər cəlb edilirdilər. Məlumatların kəsadlığı üzündən çərxçilərin sayı və onların ayrıca struktur vahidinə malik olub-olmamaları haqqında fikir yürütmək çətindir. “Aləm Ara-ye Naderi”nin bir yerində bildirilir ki, çərxçilərin min nəfəri döyüş meydanına göndərildi. Başqa bir yerdə isə göstərilir ki, Nadir şah Xanəli xanı və Əmiraslan xanı 3 min nəfərlə birlikdə çərxçi dəstəsinə aid etdi və düşmən tayfalarının yolu üzərinə göndərdi (62).

Bu faktlara əsasən belə qənaətə gəlmək mümkündür ki, çərxçilərin sayı çox idi. Ən azı bir neçə alay çərxçi vəzifəsini həyata keçirirdi. Mənbənin başqa bir yerində Nadir şahın anabir qardaşı Fətəli xanın çərxçibaşı təyin olunmasından söz açılır (63). Kifayət qədər istedadlı bir sərkərdə olan Fətəli xanın çərxçibaşı təyin edilməsi Nadir şahın bu qoşun dəstəsinin mövcudluğuna və fəaliyyətinə ciddi əhəmiyyət verdiyini nümayiş etdirir. Yoxsa, Nadir şah bu qoşun dəstəsini ona çox etibarlı olan bir şəxsə tapşırmazdı.

Hər halda belə güman etmək olar ki, bir neçə süvari alayı çərxçi vəzifəsini icra etmək üçün nəzərdə tutulmuşdu və həmin alaylar bir komandanlıqdan idarə olunurdu. Şübhə yoxdur ki, bu vəzifənin icrasına çərxçilikdə təcrübəsi olan alaylar cəlb edilirdi. Amma onu da istisna etmək olmaz ki, döyüşə cəlb edilənlərin miqyası böyük olanda çərxçiliyə əlavə alaylar da cəlb edilirdi.

Nadir şah qoşunlarında bir sıra xidmət sahələri var idi ki, onların icrası üçün də müəyyən qüvvələr ayrılırdı. Belə xidmət sahələrindən biri çəndəvulluq idi. Nadir şah qoşunlarının şahidlərinin birinin təbirincə, çəndəvulların vəzifəsi yolların, keçidlərin qorunması, gecələr şah düşərgəsinin mühafizəsi, şah tərəfindən cəzalandırılanaların cəzasına çatdırılması idi. Verilən məlumata görə, bundan əlavə, çəndəvullar şahın fərman və sərəncamlarının qoşunlara bəyan edilməsi, xidmətdən fərarilik edənlərin tutulub həbs edilməsi, şahın öz hüzuruna çağırdığı adamların tapılıb gətirilməsi, düşərgənin gecə-gündüz mühafizəsi, oğruların və talançıların tapılıb həbs edilməsi kimi vəzifələr də çəndəvulların üzərində idi (64).

“Aləm Ara-ye Naderi”də olan ayrı-ayrı xatırlamalar da çəndəvulların daha çox mühafizə işləri ilə məşğul olmasından xəbər verir. Nadir şah qoşunlarında çəndəvulbaşı adlı vəzifə də olmuşdur. “Aləm Ara-ye Naderi”də çox nadir halda xatırlanan bu vəzifə ilə bağlı bir

fikirdən belə güman etmək olar ki, çəndəvulların sayı çox olmuşdur. Mənbədə qeyd olunur ki, çəndəvulbaşı Xəlil bəy 7 min nəfərlik bir dəstə ilə döyüş tapşırığının icrasına yola düşdü (65). Bu 7 minlik dəstənin hamısının çəndəvul olub-olmadığını söyləmək çətindir. Hər halda bu xidmət sahəsinə tapşırılan vəzifələrin icrası üçün müəyyən sayda şəxsi heyətin olması zəruri idi.

Nadir şah qoşunlarında rabitə xidmətinin təşkili ilə də bağlı müəyyən qüvvələrin olduğu məlumdur. Hərb sənətinin Nadir şah dövrünə aid olan mərhələsində rabitə qüvvələri və xidməti müstəqil şəkildə formalaşmasa da onun mövcudluğuna təbii bir zərurət var idi. Nadir şah qoşunlarında rabitə xidmətinin ayrı-ayrı elementləri haqqında yuxarıda xatırlandı. Məsələn, Nadir şahın əmr və göstərişlərinin qoşun bölmələrinə çatdırılması da rabitənin bir elementi idi. Yuxarıda söylənilənlərdən göründüyü kimi, müxtəlif səviyyə və miqyaslarda carçılar, çəndəvullar, çavuşlar və başqaları da bu işlə məşğul olmuşdular. Mənbələrdə çox tez-tez çaparların adları çəkilir. Xəbər və məlumatların, o cümlədən də Nadir şahın əmr və göstərişlərinin bir yerdən başqa yerə çatdırılmasında çaparlardan istifadə olunurdu. Məlumatların uzaq məsafələrə çatdırılması üçün də çaparlar istifadə olunurdu. Yenə elə mənbələrdən aydındır ki, uzaq mənzilli yürüşləri zamanı vilayətlərdən mühüm və vacib xəbərlər Nadir şaha çaparlar vasitəsilə çatdırılırdı və əksinə.

Çaparların ayrıca qoşun dəstəsi olduğunu söyləmək çətindir. Çox güman ki, ayrı-ayrı tapşırıqların icrası üçün onlar qoşun daxilindən seçilirdi. Özü də yəqin ki, bu adamlar az-çox təcrübəyə və etimada malik olan şəxslər idi.

Nadir şah qoşunlarının fəaliyyətinin təşkilində, döyüşlərin aparılmasında Səfəvilər dövründən qalmış bir sıra rabitə elementlərindən istifadə olunurdu. Onların arasında göyərçinlərin saxlanması, çaparxana, məlumatın ötürülməsində tüstü və şeypur səsindən istifadə edilməsi və s. kimi elementlər var idi.

Tədqiqatçıların fikrincə, bu elementlərin hamısından istifadə etməklə bərabər, bayraqdarların da fəaliyyətinə xüsusi diqqət var idi. Dövlətin rəhbəri və ali baş komandanı kimi Nadir şahın öz bayrağı vardı. Bu bayrağın üzərində şir və onun arxasından boylanan günəş şəkli var idi. Bəzən dövlət bayrağının üzərində şir yerinə əjdaha təsvir edilməsindən də danışılır. Nadir şah döyüşə bayraqla gedərdi və bu bayraq adətən onun qərargahının yaxınlığında dalğalanardı. Bu bayraq özündə müəyyən məlumatları da əks etdirirdi. Bayrağın dalğalanması Nadir şahın öz qərargahından döyüşü idarə etməsi və ya döyüş

meydanında mövcudluğundan xəbər verərdi. Nadir şah döyüş meydanını tərk edərdisə bayraq da onunla aparılardı. Nadir şah bayrağının döyüşlərin getdiyi ərazidə dalğalanması onun özünün də döyüşlərdə iştirakından xəbər verirdi.

Bayraqların qaldırılıb-endirilməsi ilə qoşunlara müəyyən əmrlər də çatdırılırdı. Tədqiqatçıların yazdığına görə, hər bir alayın öz bayrağı var idi. Alayın bayrağı üç künclü idi və onlar müxtəlif rəngdə ola bilərdilər. 10 alaydan ibarət olan tümənin daha böyük bayrağa malik olduğu bildirilir. Bu bayraqlar 4 künc idilər və daha uzaq məsafədən seçilirdi (66).

Amma alayın bayrağa malik olduğu təqdirdə ləşgər və tiplərin də bayrağa malik olduğunu istisna etmək olmaz.

Nadir şah qoşunlarında bayraqdar (ələmdar) dəstəsinin olduğu məlumdur. Mənbələrdə ələmdarbaşı vəzifəsinin olmasından da xəbər verilir (67). Qoşun dəstələrində bayraqdar vəzifəsinə xüsusi şəxslər seçilirdi və onlar silah qaldırıb döyüşə girmirdilər. Onların vəzifəsi qoşun dəstəsinin bayrağını dalğalandırmaq, bayrağı irəli aparmaqla döyüşçüləri hücuma ruhlandırmaq idi. Döyüş meydanında bayraqlar müəyyən məlumat yükünü ötürməklə bərabər, onlar daha çox döyüşlərdə mənəvi ruh yaratmaq vəzifəsini özlərində əks etdirirdilər. Döyüş bayrağının endirilməsi qoşun dəstəsi daxilində müəyyən çaşqınlığın yaranmasına da yol açırdı. Buna görə də Nadir şah qarşı tərəfin bayraqdarlarının məhv edilməsinə xüsusi əhəmiyyət verirdi (68).

Bundan başqa, bayraqlardan məxsusi olaraq məlumatların ötürülməsi üçün istifadə olunurdu. Bununla əlaqədar, böyük məntəqələri birləşdirən yollar üzərində müəyyən məsafədən bir hündür təpələr yaradılırdı.Zərurət yaranan zaman xüsusi öyrədilmiş bayraqdarlar həmin təpənin üstünə qalxıb bayrağı hərəkətə gətirməklə müəyyən məlumatı digər təpənin üstündəki bayraqdara ötürürdü. Bu yolla qısa müddət ərzində bayraqdarlar məlumatı bir-birindən alıb uzaq məsafəyə ötürürdülər. Süni yaradılmış təpələr üzərində tüstü yaratmaqla da məlumatların ötürülməsinə cəhd göstərilirdi. Məlumatların ötürülməsində daha dəqiqliyə və sürətə nail olmaq üçün yol boyunca hər 20-30 kilometrdən bir xüsusi süvari postları təşkil edilirdi. Məlumatın daşıyıcısı olan çaparlar hər 20-30 kilometrdən bir ya atlarını dəyişir, ya da onun özünü başqa bir nəfər əvəz edirdi. Bu yolla da vaxtın itkisinə yol verilmədən məlumatlar təyinat nöqtəsinə ötürülürdü (69).

Nadir şahın qoşunlarında musiqiçilər dəstəsi də var idi. Onlardan döyüş şəraitində daha çox istifadə edilirdi. Musiqi alətləri vasitəsilə

döyüşlərin başlanması elan edilirdi. Musiqi alətlərindən eyni zamanda döyüşçülərin döyüş ruhunun artırılmasında istifadə olunurdu (70).

"Aləm Ara-ye Naderi"də daha çox küs, kərnay, təbil kimi musiqi alətlərinin adı çəkilir. Döyüş şəraitində də əsasən bu alətlərdən istifadə olunurdu. Bu alətlərin uzaqlara yayılan sədaları döyüşün qızışdırılması üçün bir ab-hava yaradırdı. Bundan başqa "Aləm Ara-ye Naderi"də döyüş neyi, gürg, surən, darukar kimi alətlərin də adına rast gəlmək mümkündür.

"Aləm Ara-ye Naderi"də rast gəlinən bir fakt musiqi alətlərindən başqa məqsədlər üçün də istifadə edildiyindən xəbər verir. Nadirin qoşun dəstələrindən biri döyüş tapşırığının icrasına yollanarkən qalın bir meşədə vəhşi quşlar döyüşçülərin üzərinə hücum çəkirlər. Həmin quşların hücumlarından qorunmaq üçün nağaralardan istifadə etmək qərara alındı. Nağaraların gur sədasını eşidən quşlar daha döyüşçülərə yaxın düşmədilər və bu yolla onların yaratdığı narahatçılıqdan da yaxa qurtarmaq mümkün oldu (71).

Səfəvilər dövründə qoşunlarda xüsusi yerə malik olan qullarağası və qorçubaşı vəzifələri Nadir şah dövründə ləğv olunmuşdu. "Aləm Ara-ye Naderi"də bildirilir ki, Nadir şah Muğan qurultayında taxt-taca sahib olandan sonra baş vəzir (etimadüddövlə), eşikağası, qullarağası və qorçubaşı vəzifələri ləğv edildi (72).

Qorçular səfəvilər dövründə şahın xüsusi qvardiyası idi və onların əsas vəzifəsi şahın həyatının mühafizəsi idi. Mövcud olan məlumatlara görə, qorçuların sayı 5 minə çatırdı və bu dəstəyə qorçubaşı rəhbərlik edirdi. Şahın mühafizəsində dayandıqları üçün həm qorçuların, həm də qorçubaşının seçilməsinə çox diqqətlə yanaşılırdı. Qorçubaşı vəzifəsinə adətən şahın ən yaxın adamları seçilirdi. Qullar (qulamlar) isə adətən gürcülərdən və Dağıstan tayfalarından təşkil olunurdu. Qullar dəstəsinə daxil olanlar hələ cavanlıq yaşlarından sarayın nəzarəti altında və saraya sədaqət ruhunda tərbiyələndirilirdilər. Qullar şah sarayında müxtəlif xidmətlərin təşkilinə cəlb edilirdilər (73). Əslində, onların adından hansı işlərə cəlb edildikləri məlum olur.

Bununla belə, "Aləm Ara-ye Naderi"də bir neçə yerdə qorçuların, qulların (qulamların), habelə qorçubaşı və qullarağasının adı çəkilir (74). Amma əksər hallarda onların adı əvvəlki mənasında deyil, daha çox döyüş tapşırıqlarının icrası ilə bağlı çəkilir. Tədqiqatçılar da bu adların fəxri adlar kimi saxlandığını güman edirlər.

Mənbələrdə Nadir şah qoşunlarında yasavulların olmasından da söhbət açılır.Tədqiqatçılar yasavulların vəzifələrinin şah tapşırıqlarının qoşun dəstələrinə və ayrı-ayrı şəxslərə çatdırılmasından ibarət ol-

duğunu bildirirlər (75). Amma "Aləm Ara-ye Naderi"də yasavul ifadəsinin işlədilməsindən aydın olur ki, onlar yalnız şah tapşırıqlarının çatdırılması ilə məşğul olmurdular. Yasavullar daha çox ayrı-ayrı fərdi tapşırıqların yerinə yetirilməsi ilə məşğul olan saray xidmətçilərindən ibarət idilər.Onlar şah sarayında nizam-intizam yaradan, nizam-intizamın yaradılmasına nəzarət edən şəxslər idi. Onun saray protokolunun rəhbəri olan eşikağasına (Nadir şah dövründə bu vəzifə öz əhəmiyyətini itirməkdə idi) tabe olması da vəzifəsinin saray xidmətçisi olmasını sübut edir. Saray daxilində onların əlində gümüş çomaq olardı.

Mənbələrdəki məlumatlardan aydın olur ki, yasavulların sayı çox idi. Onlar saray daxilində xidmət göstərməkdən başqa Nadir şahın ayrı-ayrı tapşırıqlarını yerinə yetirir, əmr və göstərişlərini ünvana çatdırırdılar (76).

Vəzifə sıralanmasında yasavulun adı onbaşıdan sonra, adi xidmətçidən isə əvvəl çəkilirdi (77). Buna görə bir çox hallarda yasavul vəzifəsi çox zəhmətli, bəzənsə qeyri-nüfuzlu vəzifə sayılırdı. Nadir şahın qardaşı İbrahim xan yasavulluğu- it qovmaqlıq adlandırırdı (78).

"Aləm Ara-ye Naderi"nin bildirdiyinə görə, yasavullar 50 tümən maaş alırdılar(79). Bu mənbədə qur yasavul, söhbət yasavulu haqqında da xatırlama vardır. Amma onların bir-birindən nə ilə fərqlənməsi haqqında məlumat verilmir. Nadir şah haqqında əsas mənbələrdən olan "Aləm Ara-ye Naderi" əsərində Nadir şah dövrünün bir sıra digər hərbi vəzifələrinin də adı çəkilir. Onlardan biri təlayədardır. Bu sözün işlənmə kontekstindən aydın olur ki, təlayədarlar da qoşunların mühafizəsinin təmin edilməsi ilə məşğul olmuşlar. Çox güman ki, onlar daimi dəstələr olmamışlar, yalnız döyüş mövqelərində olan qoşunların, qoşun düşərgəsinin mühafizəsi üçün tapşırıq almış döyüşçülər idi. Təlayədarlar qoşunları qəfil basqınlardan qoruyurdular. Mənbədəki məlumatdan belə bir qənaətə gəlmək mümkündür ki, bəzi hallarda qoşunların sağ və sol cinahlarının ayrıca təlayədarları təyin edilirdilər (80).

Mənbəyə görə, təlayədarlar mühafizə işində kifayət qədər etibarlı idilər.Onların nəzərindən asanlıqla qurtarmaq mümkün deyildi. Qoşunların daxilinə nüfuz etmək istəyənlər bəzən sürünə-sürünə, gecə vaxtı təlayədarların nəzərini cəlb etməməyə çalışırdılar (81).

Nadir şah qoşunlarında ləşgərnevislər də var idi. Bu insanlar səfərbərliyə alınan qoşunların qeydiyyatının aparılması ilə məşğul idilər. Ləşgərnevisbaşı vəzifəsinin mövcudluğu onun tabeliyində olan qoşun mirzələrinin sayının çox olduğunu ehtimal etməyə əsas verir. Tədqi-

qatçıların fikrincə, Nadir şah qoşunlarında olan ləşgərnevislərin sayı 300 nəfərə çatırdı və bu vəzifəyə adətən dövrünün savadlı şəxsləri təyin edilirdilər (82).

"Aləm Ara-ye Naderi"də "şərbaşəran" ifadəsinə rast gəlmək mümkündür. "Şərbaşəran" ifadəsi adətən "çərxçi ifadəsi ilə yanaşı işlədilir və bu ifadənin işlədilmə məkanından aydın olur ki, şərbaşəranlar da çərxçilər kimi  döyüşə ilk atılan və döyüşü ilk başlayan qüvvə olmuşdur. Amma məlumatların qıtlığı üzündən şərbaşəranların necə təşkil edildiyi, onların çərxçılərdən nə ilə fərqləndikləri barədə fikir söyləmək çətindir.

Mənbədə xümparəçinin də adı çəkilir. Xümparə təxminən top güllələri boyda dəmir səthdən hazırlanıb daxili barıtla və yandırıcı maye ilə doldurulan bir bomba idi. Çox güman ki, xümparəçi həm bu bombanı atışa hazırlayan, həm də onu atan şəxs idi.

"Aləm Ara-ye Naderi"də sipəhsalar titulunun da adı çəkilir. Sipəhsalar – qoşunların baş komandanı anlamını verirdi. Nadir şah hakimiyyətdən əvvəlki illərdə Təhmasib Mirzəyə qoşulanda sipəhsalar vəzifəsinə yiyələnmişdi və həqiqətdə də o, bütün qoşunlara rəhbərlik edirdi. Nadir şah taxt-taca yiyələnəndən sonra bu vəzifəni də ləğv etdi. O özü ölkənin şahı olmaqla bərabər, qoşunların ali baş komandanı idi. Amma onun qardaşı İbrahim xan Azərbaycan sipəhsaları adlandırılırdı. İbrahim xan qətlə yetiriləndən sonra bu titul da ləğv edildi.

### 2.Hərbi-dəniz qüvvələri

Nadir şah qoşunlarının bir növünü də hərbi-dəniz qüvvələri təşkil edirdi. Bu dövrün hərbi-dəniz qüvvələrinə toxunan tədqiqatçıların demək olar ki, hamısı  xüsusi vurğulayırlar ki, Nadir şah   ərəb işğalından sonra  hərbi-dəniz qüvvələrinin təşkilinə nail olmuş ilk şah idi. Bu məqam Nadir şahın dövlətçilik və sərkərdəlik təfəkkürünün daha bir əhəmiyyətli nümayişi idi. Çünki həm şimaldan, həm də cənubdan dəniz sularına çıxışı olan bir dövlətin strateji maraqları dənizdən təhlükəsizliyin zəruriliyini ortaya atırdı. Qurduğu böyük dövlətin hüdudlarını etibarlı şəkildə qorumağa çalışan Nadir şah üçün isə bu məsələ xüsusilə aktuallıq kəsb edirdi.

Şimalda güclü hərbi-dəniz qüvvələrinə malik olmadan Nadir, Cənubi Qafqazda və Türküstanda özünü arxayın hesab edə bilməzdi. Rusiya dövlətinin dəniz vasitəsilə Ənzəliyə və bütünlükdə Gilana qoşun çıxara bilmək ehtimalı və eləcə də Xəzərdəki dəniz daşımalarının yalnız Rusiyanın əlində olması Nadir şahı qane etmirdi.

Fars körfəzində isə bu məsələ daha kəskinliyi ilə dayanırdı. Körfəzin o tayında vaxtilə Səfəvi dövlətinə mənsub olan ərazilərin itirilməsi Nadir şah dövlətinə qarşı qiyamçı mövqe tutmuş qüvvələrin Fars körfəzi bölgəsində gizlənməyə çalışmaları və onların potensial təhlükə mənbəyi olması, bütünlükdə körfəz ətrafındakı vəziyyətin nəzarət altında saxlanması da hərbi-dəniz qüvvələrinin yaradılmasına təkan verdi.

Konkret olaraq qeyd etmək lazımdır ki, Şah Sultan Hüseynin hakimiyyəti dövründə vaxtilə səfəvilər hakimiyyətinin nəzarəti altında olan Bəhreyn Şeyx Cabbarın rəhbərliyi ilə yerli ərəb tayfalarının nəzarəti altına düşdü. Nadir şah sözsüz ki, bununla razılaşmadı və Bəhreynin geri qaytarılması üzərində düşünməyə başladı.

Bir sözlə, Nadir şah öz dövlətini güclü hərbi-dəniz bazasına malik olan bir dövlətə çevirmək istəyirdi. Ancaq bu niyyətin həyata keçməsi üçün bir sıra vacib məsələlərin həllinə nail olmaq lazım idi. İlk növbədə hərbi-dəniz qüvvələrinin yaradılması üçün müəyyən bir təcrübə tələb olunurdu. Piyada və süvari qoşunlarının təşkili üçün istər Nadir şahda, istərsə də cəmiyyət daxilində bir təcrübə mövcud idisə, hərbi-dəniz qüvvələrinin təşkili sahəsində belə bir təcrübə yox idi. Konkret tarixi şəraitdə isə Nadir şah təcrübə əldə edilməsi ilə əməli fəaliyyəti birləşdirməli idi.Yəni, təcrübə qazanılmasına vaxt itirmədən əməli fəaliyyətə başlamaq lazım idi. Hərbi-dəniz qüvvələrinin təşkili üçün Nadir şahın ixtiyarında hərbi gəmilər də yox idi. Bu da ciddi bir məsələ idi. Hərbi gəmilərin əldə edilməsi ilə bərabər, onlara xidmət sahəsi də qurulmalı idi. Nəhayət, hərbi gəmiləri hərəkətə gətirəcək şəxsi heyət yetişdirilməli idi. Bütün bu və ya digər zəruri məsələlərin ağırlığına baxmayaraq Nadir şah hərbi-dəniz qüvvələrinin yaradılması istiqamətində gərəkli bir qətiyyət nümayiş etdirdi və onun səmərəli nəticəsinə də nail oldu.

Nadir hələ gilzayi əfqanları ilə döyüşlərdən sonra əməli olaraq hərbi gəmilərə malik olmağın zəruriliyini qəbul etdi. Çünki Nadirin təqiblərindən qaçan gilzayi əfqan qoşunlarının bir hissəsi Omanda özünə sığınacaq tapmışdı. Onların ələ keçirilib zərərsizləşdirilməsi isə hərbi gəmilərsiz mümkün deyildi (83).

Nadirə qarşı istiqamətlənmiş ən güclü yerli qiyamlardan biri olan Məhəmməd xan Belucun rəhbərliyi altında olan qiyamın nəticələrinin tamamilə aradan qaldırılması zəruriliyi də hərbi-dəniz qüvvələrinə olan ehtiyacı bir daha aktuallaşdırdı. Kiş adasında gizlənən Məhəmməd xan Belucun ələ keçirilməsi tapşırığını alan Məhəmməd Lətif xan Bəndər Abbasda (qərb mənbələrində bu şəhərin adı "Qombərun" kimi

göstərilir - M.S.) yerləşən ingilis və holland şirkətlərindən gəmilər almağa cəhd göstərdi. İngilis və holland şirkətləri bu istiqamətdə Nadirlə əməkdaşlıq etməyə meylli deyildilər. Bir tərəfdən onlar gəmilərdən yaxşı münasibətdə olduqları Osmanlı və Hindistan qoşunlarına və habelə Omana qarşı istifadə olunmasını istəmirdilər. Digər tərəfdən də Avropa şirkətləri Nadirin dənizdə möhkəmlənmək istəklərini alqışlamırdılar. Çünki bu, tez-gec avropalıların dəniz monopoliyasını çətinləşdirə bilərdi. Ona görə Məhəmməd Lətif xanla Avropa ticarət şirkətləri arasında danışıqlar xeyli uzanmalı oldu.

Lətif xan holland şirkətinin nümayəndəsinə bildirdi ki, əgər 3 minlik bir qoşun dəstəsinin daşınması üçün gəmilər verilsə onda onlar ticarət işlərində böyük güzəştlər əldə edəcəklər və Bəndər Abbasda holland şirkəti üçün yaxşı şərait yaradılacaqdır. Hollandlar bir daha öz şərtlərini açıqladılar ki, gəmilərinin onlarla dostluq əlaqələrinə malik ölkələrə qarşı istifadəsinə razı ola bilməzlər. Lətif xan onları inandırdı ki, gəmilərin istənilməsində məqsəd qiyamçı ərəb tayfalarına qarşı mübarizə aparmaqdır. Hollandlar Lətif xanı ağıllı-bacarıqlı və Avropa həyatı ilə tanış olan bir şəxs kimi qiymətləndirirdilər. Digər tərəfdən onlar özləri də istəmirdilər ki, Fars körfəzi daxilində narahatçılıq yarada biləcək elementlər mövcud olsun. Ona görə də müzakirə və danışıqlardan sonra hollandlar sahil limanları və adaları arasında hərəkət üçün bir neçə gəmilərini Nadirə icarəyə verməyə razı oldular (84).

Lətif xan bu gəmilərin köməyi ilə Kiş adasını mühasirəyə aldı və Məhəmməd xan Beluc həbs edilərək İsfahana göndərildi. Əlinə düşmüş fürsətdən istifadə edən Lətif xan nəzarətdən çıxmış olan bir sıra ərəb tayfalarına da zərbə endirdi və onları itaət altına gətirdi.

Beləliklə, 1734-cü ildən Fars körfəzində hərbi-dəniz qüvvələrinin formalaşdırılması istiqamətində fəal işlər aparılmasına başlandı. Bu işlərə Nadir tərəfindən dəryabəyi və ya dəryasalar vəzifəsinə təyin edilmiş Lətif xan rəhbərlik edirdi. Lətif xanın Məhəmməd xan Belucun həbsi ilə bağlı dəniz yürüşündə onun ixtiyarında yalnız icarə edilmiş gəmilər olsa da bu yürüş hərbi-dəniz qüvvələrinin formalaşdırılmasının sürətləndirilməsinə təkan verdi.

Tədqiqatçıların yazdığına görə, dəryabəyi vəzifəsinə təyin olunana qədər Lətif xanın gəmilərlə tanışlığı yox idi (85). Amma onun əzmkarlığı hərbi-dəniz qüvvələrinin formalaşdırılmasında öz sözünü dedi. Nadirin tapşırığı ilə Lətif xan Buşehri yeni yaradılacaq hərbi-dəniz qüvvələrinin bazasına çevirmək üçün müvafiq işlərə başladı. Şəhər yaxınlığındakı qalalardan biri, dəniz sahilində portuqallardan qalmış olan köhnə liman körpülərindən biri təmir edildi, burada hərbi

gəmilərin yan alması üçün münasib şərait yaradıldı. Tezliklə Buşehr şəhəri Bəndər-Nadiriyyə adı aldı (86).

Fars körfəzində hərbi-dəniz qüvvələrinin formalaşdırılmasında Fars vilayətinin hakimi Məhəmməd Tağı xanın da müəyyən xidmətləri vardır. Doğrudur, sonradan Məhəmməd Tağı xanla Lətif xan arasında ciddi ziddiyyət yarandı və bu ziddiyyət Lətif xanın qətli ilə nəticələndi. Bununla belə, vilayət bəylərbəyi kimi o, hərbi-dəniz qüvvələrinin təşkilində bir sıra əməli addımlar atdı.

Qeyd etmək lazımdır ki, Nadir şahın hərbi-dəniz qüvvələrinin təşkili haqqında şərq mənbələrində geniş məlumat yoxdur. Bu məsələ ilə bağlı həmin dördə İsfahanda və Fars körfəzi ətrafında yaradılmış avropalı ticarət şirkətlərinin yazışmalarında qiymətli məlumatlar vardır ki, tədqiqatçılar da əsasən həmin məlumatlara istinad edirlər.

1734-cü ilin oktyabr ayında Təhmasib xan Cəlayir İsfahana gəlib ingilis və holland Ost-hind şirkətinin rəhbərliyinə Nadirin tələblərini çatdırdı. Nadir hərbi-dəniz qüvvələrinin təşkilinə başlanması üçün bu şirkətdən ticarət gəmiləri alıb onları hərbi gəmilərə çevirmək istəyirdi. Ölkədə gəmiqayırma tərsanəsinin olmadığı və onun tezliklə yaradılması mümkün olmayacağı bir şəraitdə çıxış yolu xarici ticarət gəmilərini alıb onları hərbi gəmilər üçün uyğunlaşdırmaq idi. Nadir avropalı tacirlər qarşısında elə sərt tələblər qoymuşdu ki, ona lazım olan sayda yaxşı silahlandırılmış gəmilər versinlər (87).

Nadir avropalı tacirlərin ölkədəki fəaliyyətinə hər hansı bir çətinlik yaratmaq istəmirdi. Əksinə, o, sonralar da xarici ticarəti təşviq etməyə çalışırdı. Ona görə də Nadir ölkədə çalışan ticarət şirkətlərinin gəmilərinin onların dəyərini ödəməklə almaq istəyirdi. Avropalı şirkətlər isə yuxarıda toxunulan səbəblər üzündən bu sahədə Nadirlə geniş əməkdaşlığa elə də meylli deyildilər. Ona görə İsfahandakı şirkətlər irəli sürülən tələbi yerinə yetirməkdənsə fəaliyyətlərini dayandırıb İsfahanı tərk etməyi qərarlaşdırdılar. Mövcud olan məlumatlara görə, onları İsfahanı tərk etməkdən çəkindirmək mümkün oldu.

Bununla belə, hərbi-dəniz qüvvələrinin bazasının yaradılması istiqamətində axtarışlar davam edirdi. Mövcud olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, avropalı ticarət şirkətlərindən başqa ayrı-ayrı avropalılar da müəyyən gəmilərə malik idi. Lətif xan belə gəmi sahibləri ilə danışıqlar aparırdı və nəhayət 1734-cü ilin sonlarına yaxın onların ikisi ilə sövdələşmək mümkün oldu (88). Həmin gəmilərin əldə edilməsi hərbi-dəniz qüvvələrinin formalaşdırılması istiqamətində ciddi əhəmiyyətə malik oldu.

Bəzi tədqiqatçılar iddia edirlər ki, Lətif xan ərəb şeyxləri ilə də danışıqlar aparıb onlardan gəmilər almaq istəyirdi. Bu danışıqların nəticəsi kimi ərəblərdən iki böyük gəmi almaq mümkün oldu (89). Buradan da belə çıxır ki, 1734-cü ilin sonu və 1735-ci ilin əvvəlində Lətif xanın ixtiyarında 4 ədəd böyük gəmi var idi. Digər tədqiqatçılar isə bunu təsdiq etmirlər. Avropa mənbələrinə istinad edən Lokkart və digər tədqiqatçılara görə, 1735-ci ilin ilk aylarında Lətif xanın komandanlığı ilə "Qrab" tipli 3 böyük gəmi və 50 ədəd "Trankey" tipli kiçik gəmi var idi (90). Amma müəlliflər 50 kiçik gəminin harada alınması barədə məlumat vermirlər. Çox güman ki, onlar ərəb şeyxlərindən alınmışdı.

Bu gəmilərin necə təchiz edilməsi və onların şəxsi heyətinin necə komplektləşdirilməsi haqqında da konkret məlumat söyləmək mümkün deyil. Güman etmək olar ki, alınmış üç böyük gəminin şəxsi heyəti saxlanmışdı. Çünki sonrakı dövrlərdən də məlumdur ki, hərbi-dəniz gəmilərinin hərəkətə gətirilməsi üçün avropalılardan, ərəblərdən və hindlilərdən istifadə olunurdu.

Bir sözlə, 1735-ci ilin ilk aylarında Nadirin hərbi-dəniz qüvvələrinin ilkin bazasının yaradılmasına nail olundu. Mövcud olan gəmi vasitələri ilə artıq kifayət qədər güclü bir qüvvəni müxtəlif ünvanlara atmaq mümkün idi və elə 1735-ci ilin aprelində hərbi-dəniz qüvvələrinin bu imkanından istifadə edilməsi qərara alındı.

Həmin vaxtlar ərəb İraqında səhra ərəb tayfaları ilə Osmanlı qoşunları arasında silahlı qarşıdurmalar yaranmışdı. Nadir güman edirdi ki, bu qarşıdurma Osmanlı hərbi qüvvələrinin gücünü zəiflədə bilər. Bu fürsətdən istifadə edərək o, Bəsrə şəhərini ələ keçirməyi qərara aldı. Nadir qərarlaşdırdı ki, piyada və süvari qüvvələri ilə qurudan Bəsrə üzərinə hücuma keçsin. Hərbi-dəniz qüvvələri isə Ərvəndrud (Şədd-ül-ərəb) çayı ilə Bəsrəyə yaxınlaşmaqla qurudan başlanan hücumu dəstəkləsin. Bununla bağlı, Lətif xana da müvafiq göstəriş verildi.

Amma hərbi-dəniz qüvvələri ilə quru qüvvələri arasında qarşılıqlı fəaliyyət lazımi şəkildə nizamlanmadı və Nadirə görə bu məsələdə Lətif xan günahkar idi.

Bəsrəyə doğru yürüş Nadirin müstəqil hərbi-dəniz qüvvələrinin ilk yürüşü idi. Bu döyüşdə Lətif xanın rəhbərliyi altında olan üç böyük və 50 kiçik gəminin iştirakı nəzərdə tutulmuşdu. V.Flober isə Bəsrəyə doğru istiqamət götürən hərbi-dəniz qüvvələrinin tərkibində iki böyük gəminin, 2 sahil gəmisinin, freqat tipli bir gəminin və 40 ədəd kiçik gəminin mövcud olduğunu bildirir. Eyni zamanda, Flober Bəsrəyə doğru dəniz hücumunun 1735-ci ilin may ayında başladığını yazırdı

(91). L.Lokkarta görə isə Bəsrə üzərinə hücum 1735-ci ilin aprelində baş vermişdi.

Mövcud olan məlumata görə, Lətif xanın rəhbərliyi altında olan hərbi-dəniz qüvvələri 1735-ci il may ayının sonunda Bəsrə yaxınlığında olan kiçik bir adaya yaxınlaşdılar. Nadirin hərbi-dəniz qüvvələrinin yaxınlaşmasını eşidən Bəsrədəki Osmanlı qüvvələrinin rəhbərliyi dərhal bu hücumun qarşısını almaq üçün döyüş hazırlığı aldı.

Lətif xan Bəsrəyə yaxınlaşan günlərdə Ost-hind (şərqi hind) şirkətinin topla təchiz olunmuş iki böyük ticarət gəmisi sahildə lövbər salmışdı. Osmanlı paşası şirkət nümayəndələrindən həmin gəmilərin müvəqqəti Osmanlı qoşunları tabeliyinə verilməsini tələb etdi. Bu gəmilərlə düzgün manevr ediləcəyi təqdirdə Lətif xanın irəliləməsinin qarşısını saxlamaq mümkün idi. Qərb mənbələri iddia edirlər ki, əvvəlcə şirkət nümayəndəliyi iranlılarla yaxşı münasibətdə olduqları üçün gəmiləri Osmanlı paşasının ixtiyarına vermək istəmədilər. Guya Osmanlı paşasının təzyiqi altında gəmlərin sonradan Lətif xana qarşı istifadə edilməsinə razılıq verilibdir (92).

Mövcud olan məlumata görə, Nadirin hərbi-dəniz qüvvələri Bəsrədən 5 mil aşağıda yerləşən ingilis gəmiləri ilə qarşılaşmalı oldu. İngilis gəmilərinin bütün şəxsi heyəti Lətif xan gəmilərinə qarşı döyüşdə iştirak etdi. İngilislərin kifayət qədər təcrübəyə malik olması dəniz döyüşündə özünü göstərdi. 3 gün davam edən döyüşdən sonra Lətif xan geri çəkilmək məcburiyyətində qaldı. Müfəssəl məlumatlar olmasa da çox güman ki, Lətif xan müəyyən xəsarət də aldı. Bir tərəfdən Lətif xanın rəhbərliyi altında aparılan döyüşün uğursuzluğu, digər tərəfdən də qarşılıqlı hücumla Bəsrənin tutulması planının həyata keçməməsi Nadiri çox qəzəbləndirdi. O, hətta Lətif xanı bu vəzifəsindən kənarlaşdırdı da. Amma görünür, Lətif xanın dəniz işinə olan bağlılığı sonradan onu bu qərarından döndərə bildi və Lətif xan yenidən dəryabəyi vəzifəsinə təyin edildi (93).

Avropalı şirkətlərin Osmanlı qüvvələri tərəfində Lətif xanın rəhbərliyi altında olan hərbi qüvvələrə qarşı çıxması da Nadirdə bir nigarançılıq yaratdı. 1735-ci il iyulun 27-də Fars bəylərbəyi Məhəmməd Tağı xan ingilis və holland şirkətlərinə narazılıq ifadə olunan bir məktub göndərdi. Heç şübhəsiz ki, Nadirin də məzmunundan xəbərdar olduğu həmin məktubda ingilis və holland gəmilərinin osmanlılarla əlbir olmasına etiraz ifadə olunurdu. Məhəmməd Tağı xan ingilis və holland gəmilərinin Osmanlı qüvvələri ilə əlbir olmağına inanmadığını bildirdi. O öz məktubunda onu da əlavə edirdi ki, söylənilən fakt doğ-

ru olduğu halda dostluğa düşmənçiliklə cavab verən avropalılara qarşı ölçü götürəcəkdir. Holland tacirləri isə bu məktubun cavabında bildirdilər ki, məsələdən xəbərsizdirlər və bu mövzuda konkret olaraq ingilislərlə danışmaq lazımdır (94).

Bir tərəfdən Məhəmməd Tağı xanın hədələri, bir tərəfdən də Nadirin qəzəblənməsi ingilis şirkətlərində müəyyən bir narahatlıq yaratdı. Onlara qarşı sərt tədbirlərin görüləcəyi ehtimal edilirdi. Amma qəzəblənməsinə baxmayaraq Nadir ingilis şirkətinin öz fəaliyyətini davam etdirməsinə tərəfdar olduğunu bildirdi. Hətta ingilis şirkətinə müəyyən güzəştlərin veriləcəyi də bəyan edildi. Bu, yaranmış gərgin vəziyyətə bir yumşaqlıq gətirdi. Konkret tarixi şəraitdə Nadirin gəmiqayırma tərsanəsini tez bir zamanda yaratmaq mümkün deyildi. Belə olan şəraitdə hərbi-dəniz qüvvələrinin formalaşdırılması üçün ən münasib yollardan biri avropalı şirkətlərdən gəmi alınması idi. Buna nail olunması üçün 1735-ci ilin sonlarında Nadir tərəfindən xüsusi vəsait toplanmasına başlanıldığı da məlumdur (95).

Lətif xan yenidən öz vəzifəsinə bərpa olunduqdan sonra Bəhreynə hücum üçün hazırlıq aparmağa başladı.Yuxarıda qeyd edildiyi kimi, Şah Sultan Hüseyn dövründə Bəhreyn və Kiş itaətdən çıxdı. Bəhreynə uğurlu hücum həyata keçirmək üçün hərb-dəniz qüvvələrinin möhkəmləndirilməsinə ehtiyac var idi. Mövcud olan məlumatlara görə, Bəhreynə hücumdan əvvəl ingilis şirkətlərindən su tutumu 400 ton olan və hər biri 20 ədəd topa malik olan iki gəmi 8 min tümən qiymətində alınmışdı (96).

Gəmilərin sayının çoxaldılması üçün Məhəmməd Tağı xan da Buşehrdəki holland şirkətinə məktub göndərdi. M.Tağı xan məktubunda bildirirdi ki, qoşun dəstələri Buşehrə yaxınlaşmaqdadır. Onların Lətif xanın rəhbərliyi altında Bəhreynə göndərilməsi nəzərdə tutulur. Həmin qüvvələrin Bəhreynə çatdırılması üçün holland şirkətindən bir gəminin icarəyə verilməsi xahiş olunurdu. Hollandlar tabe olduqları təşkilatın razılığı alınmayınca hər hansı bir gəminin icarəyə verilməsinin qeyri-mümkün olduğunu bildirdilər (97).

L.Lokkart isə qərb mənbələrinə əsaslanaraq bildirir ki, Lətif xan 5 min tümənin əvəzində hollandları məcbur edə bilmişdi ki, böyük gəmilərdən birini ona satsınlar (98). 1736-cı ilin aprel-may aylarında Bəhreynə hücum həlledici mərhələyə qədəm qoydu. Hücum dövründə Bəhreyn şeyxi Şeyx Cabbarın Məkkəyə ziyarətə yollanması ərəblərin müqavimətinə bir nizamsızlıq gətirdi.Lətif xanın bu hücuma hansı qüvvələrlə yollanması haqqında müfəssəl məlumat olmasa da, o qarşıya qoyulan vəzifənin öhdəsindən tamamilə gəldi. Bəhreyn və Kiş ye-

nidən nəzarət altına qaytarıldı. Amma Bəhreyn qiyamının rəhbəri olan Şeyx Cabbar səfərdə olduğundan onu zərərsizləşdirmək mümkün olmadı. Bununla Səfəvi dövründə körfəzin itirilmiş olan hissəsi yenidən geri qaytarıldı. Nadir körfəzdə öz mövqelərini xeyli dərəcədə möhkəmləndirə bildi. Bu vəziyyətin qorunub saxlanması üçün isə hərbidəniz qüvvələrinin gücləndirilməsinin əhəmiyyətini artırdı.

Nadir Bəhreynin alınmasından çox razı qaldı. Bu uğur onun qoşunlarının yeni sahədə əldə etdiyi uğur idi. O, Bəhreyni Fars vilayətinə birləşdirdi və onun idarə edilməsi səlahiyyətlərini Məhəmməd Tağı xanın ixtiyarına verdi.

1737-ci ilin martında Nadir şahın hərbi-dəniz qüvvələri yenidən yürüşə başladılar. Bu dəfə hədəf Oman seçilmişdi. Omanın tutulması Fars körfəzində əsaslı nəzarəti Nadir şahın ixtiyarına verə bilərdi. Omana hücuma keçmək üçün 1737-ci ilin əvvəllərində yaxşı bir bəhanə də ələ düşdü. Məsqət imamı ikinci Şeyx bin Sultan daxili rəqibləri ilə mübarizədə qalib gəlmək üçün  Nadir şahdan kömək istədi. Nadir şah dərhal Fars bəylərbəyi Məhəmməd Tağı xana göstəriş verdi ki, Məsqət imamına yardım göstərmək üçün quru və dəniz qüvvələrindən ibarət bir dəstə təşkil edib Oman sahillərinə yola salsın. Həqiqətdə isə Nadir şah qoşun dəstəsi göndərməklə bütün Omanı nəzarət altına almaq istəyirdi. Lətif xanın rəhbərliyi altında 5 min nəfərlik hərbi qüvvə Məsqət tərəfə hərəkət etdi. Gəmilər vasitəsilə 150 atı da körfəzin o biri sahilinə keçirmək mümkün oldu. Lətif xan Oman ərazisində  Məsqət imamı ilə görüşəndən sonra bütün Oman ərazisində ona müxalif olan qüvvələrə qarşı döyüşlərə başladı. Lətif xanın dəstəsi kifayət qədər uğurlu döyüşlər apardı və müxalifətdə olan qüvvələr zərərsizləşdirildi. Məsqət imamı işlərin belə getməsindən razı qalsa da, Lətif xanın niyyətini başa düşəndə öz narazılığını gizlətmədi.Müxalifət qüvvələrindən təmizlənmiş olan ərazilər Məsqət imamına qaytarılmaqdansa, Nadir qoşunlarının nəzarəti altında saxlanılır, müəyyən yerlərdə düşərgələr salınır, müşahidə bazaları tikilirdi (99).

Oman ərazisində 5 günlük döyüşlərdən sonra Lətif xan Bəndər – Abbasa geri qayıtdı və əldə etdiyi nəticələr barədə Məhəmməd Tağı xana məlumat verdi. Amma Məhəmməd Tağı xan və eləcə də Nadir şah Lətif xandan razı qalmadılar. Məhəmməd Tağı xan paxıllıq üzündən Lətif xanın əldə etdiyi uğurlardan xoşlanmayaraq onunla intriqaya başladı. Nadir şah isə Məsqət imamının həyatına son qoyulmadığı və Omanda Nadir şah hakimiyyətinə qarşı çıxa biləcək qüvvələrin tamamilə zərərsizləşdirilmədiyi üçün narazı qaldı. Nadir şahın fikrincə, Məhəmməd Tağı xan şəxsən özü əməliyyata rəhbərlik etməli və

Omandakı qüvvələrə qarşı daha qətiyyətli addımlar atmalı idi. Bu baxımdan Nadir şah, Məhəmməd Tağı xana da qəzəbini bildirdi. Nadir şahın tələblərinin yerinə yetirilməsi üçün 1738-ci ilin yanvar ayında Omana yeni bir hərbi-dəniz yürüşü təşkil edildi.

Növbəti hərb-dəniz yürüşünə Məhəmməd Tağı xan rəhbərlik edirdi.Yürüşdən əvvəl o, ingilis və holland şirkətlərindən daha bir neçə gəmi almağa müvəffəq oldu. Yürüş zamanı Lətif xan, Məhəmməd Tağı xana kömək edirdi. Gözlənildiyi kimi, müxalifət qüvvələrinin yenidən baş qaldırmasından sonra Məsqət imamı bir daha Nadir şahın qüvvələrinə dəstək göstərmək qərarına gəldi. Amma görünür Nadir şahın aydın və sərt nəzarətinin olmaması, qüvvələrin vahid məqsəd ətrafında səfərbər edilə bilməməsi qarşıya qoyulan tapşırığın icrasına mane oldu. Doğrudur, Oman ərazisində bir sıra məntəqələrdə uğur qazanıldı. Lakin bir tərəfdən Məhəmməd Tağı xanla Lətif xan arasında, digər tərəfdən də Nadir şah qüvvələri ilə Məsqət imamını dəstəkləyən qüvvələr arasında yeni çəkişmələr və ziddiyyətlər ortaya çıxdı. Məhəmməd Tağı xanla Lətif xan arasında olan ziddiyyət Nadir şahın hərbi dəniz qüvvələrinin təşkilatlandırılmasında xüsusi rolu olan Lətif xanın Məhəmməd Tağı xan tərəfindən zəhərləndirilib öldürülməsi ilə nəticələndi. Məsqət imamı ilə olan ziddiyyət isə son nəticədə Məhəmməd Tağı xanın verilən tapşırığın icrasına nail olmadan geri dönməsi ilə nəticələndi (100).

Mövcud olan məlumatlara görə, Məhəmməd Tağı xan Omanın bir dəfəlik nəzarət altına alınmasını başa çatdırmağa cəhd göstərdi. Bununla belə, başının daxili iğtişaşların yatırılmasına qarışması, 1739-cu ilin yayında isə Nadir şahın əmri ilə tabeliyində olan dəniz qüvvələri ilə Sind çayına doğru hərəkətə cəhd göstərməsi həmin tapşırığın həyata keçirilməsini ləngitdi.

Fars körfəzindəki hərbi-dəniz qüvvələrinin dirçəldilməsi üçün Nadir şah yeni şəxsləri dəryabəyi vəzifəsinə təyin etdi. Onlardan biri olan Mirəli xan 1740-cı ildə dənizçilərin qiyamı nəticəsində öldürüldü. Hərbi-dəniz qüvvələrinin formalaşdırılması üçün böyük ümidlər bəslənilən digər dəryabəyi İmamverdi xan isə yanında partlayan top lüləsinin zərbəsindən həlak oldu (101).

Əsrin 40-cı illərində hərbi-dəniz işinin fəallaşdırılması üçün Nadir şah tərəfindən bir sıra əhəmiyyətli addımlar atıldı. İngilis və holland şirkətlərindən alınan gəmilərin kifayət etmədiyini görəndə Nadir şah Hindistanın Surat limanındakı gəmiqayırma müəssisəsindən gəmilər alınmasına başladı. Mövcud olan məlumatlara görə, Nadir şah oradan 12 ədəd gəmi almışdı. Bəzi tədqiqatçıların fikrincə isə Nadir şah

Suratda 20 ədəd gəminin hazırlamasına sifariş vermiş və Dağıstan yürüşündə olarkən onların hazırlanıb suya buraxılması haqqında məlumat almışdı. Bundan başqa ehtimal edilir ki, Nadir şah başqa limanlarda da gəmi hazırlanması üçün sifarişlər vermişdi (102).

Hərbi-dəniz qüvvələrinin möhkəmləndirilməsi istiqamətində Nadir şahın atdığı mühüm addımlardan biri də Buşehrdə gəmiqayırma müəssisəsinin yaradılması barədə qərar oldu. Bir tərəfdən gəmilərin digər ölkələrdən alınması çox baha başa gəlirdi və Nadir şah güman edirdi ki, öz nəzarəti altında hərbi gəmilərin daha ucuz qiymətə hazırlanmasına nail ola bilər. Digər tərəfdən Nadir şah gəmiçiliyin quraşdırılmasından istifadəsinədək bütünlüklə öz dövlətində mənimsənilməsinə çalışırdı. Bu istiqamətdə konkret işlərin görülməsinə başlandı. Belə bir müəssisə üçün yer ayrıldı, lazım olan mütəxəssislər toplanıldı. Bu istiqamətdə qarşıya çıxan başlıca problem tikinti materiallarının xeyli uzaqda, Xəzəryanı ərazilərdə olması idi.Gəmilərin quraşdırılması üçün zəruri olan meşə materiallarının Mazandarandan gətirilməsi nəzərdə tutulmuşdu. Bunun üçün xüsusi arabalar da hazırlandı. Arabaların işləyə bilməyəcəyi yolsuzluq şəraitində isə ağır ağaclar insanların çiynində daşnmalı idi. Əslində, işlərin belə bir şəraitdə icrasına başlandı da. Amma texniki vasitələrin olmadığı bir vaxtda adi əl əməyi ilə böyük layihənin həyata keçirilməsi xeyli çətinləşdi (103).

Mövcud olan məlumata görə, Nadir şah həyatının sonuna kimi bu niyyətinə nail ola bilmədi. O, qətlə yetiriləndə Buşehrdə yalnız bir gəminin quraşdırma işlərinin yarısı görülmüşdü. Sonradan həmin gəminin quraşdırılması da başa çatmadı (104).

Nadir şahın həyata keçirdiyi başqa bir tədbir Bəndər-Abbasda top tökmə zavodunun tikilməsi oldu. Nəzərdə tutulmuşdu ki, bu zavodda hərbi-dəniz gəmiləri üçün gərəkli olan toplar düzəldilsin. Top tökmə sahəsində ölkədə artıq müəyyən təcrübə var idi və ona görə də bu zavodun tikilməsinə və fəaliyyətinə nail olundu. Hətta bu zavodda yeni toplar da düzəldildi (105).

Hərbi-dəniz qüvvələrinə şəxsi heyətin cəlb edilməsi quru qüvvələrinə nisbətən fərqli idi. Hərbi-dəniz qüvvələrinin şəxsi heyətinin istər gəmilərin idarə edilməsi, istərsə də dəniz şəraitində döyüşmək xüsusi təcrübə tələb edirdi. Ona görə hərbi-dəniz qüvvələrinə daha çox dənizçilik sahəsində təcrübəsi olan hindlilər, ərəblər və avropalılar muzdlu şəkildə qəbul edilirdilər.

Nadir şahın hərbi-dəniz qüvvələrinin öz bayrağı var idi. Ağ parçadan ibarət olan bu bayrağın ortasında qırmızı rəngdə qılınc təsvir olunmuşdu.

Nadir şahın həyatının son illərində ölkə daxilində hərbi-siyasi şəraitin mürəkkəbləşməsi, Osmanlı dövləti ilə növbəti ağır müharibə onun diqqətini Fars körfəzində hərbi-dəniz qüvvələrinin formalaşdırılmasından müəyyən qədər yayındırdı. Hərbi-dəniz qüvvələrinin formalaşdırılmasının əməli prosesinə rəhbərlik üçün Lətif xan kimi təşəbbüskar bir şəxsin tapılmaması isə bu sahədəki işlərin sürətini bir qədər də azaltdı. Bunun nəticəsi idi ki, Oman və Fars körfəzi üzərində nəzərdə tutulan nəzarətin təmin edilməsinə nail olunmadı. Bu istiqamətdə yeni ciddi dəyişikliklərin yaradılmasına isə artıq Nadir şahın həyatı yetmədi.

Nadir şah hətta Xəzər dənizində də hərbi-dəniz qüvvələrinin formalaşdırılmasına cəhd göstərdi. Lakin burada hərbi donanmanın formalaşdırılması üçün xarici şirkətlərdən gəmi almaq imkanı yox idi. Rusiya isə Xəzərdə yeni bir donanmanın yaradılmasına razı deyildi. Ona görə qərara alındı ki, Lahicanda gəmiqayırma müəssisəsi yaradılsın. 1743-cü ilin yanvarında ingilis Elton gəmiqayırma işlərinin rəhbəri təyin edildi və ona Camal bəy ləqəbi verildi (106).

Con Eltonla Nadir şah Dağıstan yürüşü zamanı rastlaşmışdı. O əvvəllər Rusiyada çalışmışdı və Nadir şah onun bacarığından bəhrələnmək qərarına gəldi. Xəzərin cənub sahillərindəki meşəliklərdən gəmi qayırmaq üçün kifayət qədər material əldə etmək mümkün idi. Nadir şah planlaşdırırdı ki, Con Eltonun rəhbərliyi altında Xəzərdə gəmiçiliyin inkişafına nail olunsun. O, həm Xəzərin cənub sahili ilə Həştərxan arasında ticarət gəmiçiliyinin təsis edilməsini, həm də Xəzərin şərq sahillərində kök salmış qaçaq və quldurların kökünün kəsilməsini istəyirdi(107). Xəzər dənizində gəmiçiliyin təsis edilməsi ölkənin mərkəzi ilə Dağıstan arasında əlaqələrin yaradılmasını da xeyli asanlaşdıra bilərdi.

Con Elton yalnız gəmiqayırma ilə məşğul olmurdu. O eyni zamanda Xəzər dənizinin cənub və şərq sahillərinin öyrənilməsi ilə də məşğul olurdu. Nadir şah çalışırdı ki, Xəzər dənizinin münasib yerində xüsusi bir qala tikdirsin və həmin qala ilə həm gəmiçiliyin inkişafına təsir göstərsin, Xəzər dənizinə olan niyyətlərinin ciddiliyini nümayiş etdirsin, həm də orada yerləşdirdiyi qüvvələrlə türkmənlərin dəniz piratçılığının qarşısını alsın (108).

Gəmilər üçün nəzərdə tutulan yelkən pambıqdan toxunub hazırlandı. Lövbərdən başqa zəruri olan bütün əşyalar və hissələr Gilanda düzəldildi. C.Elton ilk gəmini suya salmaq üçün ləngər də axtarıb tapdı. Onun müəssisəsində bir neçə rus və hind ustası işləyirdi. Onların təcrübəsi və Eltonun əzmkarlığı nəhayət ki, öz səmərəsini verdi. Eltonun

rəhbərliyi altında düzəldilən ilk gəmi Nadir şahın sağlığında suya buraxıldı (109).

Nadir şahın ölümündən sonra Xəzər dənizində gəmiçiliyin inkişaf etdirilməsi və hərbi-dəniz qüvvələrinin formalaşdırılması demək olar ki, dayandı. C.Elton bir neçə il bu sahədə işi davam etdirsə də 1751-ci ildə onun öldürülməsi ilə bütün işlərə son qoyuldu. Ölkə daxilində hökm sürən hərc-mərclik dövründə isə gəmiçiliyə diqqət tamamilə itdi.

### 3.Səfərbərlik və təchizat məsələləri

Nadir şahın hərbi qüvvələrinin formalaşdırılması prosesində özünəməxsus əhəmiyyət kəsb edən məsələlərdən biri də səfərbərlik məsələlərinin həlli idi. Nadir şahın kütləvi qoşunlara malik olduğu və daim bu qoşunların kəmiyyət baxımından təkmilləşdirildiyi bir şəraitdə səfərbərlik məsələləri xüsusi aktuallıq kəsb edirdi. Əslində, bu məsələnin qoyuluşu Nadir şahın fatehlik planlarının miqyasına cavab verməli və bunun üçün zəruri olan təşkilatçılıq məsələləri də həll olunmalı idi.

Nadir şah dövrünün səfərbərlik məsələləri heç şübhəsiz ki, konkret tarixi şəraitin hərb sənətinin inkişaf səviyyəsi ilə bağlı idi və onun forma və üsulları da daha çox konkret tarixi şəraitlə şərtlənirdi. Baxmayaraq ki, tədqiqatçıların təsdiq etdiyi kimi, Nadir şah səfərbərlik məsələlərində də yeniliklər etməyə meyl göstərirdi, bununla belə, səfərbərlik məsələlərinin həllində tarixi təcrübə və ənənəçilik elementləri az deyildi.

Hər şeydən əvvəl Nadir şah dövrünün səfərbərlik məsələlərində mərkəzləşdirilmiş və ərazi prinsipləri mövcud idi. Mərkəzləşdirilmiş səfərbərliyin aparılması Nadir şahın komandanlığı altında olan dövlət qoşunlarının komplektləşdirilməsi məqsədilə bütün ölkə ərazisində aparılırdı. Bu səfərbərlik Nadir şahın əmri ilə həyata keçirilirdi.

Ərazi səfərbərliyi isə vilayət hakimlərinin tabeliyində olan qoşunların komplektləşdirilməsi üçün vilayət əhalisi arasında aparılırdı. Vilayətdə toplanan qoşun dəstəsi vilayət hakiminin rəhbərliyi altında olurdu və təyinatı da daha çox vilayət miqyasında olan tapşırıqların həlli ilə bağlı idi. Bu səfərbərlik əsasən vilayət hakimlərinin göstərişi əsasında aparılırdı. Amma nəzərə almaq lazımdır ki, ərazi səfərbərliyi əsasında toplanmış qoşun dəstəsi Nadir şahın əmri ilə dövlət qoşunlarının tərkibinə qatıla bilərdi. Yuxarıda danışılanlardan da aydındır ki, Nadir şah bir çox döyüşlərin və hərbi yürüşlərin keçirilməsinə

müxtəlif vilayətlərin hakimlərinin tabeçiliyində olan qoşun dəstələrini cəlb etmişdi. Bundan başqa bu və ya digər vilayətlərin qarnizonlarının möhkəmləndirilməsi üçün ərazi səfərbərliyi Nadir şahın göstərişi ilə də aparıla bilərdi.

Nadir şah qoşunları üçün səfərbərlik aparılmasında mövsümilik yox idi. Səfərbərlik ilin, ayın istənilən vaxtı aparıla bilərdi. Onun aparılması ilin müxtəlif vaxtlarında hərbi təyinatlı tapşırıqların icra edilməsi üçün qoşunlara olan zərurətlə bağlı idi.

Mənbələrdə göstərilməsə də hər halda səfərbərliyin aparılması üçün müəyyən bir yaş senzi var idi. Mənbələrdə adətən göstərilir ki, silah tutmağı bacaranlar səfərbərliyə alınırdılar. Güman etmək olar ki, yeniyetmə yaşlı gənclərdən başlayaraq 45-50 yaşa qədər kişilər səfərbərliyə cəlb edilə bilərdilər. Çünki 45-50 yaşlarında olan kişilər də kifayət qədər güclü fiziki keyfiyyətlərə malik idilər.

Nadir şahın qoşunu döyüşgən və qeyri-döyüşgən (xidməti) hissədən ibarət idi. Bu hissələrin hər birinə səfərbərlik fərqli şəkildə aparılırdı. Adətən səfərbərlikdən danışanda əsasən döyüşgən qoşunlara aparılan səfərbərlik nəzərdə tutulur. Qeyri-döyüşgən heyət isə döyüşçülərin qulluqçularından, xidmətçilərdən və ordubazardan ibarət idi. Bu qulluqçular və xidmətçilər qarşılıqlı razılaşma və muzdlu əsasda döyüşçülər tərəfindən seçilirdi. Hərbi yürüşlər zamanı ələ keçirilmiş əsirlər də qulluqçu və xidmətçilər sırasına daxil edilə bilərdilər. Xidmətçi heyəti döyüşdə iştirak etmədiyindən onların döyüş vərdişlərinə və yüksək fiziki keyfiyyətlərə malik olub-olmamasına elə də fikir verilmirdi. Bununla belə, onların uzun müddətli səfərlərə tab gətirmələri arzu edilən idi. Yuxarıda qeyd edildiyi kimi, xidmətçi heyətin say tərkibi döyüşgən heyətin say tərkibindən bir qayda olaraq çox olurdu. Hər bir döyüşçünün adətən 7-8 xidmətçisi olurdu. Ona görə belə böyük sayda olan xidmətçi dəstəsinin komplektləşdirilməsi də müəyyən diqqət tələb edirdi.

Ordubazara gəlincə isə bu heyət könüllülük əsasında toplanmış ticarət kontingenti idi. Bu heyət qoşun rəhbərliyinin razılığı əsasında öz bizneslərini aparmaq üçün qoşunlara qoşulurdular. Hər bir böyük qoşun strukturunun rəhbəri ordubazarın toplanmasında maraqlı idi və sözsüz ki, bu kontingentin formalaşdırılması istiqamətində müəyyən bir siyasət izlənilirdi.

Nadir şah qoşunlarına səfərbərliyin aparılmasında dini və milli ayrı-seçkiliyə fərq qoyulmurdu. Məlumdur ki, Nadir şah qoşunlarında türk və fars tayfalarından başqa ərəblər, lurlar, beluclar, bəxtiyarilər, əfqanlar və s. müsəlman tayfalarının nümayəndələri xidmət edirdilər.

Məzhəb mənsubluğu baxımından isə gürcülərdən və hindlilərdən ibarət qoşun dəstələri də Nadir şahın qoşunlarında xidmət edirdi. Avropadan olan ayrı-ayrı mütəxəssislərin də Nadir şah qoşunlarında xidmət etməsi məlumdur. Digər məzhəblərə aid olan heyətin daxili xidmət rejimində hansı fərqli dəyişikliklərin olması barədə mənbələrdə elə bir məlumata rast gəlmək mümkün deyildir.

Nadir şah qoşunlarına səfərbərliyin həyata keçirilməsinə məsul olan ayrıca formalaşmış bir aparat yox idi. Amma belə bir aparatın ayrı-ayrı elementləri əlbətdə ki, mövcud idi.Yuxarıda adı çəkilən ləşgərnevislər səfərbərlik işlərinin müəyyən bir sahəsinə məsuliyyət daşıyırdı. Onlar səfərbərliyin qeydiyyatını aparırdılar, səfərbərlik yolu ilə qoşunlara qatılan kontingentin siyahısı onlar tərəfindən tərtib edilirdi.Ləşgərnevislər vilayət hakimlərinin yanında da mövcud idilər. Qalan hallarda isə səfərbərliklə bağlı olan məsələlər daha çox cari tapşırıqlar şəklində icra olunurdu. Mənbələrdən aydın olur ki, Nadir şah səfərbərlik zamanı yeni heyətin seçilməsinə diqqət yetirirdi. Məsələn, “Aləm Ara-ye Naderi”də bildirilir ki, Osmanlı qüvvələri ilə ilk qarşılaşma ərəfəsində Həmədanda olan Nadir yeni səfərbərliyin aparılmasına göstəriş verdi. Bunun nəticəsi kimi çoxlu sayda yeni kontingent toplandı. Nadir onların arasından 36 min nəfər süvari seçdi və onları Kermanşaha göndərdi (110).

Deməli, səfərbərlik əsasında toplanan kontingent arasında seçmə işləri aparan müəyyən şəxslər var idi. Həmin şəxslərə bu iş müvəqqəti bir iş kimi də tapşırıla bilərdi Bununla belə, səfərbərlik zamanı müəyyən müayinənin aparıldığını da söyləmək mümkündür. Çünki, qoşunlara fiziki cəhətdən sağlam olan insanlar cəlb edilirdilər.

Səfərbərliyin aparılması üçün Nadir şah vilayət hakimlərinə və ayrı-ayrı şəxslərə konkret tapşırıqlar verə bilərdi. Bu halda həmin şəxslərin qarşısında konkret vəzifələr müəyyənləşdirilir və onlardan hesabat tələb edilirdi. Mənbələrdə belə konkret tapşırıqlar alan şəxslərin tələb olunan sayda qoşun toplamaları haqqında məlumatlar mövcuddur (111). Heç şübhəsiz ki, Nadir şahdan səfərbərlik tapşırığı alan yerli hakimlər müəyyən şəxsləri qoşun dəstələrinin müşayiəti ilə yaşayış məntəqələrinə göndərir və göstərilən say toplanana kimi yaşayış məntəqələrində səfərbərlik aparılırdı.

Tədqiqatçılar səfərbərlik işlərinin aparılmasına da Nadir şah tərəfindən müəyyən yeniliklərin gətirildiyini bildirirlər. Həmin yeniliklərdən biri Nadir şah qoşunlarında könüllülərin toplanmasına yer verilməsi idi. Nadir şah cavanlıq illərində əlinə qılınc aldığı vaxtlarda da onun ətrafına toplananlar həmfikirləri və onun yolunu davam etdir-

məyə hazır olanlar idi. Nadirin igidliyi və uğurları haqqında ətrafa söz yayıldıqca ona qoşulanların sayı da artdı. Nadir şah taxt-taca yiyələnəndən sonra onun qoşunlarına könüllü şəkildə qoşulanlar az deyildi (112). Bu məqamla bağlı mənbələrdə də müəyyən məlumatlara rast gəlmək mümkündür. “Aləm Ara-ye Naderi”də bildirilir ki, Nadir şahın Hindistana yürüşü zamanı bir sıra tayfalar ona öz ehtiramını bildirdilər və bu tayfaların üzvləri Nadir şahın qoşunlarına qoşuldular (113).

Bəndər-Abbasda qərarlaşan xarici şirkətlərin nümayəndələrinin birinin məlumatında qeyd olunur ki, səfərbərlik üçün həmin şəhərə göndərilmiş bir minbaşı Nadir şah qoşunlarında xidmət etməyə hazır olan 800 könüllü ilə Şiraza yola düşdü. Həmin mənbədə əlavə olaraq o da bildirilir ki, Şirazdan daha 3 min nəfərin seçiləcəyi gözlənilirdi (114).

Könüllülərin çoxu heç şübhəsiz ki, Nadir şahın şücaətlərinin təsiri altında özünü ifadə etmək, öz potensialını nümayiş. etdirmək istəyənlər idi. Amma Nadir şah qoşunlarına eyni zamanda döyüşçülərə verilən yaxşı təminata görə qoşulanlar da var idi. Çünki qoşunlarda olan təminatın kifayət qədər yüksək səviyyəsi döyüşçülərin məişət həyatının da daha yaxşı qurulması üçün bir mənbə idi.

Tədqiqatçıların da təsdiq etdiyi kimi Nadir şahın səfərbərlik işinə gətirdiyi yeniliklərdən biri də cəmiyyətin aşağı təbəqəsini təşkil edən kəndlilər və sənətkarlar arasından da qoşuna adam cəlb edilməsi idi. Bununla bağlı rus mənbələrindən birində belə bir məlumat var ki, Nadir şah Qəndəhara daxil olanda əkinçilərdən və kəndlilərdən qoşun toplanmasına və sonra da həmin qoşunun Kelata göndərilməsinə əmr verdi. Rus mənbələrində bu məqamla bağlı daha bir sıra faktlar mövcuddur(115). Yəni, Nadir şah cəmiyyətin bütün təbəqələri arasında səfərbərliyin aparılmasına nail olmuşdu.

Nadir şah dövründə səfərbərlik işlərinin aparılmasında diqqəti cəlb edən məqamlardan biri də qoşun dəstələrinin tayfa-boy prinsipi üzərində qurulması idi. Xüsusilə, Nadir şahın hakimiyyətə yiyələnməsindən əvvəl əfşar, qacar cəlayir və kürd dəstələri onun qoşunlarının əsasını təşkil edirdi.Nadir şahın taxt-taca sahib olmasından sonra da qoşun dəstələrin tayfa-boy prinsipi üzrə təşkil edilməsi aradan qaldırılmamışdı. Bu prinsipin həyata keçirilməsində tayfa başçılarının rolu xeyli böyük idi. Tayfa üzvləri arasında səfərbərliyin aparılması məhz ona tapşırılırdı. Çox vaxt elə tayfa başçıları da qoşun dəstəsinin rəhbəri seçilirdi.

Məlum olduğu kimi türk boylarından təşkil edilən dəstələr Nadir şah qoşunlarının nüvəsini təşkil edirdi. Nadir şah dərin psixoloji sarsıntılara düçar olduğu vaxta qədər bu boylar ona sədaqətli qaldılar və Nadir şahın hərbi uğurlarının qazanılmasında əvəzsiz xidmət göstərdilər.

Nadir şahın hərbi planlarının miqyası genişləndikcə digər tayfalar əsasında qoşun dəstəsinin təşkilinə diqqət artırıldı. Onların arasında bəxtiyarı, ərəb, lur və s. tayfalardan təşkil edilən dəstələr var idi.

Qoşun dəstələrinin təşkilinin tayfa əlaməti üzrə təşkil edilməsi səfərbərliyin daha asanlıqla aparılması, döyüş zamanı döyüşçülər arasında fəaliyyət yekdilliyinin yaradılması, dəstələrin idarə edilməsi üçün üstünlüklərə malik idi. Amma eyni zamanda bu dəstələr ümumi qoşun tərkibində nisbi bir muxtariyyətə malik idilər. Tayfa əlamətinə görə tərtib edilən dəstələrin bir-birinə tam şəkildə qaynayıb-qarışması, dəstələrin bir-birindən fərqlənən mənəvi-psixoloji keyfiyyətlərə malik olması müəyyən vaxtlarda tayfa maraqlarının önə çıxması onların idarə edilməsini çətinləşdirirdi.

Nadir şah qoşunlarının böyük bir hissəsini də onun işğal etdiyi ərazilərin əhalisindən toplanan qoşun dəstələri təşkil edirdi. Bu dəstələrə hind, əfqan, gürcü, türkmən, özbək, ləzgi və s. dəstələr daxil idi. Nadir şah həm qalib gəldiyi qoşunların müəyyən hissəsini öz qoşunlarına qatır, ya da qalib gəldiyi ərazilərdə yeni səfərbərliyin aparılmasına göstəriş verirdi. Nadir şah taxt-taca çıxandan əvvəl və sonra əfqanlarla bir neçə döyüş aparmışdı. Əldə etdiyi qələbələrdən sonra əfqan qoşunlarının bir hissəsi qaçıb dağılmış və bir hissəsi də Nadir şah qoşunlarına qoşulmuşdu (116).

Eyni zamanda Nadir şah əfşarlar arasında yeni səfərbərliyin aparılmasına da göstəriş vermişdi. Mənbələrdə bu və ya digər tayfalardan, millətlərdən və xalqlardan qoşun toplanması üçün çoxlu sayda faktlar mövcuddur. Məsələn, "Aləm Ara-ye Naderi"nin bir yerində bildirilir ki, Nadir şahın göstərişinə əsasən 10 gün ərzində Aral camaatından 6 minlik, qaraqalpaqlardan 6 minlik, özbəklərdən 12 minlik qoşun dəstələrinin toplanmasına başlandı (117).

Belə səfərbərlik işləri digər yerlərdə də aparılırdı.

Nadir şah qoşunlarının ümumi sayına yuxarıda toxunulmuşdu. Qoşunların hansı say tərkibinə malik olması əslində, səfərbərlik işinin hansı səviyyədə aparılmasının göstəricisi idi. C.Hanvey əsərlərinin birində yazırdı ki, 1732-ci ildə Nadir 70 min nəfərlik qoşuna malik idi (118). Tədqiqatçılar bir yerdə C.Hanveyin başqa bir əsərinə istinadən

Nadir qoşunlarının 307 min, başqa bir yerdə isə 200 min nəfər olduğunu qeyd edirlər (119).

Tədqiqatçılar konkret olaraq Nadir şah qoşunlarının aşağıdakı tərkibdə olduğunu bildirirlər:

1.Xorasan əsgərləri – 65 min nəfər;
2.İraq əsgərləri (Qum, İsfahan, Yəzd, Kerman və Bəxtiyari məntəqələri) – 45 min nəfər;
3. Fars və Xuzistan əsgərləri - 50 min nəfər;
4. Azərbaycan, Gürcüstan və Kürdüstan əsgərləri – 60 min nəfər;
5. Həmədan və Kermanşah əsgərləri – 25 min nəfər;
6. Xarəzm və Türküstan əsgərləri – 60 min nəfər;
7.Qəznə, Kabul, Lahur, Kəşmir və hind əsgərləri – 70 min nəfər (120).

Nadir şah dövrünün salnaməçilərinin yazdığına görə, Nadir şahın ölümündən sonra ölkə ərazisində aşağıdakı qoşun birləşmələri və dəstələri qalmışdı:

1.Nadir şahın qardaşı oğlu Adil şahın rəhbərliyi altında olan 75 min süvari və topçu;
2.Nadir şahın bibisi oğlu, Azərbaycanın baş sərdarı Əmiraslan xanın rəhbərliyi altında olan 30 minlik Azərbaycan süvarisi;
3.Adil şahın yaxınlarından olan İbrahim xanın rəhbərliyi altında olan 5 mindən 50 minə qədər əfqan, özbək və qızılbaş dəstəsi;
4.Azad xan əfqanın rəhbərliyi altında olan 15 min nəfərlik dəstə;
5.Məşhəddə Şahruxun rəhbərliyi altında olan 30 min nəfərlik dəstə;
6.Sərəfraz bəy Xudabəndəlinin rəhbərliyi altında olan 1000 nəfərlik Əlişgər süvarisi və 3000 nəfərlik Şahsevən süvarisi;
7.Borucərddə Kəlbəli xanın rəhbərliyi altında olan 12 min nəfərlik süvari və piyada dəstəsi;
8.Hüseynxan bəy Zəngənənin rəhbərliyi altında Kermanşahda 4500 nəfərlik dəstə;
9.Allahyar Əfqanın rəhbərliyi altında olan 8 min nəfərlik əfqan süvarisi;
10.Məhəmmədəli xan Təkəlinin rəhbərliyi altında Həmədanda 12 min nəfərlik süvari dəstəsi;
11.Kərim bəyin (Kərim xan Zənd) rəhbərliyi altında Piri və Kəmazanda 12 min nəfərlik dəstə;
12.Ərdəlan bəylərbəyi Həsənəli xanın rəhbərliyi altında olan 20 min nəfərlik qızılbaş, kürd və əfqan dəstəsi;
13.Əbdüləli xanın və Mirzə Məhəmməd Tağı Gülüstaninin rəhbərliyi altında Kermanşah ətrafında 6 min nəfərlik süvari və piyada dəstəsi;

14.Əlimərdan xanın rəhbərliyi altında sayı dəqiq bilinməyən bəxtiyari dəstəsi;
15.Məhəmməd xan Qacarın rəhbərliyi altında Astrabadda 35 min nəfərlik dəstə;
16.Əbülfət xanın rəhbərliyi altında İsfahan ətrafında 50 min nəfərlik qoşun dəstəsi (121)

Bütün bu rəqəmlər Nadir şah dövründə səfərbərlik sahəsində görülən işlərin tam statistikası olmasa da, bu istiqamətdə son dərəcə geniş miqyaslı işlərin görülməsi haqqında təsəvvür əldə etmək imkanı verir.

Nadir şah qoşunlarının yüksək döyüş hazırlığına malik bir səviyyədə saxlanmasında xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də təchizat və təminat məsələlərinin həlli edilməsi idi. Bu istiqamətdə fəaliyyətin düzgün qurulması Nadir şahın sərkərdəlik istedadının daha bir istiqaməti idi. Kütləviliyi ilə fərqlənən Nadir şah qoşunlarının tələb olunan səviyyədə təminatı həll edilməzdisə bu qoşunların böyük uğurlarından da söz açmaq mümkün olmazdı. Əksinə, qoşunların təminat və təchizatının həlli mənzərəsi heyrət və heyranlıq mövzusu ola bilər.100 minlərdən ibarət olan və sayı daim dəyişən qoşunların ən adi gündəlik tələbatının vaxtlı-vaxtında ödənməsi və daim hərəkətdə olmaqla ən çətin şəraitdə aylarla hərəkətdə olan qoşunun döyüş və iaşə təminatının davamlılığının saxlanılması təsəvvürə gələ bilməyəcək zəhmətin və təşkilatçılıq işinin nəticəsi idi.

Təchizat və təminat məsələlərinin tələb olunan səviyyədə həll edilməsini Nadir şahın hərbi uğurlarının başlıca mənbələrindən biri saymaq olar. Nadir şah ordusu konkret tarixi şəraitdə bölgənin ən təchiz edilmiş qoşunlarından biri idi. Bu isə Nadir şah qoşunlarına Osmanlı və hind qoşunları kimi hazırlıqlı qüvvələrlə üzbəüz gəlmək imkanı verdi.

Yuxarıda haqqında danışılan səfərbərlik işlərinin miqyasının genişlənməsi də əslində təminat-təchizat məsələləri ilə bağlı idi. Çünki səfərbərliyə alınan kontingent hərbi təchizatla, iaşə və maliyyə ilə təmin edilməzdisə onun qoşuna cəlb edilməsinə bir ehtiyac da qalmazdı.

Nadir şahın malik olduğu və kəmiyyət baxımından daim təkmilləşdiyi qoşunların təchizat və təminat ehtiyaclarının ödənməsi isə ölkənin iqtisadiyyatının böyük potensiala malik olmasını tələb edirdi. Heç şübhəsiz ki, ölkənin iqtisadiyyatının inkişafı Nadir şahın da maraq dairəsində idi. Amma bir tərəfdən səfəvilər hakimiyyətinin sonlarında ölkə həyatında baş verən böhran, əfqanların talançı yürüşləri, vilayətlər arasında separatçılığın güclənməsi, digər tərəfdən də elə Nadir şahın hakimiyyəti dövründə hərbi yürüşlərin davam etməsi, yer-

lərdə mərkəzi hakimiyyətə qarşı iğtişaşların baş verməsi iqtisadiyyatın ritmik inkişafına öz mənfi təsirini göstərirdi.

Küllü miqdarda məsrəf tələb edən hərbi yürüşlərin xərclərinin ödənməsi üçün Nadir şah xarici yürüşlərdə əldə etdiyi qənimətlərdən də istifadə edirdi. Amma onun qoşunlarının təchizatının və təminatının əsas mənbəyini ölkənin öz daxili potensialı təşkil edirdi.

Mənbələrdə və tarixi ədəbiyyatda Nadir şahın ölkənin iqtisadi potensialının artmasında mühüm rol oynayan ticarətə və ticarətçilərə böyük qayğı göstərməsi haqqında məlumatlar vardır. Nadirin hələ cavan yaşlarında Məşhədlə ticarət əlaqələri qurmuş Xarəzm tacirlərinin yolkəsənlər tərəfindən talan edilmiş mallarının alınıb geri qaytarılması və həmin tacirlərin Məşhədlə ticarət işlərinə sövq edilməsi üçün onlara bahalı hədiyyələr verilməsi haqqında yuxarıda danışılmışdı (122).

Nadir şahın xarici ticarət kompaniyalarının ölkə ərazisindəki fəaliyyətinə qayğı göstərməsi də məlumdur. Bu baxımdan Ost-hind ingilis ticarət kompaniyasının və holland ticarət kompaniyasının fəaliyyəti maraq doğura bilər. Bu kompaniyaların fəaliyyətinə münasibətdə müəyyən vaxtlarda müəyyən gərginliklər ortaya çıxsa da Nadir şah onların öz işini davam etdirməsində həmişə maraqlı olmuşdu.

C.Hanveyin məlumatına görə, Xivəni ələ keçirəndən sonra Nadir şah oradakı xariciləri hüzuruna gətizdirdi və onların kim olması ilə maraqlandı. Biləndə ki, bu xaricilər ticarətlə məşğuldurlar, onda Nadir şah onların hamısını azad etdi və bildirdi ki, onun ölkəsində ticarətlə azad şəkildə məşğul ola bilərlər. Nadir şah tacirlərə onu da çatdırdı ki, əgər onlara hər hansı bir ziyan yetirilərsə və həmin ziyan yerli məmurlar tərəfindən ödənilməzsə birbaşa onun özünə müraciət edə bilərlər (123).

Mövcud olan başqa bir məlumata görə, Nadir şah özü də ticarətlə məşğul olmaq istəyirmiş. Xüsusilə, yun alveri onu cəlb edibmiş. O istəyirdi ki, Kermanda toplanan yunu tacirlər vasitəsilə ölkə daxilində və xaricində satdırsın və gəlirin əsas hissəsi də ona çatsın. Amma yun alveri ilə məşğul olan daxili və xarici tacirlər əyanlar vasitəsilə Nadir şaha çatdırdılar ki, yun ticarətini öz nəzarəti altına alarsa onda həmin tacirlər müflis olacaqlar və bu da bütünlükdə Kermanın iqtisadi həyatına mənfi təsir göstərəcəkdir. Belə olanda Nadir şah öz niyyətindən əl çəkdi və ticarətin sərbəst inkişafına şərait yaratmağı qərara aldı (124). Bu faktlar Nadir şahın ölkə iqtisadiyyatının gücləndirilməsi işlərinə biganə olmadığını təsdiq edir.

C.Hanvey öz əsərlərində Nadirin təsərrüfatın inkişafına kömək göstərməsi faktlarına da toxunmuşdur. O yazırdı ki, Nadir əfqan qüvvələrini məğlub edib İsfahana ayaq basanda bu şəhərin ağır vəziyyətdə olması ilə qarşılaşdı. Əhalinin güzəranının yaxşılaşdırılması üçün şəhər ətrafındakı torpaqları əkinçilik işlərinin aparılması üçün müəyyən şəxslərə bağışladı və bildirdi ki, əldə edilən məhsulun əsas hissəsi də elə əkin işləri ilə məşğul olan şəxslərə qalacaqdır. Bundan başqa, əkinçilik və təsərrüfat alətlərinin alınması üçün müəyyən miqdarda maliyyə vəsaiti də ayırdı. Şəhər ətrafında təsərrüfatçılığın genişləndirilməsinə diqqət xeyli artdı(125).

Nadir şahın ölkə daxilində sərt vergi siyasəti var idi. Doğrudur, ağır müharibə xərcləri müəyyən halda əhalidən əlavə vergilərin toplanmasını da tələb edirdi. Amma Nadir şahın əhalidən toplanan vergilərin yüngülləşdirilməsi və ləğvi haqqında sərəncamları da olurdu. Məsələn, məlumdur ki, Hindistan yürüşündən sonra Nadir şah ölkə əhalisinin üç illik vergidən azad edilməsi haqqında sərəncam verdi. Bu sərəncam sonradan ləğv edilsə də hər halda qüvvədə qaldığı müddət ərzində əhalinin vergi yükünü yüngülləşdirdi ki, bu da təsərrüfat işlərinə təsirsiz ötüşə bilməzdi.

Nadir şah qoşunlarının fəaliyyətinin təmin edilməsi üçün bir hərbi infrastruktura da mövcud idi. Məlumdur ki, Nadir şah dövründə də böyük şəhərlər adətən qala divarları ilə əhatə olunmuşdu. Bu qalaların çoxu hələ Nadir şahdan əvvəl tikilsə də onların tələb olunan səviyyədə saxlanılması və təmiri Nadirin diqqət mərkəzində idi. Məsələn, elə əfqan qüvvələrini qovduqdan sonra İsfahanın qala divarlarının bərpa edilməsi üçün Nadir xüsusi göstəriş verdi. Sonra məlumdur ki, Qəndəhar ətrafında Nadir şah Nadirqala adlanan yeni bir qala tikdirdi. Qalalar sadəcə əhalinin sığınması üçün deyil, həm də düşmən hücumlarından mühafizə zamanı böyük əhəmiyyətə malik idi.

Heç şübhəsiz ki, hər bir qalanın daxilində qala qarnizonunun yerləşdirilməsi üçün tikililər də mövcud idi. Bu tikililər qala qarnizonunun şəxsi heyətinin, süvari və nəqliyyat heyvanlarının azuqəsinin, təchizat əşyalarının və silahlarının yerləşdirilməsi üçün nəzərdə tutulurdu. Nadir şahın bütün qoşunlarının mənzillə təmin edildiyini isə söyləmək sözsüz ki, mümkün deyildir. Konkret tarixi şəraitdə əslində, saray qarşısında belə bir vəzifə də dayanmırdı. Nadir şahın daim dəyişən və mütəmadi olaraq yürüşdə olan qoşunları səyyar mənzil təminatına malik idilər. Daha doğrusu, yürüşdə olan qoşunlar çadırlarda yerləşdirilirdi. Qoşunların səyyar mənzil təminatının həyata keçirilməsi isə çoxlu sayda çadırların olmasını tələb edirdi. Bu məsələ özlüyündə həll

edilmişdi və Nadir şahın qoşunları yürüşlər zamanı tam şəkildə çadırlarla təmin edilirdi. Eyni zamanda gecələr qurulan müvəqqəti düşərgələrin ətrafında müvəqqəti səngərlər və istehkam tikililəri salınırdı.

Nadir şahın şəxsi çadırının çox böyük ölçülərə malik olması yuxarıda qeyd edilmişdi. Müvəqqəti düşərgələrdə mənzil-düşərgənin necə yerləşdirilməsi həkim Bazen tərəfindən çəkilmiş məlum sxemda öz əksini tapmışdır. Bu səyyar mənzil-düşərgə elə qurulurdu ki, əslində o, səyyar saray-mənzili xatırladırdı. Saray həyatı üçün zəruri olan infrastruktura da çadırlarda yerləşdirilirdi.

Səyyar mənzil-düşərgənin qurulmasında böyük təcrübə əldə edilməsindən belə bir qənaətə gəlmək mümkündür ki, ölkə ərazisində qoşunların şəxsi heyəti üçün nəzərdə tutulan çadırların istehsalı da lazımi səviyyədə təşkil edilmişdi.

Yuxarıda qeyd edildiyi kimi, rabitə əlaqələrinin təmin edilməsi üçün müxtəlif tikililər qurulmuşdu. Yollar boyu həm mühafizə postları, həm də karvansaralar yaradılmışdı. Uzaq mənzillərə yürüşlərə çıxan qoşun dəstələri həmin karvansaralarda istirahət edə bilərdilər.

Nadir şah qoşunlarının silah və sursatla təminatı da yüksək səviyyədə idi. Baxmayaraq ki, qoşunların sayı daim dəyişirdi, bununla belə, onlar güclü silahlarla silahlandırılaraq döyüşlərə cəlb edilirdi. Doğrudur, Nadir şah qoşunlarında düşmən qüvvələrdən qənimət götürülmüş silah və sursatdan da istifadə edilirdi. Ancaq qoşunların silah və sursat təminatının əsasını ölkə daxili istehsal təmin edirdi. Yuxarıda Nadir şah qoşunlarında işlədilən bir sıra odlu və soyuq silahların adları çəkilmişdi. Məsələyə daha geniş yanaşılarsa mənbələr Nadir şah qoşunlarında işlədilən aşağıdakı odlu və soyuq silahların adlarını çəkirlər: top, zənburək, səfpozan, qılınc, ox, kaman, tüfəng, tapança, təbərzin, xümparə, əl xümparəsi, şotorgərdan ( yol üstünə qoyulan maneə), şişpər, mancanaq, muşək, nacaq, nizə, fəlaxən, zubin, dəbilqə, qalxan, zirehli geyim, çomaq (gürz), narincək, xəncər. Nadir şah qoşunları demək olar ki, hərb sənətinin inkişafının keçid dövründə idi. Nadir şah odlu silahların müharibədəki üstün yerini daha aydın görürdü və onlara daha geniş meydan verməyə alışırdı. Amma odlu silahların inkişafı da o səviyyədə deyildi ki, soyuq silahları tamamilə sıxışdıra bilsin. Ona görə ənənəvi soyuq silahlar və təchizat vasitələri də Nadir şah qoşunlarında qalmaqda idi və onların istehsalının təşkili də diqqət mərkəzində idi.

Nadir şah dövründə istehsal texnologiyasının mürəkkəbliyi ilə fərqlənən topların tökülməsi də mənimsənilmişdi. Məlumdur ki, Nadir şah qoşunlarında həm ağır, həm orta, həm də yüngül toplardan istifadə

olunurdu və onların hər birinin ölkə daxilində istehsal edilməsi imkanı var idi.

Nadir şahın dövründə top istehsalına və toplardan istifadəyə diqqət yenidən canlandı.Səfəvilər hakimiyyətinin son illərində topçuluq həm istehsal, həm də istifadə baxımından böhran vəziyyətinə düşmüşdü. Uğurlu döyüşlərin aparılmasında artilleriyanın malik olduğu rolu dəqiqliklə qiymətləndirən Nadir şah bu sahəyə diqqəti xeyli artırdı və hətta bu sahənin dirçəldilməsinə xarici mütəxəssislər də cəlb edildi (126).

Nadir şah dövründə top istehsalını mənimsəmiş olan usta və mütəxəssislərin yeni bir nəsli yarandı. Həmin mütəxəssislər istər stasionar, istərsə də səyyar şəkildə topların istehsalına nail olmuşdular.

Topçuluğun inkişaf etdirilməsi baxımından İsfahanda top tökmə zavodunun fəaliyyətinin canlandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Bu zavodda həm misdən, həm də bürüncdən toplar tökülürdü. İsfahan zavodunda topların hər üç növü istehsal edilirdi. Onların arasında sözsüz ki, ağır topların istehsalı öz texnologiyasının mürəkkəbliyi etibarilə fərqlənirdi. Bu topların lüləsi xeyli uzun və böyük idi. Həmin toplar 100 kiloluq mərmiləri 1000-1500 metr məsafəyə atmaqla böyük dağıdıcı qüvvəyə malik olurdular. Ağır toplar daha çox əvvəldən planlaşdırılan və hazırlıq aparılan döyüşlərdə, o cümlədən də qala döyüşlərində istifadə olunurdu (127).

Tədqiqatçılar İsfahan toptökmə zavodunun istehsal məhsuldarlığının da kifayət qədər yüksək olduğunu qeyd edirlər. Məhz bunun nəticəsi idi ki, Nadir şah qoşunlarında topların sayı xeyli çox idi.

Yuxarıda qeyd edildiyi kimi, gəmiçiliyin inkişaf etdirilməsi məqsədilə gəmiqayırma tərsanələri ilə bərabər, həm şimalda, həm də cənubda toptökmə zavodu açılmışdı. Həmin zavodlarda əsasən gəmi toplarının tökülməsi nəzərdə tutulsa da, onların açılması ölkə daxilində top istehsalı sahəsində ciddi potensialın olmasından xəbər verir.

Nadir şah dövründə topların istehsalı sahəsində əldə edilmiş mühüm uğurlardan biri onların səyyar şəraitdə istehsalına nail olunması idi. Topların və xüsusilə də ağır topların uzaq məntəqələrə nəql edilməsi həm lazımi nəqliyyat vasitələrinin olmaması, həm də mürəkkəb coğrafi şərait çətinlikləri üzündən bir çox hallarda mümkün olmurdu. Belə vaxtlarda Nadir şahın əmri ilə toptökmə texnologiyası bu və ya digər məntəqəyə daşınır və orada top istehsalı təşkil edilirdi. Bununla bağlı mənbələrdə də bir sıra məlumatlar vardır. Məsələn, Bağdad ətrafında Osmanlı qoşunları ilə müharibə başlamazdan əvvəl Nadir top-

tökmə ustalarına göstəriş verdi ki, Həmədan şəhərində 100 ədəd top istehsal etsinlər və qoşunların ixtiyarına versinlər (128).

Bundan başqa, Qəndəhar qalası mühasirəyə alınanda Nadir şah toptökmə ustalarından iki ədəd qala vuran topların tökülməsini istədi (129). Qəndəhar ətrafında ağır topların tökülməsi daha ağır şəraitdə, səhra şəraitində həyata keçirilməli olsa da ustalar Nadir şahın bu tapşırığının öhdəsindən gəldilər və sifariş olunan toplar istehsal edildilər.

Nadir şah Xarəzmə hücuma hazırlaşarkən də Mərvdə səyyar şəraitdə topların tökülməsinə göstəriş verdi. Topların tökülməsinə rəhbərliyi Nadir şah Dövlət bəy və İnayətulla bəy adlanan iki şəxsə tapşırdı və onlarla birlikdə bir neçə top və mərmi tökmə ustasını da Mərvə göndərdi.Topun və mərmilərin istehsalı üçün zəruri olan xammalın isə digər məntəqələrdən Mərvə daşınması üçün sərəncam verdi. Bununla bağlı, Fars hakimi 3000 xarvar barıt, Kerman hakimi 3000 xarvar qurğuşun, Xorasan hakimi 3000 xarvar çuqun və 3000 xarvar misi Mərvə göndərməli idilər. Metalın əridilməsi üçün zəruri olan püstə ağacının kömürü Mərvdə olmadığından onun Maruçaq və Mürğabdan gətirilməsi nəzərdə tutulmuşdu. Görülən işlərin nəticəsində qısa müddət ərzində Mərvdə 70 ədəd top və xümparə, 1400 ədəd isə mərmi istehsal edildi (130).

Nadir şah dövrünün tüfəng və barıt istehsalı da yüksək səviyyədə təşkil olunmuşdu. Tüfəng istehsal edən zavodlar "Qurxanə" adlanırdı. Bu zavodda Nadir şah qoşunlarında istifadə olunan tüfənglər istehsal olunurdu. Mövcud olan məlumatlara görə, tüfəng zavodunda gündə 15 ədəd tüfəng istehsal olunurdu. Hindistana yürüşü zamanı fitilli tüfənglərin səmərəliliyini görəndən sonra Nadir şah həmin tüfənglərin istehsalının artırılmasına göstəriş verdi. Bu tüfənglər lüləsinin ağzından doldurulurdu. Tüfəng atəşinin ardıcıl sürətinə nail olmaq üçün tüfəngdarlara köməkçilər verilmişdi. Tüfəngdar bir tüfəngdən atəş açdığı vaxt onun digər tüfəngi köməkçisi tərəfindən doldurulub atəşə hazırlanırdı (131).

Nadir şah dövründə barıtxanaların fəaliyyəti də lazımi səviyyədə qurulmuşdu. Artilleriyanın, tüfənglərin və partladıcı əşyaların işlədilməsi üçün gərəkli olan barıt ölkə ərazisində istehsal olunurdu. Tədqiqatçıların qənaətinə görə, Nadir şah dövründə barıtın istehsalı xeyli ucuz başa gəlirdi və onun istehsalı üçün müxtəlif binaların zirzəmilərindən istifadə olunurdu (132).

Topların, atıcı silahların və sursatın saxlanması və bölüşdürülməsi üçün Nadir şahın əmri ilə iki topxana mərkəzi yaradılmışdı. Bu topxa-

na mərkəzləri əslində, Nadir şah qoşunlarının mərkəzi anbarları sayılırdı.Onlardan biri Kermanşahda, digəri isə Mərvdə idi. Bu topxana mərkəzləri ölkənin müxtəlif istiqamətlərində idi. Kermanşahda yaradılmış mərkəz qərb istiqamətində aparıla biləcək döyüşlərin təminatı üçün nəzərdə tutulmuşdu. Mərvdə olan mərkəz isə ölkənin şimalında və şimal-şərqində olan qoşun dəstələrinin təchiz edilməsi üçün idi. Kermanşah mərkəzi daha böyük mərkəz sayılırdı və mənbələrin verdiyi məlumata görə, Nadir şahın ölümündən sonra Kermanşah mərkəzində aşağıdakı silah və sursat qalmışdı: 1500 ədəd böyük, orta və kiçik top və badlic, 600 ədəd böyük xümparə, 6 min xarvar barıt və s. (133).

Bu sadalananlar yalnız Nadir şahın ölümündən sonra mərkəzdə tapılan silah və sursat idi. Nadir şahın fəal döyüşlər dövründə isə bu mərkəzdə sözsüz ki, daha çox sayda silah və sursat var idi. Kermanşahdakı mərkəzin ehtiyatlarının artırılması üçün həmin məntəqədə top və xümparə istehsalı müəssisəsi də yaradılmışdı.

Mərvdəki mərkəz isə Xorəzm və Türküstana yürüş ərəfəsində yaradılmışdı. Mövcud olan məlumatlara görə, həmin yürüş başa vurulandan sonra Mərv mərkəzində aşağıdakı silah, sursat və onların istehsalı üçün gərəkli olan xammal qalmışdı: 400 xarvar qurğuşun, barıt və digər xammal, mindən artıq top mərmisi və çoxlu sayda xümparə mərmisi. Mərv mərkəzində Xorasan çuqunundan mərmi istehsal edən qurğu da fəaliyyət göstərirdi (134).

Nadir şah qoşunlarının istifadəsində olan soyuq silahların və müdafiə təchizatının istehsalı da ölkə daxilində mənimsənilmişdi. Mənbələrdə bu silahların istehsal mərkəzləri haqqında geniş məlumatla rastlaşmaq çətindir. Çox güman ki, odlu silahlardan fərqli olaraq soyuq silahların istehsalı mərkəzləşdirilmiş şəkildə deyil, bütün ölkə ərazisinə yayılmış emalatxana və dəmirçixanalarda pərakəndə şəkildə istehsal edilirdi.

Nadir şah qoşunlarının odlu silahlarla təchizatı mərkəzləşdirilmiş şəkildə aparılırdı. Yəni, sarayın nəzarəti altında olan müəssisələrdə istehsal olunan silah və sursat Nadir şahın sərəncamı ilə qoşunlara, ya da əvvəlcə anbarlara, oradan isə qoşun dəstələrinə bölüşdürülürdü. Soyuq silahlarla təminata gəlincə isə bu, həm mərkəzləşdirilmiş, həm məhəlli, həm də fərdi qaydada aparılırdı. Məhəlli qaydada təminat yerli hakimlər tərəfindən toplanan qoşun dəstələrinin yerlərdə mümkün təminatının aparılması ilə əldə edilirdi. Hər bir vilayət hakiminin, tayfa başçısının tabeliyində olan hərbi qüvvə yerli imkanlar hesabına təchiz olunurdu. Təchizat və təminat işinin

müəyyən elementlərinə isə döyüşçülər fərqli qaydada yanaşırdılar. Onlar atlarının özləri ilə qoşuna gətirə bilərdilər (belə atların dəyəri çox halda saray tərəfindən ödənilirdi), şəxsi təchizat əşyaları isə bazardan, o cümlədən ordubazardan alına bilərdi.

Soyuq silah və təchizat, habelə digər zəruri əşyaların ehtiyatlarının artırılması üçün Nadir şah bir çox hallarda yerlərə öz nümayəndələrini göndərir və onların rəhbərliyi altında yerlərdə tədarük işlərinin aparılmasını tapşırırdı (135).

Yerlərdə aparılan tədarük işlərinə azuqənin toplanması da daxil idi. Qoşunların azuqə ilə, yük və nəqliyyat heyvanlarının yemlə təmin edilməsi son dərəcə geniş miqyaslı və gündəlik həyata keçirilməsini tələb edən bir iş idi. Onun düzgün həll edilməsi bütün qoşun rəhbərliyi qarşısında dayanan əsas məsələlərdən biri idi. Tədqiqatçıların araşdırmalarında istinad edilən statistikaya görə, Nadir şah qoşunlarının sayı 70 min nəfər götürülsəydi və hər bir döyüşçü gündə ən azı 1500 qram azuqə istifadə etsəydi, gün ərzində 105 ton quru azuqəyə ehtiyac yaranardı. 40 min nəfərlik süvarinin atları və nəqliyyat heyvanları 8 kq ot, arpa, saman yesəydi onda 32 ton yem tədarükünə ehtiyac yaranardı (136).

Amma nəzərə almaq lazımdır ki, böyük saylı qoşunlarla həyata keçirilən hərbi yürüşlər aylarla davam edirdi. Ona görə qoşunların azuqəyə olan ehtiyacının miqdarı hər bir hərbi yürüş üçün son dərəcə böyük rəqəmlə ifadə olunurdu. Bununla belə, miqyasına baxmayaraq bu məsələnin mütəmadi həllinə nail olunmasaydı həmin yürüşləri həyata keçirmək mümkün olmazdı.

Mənbələrdən məlumdur ki, Nadir şah müəyyən hərbi yürüşlərə başlamazdan əvvəl bir illik və ya daha uzun müddətə ehtiyata malik olmaq barədə qoşun rəhbərlərinə göstərişlər verirdi (137). Amma bu göstərişləri verəndə Nadir şah daha çox azuqə ehtiyatlarının anbarlara toplanmasını nəzərdə tuturdu. Yəni, qoşunların hərəkət marşrutu üzərində yaradılmış azuqə və yem anbarlarına ehtiyatlar toplanırdı. Qoşunların isə böyük miqdarda azuqə və yemi özü ilə daşıması elə də asan deyildi. Nəzərə alınsa ki, bir dəvəyə 200 kiloqram, ata isə 100 kiloqram yük vurmaq mümkün idi, onda yalnız 70 minlik bir ordunun yalnız bir günlük azuqə və yem ehtiyatının daşınması üçün neçə minlərlə dəvə və atı da qoşun karvanına qoşmaq lazım gəlirdi. Ona görə Nadir şah azuqə və yem ehtiyatlarının tədarükünün daha çox yerlərdə aparılmasına çalışırdı.Yem və azuqə tədarükünün də həm mərkəzləşdirilmiş şəkildə, həm də məhəlli şəkildə aparılmasına yol verilirdi. Bir çox hallarda əhalidən toplanan vergilərin azuqə və yemlə əvəz-

lənməsinə də təsadüf edilirdi. Mərkəzi anbarlara toplanan ərzaq və yem ehtiyatları ilə daimi əsasda saxlanılan qoşunlar təmin edilir və digər qoşun dəstələrinin təminatına istiqamətləndirilirdi. Eyni zamanda qoşunların hərəkət marşrutu boyunca yerli hakimlərə ərzaq və yem toplanması göstərişi verilirdi. Yerli hakimlərin ixtiyarında olan qoşun dəstələri də ki, aydındır ki, yerli ehtiyatlar hesabına təmin edilirdi.

Ərzaq və yem təminatının təşkilinin asanlaşdırılması üçün Nadir şah qoşun dəstələrinin özünə də müstəqillik vermişdi. Qoşun dəstələrinin rəhbərliyi tabeliyində olan döyüşçülərin ərzaqla təmin edilməsi məsuliyyətini də öz üzərinə götürməli idilər.

Hər halda qoşunların daimi ərzaq və yem təminatına nail olmaq üçün artıq müəyyən bir təcrübə də toplanmışdı. Belə ki, böyük qoşun dəstələrinin tərkibində "pişxanə" adlanan bir struktur var idi və həmin struktur azuqə və yemin toplanması ilə məşğul idi. Pişxanə eyni zamanda qoşun dəstəsinin mənzil-düşərgəsinin təsis edilməsinə məsul idi. Bu strukturun qoşun dəstəsinin hərəkət düzülüşündə özünəməxsus yeri var idi və adətən, irəliyə göndərilmiş kəşfiyyatçılardan sonra hərəkət edirdi (138).

Pişxanələrin yaradılması qoşunların təminatının asanlaşdırılmasında rolu böyük idi. Əgər əvvəllər qoşun vahidləri və döyüşçülər ayrı-ayrılıqda azuqə ehtiyaclarını aradan qaldırılmalı idisə və bu da əhalinin kütləvi narazılığının artmasına səbəb olurdusa, pişxanələr artıq müəyyənləşdirilmiş müəyyən normalar çərçivəsində azuqə və yemi özü toplayır və bununla da döyüşçülərin ehtiyaclarını ödəyirdilər. Pişxanə qoşun dəstəsinin əsas hissəsindən irəlidə getməklə hərəkət marşrutunun sağ və sol istiqamətlərindəki yaşayış məntəqələrindən ərzaq və yem toplayır, onları qoşun dəstəsinə çatdırır və ehtiyatların mühafizəsi ilə məşğul olurdu. Mənbələrdə "syursatçı" sözünün (azuqə toplayan) rast gəlinməsi də qoşunlarda azuqə toplanmasının xüsusi şəxslərə və strukturlara həvalə olunmasını göstərir. Amma toplanan azuqənin mərkəzləşdirilmiş şəkildə hazırlanıb-hazırlanmamasını söyləmək çətindir. Çox güman ki, azuqə döyüşçülərə paylanırdı və onun hazırlanması döyüşçülərin xidmətçiləri tərəfindən həyata keçirilirdi.

Nadir şah qoşunlarının hərəkət etdiyi heç də bütün istiqamətlərdə azuqə və yem ehtiyatları yetərincə deyildi. Belə vaxtlarda azuqə və yem ehtiyacı başqa mənbələrin ehtiyatları hesabına ödənilirdi. Məsələn, Qəndəhara doğru hərəkət edən Nadir şah qoşunları Ərğəndab çayı vadisində ərzaq qıtlığı ilə rastlaşdı. Belə olanda Nadir şah göstəriş verdi ki, Sistanda ərzaq və yem ehtiyatı toplansın və Hindistana doğru hərəkətə başlamış qoşunlara çatdırılsın. "Aləm Ara-ye Naderi"də olan

məlumata görə, Nadir şahın bu tapşırığı yerinə yetirildi və qoşunun ehtiyacını ödəyəcək azuqə Sistandan 10 min baş yük heyvanı vasitəsilə daşındı (139).

Nadir şah hərbi yürüşlər zaman adətən mənzil-düşərgəsini su mənbələrinin yaxınlığında və ərzaq ehtiyatlarının daha zəngin olduğu ərazilərdə salırdı. Bu zaman düşərgə ətrafında otlaqların olmasına da diqqət yetirilirdi. Məsələn, yuxarıda qeyd edildiyi kimi, sonuncu Dağıstan yürüşündə Nadir şah azuqə-yem qıtlığı ilə qarşılaşdığı üçün bir qədər geri çəkilib düşərgəsini Bərdə şəhəri ətrafında saldı.

Azuqə və yem ehtiyatlarının yaradılması ilə bağlı Nadir şah tərəfindən yerli hakimlərə konkret tapşırıqlar verilir, onun tərəfindən müxtəlif məntəqələrə xüsusi nümayəndələr göndərilirdi. İşğal olunan ərazilərin hakimlərinə  ərzaq toplanıb Nadir şah qoşunlarının istifadəsinə verilməsi üçün konkret normalar müəyyənləşdirilirdi. Məsələn, Dağıstan yürüşündə axıradək müqavimət göstərməyə gücü çatmayan yerli xanlar nəhayət Nadir şahın hüzuruna gəlib bağışlanmalarını xahiş etdilər. Nadir şah onları əfv etdi. Amma onlardan tələb etdi ki, qoşunun azuqəsini və yemini təmin etsinlər.Dağıstan xanları bu tələbin qarşısında bir neçə min baş qoyun və böyük miqdarda taxıl toplayıb Nadir şahın düşərgəsinə gətirdilər (140).

Nadir şah qoşunlarının böyük azuqə və yem ehtiyaclarının ödənməsi üçün müəyyən vaxtlarda zor vasitələrinə əl atılması da yaddan çıxmamalıdır. Zor tətbiq etməklə ərzaq toplanması həm Nadir şaha müqavimət göstərilən ərazilərdə bir növ cəza tədbiri kimi həyata keçirilirdi, həm də elə ölkə ərazisində həyata keçirilirdi ki, bu da əhalinin narazılığı ilə bərabər var-yoxdan çıxmasına da səbəb olurdu.

Nadir şah qoşunlarının təchizat və təminat məsələlərinin həllində ordubazarın xüsusi yeri var idi. Ordubazar hərbi yürüşlər zamanı Nadir şah qoşunlarına qoşulmuş olan səyyar ticarət dəstələri idi. Bu dəstənin qoşun daxilində ticarət aparmasına icazə verilmişdi. Müəyyən mənada hətta bu dəstə qoşun daxilində ticarət aparılmasına təşviq edilirdi.Ordubazar üzvləri, ticarətlə məşğul olan tacirlər özləri də qoşunlarla hərəkət etməkdə maraqlı idilər. Çünki çox böyük sayda olan qoşunların döyüşçüləri onlar üçün daimi müştəri idilər.

Ordubazar ənənəsi hələ səfəvilər hakimiyyəti dövründə də var idi. Amma Nadir şah bu strukturun qoşun daxilindəki fəaliyyətinə yeni bir nəfəs verdi.Ordubazar bütün qoşunlara xidmət edirdi. Eyni zamanda ayrı-ayrı qoşun dəstələrinin tərkibində də ordubazar ola bilərdi.

Ordubazara daxil olan tacirlər qısa müddətdə və ya bir neçə ay ərzində davam edəcək hərbi yürüşlər zamanı döyüşçülər üçün gərəkli

ola biləcək hər bir əşyanı alıb ehtiyat yığırdılar və hərbi səfərlər zamanı onları döyüşçülərə satırdılar. Bu bazarın işini canlandırmaqla Nadir şah bir tərəfdən qoşunların təchizat-təminat işlərinin bir hissəsinin şəxsi ticarətin üzərinə qoyurdu və müəyyən miqdar yüklərin daşınmasından qoşunları azad edirdi. Nəhayət, ehtiyac duyulan əşyaların əldə edilməsi üçün döyüşçülərin xidmətdən yayınmasının qarşısını alırdı. Ordubazar tacirləri hərəkət zamanı qarşılarına çıxan məntəqələrdə də öz ehtiyatlarını təkmilləşdirə bilirdilər. Bu zaman onların döyüşçülərin ayrı-ayrı sifarişlərini yerinə yetirmələri də istisna deyildir.

Mövcud olan məlumatlara görə, əsasən düyüdən ibarət olan gündəlik yeməkdən başqa hər şeyi ordubazardan almaq mümkün idi. Qoşunların düşərgə-mənzilində ordubazar çadırları qarovulların çadırları ilə üzbəüz yerləşdirilirdi.Ordubazar çadırları baş-başa qurulduqda təxminən 800 metr uzunluğunda olan bir ərazini əhatə edirdi. Ordubazar çadırlarının yanaşı düzülməsi isə bir növ uzun bir bazar sırası yaradırdı. Döyüşdən sonra qoşunların şəxsi heyəti burada istənilən bazarlığı edə bilirdilər.Ordubazarda yemək əşyaları da satılırdı. Bundan başqa gündəlik tələbat malları, at və heyvanlar üçün zəruri olan əşyalar, cari təmir işləri üçün zəruri olan əşyalar və s. almaq mümkün idi. Səfər yürüşlərində döyüşçü üçün gərəkli ola biləcək hər cürə əşya ordubazara çıxarılırdı. Tacirlər öz mallarını çox bahalaşdıra bilməzdilər. Nadir şah özü buna nəzarət edirdi və müəyyən hallarda satılan malların qiyməti onun göstərişi ilə müəyyənləşirdi. Ordubazara gündəlik nəzarət isə bazar darğası tərəfindən həyata keçirilirdi. Bazar darğası ordubazarda baş verənlərdən xəbərdar olurdu. Əgər hər hansı tacirdən ona şikayət edilərdisə və şikayət haqlı olardısa, darğa həmin taciri cərimə edə bilərdi. Ordubazarın icarə etdiyi çadırların icarə haqqı da darğalar tərəfindən toplanırdı.

Ordubazar daxilində hətta düyü alınıb satılması ilə məşğul olanlar da var idi. Belələri düyünün qoşunların əsas ərzaq növü olmasını yaxşı anlayırdılar və ona görə də yük heyvanları vasitəsilə ətraf məntəqələrdən düyü alınıb düşərgəyə daşınırdı və yaxşı fayda götürməklə bu düyü müştərilərə satılırdı (141).

Ordubazar tacirləri sözsüz ki, daha çox ticarət təfəkkürü ilə yaşayırdılar.Yaxşı qazanc əldə etmək üçün onlar bazar tələbatını daim izləməyə çalışdıqları kimi, bəzi hallarda da yersiz xəsisliyə yol verirdilər. Mənbələrdə bununla bağlı bir hadisəyə toxunulur. Nadir şah Xarəzmə doğru hərbi yürüşə başlayanda ordubazarın Farsdan və İraqdan olan tacirləri çoxlu miqdarda limon suyu, gül suyu və digər nəfis mallar alıb Kabul, Qəndəhar və Heratdan keçməklə Xarəzmə yollandılar və

qoşunlara qoşuldular. Baxmayaraq ki, həmin mallara qoşun daxilində tələbat böyük idi, tacirlər müəyyən müddət gözləyib sonradan mallarını daha baha qiymətə satmaq istəyirdilər. Amma qoşunlar Xarəzmdən Çarcoya tərəf irəliləyəndə su qıtlığı yarandı. Onda tacirlər məcbur olub limon və gül suyunu atlarına içirtdilər, aldıqları nəfis malları da səhralarda atıb yalnız canlarını xilas etmək barəsində düşündülər (142).

Hərbi yürüşlər zamanı hərəkət marşrutu çətin və mürəkkəb ərazilərdən keçəndə Nadir şah ordubazarı qoşunla birgə aparmırdı və tacirlərə geri qayıtmaq əmri verilirdi (143).

Nadir şah dövrünün tədqiqatçılarından biri qoşun ordubazarında 900 nəfərin olduğunu göstərirdi (144). "Aləm Ara-ye Naderi"də isə bir yerdə ordubazara 2 min nəfərin cəlb edildiyi bildirilir (145). Çox güman ki, bu rəqəmlərin heç birinin mütləqliyni qəbul etmək doğru olmazdı. Şübhə yoxdur ki, ordubazarın tərkibi qoşunun tərkibinə görə dəyişə bilərdi. Nisbətən kiçik qoşun dəstəsinə 2 min nəfərlik ordubazarı aparmağa ehtiyac olmazdı.

Amma bu məlumdur ki, ordubazarın təşkilinə müəyyən tələblər irəli sürülürdü və onun fəaliyyətinin qurulmasına Nadir şah da qayğı göstərirdi. "Aləm Ara-ye Naderi"də göstərilir ki, Nadir şah ordubazara ən azı min tümən maliyyə vəsaiti olan ticarətçilərin cəlb edilməsinə üstünlük verirdi (146). Yəni, Nadir şah istəyirdi ki, ordubazar tacirlərinin maliyyə vəsaiti o miqdarda olsun ki, satmaq üçün heç olmasa müəyyən miqdarda mal almağa gücü çatsın. Mövcud olan məlumatlara görə, Nadir şah öz fəaliyyətlərini yaxşı qurmaq üçün ordubazar tacirlərinə borc pul da verirdi (147).

Nadir şah qoşunlarının təchizat və təminatında diqqəti cəlb edən məsələlərdən biri də döyüş geyimləri idi. Bu məsələnin əhəmiyyəti onunla şərtlənirdi ki, uyğun döyüş geyimi bir tərəfdən döyüşçünü mühafizə edirdi, bir tərəfdən onun fəaliyyət çevikliyinə zəmin yaradırdı, bir tərəfdən onu iqlim dəyişmələrindən qoruyurdu və bir tərəfdən də yekcinslik etibarilə döyüşçülərdə müəyyən intizam yaradırdı. Bu sahədə əlbətdə ki, ənənəvi təcrübənin izləri də saxlanmaqda idi. Amma müəyyən yeniliklər də Nadir şah qoşunlarını zahiri cəhətdən fərqləndirirdi.

Hər şeydən əvvəl səfəvilər dövrünə aid olan ənənəvi 12 rəngli papaqdan imtina edildi. Nadir şah hələ cavanlığında başına dəridən düzəldilmiş dördkünc papaq qoyurdu və bu papağın ətrafına ağ parça dolayırdı. Belə papaqlar sonralar Nadir şah qoşunlarında kütləvi şəkildə tətbiq edilməyə başladı. Dördkünc dəri papaqlar əslində, Nadir

şah qoşunlarının baş geyimi kimi tanınırdı. Bir çox hallarda isə həmin papaqlar keçədən hazırlanırdı.

Döyüşçülərin papaqlarında müəyyən elementlərə və nişanlara da rast gəlmək olardı. Bir sıra alayların döyüşçüləri həmin alaylara mənsubluğun əlaməti olan nişanları papaqlarına sancırdılar (148).

Yuxarıda qeyd edildiyi kimi, cəzayirçilərin papaqlarından isə mən-gulələr asılırdı və papağın qarşısında da "Allah" sözü yazılırdı (149).

Nadir şahın mühafizəçilərinin bəzilərinin papaqlarında "Ya Allah", bəzilərinin papaqlarında "Ya Rəhman", bəzilərinin papaqlarında "Ya Rəhim", bəzilərinin papaqlarında "Ya Kərim", bəzilərində isə "Ya Subhan" sözləri toxunulurdu (150).

Tədqiqatçılar Nadir şah qoşunlarında eyni tipli  geyim formasının tətbiq edildiyini qeyd edirlər. Bildirilir ki, hətta yeni piyadalar da eyni forma geyirdilər, başlarına dəri papaq qoyurdular, qırmızı rəngli şalvar və göy rəngli gödəldilmiş arxalıq geyirdilər (151).

Nadir şah dövrünün tədqiqatçıları qoşunların geyim formasının təkmilləşdirilməsi, vahid formanın tətbiqi üçün Nadir şah tərəfindən müəyyən cəhdlər göstərildiyini təsdiqləyirlər.Bütünlükdə, vahid geyim formasının tətbiqinin əsas obyekti olan daxili qoşun dəstələrinin geyimi arxalıq (qəba), çarıq və dəri papaqdan ibarət idi. Dəridən hazırlanmış çarıq bağlar vasitəsilə elə bağlanıb möhkəmləndirilirdi ki, ayaqlara su keçmirdi. Kürd süvari dəstələrinin geyimində müəyyən fərqlilik olduğu bildirilir.Onlar da keçə papaq qoyur, əyinlərinə canlıq, üstündən isə arxalıq geyinirdilər.Digər tayfalardan təşkil olunmuş dəstələrdə həm papaq ətrafına dolanan parça gödək olurdu. Həm də şalvarlar elə də geniş olmurdu (152).

Müxtəlif qoşun qisimlərinin geyimlərində müəyyən fərqli elementləri də görmək olar. Məsələn, yuxarıda qeyd edildiyi kimi, zənburəkçilər başlarına yuxarıdan yarısı arxaya doğru ensizləşən papaqlar qoyurdular.Çavuşların başında ətrafına parça dolanan yaşıl papaqlar olurdu.Keşikçilər bir qayda olaraq papaqları ətrafına ağ parça dolayırdılar ki, başqalarından fərqlənsinlər.

Cəzayirçilər isə qızıl və gümüşdən hazırlanmış kəmər bağlayır, qızıl və gümüşdən hazırlanmış təchizat əşyalarına malik olur, dəridən tikilmiş arxalıq geyir, atlarının yəhərinə pələng dərisi salırdılar və s. (153).

Nadir şah döyüşçülərinin geyim formasını onların istifadə etdikləri müdafiə təchizatı tamamlayırdı. Dəbilqədən, bədənin qorunması üçün zireh geyimlərdən, o cümlədən dördayna adlanan zireh geyimdən istifadə olunurdu. Dəbilqənin ətrafından metal tor sallanırdı ki, bu da

döyüşçünün boynunu qoruyurdu. Mövcud olan məlumatlardan belə bir qənaətə gəlmək mümkündür ki, qoşunlarda tətbiq edilən vahid geyim əşyaları döyüşçülərə mərkəzləşdirilmiş şəkildə paylanırdı. Amma onların hazırlanması heç də mərkəzləşdirilmiş şəkildə aparılmırdı. Bir qayda olaraq Nadir şah tərəfindən vilayət hakimlərinə sifarişlər verilir və həmin sifarişlər əsasında geyim əşyaları toplanıb qoşunlara təqdim olunurdu. Məsələn, 1736-cı ilin martında Nadir Kerman hakiminə göstəriş verdi ki, 5000 ədəd xakəstəri rəngində olan papaq hazırlanıb qoşunlara təqdim olunsun (154).

Bundan başqa, geyim əşyalarının əhalidən toplanması və geyim əşyalarının hazırlanması üçün xəyyatların və digər sənətkarların pulsuz işlədilməsi halları da baş verirdi (155).

Nadir şahın qoşunlarının təminat və təchizat məsələlərinin əsas istiqamətlərindən biri də bu qoşunların fəaliyyətinin maliyyələşdirilməsi məsələsi idi. Bütün çətinliklərinə baxmayaraq, Nadir şahın bu istiqamətdə gördüyü işlər onun qoşunlarının da şərqin ən döyüşgən hərbi qüvvələrindən birinə çevrilməsinə şərait yaratdı.

Qoşunların düzgün maliyyələşdirilməsinin əhəmiyyətini Nadir şah bütün ciddiliyi ilə qəbul edirdi və bu məsələyə güclü qoşun hissələrinin formalaşdırılmasının bəlkə də ən əsas səbəblərindən biri kimi yanaşırdı.Bu istiqamətdə onun xüsusi siyasəti var idi və həmin siyasətin məzmunu da ondan ibarət idi ki, qoşunlar maddi baxımdan yetərincə təmin edilməli və döyüşçülərin ehtiyacları tamamilə ödənilməlidir.

Döyüşçülərinə yaxın olması, döyüşçülərin haqqının qorunması həmişə Nadir şahın diqqət mərkəzində idi. Döyüşçülərin maliyyə təminatının həllini də Nadir şah ona uğur gətirən döyüşçüsünün haqqının qorunması kimi qəbul edirdi və bu məsələdə öz prinsipiallığını həmişə nümayiş etdirirdi. Nadir şah şübhə etmirdi ki, döyüşçülərinin döyüşə tamamilə səfərbər edilməsinin səbəblərindən biri də onun özünün və ailəsinin ehtiyaclarını ödəyə biləcək maliyyə təminatına malik olmasıdır. Ona görə də Nadir şah döyüşçülərinə yüksək maaş təyin etməklə döyüşçüləri cəmiyyətin yüksək maaşla təmin edilən silkinə çevirmişdi.

Nadir şahın maliyyə məsələlərində, toplanan maliyyə vəsaitlərinin israfına və ya maliyyə vəsaitlərinin toplanmasında sui-istifadəyə yol verilməsində nə qədər ciddi olduğu əvvəlki fəsillərdə söylənilənlərdən də aydındır. Əhalidən vergi toplanmasında azacıq xətaya görə təqsirkar şəxslər həyatı ilə vidalaşmalı olurdu. Amma qoşunların maliyyələşdirilməsində Nadir şah tamamilə başqa bir xarakter nümayiş et-

dirirdi. O, qoşunların maliyyələşdirilməsində son dərəcə səxavətli idi və bu sahədə hər hansı bir qənaətə yol verilməsini yersiz bilirdi. Hətta qoşun sərkərdələri tərəfindən döyüşçülərə məvacibin çatdırılmasını da Nadir şah şəxsi nəzarəti altında saxlayırdı ki, kimsə döyüşçünün haqqını kəsməsin və döyüşçülər maliyyə təminatından narazı qalmasın.

Lakin bu heç də o demək deyildir ki, Nadir şah öz döyüşçülərini məhdudiyyətsiz şəkildə maliyyə vəsaiti ilə təmin edirdi. Nadir şah hər döyüşçüyə zəhməti miqdarında məvacib verirdi, göstərdiyi şücaət və əzmkarlığa görə isə əlavə mükafatlar və ödənclər paylayırdı.

Nadir şah qoşun döyüşçülərinə maaş verməyi saray əyanlarına maaş verməkdən daha faydalı sayırdı. O, bildirirdi ki, məmləkətin vəsaiti boş yerə saray adamlarına xərcləməkdənsə qoşunlara sərf edilməsi daha yaxşıdır (156).

Qeyd etmək lazımdır ki, Nadir şahın öz döyüşçülərinə bu münasibəti döyüşçülər tərəfindən də lazımınca qiymətləndirilirdi və bu da onlardan hərbi-mənəvi keyfiyyətlərinin formalaşmasına öz təsirini göstərirdi.

Nadir şah hələ gənclik illərində keçirdiyi döyüşlər zamanı ələ keçirdiyi qənimətləri ilk növbədə ətrafındakılar arasında bölüşdürür və ya həmin qənimət hesabına yeni təchizat vasitələri alırdı.

Nadir şah qoşunlarının şəxsi heyətinə tutduğu vəzifələrə görə aylıq maaş təyin edilmişdi. Mənbələrdə şəxsi heyətə təyin edilən aylıq məvacibin miqdarı haqqında müfəssəl məlumatla rastlaşmaq qeyri-mümkündür. Ancaq bir məqam aydındır ki, hərbçilərin aylıq məvacibi onların tutduqları vəzifələrə görə fərqlənirdi. Digər tərəfdən güman etmək olar ki, vaxt ötdükcə təyin olunmuş məvaciblərin miqdarı da dəyişirdi.

"Aləm Ara-ye Naderi" əsərinin bir yerində Nadir şah qoşunlarının adi döyüşçülərinin 12 tümən məvacibə malik olmaları xatırlanır. Elə həmin yerdə sərkərdələrə və minbaşılara min və ya beş yüz tümən və 150 tümən verildiyi və onlara Hindistan yürüşü ilə bağlı üç illik hazırlığa malik olmalarının tapşırıldığı bildirilir (157). Amma məlum olmur ki, sərkərdələrə və minbaşılara verilən bu vəsait onların üç illik məvacibi idi, yoxsa onlara verilən mükafat idi.

Mənbənin başqa bir yerində olan məlumata görə isə Nadir şah döyüşçüsünün məvacibi beş tümən idi. Mühafizəçilərin rəhbərinin məvacibi 150 tümən, yüzbaşının məvacibi 60 tümən və yasavulun məvacibi isə 50 tümən idi (158). Heç şübhəsiz ki, minbaşıların məvacibi daha artıq idi, onbaşının məvacibi isə yasavulun maaşından aşağı idi. Mənbədə o da bildirilir ki, döyüşçülərə və məvacibi az olan digər

şəxslərə ildə 10 xarvar taxıl verilirdi ki, bu da onların məvacibinin yarısı idi. Məvacibin qalan hissəsi isə onlara nağd şəklində verilə bilərdi. Adları çəkilən yuxarı vəzifəli şəxslərin məvacibinin isə üçdə biri əvəzində onlara taxıl verilir, üçdə ikisi isə nağd paylanırdı.

Bəzi hallarda qoşunları hərbi yürüşlərə daha yaxşı səfərbər etmək üçün Nadir şah qoşunların məvacibini əvvəldən paylayırdı. Yenə də elə Hindistan yürüşünün gedişində Nadir şah qoşunları iki illik məvacibi əvvəldən payladı və hətta döyüşçülərinə mükafatlar da verdi (159). Bu məqsədlə Nadir şah öz xəzinəsindən çox böyük miqdarda vəsait ayırdı və göstərdiyi səxavətlə döyüşçülərini də çox razı saldı.

Başqa bir mənbədə Hindistan yürüşünün uğurla başa çatmasından sonra Nadir şahın öz döyüşçülərinə üç aylıq maaş miqdarında vəsait payladığı bildirilir (160).

Aylıq məvacibdən başqa Nadir şah döyüşçülərinə mükafatlar da verirdi. Bu mükafatlar qoşunların və ayrı-ayrı döyüşçülərin nümayiş etdirdiyi igidlik və şücaətə, bütünlükdə isə əldə edilən uğurlu qələbələrə görə verilirdi. Yəni, mükafatlar həm fərdi qaydada, həm də kollektiv şəkildə müəyyənləşdirilirdi. Məsələn, Osmanlı qoşunları ilə aparılan müharibədə göstərdiyi igidliklərə görə Allahverdi bəy Gəraylı həm pul, həm də əmlak mükafatı aldı. Nadir şah ona 100 tümən təbrizi nağd mükafat verdi. Eyni zamanda Nadir şah ona Gəraylı məntəqəsindəki çay ətrafı torpaqları bağışladı və onu həmin məntəqəyə hakim göndərdi ki, həyatının qalan hissəsini orada yaşasın (161).

Hindistan yürüşünün başlanğıcında Qəndəhar qalasının alınmasında xüsusi əzmkarlıq və təşəbbüskarlıq nümayiş etdirmiş Molla Adına adlı birisi də Nadir şah tərəfindən çox səxavətlə mükafatlandırıldı. Nadir şah ona qiymətli daşlarla və metallarla dolu olan ağzı bağlı bir kisə bağışladı.Molla Adına həmin kisənin ağzını açanda gözlərinə inanmadı və bir anlaşılmazlıq baş verdiyini güman edib kisəni Nadir şaha qaytardı. Nadir şah isə nəinki həmin kisəni geri almadı, hətta ikinci elə bir kisəni də ona bağışladı (162).

Nadir şah bütün döyüşlərdə şücaət göstərən döyüşçülərin zəhmətini diqqətdən kənarda qoymurdu və bununla bağlı mənbələrdə çoxlu sayda faktlar mövcuddur. Əldə edilən qələbə kollektiv hünərin nəticəsi olanda isə Nadir şah əldə edilmiş qələbədə xidməti olan bütün döyüşçüləri mükafatlandırdı. Elə Qəndəhar qalasının alınmasında xüsusi xidməti olan çoxlu sayda döyüşçü müxtəlif mükafatlar aldılar. "Aləm Ara-ye Naderi"də göstərilir ki, bu uğurun əldə edilməsinə görə qəhrəmanlıq göstərənlərin hər biri şah nəvazişinə layiq görüldülər (163).

Qəndəhar qalasına hücumda xüsusi fərqlənmiş olan əbdali əfqanları dəstəsinin döyüşçülərinin hər birinə 10 tümən mükafat paylandı (164). Bu məbləğ kifayət qədər böyük məbləğ idi. Həmin məbləğ yuxarıda xatırlanan bir məlumata görə döyüşçülərin bir aylıq məvacibinə, başqa bir məlumata görə isə iki aylıq məvacibinə bərabər idi.

Bağdad ətrafında Osmanlı qoşunları ilə ilk döyüşdə əfqan dəstəsinin əldə etdiyi qənimət mükafat olaraq Nadir tərəfindən əfqan döyüşçüləri arasında bölüşdürüldü. Eyni zamanda Kərkük ətrafında uğurlu döyüşlərdən sonra əldə edilmiş qənimət də mükafat kimi qoşunlar arasında bölüşdürüldü (165).

Hər uğurlu döyüşdən sonra qoşun dəstələri Nadir şahın səxavəti ilə rastlaşırdılar. İstər mənbələr və istərsə də tədqiqatlar bir mənalı şəkildə təsdiq edirlər ki, Nadir şah qılınc vuran əllərin qədrini bilirdi və onların haqqının ödənilməsində şahlıq səxavətini də əsirgəmirdi. Nadir şah öz döyüşçülərinin xidmətinin lazımınca qiymətləndirilməsinin tərəfdarı idi. Amma bu sahədə ifrata varmağı da düzgün bilmirdi. Nadir şaha görə maliyyə vəsaiti, müharibə qənimətləri döyüşçülərin ehtiyacsız yaşamasını təmin edəcək səviyyədə olmalı idi. Onun fikrincə, asan yolla qazanılan saysız-hesabsız sərvət döyüşçünün tamamilə laqeydləşməsinə və harınlamasına gətirib çıxara bilərdi. Güclü müqavimətlə rastlaşdığı məntəqələri ələ keçirəndən sonra Nadir şah öz qoşunlarına həmin məntəqədə qənimət toplanmasına icazə verirdi. Amma bu proses nəzarət altına alınırdı. Məsələn, Dehlidə aparılan talanlar zamanı Nadir şah döyüşçülərindən biri küçədə rastlaşdığı qadının sırğasının bir tayını çıxarıb ikincisini də çıxarmaq istəyəndə carçılar tərəfindən talanların dayandırılması haqqında Nadir şahın fərmanını eşidir. Həmin döyüşçü qadının ikinci sırğasına toxunmağa cəsarət etmir. Qadının şikayəti əsasında Nadir şahın hüzuruna gətirilən bu döyüşçü şah fərmanını eşidən kimi talançılıqdan əl çəkdiyini bildirir və bununla elə Nadir şah qəzəbindən də canını qurtarır.

Hindistan yürüşündən geri qayıdarkən yolda Nadir şah qoşun daxilində yoxlama aparılmasını qərara aldı. O bilirdi ki, qoşunlar yürüş zamanı talanlarda iştirak edib çoxlu var-dövlət toplayıblar. O, nəsəqçilərə tapşırıq verdi ki, icazə verilən miqdardan əlavə döyüşçülərdə olan sərvətlər onların əllərindən alınsın və bir yerə toplansın. İcazə verilən norma isə aşağıdakı kimi idi: döyüşçü yanında 50 tümən və ya onun dəyərində olan daş-qaş, yüzbaşının yanında 200 tümən, beşyüzbaşının yanında 1000 tümən, minbaşının yanında 2 min tümən, əmirlərin və sərkərdələrin yanında 3 min tümən dəyərində pul və ya əşya saxlana bilərdi. Nadir şah onu da əmr etdi ki, atların yəhərləri, palan-

ları, kəmərləri də yaxşıca yoxlanılsın. Çünki onda belə bir məlumat var idi ki, döyüşçülər malik olduqları var-dövləti müxtəlif yerlərdə gizlədirlər Çoxları Nadir şahın qəzəbinə düçar olmamaq üçün əllərində olan qiymətli əşyaları Sind və Ətək çaylarına atdılar. Nadir şaha görə bu yoxlama sadəcə əlavə var-dövlət toplanması üçün deyil, qoşun daxilində tələbkar durumun yaradılması üçün idi (166).

Döyüşçülərə eyni zamanda döyüşlərdə qarşılaşdıqları itkilərin bərpası üçün maliyyə vəsaiti ödənirdi və ya verilən itkilərin əvəzi qaytarılırdı. Osmanlı qoşunları ilə döyüşdəki uğursuzluqdan sonra Həmədana çəkilən Nadir şah qoşunların bərpasına 200 min tümən pul ayırdı. Nəzərə alınsa ki, bir döyüşçünün maaşı 5-10 tümən arasında idi, onda qoşunların bərpasına böyük vəsaitin ayrıldığı məlum olur. Nadir şah əmr verdi ki, ağır döyüşlərdə qoşunların qarşılaşdığı bütün itkilər xəzinə hesabına artıqlaması ilə ödənilsin. Döyüşdə 10 tümənlik at itirən döyüşçüyə ikiqat dəyərində olan at bağışlandı ki, döyüşçü özünü ziyana düşmüş hesab etməsin. Baş vermiş digər itkilərin də əvəzi qaytarıldı və Nadir döyüşçülərə dəymiş itkiləri öz üzərinə götürdü (167).

Bir sıra tədqiqatçılar Nadir şah qoşunlarının ümumi büdcəsini də müəyyənləşdirməyə cəhd göstərmişlər. Amma qeyd etmək lazımdır ki, Nadir şah qoşunlarının saxlanılmasına məsrəf olunan maliyyə vəsaitinin ümumi miqdarını müəyyənləşdirmək elə də asan deyil. Əvvəla, Nadir şah qoşunlarının mütləq sayını müəyyənləşdirmək çətindir. Digər tərəfdən də hərbi qüvvələrin ümumi büdcəsi aparılan hərbi yürüşlərin və döyüşlərin sayından və davamlılığından asılı idi. İstənilən halda məlum olan odur ki, ölkədə toplanan maliyyə vəsaitinin mütləq əksəriyyəti qoşunların maliyyələşdirilməsinə istiqamətlənmişdi. Bunun nəticəsi kimi, Nadir şah qoşunları maliyyə təminatı baxımından xüsusi bir çətinliklə qarşılaşmırdı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1.Babayi, Qulam Rza Əli. Tarix-e Ərteş-e İran əz həxamənşi ta əsr-e Pəhləvi. Tehran, 1382, s.40; Cəmşidi Məhəmmədhüseyn. Məbani və əndişe-ye nezami dər İran. Tehran, 1380, s.452
2. Homayun H.T. Təhəvvolat-e qanun dər tarix-e moaser-e İran. Tehran, 1376, s.72
3. Mərvi M.K. Aləm Ara-ye Naderi. C.II, Tehran, 1384, s.762
4. Yenə orada, s. 777
5. Homayun H.T., ... s.72
6. Aləm Ara-ye Naderi, c.II, s. 789, 829
7. Homayun ... s.72
8. Aləm Ara-ye Naderi, c.II, s.838-839
9. Aləm Ara-ye Naderi, c.I, s. 303; Yenə orada, c.II, s.839
10. Semnani Pənahi. Nader şah . Baztab-e həmmase və facee-ye melli. Tehran, 1368, s.156
11. Şəbani R. Tarix-e ectemai-ye İran dər əsr-e əfşariyye. Tehran, 1371, s.151, 153
11a. Riyahi M.Ə. "Aləm Ara-ye Naderi" əsərinə müqəddimə, c.I, Tehran 1358, səh 42.
12. Quzanlı C. Tarix-e nezami-ye İran. Tehran, 1315, s.392
13. Moqtəder Q. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.168
14. Bəyani X, Tarix-e nezami-ye İran. Dövre-ye Səfəviyye. Tehran, 1353, s.78
15. Şəbani R. Tarix-e ectemai-ye ... s.162
16. Arunova M.R. , Aşrafyan K.Z. Doulət-e Nader şah. Tehran, 1352 c.147
Moqtəder Q., ... s.169; Şəbani R., ... s.164
17. Babayi Q.R., ... s.43
18. Babayi Q.R.. .. .s. 43; Moqtəder Q., ... s.168
19. Babayi Q.R., ... s.44
20. Sərdadvər Ə. Tarix-e nezami və siyasi-ye dövre-ye Nader şah. C.I, Tehran, 1378, s.166
21. Babayi Q.R., ....s.44
22. Arunova M.R., Aşrafyan K.Z. ... s.150
23. Mətufi Ə. Tarix-e çahar hezar sale-ye ərteş-e İran. Tehran, 1387, s.817

24. Амирбекова Н. Вопросы военной истории  Азербайджана в период ханств. Баку, 2004, с.32-33
25.  Tehranı M.Ş. Tarix-e Nader  şahi. Nadername. Tehran, 1349, s.345; Homayun … s.74
26. Homayun, ... s.87; Moqteder Q., ... s.169
27. Homayun ,... s.87;  Moqtəder Q.,... s.170
28. Mətufi, ... s.818
29. Aləm Ara-ye Naderi, c.I, ... s. 577, 630, 642
30.  Moqtəder Q.,
31.Aləm Ara-ye Naderi, c.I, ... s.260
32. Moqtəder Q., ... s.39
33. Larudi N., ... s.142, 148
34. Moqtəder Q., ... s.52
35. Aləm Ara-ye Naderi, c.I, ... s. 383-385
36. Homayun ... s.82; Tehrani ... s.338
37. Homayun ... s.82
38. Babayi Q.R., ... s.42; Moqtəder Q., ... s.171; Cəmşidi ... s.453
39. Homayun ... s.84
40. Babayi Q.R., ... s.42
41. Homayun ... s.85
42. Quzanlı C., ... s.394
43. Moqtəder Q. , ... s.170
44. Homayun ... s.86
45. Aləm Ara-ye Naderi, c.I, ... s.38, 137
46. Homayun ... s.86
47. Aləm Ara-ye Naderi, c.I, ... s.229;  C.II, s.747; C,III, s.917
48. Homayun .. s.86
49. Moqtəder Q., ... s.170
50. Aləm Ara-ye Naderi, c.I, ... s.138
51. Yenə orada, s.229
52. Moqtəder Q., ... s.171
53. Aləm Ara-ye Naderi, c.III, ... s.1048
54. Yenə orada, s.1195
55. Homayun ... s.86
56. Aləm Ara-ye Naderi, c.I, ... s.185
57. Moqtəder Q., ... s.169
58. Aləm Ara-ye Naderi, c.III, ... s. 1219
59. Aləm Ara-ye Naderi, c.I, ... s. 32, 122, 181
60. Yenə orada, s.142
61. Aləm Ara-ye Naderi, c.II, ... s. 722

62. Aləm Ara-ye Naderi, c.I, ... s. 122, 369
63. Aləm Ara-ye Naderi, c.III, ... s. 1039
64. Moqtəder Q., ... s.170
65. Aləm Ara-ye Naderi, c.II, ... s.486, 530
66. Sərdadvər Ə. ... s.780
67. Aləm Ara-ye Naderi, c.III, ... s. 1095
68. Aləm Ara-ye Naderi, c.I, ... s. 122, 399
69. Homayun ... s.67
70. Aləm Ara-ye Naderi, c.III, ... s. 918
71. Aləm Ara-ye Naderi, c.I, ... s.413
72. Aləm Ara-ye Naderi, c.II, ... s. 457
73. Bəyani X., ... s.86-87, 91; Homayun ... .32; Moqtəder Q., ... s.163
74. Aləm Ara-ye Naderi, c.I, ... s.388, 404; C.II... s.479, 723, 730, 732, 745
75. Homayun ... s.82
76. Aləm Ara-ye Naderi, c.I, ... s. 303
77. Aləm Ara-ye Naderi, c.II, ... s. 456
78 .Yenə orada, s456
79. Yenə orada, s.615
80. Aləm Ara-ye Naderi, c.III, ... s. 1044, 1056, 1196
81. Aləm Ara-ye Naderi, c.II, ... s. 54
82. Homayun ... s.87
83. Qodusi ... s.251
84. Flober Uilyam. Hokumət-e Nader şah. Tehran, 1386, s.146, 147
85. Sayks P. Tarix-e İran. C.II , Tehran, 1381, s.393
86. Локкарт Л. Надир шах. Баку, 2004, с. 113; Qodusi... s.352
87. Локкарт Л. Надир шах. Баку, 2004, с. 113-114
88. Semnani Pənahu ... s.272; Локкарт Л. Надир шах. Баку, 2004, с. s.114
89. Semnani P. ... s.272
90. Локкарт Л. Надир шах. Баку, 2004, с..114; Qodusi ... s.252
91. Flober U. ... s.149
92. Flober U. ... s.149; Локкарт Л. Надир шах. Баку, 2004, с.114-115
93. Локкарт Л. Надир шах. Баку, 2004, с.115; Qodusi ... s.254
94. Flober U. ... s.149
95. Yenə orada, s.151
96. Semnani P., ... s. 273
97. Flober U. ... s154-155
98. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.369

99. Moqtəder Q., ... s. 134
100. Локкарт Л. Надир шах. Баку, 2004, с.220, 221 ; Qodusi ... s.254
101. Semnani P., ... s.274
102. Локкарт Л. Надир шах. Баку, 2004, с.254; Naser Fərid. Nəqş-e ərteş dər təhəvvolat-e tarixi-ye İran. Tehran, 1383, s.78
103. Локкарт Л. Надир шах. Баку, 2004, с.255; Mətufi Ə. ... s. 799
104. Babayi Q., ... s.46
105. Локкарт Л. Надир шах. Баку, 2004, с.256; Mətufi ... s.799
106. Sayks P. ... s.393
107. Moqtəder Q., ... s.137
108. Sayks P. ... s.393
109. Yenə orada, s.394
110. Aləm Ara-ye Naderi, c.I, ... s.300
111. Aləm Ara-ye Naderi, c.I, ... s.296; Hanvey C. ... s.138; Flober U., ... s.48
112. Cəmşidi M. Məbani və tarix-e əndişe-ye nezami dər İran. Tehran, 1380, s.452
113. Aləm Ara-ye Naderi, c.II, ... s. 690
114. Şəbani R. Tarix-e ectimai-ye İran... s.225
115. Arunova M.R, Aşrafyan K.Z. ... s.145
116. Mətufi Ə. ... s.810
117. Aləm Ara-ye Naderi, c.II, ... s.818
118. Hanvey C., ... s.87
119. Naser F., ... s.76; Mətufi Ə., ... s.811
120. Cəmşidi M.h., ... s.455
121. Mətufi Ə. ... s.803
122. Aləm Ara-ye Naderi, c.I, ... s. 52, 54
123. Nader şah. Axərin keşvərqoşa-ye ... s.492
124. Flober U., ... s.112
125. Nader şah. Axərin keşvərqoşa-ye ... s.124
126. Yenə orada, s.596
127. Homayun ... s.74; Babayi ... s.44; Mətufi Ə., ... s.815
128. Aləm Ara-ye Naderi, c.I, ... s. 258
129. Aləm Ara-ye Naderi, c.II, ... s. 494
130. Mətufi Ə., ... s.815; Arunova M.R., Aşrafyan K.Z.... s.149
131. Homayun ... s.74-75; Şəbani R. Tarix-e ectimai-ye İran ... s.226
132. Şəbani R. ... s.226
133. Mətufi Ə., ...s.816
134. Arunova M.R., Aşrafyan K.Z. ... s.150

135. Aləm Ara-ye Naderi, c.I, ... s.257, 295
136. Əfrasiyabi B. Oqab-e Kelat. Tehran, 1370, s.399
137. Aləm Ara-ye Naderi, c.I, ... s. 168, 180
138. Homayun ...s.79;  Moqtəder Q., ... s.76
139. Aləm Ara-ye Naderi, c.II, ... s. 486
140. Mətufi Ə., ... s.794
141. Yenə orada, s.808-809
142. Yenə orada, s.809
143. Semnani P., ... s.231, 232
144. Flober U.. ... .113
145. Aləm Ara-ye Naderi, c.II, ... s. 481
146. Yenə orada
147. Flober U., ... s.113
148. Babayi ... s.43
149. Mətufi Ə., ... s.818
150. Flober U., ... s.106
151. Babayi ... s.43
152. Homayun .. s.76;  Quzanlı C., .. s.395
153. Aləm Ara-ye Naderi, c.II, ... s. 490
14. Flober U., ... s. 106
155. Yenə orada, s.110
156. Hanvey C... s.88
157. Aləm Ara-ye Naderi, c.II, ... s. 481
158. Yenə orada, s.615
159. Yenə orada, s.554
160. Hanvey C.. ... s.212
161. Mətufi Ə., ... s.813
162. Aləm Ara-ye Naderi, c.II, ... s.550
163. Yenə orada
164. Yenə orada, s.488
165. Aləm Ara-ye Naderi, c.I, ... s. 265, 303
166. Mətyfi Ə., ... s.790
167. Nader şah. Axərin keşvərqoşa-ye ... .317

# VII FƏSİL

# NADİR ŞAHIN XANƏDANI

## 1. Nadir şahın valideynləri və xanımları

Nadir şahın çox sevdiyi valideynləri haqqında mənbələrdə çox kəsad məlumatlar mövcuddur.Yuxarıda qeyd edildiyi kimi, bu, əslində təbii sayılmalıdır. Çünki Nadir şah Səfəvi dövlətinin ucqarlarında yerləşən kiçik bir yaşayış məntəqəsində, sadə bir əfşar ailəsində dünyaya göz açmışdı. Nadir şahın valideynləri, onun ulu əcdadları çoxları kimi adi bir həyat sürürdülər və bu ailənin yetirməsi olan Nadirin gələcəkdə böyük bir imperiyanın şahı olacağını kimsə təsəvvürünə belə gətirmirdi. Ona görə də bu ailənin tarixi münşilərin və mirzələrin diqqətindən tamamilə kənarda qalmışdı.

"Tarix-e Cahanqoşa-ye Naderi"də Nadir şahın valideynləri barəsində məlumat demək olar ki, yoxdur. "Aləm Ara-ye Naderi"də isə bu barədə müəyyən məlumatlara rast gəlmək mümkündür. Amma onların müəyyən hissəsi bir qədər rəvayət xarakteri daşıyır. Qərb müəlliflərinin əsərlərində də bir sıra məlumatlara rast gəlmək mümkündür. Həmin müəlliflərin əsərlərində bu məlumatlar təkrarlansa da, onlar əslində yoxlanılmamış məlumatlardır.

Elə Nadir şahın atası İmamqulu haqqında tarixi ədəbiyyatda ziddiyyətli məlumatlara rast gəlmək mümkündür. Bu da daha çox İmamqulunun cəmiyyətdəki mövqeyi ilə bağlı olan məlumatlardır. Avropalı müəlliflərdən Ceymz Frezer və Uilyam Kokel Nadir şahın atasının varlı-dövlətli, Kelat qalasının rəisi və əfşarlar tayfasının başçısı olduğunu bildirirlər(1).Lakin Nadirin cavanlıq həyatı ilə bağlı məlum olan faktlar bunu təsdiq etmir. Yəni, İmamqulu var-dövlət sahibi olsaydı, yəqin ki, Nadir çox cavan yaşlarından özünə dolanışıq yaratmaq fikrinə düşməzdi. Nadir şah dövrünün tədqiqatçıları da əslində belə bir qənaətdədirlər ki, Nadir şahın mənsub olduğu ailə kifayət qədər ciddi həyat sürürdü. Məsələn, Nadir şahın həyatının tədqiqatçılarından olan Əbülhüseyn Nəvai yazırdı ki, Nadir çox kasıb bir ailədən idi. Hətta şahlığa çatanda belə kasıblığın və keçmiş günlərin acılığını yaddan çıxarmamışdı (2).

Nadir şahın atasının dəri əşyalarının tikilməsi və dəvə otarması ilə məşğul olmasını söyləyənlər də vardır (3). Nadir şahın daha bir tədqiqatçısı olan M.Qodusi isə İmamqulunun maldarlıqla məşğul olduğuna toxunaraq onun məşğuliyyəti haqqında dəqiq məlumatlar olmadığını qeyd edir (4). Başqa bir tarixi əsərdə isə Nadir şahın ailəsinin digər əfşarlar kimi qoyunçuluqla, əkinçiliklə və əl sənəti ilə məşğul olmasını yazır (5).

Məhəmməd Kazım Mərvi də "Aləm Ara-ye Naderi" əsərində İmamqulunun qoyunçuluqla məşğul olduğunu təsdiqləyir.Tədqiqatçılar isə qoyunçuluqla bağlılığına görə İmamqulunu dəri əşyaların tikilməsi ilə məşğul olmasını istisna etmirlər. Ancaq M.K.Mərvinin əsərində İmamqulunun ictimai mövqeyi ilə bağlı bir məqam diqqəti cəlb edir. Müəllif Nadir şahın atasını "İmamqulu bəy" adlandırır (6). Nadir şahın atasının adının qarşısında "bəy" sözünü artırılması ilk baxışdan onun bəy həyatı yaşaması təsəvvürü yarada bilər. Amma elə bu əsərin məzmunundan açıq-aydın görünür ki, Nadir şahın ailəsi heç də bəy həyatı sürmürdü və bu ailə İmamqulunun zəhmətlə qazandığı çörəklə dolanırdı.

İmamqulunun əcdadları barəsində də mənbələrdə və tarixi ədəbiyyatda hər hansı bir məlumata rast gəlmək mümkün deyil. Məlum olan odur ki, İmamqulunun atasının, yəni, Nadirin babasının adı Nadirqulu olmuşdu. Nadirqulunun İmamquludan başqa daha iki oğlu var idi.Onların birinin adı Bektaş, digərinin isə Babur idi (7). Maraqlıdır ki, M.K.Mərvi öz əsərində İmamqulunu "bəy" adlandırsa da, onun qardaşlarını bəy adlandırmır. Bununla da belə bir qənaətə gəlmək olar ki, M.K.Mərvi ola bilsin ki, Nadir şaha ehtiram əlaməti olaraq onun atasını "bəy" adlandırmışdı.

Öz əsərində Nadir şahın ailə şəcərəsini verən L.Lokkart və Qodusi Nadirin bir əmisinin, Bektaşın olmasını göstərirlər (8). Onlar ailə şəcərəsində Baburun adını göstərməmişlər. Amma "Aləm Ara-ye Naderi"də bir neçə yerdə açıq-aydın şəkildə İmamqulunun Bektaş və Babur adlı iki qardaşının olması xatırlanır. Ola bilsin ki, İmamqulunun bacıları da olub. Hər halda mənbələrdə bu barədə bir məlumata rast gəlmək mümkün deyildir.

Nadir şah haqqındakı əsas mənbələrdə onun anasının, yəni İmamqulunun xanımının kim olması haqqında da məlumata rast gəlmək mümkün deyil. Nadir şah haqqında olan tədqiqat əsərlərindən birində onun adının Həcər olduğu bildirilir (9).

"Aləm Ara-ye Naderi" əsərində olan məlumata görə, İmamqulunun və onun iki qardaşının hər birinin 700-800 baş qoyunu və 10-15 baş atı var idi(10). Sonra əsərdə İmamqulunun malik olduğu bir sıra keyfiyyət-

lərə toxunulur. M.K.Mərvi İmamqulunu ağıllı, xoş əxlaqlı, həmişə Allah adını zikr edən bir insan kimi xarakterizə edir. Onun yazdığına görə, İmamqulu son dərəcə qonaqpərvər idi, nahar və şam yeməkləri zamanı evinə qonaq gəlməsəydi əlini süfrəyə uzatmazdı. O, kimsənin arxasınca danışmazdı, onun-bunun haqqında qeybət etməyi özünə rəva bilməzdi. Heç vaxt təkəbbürlü olmazdı, düşməninin də var-dövlətinin çoxalmasına paxıllıq etməzdi, kimsəyə də yalan danışmazdı. M.K.Mərvi onu da əlavə edir ki, İmamqulu daim dəri paltar geyinərdi, kasıb-kusuba həmişə əl tutardı və həmişə müqəddəslərin qəbirlərinin ziyarətinə gedərdi.

Oğlunun dünyaya gəlməsi ərəfəsində İmamqulu bir gün Dərgəzin Kalpuş qışlağındakı qoyunlarının yanına yollanır və bir müddət orada qalmalı olur. İmamqulu heyvandarlıqla məşğuliyyətini davam etdirməklə bərabər, burada da ibadətini unutmurdu. Ramazan ayına təsadüf edən həmin günlərin birində İmamqulu yuxuda görür ki, günəş onun yaxasından doğur və bu günəşin işığından bütün aləm nura boyanır. Ayılandan sonra yuxusunu qardaşı Bektaşa danışmaq istəsə də əvvəlcə fikrindən daşınır və güman edir ki, kimsə onun sözlərini ciddi qəbul etməyəcəkdir. Amma sonadan o, yuxusunu Bektaşa danışmalı olur. Bektaş da buna oxşar yuxu gördüyünü İmamquluya danışır. O isə yuxuda görübmüş ki, günəş onun yaxasından çıxıb aləmi nura qərq edir, sonra da onların yaşadığı məntəqədə batır (11).

İlk yuxusunu görəndən 4 gün sonra İmamqulu yenidən əvvəlkinə bənzər yuxu görür. İmamqulu gördüyü yuxuların yozulması üçün məntəqədə yaşayan mollanın yanına gedir. Kasıb həyat sürən bu molla ulduzlar haqqında az-çox məlumata malik imiş. Molla yuxunu belə yozur ki, yaxın vaxtlarda İmamqulunun ailəsində bir övlad dünyaya gələcək və həmin uşaq böyüyəndən sonra uzun illər boyu məmləkətə şahlıq edəcəkdir. İmamqulu əvvəlcə mollanın ona istehza etdiyini düşünür. Sonra onun tamamilə ciddi olduğunu görüb deyir ki, söylənilənlər doğru olarsa sən Əbivərdin şeyxülislamı olacaqsan (12).

Bu faktın təsviri müəyyən rəvayət xarakteri daşıyır və bu fakt "Aləm Ara-ye Naderi"dən başqa digər bir yerdə təkrarlanmır. Hətta tədqiqatçılar da bu rəvayət xarakterli hekayətə istinad etməmişlər və çox güman ki, bu hekayətin doğruluğuna şübhə ilə yanaşılmışdır. Bununla belə, M.Kazım Mərvi bildirir ki, İmamqulu molladan eşitdiyi sözləri kimsəyə açmır. Tezliklə onun həyat yoldaşı hamilə olur və hamiləlik vaxtı bitəndən sonra Nadir dünyaya gəlir.

Nadir şahın həyatı ilə bağlı geniş tədqiqat aparmış M.Qodusi Nadirin ailənin ikinci oğlu olduğunu, yəni, qardaşı Məhəmməd İbrahimin Nadirdən yaşca böyük olduğunu bildirir (13). M. K. Mərvi isə İbrahimin

Nadirdən sonra dünyaya gəldiyini yazır (14). Əgər M.K. Mərvinin yazdığının doğruluğunu qəbul etməli olsaq, onda Nadir ailəsinin böyük oğlu idi. Bütünlükdə, mənbələr və tarixi ədəbiyyat İmamqulunun yalnız iki oğlunun, yəni Nadirin və İbrahimin olmasını qeyd edirlər.

M.K.Mərvinin yazdıqlarından da aydın olur ki, İmamqulu, oğlu Nadiri çox sevirdi. Yuxarıda hələ İmamqulu sağ olduğu vaxt türkmən atlılarının talançı yürüşü, türkmənlərin onun atasının mal-qarasını da talan etməsi, bir çox əsirlə bərabər özləri ilə çoxlu mal-qara aparmaları və onların geri qaytarılması üçün türkmənlərlə uğurlu döyüşə girməsi haqqında danışılmışdı. İmamqulu oğlunun türkmən atlılarına qarşı döyüşə getməsi xəbərini çox böyük həyəcanla qarşılayır və onun türkmənlərlə döyüşdən salamat qayıdacağına bütün ümidini itirir. İmamqulu Nadirin türkmənlərə əsir düşə biləcəyini də istisna etmirdi. Belə bir narahat vaxtda yeni bir xəbər eşidir ki, özbək atlıları da məntəqəyə hücum edib və xeyli əsiri özləri ilə aparıblar. Bundan sonra onun qanı xüsusilə qaralır. Amma Nadirin bu döyüşdən uğurla geri qayıtdığını eşidəndə sonsuz fərəh və sevinc hissləri yaşayır. “Aləm Ara-ye Naderi”də bildirilir ki, İmamqulu Nadirin qayıtması xəbərini eşidəndə oğlunu qarşılamağa çıxır. Nadir onu qarşılayanlara yaxınlaşanda atdan düşüb baş verənləri atasına danışır (15).

M.K.Mərvi yazır ki, İmamqulu oğlu ilə görüşəndə ona belə müraciət etdi:“Ey övladım, ey gözümün nuru.Belə cavanlıq etmə və məni öz yoxluğuna mübtəla etmə. Bu camaatın şərindən ehtiyat et. Türkmən tayfası əcdadları dövründən bizimlə ədavət saxlayırlar. Allah etməsin, sənə bir xətər yetişsə sənin bu aciz atan özünü öldürər. Ey oğlum, sənin ağzından hələ süd iyi gəlir, ruzigarın enişini-yoxuşunu görməmisən, işlərin yaxşılığının və pisliyinin təcrübəsini qazanmamışsan. Bundan sonra məndən xəbərsiz və mənim razılığım olmadan heç bir iş görmə ki, mənim qəlbim incimәsin” (16).

Nadir də öz atasını çox istəyirdi. Bu istəyin nişanəsi kimi o sonradan öz övladlarından birini İmamqulu adlandırmışdı.“Aləm Ara-ye Naderi”də olan məlumata görə, Nadir hələ öz yurdunda olarkən hərbi yürüşlərdən birinə yola düşməzdən əvvəl atasının qəbri üstünə yollandı, onun ruhuna dua oxudu və sonra səfərinə davam etdi (17).

M.K.Mərvinin yazdığına görə, bir müddət sonra Əbivərd hakimi Babaəli bəy ona mənsub olan əmlakın, torpaq sahələrinin idarə edilməsini İmamquluya həvalə etdi. “Aləm Ara-ye Naderi”də olan məlumatdan belə bir qənaətə gəlmək olar ki, Əbivərd hakimi Babaəli, İmamqulunu yanında işə götürdükdən sonra Nadir ilə tanış olmuş, onun bacarığının və əzmkarlığının şahidi olmuş və ona da yanında iş təklif etmişdi.

İmamqulunun vəfatı tarixi barəsində ziddiyyətli fikirlər mövcuddur. Bəzi tarixçilər və tədqiqatçılar onun vəfat etməsini Nadirin kiçik yaşlarına təsadüf etməsini (18), bəzi tədqiqatçılar Nadirin 18 yaşında olarkən İmamqulunun vəfat etməsini(19), bəzi tədqiqatçılar isə Nadir 23 yaşında olarkən atasını itirməsini yazırlar(20). "Aləm Ara-ye Naderi"də də İmamqulunun vəfatının Nadirin 23 yaşında olduğu tarixə təsadüf etdiyi bildirilir (21). Mənbədə yazılanların doğruluğu qəbul edilərsə İmamqulu vəfat edəndə Nadir gənc bir insan idi və özbək və türkmən atlıları ilə mübarizəyə qatılacaq bir yaşda idi. Özü də İmamqulu, Babaəlinin yanında xidmət etdiyi vaxtda dünyasını dəyişmişdi. Bir daha qeyd edilməlidir ki, "Aləm Ara-ye Naderi"də yazılanların tarixiliyi qəbul edilərsə İmamqulunun da məhz 1711-ci ildə vəfat etdiyi qənaətinə gəlmək olar.

M.K.Mərvi bildirir ki, dünyasını dəyişməsi ərəfəsində İmamqulu oğlu Nadiri yanına çağırdı, hələ anadan olmazdan qabaq padşahlığa çatacağı barədə gördüyü yuxusunu ona danışdı və vəsiyyət etdi ki, hansı məqama yetişəcəyindən asılı olmayaraq Vətənini yaddan çıxarmasın. İmamqulu sonra əlavə etdi ki, əli altında olacaq fəqirlərə və imkansızlara həmişə kömək etsin, insanlara zülm etməkdən çəkinsin. İmamqulu dedi ki, zülmkarlıq çox sülalələrin hakimiyyətinə son qoyub və sənin də zülmkarlığın qurduğun dövləti zavala gətirə bilər. Sonra ondan xahiş etdi ki, qardaşı İbrahimdən öz köməklərini əsirgəməsin, axirət dünyasını qazanmağa imkan verən yaxşı əməl sahibi olsun, düşmənlərin qəddarlığından və fitnələrindən özünü qorusun, bu günün işini sabaha saxlamasın (22).

Nadir əvvəlcə atasını, sonra isə əmisi Baburu o dünyaya yola saldı. Bundan sonra onun həyatının müəyyən dövrü Əbivərd hakimi Babaəli ilə bağlıdır. Məlumdur ki, Babaəli bəy İmamqulunun ölümündən sonra Nadirin dul qalmış anasına kəbin kəsdirib. Başqa sözlə deyilsə, Babaəli bəy Nadirin atalığına çevrildi. Bəzi tədqiqatçılar və tarixçilər Babaəli bəy Kosaəhmədli ilə Nadir arasında mürəkkəb münasibətlərin olduğunu qeyd edirlər. Əslində isə, belə deyildi. Nadirlə Babaəli bəy arasında səmimi münasibətlər formalaşmışdı.

Sonradan Nadirin anasının Babaəli bəydən daha iki oğlu oldu. Onlardan birinin adı Fətəli idi. Yəni, həqiqətdə Nadirin üç qardaşı var idi. İbrahimlə Nadir anabir-atabir qardaş idilər və onların atadan ayrı daha iki qardaşları var idi. Mənbələrdə eyni zamanda Nadir şahın yaxın silahdaşları və onun etibar etdiyi şəxslər kimi Babaəli bəyin oğlanları olan Kəlbəli xanın və Lütfəli xanın adları çəkilir. Qeyd etmək lazımdır ki, Babaəli, Nadirin eyni zamanda həm qayınatası, həm də uşaqlarının babası idi. Ona görə də gənc yaşlarında Nadirin bir ailə kimi qaynayıb-

qarışdığı atalığı Babaəli bəylə sərt münasibətlərdə olması bir çox tədqiqatçılar tərəfindən heç də müdafiə edilmir.

Birinci fəsildə qeyd olunduğu kimi, Nadirlə əmisi arasında da sərt münasibətlərin formalaşdığı bildirilir. Amma söylənildiyi kimi, bu iddia da həqiqətə uyğun deyildir. Nadirlə əmisi Bektaş arasında səmimi münasibətlər var idi və həqiqətdə əmisi onun silahdaşına çevrilmişdi. Nadir ona xan titulu vermişdi. Mənbələrdə olan məlumata görə, Osmanlı qoşunları ilə ilk böyük uğursuzluğundan sonra Nadir əmisi Bektaş xanı Astrabad əyalətinin sərhədlərinin sərdarı təyin etdi və Xorasan qoşunlarının bir hissəsi ilə birlikdə onu Gilana göndərdi. Elə həmin vaxtlarda Azərbaycan hakiminin nayibi olan atalığı Babaəli bəyin oğlu Lütfəli bəyin rəhbərliyi altında qoşun dəstəsinin bir hissəsi Nadirə tabe olmaqdan imtina edib Gilan meşələrinə qaçdı. Bektaş xan bu qüvvələrin neytrallaşdırılmasında da öz xidmətlərini göstərə bildi (23).

"Tarix-e Cahanqoşa-ye Naderi"nin başqa bir yerində Bektaş xan Gilan xanı kimi təqdim olunur (24). Gilan həm yuxarıda qeyd olunan səbəbə, həm də Rusiya ilə sərhəddə olması etibarı ilə strateji əhəmiyyət kəsb edən bir bölgə idi. Ona görə Nadir inanıb etibar etdiyi Bektaş xanı bu bölgənin hakimi təyin etmişdi ki, həmin  bölgə ilə bağlı xatircəm olsun.

Tədqiqatçılar Bektaş xanın bir müddət Xorasandakı qoşun dəstəsinin rəhbəri olduğunu və ölkənin şimal-qərbində aparılan döyüşlərin uğurla başa çatdırılmasında Bektaş xanın böyük xidmətləri olduğunu qeyd edirlər (25).

Nadir şahın öz xanımlarına olan münasibəti onun xarakterinin maraqlı tərəflərindən biridir. Tədqiqatçılar onun qadınlara meylli olduğunu qeyd edirlər.Lakin onu da təsdiq edirlər ki, Nadir ənənəvi hərəmxana həyatından imtina etdi. O, qadınlara nə qədər meylli olsa belə dövlət işini, sərkərdəlik və qoşun qayğılarını hərəmxana həyatına qurban vermirdi. Nadir şahın özündən əvvəlki  bir çox şahlara məxsus olan böyük hərəmxanası, saysız-hesabsız xacələri və hərəmxana qulluqçuları da yox idi. Əslində, Nadir şah hərəmxana dəbdəbəsini yaradacaq oturaq həyat da sürmürdü. C.Hanvei onun 33 xanımının olduğunu yazır (26). Onun bu fakt başqa mənbələrdə təsdiqlənmir. C.Hanveyin bir çox iddiaları kimi onun bu faktına da tənqidi yanaşmağa dəyər. Çünki mənbələrdə onun nikahları ilə bağlı mövcud olan faktlar bir yerə toplansa Nadir şahın xanımlarının sayının az olduğu aydınlaşar. Əlbətdə, mənbələrdə öz əksini tapan nikahlardan başqa Nadir şahın digər nikahlarının olmadığını da iddia etmək olmaz.

Nadir şah öz xanımlarına adicə hərəmxana üzvləri kimi yanaşmırdı və eyş-işrət üçün hərəmxanasının genişləndirilməsinə elə də meylli de-

yildi. Onun öz xanımlarına münasibəti daha real və həyati idi. Onlarla nikah bağlanmasına və bu məsələdə şəriətin gözlənilməsinə diqqət yetirirdi.Onun nikah bağladığı xanımlardan bir çoxu həmin xanımın mənsub olduğu nəsil ilə, sülalə ilə qarşılıqlı münasibətlərin yaxşılaşdırılması istəyi ilə bağlı idi.

Nadir şah hərbi yürüşlərə yollanarkən öz xanımlarından da bəzilərini özü ilə aparardı. Mövcud olan məlumatlara görə, Nadir şah adətən iki xanımını özü ilə səfərə aparardı və onların çadırları Nadir şahın çadırı ətrafında qurulardı. Nadir şahın özünün və xanımlarının çadırları birlikdə xüsusi əhatəyə alınaraq mühafizə olunurdu.Yalnız iki xanımını özü ilə aparmaqla Nadir şah eyni zamanda bütün sərkərdələrinə də nümayiş etdirirdi ki, hərbi yürüşlər zamanı qadınlarla əylənməyə elə də aludə deyil.Hərbi yürüşlər zamanı birdən daha çox xanımını özü ilə aparan sərkərdələrindən Nadir şah heç də razı qalmazdı (27).

Nadir şahın ilk xanımı Əbivərd hakimi Babaəli bəyin böyük qızı olmuşdu. C.Hanvey gəncliyində Nadirin Babaəli bəyin qızına evlənməsi haqqında həqiqətə uyğun olmayan bir fakt təsvir etmişdir. Onun fikrincə, Nadir, Babaəli bəyin qızına aşiq olur. Amma Babaəli bəy onun istəyinin əksinə gedir və qızını ona verməkdən imtina edir. Belə olanda guya Nadir, Babaəlini qətlə yetirir və onun qızı ilə evlənir (28).

Nadir şahın həyatını öyrənən tədqiqatçılar bu faktın doğruluğunu qəbul etmirlər.Çox güman ki, Babaəli bəy yanında xidmət edən Nadirin zəhmətkeşliyini və əzmkarlığını görüb öz qızını ona vermişdi. Mənbələrdə Nadirin ilk xanımının adının nə olduğu bildirilmir. Məlum olan odur ki, Nadirin ilk xanımı, yəni Babaəlinin böyük qızı öz həyatını tez dəyişməli olmuşdu. Nadirin ilk xanımından onun böyük oğlu olan Rzaqulu Mirzə doğulmuşdu.

İlk xanımı dünyasını dəyişəndən sonra Nadir onun bacısı, yəni, Babaəlinin ikinci qızı olan Gövhərşad xanımla nikah kəsdirdi. Gövhərşadla nikah kəsdirməsi Nadirin Babaəlinin ailəsi ilə sıx bağlı olduğunu nümayiş etdirir. Gövhərşaddan Nadirin iki oğlu oldu. Bu oğlanlardan birinin adı Murtuzqulu idi. Amma o, mənbələrdə daha çox Nəsrulla Mirzə kimi tanınır. Bəzi tədqiqatçılar Murtuzqulunun tez-tez xəstələndiyi üçün adının dəyişdirildiyini qeyd edirlər. "Aləm Ara-ye Naderi" isə Nadir şahın Hindistan yürüşündə göstərdiyi şücaətə görə Murtuzqulunun adının Nəsrulla ilə əvəz edildiyini bildirir.Nadirin Gövhərşaddan olan ikinci oğlunun adı isə İmamqulu idi (29).

Nadir şahla bağlı çap olunan ailə şəcərələrində onun yalnız 4 xanımının adı göstərilmişdir. Bu şəcərələrdə xatırlananlar Babaəli bəyin iki qızı (Nadirin ilk xanımları), Şah Sultan Hüseynin qızı və Şah Təhmasi-

bin bacısı Raziyə bəyim və bir də Buxara hakimi Əbülfəz xanın qızıdır. Əbülfəz xanın da qızının adı mənbələrdə göstərilmir. Amma qeyd edildiyi kimi Nadir şahın xanımları yalnız bunlardan ibarət deyildi. Bu xanımların kimliyi barədə mənbələrdə bəzi məlumatlar mövcuddur. "Aləm Ara-ye Naderi"də olan məlumatdan aydın olur ki, Nadir hələ Şah Təhmasiblə birləşməzdən əvvəl daha bir xanımı özünə nikah etmişdi. Bu xanım Xəbuşan ətrafında yaşayan kürd Şəkərin qızı idi. Ona evlənməklə Nadir kürdlərlə münasibətlərin daha da yaxşılaşmasını istəyirdi (30).

Nadirin cavanlığında nikah bağladığı xanımlardan biri də Xəbuşan əyanlarından olan Məhəmməd Hüseyn xan Zəfəranlının bacısı idi. Məhəmməd Hüseyn xan Zəfəranlı o şəxs idi ki, bir neçə həmfikirlərinin ətrafına topladığı qoşun dəstəsinə arxalanaraq Şah Təhmasiblə birləşmək və Nadirə qarşı birgə qoşun çıxarmaq niyyətində idi. Nadir onun gözəlliyi ilə seçilən bacısının olduğunu eşitmiş və vaxtilə ona elçi də göndərmişdi. Şah Təhmasiblə əlbir olduğu üçün Nadirin dəstəsi tərəfindən mühasirədə olduğu vaxt Məhəmməd Hüseyn xan bir dəstəni bacısının yaşadığı Şirvan qalasına göndərmək istəyir. M.Hüseyn xanın məqsədi o idi ki, bacısını yanına gətirsin və onu Şah Təhmasibə nikah etdirsin. Nadir bu xəbəri eşidən kimi özü şəxsən Məhəmməd Hüseyn xanın bacısını gətirməyə gedən dəstənin qarşısına çıxır və həmin dəstəyə ağır zərbə vurur. Məhəmməd Hüseyn xanla döyüş başa çatandan sonra Nadir bir daha onun bacısına elçi göndərir.

"Aləm Ara-ye Naderi"də Nadir üçün edilən elçilik və onu nikahı barədə nisbətən geniş məlumat verilmişdir. Nadirin elçiliyi adət-ənənə üzrə keçirildi və onun dəstəsində olan nüfuzlu şəxslər Məhəmməd Hüseyn xanın yanına elçiliyə yollandılar. Əslində, Məhəmməd Hüseyn xan Zəfəralının başqa bir seçimi yox idi. Buna baxmayaraq, Nadirin elçiləri hörmət və ehtiramla qarşılandı. M.K.Mərvinin yazdığına görə, M.Hüseyn xan öz bacısını 100 nəfər kəniz, 1000 baş qoyun, 400 baş dəvə ilə Nadirin hərəminə yola saldı. M.Hüseyn xanın cehiz verdiyi dəvələr eyni zamanda bacısının cehizlik əşyaları ilə yüklənmişdi. Nadir eşidəndə ki, M.Hüseyn xanın bacısını gətirməkdədirlər, onda hərəmxanasının xanımlarını və əyanlarını onu qarşılamağa yolladı. Bildirilir ki, yeni xanımının gətirilməsi ərəfəsində Nadir əyanlarını və sərkərdələrini toplayıb o vaxta qədər ruzigarın görmədiyi bir toy məclisinin təşkil edilməsini tapşırdı (31).

Nadirin əvvəlki nikahlarının heç biri elə dəbdəbəli təşkil edilməmişdi. O vaxtlar heç Nadirin də imkanları böyük deyildi. Yeni şəraitdə Nadirin özünə belə dəbdəbəli toy etmək imkanı var idi və bu imkandan da bəhrələnməyə çalışdı.

Nadirin başına topladığı əyanlar və sərkərdələr onun tapşırığı əsasında Məşhədi çil-çıraqla bəzədilər, musiqiçiləri, xanəndələri, rəqqasları, şəbədə çıxaranları, kəndirbazları toplayıb xalqı əyləndirdilər. Şəhərin bütün küçə və meydanlarında şadyanalıq quruldu. Havalar qaralandan sonra isə şəhərdə böyük atəşfəşanlıq keçirildi, şəhərin gecəsi gündüzə çevrildi.

Şadyanalıq məclisi bir neçə gün davam etdi. Şəhərin özündə əsil bayram əhval-ruhiyyəsi yaşandı.İstər Nadir, istərsə də əyanlar tərəfindən şəhər əhalisinə yardımlar göstərildi, yemək-içmək məclisləri təşkil olundu.

14 gün davam edən şadyanalıqlardan sonra Nadirin yeni xanımı ilə nikahı kəsildi. Bu münasibətlə də yenə padşahlara layiq bir məclis quruldu və ziyafət verildi. "Aləm Ara-ye Naderi"nin yazdığına görə, belə bir məclisin sorağını heç əfsanəvi qəhrəmanlar belə eşitməmişdilər. Ziyafət və mərasimlərin sonunda Şah Təhmasib özü Nadirin əlini tutub yeni xanımın hərəminə müşayiət etdi (32).

Qeyd etmək lazımdır ki, tarixi ədəbiyyatda Məhəmməd Hüseyn xan Zəfəranlının bacısının adının Şövqü xanım olduğu bildirilir. Ondan Nadirin övladının olub-olmaması haqqında isə məlumat yoxdur.

Mənbələr Nadir şahın övladının çox olduğunu, ancaq onlardan yalnız oğlan övladlarının adlarını açıqlayırlar. Güman etmək olar ki, Nadirin Şövqü xanımdan olan uşağı qız uşağı olmuşdur və ona görə də mənbə müəlliflərinin diqqətini cəlb etməmişdir.

Nadir Mehmandust ətrafında əbdali əfqan dəstələri ilə uğurlu döyüşlər aparandan sonra Şah Təhmasib ona söz verdi ki, İsfahan azad edilən kimi böyük bacısını ona nikah etdirəcəkdir. İsfahan şəhəri gilzayi əfqanlarından azad ediləndən və bu şəhər yenidən Səfəvilərin paytaxtına çevriləndən sonra Nadir öz əyanlarından olan Mirzə Əbülqasım Kami adlı birisini Şah Təhmasibin yanına göndərdi və böyük bacısı haqqında verdiyi vədi ona xatırlatdı. Şah Təhmasib də bacısı Raziyə bəyimin Nadirlə nikahına razılıq verdi və tezliklə onların nikahı kəsildi (33).

Nadirin növbəti nikah kəsmək cəhdi Qəndəhar hakimi Sultan Hüseynin bacısı Zeynəb xatun barəsində oldu. Bu nikahın da bir siyasi məqamı var idi. Nadir Osmanlı qoşunlarına ilk böyük uğursuzluğundan sonra ölkə daxilində vəziyyətin mürəkkəbləşə biləcəyindən və yaranmış şəraitdən istifadə edərək Qəndəhar hakimi Hüseyn şahın İsfahana və ya Xorasana qoşun çəkə biləcəyindən ehtiyat edirdi. Onun Hüseyn şahdan ehtiyatlanmağa tamamilə əsası var idi. Çünki İsfahan əfqanlardan azad edildikdən sonra Hüseyn şah əfqanların qisasını almaq üçün münasib anı gözləyirdi.

Nadir Osmanlı qoşunları ilə uğursuz döyüşdən sonra Həmədana qayıdıb əyanlarını başına topladı və onlarla məşvərət etdi. Onlar da bildirdilər ki, Hüseyn şah Nadirin uğursuzluğundan xəbər tutan kimi İsfahana hücum edəcəkdir. Bu təhlükənin qarşısını almaq üçün Nadir, Hüseyn şahın bacısı Zeynəb xatuna elçi göndərmək və elçilik söz-söhbəti ilə Hüseyn şahın başını qarışdırmaq fikrində olduğunu bildirdi. Əslində isə, Osmanlı qoşunları ilə döyüşləri başa çatdırandan sonra ona qarşı qoşun çıxarmağı planlaşdırırdı (34).

Nadir elçi kimi Hüseyn şah Gilzayinin yanına elə adamı göndərmək istəyirdi ki, onun sözünə və şəxsiyyətinə ehtiram qoyulsun, dedikləri Hüseyn şah tərəfindən qəbul edilsin.Əyanları bu işin öhdəsindən gələ biləcək bir neçə şəxsin adını Nadirə açıqladılar. Nadir onların heç birini qəbul etmədi. Nəhayət, seçim qullarağası Mömin bəy Mərvinin üzərinə düşdü. Mömin bəy həm kifayət qədər şücaətli bir döyüşçü idi, həm də tədbirli danışıqları ilə çoxlarından fərqlənirdi. O eyni zamanda Nadirə sədaqətli olan bir əyan kimi də tanınırdı. Nadir bu seçimlə razılaşdı və onu yanına çağırdı.Ona çoxlu hədiyyələrlə Qəndəhara, Hüseyn şahın yanına yollanmağı, Nadirin ehtiramını ona çatdırmağı və bacısının Nadirə istəməsini tapşırdı.Nadir bildirdi ki, razılıq cavabı verilsə Mömin bəy geri qayıdıb toya hazırlıq işlərini də aparmalıdır. Mömin bəy də ona tapşırılan elçilik missiyasının həyata keçirilməsi üçün hazırlıq işlərinə başladı (35).

Nadir eyni zamanda Hüseyn şaha məktub yazdı və bildirdi ki, hələ İsfahan azad ediləndə onun bacısına elçi göndərmək istəyirmiş. Amma yaranmış şəraitdə bu niyyətini həyata keçirə bilmədi və yalnız indi Mömin bəyi elçi kimi onun hüzuruna göndərir. Nadir bu nikaha razılıq veriləcəyi təqdirdə onların arasında qardaşlıq münasibətlərinin yaranacağına, iki dövlətin bir-birinə arxa-dayaq olacağına əminliyini ifadə edirdi. Nadir göstəriş verdi ki, elçilər özləri ilə Qəndəhara yəhər və yüyəni qiymətli daşlarla bəzədilmiş 7 baş at və 10 qatar dəvə aparsınlar. Dəvələr qiymətli hədiyyələrlə və əşyalarla yüklənərək Hüseyn şahın sarayına çatdırılmalı idi (36).

Mömin bəy lazımi hazırlıq işləri görəndən sonra Qəndəhara tərəf yola düşdü. Hüseyn şah onun yaxınlaşmasını eşidəndə əmr etdi ki, adlı-sanlı sərkərdələr və əyanlar elçiləri qarşılamağa yollansınlar.Həmin əmrə müvafiq olaraq Hüseyn şahın sərkərdələri Mömin bəyi Qəndəharın 4 mənzilliyində qarşıladılar və Qəndəhara qədər müşayiət etdilər. Mömin bəy Hüseyn şahla görüşəndə Nadirin məktubunu ona təqdim etdi. Nadirin məktubu zərlərlə bəzədilmiş bir kisənin içinə qoyulmuşdu. Hüseyn şah da kisəni açmazdan əvvəl hörmət əlaməti olaraq onun üstü-

nə çoxlu qırmızı zər səpdi. Səhəri gün isə Mömin bəy gətirdiyi hədiyyələri Hüseyn şaha nümayiş etdirdi və eyni zamanda Nadirin onun bacısına evlənmək istəyini də açıqladı. Hüseyn şah elçinin söylədiklərini dinlədi və yüksək qonaqpərvərlik göstərilməsi üçün ona mehmandar təyin etdi. Hüseyn şah əyanlarına xüsusi olaraq tapşırdı ki, Mömin bəyə yaxşı qonaqpərvərlik göstərilsin və o, Qəndəhar sarayında Nadirə qarşı bəslənilən əsil münasibətdən xəbərdar olmasın (37).

Elçilərin başı qonaqlıqlara və qəbullara qarışdığı günlərdə Hüseyn şah əyanlarını yanına toplayıb onlarla məsləhətləşdi. Nadirin Osmanlı qoşunları tərəfindən məğlubiyyətə uğradılması, onun Həmədana dönərək yenidən qoşun toplaması və bir daha Osmanlı qoşunları ilə müharibəyə hazırlaşması və nəhayət bacısı üçün onun yanına elçi göndərməsi barədə məlumat verdi. Qəndəhar hakimi bu məlumatdan sonra əyanlarından hansı qərar qəbul edilməsi barədə məsləhət istədi. Məşvərətə dəvət edilmiş əyanlar içərisində kifayət qədər təcrübəyə malik olanlar və Nadirin elçi göndərməsindən razı olanlar da var idi. Həmin əyanlar söylədilər ki, Nadir ağır məğlubiyyətdən sonra çətin vəziyyətə düşübdür və Hüseyn şahın İsfahana və ya Xorasana hücumunun qarşısını almaq üçün elçilik fəndinə əl atıbdır. Onların sözlərinə görə, Hüseyn şah bəlkə də qoşun toplayıb İsfahana və ya Xorasana hücum edə bilər. Ancaq onlar belə bir plana tərəfdar olmadılar. Əyanların fikrincə, Hüseyn şah müharibəyə başlamaq niyyətinə düşərdisə, Nadirin Qəndəharda olan casusları bunu dərhal ona çatdırardılar. Bu da Hüseyn şahın xeyrinə olmazdı. Əyanların qənaətinə görə, Nadirin qoşun toplayıb yenidən Topal Osman paşa kimi bir sərkərdə ilə müharibəyə girmək istəməsi ağlasığmaz bir qərardır. Yəni, Nadir gözü baxa-baxa özünü ölümün ağzına atır. Əyanlar Hüseyn xana məsləhət bildilər ki, bir qədər səbir edib öz casuslarını Nadirin osmanlılarla yeni müharibəsi haqqında məlumat toplamaq üçün Həmədana göndərsin.Casusların gətirdiyi məlumat təhlil edildikdən sonra müvafiq qərar qəbul edilsin. Nadir qətlə yetirilsə və ya məğlub olub döyüş meydanından qaçsa Hüseyn şah nəinki bacısını verməsin, hətta yenidən Səfəvi ərazilərinə hücum edib müəyyən əraziləri ələ keçirsin. Yox, əgər Nadir qalib gəlsəydi, onda onunla sülh şəraitində yaşamağın yolları aranmalı idi (38).

Hüseyn şah və əyanları çox böyük ümidlə yaşayırdılar ki, Nadir osmanlıların qoşunları ilə növbəti döyüşündə məğlub olacaqdır. Bununla, Hüseyn şah nəinki bacısını Nadirin hərəmxanasına göndərməkdən canını qurtarar, eyni zamanda yeni Səfəvi torpaqlarının ələ keçirilməsinə yaxşı imkan yaranardı. Bu ümidlər o qədər böyük idi ki, Hüseyn şah öz casuslarını Həmədana doğru göndərməklə bərabər qoşunlarını da yürüşə

hazırlamağa başladı. Bir müddətdən sonra o öz casuslarından ilk məlumatı aldı və həmin məlumat Hüseyn şahı heç də sevindirmədi. Casusların gətirdiyi məlumatdan aydın oldu ki, Nadir növbəti döyüşdə Osmanlı qoşunlarına qalib gəlib və Bağdada doğru hərəkətə başlayıbdır. Nadirin Osmanlı qoşunları üzərində qələbəsi Hüseyn şahın planlarının pozulması demək idi. Bununla belə, o qoşunların səfər hazırlığını dayandırmadı. Nadirin yeni uğuru onun bütün arzularını alt-üst etdi. Amma yenə də İsfahana doğru hücuma başlamaq əmri verdi. Hüseyn şah Nadirin elçisi Mömin bəyi də öz tərəfinə çəkmək istədi. Mömin bəy isə həyatını xilas etmək üçün ona bəzi məsləhətlər verdi. O məsləhət bildi ki, Hüseyn şah bir neçə atlısını Nadirin yanına xidmətə göndərsin və həmin adamlar Nadir ətrafında nə baş verdiyini ona çatdırsınlar. Bundan sonra hücum etmək lazım bilinərsə, yenə hücuma hazırlıq davam etdirilsin (39).

Hüseyn şah bu məsləhəti bəyəndi. O, Nadirə məktub yazaraq bir neçə atlı ilə İsfahana göndərdi. O, məktubunda Nadiri Osmanlı qüvvələri üzərində qazandığı qələbə münasibətilə təbrik etdi. Nadir onun göndərdiyi məktubla tanış olandan sonra vəziyyətin nə yerdə olduğunu anladı və Qəndəhardan gələn çaparları döyüş meydanına yolladı. Nadirin niyyəti o idi ki, çaparlar Nadir qoşunlarının mübarizliyini öz gözləri ilə müşahidə etsinlər və sonra da gördüklərini Hüseyn şaha çatdırsınlar. Sonradan Nadir həmin elçilər vasitəsilə həm Osmanlı qoşunları üzərindəki qələbəsini Hüseyn şaha çatdırdı, həm də onu müttəfiq olmağa çağırdı. Bu müttəfiqliyin nişanəsi kimi Nadir ondan bir əfqan alayının göndərilməsini istədi. Nadir eyni zamanda tələb etdi ki, onların arasında yaranan dostluq və müttəfiqlik əlaqələrini nəzərə alaraq elçisi Mömin bəyi tezliklə geri yola salsın. Elçilər bu xahişləri Hüseyn şaha çatdıranda o, anladı ki, artıq Nadirə qarşı çıxmaq vaxtı deyil. Bir neçə gündən sonra elçi Mömin bəyi yanına çağırdı, ona çoxlu hədiyyələr verdi və yazdığı məktubunu da Nadirə çatdırmağı xahiş etdi. Hüseyn şah məktubunda bildirirdi ki, bizim aramızda artıq müttəfiqlik vardır. O ümid etdiyini bildirirdi ki, Nadir Xorasana qayıdandan sonra onlar arasında get-gəl artacaqdır. Bundan sonra Nadir hansı xahişi etsə, onu dərhal yerinə yetirməyə hazırdır (40).

Hüseyn şah məktubunu Mömin bəyə verib onu yola saldı. İki gün sonra isə Hüseyn şah fikrindən döndü və Nadirə məktub göndərməsindən peşman oldu. Onun arxasınca 300 nəfərlik bir dəstə göndərdi ki, Sistandakı dağ keçidlərindən birində Nadir elçisini haqlayıb qətlə yetirsin. Hüseyn şahın atlıları nəzərdə tutulan keçidə Mömin bəydən tez çatıb orada pusqu qurdular. Təsadüfən həmin gün baş verən güclü tufan

və qasırğaya görə Mömin bəy yolunu başqa istiqamətdən salmalı oldu və bununla həyatını da ölümdən qurtarmış oldu. Ancaq yenə də Hüseyn şah bacısının Nadirə verilməsinə razı olmadı (41).

Nadir isə öz niyyətindən dönmək fikrində deyildi və Qəndəhar ələ keçirilən zaman bu niyyətinə nail oldu. Hüseyn şah özü məcburiyyət qarşısında qalaraq Nadir şahla barışıq əldə etmək üçün bacısı Zeynəb xatunun ona verilməsinə razı oldu (42).

Hüseyn şahın bacısı ilə nikahın uzandığı vaxt ərzində Nadir şah Gürcüstan hakimi Təhmurəs xanın qızını da öz hərəmxanasına gətirdi. Bu hadisə Nadir şahın Gürcüstana səfəri zamanı baş verdi. Təhmurəs Mirzə şübhə etmirdi ki, onun qızı haqqında Nadir şah xəbər tutsa onu da öz hərəmxanasına qatacaqdır. Ona görə də o, qızını saraydan uzaqlaşdırıb kənar bir yerdə saxladı və Nadir şahın adamları arasında da qızının vəfat etməsi haqqında şayiə buraxdı. Amma Nadir şahın adamları təsadüfən səhrada Təhmurəs Mirzənin qızı ilə rastlaşdılar və onun kim olmasını müəyyənləşdirdilər. Sonra da onu Nadir şahın düşərgəsinə gətirdilər. Nadir şah qızı atasının evinə yolladı və ona nikah bağlamaq haqqındakı niyyətini də Təhmurəs Mirzəyə çatdırdı. Təhmurəs Mirzə bu istəyin qarşısında aciz qaldı və ona görə də bir neçə gündən sonra qızını Nadir şahın hərəmxanasına göndərdi (43).

Nadir şahın nikahında olan xanımlardan biri də Buxara hakimi Əbülfəz xanın qızı idi. Bu nikahın kəsdirilməsinin maraqlı bir tarixçəsi var idi. Belə ki, Buxara fəth olunandan sonra Nadir şah Əbülfəz xanı öz vəzifəsində saxladı və ona xəbər göndərdi ki, qarşılıqlı münasibətlərin daha da möhkəmləndirilməsi üçün qızlarından birini Rzaqulu Mirzəyə, o birini isə qardaşı oğlu Əliqulu xana versin. Bu xəbər elçilər vasitəsi ilə Əbülfəz xana çatdırıldı. Onun da Nadir şahın istəyinə tabe olmaqdan başqa çarəsi yox idi. Əbülfəz xanın ilkin razılığı olandan sonra elçilik mərasimi təşkil olundu və elçilik üçün Əbülfəz xanın sarayına böyük bir dəstə göndərildi. Geri qayıdan elçilər Nadir şaha çatdırdılar ki, Əbülfəz xanın kiçik qızı ağlına, kamalına, gözəlliyinə və davranışına görə böyük qızdan xeyli fərqlənir. Həmin xəbər Rzaqulu Mirzənin də qulağına çatdı. Baxmayaraq ki, onun üçün xanın böyük qızı deyiklənmişdi, Rzaqulu Mirzə kiçik qızın ona nikah etdirilməsini tələb etdi. Nadir şah oğlunun bu istəyi ilə razı olmadı. O bildirdi ki, Əbülfəz xandan böyük qızının Rzaqulu Mirzəyə verməsi istənmişdir. Bundan sonra kiçik qızın Rzaqulu Mirzəyə verilməsi haqqında onun qarşısında şərt qoyulması doğru olmazdı. Nadir şah oğlunun nəzərinə çatdırdı ki, hər iki qız eyni ata və eyni anadan olmaqla Çingiz xan nəslinin təmsilçiləridir. Bir sözlə, Nadir şah oğlunun istəyi ilə razılaşmadı (44).

Rzaqulu Mirzə də Nadir şahın qərarı ilə razılaşmadı. O da öz növbəsində bildirdi ki, əgər Əbülfəz xanın kiçik qızı ona verilməyəcəksə, onda böyük qızla evlənməyə da razı deyil. Nadir şah oğlunun bu qərarından qəzəblənsə də, nəhayətdə onu Əbülfəz xanın böyük qızı ilə evlənməyə məcbur da etmədi. Nadir şah Əbülfəz xanla olan razılaşmanın pozulmaması üçün onun böyük qızını Rzaqulu Mirzəyə deyil, özünə nikah edilməsini qərarlaşdırdı. Bununla bağlı o, yenidən öz adamlarını Əbülfəz xanın yanına göndərdi və onun razılığını aldı. Bir neçə gündən sonra isə Əbülfəz xanın böyük qızı Nadir şaha nikah edildi. Mənbələrdə Nadir şahın Əbülfəz xanın qızından Məhəmmədulla xan və Çingiz xan adlı iki oğlunun olduğu bildirilir.

Nadir şahın başqa bir nikahı Dağıstan şamxalının qızı ilə oldu. Dağıstanda baş verən qiyamların və asiliklərin yatırılması üçün bu bölgəyə qoşun çəkəndə Nadir şah əslində yerli hakimlərdən növbəti nikahının kəsilməsi üçün təklif aldı. Bölgənin liderlərindən olan Şamxal Xasbulat Nadir şahla münasibətlərin daha da yaxşılaşdırılması üçün belə bir təklif irəlin sürdü. “Aləm Ara-ye Naderi”də olan məlumata görə, Şamxal Xasbulat istəyirdi ki, Nadir şah bölgə hakimlərindən birinin qızı ilə nikah kəsdirsin. Nadir şahla görüşəndə onu da bildirdi ki, bölgə hakimlərinin biri ilə qohum olması qarşılıqlı münasibətləri daha da yaxşılaşdıra bilər.

Nadir şah bu təklifi qəbul etdi və sonra elə Şamxal Xaspoladın qızı üçün  elçi göndərdi. “Aləm Ara-ye Naderi”də bildirilir ki, Nadir şahın yaxınları Şamxalın qızının elçiliyinə padşahlara layiq çoxlu sayda qiymətli hədiyyələr apardılar. Şamxal Nadir şahın istəyi ilə razılaşdı və bununla Nadir şahın xanımlarının sayı bir nəfər də artdı (45).

M.K.Mərvi öz əsərində Nadir şahın son nikahı kimi Mosulun Osmanlı hakimi Hüseyn paşanın qızı ilə nikah kəsdirməsinə toxunur. Yuxarıda danışıldığı kimi, Nadir şah Mosulu mühasirəyə alıb osmanlıların bütün gediş-gəliş yollarını bağlayandan sonra qalanın hakimi Hüseyn paşa Osmanlı sarayından şəhərin təslim edilməsinə razılıq gələnə kimi ona möhlət verilməsini istədi. Nadir şah bu xahişlə razılaşdı və xoş niyyətin nişanəsi kimi qarşılıqlı hədiyyələr mübadiləsi aparıldı. Bu zaman Nadir şaha məlum oldu ki, Hüseyn paşanın bir qızı vardır və onu hətta Osmanlı sarayından gələn elçilərə də verməyiblər. Həmin xəbəri eşidəndən sonra Nadir şah öz yaxınlarından olan Həsən ağa və Nüsrət bəy Əfşar adlı əyanlarını Hüseyn paşanın yanına elçiliyə göndərdi. “Aləm Ara-ye Naderi”nin məlumatına görə, Mosul qalasının taleyinin müəyyənləşdiyi günlərdə Hüseyn paşa qızını Nadir şaha verməyə razı oldu. Bu  razılıqdan sonra Nadir şah dəbdəbəli elçilik mərasimi təşkil etdi. Çoxlu sayda qiymətli hədiyyələr bir neçə etibarlı xacənin və bir

neçə tanınmış sərkərdənin müşayiəti ilə Hüseyn paşanın düşərgəsinə göndərildi. Hüseyn paşa da qızının köçürülməsi üçün ciddi hazırlıq gördü. Sonra da Hüseyn paşa qızını çoxlu sayda xidmətçilərin müşayiəti ilə Nadir şahın hərəmxanasına yola saldı (46).

Qeyd etmək lazımdır ki, digər mənbə və tarixi ədəbiyyatda Nadir şahın Hüseyn paşanın qızı ilə nikah kəsdirməsi barəsində hər hansı bir məlumata rast gəlinmir.

### 2. Rzaqulu Mirzə

Rzaqulu Mirzə Nadir şahın ilk nikahından dünyaya gələn ilk övladı idi. Yuxarıda qeyd edildiyi kimi, Nadir hələ Əbivərd hakimi Babaəli bəy Kosaəhmədlinin yanında xidmət edərkən onun böyük qızı ilə evlənmişdi və həmin nikahdan 1719-cu il aprel ayının 15-də Rzaqulu Mirzə doğuldu (47). Onun uşaqlığının necə və hansı şəraitdə keçməsi haqqında mənbələrdə və tarixi ədəbiyyatda hər hansı bir məlumat yoxdur. Yalnız C.Frezer qeyd edir ki, Rzaqulu Mirzə uşaqlıqdan qoşunların arasında böyüyübdür (48). Heç şübhəsiz ki, Rzaqulu Mirzə qoşunlar arasında böyümüşdü və ona görə də kiçik yaşlarından at minməyi, qılınc vurmağı öyrənmişdi. Nadir də sözsüz ki, oğlunun döyüşçü kimi formalaşmasına xüsusi diqqət yetirirdi.

"Aləm Ara-ye Naderi"də Rzaqulu Mirzə ilə bağlı olan ilk geniş məlumat onun Şah Sultan Hüseynin qızı və Şah Təhmasibin bacısı Fatimə Soltan bəyimlə evlənməsi haqqındadır. Bu hadisə İsfahan şəhərinin gilzayi əfqanlarından təmizlənməsindən sonra baş verdi. İsfahanın azad edilməsi Nadirin hərbi həyatının ən yaddaqalan səhifələrindən biri idi. Bu şəhər yenidən Səfəvilər hakimiyyəti altına qaytarıldıqdan və II Şah Təhmasibin şəxsində Səfəvilər hakimiyyəti bərpa olunduqdan sonra Nadir həm özünün, həm də oğlu Rzaqulunun həyatını səfəvilər xanədanı ilə bağladı.

Nadir çox sevdiyi ilk oğlunu çox kiçik yaşlarında evləndirdi. Nəzərə alınsa ki, İsfahan 1729-cu ildə gilzayi əfqanlarından təmizlənmişdi və Rzaqulu Mirzənin toyu da həmin ildə baş vermişdi, onda onun cəmi 11 yaşı var idi. Tədqiqatçıların yazdığına görə, Rzaqulu Mirzənin nikahı İsfahanda oxundu (49).

Amma "Aləm Ara-ye Naderi"də olan məlumata görə, İsfahan azad edildikdən sonra Nadir Məşhədə döndü və Rzaqulunun toyunu da orada etdi.

Nadir Məşhədə gələndən sonra əvvəlcə İmam Rzanın qəbrinin ziyarətinə yollandı və sonra əyanları, sərkərdələri, ağsaqqalları və digərlərini

toplayıb onlara Rzaqulu Mirzəyə toy etmək fikrində olduğunu bildirdi. Nadir xüsusilə qeyd etdi ki, oğluna xatirələrdən silinməyəcək şahanə bir toy etmək fikrindədir. Bununla bağlı o, vilayət əyanlarına və böyüklərinə lazımi göstərişlər verdi (50).

M.K.Mərvinin əsərində Rzaqulu Mirzənin toyu geniş, ətraflı və həm də obrazlı bir dildə təsvir olunmuşdur. Son dərəcə təmtəraqlı təşkil olunan bu toy Nadirin öz övladı ilə bağlı ümid və sevincinin ifadəsi idi və heç şübhəsiz ki, Nadirin bütün həyatının ən xoş dəqiqələri idi. M.K.Mərvi yazırdı ki, xoş sifətli qulamlar sanki bu nizamın düyünlərini açmaq üçün daraq kimi sıraya düzüldülər, xoşavazlı müğənnilər toplananları atəşdə yandırmaq üçün diz üstündə oturdular, mütrüblər ürək aparan nəğmələrin cəvahirini onların üzərinə səpdilər, musiqiçilər bu büsata təşrif gətirənlərin ürəyində rəqsə həvəs oyatdılar, nalə çəkən ney bu məclisi tamaşa etmək üçün nəfəs dərməyə çalışırdı, kamança isə boyun çəkirdi. Udun səsi insanlar arasında tüstüyə çevrilib qıvrılırdı, dəfin səsi ətrafa şadlıq və sevinc yayırdı. Bu toyun səsi yaxınlarda və uzaqlarda olanların qulağına yetişdi və onlar bu toya təşrif gətirdilər. İnsanlara çoxlu hədiyyə və ehsan bağışlandı və bu səxavətdən həm varlıya, həm də kasıba pay düşdü. Böyüklər və kiçiklər bir yerdə səf qurdular, varlı və şərif insanlar zil və bəm kimi qoşalaşdılar, yad və tanış cəng və çəğanə səsi kimi bir-birinə qarışdılar, razı və narazılar səs və təsir kimi birlikdə cuşa gəldilər, türk və tacik dil və nitq kimi bir-birinə uyğunlaşdılar, ərəb və əcəm nəğmə və tərانə kimi bir-biri ilə qardaşlaşdılar, rum və zənci ney və balaban kim həmyar oldular. Hər tərəf çıraqbanlarla bəzədildi, şamın şöləsi və çıraqlar bu şənliyin tamaşasına boylandılar (51).

M.K.Mərviyə görə, Nadir oğlu Rzaqulu Mirzə üçün elə bir toy məclisi təşkil etdi ki, insan övladı heç bir əsrdə belə büsatı görməmiş və eşitməmişdi.Ölkənin hər tərəfindən musiqiçilər, rəqqaslar, şəbədə açanlar dəvət olunmuşdular. Onlar öz bacarıq və məharətləri ilə toya gələnləri əyləndirirdilər. Müəllif bir sıra sənət sahiblərinin göstərdikləri məharətləri də xüsusi bir ilhamla təsvir etmişdir. Bütün bunlar Rzaqulu Mirzənin toyunun təntənəsini və əzəmətini bir daha qabardırdı. Məsələn, müəllif bildirir ki, mərasimə bir neçə avropalı atəşbaz dəvət edilmişdi. Onlar bir neçə nar, limon və turunc ağaclarının modellərini yaratmışdılar. Bu model öz-özünə hərəkət edirdi və hərəkət zamanı şölə saçır və ətrafa narınc, turunc və limon meyvələri şəklində atəş səpələnirdi. Və ya onların düzəltdikləri on ədəd insan müqəvvası yerində rəqs etməklə ağızlarından od püskürürdülər. Mərasimdə iştirak edən başqa on nəfər musiqiçi isə malik olduqları alətlərin ifası ilə hamını heyran qoymuş-

dular. Onların əllərində olan çahartar, səntur, məğani, rübab, dotar, kamança və neyənban alətlərində ifa olunan 12 məqam, 34 guşə və 64 şöbə dinləyiciləri tamam valeh etmişdi (52).

"Aləm Ara-ye Naderi"də başqa sənətkarların məharətindən də söz açılır. Bir sözlə elə bir toy məclisi təşkil edilmişdi ki, onun çil-çırağı və atəşfəşanlığı Məşhədin gecəsini gündüzə çevirmişdi və həmin çil-çıraq 6 fərsənglik məsafədən müşahidə olunurdu. Şadlıq və şadyanalıq 7 gün - 7 gecə davam etdi. Mənbədə yazılanlardan aydın olur ki, toy mərasiminin keçirildiyi vaxt qar da yağmışdı. Buradan belə bir qənaətə gəlmək olar ki, Rzaqulu Mirzənin toy mərasimi 1729-cu ilin sonlarına təsadüf edir. Toy mərasiminin sonunda Rzaqulu Mirzə ilə Fatimə Soltan bəyimin nikahı kəsildi. Fatimə Soltan bəyim qiymətli gəlinlik paltarında yeni evlənənlər üçün hazırlanmış xüsusi otağa gətirildi və qiymətli cəvahirlərlə bəzədilmiş taxtın üstündə oturduldu. Xidmətçilər və müşayiət edənlər qab-qab cəvahir və mirvariləri onun başından tökdülər. Bu vaxt Nadir öz sevimli oğlu Rzaqulu Mirzənin əlindən tutub həmin otağa gətirdi və bu iki gəncin əllərini bir-birinə tapşırdı. Sonra da bu toyun təbrik fatihəsini oxudu və yeni evlənənlərin hərəmini tərk etdi. Nadir öz məkanına qayıtdıqdan sonra yaşadığı bu sevinc üçün iki rükət şükranlıq namazı qıldı, üzünü Allaha tutub verdiyi nemətlərə, taleyinə yazdığı qismətlərə, ona bəxş etdiyi sevinclərə görə minacat oxudu. Bütün bunlardan sonra isə Nadir kasıb-kusuba, ehtiyac olanlara çoxlu pul payladı (53).

Toyundan sonrakı bir neçə il ərzində Rzaqulu Mirzə haqqında yenə də mənbələrdə hər hansı bir məlumata rast gəlmək çətindir. Bu dövr heç şübhəsiz ki, Rzaqulu Mirzənin formalaşma dövrü idi – həm döyüşçü kimi, həm də Nadirin varisi olacaq bir şəxs kimi. Rzaqulu Mirzə haqqında mənbələrdə olan növbəti məlumat 1734-cü ilə aiddir. Həmin ilin mart ayının 21-də Rzaqulu Mirzənin ilk oğlu, Nadirin isə ilk nəvəsi oldu (54). Nadirin qardaşı İbrahim xan və Rzaqulu Mirzə körpənin doğulması münasibətilə məktub yazıb çaparlarla Nadirə göndərdilər. Həmin xəbər Nadirə aprel ayının ortalarında, Şirazdan İsfahana irəliləyərkən çatdırıldı. Xəbəri Nadir son dərəcə böyük sevinclə və razılıqla qarşıladı, üzünü görmədiyi nəvəsinin dünyaya gəlməsi yaşadığı mürəkkəb həyatın bütün ağırlıqlarını ona unutdurdu və həyatının daha bir xoşbəxt anına qovuşdu. M.K.Mərvinin əsərində olan qeydlərdən aydın olur ki, İbrahim xanla Rzaqulu Mirzə yeni körpənin dünyaya gəlməsi münasibətilə Nadiri təbrik etməklə bərabər, uşağa ad seçilməsini də xahiş etdilər. Məktubun məzmunundan hali olan kimi Nadir əmr etdi ki, təbillər çalınsın, ətrafa səs salınsın, fəqir-füqəraya hədiyyələr və ehsanlar paylansın (55).

Nadir nəvəsinə ad qoymaq kimi xoş bir vəzifəni böyük məmnuniyyətlə öz üzərinə götürdü. Bunun üçün o, münəccimləri və ulduzşünasları hüzuruna topladı. Nadir əvvəlcə onlara nəvəsinin gələcək taleyi haqqında söz deməyi tapşırdı. M.K.Mərvi yazır ki, münəccimlər və ulduzşünaslar təkrar-təkrar ulduzları seyr etdilər, müşahidələrini götür-qoy etdilər, amma öz qənaətlərini açıq şəkildə Nadirə bildirməyə cəsarət etmədilər. Çünki ulduzların seyri Nadirin nəvəsinin taleyində qaranlıq səhifələr olacağını nümayiş etdirirdi. Münəccimlərin susmalarından və ya aydın danışmamasından Nadir anladı ki, onların qənaəti heç də tam ürəkaçan deyil və onlardan müşahidələrini və həqiqəti olduğu kimi söyləməyi tələb etdi. Nadirə görə yazılan tale onsuz da yerini tapacaqdı. O dedi ki, əgər gözlənilən qəzavü-qədəri zər və ya zorla aradan qaldırmaq mümkün olsaydı onun həllinə çalışardı. Yox, əgər həmin qəzavü-qədərə qarşı çıxmaq mümkün deyilsə, deməli, o, Allahın qədəridir.

Nadirin bu sözlərindən sonra münəccimlər öz həyatları üçün bir qədər xatircəm oldular və söylədilər ki, 20 yaşına çatanda bu şahzadə müəyyən əziyyətlərlə qarşılaşacaq və dünya nuru onun üçün gecə zülmətinə çevriləcəkdir. Nadir bu sözlərdən narahatçılıq içinə düşdü və bir daha soruşdu ki, onun nəvəsi hansı tayfanın əziyyətləri ilə qarşılaşacaqdır ki, o tayfanı dünya üzündən yox etsin. Münəccimlər cavab verdilər ki, bu hadisənin Nadirin dünyasını dəyişməsindən sonra baş verəcəyi gözlənilir. Amma onu da əlavə etdilər ki, çoxlu nəzir-niyaz verməklə acı taleni yüngülləşdirmək və onu xoş sonluğa çevirmək ehtimalı da vardır.Nadir belə olanda onların sözlərinə inanmadığını bildirdi və münəccimlər də canlarının qorxusundan onun dedikləri ilə razılaşdılar və Nadiri sakitəşdirməyə çalışdılar ki, söylənilənlər yalnız onların müşahidələridir (56).

Sonra Nadir nəvəsi üçün ad seçilməsini tapşırdı. O, münəccimlərdən tələb etdi ki, nəvəsi üçün seçilən adda onun anadan olması tarixi gərək öz əksini tapsın. M.K.Mərvi yazır ki, məclisdə iştirak edən Mirzə Zəki adlı birisi "Şahruxəm" sözündə Nadirin nəvəsinin təvəllüd tarixinin (əbcəd hesabı ilə) öz əksini tapdığını bildirdi. Nadir bu təklifə sevindi və səslənən sözü bir qədər islah etməklə nəvəsinə "Şahrux" adı qoydu. Bundan sonra Nadir yenidən məclis qurdu, şadyanalıq açdı. Herat qalasını nəvəsi Şahruxa bağışladığını bildirdi və Heratın bir illik bac-xəracı həcmində nəzir-niyazı fəqir-füqəraya payladı (57).

Şahrux adı şərqdə kifayət qədər yayılmış bir ad idi. Şərqin böyük sərkərdələrindən olan Əmir Teymur da oğlanlarından birini Şahrux adlandırmışdı.L.Lokkart öz əsərində qeyd edir ki, Nadir nəvəsini Şahrux adlandırmaqla bir növ özünü Əmir Teymura oxşatmağa çalışırdı. Müəllif

belə bir müqayisə də aparır ki, Əmir Teymurun gəlinlərindən birinin, yəni Şahruxun xanımlarından birinin və Nadirin ikinci xanımının adı Gövhərşad idi. Lokkart bu təsadüfə görə də Nadirin özünü Əmir Teymura oxşatması qənaətinə gəlirdi (58). Qeyd etmək lazımdır ki, Nadir şah doğrudan da Əmir Teymuru şərqin böyük və əzəmətli fatehi sayırdı və onun hərbi uğurlarını təkrarlamağa meylli idi. Amma M.K.Mərvinin yazdığından görünür ki, Nadirin öz nəvəsini Şahrux adlandırması əvvəlcədən düşünülmüş bir plan olmayıb, adi bir təsadüf idi.

1736-cı ilin martında Muğan düzündə Nadirin tacqoyma mərasimində Rzaqulu Mirzə də iştirak edirdi. Nadir həm Rzaqulu Mirzəni, həm də Nəsrulla Mirzəni məxsusi olaraq bu mərasimə dəvət etmişdi. Həmin vaxt Rzaqulu Mirzənin 17 yaşı var idi. Nadir şahın tacqoyma mərasimindən sonra əfşarlar dövlətinin hərbi-siyasi həyatında Rzaqulu Mirzənin fəaliyyəti xeyli artdı. Nadir şah da ona xeyli məsuliyyətli vəzifələri həvalə etdi.

Rzaqulu Mirzə Nadir şah tərəfindən Xorasan hakimi təyin edildi və ölkənin şimal-şərq ərazilərinin hərbi qüvvələrinə rəhbərlik də ona tapşırıldı.Nadir şah özünün təcrübəli və sədaqətli sərkərdələrindən olan Təhmasibqulu xan Cəlayirə də Rzaqulu Mirzə ilə birlikdə olmağı tapşırdı. Nadir şah bilirdi ki, Təhmasib xan Cəlayir öz təcrübəsi və müdrikliyi ilə gənc şahzadənin formalaşmasında və fəaliyyətində müsbət təsirə malik olacaqdır.

Rzaqulu Mirzəyə verilən ilk ciddi tapşırıq Əndxud hakimi Əlimərdan xan Əfşarın və Bəlx hakimi Əbülhəsən xanın cəzalandırılması oldu. Əlimərdan xan Nadir şaha itaətsizlik göstərib ona tabe olmaqdan boyun qaçırdı. Mərv hakimi də Nadir şahın şahlığını tanımaq istəmirdi və dəvət olunmasına baxmayaraq Muğan çölündəki tacqoyma mərasimində iştirak etməmişdi (59).

1736-cı ilin martında Rzaqulu Mirzə Muğan düzündəki düşərgəni tərk edib Xorasana yollandı. Onun Nadir şah tərəfindən verilən tapşırığın icrasına yola düşməsi ilə 1736-cı ilin noyabrına təsadüf edir. Mənbələrdə göstərilir ki, Nadir şah Hindistana yürüş məqsədilə İsfahanı tərk edib Qəndəhara yola düşəndə Rzaqulu Mirzə də Təhmasib xan Cəlayir və Xorasanın digər xanları ilə birlikdə Bəlx istiqamətində hərəkətə başladı. Rzaqulu Mirzə hərəkətə başlamazdan əvvəl yürüş hazırlığı gördü, topları və qoşun dəstəsi üçün zəruri olan digər təchizat tədarükünü gördü. O, Badğis yolundan və Maruçaqdan keçməklə Əndxuda doğru yolunu davam etdirdi (60).

Rzaqulu Mirzənin ətrafında kifayət qədər güclü qoşun dəstəsi toplanması üçün vilayət sərkərdələrinə və xanlarına öz dəstələrini formalaş-

dırmaq tapşırığı verildi. İki ay ərzində vilayətin qoşun dəstəsinin formalaşdırılması aparıldı və nəticədə Rzaqulu Mirzənin rəhbərliyi altında 20 minlik qoşun dəstəsi təşkil edildi. Maruçaqdan keçərkən Heratdakı qoşun dəstəsi də Rzaqulu Mirzənin qoşununa qoşuldu. 10 günlük yürüşdən sonra Rzaqulu Mirzənin qoşunu Əndxuddan bir mənzil aralı olan Qaratəpə məntəqəsinə yetişdi (61).

Əndxud məntəqəsinin əhalisi əfşarlardan ibarət idi.Orada hakimliyi ələ keçirmiş Əlimərdan xan Nadir şaha itaətdən boyun qaçırsa da əslində heç də məntəqənin bütün əhalisi onu dəstəkləmirdi Ona görə Rzaqulu Mirzənin qoşun dəstəsinin yaxınlaşdığını eşidəndə Əndxud əhalisi Əlimərdan bəyə tabe olmaqdan boyun qaçırdılar. Əhali yenidən Nadirin şahlığını qəbul etdi və Əlimərdan xana qarşı çıxdıqlarını bəyan edib Rzaqulu Mirzənin yanına öz nümayəndələrini göndərdilər.Əlimərdan xan isə əhalinin dediyini qəbul etmədi. O, Rzaqulu Mirzə tərəfindən ciddi cəzalandırılacağından ehtiyatlanaraq Əndxud qalasında müqavimət göstərməyi qərara aldı. Pul və başqa vasitələrdən istifadə edərək ətrafına bir dəstədə toplaya bildi. Onun müqavimət göstərmək niyyətindən xəbər tutanda Rzaqulu Mirzə öz nümayəndələrini xanın yanına göndərdi. Əlimərdan xan sülh təklifini qəbul etmədi və döyüşə girməkdə qətiyyətli olduğunu söylədi (62).

Belə olanda Rzaqulu Mirzə qoşunlarla Qaratəpədən Əndxuda doğru hərəkətə başladı. Əlimərdan xana sədaqətli qalan qoşun dəstəsi qala divarları üzərindən Rzaqulu Mirzənin qoşunlarını top və tüfəng atəşinə tutdu. Rzaqulu Mirzə qoşunların bir dəstəsini qala darvazası qarşısına yolladı. Bu yolla o, Əlimərdan xanın dəstəsini qala kənarında açıq döyüşə cəlb etmək istədi. Amma bu plan alınmadı. Çox güman ki, Əlimərdan xan qaladan kənarda Rzaqulu Mirzə ilə döyüşə girməyin təhlükəli olduğunu bilirdi.Bununla belə, Rzaqulu Mirzə də anlayırdı ki, Əlimərdan xanın qüvvəsi böyük deyil və onun müqaviməti uzun çəkə bilməz. Onun əmrinə əsasən qala dörd tərəfdən mühasirəyə alındı. Qalaya giriş və çıxış tamamilə kəsildi. Əlimərdan xan çətin vəziyyətə düşsə də müqavimət göstərməkdən əl çəkmədi. Rzaqulu Mirzə əvvəlcə qala üzərinə qətiyyətli hücum təşkil edib onun ələ keçirilməsini sürətləndirmək istədi. Təhmasib xan Cəlayir isə bu məsələdə tələsməməyi məsləhət bildi. Qaladan qaçanlardan məlumat alınmışdı ki Əlimərdan xanın vəziyyəti elə də ürəkaçan deyil. Əvvəla, qala daxilindəkilər iki yerə bölünmüşdülər. Onların bir hissəsi Əlimərdan xanı dəstəklədiyi halda, digər hissəsi müqavimət göstərilməsini dəstəkləmirdi. Digər tərəfdən isə qala daxilində ərzaq qıtlığı başlamışdı. Ona görə Təhmasib xan Cəlayir məsləhət bildi ki, qalanın mühasirəsi davam etdirilsin. Rzaqulu Mirzə bu təkliflə

razılaşdı və qalanın mühasirəsini davam etdirməyə qərar verdi. Əlimərdan xandan fərqli olaraq Rzaqulu Mirzənin qoşunlarında kifayət qədər ərzaq ehtiyatı var idi və bu baxımdan hər hansı bir korluq çəkilmirdi. 40 günlük mühasirədən sonra Əlimərdan xan nəhayət ki, təslim olmağı qərara aldı. Canını ölümdən qurtarmaq üçün öz nümayəndələrini Rzaqulu Mirzənin yanına göndərdi, ondan aman istədi.Rzaqulu Mirzə ona toxunmayacağını bildirdi və bundan sonra Əlimərdan xan hədiyyələrlə Rzaqulu Mirzənin yanına gəldi. Əndxuda yeni hakim təyin edildi və Rzaqulu Mirzə qalaya daxil oldu. Qala əyanlarına və ağsaqqallarına ehtiram göstərdi və Əlimərdan xanın qala daxilindəki əmlakını müsadirə etdirdi (63).

Rzaqulu Mirzə həyatının ilk ciddi hərbi uğuru haqqında dərhal Nadir şaha məktub göndərdi.O bu məktubunda Əndxudu mühasirədə saxlaması, 40 günlük mühasirədən sonra qalanın ələ keçirilməsi, Əlimərdan xanın onun nəzarəti altında olması haqqında ətraflı məlumat verdi. Çaparlar Rzaqulu Mirzənin məktubunu Nadir şaha Qəndəhar ətrafında olanda çatdırdılar. Nadir şah oğlunun bu uğurunu böyük sevinclə qarşıladı və xəbər göndərdi ki, Əlimərdan xanı onun hüzuruna göndərsin. Ola bilsin ki, Nadir şah Əlimərdan xanın düşərgədə olmasını Rzaqulu Mirzənin həyatı üçün təhlükəli sayırdı və ona görə də onun oradan uzaqlaşdırılmasını lazım bilirdi. Mövcud olan bəzi məlumatlara görə, Herata çatanda Əlimərdan xan və onu müşayiət edən iki nəfər Nadir şahın tapşırığı əsasında qətlə yetirildi. Qeyd etmək lazımdır ki, qısa müddət ərzində Əndxud ətrafında olan bir neçə məntəqə də Nadir şah hakimiyyəti altına gətirildi.

Bir müddətdən sonra Rzaqulu Mirzə qoşunu ilə Bəlxə doğru hərəkətə başladı. Hərəkəti zamanı Rzaqulu Mirzə qoşunlarla Ağca qalasını tutdu. Bu qala yaxınlığında Rzaqulu Mirzənin qoşunları ilə özbək qüvvələri arasında döyüş baş versə də özbəklər müqavimətə tab gətirməyib geri qaçmağa məcbur oldular. Rzaqulu Mirzə bir neçə gün orada qaldıqdan sonra Bəlxə doğru hərəkəti davam etdirdi. Qarşıda Bəlxi ələ keçirmək kimi ciddi bir vəzifə dayanırdı. Bəlx hakimi Əbülhəsən xan Nadir şahın tacqoyma mərasiminə gəlməkdən imtina etsə də, əslində iradəli və güclü bir hakim deyildi. Çingiz xan nəslindən olan Əbülhəsən xan müqavimət göstərməyə elə də meylli deyildi. Amma iradəsizliyi üzündən qəti qərar qəbul edə bilmirdi. Özbək qıpçaqlarından olan və Atalıq adı ilə tanınan Seyid xan adlı birisi əslində vilayətin idarəçiliyini öz əlinə keçirmişdi və onun təkidi ilə Əbülhəsən xan Rzaqulu Mirzəyə qarşı müqavimət göstərməyə qərar verdi. Seyid xan qıpçaq və özbəklərdən ibarət 12 min nəfərlik bir dəstə toplayıb döyüş hazırlığına başladı. M.K.Mərvinin

yazdığına görə, Əbülhəsən xan bir daha Seyid xanı Rzaqulu Mirzə ilə döyüşə girməkdən çəkindirməyə çalışdı, amma onun israrı nəticə vermədi və Seyid xan qoşun dəstəsi ilə şəhərdən kənara çıxıb qalanın iki fərsəngliyində Rzaqulu Mirzənin qoşunlarının yolu üstünü kəsdirdi (64).

Mənbələrdə göstərilir ki, Bəlx ətrafında olan dərin çaylar Rzaqulu Mirzənin qoşun dəstəsinin irəliləməsini çətinləşdirdi. Buna görə Rzaqulu Mirzənin əmri ilə qoşunlar piyada halına gətirildilər və bununla qoşunların hərəkət sürəti xeyli artmış oldu. M.K.Mərvinin yazdığına görə isə, Rzaqulu Mirzə Bəlxə yaxınlaşdığı günlərdə özbək qoşunları ilə qarşılaşmadığı üçün qarşıya kəşfiyyat qrupu göndərdi və həmin qrupa əsir tutub gətirmək tapşırıldı. Bu qrup vasitəsilə bir neçə əsir gətirildi və onların dediklərindən aydın oldu ki, nisbi sakitlik olmasına baxmayaraq Bəlx qarnizonu döyüşə hazırlaşır. Həmin məlumatı alandan sonra Rzaqulu Mirzə qoşunu ilə Bəlxə doğru hərəkətini davam etdirdi və çox tezliklə Seyid xanın qoşunları ilə qarşılaşdı. Seyid xan ona tərəf irəliləməkdə olan qoşunların sayını və gücünü gördükdə yavaş-yavaş gerilədi və qala yaxınlığında döyüş mövqeləri tutdu.Təmas xəttinə yaxınlaşanda Rzaqulu Mirzə qoşunlarını qruplaşdırdı, sağ və sol cinaha, cəbhə mərkəzinə təyin etdiyi dəstələrə rəhbərliyi bacarıqlı sərkərdələrə tapşırdı. Onun əmri əsasında çərxçilər önə çıxarıldı və onların atəşləri döyüş meydanına bir gərginlik gətirdi. Mənbələrdə Təhmasib xan Cəlayirin də bu döyüşdə böyük şücaət göstərdiyi xatırlanır. Rzaqulu Mirzənin qoşun dəstələrinin qorxu bilmədən irəli atılması, onların fəaliyyətinin düzgün nizamlanması təşəbbüsün ələ alınmasına imkan yaratdı. Özbək və qıpçaq dəstələri Rzaqulu Mirzənin sürətli hücumu qarşısında duruş gətirə bilməyib geri qaçdılar. Əfşar qoşunları onların təqibinə atıldılar və çoxlu sayda özbək və qıpçaq döyüşçülərini məhv etdilər. Seyid xan məhv olmaq təhlükəsi ilə qarşılaşanda döyüş meydanını tərk edib çöl-biyabana üz tutdu. Rzaqulu Mirzə onun böyük əmlakını və təchizatını ələ keçirdi və qalaya daha da yaxınlaşdı (65).

Bəlx qalasının mühasirəsi çox uzun çəkmədi. Çünki bir tərəfdən Rzaqulu Mirzəyə müqavimət göstərmək istəyən qüvvələr pərən-pərən oldular. Digər tərəfdən qala daxilində müqavimətə rəhbərlik edəcək bir şəxs yox idi. Bəlx hakimi Əbülhəsən xan isə əslində heç əvvəldən belə bir müqavimətə başlamasına razı deyildi. Rzaqulu Mirzənin dəstələri qalaya daxil olanda Əbülhəsən xan peşman halda Rzaqulu Mirzənin hüzuruna gəldi, göstərilən müqavimət üçün peşman olduğunu və bu müqavimətin Seyid xan tərəfindən başlandığını söylədi. Əbülhəsən xanın üzrxahlığı Rzaqulu Mirzə tərəfindən qəbul edildi və "Aləm Ara-ye Naderi"nin yazdığına görə, Rzaqulu Mirzə Çingiz xan nəslindən olan Əbülhəsən xa-

na padşahlara layiq münasibət göstərdi. Rzaqulu Mirzə onu Qəndəhara, atasının hüzuruna yola saldı. Nadir şah da onu ehtiramla qarşıladı və şəxsi xahişinə əsasən ona Məkkə ziyarətinə getməyə icazə verdi.

Rzaqulu Mirzə bir müddət Bəlxdə qaldı. Bu müddət ərzində vilayətdə idarəetmə işlərini nizama saldı. Bazar və dükanlar qapılarını açıb adi qaydada fəaliyyətlərini davam etdirdilər, əmin-amanlıq təmin edildi. Rzaqulu Mirzə Bəlxdən qaçmış olan Seyid xanın arxasınca dəstə göndərdi və eyni zamanda qoşunların təkmilləşdirilməsi ilə məşğul oldu (66).

"Aləm Ara-ye Naderi"dəki məlumata görə, Rzaqulu Mirzə 4 aya yaxın Bəlxdə vaxt keçirdi. Əldə etdiyi uğurlar onda yüksək əhval-ruhiyyə yaratmışdı və onda bu uğurları davam etdirməyə daxili bir istək baş qaldırdı. Baxmayaraq ki, Nadir şah yalnız Əndxud və Bəlxi tutmaq barədə konkret tapşırıq vermişdi. Amma Rzaqulu Mirzə də artıq Amu-Dərya çayının şərq sahilinə adlamaq və qoşunlarla birlikdə zəfər yürüşünü davam etdirmək arzusuna düşmüşdü. Təhmasib xan Cəlayir onun bu arzusuna tərəfdar çıxdı və Amu-Dərya çayının o biri sahilində məskunlaşmış Qənqərat elini tabe etmək planını dəstəklədi. Belə olanda Təhmasib xan Cəlayirin rəhbərliyi altında 8500 nəfərlik bir dəstə Qənqərat tayfasını nəzarət altına almağa göndərildi. Beləliklə, Rzaqulu Mirzənin qoşun dəstəsi Nadir şahın icazəsi və razılığı olmadan Amu-Dərya çayını adlayıb hərbi yürüşləri davam etdirdi. Rzaqulu Mirzə Qənqərat tayfasının başçısı Daniyal bəyin yanına əvvəlcə elçilərini göndərdi və onu müqavimətsiz tabe olmağa çalışdı. Daniyal bəy də vəziyyəti ətraflı qiymətləndirəndən sonra çoxlu hədiyyələrlə Rzaqulu Mirzəni hüzuruna gəldi və onun şərtini qəbul etməyə hazır olduğunu bildirdi (67).

Çox güman ki, bu uğur da Rzaqulu Mirzənin hərbi yürüş həvəsini daha da gücləndirdi. O göstəriş verdi ki, Amu-Dərya çayının o tayında qalmış topxana və qüvvələr də gətirilsin və əsas qüvvələrə qatılsın. Böyük qüvvələr bir yerə toplandıqdan sonra Rzaqulu Mirzə Buxara xanlığının ərazisinə daxil oldu və Buxaraya doğru yolda Qərşi məntəqəsinə yaxınlaşdı. Həmin məntəqə ələ keçiriləndən sonra Rzaqulu Mirzə öz fəaliyyət ərazisini daha da genişləndirmək niyyətində idi. O burada da öz qələbəsinə şübhə etmirdi.Rzaqulu Mirzə Qərşiyə doğru irəliləməzdən əvvəl qoşun dəstəsinə baxış keçirdi və planlaşdırılanın həyata keçirilməsi üçün qoşun dəstəsinin də hazır olduğu qənaətinə gəldi. Amma Rzaqulu Mirzənin qarşı tərəfin hansı hərbi potensiala malik olmasından və əfşar qoşunlarının qarşılanması üçün hansı hazırlığın aparıldığından xəbəri yox idi. Buxara hakimi Əbülfəz xanın baş vəziri Həkim Atalıq, Rzaqulu Mirzənin rəhbərliyi altında əfşar qoşunlarının Buxara xanlığının sərhə-

dinə yaxınlaşmasını diqqətlə izləyirdi. Tədbirli, ağıllı, təcrübəli və siyasətcil bir şəxs olan Həkim Atalıq ətrafa çoxlu casuslar göndərərək Rzaqulu Mirzənin qoşunlarının bütün yerdəyişmələrini nəzarət altına aldı. O eyni zamanda sərhəd bölgəsində yerləşən və Rzaqulu Mirzənin hücumu ehtimal edilən yaşayış məntəqələrinə adamlarını göndərib onların daha təhlükəsiz ərazilərə köçürülməsinə göstəriş verdi (68).

Çox tezliklə Rzaqulu Mirzə Qərşi qalasını mühasirə etdi. Bu qala mühasirədə olduğu vaxt ərzində Şəluk adlı qalanı da mühasirə etdi və həmin qalanı ələ keçirdi. Həmin qalanın ələ keçirilməsindən sonra bütün diqqət Qərşı qalası üzərində cəmləşdirildi. Qərşı qalası ətrafında baş verənlər eyni zamanda Buxara xanlığının diqqət mərkəzində idi və Rzaqulu Mirzənin qoşun dəstəsinin irəliləməsinin elə orada dayandırılması üçün təsirli vasitələr axtarıldı. Həkim Atalıq əfşar qoşunlarının imkanlarını qiymətləndirdikdən sonra onların üzərinə səmərəli hücum etməyin mümkün olduğunu güman etdi. O öz sərkərdələrini başına toplayıb onlarla məsləhətləşdi, Qərşi ətrafında qoşunun bir dəstəsini pusquya yerləşdirdi ki, həlledici anda döyüş meydanına atılıb Rzaqulu Mirzə dəstəsinə ağır zərbə endirsin. Təhmasib xan Cəlayir Buxara qoşunlarının arxadan və ya cinahlardan qəfil zərbə vurmaq ehtimalının qarşısını almaq üçün qabaqlayıcı tədbirlər gördü, müəyyən dəstələri bu istiqamətdə vəzifələndirdi. Bunun nəticəsində də Həkim Atalığın ilk cəhdi nəticəsiz qaldı. Əfşar qoşunlarının sürətli və çevik fəaliyyəti özbək qüvvələrinin bütün cəhdlərinin qarşısını aldı və Həkim Atalıq hərbi qüvvələri ilə birlikdə geri çəkilmək məcburiyyətində qaldı (69).

Həkim Atalıq bu uğursuzluğun baş verəcəyini ehtimal etmirdi. O yaxşı anlayırdı ki, Qərşi qalası ətrafında əfqan qoşunlarının qarşısı saxlanmasaydı bunun nəticələri daha ciddi olardı. Bununla bağlı Buxara hakimi Əbülfəz xanın yanına çaparlar göndərdi, vəziyyətin mürəkkəbliyini onun diqqətinə çatdırdı. Buxara hakimi Həkim Atalığın uğursuzluğu xəbərini alan kimi yeni qoşun dəstəsinin formalaşdırılmasına göstəriş verdi. Bununla bağlı o, Səmərqənd, Əratəpə, Əndican, Türküstan, Xocənd və Daşkənd ətrafında yaşayan özbək və türkmən camaatına əmr göndərib qoşun toplanmasını istədi. Əbülfəz xan eyni zamanda Xarəzm padşahı İlbars xana da məktub göndərib ondan da kömək istədi, Əbülfəz xan yeni qoşun dəstəsinin toplanmasına və təchiz edilməsinə əzmkarlıq göstərdi və nəticədə qısa müddət ərzində Buxarada 60 minlik bir qoşun dəstəsi toplandı. Bu qoşun dəstəsi toplanandan sonra Əbülfəz xan daha 20 min nəfərlik bir qoşun dəstəsinin onun köməyinə yaxınlaşdığını eşitdi. Nəticədə, “Aləm Ara-ye Naderi”nin məlumatına görə, Buxarada 80 minlik bir qoşun dəstəsi toplandı. Belə bir qüvvəyə sahib olduğunu

görəndə Əbülfəz xan daha Xarəzmdən kömək gəlməsini gözləmədi və Rzaqulu Mirzənin qoşun dəstəsi ilə qarşılaşmağa yollandı (70).

Rzaqulu Mirzənin isə öz qoşunlarının sayını artırmaq imkanı yox idi. Əbülfəz xanın rəhbərliyi altında qoşun dəstəsinin yaxınlaşmaqda olduğu xəbərini eşidib Qərşi qalasından bir mil aralıda müdafiə üçün daha münasib olan bir ərazidə döyüş mövqeləri tutdu.

"Aləm Ara-ye Naderi" əsərində Rzaqulu Mirzə qoşunları ilə Əbülfəz xanın qoşunlarının qarşılaşması geniş təsvir edilmişdir.Bu təsvirdən Rzaqulu Mirzənin və onun sərkərdələrinin çoxsaylı qoşunlar qarşısındakı əzmkarlığını və fəallığını görmək mümkündür. Əbülfəz xanın əsas qüvvələrinin yaxınlaşmasından əvvəl irəli göndərilmiş kəşfiyyat və mühafizə qrupları ilə Rzaqulu Mirzənin qoşun dəstələri arasındakı qarşılaşmalarda əfşar dəstələrinin üstünlüyü də mənbədə öz əksini tapmışdır. Amma qat-qat say üstünlüyünə malik olan Əbülfəz xanın qoşunları qarşısında bu üstünlüyü saxlamaq mümkün deyildi. Əbülfəz xanın yaxınlaşmaqda olan saysız-hesabsız qoşunlarını müşahidə etdikdən sonra Rzaqulu Mirzənin qoşun dəstəsi geri çəkildi və Qərşi qalası ətrafında müdafiə mövqeləri tutdu.Əbülfəz xanın qüvvələrinin yaxınlaşmasını görəndə Qərşi qalasının sakinləri də Rzaqulu Mirzə qoşunlarına qarşı daha fəal mübarizəyə qalxdılar ki, bu da Rzaqulu Mirzənin qoşunlarının vəziyyətini daha da mürəkkəbləşdirdi. Rzaqulu Mirzə qoşunlarının bir sıra sərkərdələri çox böyük say üstünlüyünə malik olan Əbülfəz xanla döyüşə girmədən geri çəkilməyi məsləhət bildilər. Təhmasib xan Cəlayir qətiyyətlə bu təklifin əleyhinə çıxdı. O bildirdi ki, əgər Bəlxə doğru çəkilməli olsalar özbək qoşunları onları təqib edəcək və onların sağ-salamat geri qayıtmaq şansı qalmayacaqdır. Təhmasib xan Cəlayir sonra onu da əlavə etdi ki, qələbə Allahın əlindədir.Nadir şah dəfələrlə sayca üstün olan qüvvələrlə döyüşə girib qələbə qazanmışdır. Təhmasib xan, Rzaqulu Mirzənin gücü ilə bu dəfə də qələbəni əldə edəcəklərinə inandığını bildirdi və ona görə də qorxu və nigarançılığı bir kənara qoymağı tövsiyə etdi (71).

Əbülfəz xan isə Rzaqulu Mirzə qoşunları ilə ciddi döyüşə girməkdə israrlı olduğunu ilk anlardan nümayiş etdirdi. O, qoşun dəstəsi ilə Qərşiyə daxil oldu. Bu faktın təfərrüatı "Aləm Ara-ye Naderi"də açıqlanmamışdır.Ona görə məlum olmur ki, Əbülfəz xan, Rzaqulu Mirzənin qoşunlarının müqavimətini qıraraq qalaya daxil oldu, yoxsa qalanın müdafiə olunmayan hissəsindən qala daxilinə yol tapa bildi. Əbülfəz xan 6 gün Qərşi qalasında qaldı və bundan sonra Rzaqulu Mirzə qoşunları ilə döyüşə girdi.Rzaqulu Mirzənin qoşun dəstəsinin döyüş fəaliyyətinə Təhmasib xan Cəlayir rəhbərlik edirdi və qeyd etmək lazımdır ki, bu döyüş

Təhmasib xan Cəlayirin Nadir şah sərkərdəsi kimi keçirdiyi ən yaxşı döyüşlərindən biri idi.Doğrudur, Təhmasib xan Cəlayirə müəyyən kömək də gəldi. Həmin kömək Amu-Dərya çayı kənarında qalmış topxana və qoşun dəstəsi idi.Bununla belə, Əbülfəz xanın dəstəsi daha yaxşı mövqe tutmaqla həm də say üstünlüyünə malik idi. Təhmasib xan Cəlayirin rəhbərliyi altında əfşar qoşunları əsil döyüşçü şücaəti və iradəsi nümayiş etdirdi, Əbülfəz xanın bütün cəhdlərinin qarşısını aldı və Buxara qoşunlarını qala daxilinə çəkilməyə məcbur etdi. Döyüşdə təşəbbüsü ələ keçirən əfşar qüvvələri hətta yaxınlıqdakı qalalardan birini də ələ keçirdi.Qərşi qalası ətrafında əfşar qüvvələrinin qazandığı uğur haqqında Rzaqulu Mirzə məktub yazdı və onu çaparlar vasitəsilə Qəndəharda olan Nadir şaha göndərdi.

Qərşi qalası isə hələ də fəth edilməmiş qalmışdı. Rzaqulu Mirzə bütün diqqəti yenidən bu qalanın fəthi üzərində cəmlədi. O nəzərdə tutmuşdu ki, Qərşı qalası da fəth ediləndən sonra Buxaranın ələ keçirilməsi planının icrasına başlasın. Rzaqulu Mirzə ümid edirdi ki, bütün Türküstanı fəth edib əfşarlar dövlətinin tərkibinə qatsa atasının yanında da başı uca olar (72).

Amma əksinə oldu. Nadir şah oğlunun rəhbərliyi altında olan qoşun dəstəsini Amu-Dərya çayını aşaraq irəliləməsini, eyni zamanda onun Qərşi qalası ətrafındakı döyüşlərini eşidəndə bəlkə də gözlərinə inana bilmədi. “Aləm Ara-ye Naderi”də bildirilir ki, bu xəbəri eşidəndə Nadir şah xeyli susdu, sonra isə onun ağzından od püskürdü. O, qoşuna, o cümlədən Rzaqulu Mirzəyə və Təhmasib xan Cəlayirə Bəlxi tutub dayanmağı, Amu-Dərya çayını adlamamağı tapşırmışdı. Buxara və Türküstana qoşun çıxarmaq hələlik Nadir şahın planlarına daxil deyildi. Rzaqulu Mirzənin isə ilkin uğurların sevincinə uyaraq Buxaraya doğru irəliləmək cəhdi onun məğlubiyyəti və faciəsi ilə nəticələnə bilərdi. Nadir şah yaxşı bilirdi ki, Türküstan çox böyük bir ərazidir və bu məntəqədə çox böyük qoşun ehtiyatları vardır. O xatırlayırdı ki, hələ Çingiz xan, Cığatay xan və Əmir Teymur bu bölgədən çox böyük sayda qoşunlar toplaya bilmişdilər. Nadir şah onu da yaxşı bilirdi ki, əgər bu bölgədə qoşun toplanmasına işarə verilsə, o qədər qoşun toplanar ki, Rzaqulu Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsindən bir nəfər də olsa Amu-Dərya çayından geri salamat qayıda bilməz. O cümlədən onun böyük oğlu Rzaqulu Mirzə də canını qurtara bilməz. Ona görə Nadir şah oğlunu təhlükə içində görürdü və onun belə bir vəziyyətə düşməsində Təhmasib xan Cəlayiri günahkar bilirdi. O dərhal oğluna məktub yazdı və bildirdi ki, onun bu hərəkətlərindən heç də razı qalmamışdır. Nadir şah tələb etdi ki, dərhal qoşun dəstəsi ilə birlikdə geri qayıtsın və Bəlxdə

dayansın. Sonradan nə etmək lazım gələcəyi barədə isə əlavə tapşırıqlar veriləcəkdi (73).

Nadir şah eyni zamanda Təhmasib xan Cəlayirə məktub yazdı və həmin məktubda ona qarşı kəskin ifadələr işlətdi. Nadir şah yazırdı: "Yaramaz qoca, mən sənə tapşırmışdım ki, Bəlxi tutandan sonra orada dayan.Hansı qərara gəlsəydik sənə çatdırardıq və sən də icra edərdin. Sən isə özbaşına fatehlik iddiasına düşdün, gənc yaşında, təcrübəsiz, amma qorxusuz və ürküsüz olan əziz oğlum Rzaqulu Mirzəni xam xəyallara və qorxulu fikirlərə mübtəla etdin, ikiçayarasına doğru hərəkət etdin, özünü və oğlumu əsgərlərlə birlikdə qorxulu şəraitə atmağın nə mənası var ? ... Bizim qərarımız belədir ki, Qəndəhar qalasını tutandan sonra Hindistan məmləkətini tutmağa yola düşək. Əgər Allah eləməmiş, özbək, qazax, qılmax, cığatay, rus və alan qoşunları hamısı müttəfiq olub mübarizəyə başlasalar onların öhdəsindən necə gələcəksiniz?" (74).

Nadir şah məktubunda daha sonra bildirirdi ki, əgər sizə qarşı bir hadisə üz verərsə, onda gərək öz planlarımın icrasını dayandırım və sizin köməyinizə yollanım. Bunun baş verməməsi üçün Nadir şah tələb edirdi ki, məktubu alan kimi onlar dərhal Bəlxə doğru geri çəkilsinlər. O, Təhmasib xanı xəbərdar edirdi ki, bu əmrin yerinə yetirilməsinə laqeydlik və səhlənkarlıq göstərərsə Təhmasib xanın boynunu vurduracaqdır. Nadir xan yazdıqlarını Rzaqulu Mirzənin məktubunu gətirən Əhməd xan Mərvi ilə yola saldı.

Nadir şah oğlunun qarşısına çıxa biləcək təhlükənin sovuşdurulması üçün Buxara hakimi Əbülfəz xana da məktub göndərdi. O həmin məktubda Rzaqulu Mirzənin Buxara xanlığı ərazisinə girməsindən təəssüflək olduğunu bildirir və Çingiz xan nəslinin nümayəndəsi kimi Əbülfəz xanın Buxara xanlığı üzərindəki hakimiyyətini tanıdığını bəyan edirdi (74).

Nadir şahın məktubu Rzaqulu Mirzəyə Qərşı qalası ətrafında olduğu zaman çatdırıldı. Rzaqulu Mirzə məktubla həm özü tanış oldu, həm də Təhmasib xan Cəlayiri tanış etdi. Təhmasib xan məktubun məzmunundan narahatlıq keçirdi və Nadir şahın əmrinə itaətini bildirdi. Amma onu da bildirdi ki, əgər Nadir şahın izni olsaydı bütün Türküstanı tutub onun hakimiyyəti altına gətirərdi. Bununla belə, qoşun dəstəsinə geri çəkilmək əmri verildi. Qoşunu qəfil həmlələrdən mühafizə etmək üçün Təhmasib xan Cəlayir dəstənin arxasında mövqe tutdu və doğrudan da özbəklər geri çəkilən qoşunlarına hücum etmək istəyəndə Təhmasib xan Cəlayirdən yeni bir zərbə aldılar. Bundan sonra əfşar qoşunları digər bir təhlükə ilə rastlaşmadan Bəlxə döndülər. "Aləm Ara-ye Naderi"də bildirilir ki, Amu-Dərya çayının suyu buz bağlamışdı və havalar çox soyuq

idi (75). Buradan belə bir qənaətə gəlmək olar ki, Rzaqulu Mirzənin qoşun dəstəsinin Bəlxə dönməsi 1737-ci ilin sonu və ya 1738-ci ilin əvvəlində baş vermişdi.

Rzaqulu Mirzə bir müddət Bəlxdə dayanmalı oldu. Burada olarkən o, Nadir şahdan tapşırıq aldı ki, Qunduza doğru hərəkət etsin və orada müxalifətdə olan qüvvələri neytrallaşdırsın.Rzaqulu Mirzə aldığı bu tapşırığın icrasına yollandı və az müddətdən sonra Qunduz vilayətini itaət altına gətirdi (76).

"Tarix-e Cahanqoşa-ye Naderi"də olan məlumata görə, Nadir şah Hindistana yürüşünü davam etdirməzdən əvvəl övladlarından birinə ölkənin idarə edilməsini tapşırmaq qərarına gəldi. Kabulda olarkən Bəlxdə dayanmış Rzaqulu Mirzəni yanına çağırdı.Nadir şah əmr etdi ki, Rzaqulu Mirzə Bəlxin hakimliyini Herat hakiminə tapşırsın, qoşunun bir hissəsini Bəlxin müdafiəsi üçün saxlasın, sonra da Zəhak və Bamiyan yolu ilə onun düşərgəsinə gəlsin (77).

Nadir şahın düşərgəsinə yollanmaq tapşırığı alanda Rzaqulu Mirzə Qunduz yürüşünü başa çatdırmaq üzrə idi. Tapşırığı alan kimi Rzaqulu Mirzə və Təhmasib xan Cəlayir Kabul yolu ilə Nadir şahın düşərgəsinə doğru hərəkətə başladı. Cəlalabadın 30 km qərbində olan Bahar Səfli məntəqəsində Rzaqulu Mirzə və Təhmasib xan Cəlayir Nadir şahın düşərgəsinə yetişdilər (78).

Nadir şah oğlunu böyük təntənə ilə qarşıladı və onunla görüşməyə çox sevindi. Baxmayaraq ki, Nadir şah oğlunun rəhbərliyi altında olan qoşun dəstəsinin icazəsiz olaraq Amu-Dərya çayını adlamasını sərt narazılıqla qarşılamışdı. Amma həqiqətdə o, Rzaqulu Mirzənin şücaətinə, çətinliklərdən qorxmamasına və ilk böyük tapşırığı uğurla başa vurmasına çox sevinirdi. Onun öz qoşun dəstəsi ilə düşərgəyə gəlməsini də Nadir şah səbirsizliklə gözləyirdi. Rzaqulu Mirzənin yaxınlaşması xəbərini eşidəndə Nadir şah bir sıra sərkərdələri, tayfa başçılarını və əyanlarını Rzaqulu Mirzə ilə Təhmasib xan Cəlayiri qarşılamağa göndərdi.

Mənbələrdə göstərilir ki, Rzaqulu Mirzə düşərgəyə çatan kimi Nadir şah onu yanına çağırdı, görüşərkən üzündən öpdü, hal-əhvalını soruşdu və ona səmimiyyət göstərdi. Sonra Nadir şah Rzaqulu Mirzənin qoşun dəstəsinə baxış keçirdi. Uzun və ağır səfərdən sonra bu dəstənin döyüşçülərinin çoxlarının atlarının əldən düşməsi, silahlarının qeyri-işlək vəziyyətə gəlməsi, təchizatlarının kəsadlaşması hiss olunurdu. Nadir şah əmr etdi ki, Rzaqulu Mirzənin qoşun dəstəsi yenidən təchiz edilsin, atlar dəyişdirilsin, silah və təchizat təzələnsin (79).

Təhmasib xan Cəlayirlə isə Nadir şah bir daha ciddi söhbət apardı. Əvvəla, onlar düşərgəyə gələn gündən Nadir şah öz köhnə silahdaşına

və sərkərdəsinə isti münasibət göstərmədi və ona qarşı bir biganəlik nümayiş etdirdi. Rzaqulu Mirzə ilə görüşüb, söhbətləşəndən və ondan hal-əhval tutandan sonra Nadir şah, Təhmasib xanı hüzuruna çağırdı və onun əmrinə riayət etməməsi ilə bağlı bir daha kəskin münasibətini bildirdi. Nadir şah söylədi ki, Təhmasib xan gərək Rzaqulu Mirzənin Amu-Dərya çayını adlamaq əmrinə qulaq asmayaydı. Çünki bu hərəkəti ilə o, Nadir şahın istəkli oğlunu və oğlu kimi istədiyi döyüşçülərini Turan qoşunlarının təhlükəsi altına atmışdı. Nadir şaha görə əgər orada arzuolunmaz bir hadisə baş versəydi, onda Nadir şahın da , ölkə əhalisinin də həyatı cəhənnəmə dönərdi. Onun fikrincə, Buxara xanının qoşunları ciddi hücuma keçsəydi Rzaqulu Mirzənin qoşunu Amu-Dərya çayını adlamağa da fürsət tapa bilməzdi. Nadir şah ondan da razı deyildi ki, Rzaqulu Mirzə ilə Təhmasib xan Nadir şahın tələbi ilə Bəlxə qayıdandan sonra ondan xəbərsiz Bədəxşana da hücum etmişdilər.

Təhmasib xan Cəlayir susub səbirlə Nadir şahın tənələrini dinlədi. Danışmaq məqamı çatanda Təhmasib xan təzim edib şahın dediklərini qəbul etdiyini bildirdi və onu da əlavə etdi ki, hər halda şahın ehtiyat etdiyi hadisələrdən heç biri baş verməmişdir, şahın böyük oğlu və şahlığın qiymətli gövhəri olan Rzaqulu Mirzə sağ və salamatdır. Təhmasib xan Nadir şaha dedi ki, əgər onu yanında xidmət etməyə layiq bilmirsə, gələcəkdə oxşar tapşırıqlar digərlərinə tapşırıla bilər (80).

Nadir şah Təhmasib xan Cəlayirin sədaqətinə və sərkərdəlik istedadına şübhə etmirdi. O özü də yaxşı anlayırdı ki, sərkərdəlik həyatlarını birgə qurduqları və böyük qələbələri birgə əldə etdikləri Təhmasib xanı çox danladı. Bu da əslində səbəbsiz deyildi. Bir tərəfdən böyük oğlunun, şahlığa varis saydığı Rzaqulu Mirzənin təhlükə ilə qarşılaşa bilməsi ehtimalı onu haləsindən çıxarmışdı. Digər tərəfdən də icazəsiz hərəkət etdiyinə görə ən yaxın silahdaşına barışmazlıq nümayiş etdirməklə digər sərkərdələrinə dərs vermək və onları özbaşına hərəkətlərdən çəkindirmək istəyirdi. Həqiqətdə isə Nadir şah, Təhmasib xan Cəlayirə öz hörmət və ehtiramını saxlamaqda idi. Elə bunun nəticəsi idi ki, onların gəlişinin ikinci axşamı Nadir şah xəlvəti olaraq Təhmasib xan Cəlayiri yanına çağırtdırdı, yenidən onun hal-əhvalını soruşdu, ona hələ də böyük ehtiram bəslədiyini nümayiş etdirdi. Nadir şah bir daha bəyan etdi ki, ona qarşı sərtlik göstərməsinin başlıca səbəbi digər sərkərdələrinə dərs vermək idi. Çünki bu və ya digər məntəqələrə təyin edilən sərkərdələr özbaşınalıqlar edir və qoşunu da qırğına verirdilər. Nadir şah Təhmasib xanı danlamaqla bir daha sərkərdələrini başa saldı ki, onun icazəsi olmadan hər hansı bir hərbi yürüşə əl atmaq olmaz.

Təhmasib xan bir daha Amu-Dərya çayı ətrafındakı fəaliyyətləri barədə Nadir şaha məlumat verdi. Onun dediklərindən belə bir qənaət hasil oldu ki, Nadir şah əslində Bəlxin tutulmasından sonra onların Amu-Dərya çayını adlamasına etiraz etməmişdi. Bir şərtlə ki, Buxara xanının qoşunlarının zəif olması barədə onların əlində məlumat olaydı. Təhmasib xan bilirdi ki, onlar həqiqətən də Buxara xanının qoşunlarının zəifliyinə əmin idilər və onlar Amu-Dərya çayının o biri tayındakı əraziləri ələ keçirib Nadir şah dövlətinin ərazilərinə qata bilərdilər. Sözlərinin təsdiqi kimi o, Buxara xanlığının qoşunları ilə apardığı döyüşləri və bəzi qalaları ələ keçirmələrini nümunə gətirdi. Təhmasib xan söylədi ki, şah ona qarşı tələbkarlıq irəli sürür və hər şeyin cavabını ondan istəyir. Amma Rzaqulu Mirzəyə görə, artıq narahat olmağa dəyməz. Onun sözlərinə görə, Rzaqulu Mirzə ağıl və fərasətdə, cahangirlik və istedadda aləmdə tayı bərabər olmayan bir gövhər idi, igidlikdə Rüstəmdən və Sam Nərimandan, ədalət və səxavətlilikdə Nuşirəvandan və Hatəm Tayidən geri qalmırdı. Təhmasib xana görə, Rzaqulu Mirzə artıq uşaq deyildi ki, hər işdə başqalarının əmri ilə durub otursun və başqalarının sözü ilə hərəkət etsin.Yəni, Təhmasib xan bildirmək istəyirdi ki, Rzaqulu Mirzə artıq müstəqil qərarlar qəbul etmək qabiliyyətinə malik bir şəxsdir və onun qəbul etdiyi hər qərar üçün Təhmasib xandan hesab tələb etməsi artıq doğru deyil. Bununla belə, Təhmasib xan məsləhətlərinin həmişə Rzaqulu Mirzə tərəfindən qəbul edilməsinə də öz razılığını bildirirdi. Nadir şah oğlu haqqında eşitdiklərindən çox məmnun qaldı və Təhmasib xan Cəlayirə çoxlu hədiyyələr bağışladı (81).

Rzaqulu Mirzənin gəlişindən bir neçə gün sonra Nadir şah böyük bir mərasim təşkil etdirdi və əvvəldən də bildirdi ki, bu mərasimdə şahlıq nayibini (varisini) müəyyənləşdirəcək və sonra da Hindistana doğru yola düşəcəkdir. Məclis qurulandan sonra Nadir şah öz taxtında əyləşdi. Yanında isə Rzaqulu Mirzə üçün xüsusi bir taxt qoydurdu və onu qiymətli daşlarla bəzətdi. Rzaqulu Mirzə həmin taxtda Nadir şahın kənarında öz yerini tutdu. Nadir şahın digər oğlanları – Nəsrulla Mirzə ilə İmamqulu Mirzə də bu məclisdə iştirak edirdilər. Onlar əllərini sinələrində çarpazlayıb ataları qarşısında dayanmışdılar. Digər əyanlar da hər biri öz vəzifəsinə uyğun olan yerdə dayanmışdılar. Məclis xidmətçiləri məclisdə iştirak edənlərə öz yerlərini göstərir, qəbul olunmuş normalara uyğun olaraq məclisdə nizam yaradırdılar. Bu məclis Nadir şah üçün əlamətdar hadisə olduğundan onun əmri ilə orada iştirak edən əyanlara və sərkərdələrə çoxlu qiymətli hədiyyələr paylandı. Nadir şah məclisdə oğlu Rzaqulu Mirzəni şahlıq nayibi təyin etdi. Ona və eləcə də Nəsrulla Mirzəyə icazə verdi ki, şahzadəlik ciqqəsini papaqlarının sağ tərəfinə sancsınlar.

Nadir şah oğlunu varisi və şalıq nayibi elan etməklə ona bəylərbəyləri və vilayət hakimlərini təyin və azad etmək səlahiyyəti də verdi (82).

Məclis başa çatanda sonra Hindistana yola düşmək ərəfəsində Nadir şah oğlu Rzaqulu Mirzəni hüzuruna çağırdı, onunla ayrıca söhbət etdi və özünün yoxluğu dövründə ölkənin idarə edilməsi üçün ona öz məsləhətlərini verdi. Həmin məsləhətlərin məzmunu aşağıdakı kimi idi:

Ölkəyə qayıtdıqdan sonra Səbzəvarda göz dustağı olan Şah Təhmasibin keşikçilərini dövlətə sədaqətli olan şəxslərdən təyin etsin, onun yanına başqalarının gedib-gəlməsinə icazə verilməsin və onunla görüş başqaları üçün qadağan edilsin. Vilayətlərə və ətrafa təyin edilmiş hakimlərə və kələntərlərə qayğı göstərilsin, onların dəyişdirilməsinə yol verilməsin. Səhranişin tayfalara və camaata lazım olan qayğı göstərilsin. Əgər Türküstandan, Osmanlıdan və ya Rusiyadan qoşunlar Əfşarlar ərazisinə müdaxilə edərdilərsə onlarla döyüşmək barədə tayfa və səhranişin əhalinin başçıları və ağsaqqalları ilə məsləhətləşmə aparılsın, müharibənin aparılmasında onların məsləhətlərinə qulaq asılsın. Nadir şah oğluna onu da məsləhət gördü ki, özünü təhlükə içərisinə atmasın və imkan olduqca sülhə meyl göstərsin.

Nadir şah daha sonra əlavə etdi ki, oğrulara və yaramaz insanlara qarşı biganəlik göstərilməsin, xarici tacirlərlə və karvanlara qayğı və kömək göstərilsin. Belə olardısa xarici tacirlər Rzaqulu Mirzənin səxavəti və ədalətliliyi haqqında məlumatları öz ölkələrinə də yayacaqdılar. Nadir şah tövsiyə edirdi ki, rəiyyətə də qayğı göstərsin, haqqa barışmaz olan tayfalara qarşı barışmaz olsun, dövlətə sədaqətlə xidmət edən şəxslərin haqqı itirilməsin və onların zəhmətinin əvəzi verilsin.

Nadir şah məsləhətlərində daha sonra bildirdi ki, mənasız və gərəksiz yerə hədiyyə və ənamlar almasın, xəzinənin sərvətini boş yerə xərcləməsin, öz məsrəflərini daxil olan vəsaitə görə müəyyənləşdirsin. İki dinar qazanılandan sonra onun bir dinarı xərclənsin. Ölkə daxilində müxalifət baş qaldırdığı halda və bu müxalifətin fəaliyyəti dağıntılara səbəb olsa, onda qoşunların gücləndirilməsi üçün xəzinə vəsaitinə qənaət edilməsin.

Nadir şah ehtiyac olmadan çaparların ora-bura qovulmasına da ehtiyac görmədi. Nadir şah onu da əlavə etdi ki, əgər 6 ay müddətində Nadir şahdan bir xəbər çıxmasa onda ölkə daxilində özü lazım bildiyi şəkildə padşahlıq etsin. O eyni zamanda Rzaqulu Mirzəyə bildirdi ki, nə vaxtsa çoxlu qoşuna ehtiyac duysa belə Mərvdə, Marucaqda, Qəndəharda, İrəvan və Həmədanda, başqa sözlə sərhəd xəttində yerləşdirilmiş qoşun dəstələrinə toxunmasın (83).

Nadir şah oğluna bir sıra digər məsləhətlər də verdi. Axırda tapşırdı ki, əfşarların təcrübəli və mötəbər nümayəndələrindən olan Qədirqulu bəy Əfşarın və Hacı Məhəmməd bəy Əfşarın məsləhətlərinə daim qulaq assın və onlarla məsləhətləşməmiş idarəçilik işlərində hər hansı bir addım atmasın. Bu məsləhətlərini verəndən sonra Nadir şah oğlunu mürəxxəs etdi ki, geri qayıtmağa hazırlaşsın.

Elə həmin günlərdə Nadir şah Xorasandan həyəcan dolu xəbərlər aldı və Rzaqulu Mirzə şahlıq nayibi kimi yeni bir ciddi sınaqla üzbəüz qalmalı oldu. Nadir şah Hindistana doğru yürüşə başlayanda qardaşı İbrahim xanın böyük oğlu Əliqulu xanı Xorasan hakimi təyin etmişdi. Bu zaman onun cəmi 17 yaşı var idi. Vilayət işlərinin yaxşı aparılması üçün Nadir şah ona bir neçə təcrübəli əyan və sərkərdəni məsləhətçi vermişdi. Amma Əliqulu xan onların məsləhətlərinə elə də qulaq asmırdı. Ona görə də vilayət daxilində nizamsızlıq və hərc-mərclik artdı, sərhədlərin qorunmasına isə diqqət azaldı. Az bir zamanda Xorasanda yaranmış vəziyyət Xarəzm xanı İlbars xanın da qulaqlarına çatdı.İlbars xan həm Xorasan daxilində yaranmış nizamsızlıqlardan, həm də Nadir şahın Hindistan yürüşü ilə əlaqədar uzaqda olmasından istifadə edərək Xorasanı tutmaq niyyətinə düşdü. Münasib fürsəti əldən verməmək üçün İlbars xan Xarəzmdə məskunlaşmış müxtəlif tayfaların başçılarını, ağsaqqalları başına yığdı və onlara qoşun toplamağı tapşırdı. Tayfa başçılarını şirnikləndirmək və Xorasan yürüşünə səfərbər etmək üçün İlbars xan onlara yürüş ərzində çoxlu var-dövlət ələ keçirəcəklərini vəd etdi. Tayfa başçıları onun sözlərini qəbul edib əməli işə başladılar və bunun nəticəsi kimi qısa müddət ərzində 100 min nəfərlik bir qoşun dəstəsi toplandı (84).

İlbars xan Nadir şahın yoxluğundan istifadə edib çox böyük iddialara düşdü. O, tayfa başçılarına bəyan etdi ki, Xarəzm şahlarının yolu ilə gedərək bütün İranı işğal etmək niyyətindədir. İlbars xan hətta bu xəyali planları ilə də qane olmurdu. O ümid edirdi ki, əfşarlar dövlətinin bütün ərazilərinə sahib olduqdan sonra Nadir şahın ardınca Hindistana doğru hərəkət edəcək, orada Nadir şahı məğlub etməklə Hindistana da sahib çıxacaqdır.

İlbars xanın 100 minlik qoşunla hərəkətə başlaması xəbəri əvvəlcə Əliqulu xana çatdırıldı. O da bu qoşuna qarşı müqavimət göstərə bilməyəcəyi üçün Nadir şaha xəbər göndərdi. Nadir şah bu xəbərdən xeyli narahat oldu. Çünki İlbars xan kifayət qədər böyük qüvvə ilə Xorasana doğru hərəkətə başlamışdı. Nadir özü Xorasanda olsaydı İlbars xanın hücumunun qarşısını saxlayıb onu geri döndərə bilərdi. Amma Nadir şah bunun üçün Hindistan yürüşünü yarımçıq saxlamaq da istəmirdi. Onun

fikrincə, əgər Hindistan yürüşünü yarımçıq saxlayıb geri qayıtsaydı, əfqan və hind tayfaları Nadir şah qoşunlarını zəiflikdə və qorxaqlıqda günahlandıracaqdılar. Bunu isə Nadir şah özünə və qoşunlarına qarşı qiyamətə qədər yaddan çıxmayacaq danlaq kimi qiymətləndirirdi. Ona görə, Nadir şah Rzaqulu Mirzəni yanına çağırdı və İlbars xanın çoxsaylı qoşunları ilə döyüşə girməyi ona həvalə etdi. Nadir şah oğluna bildirdi ki, çox güclü bir düşmən ölkəyə qarşı hücuma hazırlaşır və o artıq belə hücuma müqavimət göstərməyin məsuliyyətini öz üzərinə götürməyi bacarmalıdır. Nadir şah Rzaqulu Mirzəyə tapşırıq verdi ki, Məşhəd qalasında müdafiə mövqeləri tutub Xorasan ətrafındakı hakimlərə, habelə İraq, Fars və Azərbaycan hakimlərinə məktub göndərib onların qoşun dəstələrinin Məşhədə gəlməsini tələb etsin. Nadir şah onu da tapşırdı ki, əgər bu yolla İlbars xanın qarşısını saxlamaq mümkün olmasa, əmisi İbrahim xana xəbər göndərsin və onuköməyə çağırsın. Nadir şah dedi ki, əgər bu da düşmənin qarşısını saxlamağa yetərli olmasa, onda onun yanına, Hindistana çaparlar göndərsin. O vəd etdi ki, qısa zaman ərzində özünü Hindistandan yetirərək İlbars xana elə bir dərs verəcəkdir ki, qiyamətə qədər yadından çıxmasın (85).

Rzaqulu Mirzə deyilənlərə qulaq asandan sonra Nadir şaha keçirdiyi narahatçılığın əbəs olduğunu inandırmağa çalışdı. O xatırlatdı ki, Qərşi qalası ətrafında Əbülfəz xanın qoşunları ilə döyüşəndə İlbars xan da ona qarşı mövqe tutmuşdu. Amma Əbülfəz xan məğlubiyyətə uğrayanda İlbars xan döyüşə girməyə ürək etməyib geri qayıtdı. Rzaqulu Mirzənin bu məlumatı Nadir şahda da bir əminlik yaratdı və özlüyündə oğlunun da ağır sınaqlara hazır olduğunu qəbul etdi. Bununla onun daxili təşvişi və narahatçılığı da müəyyən qədər aradan qalxdı.

Rzaqulu Mirzə dərhal Xorasana doğru istiqamət götürdü. Bir neçə gündən sonra o, Herata yetişdi və elə orada İlbars xanın qoşunlarının hücumunun dəf edilməsi üçün əməli tədbirlər görməyə başladı. Rzaqulu Mirzə Bəlxdə saxlanmış olan qoşun dəstəsinin rəhbərlərinə əmr göndərdi ki, vaxt itirmədən onun yanına gəlsin. Orada 6 min nəfərlik bir qoşun dəstəsi saxlanmışdı. Rzaqulu Mirzə eyni zamanda Mərv hakimi Kəlbəli xana da öhdəsində olan 3 min nəfərlik qoşun dəstəsi ilə birlikdə Sərəxsə gəlməsini tapşırdı. Rzaqulu Mirzə özü də Heratdan Sərəxsə yola düşdü. O, İlbars xana qarşı müqaviməti də burada təşkil etmək istəyirdi.

Bəlxə əvvəlki yürüşü zamanı Rzaqulu Mirzəni Təhmasib xan Cəlayir kimi bir təcrübəli sərkərdə və dünya görmüş dövlət xadimi müşayiət edirdisə, onun İlbars xana qarşı döyüşündə hər hansı bir tanınmış sərkərdə tərəfindən müşayiət olunması haqqında mənbələrdə bir məlumat yoxdur. İlbars xanın çox böyük sayda qoşununun hücumunun qarşısının

alınmasının böyük ağırlığı indi Rzaqulu Mirzənin üzərinə düşməli idi. Rzaqulu Mirzə Sərəxsə yola düşməzdən əvvəl Xorasan hakimi, əmisi oğlu Əliqulu Mirzəyə də xəbər göndərdi və Məşhəddə olan qoşun dəstəsinin də Sərəxsə istiqamətləndirilməsini ondan tələb etdi. Sərəxsə yetişən kimi Rzaqulu Mirzə bir dəstəni qarovul kimi vəzifələndirib Tecənə göndərdi. Bu qarovul dəstəsi İlbars xanın qoşunlarının qəfil hücumunun qarşısını almalı və ya ən azı qoşun dəstəsinin yaxınlaşması haqqında Rzaqulu Mirzəyə məlumat verilməli idi. Qarovul dəstəsinə o da tapşırıldı ki, mümkün olduqca İlbars xan döyüşçülərindən əsir götürülsün və bu əsirlərdən alınan məlumat əsasında İlbars xan qoşunlarının sayından, hazırlığından və planlarından xəbər tutulsun. Sonradan gücləndirilmiş olan qarovul dəstəsi yalnız bir neçə gündən sonra İlbars xanın qoşunlarının yaxınlaşmasının şahidi oldu və İlbars xan tərəfindən görülmüş ehtiyat tədbirlərinə görə onun dəstəsindən kiminsə əsir götürülməsi mümkün olmadı (86).

İlbars xanın qoşunları Sərəxsə yetişəndə Rzaqulu Mirzənin tabeliyində 8-9 min nəfərlik bir qoşun dəstəsi var idi. Bundan başqa bir də Məşhəddəki qoşun dəstəsinin gəlməsi gözlənilirdi. Həmin qoşun dəstəsinin yetişəcəyi halda belə Rzaqulu Mirzənin ixtiyarında olan qüvvə İlbars xanın qoşunlarından sayca çox az idi və az bir qüvvə ilə Sərəxs ətrafında açıq bir sahədə İlbars xana müqavimət göstərilməsi gözlənilən nəticəni verməyəcəkdi. Onda Rzaqulu Mirzə qərara aldı ki, Əbivərdə doğru geri çəkilsin. Həm Əbuvərd qalası, həm də Əbivərdin coğrafi şəraiti daha yaxşı müdafiə olunmağa və eyni zamanda müəyyən həmlələrin həyata keçirilməsinə də imkan verə bilərdi. Əgər Əbivərddə də uğursuzluğa düçar olsaydı, onda Rzaqulu Mirzə Məşhədə çəkilməyi planlaşdırırdı. Məşhədə dönəcəyi təqdirdə isə dərhal Mazandarana, İraqa, Azərbaycana, Xürrəmabada, Gürcüstana, Farsa, Kermana və Luristana xəbər göndərib yerli qoşun dəstələrinin hamısını Məşhədə toplaya bilərdi. Rzaqulu Mirzə ümid edirdi ki, əgər Məşhədə dönməli olsa yerlərdən topladığı qoşun dəstələri ilə İlbars xanı geri döndərməyə müvəffəq olacaqdır. O öz qərarını yanındakı qoşun sərkərdələrinə də açıqladı və onların da dəstəyini aldı. Bundan sonra Rzaqulu Mirzə ixtiyarında olan qoşun dəstəsi ilə birlikdə Əbivərdə çəkildi.

İlbars xan Tecənə çatandan sonra qüvvələrini üç böyük dəstəyə böldü. Onun rəhbərlik etdiyi dəstə Məşhədə doğru irəliləməli, başqa bir dəstə Səbzəvar və Nişapur istqamətində irəliləməli, üçüncü dəstə isə Sərəxsə doğru irəliləməli idi. Amma hücuma başlamazdan əvvəl İlbars xana xəbər göndərildi ki, Qazax hakimi Toxtamış 120 minlik bir qoşunla Xarəzmə hücum etmək qərarına gəlib. Bu xəbər İlbars xanı məc-

bur etdi ki, Xorasan vilayətinə hücum etmək niyyətindən daşınsın və öz xanlığını Toxtamış xanın hücumlarından qorumaq üçün geri qayıtsın. İlbars xanın geri dönmək qərarı onun qoşunları ilə Rzaqulu Mirzə qüvvələrinin açıq qarşıdurmasının qarşısını aldı və Xorasan vilayəti də böyük dağıntılardan nicat tapdı. Rzaqlu Mirzə İlbars xanın qoşunlarının geri qayıtması haqqında Nadir şaha məktub göndərdi. Özü isə Əbivərddən Məşhədə yola düşdü (87).

İlbars xan təhlükəsinin aradan qalxması Rzaqulu Mirzəyə imkan verdi ki, dinc şəraitdə ölkənin idarəçiliyi ilə məşğul olsun. O, Məşhədi özünə iqamətgah seçdi və ölkənin idarəçiliyini də buradan apardı. Nayibliyi dövrü Rzaqulu Mirzə üçün əsil sınağa çevrildi. Con Hanvey və ona istinad edən L.Lokkart nayibliyi dövründə Rzaqulu Mirzənin qəddarlıq və ifratlıq nümayiş etdirdiyini vurğulayırlar. Bu fikirlərinin təsdiqi kimi adı çəkilən müəlliflərin nümunə gətirdikləri faktlardan biri Rzaqulu Mirzənin bir çox hakimləri və əyanları yeniləri ilə əvəz etməsidir. Bununla belə, L.Lokkart öz tədqiqatında ingilis mənbələrinə əsaslanaraq Rzaqulu Mirzənin bir neçə ədalətli qərarı haqqında da məlumat vermişdir (88).

Rzaqulu Mirzə tərəfindən Nadir şahın təyin etdiyi bəzi hakimlərin yeniləri ilə dəyişdirilməsini M.K.Mərvi də təsdiq edir. O, konkret olaraq, Xorasanın və İraqın hakimlərinin və bir sıra məmurlarının Rzaqulu Mirzə tərəfindən dəyişdirilməsini qeyd edir və bu addımın atılmasının səbəbinə də toxunur. M.K.Mərvinin fikrincə burnundan uzağı görməyənlər və xəbislər Rzaqulu Mirzəyə çatdırırdılar ki, Nadir şahın əyalət vilayətlərinə təyin etdiyi hakimlər və məmurlar Nadir şahdan bir xəbər gəlməməsi sorağını eşitsələr, onda müxalifət və asilik yolunu tutacaq və mərkəzi hakimiyyətə itaətdən imtina edəcəklər. Ona görə də Rzaqulu Mirzə fəaliyyəti şübhə doğuran hakimləri və məmurları vəzifələrindən azad etdi (89).

M.K.Mərvi onu da bildirir ki, Rzaqulu Mirzənin ətrafında məkrli insanlar toplaşmışdılar və onlar Rzaqulu Mirzənin siyasətinə öz təsirlərini göstərmək istəyirdilər. Şübhəsiz ki, bunu istisna etmək olmaz. Nadir şahın yoxluğu dövründə Rzaqulu Mirzənin cavanlığından, onun çiyninə düşən məsuliyyətin sonsuz gərginliyindən istifadə edərək öz məqsədlərinə nail olmaq istəyən də var idi. Amma Nadir şah dövrünün siyasi sisteminin ciddi bəlalarından biri vilayətlərdə mərkəzdənqaçma meyllərinin qalması idi. Nadir şahın uzun müddət yoxluğu dövründə isə bu meyl bir qədər də açıqlanmışdı. Nadir şahdan 10 ay müddətində xəbər gəlməməsi Rzaqulu Mirzəni də narahat etməyə başlamışdı. Bununla əlaqədar o, bir neçə dəfə Kabul və Qəndəhar istiqamətinə atlılar göndərdi

ki, bəlkə Nadir şahın varlığından və ya yoxluğundan bir xəbər əldə etsin. Nadir şah haqqında hər hansı bir məlumatın əldə edilməməsi Rzaqulu Mirzənin təşvişini daha da artırdı. Məhz buna görə də Rzaqulu Mirzə ona tapşırılan dövlət üçün ehtimal oluna biləcək təhlükəyə də həssaslıqla yanaşırdı. Nadir şah özü də ondan 6 ay xəbər olmayacağı təqdirdə ölkəni özü bildiyi kimi idarə etməyə icazə vermişdi. Konkret tarixi şəraitdə isə hətta Nadir şahın öldürülməsi haqqında xəbərlər də yayılmışdı və Nadir şah haqqında sorağın olmaması yayılan şayiələrə inanmağa da əsas verirdi.

Bəzi vəzifə adamlarının fəaliyyəti və şəxsiyyəti barədə dəqiq məlumat olmadığı üçün onların yerdəyişməsinin əsaslı olub-olmadığını söyləmək çətindir. Ola bilsin ki, Rzaqulu Mirzə ona olan kənar təsirlərə və təcrübəsizliyinə görə müəyyən tələsgənliyə yol vermişdi. Onun tələsgənlikdən və ya məkrli intriqaların qurbanı olmasından və ya təcrübəsizliyindən irəli gələn elə qərarları var idi ki, onlara heç sonradan Nadir şah da haqq qazandırmadı. Belə addımların içərisində Rzaqulu Mirzənin Şah Təhmasibi öldürməsi də var idi.

"Aləm Ara-ye Naderi"də olan məlumatlara görə, Hindistan səfərində olan Nadir şahdan uzun müddət soraq çıxmayanda Rzaqulu Mirzənin ətrafındakı əyanlardan biri olan Məhəmməd Hüseyn xan Qacar Astrabadi onda şah Təhmasib haqqında mənfi fikir formalaşdırmağa çalışdı. Məhəmməd Hüseyn xan Rzaqulu Mirzəni inandıra bildi ki, əgər Nadir şahın sağ olmaması barədə xəbər alınarsa onda Şah Təhmasib fəallaşacaqdır. Həbsdə saxlandığı Səbzəvar əhalisi onu şah elan edəcək və sonra onun vilayət hakimliyinə iddia qaldırılacaqdır. Bu ehtimallara son qoyulması üçün Məhəmməd Hüseyn xan təklif etdi ki, Şah Təhmasib və onun övladları qətlə yetirilsin. Mənbəyə görə, Məhəmməd Hüseyn xanla həmfikir olan bir neçə digər əyan da Şah Təhmasibin öldürülməsində təkid etdilər və iki gün Rzaqulu Mirzəni dilə tutdular. Nəhayətdə, Rzaqulu Mirzə, Şah Təhmasibin və onun ailəsinin öldürülməsinə razılıq verdi və bu işi Məhəmməd Hüseyn xan Qacar Astrabadi ilə Ərdoğdu bəy Səbzəvariyə tapşırdı (90).

"Aləm Ara-ye Naderi"nin müəllifi M.K.Mərvi öz əsərində açıq-aydın şəkildə Şah Təhmasibi günahsız adlandırır və onun qətli haqqında qəbul edilmiş qərara haqq qazandırmır. Rzaqulu Mirzənin razılığını alandan sonra Şah Təhmasibin öldürülməsi üçün Səbzəvara gələn Məhəmməd Hüseyn xan qəddarlıqda günahlandırılır və o, cəllad adlandırılır. M.K.Mərvi bu sözləri ilə eyni zamanda Rzaqulu Mirzənin qərarına da əks mövqeyini nümayiş etdirir.

“Aləm Ara-ye Naderi”də yazılanlardan belə bir qənaətə gəlmək olar ki, Şah Təhmasibi öldürmək hərisliyi ilə gözləri qızışan Məhəmməd Hüseyn xan Səbzəvara yetişən kimi birbaşa Şah Təhmasibin iqamətgahına yollandı və Şah Təhmasibin hərəmxanadan divanxanaya gətirilməsini tələb etdi. Guya o, Rzaqulu Mirzənin sözlərini Şah Təhmasibə çatdırmalı idi. Hərəmxana xidmətçiləri tərəfindən Məhəmməd Hüseyn xanın sözləri Şah Təhmasibə çatdırıldı. Şah Təhmasib dərhal məsələnin nə yerdə olduğunu anladı və Məhəmməd Hüseyn xanın çağırışının əcəl çağırışı olduğuna şübhə etmədi.Buna görə də onunla görüşə yollanmazdan əvvəl ailə üzvləri və xidmətçiləri ilə halallaşıb vidalaşdı (91).

Mövcud olan məlumatlar bu hadisənin 1740-cı ilin fevralında baş verdiyini söyləməyə əsas verir(92).M.K.Mərvi Şah Təhmasibin və oğullarının öldürülməsi səhnəsini çox nisgilli bir şəkildə təsvir etmiş və həmin təsviri ilə özlüyündə şah ailəsinə qəddarlıq göstərilməsinin haqsızlığını bir daha təsdiq etmişdir.

Ailə üzvləri və hərəm xidmətçiləri onun nisgilinin və yaxınları ilə sanki son dəfə görüşürmüş kimi vidalaşmasının səbəbin soruşanda Şah Təhmasib onlara gördüyü yuxunu danışdı: “Dünən gecə yuxuda cəddim Şeyx Səfiəddini gördüm. O, atamla və digər əcdadlarımla cənnət bağında xuraman-xuraman gəzişirdilər. Atam məni görəndə soruşdu: nə üçün məni yad etmirsən və məni öz vüsalından məhrum etmişsən? Bu vaxt cəddim Şeyx Səfiəddin cavab verdi ki, qəm eləmə, görüşə hazırlaş ki, sabah axşam oğlanları və yaxınları ilə sənin və bizim görüşümüzə gələcəkdir” (93).

Şah Təhmasib ona görə ömrünün son dəqiqələrini yaşadığını yaxınlarının nəzərinə çatdırdı.Onun hərəmxanada ləngiməsini görəndə Məhəmməd Həsən xan özü icazəsiz ora daxil oldu. O əvvəlcə Şah Təhmasibi asmaqla öldürdü. Sonra qılıncı ilə onun 8-9 yaşında olan Abbas Mirzə adlı oğlunun boynunu vurdu. Daha sonra isə 7 yaşında olan İsmayıl Mirzə adlı oğlunu işgəncələrlə qətlə yetirdi. Bununla da ürəyi soyumayan Məhəmməd Hüseyn xanın əmri ilə Şah Təhmasibin hamilə olan bir neçə xanımı da öldürüldü. “Aləm Ara-ye Naderi”nin şəhadətinə görə, Şah Təhmasibin cənazəsi Məşhədə gətirildi və orada dəfn edildi. Digər qətlə yetirilənlər isə Səbzəvarda torpağa tapşırıldı. “Aləm Ara-ye Naderi”də o da bildirilir ki, Şah Təhmasib qətlə yetirildikdən sonra Rzaqulu Mirzə xatircəm oldu və ölkə daxilində nizam və asayişin yaradılması üçün ciddi addımlar atıldı. Nəticədə ölkə daxilində nizam və asayiş xeyli möhkəmləndi və hətta Rzaqulu Mirzənin xəyalından padşah olmaq da keçdi. Elə bu vaxtlarda Nadir şahın çaparları Məşhədə gəldilər və onun Hindistanı fəth etməsi ilə bağlı məktubunu Rzaqulu Mirzəyə təq-

dim etdilər. Rzaqulu Mirzə məktubu oxuyandan sonra atasının sağ olduğuna əmin oldu və çox güman ki, qəbul etdiyi qərarların heç də hamısının Nadir şah tərəfindən dəstəklənəcəyinə inanmadı. Ona görə də bəzi əmrlərindən peşman oldu. Heç şübhəsiz ki, onu peşmançılıq çəkməyə məcbur edən əməllərdən biri Şah Təhmasibin qətlinə fərman verməsi idi.Mövcud olan məlumatlara görə, Rzaqulu Mirzənin xanımı, Şah Təhmasibin bacısı Fatimə Soltan böyük qardaşının qətlə yetirildiyini eşidəndə dözə bilmədi və özünü öldürdü (94).

Rzaqulu Mirzə atasının sağ olması xəbərini eşidib şəhəri al-əlvan bəzətdi, küçələri çıraqban etdi, musiqiçiləri, kəndirbazları küçə və meydanlara toplayıb insanların əyləndirilməsinə başlandı. Şadlıq və şadyanalıq bütün şəhəri bürüdü. Rzaqulu Mirzənin xanımı Fatimə Soltan məhz bu şadyanalıq zamanı qardaşının öldürülməsindən xəbər tutdu və intihar etməklə Rzaqulu Mirzənin şadyanalıq mərasimini yasa çevirdi. Rzaqulu Mirzə xanımının dünyasını dəyişməsindən son dərəcə qəmgin oldu və bu hadisə onun üçün ağır bir dərdə çevrildi. Onun göstərişi ilə xanımı Fatimə Soltan bəyim də İmam Rza məqbərəsinin ətrafında, qardaşı Şah Təhmasibin qəbrinin yanında dəfn edildi.

Yuxarıda qeyd edildiyi kimi, Nadir şah Hindistana səfərindən geri qayıdanda yaxınlarını Herata çağırdı ki, onlarla orada görüşsün. Bir sıra əyanlar, hakimlər, Nadir şahın qardaşları və kiçik oğlu, qardaşı oğlu Əliqulu xan Herata gəldilər və orada Nadir şahla görüşdülər. Rzaqulu Mirzə isə dövlət işlərinin çoxluğunu bəhanə edərək atası ilə görüşmək üçün Herata gəlmədi. Bununla da əslində Nadir şahla oğlu Rzaqulu Mirzə arasında soyuq münasibətlərin əsası qoyuldu. Tarixçilər və tədqiqatçılar dəqiq şəkildə söyləyə bilmirlər ki, Rzaqulu Mirzənin Nadir şahın tələbinə belə soyuq münasibət göstərməsinin səbəbi doğrudanmı dövlət işlərinin çoxluğu idi? Ya da bəzi əməllərinə görə Nadir şahın qəzəbindən ehtiyatlanması idi? M.K.Mərvi təsdiq edir ki, Şah Təhmasibin qətlindən sonra Rzaqulu Mirzə dövlət idarəçiliyini kifayət qədər səriştəli şəkildə apardı. Bu da onda mənəmlik hisləri yarada bilərdi.

Nadir şah da elə Heratda eşitdiklərindən, sonra isə əyani görüşdə şahidi olduqlarından anladı ki, sevimli oğlu Rzaqulu Mirzə tamamilə başqa bir xarakterin sahibi olubdur.Onun hansı təmtəraqla atasının görüşünə gəlməsi Nadir şahı son dərəcə təəccübləndirdi. Bu görüş Xorasan vilayəti ilə Əfqanıstan sərhədinin kəsişməsində yerləşən Qaratəpə adlı məntəqədə baş verdi. Nadir şah arzulasa da Rzaqulu Mirzə Heratda onunla görüşə gəlmədi və onun gəlib çıxmasını da gözləmədi. Nadir şah Türküstana doğru hərbi yürüşə yola düşdü və yolu üzərində olan Qaratəpədə ora yetişən oğlu ilə görüşə bildi.

Rzaqulu Mirzəni müşayiət edən qvardiyası qiymətli əşyalarla və təchizatla bəzədilmişdi. Dəstə üzvlərinin libası daş-qaş içərisində idi, süvarilərin təm-təraqı göz qamaşdırırdı. Qaratəpəyə yollananda Rzaqulu Mirzəni 6 min nəfərlik cəzayirçi, 6 min nəfərlik süvari dəstəsi müşayiət edirdi. Görüş yerinə çatanda Rzaqulu Mirzə dəstəsini sıraya düzdü və Nadir şah oğlunun qvardiyasına baxış keçirdi.

M.K.Mərvi yazır ki, Nadir şah fil belində Rzaqulu Mirzənin dəstəsinin ilk sırasına yaxınlaşdı. Sonra at belinə qalxıb bu dəstənin düzülüşünü və döyüş təchizatını nəzərdən keçirdi. Bu vaxt Rzaqulu Mirzə və dəstədə olan sərkərdələr atdan yerə düşüb Nadir şahdan 50 metr aralıda dayanmışdılar. Nadir şah zərli papaqlar geymiş dəstəyə baxış keçirdikdən sonra əvvəlcə belə bir qüvvənin təşkili üçün əhsən dedi. Amma daxilində oyadılmış olan şübhə narahatlıqla əvəzlənməyə başlandı. Çünki artıq Nadir şahın qulağına çatdırılmışdı ki, Rzaqulu Mirzənin ürəyindən şahlıq keçir və bunun üçün Nadir şaha qarşı çıxmağa da meyllidir. Rzaqulu Mirzənin xüsusi təmtəraqla bəzədilmiş dəstəsini görəndə onun fərqlənmək cəhdinin də qara niyyətlərinin nəticəsi ola biləcəyini ehtimal etdi. Zahirən belə bir dəstənin yaradılmasını təqdir etsə də, daxilən oğlunun özünə qvardiya yaratmasından bir qədər əndişələndi və onu dağıtmağı qərara aldı.O öz sərkərdələrini başına topladı və bildirdi ki, Rzaqulu Mirzənin dəstəsi də Türküstan  yürüşünə hazırlaşan qoşunların tərkibinə qatılacaqdır. Nadir şah həmin dəstəni qoşun sərkərdələri arasında bölüşdürdü və bu dəstə qoşun daxilində əridildi. Rzaqulu Mirzənin yanında yalnız 30-40 nəfərlik mühafizə dəstəsi saxlanıldı (95).

Dəstənin dağıdılmasına görə Rzaqulu Mirzə xeyli narazı qaldı və bu narazılığını ətrafındakılardan gizləməyə çalışdı.Həmin günün axşamı Nadir şah onu çadırına çağırtdırdı. Onunla ayrıca söhbət etdi. Əvvəlcə, dövlət işləri ilə maraqlandı və sonra da onun dəstəsinin dağıdılması məsələsinə toxundu. Nadir şah bildirdi ki, onun bu məsələdən narazı qalmasından xəbəri var. O, dəstənin dağıdılmasının səbəbini belə izah etdi ki, iranlılar iki güclə qarşılaşmağa yox, bir güclə qarşılaşmağa adət ediblər. Ona görə də iki qoşun dəstəsi birləşdirildi və bir qoşun yaradıldı. Nadir şah buna görə oğluna qəmlənməməyi tövsiyə  etdi və xatırlatdı ki, onsuz da bütün dövlət də, bütün qoşunlar  da ona məxsusdur. Nadir şah onu da tövsiyə etdi ki, yersiz hisslərə qapılmasın və əlavə söhbətlər üçün mövzu verməsin.

Nadir şah sonra Şah Təhmasibin qətlə yetirilməsi ilə maraqlandı və bu hadisədən razı qalmadığını bildirdi. Həmin narazılığın və bütünlükdə Rzaqulu Mirzənin davranışında yaranan dəyişikliyin nəticəsi kimi Nadir şah onu nayiblikdən (varislikdən) azad etdi və Nəsrulla Mirzəni onun

yerinə təyin etdi. Nadir şah oğlanları Nəsrulla Mirzəni və İmamqulu Mirzəni, habelə hərəmxanasını Məşhədə yola saldı, Rzaqulu Mirzəni isə özü ilə Türküstan yürüşünə apardı (96).

Güman etmək olar ki, Rzaqulu Mirzənin Türküstan yürüşünə aparılması da təsadüfi deyildi.Atasının qərarından narazı qalmış Rzaqulu Mirzə yenidən Məşhədə qayıdacağı təqdirdə Nadir şahın xoşlamadığı əməllərə əl ata bilərdi. Nadir şahın yenidən uzunmüddətli hərbi yürüşdə olması isə buna əlverişli zəmin yarada bilərdi. Buxara və Xarəzmə hərbi yürüşlər zamanı Rzaqulu Mirzənin fəal döyüşlərə cəlb edilməməsi də deyilənlərə əsas ola bilər.

Buxara yürüşü zamanı Rzaqulu Mirzə atasının daha bir tələbinə əməl etmədi.Yuxarıda qeyd edildiyi kimi, Nadir şah Buxara hakiminin böyük qızını Rzaqulu Mirzəyə, kiçik qızını isə Əliqulu xana nikah etdirmək istəyirdi. Amma Rzaqulu Mirzə buna razı olmadı və Nadir şahın istəyinin əleyhinə getdi. Yəni, Rzaqulu Mirzə Buxara hakiminin böyük qızını deyil, kiçik qızını almaq istədi. İstəyi qəbul edilməyəndə ümumiyyətlə bu nikahdan üz döndərdi. Bu isə özlüyündə Nadir şahın Rzaqulu Mirzə ilə bağlı şübhələrini daha da artırdı.

Tədqiqatçılar güman edirlər ki, Türküstan yürüşü zamanı Rzaqulu Mirzənin vəzifədən azad etdiyi bəzi əyanlar yenidən Nadir şahın etimadını qazana bildilər və onlar Nadir şahda Rzaqulu Mirzə haqqında mənfi fikir formalaşdırmağa cəhd göstərdilər. Müəyyən mənada onlar öz istəklərinə nail də ola bildilər.

Türküstan yürüşündən geri qayıdandan sonra Nadir şah Dağıstan yürüşünə başladı. Bu dəfə də o, Rzaqulu Mirzəni özü ilə aparmaq qərarına gəldi və onun nəzarətdən kənarda qalmasına imkan vermədi. Məlum olduğu kimi,Dağıstan yürüşü zamanı Nadir şaha qarşı ən ciddi və təhlükəli sui-qəsd cəhdi həyata keçirildi. Mazandaran meşələrində edilən sui-qəsd cəhdindən sonra Rzaqulu Mirzənin özünü ona ilkin yetirənlərdən biri olması yenə Nadir şahda şübhə yaratdı. Ona elə gəldi ki, Rzaqulu Mirzənin bu sui-qəsddən xəbəri var və özünü tez bir zamanda Nadir şaha yetirməklə sui-qəsdin hansı nəticə ilə başa çatdığını görmək istəyirdi. Bu sui-qəsdi həyata keçirmiş Nikqədəmin sonradan verdiyi izahatlar isə onun Rzaqulu Mirzəyə olan şübhələrinin inama çevrilməsinə səbəb oldu.Nadir şah sui-qəsddən sonra yolunu Tehrandan saldı və Rzaqulu Mirzəni orada saxladı. Eyni zamanda Nadir şah məsələnin araşdırılmasını davam etdirdi. Nəhayət, Rzaqulu Mirzənin əvvəlki hərəkətləri, habelə sui-qəsdi həyata keçirənin bütün günahları Rzaqulu Mirzənin üstünə atması və çox güman ki, bir tərədən də Rzaqulu Mirzə əleyhdarlarının yerli-yersiz söylədikləri Nadir şahı öz qərarını qətiləşdirməyə sövq etdi.

Rzaqulu Mirzənin ona sui-qəsd təşkil etdiyinə özlüyündə əmin olandan sonra Nadir şah xeyli ciddi qərar qəbul etdi və Rzaqulu Mirzəni cəzalandırmağı qərarlaşdırdı. Bu vaxt o, Dağıstan yürüşündə idi. Onun əmri ilə Rzaqulu Mirzə Tehrandan Dağıstana gətirildi. Rzaqulu Mirzə Nadir şahın çadırının yaxınlığındakı çadırlardan birində yerləşdirildi və bir neçə gün mühafizəçilərin nəzarəti altında saxlanıldı. Nadir şah onu hüzuruna çağıranda sui-qəsddə iştirakını bir daha aydınlaşdırmağa çalışdı. Rzaqulu Mirzə birmənalı şəkildə bu hadisə ilə heç bir bağlılığının olmadığını bildirdi. Onu da əlavə etdi ki, əgər səltənət sahibliyi iddiasına düşsəydi bunu Nadir şah Hindistanda olarkən həyata keçirməyə çalışardı. Rzaqulu Mirzə qeyd etdi ki, Nadir şah dövləti daxilində hər şey onun da əlində olduğu halda belə bir iddiaya düşməyin və sui-qəsddə iştirak etməyin heç bir əsası yoxdur (97).

Nadir şah təkidlə Rzaqulu Mirzənin ona edilmiş sui-qəsdlə bağlılığına israr etsə də təkrar-təkrar "yox" cavabı aldı. O, oğlunun söylədiklərinin yenidən araşdırılmasına lüzum görmədən şübhələrindən də geri durmadı. Nadir şah oğlu ilə apardığı söhbətdən son dərəcə qəzəbləndi və onun həbs olunmasına göstəriş verdi. Fərraşlar Rzaqulu Mirzənin əliniayağını zəncirləyib çadırına apardılar. Nadir şah öz şübhələrini, Rzaqulu Mirzədən eşitdiklərini bütün gecə götür-qoy etsə də daxilində oğluna haqq qazandıracaq bir əsas tapmadı. Səhər açılan kimi Nadir şah Mirzə Zəkini, məirbaşı Hüseynəli xanı və Nəzərəli xanı yanına çağırtdırdı, oğlunun günahkar olub-olmaması ilə bağlı sualı onların da qarşısına qoydu. Nadir şah onlardan soruşdu ki, dünya malı üçün atasını qətlə yetirmək istəyən övladın cəzası nədir? (98)

M.K.Mərvinin yazdığına əsasən belə qənaətə gəlmək olur ki, bu şəxslər Rzaqulu Mirzə haqqında xoş sözlər söyləsələr də Nadir şahın qarşısında etiraz səsini qaldıra bilmədilər. Nadir şahın dərin psixoloji sarsıntılar keçirdiyi bir vaxtda bu əyanlar elə bir cavab verməli idilər ki, şahın əlavə qəzəbinə tuş gəlməsinlər.Onların cavabı da belə oldu ki, əgər Rzaqulu Mirzə deyilən kimi günahkardırsa, onda cəzalanmağa layiqdir.

Qeyd etmək lazımdır ki, mənbələr və eləcə də Nadir şahın həyatını öyrənən tədqiqatçıların çoxu Rzaqulu Mirzənin atasına qarşı sui-qəsddə iştirak etməsini müdafiə etmirlər. Bunu elə "Aləm Ara-ye Naderi"də də görmək mümkündür. Rzaqulu Mirzənin kor edilməsinə ötəri şəkildə toxunmuş olan "Tarix-e Cahanqoşa-ye Naderi" də Rzaqulu Mirzənin Nadir şaha qarşı sui-qəsdin təşkilində günahı olmadığını bildirir. Nadir şahın şəxsi həkimi olmuş və son günlərində onu müşayiət etmiş P.Bazen də Rzaqulu Mirzənin günahkar olmadığını iddia edir (99).

Əksər tarixçilər və tədqiqatçılar da bu fikri dəstəkləyirlər və oğlunun günahsız yerə kor edilməsi faktından Nadir şahın qəddarlığını sübutu üçün daha çox istifadə edirlər. Tədqiqatçıların fikrincə, şahlıq nayibliyinə təyin edildikdən sonra Rzaqulu Mirzənin davranışında baş verən dəyişikliklər onun daxili qürurundan, özünü daha çox ifadə etmək istəyindən və iradə müstəqilliyinə çalışmasından irəli gəlirdi. Onun xarakterinin bu elementləri aldadıcı təsəvvür yaratdığı kimi, bir çoxlarına da şayiələr quraşdırmaq üçün əsas verirdi. Nadir şah Hindistandan dönəndən sonra belə şayiələr daha da genişləndi. Ehtimal edilir ki, bu şayiələr bir tərəfdən Rzaqulu Mirzəyə yaxşı münasibət bəsləməyənlər tərəfindən yayılır və Nadir şahda onun haqqında xoşagəlməz təsəvvür formalaşdırılırdı. Digər tərəfdən də belə şayiələrin Nadir şahın zəiflədiməsinə çalışanlar tərəfindən də yayıldığını istisna etmək olmaz. Çünki Rzaqulu Mirzə artıq kifayət qədər formalaşmışdı, dövləti idarə etmək vərdişləri əldə etməkdə idi. O həm də Nadir şaha arxa-dayaq idi. Nadir şahı zərərsizləşdirmək istəyənlər Rzaqulu Mirzənin mövcudluğu dövründə öz niyyətlərinə çox çətin ki, nail ola bilərdilər. Onun aradan qaldırılması ilə Nadir şahın zərərsizləşdirilməsi daha da asanlaşa bilərdi. Gizli deyil ki, Rzaqulu Mirzə kor edilməsəydi və dövlət işlərinə cəlb edilmiş olsaydı, Nadir şahın qətlə yetirilməsi də həyata keçməyə bilərdi.

Mirzə Mehdi Astrabadi "Tarix-e Cahanqoşa-ye Naderi" əsərində fitnəkar şəxslərin Rzaqulu Mirzə ilə bağlı Nadir şahın beynini zəhərlədiklərini bildirir və konkret şəxslərin adlarını da çəkir. Bu Dilavər xan Taymaninin oğlu Ağa Mirzə idi (100). Həmin şəxs haqqında mənbələrdə hər hansı digər məlumat yoxdur. Çox güman ki, bu şəxs Nadir şahla tez-tez təmasda olmağa imkan verən bir vəzifə sahibi idi. Hər halda bu insanların apardığı təbliğat o dərəcədə təsirli olmuşdu ki, Nadir şah bütün səbrini itirib hövsələsizlik göstərməli oldu. O, Rzaqulu Mirzənin günahsız olması fikrini zehninə yaxın buraxmadı. O təkidlə bildirdi ki, yaxınlarından və dövləti sevənlərdən aldığı məlumatlar əsasında Rzaqulunun asiliyinə əmin olmuşdur. Nadir şahın qəzəbi o səviyyəyə qalxdı ki, hətta Rzaqulu Mirzənin öldürülməsi barədə də fikirləşirdi. Amma bu qərarını səsləndirməzdən əvvəl sakitliyə çəkilib hansı qərarı qəbul etməyi götür-qoy etdi və sonra Rzaqulu Mirzənin kor edilməsi haqqında əmr verdi (101).

Nadir şah onu da tələb etdi ki, Rzaqulu Mirzə gözləri çıxarıldıqdan sonra yenidən onun hüzuruna gətirilsin. Əyanlar və əmrin icraçıları belə də etdilər. Kor edilmiş oğlu onun qarşısında dayananda Nadir şah inana bilmədiyi bir qəddarlığa əl atdığının anladı, ürəyindən fırtına qoparan fəryadı göz yaşları ilə ətrafdakılara da aydın oldu. M.K.Mərvi yazır ki,

Rzaqulu Mirzənin kor edilməsi xəbəri onun hərəmxanasında xanımları, övladları və hərəmxana xidmətçiləri tərəfindən nalə və fəryadlarla qarşılandı. Bu ah-naləni eşidəndə Nadir şah da Rzaqulu Mirzənin hərəminə qədəm qoydu, daxilini parçalayan üzüntüləri boğa bilməsə də, hərəmdəkiləri sakitləşdirməyə çalışdı (102).

Nadir şah iki gün öz çadırından bayıra çıxmadı, oğluna qarşı nümayiş etdirdiyi qəddarlığın əzabları içində boğuldu. İki gündən sonra taxta çıxıb əyanları, sərkərdələri və qoşun başçılarını yanına topladı, atdığı addımın ağırlığını yada salıb onlara dedi: " İran tayfasında sifət, dəyanət və mürvət yoxdur. Bizim qiyamət odu kimi qəzəb atəşimiz alovlananda, qəhr dəryamız cuşa gələndə, dünya fatehi (özünü nəzərdə tuturdu – M.S.) öz sevimli oğlunun dünyaya baxan gözlərin kor etməyi qərara alanda sizlərdən bir neçəsi iltimas edib bu böyük əməlin icrasına mane olsaydı nə olardı? Qəzəb mənə hakim olduğu üçün bəlkə sizlərdən 3-4 nəfərin qətlinə fərman verərdim. Amma adlarınız bu dünyada qalardı" (103).

P.Bazenin yazdığına görə, Nadir şah onu oğlunun kor edilməsindən çəkindirməyən əyanlarını ciddi cəzalandırdı və onun əmri ilə Rzaqulu Mirzənin kor edilməsini izləyənlərin 50 nəfəri qətlə yetirildi.

Nadir şah həkimlərini çağırıb tapşırdı ki, Rzaqulunun kor edilmiş gözlərinin sağaldılmasına xüsusi diqqət yetirsinlər ki, heç olmasa ağrı hiss etməsin. Onların səyi nəticəsində 5-6 gündən sonra Rzaqulu Mirzənin ağrıları ötüşdü. Bundan bir neçə gün sonra isə Nadir şah Rzaqulu Mirzənin görüşünə getdi. O, oğlunun başını sinəsi üstünə alıb yanaqlarından öpdü və uzun-uzadı göz yaşları axıtdı. Nadir şah suallar verib oğlunu söhbətə çəkmək istəsə də, Rzaqulu Mirzə uzun müddət susdu. Nəhayət ona belə bir cavab verdi: Mənim gözlərimi çıxarsan da, ehtiyatı ol ki, öz gözlərini də əldən verib ruzigarını qara edəsən (104).

Bəzi müəlliflərin yazdığına görə, Nadir şahın sərt əmri icra olunandan sonra Rzaqulu Mirzə ona belə dedi: " Sizin kor etdiyiniz mənim gözlərim deyil, bəlkə İranın kor edilmiş gözləridir" (105).

M.K.Mərvi nəql edir ki, oğlu ilə görüşəndə Nadir şah ondan nə istədiyini soruşdu. Rzaqulu Mirzə də ondan üç xahiş etdi. Birinci xahişi o idi ki, oğlu Şahruxa toxunmasın və onu da zəlil günə salmasın. İkinci xahişi o oldu ki, onun xidmətində olmuş əyan və sərkərdələrə toxunmasın. Və nəhayət, üçüncü xahişi də o oldu ki, ona İmam Rza məqbərəsində ömrünü ibadətlə keçirməyə şərait yaratsın. Nadir şah bu xahişləri qəbul etdi və qulamların müşayiəti ilə onu Məşhədə yola saldı. Rzaqulu Mirzə bir müddət İmam Rza məqbərəsində yaşadı (106). Nadir şah qətl olunmaq ərəfəsində ailəsini və Rzaqulu Mirzəni Kelata göndərdi. Nadir

şah qətlə yetirildikdən sonra hakimiyyətə yiyələnmiş qardaşı oğlu (yəni Rzaqulu Mirzənin əmisi oğlu) Əliqulu xanın göndərdiyi adamlar tərəfindən Kelatda Rzaqulu Mirzənin və onun yanında olan 16 nəfər uşağının və xanımlarının və yaxınlarının boynu vuruldu (107).

Rzaqulu Mirzənin ilk xanımından başqa digər xanımlarının adı məlum deyil. Mənbələrdə onun digər nikahları barəsində də məlumatlara rast gəlmək çətindir. Amma şübhəsiz ki, onun digər xanımları da olmuşdu. Xüsusilə ilk xanımının intiharından sonra onun xanımsız qalması inandırıcı görünmür. Övladlarından bəzilərinin doğum tarixinin Fatimə Soltan bəyimin intiharından sonrakı tarixə təsadüf etməsi də Rzaqulu MİrzƏnin digər xanımlarının olmasını təsdiq edir. Tarixi ədəbiyyatda Rzaqulu Mirzənin 6 oğlunun olması göstərilir Şahrux Mirzə (1734-1796), Fətəli (1735) Əhmədqulu (1736), Hümayun (1741), Bisütun (1744), Mahmud xan (1744), Şahrux Mirzənin də 4 oğlunun olması haqqında məlumat vardır: Nadir Mirzə, Abbas Mirzə, Nəsrulla Mirzə və İmamqulu Mirzə (108).

Rzaqulu Mirzə Məşhəddə, atası Nadir şahın qəbrinin yanında dəfn edilmişdir.

### 3. Nəsrulla Mirzə

Nəsrulla Mirzə, Nadir şahın ikinci oğludur. Mənbələrdə və tarixi ədəbiyyatda onun təvəllüd tarixi göstərilməmişdir. Nəzərə alınsa ki, Rzaqulu Mirzə 1719-cu ildə anadan olmuşdur, güman etmək olar ki, onların yaş fərqi elə də böyük deyildi.

Nəsrulla Mirzə Nadir şahın gəncliyində nikah kəsdirdiyi ikinci xanımından doğulmuşdu. Məlum olduğu kimi, Nadir şahın birinci xanımı vəfat edəndə, o, birinci xanımının bacısına, yəni, Babaəli bəy Kosaəhmədlinin ikinci qızına evləndi. Buna görə də Nəsrulla Mirzə ilə Rzaqulu Mirzə ata bir, anadan ayrı qardaş idilər.

Mövcud olan məlumatlara görə, Nəsrulla Mirzənin ilkin adı Murtuzqulu olmuşdur. Bəzi tarixi ədəbiyyatda onun tez-tez xəstələndiyi üçün (109), bəzi tarixi ədəbiyyatda isə Hindistan müharibəsində göstərdiyi şücaətə görə Nadir şah tərəfindən onun adının dəyişdirildiyi və Nəsrulla Mirzə adlandırıldığı qeyd edilir (110).

Nəsrulla Mirzənin də uşaqlığı haqqında mənbələrdə qane edici bir məlumata rast gəlmək mümkün deyildir. Heç şübhəsiz ki, Nəsrulla da sərt şəraitdə böyümüş, düşərgə mühitində tərbiyə almışdı. Tədqiqatçılar qeyd edirlər ki, Nadir şahın övladları ondan əvvəlki Səfəvi şahlarının

övladlarından tamamilə fərqli bir şəraitdə böyüyüblər. Ona görə də Nəsrulla Mirzə də cavanlığından mübariz bir döyüşçü kimi yetişmişdi.

Mənbələrdə Nəsrulla Mirzənin adının daha çox çəkilməsi onun Hindistan yürüşündə iştirak etməsi ilə əlaqədardır.Amma "Aləm Ara-ye Naderi"də onun adına Hindistan yürüşündən əvvəlki vaxtlarda da rastlaşmaq mümkündür.Məlumdur ki, Nəsrulla Mirzə də Muğan düzündə Nadir şahın tacqoyma mərasimində iştirak etmişdi. Elə bu mərasimdən dərhal sonra Nəsrulla Mirzə Nadir şahdan döyüş tapşırığı aldı. Ona verilən ilk döyüş tapşırığından biri kürd qiyamının yatırılması idi.Öhdəsində olan 12 min nəfərlik qoşun dəstəsi ilə Nəsrulla Mirzə Nadir şaha itaətdən boyun qaçıran Yəzdi kürdlərinə qarşı göndərildi. Sonrakı məlumatlardan aydın olur ki, Nəsrulla Mirzə Sulduz bölgəsinə göndərilmişdi. Belə ciddi döyüş tapşırığı almış Nəsrulla Mirzə çox güman ki, 16-17 yaşlarında idi. Nəsrulla Mirzənin ardınca Nadir şah özü də ölkənin qərbinə gəldi və orada Nəsrulla Mirzənin qoşun dəstəsi onun qoşununa qatıldı.

Nadir şahın tacqoyma mərasimindən Hindistan yürüşünün başlanmasına qədər bir illik fasilə vardır. Heç şübhəsiz ki, həmin müddət ərzində Nəsrulla Mirzə döyüşçü və sərkərdə kimi daha da formalaşmışdı. Vaxt ötdükcə Nəsrulla Mirzə Nadir şahın dayaqlarından birinə çevrilirdi.

Nadir şah böyük hərbi yürüşlərinə hər dəfə övladlarından birini özü ilə aparırdı.Hindistan yürüşündə iştirak etmək isə Nəsrulla Mirzənin qismətinə düşdü. "Aləm Ara-ye Naderi"də Nəsrulla Mirzənin adına Qəndəhar ətrafında rast gəlinir. Qəndəhar qalası üzərinə hücumda Nəsrulla Mirzənin hansı döyüş tapşırıqlarını yerinə yetirməsini söyləmək çətindir. Qala alınandan sonra Qəndəhar hakimi Nadir şahın qoşun dəstələrini və eləcə də onun özünü qarşılamalı oldu. Nəsrulla Mirzə tabeliyində olan 12 minlik dəstə ilə qalaya Nadir şahdan əvvəl daxil oldu. Qəndəhar hakimi Hüseyn şah bu dəstənin təchizatına və nizamlılığına görə Nəsrulla Mirzənin Nadir şah olduğunu güman etdi. Əfqanlar bildirdilər ki, bu dəstənin rəhbəri Nadir şah yox, onun oğlu Nəsrulla Mirzədir. M.K.Mərvi yazırdı ki, Qəndəhar hakimi Nəsrulla Mirzəni görüb heyrətə gəldi (111).

Məlumdur ki, Qəndəharın alınması bir müddət uzandı. Qalaya təşkil edilən hücumlarda, qalanın ətrafının hərbi şəraitinin öyrənilməsində Nadir şah şəxsən iştirak edirdi. Bir çox hallarda bunu o, gizli şəkildə edirdi. Belə vaxtlarda Nadir şah oğlu Nəsrulla Mirzəni öz divanxanasında əyləşdirərdi ki, ətrafdakılar Nadir şahın yerində olduğunu güman etsinlər (112).

Nadir Şahın Hindistan yürüşünün həyata keçirilməsində qarşıya bir sıra çətinliklər çıxdı ki, onlardan biri də qoşunların hərəkət marşrutu üzərində və ya yaxınlığında yerləşən çoxlu sayda tayfaların itaət altına gəlmək istəməməsi idi. Onları adlayıb irəli hərəkət etmək belə hərbi baxımdan risqli idi. Ona görə Nadir şah xüsusilə Əfqanıstan ərazisində məskunlaşan və Nadir şah qoşunlarına qarşı üsyankar mövqe tutan tayfaların itaət altına gətirilməsinə də ciddi diqqət ayırdı. Belə tayfaların bəzilərinin itaət altına gətirilməsini Nadir şah Nəsrulla Mirzəyə tapşırdı. Nadir şah qoşunlarının əsas hissəsi ilə Qəznəyə doğru irəliləyəndə Nəsrulla Mirzəyə tapşırıq verdi ki, 20 minlik dəstə iləLəğman istiqamətinə irəliləsin, bu məntəqəni və Zəhhak qalasını ələ keçirsin, racput və hezarə tayfalarını isə itaət altına gətirsin. Nadir şah yola düşməzdən əvvəl Nəsrulla Mirzə ilə görüşdü, onu təlimatlandırdı, görəcəyi vəzifələri dəqiqləşdirdi və nəhayət ona ehtiyatlı olmağı tapşırdı (113). Dəqiqləşdirilmiş tapşırığa əsasən Nəsrulla Mirzə Zəhhak Marduş qalasına doğru istiqamət götürdü. Hezarə tayfasının itaət altına alınmasına isə digər bir dəstə göndərildi. Nəsrulla Mirzənin tutmalı olduğu Zəhhak qalası hündür dağların yüksəkliklərində yerləşirdi və at belində o qalaya yaxınlaşmaq mümkün deyildi. Qalaya  aparan yolun başlanğıcında 5-6 min nəfərlik tüfəngçilər dəstəsinin yerləşdirilməsi isə Nəsrulla Mirzənin qüvvəsinin irəliləməsini mümkünsüz edirdi.

Kəşfiyyat qrupu qala ətrafındakı şərait haqqında məlumat verəndə Nəsrulla Mirzə əmr etdi ki, sərkərdə və minbaşılar, yüzbaşılar və döyüşçülər atlardan piyada olsunlar və irəli atılsınlar. O qətiyyətlə tələb etdi ki,nəyin bahasına olursa-olsun qalaya aparan dərə yolu tutulmalıdır. Verilən tapşırığın icrasında Nəsrulla  Mirzənin qoşun dəstəsi əzmkarlıq və şücaət göstərdi və racput döyüşçülərini geri çəkilməyə məcbur etmək üçün mümkün vasitələrdən istifadə edildi. Xüsusən,  tüfəngçilər və kiçik artilleriyanın atəşləri qarşı tərəfin müqavimətini qırmaq üçün daha səmərəli oldu. Hündür dağ yamaclarında müdafiə mövqeləri tutan racputların geri oturdulmasında tüfəngdarların və artilleriyanın xidməti böyük oldu. Onların ardınca Nəsrulla Mirzə nərdivan və kəməndlə təchiz edilmiş döyüşçüləri irəli atdı və onların köməyi ilə döyüşçülərin bir hissəsini hündürlüyün üstünə qaldırmaq mümkün oldu. Nəsrulla Mirzə  görəndə ki, nərdivan və kəməndlə təchiz olunmuş dəstə hündürlüyə qalxıb şücaətlə döyüşürlər, onda özü də atdan yerə düşdü, böyük bir sipərin himayəsində qılıncla irəli atıldı. O döyüşməklə bərabər döyüşçülərini də qələbəyə çağırdı. Xorasan tüfəngdarları əlbəyaxa döyüşə girən Nəsrulla Mirzənin döyüşə çağırış sədalarını eşidəndə yeni bir ruh aldılar və böyük bir əzmkarlıqla düşmən üstünə atıldılar. M.K.Mərvinin yazdığına

görə, məhz Xorasan tüfəngdarlarının mübarizliyi yüksəkliklərdə əlverişli mövqe tutmuş racputları pərən-pərən saldı. Onlar mövqelərini tərk edib qaçmağa üz tutdular. Onların verdikləri itkilərin sayı isə 4 min nəfərə çatdı. Bununla həmin günün döyüşü başa çatdı. Nəsrulla Mirzə gecəni ələ keçirdiyi mövqelərdə keçirdi (114).

Racput döyüşçüləri geri çəkiləndən sonra Zəhhak qalasında möhkəmləndilər və Nəsrulla Mirzənin dəstəsinə müqavimət göstərmək üçün əlavə müdafiə tədbirləri gördülər. Qala divarları üzərinə tüfəngdarlar və artilleriya yerləşdirildi və bütün silahlılar döyüş hazırlığı vəziyyətinə gətirildilər. O biri günü qalaya yaxınlaşanda Nəsrulla Mirzə yenidən möhkəmləndirilmiş müdafiə sistemi ilə üzləşdi.

Zəhhak qalasında racput silahlı qüvvələrindən başqa Hindistan hakimi Məhəmməd şahın 12 minlik bir dəstəsi də var idi. Bu qala Hindistan hüdudlarında yerləşirdi və qalada yerləşdirilmiş dəstə də qərbdən və şimaldan Hindistan hüdudlarına ola biləcək basqınların qarşısını almalı idi. Məhəmməd şahın dəstəsi ilə racputlar arasındakı münasibətlər heç də həmişə ürəkaçan olmasa da, Nəsrulla Mirzəyə qarşı müqavimət göstərmək üçün birlikdə fəaliyyət göstərməyi razılaşdırdılar. Ona görə Nəsrulla Mirzənin qalanı ələ keçirmək işi bir qədər də çətinləşdi. Qalanın sıldırım qaya üzərində tikilməsi, 12 bürclə tamamlanan hündür divarlara malik olması da əlavə çətinliklər ortaya atdı. Buna baxmayaraq qala mühasirəyə alındı. Xorasan tüfəngdarlarına göstəriş verildi ki, əlverişli mövqelər seçib qala müdafiəçilərini atəşə tutsunlar. Mövcud olan artilleriyaya da belə bir vəzifə tapşırıldı.

Qala ətrafında manevr etmək üçün elə bir geniş imkan yox idi. Bu məqamdan qala müdafiəçiləri də faydalanmağa cəhd göstərdilər. Onların 4 min nəfərlik bir dəstəsi qaladan çıxıb Nəsrulla Mirzənin qüvvələrinin üstünə hücuma keçdi. Mürəkkəb şəraitdə olmasına baxmayaraq, Nəsrulla Mirzə özünü heç də itirmədi. O, cəzayirçiləri, artilleriyanı və tüfəngdarları elə ustalıqla döyüşə qoşdu ki, cəmi yarım saat ərzində hücum çəkən qüvvələrə zərbə endirildi. Onlardan 2 min nəfərə yaxını qətlə yetirildi, çoxlu döyüşçü isə canını xilas etmək üçün özünü qayadan atdı. Yalnız az miqdarda döyüşçü qala daxilinə dönə bildi. Bu qarşılaşmadan sonra racput tayfasının ağsaqqalları, sərkərdələri və əyanları bir yerə toplaşıb düşdükləri vəziyyəti müzakirə etdilər. Onların qərarı belə oldu ki, Nəsrulla Mirzənin dəstəsi ilə döyüşü davam etdirmək onlara fayda gətirməyəcəkdir. Ona görə də tayfanın ağsaqqalları barışıq təklifi ilə Nəsrulla Mirzənin yanına yollandılar. Nəsrulla Mirzə onların təklifini qəbul etdi və döyüşü dayandırdı (115).

Sonra Nəsrulla Mirzə hezarə tayfasının itaət altına gətirilməsinə yollandı. Bu iş də uzun sürmədi. Bu vəzifəni yerinə yetirəndən sonra Nəsrulla Mirzə Nadir şahın qoşunlarına qatılmaq üçün Kabula doğru istiqamət götürdü. Bir neçə gündən sonra o, Cəlalabadda Nadir şahla görüşdü. Məlumdur ki, Nadir şah burada həm də, Rzaqulu Mirzə ilə görüşdü O, Rzaqulu Mirzəni şahlıq nayibi edib Məşhədə göndərdi. Nəsrulla Mirzəni isə özü ilə Hindistan yürüşünə apardı.

Həmin yürüş ərzində məlum olduğu kimi, qoşunların qarşısına çıxan ciddi maneələrdən biri də Xeybər aşırımı idi. Bu aşırımda Pişavər hakimi tərəfindən 20 minlik bir qüvvənin yerləşdirilməsi oradan adlamağı xüsusilə çətinləşdirirdi. Yuxarıda qeyd edildiyi kimi, belə olanda Nadir şah ətrafın kəşfiyyatını aparıb bir qədər aralıda başqa bir çətin keçidin olduğunu aşkarladı və qvardiyası ilə həmin keçidə yollandı. Xeybər keçidi qarşısında qalan qoşunların əsas hissəsinə rəhbərliyi isə o, Nəsrulla Mirzəyə tapşırdı. Nəsrulla Mirzə elə etməli idi ki, Nadir şahın qoşundan uzaqlaşmasını qarşı tərəf hiss etməsin. O bu tapşırığın öhdəsindən bacarıqla gəldi və Nadir şah Xeybər aşırımını açandan sonra Nəsrulla Mirzə qoşunları oradan adlatdı (116).

Nəhayət, Hindistan yürüşünün zirvəsi olan, Hindistan taxt-tacının taleyi həll olunan Kərnal döyüşündə Nəsrulla Mirzənin döyüşçülük və sərkərdəlik istedadı bütün parlaqlığı ilə özünü göstərdi. M.K.Mərvi yazırdı ki, Kərnal düzündə qaracurlu, qacar, əfşar, Kukəlan, İraq və Azərbaycan dəstələri Nəsrulla Mirzənin rəhbərliyi altında döyüşürdülər (117).

Nadir şahın sərkərdəlik tarixinin yaddaqalan səhifələrindən olan Kərnal döyüşünün qələbə ilə başa çatdırılmasında Nəsrulla Mirzənin rəhbərlik etdiyi qüvvələrin də çox böyük xidməti oldu və məhz bu döyüşdə göstərdiyi şücaətə görə o "Nəsrulla Mirzə" adına layiq görüldü (118).

Müharibəni uduzan Hindistan hakimi Məhəmməd şah təslim olduğunu bildirmək üçün Nadir şahın düşərgəsinə gələndə onu əvvəlcə Nəsrulla Mirzə qarşıladı. Nadir şah özünün Hindistan şahına olan ehtiramının nümayişi kimi onu qarşılamağa oğlu Nəsrulla Mirzəni göndərdi. Məhəmməd şahı və onu müşayiət edən əyanları görəndə Nəsrulla Mirzə atdan yerə düşdü və təzim etdi. Əyanları xəbər verəndə ki, onu qarşılamağa gələn Nadir şahın sevimli oğlu Nəsrulla Mirzədir, Məhəmməd şah xeyli məmnun oldu, Nəsrulla Mirzənin üzündən öpdü və xahiş etdi ki, yenidən atlanıb yanı ilə hərəkət etsin. Amma Nəsrulla Mirzə Hindistan şahına ehtiram əlaməti olaraq ondan bir qədər arxada hərəkətini davam etdirdi. İki şah arasında münasibətlər aydınlaşandan sonra Nadir şah Hindistan şahının qızını oğlu Nəsrulla Mirzəyə almaq qərarına gəldi.

Baxmayaraq ki, Nadir şah Hindistanı fəth etmişdi və özünü burada fateh kimi apara bilərdi, bununla belə Nəsrulla Mirzənin evləndirilməsi məsələsinə çox ciddi yanaşdı və Məhəmməd şahın qızının elçiliyinə özünün sərkərdələrini və yaxın əyanlarını göndərdi. Onların arasında məirbaşı Həsənəli xan, Mirzə Zəki, Mustafa Beqdeli, Təhmasib xan Cəlayir, habelə bir neçə hind əyanları da var idi. Əyanlar və sərkərdələr nəyə görə gəldiklərini bəyan etdikdən sonra Məhəmməd şah bundan çox sevindi və o, Nəsrulla Mirzəni öz qardaşı oğlu bildiyini söylədi. Razılıq alınandan sonra qarşılıqlı hədiyyə mübadiləsi aparıldı. Nikah icra olunandan sonra isə Nadir şah kasıb-kusuba 50 min tümən sədəqə payladı (119).

Mövcud olan məlumata görə, hind qızı alan hər bir şəxs qız evinə elçiliyə gələrkən qız evinin xahişi əsasında yeddi arxa dönəninin adını bildirməli idi. Məhəmməd şah sarayında belə bir sual Nəsrulla Mirzəyə də verilir. Nəsrulla Mirzə də bunu Nadir şahdan soruşur. Nadir şahın cavabı isə belə olur ki, sən qılınc oğlusan, sənin atan da qılınc oğludur, onun da atası qılınc oğludur... Başqa sözlə yeddi arxa dönəninin qılıncdan törədiyini bildirir və bununla da bütün həyatının qılınc üzərində qurulduğunu vurğulayır (120).

Məlumdur ki, Nadir şah Hindistan yürüşündən geri qayıdandan sonra Rzaqulu Mirzəni şahlıq nayibliyindən azad etdi və onun yerinə Nəsrulla Mirzəni təyin etdi.

1743-cü ildə Nəsrulla Mirzə Şamaxıda Sam Mirzənin rəhbərliyi altında baş qaldıran qiyamın yatırılmasında iştirak etdi. Bu qiyam başlananda o, Xorasanda idi. Təbriz ətrafında olan Nadir şah onu Xorasandan çağırdı və 30 minlik bir qoşun dəstəsi ilə Sam Mirzə qiyamını yatırmağa göndərdi. Bu qiyam kütləviliyi ilə seçilən qiyamlardan biri idi və mənbələrin verdiyi məlumata görə ləzgilər tərəfindən dəstəklənən Sam Mirzənin rəhbərliyi altında 50 minik qoşun dəstəsi var idi (121).

Qarşı tərəfin qüvvə üstünlüyünə baxmayaraq Nəsrulla Mirzə vaxt itirmədən qiyamın yatırılmasına başladı. Onun və Sam Mirzənin qüvvələri Şirvan torpağında üz-üzə gəldilər. Nəsrulla Mirzə qüvvələrin sağ cinahını tanınmış sərkərdələrdən biri olan Mir Ələm xan Xəziməyə tapşırdı. Sol cinahdakı qüvvələrə rəhbərlik Məhəmmədəli xan Qacara, Məhəmməddust bəy Qırxlıya və Zaman bəy Özbəyə tapşırıldı. Qoşunların mərkəzi hissəsinin idarə edilməsini isə Nəsrulla Mirzə öz üzərinə götürdü. Sam Mirzə də müvafiq olaraq öz qüvvələrini qruplaşdırdı və malik olduğu say üstünlüyü ona döyüşdə təşəbbüsü ələ almaq imkanı verdi. Xüsusilə, Nəsrulla Mirzə qoşunlarının sağ cinahına ağır zərbə endirildi. Amma Məhəmmədhüseyn xan Qacarın, Sərdar bəy Əfqanın dəstələrinin fədakarlığı cinahın məhv edilməsinin qarşısını aldı. Həmin cinahda

döyüşlərin gərgin keçdiyi bir vaxtda Sam Mirzənin qoşunlarının arxasından döyüşə yeni qüvvələrin qoşulması haqqında xəbər alındı. Əvvəlcə bu qüvvələrin kimə məxsus olması və kim tərəfindən döyüşə qoşulması məlum deyildi. Sonradan məlum oldu ki, bu qüvvələr Nəsrulla Mirzəyə kömək üçün gəliblər. Həmin qüvvələr Nadir şah qoşunlarından olmaqla Dağıstan yürüşündən sonra Nadir şah tərəfindən istirahət üçün evlərinə buraxılmış şirvanlı döyüşçülər idi. Bu qüvvələr Nəsrulla Mirzənin bölgəyə qoşun çəkdiyini eşidəndə yenidən toplanıb ona kömək etməyi qərara aldılar. Onların böyük sürətlə, özü də Sam Mirzə qüvvələrinin arxasından döyüşə qoşulması Nəsrulla Mirzənin dəstəsinin qələbəsini təmin etdi. Sam Mirzənin qüvvələri pərən-pərən düşdü, özü isə əsir götürülərək Nəsrulla Mirzənin düşərgəsinə gətirildi. Aparılan araşdırmalar bu Sam Mirzənin Səfəvi xanədanı ilə heç bir bağlılığı olmadığını aşkarladı. Bundan sonra onun qətlinə göstəriş verildi (122).

Nəsrulla Mirzə 1743-cü ildə Mosul ətrafında Osmanlı qoşunları ilə baş verən növbəti döyüşdə də iştirak etdi. Qarşı tərəflər arasında ağır və qanlı döyüşlərin davam etdiyi bir vaxtda Nadir şah 12 min nəfərlik yeni bir qoşun dəstəsini Nəsrulla Mirzə ilə Əliqulu xanın rəhbərliyi altında döyüş meydanına atdı. Bu dəstənin böyük sürətlə döyüşə girməsi Osmanlı qüvvələri arasında bir vahimə yaratdı və onları geri çəkilməyə məcbur etdi. M.K.Mərvi yazır ki, bu qələbənin əldə edilməsinə, xüsusən Nəsrulla Mirzənin rəhbərliyi altında olan dəstənin göstərdiyi şücaətə görə Nadir şah atdan düşüb üzünü Allahına sarı tutdu, ibadət etdi və yaradana şükrlərini göndərdi (123).

Nəsrulla Mirzənin iştirak etdiyi son böyük döyüşlərdən biri 1745-ci ildə Mosul istiqamətində oldu. Osmanlı dövləti həmin il Nadir şaha qarşı çox ciddi bir kampaniyaya başladı. Bu dövlətin qoşunları Azərbaycan istiqamətindən, Bağdad istiqamətindən və Mosul-Diyarbəkir istiqamətindən Nadir şah qüvvələrinə zərbə vurmağı planlaşdırırdı. Nadir şah Qars istiqamətində Osmanlı qoşunları ilə qarşılaşmalı olanda Nəsrulla Mirzəni də Mosul istiqamətinə göndərdi. İraq, Fars, Kermanşah, Luristan, Kürdüstan və digər vilayətlərdən toplanmış qoşun dəstələri Nəsrulla Mirzənin rəhbərliyi altına verildi. Osmanlı qoşunlarına isə Abdulla paşa rəhbərlik edirdi və onun ixtiyarında çox böyük qoşun dəstəsi var idi. Qeyd etmək lazımdır ki, Nəsrulla Mirzə bu döyüşün aparılmasında da bir daha öz məharətini nümayiş etdirdi və Osmanlı qüvvələrinə heç bir şans vermədi. Nəsrulla Mirzənin bu qələbəsi isə öz növbəsində Nadir şahın vəziyyətini yüngülləşdirdi. Əslində, Osmanlı qoşunlarının strateji planlarını bir-birinə vurdu və onların üç istiqamətdən Nadir şaha güclü zərbə vurmaq niyyəti uğursuzluğa düçar oldu.

Nadir şahın qətli ərəfəsində Nəsrulla Mirzə Xorasan hakimi idi. Qətlindən bir gün əvvəl Nadir şah, yuxarıda qeyd edildiyi kimi, ailəsini və uşaqlarını daha təhlükəsiz saydığı Kelata göndərmişdi. Nadir şah qətlə yetirilən kimi, Əliqulu xan adamlarını Nadir şahın ailəsinin həbsinə göndərdi. Rzaqulu Mirzə dərhal həbs edilsə də, Nəsrulla Mirzə, İmamqulu Mirzə və Şahrux Mirzə Mərvə tərəf qaça bildilər. Əliqulu xanın adamları onları təqib etdilər və İmamqulu Mirzə ilə Şahrux Mirzəni ələ keçirə bildilər. Nəsrulla Mirzə onu təqib edənlərdən yaxasını qurtara bilsə də, Mərv qarovulçuları onu tanıyıb həbs etdilər və Kelata gətirdilər. Buradan da onu Məşhədə apardılar. Əliqulu xanın əmri ilə həm Nəsrulla Mirzə, həm də İmamqulu Mirzə Məşhəddə edam edildilər (124).

L. Lokkart Nəsrulla Mirzənin 6 oğlunun adını çəkir. Nadir şah tarixinin tədqiqatçılarından olan Qodusi isə onun 7 oğlunun olduğunu söyləyir və onların adlarını da sadalayır: Yulduz xan (1737), Mustafa xan (1742), Teymur xan (1743), Söhrab Soltan (1743), Murtuzqulu xan (1745- onun adı L. Lokkartın siyahısında yoxdur), Oğuzlu xan (1745) və Əsədulla xan (1747).

## 4. İbrahim xan

Qeyd olunduğu kimi, Nadir şahın bir doğma qardaşı var idi. Adı Məhəmməd İbrahim olan bu qardaşı mənbələrdə və tarixi ədəbiyyatda daha çox sadəcə İbrahim xan kimi xatırlanır. "Aləm Ara-ye Naderi"də onun doğulması barədə kiçik bir qeyd vardır. Amma onun doğulduğu tarix göstərilməmişdir. Hər halda bu mənbəyə görə, İbrahim Nadirin kiçik qardaşı idi. O, uşaq yaşlarında Nadirdən fərqli keyfiyyətlərə malik idi. Nadir daha çevik, fiziki hərəkətlərə və vərdişlərə daha çox meylli idisə, İbrahimdə bu keyfiyyətlər özünü elə də biruzə vermirdi və buna görə də tez-tez atasının qınaqlarına məruz qalırdı (125).

İbrahimin uşaqlıq və gəncliyi mənbə müəlliflərinin diqqətini cəlb etməmişdir. Nəzərə alınsa ki, İbrahim də gəncliyində Nadirin dəstəsinin üzvü olmuşdur, onda belə bir qənaətə gəlmək olar ki, o da gəncliyində at minməyi və qılınc tutmağı öyrənmişdi.

İbrahimin adının "Aləm Ara-ye Naderi"də çəkilməsi tarix etibarilə XVIII əsrin 20-ci illərinə təsadüf edir. Mənbədə göstərilir ki, Nadir öz dəstəsinin bir hissəsini qardaşı İbrahimin rəhbərliyi altında Qorqan qalasında saxladı və özü isə Əlieli tərəkəmələrinin itaət altına gətirilməsinə yollandı. Elə oradaca Nadirə qarşı itaətsizlik və xəyanət yolu tutmuş Aşur xanın bağışlanması üçün İbrahimim qardaşından xahiş etdiyi göstərilir. Əvvəlcə Nadirlə yaxşı münasibətdə olub, sonra təkrar-təkrar ona

xəyanət yolu tutan Aşur xanı ( I fəsildə bu barədə danışılıb) növbəti də-fə bağışlamasından (126) ehtimal etmək olar ki, Nadir hələ cavanlığında qardaşı İbrahimi çox istəyirdi. Həqiqətdə də belə idi. Nadir şah bütün həyatı boyu qardaşı İbrahimi və onun övladlarını çox istəyirdi və onları özünə arxa-dayaq hesab edirdi. İbrahimin dörd oğlu var idi: Əliqulu xan (1719), Məhəmmədəli bəy (atasının ölümündən sonra onun xatirəsinə İbrahim bəy kimi çağırılıb), Hüseyn bəy və Kazım. Onlar da Nadir şahın himayəsi və qayğısı altında böyümüşdülər. Mənbələrin məlumatlarından da görmək mümkündür ki, Nadir şah Əliqulu xanı öz övladları qədər sevirdi və ona çox etibar edirdi. Məlum olduğu kimi, yalnız Nadir şahın həyatının son illərində onların arasında münasibətlər gərginləşdi və öz övladı kimi sevib böyütdüyü Əliqulu xan həm Nadir şahın, həm də onun övladlarının həyatına son qoydu.

Təhmasib Mirzə ilə birləşməsi ərəfəsində Nadir qardaşı İbrahimi ev-ləndirdi. O, əfşar əyanlarından olan Tohid xan Soltanın qızını qardaşına istədi və tezliklə onların nikahını bağlatdırdı. İbrahimin böyük oğlu Əli-qulu da məhz bu nikahdan dünyaya gəldi.

Əbdali əfqanlarını zərərsizləşdirəndən və 1727-ci ilin sonlarında He-ratı nəzarət altına alandan sonra Nadir Məşhədə qayıdıb ölkənin qər-bində döyüşlər aparılması üçün hazırlıq işlərinə başladı. Bu vaxt Nadir Xəbuşan ətrafında yaşayan kürdlərin qiyam qaldırmaları və itaətsizlik göstərmələri barədə məlumat aldı. Nadir və onun ətrafındakılar belə bir qənaətə gəldilər ki, kürdlərin qiyamının cavabsız buraxılması bölgədə yaşayan digər tayfaları da itaətsizliyə təhrik edə bilər. Nadir qərara gəldi ki, Xəbuşana qoşun dəstəsi göndərsin və həmin qoşun dəstəsinə rəhbər-lik mənbədə artıq xan kimi təqdim olunan İbrahim xana həvalə olundu. Onun ixtiyarına verilən qoşun dəstəsinin tərkibi 10 min nəfərdən ibarət idi. "Aləm Ara-ye Naderi"yə əsasən, bu tapşırıq İbrahim xan tərəfindən müstəqil şəkildə və böyük qoşun dəstəsinin iştirakı ilə keçirilən ilk böyük və ciddi tapşırıq idi. Bu, eyni zamanda onu göstərirdi ki, həmin vaxt İbrahim xan artıq 10 min nəfərlik qoşun dəstəsinə rəhbərlik təcrübəsi əldə etmişdi. İbrahim xan tapşırığın icrasına yollanarkən Dərgəzdə mənzil saldı və qoşun dəstəsinə bir müddət istirahət verdi. Dərgəzin əyanları və sərkərdələri bir daha itaətlərini bəyan etdilər və yerli əhali arasında səfərbərlik aparıb kiçik bir dəstə təşkil etdilər və onu da İbrahim xanın dəstəsinə qatdılar (127).

İbrahim xan topladığı məlumatlar əsasında müəyyənləşdirdi ki, bölgədəki kürd qiyamına Nəcəf Soltan Qaracurlu adlı birisi rəhbərlik edir və bu qiyam bölgənin bir sıra məntəqələri tərəfindən dəstəklənir. İb-rahim xanın qoşun dəstəsi ilə bu qiyamın yatırılmasına gəlməsi xəbərini

eşidəndən sonra kürd əyanları və sərkərdələri ətrafdakı bütün məntəqələrə adamlar göndərdilər və İbrahim xana daha yaxşı müqavimət göstərilməsi üçün əlavə silahlı dəstələr istədilər. Ətraf məntəqələrdə dərhal belə hazırlıq işləri aparıldı və qısa müddətdən sonra İbrahim xanın dəstəsinə qarşı 20 min nəfərlik kürd dəstəsi formalaşdırıldı. Gərmxan adlanan məntəqədə İbrahim xanın dəstəsi Nəcəf Soltanın dəstəsi ilə üz-üzə gəldi. İbrahim xan əslində sayca ondan iki dəfə üstün olan dəstənin müqavimətini qırmalı idi. Bu vəzifənin öhdəsindən gəlmək üçün döyüşün ilk günü son dərəcə gərgin keçdi və ağır itkilərlə müşayiət olundu. Döyüş günün sonuna kimi davam etdi. Qürub düşəndə dəstələr öz mövqelərinə çəkildilər. İbrahim xanın dəstəsindəki itkilərin çoxluğu döyüşün uğurla başa çatacağına bir nigarançılıq yaratsa da səhəri gün tərəflər yenə qarşı-qarşıya gəldilər. Günün sonuna döyüşün taleyi yenə həll olunmadı. "Aləm Ara-ye Naderi"də olan məlumata görə, bu dəstələr arasındakı döyüş yeddi gün, yeddi gecə davam etdi. Nəcəf Soltan və onun sərkərdələri yaşadıqları bölgədən əlavə qoşun dəstələri topladılar və onları təchiz edib döyüş meydanına atdılar. Bu da İbrahim xanın dəstəsini üstələməyə imkan verdi. İbrahim xanın bir sıra sərkərdələri və döyüşçüləri qarşı tərəfin açıq üstünlüyünü görüb döyüşməkdən imtina etdilər. Qoşun daxilində vahimə və təlaş yayılmasına yol verməmək üçün İbrahim xan belələrindən bir neçəsini qətlə yetirdi və sonra Sərəxs və Zorabad tüfəngdarlarının əhatəsində özü döyüşə atıldı. Qarşı tərəfin mütləq üstünlüyünə baxmayaraq İbrahim xan yenə məğlub olmadı və günün sonuna kimi döyüşü davam etdirdi (128).

Bununla belə, çoxlu itkilər İbrahim xanın dəstəsini xeyli zəiflətdi. Bunu müşahidə edən Nəcəf Soltan bəyan etdi ki, növbəti döyüşlə həm İbrahim xanın, həm də Nadirin axırına çıxa biləcəkdir. İbrahim xan vəziyyətin mürəkkəbləşdiyini gördükdə Kərimxan qalasına çəkildi ki, heç olmasa dəstəsini tamamilə məhv olmaqdan xilas edə bilsin. Eyni zamanda, düşdüyü vəziyyət haqqında məktubla Nadirə xəbər göndərdi. Nadir qardaşı İbrahim xanın mühasirədə olmasından xəbər tutan kimi 8 minlik bir dəstə ilə Kərimxan qalasına yollandı. Nəcəf Soltan Nadirin öz dəstəsi ilə İbrahim xanın köməyinə gəlməsini xeyli sakit qarşıladı. 2 minlik bir dəstəni İbrahim xanın mühasirəsində saxlayıb qalan qüvvə ilə Nadiri qarşılamağa yollandı. Qeyd etmək lazımdır ki, bu döyüş Nadir üçün də xeyli ağır keçdi. Kürdlərin əlverişli mövqelər tutması onların gücünü daha da artırırdı. Üç gün davam edən döyüş Nadirin dəstəsinin müqavimət gücünü zəiflətdi və yalnız başqa tapşırığın icrası üçün göndərilmiş Mərv dəstəsinin yetişməsi Nadirin dəstəsini ağır vəziyyətdən xilas etdi. M.K.Mərvi Mərv dəstəsinin əzmkarlığını və şücaətini xeyli

qabarıq şəkildə təsvir etmişdir. Amma kürdlərin yeni-yeni dəstələrinin döyüşə qatılması döyüş təşəbbüsünün yenidən onlar tərəfə meyllənməsinə səbəb oldu. Belə olanda Nadir qardaşı İbrahim xana xəbər göndərdi ki, mühasirəni yarıb artilleriyası ilə onun köməyinə gəlsin. Yalnız İbrahim xanın gətirdiyi topların köməyi ilə Xəbuşan kürdlərinə qarşı başlanan döyüşü qələbə ilə başa çatdırmaq mümkün oldu (129).

Əsrin 30-cu illərinin əvvəllərində Nadir döyüşlər aparmaq üçün ölkənin qərbinə yollananda İbrahim xanı Xorasan hakimi təyin etdi. M.K.Mərvinin yazdığına görə, İbrahim xan Nadirin bu tapşırığının öhdəsindən gələ bilmədi. Vilayətin idarəçiliyinə onun diqqətinin zəifləməsi Herat əfqanlarını Xorasanın yenidən işğalına sövq etdi. Herat əfqanları Zülfüqar xanın rəhbərliyi altında qiyam qaldırıb Nadir tərəfdən ora hakim təyin edilmiş Allahyar xanı devirdilər. Onda Allahyar xan kömək üçün İbrahim xanın yanına gəldi. İbrahim xan da məsləhət üçün Nadirə məktub göndərdi. Nadir ona Herat üzərinə qoşun çəkməyə icazə vermədi.Onun nəzərincə bu, ağır nəticələrə gətirə bilərdi. Osmanlı qoşunları ilə döyüşləri başa çatdırdıqdan sonra Nadir özü yenidən Herata qoşun çəkmək niyyətində olduğunu bildirdi.

Amma Heratda qiyam qaldırmış qüvvələr yalnız Herat qalasını tutmaqla kifayətlənməyib Məşhəd üzərinə də hücum çəkdilər. İbrahim xan əfqanlara müqavimət göstərmək üçün tələsik hazırlıq gördü və 10 min nəfərlik bir dəstə hazırladı. O, artilleriyanın müşayiəti ilə dəstəsini Məşhəddən çıxardı və əfqanları qaladan kənarda qarşılamağı qərarlaşdırdı. 1730-cu ildə baş verən bu döyüş əfqanların üstünlüyü şəraitində keçdi. Belə olanda İbrahim xan qala daxilinə çəkildi və bir neçə gün qala daxilində müdafiə olundu. İbrahim xan qala xaricində əfqanlara yenidən müqavimət göstərmək istəsə də buna nail ola bilmədi və o, bütün qüvvələri ilə qala daxilində müdafiəyə çəkildi. Bir neçə günlük döyüşlər nəticəsində İbrahim xan çoxlu sayda itki verdi. Əfqanların mühasirəsi güclənəndə İbrahim xan yeganə çıxış yolunu yenidən Nadirdən kömək istəməkdə gördü. Bu məqsədlə Azərbaycanda olan Nadirin yanına çaparlar göndərdi. Çaparların göndərilməsindən təxminən 10 gün sonra əfqan sərkərdələri toplanıb vəziyyəti müzakirə etdilər. Qalanın mühasirəsinin uzanmasının və Nadirdən yardım gəlməsinin onların xeyrinə olmayacağı qənaətinə gəlib ələ keçirdikləri çoxlu qənimətlərlə geri çəkildilər (130).

İbrahim xanın çaparları əfqanların hücumu barədə xəbər çatdıranda Nadir son dərəcə qəzəbləndi. Sərkərdələrini və qoşun başçılarını toplayıb nə edilməsi barədə onlarla məsləhətləşdi. Sərkərdələr və qoşun başçıları bir tərəfdən Məşhəddə qoyub gəldikləri qohum-əqrabaları üçün təşviş keçirdiklərini bildirdilər. Digər tərəfdən də onlar strateji əhəmiy-

yətli Məşhədin itirilməsini yolverilməz hesab etdilər. Onların təklifi belə oldu ki, Məşhədin xilas edilməsi üçün dərhal əməli tədbirlər görülməlidir. Nadir də bu qənaətlə razılaşdı və Azərbaycandakı fəaliyyətini dayandırıb Məşhədə dönməyə qərar verdi. 35 gündən sonra Nadir dəstəsi ilə Nişapura yetişdi və oradan İbrahim xana məktub göndərdi. Nadir Məşhəddə baş verənlərdə onu da təqsirkar saydı və tələb etdi ki, onun gözünə görünməsin və onlar Məşhədə yetişənə kimi şəhəri tərk edib Əbivərdə yollansın. İbrahim xanın bu əmri yerinə yetirməkdən başqa çarəsi yox idi. Qəzəblənmiş qardaşının gözünə görünməmək üçün o, şəhəri tərk edib Əbivərdə yollandı (131).

Nadir Məşhədə daxil olandan sonra ilkin olaraq İmam Rzanın qəbrinin ziyarətinə yollandı. Sonra şah Çaharbağına çəkilib Məşhəd ətrafında baş verənləri araşdırdı.Məşhəd əyanlarının və ağsaqqallarının ifadəsi əsasında şəhərin müdafiəsi üçün qala döyüşləri aparılmasından xəbər tutdu. Bu döyüşlərdə əzmkarlıq və şücaət göstərən bütün döyüşçüləri və sərkərdələri səxavətlə mükafatlandırdı, qorxaqlıq göstərənlər, döyüşdən qaçanlar isə ciddi cəzalandırıldı. Eyni zamanda Nadir qardaşını da yaddan çıxarmadı. Nadir Məşhəd ətrafında baş verənlərdə qardaşını ittihamlandırsa da, ona olan qardaşlıq məhəbbəti heç də azalmadı. Onunla görüşməyə bir fürsət axtardı və tezliklə belə bir fürsətin yaranmasına çox sevindi. Ona xəbər verildi ki, Ərsari, Təkə, Yəmut tayfaları 10 min nəfərlik bir dəstə təşkil edib Tecən və Sarıqamışa toplayıblar və oradan vaxtaşırı Əbivərdə hücum edirlər. Baxmayaraq ki, Nadir Məşhədə hücum etmiş və Heratda qiyam qaldırmış əfqanları tezliklə cəzalandırmaq istəyirdi, bununla belə ilkin olaraq Əbivərdə yolandı. Nadir orada həm qardaşı İbrahim xanla görüşmək istəyirdi, həm də doğulduğu yurda baş çəkmək. Buna görə də dərhal dəstəsi ilə Əbivərdə yola düşdü. Nadirin Əbivərdə gəlməsi xəbərini eşidəndə İbrahim xan onun görüşünə getdi. Bu qarşılaşma zamanı Nadir bir tərəfdən qardaş məhəbbətini nümayiş etdirmək istəyirdisə, bir tərəfdən də sərkərdə və rəhbər prinsipiallığını əldən vermək istəmirdi. Əyanları və sərkərdələri qarşısında İbrahim xanın yol verdiyi laqeydliyə və biganəliyə münasibət bildirməməsinin digərlərinə pis nümunə olacağından ehtiyatlanan Nadir, əlini qamçıya atdı. Şahidlərin ifadəsinə görə, Nadir onu əhatə edənlərin qarşısında İbrahim xana 22 qamçı vurdu və dedi: «Ey itdən pis olan namərd. Nə səbəb oldu ki, mənim dəyərli qazilərimin və bahadırlarımın çoxunu tələf etdin, əfqanların əli ilə öldürdün?” Nadir hətta əlini qılıncına atdı ki, İbrahimin üstünə əl qaldırsın. Ona yaxınlaşanda isə qılıncının ağzını çevirdi və tiyəsinin arxası ilə atının yanından vurdu. Bundan sonra əlini dayandırıb öz istirahət yerinə yollandı. Belə bir görüşü gözləməyən əyan-

lar İbrahim xana yaxınlaşıb ona ürək-dirək verdilər, onu Nadirdən inciməməyə çağırdılar (132).

Gecədən keçəndən sonra Nadir qardaşının yanına gəldi. əlini onu boynuna salıb üzündən öpdü və dedi: " Can qardaşım, sən böyük qəflətə yol verdin.... Xorasanın yerli hakimlərinin hər biri bir eldən, qəbilədən və camaatdandır. Onların biri oğlunu, biri qardaşını itirib. Əgər onların qarşısında səndən tələb etməsəm, sonra təqsiri olan sərkərdələrdən də heç nə tələb edə bilmərəm" (133).

Nadir qardaşı ilə oturub xeyli söhbət etdi və aralarındakı inciklik yox olandan sonra Nadir yenə öz çadırına döndü. Nadir dəstəsi ilə əvvəlcə Tecən və Sarıqamışda toplaşan dəstələri əzdi, sonra isə İbrahim xanı və oğlu Rzaqulunu Məşhədə göndərdi. Özü isə Herata doğru istiqamət götürdü. Bir neçə gündən sonra Nadir İbrahim xanı yenidən yanına çağırıb Fərəhə göndərdi. Nadir, Herat qalasını mühasirədə saxladığı müddətdə Fərəh qalasının əfqanları müəyyən fəallıq nümayiş etdirdilər. Sonradan İbrahim xan Herata dönüb Nadirin qoşunlarına qatıldı və Heratın məsələsi onların birgə səyi ilə həll olundu.

Şah Təhmasibin Osmanlı qüvvələri ilə uğursuz döyüşünün nəticələrini araşdırmaq üçün İsfahana yollananda Nadir yenidən İbrahim xanı Xorasan hakimi elan etdi və onu Məşhəddə saxladı. Məlumdur ki, Nadir, Şah Təhmasibi taxtdan salandan sonra yenidən ölkənin qərbində döyüşlərə başladı. Bu müddət ərzində İbrahim xan Xorasanın hakimi olaraq qalmaqda idi. İbrahim xan Nadirin taxta çıxdığı vaxta qədər bu vəzifəni icra etdi. Muğan düzündə keçirilən tacqoyma mərasimində İbrahim xan da iştirak etdi. Mərasimdən sonra Nadir şah İbrahim xanı Azərbaycan bəylərbəyi və Azərbaycan sipəhsaları elan etdi. Bütün Cənubi Qafqaz və İran Azərbaycanı onun hakimiyyəti altına verildi. Azərbaycan bəylərbəyliyi həm Rusiya ilə, həm də Osmanlı dövləti ilə sərhəd olduğundan bu bölgə Nadir şah üçün strateji əhəmiyyət kəsb edirdi. Ona görə bu böyük bölgənin idarə edilməsini etibarlı bir şəxs kimi İbrahim xana həvalə etdi.

Azərbaycan bəylərbəyliyi kifayət qədər narahat bir bölgə idi. Bir tərəfdən Dağıstan xalqları və Osmanlı sərhədində olan kürdlər mütəmadi olaraq qiyamlar qaldırırdılar. Bir tərəfdən də Rusiyanın və Osmanlı dövlətinin müdaxilə təhlükəsi qalmaqda idi. Azərbaycan bəylərbəyi kimi Nadir şah tərəfindən ona verilən ilk tapşırıq da elə Osmanlı sərhədlərində yerləşən Yəzdi kürdlərinin qiyamının yatırılması ilə bağlı idi. Nadir şah onun ixtiyarına 12 min nəfərlik qoşun dəstəsi verib Yəzdi kürdlərinin qiyamını yatırmağa göndərdi. Bu yürüşdə Nəsrulla Mirzə də onu müşayiət edirdi. İbrahim xan bölgəyə yetişən kimi qısa müddət

ərzində ona verilən tapşırığı yerinə yetirdi. Yəzdi kürdlərinin qiyamı yatırıldıqdan sonra o, Təbrizə döndü. Azərbaycan bəylərbəyliyinin mərkəzi bura idi.

Nadir şah Hindistan yürüşü ilə bağlı Qəndəhar ətrafında olarkən İbrahim xana məktub göndərdi ki, qoşun dəstəsi ilə Gəncə və Qarabağ istiqamətində hərəkət etsin, Orada olarkən Nadir şah eyni zamanda sərkərdələrinin bir neçəsini Gürcüstan valisi Təhmurəs Mirzənin yanına göndərdi və onun qızını Əliqulu xana istədi. Nadir şah Əliqulu xanı evləndirmək istəyirdi və məktubunda bildirirdi ki, gərək ona padşahlara layiq bir toy qurulsun. Bu məsələ ilə bağlı İbrahim xan bəylərbəyliyin bir sıra yerli xanlarına məktub göndərdi ki, ixtiyarlarında olan qoşun dəstələri ilə onun yanına toplansınlar. Kifayət qədər böyük bir qoşun dəstəsi toplanan kimi İbrahim xan şimala doğru hərəkətə başladı. Bərgüşada çatandan sonra bir neçə sərkərdəni və ağsaqqalı çoxlu hədiyyələrlə birlikdə Gürcüstan valisinin sarayına elçiliyə göndərdi (134).

Gürcüstan hakimi qızını Əliqulu xana verməyə o qədər də meylli olmasa da İbrahim xan məqsədinə nail oldu və tezliklə Əliqulu xana təmtəraqlı bir toy edildi. İbrahim xan oğlunu Məşhədə göndərdi və özü isə Gəncə yaxınlığında qaldı. Amma tezliklə bu bölgədə taun xəstəliyinin yayılması İbrahim xanı məcbur etdi ki, Təbrizə çəkilsin. Qorxulu xəstəliyə mübtəla olmamaq üçün Təbrizlə Ərdəbil arasında baş girləyəndə İbrahim xan Məşhəddən Rzaqulu Mirzənin Bəlxi tutması və Qərşi qalası ətrafında Əbülfəz xanla uğurlu döyüşlər aparması haqqında məlumat aldı. M..Mərvinin yazdığına görə, İbrahim xan oğlu yerində olan Rzaqulu Mirzənin hərbi uğurlarını eşidəndə özü də fatehlik xəyalına düşdü və fikirləşdi ki, Rzaqulu xan uşaq olduğu halda bu işləri görə bilirsə, onda o da gedib Dağıstanı tuta bilər. M.K.Mərvi öz əsərində İbrahim xanın bu düşünülməmiş qərarını bəyənmədiyini açıqca bildirir və yazır ki, bu xam xəyallarla o, Azərbaycan məntəqələrinə əmr göndərib yerli hakimləri qoşun dəstələri ilə birlikdə yanına tələb etdi. Bu əmri alan kimi Urmiya, Marağa, Soyuqbulaq, Bərgüşad, Qaradağ və başqa məntəqələrin qoşun dəstələri Təbrizə axışdı. Dərhal da qoşunlar toplar və zənburəklərin müşayiəti ilə Qarabağa hərəkətə başladılar. Bura yetişəndə Şirvan, Gəncə, İrəvan, Gürcüstan və Qarabağ vilayətlərinin də qoşun dəstələri İbrahim xana qoşuldular. "Aləm Ara-ye Naderi"nin verdiyi məlumata görə, qoşunlar Bərdə yaxınlığında toplaşdılar. İbrahim xanın əmri ilə mütəxəssislər Kür çayı üzərində möhkəm bir körpü saldılar və qoşunlar çətinlik çəkmədən çayın o biri sahilinə adladılar. Kürü adlayandan sonra İbrahim xan qoşunlara baxış keçirdi. M.K.Mərvinin yazdı-

ğına görə, İbrahim xan 32 minlik bir qoşun dəstəsi toplaya bildi. Onların təchizat səviyyəsi də İbrahim xanı razı saldı (135).

İbrahim xanın bu yürüşü Nadir şahla razılaşdırılmamışdı. Ona görə M.K.Mərvi onu xam xəyallara düşməkdə qınayırdı. Doğrudur, Nadir şah bəylərbəylik daxilində nizam və asayiş yaratmaq üçün İbrahim xana bütün səlahiyyətləri vermişdi. Baş verə biləcək qiyamları yatırmaq üçün onun ixtiyarında hərbi qüvvə də var idi. Amma Dağıstanda baş qaldıran qiyamların vaxtında yatırılmaması onun əhatə dairəsinin genişlənməsinə səbəb olmuşdu. Əslində, Nadir şahın hərbi fəaliyyəti dövründə burada sabit bir vəziyyət yaradıla bilmədi. Bölgənin mərkəzdən uzaqlığı, ağır təbii şərait, məntəqələr arasında əlaqələrin zəifliyi Dağıstanda qalxan qiyamın yatırılmasını xeyli çətinləşdirirdi. Burada hərbi tapşırıqların həyata keçirilməsi üçün qoşunların sayı da əsas şərt deyildi. İbrahim xan bu cəhətləri nəzərə almadan Dağıstana doğru hərəkətə başladı ki, bu da təkcə onun qoşunlarını deyil, elə özünü də ciddi təhlükə qarşısında qoydu.

Kür çayını adlayandan sonra İbrahim xan Qax və Qanıq hakimi ləzgi Usmiyə məktub göndərdi və ondan tələb etdi ki, itaət göstərmək istəyirsə qoşunlar üçün zəruri olan ərzaqla birlikdə düşərgəyə gəlsin. Əgər Qax və Qanıq hakimi bu tələbi yerinə yetirsəydi, İbrahim xanın qayğısı ilə qarşılaşmalı idi. Ləzgi Usmi bu təklifi qəbul etdi və bir sıra ağsaqqallarla birlikdə İbrahim xanın düşərgəsinə gəldi. İbrahim xanın tələbi ilə o, Dağıstan tayfalarının hakimləri olan Böyük Usmiyə, Əhməd xana, Şamxala, Molla Şabana və Surxay oğlu Murtuzəliyə məktub yazdı və onları da İbrahim xana itaət göstərməyə çağırdı. Tayfa başçıları bu məktubda yazılanları qəbul etmədilər və onlar hamisi İbrahim xanla döyüşə hazırlaşmağa başladılar (136).

İbrahim xan bir müddət Kür çayı sahilində dayandıqdan sonra Qaxa doğru hərəkətə başladı ki, orada itaət göstərməyən Dağıstan tayfalarına qarşı döyüşləri təşkil etsin. Əyriçayı adlayandan sonra İbrahim xanın qoşunları bölgənin sıx meşəliklərinə daxil oldu və tezliklə Qax qalasına yetişdi. İbrahim xan Car və Tala istiqamətində hərəkətə başlamazdan əvvəl Qax qalasını möhkəmləndirməyi əmr etdi.Bu tədbir Car və Tala əhalisinin qəfil hücumlarının qarşısını almaq üçün edilirdi.Qəfil hücumların qarşısını almaq üçün hətta Qax qalası ilə bir qədər aralıda yerləşən Ağ Bürc qalası arasında qarovul xidməti təşkil edildi. Bu qala hələ Şah Abbas vaxtında Car və Talaya hücumların təşkili üçün dayaq nöqtəsi kimi tikilmişdi. İbrahim xan bir müddət gözləsə də itaətsizlik yolunu tutmuş Car və Tala əhalisinin hər hansı bir hücumu ilə qarşılaşmadı.

Hücumunu gözlədiyi Car və Tala əhalisinin gözə görünməməsi İbrahim xanı məcbur etdi ki, gələcək fəaliyyət barədə qoşun başçıları və sərkərdələrlə məsləhətləşmə aparsın.Onun əmri ilə çağırılmış toplantıda Gürcüstan sərdarı Xəncan xan, Gəncə hakimi Uğurlu xan, Bərdə hakimi – Uğurlu xanın qardaşı Həsən xan, Şirvan hakimi Məhəmmədqulu xan Əfşar, Marağa hakimi Məhəmmədrza xan, Ərdəbil hakimi İmamqulu xan, Dünbülü camaatının hakimi Murtuzqulu xan, Soyuqbulaq hakimi Əlinağı xan və başqaları iştirak edirdilər. Hakimlər və sərkərdələr belə məsləhət verdilər ki, bütün təchizat Qax qalasında saxlansın və qoşunlar isə Ağ Bürc qalasına tərəf hərəkət etsin. Bu qalanın ətəyində başqa bir qalanın tikilməsi də məsləhət bilinirdi. Həmin qalanın Car və Talaya hücum üçün bazaya çevirmək olardı. İbrahim xan bu təklifləri qəbul etdi və yeni qalanın tikilməsinə başlamaq üçün lazımi göstərişlər verdi (137).

İbrahim xanın qoşunlarının yavaş-yavaş irəlilədiyini və tək başına ona müqavimət göstərməyin çətin olduğunu görən Car əyanları Surxayın və Böyük Usminin yanına qasidlər göndərdilər və onları birgə mübarizəyə çağırdılar. Car əyanları yurd və məzhəb xətrinə birlikdə mübarizə aparılmasının zəruriliyini onların nəzərinə çatdırdılar. Müraciət olunan şəxslər eyni zamanda genişlənməkdə olan təhlükənin qarşısını almaq üçün birgə mübarizə aparılmasına razı oldular və 20 minlik dəstə Car camaatının yardımına göndərildi. Dağıstan dəstələri birləşdikdən sonra İbrahim xanın qoşunları üzərinə hücum etməyi qərara aldılar. Amma İbrahim xan elə etibarlı müdafiə mövqeləri tutmuşdu ki, dağıstanlılar heç döyüşü başlamadan geri qayıtmalı oldular.Yalnız Cara və İbrahim xanın qüvvələrinin hərəkət edə biləcəyi yollar üzərinə nəzarət qrupları göndərildi.Bu qruplar İbrahim xanın mühafizə mövqelərinin ətrafında rastlaşdıqları gürcü və Şirvan döyüşçüləri qrupunu atəşə tutsalar da, onlar özləri çətin vəziyyətə düşdülər və onların çox azı salamat qaçıb canlarını qurtara bildilər. Bundan sonra İbrahim xanın xorasanlı cəzayirçiləri irəli atıldılar və yerli əhalinin yaylaqlarını və sığnaqlarını ələ keçirdilər. İbrahim xan və onun dəstəsi öz mövqelərini bir qədər də irəliyə apardı və gecəni də irəliyə çıxarılmış mövqelərdə keçirdi.

Sabahı gün İbrahim xan azərbaycanlı döyüşçülərin 2 minlik dəstəsinə göstəriş verdi ki,Car camaatı yaşayan məntəqəyə yollansın və orada qarşılarına çıxan olarsa onları qılıncdan keçirsin. Azərbaycanlı döyüşçülər carlıların yaşayış məskənində çox az adamla rastlaşdılar. Onları da əsir edib geri qayıtdılar. Bu kiçik tapşırığın icrasından sonra İbrahim xanın qüvvələri daha ciddi bir uğur qazana bildilər. Car camaatının elə də böyük olmayan silahlı dəstələri müxtəlif istiqamətlərdə görünüb döyüşə

qoşuldular. Sıldırım qayaların və qalın meşələrin müdafiə imkanlarından məharətlə istifadə edən carlılar İbrahim xanın dəstəsinə qarşı təzyiqi getdikcə daha da artırdılar. Şirvan və Dünbülü dəstələrini irəli atmaqla və Xorasan cəzayirçilərinin atəş qüdrətindən istifadə etməklə yerli dəstələrin fəallığının qarşısının alınması üçün göstərilən cəhdlər bir nəticə vermədi.Belə olanda İbrahim xanın itkiləri də çoxaldı.Gözlənilməz istiqamətlərdən vurulan zərbələr İbrahim xanın dəstəsini çıxılmaz vəziyyətə saldı. Belə bir vaxtda Gəncə hakimi Ziyadoğlu Uğurlu xan İbrahim xana yaxınlaşıb ona döyüş meydanından uzaqlaşmağı və təhlükəsiz yerə çəkilməyi məsləhət bildi. İbrahim xan döyüş meydanından uzaqlaşmağı özü üçün təhqir hesab etdi və Uğurlu xanın təklifini qəbul etmədi. Bu arada Uğurlu xan qarşı tərəfdən atılan tüfəng güllərindən birinə tuş gəldi. Ölüm ayağında olan Uğurlu xan qardaşı Həsən xandan da xahiş etdi ki, İbrahim xanı təhlükəli zonadan uzaqlaşdırsın. Uğurlu xan onu da əlavə etdi ki, əgər İbrahim xana bir hadisə üz verərsə Nadir şahın qəzəbindən bütün Azərbaycan od tutub yana bilər. Uğurlu xan bu sözləri deyib qurtarmağa macal tapmamış Həsən xan da tüfəng gülləsinə tuş gəldi. Təşəbbüsü ələ almış yerli qüvvələr müxtəlif istiqamətlərdən İbrahim xanın dəstəsini güclü atəşə tutdular. Vəziyyətin getdikcə daha da ağırlaşdığını görəndə digər sərkərdələr də İbrahim xana döyüş meydanını tərk etməyi məsləhət gördülər. Amma o buna daha fürsət tapmadı. Car döyüşçülərini gülləsi onu da tapdı. İbrahim xan həyatının son dəqiqələrində yaxınlıqdakı ağaclardan birinə dayaqlanıb içməyə su istədi. Minbaşı Əlixan bəyin verdiyi suyu içən kimi o, gözünü dünyaya qapadı (138).

1738-ci ilin sonlarına təsadüf edən bu hadisədən sonra İbrahim xanın dəstəsi pərən-pərən düşdü və bu dəstənin xeyli az hissəsi canını dəhşətli ölümdən xilas edə bildi.

Ləzgilər İbrahim xanı tabuta qoyub yanına mühafizəçilər təyin etdilər. Onlar vaxtilə İbrahim xan tərəfindən Təbrizdə zindana atılmış 16 nəfər ləzgi sərkərdəsinin və tayfa başçısının azad ediləcəkləri təqdirdə tabutu qaytarmağa hazır olduqlarını bildirdilər. Əks təqdirdə onlar İbrahim xanın cəsədini yandırmaqla hədələdilər. Hətta bir müddətdən sonra İbrahim xanın cəsədini tabutdan çıxarıb ağacdan asdılar və dedilər ki, həbsdə olan ləzgilər əzab çəkdikləri müddətdə İbrahim xanın cəsədi də bu əzabı çəkəcəkdir. Sonradan ləzgilərin vasitəçiliyi ilə Təbrizdə həbsdə olan 16 nəfər zindandan qaçırıldı. Onlar azad olandan sonra ləzgilər İbrahim xanın cəsədini yandırdılar.

Qardaşı İbrahim xanın faciəli ölümü haqqında xəbər Nadir şaha Pişavər ətrafında olanda çatdırıldı. Bu vaxt Nadir şah Pişavərin ələ keçiril-

məsindən çox məmnun olmuş və qoşunlara da bir neçə günlük istirahət vermişdi. Bu vaxt Təbrizdən gələn iki nəfər çapar – Turabəli xan Gəncəli və Abdulla bəy Zurabadi özlərini Nadir şahın düşərgəsinə yetirdilər. Nadir şah qardaşının öldürülməsini çox böyük üzüntü və qüssə ilə qarşıladı və hətta sərkərdələrinin qarşısında hönkürtü ilə ağlamaqdan belə özünü saxlaya bilmədi. Səhəri gün Nadir şah əyanlarını və sərkərdələrini toplayıb nə etmək lazım gəldiyi barədə məsləhətləşmə apardı. O geri qayıdıb İbrahim xanın qisasını almaq istəyirdi. Amma sərkərdələri və əyanları ilə məsləhətləşdikdən sonra özü belə bir qənaətə gəldi ki, Pişavərdən geri qayıtması qoşunları üçün təhlükəli ola bilər. Ona görə Nadir şah Hindistan yürüşünü davam etdirməyi qərara aldı. Qoşunlarının təcrübəli sərkərdələrindən olan Əmiraslan xan Qırxlını İbrahim xanın yerinə Azərbaycan bəylərbəyi təyin edib Təbrizə göndərdi.

Nadir şah özlüyündə söz verdi ki, Hindistan yürüşündən geri qayıdandan sonra Dağıstana qoşun çəksin və Dağıstan tayfalarından İbrahim xanın qisasını alsın. Bu barədə o, İbrahim xanın övladları qarşısında da söz verdi. Məlum olduğu kimi, onun xatirəsinə İbrahim xanın ikinci oğlu olan Məhəmmədəli bəy Nadir şah tərəfindən İbrahim xan adlandırıldı. Nadir şah doğrudan da Hindistan yürüşündən sonra əvvəlcə Türküstana, sonra da Dağıstana qoşun çəkdi. Amma gözlənildiyi kimi Nadir şah Dağıstanda dağıntılara, talan və qarətlərə yol vermədi. O, Dağıstan tayfalarının sərkərdələrini toplayıb onlara bəyan etdi ki, İbrahim xanın faciəli ölümünə görə Car və Tala camaatını günahından keçir. Nadir şah ümid edirdi ki, onun bu səxavətini Dağıstan tayfaları lazımınca qiymətləndirəcək və Nadir şaha itaətlərini davam etdirəcəklər (139).

M.K.Mərvinin yazdıqlarından belə məlum olur ki, Əliqulu xan atası İbrahim xanın Dağıstana qoşun çəkməsinin səbəblərini araşdırmışdı. Həmin araşdırmanın nəticəsi kimi məlum oldu ki, İbrahim xanın Dağıstana qoşun çəkməsinin bir səbəbi də sərkərdəsi Səməd bəy Təbrizinin təhriklərinə uyması idi. Səməd bəy təkrar-təkrar onun yanında bildiribmiş ki, gərək qəflətə uymayasan, yerində hərəkətsiz qalsan Nadir şah tərəfindən qətlə yetirilə bilərsən. Səməd bəy İbrahim xanı hətta ona da təhrik edibmiş ki, Dağıstanı nəzarət altına alıb Nadir şahdan aralanmağa çalışsın. M.K.Mərvi bu məlumatların doğru olub-olmadığına münasibətini bildirmədən Nadir şahın Səməd bəyi qətlə yetirdiyini bildirir. Qətl ediləndən sonra Səməd bəyin bütün var-dövləti xəzinənin hesabına müsadirə edildi.

Qardaşı İbrahim xanın qətlindən sonra Nadir şah ona olan məhəbbətini onun övladlarına istiqamətləndirdi. Nadir şah qeyd edildiyi kimi,

istər Əliqulu xanı, istərsə də Məhəmmədəli bəyi öz övladları kimi sevirdi. Xüsusən, Əliqulu xanı xüsusi qayğısı altında saxlayır və ona məsuliyyətli vəzifələri tapşırmaqdan da çəkinmirdi. Əliqulu xan da gündən-günə təcrübəsini artırdı və kifayət qədər təcrübəli bir sərkərdəyə çevrildi. Şücaətinə və əzmkarlığına görə Nadir şah onu hətta "səfpozan" adlandırırdı. Amma həyatının sonlarına yaxın Nadir şahla Əliqulu xan arasında çox ciddi təfriqələrin əsası qoyuldu ki, bu da Nadir şah xanədanı üçün faciəli sonluqla başa çatdı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s. s. 128, 189
2. Yenə orada, s. 156
3. Yenə orada, s. 240
4. Qodusi M.H. Nadername. Xorasan, 1339, s. 462
5. Larudi N. Nader pesər-e şəmşir. Tehran, 1383, s.30
6. Mərvi M.K. Aləm Ara-ye Naderi. C.I, Tehran, 1374, s.6
7. Yenə orada
8. Nader şah. Axərin keşvərqoşa-ye... , s.633; Qodusi, ... s.33
9. Əlirza Əfşar Cəm. Şiri ba şəmşir. Tehran, 1373, s.33
10. Aləm Ara-ye Naderi, c.I, ... s.6
11. Yenə orada
12. Yenə orada, s.7
13. Qodusi ... s.46
14. Aləm Ara-ye Naderi, c.I, ... s.10
15. Yenə orada
16. Yenə orada
17. Yenə orada, s. 35
18. Nader şah. Axərin keşvərqoşa-ye ... s.128; Qodusi .. s.462
19. Nəcmi N. Nader şah. Oqab-e Kelat. Tehran, 1382, s.21; Larudi ... s.30
20. Semnani Pənahi. Nader şah. Tehran, 1382, s.30
21. Aləm Ara-ye Naderi, c.I, ... s.13
22. Yenə orada
23. Astrabadi M. Tarix-e Cahanqoşa-ye Naderi. Tehran, 1368, s.271
24. Yenə orada, s.273
25. Qodusi ... s.462
26. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1383, s.322
27. Локкарт Л. Надир Шах. Баку, 2004, с.326
28. Hanvey C. ... s.9
29. Qodusi .. s.463
30. Aləm Ara-ye Naderi, c.I, ... s.66
31. Aləm Ara-ye Naderi, c.I, ... s.78
32. Aləm Ara-ye Naderi, c.I, ... s.80
33. Aləm Ara-ye Naderi, c.I, .. s.120
34. Aləm Ara-ye Naderi, c.I, ... s. 298
35. Aləm Ara-ye Naderi, c.I, ... s.299
36. Yenə orada

37. Yenə orada, s.352
38. Yenə orada
39. Yenə orada, s.353
40. Yenə orada, s.354
41. Yenə orada, s. 355
42. Yenə orada, c.II, ...s. 550
43. Yenə orada, c.I, .. s. 425
44. Yenə orada, c.II, ... s.801
45. Yenə orada, s.868
46. Yenə orada, c.III, ... s.919
47. Локкарт Л. Надир Шах. Баку, 2004, с.27
48. Frezer C. Tarix-e Nader şah Əfşar və moxtəsər əz tarix-e səlatin-e moğol dər hend. Tehran, 1363, s.148
49. Локкарт Л. Надир Шах. Баку, 2004, с.51; Qodusi ... s.467
50. Aləm Ara-ye Naderi, c.I, ... s.163
51. Yenə orada
52. Yenə orada, s.164
53. Yenə orada, s.166-167
54. Локкарт Л. Надир Шах. Баку, 2004, с.98
55. Aləm Ara-ye Naderi, c.I, ... s.238
56. Yenə orada, s.239
57. Yenə orada
58. Локкарт Л. Надир Шах. Баку, 2004, с.125
59. Yenə orada, s.125
60. Tarix-e Cahanqoşa-ye Naderi ... s.382; Aləm Ara-ye Naderi, c.II, ... s.571
61. Aləm Ara-ye Naderi, c.II, ... s.573
62. Yenə orada
63. Yenə orada, s.574
64. Yenə orada, s.577
65. Aləm Ara-ye Naderi, c.II, ... s.577-578; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 383
66. Aləm Ara-ye Naderi, c.II, ... s.579; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 385
67. Aləm Ara-ye Naderi, c.II, ... s.585
68. Aləm Ara-ye Naderi, c.II, ... s.586; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 384
69. Aləm Ara-ye Naderi, c.II, ... s.587; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 385
70. Aləm Ara-ye Naderi, c.II, ... s.588

71. Yenə orada, s.591-592
72. Yenə orada, s.602
73. Yenə orada, s.603
74. Локкарт Л. Надир Шах. Баку, 2004, с.201
75. Aləm Ara-ye Naderi. C.II, ... s.606
76. Tarix-e Cahanqoşa-ye Naderi ... s.406-407
77. Yenə orada, s.406
78. Larudi N. ... s.135
79. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 407
80. Aləm Ara-ye Naderi. C.II, ...s.622
81. Yenə orada
82. Aləm Ara-ye Naderi. C.II, ... s.625; Tarix-e Cahanqoşa-ye Naderi ... s. 407
83. Aləm Ara-ye Naderi. C.II, ... s.625
84. Aləm Ara-ye Naderi. C.II, ... s.627; Tarix-e Cahanqoşa-ye Naderi ... s.433
85. Aləm Ara-ye Naderi. C.II, ... s.628-629
86. Yenə orada, s.630-631
87. Локкарт Л. Надир Шах. Баку, 2004, с.204
88. Локкарт Л. Надир Шах. Баку, 2004, с.211, 212; Hanvey C. ... s.183
89. Aləm Ara-ye Naderi. C.II, ... s.766
90. Yenə orada, s.767
91. Yenə orada
92. Локкарт Л. … с. 215
93. Aləm Ara-ye Naderi. C.II, ...s.767
94. Yenə orada, s.770-771
95. Aləm Ara-ye Naderi. C.II, ... s.785; Qodusi ... s.340
96. Aləm Ara-ye Naderi. C.II, .. s. 787; Локкарт Л. … с. 217
97. Aləm Ara-ye Naderi. C.II, ... s.851; Cemnani Pənahi ... s.99
98. Aləm Ara-ye Naderi. C.II, ... s.852; Hədis-e Naderşahi. Tehran, 1382, s.210
99. Qodusi ... s.346
100. Yenə orada
101. Aləm Ara-ye Naderi. C.II, ... s.852
102. Yenə orada
103. Aləm Ara-ye Naderi. C.II, ... s.853; Padəri Bazen Feransəvi. Nameha-ye təbib-e Nader şah. Tehran, 1365, s.22
104. Aləm Ara-ye Naderi. C.II, ... s.853
105. Qodusi ... s.347; Sayks Persi ... s.386

106. Aləm Ara-ye Naderi. C.II, ... s.853
107. Larudi ... s. 243
108. Nader şah. Axərin keşbərqoşa-ye ... s.633
109. Hədis-e Nader şahi ... s.29
110. Qodusi ... s.468;
111. Aləm Ara-ye Naderi. C.II, ... s.490
112. Yenə orada, s.545
113. Yenə orada, s.559
114. Yenə orada, s.568, 569
115. Yenə orada, s.570
116. Moqtəder Q. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s. 77
117. Aləm Ara-ye Naderi. C.II, ... s.725
118. Yenə orada, s.729
119. Yenə orada, s.748-749
120. Qodusi ... s.468
121.Aləm Ara-ye Naderi. C.II, ... s.876
122. Yenə orada, s.879-880
123. Yenə orada, c.III, ... s.909
124. Tarix-e Cahanqoşa-ye Naderi ... s. 542
125. Aləm Ara-ye Naderi. C.I, ... s.10
126. Yenə orada, s.54
127. Yenə orada, s.103
128. Yenə orada, s.105
129. Yenə orada, s.105-106
130. Yenə orada, s.157
131. Yenə orada, s.160
132. Yenə orada, s.161
134. Yenə orada, s.650, 652
135. Yenə orada, c.II, s.666, 667
136. Yenə orada, s.669
137. Yenə orada, s. 669
138. Yenə orada, s. 675-676
139. Yenə orada. S.868

# VIII FƏSİL

## NADİR ŞAHIN FİZİKİ VƏ MƏNƏVİ-ƏXLAQİ KEYFİYYƏTLƏRİ

### 1. Nadir şahın fiziki və mənəvi keyfiyyətləri

Nadir şahın sərkərdəlik istedadı, hərbi potensialı, döyüşgənlik qabiliyyəti onun fiziki keyfiyyətləri ilə vəhdət təşkil edirdi. Güclü fiziki keyfiyyətlərə malik olmadan Nadir şah nə ətrafına dəstə toplaya bilərdi, nə qoşun təşkil edə bilərdi, nə də əfşarlar dövlətini yarada bilərdi. Nadir şah dünya tarixində nadir şəxslərdəndir ki, onun fərdi fiziki gücü strateji əhəmiyyət kəsb etmişdir. Başqa sözlə, məhz fiziki keyfiyyətləri və onlardan məharətlə istifadə edilməsi Nadir şaha böyük bir dövlət yaratmağa imkan verdi. O, məhz güc keyfiyyətlərindən qaynaq alan döyüşgənliyi ilə uzaq əyalət kəndlərinin birindən bölgədə nüfuz sahibi olan bir imperiyanın yaradılmasına nail oldu. Nadir şahın qoşunları onun yaratdığı dövlətin dayağı və sərkərdəlik potensialını reallaşdıran bir qüvvə olduğu kimi, Nadir şahın şəxsi-fiziki gücü bu qoşunların hərəkətverici qüvvəsi idi. Nadir şah qoşunların böyük uğurlarının təşkilatçısı olduğu kimi, eyni zamanda bu qoşunların vuran əli idi. Çox az döyüş tapmaq olar ki, Nadir şah döyüşçü kimi qoşun dəstələrinin önündə getməsin. Yalnız onun şahlıq dövrünün sonlarına yaxın bəzi döyüşlərdə iştirak etmədiyini görmək olar. Şahlığına qədərki döyüşlərinin və şahlığının əsas dövrünün döyüşlərinin əksəriyyətində Nadir şah əlində təbərzin və ya qılınc döyüşün ən qaynar nöqtələrində düşmənə göz açmağa imkan verməzdi. Vuran əlinin gücü, daxili enerjisinin sonsuzluğu, dözümlülüyü və yorulmazlığı etibarı ilə Nadir şah öz müasirlərini, özündən sonra dünyaya gəlmiş böyük sərkərdələri, habelə tarixçiləri və tədqiqatçıları da heyrət içində qoymuşdu.

Nadir şah sağlam və atletik bədən quruluşuna malik idi. Xarici görünüşünə görə onu qoşun daxilində uzaqdan seçmək mümkün idi. Şərq mənbələrində onun xarici görünüşü haqqında elə də geniş məlumatlara rast gəlmək mümkün deyil. Bu barədə daha geniş təsəvvürləri qərb müəlliflərinin yazdıqlarından əldə etmək mümkündür. Nadir şahı şəx-

sən görmüş bir neçə qərb müəlliflərinin əsərlərində onun fiziki keyfiyyətləri haqqında maraqlı qeydlər vardır. Belə müəlliflərdən biri olan Ceymz Frezer Nadir şahla rastlaşanda bu böyük fateh 55 yaşlarında imiş. Nadir şah bu yaşında da fiziki gücü və enerjisi ilə fərqlənirmiş. Müəllifə görə, həmin vaxtda da Nadir şah sağlam bədən quruluşuna malik idi. Boyu 180 sm-dən artıq imiş. Onun qalın qaşları və böyük gözləri var idi. Müəllifə görə, Nadir şahın canlı və cəlbedici sifəti var idi və belə bir sifətə az-az adamlarda rastlaşmaq olarmış. Günəşin şüaları və havanın müxtəlifliyi isə onun çöhrəsinə dözümlülük və mərdanəlik xalları vurmuşdu (1).

Başqa bir qərb müəllifi – Uilyam Kokkel Nadir şahın 50 yaşı olanda onunla rastlaşıbmış. O da Nadir şahın boyunun 180 sm-dən yuxarı olduğunu təsdiq edir. Onun qeydlərinə görə, Nadir şah mütənasib və güclü bədən quruluşuna malik idi. Bədənində köklüyə meyl varmış. Amma gündəlik gərgin fəaliyyəti onun bu kökəlmə meylinin qarşısını alırmış. U.Kokkel onu da əlavə edir ki, Nadir şahın qara və nüfuzedici gözləri, bir-birinə birləşmiş qaşları var idi. Müəllif Nadir şahı xarici görünüşünə görə o vaxta qədər rastlaşdığı ən cazibəli kişilərdən biri sayırdı və bildirirdi ki, uzun müddət açıq havada və gün altında qalması onun sifətini qaraltmış və təsirliliyini daha da artırmışdı (2).

C.Hanveyin əsərində də Nadir şahın fiziki keyfiyyətləri haqqında maraqlı qeydlər vardır.O bildirirdi ki, Nadir şahın xarici görkəmi onun sadəliyindən xəbər verməklə qəzəbli olmadığı barədə də təsəvvür yaradırdı. C. Hanveyin yazdığına görə, Nadir şahın sifət quruluşu iranlıların sifət quruluşundan fərqlənirdi və daha çox girdəliyi ilə seçilirdi. O, Nadir şahın burnunun da iranlıların burnundan fərqləndiyini vurğulayırdı. Amma onun hansı formada olmasını xatırlatmır. Müəllif daha sonra əlavə edirdi ki, Nadir şahın saçları qara, gözləri iri və nüfuzedici, alnı hündür, sifəti qarabuğdayı, bədəni güclü, çiyinləri qabağa çıxmış şəkildə idi. Danışmağa başlayanda onun sifəti heybətli bir şəkil alırdı. C.Hanvey onu da əlavə edirdi ki, onun cismani gücü gördüyü işlərə təsirsiz ötüşmürdü. Təbiət ona fövqəladə bir güc vermişdi və vaxt ötdükcə bu gücü daha da artırdı. Həmin gücün sayəsində Nadir şah təbərzin kimi bir silahın yararlılığı haqqında yeni bir təsəvvür yaratdı. Bu silah uzun müddət idi ki, döyüşlərdə istifadə olunmurdu, ona çevik və təsirli bir silah kimi baxılmırdı. Lakin Nadir şah qolunun gücü hesabına bu silaha yeni bir həyat verdi. Onun təbərzinlə endirdiyi zərbə düşmənlərinə qara günlər gətirərdi (3). Yuxarıda qeyd edildiyi kimi, təbərzini məharətlə işlətdiyinə görə Nadir şah bəzən "Təbərzin xan" kimi də çağırılardı.

Başqa bir qərb müəllifi bildirir ki, Nadir şah təkəbbürlü və qorxu bilməz bir şəxsdir. Onun siması imperator simasına bənzəyir. Elə bil ki, təbiət onu hökmdarlıq üçün yaratmışdır. Həyatının başlanğıcında rastlaşdığı çətinliklər onun əzələlərini möhkəmləndirmişdi. O ən çətin məşəqqətləri çəkməyə qadir idi və ona görə də apardığı döyüşlərdə qalib olurdu (4).

Məhəmməd Baxış Aşub adlı hind müəllifi Hindistan yürüşü zamanı Nadir şahı görmüşdü. Bu zaman Nadir şah artıq 50 yaşını ötmüşdü. Məhəmməd Baxışın yazdığına görə, Hindistan yürüşünü başa vurub geri qayıdanda Nadir şah çox çevik görünürdü. Onun möhkəm bədən quruluşu var idi, çox gümrah idi, saçları və bığları qara rəngə boyanmışdı (5).

Nadir şah ömrünün sonuna qədər güclü bədən quruluşunu, çevikliyini, yorulmazlığını qoruyub saxlaya bilmişdi. Bir tərəfdən iştirak etdiyi ağır və uzunmüddətli hərbi yürüşlər, digər tərəfdən də şahidlərinin yazdıqları bunu sübut edir. Doğrudur, ağır çöl həyatının onun səhhətində müəyyən izlər buraxdığını da inkar etmək olmaz. Bununla belə, Nadir şah həyatının son illərində belə kifayət qədər güclü fiziki keyfiyyətləri ilə seçilirdi. Onun həyatının son illərinin şahidi olmuş Pyer Bazen yazırdı ki, Nadir şahın saçları ağarsa da, bığı və saqqalı qara rəngdə idi. Bədəni güclü, qaməti hündür və mütənasib idi. O daha sonra Nadir şahı belə təsvir edirdi: sifəti oval şəklindədir, çöhrəsində bir solğunluq vardır, burnu böyük və bir qədər donqardır, ağzı böyükdür, alt dodağı üst dodağına nisbətən irəli çıxmışdır. Kiçik və işıqlı gözləri vardır, baxışı nüfuzedicidir (6).

Uşaq yaşlarından təsərrüfat həyatında böyüməsi və daimi fiziki gərginlik Nadir şahın fiziki keyfiyyətlərini də təkmilləşdirmişdi. Bunun üçün idi ki, çevikliyini və zəhmətsevərliyini qoruyub saxlaya bilmişdi. Qarşısına çıxan problemlərin həllini heç vaxt uzatmazdı. Hətta hərbi yürüşlər zamanı da divan işlərini davam etdirir və buna lazım olan qədər vaxt ayırırdı. Nadir şah istirahət etməyi də bacarırdı. Onun istirahəti özünə yaxın olan əyanları ilə axşamlar şərab içməkdən və ya da xanımlarının yanında vaxt keçirməkdən ibarət olurdu. Amma hər iki halda Nadir şah ifratlığa varmazdı, divan və sərkərdəlik işlərini şərab içməyə və qadınla əylənməyə qurban verməzdi. Nadir şah yalnız günün işlərini başa vurandan sonra istirahətgahına çəkilər və ya da öz hərəmxanasına yollanar, səhəri gün isə erkəndən yenə öz işlərini davam etdirərdi.

Nadir şahın bir vaxtlar güclü və məstedici içkilərə meyl etməsi haqqında da məlumatlar mövcuddur. Həmin içkilər arasında araq da

olmuşdur. Amma Nadir şah içki aludəsi deyildi və içki məclisini eyş-işrət məclisinə çevirməzdi. Mənbələrdə və tədqiqat əsərlərində Nadir şahın içkidən məst olması haqqında məlumatla rastlaşmaq mümkün deyildir. Amma sonradan Nadir şah araq içməkdən uzaqlaşdı və yeri düşəndə şərab içməklə kifayətləndi. C.Hanvei bildirirdi ki, şərab içmək Nadir şahın əqli və cismani gücünü artırırdı (7). Həm də qədərində şərab içmək, ən yaxın adamlarını süfrəyə dəvət etmək Nadir şahın yorğunluğunu da unutdururdu.

Şərab içməklə bağlı Nadir şah çox ciddi normalara riayət edirdi. O heç vaxt gündüz, divan və qoşun işləri ilə məşğul olduğu vaxtlarda və gün başa çatmamış şərab məclisləri qurmazdı. Belə məclislər adətən gecə düzənlənərdi. O, şərab məclisinə çox az adam dəvət edər və bu zaman şərab məclisində qoşun və divan işləri haqqında söhbət aparılmasına imkan verməzdi. Başqa sözlə şərab məclisində Nadir şah dünyəvi işləri tamamilə unudub istirahət etməyə çalışardı. Süfrəsinə dəvət etdiyi şəxslərin isə yersiz söhbətlər etməsindən xoşlanmazdı. Tədqiqatçılar Nadir şahın bu xarakteri ilə bağlı C.Frezerə istinadən maraqlı bir hadisəni nəql edirlər. Bir dəfə Nadir şahın şərab məclisinə dəvət etdiyi iki nəfər yaxın əyanı şərab içəndən sonra söhbətlərinə bir qədər sərbəstlik verirlər və bəzi məsələlər üzrə hətta Nadir şaha məsləhətlərini söyləməkdən belə çəkinmirlər. Nadir şah bundan qəzəblənir və dərhal onların hər ikisinin boynunun vurulmasını əmr edir və əlavə edir ki, bu nadan insanlar Nadirqulu ilə Nadir şah arasındakı fərqi hələ görə bilməyiblərsə, onda onlar ölümə layiqdirlər (8).

Nadir şahın qidalanması son dərəcə ciddi idi. Saray mətbəxinin dəbdəbəsindən uzaq olan Nadir şah məişətdə də sadə idi və çox vaxt onun qidası döyüşçülərinin və sərkərdələrinin qidasından fərqlənməzdi. Tədqiqatçılar da vurğulayırlar ki, böyük bir dövlətin şahı olmasına baxmayaraq Nadir şah çox vaxt elə döyüşçü yeməyi yeyirdi və onun mətbəxinin hazırladığı yeməklərlə, qoşun mətbəxinin hazırladığı yeməklər arasında fərq də olmazdı. O öz sərkərdələrinin də qidalanma zamanı ciddi normalara əməl etməsini istəyirdi. Nadir şah yemək süfrəsi arxasında yarım saatdan artıq oturmazdı. Xüsusilə, döyüş vaxtlarında Nadir şah çox az yeməklə kifayətlənərdi. Çox vaxt cibində qovrulmuş noxud olardı və onunla aclığının qarşısını alardı. Süfrə arxasında onun yeməklərinin əsasını düyü təşkil edərdi (9).

Nadir şah Bəlx və Herat yemişlərini də çox sevirdi. Məlumdur ki, hətta Hindistan yürüşündə olanda belə Nadir şaha dəvələrlə yemişlər göndərilmişdi.

Mövcud olan məlumatlara görə, Nadir şahın geydiyi libaslar da çox sadə və ciddi idi. Yuxarıda qeyd edildiyi kimi, Nadir şah hər şeydən əvvəl baş geyimində dəyişiklik etdi və səfəvilələr dövründən fərqli olaraq baş geyimində yeniliklərin təşəbbüskarı oldu. Libaslarında isə daha çox ənənəvi və rahat geyimlərə üstünlük verirdi. C.Hanveyin yazdığına görə, Nadir şahın libas altından cövşən geyməsi haqqında da söz-söhbətlər gəzirdi. Onun fikrincə, cövşəndən şəxsi mühafizə vasitəsi kimi istifadə olunurdu. Amma bu barədə mənbələrdə təsdiqedici bir məlumat yoxdur. Nəzərə alınsa ki, Nadir şah hətta döyüş əsnasında başına dəbilqə qoymazdı, onda onun adi vaxtlarda, şəxsi mühafizəçilərinin ətrafında cövşən geyməsi elə də inandırıcı deyil. Tarixdən də məlumdur ki, Nadir şaha qarşı bir neçə sui-qəsd odlu silah vasitəsilə edilmişdi. Cövşən isə onu odlu silahdan qoruya bilməzdi.

Hindistan səfərindən çoxlu var-dövlətlə qayıdandan sonra Nadir şahın geyimində də zənginlik artdı. C.Hanvey yenə eşitdiyi söhbətlər əsasında yazır ki, Nadir şah bir çox hallarda əlində böyük firuzə gəzdirərdi. Hindistan yürüşündən sonra libaslarında olan qiymətli daşların sayı da artdı. Nadir şahın çadırı və süvari təchizatı da zənginliyi ilə tədqiqatçıların diqqətini cəlb edir. Deyilənə görə, Nadir şahın dörd dəst mükəmməl yəhər-yüyəni olub və hər bir dəst də qiymətli daşlarla bəzədilibmiş. Nadir şahın çadırı və bu çadırın astarı ən zərif və qiymətli materialdan, ən bacarıqlı ustalar tərəfindən hazırlanmış və ən qiymətli rəsmlərlə bəzədilmişdi (10).

Nadir şahın fiziki keyfiyyətləri arasında tədqiqatçıların diqqətini cəlb edən məqamlardan biri də onun güclü və amiranə səsə malik olması idi. Malik olduğu səs döyüş meydanında Nadir şahın təsirli silahlarından birinə çevrilirdi. Öz güclü səsi ilə Nadir şah bir tərəfdən göstərişlərini döyüşçülərə çatdırırdı, bir tərəfdən də həmin səsin səfərbəredici gücü ilə döyüşçülərini yerindən oynadırdı. Onun tük ürpədici nərəsi düşməni də öz haləsindən çıxarırdı. Mövcud olan məlumatlara görə, 100 metr məsafədən Nadir şahın hündür səslə elan etdiyi əmrləri açıqca eşitmək olardı. Hətta bu keyfiyyətinə görə, Nadir şah ətrafda səs çıxarmışdı. Ser Con Malkolmun yazdığına görə, Nadir şahın hündür səsə malik olması Osmanlı sultanı Mahmudun da qulağına çatıbmış. Onun da yanında hündür səsə malik bir xidmətçi var imiş. Nadir şahın heç də ən hündür səsə malik olmadığını və daha hündür səsli şəxsin məhz onun dövlətində olduğunu sübut etmək üçün həmin şəxs səfir sifətilə Nadir şahın yanına göndərildi. Müəllifin yazdığından belə məlum olur ki, Osmanlı dövlətindən gələn elçinin hündür səsə malik olması Nadir şahı da maraqlandırır və o, kimin daha hündür sə-

sə malik olmasının yoxlanılmasına razılıq verir. Nadir şah sonradan təsdiq edir ki, doğrudan da Osmanlı nümayəndəsi daha gur səsə malikdir. Həmin elçini yola salanda Nadir şah bir daha Osmanlı sultanına salam göndərir və belə bir səsə malik olan şəxsin onun yanına elçi kimi göndərilməsindən çox məmnun olduğunu bildirir (11).

Nadir şah çox güclü hafizəyə də malik olmuşdu. O bütün sərkərdələrinin, ünsiyyətdə olduğu döyüşçülərin adlarını, onların yaxşı xidmətlərini yadında saxlaya bilirdi. Sayı 100 mini ötən və daim yeniləşən qoşun daxilində çoxsaylı sərkərdələrin və qoşun başçılarının adlarını yadda saxlamaq Nadir şahın müasirləri arasında heyrət doğuran daha bir keyfiyyəti idi. Deyilənə görə, Nadir şah 40 yaşından sonra yazmağı və oxumağı da öyrənmişdi. Nadir şah eyni zamanda münşiləri tərəfindən yazılan əmrləri də uzun müddət xatırlayırdı. Nadir şah zehninin və zəkasının itiliyi ilə də seçilirdi. Ən mürəkkəb döyüş şəraitində Nadir şah mövcud vəziyyəti, ona təsir edə biləcək amilləri, çıxış yollarını və s. çoxlu sayda məsələləri qısa zaman ərzində dəyərləndirib düzgün qərarlar qəbul etməyi bacarırdı. Qəbul etdiyi qərarlarda qətiyyət nümayiş etdirirdi və bu qərarların icrasında da tərəddüd göstərməzdi. Onun nəzərində tərəddüd və şübhə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün ən böyük maneə və təhlükə idi.

Xarakterinin müəyyən ziddiyyətli cəhətlərinə baxmayaraq, Nadir şah yenilməz və ölçüyə gəlməz bir mənəvi potensiala malik idi. Məhz bu mənəvi keyfiyyətləri nəticəsində Nadir şah viran qalmış məmləkətdə on minlərlə, yüz minlərlə insanın daxilində inam cücərtiləri yaratdı, onların etibarını qazanmaqla ümumxalq amalları ətrafında birləşdirdi, güclərini səfərbər edib bölgənin güclənməkdə olan dövlətlərini diz çökdürdü, Səfəvi dövlətinin parçalanmış ərazilərini yenidən birləşdirdi. Nadir şah ətrafında topladığı insanlarda, həmin insanların təmsil etdiyi tayfalarda və bütünlükdə xalqda daxili bir inam yaratdı, xalqa yeni bir ruh verdi, onu ayağa qaldırdı. Uzaq əyalətdə adi bir ailədən çıxmış Nadir şah dünyanın ən böyük fatehlərinin arzu edə biləcəyi bir qoşun yaratdı, döyüşçülərin, sərkərdələrin və bütünlükdə qoşunların itirilmiş nüfuzunu özünə qaytardı, hərb tarixinə yeni səhifələr yazdı. Nadir şahın böyük sərkərdəlik istedadı yüz minlərlə müxtəlif insanlarda fikir yekdilliyi yarada bildi. Bütün bunların nəticəsində Nadir şahın qoşunları böyük və vahid bir orqanizmə, şüurlu döyüş maşınına çevrildi.

Nadir şahın mənəvi keyfiyyətləri ilk növbədə valideynlərindən aldığı tərbiyədən və türk məişətinin ənənələrindən qaynaqlanırdı. Yuxarıda qeyd edildiyi kimi, atası İmamqulu ölüm ayağında olanda da oğlu

Nadirə verdiyi öyüd-nəsihətlərlə vidalaşdı. İmamqulu təkidlə oğluna bildirdi ki, vətənini unutmasın, fağırlarla və tabeçiliyində olanlarla rəhmli olsun, sitəmkarlıqdan uzaq olsun, qardaşına diqqətli olsun, axirət dünyasını yaddan çıxarmasın və bu günkü işini sonraya saxlamasın (12).

Oğlu Rzaqulunun kor edilməsindən sonra keçirdiyi psixoloji sarsıntılara qədər Nadir şah demək olar ki, bu nəsihətlərin hamısını əldə rəhbər tutdu. Atasının tövsiyə etdiyi kimi, Nadir şah axirətini yaddan çıxarmadı. O, etiqad adamı idi və dinə bağlılığında fanatikliyə yol verməsə də və dini siyasət səviyyəsinə qaldırmasa da, dininə və məzhəbinə inanan bir şəxs idi. Başladığı ən çətin işlərdə yaradanın iltimasını istəyər və daxilən də ona tapınardı. Nadir şah özünün dərin etiqadını qoşunlara da aşılamağa və dini inancı fəaliyyət ilhamına çevirməyə çalışardı. Nadirin dinə inamı təvəkkülçülüyə çevrilməmişdi. O öz fəaliyyətini dini inancın meyarları üzərində qurub və planlaşdırdıqlarını həyata keçirmək üçün yorulmaz qüvvə sərf edən və bu yolda yaradandan kömək diləyən və fəaliyyətinin nəticəsini əldə etdikdən sonra yaradanına sonsuz şükranlığını bildirən bir şəxs idi. Dini dəyərlərə istinad etməklə Nadir döyüşçülərinin daxili enerjisini üzə çıxarmağa da çalışırdı. Məsələn, əbdali əfqanları ilə Kafirqala ətrafındakı döyüşlər zamanı Nadir öz qoşunlarını ruhlandırmaq üçün Qurandan surələr oxudu və həmin surələrin mənasını açıqladı. Onun istinad etdiyi surədə bildirilirdi ki, düşmənə arxa çevirməkdənsə ölmək daha yaxşıdır (13).

Nadir döyüşçülərini dini dəyərlərə tapınmağa da çağırırdı və onlarda yaranan daxili inam son dərəcə güclü olan düşmən üzərində tarixi qələbə çalmağa imkan verirdi. Nadir keçirdiyi döyüşlərin ən ağır məqamlarında üzünü göylərə tutub yaradandan özünə və döyüşçülərinə kömək istəyərdi. Məsələn, Hindistan qoşunları ilə əsas döyüşdə ağır vəziyyətin yarandığını görəndə Nadir şah yenə yaradanından kömək dilədi. M.K.Mərvinin yazdığına görə, Nadir şah zər-ziba ilə bəzədilmiş atından yerə endi. Şahlıq tacını bir kənara qoyub üzünü yerə toxundurdu və Allahdan iltimasını belə etdi: "Ey murad qapılarını açan, ey səadət yolumu göstərən ... sənin yolunun aşiqlərinin haqqı xətrinə, dərgahına pənah aparanların hörməti xatirinə, səhər tezdən sənin eşqinlə yuxudan oyananların xatirinə, dərdli xəstələrin sinələrinin ahı xatirinə, yetimlərinin gözlərinin yaşları xatirinə, dul qadınlarının yanıqlı ürəklərinin dərdləri xatirinə, Əli Murtuzanın hörməti xatirinə, imamların xatirinə bu bəndənə əta buyur və bu tufana düşmüş əsgərlərə nicat ver" (14).

Gərgin döyüşlərdən qələbə ilə çıxandan sonra da Nadir şah Allahına şükranlarını bildirər və namaza oturub ibadət edərdi. Bəzi vaxtlarda Nadir şah Allahın ona qismət etdiyi qələbə əvəzində sübhə qədər ibadətini davam etdirərdi (15).

Sözsüz ki, bütün bunlar hamısı qoşunların gözü qarşısında baş verirdi və Nadir şahın yaradana tapınaraq, onun köməyinə arxalanaraq əzmkarlıq və yorulmazlıq göstərməsi döyüşçülərinə də sirayət edirdi və yaradanın köməyinə inam onlara yeni bir ruh və qüvvə verirdi.

Nadir şah səfərlərdən və hərbi yürüşlərdən sonra Məşhədə gələrdisə, mütləq İmam Rzanın məqbərəsini ziyarət edər və yaradana da şükranlığını bildirərdi (Nadir şahın dinə münasibəti barədə aşağıda daha ətraflı danışılacaqdır). Bir sözlə dini inanclarından Nadir şah əlavə bir qüvvə alardı.

Nadir şahda vətən təəssübü çox güclü idi və qoşunları da bu ideya ətrafında səfərbər edə bilmişdi. Hətta uşaq yaşlarından xarici müdaxilələrin, talançı və viranedici yürüşlərin şahidi kimi, Nadir doğulub boy atdığı yurdun əmin-amanlıq içərisində olmasını arzu edərdi və onun ilk dəstələri də məhz kənar tayfaların talançı yürüşlərinin qarşısının alınması üçün yaradılmışdı. Nadir ilk növbədə yaxınları arasında yurd, vətən təəssübkeşliyini hərəkətverici qüvvəyə çevirdi və sonra da bu ideyanı daha çox insana aşılaya bildi. İlk növbədə Kelat və Əbivərd onun üçün yurd və vətən idi. Nadir döyüşlərdən, uzun səfərlərdən imkan tapan kimi doğulub böyüdüyü yurda qayıdar və doğma yerləri ziyarət edərdi. Mənbələrdə də Nadirin doğulduğu məkan Nadir üçün "Hübbül vətən" kimi xatırlanır (16). Nadir şah ömrünün sonlarında da ailəsini təhlükəsiz yer kimi məhz Kelata göndərmişdi.

Geniş planda isə Nadir Səfəvilər dövlətinin təəssübkeşi idi. Bu böyük xanədanın yaratdığı dövlətin xarici qüvvələr arasında parçalanması Nadirdə də daxili bir nigarançılıq yaratmışdı. Bunun nəticəsi kimi, Nadir həm ətrafına topladığı qoşunlarda, həm də bütünlüklə xalqda itirilmiş torpaqların təəssübünü oyatdı və onun hakimiyyətə qədərki fəaliyyətində milli-qurtuluş çalarları çox güclü idi.

Bir sıra tədqiqat əsərlərində Nadir şah dünyanın ən böyük sərkərdələri ilə müqayisə olunur. Həmin sərkərdələr arasında Makedoniyalı İsgəndər, Əmir Teymur, Böyük Fridrix, Napoleon və başqaları da var idi. Bu sərkərdələrin bəziləri Nadir şahdan əvvəl, bəziləri ondan sonra yaşamışdılar və onlar da Nadir şah kimi fatehlik istedadından başqa döyüşçülərinin və sərkərdələrinin qəlbində döyüş ruhu və fırtınası yaratmaq qabiliyyəti ilə seçilirdilər. Makedoniyalı İsgəndərin və əmir

Teymurun fatehliyi haqqında dastanlar Nadir şaha da çatmışdı və Nadir şah bu sərkərdələrin uğurlarını bir meyar kimi də qəbul edirdi.

Xalq arasında Nadir şahın İmam Əlidən güc-qüvvə alması haqqında da rəvayətlər mövcuddur. Bu da heç şübhəsiz ki, Nadir şahın nicat verici fəaliyyətinin müqəddəslər tərəfindən dəstəklənməsinə, Nadirin mənəvi keyfiyyətlərinin də həmin müqəddəslərin inanclarından cilvələnməsinə əminlik yaratmaq arzusu ilə bağlı idi. Mövcud olan rəvayətə görə, Nadir hələ cavanlığında ikən Həzrət Əlini görmüş və parçalanıb dağılmış ölkəsinin birləşdirilməsi üçün ondan xeyir-dua almışdı (17).

Dünyanın məşhur fatehlərindən olan Əmir Teymura qarşı Nadir şahın daha yaxın münasibəti var idi. Mövcud olan kəsad məlumatlardan belə qənaətə gəlmək olar ki, Nadir şah Əmir Teymuru şərqin böyük fatehi hesab edirdi və Əmir Teymurun fatehlik əzəməti həmişə onu özünə cəlb edirdi.

"Aləm Ara-ye Naderi"də Nadir şahın Əmir Teymurla olan bağlılıqları haqqında müəyyən məlumatlar öz əksini tapmışdır. Bu məqamlardan biri rəvayət xarakteri daşıyır və Nadir şahın cavanlığı ilə bağlıdır. Heç şübhəsiz ki, rəvayət xarakteri daşısa da həmin məqamın bu mənbəyə düşməsi təsadüfi deyildir. Yəqin ki, mənbə müəllifi Nadir şahın Əmir Teymura olan münasibətini bilirdi və ona görə qiyabi də olsa Əmir Teymurun tövsiyələri bu mənbədə Nadirə çatdırılmışdı.

Adı çəkilən mənbədə olan məlumata görə, Nadir, Babaəli bəyin xidmətində olarkən bir dəfə Kelat dərəsinə getməli olur. Nadir gecəni yanındakılarla birlikdə həmin məkanda və açıq havada keçirməli olur. Gecə yarısı yuxudan ayılır və uzaqda, qayalıqların arasında bir işığın parıldadığını görür. Nadir həmin istiqamətə getməli olur. Yaxınlaşanda məlum olur ki, onun gözünə görünən işıq bir mağaranın qarşısına zəncirlənmiş əjdahanın ağzından püskürən od imiş. Nadirin əjdahaya atdığı ox yaxınlıqdakı daşlara dəyir və əjdahanın bağlandığı daşların parçalanması ilə o, azad olur və qaçıb gözdən itir. Nadir səhərə qədər orada gözləməli olur. Səhər aydın olur ki, Nadir dolanbac yolları olan bir mağaranın qarşısındadır. Mağaranın başlanğıcında qoyulan daş lövhənin üzərində yazılıbmış ki, bu mağaraya daxil olan şəxs dövrün sahibi-Nadiri olacaqdır. Lövhə üzərində daha sonra yazılıbmış: "Bil və agah ol ki, mən Teymur Gurganam (Qurqan). 36 il padşahlıq etdim, İranı, Turanı, rusu, Alanı, qıpçaq çöllərini, zülmətlər sərhədinə qədər Misiri, Şamı, Konstantinopolu və tamam Osmanlı məmləkətini Avropanın sərhədinə qədər, bu tərəfdən Hindistanı, Sindi Dekən sərhədinə qədər işğal etdim. Xorasana çatanda Kelat əhli təmkinlik göstərmədi

və asilik yolunu tutdu. Onların yanına nümayəndələr göndərdim. Onlara and-peyman çatdırıb xatircəm etdim və onlar hüzuruma gəldilər. Onların çoxlu əmlakına toxunmadım. Amma ürəyimdə bir düyün bağlandı ki, indiyə qədər heç kimə yalan deməmişəm və burada sərvət paylayıb yalan deməyə nə ehtiyac vardır? Zəmanənin bilicilərini, hikmət sahiblərini və ağıllı vəzirləri çağırıb onlardan bunun səbəbini soruşdum. Onlar ulduzlar elmi üzərində bildirdilər ki, 300 ildən bir az sonra bu məkanda sənin ( Nadirə işarədir-red.) şəxsində əmir cahangir dünyaya gələcəkdir, bütün aləm sənin əlinə keçəcəkdir və səninlə şərəflənəcəyi üçün buranın torpağı da mənə qarşı belə şərtlər irəli sürür" (18).

Yəni, bu sözlərlə Əmir Teymur bildirmək istəyirmiş ki, Nadirin dünyaya göz açdığı torpaqda bir qüdrət vardır və dünyanı diz çökdürən böyük fateh Nadirin doğulacağı torpağın qüdrəti qarşısında gücsüz qalmışdı. Rəvayətdə Əmir Teymura aid edilən sonrakı cümlələrdə bu məqam daha qabarıq ifadə edilmişdir. Daş lövhədə daha sonra Nadirə müraciətlə Əmir Teymurun adından belə deyilirdi: "Əvvəla, qoşunlara və əyanları çox da aldanma. Hər yerdə yaradandan kömək və imdad istə, hər bir qələbə və fəth yalnız Allahdandır. Çünki bu məkanda (Kelat nəzərdə tutulur-red.) iranlılardan, turanlılardan, hindistanlılardan, qazax, qılmax, rus, çərkəz və başqa məmləkətlərdən olan 75 min nəfərlik qoşunla çalışsam da Kelat qalasını tuta bilmədim. Qoşundan əlimi üzüb Allahın lütfünə arxalandım və asanlıqla niyyətimə nail oldum" (19).

Əmir Teymur daha sonra aşağıdakı tövsiyələrini verirdi: "Qoşunla zəfər qazananda məğrur olma, Allaha şükür et. Sonra zülmpərəst olma, məzlumların haqqını zalımlarda qoyma, rəiyyəti sev, ədaləti müdafiə elə, alimləri xar və zəlil etmə. Sonra haqq və ədaləti özünə peşə seç, çünki zülm və sitəm dövləti yalnız zavala aparır. Məmləkət xarabalığa çevrilsə səltənətin namusu əldən gedər... Bizi dualarla yad et". Mənbədə olan məlumata görə, Nadir bu yazını oxuyandan sonra (Nadir o vaxt oxuyub-yazmağı bacarmırdı-M.S.) Əmir Teymurun ruhuna dua oxuyub geri qayıtdı (20).

"Aləm Ara-ye Naderi"də Əmir Teymurla bağlı olan digər bir məqam onun qəbirüstü daşının Nadir şah tərəfindən Məşhədə gətirilməsi haqqındadır. Türküstan yürüşü zamanı Nadir şah qardaşlığı Lütfəli xana göstəriş verdi ki, 20 minlik bir dəstə ilə Səmərqəndə yollansın, oradakı tayfaları itaət altına gətirməklə bərabər, Əmir Teymurun qəbirüstü daşını və Səmərqənd mədrəsəsinin qapısını Məşhədə yola salsın. Lütfəli xan bu əmri yerinə yetirdi və öz yürüşünü uğurla başa

çatdırdıqdan sonra həm mədrəsə qapısını, həm də Əmir Teymurun qəbirüstü daşını Məşhədə gətirdi. Nadir şah Əmir Teymurun qəbirüstü daşını Məşhəddə müşahidə etdikdən sonra bir xeyli özlüyündə fikrə daldı, bu böyük fatehin ruhuna dua oxudu və sonra da qəbirüstü daşı geri, öz yerinə aparmağa göstəriş verdi. Nadir şahın bu tapşırığı yerinə yetirildi (21).

Nadir şahın nə səbəbə Əmir Teymurun qəbirüstü daşını Məşhədə gətizdirdiyini söyləmək çətindir. Ola bilsin ki, Nadir şah fatehliyini özünə örnək saydığı insanın ruhunu daha yaxında hiss etmək istəyirmiş. Hər halda Nadirin bu qərarının Əmir Teymurun qəbrinə hörmətsizliklə bağlı olması haqqında mənbələrdə və tarixi ədəbiyyatda bir fikir söylənilmir. Amma çox güman ki, qəbirüstü daş gətiriləndən sonra Nadir şah böyük fatehin ruhunun rahatlığı üçün onun geri, öz yerinə qaytarılmasını məqsədəuyğun bilmişdi.

Nadir şahın Əmir Teymurla bağlılığı haqqında rəvayətlər də mövcuddur. Həmin rəvayətlərdən birinə görə, Nadir şah bir gün yanındakılara söyləyir ki, Çingiz xanla və Əmir Teymur bir vaxtda yaşasaydıq, Çingiz xan səltənət başçısı, Əmir Teymur vəzarət başçısı və mən qoşun başçısı olsaydım, bütün dünya biz üç nəfərin əlinə keçərdi (22).

Tədqiqatçılar və tarixçilər Nadir şahı Napoleonla da müqayisə edirlər. Napoleon özü də onun haqqında yüksək fikirdə olmuş, onun daxili potensialı sərkərdəlik və fatehlik istedadı haqqında maraqlı fikirlər söyləmişdir. Napoleon bildirmişdi ki, Nadir şah böyük döyüşçü idi, böyük qüdrət sahibi ola bilmişdi, vəhşət yaradan fitnəkarlara, pis niyyətli qoşunlara dəhşət gətirərdi. O, Vətəninin düşmənlərinə qənim kəsildi və iftixarla padşahıq etdi (23).

Nadir şahın dünya fatehləri arasında özünəməxsus yer tutmasının əsas səbəblərindən birini tədqiqatçılar onun öz döyüşçülərini daha səmərəli və mükəmməl şəkildə ən amansız döyüşlərə cəlb edə bilməsində görürlər. Nadir şah öz dövrünün hərb işinə bir yenilik və bir nəfəs gətirdi. Xalq arasından çıxmış bir insan kimi Nadir şah özü ilə döyüşçüləri və sərkərdələrlə döyüşçüləri arasındakı məsafəni xeyli yaxınlaşdırdı, bir çox hallarda döyüşçüsünü özünün də qatıldığı kollektivin üzvünə çevirdi, döyüşçünün özünə inamını geri qaytardı. Nadir şah döyüşçüləri ilə birlikdə eyni zəhmətə qatlaşdı, yürüşlər zamanı onun məişəti döyüşçü məişətindən elə də fərqlənmədi, döyüşün gedişində isə özü qarşıya düşüb onlara yol açdı. Nadir şah əldə etdiyi uğurların sevincini döyüşçüləri ilə paylaşdı, düçar olduğu uğursuzluqların ağırlığını da döyüşçüləri ilə birgə yaşadı. Bu baxımdan Nadirin Osmanlı qoşunları ilə ilk böyük döyüşdəki ilk uğursuzluğundan sonra

döyüşçüləri ilə olan rəftarı xüsusən xarakterikdir. Osmanlı qoşunlarına Bağdad ətrafında gözlənilmədən düçar olduğu ciddi uğursuzluqdan sonra Nadir ağır psixoloji duruma düşsə də, döyüşçülərinə bunu hiss etdirməməyə çalışdı, onlarla öz silahdaşları kimi davrandı, uğursuzluğa görə onları qınamadı, əksinə göstərdikləri şücaətə və zəhmətə görə öz minnətdarlığını bildirdi, onlara mənəvi dəstək verdi və onları ruhdan düşməyə qoymadı. Nadir döyüşçülərinə anlatdı ki, bu uğursuzluğun ağırlığını birgə yaşamalı olduqları kimi, birlikdə də bu uğursuzluğu aradan qaldırmalıdırlar. Nadir hətta maddi baxımdan da döyüşçülərinə arxa oldu və xəsarət çəkənlərin məsrəfini Nadir bütünlüklə ödədi.Yəni, Nadir rastlaşdığı ağır uğursuzluğu özü üçün bir faciəyə çevirmədi, əksinə bunu özü və döyüşçüləri üçün bir sınaq kimi qəbul etdi və bütün döyüşçülərini bu sınaqdan uğurla çıxmağa səfərbər edə bildi. Nadirlə bərabər onun sərkərdələri və döyüşçüləri rastlaşdıqları uğursuzluğu özlərinə ar və şərəfsizlik kimi qəbul etdilər və birlikdə də onun nəticələrini aradan qaldırdılar (24).

Nadir öz qoşunlarını mənəvi-psixoloji baxımdan qələbəyə kökləyə bildi və növbəti döyüşündə Osmanlı qoşunlarına üstün gəldi. Digər döyüşlərə girməzdən əvvəl də Nadir şah öz döyüşçülərini qələbəyə ilhamlandıra bildi. Bütünlükdə, Nadir şah sərkərdələrinin və döyüşçülərinin həmişə mübariz və döyüşgən əhval-ruhiyyədə olmasına xüsusi fikir verirdi.M.K.Mərvinin yazdığına görə, Hindistan qoşunları ilə Kərnal ətrafında baş verən əsas döyüş ərəfəsində qoşun başçıları və sərkərdələr öz aralarında belə mübariz əhval-ruhiyyədə olduqlarını nümayiş etdirdilər və söz verdilər ki, nə qədər ki, canlarında can var, haqq və məzhəb yolunda güclərini əsirgəməsinlər, düşmənə qalib gəlmək üçün bütün güclərini ortaya qoysunlar (25).

Nadir şah özü də Kərnal döyüşü ərəfəsində qoşun başçılarını, sərkərdələrini, minbaşıları öz başına toplayıb onlar vasitəsi ilə qoşunlara çatdırdı ki, qarşıdakı döyüşdə şücaət göstərənləri layiqli mükafat, qorxaqlıq göstərənləri isə sərt cəza gözləyir. Nadir şah dediyinin üstündə də durdu və fədakarlıq göstərmiş döyüşçülərinin zəhmətini başqalarının gözündə ucaltdı və onları layiqli şəkildə mükafatlandırdı.

Və ya Gəncənin mühasirəsindən sonra Qars istiqamətində Abdulla paşanın rəhbərliyi altında Osmanlı qoşunları ilə ağır döyüşdən sonra Nadir öz döyüşçülərinə belə müraciət etdi: “Üç yolumuz qalıb – ölüm, əsarət və qələbə. Mənə göstərin ki, siz kişisiniz və ölümü əsarətdən üstün tutursunuz”. Döyüşçülər də and içdilər ki, ölümü təslim olmaqdan üstün tutacaqlar. Məlumdur ki, Nadir qoşunları bu ağır döyüşdən də qalib çıxdı.

Döyüşçü haqqının qorunmasına Nadir şah çox ciddi yanaşırdı. Qoşunların məvacibinin ödənməsinə verilən diqqətə yuxarıda toxunulmuşdu. Nadir şah bununla döyüşçü haqqının qorunmasına öz münasibətini bildirirdi və özünün döyüşçü haqqının itirilməyəcəyinə zamin olduğunu nümayiş etdirirdi. Bununla da o döyüşçülərinin etibarını qazanırdı. Məlum olduğu kimi, Nadir şah döyüşçü məvacibinin paylanmasını heç sərkərdələrinə də etibar etmirdi və onların üzərinə bu məsələ ilə bağlı xüsusi bir nəzarət qoyurdu. Döyüşçü məvacibini kəsən sərkərdə olduqca ciddi cəzalarla üzləşirdi. Nadir şah şübhə etmirdi ki, döyüşçüdən bütün gücü ilə döyüşməsini tələb etməzdən əvvəl onun haqqına riayət olunmalıdır (26).

Nadir şah döyüşçülərinə etibar edirdi, onların fərqlənənlərinə daha məsuliyyətli tapşırıqlar həvalə olunurdu. Nadir şahın sərkərdələri onun yetişdirmələri idi, onlar addım-addım daha məsuliyyətli vəzifələrə irəli çəkilirdilər. Hər bir döyüşçü və sərkərdə şübhə etmirdi ki, fədakar xidmətə görə onu təqdirlər, təltiflər və irəliləmələr gözləyir.

"Aləm Ara-ye Naderi"də bir neçə yerdə Nadir şahın istər şahlığa qədər, istərsə də şahlıqdan sonrakı dövrdə əldə etdiyi böyük uğurlarda böyük xidməti olan sərkərdələrin adları çəkilir. İsfahanı ələ keçirməzdən əvvəl, gilzayi əfqanları və Əşrəf şahla keçirdiyi döyüşlərdə şücaət göstərən Nadir sərkərdələrinin adları da mənbədə sadalanmışdır. Bu döyüşlərdəki şücaətinə görə, Nadir tərəfindən təqdir olunan və mükafatlandırılan sərkərdələr aşağıdakılardan ibarət idi: İmamverdi xan, Məhəmmədəli xan, Əmirsalan xan, Sərdar xan Əfşar, Hacı Seyfəddin xan, Həsən xan, İmamverdi xan Bayat, Şahqulu bəy, Əhməd Soltan Mərvi, Səlim bəy Mərvi, Pəhləvanqulu bəy Mərvi, Təhmasibqulu bəy Cəlayir, Qasıməli bəy Cəlayir və Mirzə xan Cəlayir. Bu sərkərdələrin əksəriyyəti, habelə adları çəkilməyən digər çoxlu sayda sərkərdələr Nadir şahın sərkərdələri idi və onlar Nadir şahın döyüş məktəbini keçmişdilər.

Nadir şah döyüşlərdə şəhid olmuş sərkərdələri üçün bəlkə də həmin sərkərdələrin yaxınlarından daha çox kədərlənir və təəssüflənirdi. Bu baxımdan əbdali əfqanları ilə Kafirqala ətrafındakı döyüşlərdə Niyazqulu bəyin ölümü ilə bağlı onun keçirdiyi sarsıntılar xarakterikdir. Nadir bu qəhrəman sərkərdəsinin ölümünə son dərəcə kədərləndi və onun Məşhəddə, İmam Rza məqbərəsi ətrafında qəhrəmanlığına layiq şəkildə dəfn olunması üçün göstəriş verdi. Sonra da onun ailə üzvlərini maliyyə himayəsi altına aldı.

Nadir şah şəhidlərə də böyük ehtiram göstərirdi və hər bir döyüşdən sonra şəhidlərin dəfn edilməsini öz nəzarəti altında saxlayırdı.

Şücaət göstərən döyüşçülərinə böyük ehtiram göstərməklə bərabər, Nadir şah qorxaqlıq göstərənlərə, döyüşdən qaçanlara qarşı da son dərəcə kəskin münasibət göstərirdi. Bu məsələdə Nadir şah nə yaxınlarına aman verirdi, nə də başqalarına. O, döyüşdə hamıya qarşı eyni tələbkarlıq irəli sürürdü və qeyd etmək lazımdır ki, Nadir şahın oğulları, doğma və ögey qardaşları heç zaman döyüşün ağırlığına görə qorxu və ya süstlük nümayiş etdirməmişdilər. Nadir şah bundan qürur keçirirdi və ona görə çox zaman ən məsuliyyətli tapşırıqları da öz yaxınlarına həvalə edirdi. Doğrudur, Nadir şahın yaxınlarının heç də hamısı döyüşün təşkilində Nadir şah istedadına malik deyildilər. Amma onlarda döyüş qorxusu da yox idi.

M.K.Mərvinin yazdığına görə, əbdali əfqanları ilə Herat ətrafındakı döyüşdən sonra Nadir şücaət göstərənləri lazımınca mükafatlandırsa da qorxaqlıq göstərən döyüşçülərin əyninə qadın paltarları geyindirdi və bu vəziyyətdə onlar qoşunlar arasında gəzdirildi. Həmin döyüşçülər rüsvay edilməklə bərabər, digərlərinə də ibrət dərsi verildi ki, qorxaqlıq göstərdikləri təqdirdə onları da belə şərəfsizlik gözləyir (27).

Əbdali əfqanları ilə digər bir döyüşdə Nadir öz döyüşçülərindən tələb etdi ki, ya igidliklə vuruşsunlar, ya da qadın paltarı geyinib qorxaq olduqlarını göstərsinlər (28).

Qorxaqlara qadın paltarının geyindirilməsi onlara mənəvi cəzanın verilməsi demək idi. Öz təsiredici qüvvəsinə görə, bu cəza son dərəcə ağır bir cəza sayılırdı. Amma Nadir şah yalnız bu cəza növü ilə kifayətlənmirdi. Qorxaqlara və günahkarlara qarşı Nadir şah ciddi fiziki cəzalar da tətbiq edirdi. Bu məsələdə də Nadir şah yaxınları ilə qeyri-yaxınları arasında fərq qoymazdı. Məsələn, Məşhədin mühafizəsində göstərdiyi səhlənkarlığa görə, Nadir şahın qardaşı İbrahim xanı qoşunların gözü qarşısında qamçılaması haqqında yuxarıda danışılmışdı. Məlumdur ki, ən yaxın silahdaşı və sərkərdəsi olan Təhmasib xan Cəlayir və Rzaqulu Mirzə döyüş tapşırığının icrasında icazəsiz təşəbbüskarlıq göstərmələrinə görə ciddi şəkildə danlandılar. Başqa bir dəfə isə Təhmasib xan hətta fiziki cəzaya da məruz qaldı (29).

Döyüş tapşırıqlarını tələb olunan səviyyədə icra etməyən döyüşçü və sərkərdələri də çox ciddi cəzalar gözləyirdi. Məlumdur ki, döyüş fərariliyinin qarşısını almaq üçün qoşunların arxasında xüsusi dəstələr də yerləşdirilirdi və həmin dəstələrin fərarilik edənlərə qarşı ən sərt cəzalara əl atmaq səlahiyyəti var idi. Nadir şah hətta hərbi yürüşlər zamanı icazəsiz olaraq yerli sakinlərin evlərinə daxil olan, talançılıq edən döyüşçülərin də yerindəcə öldürülməsinə və belələrinin kəsilmiş

başının qoşunlar arasında gəzdirilməsinə göstəriş vermişdi (30). Müəyyən hallarda Nadir şah qənimət toplamaq üçün döyüşçülərinə məhdud vaxt ayırırdı. Bu, adətən Nadir şaha qarşı güclü və amansız müqavimət göstərən məntəqələrdə baş verirdi. Həmin hallarda da döyüşçülərin qənimət toplaması nəzarət altında saxlanılırdı, döyüşçünün qənimət hərisliyinin quduzluğa çevrilməsinə imkan verilmirdi. Yuxarıda qeyd edildiyi kimi, Murçexort döyüşündən sonra döyüşçülərin əfqan düşərgəsindən mənimsədiyi bütün qəniməti Nadir bir yerə toplayıb odladı və bununla döyüşçülərinə qələbə çalmaq haqqının yağmalamaq haqq ilə qarışdırılmasına yol verilməyəcəyini anlatdı. Və ya Hindistan yürüşü zamanı qənimət toplanmasına bir hədd müəyyənləşdirildi və həmin həddən artığı döyüşçülərdən alındı.

Nadir şah hər qələbədən sonra müharibə qənimətləri əldə edirdi. O bunun müəyyən hissəsini mərkəzləşdirilmiş şəkildə və nəzarət altında qoşunlar arasında bölüşdürürdü və qalan hissəsini isə dövlət xəzinəsinə istiqamətləndirirdi. Mənbədə hətta məlumatlar da mövcuddur ki, Nadir şahın əldə etdiyi müharibə qənimətinin beşdə biri xəzinəyə verilirdi (31).

Nadir şahın xüsusi amansızlıqlar nümayiş etdirdiyi hallar da olurdu. Bu, xüsusilə, Nadir şah hakimiyyətinə qarşı qaldırılmış qiyamların yatırılması zamanı özünü göstərirdi. Qiyamların baş verməsi ilə bağlı yuxarıda danışılan obyektiv səbəblərə toxunmadan qeyd etmək lazımdır ki, Nadir şah üçün belə vaxtlarda önə çıxan insan faktoru, insanların ona qarşı itaətsizliyi, bəzən yalvarışlarını nəzərə alıb bağışladığı hakimlərin, əyanların yenidən üzüdönüklük nümayiş etdirməsi demək idi. Nadir şah belələrini çox çətinliklə bağışlayırdı. Sədaqətsizlik və üzüdönüklük edənlərin qiyamları yerli əhalinin iştirakı ilə müşayiət olunanda Nadir şahın amansızlığı kütləvi hal alırdı. Bu barədə çoxlu faktlar mövcuddur.

Amma Nadir şah təqsirini boynuna alanları bağışlamağı da bacarırdı. Onun Rzaqulu Mirzəni kor etməsinə qədərki həyatında ondan aman diləyənlərə Nadir şah aman verərdi. Nadir şah özü də qeyd edərdi ki, mürvət şahların ən yaxşı keyfiyyətlərindən biridir (32). Oğlunun kor edilməsindən sonra dərin psixoloji sarsıntılar keçirməsi ilə Nadir şahın həyatında yeni bir ağır mərhələ başladı.

Nadir şahın döyüş həyatından da məlumdur ki, mübarizə apardığı düşmənləri nümayəndə heyəti göndərib aman diləyəndə Nadir şah onları bağışlayardı və bağışladığı bir çox düşmənlərini hətta öz qoşunlarının sərkərdəsi də etmişdi. Elə malik olduğu bu mərhəmətliliyin əsasında Nadir şah məğlub etdiyi Hindistan padşahı Məhəmməd şahı

yenidən öz taxtında saxladı, məğlub etdiyi düşməni olsa da onun şahlığına ehtiramını nümayiş etdirdi. Nadir şah ondan aman istəyən Mərv hakimi İlyas xanı da bağışladı və onu öz vəzifəsində saxladı. Türküstan hakimi Əbülfəz xan da onun mərhəmətinin şahidi oldu.

Nadir şah döyüşdə öldürülən düşmən sərkərdələrinin cəsədlərinə də xüsusi hörmət və ehtiram nümayiş etdirərdi, onların sərkərdəlik nüfuzuna sərkərdə təəssübü ilə yanaşardı. Bu baxımdan Nadirin Osmanlı qoşunları sərkərdəsi Topal Osman paşanın cənazəsinə və Daşkənd sərkərdəsi Adınaqulu bəyin cənazəsinə göstərdiyi ehtiram xarakterikdir. Nadir, Topal Osman paşanın öldürüldüyünü eşidəndə onun cəsədini tabuta qoydurdu və dəfn edilməsi üçün öz yurduna göndərdi.

Nadir şahın qadınlara münasibəti də onun mənəvi aləminin daha bir xarakterik cəhətidir.O, qadınlara saraylarda bəslənilən ənənəvi münasibəti dəyişdi, hərəmxana əylənmələrindən uzaqlaşdı, şəxsi həyatını nikah bağladığı xanımlarla qurdu. Nadir şah hərbi yürüşlər zamanı sərkərdələrinin də özləri ilə çoxlu xanımlar aparmasına qarşı çıxdı. Mənbələrdə Fars bəylərbəyi Tağı xanın xanımına və qızına qarşı Nadir şah tərəfindən çox amansız bir cəza verilməsi faktı da mövcuddur. Əslində, bunun da səbəbi var idi. Tağı xan Nadir şahın etibar etdiyi və yüksəltdiyi hakimlərdən biri idi və ölkənin dörd böyük bəylərbəyliyindən biri olan Fars bəylərbəyliyi ona tapşırılmışdı. Göstərdiyi etibara və qayğıya qarşı Tağı xan üzüdönüklük edib ona qarşı çıxmasından Nadir şah son dərəcə qəzəbləndi. Ona üzüdönüklük edərək dövlətinə qarşı qiyam qaldıranlara Nadir şah heç bir vəchlə haqq qazandıra bilmirdi və beləlləri mütləq şəkildə öz əməllərinin cəzasına çatdırılırdı (əgər həmin adamlar üzr istəyib Nadir şahdan bağışlanmalarını xahiş etməsəydilər). Özü də Tağı xanın ölkə daxili vəziyyətin mürəkkəb olduğu bir vaxtda qiyam qaldırması Nadir şahı tamamilə hövsələdən çıxardı. Bu sonsuz qəzəbin nəticəsi idi ki, Nadir şah Tağı xanın gözləri qarşısında oğullarını qətlə yetirdi, arvadını satdırdı, qızını qoşunların ümumi istifadəsinə verdi, özünü isə axtalatdı və bir gözünü də kor etdi. Tədqiqatçılar da qeyd edirlər ki, Nadir şahın qadınlara qarşı belə amansızlıq göstərməsi yeganə hal idi. Mənbələrdə Nadir şahın qadınlara cəza verməsi haqqında başqa bir fakta rast gəlmək çətindir. Tağı xan isə sonradan son dərəcə məsuliyyətli bir vəzifəyə təyin edildi. Dövlət daxilində maliyyə toplanması işi bütünlüklə ona həvalə edildi. Onun belə bir vəzifəyə təyin edilməsindən güman etmək olar ki, Nadir şah onun qızına və xanımına verdiyi cəzadan peşman olmuş və onu bağışlamışdı.

Nadir şahın elmə, ədəbiyyata maraq göstərməsi də məlumdur. O bütün həyatını hərbi yürüşlərdə və düşərgədə keçirməsi etibarilə sənət və ədəbiyyatla yaxından maraqlanmaq imkanı yox idi. Bununla belə, onun elmə və ədəbiyyata olan marağının nəticəsi idi ki, Nadir şah qırx yaşlarında olanda oxumağı və yazmağı öyrəndi. Onun əmri əsasında "Tarix-e Cahanqoşa-ye Naderi" əsəri yazıldı. Yenə onun göstərişi ilə Məhəmmədəli bəy adlı hind şairi onun həyatı ilə bağlı "Şahnamə" əsərini yazdı. İsfahanda olan əlyazma kitablarını İmam Rza ziyarətgahının kitabxanasına göndərdi. Hindistan yürüşündə də çoxlu qiymətli kitablar əldə edib onları İmam Rza ziyarətgahının kitabxanasına göndərdi (33).

Nadir şah öz doğma dilini, Azərbaycan türkcəsini çox gözəl bilirdi və tədqiqatçılar da təsdiq edirlər ki, Nadir şah ana dilində danışmağa daha çox üstünlük verirdi (34). Ona görə ana dilinin də onun mənəvi-psixoloji keyfiyyətlərinin formalaşmasında olan rolunu inkar etmək olmaz.

Tədqiqatçılar Nadir şahın yumor hissinə malik olmasına da toxunurlar. Onun ən yaxın silahdaşlarından və ən cəsur sərkərdələrindən biri olan Təhmasib xan Cəlayir bəstə boylu, amma kifayət qədər kök bir adam imiş. Deyilənə görə bir dəfə bir çöl qabanı onun üstünə hücum çəkibmiş.Təhmasib xan isə həm yaşına, həm də köklüyünə görə çeviklik göstərə bilməyibmiş. Ona görə də o, çöl qabanının həmləsindən canını çətinliklə qurtara bilibmiş. Nadir şah bu xəbəri eşidəndə xeyli gülübmüş. Sonra da deyib ki, kiçik qardaş böyük qardaşla oynayırmış. Amma kiçik qardaş böyük qardaşı incidib. Hindistana yürüşü zamanı isə Nadir şah hind əyanlarından olan Etimadüddövlə Qəmərəddin xanın 850 xanımından ibarət hərəmxanaya malik olmasını eşidir. Hərəmxana ənənəsindən əl çəkmiş Nadir şah üçün bu, çox gülünc görünür və əmr edir ki, Qəmərəddin xan üçün daha 150 xanım tapılsın. Səbəbini soruşanda Nadir şah deyir ki, qoy Qəmərəddin xanın xanımlarının sayı 1000 nəfərə çatsın ki, onu minbaşı çağırmaq mümkün olsun (35).

Nəhayət bir məqam da qeyd edilməlidir ki, özünün dediyi kimi, Nadir şah qılınc övladı idi. Qılınc onun həyatının mənası olduğu kimi, qurduğu dövlətin də əsası idi. Nadir şah özü də dövlətini qılıncla qurduğunu etiraf edirdi və bildirirdi ki, övladları onun yolunu davam etdirə bilsələr bu dövlətin ərazisi daha da genişlənə bilər. O qeyd edirdi ki, bu məmləkət mənim övladlarıma və nəslimə bəs edər. Əgər rəşadət və şücaətləri olsa mən bu məmləkətə qılıncla yiyələndiyim kimi, onlar da bunu edə bilərlər (36).

Təsadüfi deyil ki, qılıncı əlindən düşəndə Nadir şah dövlətini də itirdi, həyatını da. Ona görə Nadir şahın mənəvi-psixoloji keyfiyyətlərinin formalaşmasında qılıncın, başqa sözlə hərbin aparıcı təsirini diqqətdən kənarda qoymaq olmaz.

## 2. Nadir şah və din

Nadir şahın xarakterinin maraqlı cəhətlərindən biri də onun dinə olan münasibəti idi. Nadir şahın həyatını və fəaliyyətini araşdıran çox az tarixçi tapmaq olar ki, onun dinə olan münasibətinə toxunmasın. Çünki cəmiyyət həyatının bir çox sahələrində olduğu kimi dinə münasibətdə də Nadir şah tərəfindən bir sıra yeniliklər gətirilmişdi. Əslində, Nadir şahın hakimiyyətə gəlməsi ilə dövlət-din münasibətlərində yeni bir mərhələ başladı. Nadir şah Səfəvi şahlarından fərqli olaraq dinə qeyri-ənənəvi münasibət göstərdi ki, bu da tədqiqatçıların diqqət mərkəzində dayanan əsas məqamlardan biridir.

Nadir şahın dinə münasibətini və dinə baxışlarını dəyərləndirərkən bütünlükdə bir sıra məqamlar qabarıq əhəmiyyət kəsb edir. Bunlardan birincisi Nadir şahın özünün dinə münasibətidir.Nadir şah dinin cəmiyyətdəki yerinə dəyişiklər gətirsə də və bu sahədə müəyyən yeniliklər irəli sürsə də özü bütün varlığı ilə Allahına, peyğəmbərinə tapınan bir şəxs idi. Onun dinə şübhə ilə yanaşması haqqında heç bir söhbət ola bilməz. Bir tərəfdən Xorasanın dini mühiti, digər tərəfdən də valideynlərinin dini inancları Nadirin dinə münasibətinin formalaşmasında təsirsiz qalmamışdı. Qeyd edildiyi kimi o, təvəkkülə arxalanan şəxs deyildi və bütün istəklərinə zəhmət və əzmkarlığı ilə nail olmağa çalışırdı. Amma bu zaman vuran qolunun qüvvəsini yaradanın lütfü hesab edirdi və hər uğurunu da tanrıdan diləyirdi. Hər döyüşə atılmazdan əvvəl üzünü göylərə tuturdu və ən çətin anlarında Allahdan kömək diləyirdi. Yalnız “Aləm Ara-ye Naderi”də Nadirin tanrıdan kömək diləməsi və ona şükranlığını bildirməsi haqqında çoxlu faktlar vardır. Bu əsərdə Nadir şahın dilindən Allaha müraciətlə çoxlu nəzm parçaları da vardır. Bunlar da Nadir şahın dini inanclarının bir nümunəsidir.

Maraq kəsb edən digər bir məqam Nadir şah dövründə din və dövlət münasibətləri idi. Bir mənalı şəkildə qeyd edilməlidir ki, Nadir şah dövləti dünyəvi dövlət idi. Səfəvilər hakimiyyətindən fərqli olaraq Nadir şahın dövləti dini ideologiya üzərində qurulmamışdı və cəmiyyətin idarə edilməsində dini normalar heç də əsas yeri tutmurdu. Nadir şah dini dövlətin idarə edilməsindən uzaqlaşdırdı, dindarların dövlət işlə-

rinin aparılmasına müdaxilələrinin qarşısı alındı. Din dövlətin rəsmi ideologiyası olmaq çərçivəsindən çıxarıldı. Ruhanilərin səlahiyyətləri əhəmiyyətli dərəcədə ixtisar edildi və onlar dövlət təbəqələşməsində formal vəzifələrə çevrildilər. Dövlətdə baş molla vəzifəsi saxlansa da onun vəzifəsi, eləcə də digər yüksək ruhani vəzifələri əvvəlki səlahiyyətlərini itirdilər. Nadir şahın iradəsi dövlətin idarə edilməsinin nüvəsinə çevrildi. Onun dövründə ruhanilər dövlət aparatlarından məscidlərə çəkilməli oldular.

Nadir şah sadəcə dini dövlətdən ayırmadı. O eyni zamanda ruhani mövqeyindən istifadə edib xalqın soyub-talanmasında iştirak edən, özünə sərvət toplayan dindarlara qarşı da kəskin mövqe nümayiş etdirdi. Mövcud olan məlumatlara görə, Nadir şah taxt-taca sahib olandan sonra yüksək məqamlara malik olan mollaları toplayıb onlardan topladıqları sərvətləri necə istifadə etdiklərini soruşdu. Nadir eyni zamanda əldə edilən var-dövlətin əvəzində mollaların nə işlə məşğul olmaları ilə də maraqlandı. Mollalar da cavab verdilər ki, dini vergilərdən üləmalara maaş verilir və mədrəsə tələbələrinə xərclər ayrılır. Üləmalar da həmin vəsaitlərin əvəzində məscidlərdə dövlətə və padşaha dua edirlər. Nadir də cavab verir ki, görünür ki, sizin dualarınız xuda dərgahında heç də müstəcəb deyildir. Çünki, siz varlandıqca məmləkət tənəzzül edib və sizin ixtiyar sahibinə çevrilməyiniz millətin və ölkənin fəlakətinə yol açmışdır.Məmləkət mənim döyüşçülərimin və bahadırlarımın qılıncının gücü ilə nicat tapdığından Allahın vuran əli də onlardır. Ona görə də sizin var-dövlətiniz bundan sonra onların maaşlarına sərf olunmalıdır. Bununla da, Nadir şah əmr etdi ki, ruhanilərin var-dövlətləri dövlət xəzinəsi hesabına müsadirə edilsin (37).

Başqa bir məlum fakt ondan ibarətdir ki, bir dəfə Nadir şah İmam Rza məqbərəsini ziyarətə gedərkən məqbərənin qarşısında özünü korluğa qoymuş bir dərviş oturub nəzir toplayırmış. Nadir şah ondan soruşur ki, İmam Rza məqbərəsinin kəndarında nə vaxtdan oturubdur. Dərviş cavab verir ki, iki il olar. Nadir şahın da cavabı belə olur ki, deməli sənin etiqadın yoxdur.Yoxsa bu iki il ərzində sənin gözlərin açılardı. Sonra da əlavə edir ki, mən ziyarətdən geri qayıdana kimi sənin gözlərin açılmasa onda boynunu vurduracağam. Nadir şah geri qayıdana kimi dərviş ətrafındakılara görməyə başladığını bildirir. Ətrafdakılar da "möcüzə, möcüzə" deyib qışqırıq qoparırlar. Xəbər Nadir şaha çatanda o da gülümsəyir və bildirir ki, etiqad hər şeydən güclüdür (38).

Məlumdur ki, Muğan düzündəki tacqoyma mərasimində Nadir şah mollabaşını öldürtmüşdü. Deyilənə görə, mollabaşı onun şahlığına

etiraz etdiyi üçün öldürülmüşdü. Başqa sözlə, mollabaşının dövlət işlərinə ciddi müdaxilə etmə cəhdinin qarşısı qətiyyətlə alındı və bununla digər ruhanilərə də dərs verildi ki, dövlət işlərinə müdaxilə etməsinlər.

Nadir şahın dinə münasibəti məsələsində maraq kəsb edən məsələlərdən biri də onun sünni və ya şiə məzhəbinə mənsub olmasıdır. Tədqiqatçılar bu məqama da çox diqqət yetirmişlər. Çünki Nadir şah Səfəvi hakimiyyəti üçün ənənəvi olan şiə məzhəbini dövlətdən ayırması və dövləti dünyəviləşdirməsi etibarilə onda hansı məzhəbə mənsub olmasına tədqiqatçılar arasında marağı bir qədər də artırır. Xüsusilə o baxımdan ki, şiə cəmiyyətini idarə edən şəxs şiə idi yoxsa sünni?

Allahına və peyğəmbərinə dərin etiqadı olan Nadir şahın hansı məzhəbə mənsubluğunun sübut edilməsini qarşıya məqsəd qoymadan bu məsələ ilə bağlı bir sıra məqamlara toxunmaq maraqlı olardı. Nadir şah haqqında yazan tədqiqatçıların əksəriyyəti onun şiə məzhəbinə mənsub olduğunu göstərirlər (39).Çox güman ki, bu müəlliflərin mövqeyi Nadir şahı daha çox iranlılaşdırmaq meyli ilə bağlıdır. Qərb müəlliflərinin çoxu isə Nadir şahı sünni hesab edirlər (40).

Nadir şahın tanınmış tədqiqatçılarından olan L.Lokkart onun hansı məzhəbə mənsubluğu haqqında aydın fikir söyləməsə də, şiə olmasına da şübhə ilə yanaşır (41).Buradan da belə ehtimal etmək olar ki, o, Nadir şahın sünni olmasına daha çox meyllidir. L.Lokkart tədqiqatının başqa bir yerində də qeyd edirdi ki, Nadirin qoşunlarının böyük bir hissəsini sünni əfqanlar və türkmənlər təşkil edirdilər və ona görə də Nadir, Şah Təhmasibin tərəfdarlarından qorxmurdu (42). Bu fikir də yuxarıda deyiləni təsdiq etməyə əsas ola bilər. Qeyd etmək lazımdır ki, qərb tədqiqatçıları əfşarları da sünni hesab etdikləri türkmən tayfalarının tərkib hissəsi bilirlər.

Əslində, hər iki qrup tədqiqatçıların Nadir şahın bu və ya digər məzhəbə mənsub olması haqqında söylədikləri fikirlərin əsası vardır. Çünki ilk növbədə Nadir şah hər iki məzhəbə hörmətlə yanaşıb və ya bu məzhəblərin hər hansı birini təqib etmirdi. Məsələn, Nadir şah şiə müqəddəslərinə dərin hörməti ilə bərabər onların abadlaşdırılmasına da xüsusi qayğı göstərirdi. "Aləm Ara-ye Naderi"də olan bir neçə fakt göstərir ki, Nadir şah dəfələrlə İmam Rza ziyarətgahının abadlaşdırılması haqqında göstəriş vermiş və lazım olan vəsaiti ayırmışdı (43). Nadir öz qoşunları ilə Məşhədi Məlik Məmmədin işğalından azad etdikdən sonra İmam Rzanın məqbərəsini abadlaşdırmağa başladı. Onun göstərişi əsasında ziyarətgahın məqbərəsi təmir edildi, məqbərənin

qübbəsi yenidən zər rəngə boyandı və məqbərənin cənub hissəsində yeni bir minarə ucaldıldı (44). Nadir şah eyni zamanda məqbərəyə çoxlu sayda bahalı hədiyyələr bağışladı.

Herata yürüş etməzdən qabaq da Nadir niyyət etdi ki, hücumu uğurla başa çatsa İmam Rza məqbərəsini bir daha abadlaşdıracaqdır. Bu niyyəti ona daxili bir inam verdi və Herat şəhərini ələ keçirəndən sonra o, İmam Rza məqbərəsini ziyarət etdi və orada indi də mövcudluğunu saxlayan bir sıra dəyişikliklər apardı. Nadir məqbərənin Mir Əlişir eyvanını və Əmir Teymurun oğlu Şahruxun tikdirdiyi güldəstəni qızıl suyuna tutdurdu. Şahrux güldəstəsinin qarşısında öz adına başqa bir güldəstənin tikilməsinə göstəriş verdi. Bu güldəstənin tikilməsi usta-memar Əli Nağı Məşədinin rəhbərliyi altında aparıldı və bir neçə ildən sonra hazır oldu. Nadirin qardaşı İbrahim xan isə məqbərənin iki qapısını gümüşə tutdurdu. Bundan əlavə Nadir Heratda rastlaşdığı ağ mərmərdən tikilmiş yaraşıqlı bir hovuzun İmam Rza məqbərəsinə köçürülməsinə əmr verdi. Bu hovuz məqbərəyə köçürüldü, ona su çəkildi və hovuzun tavanı qızıl suyuna tutuldu. Türküstandan qayıdandan sonra Nadir şah İmam Rza məqbərəsini bir daha ziyarət edib oranı qiymətli pərdələrlə bəzətdirdi, 14 ədəd qızıl qəndili məqbərənin qübbəsindən asdırdı, ətraf otaqlara xalçalar döşəndi (44a).

Nadir şah Həzrət Əlinin məqbərəsini, habelə Kərbala və Nəcəf müqəddəslərini ziyarət etmiş və onların abadlaşdırılması üçün də xeyli vəsait ayırmışdı (45). Məlumdur ki, Nəcəf və Kərbala müqəddəslərinin abadlaşdırılmasına hətta Nadir şahın xanımı da vəsait ayırmışdı

Nadir şah Ərdəbildə olarkər şiəliyin ideya banilərindən olan Şeyx Səfinin də məqbərəsini ziyarət etdi və onu ruhuna dua oxudu (46). Bu da Nadir şahın şiə müqəddəslərinə və inanclarına ehtiramla yanaşmasına bir sübutdur. Bütün bu faktlara istinad edən tədqiqatçılar Nadir şahın da şiə olduğunu irəli sürürlər.

Qərb müəllifləri isə Nadir şahı etnik mənsubiyyətinə və bir də dini islahatlarla şiəliyi aradan qaldırmaq istəməsinə görə sünni hesab edirlər. Nadir şah hakimiyyətə yiyələnəndən sonra şiəliklə sünnilik arasındakı fərqi aradan qaldırmağa və Cəfəri məzhəbini şiəliyin əvəzində qəbul etdirməyə çalışırdı. İmam Cəfər 6-cı imam olmaqla şiə fiqhinin geniş təsvirini vermiş və onu sünniliyin 4 məktəbi səviyyəsinə qaldırmağa cəhd göstərmişdi. Nadir şah da bu məzhəbi qəbul etməklə onu sünniliyin 5-ci məktəbinə çevirmək və ölkədə yaymaq istəyirdi. O, güman edirdi ki, bununla o, iki məzhəb arasındakı fərqin və ədavətin aradan qalxmasına nail olacaqdır.

Nadir şahın şiə məzhəbini dəyişdirməyə cəhd göstərməsi tədqiqatçılar tərəfindən müxtəlif səbəblərlə izah olunur. Bir mülahizəyə görə Nadir şah ölkə daxilində səfəvilərin nüfuzunu tamamilə aradan qaldırmaq üçün şiəliyi dəyişməyə çalışırdı. Bu mülahizəyə görə, Səfəvi hakimiyyəti şiəlik üzərində qurulmuşdu və ölkə əhalisinin əksəriyyəti də bu məzhəbə riayət edirdi. Şiəliyin mövcudluğu öz-özlüyündə səfəviliyin dirçəldilməsi üçün baza ola bilərdi. İrəli sürülən mülahizələrə görə, şiəliyi dəyişməklə və əhalini başqa məzhəbə tapındırmaqla Nadir şah səfəviliyə ciddi zərbə endirmək istəyirdi (47).

Başqa bir mülahizəyə görə, Nadir şah şiəliyi dəyişdirib ölkə əhalisini sünniliyə yaxınlaşdırmaqla Osmanlı dövlətinin şiəliyə olan sərt münasibətinin qarşısını almaq istəyirdi. İddia olunur ki, Nadir şah Osmanlı dövlətinə hücum etmək istəyirdi. Amma şiə ölkəsinin şahının sünni ölkəsində qəbul olunmayacağından ehtiyatlanırdı. Osmanlı əhalisi şiəliyə qarşı kəskin mövqedə dayanırdı. Qarşılıqlı ixtilafı aradan qaldırmaq və Osmanlı dövlətinə hücum üçün Nadir şahın dini baza yaratmaq istəməsi də güman edilir ki, bu da onu şiəliyi dəyişdirməyə sövq edə bilərdi (48).

Bəzi tədqiqatçıların fikrincə, Nadir şah şiəliklə sünnilik arasındakı fərqi aradan qaldırmaqla bütünlükdə islam dünyasının möhkəmlənməsinə çalışırdı. Eyni zamanda belə bir fikir də mövcuddur ki, Nadir şah bütün islam dünyasını öz hakimiyyəti altına almaq istəyirdi. Güman edilir ki, məhz bunun üçün Nadir şah şiəliyi dəyişməklə bütün müsəlmanlar üçün yaxın olan bir mövqedən çıxış etmək istəyirdi (49).

Əlbətdə, bu deyilənlərin hər biri mülahizə olaraq qalır və həmin mülahizələrin hər hansı birinin Nadir şah tərəfindən şiəliyin dəyişdirilməsinə əsas olduğunu birmənalı şəkildə qəbul etmək çətindir. Amma bu məlumdur ki, Nadir şah müxtəlif dinlərin mövcudluğuna və eyni dinin müxtəlif məzhəblərə bölünməsinə tənqidi yanaşırdı. Ola bilsin ki, Nadir şah islam daxilindəki parçalanmanı qəbul etmirdi, səfəvilər tərəfindən siyasiləşdirilərək əhaliyə qəbul etdirilən şiəliyin sünniliyə qarşı qoyulması ilə razılaşmırdı. Əslində, bu məqamı Nadir şah özü də vurğulayırdı.

Nadir şah şiə məzhəbinin sünni məzhəbi ilə əvəzlənməsini ilk dəfə rəsmi şəkildə Muğan düzündəki tac qoyma mərasimində irəli sürdü. Yuxarıda danışıldığı kimi, Nadir, taxt-tacın qəbul edilməsi üçün bir sıra şərtlər irəli sürdü ki, onlardan biri də dini islahatların aparılması və şiəliyin dəyişdirilməsi ilə bağlı idi. Muğan qurultayına kimi Nadirin dinə münasibəti fərdi inanc səviyyəsində idisə, həmin qurultayda Nadir dini siyasət meydanına çəkdi və şiələrin dini baxışlarının islah

edilməsi təklifini (əslində isə tələbini) irəli sürdü. Nadir şah tələb etdi ki,Şah İsmayıl tərəfindən gətirilmiş və Səfəvi dövləti ilə Osmanlı dövləti arasında ixtilafların və müharibələrin səbəbi olan şiəlik tərk edilsin və ölkə əhli sünniliyə riayət etsin. Nadir qurultayda bildirdi ki, əhali onun şahlığını istəyirsə şəriət inanclarına və peyğəmbər normalarına müxalif olan şiəliklə bağlı inanclar dəyişdirilsin. Nadir əhalini Cəfəri təriqətinə riayət etməyə çağırırdı (50).

Nadir şah taxt-tac sahibi elan edildikdən sonra vilayət hakimlərinə göndərdiyi elamiyydə məzhəb islahatı məsələsinə toxundu. Nadir şah elamiyyəsində tələb edirdi ki, bundan sonra islamın 4 xəlifəsinin adları çəkiləndə hər birinə ehtiram nümayiş etdirilsin, şiələr tərəfindən əzan oxunuşunda və iqamədə işlədilən "əli vəliyullah" ifadəsi çıxarılsın. Nadir şaha görə bu ifadə sünnilər tərəfindən qəbul olunmurdu və onun olduğu kimi saxlanılması iki məzhəb arasındakı ixtilafı daha da dərinləşdirə bilərdi. Nadir şah bütün vilayətlərin ruhanilərindən və müəzzinlərindən tələb edirdi ki, əzan oxunuşunda həmin ifadələri bir daha işlətməsinlər (51).

Nadir şah ömrü ərzində ölkə əhalisinə Cəfəri məzhəbinin qəbul etdirilməsinə nail ola bilmədi. Çünki bir neçə il ərzində ənənəvi olaraq insanların beyinlərinə kök salmış inancları birdən-birə dəyişmək elə də asan deyildi. Bu məsələdə Nadir şahın qılıncına arxalanması da bir səmərə vermədi. Eyni zamanda Nadir şah həyatının sonuna kimi şiəliyin əvəzlənməsi fikrindən də dönmədi.

Nadir şah Muğan qurultayından dərhal sonra Osmanlı sultanına da məktub göndərdi. Həmin məktubda da Nadir şah ölkə əhalisi tərəfindən şiəliyin əvəzinə Cəfəri təriqətini qəbul etdiyini bəyan etməklə bu məzhəbi də islamın ( sünniliyin) qanuni məktəblərindən biri kimi qəbul edilməsini xahiş edirdi. Amma məlumdur ki, islam dünyasının xəlifəsi sayılan Osmanlı sultanı sünni üləmalarının təsiri ilə Cəfəri məzhəbinin qanuniliyini qəbul etmədi.

Nadir şah Muğan qurultayından sonra Osmanlı sarayına nümayəndə heyəti göndərdi və iki dövlət arasında barışıq müqaviləsinin imzalanması üçün nümayəndə heyətinin apardığı təkliflər arasına Cəfəri məzhəbinin islamım beşinci məktəbi kimi qəbul edilməsini də daxil etdi. Nadir şah Osmanlı sultanı ilə danışıqlarda və müzakirələrdə dəfələrlə bu təklifi irəli sürsə də, həmin təklif qəbul edilmədi. Baxmayaraq ki, Nadir şah təklifinin ciddi olduğunu və ölkə daxilində dini islahatlar aparmaq niyyətini əməli fəaliyyəti ilə nümayiş etdirməyə çalışırdı. Muğan qurultayından sonra Nadir şah üç ay Qəzvində qaldı və orada olarkən də əzan və dualarda şiələr tərəfindən işlədilən ifadələrin ara-

dan qaldırılması, namaz qılınan zaman ölkə şahının şərəfinə söylənilən "xudavənd, bizim vəlinemətimizi, İran şahını əbədi olaraq qorusun" ifadəsinin ixtisara salınması üzərində təkid etdi. Nadir şah bilirdi ki, insan dünyada əbədi olaraq qala bilməz və onun şərəfinə belə dua oxunmasına da gərək yoxdur (52).

Nadir şah Hindistanda olarkən məhərrəm ayında döyüşçülər arasında məhərrəm təziyədarlığının tutulacağını hiss edirdi. Şiəlikdən imtina edilməsi ilə əlaqədar Nadir şah məhərrəm təziyədarlığının icra olunmasına da qadağa qoymuşdu. Amma şiəliyin aradan qaldırılması daha çox yuxarıdan həyata keçirilən bir tədbir olduğu üçün bu məsələ kütlə tərəfindən birmənalı qarşılanmırdı. Hətta Nadir şahın qoşunları daxilində də bu məsələ ilə bağlı verilən əmr tam yerinə yetirilmədi. Nadir şah tərəfindən verilən göstərişə baxmayaraq, döyüşçülər şəhər ətrafındakı düşərgələrin birində təziyədarlığın tutulmasına səy göstərdilər ki, buna görə Nadir şah tərəfindən cəzalandırıldılar (53).

Nadir şahın bütün səylərinə baxmayaraq Osmanı sarayı onun təkliflərini nəinki qəbul etmədi, hətta 1742-ci ildə qoşunları ilə Dağıstana daxil olarkən Osmanlı qoşunlarının yeni müharibəyə hazırlaşması, Osmanlı şeyxülislamının iranlıların məzhəbinin islama əks olduğu üçün şiələrə qarşı müharibəyə fitva verməsi xəbərini eşitdi (54).

Dağıstanda olarkən Nadir şahın yanına Osmanlı sarayının iki elçiliyi gəldi və çoxlu hədiyyələrlə bərabər, Osmanlı sultanının məktubu da Nadir şaha təqdim edildi. Nadir şah Osmanlı sarayı qarşısında konkret təkliflər qaldırmışdı və onlara cavab almaq istəyirdi. Nadir şah təklif edirdi ki, Kəbədə 4 mehrabın əvəzinə 5 mehrab yaradılsın, 5-cü mehrab Cəfəri məzhəbinin üləmalarına tapşırılsın və həmin mehrabda Cəfəri məzhəbinin tərəfdarları öz ibadətlərini etsinlər. Nadir şah onu da xahiş edirdi ki, İrandan, Turandan, Hindistandan, qıpçaq və qazax düzlərindən gələn zəvvarlardan çoxlu sayda vergilər alınmasın. Onlar da əziyyət çəkmədən ziyarətlərini yerinə yetirib geri qayıtsınlar (55).

Osmanlı sultanının göndərdiyi məktubda Nadir şahın qaldırdığı əsas məsələ haqqında, yəni, Cəfəri məzhəbinin tanınması haqqında hər hansı bir qeyd yox idi. Sultan yalnız Kəbə ziyarətinin bəzi texniki məsələləri haqqında İrandan gələnlərin də az məsrəflə öz ziyarətlərini yerinə yetirməsi haqqında razılığını bildirdi. Osmanlı qoşunlarının müharibəyə hazırlaşması xəbəri isə əslində Cəfəri məzhəbinin tanınması ilə bağlı Nadir şahın təklifinə verilən cavab idi.

Nadir şah Osmanlı sarayının yeni bir müharibəyə hazırlaşması xəbərini özünəməxsus soyuqqanlıqla qarşıladı və Dağıstandan Osmanlı

qoşunları ilə qarşılaşmağa yola düşdü. Nadir şah verdiyi təkliflərin qəbul olunmamasına baxmayaraq, Osmanlı dövləti ilə xoş münasibət qurmağa çalışırdı. Hətta Cəfəri məzhəbi ilə bağlı təkliflər qəbul olunmayanda, Osmanlı ruhanilərinin şiəliyə qarşı kəskin münasibəti aradan qalxmayanda belə Osmanlı dövlətinə qarşı radikal mövqeyə yuvarlanmadı. Nadir şah onun təkliflərinə hörmətsizlik və laqeydlik göstərənlərə qarşı barışmazlıq nümayiş etdirməsi məlumdur. Amma Osmanlı sarayına münasibətdə Nadir şah səbirli və dözümlü bir siyasət izləyirdi. O, Osmanlı dövlətinə qarşı məlum Səfəvi sərhədlərindən kənarda müharibə aparmaq təşəbbüsündən uzaq idi. Buna məcbur olanda belə Nadirin məqsədi heç də Osmanlı dövlətinin içərilərinə doğru irəliləmək deyildi. Hətta Nadir şahın böyük uğurla Osmanlı ərazilərinin içərilərinə doğru irəliləmək imkanı olanda belə o bunu etmədi.

Nadir şah Dağıstandan hərəkət edib Bağdad ətrafına gəldi. Burada olarkən o, Bağdad hakimi Əhməd paşaya məktub yazdı və Həzrət Əlinin və imam Hüseynin qəbirlərini ziyarət etmək istədiyini bildirdi. Bölgəyə əvvəlki yürüşü zamanı Nadir şah Həzrət Əlinin məqbərəsinin təmiri və bərpası üçün göstəriş verdi. Bunun üçün Nadir şah 50 min xalis əşrəfi ayırdı ki, məqbərənin qübbəsi və eyvanı qızıla çəkilsin. Bu iş Məhəmməd Hüseyn bəy Qulama və Qəzvin memarı Ağa Nəcəfə tapşırıldı. Məqbərənin təmirində çalışacaq işçilərin əmək haqqının ödənməsi üçün 6 min tümən ağ zər ayrıldı. Dağıstanda olarkən Nadir şaha bu işlərin icra edilməsi haqqında xəbər çatdırıldı. Ona görə Nadir şah həmin ziyarətgahı bir də ziyarət etməklə həm də görülən işlərə baxmaq istəyirdi (56).

Bir müddətdən sonra Nadir şah əvvəlcə imam Hüseynin məqbərəsini və digər Kərbəla şəhidliyini ziyarət etdi. O, Kərbəla şəhidlərini ziyarət ayinlərinə mövcud olan ənənə üzrə yad etdi. Sonra Kərbəla şəhidləri ziyarətgahında xidmət edən şəxslərə çoxlu nəzir-niyaz payladı. İmam Hüseynin qəbri zərli və qiymətli parçalarla bəzədildi. Hindistanda düzəldilmiş olan 12 ədəd böyük qəndil (çilçıraq) imam Hüseyn məqbərəsinə bağışlandı və həmin qəndillər məqbərənin qübbəsinə bərkidildi. Nadir şah üç gün ərzində imam Hüseynin məqbərəsinin ziyarətində oldu, ibadətini etdi, məqbərənin mücavirlərinə və mövləvilərinə şəfqət göstərdi və ehsan verdi. Nadir şah ziyarətdən geri qayıdanda da göstəriş verdi ki, künbəzin aşağısındakı aynanın kənarında qırmızı mina bərkidilsin və bu qırmızı minanın güzgüdə əks olunan qırmızı rəngi imam Hüseynin axıtdığı qırmızı qanı xatırlatsın və ziyarətə gələnlərin qəlbini riqqətə gətirsin (57).

Nadir şah imam Hüseynin və Kərbəla şəhidlərinin qəbrini ziyarət etdikdən sonra Nəcəfə doğru hərəkətə başladı. Nəcəf ziyarəti Nadir şahın Həzrət Əliyə böyük ehtiram göstərməsini nümayiş etdirir. C.Hanvey yazırdı ki, guya Nadir şah Həzrət Əlini tənqid edirdi, onun öz qoşunlarını səhrada susuzluğa düçar etməsindən razı deyildi və onun hərbi fəaliyyətini bəyənmirdi (58).Amma Nadir şahın Nəcəf səfəri, Həzrət Əlinin qəbrini böyük ehtiramla ziyarət etməsi, Həzrət Əlinin məqbərəsinin künbəzini İmam Rza məqbərəsinin künbəzi oxşarında qızıla tutdurması və məqbərənin abadlaşdırılması üçün göstərdiyi digər səxavətli əməllər C.Hanveyin iddialarının əksini nümayiş etdirir. Nadir şahın Həzrət Əlinin məqbərəsini abadlaşdırması müasirləri tərəfindən layiqincə təqdir olunmuş və onun bu təşəbbüsü dövrünün tanınmış şairlərinin əsərlərinin mövzusuna çevrilmişdi. “Aləm Ara-ye Naderi” əsərində Nadir şahın Həzrət Əlinin xatirəsinə olan ehtiramına həsr edilmiş iki nəzm parçası verilmişdir. Həmin parçaların hər ikisi Azərbaycan türkcəsindədir (59).

1743-cü ilin sonlarında Nadir şah Nəcəfə gəldi və birbaşa Həzrət Əlinin məqbərəsinin ziyarətinə yollandı. Bu ziyarətini də Nadir şah böyük ehtiramla icra etdi, Həzrət Əlinin ruhuna dualar oxudu, orada ibadətini etdi, Həzrət Əli məqbərəsinin xadimlərinə və xidmətçilərinə çoxlu hədiyyələr verdi.

Nadir şah Həzrət Əlinin məqbərəsinə ziyarətini başa çatdırandan sonra onun ən yaxın əyanlarından olan Mirzə Zəki xan həyatının qalan hissəsini Nəcəfdə qalıb Həzrət Əlinin məqbərəsində xidmətdə keçirmək üçün Nadir şahdan icazə istədi. Nadir şah ona çox yaxın olan bu şəxsi fikrindən daşındırmaq istəsə də, onu itirməkdən təəssüfləndiyini bildirsə də Mirzə Zəki öz inadından dönmədi və belə olanda Nadir şah onun Həzrət Əli məqbərəsində qalmasına icazə verdi.

Kərbəla və Nəcəfdə ziyarətdə olarkən Nadir şahın yanına Osmanlı sultanının elçiləri gəldilər. Onların gətirdikləri məktubda Osmanlı sultanı bir daha Cəfəri məzhəbinin doğruluğunu qəbul etmədiyini və Kəbədə yeni bir mehrabın müəyyənləşdirilməsinin qeyri-mümkünlüyünü bildirdi (60). Osmanlı sultanı, Nadir şah tərəfindən şiəliyin aradan qaldırılması arzusunu razılıqla qarşılasa da, ölkə əhalisinin birmənalı şəkildə sünniliyi qəbul etməməsindən elə də razı deyildi. Nadir şah bu məsələ ilə bağlı yazışmalarında islamın dörd xəlifəsini qəbul etdiyini, Məhəmməd peyğəmbərin dövründə vahid məzhəbin olduğunu, şiəliyin İrana və Qafqaza Şah İsmayıl tərəfindən gətirildiyini, təziyədarlığın və əzan verilməsi zamanı şiələrə xas ifadələrin ləğv edilməsinin zəruriliyini bildirsə də, nədənsə sünniliyin məlum dörd

məktəbindən birini deyil, məhz Cəfəri məzhəbinin qəbul edilməsinə və onun da islam xəlifəliyi tərəfindən tanınmasına çalışırdı. Belə güman etmək olar ki, şiəliyin kifayət qədər formalaşdığı, insanların inancına çevrildiyi bir ölkədə ondan üz çevirib sünniliyə üz tutulması əhali tərəfindən birmənalı şəkildə qarşılanmazdı və Nadir şah da bundan ehtiyatlanırdı.

Nadir şah irəli sürdüyü təkliflərə Osmanlı sultanı tərəfindən yenidən rədd cavabı alandan sonra Nadir şah Nəcəfdə onu müşayiət edən islam üləmalarının iclasını çağırdı. İclasda İranın, Əfqanıstanın, Bəlxin, Buxaranın, Hindistanın və Bağdad ətrafının tanınmış və nüfuzlu üləmaları iştirak edirdilər. Son dərəcə ciddi keçən müzakirələrdə iştirakçılar islam aləminin birliyi, bu birliyə xələl gətirə biləcək səbəblərin aradan qaldırılması müzakirə olundu. Nadir şah da iclasın işində iştirak etdi və iclasın sonunda "Nəcəf vəsiqəsi" adlanan bir sənəd imzalandı. Həmin sənəd Nadir şahın münşisi Mirzə Mehdi xan Astrabadi tərəfindən hazırlandı. Bütün iştirakçılar tərəfindən imzalanıb möhürlənən həmin sənədin bir nüsxəsi Nəcəfdəki müqəddəs Qələviyyə xəzinəsinə təhvil verildi, digər nüsxələri isə bütün vilayətlərə göndərildi (61).

Bu vəsiqədə əslində, yeni bir fikir və baxış yox idi. Dini islahatlarla bağlı Nadir şah tərəfindən Muğan qurultayında və Osmanlı sultanına göndərdiyi məktublarda irəli sürülən təkliflər bu vəsiqədə də əksini tapmışdı. Ona görə də təkrar-təkrar irəli sürülən təklifləri Osmanlı sultanı qəbul etmədiyi halda üləmaların Nəcəfdəki iclasının yekun sənədində yenidən təsbit edilməsi maraq doğurur. Çox güman ki, Nadir şah Osmanlı sarayına bir daha şiəliyin aradan qaldırılmasında qəti olduğunu və Osmanlı sarayına iliq münasibət bəslədiyini nümayiş etdirmək istəyirdi. Bir daha qeyd edilməlidir ki, bu təkliflərini Osmanlı sarayına silah gücünə qəbul etdirməyə cəhd etmək şansı da mövcud idi. Amma Nadir şah təkliflərinin qəbul olunması ilə bərabər, Osmanlı sarayı ilə münasibətləri də kəskinləşdirmək istəmirdi.

"Nəcəf vəsiqəsi" (62) bir neçə səhifədən ibarət olan bir sənəd idi. Sənədin əvvəlində Məhəmməd peyğəmbərin vəfatından sonra islam dünyasına ilk dörd xəlifənin rəhbərlik etməsindən danışılır. O da qeyd olunur ki, bu xəlifələrin bir-birini əvəzləməsi təbii şəkildə baş vermişdir və bununla bağlı xəlifələr arasında hər hansı bir anlaşılmazlıq da olmamışdı.Sənədin başqa bir yerində ərəb dilində bir sıra ayələrə istinad olunmaqla ilk dörd xəlifənin hakimiyyətinin qanuniliyinə və onların hakimiyyətinə həmin xəlifələrdən heç birinin narazılıq bildirməməsinə işarə olunur.

Vəsiqədə Şah İsmayıl dövründə şiəliyin qəbul edilməsi ilə müsəlmanlar arasında paçalanma yaranmasına, həmin parçalanmanın isə müsəlmanlar arasında qətl, qarət və fitnələrin artmasına yol açdığına toxunulur. İslam aləminə parçalanma gətirmiş bu hadisənin Səfəvi dövlətinin özünün də zəifləməsinə və parçalanmasına gətirib çıxardığı bildirilir. Sənəddə bildirilir ki, dövlətin zəifləməsi üzündən onun torpaqlarının bir hissəsini əfqanlar, bir hissəsini osmanlılar, bir hissəsini də ruslar işğal etdilər.

Sənəddə daha sonra ölkə həyatının çox mühüm dönəmində Nadirin fəaliyyətə başladığı bəyan edilir.Onun Əbivərd ətrafında döyüşlərə başlaması, türkmən tayfalarına və əfqanlara qarşı uğurlu döyüşləri, Hindistan və Türküstana hərbi yürüşləri xatırlanır. Sənəddə o da qeyd edilir ki, işğal olunmuş əraziləri düşmənlərdən təmizlədikdən sonra Nadir Muğan düzündə qurultay çağırdı, ölkənin yeni şahının seçilməsi məsələsini qurultay iştirakçılarının seçiminə verdi. Qurultay iştirakçıları da təkid göstərib şahlığın Nadir tərəfindən qəbul olunmasına nail oldular

Vəsiqədə Nadirin şahlıq taxt-tacını qəbul etmək üçün irəli sürdüyü təkliflərə toxunulur və sonra da əlavə edilir ki, irəli sürülən təkliflərin qəbul olunması ilə taxta çıxan Nadir şah bu barədə Osmanlı sultanına da məktub göndərdi və orada özünün beş təklifinin Osmanlı sultanı tərəfindən qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi. Vəsiqədə bu məlum təkliflər bir daha sadalanmışdır. Daha sonra qeyd olunur ki, Osmanlı sarayı məzhəblə bağlı olan təkliflər arasında yalnız Məkkə ziyarətinə gedən zəvvar karvanlarının karvanbaşısının yerli şəxslərdən təyin olunmasına razılıq verdi. Digər təkliflər isə qəbul olunmadı. Vəsiqədə o da əlavə olunur ki, Muğan qurultayından Nəcəf iclasına qədər olan 6-7 illik fasilədə müxtəlif nümayəndə heyətlərinin gediş-gəlişinə baxmayaraq irəli sürülən təkliflər həll olunmamış qalmışdır.

İclas iştirakçıları vəsiqədə bir daha islamın ilk dörd xəlifəsinin hakimiyyətinin qanuniliyinə və onların hər birinə hörmətlə yanaşılmasının zəruriliyinə təkid etdilər. Sənəddə Şah İsmayıl Səfəvi tərəfindən şiəliyin yayılmasının islam aləminə ədavət və parçalanma gətirdiyi vurğulandı. İclas iştirakçıları Cəfəri məzhəbini qəbul etdiklərini və bu məzhəbdən üz döndərdikləri halda göydə Allahın, yerdə isə şahın qəzəbinə və cəzalarına layiq olduqlarını bildirdilər.

Mövcud olan məlumatlara görə, iclasda 70 üləma iştirak edirdi. Abdulla Əlsəvidi bu iclasın sədri, Əliəkbər Mollabaşı ilə Buxaradan olan bir molla iclasın məruzəçiləri idilər. İclas iştirakçıları arasında razılaşma dərhal əldə edilmədi. İran, Buxara və əfqan üləmaları vəsi-

qənin mətnini dərhal qəbul etdilər, o biri gün isə digər üləmalar sənədə razılığını bildirdilər (63).

Bununla belə, göstərilən bu cəhd də öz nəticəsini vermədi və Osmanlı sarayı Cəfəri məzhəbinin rəsmiliyini qəbul etmədi. 1746-cı ildə Osmanlı dövləti ilə imzalanan sülh müqaviləsində də Cəfəri məzhəbinin rəsmiləşdirilməsi öz əksini tapmadı. Həmin sülh müqaviləsinin birinci bəndində bildirilirdi ki, iranlı zəvvarlara Bağdad və Suriya marşrutu ilə Məkkəyə ziyarətə getməyə icazə verilir. Həmin marşrutda zəvvarların hərəkətinin təhlükəsizliyi təmin edilməli idi. Bir də müqavilənin əlavəsində dini məsələlərə toxunulmuşdur. Burada qeyd olunmuşdur ki, ölkə əhalisi səfəvilər dövründə qəbul edilmiş xoşagəlməz əqidədən imtina edirlər və sonuncu peyğəmbərin yolunu davam etdirməyə tərəfdardırlar. Sonra əlavə edilirdi ki, İran xalqları bütün islam xəlifələrinə hörmətlə yanaşacaqlar və gələcəkdə bu xalqlar Osmanlı ərazisindən keçməklə Məkkəyə və Mədinəyə səfər edə biləcəklər (64).

Həm Osmanlı sarayı, həm də Nadir şah bu sülh müqaviləsinin imzalanmasını məmnunluqla qarşıladı. Müqavilənin imzalanmasından sonra Nadir şah Osmanlı sarayına məktub göndərdi Nadir şah məktubunda Məhəmməd peyğəmbərə və islam xəlifələrinə olan ehtiramını ifadə etdikdən sonra  Şah İsmayıl tərəfindən xalqa qəbul etdirilən dini baxışların insanların başına bəlalar açdığını və Osmanlı dövləti ilə münasibətdə çətinliklərin yaratdığını bildirdi. Nadir şaha görə, şahlıq taxt-tacını qəbul etməzdən əvvəl əhali ona şiə etiqadını tərk edəcəyinə söz vermişdi (65).

Osmanlı dövləti ilə imzalanan sülh müqaviləsində Cəfəri məzhəbi ilə bağlı məsələyə toxunulmadığından güman etmək olar ki, o bu məsələ üzərində artıq təkid etmirdi və Osmanlı dövləti ilə yaxşı münasibətlərin yaradılması onun üçün daha əhəmiyyətli idi. Digər tərəfdən ölkə əhalisinin şiəliyi tərk edəcəyi fikrinin xatırlanması Nadir şahın bu məzhəbi dəyişdirmək əzmində qaldığını göstərirdi. Nadir şahın tezliklə qətlə yetirilməsi onun həyata keçirmək istədiyi dini islahatların gələcəyinə nöqtə qoydu.

Nadir şah müqəddəs kitabların məzmunu və mahiyyəti ilə də dərindən maraqlanırdı. Mövcud olan məlumatlara görə, Nadir şah savad öyrənəndən sonra Quran kitabına olan marağı daha da artdı. Ölkə ərazisində yaşayan digər dinlərin nümayəndələrinə dözümlü münasibət göstərən Nadir şah Hindistan yürüşündən qayıdanda sonra Quranla bərabər İncilin və Talmutun da tərcümə olunmasına göstəriş verdi. Hələ Hindistan yürüşündə olarkən Quranın 48-ci surəsi olan Fəth surəsinin oxunuşu zamanı Nadir şah 29-cu ayədə İncilin və Tövratın

xatırlanmasına diqqət yetirmiş və bu kitabların mövcud olub-olmaması ilə maraqlanmışdı. Təsdiq cavabını alandan sonra Nadir şah onları tərcümə etdirmək qərarına gəldi. Bunun üçün Nadir şah xüsusi qrup təşkil etdirdi və lazımi maliyyə vəsaiti ayırdı. C.Hanveyin yazdığına görə, həmin qrupa Mirzə Mehdi başçılıq edirdi.Tərcümə qrupuna müsəlman üləmaları ilə bərabər üç nəfər yəhudi, iki Roma katolik missioneri, 2 erməni katalikosu, iki erməni monarxı və bir neçə digər keşiş daxil idilər. Bu din xadimlərinin hamısı yerli adamlar olduğu üçün fars dilini yaxşı bilirdilər. Müqəddəs kitablar üzərindəki iş 6 ay davam etdi (66).

Qərb müəllifləri bu məsələyə müxtəlif mövqedən yanaşırlar. C.Hanvey öz xarakterinə sadiq qalaraq Nadir şahın bu qərarında da onun şəxsiyyətini kölgə altına alacaq məqamlar axtarmağa çalışır. Onun qeydlərinə görə, müqəddəs kitabların tərcümə edilməsi Nadir şahın ağlına gəlmiş təsadüfi bir fikir idi, toplanmış dini xadimlərin heç də hamısı bu işlə məşğul olmaq istəmirdilər və onlardan bəziləri rüşvət verərək tərcümədən canlarını qurtardılar. C.Hanveyə görə, guya Nadir şah xristian dinin məsxərəyə qoyur, Məhəmməd peyğəmbəri və Həzrət Əlini tənqid edirdi (67).

Nadir Şahın dini baxışları, xristian kilsələri və islam müqəddəsləri ilə ən səthi tanışlıq belə C.Hanveyin bu fikirlərinin əsassızlığını üzə çıxara bilər. Nadir şah dini dəyərlərə, islam müqəddəslərinin, o cümlədən də xristian ibadətgahlarının abadlaşdırılmasına xüsusi diqqətlə yanaşırdı.Elə tərcümə qrupunun üzvlərinin xatirələrindən də məlumdur ki, müqəddəs kitabların tərcüməsi üzərində çox yaradıcı iş getmişdir.Pravoslav və katolik din xadimlərinin təfsirlərindəki fərqə müsəlman üləmaları diqqətlə yanaşır və tərcümə variantları qarşılıqlı razılaşma əsasında qəbul edilirdi (68).

Tərcümə qrupu İsfahanda işləyirdi. Tərcümə işləri başa çatandan sonra tərcümə qrupu Qəzvində olan Nadir şahın yanına yollandı. Nadir şah onları ehtiramla qəbul etdi və onların yol məsrəflərini də xəzinədən ödədi (69).

Nadir şah din xadimləri ilə görüşəndə onlara belə dedi:“Yaradan bizim qəlbimizə görmək imkanı vermişdir ki, mövcud olan ayinləri görək, onlar arasında seçim aparmağı bacaraq və yeni iman gətirək. Həm yaradan bu imandan razı olsun, həm də bizim üçün nicat yolu olsun. Ona görə də dünyada bu qədər çox ayinlər vardır. Bu ayinlərin biri digərini inkar edir və hər biri yalnız özünü dəyərli sayır. Allah tək olsa da ayinlər tək deyil. Gərək ayinlər də tək olsun” (70).

Bu fikir Nadir şahın özünün gəldiyi qənaət idi. Amma Nadir şah bu qənaətini zorla qeyri-müsəlmanlara qəbul etdirmək cəhdində olmamışdı. Bunu onun qeyri-müsəlman dinlərinə olan dözümlü münasibəti də nümayiş etdirir.

Bəzi hallarda isə onun bu dözümlülüyü ifrat hal alırdı Bu xüsusilə özünü Nadir şahın ermənilərə münasibətində göstərirdi. Baxmayaraq ki, Şah Sultan Hüseyn dövründə ermənilərin dövlətin parçalanması üçün etdiklərin xəyanətdən, dövlət əleyhinə onların Rusiya ilə müttəfiqliyindən və rusların əlaltılarına çevrilməsindən Nadir şahın xəbəri vardı. Bununla belə, Nadir şah Şimali Azərbaycanın bəzi xanlarının cəzalandırılması naminə ermənilərə daha çox diqqət ayırırdı.

1735-ci ildə Gəncənin mühasirəsini başa çatdırandan sonra Nadir İrəvana gəldi, Məhəmmədrza bəy Xorasanlını İrəvan xanı təyin etdi. İrəvan ətrafında, Gəncədə, Qarabağda, Şəmsəddində və Tuğda yaşayan ermənilərin nümayəndələrini hüzuruna çağırtdırdı. M.K.Mərvinin yazdığına görə, Nadir Azərbaycan ermənilərinin ağsaqqalı olan Məlik Yeqanı erməni tayfasının ağsaqqalı təyin etdi. Erməni nümayəndələri ilə görüşdən sonra Nadirin yanına Üçkilsə keşişləri gəldilər. Nadir bu keşişləri öz vəzifələrində saxladı. Bununla da kifayətlənməyən Nadir Üçkilsəyə min tümən pul ayırdı və bir neçə memara tapşırdı ki, həmin pula kilsəni təmir etsinlər. O, Kerman vilayətinin hakimlərinə isə göstəriş verdi ki, bu kilsəyə xalça və palazlar göndərsinlər (71).

Ermənilərin təkidi ilə Nadir Üçkilsədə də oldu. Nadir kilsəyə daxil olanda erməni keşişləri ona səcdə edərək təzim etdilər. Nadir göstərdiyi yardıma əlavə olaraq ona belə sədaqət nümayiş etdirən erməni keşişlərinə bahalı hədiyyələr verdi. Kilsəyə isə bir neçə böyük qəndil (çilçıraq) bağışladı. Bu qəndillərin hər biri xalis qızıldan olub xeyli ağır idi. Onlar kilsənin tavanından asıldı (72).

Muğan düzündəki tacqoyma mərasimi zamanında da erməni katalikosu iştirak edirdi. Nadir şahın ermənilərə olan bu qayğısı heç də bütün əhali tərəfindən razılıqla qarşılanmırdı. Xüsusilə, Naxçıvan ətrafından 1000 erməni ailəsinin Məşhədə köçürülməsi "Aləm Ara-ye Naderi"də çox böyük təəssüflə xatırlanır. M.K.Mərvi yazır ki, ermənilər Məşhədə köçürüləndən sonra bu şəhərdə xristian kilsəsi tikildi, şərabxana və bütxana açıldı. Şərabxanalarda açıq şəkildə şərab içilir, musiqi çalınır, kişilər xanımlarla bir yerdə rəqs edir, ismətsizlik yayılır, daş ürəkli rəiyyətin insafsızlığı artır, varlıların kasıblara şəfqəti azalır, övladların ataların üzünə ağ olması artırdı (73). Müəllif başqa xoşagəlməz halların da artdığını bildirirdi. Dindar əhali sözsüz ki, Nadir şahın Məşhədə gətirdiyi erməniliyin çiçəklənməsinə yaradılan şərait-

dən heç də  razı deyildi və hətta bildirilirdi ki, Nadir şah məhz bu əməllərinin cəzasına çatdı və həyatını faciəli şəkildə itirdi.

Ermənilər isə heç də Nadir şaha onun göstərdiyi qayğıya layiq şəkildə sədaqət nümayiş etdirmirdilər. Yəqin ki, bu heç Nadir şah üçün də təəccüblü deyildi. Çünki ölkənin hərbi, siyasi və mədəni həyatında hər hansı bir çəkisi olmayan ermənilərə göstərilən qayğı daha çox yuxarıda qeyd edildiyi kimi mərkəzdənqaçma meylli Azərbaycan xanlarını cəzalandırmaq və ya onlara qarşı bir balans yaratmaq niyyəti güdürdü. Ermənilərin nankorluğuna isə Nadir şah dözümlülük nümayiş etdirə bilmədi. Məsələn, C.Hanveyin yazdığına görə Şah Sultan Hüseynə məxsus olan yəhərini fırıldaq yolu ilə satın alıb bu yəhəri bəzəyən qiymətli daşları mənimsədiklərinə görə bir neçə erməni taciri Nadir şahın əmrinə əsasən diri-diri yandırıldı. Öz aralarında dil tapa bilməyən erməni keşişlərinin var-dövləti isə qoşunların xeyrinə müsadirə edildi (74).

C.Hanveyə görə, Nadir şah ermənilərin dövlətə xəyanət yolu tutaraq gürcülərlə məktublaşmasından  da xəbərdar olmuşdu (75). Ermənilər eyni zamanda onlara himayədarlıq etmiş Nadir şahın xəzinəsinin talanmasında da müəyyən fitnələrə əl atdılar (Bu barədə aşağıda danışılacaqdır).

Nadir şah hələ sağlığında ikən axirət dünyası haqqında da düşünürdü. Qeyd edildiyi kimi, Türküstan yürüşünü başa vurandan sonra o, yolunu doğulduğu bölgədən saldı, Kelat və Əbivərddə oldu. Əbivərddə olarkən əmr etdi ki, orada onun şərəfinə böyük bir bina tiksinlər. Künbəz şəklində olan həmin bina “Mövludxana” adlandırıldı. Kelatda isə onun üçün məqbərə tikilməsinə göstəriş verdi.(76). Həmin məqbərənin tikilməsi Nadir şahın  sərkərdəliyinin və şahlığının çiçəkləndiyi bir dövrə təsadüf edir.Ona görə ömrünün daha qayğısız dövründə Nadir şahın axirət dünyası haqqında düşünməsi maraqlı görünə bilər.

Başqa bir məqbərəni isə Nadir şah ömrünün sonlarında Məşhəddə tikdirdi. Mövcud olan məlumata görə, məqbərə İmam Rza məqbərəsinin şimalındakı küçəyə açılan geniş sahədə tikildi. Amma həmin məqbərə Nadir şahın xoşuna gəlmədi. Onda əmr etdi ki, qarşı tərəfdə, yəni indiki məqbərənin yerində yeni məqbərə tikilsin. Bu məqbərənin tikintisi 4 ilə başa çatdı (77). Tarixi ədəbiyyatda mövcud olan məlumata görə 4 il müddətinə tikilmiş bu məqbərə  əzəmətli bir tikini idi. Sonradan isə Nadir şahın məqbərəsi müəyyən təkmilləşdirmə işlərinə məruz qalaraq əvvəlki görkəmini itirdi və bugünkü şəklə düşdü. Nadir şah özü tərəfindən tikdirilmiş məqbərədə torpağa tapşırılmışdır.

## 3. Nadir şahın var-dövlət toplanmasına münasibəti və xəzinəsinin taleyi

Nadir şah həyatını hərblə bağlayandan sonra böyük miqyasda var-dövlət ələ gətirmiş və dövrünün ən zəngin şəxslərindən birinə çevrilmişdi.Adi bir əyalət adamı kimi ilk vaxtlar öz yurdunu talançı yürüşlərdən qorumaq üçün silaha sarılmış və ətrafına dəstə toplamış Nadir qələbədən qələbəyə məğlub etdiyi tərəfin əmlakını müharibə qəniməti kimi ələ keçirməklə maddi imkanlarını genişləndirdi və nəhayətdə son dərəcə zəngin bir xəzinəyə sahib oldu. Ölümündən sonra isə onun zəngin xəzinəsi uğrunda kəskin bir mübarizə başlandı. Ona görə də Nadir şahla bağlı elə bir mənbə və ədəbiyyat tapmaq çətindir ki, orada Nadir şahın müharibə qənimətlərinə və bütünlükdə var-dövlətinə toxunulmasın.

Həyatının ilk dövrü üçün Nadirdə var-dövlət toplanmasına xüsusi bir hərisliyi müşahidə etmək mümkün deyildir. Amma şübhəsiz ki, çoxsaylı qoşunların saxlanması, uzunmüddətli hərbi yürüşlərin maliyyələşdirilməsi və dövlət məsələlərinin həlli üçün müəyyən maliyyə ehtiyatlarına ehtiyac var idi. Həmin ehtiyacın aradan qaldırılması istiqamətində hakimiyyətə qədərki dövrdə Nadir üçün başlıca mənbələrdən biri sözsüz ki, müharibə qənimətləri idi. Bu qənimətlərin böyük hissəsi dərhal müharibə xərclərinin ödənməsinə, qoşunların maliyyələşdirilməsinə və təchizatına sərf edilirdi. Ona görə də Nadir şah uzun müddət ciddi maliyyə ehtiyatlarına malik deyildi. Yalnız Hindistan yürüşündən sonra Nadir şahın xəzinəsi kifayət qədər zənginləşdi və elə Hindistan yürüşündən sonra onda xəzinəyə bağlılıq daha da artdı.

"Aləm Ara-ye Naderi"də  Nadirin cavanlığında Əmir Teymurun xəzinəsini tapması haqqında qeydlər vardır. Əslində, həmin qeydlər rəvayət xarakteri daşıyır və həqiqəti əks etdirmir.Çünki Nadir cavanlığında xeyli kasıb bir həyat sürməli olmuşdu. Özündən əvvəlki şahlardan fərqli olaraq Nadir zəngin xəzinə bolluğunun yaratdığı dəbdəbəli mühitdə deyil, çörəyini gündəlik zəhməti ilə qazanan sadə bir əyalət ailəsində doğulmuşdu. Nadir də hələ uşaq yaşlarından bu ailənin zəhmətinə qatlaşmış və gündəlik çörək qazanılmasında kömək etməyə çalışmışdı. Onun cavanlığında mindiyi atın, malik olduğu döyüş sursatının əldə edilməsi də heç şübhəsiz ki, ailə gəlirinin qənaəti hesabına başa gəlmişdi.

Nadirin tale ulduzunu parladan da onun var-dövlətə hərisliyi deyil, döyüşçü kimi formalaşması və hərbi-fiziki məharəti idi. Nadir hələ cavanlığında qeyri-bərabər döyüşlərə qatılmaq məcburiyyətində qalmışdı. Başına topladığı həmfikirləri ilə talançılara qarşı əldə etdiyi hər bir hərbi uğur təkcə onun döyüşçü təcrübəsini artırmadı, eyni zamanda ona kiçik də olsa hərbi qənimət gətirdi. Yuxarıda söylənilənlərdən də aydındır ki, Nadirin üstün gəldiyi talançı qüvvələrdən əldə etdiyi hər kiçik qənimət onun dəstəsinin sıralarını genişləndirdi və onların təchizatını təkmilləşdirdi. Nadirə yaxşı aydın idi ki, daha böyük hərbi uğurların əldə edilməsi üçün və yaşadığı yurdun özbək və türkmən yürüşlərindən daha etibarlı qorunması üçün daha yaxşı dəstəyə malik olmalıdır. Yaxşı dəstənin təşkili isə ciddi maliyyə xərcləri tələb edirdi. Ona görə də Nadirin rəhbərliyi altında olan dəstənin talançılardan əldə etdiyi qənimətlər məhz dəstənin təkmilləşdirilməsinə və gücləndirilməsinə istiqamətləndirilirdi. Bu cəhət Nadirin cavanlıq dövrünün xarakterik xüsusiyyətlərindən biri idi.

Nadirin dəstəsi genişləndikcə bölgəni tamamilə nəzarət altına ala bildi. Bu o demək idi ki, Nadirin maliyyə mənbələri də gücləndi. Amma mənbələrdə Nadirin cavanlığında böyük var-dövlətə malik olması haqqında məlumatlara təsadüf edilmir. Çünki Nadirin əldə etdiyi maliyyə vəsaiti hələ də xəzinədə toplanmasına deyil, güclü qoşun dəstələrinin formalaşmasına və döyüşçülərin maliyyələşdirilməsinə istiqamətləndirilirdi.

Şah Təhmasiblə birləşəndə Nadirin xeyli böyük bir dəstəsi var idi. O əldə edə bildiyi vəsaitdən qoşun dəstəsinin formalaşdırılmasına səxavətlə istifadə edirdi. Şah Təhmasiblə birləşəndən sonra Məlik Mahmuda və əbdali əfqanlarına qarşı apardığı döyüşlər Nadirə daha böyük maliyyə ehtiyatları gətirdi. Məsələ bundadır ki, bu dövrdə döyüşə yollanan döyüşçülər öz xidmətçilərini, xanımlarını və şəxsi xərclərinin ödənməsi üçün müəyyən maliyyə vəsaitlərini də özləri ilə aparırdılar. Yad qüvvələr əlbətdə ki, yerli xalqdan taladıqları var-dövləti də yanlarında saxlayırdılar.Məğlubiyyətlə üzləşəndə həmin döyüşçülər məcbur olurdular ki, bütün əmlaklarını atsınlar və yalnız canlarını qurtarmağa çalışsınlar. Sonradan həmin qənimət sözsüz ki, qalib tərəfin əlinə keçirdi və qalib tərəf üçün müəyyən maliyyə ehtiyatlarını təşkil edirdi. İlk böyük döyüşləri zamanı Nadir bu məsələdə də son dərəcə ehtiyatlı idi. O, müharibə qənimətlərinə xüsusi hərislik göstərmədiyi kimi, döyüşçülərini də bu hərislikdən çəkindirməyə çalışırdı. Bu baxımdan əbdali əfqanları ilə aparılan Mehmandust döyüşü xarakterikdir. Yuxarıda qeyd edildiyi kimi, Nadir müharibə qənimətləri top-

lanmasına aludə olmuş döyüşçülərinin topladıqlarını əllərindən alıb hamısına od vurdu. O şübhə etmirdi ki, qənimət toplanmasına olan ifrat aludəçilik döyüşçünün simasını tamamilə dəyişə bilər.

Bununla belə, əbdali əfqanlarının məğlub edilməsi və Heratın azad edilməsi Nadirə müəyyən müharibə qənimətləri də bəxş etdi. Məhz bunun nəticəsi idi ki, Məşhədə qayıdandan sonra Nadir yerli əhaliyə xeyli nəzir-niyaz payladı, Xorasan vilayətinin əhalisini 3 illik vergidən azad etdi və İmam Rza məqbərəsinin abadlaşdırılmasına böyük maliyyə vəsaiti ayırdı (78).

Gilzayi əfqanlarına qarşı aparılan döyüşlərdə də Nadirin əlinə xeyli qənimət keçdi. İsfahan azad edildikdən sonra Nadir Xorasanın və ona həmsərhəd olan vilayətlərin hakimi təyin edildi. Bu o demək idi ki, bu vilayətlərdən toplanan maliyyənin xeyli hissəsi Nadirin ixtiyarına keçirdi. Bundan başqa Nadir onun tələbi əsasında Şah Təhmasib tərəfindən ölkədə maliyyə toplanması işlərinin rəhbəri təyin edildi. Buna görə də İsfahan azad edilən illərdə artıq Nadirin ciddi maliyyə imkanlarına malik olmasından danışmaq olar. Bu illərdə o, ölkədə böyük güc sahibi olduğu üçün onun maliyyə mənbələri də xeyli genişləndi.

"Aləm Ara-ye Naderi"nin yazdığına görə, bəxtiyari tayfalarının qiyamının yatırılması üçün Nadir Kermanşaha doğru hərəkət edəndə bu tayfanın ağsaqqalları çoxlu qiymətli hədiyyələrlə Nadirin qarşısına çıxdılar. Nadir həmin hədiyyələri qəbul etdi. Sonra isə Dərbənd Bənavər qalasına hücum edəndə oradakı xəzinəni ələ keçirdi (79).

Şah Təhmasibi hakimiyyətdən uzaqlaşdırdıqdan sonra isə ölkənin bütüm maliyyə ehtiyatları və xəzinəsi Nadirin əlinə keçdi. Nadir mərkəzi hakimiyyətə tabe olmaq istəməyən tayfaları və vilayətləri itaət altına gətirdikcə həmin məkanların xəzinəsi və maliyyə ehtiyatları da Nadirin əlinə keçir və onun maliyyə ehtiyatlarını artırırdı. Nadir şah da istər taxt-taca qədərki dövrdə, istərsə də şahlığı dövründə qiyam qaldıran qüvvələrə endirdiyi əsas zərbələrdən biri məhz onların maliyyə ehtiyatlarının və xəzinələrinin ələ keçirilməsinə istiqamətlənirdi. "Aləm Ara-ye Naderi" müəllifi yazır ki, Dağıstana yürüşü zamanı Nadirə Surxayın öz xəzinəsini qala divarları altında gizlətdiyini xəbər verdilər. Nadirin əmri ilə göstərilən yer qazıldı və oradan 80 xəm ağ zər çıxarıldı. Həmin qiymətli daşların hamısı müharibə qəniməti kimi xəzinəyə qatıldı. Bundan əlavə, Nadir göstəriş verdi ki, Dağıstanda ona müqavimət göstərən imkanlı şəxslərin əmlakı da qənimət kimi götürülsün. Mənbə xəbər verir ki, Nadir döyüşçüləri 20 gün ərzində Dağıstan əyanlarının əmlakını toplamaqla məşğul oldular (80).

Hindistana yürüşü gedişində Kabul hakimi öz xəzinəsinin açarlarını könüllü olaraq Nadir şaha göndərdi. Nadir şah əvəzində bildirdi ki, onun öz xəzinəsində kifayət qədər vəsait vardır və həmin vəsait qoşunların 12 illik məsrəfinə bəs edər. Kabul hakiminin könüllü itaət göstərməsini nəzərə alıb Nadir şah da səxavət nümayiş etdirdi və onun xəzinəsinə toxunmadı (81).

Hindistan yürüşü ərəfəsində xəzinədə qoşunların 12 illik xərcinin ehtiyatının yaranmasında vergi, gömrük və s. yığımlardan da istifadə edilirdi. Amma sözsüz ki, xəzinə ehtiyatlarının böyük hissəsini məhz müharibə qənimətləri təşkil edirdi.

Nadir şah özünün ən böyük müharibə qənimətini heç şübhəsiz ki, Hindistan yürüşü zamanı əldə etdi. Bu yürüş Nadir şahın fatehlik və sərkərdəlik istedadının parlaq nümunəsi olmaqla bərabər, həm də çox zəngin müharibə qənimətlərinin əldə edilməsi ilə əlamətdardır. Bu qənimətlərin toplanmasına hələ müharibə meydanında başlandı. Məğlub olmuş hind qoşunlarının döyüş meydanındakı çoxsaylı təchizatı və əmlakı Nadir şah döyüşçülərinin əlinə keçdi. Hindistan qoşunlarının məğlubiyyəti rəsmiləşdiriləndən sonra isə Məhəmməd şah xəzinəsinin açarlarını Nadir şaha təqdim etdi (82).

Məhəmməd şahın xəzinəsi ilə tanışlıqdan sonra Nadir şah bildirdi ki, orada saxlanılan var-dövlətin miqyasını və zənginliyini dil ilə təsvir etmək mümkün deyil. Bu xəzinə o qədər zəngin idi ki, hətta əyanları Nadir şahla nəyi götürmək barədə məsləhətləşmələr apardılar. Nadir şah öz əyanlarına göstəriş verdi ki, 30 min baş dəvə toplanılsın və xəzinə bu dəvələrə yüklənilsin. Eyni zamanda bir neçə etibarlı mirzəyə tapşırıldı ki, xəzinənin hesabı aparılsın və oradakı əşyaların siyahısı tutulsun. M.K.Mərvinin yazdığına görə, 4 min dəvəyə ləl-cəvahirat və qiymətli şah əşyaları, 2 min baş dəvəyə qızıl-gümüş və qiymətli daşlara tutulmuş taxtlar, yarım taxtlar və onlara aid olan əşyalar yükləndilər. 2 min dəvəyə qızıldan və qiymətli daşlardan düzəldilmiş və bəzədilmiş süvari əşyaları yükləndi. Daha 2 min dəvəyə qızıldan və gümüşdən düzəldilmiş və qiymətli əşyalarla bəzədilmiş camlar, şamdanlar və digər qablar yükləndi. 6 min dəvəyə isə əşrəfilər və digər kəsilmiş pullar yükləndi. Bundan başqa 24 min qatıra isə ağ zər və gümüş əşyalar yükləndi (83).

Məhəmməd şah xəzinəsinin əsas əmlakı yüklənəndən sonra Nadir şahın əyanları bir neçə ağzı bağlı otaqla da rastlaşdılar. Güman olunurdu ki, xəzinənin həmin otaqlarında da var-dövlət gizlədilmişdir. Bu məsələ Nadir şaha çatdırılanda Məhəmməd şaha xəbər göndərdi ki, ağzı bağlı olan otaqların açarları da ona təqdim edilsin. Məhəmməd

şahın xüsusi xacələrindən biri Nadir şahın hüzuruna gələrək bildirdi ki, həmin otaqlarda Məhəmməd şahın və onun əcdadlarının xanımlarının, ailələrinin qadın üzvlərinin istifadə etdikləri geyimlər və geyim əşyaları saxlanılır. Xacə tərəfindən Məhəmməd şahın xahişi də Nadir şaha çatdırıldı ki, bu əşyaları götürmək istəyirsə götürsün. Amma bu iş gizlincə görülsün ki, ətrafdakılar Məhəmməd şahın hərəmxanasının aparılmasından xəbər tutaraq onu namussuzluqda və şərəfsizlikdə qınamasınlar. Məsələdən hali olandan sonra Nadir şah həmin otaqların açarlarını xacəyə qaytardı və öz əyanlarına da tapşırdı ki, kimsə həmin otaqlara tərəf getməsin (84).

Hind sarayının xəzinəsinin yüklənməsi bir neçə gün davam etdi. Bu zaman Nadir şaha xəbər çatdırıldı ki, onun Ağa Məhəmməd adlı xəzinədarı Məhəmməd şahın xəzinəsini təhvil alan zaman üç xarvar qızılı mənimsəyibdir. Nadir şah bu məsələni araşdırdı və deyilənin doğru olduğu bilinəndə xəzinədarın boynu vuruldu. Onun yerinə təyin olunmuş yeni xəzinədar isə yüz misqal qızılı mənimsədiyi üçün qətlə yetirildi.

Mövcud olan məlumata görə, Hindistanda əldə edilən qənimət 13 min sandığa doldurularaq heyvanlara yükləndi (85).

Nadir şahın Hindistandan əldə etdiyi müharibə qənimətləri içərisində bir neçə qiymətli əşya var idi ki, onlar indinin özündə də nadirliyi və qiyməti ilə heyrət doğurur. Bu əşyalardan biri Təxti-tavs (Tovuz taxtı) idi. Təəssüf ki, həmin taxt günümüzə qədər gəlib çatmamışdır. Təxti-tavus Hindistanın moğol şahlarının taxtı idi. Belə bir fikir mövcuddur ki, Təxti-tavusun qurulması sona qədər başa çatdırılmamışdı. Ehtimal edilir ki, taxtın bəzi hissələrinin bəzənməsi üçün lazım olan qədər qiymətli daş çatmamışdı. Ona görə də güman edilir ki, taxtın bəzi elementləri tamamlanmamışdı. Vaxt ötdükcə bu elementlər də tamamlanmalı idi. Buna baxmayaraq bu qiymətli taxt Nadir şaha qismət oldu və onun qiymətli hədiyyələri arasında özünə xüsusi yer tutdu.

Persi Sayks başqa müəlliflərə istinad etməklə Təxti-tavusun geniş təsvirini vermişdir (86). Onun istinad etdiyi məlumata görə, Təxti-tavus ölçüləri etibarilə səfər çarpayıları böyüklüyündə idi. Görünüşü etibari ilə isə bu taxt dörd dayaq üzərində quraşdırılmışdı. Onun qarşı tərəfində taxta qalxmaq üçün pilləkən var idi. Taxtın kənarı boyunca elə də hündür olmayan məhəccər quraşdırılmışdı. Taxtın arxa hissəsinin məhəccəri xeyli hündür idi və onun qarşısında da şahın oturacağı təxt vardı.

P.Sayksın təsvirinə görə. taxtın ayaqları kifayət qədər qalın idi. Ayaqların üzərindən taxtın kənar haşiyəsi üzrə dörd ədəd mil buraxılmış və millərin üzərində də taxtın sahəsi quraşdırılmışdı. Millərin üzərində 12 ədəd sütun var idi və üç tərəfdən taxtın məhəccəri də həmin sütunların üzərində idi. Qarşı tərəfin məhəccəri tam deyildir. Taxtın ayaqları və milləri tamamilə qızıla tutulmuşdu. Qızıl üzərində isə mina işləri aparılmışdı. Ayaqların və millərin üstünü örtən qızıl təbəqənin üzərinə isə almaz və yaqut daşları bərkidilmişdi. Hər milin ortasında bir böyük yaqut var idi. Həmin yaqutun ətrafında da dörd ədəd zümrüd parıldayırdı. Bu zümrüdlər çarpaz şəkildə yapışdırılmışdı. Bu qiymətli daşların düzülüşündə xüsusi məharət işlədilmişdi. Əgər millərin birində ortaya yaqut qoyulmuşdusa, o birində ortaya zümrüd qoyulmuş və ətrafına isə almazlar düzülmüşdü. Almazların böyüyü 10-12 karat həcmində idi. Ayaqların və millərin üzərinə mirvarilər də bərkidilmişdi.

Taxtın qarşı tərəfindən onun üzərinə çıxmaq üçün dörd pilləli pilləkən var idi. Taxtın üstündə üç söykənəcək var idi. Onlardan biri şah oturacağının arxasında idi. Bu söykənəcək böyük və girdə idi. İki söykənəcək isə kənarlardan qoyulmuşdu. Taxtda qılınc, gürz, balta, oxkaman asmağa yer var idi. Bu silahlar da söykənəcəklər və pillələr kimi tamamilə cəvahiratla bəzədilirdi.

Taxtın dövrəsi boyunca düzülmüş yaqutların sayı 108 idi. Bu yaqutlardan ən kiçiyi təxminən 100 karat böyüklüyündə idi. Onların bəziləri isə bundan bir neçə dəfə böyük idi və hər biri də taxta xüsusi gözəllik verirdi. Taxt üzərində 160 ədəd zümrüd bərkidilmişdi. Onların göz qamaşdıran parıltısı var idi. Zümrüdlərin böyüyü 60 karat, kiçiyi isə 30 karat böyüklüyündə idi. Taxt üzərində elə həmin sayda da yaqutlar var idi. Taxtın arxa söykənəcəyinin yuxarısı künbəz formasında idi. Taxtın söykənəcəyi üzərində tovuz quşu şəklində bəzəklər var idi. Taxtın adı da buradan götürülmüşdü. Tovuz quşunun geniş açılmış quyruğu yaqutdan və digər rənglərə çalan cəvahirlərdən düzəldilmişdi. Tovuzun bədəni qızıldan və bir neçə cəvahirdən ibarət idi. Quşun bədəninin qarşı hissəsində böyük bir yaqut var idi və onun da üstündən bir mirvari asılmışdı. Sarı rəngdə olan bu yaqut 50 karat böyüklüyündə idi. Tovuz quşunun iki tərəfində gül dəstələri var idi. Bu dəstənin hər bir gülü də qızıldan düzəldilmişdi və üzərində mina işləri aparılmışdı. Taxtın qarşı tərəfinin məhəccəri cəvahirat və almazdan şəbəkə şəklində işlənilmişdi. Bu daşların hər biri 80-90 karat böyüklüyündə idi. Şəbəkənin ətrafında da yaqutlar düzülmüşdü. Şah taxtda oturanda üzü bu şəbəkəyə baxırdı.

Taxtın məhəccərinin bərkidildiyi 12 ədəd sütun böyük və girdə mirvarilərlə bəzədilmişdi. Həmin mirvarilərin hər birinin 6-10 karat böyüklüyündə olduğu bildirilir. Taxtın iki kənarında çətir quraşdırılmışdı. Çətirin dirəyi almaz, yaqut və mirvarilərlə bəzədilmişdi. Çətirin özü isə qırmızı məxmərdən hazırlanmış və onun kənarları da mirvarilərlə haşiyələnmişdi.

P.Sayks əlavə olaraq Təxti-tavusun quraşdırılıb tamamlandığını qeyd edir. Nadir şahın xəzinəsi tar-mar ediləndə Təxti-tavusun da parçalanaraq talan edildiyi güman edilir. Çünki onun hər parçası böyük qiymətə malik idi.

Nadir şahın Hindistandan gətirdiyi qiymətli əşyalardan biri də Təxti-Nadiri adlanan taxtdır. Bu taxt hazırda İstanbuldakı Topqapı muzeyində saxlanılır.Tədqiqatçılar taxtın yumurta formasında olmasını qeyd edirlər. Doğrudan da taxtın arxa söykənəcəyinin yuxarı hissəsi oval-yarımdairə şəklindədir. Ona görə də onun yumurta formasında olması qeyd olunur. Taxtın dörd qalın ayağı var. Ayaqlar ağacdan olmaqla 46 sm hündürlüyündədir. Taxtın qarşı hissəsində təkpillə şəkilli ayaqlıq vardır. Taxta oturan şəxs ayaqlarını həmin ayaqlığın üzərinə qoya bilərdi. Taxtın arxa söykənəcəyinin hündürlüyü 41 sm-dir. Söykənəcəyin arxa tərəfi cəvahirlərlə bəzədilib. İçəri tərəfdən isə cəvahiratdan və qiymətli daşlardan böyük butaları olan gül işlənmişdir. Taxtın korpusunun və ayaqlarının üzərinə qızıl çəkilib. Taxtın balışı qırmızı rəngli məxmərdən tikilib, ətrafı isə mirvarilərlə qızıl pullarla, yaqut və zümrüdlə bəzədilib (87).

Nadir şahla Osmanlı dövləti arasında sülh müqaviləsi imzalanandan sonra bu taxt Nadir şah tərəfindən Osmanlı sultanına göndərilən hədiyyələr arasında idi. Həmin hədiyyə hələ yolda ikən Nadir şah qətlə yetirildi. Osmanlı sarayı Nadir şahın hədiyyələrini qəbul etdi. Amma Osmanlı sarayından Nadir şaha göndərilən hədiyyələr yarı yoldan geri qaytarıldı. Bununla da, Təxti-Nadir Osmanlı sultanının xəzinəsinə düşdü və hazırda da Topqarı muzeyində nümayişə qoyulmuşdur.

Nadir şahın Hindistanda əldə etdiyi müharibə qənimətləri içərisindəki ən qiymətli əşya "Kuhi-Nur" (Nur dağı) adlanan almaz idi. Öz yonuluşu, rəngi, böyüklüyü etibarı ilə misilsiz olan bu almaz elə indinin özündə də dünyanın ən qiymətli daşlarından biri sayılır. M.K.Mərvi yazırdı ki, Kuhi-Nurun qiymətini Allahdan başqa kimsə qiymətləndirə bilməz (88). Bu daş dünyanın ən böyük almazlarından biridir.

Mövcud olan məlumatlara görə, Nadir şah Hindistana gələndə artıq Kuhi-Nur almazının mövcudluğu haqqında məlumata malik idi. Hindistan şahının xəzinəsini ələ keçirəndə o, Kuhi-Nurun orada olub-

olmaması ilə maraqlandı. Rəvayət xarakterli bir məlumatda bildirilir ki, Kuhi-Nur xəzinədə tapılmayanda bir müddət onun axtarışı aparıldı. Deyilənə görə bir nəfər ona xəbər verir ki, Məhəmməd şah bu almazı əyninə geydiyi enli şalvarının içində qoruyub saxlayır. Hindistan şahı da güman edirmiş ki, kimsə onun şalvarını axtarmağa cürət etməz. Belə olanda guya Nadir şah almazın ələ keçirilməsi üçün fitnəyə əl atdı. Bildirilir ki, 1739-cu ilin may ayında hakimiyyətin yenidən Məhəmməd şaha təhvil verilməsi mərasimində Nadir şah qədim ənənəyə uyğun olaraq dostluq əlaməti kimi əyinlərindəki şalvarların dəyişdirilməsini təklif etdi. Seçim imkanı olmayan Məhəmməd şah öz şalvarını Nadir şaha verməli oldu. Nadir şah öz otağına çəkilib almazı şalvarın cibində tapdı və həmin almazı görəndə heyrətə gəlib onu “Kuhi-Nur” adlandırdı. Nadir şahın bu sözündən sonra almazın adı elə Kuhi-Nur qalıb və elə indinin özündə də bu adla tanınır.

Bir daha qeyd edilməlidir ki, bu məlumat rəvayət xarakterlidir və inandırıcı görünmür. Heç şübhə yoxdur ki, Nadir şah Hindistan şahlığını Məhəmməd şaha təhvil verənə kimi bu ölkənin bütün xəzinəsini artıq ələ keçirmişdi. O cümlədən, bahalı almazları da.

Kuhi-Nur almazının harada, nə vaxt tapıldığını və kimə məxsus olduğunu söyləmək çətindir. Onun tarixi barədə müxtəlif rəvayətlər mövcuddur. Bir hind rəvayətinə görə, bu almaz günəş allahına məxsus olmuşdur. O da həmin almazı öz müridi Satracitə bağışlayıbmış. Amma onun kiçik qardaşı Perseyn bu almazı ondan oğurlayır və meşədə olarkən şir onu parçalayıb öldürür. Almaz Perseyndən alınıb Krişna allahına, o isə Satracitə verir. Lakin sonra almaz yenidən Günəş allahına qaytarılır.

Qədim hind dastanı olan “Mahabharta”ya görə bu almaz 5 min il əvvəl Günəş allahının oğlu və böyük hind cəngavəri Karnaya məxsus olmuşdu.Karna Kuhi-Nur almazının sahibi olmuş ilk şəxs kimi xatırlanır. Sonrakı dövr ərzində isə almazın kimlərin əlinə düşməsi və ümumiyyətlə onun haradan tapılması haqqında heç dastanlarda belə xatırlanmır. Bu almaz haqqında söylənilən sonrakı məlumatlarda bildirilir ki, e.ə. 100-cü ildə o, Racputanadakı hind racına məxsus olmuşdur (89).

Bildirilir ki, sonrakı dövr ərzində bu almaz müxtəlif hakimlərin əlinə düşmüşdür.Yazılı mənbələrdə Kuhi-Nur bir də XIV əsrə aid olan hadisələrlə əlaqədar xatırlanır. Burada yenə həmin almaza sahib çıxmış bir neçə hind hakiminin adı çəkilir. Sonra bir də Kuhi-Nur almazı XVI əsrə aid olan hadisələrlə xatırlanır. Həmin almaz bir neçə

hakimin əlindən keçərək nəhayət Moğol şahlarının əlinə düşür və Nadir şahın Hindistana hücumuna qədər hind şahlarının xəzinəsini bəzəyir.

Nadir şah Hindistandan gətirdiyi qənimətlərlə bərabər, qiymətli daşları, o cümlədən Kuhi-Nuru da Heratda nümayişə qoymuşdu. Nadir şahın bu almazı öz geyimində, tacında və s. istifadə etməsi haqqında mənbələrdə hər hansı bir məlumata rast gəlmək çətindir. Nadir şah bütün xəzinəsi ilə bərabər, qiymətli daşlarını da mühafizə olunmaq üçün Kelata göndərmişdi.

Məlumdur ki, Nadir şah qətlə yetiriləndən sonra onun xəzinəsi qardaşı oğlu Əliqulu xanın ( Adil şahın) əlinə keçdi. Amma tarixi ədəbiyyatda olan məlumata görə, Kuhi-Nur almazı Nadir şahdan sonra nəvəsi Şahruxun əlində idi. Ola bilsin ki, Nadir şahın qətli xəbərini eşidən kimi Şahrux Mirzə adı çəkilən almazı xəzinədən çıxara bilmişdi.

Şahrux Mirzə ikinci dəfə hakimiyyətə qayıdandan sonra əbdali əfqanlarının hakimi Əhməd xan Dürrani Xorasana hücum etdi. O, Xorasan vilayətini tutmaqla Şahrux Mirzədə olan Kuhi-Nur almazını da ələ keçirdi. Əhməd xan Dürrani Xorasanda çox duruş gətirə bilməyib yenidən Əfqanıstana qayıtdı və Kuhi-Nuru da özü ilə apardı.

Əhməd xan Dürrani öldükdən sonra Əfqanıstanda hakimiyyət və həm də Kuhi-Nur almazı onun nəvəsi Şah Şücanın ixtiyarına keçdi. Lakin Şah Şüca hakimiyyəti uzun müddət əlində saxlaya bilmədi. Onun hakimiyyətindən narazı olan əfqanlar Dust Məhəmməd Əfqanini Əfqanıstan şahı seçəndə Şah Şüca Lahora qaçmalı oldu və Kuhi-Nuru da özü ilə apardı.

Pəncab hakimi Maharaca Rancit Sinq Kuhi-Nur almazının Şah Şücada olmasından xəbər tutdu və onu tələb etdi. Mövcud olan məlumatlara görə, bu daşın ardınca Rancit Sinq özü Lahora gəldi. Şah Şüca və onun xanımı Vəfa bəyim çətin seçim qarşısında qaldıqlarını görüb öz şərtlərini irəli sürdülər. Onlar bildirdilər ki, Şah Şücanın yenidən Əfqanıstan şahlığına bərpa edilməsinə kömək göstərilsə Kuhi-Nur almazı da Rancit Sinqə verilə bilər. Rancit Sinq bu şərtlə razılaşdı. O, 1813-cü il iyulun 1-də Kuhi-Nuru təhvil aldı və Şah Şücanın Əfqanıstan şahlığına bərpa olunmasına kömək göstərdi.

Rancit Sinqin ölümündən sonra 4 il ərzində Kuhi-Nur daha bir neçə nəfərin əlinə düşdü. 1843-cü ildə bu daş Rancit Sinqin kiçik oğlu Dlip Sinqin ixtiyarında idi. 1848-ci ildə isə ingilislərlə sinqlər arasında müharibə başladı. 1849-cu ildə ingilislər bu müharibədə qalib gəlib bütün Pəncabı tutdular. İngilislər 11 yaşlı Dulip Sinqi məcbur etdilər

ki, Kuhi-Nuru onlara versin. Buna nail olan ingilislər 1849-cu ildə həmin almazı hədiyyə kimi ingilis kraliçası Viktoriyaya göndərdilər.

Kraliça Viktoriya vaxtında Kuhi-Nur almazı bir neçə dəfə yonulmaya məruz qaldı. Sonuncu yonulmadan sonra onun böyüklüyü 106 karat olmuşdur. Bu almaz indiki Böyük Britaniya kraliçası Yelizavetanın anasının tacını bəzəyirdi. Hazırda isə Kuhi-Nur almazı ilə bəzədilmiş həmin tac London qəsrindəki muzeydə saxlanılır.

Son dövrlərdə Hindistan, Pakistan və Əfqanıstan Kuhi-Nur almazına iddia qaldırmışlar. Amma bu iddialar nəticəsiz qalmışdır.

Nadir şahın Hindistanda əldə etdiyi qiymətli almazlardan biri də Dəryayi-Nur adlanır. "Aləm Ara-ye Naderi"də zərgərlərə istinadən bu almazın qiyməti haqqında belə bir fikir söylənmişdir: dörd yaşında olan bir uşağın iki misqal yarımlıq sikkəni var gücü ilə yuxarı hansı hündürlüyə ata bilsə, o hündürlüyə qədər olan qızıl topası bu almazın qiyməti ola bilər (90).

Öz rəngi etibarı ilə Dəryayi-Nur dünyanın nadir almazlarından biridir. Açıq çəhrayı rəngdə olan bu almazın elə də yaxşı yonulmadığı iddia olunur. Yonulmamışdan əvvəl bu almazın böyüklüyü 780 karat olmuşdur. Sonuncu yonuluşundan sonra isə 182 karat olmuşdur. Bu almaz hazırda Tehranda, İran Milli Bankının muzeyində saxlanılır. Nadir şahın malik olduğu üç böyük almazdan hazırda İranda mühafizə olunanı yalnız bu almazdır.

Dəryayi-Nurun da harada tapılması və hind xəzinəsinə necə düşməsi barəsində dəqiq məlumat yoxdur. Nadir şahın ölümündən sonra bu almaz da Şahrux Mirzəyə qismət oldu. Şahrux Mirzədən sonra bu almaz əvvəlcə Mir Ələm xan adlı birinin əlinə düşdü. Ondan sonra isə qacarlar sülaləsinin başlanğıcını qoymuş Məhəmməd Həsən xanın xəzinəsində öz yerini tapdı. Məhəmməd Həsən xanın öldürülməsindən sonra Dəryayi-Nurun sahibi Kərim xan Zənd oldu. Ardınca isə onun oğlu Lütfəli xan bu almazı öz xəzinəsinə qatdı. Lütfəli xan Ağa Məhəmməd xan Qacarla müharibədə məğlub olub kor edildi və Dəryayi-Nur yenidən qacarların xəzinəsinə düşdü.

Dəryayi-Nur bir müddət Nəsrəddin şah Qacarın bazubəndini bəzədi. Sonra bu almaz Nəsrəddin şahın papağına bərkidildi. Dəryayi-Nur almazı qızıl çərçivə ilə əhatə olunub. Eyni zamanda İran şahlarının emblemi olan şir və günəşin əksi xırda almazlarla Dəryayi-Nurun ətrafına həkk edilmişdir. Bu daş qacarlar xəzinəsindən İran Milli Zərgərlik muzeyinə təhvil verildi.

Nəhayət, Nadir şahın Hindistan qənimətləri içərisində öz qiyməti ilə seçilən daşlardan biri də sonradan "Orlof" adı almış almazdır. Bu

daşın haradan və kim tərəfindən tapılması və kimlərə məxsus olması haqqında da dəqiq məlumatlar yoxdur. Məlum olan odur ki, Nadir şah Hindistana hücum edəndə bu almaz hind şahlarının xəzinəsində idi. Tapıldığı vaxt Orlof almazı 300 karatlığında olub. Hazırda isə onun 193 karat olduğu bildirilir.

Azacıq mavi-yaşıl rəngə çalan Orlof almazı indi Rusiya muzeylərində saxlanılır. Məlumdur ki, Nadir şahın xəzinəsində olan bu almaz milliyətcə erməni olan Lazar adlı birisi tərəfindən Rusiyaya qaçırılmış və orada Rusiya çariçasına satılmışdı. Amma bu almazın Lazarın əlinə necə düşməsi haqqında ziddiyyətli məlumatlar vardır. Hər halda ehtimal edilir ki, Lazar öz hiyləgərliyi ilə Nadir şahın hörmətini qazana bilmiş və hətta onun xəzinəsinə yol tapmışdı. Onun Orlof almazından başqa digər qiymətli daşlar da ələ keçirməsi ehtimal olunur. Orlof almazını ələ keçirəndən sonra Lazar onu ölkədən çıxarıb satmaq fikrinə düşdü. Ölkə daxilində onu satmaq müəyyən çətinliklərlə bağlı idi. Elə almazı ölkədən çıxarmaq da asan deyildi. Belə olanda Lazar baldırını kəsib almazı ayaq ətinin arasında yerləşdirdi. Bu vəziyyətdə ölkədən çıxıb Rusiyaya qaçdı. Sankt-Peterburqda Lazar əməliyyat yolu ilə almazı baldırından çıxardı və satış məqsədilə Rusiya sarayına təklif etdi.

Rusiya çariçası Yekaterina qiymətinin bahalığına görə bu almazı almaqdan imtina etdi. Belə olanda Lazar müştəri arxasınca Amsterdama yollandı. Rusiya sarayının nüfuzlu əyanlarından olan qraf Orlov Amsterdama yollanıb almazı 450 min rubla aldı. Bu almazın 400 min rubla alınması haqqında da məlumatlar vardır. Bundan əlavə, Orlov Lazara yüksək məbləğdə pensiya kəsiləcəyini də vəd etdi. Bu pensiya ona doğrudan da kəsildi və ömürlük verildi (91).

Qraf Orlov həmin almazı Rusiya çarıçasına bağışladı və bundan sonra həmin almaz "Orlof" adı ilə tanındı. Lazar isə Nadir şah xəzinəsindən ələ keçirdiyi almazı satmaqla Sankt-Peterburqda və Moskvada özünə böyük mülklər aldı. Sonradan Moskvada Lazarev adına açılmış böyük binanın tikintisində də Orlof almazının pullarından istifadə olunmuşdur.

Nadir şah yalnız Məhəmməd şahın xəzinəsini ələ keçirməklə kifayətlənmədi.O eyni zamanda Məhəmməd şah sarayının nüfuzlu və dövlətli əyanları sayılan Səadət xanın, Xan Dövranın, Müzəffər xanın, Nizamümülkün, Qəmərəddin xanın, Benqal hakiminin xəzinəsini də ələ keçirdi. Dehlinin varlı adamları üzərinə xərac qoyuldu. Eyni zamanda Dehli əhalisindən ödənc toplanması əmr edildi. Bunun üçün Dehli şəhəri 5 məntəqəyə bölündü və Hindistan sarayının nüfuzlu əyanları

həmin məntəqələrə məsul təyin edildilər. Mövcud olan məlumata görə, Dehli əhalisindən 2 kurur məbləğində vəsait toplandı ( hər 100 min pul vahidi 1 lək və hər 100 lək bir kurur təxmin edilir-red.) Bəzi müəlliflərin fikrincə bu vəsaitlərin toplanmasında bəzən zor da tətbiq edilirdi (92).

Hind müəllifləri yazırdı ki, Əmir Teymurun Hindistana yürüşündən sonrakı 348 il (qəməri) ərzində Hindistan şahlarının topladığı zəngin xəzinə bir an içərisində öz sahibini dəyişdi (93).

Nadir şahın Hindistanda müharibə qəniməti kimi ələ keçirdiyi sərvətin ümumi miqdarı haqqında müxtəlif məlumatlar vardır. Müxtəlif müəlliflərin əsərlərində bu barədə olan məlumatlar heç də bir-biri ilə eynilik təşkil etmir. Hər halda bəllidir ki, Hindistan sarayı nümayəndələrinin və Nadir şah tərəfindən də inanılmış adamların iştirakı ilə Nadir şaha təhvil verilən xəzinənin, var-dövlətin, hədiyyələrin və digər qiymətli əşyaların hesabatını aparan komissiya təşkil edildi. Bu komissiya toplanan sərvətin hesabatının aparılması ilə 22 gün məşğul oldu və iş tamam olandan sonra hazırlanmış siyahı Nadir şaha təqdim olundu. Mövcud olan bir məlumata görə, Məhəmməd şahın xəzinəsindən və Hindistan əyanlarından əldə edilən sərvətin ümumi məbləği aşağıdakı kimi idi: Hindistan şahına və şahzadələrinə məxsus olan cəvahirlər və qiymətli daşlar – 937500000 riyal, Təxti-tavus, digər 9 ədəd taxt və zərlə bəzədilmiş əşyalar – 337500000 rial, Məhəmməd şahın özü tərəfindən təqdim edilmiş padşah xəzinəsinin daş-qaşı – 353750000 rial, Hindistan şahının xəzinəsinə məxsus qiymətli kitablar – 112500000 rial, qiymətli metallardan olan qablar (sonradan əridilib sikkə kəsildi) – 187500000 rial, zərlə bəzədilmiş qiymətli parçalar – 75000000 rial, müharibə təchizatı: top, tüfəng, qılınc, nizə və s. – 37500000 rial, maxaracların, vilayət hakimlərinin və sərkərdələrin hədiyyələri – 750000000 rial, hind qoşunlarının zabitlərinə məxsus olan əşyalar – 150000000 rial, Müzəffər xanın hədiyyəsi – 150000000 rial, Nüzamülmülk və Qəmərəddin xanın hədiyyəsi – 110000000 rial, hind sipəhsaları Xan Dövranın ailə üzvlərinin hədiyyəsi – 37500000 rial, Səadət xanın əmlakı – 11250000 rial, bütünlükdə isə 3250000000 (üç milyard 250 milyon) rial (94)

Nadir şahın əldə etdiyi qiymətli əşyaların içində qiymətli kitablar da var idi. Bu kitabların həm hazırlanmasına çoxlu qiymətli əşyalar sərf edilmişdi, həm də mövzu baxımından onlar nadir kitablar idilər. Deyilənə görə onların sayı 60 min ədədə çatırdı və bir çoxlarını Nadir şah şəxsən hind xəzinəsindən seçib götürmüşdü. Həmin kitablar Məşhəddəki İmam Rza kitabxanasına və Tehrandakı şah kitabxanasına ba-

ğışlandı (Şahidlərin ifadəsinə görə Məşhəddəki İmam Rza kitabxanasında Nadir şahın Hindistandan gətirdiyi güman edilən kitablar yoxdur - M.S.).

Nadir şahın əlinə keçən hərbi təchizatın içində isə 200 ədəd ağır topun, 1000 baş filin, 1700 atın, 10 min baş dəvənin olduğu bildirilir. Məhəmməd şah özünün şah qvardiyasından min nəfər seçib ən yaxşı atlarla birlikdə Nadir şah qvardiyasının tərkibinə verdi. Bundan başqa 100 nəfər xacə, 130 nəfər yazıçı, 200 dəmirçi, 300 bənna, 100 nəfər daşyonan və 220 nəfər nəccar seçilib Nadir şahla göndərildi (95).

Bir başqa müəllifin yazdığına görə, Nadir şahın Hindistanda əldə etdiyi var-dövlətin miqdarı belə idi: Hindistan şahı və şahzadələrinə məxsus qiymətli əşyalar – 187 kurur tümən, Təxti-tavus və digər qızıl əşyalar və silahlar – 67 kurur 250 min tümən, qızıl və gümüş əşyalar – 187,5 kurur tümən, qızıl və gümüş qablar – 37,5 kurur tümən, qiymətli parçalar 22,5 kurur tümən, silahlar və digər müharibə təchizatı – 7,5 kurur tümən (96).

Bu məlumat C.Frezerə məxsusdur və bir çox tədqiqatçılar Hindistandan gətirilən var-dövlət haqqındakı məlumatlarda ona istinad etdikləri nəzərə alınsa, güman etmək olar ki, yuxarıdakı rəqəmlər də bu rəqəmlərin riyalla ifadəsidir.Frezerin işlətdiyi tümən vahidi əgər Nadir şah dövrünün tümənidirsə, onda müqayisəli şəkildə Nadir şahın var-dövləti haqqında da ümumi bir təsəvvür əldə etmək olar. Məlumdur ki, Nadir şah öz sərkərdələrinə çox yüksək maaş verirdi. Yüksək maaş alan minbaşının aylıq maaşı 1000 tümən idi. Əgər 1000 tümən bir şəxsin yaşayış ehtiyaclarını təmin edirdisə, onda görmək çətin deyil ki, Nadir şahın Hindistan qənimətləri çox-çox böyük miqyasda idi.

C.Hanvey Nadir şahın Hindistandan gətirdiyi sərvəti aşağıdakı kimi qiymətləndirir: Hindistan şahına və hind əyanlarına məxsus cəvahirat – 15 kurur rupi, Təxti-tavus, 9 ədəd digər taxt, silah-sursat və cəvahiratla bəzədilmiş qablar – 9 kurur rupi, sikkə kəsilməsi üçün əridilmiş qızıl və gümüş qablar – 30 kurur rupi, müxtəlif qiymətli əşyalar – 2 kurur rupi, toplar, hərbi ləvazimat və digər qiymətli təchizat – 3 kurur rupi (97). C.Hanveyin sadaladığı rəqəmlərin cəmi 70 kurur rupi edir. L.Lokkart da öz əsərində belə bir rəqəm göstərəndə çox güman ki, C.Hanveyə istinad etmişdi. Digər şərq və qərb müəlliflərinin fikrincə isə Nadir şahın Hindistandan gətirdiyi var-dövlətin miqdarı aşağıdakı kimi idi: Məhəmməd Əli Füruğiyə görə 300 kururdan 500 kurura qədər, İqbal Aştiyaniyə görə 300-750 kurur tümən, Abdulla Razi Həmədaniyə görə 400-800 kurur tümən, Ser Con Malkolma görə 70 milyon ingilis lirəsi, Persi Sayksa görə 90 milyon

ingilis lirəsi, Dülafüzə görə 33 milyon ingilis lirəsi, general Kişmişova görə 300 milyon hind rupisi, Edvard Brauna görə 87,5 milyon ingilis lirəsi, Minorskiyə görə 110 milyon hind rupisi (98).

C.Frezer eyni zamanda yazırdı ki, Nadir şahın Hindistan yürüşü nəticəsində Hindistana dəyən xəsarət 750 kurur tümən idi. Həmin xəsarətin 520 kurur tümənini Nadir şahın ələ keçirdiyi var-dövlət təşkil edir. Nadir şah qoşunlarının ayrıca Hindistandan topladığı var-dövlət 75 kurur tümən təşkil edirdi. Hindistana yürüş üçün qoşunlara çəkilən xərc isə 150 kurur tümən idi (99). Qeyd etmək lazımdır ki, bu rəqəmlər bir qədər şişirdilmiş görünür.

Nadir şah Hindistandan geri qayıdarkən Sind vilayətindən də böyük var-dövlət ələ keçirdi. Əvvəlcə, bu vilayətin hakimi barışıq üçün Nadir şaha çoxlu hədiyyələrlə bərabər 100 min tümən pul göndərdi. Nadir şah həmin hədiyyəni qəbul etsə də bildirdi ki, göndərilən pul heç qoşunların nal xərcini ödəmir və ondan əlavə ödənc istədi. Bu zaman ona xəbər çatdırıldı ki, Ömərkut qalasındakı dərin bir quyuda yerli hakim tərəfindən 500 min tümən gizlədilmişdir. Nadir şah dərhal xüsusi dəstə göndərib həmin vəsaiti aşkara çıxardı və ələ keçirdi (100).

Nadir şah Hindistan yürüşündən elə böyük bir qənimətlə qayıtdı ki, səxavət göstərib ölkə əhalisini üç ilik vergilərdən azad etdi. Doğrudur, Nadir şah sonradan bu qərarının icrasını vaxtından əvvəl dayandırdı. Amma həmin qərarını dayandırmasaydı belə xəzinədə topladığı var-dövləti ölkənin bir neçə illik məsrəflərini ödəməyə yetərdi.

Nadir şah 1740-cı il iyun ayının ortalarında Herata çatdı və məlumdur ki, orada Hindistandan gətirdiyi sərvətləri nümayişə qoydu. Nadir şah Hindistandan gətirdiyi var-dövlətdən 120 min riallıq cəvahirat seçib Hindistanda qələbə çalması xəbəri ilə Rusiya çariçası İkinci Yekaterinaya, 400 min riallıq cəvahirat isə Osmanlı sarayına göndərildi (101). Osmanlı sarayına ünvanlanan hədiyyələr isə Nadir şahın həyatının sonlarına yaxın, iki dövlət arasında sülh müqaviləsi imzalanandan sonra göndərildi. Nadir şahın bu hədiyyələrinə Hindistandan gətirilən və qiymətli daşlarla bəzədilən bir ədəd taxt və bir neçə fil də daxil idi.

Nadir şah Hindistan yürüşünü başa çatdırandan sonra Buxara və Xarəzmə yürüş etdi. Uğurla başa çatan bu yürüşdə də Nadir şah çoxlu qənimət ələ keçirdi. Yuxarıda qeyd edildiyi kimi, Nadir şaha Buxarada verilən hədiyyələr içində Əmir Teymura məxsus bir qılınc və Çingiz xana məxsus bir zirehli dəbilqə də var idi (102). Xarəzm ha-

kimi İlbars xan məğlub ediləndən sonra onun Xanəgah qalasındakı zəngin xəzinəsi də Nadir şahın əlinə keçdi.

Ümumiyyətlə, məlumdur ki, Hindistan yürüşündən sonra Nadir şahın sərvət toplanmasına bağlılığı daha da artdı. Rzaqulu Mirzənin kor edilməsindən sonra onda baş verən psixoloji sarsıntılar Nadir şahın əvvəlki mənəvi dəyərlərinə də müəyyən təsir göstərdi. Ola bilsin ki, Nadir şah rastlaşdığı sarsıntıları topladığı var-dövlətlə aradan qaldırmaq istəyirdi. Hindistan və Türküstan yürüşlərindən sonra Dağıstana olan yürüş və Osmanlı qoşunları ilə aparılan yeni döyüşlər Nadir şahın qənimətlərini daha da artırdı. Bunlardan əlavə, ömrünün son illərində vilayətlərdən vergilərin toplanmasına qarşı Nadir şahın tələbkarlığı xeyli artdı. Məlum olduğu kimi Nadir şah vilayətlərin maliyyə işlərini şəxsən yoxlayır, iti zəkası ilə vergilərin toplanmasında ola biləcək əyintiləri dərhal müəyyən edir və bunda günahı olanlara son dərəcə ağır cəzalar verirdi.

Bir çox tədqiqatçılar müxtəlif hesablamalar apararaq belə bir fikir irəli sürürlər ki, Nadir şahın ölkə daxilində topladığı vergilər qoşunların saxlanması üçün zəruri olan xərcləri çətinliklə ödəyirdi (103). Amma bu zaman  qoşunların sayı xeyli şişirdilmiş şəkildə - 200 min nəfərdən yuxarı göstərilir. Əslində isə, Nadir şah zəngin bir xəzinəyə malik idi. Bu xəzinə o qədər zəngin və böyük idi ki,  Nadir şah hətta onu saxlamağa da çətinlik çəkirdi. Nadir şahın həkimi olmuş keşiş Bazen yazırdı ki, Hindistandan qayıdandan sonra o bir müddət öz xəzinəsini Məşhəddə, sonra isə Qəzvində saxladı (104). Sonra isə Nadir şah xəzinəsini Kelata köçürməyi qərarlaşdırdı. Çünki Kelat əlverişli coğrafi məkanda yerləşirdi və təbii şəraitindən istifadə etməklə böyük xəzinəni orada daha etibarlı mühafizə etmək mümkün idi.

Nadir şah xəzinəsini saxlamaq üçün Kelatda xüsusi bir bina tikdirdi. Bu binanın tikilməsinə Hindistandan gətirilmiş ustalar cəlb edildi. Binanın tikintisinə çox böyük mərmər parçaları işlədildi. Onlardan bəzilərinin ağırlığı hətta 14-17 tona çatırdı (105). Bu daşlarla yuxarı dırmanmaq və onu yarmaq çox çətin ola bilərdi. Tarixçilərin fikrincə Nadir şah elə möhkəm bir bina tikdirdi ki, həmin dövrün hərbi potensialı ilə onu ələ keçirmək belə qeyri-mümkün idi.  Nadir şah xüsusi tikdirdiyi binanın içərisində saxladığı xəzinəsinin təhlükəsizliyini təmin etmək üçün başqa tədbirlərə də əl atdı. M.K.Mərvi yazır ki, Nadir şah  həmin binanın tamamlama işlərinin başa çatması ərəfəsində 4 nəfər xacə ilə binaya baxış keçirdi. Bu zaman bina üzərində yüz nəfər usta və bir neçə iş icraçısı işləyirdi. Xəzinəsinin harada gizlədilməsi sirrinin yayılmaması üçün Nadir  şah həmin ustaları və iş

icraçılarını qətlə yetirdi. Sonra isə yanındakı xacələrin də qətlinə fərman verdi və binanın mühafizəsinə tamamilə yeni adamlar gətirdi. O, daşyonanlara və ustalara tapşırıq verdi ki, binanın üstündə tikildiyi dağın sıldırım ətəkləri xüsusi olaraq yonulsun və kimsə həmin sıldırım ətəklərdən yuxarı dırmaşa bilməsin. Eyni zamanda binanın bürcləri üzərində silahlı mühafizəçilər yerləşdirdi. Bu mühafizəçilər yaxınlıqda gördüyü hər bir adama dərhal atəş açmalı idi. Bununla, Nadir şah xəzinəsinin gizlədildiyi binanın təhlükəsizliyini təmin etdi. Binaya aparan yolu tapmaq da çətinləşdirilmişdi. M.K.Mərvi yazır ki, Nadir şahın xəzinəsini saxladığı bina Allahın yaratdığı bir bina idi. Onun tayı-bərabəri nə yerdə var idi, nə də bu dünyada (106).

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Larudi N. Nader şah, pesər-e şəmşir. Tehran, 1383, s.249
2. Moqtəder Q. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.160
3. Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1383, s.320-321
4. Qodusi M. Nadername. Xorasan, 1339, s.505
5. Локкарт Л. Надир шах. Баку, 2004, с.187
6. Qodusi ... s.504
7. Hanvey C. ... s.322
8. Larudi N. ... s.251
9. Qodusi ... s.505; Larudi N. ... s.251
10. Hanvey C. ... s.322; Qodusi ... s.494
11. Moqtəder Q. ... s.158
12. Mərvi M.K. Aləm Ara-ye Naderi. C.I, Tehran, 1384, s.13
13. Yenə orada, s.94
14. Yenə orada, c.II, s.724
15. Yenə orada, s.719
16. Yenə orada, c..I, s.161
17. Qodusi ... s.581
18. Aləm Ara-ye Naderi, c.I, ... s.15-16
19. Yenə orada
20. Yenə orada
21. Yenə orada, c.II, s.799, 820, 827
22. Qodusi ... s. 580
23. Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.179-180
24. Aləm Ara-ye Naderi, c.I, ... s.301
25. Yenə orada c.II, ... s.719
26. Aləm Ara-ye Naderi, c.II, ... s.720, 729; Flor U. Hokumət-e Nader şah. Tehran, 1368, s.66
27. Aləm Ara-ye Naderi, c.I, ... s.96
28. Yenə orada. s.84
29. Aləm Ara-ye Naderi, c.I, ... giriş hissəsi, s. çehel
30. Yenə orada, c.II, ... s.796
31. Yenə orada. c.I... s.405; C.III, ...s. 1066
32. Yenə orada, c.II, ... s.797
33. Qodusi .. s.501
34. Локкарт Л. Надир шах. Баку, 2004, с.327
35. Yenə orada
36. Aləm Ara-ye Naderi, c.II, ... s. 717

37. Qodusi ... s.498
38. Yenə orada, s.498-499
39. Moqtəder Q. .. s.189; Qodusi ... s.496
40. Malkom Ser Con. İran dər zəman-e Nader şah. Tehran, 1383, s.263; Sayks Persi. Tarix-e İran. C.II, Tehran, 1381, s.365; Hanvey c. ... s.163; Nader şah. Axərin keşvərqoşa-ye.... s.161
41. Nader şah. Axərin keşvərqoşa-ye ... s.300
42. Yenə orada, s.350
43. Aləm Ara-ye Naderi, c.I, ... s.169, 200; C.II, ... s.726
44. Локкарт Л. Надир шах. Баку, 2004, с.34
44a. Aləm Ara-ye Naderi, c.I, ... s.202-203; Şəbani R. Tarix-e ectimai-ye İran dər əsr-e Əfşariyye. Tehran, 1373, s.253-254
45. Moqtəder Q. ... s.189
46. Aləm Ara-ye Naderi, c.II, ... s.663
47. Malkolm S.C. ... s.266
48. Moqtəder Q. ... s.189
49. Nader şah. Axərin keşvərqoşa-ye ... s.168; Локкарт Л. Надир шах. ... s.333
50. Nader şah. Axərin ... s.356
51. Hanvey C. ... s.161-162
52. Nader şah. Axərin ... s.369
53. Hanvey C. ... s.233
54. Arunova M.R., Əşrəfyan K.Z. Doulət-e Nader şah Əfşar. Tehran, 1352, s.109
55. Aləm Ara-ye Naderi, c.II, ... s.886
56. Yenə orada, c.III, .. s. 921
57. Yenə orada, s.924
58. Hanvey C. ... s.263-265
59. Aləm Ara-ye Naderi, c.III, ... s. 926,929
60. Yenə orada, s.983
61. Yenə orada, s.984
62. Yenə orada, s.984-988
63. Nader şah.Axərin ... s.547
64. Yenə orada, s.578
65.Yenə orada, s.579
66. Hanvey C. ... s.264;
67 Yenə orada, s.264-265
68. Локкарт Л. Надир шах. Баку, 2004, с.335
69. Yenə orada

70. Arunova M.R., Əşrəfyan K.Z. Doulət-e Nader şah Əfşar. Tehran, 1352, s.106
71. Aləm Ara-ye Naderi, c.I, ... s. 410
72. Yenə orada, s.411
73. Yenə orada, c.III, ... s.1086
74. Hanvey C. ... s.262,310
75. Yenə orada, s.310
76. Semnani P. Nader şah. Baztab-e həmmase və facee-ye melli. Tehran, 1375 s.253
77. Şəbani R. ... s.253
78. Aləm Ara-ye Naderi, c.I,... s.201
79. Yenə orada, s.244
80. Yenə orada, s.373
81. Yenə orada, c.II, ... s.566
82. Yenə orada, s.739
83. Yenə orada
84. Yenə orada, c.II ... s.741
85. Larudi N. Nader, pesər-e şəmşir. Tehran, 1383, s.189
86. Sayks P.... s.376-377; Tehrani M.Ş. ... s.331-332
87. Nader şah və bazmandeqanəş. Tehran, 1368, s.351-352
88. Aləm Ara-ye Naderi , c.II, ... s.740
89. Sayks P. ... s.691; Larudi ... s.186
90. Aləm Ara-ye Naderi , c.II, ... s.740
91. Базиянц А.П. Правда интереснее легенд. М., 1975, с.63
92. Tehrani M.Ş. Tarix-e Nader şah. Nadername. Tehran, 1349, s.334; Hanvey C. Zendegi-ye Nader şah. Tehran, 1383, s.226-229; Nader şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384, s.429
93. Nader şah. Axərin keşvərqpşa-ye ... .430
94. Larudi ... s.181
95. Yenə orada s.187
96. Frezer C. Tarix-e Nader şah Əfşar və moxtəsəri əz tarix-e səlatin-e moğol dər hend. Tehran, 1363, s.139
97. Hanvey C. ... s.230
98. Larudi... s.183
99. Frezer C. ... s. 138
100. Aləm Ara-ye Naderi , c.II, ... s.760
101. Nader şah. Axərin keşvərqoşa-ye .. s.481; Larudi ...s.187
102. Aləm Ara-ye Naderi , c.II, ... s.794

103. Moqtəder Q. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383, s.178; Şəbani R. Tarix-e ectemai-ye İran dər əsr-e Əfşariyye. Tehran, 1373, s.222
104. Padəri Bazen Ferənsəvi. Nameha-ye təbib-e Nader şah. Tehran, 1365, s.23
105. Nader şah. Axərin keşvərqoşa-ye ... s.576
106. Aləm Ara-ye Naderi , c.III ... s.1089

# NƏTİCƏ

Beləliklə, mənbələrin və tarixi ədəbiyyatın araşdırılması bütün aydınlığı ilə sübut edir ki, Nadir şah orta əsrlər hərb tarixinin ən parlaq simalarından biridir. O, bəşər tarixinin Makedoniyalı İsgəndər, Əmir Teymur kimi sərkərdələrinin Asiyadakı uğurlarını təkrar edərək özünə Asiyanın sonuncu böyük fatehi kimi bir ad qazanmışdı. Bu insanın heyrət doğuracaq fəaliyyəti elə indinin özündə də hərb işinin davamçılarının heyranlıqla öyrəndiyi və müraciət etdiyi qiymətli bir mirasdır.

Nadir şah fatehlik və sərkərdəlik əzəməti ilə hərbə yeni məzmun gətirən bir şəxsiyyətdir. O, məğlubedilməzlik simvoluna çevrilməklə hərbi peşəkarlığı ən yüksək zirvəyə çatdıra bildi. Nadir şah üçün mümkünsüz olan bir hərbi tapşırıq yox idi. Hətta insan zəkasının təsəvvür edə bilməyəcəyi qərarları qəbul edərək onların icrasında çox böyük məharət, ustalıq və əzmkarlıq nümayiş etdirən Nadir şah müasirləri üçün əlçatmaz olan məqsədlərə çox asanlıqla çatırdı. Məhz bunun nəticəsi idi ki, Nadir şah Səfəvi dövlətinin az qala yarıya qədər əldən getmiş ərazilərini geri qaytardı, Yaxın Şərqi öz imperiyasına qatmış Osmanlı dövlətinin hərb maşınının qarşısını saxladı, sürətlə güclənməkdə olan Rusiya dövlətini onunla hesablaşmağa məcbur etdi, Hindistanı, Əfqanıstanı və Türküstanı fəth etdi və özünün yeni imperiyasını yaratdı.

Nadir şah böyük bir imperiyanın şahı olsa da, dünya tarixində daha çox əzəmətli fateh və məğlubedilməz sərkərdə kimi tanınır. Səfəvi dövlətinin ucqar vilayətində, öz yurdundan sürgün edilmiş sadə bir əfşar ailəsində doğulmuş Nadir şahın nizamlı bir hərbi təlim görmədən dünyanın tanınmış sərkərdələrindən birinə çevrilməsi heyrət və təəccüb doğurmaqda davam edir. Çoxları bunun səbəbini anlamağa çalışırlar və tarixi ədəbiyyatda da bu məsələ ilə bağlı müxtəlif mülahizələr özünə yer tapmaqdadır.

Hər şeydən əvvəl Nadir şahda hələ uşaqlıq yaşlarından fitri hərbi istedad var idi. Yaşadığı mürəkkəb mühit, qohum-əqrəbasının, yurddaşlarının daim məruz qaldığı talançı basqınlarının qisasını almaq istəyi bu istedadın əməli fəaliyyətə çevrilməsinə bir təkan verdi. Nadir şah gəncliyində belə yaxşı anlayırdı ki, qərar tutduğu mühitdə hətta

sağ qalmaq üçün və yaxınlarının təhlükəsizliyini təmin etmək üçün qılınca sarılmalı və bu zaman onun uğuruna yol aça biləcək daha səmərəli təşəbbüskarlığın məhrumiyyətlərinə də qatlaşmalıdır. Bu istiqamətdə nümayiş etdirdiyi əzmkarlığı, təşəbbüskarlığı və bir də malik olduğu fiziki keyfiyyətlər gənc Nadirin qarşısına qoyduğu məqsədlərin reallaşmasına bir zəmin yaratdı.

Nadir şah doğrudan da çox güclü fiziki keyfiyyətlərə malik idi. Boyu, qolunun gücü və yorulmazlığı onun döyüşçü kimi formalaşmasının ilkin şərtləri idi. Nadir şah aylarla-illərlə düşərgə həyatını keçirməyə qadir idi. Qolunun gücü isə qarşısına çıxan düşmənə dəhşətli anlar qismət edirdi. Malik olduğu fərdi keyfiyyətləri ona ən ağır döyüşlərin mərkəzində qərar tutmağa və qoşunlara nümunə olmağa imkan verirdi.

Nadir şah hətta fiziki keyfiyyətlərini strateji səviyyəyə qaldıra bilmişdi. Səfəvi dövlətinin işğal olunmuş ərazilərinin azad olunmasında, böyük imperiyanın yaradılmasında Nadir şahın şəxsi şücaəti əlbəttə ki, aparıcı amillərdən biri idi. Hamıya məlumdur ki, Əfşarlar dövləti məhz Nadir şahın qılıncının üzərində bərqərar olmuşdu və onun qətli ilə də bu dövlət tənəzzülə uğradı.

Ölkənin şahı olmaq etibarilə Nadir şah dövlətinin hərbi-siyasi strategiyasının müəyyənləşdirilməsində həm azad idi, həm də dövlətin bütün potensialını bu strategiyanın həyata keçirilməsinə səfərbər edə bilmişdi. Yəni, bu prosesin özündə bir çeviklik var idi və dövlətin bütün imkanlarının onun əlində cəmləşməsi hərbi-strateji vəzifələrin həll edilməsindəki bürokratikliyi aradan qaldırırdı.

Bununla belə, Nadir şahın sərkərdəliyini parladan başlıca olaraq onun taktikasının zənginliyi idi. Bu baxımdan Nadir şah hərb tarixinə yeni bir məzmun gətirdi, taktiki məharəti sənətkarlıq səviyyəsinə qaldırdı və bununla da qarşısına qoyduğu məqsədlərə nail olunmasında mütləq nəticələr əldə etdi.

Nadir şahın taktikasını ümumiləşdirərkən onun bir sıra xarakterik cəhətlərini qeyd etmək mümkündür. Bu cəhətlərdən biri Nadir şahın taktikasında zaman amilidir. Sürət, çeviklik, gözlənilməzlik və s. Nadir şahın qələbələrinə zəmin yaradan dəyərli məqamlardır. Özü də bu məqamlar istər qərar qəbul edilməsində, istər döyüşün aparılmasında, istərsə də döyüşün hazırlanmasında özünü göstərirdi. Məsələn, Nadir şah döyüş qərarlarının qəbul edilməsində böyük operativlik göstərirdi və qısa zaman ərzində də qüvvələrini həmin döyüşə səfərbər edirdi. Qərar qəbul edilməsində və ya əməli fəaliyyətə başlanmasında tərəddüdlük göstərilməsini Nadir şah bağışlanmaz hesab edirdi. Onun

fikrincə, döyüşqabağı və ya döyüşdə tərəddüd keçirmək məğlubiyyətin başlanğıcı idi.

Nadir şahın sürətində bir peşəkarlıq və məharət var idi. Döyüşlərin sürəti onun düşmənlərinə göz açmağa imkan verməzdi. Məhz bu yolla düşmənin nizamı pozulur, onun müvafiq qərar qəbul etməsinə imkan vermədən ən həssas nöqtələrinə güclü zərbə vurulur və bununla da döyüşün taleyi həll edilirdi. Hətta geri qaçan düşmən qüvvələrinin təqibində də sürət amili Nadir şaha dəfələrlə qələbə gətirmişdi.

Hərbi marşların icrası zamanı da xüsusi və məqsədyönlü sürət və gözlənilməzlik nümayiş etdirilirdi. Bu baxımdan Nadir şahın Hindistan səfəri xüsusi ilə xarakterikdir. Arzu edilən sürətə nail olmaq üçün keçilməz yüksəkliklərə üz tutur, şam işığında dağları aşırdı. Bu da Nadir şaha ən az itkilərlə düşmənini qəfil haqlamağa və onu üstələməyə imkan verirdi.

Nadir şah qısa zaman ərzində bu və ya digər istiqamətdə qüvvə üstünlüyünü yaratmaqla zərbəsinin kəsərliliyini də artırırdı. Hər zaman qoşun daxilində olması və düşərgə həyatı keçirməsi də əmrlərinin qısa zaman ərzində qoşunlara çatdırılmasında əhəmiyyət kəsb edirdi.

Nadir şah taktikasının başqa bir xarakterik cəhəti məkan amili ilə bağlıdır. Bu məqam hər döyüşdən qabaq dəqiqliyi ilə götür-qoy edilir və məkan amilinin qələbənin əldə edilməsinə göstərəcəyi təsirlər dəqiqliyi ilə nəzərə alınırdı. Burada həm döyüş meydanının seçilməsi, həm qüvvələrin yerləşdirilməsi, düşmənə zərbə istiqamətlərinin seçilməsi və s. elementlər nəzərə alınırdı. Hücumun gözlənilməzliyinin əldə edilməsi və düşmənə endirilən zərbənin təsir gücünün artırılması üçün ən sərt və inanılmaz coğrafi maneələrin dəf edilməsindən çəkinməzdi. Nadir şah çox vaxt düşmənin gözləmədiyi istiqamətdən hücuma keçməklə əslində döyüşün taleyini həll etmiş olurdu. Özü də bu zaman Nadir şah sayı 100 minə çatan qoşunu, bu qoşunun ağır təchizatını da həmin maneələrdən adlada bilirdi. Bu baxımdan Nadir şah dünya hərb tarixinin nadir şəxsiyyətlərindən sayıla bilər.

Nadir şah döyüş meydanını seçərkən qüvvələrinin geniş manevrlər etmək imkanını, ehtiyat qüvvələrin eşelonlaşdırılmasını, pusquların yerləşdirilməsini, cinahların mühafizəsini və s. məsələləri nəzərə alırdı. Düşərgələrin qurulması zamanı da adətən müəyyən bir təcrübəyə əsaslanılırdı. Hətta döyüş meydanının ərzaq və su mənbələrinə yaxın olması da Nadir şahın diqqətindən qaçmırdı. Bütün hərbi qüvvələr döyüş meydanında Nadir şahın niyyətinə əsasən yerləşdirilir və onlara verilən tapşırıqlarda ərazinin coğrafi xüsusiyyətləri də nəzərə alınırdı.

Nadir şah özü isə elə bir nöqtədə dayanırdı ki, oradan döyüşün gedişini aydın şəkildə müşahidə etsin, lazım gələndə lazımi istiqamətlərə yeni qüvvələr daxil etsin.

Nadir şah açıq sahələrdəki döyüşlərə üstünlük verir, qala döyüşlərindən çəkinməyə və qalada gizlənən qarşı tərəfi də açıq döyüşə sövq etməyə çalışırdı.

Nəhayət, Nadir şah taktikasının önəmli xarakterik xüsusiyyətlərindən biri də insan amilinin layiqincə nəzərə alınması idi. Qoşunlara qatılmış olan döyüşçülərin mənəvi-psixoloji durumu, fiziki qabiliyyəti və əzmkarlığı Nadir şah tərəfindən yüksək qiymətləndirilən cəhətlər idi. Nadir şah ənənəvi şah həyat tərzi ilə döyüşçü həyat tərzi arasındakı məsafəni xeyli yaxınlaşdırmışdı. Nadir şah aylarla, illərlə döyüşçüləri kimi düşərgə həyatı yaşayırdı, onların qatlaşdığı məhrumiyyətlərə qatlaşırdı, özünə qarşı onlarda bir inam yaradırdı. Nadir şah da döyüşçülərinə inanırdı, əzmkarlıq göstərən döyüşçülərini hətta döyüşü uduzsa belə son dərəcə yüksək qiymətləndirirdi, onlarda daxili inamı və mübarizliyi oyada bilirdi. Sədaqət, əzmkarlıq və intizam nümayiş etdirən döyüşçü Nadir şah üçün əziz insan idi. Amma bu tələblərə laqeydliklə yanaşan döyüşçü Nadir şahın son dərəcə ciddi cəzalarına tuş gəlirdi.

Nadir şah öz sərkərdələrində hərb işinə dərin bir həvəs yarada bilmişdi, onların təşəbbüsskar fəaliyyətinə geniş meydan açmaqla bir sərkərdə kimi formalaşmasında həmişə maraqlı idi. Nadir şahın təşkilatçılıq istedadı da məhz sərkərdələri vasitəsilə həyata vəsiqə alırdı.

Nadir şahın qoşunları daim yeniləşirdi və təzələnirdi. Xüsusi hərbi təlim görməmiş 10 minlərlə döyüşçünü Nadir şah məharətlə idarə edir və onların potensialını çox böyük ustalıqla amansız döyüş zərbəsinə çevirə bilirdi.

Bütünlükdə, döyüş zamanı qoşunların idarə edilməsini Nadir şah sənətkarlıq səviyyəsinə qaldıra bilmişdi. İti zəkası ilə Nadir şah ani bir zamanda döyüş meydanında nə baş verdiyini və nə baş verə biləcəyini dəqiqliyi ilə müəyyənləşdirir və dərhal da müvafiq addımlar atırdı.

Amma onu da nəzərə almaq lazımdır ki, Nadir şah dövrünün və mühitinin yetirməsi idi. O, ətrafında cərəyan edən hadisələrdən, baş verən çəkişmələrdən və fitnə-fəsadlardan lazımınca baş çıxara bilmədi ki, bu da onun həyatının faciəli sonluqla başa çatmasına səbəb oldu.

Bununla belə, Nadir şah dünya hərb tarixinin əzəmətli fatehi olaraq qalmaqdadır.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATIN SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan tarixi. Bakı, 1994
2. Azərbaycan tarixi. C.III. Bakı, 1999
3. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951
4. Cavanşir M.C. Qarabağ tarixi. Bakı 1959
5. Dəlili H.Ə. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1979
6. İsmayılov M. Şəki. Bakı, 1982
7. Qarabağnamələr. Birinci kitab. Bakı, 1989
8. Qarabağnamələr. İkinci kitab. Bakı, 1991
9. Şəki xanlığı tarixindən. Bakı, 1993
10. Tahirzadə Ədalət. Nadir şah. www.tehsil.20m.com/maqala/maq5-1/htm; www.geocities.com/book433/nadershah.htm ;


## Rus dilində


11. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией . Баку, 1969
12. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1964
13. Амирбекова Н. Вопросы военной истории Азербайджана в период ханств. Баку, 2004
14. Базиянц А.П. Правда интереснее легенд. М., 1975, с.63
15. Бакиханов А. Гюлистани Ирам. Б., 1991
16. Бескровный Л.Г. Русская армия и флот в XVIII в. М., 1958
17. Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. Т.1, СпБ, 1869
18. Галоян Г.А. Россия и народы Закавказья. М., 1976
19. Езов Г.А. Сношения Петра Великого с армянским народом. СпБ, 1882
20. Кононов Г.К. Армяне в России. С.627-628. См: Братская помощь пострадавшим в Турции армянам. Ч.11, 1897

21. Лысцов В.П. Персидский поход Петра I. 1722-1723. М., 1951
22. Локкарт Л. Надир шах. Баку, 2004
23. Мамедова Г. Русские консулу об Азербайджане. 20-60-е годы XVIII века. Баку, 1989
24. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отнощения в первой трети XVIII в. Баку, 1993
25. Мухаммад Казим. Поход Надир шаха в Индию. М., 1961
26. Парсамян В.А. Участия польских армян в восстании Давид бека. Ереван, 1962
27. Сотавов Н.Н. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях XVIII в. М., 1991

## Fars dilində

28. Arunova M.R., Əşrəfyan K.Z. Doulət-e Nader şah Əfşar. Tehran, 1352
29. Asef, Mirzə Məhəmməd Haşem. Rostəm-üt təvarix. Tehran, 1379
30. Astrabadi Mirzə Mehdi xan. Tarix-e cəhanqoşa-ye Nader-i. Tehran, 1368
31. Astrabadi M.M. Zərre-ye Naderi. Tehran, 1341
32. Babayi, Qulam Rza Əli. Tarix-e Ərteş-e İran əz həxamənşi ta əsr-e Pəhləvi. Tehran, 1382
33. Bəyani X, Tarix-e nezami-ye İran. Dövre-ye Səfəviyye. Tehran, 1353,
34. Cəmşidi Məhəmmədhüseyn. Məbani və əndişe-ye nezami dər İran. Tehran, 1380
35. Du Serso. Soqut-e Şah Soltan Hoseyn. Tehran, 1363, s.31-32
36. Ədibüşşüəra Mirzə Rəsid. Tarix-e Əfşar. Tehran, 1346
37. Əfrasiyabi B. Oqab-e Kelat. Tehran, 1371
38. Əlirza Əfşar Cem. Şir-i ba şəmşir. Tehran, 1383
39. Flober Uilyam. Hokumət-e Nader şah. Tehran, 1386
40. Flor Vilyam. Bər oftadan-e Səfəviyan, bər amədən-e Mahmud əfqan. Tehran 1365
41. Frezer Ceymz. Tarix-e Hader şah Əfşar və moxtəsəri əz tarix-e səlatin-e moqol dər hend. Tehran, 1363
42. Hanvey C. Hocum-e əfqan və zəval-e doulət-e Esfəhan. Tehran, 1367
43. Hədis-e Nader şah. Tehran, 1376

44. Həmle-ye əfqanan və entexab-e Təhmasib Mirzə be velayətəhdi. Bax: Həzin Şeyx Məhəmməd Əli. Səfərnamə, s.127. Bax: Nader şah. Tehran, 1369
45. Homayun H.T. Təhəvvolat-e qanun dər tarix-e moaser-e İran. Tehran, 1376
46. Kevr Jan. Xace-ye tacdar. Tehran, 1366
47. Kəşmiri Əbdükərim. Bəyan-e vaqe. Lahor, 1970
48. Krosinski T. Ebrətnamə. Təbriz, 1363, s.23
49. Larudi Nurulla. Nader şah pesər-e şəmşir. Tehran, 1383
50. Lokkart L. Nader şah. Tehran, 1331
51. Lokkart L. Enqeraz-e selsele-ye Səfəvi. Tehran, 1344
52. Malkom Ser Con. Tarix-e İran. Tehran, 1383
53. Mərvi, Məhəmməd Kazım. Aləm Ara-ye Naderi. C.I, II, III Tehran, 1358
54. Müqtədir Qulam Hüseyn. Nəbərdha-ye bozorg-e Nader şah. Tehran, 1383
55. Mirzə Məhəmməd Haşem Asef. Rüstəm-ət-təvarix. Tehran, 1379
56. Müvərixdövlə Sepəhr. Rövzətüssəfa. Bax: İran dər zəman-e Nader şah. Tehran, 1362
57. Mətufi Ə. Tarix-e çahar hezar sale-ye ərteş-e İran. Tehran, 1387
58. Nader Şah. Axərin keşvərqoşa-ye Asiya. Tehran, 1384
59. Nader şah əz nəzər-e xavərşenasan. Tehran, 1339
60. Naser Fərid. Nəqş-e ərteş dər təhəvvolat-e tarixi-ye İran. Tehran, 1383
61. Nəcmi Naser. Nader şah.Oqab-e Kelat. Tehran, 1382
62. Nəfisi Səid. Tarix-e ectimai və siyasi-ye İran dər doure-ye moaser.C.I, Tehran, 1376
63. Otter Jan. Səfərname-ye əsr-e Nader. Tehran, 1366
64. Qodusi Məhəmməd Hüseyn. Nadername. Xorasan, 1339
65. Qozide-ye mənşəat-e Mirzə Məhəmməd Mehdi xan Astrabadi, monşi-yol məmalek-e Nader şah Əfşar. Tehran, 1383
66. Padəri Bazen Feransəvi. Nameha-ye təbib-e Nader şah. Tehran, 1365
67. Perri Con. Kərim xan Zənd. Tehran, 1365
68. Pənahi Məhəmməd Əhməd. Nader şah. Tehran, 1382
69. Sayks P. Tarix-e İran. C.II , Tehran, 1381
70. Semnani Pənahi. Nader şah . Baztab-e həmmase və facee-ye melli. Tehran, 1368
71. Sərdadvər Əbuturab. Tarix-e nezami və siyasi-ye douran-e Nader şah Əfşar. I cild, Tehran, 1378

72. Şəbani Rza. Müxtəsər tarix-e İran dər doureha-ye Əfşariyyə və Zendiyye. Tehran, 1378
73. Şəbani Rza. Tarix-e təhəvvolat-e siyasi və ectimai-ye İran dər doureha-ye Əfşariyye və Zendiyye. Tehran, 1378
74. Şəbani Rza. Tarix-e ectimai-ye İran dər ərse-ye Əfşariyye. Tehran, 1373
75. Şəmim Ələsgər. Əz Nader ta kudəta-ye Rza xan Mirpənc. Tehran, 1368,
76. Tarix-e İran. Tehran, 1353
77. Tehranı Məhəmməd Şəfi. Tarix-e Nader şah. Nadername. Tehran, 1349
78. Tehrani Məhəmməd Şəfa. Tarix-e Nader şah. Tehran, 1349
79. Təbatəbayi, Seyid Cavad. Soqut-e Esfəhan be rəvayət-e Krosinski. Tehran, 1381

8033. Xaterat-e təbib-e məxsus Nader. Bax: Əfrasiyabi B. Oqab-e Kelat. Tehran, 1371, s.803-849



**Şah Sültan Hüseyn**




**Nadirin cavanlığı**



**Nadir şah**



**Nadir şah**



**Nadir şah**



**Nadir şah və övladları**



**Nadir şahın Hindistan səfəri**



**Nadir şah**



Iranian Historical Photographs Gallery : www.fouman.com

**Nadir şah**



**Nadir şahın büstü**



**Nadir şahın əlyazısı**



**Nadir şah**



**Nadir şah**




**Muğan qurultayı**




Nadir şahın səhra düşərgəsi





**Nadir şahın adına vurulmuş sikkələr**



**Nadir şahın məqbərəsinin ilkin görünüşü**



## MÜNDƏRİCAT

**GİRİŞ.** ....................................................................................3
**I FƏSİL. NADİR ŞAHIN UŞAQLIQ VƏ GƏNCLİK HƏYATI** ..................................................................7
1.Nadirin doğulduğu mühit.............................................................7
2.Nadir şahın uşaqlıq və gənclik illəri..........................................17
Istifadə olunmuş mənbə və ədəbiyyat..........................................43

**IIFƏSİL. NADİR ŞAHIN GƏNCLİK DÖVRÜNDƏ SƏFƏVİLƏR DÖVLƏTİNİN VƏZİYYƏTİ**.....................47
1.Səfəvilər dövlətinin daxili vəziyyəti..........................................47
2.Gilzayi əfqan tayfalarının Səfəvi hakimiyyətinə qarşı qiyamı..........................................................................................61
3.Səfəvi-Rusiya münasibətləri.......................................................90
4.Səfəvi-Osmanlı münasibətləri..................................................106
İstifadə olunmuş mənbə və ədəbiyyat.........................................118

**III FƏSİL. HAKİMİYYƏTƏ APARAN YOL**.......................124
1.Nadirin II Təhmasiblə birləşməsi...............................................124
2. Nadirin əfqanlara qarşı mübarizəsi..........................................138
3.Nadirin gilzayi əfqanlarına qarşı mübarizəsi............................155
4. Nadirin Osmanlı qoşunlarına qarşı döyüşləri..........................174
5.Əbdali əfqanlarna qarşı yeni döyüşlər.....................................189
6.Nadir-Şah Təhmasib münasibətlərinin kəskinləşməsi. Şah Təhmasibin taxtdan salınması...................................................206
7.Osmanlı qüvvələrinə qarşı döyüşlərin yeni mərhələsi.............217
8.Fars qiyamının yatrılması..........................................................252
9.Nadirin Qafqaz yürüşləri...........................................................255
İstifadə olunmuş mənbə və ədəbiyyat........................................280

**IV FƏSİL. HƏRBİ VƏ SİYASİ HAKİMİYYƏTİN İTTİFAQI** ...................................................................292
1.Muğan qurultayı və Nadirin şah elan edilməsi........................292
2.Qəndəharın ələ keçirilməsi........................................................310
3.Nadir şahın Hindistan yürüşü...................................................329
4.Nadir şahın Türküstan yürüşü...................................................390

5. Nadir şahın Dağıstan yürüşü..............................................407
6.Nadir şah və Osmanlı münasibətlərinin davamı...................421
7.Nadir şah dövrünün iğtişaşları..............................................448
İstifadə olunmuş mənbə və ədəbiyyat.....................................481

**V FƏSİL. NADİR ŞAHIN ÖLDÜRÜLMƏSİ** .....................495
1. Nadir şaha qarşı həyata keçirilmiş sui-qəsdlər.....................495
2.Nadir şahın qətli.................................................................. 502
3.Nadir şah dövlətinin süqutu...................................................518
İstifadə olunmuş mənbə və ədəbiyyat.....................................528

**VI FƏSİL. NADİR ŞAHIN QOŞUNLARI** ..........................531
1.Piyada və süvari qüvvələri....................................................536
2.Hərbi-dəniz qüvvələri...........................................................555
3.Səfərbərlik və təchizat məsələləri..........................................566
İstifadə olunmuş mənbə və ədəbiyyat.....................................590

**VII FƏSİL. NADİR ŞAHIN XANƏDANI** ...........................595
1.Nadir şahın valideynləri və xanımları...................................595
2.Rzaqulu Mirzə.......................................................................609
3.Nəsrulla Mirzə.......................................................................638
4.İbrahim xan...........................................................................645
İstifadə olunmuş mənbə və ədəbiyyat.....................................657

**VIII FƏSİL. NADİR ŞAHIN FİZİKİ VƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİ** .....................................................661
1.Nadir şahın fiziki və mənəvi keyfiyyətləti.............................661
2.Nadir şah və din....................................................................678
3.Nadir şahın var-dövlət toplanmasına münasibəti və xəzinəsinin taleyi...............................................................693
İstifadə olunmuş mənbə və ədəbiyyat.....................................708

**NƏTİCƏ** ..........................................................................713

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATIN SİYAHISI** .....................................................................717

Kitabın nəşrinin maliyyələşdirilməsində göstərdiyi yardıma görə
**Loğman Süleymanova** dərin təşəkkür ifadə olunur.

سلیمانوف، مهمان.
(نادیرشاه)/ مهمان سلیمانوف . – قم: نگار اندیشه، ۱۳۸۸.
۷٤۰ ص. : مصور، عکس
ISBN: 978-600-91345-8-8
فهرست نویسی بر اساس اطلاعات فیپا.
زبان: ترکی آذربایجانی(خط سیریلیک)
کتابنامه: ص.۷۱۷-۷۲۰؛

۱. نادرشاه افشار، شاه ایران، ۱۱۰۰ – ۱۱٦۰ق. ۲. ایران – تاریخ – افشاریان، ۱۱٤۸–۱۲۱۸ق. الف عنوان.
۲ ن ۸س / DSR ۱۲٦٥ ۹٥٥/۰۷۲۲۰۹۲

انتشارات نگار اندیشه

عنوان: نادیر شاه
مؤلف: مهمان سلیمانوف
ناشر: نگار اندیشه ۰۲۵۱-۷۳۰۱۵۸۰
لیتوگرافی چاپ، صحافی: نوید اسلام
نوبت چاپ: اول – زمستان ۸۸
شمارگان: ۱۰۰۰ نسخه
شابک: ۹۷۸-۶۰۰-۹۱۳۴۵-۸-۸

مرکز پخش: پاساژ قدس، طبقه همکف، پلاک۱۱۱، انتشارات نوید اسلام
تلفن: ۷۷٤۳٤۶۲

Mehman Süleymanov

NADİR ŞAH

TEHRAN 2010